İSSN 2218-7588
E- ISSN 2219-5513

LANGUAGE AND LİTERATURE
ЯЗЫК И ЛИТЕРАТУРА
DİL VƏ ƏDƏBİYYAT

BEYNƏLXALQ ELMİ-NƏZƏRİ
ЖУРНАЛ
1(124)

BAKI -2024

İSSN 2218-7588

E- ISSN 2219-5513

DİL

VƏ

ƏDƏBİYYAT

LANGUAAGE AND LİTERATURE **ЯЗЫК И ЛИТЕРАТУРА**

Beynəlxalq elmi –nəzəri jurnal

Elektron versiyası **Электронная версия**

1(124)

Jurnal
1993-cü ildən çıxır

– 2024 –

REDAKSİYA HEYƏTİ - РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

==========

UMUMİ DİLÇİLİKОБЩЕЕ ЯЗЫКОЗНАНИЕ:	**Prof. Ə Rəcəbli-məsul redaktor** **Prof. N.Məmmədli**
ŞƏRQŞÜNASLIQ VƏ İLAHİYYAT **ВОСТОКОВЕДЕНИЕ И ТЕОЛОГИЯ:**	**Prof. R.Rüstəmov–məsul redaktor** **Prof. M.Kazımov** **Dos. A.Məmədova**
AZƏRBAYCAN DİLÇİLİYİ: **АЗЕРБАЙДЖАНСКОЕ ЯЗЫКОЗНАНИЕ:**	**Prof. E.Əzizov** **Prof. T.Hacıyev** **Prof. S.Abdullayeva** **Dos. Ə.Agakişiyev** **Dos. M. Əlizadə**
AZƏRBAYCAN ƏDƏBİYYATI: **АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРА**	**Dos. E.Məmmədov-məsul redaktor** **Dos. Ə.Nəcəfzadə**
ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ: **ТЕОРИЯ ЛИТЕРАТУРЫ:**	**Akad. N.Paşayeva-məsul redaktor** **AMEA müx.üzvü, prof.T.Mütəllimov**
TÜRKOLOGİYA: **ТЮРКОЛОГИЯ:**	**Akad. N.Cəfərov – məsul redaktor** **Fil.f.dok., dos. N.Hüseynova** **Fil.f.dok. R.Bayramov**
JURNALİSTİKA: **ЖУРНАЛИСТИКА:**	**Prof. Q.Məhərrəmli – məsul redaktor**
RUS FİLOLOGİYASI: **РУССКАЯ ФИЛОЛОГИЯ:**	**Prof. Ə.Paşayeva** **Prof. L.Əhmədova** **Prof. M.Cəfərov** **Prof. L.Quliyeva-məsul redaktor**
QƏRB FİLOLOGİYASI : **ЗАПАДНАЯ ФИЛОЛОГИЯ:**	**Prof. N.Vəliyeva-məsul redaktor** **Prof. C.Nağıyev** **Prof. B.İsmayılov** **Dos. E.Fərəcullayeva-məsul redaktor** **Dos. R.Xəlilov**
PEDAQOGİKA VƏ PSİXOLOGİYA:	**Prof. S.Mirzəyev** **Prof. R.Hüseynzadə** **Dos.S.Abbasova - məsul redaktor** **Dos. L.Ələkbərova**
İNSANŞÜNASLIQ **ЧЕЛОВЕКОВЕДЕНИЕ:**	**RTA müx.üzvü., prof. C.M.Mallaev** **Prof. P.Omarova** **Prof. M.Seyidova**
KİTABŞÜNASLIQ **КНИГОВЕДЕНИЕ:**	**Prof. X.İsmayılov-məsul redaktor** **Dos.M.Məmmədov** **Dos.K.Aslan**

Baş redaktor: dos. T.Cəfərli. Baş redaktorun müavinləri: dos. L.Ələkbərova, fil.f.dok. R.Bayramov
Xarici əlaqələr üzrə müavin: dos. N.Əfəndiyeva. Məsul redaktor: dos. F.Əlizadə
Məsul katib: Pərvin Eyvazov. Administrator: C.T.Əliyev
Redaksiyanın ünvanı: Bakı AZ1073, Z.Xəlilov23. BDU, Filologiya fakültəsi. Tel. 050 287 10 14
Jurnalın elektron ünvanı: http://philology.bsu.edu.az/az/content/dil_v_dbiyyat_beynlxalq_elminzri_jurnal

DİLÇİLİK – ЯЗЫКОЗНАНИЕ.....*5-159*
G. MƏMMƏDOVA. Müasir ingilis dilində kleft cümlələr və onların növləri.....5
A, YUNUSOV. Türk dilində reklam mətnlərinin linqvistik xüsusiyyətləri.....9
S. BAĞIROVA. Müasir İngilis dilində inkar əvəzliklərinin struktur-semantik xüsusiyyətləri.....13
N. RZAYEVA. İngilis dilinin Avstraliya ləhcəsi və onun başqa variantlardan fərqli xüsusiyyətləri.....16
L. HÜSEYNOVA. İnformasiya axını dövründə İngilis dilindən Azərbaycan dilinə tərcümə prosesində morfoloji transformasiya....19
S. ABBASOVA. Avşar etnonimi haqqında.....22
T. NAĞIYEVA. Ərəb-fars dil xüsusiyyətlərinin Azərbaycan dilinin cümlə quruluşuna təsiri.....25
X. SÜLEYMANOVA. Müasir dilçilikdə ədəbi-bədii diskurs.....29
F. MƏMMƏDOVA. Leksik alınmalar: əsas anlayışlar və mülahizələr.....33
N. ƏLİYEVA. İnternet diskursunda ixtisarlar və qısaltmalar..... 39
Y. SÜLEYMANOV. İngilis və Azərbaycan dillərində ismin hal kateqoriyasının funksional və sintaktik təsnifatı.....42
X. İBRAHİMOVA. Tərcümənin növləri və onların faydaları.....45
G. NƏSİBOVA. Azərbaycan dilində genetik antonimlər.....48
S. İSAYEVA. Linqvistik qənaət prinsipində abreviasiyanın rolu.....52
A.QASIMOVA- MUSTAFAYEVA. Ramiz Rövşənin nəsr dilində morfoloji paralelizm ənənələrinin poetik mənzərəsi.....56
S. ƏSGƏROVA. Azərbaycan dilində morfoloji yolla yaranan diplomatik leksika.....61
N. ADIGÖZƏLOVA. XX əsrin axırı – XXI əsrin əvvəlində dilçiliyin inkişafə haqqında.....64
Q. RÜSTƏMOVA. Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində alınma sözlərin rolu.....68
R. CƏFƏROV, A.HACIYEVA, Müxtəlifsistemli dillərdə modallıq kateqoriyasının leksik-semantik, struktur xüsusiyyətləri.....72
A. PAŞAYEVA. XV əsr Azərbaycan ədəbi dilində frazeologizmlərin struktur-semantik xüsusiyyətləri.....75
R. KARAKOÇ ƏBDUL. Cüttərkibli cümlələrin dialoji mətnin yaranmasında rolu.....79
A. YUSİFOVA. Nitq mədəniyyətinin ümumi məsələləri və natiqlik sənətinə tarixi aspektdən baxiş.....83
A. MƏMMƏDOVA. Aciz "Divan"ında sinonim feillər.....86
V. ABIYEVA, A, SƏFİXANOVA. İngilis dilində hal və vəziyyət bildirən sözlər və onların işlənmə yeri.....89
F. QURBANZADƏ. İnternet dilçiliyi və insan-kompüter ünsiyyətinə keçid.....92
N. HƏSƏNOVA. Müasir dilçilikdə sözönülərin cümlənin formalaşmasında və mənimsənilməsində rolu.....95
İ. SƏRDAROVA. Dilçilikdə aktant anlayışı.....98
E. ƏLİYEVA. Semantik sintaksisin bəzi məsələləri.....101
У. АЛИЕВА. Функционирование глаголов несовершенного вида русского языка в связном тексте.....105
А. КЯЗИМОВА. Семантические и структурные особенности антропонимов в произведениях М.А.Булгакова...108
F. NAMAZOVA. Rəsul Rzanin şeirlərində morfoloji üsulla yaranan neologizmlər.....112
Y. NURİYEV. İngilis dilində inversiya.....115
N. SEYİDZADƏ. XIX əsrdə Azərbaycanda yaranmiş dilçilik əsərləri.....119
A. NİFTALİYEVA. Alman dilində köhnə və yeni sözlərin spesifik xüsusiyyətləri.....122
F. RZAYEVA. "Allahin gözəl adları" haqqında bəzi qeydlər.....126
S. HACIYEVA. Nitqdə omonimlərin rolu.....131
A. NAMAZOVA. Phonetic and lexicological features of oghuz and kipchak languages.....135
Ə. MƏMMƏDOVA. Puştu və fars dilinin samitlər sistemi müqayisə müstəvisində 138
T. ƏLİYEVA. "Kitabi-dədə Qorqud" dastanının dilində sait və samit səslərin yaratmış olduğu fonetik hadisələr.....142
R.ƏSƏDOVA.İngilis dilində davamedici və bitmiş tərz formalarının fərqləndirilməsinə dair fikirlər.....147
T. ƏSGƏROVA. Türk mənşəli şəkilçilər vasitəsi ilə düzələn ismi və feili söz yaraiciliği.....158
L. ƏLİYEVA. İngilis dilində "if" bağlayıcılı şərt budaq cümlələrinin qrammatik işlənmə xüsusiyyətləri.....155
ƏDƏBİYYATŞÜNASLIQ-ЛИТЕРАТУРОВЕДЕНИЕ.....*160-.205*
G. ƏLİYEVA. Y. Balasaqunlunun "Qutadğu bilig" əsərinə nəzər.....160
A. RƏSULOVA. Gi de Mopassan yaradıcılığında "Orlya"nin yeri.....164
С. АБУШОВА. Пространственно-временной аспект повести А.Платонова «Котлован».....167
İ. SƏFƏRZADƏ. Roman janrı: müharibə və qadın..... 170
J. NAĞIYEVA. "Kitabi-Dədə Qorqud" dastanında Humay quşu ilə bağlı mifin izləri.....174
S. ALTAYLI. "Kitabi-Siretün-Nebi"də və göylə bağlı ifadələrdə dini-mifik anlayış.....177
S RƏHMANOVA. Məhəmməd Füzuli türkdilli klassik poeziyanın banilərindən biri kimi.....181
N. ELDAROVA. "kəmalüddövlə məktublari" əsərində tənqidin mahiyyəti.....1.84
M. ASLANLI. Mücadiləyə və qanlı qovğalara səsləyən çağırışlar.....187
R. MƏMMƏDOVA. Əli Əmirli komediyalarında dövrün bədii-estetik təcəssümü.....190
Г. САНАНИ. Гениальный поэт и мыслитель, корифей мировой литературы – Мухаммед Физули.....194
İ. ƏHMƏDOVA. Yusif Səmədoğlu yaradıcılığında magik realizm ünsürləri.....199
T. BAĞIROVA. Sərraf Qasımın ömür yolu.....203
YURNALİSTİKA-ЖУРНАЛИСТИКА.....*205-209*
S. ƏLİYEVA. XIX əsrin sonu, XX əsrin əvvəllərində mətbuat. felyeton janri.....205
PEDAQOGİKA-PSİXOLOGİYA, ПЕДАГОГИКА-ПСИХОЛОГИЯ *210-295*
M. İSMİXANOV, N, İMAMVERDİYEVA. Təlim prosesində müəllimin rolu və peşə səriştələri.....210
V. ABIYEVA, A. SƏFİXANOVA A.QADAŞOVA.Müasir ingilis dilində inkarlıq bildirən bağlayıcılar..... 214
E. ASLANZADƏ. İbtidai sinif şagirdlərinin ədəbi tələffüz vərdişlərinin inkişaf etdirilməsi yolları.....217
A. MƏMMƏDOVA. Theimportance of teaching pronunciation.....220
S. ALLAHVERDİYEVA. Keyfiyyətli təhsil və müəllim hazırlığı.....224
Н. МИКАИЛОВА. К вопросу о формировании социальной активности личности..... 226
Л. МУРАДОВА. Формирование первичных речевых умений и навыков при обучении второму языку.....231
Л. АЛЕКПЕРОВА. К.вопросу активизации речевой деятельности обучающихся на втором языке.....234
Т. ДЖАФАРЛИ. Проблемы методики преподавания второго языка в Азербайджане.....237
З. МАСИМОВА. Некоторые актульные вопросы обучения студентов-азербайджанцев русскому языку.....241
M. ABDULLAYEVA. İbtidai siniflərdə ifadəli oxu bacarıqlarının inkişaf etdirilməsi.....244
K. VƏLİYEVA. İngilis dili dərslərində interaktiv təlim metodu və inniovativ xarakterli üsullarin tətbiqi.....248
S. MUSTAFAYEVA. Azərbaycan dilinin tədrisi məsələləri 1980-ci illərin metodik əsərlərində.....251
S. SADIQOVA. İbtidai sinif şagirdlərində orfoqrafik vərdişlərin formalaşdırılması.....255
N. MİRZƏLİYEVA. Xarici dillərin tədrisi prosesində IKT və interaktiv təlim üsullarından istifadə edilməsi qaydaları.....258
Э. КЕРИМОВ, Х. ТАГИЕВА. О принципах отбора дидактического материала при обучении РКИ 261
T. MƏHTIYEVA.The reading, writing, speaking and listening skills in the english classes 265
L. MİKAYILZADƏ. 1946-1979-CU illər İran ictimai - siyasi həyatında Güney Azərbaycan təhsili və mədəniyyəti 272

M. İSMAYILOVA. Çoxmənali sözlərin dialoqlarda tətbiqi....276
Д. МУСТАФАЕВА. Вводные слова, сочетания и предложения на занятиях по развитию культуры речи....279
M. HACIYEVA. Bədii təsvir vasitələrinin tədrisində istifadə olunan metod, priyom və vasitələr....282
E SÜLEYMANOV. Tarih eğitimi öğrencilerinin komşu imajına yönelik görüşleri-....285
Г. РАСУЛОВА. Письменная речь как коммуникативная потребность в различных ситуациях 290
F.BAĞIROVA. Xarici dilin tədrisində şifahi nitqin rolu....294
KİTABŞÜNASLIQ-КНИГОВЕДЕНИЕ....*296-298*
S. QULİYEVA. Kitabşünaliğin inkişafında müstəsna rolu olan alim....296
MƏRUZƏ VƏ MƏQALƏLƏR – ДОКЛАДЫ И СТАТЬИ....*299-504*
L, ATAMOVA, Mədəniyyətlərarası səriştənin inkişafında yeni texnologiyalar dil öyrənmə vasitəsi kimi....299
A.YUSIFOVA,T.ƏLİZADƏ. Avropa dillərindən Azərbaycan dilinə tərcümədə antroponim və toponim sözlərin transliterasiyası..302
M. ÖZEREN, G. BULUT. Kazak destanlarında kutsal hayvanlar....305
İ. VƏLİYEVA, K. HÜSEYNOVA. İngilis dilinin Kanada variantının onomastikasında alınma sözlərin leksik-semantik 310
Ş. HEYDƏROVA, S. HACIYEVA. Müasir ingilis dilində kəmiyyət kateqoriyasının leksik-semantik xüsusiyyətləri....313
D. ƏLƏSKƏRLİ. Orta ümumtəhsil məktəblərində orfoqrafiya və orfoepiya təliminin məqsəd, vəzifə və prinsipləri....316
F. QARAYEVA. Azrbaycan dili sintaksisinin inteqrativ əsaslı tədris imkanları....318
G. AXUNDOVA. Şagird nailiyyətlərinin qiymətləndirilməsinin əsas xüsusiyyətləri....321
G. MƏHƏRRƏMOVA. Müasir Azərbaycan və İngilis dillərində sifətin dərəcələrinin müqayisəli xarakteristikası....324
F, ABDULLAYEVA. İngilis dilində təşirli və təsirsiz feillərin sadə cümlə tərkibində leksik-semantik xüsusiyyətləri....327
Z. ZEYNALOVA, Ə. HÜSEYNOVA. İngilis və Azərbaycan dillərində antonimlərin leksik-semantik və struktur xüsusiyyətləri....330
H. YUSİFOV, B. QƏDİMOVA. Azərbaycan dilində inkarlıq konstruksiyaları....333
K. TAPDIQOV. Müasir "Azərbaycan dili" dərsliklərinin didaktik imkanları....336
S. AĞALAROVA. Özünüqiymətləndirmə formativ qiymətləndirmənin tərkib elementi kimi....339
S. TAĞIZADƏ.Mirzə İbrahimovun "Pərvanə" romanında leksik yolla yaranan onomastik vahidlər....342
A. SAFIXANOVA, V. ABIYEVA. Innivative changes in the stylistuc system of english linguistics....345
A. AĞAYEVA. Mirzə Ələkbər Sabir yaradıcılığında nidalar....348
Z. CƏFƏRLİ. Mustafa Zəririn "Yusif və Züleyxa" poemasında işlənən omonimlər....351
G. İSMAYILOVA. İngilis dilinin distant tədrisinin linqvodidaktik məsələləri....354
F. QARAYEVA. Azrbaycan dili sintaksisinin inteqrativ əsasli tədris imkanları....356
S. FƏRZƏLIYEVA. Orfoqrafiya termini və orfoqrafik lüğət anlayışı....359
A. İBRAHİMLİ. Alman dilində sintaktik yolla yaranan mürəkkəb sözlər....362
S. AĞAMƏMMƏDOVA. Şəxs əvəzliklərinin leksik semantik və morfoloji 365
Л. ГУЛИЕВА. Изучение темы «Возвратные глаголы» в иностранной аудитории на начальном этапе обучения….....368
A. MƏMMƏDOVA. Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığının bəzi xarakterik cəhətləri....372
İ. QƏRİMOVA. Seçmə və ayrıcı sual cümlələrində nüvə tonlarının işlənməsinə dair....375
Ə. İBRAHIMOVA. Knut Hamsunun "Pan" povestində "mən" problemi....378
F. QƏDİMOVA. Konsept linqivistik tədqiqat müstəvisində....382
S. AĞAMƏMMƏDOVA. Qeyri-müəyyən əvəzliklər: leksik-semantik və morfoloji xüsusiyyətlər....385
И. КУЛИЕВА, М. САДЫХОВА. Методические положения, раскрывающие категорию коммуникативности....388
R. ABIYEVA. Azərbaycan ədəbiyyatında alleqoriya və janr xüsusiyyətləri....392
N. BAXŞALIYEVA. M. Axundzadənin dram əsərlərində tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasindaki məna əlaqələri..395
A. BAYRAMOVA. Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığının öyrədilməsi imkanları....398
N. MƏMMƏDOVA. Yusif Vəzir Çəmənzəminli hekayələrində qadın azadlığı probleminin psixoloji məqamları....401
Ф.ЯГИБЕКОВА. Единство в воспитании: роль семьи,школы и общества в формировании личности....404
C. ASLANOVA. Anarın nəşrində "Altıncı mərtəbə"nin əlçatmaz kamilliyi problemi....407
N. QƏDİRLİ. Məhəmməd İqbal yaradıcılığında Şərq və Qərbin gündəmə gətirilən əsas problemləri və həlli yolları....410
K. RƏHİMLI. Cümlə üzvlərinin sintaktik təhlilinin tədrisi....413
A, MƏMMƏDZADƏ. Bədii əsərin ideya-mövzu xüsusiyyətləri və bu xüsusiyyətlərin Orta məktəb dərsliklərində təqdimi....416
H. MURADOVA. M. Füzuli şeirində Yusif peyğəmbərlə bağlı motivlər (Hədiqətüs-süəada əsəri əsasında)....419
Ş. ƏSƏDLI. Dram əsərlərinin tədrisi və onların bədii-estetik tərbiyədə rolu....423
A. ATLIXANLI. Məsud Səəd Salmanın həyat və yaradıcılığı....426
Ş. ƏSƏDLI. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərində maarifçilik görüşləri....429
Ş. MƏMİŞOVA. Frazeoloji birləşmələrin tədrisində fənlərarası və fəndaxili inteqrasiyadan istifadə....432
M. BABAZADƏ. Baş üzvlərin tədrisinə dair....436
M. BABAZADƏ. Zərfliklərin müqayisəli şəkildə tədrisi yolları....440
L. XƏLİLZADƏ. Ərəb dilində siyasi istiarələrin ifadə formaları....444
A. ƏLİYEVA. Ərəb dilində əsl zərflər haqqında....447
Z, MAYILOV. Linqvopoetikanın dilçilik sistemində yeri və mahiyyəti....450
Ə. ZEYNALOVA. Ərəb yazısı və onun xüsusiyyətləri....454
S. ASLANOVA. Köhnəlmiş sözlərin tədrisi yollari....457
R. ABBASLI. İmadəddin Nəsiminin divanında /ab/ fars sözü ilə işlənən tərkiblər....460
S. ASLANOVA. Nitqin inkişafında omonim, sinonim və antonimlərin tədrisinin rolu....463
Ş. YUSIFLI. Farsdilli qaynaqlarda "Şahmat" oyunu və onun leksik fəzası ilə bağlı qeydlər....466
G. TAROYEVA. "Min bir gecə" nağıllarının təşəkkülü....469
S. SEYIDOVA. Mirzə Şəfinin "Kitabi-türki" dəsrliyində metodiki görüşləri....471
A. MƏMMƏDOVA. Xətib Təbrizinin təqdimatında şeirin qüsurları....474
Ş. MƏMMƏDOVA . Xanimana Əlibəylinin poemalarında folklor motivləri....478
C. İSMAYILZADƏ. Nizami Gəncəvi və Məhəmməd Füzuli yaradıcılığında "Leyli və Məcnun" mövzusu....483
A. ALCANOVA, Z. HÜSEYNOVA. İngilis dilində elmi-texniki tərcümənin leksik və qrammatik problemləri....486
Г. БАБАЕВА. Проблема мужского и женского дискурса в свете межкультурной прагматики....489
R. ABIYEVA. Q.Zakir təmsillərində alleqoriya və tənqid hədəfləri....492
Р. ГУСЕЙНОВА. Литературный дискурс в контексте гибридизации дискурсивных практик....494
A. ABDULLAYEVA. Ümumi real məkan bildirən sözlərin linqvokulturologiyası ("Kənd" və "Şəhər" konseptləri)....499
L. CUMAYEVA. Tədris prosesində oxuyub anlamada konseptual inteqrasiyanin rolu....503

Güllü Məmmədova [1]

MÜASİR İNGİLİS DİLİNDƏ KLEFT CÜMLƏLƏR VƏ ONLARIN NÖVLƏRİ

Diskursda iştirak edən elementlərdən hansınısa daha emfatik etmək, dinləyicinin diqqətinə daha yaxşı çatdırmaq üçün qrammatikada müxtəlif üsullardan istifadə olunur. Məsələn: inversiya vasitəsilə, qüvvətləndirici ədatlar, əmr cümlələrində əvəzlik və ya köməkçi feildən istifadə etməklə və s. Bu üsullardan biri də kleft cümlələrin vasitəsilə emfatikliyə nail olmaqdır. Digər dilçilik konsepsiyaları kimi, kleft cümlələr də dilçilikdə vaxtaşırı yenidən işlənmiş, müxtəlif nöqteyi-nəzərdən, məsələn: sintaktik, praqmatik və semantik cəhətdən tədqiq olunmuşdur.

Kleft cümlələri ona görə müvafiq və maraqlı mövzu hesab edib tədqiq etməyə qərar verdik ki, bu mövzu dilçilikdə nisbətən az işlənmiş mövzudur. Kleft cümlələr terminini ilk dəfə N. Xomskinin əsərlərində rast gəlinir, amma əsasən son dövr dilçiləri bu mövzuya diqqət yetirməyə başlamışlar. Bunlardan O. Yesperson, A.Kalud , K.Lambrext və digərlərini misal göstərə bilərik.

İngilis dili kleft tipli cümlələrlə çox zəngindir. Kleft cümlə Azərbaycan dilinə bəzən "bölünmüş cümlə", bəzən "yarıq cümlə" kimi tərcümə olunur. İngilis dilində kleft cümlə sadə cümlənin bir hissəsini və ya hər hansı bir sözü vurğulamaq üçün cümləni mürəkkəb formaya çevirərək yenidən ifadə etməkdir. Bu tip cümlə quruluşu əsasən *it* əvəzliyi ilə başlayır və cümlə təyin budaq cümləsi ilə davam edir. Belə cümlələr "yalançı mürəkkəb cümlələr" də adlandırıla bilər. Belə mürəkkəb cümlələrdə, cümlələrin biri məhz mənanı qüvvətləndirmək üçün istifadə olunur. Misallara nəzər salaq:

Tom had brought the book.
Those girls had cooked the dinner.

Verilən nümunələrdə sadə cümlələr işlənmişdir. Amma birinci cümlədəki *Tom* və ikinci cümlədəki *those girls* sözlərini daha emfatik etmək, onları oxucunun diqqətinə daha yaxşı çatdırmaq üçün transformasiya vasitəsilə təyin budaq cümləli mürəkkəb cümlələr alınır. Nəticədə isə aşağıdakı kimi cümlələr alınır ki, bunlara da kleft cümlələr deyilir. Adətən belə cümlələr formal *it* əvəzliyi ilə başlayır.

It was Tom who had brought the book.
It was those girls who had cooked the dinner.

İngilis dili qrammatikasında kleft cümlələr o konstruksiyalara deyilir ki, cümlədə hansısa element öz normal vəziyyətindən çıxarılır, ayrıca bir cümlə şəklində verilir ki, bu da cümlənin daha emosional ifadə olunmasına şərait yaradır. İngilis dilində kleft cümlələr *a cleft construction, a cleft sentence* və ya *a cleft clause* terminləri adı altında tədqiq olunur.

Kleft cümlələr müxtəlif mətn tiplərində, yəni həm yazılı, həm də şifahi nitqdə işlədilir. Son tədqiqatlar göstərir ki, it-kleftlər əsasən yazıda işlədilir, onlar şifahi nitq üçün xarakterik deyil.

XX əsrdə dilçi alim O. Yesperson bu cümlə modellərinə diqqət yetirmişdir. O. Yesperson *it* kleft cümlələrini özünün 1965-ci ildə yazdığı "Modern English Grammar" kitabında təsvir etmişdir. Amma bu kitabda o, bu cümlələri kleft cümlələr adlandırmamışdır. Onun sonrakı 1984-cü ildə yazdığı "Analytic Syntax" kitabında bu termini işlətmişdir. O. Yespersona görə belə cümlələr fərqli sintaktik konstruksiya deyil, sadə cümlə modellərinin dəyişilmiş formasıdır [10, s. 118].

Kleft cümlələrdən bəhs edərkən dörd suala cavab tapmağa çalışmışıq. Bunlar aşağıdakılardan ibarətdir.

1) kleft cümlələr hansı cümlə modellərinə deyilir,
2) bu cümlənin komponentləri bir-birinə neçə bağlanır,
3) ingilis dilinin geniş tərkibində bu cümlələr hansı funksiyanı yerinə yetirir,
4) ingilis dilində bu cümlələrin işlənmə yeri

Dilçi alim A. Kalud öz əsərində müxtəlif dilçilər, o cümlədən Quirk et all, Sornikola, Lambrext, Hudleston və Pullum, Pavey və Delin və Oberlanderin fikirlərini tədqiq etmişdir. O göstərmişdir ki, bir çox dilçilər kleft terminini işlətmiş, amma onun dəqiq tərifini verməmişlər [10, s. 59].

İngilis dilində kleft cümlələr müxtəlif yollarla düzəldilir. Kleft cümlələr həm sintaktik, həm də diskurs əlaqəsi baxımından tabelilik əlaqəsi yaradan quruluşa malikdir. Kleft cümlələr diskurs tabeliliyini nümayiş etdirir, çünki kleft cümlələr diskursda iştirak edən elementlərdən asılı olur. Həm *What you need now is a new skirt* həm də *All you need is a little money* cümlələri onları əhatə edən cümlə materialları olmadan başa düşülə bilməz.

Əvvəldə də qeyd etdiyimiz kimi, kleft cümlələr, cümlədə hər hansı üzvün qarşılaşdırılması və ya emfatika məqsədilə işlədilir. Məsələn:

Mr. Brown got to a hotel late in the evening after a long journey.
Göstərilən sadə cümləni kleft cümlələr şəklində aşağıdakı kimi işlətmək olar.
It was Mr.Brown that (who) got to a hotel late in the evening after a long journey.
It was the hotel that Mr.Brown got to late in the evening after a long journey.
When Mr. Brown got to a hotel was late in the evening.
It was late in the evening that Mr.Brown got to a hotel after a long journey.
It was after a long journey that Mr.Brown got to a hotel late in the evening.

[1] Azərbaycan Dillər Universiteti. gullu.mammad@mail.ru

Dilçilər arasında mübahisə yaradan məsələlərdən biri də budur ki, kleft cümlələri işlətməklə yeni informasiya verilir, yoxsa verilmiş informasiya daha qabarıq vurğulanır, Ümumiyyətlə kleft cümlələrin növləri bir-birindən necə fərqlənir.

Biz verilən hər hansı cümlənin müxtəlif üzvlərini vurğulayaraq müxtəlif növ kleft cümlələr işlədə bilərik. Məsələn, belə bir cümləyə diqqət yetirək:

Ann wrote a letter to John yesterday.

It was *Ann* that (who) wrote the letter to John yesterday.

All the thing that Ann wrote to John is the letter.

What Ann wrote to John was a letter.

It was *John* who (that) Ann wrote the letter to yesterday.

It was *yesterday* that Ann wrote the letter to John.

It was what Ann wrote the letter to John.

Kleft cümlələrin quruluşuna nəzər salsaq görərik ki, it əvəzliyi ilə başlayan kleft cümlələrdə cümlə formal it ilə başlayır, sonra bağlayıcı feil, vurğulanan elenent və daha sonra isə kleft cümlə işlənir. Qeyd etmək yerinə düşər ki, wh- kleft cümlələrdə və çevrilmiş (reversed) wh-kleftlərdə əvəzlik (it) olmur. Bu tipli cümlələrdə wh-sözün özü kleft cümləni təqdim edir.

Dilçilikdə müzakirə olunan məsələlərdən biri də kleft cümlələrdə işlənən əvəzlik –it-in status məsələsidir. Bəzi alimlər qeyd edirlər ki, bu əvəzlik əlavə edilmiş (expletive), boş və ya sıfır element hesab edilə bilər, hansı ki, praqmatik və semantik cəhətdən fəaliyyətsizdir. Bu yanaşmanı 1977-ci ilə N. Xomski, sonralar isə 2001-ci ildə Lambrext öz əsərlərində təsdiqləmişlər [10, s. 60]. Misallara nəzər salaq:

1) It seems to me that you're wrong.
2) It is snowing.
3) It was John that I saw.
4) It's not true.

Bu misalların hər birində *it* əvəzliyi semantik mənasına görə müxtəlif məqsədlər üçün işlədilir. Üçüncü cümlədə kleft cümlə yaradan *it* digər cümlələrdə işlənən *it*-dən əsaslı surətdə fərqlənir. Belə ki, birinci və ikinci cümlələrdə işlənən it formal it olduğu halda, dördüncü cümlədə verilmiş it əsas mübtəda, yəni işarə əvəzliyi kimi işlənmiş əvəzlikdir. Qeyd etmək lazımdır ki, kleft cümlələri düzəldən it əvəzliyi də formal mübtəda kimi işlədilir.

İt əvəzliyi ilə başlayan bu tipli cümlələrdən danışarkən mübtəda ilə xəbərin uzlaşmasından da danışmaq yerinə düşər, belə ki, it ilə başlayan belə kleft cümlələrdə mübtədanın tək və ya cəm olmasından asılı olmayaraq xəbər həmişə üçüncü şəxsin təkində işlədilir. Məsələn:

It was my mother who had cooked the dinner.

It was my students who had made the report much better.

Kleft cümlələrin quruluşundan bəhs edərkən meydana çıxan ikinci mübahisəli məsələ kleft cümlələrin özlərinin statusu məsələsidir. Baxmayaraq ki, çox tədqiqatçılar wh-kleft tipli cümlələri sərbəst təyin budaq cümlələri (free relative clause) hesab edirlər, yenə də dilçilər arasında bu mövzu fikir ayrılığına səbəb olmuşdur. Ənənəvi nöqteyi nəzərdən cümlənin əvvəlində işlənən wh-sözü nisbi (relative) təyin budaq cümlələrini təqdim edir və özünü nisbi təyin budaq cümlələrinin ilk tərkib hissəsi rolunda göstərir. Məsələn: *What you need is a good holiday* cümləsinə diqqət yetirək. Onlar *what you need* cümləsini sərbəst nisbi təyin budaq cünləsi (free relative clause), həm də kleft cümlə hesab edirlər.

Bu dilçilər belə hesab edirlər ki, baxmayaraq ki, belə təyin budaq cümlələrində antesedent kimi işlənən isim yoxdur, amma belə cümlələr planlaşdırılmamış, şifahi nitq üçün xarakterik olan cümlələrdir.

Digər dilçilər, o cümlədən Miller göstərir ki, hətta şifahi nitqdə işlənən elə cümlələr vardır ki, onlar təyin budaq cümlələrinin təhlilinə uyğun gəlmir.

Beləliklə görmək olur ki, həm yazılı, həm də şifahi nitqdə bir çox belə cümlələr vardır ki, təyin budaq cümlələri üçün nəzərdə tutulan qaydalara uyğun gəlmir.

A.Kalud da ingilis dilində bu tipli cümlələrin 3 növünün olduğunu qeyd edir.

it-cleft, wh-clefts və tərsinə çevrilmiş (reversed) wh-clefts. Bu cümlələrin hər birinin özünəməxsus xüsusiyyətləri olsa da, onlar arasında ümümi xüsusiyyətlər də az deyildir. Məsələn: *That is what you need, This is what I want* və *That is what I thought* tipli cümlələrin bir çox xüsusiyyətləri vardır ki, onlar digər kleft cümlələrinə də aid edilə bilər. Üstəlik bu cümlələri kleft olmayan sadə cümlələr şəklində də işlətmək olar. Məsələn: *I thought that, you need this* və *I want this* və s. kimi.

A. Kalud bu tipli cümlələri *demonstrative* – işarə bildirən kleft cümlələr adlandırmışdır [10, s. 61].

Demonstrative - işarə bildirən kleft cümlələr o cümlələrə deyilir ki, bu cümlələrin əvvəlində işarə əvəzlikləri işlənir. Məsələn:

This is my drink bottle you are using.

That was the first thing about her I saw.

İşarə bildirən kleft cümlələrin ayrıca kleft cümlələrin növü kimi hesab edilməsinin bir çox səbəbləri vardır. Onlar işarə bildirən kleft cümlələrin diskursda əhatəsində olan güclü diektik bağlara əsaslanır. Biz kleft cümlələri adətən danışıqda işlədirik.

İt ilə başlayan cümlələr kleft cümlələrin ən çox işlədilən formasıdır. İt – dən sonra işlənən informasiya dinləyici üçün vurğulanır, diqqətə çatdırılır. İt ilə başlayan cümlə digər cümlə ilə that bağlayıcısı vasitəsilə bağlanır və artıq başa düşülmüş məlumat *it* ilə başlayan cümlədə verilir.

Qeyri-formal vəziyyətlərdə *that* bağlayıcısı cümlənin tamamlığı olarsa o, düşə də bilər. Wh-kleft cümlələr çox hallarda what-la təqdim olunur, amma why, where, how və s. ilə işlənən kleft cümlələrə də rast gəlinir. wh-cümlələrdə verilən informasiya əsasən köhnə və ya başa düşülmüş, deyilmiş informasiya olur, halbuki bu cümlələri kleft cümlələr şəklində verməklə yenilənmiş informasiya diqqətə çatdırılır. Məsələn:

Why he has come back is unknown.
Where he will go with his family is a problem.
What she had seen is only their arguing together.

Kleft cümlələr bəzən cümlənin hər hansı üzvünü bağlayıcı xəbər əlavə etməklə dinləyicinin diqqətinə çatdırmaq üçün sadə cümlələrin bölünməsi prosesinin nəticəsi olaraq təsvir edilir. Məsələn:

It was here that she had intended to come and get her new things.
It was the first reference he had made to that subject and now she realized how bad off she was.
It was something that was power in itself.

Bu isə həm danışana və həm də yazana icazə verir ki, cümlənin bəzi elementlərini müxtəlif pozisiyalarda işlədərək, bu elementləri bir daha qabardaraq ifadə edilməsinə şərait yaratsın.

Kleft cümlələrin forma və informasiya vermə quruluşundakı fərqlər onların diskursda necə, yəni hansı məqsədlə və harada, hansı mətn tipində işlənməsi ilə əlaqədardır. Təzadlı məna ifadə edən it-kleft cümlələr yazılı nitqdə birmənalı olaraq informasiyanı vurğulamaq məqsədi güdür. Ümumi funksiyalardan başqa it-kleft cümlələr əvvəlki mətn ilə əlaqə yaratmaq üçün də işlədilir.

Wh-kleft cümlələr isə bir-biri ilə əlaqəsi olub ancaq fərqli olan iki funksiyalarda işlədilir. Bunlardan birincisi diskursu təşkil etmək, əvvəlki informasiyanı dinləyicinin diqqətinə çatdırmaq və başlıca kommunikasiya aktını göstərməkdir. İkincisi isə wh-kleft cümlələr həm davamlı informasiya axınını göstərmək, həm də əksinə informasiya axınının dönüş nöqtəsini yaratmaqdır.

Müasir ingilis dilində yalnız yuxarıda qeyd olunan üç kleft cümlə növləri işlənmir, bunlardan başqa müasir ingilis dilində *all-only* kleft cümlələr, *there-kleft* cümlələr, *since*-kleft cümlələr, *if-because*-kleft cümlələr və s. işlədilir [10, s. 70]. Misallara nəzər salaq:

All this boy does is swim and eat.
There's the use of definite article he wants to explain.
It's been forty years since he finished school.
Not that he is stupid. It's simply that he can't explain the use of the definite article.

Elə cümlələr də vardır ki, onlar həm işarə bildirən, həm də wh-kleft cümlələrinə bənzəyirlər. Bütün bunlar müasir ingilis dilində işarə bildirən (demonstrative) kleft cümlələrlə wh-kleft cümlələrin hər ikisinin birlikdə işləndiyi cümlələrdir ki, bu cümlələrə də ikiqat (double) kleft cümlələr deyilir. Bu tipli cümlələrin bir ortaq kleft cümləsi olur. Məsələn:

That's *what you are supposed to do* is a nest.

Bu cümləyə diqqət yetirsək görərik ki, bu cümlə *That's what you're supposed to do* cümləsi *what you're supposed to do is a nest* cümlələrindən ibarətdir. Bu cümlələrin hər ikisi ayri ayrılıqda kleft cümlələr hesab olunur. Lakin verilən bu bir cümlədə isə onların hər ikisi bir cümlədə verilmişdir və *what you're supposed to do* hər iki cümlənin ortaq kleft cümləsi hesab olunur.

Yuxarıda aparılan qeydləri nəzərə alaraq göstərə bilərik ki, kleft cümlələr müasir ingilis dilinin strukturunda müəyyən yer tutur və onun işlənmə dairəsi də kifayət qədərdir. Digər emfatik vasitələrlə yanaşı kleft cümlələr də nitqimizi daha dolğun, daha qabarıq şəkildə göstərməkdə xüsusi rol oynayır. Bütün bunlara baxmayaraq kleft cümələr hələ də mübahisəli mövzulardandır və daha geniş tədqiqata ehtiyac duyulur.

İstifadə edilmiş ədəbiyyat

1. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, 1988.
2. Musayev O. İngilis dilinin qrammatikası. Bakı, 2007.
3. Müasir Azərbaycan dili. III cild, Sintaksis. Bakı, 1981.
4. N.Hajiyeva, Nağıl dialoqunda aktual üzvlənmə, Türkologiya N4, Bakı, 2015.
5. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Sintaksis . Bakı, 2000.
6. Barabash T.A. A Guide to Better Grammar, Moscow, 1975.
7. Blokh M.Y. A Course in Theoretical English Grammar, M., 1983.
8. Calude A. and Miller M. Are Clefts Contagious in Conversation, English language and Linguistics 13, 2010.
9. Calude A. Clefting and Extraposition in English ICAME (International Computer Archieve of Modern and Medieval English) Journal, 32, 2008.
10. Calude A. Demonstrative Clefts and Double Cleft Constructions in spoken English, Studia Linguistica; Wiley online library, volume 62, April 2008.
11. Calude A. Cleft Constructions in spoken English; Berlin VDM Verlag, 2009.
12. Ilysh B. History of the English language. Leningrad., 1972.
13. Ilysh B. The Structure of Modern English, Leningrad, 1971.
14. Kaushanskaya V.L., et al A Grammar of the English Language. L., 1973.
15. Khaimovich B.S., Rogovskaya B.I. A Course in English Grammar. M., 1967.
16. Cleft Sentences — What, It and All - English Reservoir
17. https://www.really-learn-english.com/cleft-sentences.html
18. https://dictionary.cambridge.org/grammar/british-grammar/cleft-sentences-it-was-in-june-we-got-married

Açar sözlər: kleft cümlə, vurğulamaq, çevirmək, müxtəlif vasitələr, konstruksiya
Key words: a cleft sentence, to emphasize, to transform, various means, a construction
Ключевые слова: расщепленное предложение, усилить, превращать, разные средства, конструкция

Cleft sentences ın modern englısh and theır types

Summary

In order to make the elements of the sentence much more emphatic, to emphasize the meaning of the sentence various means are used in grammar. One of these ways is using cleft sentences. A cleft sentence is a sentence that we transform the simple sentence into a complex one in order to emphasize a part of a simple sentence or a member of a simple sentence in modern English. There are different types of cleft sentences.

The various differences in form and information structure found among cleft constructions correlate with differences in how and where they are used in the discourse. Cleft sentences are used both in written and in oral speech.

Расчлененные предложения в английском языке и их типы

Резюме

Для того чтобы элементы предложения были намного выразительнее и чтобы подчеркнуть значение предложения, в грамматике употребляются разные средства. Один из этих способов – это употребление расчлененных предложений. Расчлененные предложения – это такие предложения, где простые предложения превращаются в сложные предложения, чтобы выразит часть простого предложения или какой-либо член предложения в современном английском языке. Различают несколько типов расчлененных предложений. Разные отличия по форме и структуре, найденные среди расчлененных конструкций, связаны с тем. где и как они употребляются в дискурсе. Расчлененные предложения употребляются как в письменной, так и в устной речи.

Rəyçi: f.f.d., dos. İ. Nuriyeva

Arif Yunusov [2]

TÜRK DİLİNDƏ REKLAM MƏTNLƏRİNİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Qədim dövrlərdən insan qrupları maddi nemətlər istehsalı ilə məşğul olmuş, əldəetdikləri məhsulun müəyyən qisminin ticarəti ilə məşğul olaraq əlavə gəlir götürməyə çalışmışlar. Bu məqsədlə insanlar reklam üsuluna müraciət etmiş, satmağa çalışdıqları məhsulları müştərilərə sata bilmək üçün müəyyən üsullar düşünüb tapmışlar. Başqa sözlə, reklamı icad etmişlər. Müasir dillə desək, müştəriləri cəlb etməq məqsədi ilə kütləvi informasiya vasitələrində yerləşdirilən mətinlər və ya kliplər reklam adlanır. Hazırkı şəraitdə marketinq adlanan ticarət reklamdan kənarda düşünülə bilməyən bir fəaliyyət sahəsinə çevrilmişdir(1, 12).

Hər gün mürəkkəbləşən və sürətlə dəyişən ticarət şəraiti, amansız rəqabət, infilyasiya, pandemiya, alıcılıq qabiliyyətinin aşağı düşməsi, işsizlik və bahalıq istehsalçı ilə istehlakçı arasında müxtəlif problemlərin də yaranmasına səbəb olur. İstehlakçını inandırıb əmin etməyə çalışan ticarət firmaları məcburən reklam şirkətlərinin xidmətinə müraciət edir. Belə şəraitdəreklamçılar daha təsirli və nüfuzedici reklam mətnləri tərtib etməyə çalışırlar. Yəni, reklam mətnlərində həm istehsalçının, həm də istehlakçının mənafeləri müdafiə olunmalıdır. Başqa deyimlə, reklamçılar iki tərəfin yarışmasında hər iki tərəfə qələbə arzulayan referini xatırladır(2, 5).

Cəsarətlə qeyd etmək olar ki, reklamın tarixi çox qədimlərə aiddir. Qədim Misir, Babil, Yunanısatn və Roma dövrlərinə ait arxeoloji tapıntılar arasında reklam mətnlərinə təsadüf olunması bu fikrin doğruluğunu təsdiqləyir. Dilçilik araşdırmalarında reklamların yaranma tarixi tam olaraq göstərilmir. Hazırda Britaniya muzeyində nümayiş etdirilən teklam lövhəsinin miladdan təxminən 3 min il öncəyə aid olduğu güman olunur. Tarixi məxəzlərə görə, Babil, Misir və Yunanıstanda xüsusi bacarığı olan adamlar pul qarşılığında tacirlərin satılıq mallarını uca səslə tərifləyib müştəriləri o malı almağa həvəsləndirirmişlər(3, 7).

Yunanıstan və Romada isə kütləvi tədbirlər zamanı, məsələn, qladiator döyüşlərində, teatr tamaşalarında tacirlərin ödədikləri pul müqabilində onların satdıqları mallar barədə məlumatlar elan olunurmuş, yol ayrıclarında və meydanlarda isə həmin məhsullar barədə yazılı lövhələr asılırmış. Orta əsrdə İngiltərədə də ticarət reklamlarından geniş istifadəedilmişdir. Hələ mətbəənin olmadığı zamanlarda ingilis tacirləri xüsusi rəssamlara satılacaq məhsulların reklamını hazırlatdırmış, bu üsulla müştəri toplamağa çalışırlarmış(4, 11).

Mətbəənin icadı reklamçılıqda yeni mərhələ açmış vəəsl anlamda bu işə güclü təkan vermişdir. Kitab nəşrinin yayıldığı bir dönəmdə Londonda yaşayan Vilyam Kekston adlı bir naşir nəşr etdiyi kitabı reklamedən afişaları kilsələrə yapışdırıb kitab həvəskarlarına həmin kitabı təbliğ etmiş, qısa zamanda böyük ticari qazanc əldəetmişdi. Beləliklə, ticarətdəreklamın önəmi isbatlanmışdı. Bir müddət sonra məhsulların satışına qəzet və jurnallarla gerçəkləşdirilməyə başlanılmışdı. Məsələn, 1612-ci idən Parisdə, 1665-ci ildən Londonda nəşr olunan qəzetlər ticari məqsədli reklamlarla çıxırdı. 1961-ci ildən Türkiyədə Mətbuatda elan yerləşdirilməsi haqqında qanunun (Basın İlan Kurumu Kanunu) qüvvəyə minməsi nəticəsində türk reklamçılığına yol açıldı. 1964-cü ildən Türkiyə Radio və Televiziya Şirkəti (TRT) radioda, 1972-ci ildən isə televiziyada reklamlara yaşıl işıq yandırmış və reklamçılıq qarşısında bütün maniələr qaldırılmışdır(5, 22).

Tərəddüdsüz şəkildə qeyd etmək olar ki, reklamların onurğa sütununu reklam mətnləri təşkil edir. Reklamçıların fikrinə görə, reklam mətnləri nə qədər təsirli yazılsa, potensial müştərilərin də diqqətini bir o qədər uğurlu şəkildə cəlb edir.

Elmi-texniki yeniliklərin müşayiətində sürətlə inkişaf edən cəmiyyətlə bərabər dil də dəyişikliklərə məruz qalır. Sirr deyil ki, çağdaş dünyada ticari münasibətlər ön plana çıxdığından reklamçılıq da hal-hazırda dominant mövqedə qərar tutmuşdur. Hər gün dünyada saysız-hesabsız reklam çarxları hazırlanır, hər şirkət və firma müştəri əldəetmək, öz əmtəəsini satmaq, iqtisadi qazanc əldəetmək uğrunda mübarizə aparır. Sözsüz ki, reklam kliplərinin, reklam logolarının, reklam bukletlərinin ayrılmaz tərkib hissəsi sözlərdir. Reklamlarda mənşə baxımından yerli vəəcnəbi mənşəli sözlər istənilən qədərdir. Bu yazıda müasir türk dilində mövcud reklamların linqvistik xüsusiyyətlərindən bəhs edəcəyik.

Ferdinant de Sössür hələ keçən əsrin əvvəllərində iddia edirdi ki, dilreallığı səslərləəks etdirən işarələr sistemidir. Başqa sözlə, dil, haqqında bəhs olunan varlığı qrafik işarələr (hərflər) və ya müəyyən qaydada kodlanmış səs dalğaları vasitəsilə beynimizdə göstərən psixoloji aktdır. Bəzən sözlərlə bərabər stereotip qəliblərin yardımıyla da müəyyən təsəvvürlər yaratmaq mümkündür. Məsələn, yunan əsatirindəki Afrodita dünya dillərində gözəllik, mütənasüblük, cazibədarlıq mənası qazanmışdır, Pikassonun göyərçin rəsmi sülhün rəmzinə çevrilmişdir. (6, 34).

Müasir dünyanı indi reklamsız təsəvvür etmək mümkün deyil. Reklamların dilini tədqiq etmək bu gün dilçiliyin önəmli məsələlərindən birinə çevrilmişdir. Ədalət naminə qeyd etmək lazımdır ki, reklam mətnlərinin qeyri-adi nitq quruluşuna, alışıq olmadığımız ifadə tərzini nəzərə alaraq reklamları şərti mənada publisistik üsluba daxil etmək olar. Çoxsaylı reklam mətnlərinin cüzi bir hissəsinənəzər salsaq o mətinlərdə həddən ziyadə üslub və ifadə tərzlərini görərik. Məsələn:

1) Müstəqim reklamlar (direk meyl) – poçt vasitəsilə birbaşa göndərilən reklam materialları, məlumat xarakterli sənədlər, buklet və broşurlar.

2) Mətbu reklamlar- reklam olunan əşyaların qəzet və jurnallar vasitəsilə oxuculara tanıdılması.

3) Əyani reklamlar- reklam olunan əşyaların afişa, panno, poster, plakat və stendlər vasitəsilə təqdim olunması.

4) Ekran reklamları – reklam olunan əşyaların teleekran, kino və slaytlarla tanıdılması.

[2] **BDU, Şərqşünaslıq fakültəsi. Türk filologiyası kafedrası. dos. arifyunusov@yahoo.com**

Reklamlar müasir ticarətin mühərriki hesab olunduğundan onların hazırlanmasına çox vəsait ayrılır və onların tərtibində ciddi şəkildə məşğul olan xüsusi qabiliyyətli yaradıcı insanlar heyəti cəlb edilir(7, 9).

Reklam mtnlərinin məzmunu fərqliliyi ilə diqqəti cəlb edir. Həyatın ən müxtəlif sahələrinə aid materialları satmağa, tanıtmağa, təbliğ etməyə, yaymağa çalışan, dünya bazarında etibarlı işgüzar tərəfdaş tapmağa səy göstərən şirkətlər gecə-gündüz öz mallarını tərifləyən saysız hesabda reklam mətnləri hazırlayırlar. Son zamanlarda tədris müəssisələri, tibbi məntəqələr, turizm mərkəzləri, banklar, səyahət büroları, mehmanxana kompleksləri, fərdi bizneslə məşğul olanlar, incəsənət ustaları da özlərinə müştəri tapmaq üçün cəlbedici reklam mətnləri hazırlatmaqdadırlar. Hazırlanan reklam mətnlərinin bir qismi mətbu orqanlar vasitəsilə tirajlanır, potensial müştərilərin düşüncələrinə sosial-əxlaqi təsir göstərir(8, 3).

Bu mənada reklamların qeyri-kommersiya sahəsində, ticarətdə, xüsusən də xarici ticarətdəki rolunu qiymətləndirməmək çox çətindir. Qeyri-kommersiya sahəsinə aid olan reklamlar hər şeydən öncə, insanlarda reklam olunana qarşı xoş ovqat, inam və rəğbət hissi yaratmağı, onun etibarlı gələcəyi barədə ümid oyandırmağı hədəfləyir, hər hansı bir əmtəə haqqında isə konkret heç bir məlumat vermir. Çox vaxt reklam olunanın müəyyən regionda əldəetdiyi uğurlar sadalanır, onun müxtəlif nüfuzlu şirkətlərləəlaqələri qeyd olunur, haqqında dünyanın müxtəlif guşələrindən xoş rəylər alındığı göstərilir. Bu üsulla reklam olunanın nüfuzu barədə bütün tərəddüdlərin silinməsinə nail olunmağa çalışılır. Məsələn, reklam olunan firmalar özlərinin şanlı və uğurlu keçmişindən, müxtəlif nüfuzlu nəhəng şirkətlərlə işgüzar işbirliyində olduqlarını, bir sıra beynəlxalq sertifikatlara sahib olduqlarını, dövlətlərarası önəmli yarmarkaların iştirakçısı olduqlarını, son illərdə daim yüksələn xətlə iqtisadi yüksəlişdə olduqlarını, ən müasir texnoloji avadanlıqlarla təçhiz edildiklərini, istehsal etdiklərin məhsulların böyük hissəsinin ixrac olunduğunu, nüfuzlu iqtisadi forumların daimi iştirakçısı olduqlarını xüsusi qeyd edərək öz müştərilərinə, praktik olaraq başqa seçim tanımırlar. Reklamçılar bu mənada reklamın təbiətinə uyğun (“reklam” sözünün mənası “uca səslə müştəri çağırmaq”dır) hərəkət etməklə öz məqsədlərinə nail olmağa çalışırlar(9, 4).

Bazar uğrunda mübarizə şiddətləndikçə reklamçılar da umumi axının tempinə uyğun hərəkət etməyə məcbur qalırlar. Sürətli iqtisadi artımın dinamizmi reklam tərtipçilərini, təbii olaraq, istehsalçı və istehlakçı arasında uğurlu moderator olmağa təhrik edir. İlk baxışda qeyri-məhdud imkana sahib kimi görünən reklamçılar da beynəlxalq hüquq normalarına müvafiq çıxış etməlidirlər. Reklamçılar Ümumdünya Ticarət Palatasının 1987-ci ildə Parisdə qəbul etdiyi beynəlxalq kodeksi, eləcə də, mövcud milli məhdudiyyətləri mütləq nəzərə almalıdırlar. Əks halda, müxtəlif sanksiyaların, cəzaların, cərimələrin tətbiqi qaçınılmazdır (10, 12).

Reklamların publisistik üsluba aid olduğunu bir daha xatırlatmaq lazımdır. Məlum olduğu kimi, publisistik üslubun iki başlıca məqsədi var- informativlik və təsirlilik. İstər radio və televiziya, istərsə də mətbu orqanlarda yayınlanan reklamların başlıca meyarı lakoniklik vəeffektivlikdir (11, 29). Reklam mətni çox qısa zaman müddətində müştərinin nəinki diqqətini cəlb etməli, həm də onun inamını qazanmalıdır. Başqa sözlə, xərclənən böyük pullar müqabilində hazırlanan şifahi və yazılı reklam mətinləri müştərini o dərəcədə aludəetməlidir ki, o, başqa firmya üz tutmasın. Müasir zamanın vaxt problemini də reklamçı şirkətlər nəzərdən qaçırmamağa səy göstərirlər. Məsələn, son zamanlarda Türkiyə gündəmində intensiv olaraq müşahidəedilən bir neçəreklam mətinlərinə nəzər yetirək:

1. **Göz kamaştıran beyazlık 2. Beyazın çok daha ötesi 3. Mülteciler yardımlarınıza muhtaç 4. Arayın gelelim 5. “Sabah” alın, sabahınızı kazanın 6. “Eti “ bir Topkek yapsa 7. Tadım -Türkiye’nin tadı tuzu** vs.

Yuxarıda nümunə olaraq göstərilən ilk iki reklamda hansısa yuyucu tozun təsirini və digərlərindən çox üstün olduğunu müştərilərə inandırmaq üçün qurulan adlıq cümlələr özünün qeyri-adi mübaliğə üsulu ilə diqqəti cəlb edir. Üçüncü reklam mətni isə insanların hissiyatına yönəlmiş, onlarda mərhəmət hissi oyandırmaq məqsədi daşıyır. Dördüncü reklam mətnində hər hansı şirkət öz müştərilərində arxayınlıq və inam yaratmağı hədəfləmişdir. Beşinci reklam gələcəyə yönəlik planlar qurmağı sevən oxucular üçün düşünülmüşdür. Altıncı və yeddinci reklam mətinləri mətbəx məmulatı həvəskarları auditoriyasına ünvanlanmışdır.

Reklam mətinlərinin ən bariz meyarı onların yığcamlığı və az sözlə çox məna ifadəedə bilməkdir (12, 18). Təfərrüatlı cümlələr və uzunçuluq reklam mətinlərinə olan marağı kəskin şəkildə azaldır və müştərinin diqqətini yayındırır. Xüsusən, efir məkanında saniyələrin çox mühüm olması da nəzərə alınmalıdır. Məsələn, bir məşhur avtomobil şirkəti Türkiyədə belə reklam edilir:

1. Bırak onlar sana yetişmeye çalışsın. 2. Mükemmelik, senin standartların

Gördüyümüz kimi,reklam mətni qısa vətəhrikedici sözlərləifadə olunmuşdur. Başqa sözlə, yuxarıdakı mətində publisistik üslubun iki önəmli funksiyası sayılan informativlik və nüfuzedicilik tələbi nəzərə alınmışdır. Birinci mətndəməlum avtomobil markasının digər markalardan daha üstün sürətə və keyfiyyətə malik olması çox böyük ustalıqla müştərinin beyninə yeridilir. Yəni, sən öndə gedirsən, lidersən, başqaları sənə çatmağa, sənə bənzəməyə cəhd edir. İkinci mətndə isə yenə də məlum marka avtomobilin standartlarının dünya bazarında meyar olması, xarici və daxili görünüşünün bir-birini tamamlayan şəkildə dizayn edilməsi, ən tələbkar müştərinin də zövqünə tam uyğun ölçülərə sahib olması fikri aşılanır.

Teleekranlarda və radio dalğalarında çox qısa zaman içində çox geniş mənanı ehtiva edən bu tipli reklam mətni müştəri tərəfindən rahat qavranılır və onu yormur. Bu tipli lakonik reklam sayəsində hər iki tərəf- həm alıcı, həm də satıcı qazanmış olur. Reklam mətnlərini tərtib edənlər, əlbəttə ki, ətrafda baş verənləri bitərəf mövqedən passiv şəkildə seyr etmir. Onun ümdə məqsədi, fədakar şəkildə çalışıb potensial müştəridəreklam olunan məhsula qarşı xüsusi rəğbət vəetimad hissi yaratmaq, seçimində çətinlik çəkənlərin inamını qazanıb onların tərəddüdünə son verməkdir. Dolayısıyla, reklam mətnlərinin uğurlu tərtibi, eyni zamanda, reklam şirkətinin gələcək fəaliyyətinə xüsusi stimul yaradır(1, 18).

Reklam çox geniş auditoriyaya ünvanlandığından onun mətni hamı tərəfindən anlaşılan şəkildə olmalıdır. Reklam mətnləində çətin ifadələrin, mənası çox məhdud sosial qrupa məlum olan terminoloji vahidlərin, vulqaizmin, dialektizmin, jarqonların işlənməsi yolverilməzdir. Digər tərəfdən, reklamlarda loru ifadələrə, həddən artıq sadəliyə də yol vermək olmaz. Türk reklamlarında AİDA prinsipi adlanan dörd təməl tələb var. Bu tələblər ingilis dilindəki hərf düzülüşünə görə aşağıdaki şəkildədir(9, 24).

Diqqət(Attention). Reklam mətnləri mütləq şəkildə müştərinin diqqətini cəlb etməlidir. Əgər reklam başlığı müştərinin diqqətini özünə çəkmirsə, reklam mətninin heç bir önəmi yoxdur.

Maraq (İnterest). Reklam müştəridə maraq oyandırmalıdır.

Arzu(Desire). Reklam mətni müştəridə təqdim olunan məhsulu əldəetmək arzusu yaratmalıdır.

Təhrik(Action). Reklam mətni müştərini rəsmən təşviqetməli, onu yönləndirməlidir. Türkiyədə geniş yayılmış müxtəlif məhsulları tərifləyən məşhur reklamlardan numunələrədiqqət edək:

1. Simtel yaparsa mükemmelini yapar. 2. Beko- bir dünya markası. 3. Yabancı değil, Arçelik. 4. Macit, beni otomobillendir. 5. Al götür beni Doğaya. 6. Mitsubishi Canter- ağır taşır, büyük taşır, küçükleri de taşır. 7. Arko krem- ailenizin kremi. 8. Zaman Ege seramik zamanı. 9. Akfa salça - yemeğin hakkı. 10. Emsan-mutfaktaki mutluluk. 11. Bu kraker krak eder. 12. Tat- adı gibi tadı var. 13. Lassa - sendedir her ne varsa. 14. Tempradan daha mükemmeli yine bir Tempradır.

1-ci örnək Simtel şirkətinin öz alıcılarına çoxfunksiyalı, üç il zəmanətli yeni tozsoran modelinin reklamına aiddir. Bu reklam mətnində müştəriyə "Simteldən daha mükkəmməl istehsal edən firma tapa bilməyəcəksiniz, əgər bu məhsulu Simtel istehsal edibsə, tərəddüd etməyinizə, başqa variant düşünməyinizə lüzum yoxdur. Simtel mükəmməllik rəmzidir" fikri aşılanır, rəsmən müştəriyə başqa imkan tanımır. Reklam çox lakonik və təhrikedicidir.

2-ci reklam mətni müştəriləri "Beko" markalı televizorları almağa səsləyir. Qüsursuz təsvir, dizayn, səs sisteminə malik olan "Beko" televizorları həm qiymətdə, həm xidmətdə, həm də zəmanətdə müştərilərə bir çox üstünlüklər və asanlıq vəd edirdi. 3-cü reklam mətnində müştərilərə dünya nəhəngləri ilə rəqabət aparan "Arçelik" firmasının istehsal etdiyi soyuducular məsləhət görülür, "Arçelik" firmasının yerli problemlərü yaxşı bilməsi və öz məhsullarının hazırlanmasında onları nəzərə alınması ön plana çəkilmiş və müştərilərin milli hisslərinə təsir etməklə onları "Arçelik" soyuducuları almağa çağırmaqdadır. 4-cü reklam mətnində İmar bankının bütün bürokratik maniələri qaldıraraq cüzi faizlə Türkiyə vətəndaşlarına minik avtomobilləri almaları üçün uzun müddətli bank krediti verməsi ön plana çıxarılmışdır. Bu reklam insanları inandırmağa çalışır ki, İmar bankın sayəsində Türkiyədə avtomobilsiz qalan olmayacaq, arzu edən hər kəs, arayışsız, zaminsiz, ancaq bir pasportla İmar banka gəlib müraciət etməklə maşın sahibi ola bilər. 14-cü örnəkdə italyanlara aid Tempra avtomobili reklam olunur, onun az yanacaq yandırması, uyğun qiymətə malik olması, yüksək manevr qabiliyyəti və motorunun sakit işləməsi faktları qabardılaraq müştərilərə təqdim olunur.

Bu reklamlarda publisistik üsluba xas olan emosionallıq, duyğusallıq çalarlıqlarını da görmək mümkündür. Reklamlarda adətən milyonlarla insanı maraqlandıran, düşündürən məsələlər qabardılmağa çalışılır. O tipli reklamlarda quru, sxematik tərz yolverilməzdir. Reklamlarda dəqiqlik, məntiqlik və standarlıq əsas tələblərdəndir. Reklamın adında mütləq informativlik olmalıdır. Reklamın adı mütləq müəyyən məlumat yükü daşımalıdır. Yəni, reklam dərhal müştərilərdə müəyyən fikir oyatmalı və onu yönləndirməlidir.

Son illərdəreklamın yeni sahələri yaranmaqdadır. Xüsusən, internetin sürətli şəkildə həyatımıza müdaxiləsi nəticəsində indi məhsulların youtube, facebook, instaqram və tvitter hesablarından reklamı kütləvi hal almışdır. Bu cür reklamçılığın da müəyyən xüsusiyyətləri mövcuddur. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, internet vasitəsilə reklamla məşğul olmaq həm daha sürətli, həm də daha operativdir. İnternetdəreklam olunan məhsulları müntəzəm olaraq yeniləmək, daha geniş dinləyici və tamaşaçı auditoriyasına çatdırmaq mümkündür(6, 8).

Nəzərə almaq lazımdır ki, internetdəreklam olunan məhsulu hər bir tamaşaçı özü dəpaylaşaraq onu başqalarına ötürə bilər. Yəni, tamaşaçı aktiv şəkildə özü reklamçı da ola bilər. Texniki tərəqqi nəticəsində indi Viral, Banner,Advergaming tipli reklam variantları günümüzün vazkeçilməz marketinq üsuluna çevrilmişdir. Sosioloji araştırmalara görə, hal-hazırda 3 milyarda yaxın insan facebook və bir milyardan artıq insan isə instaqram istifadəçisidir. Qəti şəkildə qeyd etmək mümkündür ki, müasir dövrdə internet radio və televiziya verilişlərini inamla ortadan sıxışdırıb çıxartmaqdadır. Sürətli internetin hər saat yenilənən səhifələrində vəGoogle axtarışlarında saysız miqdarda məhsulun reklamına rast gəlmək mümkündür. Davamlı olaraq müştəriləri öz təsirində saxlamağı bacaran internet reklamçılığı klassik reklamları tədricən tarixi kateqoriya halına gətirir. Maraqlıdır ki, internet reklamçılığı da ənənvi reklamlar kimi dörd əsas mərhələdən ibarətdir:

Məhsulun tanıdılması mərhələsi.

Məhsulun digərlərindən fərqli və üstün cəhətinin göstərilməsi.

Məhsulun internet şərtlərinə uyğunlaşdırılması.

Məhsulun müştərilərə təqdimi.

İnternet reklamlarında potensial müştəri hər hansı bir musiqi əsərini dinlədiyi, bir filmə tamaşa ettiyi və ya nəyi isə oxuduğu zaman qəflətən onun diqqəti bir neçə saniləyinəreklam olunan hər hansı bir məhsula yönəldilir. Başqa sözlə, internet reklamından heç bir müştəriyə qaçış fürsəti yoxdur. 2016-cı ilə qədər youtubedətamaşaçılara onların istəyi olmadan təqdim olunan məhsulların reklamını beş saniyədən sonra dayandırmaq mümkün idi. Bunlara "instream", yəni, "veriliş daxili" reklam deyilir. İstehsalçılar reklamçılara reklam olunan məhsula aid reklamın ən azı 30 saniyə baxılması zamanı pul ödəyirlər. Ona görə də, 2016-cı ildən başlayaraq youtubereklamlar "bumper" üsulu ilə nümayiş etdirilir və tamaşaçı nə qədər

çalışsa da reklam axımına müdaxiləedə bilmir. Başqa sözlə, tamaşaçı məcburən o reklama baxmağa məhkum edilir. Yeri gəlmişkən, hazırda elektron poçtlarda da məhsulların reklamı geniş tətbiq olunmaqdadır. Şərti olaraq onları "gmail" reklamları adlandırmaq mümkündür. Elektron poçtdan istifadəedən hər bir şəxs istər-istəməz "gmail" reklamları ilə qarşılaşır, orada reklam olunan məhsulları görür(4, 10).

Reklam mətnlərinin təhlilləri sübut edir ki, türk ədəbi dilində lüzumsuz əcnəbi mənşəli sözlərin getdikcə çoxalmasının səbəblərindən biri dəhər gün yaranan və təəssüf ki, nəzarət edilə bilməyən hədsiz miqdarda reklam mətnləridir. İstehsalçıların artan tələblərinə asan və daha sürətli cavab verə bilmək üçün reklam şirkətləri Avropa dillərində, xüsusən də ingiliscədə olan hazır mətnləri necə gəldi, bəzən də heç tərcüməetmədən teleməkana, internet saytlarına yerləşdirirlər. Nəticədə, "**raylandırma, snikerslen, empoze, angajman, aranjıman, egale, konjonktür, marjinal, adapte, absorbe, aborda, ekolayzer, empati, galeta, balsamine, depozito, desen, eşarp, filama, fino, frikik**" tipli saysız-hesabsız alınmalar türk dilindəki öztürkcə kəlmələrin dildən sıxışdırılmasına səbəb olur.

Reklamlar müasir dünyanın, dünya ticarətinin ayrılmaz üzvi bir parçası olsa da o mətnlərin tərtibində son dərəcə diqqətlli olmaq, ana dilinin söz varlığını, qrammatik xüsusiyyətlərini ciddi şəkildə qorumaq lazımdır.

İstifadə olunmuş ədəbiyyat

1. Aktaş H., Aktan E., Dijital İletişim Etkisi Uluslararası Akademik Konferansı BildiriKitabı, (1. Basım) İstanbul: İskenderiye Kitap. 2014
2. Alçelik A. Google AdWords, (2. Baskı) İstanbul: Dikeyeksen Yayıncılık.2017
3. Çelik M. Google Ads Reklamları (AdWords), www.rekclick.com: 2018
4. 4.https://www.rekclick.com/google-reklam/, Erişim Tarihi: 14/02/2019
5. Digitatek Sem. Arama Motoru Pazarlaması Nedir? 2017
6. https://www.digitatek.com/semarama-motoru-pazarlamasi-nedir-blog,Erişim Tarihi: 14/02/2019
7. Edosomwan, S. (The Historyof Social Media and its Impact on Business. The Journal of Applied Management andEntrepreneurship, Vol.16, No:3. 2011,79-91.
8. Facebook Business. https://business.facebook.com. Erişim Tarihi: 01.12.2018
9. Google Ads. https://ads.google.com. Erişim Tarihi: 01.12.2018
10. Google Alışveriş Araması, https://www.google.com Erişim Tarihi:14/02/2019
11. Google Analytics. https://analytics.google.com. Erişim Tarihi: 01.12.2018
12. Пирогова Ю.К., Паршин П.Б. Рекламный текст: семиотика и лингвистика.М.: Междунар. ин-т рекламы, Изд. дом Гребенникова, 2000, 270 с.
13. Ульяновский А. Мифодизайн рекламы. СПб.: Ин-т личности, 1995,300 с.

Açar sözlər: reklam, sponsor, firma, məhsul, fikir, marketinq

Ключевые слова: реклама, спонсор, фирма, товар, идея, маркетинг

Keywords: advertising, sponsor, firm, product, idea, marketing

TÜRK DİLİNDƏ REKLAM MƏTNLƏRİNİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Reklam, ictimaiyyətin diqqətini müəyyən bir sponsor tərəfindən ödənilən məlumatlar vasitəsilə bir fikrə, məhsula və ya xidmətə yönləndirmə hərəkətidir. Reklam şəxsi olmayan bir təqdimatla fikirlərin, məhsulların və ya xidmətlərin nəzərə çatdırılmasını müəyyən bir sponsor tərəfindən hər hansı bir ödəniş şəklidir. Reklamçılıq birliyinə görə, reklam, bir və ya daha çox insanı məlumatlandırmaq və onlara təsir etmək üçün ödənişli hər hansı bir mesajdır. Reklamın tərifini sadələşdirsək, onu insanlara bir şey haqqında məlumat verməyə, təsir göstərməyə, nəyisə satın almağa və ya sınamağa vadar etməyə yönəlmiş pullu rabitə mesajı adlandırmaq olar.

ЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ РЕКЛАМНЫХ ТЕКСТОВ В ТУРЕЦКОМ ЯЗЫКЕ

Резюме

Реклама - это акция привлечения внимания общественности к идее, продукту, товару или услуге посредством объявлений, сделанных конкретным спонсором. Реклама - это любая форма оплаты от указанного спонсора за продвижение идей, товаров или услуг в обезличенном виде. Согласно рекламной ассоциации, реклама - это любое сообщение, которое оплачивается специально с целью информирования и влияния на одного или нескольких людей. Если будем упростить определение рекламы, то это - платное коммуникационное сообщение, направленное на то, чтобы проинформировать людей о чем-либо, повлиять на их, вызвать у них желание на покупку или попробовать чего-либо.

LİNGUİSTİC FEATURES OF ADVERTİSİNG TEXTS İN THE TURKİSH LANGUAGE

Abstract

Advertising is an act of drawing public attention to an idea, product, product or service through advertisements made by a specific sponsor. Advertising is any form of payment from a specified sponsor for the promotion of ideas, goods or services in an impersonal form. According to the advertising association, advertising is any message that is paid specifically for the purpose of informing and influencing one or more people. İf we'll simplify the definition of advertising, it is a paid communication message aimed at informing people about something, influencing them, making them want to buy or try something.

Rəyçi: dos. L.Ələkb\rova

Sevinc Ağadin qızı Bağırova [3]

MÜASİR İNGİLİS DİLİNDƏ İNKAR ƏVƏZLİKLƏRİNİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Giriş. İngilis dilində inkar əvəzlikləri aşağıdakılardır: ***no, nobody, no-one, nothing, none, neither. No*** inkar əvəzliyi qəti inkarlıq bildirir və özündən sonra ismin işlənməsini tələb edir, yəni isimsiz işlənə bilmir.Bu inkar əvəzliyindən sonra həm sayılan həm də sayılmayan isim işlənə bilər,məsələn:

I have no book (books)-Mənim heç kitabım da yoxdur.

I have no money-Mənim heç pulum da yoxdur.

Birinci cümlədən göründüyü kimi,bu inkar əvəzliyindən sonra həm təkdə,həm də cəmdə ola bilər. **No** inkar əvəzliyindən sonra işlənən ismin qarşısında müəyyən təyinedici söz də işlənə bilər,məsələn:We could find no other house to live in-Biz yaşamaq üçün başqa yer tapa bilmədik.No inkar əvəzliyindən sonra nə **of** sözönü, nə **any** qeyri-müəyyən əvəzliyi, nə də artikl işlənir. No həm də mübtədanın təyini kimi işlənir və Azərbaycan dilinə **heç bir** kimi tərcümə edilir,məsələn: No telegram has been sent-heç bir telegram göndərilməyib. **No** inkar əvəzliyi **body (one),thing** sözləri ilə birləşərək **nobody (no one**) (heç kim), **nothing** (heç nə) kimi mürəkkəb inkar əvəzlikləri və **where** sözü ilə birləşərək nowhere (heç yerdə,heç yerə) kimi mürəkkəb inkar zərfi əmələ gətirir,məsələn: Nothing was ready – Heç nə hazır deyildi; Nobody is in the classroom – Sinif otağında heç kim yoxdur. Tərkibində **nobody, no one, nothing** olan sadə cümlələrdə ikinci inkarlıq işlənmir,xəbər isə təkdə işlənir. Gülsüm Hüseynzadə yazır: "No" inkar əvəzliyinin mürəkkəb formalı əvəzliklər kimi mənsubiyyət bildirən of sözönü ilə işlənmir. Lakin **I know no one of that name** (Mən o adda heç kimi tanımıram) tipli cümlələrə də təsadüf edilir.Bu tip cümlələrdə of mənsubiyyət bildirmədiyindən onun işlənməsi mümkündür. Müasir danışıq dilində **no** ilə işlənən aşağıdakı birləşmələr mütləqdir,yaddaşımıza həkk olunmalıdır.

No wonder – təəcüblü deyil; No coment – şərhə ehtiyac yoxdur

No admittance – giriş qadağandır; No problem (bother) – problem yoxdur

No idea – bilmirəm; No chance – imkan yoxdur (1, s. 66-107).

Əsas hissə. No inkar əvəzliyi ilə **not** inkar ədatı arasında aşağıdakı mühim fərqli cəhətlərə fikir verin:

a) **No** inkar əvəzliyi heç bir artikllə işlənmədiyi halda, **not** inkar ədatından sonra sayılan və tək də gələn isim qeyri müəyyən artikllə işlənir, məsələn:

İ have no house = i have not a house – mənim evim yoxdur

b) **No** ilə ismin qarşısında heç bir müəyyənləşdirici söz işlənmədiyi halda, **not** ilə **any, enough, much, many, a few, a little, important**, müəyyən miqdar sayı işlənə bilir, məsələn: İ have not any problems – mənim heç bir çətinliyim yoxdur.

There are not three sheep in the yard – həyətdə üç qoyun yoxdur.

İ have not a few friends – mənim heç az da olsa dostum yoxdur

Without, imposible və s. bu kimi inkarlıq ifadə edən sözlərdən sonra **some**, **no** və onların mürəkkəb formaları (**something, somebody, nobody** və s.) işlənir.

I can do it without any help – Mən bunu heç bir kömək olmadan edə bilərəm.

It is impossible to buy anything here – Burada nə isə almaq mümkün deyil.

Könül Tağıyeva: "Əvəzlik və onun məna növləri" adlı əsərində öz fikrini belə izah edir: "Bununla belə, **impossible** sözünün işləndiyi sadə cümlələrdə ikinci inkarlıq mümkün deyil, amma **without** sözü ilə isə feili inkarda işlətmək mümkündür. Məs.: I couldn't do the sum without my friend's help – Mən hesab məsələsini dostumun köməyi olmadan həll edə bilmədim. **Neither** əvəzliyi iki isimdən heç biri, **nə o**, **nə o biri** kimi mənalarını ifadə edir. Bir sözlə, o, neither təyin əvəzliyinin inkarıdır, işlənmə xüsusiyyətləri **neither** təyin əvəzliyilə eynidir (2, s. 64-72). **Neither** əvəzliyi iki isimdən heç biri, nə o, nə o biri kimi mənalarını ifadə edir. Bir sözlə either təyin əvəzliyinin inkarıdır. İşlənmə xüsusiyyətləri either təyin əvəzliyi ilə eynidir.

Bu inkar əvəzliyi inkarlıq ifadə etdiyindən ondan sonra ikinci inkarlıq işlənmir, məsələn: Neither of these two books is(are) mine – Bu iki kitabdan heç biri mənimki deyil. Neither of the boys (was) were strong – Oğlanlardan heç biri güclü deyil.

Göründüyü kimi, neither **of** sözönü ilə işləndikdə feil həm təkdə, həm cəmdə ola bilər**. None** əvəzliyinin tərcüməsi heç kim, heç bir, heç nə, heç deməkdir.**No**-dan fərqli olaraq,none inkar əvəzliyi tək və cəmdə olan,həm sayılan,həm də sayılmayan isimlərin yerində işlənir(yəni özündən sonra isim işlənmir), məsələn: Are there any books on the table? – No there are none. Stolun üstündə (heç bir,hər hansı,bir neçə) kitab varmı? –Xeyir,heç yoxdur. İs there any milk in the fridge? – No, there is none. Soyuducuda süd varmı? – Xeyir, heç nə yoxdur. Cəmil Əliyev "İngilis dilində inkar əvəzlikləri" adlı əsərində inkar əvəzlikləri haqqında yazır: "**No-** dan fərqli olaraq, none sözü **of** sözönü ilə işlənə bilir. Belə halda **of** sözönündən sonra isim cəmdə işlənərsə,yəni əgər isim sayılandırsa, feil həm təkdə həm də cəmdə işlənə bilər. Feilin cəmdə işlənməsi daha məqsədəuyğundur, məsələn: None of the pupils are ready for the lesson – Şagirdlərdən heç biri dərsə hazır deyil. I can do it without any help-Mən bunu heç bir köməksiz edə bilərəm. It is impossible to buy anything here – Burada nə

[3] Azərbaycan Dövlət İqtisad Universiteti "Xarici dillər" kafedrası Filologiya üzrə fəlsəfə doktoru, sevincbagirova@ com.ru

isə almaq mümkün deyil. Bununla belə, **impossible** sözünün işləndiyi sadə cümlələrdə ikinci inkarlıq mümkün deyil,amma without sözü ilə isə feili inkarda işlətmək mümkündür" (3, s. 14-23). Məsələn: I couldn't do the sum without my friend's help – Mən hesab məsələsini dosdumun köməyi olmadan həll edə bilmədim.Bu inkar əvəzliyi inkarlıq ifadə etdiyindən ondan sonra ikinci inkarlıq işlənmir, məsələn: Neither of these two books is(are) mine – Bu iki kitabdan heç biri mənimki deyil. Neither of the boys (was)were strong – Oğlanlardan heç biri güclü deyil.

Göründüyü kimi, neither of sözönü ilə işləndikdə fel həm təkdə, həm cəmdə ola bilər. **None** əvəzliyinin tərcüməsi heç kim, heç bir, heç nə, heç deməkdir.No-

None of the news was joyful – Xəbərlərdən heç biri sevindirici deyildi. None of the news was joyful – Xəbərlərdən heç biri sevindirici deyildi. "Kəmiyyət bildirən birləşmələrdə some, any, all, both, many, much, none, each, either, neither əvəzliklərindən sonra of sözönü o vaxt işlənə bilir ki,o,müəyyən bir qrup əşya və ya şəxsə aid olsun və belə halda özlərindən sonra şəxs əvəzliyinin obyekt halı, yiyəlik əvəzliyinin absolyut forması, ya da ismin qarşısında the müəyyənlik artiklı və ya işarə əvəzliyi işlənmiş olsun, məsələn: None of them, neither of ours, most of the students, Each of my books, both of these boys. Bəzi əvəzlik və miqdar bildirən sözlərin xəbərlə münasibətini əks etdirən aşağıdakı cümlələrə nəzər salaq.What is important? – Nə əhəmiyyətlidir? Göründüyü kimi,who da mübtədanın sualıdır (4, s. 113).

What həm də vasitəsiz tamamlığın sualıdır, nəyi? və nə? Mənasını ifadə edir, məsələn: He read the letter again – O məktubu yenidən oxudu. What did he read again? – O, nəyi yenidən oxudu?

Mürəkkəb tamamlığın sualı da what sual əvəzliyinin vasitəsi ilə düzəlir, məsələn: We except them to come here in time – Biz onların buraya vaxtında gəlməsini gözləyirik. What do we except? – Biz nəyi gözləyirik?

Aşağıdakı tip sözönlü tamamlığa sual verdikdə (məs.: kimin haqqında?) ingilis dilində about whose işlənmədiyindən, bu mənada həmişə about whom və ya who.. about istifadə edilməlidir, məsələn: About whose are they talking cümləsi düzgün deyil. Bu cümlə belə ifadə olunmalıdır: About whom are they talking? (və ya who are they talking about?) – Onlar kim barədə danışırlar?

Bilirik ki**, whose** əvəzliyindən sonra isim gəlməlidir, çünki o, mənsubiyyət bildirir, məsələn: About whose plan are you speaking? – Siz kimin planı haqqında danışırsınız? What əvəzliyi **nə peşəsində** mənasında, haqqında söhbət gedən şəxsin sənət və peşəsini öyrənmək məqsədilə də işlənir, məsələn: Theodore Dreiser's parent was a small businessman – Teodor Drayzerin valideyni kiçik bir iş adamı idi. What wasTheodore Dreiser's parent? – Teoder Drayzerin valideyni nəçi idi?

What əvəzliyi hansı? Necə? Mənasında təyinin sualı kimi işlənir və ondan sonra mütləq təyin etdiyi (yəni aid olduğu) isim gəlir, məsələn: A teribble thing happened two days ago – iki gün bundan əvvəl dəhşətli bir hadisə baş verdi. What thing happened two days ago? – İki gün bundan əvvəl necə bir hadisə baş verdi? **What** həm də what kind **of, what sort of, what** types of kimi ifadələr işlənir və təyin etdiyi ismin çeşidini və yaxud əlamətini nəzərdə tutur, məsələn: He has got a car – Onun maşını var. **What** kind of car has he got? – Onun necə maşını var?

What həm də necə, nə cür mənasındada nida cümlələrində işlənir və bu halda isim təkdədirsə, sayılandırsa, onun qarşısında qeyri müəyyənlik artiklı işlənir, məsələn: What a fine idea it is! – Bu nə gözəl fikirdir!

Yadda saxlamaq lazımdır ki, which adətən məhdud bir qrupdan olan şəxs və ya əşyadan birini seçmək prinsipi olduqda işlənir, məsələn: He known English,German. – O ingilis , alman dillərini bilir. Which language does he know best? – O hansı dili lap yaxşı bilir? What isə ümumi mənada işlənir və adətən ad bildirir, məsələn: **Which** sual sözü tez-tez of sözü ilə işlənə bilir və ondan sonra adlıq halda olan isim, ya da obyekt halda əvəzlik işlənir. Əgər **which of**-dan sonra isim gəlirsə, o, cəmdə olur və ondan əvvəl müəyyənlik artiklı işlənir və fel təkdə olur, məsələn: Which of the boys plays chess better? – Oğlanlardan (hansı) kim daha yaxşı şahmat oynayır?

Which of- dan sonra yiyəlik və işarə əvəzlikləri, yiyəlik halda işlənmiş isim varsa, artikl işlənmir, məsələn: Yuxarıdakı cümlələrdən də göründüyü kimi, which nisbi əvəzlik kimi işləndikdə yalnız cansız isimlərə aid olur.

What cansız isimlərə aid olub ismi xəbərin sualı kimi də işlənir, məsələn:
This is a car – Bu, maşındır; What is this? – Bu nədir?

What do I (you) do? – nə edirəm?, nə edirsən? və s. mənalarında işlənir və qeyri-müəyyən zaman formalarında isdifadə edilir, məsələn: İ read interesting books every day – Mən hər gün maraqlı kitablar oxuyuram.

What do I do every day? – Mən hər gün nə edirəm? What do you do? Həm də nəçisiniz?, nə işlə məşğulsunuz- mənalarını ifadə edə bilir, yəni şəxsin peşəsini və nə işlə məşgul olduğunu öyrənmək məqsədi ilə işlənir, məsələn: -what do you do? – Nəçisiniz? İ am a doctor – Mən həkiməm. They always come home late – Onlar nə etməli oldular? Who always comes home late? – Kim həmişə evə gec gəlir?

Nəticə. Mübtədaya sual verdikdə xəbər adətən 3-cü şəxsin təkində olur. Lakin bununla belə,mübtədaya verilən sual həm də isimlə ifadə olunmuş ismi xəbərlə uzlaşır, yəni who sual əvəzliyi iki və daha artıq şəxsə aid olarsa, xəbər həm də cəmdə ola bilər, məsələn: John and David are good friends – Con və Devid yaxşı dostlardırlar. Who are good friends? – Kim yaxşı dostlardır?

Lakin who nisbi əvəzlik kimi işləndikdə, onun təyin etdiyi üzvün tək və cəm olmasından asılı olaraq, xəbər həm tək, həm cəm ola bilər, məsələn: We don't know the man who lives here – Biz burada yaşayan adamı tanımırıq. İ don't like the men who don't keep their promises – Mən sözünün üstündə durmayan adamları xoşlamıram. Bu qayda həm də which və that nisbi əvəzliklərinə də aiddir, məsələn: İn this story there is something that (which) seems strange to me – Bu mövzuda

mənə qəribə görünən nə isə bir şey var. I must take the photographs of the things that (which) interest us – Mən bizi maraqlandıran şeylərin şəklini çəkməliyəm.

Who ad və qohumluq dərəcəsini öyrənmək məqsədilə də işlənir, məsələn:
-who is this girl? – Bu qız kimdir? - she is my niece – Bacımqızıdır.

Whose (kimin?) canlı isimlərə aiddir, cümlədə həmişə təyin etdiyi sözün yanında gəlir,məsələn: I like his dress – mən onun paltarını xoşlayıram.

Whose dress do like? – Mən kimin paltarını xoşlayıram? whose əvəzliyindən sonra gələn ismin qarşısında heç zaman artikl işlənmir.

İstifadə edilmiş ədəbiyyat

1. Hüseynzadə G. İngilis dilində inkar əvəzlikləri. Bakı: Maarif, 1987, səh: 66-107.
2. Tağıyeva K. Əvəzlik və onun məna növləri. Bakı: Elm, 1995, səh: 64-72.
3. Əliyev C. İngilis dilində inkar əvəzlikləri- negative pronoun. Bakı: Maarif, 1986, səh: 14-23.
4. İngilis dilindən test toplusu. Tələbə qəbulu üzrə komissiyanın bülleteni. Bakı, 2014, səh:113.

Açar sözlər: inkar əvəzlikləri, İngilis dili, struktura, semantika, inkişaf
Key words: negative pronouns, English language, structure, semantics, development
Ключевые слова: отрицательные местоимения, английский язык**,** структура, семантика, развитие

Negatıve placenames ın modern englıs structural-semantıc characterıstıc

Summary

The negative pronouns in the English language are as follows: no, nobody, no-one, nothing, none, neither. The negative pronoun No means a definite negation and requires the processing of a noun after it, that is, it cannot be used without a noun. After this negative pronoun, both count and non-count nouns can be used. can. . In compounds that indicate quantity, the preposition of can be used after the pronouns some, any, all, both, many, much, none, each, either, neither, if it refers to a certain group of objects or persons, and in such a case, after them, the personal pronoun whether the object case, the absolute form of the possessive pronoun, or the definite article or demonstrative pronoun is used in front of the noun,

Отрицательные местоимения в современном английском языке структурно-семантическая характеристика

Резюме

Отрицательные местоимения в английском языке следующие: нет, никто, никто, ничего, никто, ни один. Отрицательное местоимение No означает определенное отрицание и требует обработки существительного после него, то есть его нельзя употреблять без существительного. После этого отрицательного местоимения могут использоваться как числимые, так и неисчисляемые существительные. душа.

В сложных словах, обозначающих количество, предлог of может употребляться после местоимений некоторые, любой, все, оба, многие, много, никто, каждый, либо, ни, если он относится к определенной группе предметов или лиц, и в таких падеж, после них личное местоимение, независимо от того, стоит ли перед существительным падеж, абсолютная форма притяжательного местоимения или определенный артикль или указательное местоимение,

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru,dosent Nuriyyə Rzayeva

Nuriyyə Əsgər qızı Rzayeva [4]

İNGİLİS DİLİNİN AVSTRALİYA LƏHCƏSİ VƏ ONUN BAŞQA VARİANTLARDAN FƏRQLİ XÜSUSİYYƏTLƏRİ

Giriş. *İngilis dilinin avstraliya variantının yaranması tarixi.* Avstraliya Avropalılar tərəfindən kəşf edilmiş axırıncı böyük torpaq sahəsidir. XVII əsrdə Avstraliya qitəsində əhalinin məskunlaşması təsdiq edildikdən sonra ingilis höküməti bu yeni ərazini mənimsəyərək onu mühacirət yeri kimi istifadə edirdi. Qitəyə ilk köçürülən əhali 1788-ci ildə Yeni Cənubi Uels sahillərində məskunlaşdırılırdı. Beləliklə, ilk dəfə ingilis dili Avstraliyaya XVII əsrin axırlarında, 1788-ci ildə Yeni Cənubi Uels adlanan ştata ilk əhalinin məskunlaşması ilə gəldi. V.Ramson öz əsərində belə yazırdı: "XIX əsrin ortalarında, Avstraliyada qızıl yataqları aşkar olunduqdan sonra buraya gələn sakinlərin sayı sürətlə artmağa başladı. Qızılın aşkar edilməsi Avstriyanın həm ictimai, həm də iqtisadi quruluşunda mühüm dəyişikliklərin baş verməsinə səbəb oldu. Beləliklə, XIX əsrdə Avstraliyada qızılın tapılması bura olan marağı, miqrasiyanı gücləndirdi. Burada məskunlaşan əhalinin 99,5% ingilis, 0,5% italyan, yunan, çin və s. idi. Avropanın bir çox hissələrindən gəlmiş yeni avstraliyalılar adlanan immiqrantların hesabına əhalinin sayı xeyli artdı (1, s. 146-158). Avropalılar Avstraliya qitəsinə gələndə burada yaşayan əhali naməlum dildə danışırdı. Avstraliyada ingilis dili isə əsasən XIX əsrdə formalaşmağa başladı. Yerlilərlə ingilis mənşəli immiqrantların, habelə alman, italyan, skandinav və s. mənşəli adamların qarşılıqlı ünsiyyəti nəticəsində ölkədə danışılan ingilis dilində xeyli alınma sözlər meydana çıxırdı. Bununla da ədəbi dilin milli variantının ilk ünsürləri formalaşmağa başladı.

Əsas hissə. Bu dövrdə Avstraliyada danışılan ingilis dilinin özünəməxsus olan xüsusiyyətləri meydana çıxdı və Britaniya adalarında danışılan ingilis dilindən fərqlənməyə başladı.Avstraliya tələffüzü haqqında ilk məlumat isə artıq avstraliyalıların ilk nəslinin böyüdüyü illərə - XIX əsrin 30-cu illərinə təsadüf edir. Mak Berni adlı kollec direktoru Avstraliyada iki cür tələffüzün olduğunu yazmışdır: yaxşı tələffüz (good speech) və "kokni". Mak Berni "Avstraliyanın bəzi ştatlarında tələffüz fərqi" adlı əsərində qeyd edirdi: "Viktoriya, Tasmaniya,Yeni Cənubi Uels və Kuinslend ştatlarında avstraliyalıların tələffüzünü çox diqqətlə müşaidə edərək "kokni"yə bir sıra xüsusiyyətlər aid etmişdir. Məsələn, sözün sonunda 'g' səsinin buraxılması, "a" hərfinin demək olar ki, bəzi sözlərdə [ai] kimi tələffüz edilməsi, "o" hərfinin [ow] kimi tələffüzü, saitlər arasında "r" səsinin meydana çıxması kimi xüsusiyyətlər. Artıq Avstraliyada bəzi ingilis sözlərinin tələffüzü müəyyən qədər "Standart British English"dən fərqlənirdi. Beləliklə, XIX əsrin sonunda ingilis dilinin Avstraliya variantında onu Britaniya ingiliscəsindən fərqləndirən tələffüz fərqləri aydın görünürdü" (2, s. 16). XVIII əsrin axırlarında Avstraliyada dil ilə əlaqədar yaranmış mürəkkəb şəraiti səciyyələndirərək tədqiqatçılar dəfələrlə ingilis dilinin avstraliya variantının "Standart English"dən fərqli olduğunu bildirirdilər. Avstraliya variantının "Standart English "dən fərqli olduğunu müəyyən edən amillər içərisində ən mühümü əsas dilin, yəni qitəyə daxil olan dilin müxtəlif tərkibli olmasıdır. Dilin bu müxtəlifliyi ingilis dilinin əsas daşıyıcıları üçün xarakterik olan yerli dialekt və slenqlərin mövcudluğundan asılıdır. Bundan başqa yeni həyat tərzi və ətraf mühitdə ictimai zəruriliyin meydana gəlməsi də ən mühüm amil hesab edilməlidir. "İngilis dilinin Avstraliya variantının fərqli istiqamətdə inkişafını şərtləndirən amillərdən biri ondan ibarətdir ki, burada milli dil daha çox Britanyadan gətirilmiş ayrı-ayrı dialektlərin əsasında formalaşan bir dil idi. Avstraliyaya sürgün olunanların əksəriyyəti İngiltərənin cənubundan və İrlandiyadan idi. Qitədə məskunlaşan əhali əsasən aşağı təbəqədən ibarət olduğuna görə burada yayılan ingilis dili A.Mitçellin fikrincə, fəhlə sinfinin, yəni kasıb, yoxsul və bisavadların dili olmuşdur. Lakin bununla bərabər, qitədə məskunlaşan əhali arasında varlı siniflərin- məmurıarin, zabitlərin, ziyalıların və s. təbəqənin də nümayəndələri az deyildi. Avstraliyaya gətirilən "Standart English" məhz onlar tərəfindən istifadə olunurdu. Koloniyalaşmanın ilk illərindı ölkədə orta əsr-həbsxana rejimi hökm sürürdü. Avstraliyanın həmin dövrünü "jail on a large scale" - böyük türmə dövrü adlandırmışdılar. Həmin dövrdə ölkənin maddi və mənəvi vəziyyəti çox aşağı idi, milli ədəbiyyat formalaşmamışdı, əhali təbii fəlakətlərə, vəhşi heyvan və ilanlara qarşı ağır mübarizə dövrünü yaşayırdı.Bu amillər xalqın mədəniyyət və dilinə təsir etməyə bilməzdi" (3, s. 123-136). XIX əsrin30-cu illərinədək ölkədə danışılan ingilis dilindən demək olar ki, heç bir mənbə yox idi. Yalnız 1812-ci ildə nəşr edilmiş Avstraliya **slenqlərinin** lüğəti idi. Həmin dövrdə Avstraliya ləhcəsi artıq xeyli slenq və ifadələrlə zənginləşmişdir.

E.C.Ueykfild bu barədə öz fikirlərini belə izah edirdi: "XIX əsrin təhsil görmüş ingilisləri Avstraliya variantının tamamilə "vulqarlaşmış" ingilis dilinə bənzər bir dil hesab edirdilər. Onlar qitədə məskunlaşan əhalinin danışıq və tələffüzünə öz mənfi münasibətlərini bildirirdilər. Bu baxımından E.C.Ueykfildin münasibəti diqqəti cəlb edir. O yazırdı ki, "aşağı siniflərdən olan adamlar Avstraliyaya özlərinəməxsus bir dil gətirmişlər və düzgün ingilis dili bu koloniyanın dili deyildir və çətin ki olsun". Lakin 11 ildən sonra E.C.Ueykfildin fikirləri bir qədər dəyişdi. 1840-ci ildə özünün "Sidneydən Məktublar" adlı əsərində yazdığına görə "türmədən tutmuş qubernatorun iqamətgahınadək hər yerdə slenqlərdən geniş istifadə olunur. Əgər ölkənin qanunverici parlamenti yaranarsa, onda belə leksikon tamamilə münasib və "qanuni" şəkil ala bilər" (4, s. 213). D.Von və E.E.Morris bu haqda yazırdılar: "Beləlikə, İngilis dilinin Avstraliya variantının meydana çıxmasında slenqlərin əhəmiyyəti böyük olmuşdur. D.Vonun tərtib etdiyi lüğət belə slenq və arqo layını geniş təmsil etmişdir. Lakin bu lüğət əslində AUE-nin həqiqi vəziyyətini əks etmirdi. Bu lüğətdə yerli əhalinin dilindən götürülmüş sözlərə demək olar ki, rast gəlinmirdi və həmçinin Avstraliyada artıq çox geniş şəkildə istifadə edilən bədii avstralizmlər yox idi. Lüğətdə verilən bəzi leksik vahidlər XIX əsrin ortalarına qədər çox tez-tez işlədilsə belə, onlar kolonistlərin gündəlik nitqinə daxil olmadi və **arqotik** ifadə kimi fəaliyyət göstərməklə davam edirdi. D.Vonun bu lüğəti Avstraliyada ingilis dilinə

[4] Azərbycan Texniki Universiteti "Xarici dillər"kafedrasının dosenti, fil.f.dok

həsr edilmiş ilk leksikoqrafik lüğət idi. Həmin lüğətdə öz əksini tapmış avstralizmlərin bir hissəsi sonralar bədii ədəbiyyata da daxil olmağa başladı. Bir çox yazıçılar bu lüğətdə verilən **(**sözlərdən istifadə edərək öz əsərlərində o dövrün vəziyyətini və yaşayışını təsvir edirdilər" (5, s. 146-178). XIX əsrin axırlarınadək **slenq və arqoları** əks etdirən daha bir neçə lüğət nəşr olunmuşdur. Bir çox lüğətçilərin fikrincə, Avstraliya slenqləri bilavasitə Avstraliya həyat tərzini əks etdirdiyindən onları slenq yox, söz hesab etmək daha dogru olardi.

XIX əsrin 30-cu illərindən başlayaraq Avstraliyada ədəbi dilin, xüsusilə də onun yazılı formasını təsir dairəsi genişlənməyə və ölkədə dövrü mətbuat nəşr olunmağa başlandı. "Waddy" (a club). "Croppy" (consict) kimi sözlər artıq koloniyaların dilindən tədricən aradan çıxaraq ədəbi dilə məxsus sözlərlə əvəz olunmağa başladı. İngilis dilinin Avstraliya variantının formalaşmasında aborigenlərin də dilinin müəyyən təsiri olmuşdur. Aborigenlərin dilindən alınmış sözlər əsasən flora və fauna ilə əlaqədardır. Yerlilərin bir sıra sözləri miissionerlərin hesabat və jurnalları hesabına dildə normalaşmaöğa başlamışdır. Bu proses 1836-1840-cı illərdə xeyli qüvvədə olmuşdur. Qızılın tapılması, bununla əlaqədar iqtisadiyyatın inkişafı ölkənin içərilərinə miqrasiyanı gücləndirmiş, ictimai-iqtisadi əlaqələri möhkəmləndirmiş və bütün bu proseslər ingilis dilinin Avstraliya variantında öz əksini tapmişdir. Ölkədə inkişaf etməkdə olan təhsil, əhalinin savadlı təbəqəsinin yüksəlməsi ədəbi dilin möhkəmlənməsində böyük rol oynamışdır. Lakin bu, artıq müstəmləkəçilər tərəfindən Avstraliyaya gətirilən ədəbi dil deyildi. Bu, qitədə özünəməxsus mühitdə inkişaf etmiş ədəbi dil idi. Bu ədəbi dilin inkişaf etməsində dialektlərin və müxtəlif leksik vahidlərin böyük rolu olmuşdur. Leksikada baş verən dəyişikliklər iki istiqamətdə gedirdi. Bir tərəfdən sözlərin mənaları və ya sözün özü tamamilə aradan çıxırdı. Məs.: **woods, fields, brook, stream, inn, village, vale, dale** və s. kimi sözlər demək olar ki, tez bir zamanda İngilis dilinin Avstraliya variantında istifadə olunmurdu. Digər tərəfdən isə İngilis dilində az işlənən, ya da qeyri-məlum olan sözlər Avstraliyada xüsusi əhəmiyyət kəsb edirdi və məhsuldar şəkildə istifadəyə daxil olurdu. Məs.: **bush, scrub, creek, township, Billabong, outbark, gully** və həmçinin Avstraliyanın flora və faunasına aid yüzlərlə yeni sözlər dilə daxil olurdu: **koala, kangaroo, dingo, malee, goana, kookaburra** və s . İngilis dilinin Avstraliya variantında istifadə edilən bəzi leksik vahidlərdən bir çox sözlər yaranmişdır. Yəni bu leksik vahidlər sözdüzəltmə meyarı idi. Məs: "**stock**" sözündən çoxlu sayda sözlər əmələ gəlmişdir: **stock- farm**, **stockrider, stockman, stockroute** və s. Bu sözlərdən "stockroute" Avstraliya variantında qara malın kəsilmək üçün otlaq rayonlardan aparıldığı marşrutu bildirir. Lakin belə şərait İngiltərə üçün yad olduğuna görə və İngiltərənin tamamilə başqa coğrafi və sosial şəraitə malik olmasına görə söz İngiltərədə öz ilkin mənasında işlədilirdi. Avstraliya variantının formalaşmasında bir sıra müxtəlif üsullar, məsələn yeni əşya və ya hadisəni ifadə edən mürəkkəb söz düzəltmək kimi üsullardan istifadə edilirdi. O dövrdə yaranmış leksik vahidlər əsasən kənd təsərrüfatı, coğrafi hadisə və obyeklərin adları ilə əlaqədardır. Bu sahələrdə istifadə olunan sözlərin əksəriyyəti Britaniya ingiliscəsində mövcud deyil, ya da çox nadir hallarda istifadə edilir. Məs.: **carcker, dee, pug, soak** və s. İngilis dilinin Avtraliya variantının inkişafının digər bir mənbəsi Amerika ingiliscəsindən alınmalar olmuşdur. Onlari əsasən 2 qrupa bölmək olar: 1) 1850-ci ilədək alınma sözlər; 2) Qızıl tapıldıqdan sonrakı dövrə aid alınma sözlər.

İngilis dilinin Amerika variantından alınmış birinci qrup sözlər, əsasən, əhalinin seyrək yaşadığı məskənlərin quruluşuna aiddir. Məs.: **block, location**, **section** və s. İkinci qrup qeyd etdiyimiz kimi qızıl tapıldıqdan sonrakı dövrə aid sözlərdir. Məs.: "bushranger, landshark" və s. Bu qrupa daxil olan sözlərin əksəriyyıti mədən sənayesinə aiddir. D.Lake lüğət haqqında belə yazırdı: **"**Avstraliya ingiliscəsinin inkişafında əlamətdar hadisələrdən biri kimi 1898-ci ildə nəşr olunmuş İngilis dilinin Avstraliya variantının leksikoqrafiyasını əks etdirən E.Morrisin və D.Lakenin lüğətləri olmuşdur. Öz zənginliyi ilə bu leksikoqrafik materiallar ingilis dilinin Avstraliya variantının inkişafında böyük rol oynamışdır" (6). "Avstraliyanın bitki adlarının bir qrupu ölkənin yerli xalqlarının dillərindəndir; **brigalow, gidgee, mulga, myall, yarrah** və s. Avropalı gəlmələrin 200 ildən artıq bir müddətdə yerlilərlə əlaqəsi onların dilində əks olunmaya bilməzdi. Bu alınma sözlərin böyük əksəriyyəti məhz Avstraliya realiyaları ilə, o cümlədən də ölkənin zəngin bitki aləmi ilə bağlıdır" (7, s. 23). **Boomerang** - bu, Avstraliyanın yerli əhalisinin qədimdən bəri işlətdiyi məhşur silahın adıdır. Bu silahın əsas xüsusiyyəti ondan ibarətdir ki, o atıldıqdan sonra yenidən atıldığı nöqtəyə qayıdır. Həmin sözün aborigenlərin dilindəki **woomera** sözündən olduğu göstərilir. **Cooee (coo-ee) (kui).** Aborigenlərin meşənin dərinliklərində bir-birini axtararkən çıxardıqları səs. Bu səs onlar arasında öz xalqdan almış ingilislər də işlətdikləri üçün onların dilinə daxil olmuşdur. **Corrobree** - abrogenlərin səs-küylü bayramlarından biri. Bu bayram zamanı dini ayinlər icra olunur və rəqs edirlər. Bu bayramın adı hətta frazeologiyaya daxil olmuşdur: **corroboree water** Avstraliya ingiliscəsində"ucuz şərab" mənasını verir. **Didgeridoo (didgeridu)** - "musiqi borusu". Aborigenlərin əsas musiqi aləti.

Nəticə. Beləliklə, ingilis dilinin Avstraliya variantının inkişafında aşağıdakı cəhətləri aydın görmək olar: - Ingilis dilinin Britaniya variantı ilə XVIII əsrin sonunda Avstraliyaya gətirilən ingilis dili arasında fərqli xüsusiyyətlərin yaranması Avstraliyanın özünəməxsus etnoqrafik və ictimai şəraiti ilə, məskunlaşma dövrünün tarixi xüsusiyyətləri ilə sıx bağlı olmuşdur. İlkin dövrdə Avstraliya variantının meydana çıxmasında linqvistik amillərlə sıx qarşılıqlı əlaqədə olmuş təbii amillərin böyük rolu olmuşdur. Avstraliya variantının formalaşmasında Böyük Britaniyadan gətirilmiş dialektlər, aborigenlərin dillərinin təsiri, həmçinin qeyri-ingilis immiqrantların dilləri böyük əhəmiyyət kəsb etmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Ramson W. Australian English. Canberra, 1966, p. 146-158.
2. Mark Berni. Avstraliyanın bəzi ştatlarında tələffüz fərqi. Kanberra, 1889, p. 16.
3. Michel A. and Delbridge A. The Pronunciation of English in Australia. Sydney: 1965, p. 123-136.
4. Ueykfild E.C. The English Language in Australia and New Zealand. London, 1966, p. 213.
5. Von D. and Morris E.E. Australian English. A Dictionary of Australian Words, Phrases and Usages. London, 1898, p. 146-178.
6. Lake D. A Dictionary of Australian Words. Springfield, 1898, p. 248.

7. Jespersen, Otto. Growth and Structure of the English Language. 10th ed. Oxford: Basil Blackwell, p. 23

Açar sözlər: dil, söz, lüğət, dialekt, slenq, tələffüz, qitə, əhali, avstraliya variantı
Key words: language, word,dictionary, dialect, sleng, pronunciation, continent, population, Australian variant
Ключеевые слова: язык, слово, словаръ,диалект, сленг, произношение, континент, население, австралийскии вариант

The Australian dialect of english and its different characteristics from other variants

Summary

English language firstly arrived in Australia at the end of XVIII when the first English colonists settled in this continent. English language in Australia mainly started to develop in XIX century and differed from the English language spoken in British islands in specific features. Local dialects, slangs played an important role in the development of Australian variant of the English language. Settlers of Australia used many dialects and slangs in their speech. As the English language spoken in this continent was considered to be the language of poor and illiterate people, it considerably differed from "Standart English". Aboriginal language, as well,as borrowings form American English had a deficite influence on the development of Australian English.

Австралийский диалект английского языка и его отличия от других вариантов

Резюме

Впервые английский язык в Австралию прищел в конце восемнадцатого века с поселением первых английских колонистов. В основном английский язык в Австралии начал формироваться в девятнадцатом веке и отличался своей особенносотью от английского языка Британских островов. Сленги и местные диалекты имели важное значение в формировании австралийского варианта английского языка. Население нижнего уровня, которое поселилосъ в Австралии, использовало в своей речи много диалектов и жаргонов. В соответствии с этим, английский язык, распространенный на континенте, считался языком бедных и неграмотных и резко отличался от стардартного английского языка. Язык аборигенов, слова, заимствованные из американского английского языка имели определенный эффект в формировании австралийского варианта.

RƏYÇİ: dos. L.Ələkbərova

Lalə Aslan qızı Hüseynova [5]

İNFORMASİYA AXINI DÖVRÜNDƏ İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ PROSESİNDƏ MORFOLOJİ TRANSFORMASİYA

Giriş. Məlum olduğu kimi, tərcümə sənəti insan fəaliyyətinin, onun digər yüksək səviyyəli mədəniyyətləri, ədəbiyyatları öyrənməyə can atan ehtiyacının nəticəsi olaraq meydana gəlmişdir. Deməli, tərcümə sənəti ehtiyacdan, tələbatdan yaranmış bir fenmendir. Onun tarixi cəmiyyətin tarixi ilə yaşıddır. Bu iş hər bir xalqın bədii, elmi, kütləvi irsinə olan marağından doğub, təkmilləşə-təkmilləşə inkişaf edib formalaşmışdır. Tərcümə tarixi və prosesi mürəkkəb bir inkişafın nəticəsidir. Bu prosesdə informasiyanın ötürülməsi yolları çətin ziqzaqlardan keçir. Bununla belə, bu prosesin terminoloji vahidləri lüğətlərdə lakonik şəkildə izah və təhlil edilmişdir. Tərcümə prosesi dilçilik kateqoriyaları ilə üzvü şəkildə bağlıdır. Tərcümənin bütün növləri araşdırılmış, bu növlər üçün ümumi olan və onun kefiyyətini təmin edən əsas mexanizm dərindən müəyyənləşdirilmişdir.

Nitq fəaliyyətinin müxtəlif növləri, nitq komunikasiyası, nitq konsepsiyası, nitq situasiyası, nitq zənciri, nitq həlqəsi, nitq şüuru, nitq aktı və s. nitqin müxtəlif növləri ilə bağlı terminlər tərcüməşünaslıq problemləri ilə əlaqəli və dərinləşdirilmiş şəkildə təhlil olunur. Praktik tərcümədə ilk növbədə qarşıya məqsəd qoyan tərcüməçilər mətn seçmə ilə bağlı bir sıra məqamlarda diqqət yönəltməsinin zərurətini vurğulamaqla, bunların sırasında tərcümə zamanı yazıya alma metodu, tərcümə metodu, mətnin seqmentasiya metodu, statistik oppozisiya metodu, transformasiya metodu və s. məsələləri dərindən təhlil etmələdirlər.

Lüğətlərdə əksinə tərcümə, ümumi tərcümə nəzəriyyəsi, onun başlıca mahiyyəti, mətnin janr spesifikasından asılı olmayaraq tərcümənin ümumi qanunauyğunluqları, onun həyata keçirilmə şəraiti və xüsusiyyətləri, tərcümə təsviri, anlayış aparatı, tərcümə nəzəriyyəsinin xüsusi konseptual bazasının yaradılması, tərcümə nəzəriyyəsinin digər dil və qeyri-dil fənləri ilə əlaqələrinin mövcudluğu, tərcümə modelinin yaradılması, ümumi tərcümə nəzəriyyəsinin universallarını tədqiq etməsi, hərbi xarakterli tərcümə mətnlərinin xüsusiyyətləri, paradiqma, cümlə paradiqması, paradiqmatika, paradiqmatik cərgə, paradiqmatik yuva və s. məsələlər müfəssəl əksini tapmalıdır. "Tərcümə" insanın nitq-dil fəaliyyətinin mürəkkəb növlərindən biridir. Burada, adətən tərcümə prosesinin özü, ya tərcüməçi fəaliyyətinin şifahi-yazılı mətn, deyimin özünün nəticəsi nəzərdə tutulur. Tərcümə öncəsi ikidillik şəraitində baş verir ki, bu prosesdə ən azı iki dil iştirak edir, daha doğrusu, dillərarası stiuasiyada inkişaf edir. Belə olduğu halda, tərcüməni dillər arasında gedən dəyişmə, şifahi və yaxud yazılı mətnin transformasiyası kimi də nəzərdən keçirmək olar ki,dil cəmiyyətin movcud kommunikativ təbii sistemidirsə,nitq-kamunikasiyası prosesində informasiya ötürülməsində dilin fəaliyyətidirsə, deməli, konkret niqt əsərində onun digər dil vasitələrinin köməyi ilə informasiyanın mahiyyətinin verilməsi prosesi gedir. Buna görə də, tərcümə prosesini həm də ikidillilik şəraitində psixilinqvistik fəaliyyətin mürəkkəb növü kimi nəzərdən keçirmək olar" (1, s. 166-173). Tərcüməyə aşağıdakı kimi tərif vermək bizcə doğru olardı: 1. Tərcümə dil fəaliyyəti növlərindən biri kimi bir dildə deyilmişlərin digər dilin vasitələri ilə yetkin və adekvat şəkildə verilməsidir. Adekvat və yetkin, tam tərcümə əslin məzmun və kefiyyətlərini, onun bütün struktur xüsusiyyətlərini, üslubunu, leksika və qrammatikasını, tərcümə dilində bütün cəhətləri ilə düzgün, dəqiq və tam şəkildə verilməsi nəzərdə tutulur. 2. Tərcümə mətnin (yaxud şifahi nitqin) bir dildən digər dilə keçirilməsi deməkdir. 3. Tərcümə hər hansı mətnin, yaxud şifahi nitqin digər dilin-ikinci bir dilin köməyi ilə verilmə prosesidir. 4. Tərcüməçinin fəaliyyətinin nəticəsi mətndir. 5. Tərcümə (tərcümə prosesi) bir dildə deyilmiş fikirlərin (hiss və emosiyaların) digər dilin vasitələri ilə verilməsidir. 6. Hər bir konkret əsərdə olan informasiyanın digər dilin vasitələri ilə verilməsidir.

Q.Bayramov öz əsərində qeyd edir: "Tərcüməçi dil mətninin yenidən kodlaşdırılmasıdır ki, bu zaman onun dil obrazı və üslubi forması yaranır. Bunun nəticəsində tərcümə affirimativ olur və mətnlərarası (metamətn) əlaqə xarakteri kəsb edir. Nəzərə alsaq ki, dillər, üslublar və mədəniyyətlər arasında fərqlər movcuddur, orjinal zaman hərfi səviyyədə realizə oluna bilməz,yalnız ekvivalentlik (modelləşmə) prinsipi əsasında gərçəkləşmişdir. Bu mənada tərcüməçilik fəaliyyəti yaradıcılıq variantı, yaxud eksperimental yaradıcılıq kimi özünü göstərir" (2, s. 215-242). Tərcümə-adaptasiya-poetik mətnin nəsr formasında adaptasiyası-burada mətnin nəinki haqsızlıq oxucu üçün adaptiv uyğunlaşmasının ənənəvi istifadəsində müstəqil tərcümə janrında (sadələşdirmə, ixtisar etmə) poetik mətnin prozatik adaptasiyası, həm də tərcümə mətninin bu üslubun elementləri ilə zənginləşməsi baş verir. Tərcümə -devalvasiya- bu, elə poetik mətndir ki, tərcüməçinin qeyri-peşəkarlığı üzündən orjinal haqqında təhrif olunmuş təsəvvür yaranır. Bu isə öz növbəsində tərcümə olunan şairin reputasiyasına mənfi təsir göstərməklə yanaşı, onun mədəniyyətlərarası dialoqunda zəifləməyə səbəb olur. Tərcümə edilmiş orjinal ədəbi əsərin müəllifi ilə tərcümə qəbuledicisi arasında gedən aktdır ki,ədəbi kommunikativ tərcümə olduğunu qəbul edə, yaxud qəbul etməyə bilər. Tərcümə olunma, mətndə oxucu gözləməsi kimi realizə olunur və oppozisiyaların çarpazlaşması ilə həyata keçirilir: protomətn-metamətn, aktuallaşma-ekzotizasiya, tarixləşmə, modelləşmə. Tərcümə ekvivalenti-tərcümə nəzəriyyəsində orjinal mətnin müəyyən vahidinə ekvivalent olan tərcümə mətnin vahidi başa düşülür. Tərcümə hesablayıcı leksikoqrofiya bu, maşınların köməyi ilə tərcümənin ehtiyacını ödəmək üçün tezlik lüğətlərinin tərtibi və istifadə olunması ilə məşğul olur.

Tərcümə məktəbi tərcüməçilərin ictimai mövqelərinin ideya estetik orientasiyası əsasında tərcüməçilik metodu və ədəbi savad xarakteri səviyyəsində birləşməsidir. Tərcümə mətndə adaptasiya mətnin mövzusuna və onun elementlərinə (personajlarına) aid olan tərcümənin işlənib hazırlanmasıdır. Buna qəbuledicilərin və qəbul edən mühitin ədəbi-mədəni

[5] Azərbaycan Tibb Universiteti "Xarici dillər" kafedrasının baş müəllimi kuseynovalala@gmail.com

kommunikativ maraqlarını qoruyan **adaptasiya** da deyilir. F.Veysəlli "Struktur dilçiliyin əsasları" əsərində yazır: **"**Tərcümə mətnində zaman aspekti bu orjinal tərcümə mətni arasında zaman məsafəsi ilə şərtlənən kommunikativ dəyişiklikdir. Zaman aspekti iki əsas səviyyədə proyeksiyalaşır mətnin maddi substratıv səviyyəsində (qrammatik zaman) və mətnin semiotik funksiyası səviyyəsində (zaman mədəniyyəti fenomeni kimi) baş verir. Tərcümədə isə bu ölçü orjinalın zaman yaxınlaşdırılması, yaxud uzaqlaşması ilə ifadə olunur, bu isə tərcümənin kommunikativ mövqeyindən asılıdır. Orjinal mətndə realizə olunmuş mədəni kod öz intensivliyinə görə üst-üstə düşə bilər, düşməyə də bilər" (3, s. 106). Başqa sözlə, deyim çərçivəsində tərcümənin bir neçə variantı mümkündür. Fikir-nitq fəaliyyəti olmaqlaq üç ardıcıl mərhələni özündə birləşdirir. İlkin dildə olan ifadələrin fikrini başa düşülməsi, təfəkkürün bir obyektdən digərinə qoşulması, tərcümə dilinin vasitələri ilə fikrin ifadəsidir. Buradan belə bir nəticə çıxır ki, tərcümə nitq fəaliyyətindəki digər dörd növə nisbətən şifahi nitq, məruzəyə qulaq asanlar, yazılı nitq və özü-özünə oxuyan nisbətən ikincidir; Tərcümənin hər hansı növü üzrə bacarıq vərdişlərin nitq fəaliyyətinin iki növündən (şıfahi nitq, yazılı nitq) və bir dildən başqa dilə keçid təfəkkürünü tərcümənin hər hansı növünü yuxarıda qeyd etdiyim nitq fəaliyyətinin iki növünə bölmək mümkündür. Tərcümə transfamasiyaları-müvafiqliyin üçüncü kateqoriyasıdır ki, burada nitq vahidlərinin mənalarında asılı olan uyğunluğu tərcümənin özü yaradır. Belə olduğu halda, təsviri tərcümə tərcüməçinin köməyinə çatır və məntiqi təfəkkürün konkretləşməsi ilə bağlı, mənanın generalizasiyası, anomatik tərcümə və s. köməyə gələ bilir.

A.Qurbanov "Ümumi dilçilik" kitabında tərcümə haqqında yazır: "Tərcümədə tranformasiya - tərcümə zamanı orjinalın dilinin, mövzusunu, uslubunun modifikasiyası, tərcümənin yaradılması şəraitində orjinalın invariant nüvəsidir. Tərcümədə tranformasiya müəyyən dərəcədə ekvivalentlik dərəcəsi yaradır, daha doğrusu, burada tərcümənin orjinala yaxınlaşdırılma dərəcəsi nəzərdə tutulur (4, s. 145-177). Tərcüməçilik kompetensiyası tərcümə prosesində mühüm amil olmaqla dərk etmək, reseptiv kompetensiyasını eyni zamanda qısa və dürüst ifadə etmənin daha məhsuldar kompentasiyasını birləşdirir. Başqa sözlə, tərcüməçilik kompentasiyası ilkin mətnin başa düşülmə bacarığını özündə birləşdirir. Beləliklə, terminlərin düzgün başa düşülməsi və tərcüməsi heç də yalnız dili yaxşı bilməklə əlaqədar deyildir, bu həm də xarici və Azərbaycan gerçəkliyində olan realiləri yaxşı bilməkdən irəli gəlir.Tərcümə edərkən həmişə konkret şəraitdə, konkret kontekstdə terminin real mənasını nəzərə almaq lazımdır. Eyni zamanda, cəmdən istifadə edərkən terminin mənasını dəyişmək mümkündür. Beləliklə, terminlərin düzgün başa düşülməsi və tərcüməsi təkcə dili yaxşı bilməklə deyil, həm də xarici və Azərbaycan reallıqlarını yaxşı bilməklə bağlıdır.

İngilis və Azərbaycan dilləri morfoloji qurumuna görə müxtəlif, fərqli dillərdir: ingilis dili flektiv, Azərbaycan dili aqqlütinativ quruluşlu dillərdir. Təbii ki, bu, tərcümə prosesində çətinliklərə səbəb olur.Bu çətinliklər tərcümədə morfoloji transformasiyalar vasitəsilə aradan qaldırılır.Məqalədə tərcümə prosesində artikl, kəmiyyət kateqoriyası və nitq hissələrinin transformasiyası nəzərdən keçirilmişdir.

1. Artiklin transformasiyası. İngilis dilində artikl mövcuddur. Düzdür, bu dildə artikl, məsələn, alman və fransız dillərində olduğu kimi mühüm rol oynamır, lakin, hər halda, bir sıra vəzifələr (funksiyalar), o cümlədən müəyyənlik və qeyri-müəyyənliyi bildirmək vəzifəsini icra edir: ingilis dilində **a** artikli qeyri-müəyyənlik, **the** artikli isə müəyyənlik bildirir. Məsələn: "Give me a book - Mənə kitab ver" deməkdirsə, Azərbaycan dilində artikl yoxdur, lakin Azərbaycan dilində müəyyənlik və qeyri-müəyyənlik anlayışı mövcuddur və ingilis dilindən edilən tərcümələrdə bu nəzərə alınmalıdır.

a) **Qeyri-müəyyənlik artikli.** İngilis dilində qeyri-müəyyənlik anlayışını ifadə etmək üçün **a** artikli işlədilir. Bu artikl ingilis dilində, əsasən,təsnifləyici funksiya yerinə yetirir: o, əşyanın fərdi səciyyəvi xüsusiyyət və əlamətlərindən asılı olmayaraq əşyanın müəyyən əşyalar sinfinə daxil olduğunu göstərir. **Məsələn:** From the anxious depth within her there Bəzən ingilis dilində qeyri-müəyyənlik artikli özünün ilkin **one – bir** mənasında işlənir. Belə məqamda artiklin mənası uyğun lekseman artırılması ilə tərcümə edilir. **Məsələn:** Yet H.Y. (Wells) had not an enemy on earth (Y.B.Shaw) – Lakin Herbertin dwnyada heç bir düşməni yox idi. Bəzən qeyri-müəyyənlik artikli söyləmin semantikasını xeyli dəyişir.

b) **Müəyyənlik artikli.** İngilis dilində müəyyənlik bildirmək üçün **the** artikli işlədilir. Bu artikl məhdudlaşdırıcı funksiya yerinə yetirir. Elmi ədəbiyyatda göstərilir ki, **the** artikli əşyalar sinfindən əşyanı ayırır, onu özünəbənzərlərdən təcrid edir, konkretləşdirir. Bu artikl işarə əvəzliyindən yaranmışdır və bəzən özünün ilkin – işarə əvəzliyi mənasını yerinə yetirir.

2. Nitq hissələrinin transformasiyası. Tərcümədə nitq hissələrinin əvəzlənməsi morfoloji transformasiyanın ən geniş yayılmış növüdür. Nitq hissələrinin bu cür əvəzlənməsi İngilis və Azərbaycan dilinin müxtəlif qrammatik quruluş tipinə aid olması və sözlərin işlənməsi və birləşməsinin müxtəlif normalarda olmasından irəli gəlir.Tərcümədə transformasiya hadisəsi özünü ən çox əvəzliklərdə göstərir.Məlum olduğu kimi, ingilis dilində üçüncü şəxs təkdə əvəzliyin üç tipi vardır, daha doğrusu, əvəzliyin üçüncü şəxs təkində qrammatik cins kateqoriyası mövcuddur: **he, she, it.** Təbii ki, hər üç əvəzlik Azərbaycan dilində **o** əvəzliyi ilə tərcümə edilməlidir.Bundan qaçınmaq üçün Azərbaycan dilinə tərcümədə tez-tez **h** əvəzliyi kişi, oğlan, **she** əvəzliyi isə qız,qadın, arvad isimləri ilə əvəz edilir. **Məsələn:** ... he reproached himself for having sent the back (D.Davin) - ... oğlan qızı geri qaytardığına görə özünü məzəmmət edirdi.

Nəticə. Beləliklə, ingilis dilindən edilən tərcümələrdə əvəzliklərin isimlə əvəz edilməsi adi haldır və tərcümədə dəqiqləşməyə xeyli dərəcədə kömək edir. **Məsələn:** I look possession of his effects after his death, I explained. They were done up in a parcel and I was directed to give them to you (S.Maugham) – Onun ölümündən sonra nə qalmışdısa, hamısını mənə verdilər, - mən izah etdim. Məktublar və portsiqar zərfə qoyulmuşdu və zərfin üstündə yazılmışdı: şəxsən ledi Kastellana təqdim edilsin. Bu tərcümədə **they – onlar** və **you – sən** əvəzlikləri mətnin kontekstindən çıxış edərək **they** məktublar və portsiqar, **you** isə ledi Kastellan isimləri ilə transformasiya edilmişdir. S. Barxudarov bunun "tərcümə edilən bütün mətn səviyyəsində semantik ekvivalentliyin müəyyənləşdirilməsi" adlandırır. İngilis dili mətnlərində sifət köməkçi

feillərlə birlikdə **predikative** birləşmə əmələ gətirib cümlənin xəbəri kimi işləndikdə Azərbaycan dilinə feil kimi tərcümə edilir, başqa sözlə desək, feillə əvəzlənir. İngilis və Azərbaycan dillərinin qrammatik quruluşundakı bəzi mühüm fərqləri bilmək və bunları tərcümə zamanı nəzərə almaq lazımdır.

İstifadə edilmiş ədəbiyyat

1. Dilçilik problemləri və mülahizələr. Bakı, 2003, səh: 166-173.
2. Bayramov Q.Tərcümə sənəti. Bakı, 2008, səh: 215-242.
3. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları. I- II, Bakı, 2005, 2008, s. 106.
4. Qurbanov A. Ümumi dilçilik. Bakı, 1989, səh: 145-177.

Açar sözlər: İngilis dili, qrammatika, metodika, tədris, praktika
Ключевые слова: английский язык, грамматика, методика, преподавание, практика
Key words: English language, grammar methods, teaching, practic

Резюме

В статье рассматриваются морфологическая трансформация в процессе перевода с английского на азербайджанский язык в информационной периоде, анализируются трудности перевода и их проделение а также трансформация артикля и части речи в современном английском языке. При переводе всегда необходимо учитывать реальное значение термина в конкретных условиях, в конкретном контексте. В то же время возможно изменение значения термина при использовании множественного числа.

Summary

During translation, it is always necessary to take into account the real meaning of the term in specific conditions, in a specific context. At the same time, it is possible to change the meaning of the term when using the plural. Thus, the correct understanding and translation of terms is not only related to knowing the language well, it also comes from knowing the realities of foreign and Azerbaijani reality.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Kəmalə Mehdixanlı

Sevda İslam qızı Abbasova[6]

AVŞAR ETNONİMİ HAQQINDA

Mənbələrdə iyirmi dörd ən qədim oğuz tayfa ittifaqına daxil olan böyük türk xalqı kimi göstərilən Avşarların (Abşarlar, Afşarlar, Ovşarlar, Əfşarlar) - tarix səhnəsində görünmə və özünün inkişaf tarixi, habelə yayılma arealları, o cümlədən Türk coğrafiyasında avşarlar: bax bu istiqamətdə mövzunun nəzərdə tutduğumuz araşdırması avşarların tarixi keçmişi, türk xalqları arasında yeri, mövqeyi, rolu, yaşam tərzi, hazırkı yerləşim mənzərəsi haqqında aydın bilgilərə aparan əlverişli istiqamət, yol olaraq dəyərləndirilməlidir.

Bir türk qövmü olaraq avşarların mənşəyi, ümumən tarixi və adlarının etimologiyası barədə ilk məlumatlara Oğuz dastanı "Oğuznamə"də, Mahmud Kaşqarlı lüğətində, Rəşidəddinin tarixi "Cəmi ət-təvarix"də, Əbdülqazi Bahadır xanın məşhur "Şəcəreyi-Türkman"ında rast gəlinir. Maqaqlıdır ki, afşarların adının lüğəvi mənası da hələ bu ilk araşdırmaçılardan başlayaraq hər bir dövr tədqiqatçılarını düşündürmüşdü. Afşar/Ovşar – bacarıqlı, cəld ovcu deməkdir deyənlər daha çoxdur. (3,33) Anadolu'daki en güçlü Türkmen boyu olduğu ve devlet yönetmiş sayılı boylardan olduğu kayıtlarda yer alan Afşarlar İran Devleti'nin başına Safevilerden sonra geçen ikinci Türk boyudur. Sonuçta bu Türk boyu geniş bir bölgenin tarihinde belirleyici unsur olmuştur.(5, 32). Azərbaycan dövlətçiliyi tarixində də müstəsna yeri olmuşdur, belə ki, "Afşarlar Safevi devletini kuran 7 Türk kabilesinden biridir " (6, 128). Bu boyun törəmə qolları güclü bəyliklər qura bilmişlər: İraqda – Mosul Atabəyliyi (Zəngilərin qurduğu bəylik), Anadoluda: Karamanoğulları, Gərmiyanoğulları, İnancoğulları, Sarıxanoğulları, Aydınoğulları, Sevindik xan bəyliyi Mərkəzi Osmanlı idarəsi qurulana qədər mövcud olmaqla öz müstəqilliyini saxlamışdılar.

Oğuzların tarixdə rolu və yeri barədə ciddi araşdırmalarıyla məşhur olan professor Faruk Sümər "Afşarlar – İranda hüküm sürmüş Bir Türk Hanedanı"adlı böyük məqaləsində Afşarların şöhrətini, tarixdə qoyduqları izlərə işarə ilə yəni, onların hakimiyyəti haqqında yazırdı: Bu hanedan Türk ilim aleminde Afşarlar olarak tanınıyor. İran kaynaklarında ise Əfşariyye denilmektedir. (4, 125); Afşarlar, Oğuz'un öteki torunları Kınıklar ve Kayılar gibi devlet kurmuş, büyük hükümdarlar ve sülaleler yetiştirmişlerdir.(6, 337) Yəni, bunlarla bərabər "Karamanoğulları, Akkoyunlular, Aksungurlular, Harezmşahlar, Özeroğulları, Sırkıntıoğulları, Karsantıoğulları, Küçük Alioğulları ve Kozanoğulları gibi, Afşarlardan kurulu ya da onların güçlü desteği ile yaşamış sülaleler de bulunmaktadır" (6, 337).1742-1746 Osmanlı-İran savaşı olarak bilinen savaş bir çox hallarda Osmanlı-Afşar Savaşı olaraq da tarixə keçmişdir. Afşarların 1071-ci il Malazgird döyüşündə Anadolunun türk yurdu halına gəlməsində Qayılar, Qınıqlar kimi ilk sıralarda yer aldıqlarını göstərən mənbələr mövcuddur. Onlar, türk ulusu içərində bir boy olduğuna baxmayaraq türk topluluğu arasında afşarların adı çox çəkilir. Afşarlar Oğuzların islamdan öncəki tarixində də əhəmiyyətli rol oynamış boylardan biridir.(3,30)

Afşarlar əsasən köçəri və yarımköçəri, yarıoturaq həyat tərzi keçirmişlərsə də, indi çoxunluqla oturaq həyata keçmişlər. Əhali əsasən heyvandarlıq və əkinçiliklə məşğuldur. 24 Oğuz təşkilati tayfa ittifaqı sayılan Oğuz-Türkmanlardan olan Avşarlara (Avşarlar//Afşarlar) Abşar //Ovşar) Gündüzlü, Bayat, İmirli/Eymurlu, Qırıxlı, Ustaclı, İnallı/Aynalı, Alplı, Araşlı, Bekeşli, Əhmədli, Kosa Əhmədli, Sığırlı, Qaralı, Araşlı, Hacı Samlı, Papağlı, Qaraçorlu, Şayıblı, Balabanlı, Qarabudağlı və s. tayfalar daxildir(5, 46, 74).

Beləliklə Avşarlar böyük bir xalqa – türk etnosuna mənsub olmaqla, öz mədəniyyətinin, dilinin (dialektinin) xüsusiyyətlərinə görə, Azərbacan türkləri, Türkmənlər, Anadolu türklərinin subetnik qrupu olaraq qəbul edilir. Güclü Oğuz-Türkman tayfası Avşarlar öz izlərini Türk Dünyası xəritələrində saxlamaqdadır: İranın Azərbaycan torpaqlarındakı, Əfqanıstanda Türk regionlarında - (daha çox Kabil altında), bir sözlə, Əfqanıstanda Cavanşir, Şahsevən, Bayat, Qaşqay, Köçəri, Kəbəri (Kəbirli), Şirvanlı və başqa Azərbaycan tayfa və tirələr sırasında Avşarlar da vardır.(9, 55, 109) Nəydi bunun səbəbi? XVI əsrdə afşarların əcdadları İranın şimal-qərbindən (Cənubi Azərbaycandan) Səfəvilər tərəfindən özbəklərə qarşı dayanmaq üçün Xorasana, ikinci etapda isə Məşhədə, Miyaba, Kubeğana köçürülüb yerləşdirilmişdilər. Bəzi uruğları Kabilə və Qəndəhara qədər irəliləmiş, burada Afşarlar ayrı-ayrı yaşayış məntəqələrini ələ keçirərək buranı özlərinə vətən qılmışlar. Avşarlardan böyük bir köçü də müasir Türkiyənin Qızıl İrmak çayı boyunda məskunlaşdırıldı, Qayseri diyarında üstünlük təşkil edirlər. Lakin hazırda onlar güclü assimilyasiya nəticəsində orta Anadolu ləhcəsində danışmadadırlar.

XVIII əsrin 30-cu illərindən başlayaraq Azərbaycanda yenə vəziyyət kəskin şəkildə dəyişmişdi. Ölkə ərazisi Osmanlı İmperiyası ilə Səfəvilər arasında qanlı döyüşlər meydanına çevrilmişdi. Ərazinin bir hissəsi əfqanlar, qərb hissəsi isə osmanlılar tərəfindən tutulduqdan sonra Səfəvilərin hakimiyyəti və dövlətin özünün mövcudluğu üçün ciddi təhlükə yaranmışdı. Bu durumda ölkənin daxili qüvvələrini birləşdirmək və daha ciddi tədbirlərə başlatmaq lazım idi. Dövləti yaxınlaşan labüd təhlükələrdən həmin anda güclü birlik olan Avşarlar, onların soyundan olan Səfəvi sərkərdəsi Nadir şah Afşar həyata keçirdiyi ağıllı tədbirlər nəticəsində qurtaracaqdı. Belə lazımi tədbirlərdən biri, bəlkə də ən önəmlisi ən güclü, qol-budaqlı Qızılbaş topluluqlarından ən seçkin, təşkilati tayfaları ölkə sınırlarına, mübahisəli ərazilərə köçürmək idi. Elə Əfqanıstandakı türk toplumlarının hazırda özlərini qızılbaş sanmaları bununla bağlıdır.

Türkmənistanın böyük vilayətlərində, Türkiyədə, Azərbaycanda, tarixi Qərbi Azərbaycanda (Ermənistanda), Qırğızıstanda, Altay ölkəsindəki Avşar və onunla bağlı soy-nəsil adlarını bildirən yaşayış yer adları həmin ərazilərdə avşarların – bu qədim türk boylarının yaşamasının tarixdən silinməyəcək izləri, faktlarıdır. Cənubi Azərbaycan, eləcə də İranın digər regionlarındakı Afşarlar bəzi istisnalar nəzərə alınmazsa, onların öz dillərinin təmizliyini türk dillərinin oğuz qolunun cənub qrupunda ayrıca dil kimi dəyərləndirir bə bu dili "azəri dili" adlandırırlar. İndiyədək avşarlar haqqında, istərsə

[6] APU Kadedra müdliri

də onların əsas məşğuliyyəti, sənəti barədə yetərincə danışılmamışdır. Afşarıar özlərinin xüsusi xalçaçılıq məktəbi ilə öyünməkdə haqlıdır; Avşar xalçaları əsasən Urmiya ətrafında toxunur. İranda Urmiyəyə bir Afşar şəhəri kimi baxıldığı da təsadüfi deyildir. Avşarların iqtisadi yaşamında qoyunçuluq təsərrüfatı ilə bağlı olan toxuculuq sahəsi də təbii ki, önəmli yer tuturdu. Onların toxuculuq məhsullarından kilim, cecim, кeçə, çadır, çuval, məfrəş, xurcun, heybə və sairə el-elat arasında yüksək dəyərləndirilirdi. Avşar elinin binə tutub, yaşam başlatdığı yerlərdə "Avşar" adlı xalça toxunurdu. Avşar xalçaları bütün Şərq köçərilərinin istehsal etdikləri xalçalar arasında ən kefiyyətlisi və zərifi hesab olunurdu. Tehranda çıxan "Bərrəsi-ye sənət-e fərş dər İran" nəşrinin verdiyi bilgiyə görə, Urmiyada istehsal edilən xalça növləri içərisində "Avşar" (daha çox fars dili tələffüzü ilə "Əfşari" adlanır) adlı xalçalar daha gözəl, daha keyfiyyətli idi. "Avşar" xalçalarının alıcısı çox olduğundan sonralar belə xalıların istehsalı Azərbaycanda və İranda yayılmağa başlanmışdı (3, 29). Türkiyədə mükəmməl əl sənəti kimi tanınan və "hana" toxuma dəzgâhında Afşar kilimləri qədimi üsullarla: yun və təbii rənglərlə, yəni boyaq kökləri ilə kilim ilə bərabər çul, oturacaq üzlükləri, at yəhəraltlığı, xalı-xalça və s. də toxunurdu. Avşar xalçasının başqa çeşidi də Ağcabədi bölgəsinin Avşar kəndində toxunurdu. Bu növ xalçalar da şan-şöhrət qazanmışdılar. Avşar ulusu həm çöl, həm də el dönəmində tutarlı mədəniyyət örnəkləri yaratmışdır və bu mövzudan müəyyən dərəcədə bəhs olunmuşdusa da məqsədimiz bütün bu cəhətlərə ayrıntılı və ciddi fikir verməkdir.

Oğuz-Türkman tayfası Avşar öz izlərini Türk Dünyası xəritələrində saxlamaqdadır. Xocavənd (Qarabağ) rayonu ərazisində Qaracuq dağı ətəyində tarixi ərazi – Avşar qəbristanlığı var. Düz Qırıxlı Tovuzda kənd, Ucar ray. Alpı kəndi, Əhmədli kəndi (Abşeronda) Ağcabədiyə bağlı Ovşar kəndi, Ermənistanda kənd adı,Türkmənistanda Balkan vilayətinə bağlı kənd, Ləbab vilayətində Ovşarlıq adlanan ərazilər, Qaramanlı – Salyanda kənd adları, Əhmətli Abşeronda, Bayat (Ağcabədi), Uzun Boyat (Şabran) Kemerevsk vilayətində Kuzbasa bağlı kənd), habelə Qırğızıstanda geniş yayılmışdır.

Türkiyədə Avşarların yayılma arealı çox genişdir – Ankara ili Balâ ilçesine bağlı mahalle, Afşar (Aksaray, Antalya, Konya Kütahya, Bolu, Kastamonu Bursa, Afyon Karahisar, Muğla, Amasya, Sivas, Aydın, Kahraman Maraş, İsparta Yenişehir, Sarıgöl, Manisə, Dinar ilçesine bağlı Afşar adlı köylər, həmçinin Balıkesirdə Koca Avşar köy adları dediklərimizə sübutdur. Anadolu coğrafiyasında Avşar tayfa birliyini təşkil edən – Gündüzlü (İnəgölə bağlı köy), Gündüzlü (Tekirdağ ilinə bağlı köy), Kırıklı (Adana, Osmaniyyə, Gümüşxana, Ankara),Ustaclı (Samsun), Bayat (Konya, Balıkesir, Afyonkarahisar, Kütahya, Çorumda - Bayat Saray), İnallı (Nevşehir), Karaman (Bartın, Balıkesir, Amasya), Aynalı (Düzcə, Kars), Alaplı (Zonquldak), Bekişli (Qaziantep, Uşak), Köseahmet (Erzurum) və s. yerləşim adları bu soyun güclü qollarını əks etdirir. Balkanlardakı Afşar tayfa qollarını təşkil edən Dulkadirli, Karamanlı, Danişmedlü və Bozuluslu oymakları da üstünlük təşkil edir. Aydınlıq üçün qeyd edək ki, Balkanlar'dakı türk əhalisi içərisində Afşar boyuna mensup insanlar əksəriyyət təşkil edir. Bu ailələr Karamanoğulları və Dulkadiroğulları bəyliklərinin Osmanlının köç siyasəti üzrə davamlı şəkildə 15-18-ci əsrlər arası köçürmə yoluyla Konya, Karaman, Adana, Mersin, Kahramanmaraş, Qayseri və Sivas torpaqlarından göndərilərək toplu şəkildə yerləşdirilmişlər.

Abşaran//Avşaran yarımadası adı rus tələffüzündə Apşeron şəklinə düşməklə Azərbaycanda böyük bir inzibati ərazini təşkil etməklə bərabər Apşeronskiy polk və Rusiyada bu addan doğan Kazak stanitsası, sonra şəhər adı olaraq da nümunələr yaratmışdır. Tarixinə baxıldıqda Rus ordu sistemində hərbi alayların şəhər adlarına bağlanması I Pyotr çağlarından başlaması məlumdur. 1724-cü ilin noyabr ayında Pyotr alayların daha polk komandiri polkovniklərin adı ilə deyil, onları təmin edən vilayət və şəhərlərin adları ilə adlandarılmasına sərəncam verdi(2, 47: 7,149). Müxtəlif memuar ədəbiyyatlarında, bədii, o cümlədən elmi qaynaqlarda qarşımıza çıxan belə adların sırasında türk yer adlarından doğan alay adları: Axtırskiy polk, Tenginskiy polk, Balaklavskiy polk, habelə Saratov, İsmayıl, Kremençuk, Temiryük, Kizlyar, Ak kerman, Buqulma, Çembar, Navahi və s. kimi türk şəhər adları ilə yanaşı Azərbaycanla bağlı Karabağskiy polk, Zaqatalskiy, Şirvan polkları ilə bir sırada Apşeronskiy alayı da olmuşdur. Pyotrun 1722-23-cü il Xəzərboyu işğalçılıq yürüşündə iştirak etmiş və Abşeronda (Abşaran) yerləşmiş kazak polkuna verilən bu ad ilə kazak döyüşçüləri Krasnodar vilayətindəki (1794-cü ilə qədər əski adı Kara Su) 1863- cü ildə öz yaşayış yerlərinə bu adı vermişlər. (1, 240-241; 7,82; 10.159). Stanitsa böyüyərək 1947-ci ildə şəhər statusu almışdır. Beləliklə əsli türk torpaqları olan Kuban (Kuman) diyarında da bu yolla Avşar adı yaşamaqdadır.

Əldə etdiyimiz bu faktlar Afşarların yayılma çoğrafiyalarını göstərməklə bizim o xəritəni çəkməmizə kömək edir. Biz isə indiyədək araşdırılmamış qalan türk mənşəli Avşar etnonimi adıyla keçən yer adlarının tarix, coğrafiya və dilçilik sintezində ilk dəfə olaraq tədqiq edilməsi işinin vaciblıyini çatdırıb yetirmək istəyirik. Avşarların geniş coğrafiyada mövcudluğu faktlarını doğuran tarixi gerçəkliklə, onun siyasi şəraiti və s. ilə bağlı daha geniş məlumatın tamamı ilə yazımızda sizi tanış etməyimiz həmin məqsədlə, istəyimizlə bağlıdır.

Ədəbiyyat:

1. Азаренкова А.С., Бондарь И.Ю., Вёртышева Н.С. Основные административно-территориальные преобразования на Кубани (1793-1985 гг.). — Краснодар: Краснодарское книжное издательство, 1986.
2. Александр Пушкин. История Петра I, Издательство: Родина, Москва, 2021
3. Ənvər Çingizoğu, Aydın Avşar. Avşarlar, "Şuşa", Bakı, 2008
4. Faruk Sümer. Afşarlar – İranda hüküm sürmüş Bir Türk Hanedanı – Türk Dünyası Araştırmaları dergisi, İstanbul, 1986, №41, s.125-133
5. Faruk Sümer. Oğuzlar. Türkmenler. Ankara Üniversitesi Basım Evi, 1972
6. İbrahim Kafesoğlu. Harezmşahlar-Karakoyunlular-Akkoyunlular. "Türk Dünyası El Kitabı" s. 337-350. – Türk Kültürünü Araştırma Enstitüsü. 1992.
7. Minaxanım Təkləli. Rus dilində türk sözləri Nurlar nəşriyyatı, Bakı, 2006
8. Поспелов Е.М. Географические названия Московской области: Топонимический словарь. Профиздат, Москва, 2008
9. Roza Eyvazova. Əfqanıstanda türk mənşəli toponimlər, Elm nəşriyyatı, Bakı,1995
10. Sadık Bilge. Osmanlı Devleti ve Kafkasya, İstanbul, Een yayınları,2005.

Об этнониме авшары

Резюме

Авшары (абшары, афшары, овшары, ефшары), упоминающиеся в источниках как великий тюркский народ, входящий в двадцать четыре древнейших огузских племенных союза, — появление на исторической сцене и история ее развития, а также В качестве ареалов распространения наша цель, поставленная в нашей исследовательской статье, — описать географию их распространения, которую мы хотели реализовать путем обучения. Авшары принадлежат к большой нации - тюркскому этносу и по особенностям своей культуры, языка (диалекта) считаются субэтнической группой азербайджанских тюрков, туркмен и анатолийских тюрков. Огузо-туркманское племя авшар сохраняет свои следы на картах тюркского мира: Топонимы Авшара и родственные им родовые названия на землях Азербайджана в Иране, Афганистане (под Кабулом), крупных провинциях Туркмении, Турции, Азербайджане, историческом Западном Азербайджане (Армении), Киргизии, стране Алтай, а также названия родов связанные с ним, указывают на существование авшаров - этих древних тюркских родов на тех территориях.- факты, которые не сотрутся из истории.

Ключевые слова: Авшары, тюрк, огуз, племя, Анатолия, туркмен.

About avshar ethnonym

Summary

The Avshars (Abshars, Afshars, Ovshars, Afshars), who are mentioned in the sources as a large Turkic people included in the twenty-four oldest Oghuz tribal alliances — the appearance on the stage of history and the history of its development, as well as the distribution areas, our goal set in our research article is to describe the geography of their distribution. we wanted to implement by learning. Avshars belong to a large nation - Turkic ethnos, and according to the characteristics of their culture, language (dialect), they are considered as a sub-ethnic group of Azerbaijani Turks, Turkmens, and Anatolian Turks.The Oghuz-Turkman tribe Avshar keeps its traces on the maps of the Turkic World: The place names of the Avshars in the Azerbaijani lands of Iran, in Afghanistan (under Kabul), in the large provinces of Turkmenistan, in Turkey, in Azerbaijan, in historical Western Azerbaijan (Armenia), in the Kyrgyz Republic, in the Altai country, and the names of the clans and lineages related to it, are the residences of the Avshars - these ancient Turkic clans. are facts that will not be erased from history.

Key words: Avshars, Turk, Oguz, tribe, Anatolia, Turkman

Təranə Nağıyeva[7]

ƏRƏB-FARS DİL XÜSUSİYYƏTLƏRİNİN AZƏRBAYCAN DİLİNİN CÜMLƏ QURULUŞUNA TƏSİRİ

Cümlənin mənşəyi barədə türkologiyada müxtəlif fikirlər var. N.Z.Hacıyeva və B.A.Serebrennikov türk dillərinin sintaktik quruluşuna dair tarixi-müqayisəli aspektdə yazılmış əsərləri nəzərdən keçirərək, J.Deni, K.Qrenbek ve başqalarının fikirləri üzərində dayanmaqla göstərirlər ki, tarixi-müqayisəli tədqiqat prosesində türkoloq alimlərin bir qismi ismi və feili cümlələrin bir mənşədən olduğu, cümlənin öndə gələn təyin prinsipi əsasında yarandığı qənaətinə gəlmişlər. Bu nəzəriyyəyə əsasən cümlənin mənşəyindən danışılarkən bütün türk sintaksisinə "təyin- təyinlənən" sistemi kimi baxılır. Nəzəriyyənin müəllifi Mandi o baxışın üzərində dayanmışdır ki, türk dillərinin sintaktik quruluşunun əsasını təyinin öndə yerləşməsi prinsipi təşkil edir. Mandi hər bir sintaktik konstruksiyanın əsas prinsipini təyinedicinin öndə gəlməsində görür: "Türk sintaksisində "mübtəda xəbər", "obyekt – feil" və s. əlaqələr tam şəkildə "sifət – isim" əlaqəsinə paralel əlaqə kimi özünü göstərir. Mahiyyət etibarilə təyinolunan sözün hansı qrammatik məna qrupuna aid olması heç bir məna ifadə etmir, mühüm olan odur ki, tabelilik əlaqəsi var, dayaq baza var və bunlar bir qrup sözlərlə ifadə olunur. (1, 6)

Bu barədə Qəzənfər Kazımov yazır: "Lakin təyin – təyinlənən strukturunda və cümlənin ismi birləşmədən yaranması tezisində sual doğuran məsələ də var: təyin – təyinlənən anlayışı ismi cümlələrə aiddir, bəs feİli cümlələr necə yaranmışdır? Bu sualın cavabını axtararkən mən müəllimimin – Ə.Dəmirçizadənin uzaqgörənliyinə bir daha heyrət edirəm. O, zərflik adlı cümlə üzvünü qəbul etmirdi. Deyirdi: mübtəda var, xəbər var, xəbəri tamamlayan tamamlıq var və bir də həmin üzvlərin təyini var. Bəs zərflik nədir? Zərflik nə edir? Zaman zərfliyi xəbərin zaman təyini, yer zərfliyi xəbərin yer təyini, tərz zərfliyi xəbəri tərz etibarilə əlamətləndirən təyindir. Bu cəhəti nəzərə aldıqda təyin təyinlənən - modeli bütün cümlə növlərini əhatə etmiş olur. Cümlənin ismi və feli cümlələrə ayrılması isə sonrakı hadisədir, yəni felin bir kateqoriya kimi yaranması, şəxslənməsi ilkin həm ad, həm feil kimi işlənən sözlərin tədricən fərqlənməyə başlamasından sonra yaranmışdır. (3, 200)

Türkoloqların fikrincə, türk dillərində **bu at jaksı** cümləsi **bu at jaks at** cumləsindən sonrakı hadisədir, yəni ikinci cümlə forması daha qədimdir.

Tədqiqat apardığımız "Orxon-Yenisey abidələri"-nin, "Kitabi-Dədə Qorqud" dastanının, Nəsiminin, Füzulinin, Xətayinin və sonrakı dövürlərdə yaşayan sənətkarların yaradıcılığındakı cümlələlərin quruluşu, tərkibi və sıralanmasında özünü göstərən xüsusiyyətlər deməyə imkan verir ki, Azərbaycan dilinin cümlə quruluşu uzun bir inkişaf yolu gələrək özünəməxsus milli dil xüsusiyyətlərini qoruyub saxlamaqla yanaşı, həm də ərəb, fars, rus dillərinə məxsus bəzi keyfiyyətləri də özünə qatmışdır.

Həm qədim yazılı abidələrin dilinə, həm də "Kitabi-dədə Qorqud" dastanına nəzər yetirdikdə görürük ki, sadə cümlələr daha çoxdur. Sadə cümlələrin tərkibində işlənən həmcins üzvlərin intonasiya ilə bağlanıb. "Orxon-Yenisey abidələri"nin dilində həmcins üzvlərin tabesizlik bağlayıcıları ilə bağlanması müşahidə olunmur. *Altun, kümüş, isigiti, kutay bunsız ança birür Tabğaç bodun sabı süçig, ağısı yımşak ermis. Kağan olurip yok, çiğay bodunig kop kobartdım, çiğay bodunig bay kıltım, az bodunığ üküş kıltım.*

Göründüyü kimi, birinci cümlə tabesiz mürəkkəb cümlədir və birinci tərkib hissə ilə (*Altun, kümüş, isigiti, kutay bunsız ança birür Tabğaç bodun sabı süçig*) ikinci tərkib hissə (*ağısı yımşak ermis*) intonasiya ilə bağlanmışdır. Eyni zamanda birinci cümlənin tərkibində həmcins üzvlər (*altun, kümüş, isigiti, kutay*) işlənmişdir və onlar da intonasiya ilə bağlanmışdır. İknci cümlədə işlənən həmcins təyinlər (*yok, çiğay*) və həmcins xəbərlər də (*kobartdım, bay kıltım, üküş kıltım*) intonasiya ilə bağlanmışdır. "Orxon-Yenisey abidələri"nin dilində yüzlərlə belə cümlələr göstərmək olar ki, tərkibində işlənən cümlələr və həmcins üzvlərin bağlanmasında heç bir tabesizlik bağlayıcısından istifadə edilməmişdir.

Biz bunu "Oğuznamə"də və M.Kaşğarinin "Divan"ında görürük. Yəni bu yazılı abidələrin dilində işlənən tabesiz mürəkkəb cümlələr və həmcins üzvlər tabesiz bağlayıcılarla deyil. İntonasiya ilə bir-birinə bağlanmışdır. Bu isə onu deməyə əsas verir ki, cümlələrdə işlədilən bağlayıcılar sonradan yaranan dil xüsusiyyətləridir və bunların çoxu da müxtəlif tarixi hadisələrlə bağlıdır. Fikrimizi təsdiqləmək üçün deyə bilərik ki, dilimizdə **işlənən və, həm, həm də, amma, lakin, gah, gah da, fəqət, halbuki** və s. tabesizlik bağlayıcılıarı ərəb-fars mənşəlidir və dilimizə sonradan daxil olmuşdur.

"Kitabi-Dədə Qorqud" dastanında isə vəziyyət bir qədər başqa cürdür. Bu abidənin dilində də əvvəlki yazılı abidələrin dilində olduğu kimi sadə cümlələr çoxluq təşkil edir. Tabesiz mürəkkəb cümlələr daha azdır və o qədər də müxtəlif növlərə malik deyil.

Qədim dövr yazılı abidələrin dilində belə əlamətdar xüsusiyyətlərin olması bir tərəfdən, ümumiyyətlə, dildə mürəkkəbləşmənin dilin inkişafı nəticəsində orta və sonrakı dövrlərə aid olduğunu göstərir. Məsələn, sadə cümlələrin sözləri arasında, həmçinin tabesiz mürəkkəb cümlələrin tərkib hissələrini bağlayan "və" bağlayıcısının işlənməsi ərəblərin Azərbaycana yürüşündən sonra başlanmışdır. Fikrimizi təsdiqləmək üçün deyə bilərik ki, ortaq türk yazıları olan "Orxon-Yenisey abidələri"ndə, M.Kaşğarinin "Divan"ında, "Oğuznamə"də bu bağlayıcının işlənməsinə aid heç bir nümunə yoxdur. "Kitabi-Dədə Qorqud" dastanında az da olsa, "və" bağlayıcısının işləkliyi özünü göstərir: *Qılıc və sügü və çomaq və cəng alətin geydirib tonatdılar. Əmma qızın dərdindən bənizi sarardı. Ya varam, ya varmıyam, ya gələm, ya gəlmiyəm. ... gördi kim, bir dərənin içində toz gah dərilür, gah tağılur*.

Onu da qeyd edək ki, və bağlayıcısının dastanda işlənməsi həmcins üzvlər arasında müşahidə olunur, tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında yox. Lakin dastanda elə cümlələr var ki, orada həmcins üzvlər sadalansa da,

---

[7] APU

onlar arasında nə **və**, nə də başqa bağlayıcıların işlənməsi özünü göstərir. Məsələn, dastanda işlənmiş bir cümləyə diqqət yetirək: *Mənim savaşdığım, mənim döğüşdügim, mənim çəkişdügim, mənim qılıclaşdığım görgil, ögrəngil!* Bu cümlədə həmcins vasitəsiz tamamlıqlar (*mənim savaşdığım, mənim döğüşdügim, mənim çəkişdügim, mənim qılıclaşdığım*) tabesizlik bağlayıcılarının iştirakı olmadan əlaqələnmişdir. Bu da deməyə əsas verir ki, **"və"** bağlayısının dilimizə gəlişi ərəb dilinin təsiri ilə bağlıdır. Bu bir daha sübut edir ki, dastan yarandığı dövürdən çox-çox sonralar yazıya alınmışdır. Bu xüsusiyyət **həm, həm də, amma, lakin, ya, ya da, gah, gah da, çünki** və digər bağlayıcılara da aiddir. Deməli, bağlayıcıların sadə və mürəkkəb cümlələrin tərkibində işlənməsi dilimizin milli xüsusiyyətləri ilə bağlı deyil.

XIII əsrdən başlayaraq yazılı ədəbiyyatda həm sadə cümlələrin tərkibində işlənən həmcins üzvlər arasında, həm də tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında tabesizlik bağlayıcılıarının geniş şəkildə işlənməsi özünü göstərir. Hətta **"və"** bağlayıcısının **"vü", "ü", "u"** şəkillərində işlənməsi də özünü göstərir. Bu da, təbii ki, ərəb-fars dillərinə məxsusdur.

*Üzünü gördü **vü** irdi bu gün firdöv-si- əlaya...*
Vəqti səadət istəyən tacu kəmər tələb qilur. (Nəsimi);
*Gül bitdi**vü** lalazar gəldi* (Xətai);
*Mən kiməm? -bir bikəsü biçarə**vü** bixaniman...*
Oqlü əbrü dilü tən getdi bihəmdillah (Füzuli)...

Yazılı abidələrin dilində **"və"** bağlayıcısının işlənmə məqamlarından bəhs edən H.Mirzəzadə yazır: "XIX əsrin ortalarına qədər işlənmiş həmcins üzvlü cümlələrdə bir qayda olaraq həmcinsin sayı qədər **"və"** bağlayıcısı işlənmişdir... Orta əsrlərin yazı dilində, demək olar ki, ərəb dili qaydalarına əsasən işlənmişdir. Həmin bağlayıcı cümlə əvvəlində işləndiyi kimi, silsilə təşkil edən sadə cümlələrin arasında, mürəkkəb cümlələrdə də işlənmişdir... müasir dildə bir qayda olaraq həmcinsin miqdarından asılı olmayaraq, yalnız axırıncıdan əvvəl işlənir. (3,305) Müəllifin qeydlərinə onu da əlavə edək ki, müasir ədəbi dilimizdə yalnız **"və"** forması sabitləşmişdir.

Həm, həm də bağlayıcısı. Fars mənşəli bu bağlayıcı müasir ədəbi dilimizdə *həm, həm də, həm də ki* şəklində sabitləşmişdir. Yazılı abidələrimizin dilində isə **"həm, həm**" formasına da rast gəlinir:

***Həm** yetirən, **həm** yetən, **həm** bitirən, **həm** bitən,*
Bay ilə yoxsul bənəm, yolçu ilə yol bənəm (Nəsimi);
***Həm** dersən sən ki: «Məktəbə var!»*
***Həm** dersən sən ki: «Getmə zinhar!»...*
***Həm** özü fani olur, **həm** ləşgəri, **həm** kişvəri* (Füzuli).

Gah, gah da bağlayıcısı. Fars mənşəli bu bağlayıcı müasir ədəbi **dilimizdə "gah, gah da, gah da ki**" şəklində işlənir. Yazılı abidələrimizin dilində isə *gah, gahi, gəh, gəhi* şəklində müşahidə olunur:

Bulandı vü daşdı, çayə döndü,
***Gəh** suya vü **gəh** həvayə döndü* (Xətai);
***Gah** Bəsrə məqamı**, gah** Bağdad* (Füzuli).
***Gəh** şe'r oxuyub**, gəhi** rəvayət* (Məsihi);
*Könlümü almaqdan ötrü **gah** bülbül, Ta **gahi** gül* (Q.Təbrizi).

Tabeli mürəkkəb cümləyə gəldikdə isə deyə bilərik ki, belə cümlələr "Orxon-Yenisey abidələri"nin, "Oğuznamə"nin, "Kitabi-Dədə Qorqud" dastanının dilində sadə və tabesiz mürəkkəb cümlələrə nisbətdə azlıq təşkil edir. Eyni zamanda tabeli mürəkkəb cümlənin tərkibini təşkil edən sadə cümlələr müasir dövrdə işlənən geniş vasitələrlə deyil, yalnız *kim/ki, -sa/sə* ilə bağlanmışdır. Ə.Dəmirçizadə bu barədə yazır: "Mürəkkəb cümlələr silsiləsində daha çox tabesiz mürəkkəb cümlələr, çox az miqdarda *kim/ki, -sa/sə* ilə bağlanan budaq cümləli tabeli mürəkkəb cümlələr işlənilmişdir" (4, 121). Bu bağlanma vasitələri sonrakı dövrlərdə də, bu gün də işləkliyini qorumaqdadır. Lakin qədim yazılı abidələrin dilində işlənən tabeli mürəkkəb cümlələrin tərkibində budaq cümləni baş cümləyə bağlayan vasitələr içində *ona görə ki, onun üçün ki, çünki, əgər, madam ki, indi ki, hərçənd, hərçənd ki* və başqa bağlayıcıların işlənməsi də özünü göstərmir. Bu bağlayıcıların işlənməsi XIII əsrdən başlayır. Doğrudur, "Kitabi-Dədə Qorqud" dastanında **çünki, əgər, hətta** müasir dövrdə işlənməyən **zira** bağlayıcısının işlənməsini görürük. Bunun səbəbi yuxarıda qeyd etdiyimiz kimi ərəblərin Azərbaycana yürüşü ilə bağlıdır və dastanın üzünün yazıya köçürülməsi də məhz bundan sonra baş vermişdir.

Türk dillərindən biri kimi, bizim dilimiz üçün əlamət bildirən sözlərin izafət şəklində təyinlənəndən sonra işlənməsi xarakterik deyildir. Lakin tarixi inkişaf prosesində qonşu xalqlarla əlaqə və münasibət nəticəsində dilimizə çoxlu izafət birləşmələri - izafət tərkibləri keçmişdir. Təyinedici söz təyinlənənlə birlikdə keçdiyindən belə birləşmələr abidələrimizin dilində aydın seçilir.

İzafət qonşu ərəb və fars dillərinin xarakterik sintaktik quruluş xüsusiyyətlərindəndir: "İsimlərin və ya substantivləşmiş hər bir sözün yiyəlik hal vasitəsilə bir-birinə birləşməsinə izafət və ya uzlaşmayan təyini söz birləşməsi deyilir. Ərəb dilində izafət spesifik xüsusiyyətlərə malik olmaqla bərabər, Azərbaycan dilindəki ikinci və üçüncü növ təyini söz birləşmələrinə uyğun gəlir". Elə buna görə də bu cür quruluş dilimizin ərəb, fars dilləri ilə sıx bağlı olmadığını daha qədim abidələrimizdə də göstərir.

"Kitabi-Dədə Qorqud"un dilində, demək olar ki, izafət birləşmələrindən istifadə edilməmişdir. *Qılıc çaldı, din açdı şahi-mərdan Əli görkli-* cümləsindəki *şahi-mərdan* tipli tək-tək misallar dastanların dilinə sonralar üzköçürmə zamanı dinlə bağlı əlavə edilmişdir.

1218-ci ildə Suli Fəqih tərəfindən qələmə alınmış "Yusif və Züleyxa" poemasında da izafət birləşmələri çox seyrək olub, adətən, dini ifadələrdə özünü göstərir. Məsələn, əsərin ilk 30 səhifəsində işlənmiş izafət birləşmələrinin cəmi aşağıdakı misrallardadır:

Əmir olasan, şah olasan aqibət,
Həm ***imam-alqövl, sahibi mərifət****.*
Çün irəsən övliya söhbətinə,
Mədənül-əsrar *oldun zatine.*
Çün aradan sünbülün getdi tamam,
Qətreyi-dərya *bir oldu vəssalam.*
Abi-Zəmzəm *həqiçün söyləyəsən,*
Ol düşi bir-bir əyan eyləyəsən.
Abi-heyvan *Yusifin sözləridir.*
Misir içində ***şahi-Kən`an*** *olasız.*

Ümumiyyətlə, XIII əsr, həmçinin XIV əsrin birinci yarısında yazılı abidələrin dilində izafət birləşmələri azlıq təşkil edir. İzafət birləşmələrinin geniş şəkildə istifadəsi XIV əsrin ikinci yarısından başlanır. Hətta Füzulinin əsərlərində izafət birləşmələrinin daha mürəkkəb variantları-üç, dörd, beş komponentli birləşmələr özünü göstərir.

N.Z.Hacıyeva və B.A.Serebrennikov türk dilləri sintaksisinin tarixi tədqiqi əsasında bir sıra nəticələrə gəlmişlər: şərt şəkilçisi ilkin dövrlərdə arzu formasına xidmət etmişdir, **-lar,-lər** şəkilçisi ilkin dövrlərdə cəm şəkilçisi kimi deyil, topluluq, kollektivlik bildirən şəkilçi kimi işlənmişdir; mürəkkəb cümlənin yaranmasının çıxış yolu sadə cümlədəndir, ilkin mərhələdə türk dilləri yalnız ardıcıl işlənən bağlayıcısız sadə cümləni tanımışdır, şəxsli feil forması feili sifət, feili bağlama və məsdərə çevrilə bilmişdir, türk dillərində bir vaxtlar indiki zaman formasını bildirən **-ə** şəkilçisi işlənmişdir və s.

Apardığımız müşahidələr deməyə imkan verir ki, cümlə dilin daxili qanunları əsasında formalaşsa da, başqa dillərin təsiri ilə də dəyişə bilir, inkişaf edir, təkmilləşir və ya strukturunda fərqlilik özünü göstərə bilir. Necə ki Azərbaycan dili ərəb, fars dillərinin təsiri nəticəsində bəzi sintaktik imkanlar əldə etmişdir. Bu uzun və vacib bir tədqiqatdır. Gələcəkdə bu mövzunu daha geniş şəkildə araşdıracağıq.

Ədəbiyyat:

1. Н.Гаджиева, А.Серебренников. Сравнительно-историческая грамматике тюркских языков. Синтаксис, Москва, "Наука", 1986, с.6.
2. Kazımov Q. Azərbaycan dilnin tarixi sintaksisi. Baki, 2019, 608 s.
3. H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1990.
4. Dəmirçizadə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə, Bakı, 1979.
5. E.A.Abbasova. Ərəb dilində izafətin müfəssəl şərhi, "Bakı Çap Evi", Bakı, 2012, s.141.

Особенности арабско-фарсидкого языка влияние азербайджанского языка на структуру предложения

Резюме

Влияние особенностей Арабско-фарсидского языка на структуру предложения Азербайджанского языка. Предложение формируется на основе своих внутренних законов каждого языка. Азербайджанский язык является одним из аггльотинативных языков, поэтому падежные окончания и формы отглагольных спряжений играют важную роль в построении предложения: слова изменяются в разных формах и соотносятся, они приводят к правильному образованию предложения в зависимости от цели говорящего к внутренним законам языка относятся модальные отношения, выраженное в предложении, признаки предикативности в сообщение, специфические интонационные особенности в устной речи.

Говоря о внутренних законах языка, модальная связь выраженная в предложением, предикативные показатели в сказуемое и своеобразные характерные интонационные особенности в разговорной речи.

Ведущие наблюдения позволяет сказать, что несмотря на формирование предложения внутренних законов языка, оно может изменяться над влиянием других языков, то есть может развиваться, усовершенствовать или показывать разновидность структуры.

Исследования, приведенные в «Орхоно-Енисейских памятников», эпоса «Китаби-Дэдэ-Коркут, строение, состав и порядок предложения в творчестве Насими, Фузули, Хатаи и живущие в последующие периоды ремесленников позволяют сказать, что структура предложения Азербайджанского языка совершил длинную путь, сохраняя своеовразные национальные языковые особенности, одновременно усвоил некоторые свойства Арабско-фарсидского языка. Возьмем контекст азербайджанского языка в эпоху синтаксического строя.

Ключевые слова: эволюция, язык, предложение, синтаксическая структура, аффект

Arabic-persian language characteristics influence of azerbaijan language on sentence structure

Summary

The sentence is formed on the basis of the internal laws of each language. As the Azerbaijani language is one of the agglutinative languages, in this language case suffixes and inflectional forms of the verb play an important role in the construction of the sentence: words change and connect in different ways and lead to the proper formation of the sentence

depending on the purpose of the speaker. The internal laws of the language include the modal attitude expressed in the sentence, the signs of predicativeness in the predicate, and the specific intonation features of the language in oral speech.

Our observations allow us to say that although the sentence is formed based on the internal laws of the language, it can also change, develop, improve or show differences in its structure due to the influence of other languages.

The structure, composition and arrangement of the sentences in the "Orkhon-Yenisei Monuments", the "Kitabi-Dada Gorgud" epic and in the works of Nasimi, Fuzuli, Khatayi and other artists living in later periods allow us to say that the sentence structure of the Azerbaijani language has a long history. Along with its development, it has preserved its unique national language characteristics, but also added some qualities of Arabic, Persian languages.

Key words: evolution, language, sentence, syntactic structure, influence.

Rəyçi: dos. S.Abbasova

ORCİD İD: 0000-0001-7195-3499

Süleymanova Xatirə Etibar qızı [8]

MÜASİR DİLÇİLİKDƏ ƏDƏBİ-BƏDİİ DİSKURS

Diskurs mərkəzi mövqeyini söz komponenti təşkil edən bir hadisədir. Hadisə mövcud vəziyyətin fonunda müəyyən dəyişikliklərə əsaslanır. Buna görə də hər hansı bir dəyişiklik zamanla baş verir və bu fikrə əsaslanaraq dəyişikliyin əhəmiyyətli xüsusiyyəti zaman hesab edilir. Beləlilklə, diskurs dinamik struktura bənzəyir; bir növ hərəkətdə olan mətni ifadə edir. Bu mənada, hərəkət ideyasının özünəməxsus olması çox əhəmiyyətlidir.

"Diskurs" sözü fransız dilindən alınma olaraq *le discours* sözündən götürülüb.Rus dilçilik elmində nisbətən yaxınlarda, 20-ci əsrin 70-ci illərinin sonlarında istifadə olunmağa başlayıb, baxmayaraq ki, bəzi tədqiqatçılar onun yaranma tarixini çox vaxt İntibah dövrü ilə əlaqələndirirlər, digərləri isə hətta bu terminin V-ci əsrdə meydana gəldiyinə inanırlar və simvolik olaraq latın dilindən (discursus) "söhbət" kimi tərcümə edirlər.

Bu gün "diskurs" termininin birmənalı şərhi yoxdur, bu da onun fənlərarası statusu ilə bağlıdır.Fəlsəfədə yaranaraq, diskurskoqnitiv dilçilikdə, mədəniyyətşünaslıqda, semiotikada, linqvokonseptologiyada, məntiqdə, linqvososiologiyada, mətn dilçiliyində, ədəbiyyatşünaslıqda və digər elm sahələrində öz yerini tapmışdır. Diskursun mahiyyətini və aktuallığını qeyd etmək üçün M.L. Makarov etiraf edir ki, "bu gün " diskurs" kateqoriyasının sosial elmlərdəki rolu avronun Avropa iqtisadiyyatındakı roluna bənzəyir.[6, 11]

Dilçilik elminin mövqeyindən diskurs dil tədqiqatının yeni, deyə bilərik ki, daha mürəkkəb tərəfini nümayiş etdirir, linqvistik tədqiqatın geniş yanaşma və metodlarının axtarışını tələb edir. Diskursun müəyyənləşdirilməsində problem onun qeyri-sabitliyində və təzahürünün dinamik xarakterindədir. "Sözün, ifadənin, cümlənin yalnız statik varlıqlar, sistemin sabit elementləri kimi təhlilində istifadə olunan üsullar, ümumiyyətlə, istifadə üçün yararsız olur" [1, 6]. Bu onu göstərir ki, diskurs ilk növbədə prosesdi, dil isə sistemdir vədiskursda müxtəlif dil vahidlərinin təhlili artıq ənənəvi linqvistik tədqiqatları nəzərdə tutmur, əksinə, başqa bir şeyi nəzərdə tutur, çünki diskursun xarakterik xüsusiyyətlərinə malik olan bu vahidlər eyni dərəcədə dinamik olur, konnotativ və assosiativ xüsusiyyətlərə malikdir və semantik qeyri-sabitliyi nümayiş etdirir.

Diskurs tədqiqatlarında təkamül və onun çoxaspektli olması onun çoxsaylı təfsirinə səbəb olmuşdur, lakin bu gün ənənəvi olaraq "diskurs" dedikdə ekstralinqvistik - praqmatik, sosial-mədəni, psixoloji və s.amillər ilə bir yerdə əlaqəli bir mətn anlayiriq, hadisə aspektində götürülmüş mətn.Yəni sosial kontekst və qarşılıqlı əlaqə diskursun təşkili üçün aparıcı şərtlər kimi görünür.Bu baxımdan ədəbi-bədii diskurs dedikdə biz linqvistik təcəssümü sintez edən bədii ünsiyyət prosesini, daxili və xarici amillər ilə şərtlənən, bədii mətni və yazıçının reallığı subyektiv qiymətləndirilməsi kimi başa düşürük.Qeyd etmək lazımdır ki, bu subyektivliyin mərkəzində eksplisit və ya implisit olaraq "müəyyən münasibətləri, o cümlədən kommunikativ niyyətləri və müraciət olunana estetik təsirin məlum üsullarını rəhbər tutaraq" yazıçının oxucu auditoriyasına koqnitiv yönümlü hərəkəti ehtiva olunur.[3, 484]

Diskursun növlərini fərqləndirmək üçün mətnin praqmatikası, onun təşkili parametrlərivə janr-üslub xüsusiyyətləri kimi meyarlar, habelə müəllifin bu və ya digər nitqdən istifadə sahəsinə olan istəyi rəhbər tutulur.

Ədəbi-bədii diskursun bütün digər növlərdən əsas fərqləndirici xüsusiyyəti, əsərin müəllifinin təqdim olunan məlumatlara görə əslində heç bir məsuliyyət daşımadığı bədii dünyanın yaradılmasıdır, üstəlik, "onun məlumat mənbələrini təhrif etməsi,onun istinad etdiyi tarixi reallıqlar və baş vermiş digər hadisələr və ya mətnlərlə hər hansı manipulyasiyalar sözün əsl mənasında həqiqəti əks etdirir (halbuki bunu siyasi, qəzet,reklam və s. haqqında demək olmur) və bədii diskursun xüsusi məqsədlərinə xidmət edir.

Ədəbi-bədii diskursun başqa bir xüsusiyyəti onun estetik funksiyasıdır, hansıki dil vahidlərini tələb olunan formata salaraq, oxucuda müxtəlif hiss və emosiyaları yaradıb, onun reallığa olan mənəvi dəyərlərə əsaslanan münasibətini formalaşdırır. Sənət əsərinin estetikası müəllifin dünyagörüşünün həm şəxsi, həm də sosial mahiyyətini açıqlayaraq, onun yaradıcılıq planının həyata keçirilməsini nəzərdə tutur.

Beləliklə, ədəbi-bədii diskurs oxucunu öz məkanına cəlb edərək onun qarşısında saxta bir dünya açır və yazıçı ilə ünsiyyət qurulur. Qeyd etmək lazımdır ki, linqvistik tədqiqatlarda bədii diskursda müəllif və oxucu müxtəlif mövqelər tutur. Belə ki, yazıçının aparıcı rolunu M.Baxtin, U.But, P.Lubbok, S.Börk kimi alimlər müdafiə etmişlər. Bədii mətnin strukturunda aparıcı yeri oxucunun tutmasını təkid edənlər isə E. Hennequin, A. Beletsky, R. Barth, M. Fuko, V. Eko və Amerika reseptiv tənqid məktəbi olmuşlar [7, 3]. Son illərdə bu məsələ ilə bağlı nəşrlər daha az mübahisəlidir, ünvanlanan və göndərən arasında qarşılıqlı əlaqəyə daha çox diqqət yetirilir və hər hansı birinin roluna üstünlük verilmir. Bundan əlavə, ədəbi-bədii diskurs iştirakçılarının dialoq xarakteri təkcə şəxsi səviyyədə deyil, həm də dünyanı bədii dərk edilməsi ilə reallaşan ekzistensial səviyyədə özünü göstərir.

Ədəbi-bədii diskursun xüsusiyyətlərini təhlil edərkən diqqətə çatdırılır ki, bu məsələ ilə bağlı tədqiqatlar yalnız bu hadisənin müəyyən aspektlərinə həsr edilmişdir. Məsələn, Frans Kafkanın nəqli diskursu, F.M.

[8] Azərbaycan Dillər Universiteti. Filologiya üzrə fəlsəfə doktoru, dosent

Dostoyevskinin müəllif diskursu, M.M. Prişvinin bədii diskursu, M. Tsvetayevanın poetik diskursu;bir sıra əsərlər isə postmodernizm diskursuna həsr edilmişdir. Fikrimizcə, bu təsnifat ədəbi-bədii diskursun praqmatik linqvistik sahəsinin, o cümlədən linqvistik və janr-üslub xüsusiyyətləri ilə birlikdə formal xarakter yaradan fərdi müəllif niyyətlərinin spesifikliyi və hər bir sənət əsərinin semantik unikallığı ilə bağlıdır.

Burada digər diskursların xarakterik xüsusiyyətləri, məsələn, dini və ya ekzistensial diskursun bədii mətnə daxil edildikdə, bədii diskursun mümkün polimorfizmini də qeyd etmək lazımdır. Bununla belə, bədii əsərlərdə süjetlərin, dialoqların və ya digər diskursların personajlarının realizm məsələsiortaya çıxır. Bir tərəfdən, bunlar, məsələn, ekzistensial diskurs şəklində yazılmış real personajlar, onların çıxışları və şəraiti ola bilər; digər tərəfdən isə, bu, müəllifin canlı çıxış, personajlar və ya situasiyaların illüziya yaradan stilizasiya vasitəsidir.İstənilən halda bədii diskursun inklüziv statusu nəzərə alınmaqla reallıqla bağlı təqdimatın həqiqətə uyğunluğu qəti şəkildə tənqid olunmur.

Üstəlik, hər hansı bir əsəri oxucu öz dünyagörüşü prizmasından qavradığında, o əsərdəki hər hansı bir xarakterlə özünü eyniləşdirə bilər və onun üçün yeni reallıq kimi görünən bədii dünyaya tam daxil olmaqla öz aralarında olan məsafəni minimuma endirə bilər. Oxucunun bu mövqeyi ədəbi-bədii diskursun aşağıdakı xüsusiyyəti ilə izah olunur: dil vasitələrindən istifadə edərək qavrayışın xüsusiyyətlərini və nəticələrini (vizual, eşitmə, toxunma, qoxu və ya dad) ifadə edir.[2, 10].

Ədəbi-bədii diskurs mürəkkəb kommunikativ hadisə və onun iştirakçılarının şüurunun, təfəkküründün və dilinin qarşılıqlı təsirinin nəticəsi olmaqla açıq, sərt olmayan, dinamik və davamlı labial quruluşa malikdir. L.A. Manerkonun fikrinə əsaslanaraq qeyd etmək olar ki, bədii mətnin diskursiv məkanının çoxölçülülüyümətnin dərk edilməsinin dərin əsas proseslərini, oxucunun bilavasitə əldə etdiyi biliklərlə əsərin müəllifi tərəfindən verilən diskurs məlumatlarının birləşməsini əhatə edir. [8,113]. Məhz bu mühüt yazıçının və cəmiyyətin mədəni kodlarının müəyyən məkan-zaman əhatəsində əks olunduğu diskursun semiotik məkanını təşkil edir.

Müəllifin niyyətini şifahi ifadə edən müxtəlif linqvistik və konseptual vasitələr ədəbi-bədii diskursun linqvistik quruluşunu müəyyən edir. V.Z. Demyankov situasiya aspektini ön plana çıxararaq hesab edir ki, diskursun elementləri təqdim olunan hadisələr, onların iştirakçıları, icraedici məlumatlar və "qeyri-hadisələr"dir: hadisələri müşayiət edən hallar; hadisələri izah edən fon; tədbir iştirakçılarının qiymətləndirilməsi:diskursu hadisə ilə əlaqələndirən məlumat [9,87].

Bu amillər diskursun dualistik xarakterini təsdiqləyir, hansında ki həm dilin parametrləri, həm də təfəkkür və şüur parametrləri reallaşır.Eyni zamanda, şüur-dil ikiliyi ədəbi-bədii diskursda həm monoloq, həm də dialoq formasında reallaşa bilər. Eyni zamanda, M.N. Kojina, nitq prosesində iştirak edənlərin sayından asılı olmayaraq dilin kommunikativ təbiətini qəbul edərək ,qeyd edir ki, "ünsiyyət nitqin bütün formalarında özünü göstərir,ona görə də mahiyyət etibarilə bütün nitq dialoqdur" [5,207].

Ədəbi-bədii nitqin strukturunun mürəkkəbliyi müxtəlif səviyyələrdə linqvistik təhlilə imkan verir: ritmik və intonasiya, leksik, qrammatik, sintaktik, mədəni və milli səciyyəvi dəyərlərin nəzərə alınması baxımından və s. Ən xarakterik əyani vasitələr frazeoloji vahidlərin istifadəsi, funksional sinonimlərin istifadəsi, dil oyunlarının olması, epitetlərin, metaforaların, şifahi ifadələrin istifadəsi hesab edilir.

Açar sözlərdə və anlayışlarda həyata keçirilən semantik və praqmatik komponentlər də nəzərə alınmalıdır. V.Z. Demyankov hesab edir ki, diskurs bəzi dəstəkləyici anlayışlar ətrafında cəmləşərək, yaradıcı üçün ümumi olanlarla müəyyən edilən personajları, obyektləri, şəraiti, vaxtı, hərəkətləri və s.-ni təsvir edən ümumi kontekst yaradır.Ədəbi-bədii nitqdə belə yardımçı anlayışlar ən çox nominal leksemlərlə təmsil olunur: həyat,ölüm, xeyir, şər, sevgi, dostluq, xoşbəxtlik, iman, tanrı və s. Qeyd etmək vacibdir ki, mürəkkəb mental formasiyalar kimi anlayışlar əvvəlcə mətn və diskurs çərçivəsindən kənarda, yazıçının şüurunda formalaşır, sonra bədii konsepsiyanın yaradılması zamanı rasional dərk edərək mətndə şifahi şəkildə ifadə olunur və bununla da onun kommunikativ yönümünü və estetik təsirini müəyyən edir.

Əlbəttə ki, mətn elementlərinin təşkili yazıçının praqmatik münasibətinə əsaslanan müəyyən konstruksiyalarla diktə olunduğundan, bütün bu əlamətlər bir-biri ilə sıx bağlıdır, onların şərhini yalnız ayrı-ayrı dil vahidlərinin məna və əlaqəsini qurmaqla müəyyən etmək olar.

Beləliklə, ədəbi-bədii diskurs iki mahiyyətin vəhdətini təşkil edir: yazıçının linqvistik ünsiyyət prosesini və nəticədə yaranan bədii mətni. Mətn diskursun əsas komponenti kimi linqvistik və dildənkənar hadisələri aktuallaşdırır, yazıçının linqvistik şəxsiyyətinidil və diskurs vasitəsilə psixi, etnik, sosial və digər komponentlər daxil etməklə dinamik, inkişaf edən bir fenomen kimi təmsil edən fərdi müəllif dominant mənaları əks etdirir.

Son tədqiqatların göstərdiyi kimi, mətn təkcə dil hadisəsi deyil, həm də kodlar və işarələr sistemini həyata keçirən, özü də işarə kimi fəaliyyət göstərən semiotik kateqoriyadır. Bununla belə, Y.Y.Brazgovskayanın qeyd etdiyi kimi, ümumi linqvistik şifahi işarədən fərqli olaraq, ədəbi mətn daha çox fərdi (müəllif), prosessual, immanent və emosional xarakterlə səciyyələnir.

Ədəbi mətnin bütün işarələr dəsti ilə ədəbi-bədii diskursun məhsulu olaraq müəyyən edilməsi, mətnin semiotikasını əvəz edərək, müəyyən edən diskursun özünün semiotikası haqqında sual yaranır.Bədii mətnin bütün səviyyələrində həm dil xüsusiyyətlərinin, həm də mətnin qurulması mexanizmlərinin öyrənilməsinə yanaşmaların sonrakı inkişafını təyin edir.

Burada qeyd etmək lazımdır ki, Qərb dilçiliyi üçün diskurs semiotika problemiyeni deyil və onun ilkin şərtləri yarım əsr bundan əvvəl məşhur fransız semiotik filosofu Roland Bartın "La linguis tique du discours" əsərində diskursu translinqvistikanın obyekti – kütləvi kommunikasiya sferasına aid sonsuz folklor və bədii mətnlərin öyrənilməsi ilə məşqul olan semiotikanın bir qolu kimi ayırdığı zaman yaranmışdır." [10, 580].

Rus dilçiliyinə gəlincə, semiotika hazırdadilçilər tərəfindən uzun müddət "insan həyatının mərkəzi məqamı" kimi qəbul edilən diskurs, xüsusən də ədəbi-bədii diskursun semiotikası hələ də dilçilik elminin platformasında inamlı mövqe qazanmaqdadır." [9,23].

Ədəbi-bədii diskursun semiotikası mədəniyyətin ən mürəkkəb obyekti olan bədii ədəbiyyatın öyrənilməsində zəruri hesab olunur və bu mədəni proses real xüsusiyyətlərindən danışmağa imkan verir, konkret ədəbi hadisələrin çoxsaylı şərh faktlarını izah etmək üçün təkcə intuitiv deyil, həm də semiotik cəhətdən yoxlanılır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Борбодко В.Г. Принципы формирования дискурса: От психолингвистикик лингвосинергетике [Principles of discourse formation: From psycholinguistics to linguosynergetics]. Moscow, KomKniga, 2006, 288 p.
2. Варламенко И.Г. Перцептивные фразеологизмы в англоязычном художественном дискурсе: автореф. дис. … канд. филол. наук. – Барнаул, 2017. – 25 с.
3. Гуо Х. Особенности дискурса художественного произведения // Молодой ученый. – 2017. – № 20 (154). – С. 483–486.
4. Демьянков В.З. Когнитивизм, когниция, язык и лингвистическая теория // Язык и структуры представления знаний. – М.: Изд-во ИНИОН РАН, 1992. – С. 39–77.
5. Кожина М.Н. Диалогичность письменной научной речи как проявление социальной сущности языка // Методика и лингвистика. – М.: Наука, 1981. – С. 187–214.
6. Макаров М.Л. Основы теории дискурса. – М.: Гнозис, 2003.
7. Макеенко Е. В. Автор и читатель в структуре художественного текста (на материале русской литературы 1990-х – 2010-х гг.): автореф. дис. … канд. филол. наук. – Новосибирск, 2013. – 19 с.
8. Манерко Л.А. Структуры знаний, представленные в художественном и академическом дискурсах // Вестник Моск. ун-та. – 2013. – Сер. 22. Теория перевода. – С. 100–118.
9. Прохоров Ю.Е. Действительность. Текст. Дискурс: учеб. пособие. – М.: ФЛИНТА, 2021. – 224 с.
10. Barthes R. La linguistique du discours // Sign. Language. Culture. – The Hague, Paris: Mouton, 1970. – P. 580–584.

Açar sözlər: diskurs, mətn, dilçilik,nitq, işarə
Ключевые слова: дискурс, текст, языкознание, речь, знак
***Key words*:** discourse, text**,** linguistics, speech, sign

РЕЗЮМЕ

Литературно-художественный дискурс в современной лингвистике

В статье обосновывается важность и актуальность изучения дискурса в целом и в литературно-художественном дискурсе, в частности, выдвигаются теоретические вопросы понимания концепта литературно-художественного дискурса в современной лингвистической науке, дается обзор различных научных понятий в области дискурса и текстоведения, анализируются результаты предыдущих исследований дискурса, строятся общенаучные основы описания и исследуется структура дискурса.

По результатам анализа научной литературы дается трактовка литературно-художественного дискурса как художественного текста, синтезирующего языковое воплощение самого процесса художественного общения, обусловленного различными внутренними и внешними факторами. а также субъективная оценка реальности писателя. Отмечается, что центром этой субъективности эксплицитно, а чаще имплицитно, является познавательно-направленное воздействие писателя на читательскую аудиторию. Исследование также определяет специфические особенности литературно-художественного дискурса, отличающие его от других видов дискурса, анализирует лингвокогнитивные единицы, составляющие структуру художественного дискурса как представитель культурных кодов писателя и общества в определенном пространственно-временном континууме.

Делается вывод о двойственной природе литературно-художественного дискурса, в котором параметры реализуются как язык, так и авторское мышление и сознание. Выявляются различные типы дискурса как части литературно-художественного дискурса. Теоретическая значимость данной статьи заключается в том, чтобы пролить свет на новые аспекты семиотики дискурса, в углублении представлений о сущности и особенностях литературно-художественного дискурса, способствуя дальнейшему развитию теории художественного текста и дискурса.

SUMMARY

Literary and artistic discourse in modern linguistics

Müasir ingilis dilində hal kateqoriyasının miqdarı haqqında dilçilər arasında yekdil fikir yoxdur. **T.Doyçbeynin** fikrincə, müasir ingilis dilində dörd hal: adlıq, yiyəlik, yönlük və təsirlik hallar mövcuddur. Bununla yanaşı T.Doyçbeynin fikrincə, hal katqoriyasının şəkilçi ilə ifadəsi heç də vacib deyildir. Onun fikrinə görə, hal sözün cümlədəki yeri və sözönlüyü vasitəsi ilə ifadə oluna bilər. **C.Veber** T.Doyçbeyindən fərqli olaraq, müasir ingilis dilində beş halın: adlıq, yiyəlik, yönlük, təsirlik və çıxışlıq hallarınnın mövcud olduğunu qeyd edir. Bundan başqa, C.Veber söz önündən sonra işlədilən sözü "**halsız söz forması**" adlandırır. **H.Suit** hal kateqoriyası probleminə bir qədər başqa rakusdan yanaşır. Müxtəlif dillərdə hal kateqoriyası probleminə toxunan müəllif müasir ingilis dilində yalnız bircə halın (inflected case) mövcudluğu fikrini irəli sürmüşdü. O, qeyd edir ki, yalnız bu məqamda biz hal şəkilçisinə rast gəlirik. Şəkilçisiz halı isə A.Suit ümumi hal (common case) adlandırır. **O.Yesperen** öz kitab və məqalələrində dəfələrlə bu problemə toxunmuşdur. O, bu kateqoriyaya sırf morfoloji kateqoriya kimi yanaşır. İngilis dili ilə məşğul olan əksər dilçilər ismin iki halı olduğuna tərəfdar çıxırlar.
1) Ümumi hal (The Common Case); 2) Yiyəlik hal (The Possessive Case)

Bəzi hallarda ümumi halda olan isim "**of, to, by, with**" sözönüləri ilə işlənərək müəyyən əlaqə yaradır. Bu sözlərin müstəqil mənaları olmadığından dilimizə tərcümə oluna bilmirlər. Bəs müasir ingilis dilində geniş işlənən yiyəlik halın təbiəti necədir? Bu hal, əsasən, əşya və şəxs arasında olan yiyəlik, sahiblik əlaqəsini ifadə edir: **The man's eyes weren't particularly ssarching. You owe your brother's escape this night.** Müasir ingilis dilində ismin yiyəlik halı isimlərin sonuna **'s,** cəm isimlərin sonuna isə apastrof işarəsi artırmaqla düzəlir. Cəm forması kökdəki saitin dəyişməsi vasitəsi ilə düzəldilən isimlərin yiyəlik hal forması, bu isimlərin tək yaxud cəm olmasından asılı olmayaraq eyni qayda ilə düzəlir. Başqa sözlə desək, isimlərin sonuna 's şəkilçisi əlavə olunmur: **What's the matter with men's cookery?** Sonu "s" hərfi ilə qurtaran isimlərin yiyəlik hal forması iki cür düzəldilə bilir: ya adi qayda üzrə ismin sonuna 's şəkilçisi, yaxud ismin sonuna (') artırılır: **Charls' tongue was ready with a dozen alibis.** Eyni bir əşya iki və daha çox şəxsə məxsus olduqda, yiyəlik hal şəkilçisi axırıncı ismə əlavə olunur. Məsələn: **At the moment of Deer Lake, Dave, Mike and Joly's inflainted eyes widened with pleasure.**

Qeyd etmək lazımdır ki, yiyəlik hal şəkilçisi ('s) kar samitindən sonra (s) cingiltili samitlərdən və saitlərdən sonra (z), fışıltılı samitlərdən sobra isə (iz) tələffüz olunur. Azərbaycan dilindən fərqli olaraq ingilis dilində yiyəlik halın işlənmə miqyası xeyli dardır. İngilis dilində bir qayda olaraq ancaq canlı varlıqları bildirən isimlər yiyəlik halında işlənir. Cansız varlıqları bilidirən isimlər isə bir qayda olaraq, yiyəlik halında işlənir. Bu cür isimlərdə sahiblik, mənsubiyyət mənası **"of"** sözönü ilə ifadə olunur.

K.N.Kaçalova və E.E.İzrailyeviç qeyd edirlər ki, ingilis dilində iki isim bor-birinin ardınca 's formasını nadir hallarda qəbul edir. Bu halda "of" sözönündən istifadə olunur. Bəzən bir neçə söz qrupu işləndikdə s sonuncu ismin axırına əlavə olunur. Müasir ingilis dilində yiyəlik hal şəkilçisinin işlənməsi geniş miqyas almışdır. Belə ki, o, yalnız yuxarıda qeyd etdiyimiz kimi canlı varlıqları ifadə edən isimlərə deyil, habelə bəzi cansız varlıqları bildirən isimlərə, mücərrəd isimlərə, hətta bəzi hərflərə artırıla bilər:1. Zaman bildirən isimlərlə;2. Fəsillərin, ayların, günlərin adını bildirən isimlərlə;3. Ölkə və şəhər adları bildirən isimlərlə;4. The earth, the moon, the sun, ocean, water, gulf, world, wind, city, town, ship, boat, vessel və s. sözlərinə; 5."today, tomorrow, yesterday" zaman zərflərinə və s.

Bütün yuxarıda qeyd etdiklərimizlə yanaşı **V.L.Kaunşanskaya, E.V.Profkoyeva, Z.K.Raynes, S.EşSkvizskaya və F.Y.Tsirlina** ali məktəb üçün yazdıqları: **"Grammar at the English Ianguage**" adlı dərs vəsaitində yiyəlik halın özünü a) müstəqil, b) absalyut olmaqla iki qrupa bölmüşlər. O müstəqil yiyəlik halın "sahiblik" "yiyəlik" ifadə etməsini qeyd etməklə yanaşı, adı çəkilən yarımqrupun keyfiiyət əlaqəsi bildirməsini də xüsusi vurğulayır. Absalyut (mütləq) yiyəlik isə daha çox anaforik şəkildə bəzi yer mənası bildirən sözlərlə işlənir.

Beləliklə müasir ingilis dilində hal kateqoriyası və onun səciyyəvi xüsusiyyətləri haqda fikirlərimizi tamamlayaraq belə bir ümumiləşdirmə apara bilərik ki, məna etibarı ilə ad ifadə edən və adlıq halın suallarından birinə cavab olan hal şəkilçisiz isimləri adlıq halda hesab etmək olar. Adliq halın əsas mənası onun başqa hallarla müqayisəsi zamanı meydana çıxır. Adından da məlum olduğu kimi, yiyəlik halda olan söz-isim yiyədurma, sahiblik, aid olmaq, yiyələnmə kimi münasibətləri ifadə edir. Elə bu mənalar əsas götürülərək ona "yiyəlik hal" adı verilmişdir.

İsmin hal kateqoriyası müasir ingilis dilində ciddi mübahisə doğuran məsələlərdən biridir. İsmin hal kateqoriyasından bəhs edərkən iki ciddi linqvistik problemlə üzləşirik:

[10] Bakı Mühəndislik Universiteti "Xarici dillər" kafedrasının dosenti, filologiya elmləri doktoru ysuleymanov@ben.edu.az

1) Müasir ingilis dilində ismin hal kateqoriyası mövcuddurmu?

2) Əgər müasir ingilis diində ismin hal kateqoriyası mövcuddursa, onda ingilis dilində ismin neçə halı var?

Ç.Filmor "İngilis dilində ismin hal kateqoriyasının semantik-sintaktik təsnifatı" adlı kitabında bu məsələlər tədqiq olunub. Məhz semantik hal kateqoriyası konsepsiyası 1960-cı illərdə **Ç.Filmor** tərəfindən işlənib hazırlanmışdır. Belə ki, Ç.Filmor ismin hal kateqoriyasının semantik-sintaktik təsnifatını vermişdir. Onun təsnifatına görə, müasir ingilis dilində ismin 6 halı var. Bunlar aşağıdakılardır:

1) Agentive case. John opened the door.
2) İnstrumental case. The key opened the door.
3) Dative case. John believed that he would win.
4) Facititive case. The key was damaged.
5) Locative case. Chicago is windy.
6) Objective case. John stole the books (1, s. 45-49).

M.Doyçbeyn, M.Brayant kimi dilçilər tərəfindən irəli sürülən və klassik latın qrammatikasına əsaslanan bu təsnifata görə müasir ingilis dilində ismin beş halı müəyyənləşdirilir: Nominative, genitive, dative, accusative və vocative. Cümlənin mübtədası nominative (adlıq hal), vasitəli tamamlıq dative (yönlük hal), vasitəsiz tamamlıq accusative (təsirlik hal), xitab vocative halda istənilən isimlə ifadə olunur (2, s. 110-112).

Beləliklə, bu təsnifata diqqətlə fikir versək görərik ki, morfoloji əlamətlər qarışıb.

II. İkinci nəzəriyyə sözönlü hallar və ya analitik hal kateqoriyası nəzəriyyəsidir. Bu birinci nəzəriyyənin məntiqi davamı olub, klassik latın qrammatikasına əsaslanır.

H.Sweet New English Grammar, Logical and Historical part I (Oxford-1904) adlı əsərində o qeyd edir ki, ismin analitik hal kateqoriyasına malik olması mübahisə doğuran məsələlərdən biridir. Bu da öz növbəsində hal mənası bildirən sözönülərin leksik mənaya malik olub-olmaması ilə sıx bağlıdır (3, s. 41-44).

Bu sahədə də dilçilər arasında fikir ayrılığı var: bəzi dilçilər **H.Suit, O.P.Sunik** belə hesab edirlər ki, sözönləri leksik mənaya malik deyil digər dilçilər (V.N.Yartseva, -B.S.Xaymoviç, B.İ.Roqovskaya 4, s. 136-138) belə hesab edirlər ki, sözönləri leksik mənaya malikdir. Məsələyə I qrup dilçilərin dedikləri kimi yanaşsaq, yəni belə hesab etsək ki, sözönülər leksik mənaya malik deyil, o zaman müasir ingilis dilində ismin analitik hal formasına malik olduğunu qəbul edə bilərik.

Lakin II qrup dilçilərin fikri ilə razılaşsaq, yəni belə hesab etsək ki, sözönülər leksik mənaya malikdir, o zaman müasir ingilis dilində ismin analitik hal formasına malik olduğunu demək olmaz. Analitik hal nəzəriyyəsini irəli sürənlərdən biri C.Körm sözönü ilə birlikdə işlənən ismi- ismin analitik halı hesab edir. Onun fikrincə, "və" for" + isim yönlük halı, "of+isim" yiyəlik halı, " with+isim" instrumental halı göstərir. **C.Körmə** görə müasir ingilis dilində ismin 4 halı var:

1) The common case (ismin adlıq halı, şəkilçisiz)
2) The genetive case (of+noun)
3) The dative case (to+noun)
4) The instrumental case (with+noun) (5, s. 58-52).

Qeyd etmək lazımdır ki, bu nəzəriyyə bir sıra dilçilər tərəfindən qeyri məqbul hesab edilir. Belə ki, **B.A.İlyiş** qeyd edir ki, əgər bu nəzəriyəyə inansaq, onda bütün sözönülər ilə işlənən isimləri ismin analitik halı hesab etmək lazım gələr ki, bu da qeyri-mümkündür (6, s. 88-96).

Üçüncü nəzəriyyə məhdud hal nəzəriyyəsi adlanır. Bu nəzəriyyə H.Suit, O.Yespersen, A.İ.Smirnitski, L.S.Barxudarov, **O.İ.Musayev** və başqaları tərəfindən qəbul edilmişdir. Bu nəzəriyyə ismin iki qrammatik halı: adlıq hal (the common case) və yiyəlik halın (the genetive case) oppozisiyasına əsaslanıb. Oppozisiyanın güclü tərəfi ismin yiyəlik halıdır, çünki onun "s" kimi morfoloji əlaməti var. Oppozisiyanın zəif tərəfi ismin adlıq halıdır, çünki onun heç bir morfoloji əlaməti yoxdur (7, s. 134-139). Qeyd etmək lazımdır ki, ismin hal kateqoriyasının sintaktik əlaqələrin göstəricisi olmaq konsepsiyası prespektiv, qeyri-struktur, struktur-deskriptiv dilçilər tərəfindən də qəbul edilmişdir.

Nəticə. Yuxarıda qeyd olunanları nəzərə alsaq, belə nəticəyə gələ bilərik ki, "s" hissəcik (postposition) ilə morfem arasında bir yer tutur. "of" və "s"-in paralel işlənməsinə gəldikdə isə, aydındır ki "s" yalnız canlıları və bir qisim cansız isimləri bildirən sözlərlə işlənir. "of" isə əsasən cansız əşyalarla işlənri. Müasir ingilis dilində ismin hal kateqoriyasından bəhs edərkən prof. Musayev qeyd edir ki, "s" şəkilçisi tarixən hal şəkilçisi olmuş, dilin sonrakı inkişafi prosesində onun işlənmə miqyası qismən daralmışdır. Müasir ingilis dilçilərindən olan Ç.Barberin dediyinə və dil faktlarının sübut etdiyinə görə "s" şəkilçisinin işlənmə miqyası müasir ingilis dilində yenidən genişlənməyə başlamışdır. Bu isə o deməkdir ki, "s" şəkilçisi ilə düzələn ismin hal forması onun paradiqmasında daha möhkəm qərarlaşmaq üzrədir. Bu da öz növbəsində bizdə belə bir inam yaradır ki, "s" şəkilçisi diaxron planda hal formantı olmuş və müasir dildə də hal formantıdır, hal şəkilçisidir. Mənsubiyyət bildirən yiyəlik halın aşağıdakı semantik mənaları var.

İstifadə edilmiş ədəbiyyat

1. Filmor Ç. İngilis dilində ismin hal kateqoriyasının sem.-sintaktik təsnifatı. Moskva, 1960, s.: 45-49.
2. Nesfield J.C. English Grammar Past and Present L., 1931, page: 110-112.
3. Sweet H. New English Grammar, Logical and Historical part I, Oxford, 1904, page. 41-44.
4. Khaimovich B.S., Rogovskaya B.I. A course English Grammar M, 1967, page: 136-138.
5. Körn C. Müasir İngilis dilində ismin hal kateqoriyasına dair. M, 1978, s. 58-62.

6. Ilyish B. The Structure of Modern English. M, 1974, page: 88-96.
7. Türksevər (Musayev) O. İngilis dilinin qrammatikası. Bakı, 2007, səh: 134-139

Açar sözlər: söz sırası, ismin hal kateqoriyası, termin, inkişaf, təsnifat
Key words: word order, noun case category, term, development, classification

Ключевые слова: порядок слов, падежная категория существительного, термин, развитие, классификация

Xülasə

Həm ingilis, həm də Azərbaycan dilində **isim** əsas nitq hissələrindən biridir. Onlar dildə olan sözlərin ən mühüm bir qismini təşkil edir. Məlum olduğu kimi, isimlər bizi əhatə edən bütün maddi varlıqların süurumuzdakı mütəlif təzahürlərin adlarını bildirən sözlərdir. Onlar eyni zamanda təkcə maddi varlıqlar deyil, bütün mənəvi və abstrakt anlayışların da adlarını bildirir. Hər iki dildə isimləri əhatə edən mühüm kateqoriyalardan biri **hal kateqoriyasıdır** Başqa sözlə, onlar arasında sintaktik əlaqə yaradır. Hər iki dildə hal şəkilçiləri sözlərin lüğəvi mənasına təsir etmir, onlar isimlərdə qrammatik mənanı meydana çıxarır. Əlbəttə ingilis dili **analitik,** Azərbaycan dili **sintetik** dil olduğundan bu dillərdəki hal kateqoriyasının da mövcudluğu, miqdarı, işlənməsi, əlaqəsi, bir sözlə onların səciyyəvi xüsusiyyətləri fərqlidir.

Summary

This article has been dedicated to the category of case of nouns in Modern English.It is known that the category of case in Modern English represents seriouslinguistic problem. The linguists' opinion differ, firstly, on the occasion of existanse of the category of case in Modern English, how many case forms there are in Modern English. All 4 theories suggested by differentscholar at different times and concerning the category of case in Modern English have been analysed in this article.It should be noted that the fact that the name has an analytical case category is one of the controversial issues.

Резюме

Данная статья посвящена категории падежа существительных в современном английском языке. Известно, что категория падежа в современном английском языке представляет собой серьезную лингвистическую проблему. Мнения лингвистов расходятся, во-первых, по поводу существования категории падежа в современном английском языке, сколько падежных форм в современном английском языке. Все 4 теории, предложенные разнымиисследователем в разное время и относительно категории падежа в современном английском языке.

RƏYÇİ: Filologiya üzrə fəlsəfə doktoru, dosent Adilə Zeynalova

Xəyalə İbrahimova [11]

TƏRCÜMƏNİN NÖVLƏRİ VƏ ONLARIN FAYDALARI

Şifahi tərcümə yazılı tərcümədən fərqlənir. Onun bir neçə forması var: *sinxron, ardıcıl* və s. Onların qısa xülasəsini aşağıda izah edəcəyik.

F.Abdullayeva şifahi tərcümənin növlərini belə izah edir: *"Sinxron tərcümə məxəz nitqlə demək olar ki, eyni zamanda həyata keçirilir. Sinxron tərcüməçi xüsusi texnika ilə təchiz olunmuş kabinədə otururaq, qulaqcıqlar vasitəsilə eşitdiyi nitqi həmin anda tərcümə edib mikrafona deyir"* [1, s. 25]. Onun yazdığına görə, dilmanc məxəz nitqi tərcümə edib eyni vaxtda dinləyənə çatdırır. Sinxron tərcümə zamanı dilmancdan ən azı iki saat tələb olunur ki, fikrini toplasın və materialı tərcümə etsin.

Ardıcıl tərcümə isə belə izah olunur: *"Dilmanc məruzəçinin söylədiyi müəyyən nitq parçasını əvvəlcə eşidir, məruzə edən susduqdan sonra isə həmin mətni olduğu kimi digər dilə çevirir. Ardıcıl tərcümə zamanı adətən natiq hər 1-5 dəqiqədən bir fasilə edir və həmin mətnin, yaxud hissənin tərcüməsi üçün şərait yaradır"* [1, s. 26].

Ardıcıl tərcüməçi üçün əsas vacib şərtlərdən biri onun qeydgötürmə qabiliyyətidir. Belə ki, detallara baxmadan tam bir paraqrafı olduğu kimi yadda saxlamaq çox çətindir. Digər əsas cəhətlər isə qısamüddətli yaddaş, yaxşı təqdimat qabiliyyəti və inandırma bacarığıdır [2, s. 32].

Şifahi tərcümənin digər nüövü *görmə tərcüməsi* adlandırılır.

Görmə tərcüməsi digər tərcümə növlərindən çox istifadə olunsa da, xüsusən də böyük konfranslarda tez-tez istifadə olunmasına baxmayaraq, o, ən naməlum şifahi tərcümə növü hesab edilir.

Görünən tərcümədə şifahi tərcüməçi (və ya tərcüməçi) danışan tərəfindən təkrarlanacaq yazılı mətnə malik olur. Aydındır ki, yazılı mətn tərcüməçinin şifahi tərcüməni həyata keçirəcəyi dilə tərcümə edilməyəcək. Buna görə də biz vizual tərcümədən danışırıq, çünki tərcüməçi mətni öz beynində tərcümə edərkən və şifahi şəkildə çatdırarkən başqa dildə oxumalıdır [6, s. 76]. Buna görə də biz vizual tərcüməni (və ya görmə tərcüməsini) yazılı mətnin şifahi tərcüməsi kimi təyin edə bilərik. Tərcüməçi mətni mənbə dildə oxuyur və onu hədəf dildə şifahi şəkildə təkrarlayır. Şifahi tərcümə işgüzar görüşlərdə, notariat kontorunda və ya işgüzar görüşlərdə çox geniş istifadə olunur.

Şifahi tərcümənin digər növü *səsli tərcümə* kimi qəbul edilir.

Səsli tərcümə avtomatik olaraq tərcüməçi tərəfindən təmin edilən şifahi tərcümə növüdür. Məsələn, "Google Translate" kimi avtomatik tərcümə proqramı belə hesab edilə bilər. Bu proqramlar yalnız mətn yazmağa imkan vermir, həm də deyilən hər şeyi səsli şəkildə tərcümə etməyi bacarır. Qeyd edək ki, mətni səsli şəkildə tərcümə edəcək xüsusi proqramlaşdırılmış tərcüməçi səsləri mövcuddur [8, s. 46].

Şifahi tərcümənin digər variantı *ardıcıl tərcümə* kimi qəbul edilir. Ardıcıl şifahi tərcümə (və ya ardıcıl tərcümə) kifayət qədər kiçik görüşlərdə, danışıqlarda və ya konfranslarda baş verən şifahi tərcümə növüdür. Şifahi tərcümənin bu növündə tərcüməçi danışanın yanında dayanır. Bu zaman danışan şəxs maksimum 5 dəqiqə danışır və bu vaxt tərcüməçi danışanın dediyi hər şeyi tərcümə lövhəsinə yazır. Danışan nitqini bitirdikdən sonra tərcüməçi öz qeydlərinə əsasən danışanın dediklərini başqa dildə təkrarlamağa başlayır.

Məşhur rus sinxronisti və "Sinxron tərcümənin əsasları" kitabının müəllifi C.Çernov dərsliyində yazır ki, insan bir dəfəyə 5 söz və ya 9 söz yadda saxlaya bilir. Lakin məsələ bir neçə sözü ardıcıl olaraq yadda saxlamaqda deyil [5, s. 68]. Bu məsələ belə izah olunur ki, nitq parçasını fasiləsiz olaraq dinləyəndə insanın yaddaşı yüklənir və əgər deyilən nitq parçasındakı əsas məqamlar qeydlər şəklində yazıya köçürülüb sonra onlara baxmaqla tərcümə edilirsə, onda mütərcim o qədər də tez yorulmur və işi keyfiyyətlə yerinə yetirir.

Şifahi tərcümə: sinxron tərcümə.

Ardıcıl şifahi tərcümədən fərqli olaraq, sinxron şifahi tərcümə adətən çoxlu sayda iştirakçının iştirak etdiyi böyük konfranslarda həyata keçirilir. Sinxron tərcümədə tərcüməçilər adətən konfrans zalının sonunda yerləşən tərcümə kabinəsindən işləyirlər.

Qeyd edək ki, sinxron tərcümənin tarixi XX əsrin ortalarına təsadüf edir. Bu tərcümə növündən ilk dəfə Nyürenberq məhkəməsində istifadə olunmuşdur. O zamandan bəri çox sayda konfranslar keçirilir və iştirakçılar öz dillərində və ya beynəlxalq dillərdən birində çıxışları təxminən eyni zamanda dinləyirlər. Sinxron tərcümə müxtəlif dillərdə danışan çoxsaylı insanların iştirak etdiyi görüşlər, diplomatik danışıqlar, habelə digər proseslər üçün məqsədəuyğun və əlverişli sayılır. Bunu onunla izah edirlər ki, sinxron tərcümədə vaxt ikiqat azalır, yəni məruzə ilə onun tərcüməsi eyni vaxtda bitir. Məlumat üçün bildirək ki, sinxron tərcümə daha çox BMT sessiyalarında və beynəlxalq konfranslarda işləndiyi üçün ona çox zaman "konfrans tərcüməsi" də deyilir [1, s. 30].

R.Counz yazır ki, sinxron tərcümə ardıcıl tərcümədən iki fərqli cəhəti ilə fərqlənir: akustika ilə bağlı olan; intellektual səciyyəli olan. Akustika ilə bağlı olan növdə dinləmə və danışma prosesi eyni zamanda baş verir; intellektual səciyyəlidə isə tərcüməçi məruzəçinin fikrini əvvəlcədən eşitməlidir [8, s. 71].

Sinxron tərcüməçinin dinləmə qabiliyyətini, eləcə də qısamüddətli yaddaşını inkişaf etdirmək üçün başlanğıc mərhələdə tələbələrə ana dilində eşitdikləri informasiyanı öz sözlərilə təkrarlamağı tələb edən çalışmalar vermək olar [4, s. 46].

Şifahi tərcümə: uzaqdan tərcümə.

---

[11] Filologiya üzrə fəlsəfə doktoru Bakı Slavyan Universiteti

Uzaqdan şifahi tərcümə müxtəlif formatlarda icra edilə bilər. Uzaqdan tərcümə şifahi vizual tərcümə, ardıcıl şifahi tərcümə və ya sinxron şifahi tərcümə ola bilər. Uzaqdan tərcüməni xarakterizə edən onun virtual formatda, yəni onlayn şəkildə həyata keçirilməsidir. Bu şifahi tərcümə növü indiyə qədər çox dəstəklənməyib, lakin mövcud sağlamlıq böhranı səbəbindən demək olar ki, bütün tədbirlər uzaqdan keçirilir və tərcümənin bu növü artıq üstünlük qazanmağa başlayır. Hər şey onu göstərir ki, uzaqdan şifahi tərcümə hələ də mövcuddur və şifahi tərcümənin (tərcümə) ən geniş yayılmış formasına çevrilmişdir.

Bundan əlavə, uzaqdan şifahi tərcümə ənənəvi şifahi tərcümə ilə müqayisədə bir çox üstünlüklər təqdim edir. Bu, tərcümə növü dünyanın hər yerindən olan tərcüməçilərlə əlaqə saxlamağa imkan verir ki, bu da fin, Norveç və ya İsveç kimi qeyri-adi dildə şifahi tərcümə xidmətinə ehtiyac olduqda çox praktik olur.

Uzaqdan tərcümə rəqəmsal platformalar vasitəsilə həyata keçirilir. Məsələn, zoom uzaqdan şifahi tərcümələr etməyə hazır olan məşhur platformalardan biridir.

Göründüyü kimi, şifahi tərcüməyə müxtəlif mənalar verilə bilər. Əsas məsələ odur ki, onun bütün mənaları tərcümə və çoxdilli ünsiyyətlə bağlıdır. İstənilən halda, bütün versiyalarında şifahi tərcümə daim inkişaf edir və təxəyyülümüzə meydan oxuyan bütün sahələrdə texniki təkmilləşdirmələr gözləmək olar.

Məlumat üçün bildirək ki, tərcümənin istənilən növündə fərqli anlama şərtləri mövcuddur, yaxud bunu belə də ifadə edə bilərik ki, tərcümə və tərcüməni anlamaq fərqli xarakter daşıyır. Bunda diqqətli olmaq lazımdır. Bu məsələni bir qədər izah edək.

Tərcümə və tərcüməni anlamaq çox vaxt eyni şey kimi başa düşülür, lakin bu səhvdir və fərqli məqsədlərə xidmət edir. Tərcüməni anlamaq bir dildə danışanları dinləmək və onların sözlərini başqa bir dilə tərcümə etməyi ehtiva etdiyi halda, tərcümə yazılı məzmunu bir dildən digər dilə tərcümə etməyə yönəlmişdir. Tərcümə həm də işarə dilinin tərcüməsinə qədər uzana bilər.

Tərcüməni anlamanın iki növü var:

Eyni vaxtda tərcüməni anlama – bu zaman danışan və tərcüməçi demək olar ki, eyni vaxtda danışır;

Ardıcıl anlama – danışan danışmağa başlayan kimi tərcüməçi onun sözlərini tərcümə edir;

Tərcüməni anlamanın, yəni şərh etmənin xüsusi faydaları vardır.

İlk əvvəl o, *tərcüməni anlamağa imkan verir.*

Tərcüməçinin əsas üstünlüklərindən biri onu başa düşməyə imkan verməkdir. Fərdlər müvəqqəti və ya daimi olaraq xarici ölkədə olduqda, onlar ev sahibi ölkənin dilində sərbəst danışa bilməzlər. Xəstəxanalar, məktəblər və ya bank müsahibələri kimi vəziyyətlərdə dil biliklərinin məhdud olması səbəbindən anlaşılmazlıqlar baş verə bilər. Tərcüməçilər bu linqvistik boşluqları aradan qaldıraraq, effektiv ünsiyyəti və qarşılıqlı anlaşmanı təmin edirlər. İnsanlar çox vaxt müvəqqəti və ya daimi olaraq və müxtəlif səbəblərdən öz ölkələrindən kənarda olurlar. Hətta onlar öz ölkələrinə ayaq basmazdan əvvəl onun dilini öyrənməyə cəhd etsələr belə, bu onların səlis danışdıqları demək deyil. Dil boşluqlarının aradan qaldırılması adətən tərcümə şərhinin son hədəfidir. Tərcümə vasitəsi ilə mesajların ötürülməsi baş verən ünsiyyətə tam qoşulmaq və anlamaq üçün çox vacibdir.

Şəxsin Sosial Şəbəkəsinin Genişləndirilməsi tərcümənin şərhi ilə izah olunur.

Tərcümənin şərhi həm də fərdin sosial və biznes şəbəkəsinin genişlənməsində mühüm rol oynayır. Beynəlxalq görüşlər və tədbirlər müxtəlif dil mənşəli insanları bir araya toplayır və tərcümə xidmətləri effektiv ünsiyyət saxlamağa və anlaşılmazlıqların qarşısını almağa kömək edir.

Beynəlxalq Səyahətçilər üçün Qlobal Təcrübənin Təkmilləşdirilməsi.

Coğrafi sərhədlər səyahətçilər üçün eyni dili bilməyən insanlarla ünsiyyət mümkün olduqda zəifləməyə başlayır. İstər kimsə istirahət məqsədi ilə səyahət edir, istərsə də dünyanın digər mədəniyyətləri haqqında məlumat əldə etmək üçün səyahət edir, tərcümə xidmətləri ünsiyyəti çox asanlaşdırır. Fərqli dillərdə danışan insanlarla ünsiyyəti asanlaşdırmaqla, səyahətçilər xarici ölkələri daha asan gəzə və fərqli mədəniyyətlərlə əlaqə saxlaya bilərlər.

İndi isə tərcümənin faydalarını sadalayaq.

Müasir multikultural və çoxdilli dünya müxtəlif dillərdə danışan və müxtəlif mədəniyyətlərdən gələnlər arasında səmərəli və effektiv ünsiyyətdən asılıdır. Bir çox insanlar ingilis dilində danışsalar, dünyanın istənilən yerində ünsiyyət qura biləcəklərini düşünürlər. Effektiv ünsiyyət üçün yalnız ingilis dilini bilmək kifayət deyil. Çünki bir dildə sözlərdən daha çox şey var, mətni bir dildən digərinə effektiv və autentik tərcümə edə bilmək üçün yüksək təcrübəli və bilikli tərcüməçi lazımdır.

Tərcüməçilər üçün iş imkanlarının yaradılması.

Bütün dünyada tərcüməyə tələbat artdıqda, bu da tərcüməçilərə tələbatı artıraraq iş yerləri yaradır. Hələlik ingilis dili Avropa Parlamenti kimi yerlərdə effektiv ünsiyyət üçün istifadə olunan əsas dillərdən biri olduğu üçün hər zaman ingilis dili tərcüməçilərinə tələbat var, çünki bütün Avropa Parlamenti deputatları ingilis dilində təmiz danışa bilmirlər.

Alman və fransız dilləri də Avropa Parlamentinin rəsmi dilləridir, buna görə də eyni şeylər tətbiq olunur və əsas sənədlərin alman və fransız dillərindən tərcüməçilər tərəfindən tərcüməsi həyata keçirilir ki, bu əsas dilləri başa düşməyənlər faydalansın [10].

Qeyd edək ki, tərcümədə işarə dili də mühüm rol oynayır. İşarə dili "kar adamların ünsiyyət vasitəsi kimi istifadə etdiyi jest, mimika və əl-qol bədən hərəkətlərindən ibarət işarələr sistemini nəzərdə tutur. Bu işarələr həm kar adamlar, həm də onlarla ünsiyyətdə olan normal eşitmə qabiliyyətli adamlar arasında işlənir [11].

İşarə dili üzrə tərcümə sinxron şəkildə həyata keçirilir və sinxron tərcümənin ənənəvi formasından fərqli olaraq burada tərcüməçinin təcrid olunmuş kabinədə qulaqcıqlardan və mikrafondan istifadə etmək əvəzinə, eşitmə qabiliyyəti qüsurlu olan auditoriya qarşısında birbaşa fəaliyyət göstərməsi tələb olunur. Bu üsulla tərcümə edənlər eşitdikləri şifahi nitqi işarə dilinə, işarə dilində ifadə olunanları isə adi nitqə çevirməli olur. İşarə dili üzrə tərcüməçilik mürəkkəb peşə sayılır [12].

Tərcümənin bu növü üzrə çalışanlar müəyyən kurs keçərək orada işarə dili, karların mədəniyyəti, barmaq vasitəsilə hərfləmə, işarə dilinin quruluşu, dilmanclığın əsasları, dilmanclıq və transliterasiya, səsləndirmə və s. kimi fənləri öyrənməlidirlər.

Göründüyü kimi, tərcümə və tərcüməçilik çox peşəkar bir sənətdir. Tərcümənin istənilən növündə tərcüməçidən müəyyən bacarıqlar tələb olunur. Hər bir növdə o, faktları təhlil edib anlamalı, vəziyyətə və danışığa dərhal uyğunlaşmalı, sürətli reaksiyaya, incə fəhmə malik olmalıdır. Tərcüməçi fikrini toplaya bilməli, əsəblərinə hakim olmalı, gözəl səsə və natiqlik vərdişlərinə malik olmalı, düzgün əl yazısı olmalı, yüksək intellektə malik olmalı, nəzakətli və diplomatlıq qabiliyyətilə seçilməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayeva F. Peşəkar tərcümənin əsasları. Bakı: UniPrint, 2010, 218 s.
2. Abdullayeva F. Qeyri-dil ünsiyyət vasitələrinin tərcümədə rolu. // Elmi xəbərlər, Bakı: ADU, 2004, №4, s.32-38.
3. Abdullayeva F. Sinxron tərcüməçi hazırlığı təcrübəsindən // Elmi xəbərlər jurnalı, Bakı: ADU, 2006, №7, s.31-34
4. Adachi K. Shadowing // Forum, 1997, vol.35, Number 1, pp.46-47.
5. Chernov G. Inference and anticipation in simultaneous interpreting: a probability- prediction model. USA: John Benjamins Publishing Company, 2014, 268 p.
6. Daniel G. Basic concepts and models for interpreter and translator training. USA: John Benjamin Publishing company, 1995, 278 p.
7. Hendry J.F. A definite study of "Your future in translating and interpreting". USA: Richard Rosen Press, 1969, 210 p.
8. Jones R. Conference interpreting explained. UK: Manchester, 2020, 154 p.
9. https://berba.com/reasons-benefits-professional-translation/
10. https://abroadlink.com/blog/oral-translation
11. https://www.translateplus.com/blog/advantages-of-voice-over-translation-services/
12. https://abroadlink.com/blog/oral-translation

Açar sözlər: tərcümə, növ, sinxron, ardıcıl, görmə, səsləndirmə, işarə dili
Key words: translation, type, synchronous, simultaneous, sight, sound, sign language
Ключевые слова: перевод, тип, синхронный, одновременный, зрительный, звук, язык жестов

Types of translation and their benefits

Summary

The article deals with types of translation and their benefits. It mostly touches upon the types of oral translation and analyses their usage of advantages. The differences between the oral translation and the written translation have been explained in the article. The types of oral translation such as synchronous and simultaneous have been highlighted in the article.

Besides, translation and interpreting has also been touched upon in the article.

Any type of translation requires certain skills from the translator. In each type, the translator must analyze and understand the facts, adapt immediately to the situation and conversation, have a quick reaction, and have a subtle understanding.

Виды переводов и их преимущества

Резюме

В статье рассматриваются виды перевода и их преимущества. Основное внимание уделяется видам устного перевода и анализируются их преимущества. В статье объяснены различия между устным переводом и письменным переводом. В статье выделены такие виды устного перевода, как синхронный и синхронный.

Кроме того, в статье также затронуты вопросы письменного и устного перевода.

Любой вид перевода требует от переводчика определенных навыков. В каждом типе переводчик должен анализировать и понимать факты, немедленно адаптироваться к ситуации и разговору, иметь быструю реакцию и тонкое понимание.

Rəyçi: fil.f.d. G.Mustafayeva

Gülnarə Şəmsəddin qızı Nəsibova [12]

AZƏRBAYCAN DİLİNDƏ GENETİK ANTONİMLƏR

Giriş. Azərbaycan dilinə məxsus genetik və tipoloji xarakterli leksik-semantik söz qrupları – omonim, sinonim və antonimlərdir. Leksik-semantik söz qrupları dünyanın bütün dillərində özünəməxsus şəkildə formalaşmışdır. Bu cəhətdən onlar funksionallıq baxımdan universal xarakterə malikdir. Həmin söz qruplarının universal xarakteri artıq onların tədqiqində və təhlilində təsviri üsulu arxa plana çəkir, mütəxəssislərin diqqətini məsələnin genetik problemlərinin həllinə yönəldir.

Antonimlər yaranması insan təfəkkürünün ətraf aləmdəki əşya və hadisələrlə bağlı yaranmış əks əlaqə münasibətlərinin canlandırılması tələbatına uyğun şəkildə baş vermişdir. İnsan və ətraf mühit münasibətləri hər an birxətli, biristiqamətli anlayışları əks etdirməmişdir. Ona görə də bütün informasiyalar pozitiv anlayışların mühitində canlanmışdır. İnsan və ətraf mühit münasibətləri daim əksliklərlə və ziddiyyətlərlə baş-başa gəlir. Dil isə bunların ifadəsi üçün müvafiq sözlər formalaşdırır. S.Cəfərov yazır: "*Antonim sözlərin dildə yaranmasına səbəb bizi əhatə edən aləmin özünün ziddiyyətli olmasıdır. İnkişafın əsasını təşkil edən bu ziddiyyətlərin dildə ifadəsi antonim sözlərdə özünü göstərir. Ona görə də antonimlər lüğət tərkibinin daha maraqlı bir qismini əhatə edir*" [2, s. 35]. H.Həsənov antonimlərin formalaşması və dildəki mövqeyi ilə əlaqədar olaraq yazır:

"*Dildə antonimlərin inkişafı və formalaşması onların aid olduqları hadisə və hərəkətlərin ziddiyyətli olması ilə əlaqədardır. Bu ziddiyyət əks mənalı sözlərlə ifadə olunur. Məhz buna görə də onlar antonimlərin meydana gəlməsində əsas amil kimi çıxış edir. Burada insanların həyat təcrübəsi də rol oynayır. İnsanlar həyatlarında maddi aləmdəki əşya və hadisələrin əlamət və keyfiyyətlərini dərk edir, onları bir-birindən fərqləndirir. Antonim sözlərin ifadə etdiyi məfhumlar insanın iş fəaliyyəti, həyat tərzi, mənəvi aləmi və onu əhatə edən aləmə qarşı müansibəti ilə bağlıdır*" [5, s. 5].

B.Xəlilov da antonimlərin yaranmasını insanın həyat təcrübəsi ilə əlaqədar izah edir. O yazır: "…*Antonimlər insan cəmiyyəti yarandığı gündən meydana gəlmişdir. Cəmiyyətin üzvləri əhatəsində olduqları mühiti dərk etdikcə, yaxşını pisdən, acını şirindən, istini soyuqdan, dostu düşməndən, işığı qaranlıqdan fərqləndirməyə başlamışlar. Bu cür məfhumların dildə fərqləndirilməsi daha çox tam antonimlər vasitəsi ilə ifadə olunmuşdur*" [6, s. 190].

Eyniköklü genetik antonimlər

Eyniköklü genetik antonimlər monosillablar şəklində formalaşmış tərkiblərdən ibarətdir. Eyniköklü genetik antonimlərin müəyyən qismi ilkin omonimlik mərhələsinin məhsulu kimi formalaşmışdır. Belə antonimlər eyni kök modeli üzərində əkslik anlayışı bildirməklə səciyyələnmişdir. Antonimlərin bu qisminin kök modelləri şəkilçililik mərhələsində müvafiq derivatlarla qaynayıb-qarışdığından onları bərpa etmək çətinləşmişdir. Bununla yanaşı, eyni kök daxilindən omonim kimi formalaşan bəzi antonimlərin izlərini müəyyən etmək mümkün olur. Məsələn, *al-* kökü *alçaq* sözünün tərkibində aşağıdakı mənaları bildirir. *Al-* kökündən, həmçinin *alçaqlıq* mənası üzrə *alçalmaq, alçaltmaq, alçaldılmaq, alçaqdan* kimi sözlər də düzəlmişdir. *Al-* kökü hətta omonim variantlı dil vahidi kimi müstəqil olaraq *aşağı, aşağılıq, aşağı* hissə mənasında qədim türk lüğətində də qeydə alınmışdır: "Suv qum alıŋa ılınsər" (Su qum altında isinsə) [9, s. 34]. *Al-* kökü, eyni zamanda, antonim kimi *alp* (hündür, uca, əzəmətli, böyük, qüdrətli) sözünün tərkibində də işlənir: "*Alplar* başı Qazana zərb urdudunya başına dar oldu" [7, s. 18].

Al- kökü kimi *az-* kökü də omonim kimi ilkin informasiya prosesində həm *ucalıq, böyüklük, əzəmətlilik*, həm də *azlıq* mənasında antonimləşmişdir. *Az-* kökünün *alçaqlıq, aşağılıq, azlıq* mənası *az adam, az pul, az mənfəət, az qazanc* kimi ifadələrdə daha aydın müşahidə edilir. *Az* – kökünün böyüklük mənası isə *azman* sözündə ifadə olunur. "Azərbaycan dilinin izahlı lüğəti"ndə azman sözü belə mənalandırılır: "*Azman*. Çox böyük, çox iri, çox yekə, əzəmətli, heybətli: *Azman* binalar *Azman* qayalar" [1, c. 1, s. 191].

Azərbaycan dilindəki *dinmək* (dillənmək, danışmaq, səslənmək) sözünün kökü olan *din-* tərkibi də ilkin omonimlik təbiətinə görə antonim kimi formalaşmışdır. *Dinmək* sözünün *din-*tərkibi izahlı lüğətdə həm *səslənmək, danışmaq*, həm də *sakit olmaq* mənalarında qeydə alınmışdır: *dinmək* (danışmaq, səslənmək, eşidilmək, söz söyləmək) [1, c. 1, s. 640]. *Dinmək* sözünün *din-* tərkibinin həmçinin *susmaq, sakit olmaq, səssiz olmaq, sükutda olmaq* mənası üzrə *dinc –dinməz* [1, c. 1, s. 638], *dinclik* [1, c. 1, s. 639], *dinc* [1, c. 1, s. 640] sözlərində işlənməsinə dair nümunələr verilir. *Dinmək* sözünün sakitləşmək mənası Qərb qrupu dialektlərində *"Qulağımın ağrısı dindi* (sakitləşdi)" müşahidə olunur.

Eyniköklü antonimlər monosillabizm mərhələsində kök tərkibinə müvafiq samit elementlərinin əlavəsi ilə də formalaşmışdır. Antonimlərin bu qismində ilkin monosillabik köklər müəyyən dərəcədə deformasiyaya uğramış olsa da, müvafiq variantlarda öz izlərini saxlayır. Məsələn, *oğ-* kökünün *oğurluq* mənası *oğru, oğurlamaq* kimi derivatlarda ifadə olunur. *Oğ-* kökü isə müstəqil kök kimi işlənmişdir. *Oğ-* kökünə *d-* samitinin əlavəsi ilə *doğ-* kökü formalaşmışdır ki, bu da omonimlik mərhələsində *doğmaq, doğulmaq, doğramaq, doğranmaq* sözləri ilə yanaşı, *doğru* sözünün də tərkibində işlənmişdir. Beləliklə, *oğ-* kökündən formalaşmış *oğru-doğru* sözlərində antonim məna yaranmışdır. *Oğru-doğru* sözlərinin təhlili ilə əlaqədar M.İ.Yusifov göstərir ki, *"oğru-doğru sözlərində eyni ğr elementləri işlədilsə də, məna bir-birinin əksinədir. Məsələ budur ki, ğr (qr) elementlərindən kənara çıxan (fleksiyaya uğrayan) saiti şərti bərpa etdikdə, həm də qor kökü alınır. Bu mənada qor kökünün uyğun anlayışını ona u şəkilçisi artırdıqda müəyyən etmək olur. Oğru sözündə o elementi fleksiya yolu ilə kənara çıxmaqla qorumağın əks mənasını (qorunmamağı) bildirir. O saitindən əvvəl d əlavə edildikdə isə sözün əks mənası (qorunan) əmələ gəlir"* [8, s. 142-143]. Burada həmçinin qeyd olunur ki, *"d samiti kök*

[12] Gəncə Dövlət Universiteti, baş müəllim. Azərbaycan dili kafedrasının dissertantı gulnamsibova6@gmail.com

elementinin başlanğıcına prefiks kimi əlavə olunduqda inkar mənalı antonim qarşılıqları əmələ gəlir. Məsələn, an (bil) – dan (bilmə), al (irəli, qabaq, alın) dal (arxa, geri), üz (üzül) düz (düzül), in (inlə, səslən) din (dinmə, səslənmə)" [8, s. 143].

Monosillabizm mərhələsində eyni kökə prefiks xarakterli müvafiq elementlərin əlavəsi ilə digər antonim mənalı sözlərin əmələ gəlməsinə dair faktlar da aşkar edilmişdir. Məsələn, *iz-* kökündən aşkar olanı tapmaq, müşahidə etmək, axartmaq arxasınca düşmək mənasını bildirən *izləmək* sözü düzəlmişdir. *İz-* kökünün əvvəlinə *g* samiti artırıldıqda isə *giz-* kökü formalaşır ki, bu kökdən də aşkarı örtmək mənasında *gizli, gizlin, gizlətmək, gizlənmək* kimi derivatlar formalaşır.

İz – kökündən antonim mənalı *giz-* variantının yaranması ilə əlaqədar olaraq göstərilir ki, bu da eyni kökdən əks mənalı dil vasitələrinin formalaşmasının bir üsulu kimi mövcud olmuşdur [8, s. 115].

Azərbaycan dilində, həmçinin *təmiz, təmizlik, təmizləmək* mənasında *ar-* kökü də mövcuddur. *Ar-* kökünün əsasında təmizləmək mənasında *arıtmaq, arıtlamaq*, *arınmaq* kimi derivatlar formalaşmışdır. Qədim türk lüğətində *ar-* kökü əsasında düzəlmiş təmiz mənası bildirən *arı* və *arıq* sözləri qeydə alınmışdır: "Arı- təmizlənmək: Bu er ölməkinçə *arımas* kiri" (Bu kişi ölməyincə kiri təmizlənməz); "*Arıq* təmiz: Etüzin arıq yunup yarı *arıq* ton kedip" (Öz canını təmiz yuyub təzə və təmiz paltar geyinib) [9, s. 56]. *Arı* sözü təmiz mənasında "Aydan *arı*, sudan duru" ifadəsində də işlənir. *Ar-* kökünün əvvəlinə prefiks səciyyəli *q* samiti əlavə olunduqda *qar-* kökü əmələ gəlir ki, omonim xassəli bu kökdən də *ar-* kökü ilə münasibətdə əks mənalı *qarışıq, qarışdırmaq, qarışıqlıq* kimi derivatlar düzəlir. Qədim türk lüğətində *qar-* kökü üzrə formalaşmış *qara* sözünün çirklilik mənası qeyd alınmışdır: "Tonqa *qara* yuquldı" (Paltara çirk yığıldı) [9, s. 449]. Lüğətdə *qar-* kökü əsasında yaranmış *qarışıqlıq, qatışıqlıq* mənasındakı *qarış* sözü də qeydə alınmışdır: "Negükə *qarıştıŋ* bu işkə öçün" (Niyə sən bu işə qarışdın) [9, s. 454]. Azərbaycan dilində, həmçinin *tanınmaq, tanımaq, bilinmək* anlayışı üzrə *ad* kökü formalaşmışdır. Bu kökdən *tanınmaq* mənası bildirən *adlanmaq, adlandırmaq, adlı* (-sanlı) kimi derivatlar düzəlmişdir. *Ad* kökünün əvvəlinə prefiks səciyyəli *y* samiti artırılmaqla *yad* kökü yaranmışdır ki, bu da semantik cəhətdən tanınmayan, bilinməyən özgə, başqa, qeyri anlayışlarını bildirir. Azərbaycan dilində, həmçinin başlanğıcda prefiks elementi kimi müvafiq samit elementləri işlənən *yox-çox, öy-* (tərifləmə) – *söy* (təhqir et) tipli antonimlər də formalaşmışdır. Bu tipli eyni kökdən formalaşmış antonimlər monosillabizm mərhələsinin məhsuludur. Dilin sonrakı inkişaf və təkamül dövrlərində isə eyniköklü sözlər vasitəsilə əksliklərin çoxluğunu ifadə etmək üçün daha yeni derivativ vasitələr formalaşmışdır.

Müxtəlifköklü genetik antonimlər

Müxtəlifköklü genetik antonimlər də, əslində, monosillabizm mərhələsinin məhsulu kimi formalaşmışdır. Müxtəlifköklü genetik antonimlərin formalaşması insan və ətraf mühit münasibətlərinin genişləndiyi elə bir mərhələnin məhsuludur ki, bu mərhələdə artıq təfəkkürün özündə abstraktlaşma prosesi yaranmış olur. İnsan təfəkkürü daha artıq informasiyaları qəbul edir və onları söz emalına çevirir. Bununla da yeni yaranan sözlər ayrı-ayrı yaxınmənalı anlayışları bildirdiyi kimi, əks və zidd mənalı anlayışları da əhatə etməyə qadir olur. Əlbəttə ki, ilkin mərhələyə aid müxtəlifköklü monosillabik elementləri bərpa etmək üçün ciddi etimoloji tədqiqatlar aparmağa ehtiyac vardır. Lakin ilkin monosillabik köklər kimi formalaşmış antonim sözlərin izləri itməmişdir, onlar ya müstəqil mənalı sözlərdə və ya onların təməlində yaranmış müvafiq derivatlarda saxlanılır. Məsələn, *dün- gün* qarşılaşması üzrə formalaşan antonim cütlüklərində *gün* tərkibi müstəqil mənasını mühafizə edir. *Dün* sözü isə müstəqil mənasını uyğun derivatlarda saxlayır. *Dün* kökü əsasında *dünən* sözü formalaşmışdır ki, bu da ötən *gün* mənasındadır. Dün sözü qədim türk lüğətində *tün* variantı üzrə *gecə* mənasında qeydə alınmışdır: "*Tün gecə*: *Tün* udusıqım kelmədi" (Gecə yuxum gəlmədi) [9, s. 633]. *Tün* kökündən qaranlıq mənasında, həmçinin *tünlük* sözü də formalaşmışdır. *Tün* sözü *gün* sözü ilə birlikdə qoşa söz kimi *gecə-gündüz* mənasında klassik ədəbiyyatda da işlənmişdir:

"*Qaşların yayinə meyl eyləyəli canü-könül*
Dünü–gün mən bilirəm kim, nə çəkirlər onlar" [4, s. 119].

Azərbaycan dilində formalaşmış *er-gec* antonim cütlüyündə də *gec* sözü özünün məna müstəqilliyini saxlayır. *Er-* tərkibi isə *ertə, erkən* sözlərində özünün ilkin mənasını əks etdirir. *Er-* tərkibinin səhər tezdən mənası qədim türk lüğətində də qeydə alınmışdır: "Keçə yattı, *ertə* turup yundu" (Gecə yatta səhər durub yuyundu). *En- yox* antonim cütlüyündə *en-* kökü aşağılıq mənasını saxlayır. Bu kökdən düzəlmiş *eniş, endir, endirmək* sözlərində də aşağılıq mənası ifadə edilir. *Yox-* tərkibi isə əks mənada özünün ilkin genetik mənasını müstəqil şəkildə saxlamır. Lakin *yox-* tərkibinin yoxuş derivatında həmin kökün ilkin mənasını müşahidə etmək olur. Həmin cütlüyün əsasındakı *eniş-yoxuş* sözlərində isə onların antonimlik anlayışı özünü bariz şəkildə göstərir.

İr-ger monosillablarında isə tərəflərin heç biri məna müstəqilliyini mühafizə edə bilmir. Ancaq *ir-* kökü əsasında düzələn *irəli*, *ger-* kökü əsasında formalaşmış *geri* sözlərində onların antonim qarşılaşmalı ilkin anlayışları mühafizə olunur. Eyni qayda üzrə *ir-xır* köklərinin geneik əkslik anlayışlarını bərpa etmək olur. Məsələn, omonim xarakterli *ir-*kökünə *–i* elementi qoşulduqda *iri* sözü alınır ki, buradan da həmin kökün ilkin mənası aydınlaşır. *İri* sözünün özündən isə *irilik, iriləşmə, irilənmə* kimi sözlər yaranır. *Xır-* kökünə isə *–da* şəkilçisi artırıldıqda xırda sözü alınır. Beləliklə, həmin köklərin bazasında *iri-xırda, irili-xırdalı* kimi antonim derivatları formalaşır. Azərbaycan dilində bu tipli genetik antonim elementlər çoxdur. Lakin onların böyük əksəriyyəti şəkilçililik mərhələsində semantik deqradasiyaya uğradığından həmin söz tiplərini etimoloji yolla bərpa etmək mümkün olur. Məsələn, *aş-yux* kökləri də monosillabik element kimi semantik deqradasiyaya uğramışdır. *Aş-* kökü ilkin informasiya mərhələsində omonim xarakteri üzrə işlənərək ayrı-ayrı semantik xüsusiyyətlər kəsb etmişdir. Həmin kökə *–ağı* tərkibi əlavə edildikdə *aş-* kökünün aşağılıq mənası müəyyən edilir. *Yux-* kökü isə *–arı* tərkibi ilə birlikdə *yuxarılıq* mənası bildirir. Beləliklə, həmin köklərin bünövrəsində *aşağı-yuxarı* antonim cütlüyü formalaşır. Müxtəlifköklü genetik antonimlərin bir qismində ilkin monosillabizm özünün informasiya intensivliyinə görə məna

müstəqilliyi saxlanılır. Məsələn, *az-çox, al-ver, get-gəl, at-tut, tez-gec, gir-çıx, gen-dar, sağ-sol, var-yox, yer-göy, üz-düz* kimi antonimləri bunlara nümunə göstərmək olar.

Bu tipli antonimlər əşya və hadisələrin əkslik anlayışlarını intensiv adlandırmaqla dildə qoşa sözlər kimi də formalaşmışdır. Antonim mənalı sözlərin yanaşı işlənərək ənənəvi qayda üzrə qoşa sözlərə çevrilməsi məsələsi K.Ramazanovun Cənub-Qərb qrupu türk dillərində qoşa sözlərə həsr olunmuş dissertasiya işində də geniş şərh edilmişdir [10, s. 14-16]. M.Əlizadənin Azərbaycan dilindəki qoşa sözlərə həsr olunmuş dissertasiyasında da antonim xarakterli qoşa sözlərin mənşəyinə və formalaşmasına dair maraqlı faktlar və mülahizələr vardır. Antonim mənalı qoşa sözlərin yaranması ilə əlaqədar olaraq burada göstərilir: "*Əşya və hadisələrin əks cəhətlərini ifadə edən antonimlər qoşalaşarkən tərkib hissələrinin mənalarının cəminə bərabər olan ümumi semantikanın daşıyıcılarına çevrilirlər. Bu birləşmələrdə zidd məzmunlu anlayışları bildirən komponentlər ümumi məna yükünün ifadəçisi kimi çıxış edir*" [3, s. 9].

Burada göstərildiyi kimi, antonim qoşa sözlər ümumi əkslik semantikasına uyğun olaraq bir-birini tamamlayır və ona görə də qoşalaşaraq bir vəhdət yarada bilir. Azərbaycan dilində ilkin genetik omonim cütlərinin təkamülü nəticəsində ilkin genetik semantikasından uzaqlaşmış əksmənalı tərkiblərə müvafiq şəkilçi elementləri əlavə olunmaqla onların məna bütövlüyü bərpa edilir və onların əsasında da daha yeni antonim cütləri formalaşır. Belə antonim cütlərinin bir qismində ilkin monosillabik kök ənənələrinin davamı olaraq semantik müstəqillik saxlanıldığı halda, bəzilərinin ilkin mənası onların derivativ variantlarında ifadə olunur. Məsələn, *ayaq-baş, isti-soyuq, boş-dolu, yalan-doğru, dal-qabaq, ağır-yüngül, arıq-kök, əyri-düz, asta-cəld, ölü-diri, bütün-para, böyük-kiçik, yazı-pozu, dərə-təpə, otur-dur, yalan-gerçək, uzun-qısa, uzun-gödək, hündür-alçaq, isti-soyuq, ağ-qara, astar-üz, yeyin-yavaş, eniş-yoxuş* kimi antonim cütləri buna nümunə ola bilər. Bu nümunələrin içərisində *ayaq-baş, boş-dolu, dal-qabaq, arıq-kök, əyri-düz, ölü-diri, yazı-pozu, otur-dur, ağ-qara, astar-üz, eniş-yoxuş* cütlərində tərəflərdən biri müstəqil monosillab kimi ilkin mənasını saxlayır, digəri isə öz ilkin mənasını ancaq həmin kökdən törəyən derivatda mühafizə edir.

Bu nümunələrlə müqayisədə *ağır-yüngül, asta-cəld, bütün-para, böyük-kiçik, dərə-təpə, yalan-gerçək, uzun-qısa, uzun-gödək, hündür-alçaq, isti-soyuq, yeyin-yavaş* antonim cütlərinin monosillabik tərkibləri müstəqil mənalarını onlardan törəmiş derivatlarda saxlayır. Azərbaycan dilində qoşa söz tərkibi yaradan belə antonim cütlükləri şifahi danışıqda, bədii mətnlərdə və təsvirlərdə emosionallıq bildirən vasitələr kimi işlənir.

Nəticə. Antonimlərin mənbəyi monosillabik təmələ malik olsa da, dilin tipoloji inkişaf mərhələlərində onlar təfəkkür qanunlarına uyğun şəkildə təkamül prosesi keçirərək öz ənənələrini düzəltmə formalarda davam etdirmişdir. Bununla yanaşı, monosillab mərhələsindəki elementlər də öz keyfiyyət dərəcəsini itirməmişdir. Belə ki, onlar şəkilçisizlik mərhələsinin məhsulu kimi özlərində başqa dillərlə universallıq münasibətlərini saxlamaqdadır.

Antonimlərin də ilkin mərhələsində əkslik və ziddiyyətlər eyni obyekt, iş və hadisə daxilində dərk edilmişdir. Odur ki, bir söz tərkibi daxilində iki əks və ya zidd anlayışların ifadə olunmasını bildirən antonimlər də formalaşmışdır. Məsələn, *az* sözü müstəqil olaraq aşağılıq anlayışı bildirdiyi kimi *azı, azman* tipli derivativ formalarda böyüklük anlayışı da bildirir. Yaxud *al* tərkibi *alçaq* sözlündə aşağılıq mənası bildirdiyi halda, *alp, alın* sözlərində yuxarılıq mənasında anlaşılır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] / – Bakı: Şərq-Qərb, – c. 1. – 2006. – 744 s.
2. Cəfərov, S. Müasir Azərbaycan dili. Leksika: [4 hissəli] / S.Cəfərov. – Bakı: Şərq-Qərb, – h. 2. – 2007. – 192 s.
3. Əlizadə, M.S. Azərbaycan dilində qoşa sözlər və onların linqvistik xüsusiyyətləri: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı /- Bakı, 2014. – 28 s.
4. Füzuli. Əsərləri: [6 cilddə] / Tərt. ed. H.Araslı. – Bakı: Şərq-Qərb, – c. 1. – 2005. – 409 s.
5. Həsənov, H. Azərbaycan dilinin antonimlər lüğəti / H.Həsənov. – Bakı: Şərq-Qərb, – 2007. – 144 s.
6. Xəlilov, B. Müasir Azərbaycan dilinin leksikologiyası / B.Xəlilov. – Bakı: Nurlan, – 2008. – 442 s.
7. "Kitabi-Dədə Qorqud"un izahlı lüğəti / – Bakı: Elm, – 1999. – 204 s.
8. Yusifov, M.İ. Linqvistik tipologiya / M.İ.Yusifov. – Bakı: Elm və təhsil, – 2017. – 184 s.
9. Древнетюркский словарь / – Астана: Гылым баспасы, – 2016, – 760 с.
10. Рамазанов, К.Т. Семантические принципы порядка компонентов парных слов в тюркских языках югозападной группы: / автореферат дисс. … кандидата филологических наук / – Баку, 1984. – 39 с.

Açar sözlər: Azərbaycan dili, eyniköklülük, müxtəlifköklülük, əksmənalı sözlər, təhlil

Key words: Azerbaijani language, root words, non-root words, words with opposite meanings, analysis

Ключевые слова: Азербайджанский язык, однокоренные слова, разнокорневые слова, слова с противоположным значением, анализ.

Azərbaycan dilində genetik antonimlər

Xülasə

Azərbaycan dilinə məxsus genetik və tipoloji xarakterli leksik-semantik söz qrupları– omonim, sinonim və antonimlərdir. Leksik-semantik söz qrupları dünyanın bütün dillərində özünəməxsus şəkildə formalaşmışdır. Bu cəhətdən onlar funksionallıq baxımdan universal xarakterə malikdir.

Antonimlər yaranması insan təfəkküründün ətraf aləmdəki əşya və hadisələrlə bağlı yaranmış əks əlaqə münasibətlərinin canlandırılması tələbatına uyğun şəkildə baş vermişdir. İnsan və ətraf mühit münasibətləri hər an birxətli, biristiqamətli anlayışları əks etdirməmişdir.

Eyniköklü genetik antonimlər monosillablar şəklində formalaşmış tərkiblərdən ibarətdir. Eyniköklü genetik antonimlərin müəyyən qismi ilkin omonimlik mərhələsinin məhsulu kimi formalaşmışdır. Belə antonimlər eyni kök modeli üzərində əkslik anlayışı bildirməklə səciyyələnmişdir. Antonimlərin bu qisminin kök modelləri şəkilçililik mərhələsində müvafiq derivatlarla qaynayıb-qarışdığından onları bərpa etmək çətinləşmişdir.

Məqalədə *al, oğ, iz, az* morfemlərindən yaranan əksmənalı sözlər və *dün, gün, er, en, ir, xır, aş* və s. müxtəlifköklülük yaradan genetik antonimlər araşdırılıb təhlil olunmuşdur. Məsələn, *az* sözü müstəqil olaraq aşağılıq anlayışı bildirdiyi kimi *azı, azman* tipli derivativ formalarda böyüklük anlayışı da bildirir. Yaxud *al* tərkibi *alçaq* sözlündə aşağılıq mənası bildirdiyi halda, *alp, alın* sözlərində yuxarılıq mənasında anlaşılır.

Genetic antonyms in the Azerbaijani language

Summary

Genetic and typological lexical-semantic word groups belonging to the Azerbaijani language are homonyms, synonyms and antonyms. Lexico-semantic word groups are formed in a unique way in all languages of the world. In this respect, they are universal in terms of functionality.

The formation of antonyms took place in accordance with the need of the human mind to revive the feedback relations that have arisen in relation to objects and events in the surrounding world. Human and environmental relations have not always reflected unidirectional concepts.

Homogeneous genetic antonyms consist of compounds formed in the form of monosyllables. A certain number of genetic antonyms with the same root were formed as a product of the initial homonymy stage. Such antonyms are characterized by expressing the opposite concept on the same root model. Since the root models of this part of the antonyms were mixed with the corresponding derivatives during the formation stage, it became difficult to restore them.

In the article, words with opposite meanings created from morphemes *al, oğ, iz, az* and genetic antonyms such as *dün, gün, er, en, ir, xır, aş* etc. that create different roots were investigated and analyzed. For example, the word "az" (less) independently conveys the concept of "*alçaq*" (inferiority), as well as the concept of greatness in derivative forms such as "azı", "azman"(great). Or, while the composition "al" means inferiority in the word "alçaq", it is understood in the sense of superiority in the words "alp" and "alın".

Генетические антонимы в Азербайджанском языке

Резюме

Генетические и типологические лексико-семантические группы слов, принадлежащие азербайджанскому языку, являются омонимами, синонимами и антонимами. Лексико-семантические группы слов образуются уникальным образом во всех языках мира. В этом отношении они универсальны с точки зрения функциональности.

Образование антонимов происходило в соответствии с потребностью человеческого сознания в возрождении обратных отношений, возникших по отношению к предметам и событиям окружающего мира. Отношения человека и окружающей среды не всегда отражали однонаправленные концепции.

Однородные генетические антонимы состоят из соединений, образованных в виде односложных слов. В результате начальной стадии омонимии образовалось определенное количество однокорневых генетических антонимов. Для таких антонимов характерно выражение противоположного понятия по одной и той же корневой модели. Поскольку корневые модели этой части антонимов на этапе формирования были смешаны с соответствующими производными, восстановить их стало затруднительно.

В статье были исследованы и проанализированы слова с противоположным значением, образованные из морфем ал, ог, из, аз и таких генетических антонимов, как дюн, гюн, эр, эн, ир, хыр, аш и др., образующих разные корни. Например, слово «аз» (меньше) самостоятельно передает понятие «алчак» (неполноценность), а также понятие величия в производных формах, таких как «ази», «азман» (великий). Или, хотя в слове «алчак» композиция «ал» означает неполноценность, в словах «алп» и «алын» она понимается в смысле превосходства.

RƏYÇİ: dos. E.Vəliyeva

Səfurə İlqar qızı İsayeva [13]

LİNQVİSTİK QƏNAƏT PRİNSİPİNDƏ ABREVİASİYANIN ROLU

Linqvistik qənaət prinsipini həyata keçirərkən istifadə olunan bütün müxtəlif linqvotexniki vasitələrdən ən fəal və ən məhsuldarı abbreviaturadır. O. Yespersen bir dəfə abbreviatura vasitəsi ilə söz əmələ gəlməsinin əhəmiyyəti və yeri haqqında yazırdı: "Abreviaturalar... heç bir yerdə müasir ingilis dilindəki qədər çox deyil. Onlar həqiqətən də bu mərhələdə ingilis dilinin inkişafının ən xarakterik xüsusiyyətlərindən birini təmsil edirlər" [11, s.550-551].

İxtisar termininin özü bizim tərəfimizdən geniş mənada, orijinal nominativ vahidin formal olaraq sıxıldığı müxtəlif növ abreviaturaları özündə cəmləşdirən sıxıcı söz əmələ gəlməsinin xüsusi yolu kimi başa düşülür. Abreviaturanın digər söz əmələ gətirmə üsullarından fərqi ondan ibarətdir ki, ilkin nominativ vahidi azaltmaqla yaradılan abbreviatura verilmiş subyektin (denotatın) yeganə şifahi təyinatı deyil, bir qayda olaraq, formalaşdığı tam prototipi ilə paralel olaraq dildə birgə mövcuddur. Bütün alınma sözlər kimi, abbreviaturalar da ikiqat istinadla - ümumən söz sinifləri üçün səciyyəvi olan reallıq dünyasına istinadla və ikinci dərəcəli nominasiya vahidləri üçün xarakterik olan söz dünyasına istinadla xarakterizə olunur. İxtisarlar və yalnız əşyalar aləminə münasibətdə istinad edən sadə, törəmə olmayan, motivsiz sözlər arasındakı əsas fərq budur [6, s. 9-10].

Həm tam, həm də bükülmüş formaların eyni istinad münasibətinə malik olması kontekst tərəfindən dəstəklənir və sinonimliyin zəif paylayıcı meyarına, yəni bəzi kontekstlərdə qismən əvəzlənmə şərtinə cavab verir. Bu, referenti və mesajın məzmununu dəyişmir. Bu nominativ vahidlərin hər ikisi struktur və semantik baxımdan uyğunlaşaraq nitqdə semantik dublet kimi fəaliyyət göstərir.

Alınan adın strukturu orijinal vahiddə olan simvolu və ya simvolları və ya simvolların hissələrini təkrarlayır. Yuxarıda deyilənlərlə əlaqədar olaraq sual yarana bilər ki, bu proses dildə balanslaşdırılmış iqtisadiyyatın pozulmasına səbəb olmur. Bu sualın cavabı yalnız birmənalı olaraq mənfi ola bilər, çünki abreviaturaların əksəriyyəti qısaldılmamış prototiplərindən ya istifadə, ya da üslubi rəngləmə və ya hər ikisi baxımından fərqlənir [12, s.363]. Sıxıcı söz əmələ gətirmə üsullarından təkcə dildə qənaət məqsədi ilə istifadə olunmur. Bununla yanaşı, parlaqlıq, cəlbedicilik, ifadəlilik arzusu özünü göstərir, yəni aşağıdakı qanunauyğunluq müşahidə olunur: yeni törəmə sözlər ifadəli kimi qəbul edilir; uzun müddət istifadə ənənəsi olan sözlər ifadəlilikdən məhrumdur.

Üstəlik, qeyd edirik ki, insanların müəyyən bir dairəsində, müəyyən bir vəziyyətdə tez-tez istifadə olunan məhz bu sözlər ən çox kəsilməyə məruz qalır ki, qısaldılmış ad ünsiyyətə daha canlılıq və yenilik verir. Törəmə dilin törəmə vahididir. İki vahid - başlanğıc və nəticə - söz əmələ gəlməsi münasibətindədir. Lakin yeni ad, ilk növbədə, bir sözdən ibarət təyin kimi qurulan yeni leksemdir, yəni həvəsləndirici vahidin uzunluğundan və mürəkkəbliyindən asılı olmayaraq, bir söz çərçivəsində bağlanır. Yeni leksemin tutumu və informativliyi onun ayrılmaz xüsusiyyəti kimi çıxış edir ki, bu da onun parçalanmış vəziyyəti vahid ad şəklində ifadə etmək qabiliyyəti ilə bağlıdır. Adların semantik və formal bölünməsinin aradan qaldırılması dildə çoxsaylı semantik sıxlaşma hallarını birləşdirir və vahid anlayışın vahid təyinata uyğun gəldiyi zaman dildaxili əlaqələrin, o cümlədən linqvistik vahidlərin forma və məzmunu arasında ümumi tendensiya və linqvistik avtomatizmə töhfə verən qanunauyğunluqdan irəli gəlir. Bununla əlaqədar, törəmə sözün göründüyü yerlərdə məlumatın sıxlaşması faktını da qeyd etmək lazımdır. Törəmə təəccüblü dərəcədə tutumlu nominativ əlamətə çevrilir, artıq məlum olanı izah etmək üçün qənaətcil bir yoldur və həmişə həm reallığın bəzi elementinin sadə təyinatı, həm də müəyyən bir dildə danışanların bütün qrupu tərəfindən qəbul edilən bir ifadədir. Bu, törəməni dil sisteminin xüsusi vahidi hesab etməyə imkan verir. Buna görə də demək olar ki, bu hallarda işarələnənin təsviri fərqlidir: təfərrüatlı, bir neçə sözdən ibarət ad işarələnənin təfərrüatları və xüsusiyyətləri haqqında dəqiq təsəvvür yaradır. Digər tərəfdən, abbreviatura daha çox bu adın şərti işarə əvəzedicisi kimi qəbul edilir və zehində tam konstruksiyaya çevrilir.

Bir çox hallarda hətta abbreviatura ilə orijinal tam forma arasında mövzu atributunda uyğunsuzluqlar olur. Başqa sözlə desək, abbreviatura prosesi nəticəsində abbreviaturanın öz ixtisar edilməmiş prototipindən semantik yerdəyişmə və hətta tam uzaqlaşması baş verə bilər ki, bundan sonra hər bir vahid dildə öz normalarına uyğun olaraq öz müstəqil həyatını davam etdirə bilər. Bu müddəanın nümunəsi PT (Fiziki Tərbiyə) abbreviaturası ola bilər ki, bu abreviatura oynaq, parodik yenidən düşünmə ilə Fiziki İşgəncə və ya Çoxlu Problem mənasını qazanır. Təbii ki, söz ixtisar olunmuş söz kimi tanınır, o vaxta qədər ki, yarandığı dildə tam söz (yaxud dövriyyəsi) olsun. Lakin bəzi hallarda abreviaturanın yaranması üçün əsas rolunu oynamış sözün tam forması dildən tamamilə sıxışdırılır, mövcudluğu dayandırılır və qısaldılmış forma adi ixtisar edilməmiş leksik vahid kimi fəaliyyət göstərməyə başlayır, yeni kök morfemi kimi qəbul edilir. Buna misal olaraq chap (chapman), brendi (konyak) sözlərinigöstərmək olar.

Bəzi alimlərin fikrincə, xüsusilə aktiv, digər Avropa dillərinə nisbətən xeyli güclü, ingilis dilində söz və söz birləşmələrinin azaldılması meylinin təzahürü onun üçün çox xarakterik olan monohecalılığa olan istəyi ilə bağlıdır. Bu xassə getdikcə artan abreviatura tipli bütün növ neoplazmaların yaranmasının və müasir ingilis dilində geniş yayılmasının ən mühüm daxili səbəblərindən biridir.Başqa sözlə desək, əmələ gəlmənin mümkünlüyü və kök səbəbidir, bütün növ abbreviaturalar AL-in söz yaradıcılığı sisteminə immanent olaraq daxil olur. Dövrümüzdə abbreviatura proseslərinin aktivləşməsi müasir dillərin inkişafı və fəaliyyətini bu və ya digər şəkildə müəyyən edən linqvistik və

[13] **Qərbi Kaspi Universiteti. ADU: dissertant E-mail: s.isayeva1@gmail.com Telefonu: 050 308 27 83**

ekstralinqvistik amillərin qarşılıqlı təsirinin xüsusi xarakteri ilə bağlıdır. İxtisarların belə sürətlə artması sosial həyatımızın ritminin sürətlənməsi ilə səciyyələnən dövrümüzün ruhuna uyğundur.

Qısaldılmış struktur orijinal vahidin qısaldılmış izlərindən ibarətdir. İxtisar izlərinin növünə görə ixtisar edilmiş strukturlar abbro-ilkin, abbromorfemik və abbro-sözlərə bölünür, çünki abbro izlər tam belə olmadan, müxtəlif səviyyəli diskret vahidlərlə struktur və semantik əlaqədə ola bilir. İlkin vahidin tam formalaşmış şifahi komponenti ilə korrelyasiya edən abbro-izə abbro-söz deyilir. Sözün fraqmentinə uyğun gələn abbro-izə abbromorfemik deyilir. Səs ifadəsi baxımından yalnız ilkin fonemə və ya prototipin hərfinə uyğun gələn abbro-izə abbro-başlanğıc deyilir. Abbrotrace anlayışı bizə sözün ən ümumi mənasında onun vasitəsilə abreviatura müəyyən etməyə imkan verir. Abreviatura dedikdə sözün leksikləşməsindən sonra statusu ilə sıxıcı söz əmələ gəlməsi prosesinin məhsuldar vahidi başa düşülür, morfoloji strukturu onunla sinxron şəkildə mövcud olan tam orijinal vahidə istinad edərək ən azı bir abbro izi ehtiva edir [6, s. 4].

İfadə baxımından söz yaradıcılığı təhlili ixtisar olunmuş köklərin əmələ gəlmə üsuluna görə müəyyən edilmiş bütün struktur növlərinin abreviaturalarını fərqləndirməyə imkan vermişdir.

Teleskopik (qarışıqlar) istisna olmaqla, abbromorfemik tipli abbreviaturalar (qırpmalar) kəsilmiş abbreviaturalar kimi təsnif edilir. Quruluşunu bir istinad abbromorfemik izdən təşkil edən bir sözün kəsilmiş törəmələrinin əmələ gəlmə üsulu abbromorfemik kəsilmə kimi müəyyən edilir. Dilin leksik-semantik sisteminə onun tamhüquqlu elementləri kimi daxil olduqda, abbromorfemik kəsilmiş formalar ana dili danışanların şüurunda sadə, birhecalı sözlər, kök morfemlər kimi qəbul edilir, adətən istinad sözünə xüsusi izahat və istinad tələb etmir. Lakin sözün kəsilmiş və tam versiyaları, şübhəsiz ki, ən yaxın linqvistik bağlarla bağlıdır. Semantik məzmunu korrelyasiyadan alaraq, kəsilmə qeyri-rəsmi ünsiyyət tərzinin izini daşıyır. İlkin formadan bu və ya digər kəsilmə arasındakı əsas fərqlərdən biri məhz tətbiq sahəsindədir. Qeyd etmək lazımdır ki, dil sisteminə münasibətdə kəsilmiş nəticə vahidi morfem olmadığı kimi kəsim hissəsi də morfem deyil. Daha doğrusu, kök morfemlərin məhv edilməsi ilə xarakterizə olunan, nə morfemlərlə, nə də sözlərlə üst-üstə düşməyən, orijinalın ixtiyari hissələri olan söz fraqmentlərinin əmələ gəlməsinə səbəb olan morfoloji abbreviaturadan danışmalıyıq.Odur ki, "kəsmə prosesi söz əmələ gətirmə, prefiksasiya, şəkilçi və sıfır törəmə ilə eyni qrammatik statusa malik deyil və dil sisteminin özü (la langue) ilə əlaqəli deyil, nitqə (la parole) aiddir" (la parole). [12, s.142]. Lakin kəsilmiş forma formalaşdıqdan sonra müstəqil leksik vahid kimi fəaliyyət göstərməyə başlayır, bəzən hətta ilkin törəmə vahidi ilə əlaqəsini pozur. Beləliklə, nitqində *vamp* sözü keçən natiqin bu sözün mənşəyinin *vampir* sözündən olması barədə zərrə qədər fikri olmaya bilər. *Şalvar* sözünü işlədən amerikalı bu sözün *pantaloons* sözünün kəsilmiş forması olduğunu düşünmür və s.

Rəsmi əsasda, ilkin vahidin hansı hissəsinin kəsilməsindən asılı olaraq azalmalar dörd növə bölünə bilər; üstəlik, formalaşmış qruplar kəmiyyətcə qeyri-bərabərdir:

1) Aferez: *telephone – phone, airplane – plane, bicycle – cycle, perfume – fume, autobus – bus, hobo – bo*və s.

2) Sinxopasiya: *ditto – do, holidays- hols, market – mart, spectacles – specs, circumstances – circs*və s.

3) Abbromorfemik kəsilmənin ən məhsuldar növü olan apokop: *champion – champ, mathematics – math, laboratory – lab, professor – prof, professional – pro, examination – exam, doctor – doc, demonstration – demo, limousine – limo, Japanese – Jap, chocolate – choc, gymnasium – gym*və s.

Qısaldılmış formanın tələffüzü adətən bu abbromorfemik izin ilkin formada malik olduğu tələffüzlə uyğun gəlir. Bununla belə, bəzi hallarda qısaldılmış formanın tələffüzü onun yazılışından təsirlənir (bax: brassiere və bra). Bəzi hallarda, kəsilmiş formanın orfoqrafiyası prototipdəki tələffüzlə uyğunlaşmaq üçün bir qədər dəyişdirilmişdir. Məsələn: *microphone – mike, double – to dub, television – telly, dividend – divvy*və s.

4) Qarışıq tip, yəni bu növlərin birləşməsindən vahid kəsilmiş söz forması əmələ gətirir: *influenza – flu, refrigerator – frig/fridge, detective – tec/dick, perambulator – pram*və s.

Lakin, bir çox başqalarında olduğu kimi, ingilis dilində də olduqca yaygın bir hadisə, insanların adlarının qısaldılmasıdır. Qısaldılmış adlar arasında, məsələn: *Alexander - Alec (k), Isabella - Bella / Bel, Elisabeth - Betty / Betsey / Betsy / Bessie / Bessy / Bess / Elsie / Liza / Lizzie / Liz, Daniel - Dannie / Dan, Michael - Mike / Micky, Philip - Phil / Pip, Christina / Christine - Christie / Christy / Tina* və s. rast gəlmək olur [5,s. 54]. İxtisar prosesi müəyyən bir abbreviaturanın yaranma mərhələləri ilə ayrılmaz şəkildə bağlıdır. Burada birdəfəlik (aralıq mərhələlərsiz) prosesdən və müəyyən sayda addımlardan (törəmə mərhələlərindən) ibarət olan prosesdən danışmaq məqsədəuyğundur. Abbroinitial və abbromorfemik abbreviaturalar kimi qısaltmaların struktur növləri birdəfəlik abbreviatura aktının nəticəsidir: *spectacles – specs, popular – pop, nylon – New York (and) London.* Çoxmərhələli təbiət aşağıda nəzərdən keçirəcəyimiz atributiv birləşmələrə, teleskopik sözlərə, eləcə də şəkilçi ilə tamamlanan kəsilmələrə əsaslanan kəsilmələr şəklində qısaltmaların formalaşması prosesinə xasdır. Lakin bəzi hallarda tək sözün getdikcə kəsilmiş formasının formalaşmasında çoxmərhələ mövcuddur. Məsələn: *Margaret–Margery–Margie–Marge–Maggie-Mag; Lewis – Lewie Lew; Reginald –Reggie-Reg; Walter–Walt-Wat; William–Willy-Will; advertisement–advert* və s.

Omonimiya əlaqələri də çox vaxt abbreviaturalar əsasında yaranır. Omonimlər iki əsas fərqli qrup şəklində təmsil oluna bilər - bir qrup artıq mövcud tam sözlərlə üst-üstə düşən abbreviaturalardan ibarətdir. Xüsusilə bu omonimlərin çoxu *camp – campaign, art – artillery* kimi qısaltmalara görə yaranır, nəticədə düşərgə - kampaniyanın abbreviaturası və tam söz düşərgəsi - "*camp- düşərgə* " və ya *art - artilleriya* və tam sözün abbreviaturasıdır. *Art-incəsənət*" üst-üstə düşür.

Omonimlərin başqa bir qrupu polisemantik abbreviaturalardır. Müxtəlif çoxhecalı sözləri ixtisar edərkən onların ilk hissələri üst-üstə düşərək qısaldılmış omonimlər əmələ gətirə bilər. Məsələn: *sub < subway/subject/subaltern/ subeditor/subjunctive/submarine/subscription* və s. Görünür ki, belə bir vəziyyət ünsiyyət aktını çətinləşdirməlidir, çünki həmsöhbətlər arasında nəinki qeyri-müəyyənlik, həm də nəticədə müzakirə olunan şeyin qarışıqlığı və anlaşılmazlığı var. Bununla belə, işlər fərqlidir. Bu və buna bənzər omonimlər, adətən, müxtəlif kontekstlərdə, situasiyalarda, yəni kommunikasiyanın müxtəlif sahələrində rast gəlinir. Biz, əsasən, abbreviaturaların əmələ gəlməsinin sırf leksik yollarını nəzərdən keçirdik. Bununla belə, müasir ingilis dilində söz yaradıcılığının daha bir neçə növü mövcuddur ki, onlar iki dil səviyyəsinin qarşılıqlı təsirinə əsaslanır: leksik və sintaktik. Nəzərə alırıq ki, bir çox hallarda ikinci dərəcəli nominasiyanın ilkin vahidi mürəkkəb sintaktik konstruksiyadır, sıxılmadan keçərək valentlik qabiliyyətlərinin artması şəklində bütün sonrakı nəticələrlə leksik vahid statusu alır, yəni sonrakı sözqurma və fleksiya paradiqmalarına daxil olmaq imkanı qazanır. Beləliklə, abbreviatura nümunəsi dil səviyyələrinin inteqrasiyasını aydın şəkildə göstərir. İxtisarların yaradılması və işləməsi prosesi hissə-nitq və səviyyə keçidləri ilə müşayiət olunur. Nəticədə, struktur cəhətdən sıxılmış, semantik cəhətdən cəmlənmiş, səylərə qənaət edən bir təhsil alırıq.

İxtisar tipli abbreviaturalar ilkin abbreviaturalara aiddir və onların əmələ gəlmə üsuluna ilkin abbreviatura deyilir. Eyni zamanda, iki və ya daha çox istinad abbroinitial izlərindən ibarət strukturlar mürəkkəb abbreviaturalardır və onların əmələ gəlmə üsulu abbroinitial əlavə kimi müəyyən edilir. İlkin abbreviaturalar özünəməxsus struktura və çoxsəviyyəli törəmə xüsusiyyətlərinə, həmçinin yüksək məhsuldarlığa və istifadə tezliyinə malikdir. Fonetik quruluşuna uyğun olaraq ilkin abbreviaturalar adətən iki əsas növə bölünür: 1) təsviri ifadələri təşkil edən hərflərin əlifba adlarının ardıcıllığı kimi tələffüz edilən əlifba qısaltmaları (əlifbalıqlar). Məsələn: BBC, FBI, PC, CD, TV, MP, USA, VIP və s. və 2) adi sözlər kimi orfoepiya qaydalarına uyğun tələffüz edilən səs və ya akrofonik abbreviaturalar (yaxud akronimlərin özləri - xalis abbreviaturalar). Məsələn: radar, lazer, UNO, NATO, YUNESKO və s.

Yuxarıda göstərilən iki struktur tipli ilkin abbreviaturaya əlavə olaraq, qarışıq, daha az məhsuldar olanlar da var: 3) ilkin-morfemik, abbreviatura orijinal vahidin bir və ya bir neçə sözünün bir və ya bir neçə abbro-ilkin izlərini birləşdirdikdə abbromorfemik izlə təmsil olunur. Məsələn: *B.Mus (Bachelor of Music-Musiqi üzrə bakalavr), Viper (Very Important Person-Çox Əhəmiyyətli İnsan), Gerbil (Great Education Reform Bill-Böyük Təhsil İslahatı Qanun layihəsi)* və s.

Onlar ingilis dili üçün daha az xarakterikdir, lakin ingilis dili üçün xarakterik olan mürəkkəb qısaldılmış sözlər, burada ilkin binomial ifadənin birinci elementi və ya üçlü frazanın birinci və ikinci elementləri abbro-ilkin iz ilə təmsil olunur. Məsələn: *A-bomba (atomic bomb-atom bombası), V-day (Victory Day-Qələbə günü), V.J. day (Victory over Japan DayYaponiya üzərində Qələbə Günü), V-E day (Victory in Europe Day-Avropada Qələbə Günü), g-man (government man-hökumət adamı), o-level (ordinary level-adi səviyyə)* və s. Ayrı-ayrılıqda qeyd etmək lazımdır ki, amerikan-ingiliscəsində "V" və "X" hərfləri beş dollarlıq və on dollarlıq əskinasları bildirən ifadələri əvəz edə bilər. Güman etmək olar ki, bu yazışmaların təmin edilməsi müəyyən transformasiya qaydaları ilə tənzimlənir. Aydındır ki, assosiativ abbreviatura statusunu almamışdan əvvəl ifadə əsaslandırma mərhələsindən keçərək əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Başlanğıcda transformasiya çevrilmələri yalnız sintaktik səviyyə ilə məhdudlaşdırılır - "ol" silinir və müəyyən edilmiş azaldılır: *The bill is of ten dollars -Əskinas on dollardır > the bill of ten dollars-on dollarlıq əskinas > the ten dollar bill-on dollarlıq əskinas > a ten dollar bill > a ten-on dollarlıq əskinas > a on.* Misal üçün:*He pays by cracking a ten and goes into the parking lot.- O, onluğu xırdalayaraq ödəyir və dayanacağa gedir.*

Buna görə də nominallaşdırmanın transformasiyası substantivlərin formalaşması istiqamətində ilk addımdır. Canlı bağlı nitqdə nominativ on dollarlıq əskinas və beş dollarlıq əskinas sıxılma qanunlarına uyğun olaraq əlavə transformasiyalara məruz qalır – müəyyən etmə yolu ilə ifadə olunan elementlər kateqoriyasına, nominativ ifadənin qalan komponenti isə öz semantik və qrammatik xüsusiyyətlərini alır. Beləliklə, qalan komponentin dəyəri dəyişdirilə bilər. Ancaq son addım formanı da dəyişdirməkdir. Latın yazısında 5 və 10 rəqəmləri V və X hərflərinə bənzəyir. Onlar da öz növbəsində "V" və "X" hərflərinin yazılışı ilə üst-üstə düşür. Beləliklə, məsələn, demək mümkün olur: *Give him a V uuu I've got three X's.-Ona V verin, yoxsa məndə üç X var.*

İlkin abbreviaturaların bir çoxu gündəlik həyatda o qədər möhkəm qurulmuşdur ki, onlar öz orijinal, əsas ifadələrini demək olar ki, tamamilə əvəz etmişlər, onlar hələ də abreviaturaların mümkün "deşifrələri" kimi dildə qala bilər.

Araşdırmalardan belə qənaətə gəlirik ki, bir çox dil modifikasiyalarının əsasını təşkil edən linqvistik qənaət prinsipi bütün dünya dilçiləri tərəfindən tanınır, universal xarakterə malik olmaqla, dünyanın bütün dillərinə xasdır. Rus və ya ingilis dillərində baş verən bir çox dəyişiklikləri bu xüsusi prinsipin işləməsi ilə izah etmək olar. Dilçilikdə qənaət problemi müasir dilçilərin diqqət mərkəzindədir.Abreviaturalarda dil resurslarına qənaət funksiyasına xidmət etdiyi üçün ünsiyyət prosesində mühüm rol oynayır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Azərbaycan dilində

1.Həsənova K.N. Azərbaycan və dünya dilçiliyində qənaət prinsipinin tədqiqi vəziyyəti ilə bağlı bəzi qeydlər. "Linqvistika problemləri" Beynəlxalq Elmi Jurnal, –Bakı, cild 3, №1, 2022, s.71-78 2022

2.Yusifov M.İ. Dil sistemində qənaət (Azərbaycan dili materialları üzrə) filoloq.e.nam.alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. / M.İ. Yusifov, –Bakı, 1976, – 169 s.

Rus dilində

3.БорисовВ.В. Аббревиацияиакронимия. М.: Воениздат, 1972. 320 с.

4.Горшунов Ю. В. Прагматика аббревиатуры: автореф. дисс. ... докт. филол. наук. М., 2000. 32 с
5. Гальперин И.Р. Текст как объект лингвистического исследования: учеб. пособие / И.Р. Гальперин. М.: КомКнига, 2007. 148 с.
6.Кубрякова Е.С. Типы языковых значений. Семантика производного слова. -М.: Наука, 1981. 200 с.
7.Кубрякова Е. С. Словосложение как процесс номинации и его отличительные формальные и содержательные характеристики // Теоретические основы словосложения и вопросы создания сложных лексических единиц: межвузовский сборник научных трудов. Пятигорск: Пятигорский гос. пед. ин-т, 1988. С. 4-22.
8.Лунёва Д.В., Нечепуренко М.Ю. АББРЕВИАТУРА КАК ОДНО ИЗ ВЫРАЗИТЕЛЬНО-ЭКСПРЕССИВНЫХ СРЕДСТВ ЯЗЫКА РУССКОЙ И АНГЛИЙСКОЙ ПРЕССЫ // Международный журнал экспериментального образования. – 2016. – № 5-3. – С. 321-323;
9.Нургалеева Т.Г. Аббревиация как средство экспрессивного словообразования: дисс. ... канд. филол. наук. М., 2010. 240 с. // http://www.portal-slovo.ru/
10.URL: https://expeducation.ru/ru/article/view?id=10022 (дата обращения: 06.10.2023).

İngilis dilində

11.Jespersen O. Growth and Structure of the English Language / O. Jespersen. Lpz: Teubner, 1923.227 p.
12.Marchand H. The Categories and Types of Present-Day English WordFormation. Weisbaden, 1966, 420s.

Açar sözlər: qənaət prinsipi, dilçilik, abreviasiya, ixtisar termini, törəmə sözlər
Ключевые слова: принцип экономии, лингвистика, аббревиатура, сокращенный термин, производные слова.
Key words: the principle of economy, linguistics, abbreviation, abbreviated term, derived words

Səfurə İsayeva

Linqvistik qənaət prinsipində abreviasiyanın rolu

Xülasə

Bu məqalə linqvistik qənaət prinsipində abreviasiyanın rolundan bəhs edir. Bir çox dil modifikasiyalarının əsasını təşkil edən linqvistik qənaət prinsipi bütün dünya dilçiləri tərəfindən tanınır. Universal xarakterə malik olmaqla, dünyanın bütün dillərinə xasdır.Dövrümüzdə abbreviatura proseslərinin aktivləşməsi müasir dillərin inkişafı və fəaliyyətini bu və ya digər şəkildə müəyyən edən linqvistik və ekstralinqvistik amillərin qarşılıqlı təsirinin xüsusi xarakteri ilə bağlıdır. İxtisarların belə sürətlə artması sosial həyatımızın ritminin sürətlənməsi ilə səciyyələnən dövrümüzün ruhuna uyğundur. Məqalədə qeyd olunur ki, abreviaturalar dil resurslarına qənaət funksiyasına xidmət etdiyi üçün ünsiyyət prosesində mühüm rol oynayır.

Роль аббревиатуры в принципе языковой экономии.

РЕЗЮМЕ

В данной статье рассматривается роль аббревиатуры в принципе лингвистической экономии. Принцип языковой экономии, лежащий в основе многих языковых модификаций, признан лингвистами всего мира. Имея универсальный характер, он свойственен всем языкам мира. В наше время активизация процессов сокращения связана с особым характером взаимодействия языковых и экстралингвистических факторов, так или иначе определяющих развитие и деятельность современных языков. Столь быстрый рост увольнений соответствует духу нашего времени, характеризующегося ускорением ритма нашей общественной жизни. В статье утверждается, что аббревиатуры играют важную роль в процессе общения, поскольку выполняют функцию экономии языковых ресурсов.

The role of abbreviation in the principle of linguistic economy

Summary

This article discusses the role of abbreviation in the principle of linguistic economy. The principle of linguistic economy, which is the basis of many language modifications, is recognized by linguists all over the world. Having a universal character, it is characteristic of all languages of the world. In our time, the activation of abbreviation processes is related to the special nature of the interaction of linguistic and extralinguistic factors that determine the development and activity of modern languages in one way or another. Such a rapid increase in layoffs is in keeping with the spirit of our time, characterized by the acceleration of the rhythm of our social life. The article states that abbreviations play an important role in the communication process as they serve the function of saving language resources.

Rəyçi: dos. L.Ələkbərova

Ayşən Fazil qızı Qasımova – Mustafayeva [14]

RAMİZ RÖVŞƏNİN NƏSR DİLİNDƏ MORFOLOJİ PARALELİZM ƏNƏNƏLƏRİNİN

[14] **Gəncə Dövlət Universiteti. Dissertant .**ayshenmuellimeqasimova@gmail.com

Morfoloji paralelizm məsələsi Azərbaycan dilçiliyində geniş tədqiq olunmamışdır. Ancaq dilin qapalı sistem təşkilini və tərkibini nəzərə aldıqda təsəvvür etmək çətin deyildir ki, məsələn, sintaktik paralelizmin mövcud olduğu sistemdə morfoloji paralelizmin mövcudluğuna istisnasız baxmaq mümkün deyildir. Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, dil səviyyələri spiralvari qaydada bir biri ilə daimi əlaqədədir, biri digərindən törəyir, biri digərini tamamlayır. Dil elementlərinə bu baxımdan yanaşdıqda əlbəttə ki, belə bir məntiqi nəticə hasil olur ki, eyni hadisə dil səviyyələrinin hər birində özünəməxsus şəkildə mövcuddur. Başlıca məsələ bu əlaqələrin araşdırılmasından və sistemləşdirilməsindən ibarətdir. Bununla yanaşı etiraf edilməlidir ki, sintaktik paralelizmə dair bir çox tədqiqat işləri aparılmış olsa da fonetik, leksik və eyni zamanda morfoloji paralelizm barədə aparılan araşdırmalar xeyli məhduddur. Buna baxmayaraq dil elementlərinin tədqiqi və təhlili məsələlərinə yenilik gətirilməsi məqsədi ilə aparılan araşdırmalarda morfoloji paralelizmə diqqət yetirilməsini də müşahidə etmək mümkündür. Bu baxımdan gənc tədqiqatçı Gülənbar Abbasovanın ingilis və Azərbaycan dillərində morfoloji paralelizm məsələsinə həsr olunmuş tədqiqat işi xüsusi bir maraq doğurur. Müəllif hər iki dildə morfoloji paralelizmin səciyyəvi xüsusiyyətlərini araşdıraraq ona istinad edir ki, paralelizm linqvistik bir hadisə kimi universal xarakter daşıyır və bütün dillərdə tipologiyasından asılı olmayaraq morfoloji paralellik mövcuddur. Ancaq onu da qeyd etmək lazımdır ki, məqalədə Azərbaycan dili nümunələri ingilis dili tərcüməsində verildiyi üçün Azərbaycan dilinə məxsus morfoloji paralelizmin əlamətlərini ingilis dilində duymaq çətinlik yaradır. Halbuki müəllif özü də qeyd edir ki, ingilis və Azərbaycan dilləri ayrı-ayrı tipoloji quruluşa malik olduğu üçün onlarda morfoloji paralelizmi nümayiş etdirən şəkilçilərlə bağlı fərqli xüsusiyyətlər vardır [1, s.65; 2, s.115]. Paralelizmə həsr olunmuş tədqiqatlarda daha çox sintaktik paralelizmdən bəhs olunsa da bəzən morfoloji paralelizmin də mövcudluğu barədə fikir söylənilir. Məsələn, "Sintaktik paralelizm ekspressiv sintaksisin fiquru kimi" adlı bir dissertasiya işində sintaktik paralelizmin səciyyəvi xüsusiyyətlərindən bəhs edilərkən cümlədaxili konstruksiyalarda maraq doğuran (raritet səciyyəli) morfoloji paralelizmin mövcudluğuna da işarə edilir" [10, s.8].

Paralelizm məsələsinin şərhi ilə əlaqədar bir mənbədə E.S.Kubryakovaya istinadən göstərilir ki, morfoloji paralelizm üslubi fiqurun bir növü kimi cümlədə işlənən morfoloji elementlərin təkrarı yolu ilə fomralaşır və emosional-ekspressiv məna çalarlığı bildirir [3; 8, s.78-90]. Mənbələrdə morfoloji paralelizmin bibliya mətnlərində mövcudluğu barədə də bəhs edilir [5, s.166].

Morfoloji paralelizm də fonetik və leksik paralelizm kimi paralel komponentlər tərkibində formalaşır. Paralel komponentlər tərkibində morfoloji elementlər müvafiq qaydada təkrarlanaraq üslubi rənagərnglik yaradır ki, bu da poetizmin ifadəsi üçün başlıca stimul kimi estetik bir mənzərə əmələ gətirir. Bu qayda üzrə morfoloji poetizm, üslubi fiqur kimi dildə ifadə zənginliyi baş verməsinə xidmət edir. Morfoloji paralelizm əlbəttə ki, müasir bədii əsərlərin dili səviyyəsində qapanıb qalmır. Üslubi fiqur kimi morfoloji paralelizmdən qədim yazılı mənbələrdə də informasiyaların intensivləşdirilməsi və eyni zamanda bədiiləşdirilməsi məqamında istifadə edilmişdir. Morfoloji paralelizmin ənənələri özlüyündə zaman-zaman inkişaf edib təkmilləşərək ədəbi-bədii janrların müxtəlif növlərində işlənmişdir. Beləliklə, morfoloji paralelizm üslubi fiqur kimi həm yazılı abidələrin dilində, folklor ədəbiyyatında, eləcə də müasir dövr ədəbiyyatının bir nümunəsi kimi Ramiz Rövşənin nəsr əsərlərində işlədilərək emosionallıq, üslubi rəngarənglik və poetiklik yaradır.

Göytürk yazılı abidələrin dilində morfoloji paralelizmlərin işlədilməsi ilə poetiklik yaradılmasının özünəməxsus səciyyəvi cəhətlərinin olduğu müşahidə edilir. Abidələrin dilində morfoloji paralelizm xüsusilə, şühudi keçmiş, nəqli keçmiş, indiki zaman, qeyri-qəti gələcək zaman və şərt şəkilçili paralel komponentlərdə müşahidə edilir. Burada şühudi və nəqli keçmiş zaman formalarının xüsusilə dominantlıq təşkil etdiyi müşahidə olunur. Göytürk yazılı abidələrinin dili üçün səciyyəvi olan morfoloji paralelizmə dair aşağıdakı nümunələri misal göstərmək mümkündür:

a) şühudi keçmiş zaman şəkilçisinin paralelizmi:

"*Boz bulıt yarıdı, bodun üzə yağdı, Kara bolıt yorıdı, kamığ üzə yağdı, Tarığ bişdi, yaş ot ündi, yılkına, Kişikə edgü boltı,-tir*" (*Boz bulud yürüdü, xalqın üzərinə yvağdı. Qara bulud yürüdü, hamının üstünə yağdı, taxıl (darı), yetişdi* [Irk Bitik abidəsi, 81-82 (II)][*]. Bu cümlədə yeddi paralel komponent vardır ki, onların özləri də mənaya və sıralanmaya görə qoşa paralelliklə səciyyələnir: *Boz bulıt yarıdı, -bodun üzə yağdı; Kara bulıt yorıdı, -kamığ üzə yağdı; Tarığ bişdi –yaş ot ündi-yılkıka kişikə edgü boltı.*

Şühudi keçmiş şəkilçili bəzi paralel konstruksiyalar isə ardıcıllıq üzrə sıralanır:

"*Yok çığay bodunığ kop kopardım, çığad bodunığ bay kıltım, az bodunığ üküş kıltım" (Yoxsul xalqı bütünlüklə topladım, yoxsul xalqı varlı etdim, az xalqı çox etdim)* [Kül Tiqin abidəsi, Cənub tərəfi, 10].

Bəzi paralel konstruksiyalarda isə paralel konstruksiyaların özləri də daxili paralel kimi işlənir: "*İgərü Şantuŋ yazıka təqi sülədim, Talukaya kiçik təqmədim; Birgərü Tokuz Ərsəngə təgi sülədim, Tüpütkə kiçik təgmədim*" *(Şərqə Şandun düzünə təki qoşun çəkdim, dənizə azacıq çatmadım; cənuba Doqquz Ərsənə təki qoşun çəkdim, dənizə azacıq çatmadım)* [Kül Tiqin abidəsi, Cənub tərəfi, 3].

Burada qoşa paralelizmin səciyyəvi quruluşu ondan ibarətdir ki, hər iki qoşa paralelin birinci tərəfləri şühudi keçmişin təsdiqi, ikinci tərəfi isə inkarı ilə ifadə edilir. Şühudi keçmiş şəkilçisi ilə ifadə olunan morfoloji paralelizmin rəngarəng quruluşu Göytürk abidələrinin həm səciyyəvi və həm də maraqlı tərəflərindən biridir.

b) nəqli keçmiş zaman şəkilçisinin paralelizmi:

Kırk artıku yeti yolı süləmis, yegirmi süŋüs sünümüs, Teŋri yarıkladık üçün illigik ilsirətmis, kağanlığığ sıratmıs, yağığ baz kılmıs, tizligik sökürmis, başlığığ yüküntürmis. (Qırx yeddi yol qoşun çəkmiş, iyirmi döyüş döyüşmüş, tanrı yar olduğu

üçün ellini hesizləşdirmiş, xaqanlını xaqansızlaşdırmış, yağını tabe etmiş, dizlini çökdürmüş, başlını səcdə etdirmiş) [Kül Tiqin abidəsi, Şərq tərəfi, 15].

Buradakı bir cümlə daxilində yeddi paralel komponent ard-arda düzülərək paralel komponentlərin təşkilində iştirak edən nəqli keçmiş şəkilçilərinin təkrarlanması hesabına ahəngdarlıqla səciyyələnən poetizm yaratmışdır.

Qədim türk yazılı abidələrinin dilində həmçinin bir-birini izləyən qoşa tərkibli paralellərin də işlənməsi səciyyəvi əhəmiyyət kəsb edir:

"*Adığlı toŋuzlı art üzə sökuşmış ermiş. Adığın karnı yırılmış, toŋuzun ağzı sınmış-tir" (Ayılı, donuzlu dağ keçidində qarşılanıbmış. Ayının qarnı yarılmış donuzun köpək dişi sınmış deyir)* [Irk Bitik abidəsi, 10 (Əlyazma II)]; "*Kiçə yoruk batur erikli süŋisdim. Anta sançdım. Kün kaçmış, tün tirilmiş". (Gecə günəş batanda döyüşdüm. Orada sancdım (döyüşdüm). Gündüz qaçmış(lar), gecə toplaşmışlar).* [Moyun Çur abidəsi, Şərq tərəfi, 13].

c) indiki zaman şəkilçisinin paralelizmi:

"*Yazı konayın, tisər türk bodun, üləsikik anta ayığ kisi ança boşğurur, ermis. Irak ersər yablak ağı birur, yağuk ersər edgü ağı birur, -tip ança başğurur ermis". (Düzünə (düzəngahda) yerləşdik, desə, türk xalqı, bir hissəni orada pis adamlar eləcə öyrədirmiş: uzaq isə pis hədiyyə verir, yaxın isə yaxşı hədiyyə verir, - deyib eləcə öyrədirmiş).* [Kül Tiqin abidəsi, Cənub tərəfi, 7].

Buradan göründüyü kimi, indiki zaman şəkilçisinin iştirakı ilə formalaşan paralelizm qoşa tərkib üzrə işlənir. Eyni zamanda, həmin qoşa tərkib şərt şəkilçili variant hesabına canlı ifadə xüsusiyyətinə malik olur.

ç) qeyri-qəti zamanın inkar formasının paralelizmi:

"İrçi yaŋılmaz, bilgə unıtmaz, ötükçi yaŋılmaz" (Bələdçi yanılmız, müdrik unutmaz, məsləhətçi yanılmaz) [Irk Bitik abidəsi, (Əlyazma III), 9, 10]. Bu cümlədə bir-birini mənaca tamamlayan, emosionallıqla qüvvətləndirən, təkrarlıqla rəngarənglik yaradan və poetikləşdirən üç paralel komponent vardır. Paralel komponentlərin ardıcıl işlənməsi eyni zamanda ritorizm yaratmaq baxımından da maraq doğurur.

d) şərt şəkilçisinin paralelizmi:

"Ança sakıntım. Gözdə yaş gəlsər etdi də köŋültə sığıt gəlsər yanturı sakıntım, katığtı sakıntım" (Eləcə düşündüm. Gözdən yaş gəlsə, ürəkdən güclü sıtqı gəlsə yanaraq düşündüm, möhkəmcə düşündüm). [Kül Tiqin abidəsi, Şimal tərəfi, 11]. "*Uuyka kalıp bolsar toplağaluk alp ermis, yinçkə yoğun bolsar üzgəlük alp ermis" (Nazik qalın olsa toplamaq igidlikdir, incə yoğun olsa üzmək (qoparmaq) igidlikdir).* [Toynukuk abidəsi, I daş, 13-14)].

Bu nümunələrdən göründüyü kimi qədim türk yazılı abidələrinin dilində morfoloji elementlərin paralel komponentlərdəki iştirakı təsvir edilən hadisələrin bədiiləşdirilərək poetik canlanma yaratması baxımından olduqca diqqətəlayiqdir. Qədim türk yazılı abidələrinin dili üçün səciyyəvi təsvir vasitələri kimi işlənən bu tipli üslubi fiqurlar öz ənənəsini qədim yazılı abidələrin bir nümunəsi olan "Kitabi-DədəQorqud"un dilində, həmçinin, folklor nümunələrində də davam etdirir. Morfoloji paralelizm kimi formalaşmış üslubi fiqurlar hər bir mərhələdə özünəməxsus ifadə forma və variantları ilə zənginləşir və bədii informasiyanın daha canlı ifadə edilməsini şərtləndirir. Müqayisəyə cəlb edilən Ramiz Rövşən nəsrinin ifadə və təhkiyəsində də morfoloji paralelizm yazıçı təxəyyülü və incə müşahidə qabiliyyəti sayəsində formalaşmış rəngarəng nümunələrini müşahidə etmək olur.

"Kitabi Dədə-Qorqud"un dilində morfoloji paralelizmin aşağıdakı kimi növlərinə rast gəlmək olur:

a) şühudi keçmiş zaman şəkilçisinin paralelizmi:

Təhkiyə dilində şühudi keçmiş zaman şəkilçisi qədim türk yazılı badilərinin dilində olduğu kimi "Kitabi- Dədə Qorqud"un təhkiyə dilində də özünün fəallığı ilə diqqəti cəlb edir. Şühudi keçmiş zaman şəkilçisinin fəallığı təkcə onunla bağlı deyildir ki, bu şəkilçi keçmişə aid qəti məzmun anlayışı bildirir. Bunu onunla əsaslandırmaq mümkündür ki, təhkiyə dilində bir qayda olaraq bitmiş, qətiyyətli ifadə vasitəsi kimi şühudi keçmiş zamana meyillilik daha çox üstünlük təşkil edir. Şühudi keçmiş zamanda hadisələrin qəti, konkret, dəqiq və istisnasız ifadə imkanları eyni zamanda paralel konstruksiyalara məxsus, poetizmin ifadəsi üçün daha əlverişli imkan yarada bilir. "Kitabi-DədəQorqud"un dilində şühudi keçmiş zamanla ifadə edilən paralel konstruksiyalara aid aşağıdakı nümunələri misal göstərmək olar:

"*Qara polad üz qılıçlar kəsən dilini kəsdirəmədi, Qarğı cida oynadanlar ildirəmədi, Qayın oxu atdılar, kar qılamadı*" [9, s.128]; "*Altı barmaq dərinliyi zəxm ilişdirdi. Qara qanı şorladı, qara sağırı soğmanı dolu qan oldu. Qara başı buŋaldı*" [9, s.123]; "*Ağ əllərini ardına bağladılar, qıl sicim boynuna taqdılar, ağ ətindən qara qan çıxınca döydülər*" [9, s.33]; "*Ağ çadır dikdilər, ala xalı döşədilər, ağca qoyun qırdılar, yeddi yıllıq al şərab içirdilər*" [9, s.107].

"Kitabi-DədəQorqud"un dilində digər qrammatik şəkilçilərin də paralel komponentlərdə işlənməsi ilə poetizm yaradılmasına rast gəlmək olur. Hər hansı qrammatik şəkilçinin paralel komponentlərdə iştirakı hadisələrin təsvirinə aid situasiyaları çatdırmaq məqamlarından asılı olur. Məsələn, "Kitabi-DədəQorqud"un dilində paralel konstruksiyaların işlədilməsində hadisənin nəqletmə yolu ilə çatdırılması zamanı nəqli keçmiş zaman şəkilçisinin təşkiledicilik əhəmiyyəti müşahidə edilir:

"*A bəy baba! Dəvəcə böyümüşsən, köşəkcə ağılın yox, təpəcə böyümüşsən, darıca beyinin yox*" [9, s.79]; "*Gördülər kim, ol yigit kim, baş kəsibdir, qan tökübdür, Baybörə bəyin sağ yanında oturubdur*" [9, s.54]; "*Aydır: - Nə görəyim, oğlu olan evərmiş, qızı olan köçürmüş*" [9, s.57].

"Kitabi-DədəQorqud"un dilində qrammatik kateqoriya elementləri nümunəsində əmr şəklinə və hətta mənsubiyyətə aid qrammatik göstəricilərin işlədilməsinə rast gəlmək mümkündür:

"*Təpəgözün pəri anası gəlib oğlunun barmağına bir üzük keçirdi". "Oğul, saŋa ox batmasın, tənini qılıc kəsməsi"* - dedi [9, s.126]; "*Qında getdin, bəni yalqız qoyub canım yigit! Göz açuban gördüyüm, könül ilə sevdigim, bir yasdıqda baş qoyduğum*!" [9, s.62].

Qrammatik şəkilçilərin iştirakı ilə düzələn paralel konstruksiyalar folklor nümunələrində də işlənərək rəngarəng poetik çalarlıq ifadə edir. Bunların bariz nümunələrini atalar sözlərində, həmçinin bünövrəsi şifahi danışıq üslubuna söykənən təhkiyə əsaslı dastan dilində də görmək mümkündür. Ancaq atalar sözləri bünövrəsində formalaşmış paralel konstruksiyalar qrammatik təşkiledicilik baxımından digər janrlardan, xüsusilə də dastan təhkiyəsindən fərqlənir. Belə ki, atalar sözlərində daha çox qeyri-qəti gələcək zaman şəkilçisinin, əmr forması elementlərinin, o cümlədən nəqli keçmiş şəkilçinin işlədilməsində üstünlük müşahidə edilirsə, dastan dilində təhkiyənin xarakterinə uyğun qrammatik elementlərin işlədilməsi diqqəti cəlb edir.

Atalar sözlərinə məxsus paralel konstruksiyalara dair özlərinin şəkilçi tərkibinə görə fərqlənən aşağıdakı kimi nümunələri misal göstərmək olar:

a) qeyri-qəti gələcək zaman şəkilçisi ilə:

"*Bir vermə, bir də dilər, yatmağa yer də dilər*" [4, s.60]; "*Adamın üzünə baxarlar, halını xəbər alarlar*" [4, s.22]; "*Biləyi güclü olan birini yıxar, biliyi güclü olan minini yıxar*" [4, s.56]; "*Azar batmannan girər, misqalnan çıxar*" [4, s.47]; "*Azarlı tələsər, armud vaxtında yetişər*" [4, s.47];

b) əmr forması elementləri ilə:

"Çağırılan yerə ərinmə, çağırılmayan yerdə görünmə" [4, s.73]; *"Birini gör, fikir elə, birini gör, şükür elə*" [4, s.61]; *"Adımı sənə qoyum, səni yana-yana qoyum"* [4, s.80]; *"Bağa bax, üzüm olsun, yeməyə üzün olsun"* [4, s.48].

c) nəqli keçmiş zaman şəkilçisi ilə: "*Biri palçığa batıb, biri yanında yatıb*" [4, s.61]; "Babam mənə kor deyib, gəlib-gedənə vur deyib" [4, s.48].

ç) indiki zaman şəkilçisi ilə:

"*Bir görpü tapmır, keçə, biri su tapmır, içə*" [4, s.61].

Dastanın təhkiyə dilində bundan fərqli olaraq hadisələrin təsviri ilə əlaqədar olaraq müxtəlif şəkilçilərin iştirakı ilə formalaşan morfoloji paralelizmlərdən istifadə edilir. Onu demək lazımdır ki, dastan dilində də bir qayda olaraq şühudi keçmiş şəkilçisinin iştirakı ilə düzələn paralelizmlərin işlənməsi dominantlıq təşkil edir. Dastan dilində işlənən morfoloji paralelizm nümunələrinə dair aşağıdakıları misal göstərmək olar:

a) şühudi keçmiş zaman şəkilçisi ilə:

"*Qırat yel kimi əsdi, quş kimi uçdu, gədiklər keçdi, bellər aşdı, yoxuşlar çıxdı, enişlər endi, yerin damarını kəsib bir neçə gündən sonra Təkə Türkmana çatdı"* [6, s.125]; *"Dəlilər üç tərəfdən özlərini vurdular dəryayi-ləşkərə. Sağdan vurdular, soldan çıxdılar, soldan vurdular, sağdan çıxdılar"* [6, s.146].

b) qeyri-qəti gələcək zaman şəkilçisi ilə:

"*Hər kim Qoşabulağın suyundan içsə aşıq olar. Özünün də səsi elə güclü olar ki, nərəsindən meşədə aslanlar ürkər, pələnglər tük tökər, quşlar qanad salar, dağlar-daşlar titrəyər, atlar, qatırlar dırnaq tökər*" [7, s.57]; "*Məscidə qoymazdılar ki, başmaq oğurlayar, Tövləyə qoymazdılar ki, quşun oğurlayar*" [7, s.148].

c) şərt forması əlamətinin işlənməsi ilə:

"*Küpə girib yeddinci göyə çıxsan, balıq olub dəryaya cumsan yenə də əlimdən qurtara bilməzsən*" [7, s.71].

Morfoloji paralelizmin zəngin ənənələri Ramiz Rövşənin nəsr əsərlərində davam etdirilərək təsvir olunan hadisələrin ruhuna, məzmununa, obrazların daxili aləminə aid geniş bir mənzərə yaradır. Yazıçı təsvir olunan obrazların daxili aləminə nüfuz edir, bir şəxsin nümunəsində çox-çox insanların həyata baxışını, məişətini, düşüncəsini ümumiləşdirir. Bütün bunlar isə paralel konstruksiyaların poetikliyi ilə cilalandırılaraq sanki hər tərəfdən görünə bilən qəribə bir stereomənzərə yaradır. Ramiz Rövşənin işlətdiyi çoxcəhətli paralelizmlərdə istər qədim türk yazılı abidələrinə, istərsə də folklor nümunələrinə xas olan poetik təsvir vasitələrinin ən incə məqamları ümumiləşdirilir, hər bir paralel konstruksiya daxilində ənənəvi poetizmin demək olar ki, bütün detalları, hətta bütün zərrəcikləri yaradıcı sənətkar təxəyyülü ilə yeniləşdirilir və zənginləşdirilir. Ramiz Rövşənin nəsr əsərlərində bədii informasiyanın canlı ifadəsi baxımından maraq yaradan aşağıdakı kimi morfoloji paralelizm nümunələri işlədilir:

1) Sintaktik bütöv şəklindəki paralel konstruksiyalarda aparıcı üzv kimi işlənən xəbər hər bir konstruksiyada təkrarlanaraq həm ritm və ahəngdarlıq, həm də məna dolğunluğu və fikir bütövlüyü yaradır: "*Həsən kişinin bu dünyada nəyi var idi? Bir kəhər atı var idi. Nəyi yox idi? Arvadı yox idi, uşaqları yox idi*" [11, s.460].

2) Paralel konstruksiyalar mürəkkəb sintaktik bütövün müstəqil tərkib üzvü kimi işlənir, hər bir paralel konstruksiyada təkrar olunan aparıcı üzvlərdəki qrammatik bütövün semantik mühitini canlandırır, onun rimtikliyinə rəngarəng çalarlıq gətirir: "*O nə dəmdəsgahdı, Allah! O nə vurhavurdu? Tüfəng səsi, dümbək səsi, tar, qaval səsi, zurna-balaban səsi. Qazanlar pıqqıldayır, çənələr şaqqıldayır. Ona pay, buna pay, o yetimə, bu yetimə, qapıdan keçənə, yoldan ötənə*" [11, s.611].

3) Mürəkkəb sintaktik bütöv tərkibindəki paralel konstruksiyalarda aparıcı üzvlər dövrəvi təkrar şəklində işlənir, təsvir olunan hadisənin canlı mənzərəsi yaradılır. Burada şühudi keçmiş zaman şəkilçisi sıralanır: "*Qulu çiçək çıxartdı. Kənddəki neçə-neçə uşaq da çiçək çıxartdı. Qulu tamam sağaldı, heç o çiçəyin izi-tozu da qalmadı. Ancaq kənddəki neçə-neçə uşağın sir-sifətində o çiçəkdən soraq qaldı. Qulunun başı yara tökdü. Kənddəki neçə-neçə uşağın da başı yara tökdü. Qulu tamam sağaldı, heç o yaranın izi-tozu qalmadı. Ancaq kənddəki neçə-neçə uşağın başında o keçəllikdən yara qaldı*" [11, s.466].

4) Dövrəvi təkrarlar həm təsdiqdə, həm də inkarda işlədilərək təhkiyəni obrazlaşdırır, ritmikliyin və ahəngdarlığı canlandırır: "*Qayıdanlar qayıtdılar, cammatın da bir parası gözünü yoldan çəkdi. Qayıtmayanlar qayıtmadılar, qalan camaat da yavaş-yavaş başladı inanmağa ki, bu qayıtmayanlar heç bir də qayıtmayacaqlar. Bunlar da gözlərini yoldan çəkdilər*" [11, s.468].

5) Paralel komponentlərdə aparıcı üzv inkarlıqla təkrar olunur. Bu da obrazın daxili aləmindəki sarsıntılar barədəki təəssüratlara dair emosiyaları dəqiqləşdirir və konkretləşdirir: "*Əliş başa düşdü ki, bu kişilər bir də onun tək gözünə dik baxa bilməyəcəklər. Bu arvadlar bir də onun dalınca hırıldaya bilməyəcəklər, bu uşaqlar bir də onu dolaya bilməyəcəklə"* [11, s.518].

6) Paralel komponentlərdə aparıcı xəbərlər sinonim kimi işlədilərək ritmik ardıcıllıq yaradır. Burada cəm şəkilçisi ilə şühudi keçmiş zaman şəkilçisi həmahəngliyi təmin edir: "*Fatmanı o pişiklərin əlindən alan tapıldı. Pəəh… Güllələr atıldı, ağaclar çatıldı, qoyunlar kəsildi, qazanlar asıldı*" [11, s.611].

7) Paralel komponentlərdə aparıcı mübtəda sinonim kimi işlədilərək ritmik ardıcıllıqla poetiklik yaradır. Burada yerlik hal şəkilçisi ilə mənsubiyyət şəkilçisi ritmik ardıcıllığı təmin edir: "*Qaçaqların arasında bir başı əmmaməlisi vardı; çiynində tüfəngi, belində xəncəri, altında atı*" [11, s.621].

8) Paralel komponentlərdə aparıcı müştərək təyinlər sinonim kimi işlədilərək poetiklik yaradır. Burada sifət yaradan –*danı* şəkilçisi ritmikliyə xidmət edir: "*Əliş sağındakı qohumları bir-bir qucaqlayıb öpürdü. Əlişin solundakı qohumlar bir-bir onu qucaqlayıb öpürdülər, deyirdilər: - qəm yemə, Əliş, iş adam başına gələr*" [11, s.501].

9) Paralel komponentlərdə yönlük hal şəkilçisi ritmik ardıcıllıq yaradır: "*Oturmuşdu arabanın içində, baxırdı, böyüyə, kiçiyə; arvada-kişiyə, itə-pişiyə, hamıya baxırdı*" [11, s.599].

10) Paralel komponentlərdə əmr şəkilçisi ardıcıllığı poetizm yaradır: "*Ürəyimdə deyirəm, ver, köpəyoğlu, ver göstərim muzdur nə olan şeydir! Alnını elə odlayım ki, tüstüsü təpəndən çıxsın, kəlləni elə partladım ki, beynin qulağından pırtdasın*" [11, s.619].

Nümunələrdən və onların qarşılaşdırma yolu ilə təhlilindən görünür ki, qədim mənbələrə məxsus morfoloji paralelizm nümunələri "Kitabi-DədəQorqud"un, o cümlədən folklor mətnlərinin dilində zəngin ənənələrə malik olmuşdur. Ramiz Rövşənin nəsr dilində həmin ənənələr vahid qəlibdə təkrar olunmur, onlar daha yeni ifadə üsulları ilə zənginləşdirilir. Odur ki, Ramiz Rövşənin nəsr dilində hadisə və situasiyaların, insanın daxili düşüncə və duyğularının, təbiət hadisələrinin və cəmiyyətdəki problemlərin canlı bir poetik mənzərəsi yaradılır.

İstifadə edilən ədəbiyyat

1. Abbasova G. Lingno-poetik properties of suffixes that create morphologigal parellelism in Azerbaijan and English.//"Узбекистондо-хорижий тиллар" илмий-методик электрон журнал. № 3(22). 2018, с.64-69.
2. Abbasova G. Linguopoetic features of morphological parallelism in Azerbaijan and English Languages. Науковый висник Мижнародного гуманитарного университету. Сер., Филология, 2018, № 34, Том 1, с. 112-115.
3. Абдулкеримова Камила Артуровна. Паралелизм как прием эмоционального синтаксиса. (На материале англоязычной прозы. Махачкала, 2017: www bibliofond.ru/view.aspex.
4. Atalar sözü. Bakı, Öndər nəşriyyat, 2004, 264 s. s.60.
5. Десницкий А.С. Характер и функции параллелизма в библейских текстах. Автореф.дис.канд.филол.наук. Москва, 2010, 37 с.
6. "Koroğlu" dastanı. Bakı, Azərbaycan EA nəşriyyatı, 1959, s. 510 s.
7. "Koroğlu" dastanı. Bakı, Lider nəşriyyat, 2005, 552 s.
8. Кубрякова Е.С. О типах морфологической членимости квазиморфах и маркерах. // Вопросы языкознания, 1970, № 2, с. 78-90.
9. "Kitabi-Dədə Qorqud". Öndər nəşriyyat, 2004, s. 376.
10. Новинкова Т.В. Синтактический паралелизм как фигура экспрессивного синтаксиса. Автореф.дис.канд.филол.наук, Москва, 1992, 21 с.
11. Ramiz R. Nəfəs, Kitablar kitabı. Bakı, Qanun nəşr., 2006, 726 s.

Açar sözlər: *morfologiya, paralelizm, tipologiya, ritm, poetika*

Ключевые слова: *морфология, параллелизм, типология, ритм, поэтика*

Key words: *morphology, parallelism, typology, rhythm, poetics*

Ramiz Rövşənin nəsr dilində morfoloji paralelizm ənənələrinin poetik mənzərəsi

Xülasə

Azərbaycan dilində morfoloji paralelizm və onun vasitəsi ilə baş verən poetizm məsələləri demək olar ki, geniş bir tədqiqat obyekti kimi təhlil edilməmişdir. Bununla belə, fonetik, leksik və sintaktik paralelizmdə olduğu kimi morfoloji paralelizmin də özünəməxsus ifadə formaları və üsulları mövcuddur. Morfoloji elementlər poetizm yaratmaq baxımından xüsusi bir məna ilə səciyyələnmədiyinə baxmayaraq onların paralel komponentlər tərkibində təkrarlıqla işlədilməsi cümlələrdə, sintaktik bütövlərdə, həmçinin mətndə ritorizm, ritm və ahəngdarlıq yaradır. Morfoloji paralelizmə məxsus bu tipli keyfiyyətlər onların vasitəsi ilə poetik bir canlandırma yaradılmasını səciyyələndirir. Morfoloji elementlərin paralel komponentlərdə işlədilməsi prinsip etibarı ilə müasir olmayıb qədim ənənələrə malik bir təsvir üsulundan ibarətdir. Bu mənada morfoloji elementlərin paralel konstruksiyalar tərkibində işlədilməsinə dair qədim türk mənbələrində, o cümlədən digər yazılı nümunələrdə olduqca zəngin materiallar mövcuddur. Morfoloji paralelizmlər paralel sintaktik konstruksiyalar daxilində işləndiyi üçün onlar funksional baxımdan universal səciyyəlidir və tipologiyasından asılı olmayaraq ayrı-ayrı dillərdə özünəməxsus ifadə vasitələrinə malikdir. Morfoloji paralelizm paralel komponentlərdə bədii informasiyaların canlı ifadəsinə xidmət edir. Eyni zamanda onların vasitəsi ilə mətndə ritm və ahəngdarlıq yaradılır. Bədii mətndə üslubi fiqur kimi işlədilən morfoloji paralelizm eyni zamanda poetikliyin təcəssümü kimi səciyyələnir. Üslubi fiqur səviyyəsindəki morfoloji paralelizmin zəngin ənənələrindən Ramiz Rövşənin nəsr dilində geniş bir poetik mənzərə yaradılması vasitəsi kimi istifadə olunur.

The traditions of morphological parallelism in the prose language of Ramiz Rovshan's poetic landscape

Summary

Morphological parallelism in the Azerbaijani language and the issues of poeticism occurring through it have hardly been analyzed as a broad research object. However, morphological parallelism, like phonetic, lexical and syntactic parallelism, has its own forms and methods of expression. Despite the fact that morphological elements are not characterized by a special meaning in terms of creating poeticism, their repeated use in parallel components creates rhetoric, rhythm and harmony in sentences, syntactic units, as well as in the text. Such qualities of morphological parallelism characterize the creation of a poetic animation through them. The use of morphological elements in parallel components is basically not modern, but a method of description with ancient traditions. In this sense, there are very rich materials on the use of morphological elements in parallel constructions in ancient Turkish sources, including other written examples. Since morphological parallelisms are developed within parallel syntactic constructions, they are functionally universal and have unique means of expression in individual languages, regardless of their typology. Morphological parallelism serves the vivid expression of artistic information in parallel components. At the same time, they create rhythm and harmony in the text. Morphological parallelism, which is used as a stylistic figure in the literary text, is also characterized as an embodiment of poetics. The rich traditions of morphological parallelism at the level of stylistic figures are used as a means of creating a wide poetic landscape in the prose language of Ramiz Rovshan.

Традиции морфологического параллелизма в прозаическом языке Рамиза Ровшана

Резюме

Морфологический параллелизм в азербайджанском языке и возникающие через него вопросы поэтизма вряд ли анализировались как широкий объект исследования. Однако морфологический параллелизм, как и фонетический, лексический и синтаксический параллелизм, имеет свои формы и способы выражения. Несмотря на то, что морфологические элементы не характеризуются особым значением с точки зрения создания поэтизма, их многократное использование в параллельных компонентах создает риторику, ритм и гармонию в предложениях, синтаксических единицах, а также в тексте. Такие качества морфологического параллелизма характеризуют создание посредством них поэтического оживления. Использование морфологических элементов в параллельных компонентах – это в основном не современный, а метод описания с древними традициями. В этом смысле в древнетурецких источниках имеются весьма богатые материалы по употреблению морфологических элементов в параллельных конструкциях, в том числе и в других письменных примерах. Поскольку морфологические параллелизмы развиваются внутри параллельных синтаксических конструкций, они функционально универсальны и обладают уникальными средствами выражения в отдельных языках независимо от их типологии. Морфологический параллелизм служит яркому выражению художественной информации в параллельных компонентах. В то же время они создают в тексте ритм и гармонию. Морфологический параллелизм, используемый в художественном тексте как стилистическая фигура, характеризуется и как воплощение поэтики. Богатые традиции морфологического параллелизма на уровне стилистических фигур используются как средство создания широкого поэтического пейзажа на языке прозы Рамиза Ровшана.

RƏYÇİ: dos. L.Ələjbərova

Səidə İbrahim qızı Əsgərova [15]

AZƏRBAYCAN DİLİNDƏ MORFOLOJİ YOLLA YARANAN DİPLOMATİK LEKSİKA

Dövlətimiz müstəqilliyini elan etdiyi gündən beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirməyə başladı. Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsi istiqamətində atılan strateji addımlar diplomatik əlaqələrin genişlənməsinə, bu da öz növbəsində ölkənin beynəlxalq arenada nüfuzunun artmağına səbəb oldu. Azərbaycan Respublikasının bir sıra dünya dövlətləri ilə sıx diplomatik əlaqələri mövcuddur. Bu dövlətlər sırasında Amerika, İngiltərə, Almaniya, Fransa, Çin, Misiri və s. sadalamaq olar ki, bu ölkələrin hər birində Azərbaycan səfirlikləri fəaliyyət göstərir. Eyni zamanda dövlət paytaxtında da xarici dövlətlərin səfirlikləri açılıb, gündən-günə də çoxalmağa davam edir.

1992-ci ildən BMT-də Azərbaycan nümayəndəliyi fəaliyyət göstərir və dövlətimiz Millətlər Təşkilatının tamhüquqlu üzvüdür. Həmin ildən də Azərbaycan Respublikası Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə, İslam konfransı təşkilatına, İqtisadi Əməkdaşlıq Təşkilatına və başqa bir neçə beynəlxalq təşkilatlara qəbul edildi (3, s. 3).

Daim inkişaf edən və durmadan artan beynəlxalq əlaqələr Azərbaycan diplomatik leksikasının yaranmasına və genişlənməsinə şərait yaradır. Digər tərəfdən elmin və texnikanın sürətli inkişafı ilə bağlı güclü informasiya axınını da xüsusi vurğulamaq lazımdır ki, bu axın da dilimizin lüğət tərkibinin zənginləşməsində əvəzsiz rol oynayır.

Diplomatiya ilə bağlı terminlərin Azərbaycan dilində ekvivalentinin olmaması bu sahə ilə bağlı yazışmaların aparılmasında çətinliklər doğurur. Əvvəlki illərə nəzər yetirəndə dilimizdə diplomatik yazışmalarla bağlı kifayət qədər boşluqların olduğunu görürük (1, s. 6). Bu cəhətdən diplomatiya sahəsi ilə bağlı sənədlərin, yazışmaların, terminlərin hərtərəfli və sistemli şəkildə araşdırılması qarşımızda duran mühüm məsələlərdən biridir. Çağdaş dövrdə diplomatik münasibətlərdə dil sərbəstliyi var. Belə ki, hər bir dövlət öz danışıqlarında və yazışmalarında rəsmi dövlət dilindən istifadə edir və zamanın tələbi kimi bu təbii qarşılanır. Bu halı dövlətlər arasında bərabərlik prinsipinin gerçəkləşməsi kimi də qiymətləndirmək olar (1, s. 15).

Azərbaycan dilində diplomatik terminologiya həm dilin öz daxili imkanları hesabına, həm də alınma sözlər hesabına formalaşır. Diplomatik terminlər yaranarkən bir çox üsullardan istifadə olunur: leksik-semantik üsul, morfoloji üsul, sintaktik üsul, kalka üsulu, abreviatur üsulu. Leksik-semantik üsul dedikdə sözlərə yeni məna, məzmun yükləmək kimi başa düşülür, yəni sözlərin mənası xüsusiləşir, genişlənərək başqa məna kəsb edir. Sintaktik üsul dedikdə isə iki və daha artıq sözün birləşərək mürəkkəb vahidlər əmələ gətirməsi kimi başa düşülür. Abbreviatur isə dil vahidlərinin ümumi məzmununu saxlamaqla daha qısa ifadələr şəklində əvəz etmək üsuludur. Kalka üsulu hərfi tərcümə kimi də başa düşülür, yəni müəyyən dildə olan bir söz digər dilə məxsus sözlərin quruluşu kimi formalaşır. Morfoloji üsul şəkilçilərin köməkliyi ilə yaranan diplomatik terminlərin ən geniş yayılmış üsullarından biridir. Bu üsulla yaranan terminlər həm milli, həm də alınma şəkilçilər hesabına formalaşır. Diplomatiya terminlərinin yaranmasında aşağıdakı milli şəkilçilər fəal iştirak edir: -lık, -lik, -luk, -lük//lıq, luq. Bu şəkilçi adlardan ad və ya sifət düzəldərək mücərrəd mənalı diplomatik terminlər yaradır. Dilimizdə bu şəkilçi vasitəsi ilə əmələ gələn diplomatiya sahəsinə aid terminlər üstünlük təşkil edir. Məsələn: Birlik- Böyük Britaniya imperiyasının dağılması nəticəsində yaranan və 49 ölkənin də daxil olduğu birlikdir (2, s. 171). Bitərəflik- hər hansısa dövlətin xüsusi beynəlxalq hüquqi statusa malik olmasıdır. İki cür bitərəflik mövcuddur. Birincisi, müharibə zamanı bitərəflikdir, ikincisi isə daimi bitərəflikdir.

Eksterritoriallıq – toxunulmazlıq hüququ mənasına gəlir, yəni hər hansı bir dövlətdə olan diplomatik şəxslərin həmin ölkənin qanunlarına deyil, ancaq öz ölkəsinin qanunlarına tabe olmasıdır (2, s. 251). İrqçilik- bu termin bu və ya digər irqə mənsub olan insanların qeyri-bərabərliyidir. Elmi bir əsasa söykənməyən baxışlar bucağıdır. Piratlıq – başqa bir adı da quldurluqdur. Diplomatik termin baxımından beynəlxalq xarakterli cinayət hesab olunur. Qəyyumluq – mənası havadar, hami olub, hər hansısa bir dövlətin xarici əlaqələrinin qurulmasını, öz ərazi bütövlüyünün müdafiəsini başqa bir dövlətə həvalə etməsidir. Səfirlik- diplomatik nümayəndələrin idarə etdiyi diplomatik orqandır. Suverenlik- bir dövlətin öz daxili və xarici siyasət məsələlərində heç bir dövlətdən asılı olmaması. Vasitəçilik- diplomatik terminin mənası beynəlxalq miqyasda olan mübahisələrin sülhlə həll olunması üsullarındandır. Vətəndaşlıq- dövlətlə hüquqi bağlılığı olan fiziki şəxsə deyilir.

-çı, -çi, -çu, -çü – isim düzəldən şəkilçi kimi termin yaradıcılığında geniş istifadə olunur. Məsələn: Məruzəçi – elmi konfransın işi barəsində yığcam, qısa xülasəni təqdim eləyən, hazırlayan insandır. Müşahidəçilər – beynəlxalq konfransların və tipli digər forumların işində məhdud sayda iştirak edən nümayəndələrdir.

-ma, -mə - diplomatik termin yaradıcılığında feldən isim düzəldən məhsuldar şəkilçilərdən biridir. Məsələn: Hücumetmə - çağdaş beynəlxalq hüququn başlıca formalarındandır. Hər hansı dövlətin ərazi toxunulmazlığına qarşı qüvvə tətbiq etməkdən çəkindirir. Milliləşdirmə - kiməsə məxsus şəxsi, özəl mülkiyyətin dövlət mülkiyyətinə keçməsi vəziyyətidir. Paraflama – bu termin imzalama üsulu mənasına gəlir. Danışığa gələn nümayəndələrin razılaşdığını göstərən ilkin imzalama üsuludur (2, s. 422). Qarşıdurma – dövlətlərarası hərbi münaqişə yaratmaq təhlükəsidir.

-lı, -li, -lu, -lü – Bu şəkilçi ilə yaranan diplomatik terminlər söz birləşməsi şəklində olur və həmin birləşmənin birinci tərəfi kimi çıxış edir. Məsələn: ikipalatalı, birtərəfli, rütbəli, muzdlu və s.

[15] AMEA İ.Nəsimi adına Dilçilik İnstitutunun dissertantı. seide1990es@icloud.com

-ıq, -ik, -uq, -ük – isim və sifət düzəldən məhsulldar milli şəkilçidir. Məsələn: Barışıq – iki vuruşan tərəf, və ya bir neçə vuruşan tərəflər arasında hərbi əməliyyatların razılaşma yolu ilə müvəqqəti dayandırılmasıdır.

-laşma şəkilçisi dilimizdə az işlənən şəkilçi olsa da, bu şəkilçi ilə əmələ gələn diplomatik terminlər mövcuddur. Məsələn: Anlaşma- hər hansı iki dövlət arasında bir-biri ilə razılığa gələrək saziş bağlamaqdır.

Alınma şəkilçilər hesabına morfoloji yolla yaranan diplomatik terminlər də dilimizdə üstünlük təşkil edir.

-namə Diplomatik termin yaradıcılığında məhsuldar şəkilçilərdən biridir. Məsələn: Bəyannamə - dövlətlərin daxili və xarici siyasəyətlərinin əsas prinsiplərini bildirən və yaxud konkret məsələyə dair münasibətlərini əks etdirən birtərəfli, ikitərəfli, çoxtərəfli bəyanatdır. Buraxılışnamə - bəzi ölkələrdə hər hansısa diplomatik nümayəndə heyəti akkreditə edildiyi zaman, akkreditə olunduğu Dövlət başçısı akkreditə etmiş olan ölkənin rəhbərinə buraxılışnamə adlandırılan sənədi göndərir. Etimadnamə - ölkə başçısının özünə səfir təyin edərək onu xarici dövlətə akkreditə edən sənəd formasıdır.

-iyyət Bu şəkilçi ilə bağlı da dilimizdə kifayət qədər nümunələr mövcuddur. Məsələn: Fövqəladə vəziyyət – inzibati hüquqi rejim növü olub, xüsusi hüquqi durumdur.

-iya Diplomatik termin yaradıcılığında iştirak edən bu şəkilçi daha çox iş, hal, hərəkət bildirən terminlər yaradır. Məsələn: Demilitarizasiya – müəyyən beynəlxalq sazişlər əsasında hər hansısa bir dövlətə hərbi qüvvələr, eyni zamanda hərbi sənaye yaratmağın qadağan edilməsidir (2, s. 209). Diplomatiya- hər hansısa bir dövlətin xarici siyasətini yürütmək üçün, öz dövlətinin mənafeyini qorumaq adına hökumət başçısının və xarici işlər üzrə orqanların rəsmi formada fəaliyyətidir. Federasiya - hüquqi baxımdan siyasi müstəqilliyi olan bir neçə dövlətin vahid ittifaq formasında birləşməsidir. Oliqarxiya – ölkənin çox kiçik bir hissəsinin hökmranlıq etməyidir.

-izm – bu şəkilçi latın mənşəli olub, diplomatik terminlərə ictimai-siyasi məzmun verir. Belə ki, həmin şəkilçi vasitəsi ilə yaranan diplomatik terminlər elm, məfkurə, quruluş, dünyagörüşü ilə bağlı ictimai-siyasi cərəyanları ifadə edir. Məsələn: İzolyasionizm – bu terminin mənası özünü təcrid siyasətidir. ABŞ-ın xarici siyasətiylə bağlı yaranan diplomatik termindir (2, s. 352). Parlamentarizm – dövlət başda parlament olan idareetmə üsuluyla idarə olunur. Proteksionizm – inkişaf etmiş olan ölkələrdə iqtisadiyyatın inkişafı naminə, xarici bazarların genişləndirilməsi üçün dövlətin keçirmiş olduğu siyasətdir (2, s. 429). Revanşizm- təcavüzə uğrayan dövlətin yenidən müharibəyə hazırlıq siyasətidir.

Sadaladığımız morfoloji üsulla yaranan sözlərə nəzər yetirdikdə görürük ki, burada şəkilçilər sona artırılmışdır. Lakin sözün önünə artırılaraq termin yaradan şəkilçilər də kifayət sayda mövcuddur. Həmin şəkilçilərə pro, pre elementlərini nümunə göstərə bilərik. Məsələn: proporsional - həcm, tutum, hissəciklərin tamla düzgün nisbəti, prosedura - istənilən bir işin gedişinin rəsmi şəkildə müəyyən olunmuş qaydaları, preambula - hansısa hüquqi sənədin, müqavilənin izahedici giriş hissəsidir.

Ümumi bir nəzər yetirdikdə görürük ki, diplomatik əlaqələr genişləndikcə dilimizə daxil olan diplomatik terminlərin də sayı gündən- günə artmaqdadır. Bu terminlərin yaranmasında milli və alınma şəkilçilər mühüm rol oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. Cəfərov V.B. Diplomatik yazışma. Bakı: Elm, 1997, 106 s.
2. Diplomatiya Ensiklopedik lüğət. Bakı: Diplomat nəşriyyatı, 2005, 578 s.
3. Sadıxov F. Diplomatiya və diplomatik xidmət. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 115 s.

Açar sözlər: diplomatik leksika, diplomatik termin, morfoloji üsul, milli şəkilçilər, alınma şəkilçilər.
Key words: diplomatic lexicon, diplomatic term, morphological method, national suffixes, derived suffixes.
Ключевые слова: дипломатическая лексика, дипломатический термин, морфологический метод, национальные суффиксы, производные суффиксы.

Xülasə

Çağdaş dövrdə Azərbaycan qırx dörd beynəlxalq və regional təşkilatın üzvüdür. Bundan başqa yüz əlli altı ölkə ilə diplomatik əlaqələr qurmuş, xaricdə iyirmi bir səfirliyi, beş daimi nümayəndəliyi, iki baş konsulluğu, iki fəxi konsulluğu mövcuddur. Bütün bu göstəricilərin diplomatik leksikanın inkişafına təsiri danılmazdır. Məqalədə Azərbaycan Respublikasının genişlənməkdə olan diplomatik əlaqələrindən, həmin əlaqələrin diplomatik termin yaradıcılığına təsirindən bəhs edilmişdir. Diplomatik leksikanın yaranma üsullarına toxunulmuş, hər biri haqqında qısa informasiya verilmişdir. Morfoloji üsulla yaranan qırxa yaxın diplomatik termin araşdırılmış, hər birinin leksik mənaları öyrənilərək geniş təhlilə cəlb olunmuşdur.

Summary

Currently, Azerbaijan is a member of forty-four international and regional organizations. In addition, it has established diplomatic relations with one hundred and fifty-six countries, twenty-one embassies, five permanent representations, two consulates, and two official consulates abroad. The impact of all these indicators on the development of the diplomatic lexicon is undeniable. The article talks about the expanding diplomatic relations of the Republic of Azerbaijan and the influence of those relations on the creation of diplomatic terms. The methods of formation of the diplomatic lexicon were touched upon, and brief information was given about each of them. About forty diplomatic terms created by the morphological method were investigated, the lexical meanings of each were studied and involved in extensive analysis.

Резюме

В настоящее время Азербайджан является членом сорока четырех международных и региональных организаций. Кроме того, она установила дипломатические отношения со ста пятьдесят шестью странами, имеет двадцать одно посольство, пять постоянных представительств, два консульства и два официальных консульства за рубежом. Влияние всех этих показателей на развитие дипломатического лексикона неоспоримо. В статье говорится о расширении дипломатических отношений Азербайджанской Республики и влиянии этих отношений на создание дипломатических условий. Были затронуты методы формирования дипломатического лексикона и дана краткая информация о каждом из них. Было исследовано около сорока дипломатических терминов, созданных морфологическим методом, изучены и подвергнуты обширному анализу лексические значения каждого.

Rəyçi: F.e.d., prof. Sayalı Allahverdi qızı Sadıqova

Nübubət Adıgözəlova [16]

XX ƏSRİN AXIRI – XXI ƏSRİN ƏVVƏLİNDƏ DİLÇİLİYİN İNKİŞAFI HAQQINDA

Danılmaz həqiqətdir ki, insanın ilkin nailiyyəti dildir. Dil bəşəriyyətin sahib olduğu ən böyük dəyərdir. Dil tərəqqinin mühərrikidir. Fikirlərimizi ifadə etməkdə, bir-birimizlə ünsiyyətdə olmaqda dil əsas qüvvədir. Dünyada dilin yaranışı və formalaşması haqqında bir çox fikirlər mövcuddur.

"*Hələ qədim zamanlarda xalqlar dilin törəmi barədə müxtəlif miflər yaradırdılar. Həmin miflərdə dil Allah vergisi, ya da müdrik bir insanın kəşfi kimi göstərilirdi. Qədim filosoflar bu məsələyə spesifik mövqedən yanaşırdırlar. Antik filosofluqda dilin yaranışına iki əks istiqamətli baxış irəli sürülmüşdür. Bəzi filosoflar hesab edirdilər ki, dil təbii olaraq öz-özlüyündə, bədahətən yaranmışdır. Digərləri isə düşünürdülər ki, bu məfhum insanların konkret şərtləşmələri üsulu ilə yaranmışdır*" [10, s.3].

Fərqli filosof məktəblərinin nümayəndələri dilin yaranışı barədə müxtəlif fikirlər söyləyib. Qədim Yunanıstanın filosofu Platon hesab edirdi ki, dil təbiətdən gələn vergidir. Antik dünyanın filosofu Demokrit dilin Allah tərəfindən yaradıldığının tam əksinə çıxırdı. O hesab edirdi ki, dil yalnız insanların öz yaradıcılığıdır. Aristotel deyirdi ki, hər bir adlanma yalnız simvoldur.

"Aparıcı dinlərdə də dil əsas faktorların "Allah vergisi" olduğu qeyd olunur. Məsələn, xristianlıqda cəmiyyətin yaranması, onun ictimai təşkili ondan əvvəlki digər dini konsepsiyalarda deyilənlərin müəyyən mənada bənzəridir. Burada da insan, ümumən cəmiyyət, Allahın "obraz və oxşarlığının" daşıyıcısıdır. Belə bir əsaslandırma, bir tərəfdən, dünyada, bəşər cəmiyyətində baş verən hadisələr və proseslərin xüsusilə onlardan irəli gələn tərəqqinin təyinedicinin bilavasitə Allahla bağlı olduğunu və yalnız bundan sonra insanların simasında obrazlı şəkildə təzahür etdiyini təsdiqləyir. Digər tərəfdən, bu cəhət, həmçinin özlüyündə bütün tarixi proseslərin, o cümlədən bəşərin sosial inkişafına neqativ təsir göstərən amillərin də məhz Allahdan irəli gəldiyini təsdiqləmək məcburiyyətində qalır[10, s.4].

Məsələn, dahi roma filosofu Lukresiya dilin yaranmasını məhz cəmiyyətin yaranışı ilə bağlamışdır. Bu fikir aksiom qədər dəqiqdir.

Dil və təfəkkür arasındakı əlaqəni təhlil və tədqiq etmək üçün, xüsusi qeyd etmək lazımdır ki, əksər dilçilər və filosoflar insan təfəkkürünün yalnız dil əsasında həyata keçirilə biləcəyi nöqteyi-nəzərindən çıxış edir. Bu cərəyanın tərəfdarları onlara xüsusilə vacib görünən bir sıra arqumentlər irəli sürür.

Tamamilə doğrudur ki, "*Dil sistemi və dil quruluşu anlayışları dilin daxili quruluşu nəzəriyyəsinin mühüm məsələlərindən biri olub, ümumi dilçiliyin hələlik tam həll olunmamış problemlərinə daxildir. Dilin sistem olması dilçilik ənənəsində böyük tarixə malik olsa da, dil quruluşu ilə əlaqədə özünün hamı tərəfindən qəbul olunmuş izahını indiyədək tapmamışdır*" [1, s.121-124].

Məlumdur ki, dil təfəkkürlə sıx bağlıdır, baxmayaraq ki, bəzi elm adamlarının, xüsusən də Marristlərin iddia etdiyi kimi, onunla tam üst-üstə düşmür.İnsan təfəkkürünün mürəkkəb mahiyyətini onun müxtəlif növlərinin məcmusunda göstərmək və sözdə təfəkkür adlananın rolunu daha dəqiq müəyyən etmək lazımdır. N.Ya.Marrın davamçıları adətən dilçilikdə dilin inkişafının immanent qanunauyğunluqları problemini aradan qaldırmağa çalışırdılar.

Dilin xüsusiyyətləri özlüyündə insan cəmiyyətində baş verən dəyişikliklərdən asılı olmayan nitq əlamətlərinin dəyişməsinin immanent qanunlarını əks etdirir. Dildəki dəyişikliklər, məsələn, assimilyasiya da insan cəmiyyətində baş verən hər hansı dəyişikliklərdən asılı deyil. Ona görə də dilin inkişafının immanent qanunlarının inkarının qətiyyən heç bir əsası yoxdur; dillərdə əslində nə baş verdiyini tam başa düşməməyi əks etdirir.

Beləliklə, bu iş ikili diqqət mərkəzindədir. O, bir tərəfdən dilin müəyyən proses və hadisələrini yeni aspektdə təqdim etmək, digər tərəfdən isə dilçiliyi təəssüf ki, bəzi hallarda hələ də mövcud olan marrizmin qalıqlarından azad etmək istəyini ifadə edir.

Dildə ziddiyyətlərin olması bütün dilçilər tərəfindən qəbul edilir, lakin problemin özü hələ də zəif başa düşülür.

Müasir dünyada qloballaşma şəraitində dil problemləri yeni bir məna kəsb edir. Dünya birliyinin sosial quruluşundakı dəyişikliklər, intensiv miqrasiya problemləri, dil münaqişələri – bütün bunlar dil proseslərinə təsir göstərir.

Təbii ki, *"...dil cəmiyyətin elmi və mədəni həyatının inkişafında da başlıca vasitələrdən biri olmuş və indi də belə bir mühüm vasitə olaraq qalır"* [6, s.298].

Tamamilə doğrudur ki, "*... dilsiz, danışıqsız, ünsiyyətsiz cəmiyyət ola bilmədiyi kimi, cəmiyyət də olmadan dil yarana bilməzdi. Dilin yaranması və inkişafı cəmiyyətin tarixi və inkişafı ilə sıx baglıdır. Dil fərdi hadisə deyil, yəni onu bir nəfər yaratmayıb. Dil içtimai hadisədir. Bu, o deməkdir ki, dili ayrı-ayrı adamlar yox, cəmiyyət, insanların birliyi yaradıb, formalaşdırıb və inkişaf etdirib. Əmək prosesində və əməklə birlikdə meydana gələn, insanlar arasında ən mühüm ünsiyyət vasitəsi olan dil təfəkkürün elə bir vasitəsidir ki, onunla fikirlərin canı ifadə olunur. Dilsiz, nitqsiz, danışıqsız insanlar bir-birilərini dərk edə, anlaya bilməzlər. Dil insanlar arasında qarşılıqlı anlaşma, başqa sözlə, ünsiyyətin ən mühüm, ən ümdə, ən kamil vasitəsidir*" [10, s.3].

Bildiyimiz kimi, dil mürəkkəb rabitə sisteminin inkişafı, mənimsənilməsi, saxlanılması və istifadəsindən və insanın bunu işlətmə bacarığından ibarət olan sistemdir. Həyatımızın hər bir sahəsi dil ilə əlaqəlidir, sözsüz ki, dil çox vacib bir sosial məqsəd daşıyır. Dünya sürətlə dəyişir, yenilənir və bu proses hər şeydən əvvəl öz ifadəsini dilin leksikasında tapır.

[16] **Gəncə Dövlət Universiteti, dissertant. Adigozelovanububet@gmail.com**

Dilin üç əsas aspektinin – semiotik, qnoseoloji və linqvistik istiqamətlərinin rolunu xüsusi qeyd etmək lazımdır. Dil işarələrinin mənalandırma prosesi insan fəaliyyətinin əks olunma, ümumiləşdirmə, anlayışların və digər təfəkkür formalarının yaranması ilə səciyyələnir. Bəşər dilinin əsas təyinatı – təfəkkürün materiallaşması vasitəsi olmasıdır. Dərketmə prosesi fikirlərdən deyil, ətraf aləmin müşahidələrindən başlanır.

Dil işarələrinin mənalandırma prosesi insan fəaliyyətinin əks olunması, ümumiləşdirilməsi, anlayışların və digər təfəkkür formalarının yaranması ilə səciyyələnir. Lakin bu heç də dilin təfəkkür forması olduğunu sübut etmir. Buradan belə nəticəyə gəlmək olar ki, bəşər dilinin əsas təyinatı təfəkkürün materiallaşması vasitəsi olmasıdır. Dil və təfəkkür arasındakı münasibətləri araşdırarkən, əlbəttə, fikrin dil tərəfindən materiallaşması faktı qeyd olunmalıdır. Dərketmə prosesi fikirlərdən deyil, ətraf aləmin müşahidələrindən başlanır.

Bunu da nəzərə almaq lazımdır ki, təfəkkürün müxtəlif növləri var. Mücərrəd insan təfəkkürü, şifahi anlayışlar, mücərrəd məntiqi təfəkkür, nəzəri təfəkkür, şifahi təfəkkür, instrumental və texniki təfəkkür, elementar praktik təfəkkür. İngilis dilində bunlara "abstract human thinking, averbal concepts, abstract-logical thinking, theoretical thinking, speech thinking, instrumental and technical thinking, elementary practical thinking" deyilir. Dil təfəkkür formaları ilə sıx bağlıdır və o ətraf aləmin müşahidəsi ilə sıx bağlıdır.

XX əsrin sonu və XXI əsrin əvvəli - bütün elmlərin inkişafı, tərəqqi dövrüdür. XX əsrin ortalarında II dünya müharibəsi dövründə hərbi texnikanın yaranması, yeni kəşflər sanki bütün elmlər üçün bir növ təkan rolunu oynadı. Təbii olaraq, bu tərəqqi dilçilik elminə də təsir etdi.

N.Ç.Vəliyeva "Azərbaycanca – İngiliscə - Rusca İzahlı Kommunikasiya Terminlər Lüğəti"ndə dilin sosial təbiəti haqqında yazır: "*Hələ XVIII-ci əsrdə dilin ictimai təbiəti Fransada D.Didro (1713-1784), J.J.Russo (1712-1778) və A.Meye (1866-1936), Rusiyada isə M.V.Lomonosov (1711-1765) tərəfindən tədqiq edilib. Dilçilikdə fransız sosioloji məktəbinin başçısı sayılan A.Meye fransız filosoflar və sosioloq-pozitivistlər olan O.Kontun (1798-1857) və E.Dürkqeymin (1858-1917) nəzəriyyələrinə əsaslanıb. Bu tədqiqatçılar dildə mövcud olan dəyişiklikləri ictimai səbəblər vasitəsilə izah edib. İsveçrədə və ABŞ-da kommunikasiyanın öyrənilməsində dil vasitəsilə həyata keçirilən müxtəlif sosioloji istiqamətlər formalaşmağa başlayıb.Rusiyada dilin sosioloji tədqiqatları XX əsrin 20-30-cu illərində başlayıb. Tanınmış dilçilər V.V.Vinoqradov (1895-1985), Y.D.Polivanov (1891-1938), B.A.Larin (1893-1964), Q.V.Stepanov (1919-1986), L.P.Yakubinskiy (1892-1945), V.M.Jirmunskiy (1891-1971) və başqaları ünsiyyət vasitəsi kimi dili ictimai münasibətlərinin tarixi-materialistik pronsiplərinin əsasında təhlil edirlər. Onlar fransız məktəbinin (sosiologizmin) dilin sosial funksiyasına sadələşdirilmiş yanaşmanı və N.Y.Marrın (1864-1934) (vulqar sosiologizmin) "dilin yeni öyrənilməsinin" davamçıların "vulqar" yanaşmasını aradan qaldırmağa bacardılar*" [11, s.50-51].

A.A.Axundov yazır: "*Əgər XIX əsrin əsas dilçilik cərəyanı gənc qrammatizm hesab edilirsə, bizim yüzilliyin yeni mühüm dilçilik istiqaməti strukturalizm sayıla bilər. Strukturalizm xalis dilçilik cərəyanı deyildir. "Struktur" terminin bütün elmlərdə rast gəlirik*" [1, s.48].

Bəzən dilçiliyin yeni dövrünü struktur və riyazi dilçiliyin yaranması, çiçəklənməsi dövrü hesab edirlər. Ancaq qeyd etmək lazımdır ki, strukturalizmə yanaşı, ənənəvi dilçilik də inkişaf edir və heç bir məktəbə, yaxud cərəyana üstünlük vermək düzgün olmazdı. Adətən, dilçilikdə "struktur" anlayışı Ferdinand de Sössürün adı ilə bağlayırlar və strukturalistlər F. Sössürü bu məktəbin banisi kimi sayır, onun fikirlərini davam etdirirlər.

Strukturalizm, bildiyimiz kimi, psixologizm və "Gənc qrammatiklər" cərəyanlarının inkarı nəticəsində yaranmışdır. "Gənc qrammatiklər" dil fakt və hadisələrini ayrı-ayrılıqda tədqiq edir, onların arasında səbəbiyyət əlaqəsi axtarmır və buna fikir vermirdilər. Ona görə də onların tədqiqatı sistem səciyyə daşımırdı, daha doğrusu, onlar dildə sistemliyi görmürdülər. Buna "Gənc qrammatiklər"in atomizmi deyilir.

Strukturalistlər bu atomizmə qarşı çıxır, onlar ən başlıcası isə dildə sistemliyi görür və faktları, hadisələri bir-biri ilə əlaqədə öyrənirdilər. Bu cərəyan dili "özlüyündə və özü üçün" mövcud olan bir hadisə, qapalı struktur hesab edir. Buna görə də dili daxildən tədqiq etmə, dilxarici amillərə etinasızlıq özünü göstərir.

Lakin bu cərəyanın fəlsəfi əsasını "qeştalt psixologiya" və "biheviorizm", yəni "davranış psixologiyası" təşkil edir. Bundan əlavə, bu cərəyana məşhur etnoqraf və sosioloq B.Malinovskinin də güclü təsiri olmuşdur. Bu bir daha sübut edir ki, heç bir elm başqa elmlərlə əlaqəsi olmadan öyrənilə bilməz.

Ferdinand de Sössür 1916-cı ildə "Ümumi dilçilik kursu" əsərində öz dörd müddəası ilə ("Dilçiliyin yeganə və həqiqi obyekti dildir", "Dil öz xüsusi qaydası olan sistemdir", "Dil substansiya deyil, formadır", "Dilin hər vəziyyətində hər şey münasibətlərə əsaslanır") struktur dilçiliyin dörd əsas təməl daşını (spesifika, sistem, forma və münasibət) qoydu [9].

Bundan on il sonra 1926-cı ildə çex dilçisi V.Matezius Praqa şəhərində ilk dərnək təşkil etdi. Sonra isə dövrü olaraq "Praqa dilçilik dərnəyinin əsərləri" adlı məcmuə, "Söz və sözşünaslıq" adlı jurnal nəşr edilir [14;15].

1939-cu ildə L.Pos ilk dəfə "strukturalizm" termini işlədir və yeni yaranmaqda olan cərəyan özünə ad tapır: "struktur dilçilik", yaxud "strukturalizm". A.M.Qurbanov yazır: "*Strukturalizm dilin formasız yığım olmadığını, bunun ayrı-ayrı laylardan ibarət quruluşa malik olduğunu öyrədir və bu quruluşun xarakteristikasının verilməsini tələb edir*" [6,s.121].

Cərəyanın əsas məktəbləri bunlardır: Praqa funksional məktəbi, Danimarka qlossematikası və Amerika deskriptiv dilçilik məktəbi. Bu məktəblərin hamısı özü-özlüyündə dil üzərində tədqiqatlar aparmış, hər bir məktəb dilə fərqli yanaşmış və fərqli tədqiq etmişlər.

Amerika deskriptiv dilçilik cərəyanı Avropada yaranan cərəyanlardan dili tədqiqi formasına görə fərqlənsə də, onu bu cərəyanlardan ayırmaq düzgün olmazdı, çünki Amerika dilçiləri də Ferdinand de Sössürün ideyalarını əsas götürürdülər.

"Deskriptiv" sözünün mənası ingiliscə "təsvir" deməkdir. XIX-XX əsrlərdə Amerikada dilçilər missioner fəaliyyətlə əlaqədar hinduların dillərini öyrənmək, onlar üçün əlifba yaratmaq, dini kitabları bu dillərə tərcümə etməklə məşğul idilər. Yerli dillərin yazılı abidələri olmadığı üçün onlar dili aborigen xalqların psixologiyası, etnoqrafiyası, antrpologiyası ilə əlaqədə öyrənir və təsvir edirlər.

Bu cərəyanın baniləri F.Boas və L.Blumfild hesab olunur. F.Boasın 1911-1922-ci illərdə "Handbook of American Indian languages" - "Amerika hindularının dillərinin dərsliyi" əsəri nəşr olunur [3; 13]. Bildiyimiz kimi, o zamana qədər bütün dillər əsasən yunan-latın qrammatikaları üzrə təhlil olunurdu. F.Boas isə bu fikrin əleyhinə çıxır və bildirir ki, hər bir dil öz forma, səs, struktur və məna tipləri əsasında tədqiq olunmalıdır. O, yerli ekzotik dillərin tədqiqində yunan-latın normalarını yararsız sayırdı.

Beləliklə, bu cərəyan 1922-1957-ci illər ərzində Amerikada hakim cərəyan olmuşdur. Bu cərəyanın E.Səpir, B.Uorf, Ç.Hokket, B.Blok, M.Jür, J.Treyjer, Z.Hərris kimi görkəmli nümayəndələri var. Ancaq onlar da yerli dilləri tədqiq metoduna görə ayrılırlar [8; 12; 5; 2; 4].

Ə.Ə.Rəcəbli yazır: "*Deskriptiv dilçilikdə əsasən iki cərəyan vardır. Bunlardan birincisi L.Blumfildin davamçıları B.Blok, M.Jür, L.Tenyer, Z.Hərris – Yel qrupunu təşkil edirlər. Onlar fonologiya, morfologiya, sintaksis üzərində iş aparırdılar. Cərəyanın ikinci qrupu isə, E.Sepirin davamçıları, Y.Nayda, K.Payk, Ç.Friz, M.Halli isə - Enn-Arbor qrupunu təşkil edirlər. E.Sepir əsasən dilləri etnoqrafiya və psixologiya ilə əlaqədə öyrənirdi. Onun davamçıları da fonem, morfem, taksemləri öyrənməklə yanaşı tədqiqatlarında psixologiya da geniş yer verirdilər. Ancaq hər iki məktəbə də əsas olaraq L.Blumfild başçılıq edirdi*" [7, s.21].

Bu cərəyanın nümayəndələri yerli dilləri öyrənmək üçün yeni üsul və metodlar işləyib hazırlayırdılar və bu metodlar elmə çox şey qazanırdı.

Dilçilik elmi psixologiya, tarix, sosiologiya, estetika, etnoqrafiya, təbiətşünaslıq və s. elmlərlə qarşılıqlı öyrənilməyə başlayır, elmdə yeni aspektlər, yeni cərəyanlar, yeni məktəblər, yeni fənnlər meydana gəlir. XX əsrdə diqqəti cəlb edən əsas cərəyanlar – sosioloji cərəyan və strukturalizm cərəyanıdır ki, bunlardan da ən görkəmli yeri strukturalizm tutur.

Doğrudur ki, "*nitq, ünsiyyət, kommunikasiya fəaliyyətinin sosial aspekti ilə bağlı olan dilin kommunikativ funksiyası sosioloji istiqamətin çərçivəsində tədqiq olunub. İctimai kommunikasiyasının digər amili dilin anlamını, ifadə vasitələrinin məqsədyönlü sistemi kimi, əsaslandıran funksional linqvistikadır. Sosial kommunikasiya üçün ən böyük maraq kommunikasiyanın müxtəlif ictimai funksiyaları ilə əlaqələndirilmiş dil vasitələrinin funksional fərqləndirilməsidir. Kommunikativ vəziyyətlərdə dil vasitələrinin variasiyası həyata keçirilir*" [11, s.51].

Beləliklə, qeyd etmək lazımdır ki, XXI əsrdə diqqəti cəlb edən əsas cərəyanlar – sosioloji cərəyan və strukturalizm cərəyanıdır. Hər iki cərəyanın meydana gəlməsində İsveç alimi Ferdinand de Sössürün böyük təsiri olmuşdur.

Sosiologizm cərəyanının iki məktəbi (Jenevrə, Paris), strukturalizm cərəyanın üç əsas məktəbi (Amerika, Praqa, Kopenhagen) vardır.

Dilçiliyin inkişafı tarixində bu məktəblərin hər birinin rolu olmuşdur. Praqa struktur məktəbi fonoloji nəzəriyyəni yaratmışlar, Kopenhagen dilçilik məktəbi dilə ən mürəkkəb semiotik sistem kimi baxmış, Amerika məktəbi isə dilin qrammatik quruluşunun öyrənilməsində böyük uğurlar əldə etmişlər.

Cəmiyyətimiz məhz XXI əsrə qədəm basıb və artıq elmlərin məhdud çərçivədə öz əhatəsi daxilində öyrənilməsi prosesini arxada qalıb. Bu gün biz artıq bir çox elmləri, o cümlədən, dili digər sahələrlə sintez şəklində öyrənməklə, araşdırmaqla daha çox bilgilər, nailiyyətlər əldə edə bilərik. Əgər dünən biz dilin qrammatik qaydalarını, dildəki sistemliyi, leksikondakı dissimilyasiya-assimilyasiya və s. halları öyrənməklə kifayətlənib, əldə etdiyimiz nailiyyətlərlə qane olurduqsa, bu gün artıq bu bizə azlıq edir. Hər bir elm sahəsindəki kimi, filologiyada da yeniliklərə ehtiyac duyuruq. Dilin daha hansı imkanlara malik olmasını bütün dolğunluğu ilə öyrənməyə çalışırıq.

İstifadə olunmuş ədəbiyyat

1. Axundov, A.A. Ümumi dilçilik. – Bakı: Maarif, – 1988. – 272 s.
2. Block, B., Trager, G.L. Outline of Linguistic Analysis, Michigan, – 1947. – 90 p.
3. Boas, F. Introduction. Handbook of American Indian Languages. Cambridge: Cambridge University Press, 2013, 570 p. (First edition: 1911-1922. – 83 p.)
4.Harris Z.S. Methods in Structural Linguistics. – Chicago, – 1951. – 384 p.
5.Hockett, Ch.F. A Course in Modern Linguistics. – New York: MacMillan, – 1958. – 621 p.
6. Qurbanov, A.M. Ümumi dilçilik. – Bakı: Maarif, – 1989. 2 cilddə, – I c. – 568 s.
7.Rəcəbov, Ə.Ə. Dilçilik tarixi. – Bakı, –1987. –541 s.
8.Sapir E. Language: An Introduction to the Study of Speech. – New York: Harcourt, Brace and company. – 2004. (first published in 8 April, 1921). – 125 p.
9. Sössür, de F. Ümumi Dilçilik kursu. – Bakı, – BDU nəşr, – 2003. – 407 s.
10. Vəliyeva, N.Ç. Müxtəlifsistemli dillərdə feli birləşmələrin tipoloji təhlili. Dərs vəsaiti, – Bakı: Avropa, – 2008. – 862 s.(54 ç.v.)
11. Vəliyeva, N.Ç. İzahlı Azərbaycanca-İngiliscə-Rusca Kommunikasiya Terminlər Lüğəti. – Bakı: Vətənoğlu, – 2018. – 352 s.
12.Whorf, B.L. Language, Thought and Reality. – Boston: MIT Press. –1956. – 302 p.
13. Блумфилд Л. Язык. – Москва: Прогресс, – 1968. – 607 с.
14. Матезиус, В.О. Язык и стиль. О системном грамматическом анализе. В кн. Пражский лингвистический кружок, – М.: Прогресс, – 1967. – 559 с.
15. Матезиус, В. О необходимости стабильности литературного языка // Матезиус В. Избранные труды по языкознанию / Пер. с чеш. и англ. –Москва: УРСС, – 2010. –232 с.

Açar sözlər: dil, struktur dilçilik, deskriptiv dilçilik, nitq, ünsiyyət, kommunikasiya.

Key words: language, structural linguistics, descriptive linguistics, speech, intercourse, communication

Ключевые слова: язык, структурная лингвистика, дескриптивная лингвистика, речь, общение, коммуникация.

ON THE DEVELOPMENT OF LINGUISTICS AT THE END OF THE 20TH AND BEGINNING OF THE 21ST CENTURIES

Summary

As it is known, language is the main achievement of man. Language is the greatest value of humanity. Language is the engine of progress. Language is the main force in expressing our thoughts and communicating with each other. There are many ideas in the world about the origin and formation of language.

In order to analyze and study the relationship between language and thinking, it should be noted that most linguists and philosophers proceed from the point of view that human thinking can only be realized on the basis of language. Language is closely related to thinking, although it is not exactly the same thing as some scholars, especially the Marrists, argue. They believe that it is necessary to show the complex nature of human thinking in the totality of its various types and more accurately define the role of so-called thinking. Representatives of structural and descriptive linguistics, as well as their famous works, are discussed in this article, since it is devoted to the study of the development of linguistics at the end of the 20-th and beginning of the 21-st centuries.

О РАЗВИТИИ ЯЗЫКОЗНАНИЯ КОНЦА XX - НАЧАЛА XXI ВЕКОВ

Резюме

Как известно,язык являетсяглавным достижением человека. Язык – величайшая ценность человечества. Язык – двигатель прогресса. Язык является основной силой в выражении наших мыслей и общении друг с другом. В мире существует множество представлений о происхождении и формировании языка.

Чтобы проанализировать и изучить взаимосвязь языка и мышления, следует отметить, что большинство лингвистов и философов исходят из точки зрения, что мышление человека может быть реализовано только на основе языка. Язык тесно связан с мышлением, хотя это не совсем то же самое, как утверждают некоторые ученые, особенно марристы. Они считают что, необходимо показать сложную природу человеческого мышления в совокупности различных его видов и точнее определить роль так называемого мышления. Представители структурной и дескриптивной лингвистики, а также их известные труды рассматриваются в данной статье, поскольку она посвящена исследованию развития языкознания конца XX - начала XXI веков.

Rəyçi: Professor, filologiya elmlər doktoru N. Ç. Vəliyeva

Qətibə Balaəhməd qızı Rüstəmova [17]

AZƏRBAYCAN DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ ALINMA SÖZLƏRİN ROLU

Cəmiyyətin inkişafı, xalqlararası sosial-iqtisadi əlaqələrin genişlənməsi, ictimai-siyasi münasibətlər, elmi-texniki tərəqqi dilin leksik qatına yeni sözlərin gəlməsini zəruri edir. Müxtəlif xalqların həyatında baş verən ictimai, siyasi və mədəni dəyişikliklər öz əksini, ilk növbədə, həmin dilin lüğət tərkibində tapır. Daima inkişaf edən və genişlənən insan bilikləri, ilk növbədə, yeni sözlərdə və ya onların yeni mənalarında möhkəmlənir. Beləliklə, dilin lüğət tərkibi fasiləsiz olaraq yeni sözlərlə zənginləşir. Sözlərin bir dildən digər dilə keçməsi dillərarası qarşılıqlı əlaqənin ən qədim proseslərindən biri hesab edilir. Dillərin müasir inkişafı mərhələsində alınma və kalka yolu ilə söz ehtiyatının zənginləşməsi ən geniş yayılmış üsullardır. Leksik qat dilin ən çevik və dəyişkən qatıdır, çünki məhz leksika obyektiv gerçəkliklə sıx bağlı olduğu üçün lüğət tərkibində baş verən hər bir yenilik məhz leksikada əks olunur. Dilin leksik ehtiyatının zənginliyinə rəğmən, heç bir təbii dil öz leksik vasitələri hesabına dil daşıyıcısının ehtiyaclarını nə ödəyə, nə də inkişaf edə bilər. Müxtəlif dillərdə alınma sözlərin mövcudluğu xalqın başqa xalqlarla təmasda olması, təcrübə mübadiləsi aparması, onların nailiyyətləri ilə zənginləşməsi və özünün də dünya elmi və mədəniyyətinə təsir göstərməsi deməkdir.

Dilin leksik tərkibi, ayrı-ayrı elementləri bir-biri ilə qarşılıqlı asılılıq və qarşılıqlı münasibətdə olan mürəkkəb sistemdir. İstənilən dilin lüğət tərkibi fasiləsiz inkişaf vəziyyətindədir və bunun əsas qanunauyğunluqlarından biri dilin leksik qatının yeni sözlərlə zənginləşməsidir. Dilin lüğət tərkibinin zənginləşməsi isə iki əsas yolla: dilin öz daxili imkanları sayəsində yeni sözlərin müxtəlif üsullarla yaranması və digər dillərdən sözlərin alınması hesabına baş tutur. Sözalma ayrı-ayrı dillərdə müxtəlif yollarla lüğət tərkibinin zənginləşməsinə təsir göstərir. Bəzi dillərdə sözalma dilin lüğət tərkibinə həlledici təsir göstərmədiyi halda, digər dillərdə müxtəlif tarixi dövrlərdə alınmış sözlər dilin lüğət tərkibinə elə ciddi təsir göstərmişdir ki, hətta onlar həmin dillərdəki həqiqi sözləri sıxışdırmışdır, çünki sözlama hər bir dilə xasdır və onun leksik tərkibini ayrılmaz hissəsidir. Canlı dil daim inkişafda olan fenomendir və o, leksik qatındakı izafi və lazımsız olan sözləri kənarlaşdıraraq daima yeni, o cümlədən işlək sözlərlə zənginləşir.

Azərbaycan ədəbi dilinin lüğət tərkibinin doldurulması vasitəsi kimi və yeni hadisələrin adlandırılma vasitəsi, eləcə də mövcud olan adların xarici dillərdən götürülmüş sözlərin hesabına dəyişdirilməsində sözalma mühüm yer tutur. Hələ xeyli əvvəllər Kazan dilçilik məktəbinin banisi İ.A.Boduen de Kurtene bununla bağlı yazırdı: "Təmiz, qarışığı olmayan tək bir təbii dil bütövü yoxdur və ola da bilməz" (8, s. 16).

Təbii ki, bu günə qədər dilçilik elmində sözalma ilə bağlı bir sıra suallara (Sözalma nədir? Başqa dillərdən sözalmanı şərtləndirən əsas səbəblər hansılardır?) kifayət qədər diqqət göstərilmiş və müvafiq cavablar da verilmişdir. Linqvistik ədəbiyyatda sözalma bir dilin başqa dildən söz, ifadə və ya başqa mənanı mənimsəməsi prosesi, habelə bu prosesin nəticəsi alınma sözün özü kimi təsvir edilir. Məsələn, B.Xəlilovun fikrincə, "dünyada ancaq öz xalis sözlərindən ibarət olan dil yoxdur. Bütün dillər bir-birinə söz vermiş və başqasından söz alımışdır. Bu və ya digər dilin başqa dildən aldığı sözə dilçilikdə alınma söz deyilir" (5, s. 38).

Dilin leksik tərkibinin zənginləşməsində sözalmanın mühüm mənbələrdən olması fikri birmənalı şəkildə qəbul edilə bilməz və gerçəkliyə uyğun gəlmir, çünki istənilən dilin zənginləşməsində onun daxili sözdüzəltmə imkanlarının payı daha çoxdur. Bununla bağlı N.N.Amosovanın fikri maraqlıdır: "dilin lüğət tərkibinin bütün mərhələlərdə zənginləşməsinin inkişafında aparıcı proses sözdüzəltmədir, yəni mövcud dil materialından yeni sözlərin yaradılmasıdır" (7, s. 29).

Leksik sözalmanın dildaxili səbəblərini araşdıran tədqiqatçılar bu prosesin məhsuldarlığını dil sisteminin inkişaf meyilləri ilə əlaqələndirirlər.

A.A.Bragina sözalmanı sosial tarixi şəraitlə əlaqələndirir. Onun qənaətinə görə, "alınma sözlər yad mənşəli sözlərdir, amma dil bu alınmaları fəal şəkildə mənimsəyərək onu cəmiyyətin tələb etdiyi norma səviyyəsinə yüksəldir. Alınma sözlər qısa zaman ərzində həm bədii üslubun, həm də digər üslubların amilinə çevrilirlər və yaxud da tarixizmlər kimi dilin passiv fonduna keçirlər" (9, s. 159].

Mahiyyətinə görə sözalma bir dilin başqa bir dildən sözü olduğu kimi qəbul etməsi və işlədilməsidir. Sözalma, bir qayda olaraq, əşya, predmet, hadisə və s. adlandıran sözün başqa dildən alınıb işlədilməsi hadisəsini özündə əks etdirir.

Yeni predmet və hadisələrin adlandırılması ehtiyacı dilin daxili ehtiyatlarının köməyi ilə həyata keçirilə bilər. Sözalmadan istifadə dil səylərinə qənaət meylinin təzahürüdür. U.Vaynrayxın qeyd etdiyi kimi, "...predmetləri yenidən təsvir etməkdənsə, hazır işarələrdən istifadə etmək həmişə daha asandır" (10, s. 96).

Alınma söz özünəməxsus sistemdaxili əlaqələri olan yad dil sisteminin elementidir, buna görə də başqa dildəki sözün götürmək üçün zəruri şərt, söz alan dil sisteminin onu qəbul etməyə hazır olmasıdır.

İstənilən dilin lüğət tərkibi cəmiyyətdə və cəmiyyət daxilində baş verən dəyişikliklərə adekvat və həssaslıqla reaksiya verən dinamik bir hadisədir. Linqvistik tədqiqatlarda dillərin qarşılıqlı təsirinin intensiv şəkildə öyrənilməsi sözalma prosesinə marağı son illər xeyli gücləndirmişdir. Bu gün dilçilikdə "sözalma" termininin birmənalı şərhi mövcud deyildir. Dilçilər "sözalma" anlayışı altında həm dilin lüğət tərkibinin zənginləşdirilməsi prosesini, həm də bu prosesin nəticəsini başa düşürlər.

Beləliklə, sözalma linqvistik fenomen kimi dilin leksik qatının zənginləşdirən vasitələri arasında özünəməxsus yerini tutur. Dilçilikdə "sözalma" termini çoxmənalıdır. Məsələn, bəzi alimlər "sözalma" və "alınma söz" terminlərini fərqləndirir

[17] ADU, filologiya üzrə fəlsəfə doktoru, dosent. r.qatiba@gmail.com

və "sözalma"nı "dillərin qarşılıqlı təsiri" kimi təyin etməyi təklif edir, digər müəlliflər isə bu anlayışları eyniləşdirir və bunu əksər hallarda sözlərin başqa dillərdə mənimsənmələri ilə izah edirlər.

Sözalma dedikdə yeni yaranan anlayışları ifadə etmək və mövcud anlayışları bir-birindən fərqləndirmək üçün başqa dillərin lüğət tərkibinə müraciət edilməsi, bir dilin digərindən ayrı-ayrı sözlərin alınıb işlədilməsi prosesi başa düşülür.

"Alınma söz" anlayışı mürəkkəb və şərti anlayışdır. Müasir dilçilikdə "alınma söz" anlayışı altında əsasən başa dillərdən alınmış, tarixi tədqiqat aparmadan məlum olan və üslubi məqsədəuyğunluq çalarlığı baxımından mənşə mənsubiyyətinə görə xüsusiyyət təşkil edən söz başa düşülür. Ə.Dəmirçizadənin fikrincə, "buna görə də bu növ sözləri əcnəbi sözlər adlandırırıq ki, beləliklə də, bu termin anlayışı geniş mənada işlədilən "alınma sözlər" anlayışına daxil olmaqla bərabər, daha çox poetikada, üslubiyyatda varvarizm termini ilə ifadə olunan anlayışa yaxın bir mənada işlədilən termin kimi də anlaşılmasın və ondan fərləndirilsin" (3, s. 92).

A.A.Reformatski tədqiqatlarında sözalmanı dillərin qarşılıqlı əlaqəsinin təbii bir prosesi kimi adlandırmışdır. Müəllifin fikrincə, "sözalma prosesi həm ekstralinqvistik, həm də daxili linqvistik qaydalarla şərtləndirilmiş mürəkkəb hadisə" kimi şərh etmişdir (11, s. 139).

Dilçilikdə "sözalma" termini adı altında bir dilin digərindən sözü mənimsəməsi, qəbul etməsi anlaşılır. Bu, xarici dildəki leksemin sözalan dilin daşıyıcısının nitqində möhkəmlənməsinin nəticəsi olan uzunmüddətli prosesdir. "Alınma söz" dedikdə bir dilin digər dildən leksik vahidləri mənimsəməsi nəzərdə tutulur. Başqa dillərdən sözlərin alınması ikitərəfli mədəniyyətlərarası prosesdir, yəni onu bir dildəki hazır vahidlərin sadəcə olaraq başqa bir dilə keçməsi kimi izah etmək düz deyildir. Sözalma həm də həmin leksemlərin resipiyent dilin sistemi tərəfindən mənimsənməsi, alınmış sözlərin həmin dilin dildaxili tələblərinə uyğunlaşması, yeni sistem daxilində formal və semantik baxımdan uyğunlaşması deməkdir. A.Qurbanova görə, "bu və ya digər dilin başqa dildən aldığı sözə alınma söz deyilir... Sözlər bir dildən başqasına müxtəlif şərait və zamanlarda, müxtəlif səbəblərdən və bir sıra yollarla keçir" (6, s. 216). H.Həsənov başqa dillərdən alınma sözlərin şifahi və yazılı nitq vasitəsi ilə alındığını qeyd edir. Müəllif alınma sözə belə bir tərif verir: "Bir dildən digərinə müxtəlif ünsürlərin: söz, morfem, səs və mənanın keçməsi alınma adlanır" (4, s. 117).

Başqa dildən söz alan dilləri leksik baxımdan kasıb dillər hesab etmək də yanlışdır. Sözalma dillər və mədəniyyətlərarası prosesi kimi dillərin lüğət tərkibini zənginləşdirməklə xalqların, mədəniyyətlərin bir-birinə inteqrasiyasına münbit zəmin yaradır. "Sözalma" dedikdə, başqa dilə məxsus elementləri, ilk növbədə, sözləri nəzərdə tuturuq, çünki sözalma ən çox dilin leksikdə səviyyəsində baş verir. Sözalma dil əlaqələri və başqa dillərlə qarşılıqlı təsir nəticəsində bir dil cəmiyyətinin təcrübəsinin genişlənməsindən irəli gələn adlandırma (nominasiya) ehtiyaclarının qarşılanması vasitəsidir. Bundan əlavə, sözalma leksik vahidlərin bir dildən digər dilə yerdəyişməsidir ki, bunun da sonunda alınma leksemlərin resipiyent dilin sistemində uyğunlaşması baş verir. Daha aktiv sözalma prosesi leksika səviyyəsində baş verir və bu resipiyent dildə yeni realiləri, anlayışların və hadisələrin adlandırılması zərurəti ilə şərtlənmişdir.

İstənilən xalqın siyasi, iqtisadi, mədəni aspektlər üzrə inkişafını alınma söz və ifadələr üzərindən izləmək mümkündür. Dünyada elə bir xalq yoxdur ki, onun dili başqa dillərdən alınma sözlərdən tam azad olsun. Hər hansı bir insanın doğma dili, o cümlədən danışığı bu və ya digər şəkildə fərdin ümumi təhsil səviyyəsini əks etdirən alınma sözlərlə zəngindir. Xalqlararası uzunmüddətli siyasi, iqtisadi, hərbi, mədəni əlaqələr mütəmadi olaraq həmin dillərin leksik qatının alınma mənşəli yeni sözlərlə zənginləşməsinə yol açır. Alınma sözə müraciət etmək intralinqvistik və ekstralinqvistik səbəblər kompleksindən qaynaqlanır. İntralinqvistik amillərə dildaxili proseslər, ekstralinqvistik amillərə isə siyasi, iqtisadi, sosial, mədəni sahələrdəki dil əlaqələri daxildir. Ətraf aləmdə baş verən dəyişikliklər, elmi-texniki tərəqqi, həmçinin ictimai-iqtisadi və mədəni inkişaf dilə öz təsirini açıq şəkildə göstərir. Bizim tanımadığımız predmet və hadisələrin adlandırılması zərurəti başqa dildən sözalmanı zərurətə çevirir. Ekstralinqvistik amillər cərgəsində psixoloji, estetik, evfemistik ifadəyə canatma və s. yer alır. Sözalma prosesində tarixi şərait, dini mənsubluq, ölkənin iqtisadi-siyasi vəziyyəti kimi şərtlər əhəmiyyətli rola malikdir.

Sözalmanın xarici səbəbləri arasına dil daşıyıcıları – xalqlar arasında siyasi, iqtisadi-sənaye və mədəni əlaqələrin intensivliyini aid etmək olar. Məlumdur ki, leksika dil səviyyələri arasında xarici təsirlər üçün ən açıq yarımsistem, cəmiyyətin sosial həyatında baş verən dəyişikliklərin əks olunduğu linqvistik sahədir. Sözalmanı şərtləndirən dildaxili səbəblərə gəldikdə aşağıdakı amilləri qeyd etmək olar: a) həqiqi sözün çoxmənalılığının aradan qaldırılması nəticəsində, onun məna strukturunu sadələşdirmək üçün; b) sözalmanı stimullaşdıran amil resipiyent (sözalan) dildə struktur baxımdan analoji söz və ya sözlər qrupu, qavranılan leksik vahidlə struktur baxımdan eynitipli sözlər yaratmaq meyli.

Təbii dillərin leksik tərkibi müəyyən amillərin təsiri altında vaxtaşırı dəyişikliklərə məruz qalır. Dil cəmiyyətin elmi, mədəni həyatının inkişafında baş verən hadisələri leksik qatında əks etdirir. S.Cəfərovun fikrincə, "ictimai-iqtisadi, siyasi əlaqələrin dəyişməsi, elm, texnika və mədəniyyət sahəsində arası kəsilməyən yeniliklərin yaranması ilə əlaqədar dildə yeni sözlər meydana gəlir. Dilin lüğətində daimi bir dəyişmə, artma və zənginləşmə prosesi gedir" (2, s. 63).

Alınma sözlər dilin leksik tərkibinə müəyyən tarixi, siyasi, iqtisadi, mədəni və s. proseslərin nəticəsi kimi daxil olur. Dilin leksik qatındakı dəyişiklik və inkişaf yaranmış daxili və xarici şəraitlə əlaqədardır. Dilin daxili qanunlarına əsaslanaraq, mövcud söz ehtiyatı əsasında yeni sözlərin (rəqəmsal, tozsoran, soyuducu, yetərsay, paltaryuyan və s.) yaranması ilə zənginləşməsi daxili, tarixi-coğrafi, siyasi-iqtisadi proseslər, elm və texnikanın inkişafı, mədəni əlaqələrlə bağlı dillərin qarşılıqlı əlaqələr zəminində zənginləşməsi isə (məsələn, kompüter, sensor, ekran, monitor, fayl, sayt, ayfon) xarici amillərlə izah olunur. Dildə baş verən dəyişikliklər, bir tərəfdən, dilin struktur xüsusiyyətləri (fonetik biçim, qrammatik struktur, lüğət tərkibində olan dəyişikliklər və s.), digər tərəfdən, cəmiyyətin xüsusiyyətləri (coğrafi şərait, dilə lazımi qaydada yiyələnməmək, insanların sosial statusu və s.) ilə əlaqəlidir.

Dillərin leksik qatının zənginləşməsi qloballaşma, elmi-texniki tərəqqi, siyasi-iqtisadi, mədəniyyətlərarası əlaqələr, kütləvi informasiya vasitələri, təhsil və s. kimi ekstralinqvistik amillərlə birbaşa bağlıdır. Buna görə də müasir dilçilikdə dilin ekstralinqvistik amillərin təsiri altında formalaşan leksik təbəqəsini həm də milli-mədəni leksik təbəqə kimi izah edirlər. Dilin leksik qatı yalnız yeni sözlərin yaranmasına hesabına yox, həm də leksik tərkibdəki mövcud sözlərin yeni məna çalarları qazanması hesabına zənginləşir. Alınma sözlərin dilə daxil olması ayrı-ayrı dillərdə fərqli səbəblərdən - xalqın tarixi, istilalar, dövlətlərarası siyasi-ticari və mədəni əlaqələrdən qaynaqlanır. Ə.Z.Abdullayevin fikrincə, "siyasi amillər dünyada baş verən siyasi proseslər vasitəsi ilə dilə təsir edir və onu zənginləşdirir, çünki siyasət dilin vasitəsi ilə hazırlanır, dilin vasitəsilə həyata keçirilir" (1, s. 26).

Dilin leksik qatının zənginləşməsində mədəniyyətin və mədəni əlaqələrin rolu böyükdür. Məsələn, mədəniyyətlərarası əlaqələr nəticəsində ingilis dilindən Azərbaycan dilinə xeyli sayda yeni sözlərin daxil olmuşdur. Azərbaycan dilində istər məişət danışıq dilində, istərsə də mediada xeyli sayda yeni alınmalara rast gəlinir. Məsələn, "animasiya", "otel", "komfort", "monitorinq", "treninq", "panel", "kvorum", "audio-video yazan", "planşet", "xarizma", "spiker" və s.

Hazırda Azərbaycan dilindəki ərəb-fars mənşəli sözlərin Avropa və rus mənşəli sözlərlə əvəz olunması, cəmiyyətin bir çox sahələrinə aid sözlərin dilin leksik qatına daxil olması siyasi proseslərin nəticəsidir. Məsələn, müstəqilliyin əldə edilməsi ilə Azərbaycan dilinə daxil olan "blokada", "koalisiya", "tolerantlıq", "monitoring", "plüralizm" və s. sözlər buna misal ola bilər.

Dilin leksik qatının zənginləşməsində mədəniyyətin və mədəni əlaqələrin rolu böyükdür. Məsələn, mədəniyyətlərarası əlaqələr nəticəsində ingilis dilindən Azərbaycan dilinə xeyli sayda yeni sözlərin daxil olmuşdur. Azərbaycan dilində istər məişət danışıq dilində, istərsə də mediada xeyli sayda yeni alınmalara rast gəlinir. Məsələn, "animasiya", "komfort", "monitorinq", "treyninq", "panel", "kvorum", "audio-video yazan", "planşet", "xarizma", "spiker" və s.

Yeni yaranan texnologiyaları adlandırmaq üçün dildə yeni sözlərin yaradılması labüddür. Leksik qatda yeni sözlərin yaranması və ya köhnəlmiş sözlərə yeni ifadə verməklə "canlandırılması" da texnologiyanın inkişafı sayəsində öz əksini tapmışdır. Təsadüfi deyildir ki, bəzi dilçilər texnologiyanın lüğətin zənginləşməsinə səbəb olmaqla yanaşı, onun həm də danışıq dilinə təsir etdiyini xüsusi qeyd edirlər. Bununla bağlı M.Mak Krindel yazır: "Texnologiya bizim lüğətimizi zənginləşdirməkdən əlavə, dildən istifadə tərzimizi, özümüzü ifadə tərzimizi və danışığımızı da köklü şəkildə dəyişdi. Gənc nəsil hazırda dil inqilabı dövrünü yaşayır" (12, s. 22). Müəllif texnologiyanın nailiyyətlərini hazırda təbii dilə təsir edən dörd əsas amildən biri kimi təqdim edir. Onun fikrincə, "texnologiya, çoxmədəniyyətlik və qloballaşma müasir dövrdə dilə təsir edən ən başlıca amillərdir" (12, s. 23).

Dildə yeni sözlərin alınmasında internetin də rolu böyükdür. Kompüter texnologiyasının, o cümlədən internetin təsiri ilə Azərbaycan dilində "brauzer", "sayt", "kabel televiziyası","elektron poçt", "provayder", "internet", "online", fləş-kart","memory" (yaddaş, kompüter yaddaşı), disket və s. kimi yeni sözlər yaranmışdır.

Alınma sözlər daxil olduğu dildəki ekvivalentləri ilə sinonimik cərgə yaratmaqla yanaşı, bəzi hallarda resipiyent dildəki öz ekvivalentini gündəlik istifadədən sıxışdırıb çıxara bilir. Dildaxili və dilxarici amillərlə şərtlənmiş sözalma prosesi dillərin lüğət tərkibini zənginləşdirməklə xalqların, mədəniyyətlərin bir-birinə inteqrasiyasını təmin edir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev Ə.Z. Dil, siyasət, sosial tərəqqi. Bakı: Azərnəşr, 1985, 187 s.
2. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika. Bakı: Şərq-Qərb, 2007, 215 s.
3. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. I h. Bakı: Maarif, 1989, 480 s.
4. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1988, 306 s.
5. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası.Bakı: Nurlan, 2008, 442 s.
6. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili I cild. Bakı: Nurlan, 2003, 449 s.

Rus dilində

7. Амосова Н.Н. Этимологические основы словарного состава современного английского языка. М.: Изд-во лит-ры на иностр. языках, 1956, 218 с.
8. Бодуэн де Куртенэ И.А. Избранные труды по общему языкознанию. М.: Изд. Академии наук СССР, 1963. 391с.
9. Брагина М.Е. К вопросу о причинах лексического заимствования Актуальные проблемы лексикологии. Минск: 1970, с. 24-31.
10. Вайнрайх У. Языковые контакты: Состояние и проблемы исследования. Киев: Вища школа, 1979, 263 с.
11. Реформатский А.А.Введение в языковедение. М.: Аспект Пресс, 2005, 536 с.

İngilis dilində

12. Mark, McCrindle. Word up: A lexicon and Guide to Communication in the 21th century. Halstead Press, 2007, 208 p.

Açar sözlər: lüğət tərkibi, alınma sözlər, resipiyent, sözalma, ekvivalent

Ключевые слова: словарный состав, заимствованные слова, реципиент, заимствование, эквивалент

Key words: vocabulary content, loan words, recipient, borrowings, , equivalent

Резюме

В обогащении лексического состава языка значительную роль играют заимствованые слова. В наше время растущее использование заимствованных слов в медиаязыке, в том числе на телевидении, в радиопрограммах и т. д. актуализирует изучение этой области.

В статье рассматривается роль заимствованных слов в обогащении словарного состава азербайджанского языка, внутренние и внешние причины заимствования. В исследовании интерпретируются взгляды различных ученых-лингвистов на "заимствование" и "заимствованные слова", анализируются существующие в лингвистике понятия и теоретические представления о теоретических аспектах этих понятий.

Summary

Borrowed words play an important role in enriching the lexical composition of the language. In modern times, the increasing use of loan words in media language, including television and radio programs, etc. actualizes the research of this field.

The article discusses the role of borrowed words in enriching the vocabulary of the Azerbaijani language, internal and external reasons for borrowing. In the study, the opinions of various linguists about "borrowing" and "loan words" are interpreted, and the concepts and theoretical ideas existing in linguistics about the theoretical aspects of these concepts are analyzed.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Fərəh Niftəliyeva

Rəfiq Cəfər oğlu Cəfərov [18], Aytən Fikrət qızı Hacıyeva [19]

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ MODALLIQ KATEQORİYASININ LEKSİK-SEMANTİK, STRUKTUR XÜSUSİYYƏTLƏRİ

Giriş. Dildə ən mürəkkəb kateqoriyalardan biri olan modallığa müxtəlif yanaşmalar mövcuddur. Onlardan modallığın söyləmin məzmununun gerçəkliyə olan münasibətinin müxtəlif növlərini, eləcə də söylənən fikrin subyektiv kvalifikasiyasının müxtəlif növlərini bildirməsi nöqteyi-nəzəri geniş yayılmışdır. Z.Budaqova "Müasir Azərbaycan ədəbi dilində sadə cümlə" adlı kitabında yazır: "Modal obyekt"lərin ümumi semantik əlamətini "danışanın nöqteyi-nəzəri" hesab edənlər daha çoxdur. Bu baxımdan modallığın müxtəlif (qrammatik, leksik, prosodik) ifadə vasitələrinə malik olan altı tipi göstəıilir: 1) danışanın öz söylədiyi fikrin məzmununu reallıq, qeyri-reallıq (hipotetiklik və s.) baxımından qiymətləndirməsi (feilin müxtəlif şəkilləri və zamanları, eləcə də bəzi bağlayıcılar, artikllər və cümlə strukturunun başqa elementləri ilə ifadə olunur); 2) söyləmdə bildirilən situasiyanın onun mümkünlüyü, zəruriliyi və ya lazımlılığı baxımından qiymətləndirilməsi (modal feillər və başqa modal sözlərlə ifadə edilir); 3) danışanın öz söylədiyi fikrin həqiqiliyinə əminlik dərəcəsini qiymətləndirməsi (modal zərflərlə, ara sözləri ilə, eləcə də baş cümləsi budaq cümlədəki fikrin modal şəkildə qiymətləndirilməsini ehtiva edən tabeli mürəkkəb cümlələrlə ifadə edilir); 4) danışanın məqsədi və ya söyləmin kommunikativ funksiyası (Bıı əlamətə görə bütiin ciimlələr nəqli, sual cümlələrinə, təhrik, təşviq, arzu ifadə edən cümlələrə bölünür). Bu mənalar morfoloji [feilin şəkilləri], sintaktik [cümlə konstruksiyası], prosodik [intonasiya] vasitələrlə ifadə edilir); 5) cümlədə haqqında danışılan əşya, əlamət və hadisələr arasında obyektiv əlaqələrin olmasını - olmamasını əks etdirən təsdiq - inkar mənaları (oppozisiyanın birinci üzvü [təsdiq] nişanlanmır, ikinci üzvü qrammatik, sözdüzəldici, leksik və s. vasitələrlə nişanlanır); 6) söyləmin, məzmununun keyfiyyətcə və emosional şəkildə qiymətləndirilməsi (Bu, leksik və prosodik vasitələrlə nida cümlələri ilə, eləcə də nidaların köməyilə ifadə edilir" (1, s. 112). Bundan başqa, bıı məna ya əsas hissəsində qiymətləndirici modus (modal hissə) olan tabeli miirəkkəb cümlə, ya da tərkibində ara sözü olan konstruksiyalar və ifadələrlə təqdim olunur.

Modallıq kateqoriyası feillərə tətbiq edilir; onun qrammemləri mübtəda və feilin bildirdiyi "F" faktı arasında modal semantik münasibətlər ifadə edirlər. Ə.Cavadov "Modallığa dair bəzi qeyidlər" adlı tədqiqatında qeyd edir: "Semantik baxımdan üç əsas modallığın mövcud olması daha inandırıcıdır - '**istəmək', 'bilmək, bacarmaq'** və '**borclu olmaq'** (onların hər üçünün əsasında '**istəmək**' anlayışı daha aktualdır), ona görə də modallıq kateqoriyası üçdən artıq qrammemdən ibarət olunur:

'deziderativ': subyekt F"-də iştirak etmək istəyir;

'potensialis': subyekt F"-də iştirak edə bilər;

'debitativ': subyekt F"-də iştirak etməlidir, iştirak etməyə borclu- dır (bəzən bu məqsədlə *nesessitiv* terminin də işlədilir) (2, s. 156).

Hind-Avropa dillərində, bir sıra Avstroneziya dillərində müvafiq ınanclar ayrıca leksemlərlə - bir sıra qrammatik xüsusiyyətlərə malik olan modal feilləıiə ifadə olunur. Hind-Avropa dillərində başqa feillərdən fərqli olaraq, onlar infinitivi bilavasitə - sözönüsüz və xüsusi artiklsız ifadə edirlər (ingilis dilində onların infinitivi və analitik zaman formaları yoxdır). Lakin bəzi dillərdə deziderativ, potensialis və debitativ morfoloji yolla ifadə edilə bilər. Məsələn, macar dilində **potensialis** hər üç zamanda və üç feil formasında (indikativ, imperativ və kondisionalis) mümkündür. O, ingilis dilindəki **may** və ya alman dilindəki **dürfen** feilinin ifadə etdiyi eyni potensiallıq mənasına malikdir: 'icazə verdiyinə görə... bilmək, olmaq', 'haqqı olmaq', 'cürət etmək'.

O.Musayev "İngilis dilinin qramatikası" adlı kitabında yazır: "Modal sözlər qrupu ingilis dilindən və eləcədə ümumi dilcilikdə yeni məsələ olub, son dövrlərdə qeyd olunmağa başlamışdır. Əlbəttə, müşahidələr göstərir ki, hələ qədim zamanlardan bəri çox mütəxəssislər dildə mövcud nitq hissələrinin əlmətlərinə uyğun gəlməyən, nitq hisssələri təlimdən kənara çıxan söz qrupunun olduğuna işarə etmişlər. Lakin bu qrup sözlərin mahiyyəti, spesifik xüsusiyyətləri haqqındakı yazılar son dövrün məhsuludur. Müasir ingilis dilində modallığı nitqin məzmunun gerçəkliyə münasibətini və danışanın realliq, mümkünlük, zərurilik, ehtimallıq və s. cəhətdən faktlara və ya hadisələrə münasibətini əks etdirən qrammatik mənaların məcmuu təşkil edir (3, s. 32-45).

Ümumi dilçilik ədəbiyyatında belə bir fikir də formalaşmışdır ki, hər bir cümlədə modallıq öz əksini mütləq tapir. Başqa sözlə, hər bir cümlədə məzmunun bu və ya digər cəhətdən gerçəkliyə münasibəti əks olunur. Modallığın ifadə vasitələri isə hər bir konkret dildə, eləcə də müasir ingilis dilində müxtəlif şəkildə təzahur edir. Cümlə xarici aləmin hadisələri haqqında müəyyən məlumatı verməklə bərabər, danışan bu məlumata münasibətini də bildirir. Müasir ingilis dilində predikativlik, xəbərlik, cümlə və modallıq haqqında bəzən bir-birinə zidd fikirlər irəli sürülür. Əksər dilcilər belə bir fikri müdafiə edirlər ki, modallıq hər bir cümlənin mühüm əlaməti olub predikativlə üzvü surətdə bağlıdır. Bu fikri müdafiə edən dilcilər predikativliyi cumlənin mahiyyətini təyin edən, müəyyənləşdirən qrammatik kateqoriyaların topluluğu hesab edilir. Zaman və şəxs kateqoriyaların da onun tərkib hissəsi hesab edirlər. Onların fikrincə, bu kateqoriyalar birlikdə ali və xüsusi bir kateqoriya predikativlik kateqoriyasını yaradır.

[18] AzTU "Humanitar fənnlər" kafedrası, filologiya üzrə fəlsəfə doktoru, dosent

[19] AzTU "Xarici dillər" kafedrasının baş müəllimi

Z.Əlizadə isə predikativlik modallığın üzvü əlaqələr olmadığını irəli sürürlər. Xəbərlik kateqoriyası doğrudan da cümlə üzvü olmaq etibarı ilə xəbərlə bağlıdır,ancaq xəbəri olan cumlələrə xasdir. Predikativlik isə hec bir cümlə üzvü, eləcə də xəbərlə bağlı olmayan bitmiş bir fikri real varlığa aid etmək qabiliyyətdir. Xəbərlik və predikativlik kateqoriyaları arasındakı münasibət təqribən mübtəda ilə məntiqi subyekt, xəbər obyekti arasındakı münasibət kimidir. Bunlar ancaq belə halda uyğun gələ bilər, ilkin halda uyğun gələ bilər, lakin eyni hadisə olmamalıdır. Predikativlik xəbərlik kateqoriyasından fərqli olaraq,məntiqi-qrammatik kateqoriyadır (4, s. 82).

Müasir indilis dilində modallıq müxtəlif vasitələrlə, intonasiya, feilin şəkilləri, söz sirası, modal sözlər və s. ilə ifadə oluna bilər.

Müasir dilcilikdə, eləcə də indilis dilində modallıq kateqoriyası və onun müxtəlif vasitələrlə ifadə olunmasına coxlu tədqiqat işləri həsr olunmuşdur.

Müasir indilis dilində modal sözlər, əsasən, müstəqil mənalı sözlərdən əmələ gəlmişdir. Bu qəbildən olan sözlərin bir hissəsi öz ilkin mənbəyindən tamamilə əlaqəsinin kəsmis, ancaq modal sözlər kimi sabitləşmişdir. Belə modal sözləri miqdar etibarı ilə cox da deyildir. Modal sözlərin bir qrupu isə, dildə ikili xarakterdə olur. Başqa sözlə desək, təcrid olunduğu leksik-qrammatik sözlərlə bir növ qrammatik omonimlik yaradır. Modal sözlər əsas nitq hissələrindən mənanın zəifləməsi nəticəsində təsrid olunur.Mənanın zəifləməsi ilə əlaqədar həmin sözlərin sintatik vəzifəsi də dəyişmiş olur.

Beləliklə, müstəqil leksik mənalı sözlərdən yeni bir kateqoriya modal sözlər təcrid olunur. Bu qəbildən olan sözlər hec bir mənaya malik olmur. Onlar cümlənin müstəqil üzvü ola bilmədiyi kimi eyni zamanda söz birləşməsini də əsasını sa təşkil edə bilmir. Bu bir onu sübüt edir ki, modal sözlər bu yeni söz qrupuna daxil olarkən məna ilə birlikdə əvvəlki sintatik vəzifələrini də itirir. Modal sözlərin bir qrupu isə, cümlə üzvlərinin bir növ ixtirası nəticəsində meydana çıxırş. Bu əsasən cümlələrə aid olub,dialoqlarda tez-tez müşahidə olunur.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, muasir ingilis dilində lügəti mənasını itirərək müxtəlif münasibətlərin ifaçisi kimi çıxış edən hər hansı bir söz modal söz ola bilməz. Çunku bu tip sözlər həm də hökmən ehtimallıq, zərurilik, mümükunlüklə əlaqədar xüsusiyyətləri əks etdirmək qabiliyyətinə (modallıq) də malik olmalıdır. Əks halda, bunları modal sözlər adlandırmaq olmaz. Y.A.Blok yazır: "Real gerçəkliyə hec bir modal münasibət (ehtimallıq, zərurilik və gercəklik münasibəti) əks etdirməyə, subyektiv emosiyaları bildirən sözlərin modal söz kimi yayilması faktı hec də modallığın təkcə subyektiv cəhətini qəbul etmək deyildir. İnsanın subyektiv emosiyalarını, ruhi vəziyyətini, ifadə, meyl və s. hisslərini modallıq kateqoriyası anlayışı ilə bərabərləşdirmək nəticədə qrammatikada psixoloji cərəyanı müdafiə etməyə aparib cixarır" (5, s. 75).

Modalliq kateqoriyası heş də insanı hisslərin subyektiv emosianal çalarlıqlarının inikasını deyil, nitqin məzmununun reallıq, mümkünlük, ehtimallıq, zərurilik və s. cəhətdən gerçəkliyə münasibətini bildirməyə xidmət edir. Məsələn; 1) "May be they want him up at the head table", Dave said (D.Carter, Fatherless Sons). 2) Happily for Henre Wharton the searchinq eyes of his captors were examininq throuqh a pocket glass the colimn of infantry that still held its position on the bank of the stream will the remnants of the Hessian lagers were seekinq its friendly protection (J.F.Copper The Spy).

R.A.Close qeyd edir ki, "Müasir ingilis dilindəki modal sözlərin cümlədə oynadığa sintatik vəzifəsinə dilçilər müxtəlif cəhətdən yanaşmışlar. Əvəllər ara sözlər kimi səciyyələndirilən bu söz qrupunu əksər tədqiatşılar cümlədən kənarda hesab etmiş, onların kənar edilməsi ilə heş bir məzmun dəyişikliyi yaranmadığını ddia etmişlər. Modal sözlərin cümlədə oynadığı sintatik rola belə bir münasibət bizcə tamamilə səhvdir. Məlum olduğu kimi, modal sözlər cümlədə ifadə etmək ücün leksik bir vahiddir. Onları heç bir vaxt cümlənin umumi məzmununa əsaslı təsir etmədən kənarlaşdırmaq qeyri mümkündür" (6, s. 14).

Modal sözləri cümlədən kənar etdikdə ən azı real gerçəkliyə modallıq münasibəti aradan qalxir,cümlənin məzmunu dəyişmiş olur. Fikrimiz aşagıdakı cümllər də sübut edur. Məsələn; 1) May be one of these days up there in Ottawa when the CCF workers and farmers have elected a lot more members to keep me company on Pariament Hill may be sometimes I "II be able to make a biq statement too. (D.Carter Fatherless Sons). 2) A twelve month had however passed without his seeinq them and the impatient Henry had adopted the disguise we have mentioned and unfortunately arrived on the very that an unknown and rather suspicious guest was an unmate of the house which seldom continued any other than its regular unhabitants. Yuxarıdakı cümlələrin birincisinin tərkibində "**maybe**" və uçüncüsünün tərkibində "perhars" modal sözlərini çıxartmış olsaq cümlənin məzmunundan "gümanliq" və "şübhəlik" aradan çıxmış olacaqdır. İkinci cümlənin tərkibi "of course" modal sözündən təcrid edilmiş olsa cümlə sadəcə olaraq müəyyən bir höküm icra etməklə məhdudlaşır hec bir "əminlik" məzmunu meydana cöxmaz.Nəhayət sonuncu cümldəki "unfortunately" modal sözü işlədilməzsə burada "gercəkik" münasibəti aradan qalxmış olacaqdır (7, s. 138).

Nəticə. Müasir ingilis dilində modal sözlər heç bir cümlə üzvü ilə sıx surətdə bağlana bilmir. Onlar cümlədə, əsasən, ara söz, bəzən də söz-cümlə vəzifəsində çıxış edir. Hər iki halda onları bu və ya digər cümlə üzvü ilə bağlamaq mümkün deyil. Belə ki, modal sözün yaratdığı məna təkcə bir üzvü ilə məhdudlaşib qalmır. Modal söz cümlədəki yerindən asılı olmayaraq bütün fikri, cümlədə ifadə olunan hökmə münasibətin meyarı oldüğundan onun əks etdirdiyi modallıq nəticə etibarı ilə bütün cümləyə yayılmış olacaqdır. Əlbəttə, modal sözün bu və ya dögər sözün yanında işlənib, onun mənasına daha çox təsir etməsi fikrini inkar etməkdən də çox uzaöıq. Belə ki, modal söz həmin cümlə üzvünün tərkibinə daxil olmur, bəlkə də, A.A.Şaxmatovun termini ilə demiş olsaq "müşayiətediçi" üzv kimi cıxış edir.

İstifadə edilmiş ədəbiyyat

1. Budaqova Z. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Bakı, 1963, s, 112
2. Cavadov M. Modallığa dair bəzi qeyidlər. Azərb. xəbərləri № 2, s.156

3. Musayev O. İngilis dilinin qramatikası. Bakı, 1978, s. 32-45
4. Əlizadə Z. Müasir Azərbaycan dilində modal sözlər. Bakı: Maarif, 1965, s. 82
5. Blokh Y.A. Course in theoretica English Grammar. 1983
6. Closr R.A. Reference Grammae for students of English. 1979
7. Yespersen O. Essentials of English Grammar Lendww. 1987
Ключевыеслова: модальныеслова, современный, глаголы, актуал, предложения
Key words: words modals, modern, verb, sentence
Açar sözlər: modal sözlər, müasir, feil, aktual, cümlə

Lexical-semantıc structure characteristics of the modality category in languages with different systems

Summary

This article is about the modal words and their characteristics. As well as opinions of researshes about the modal words have been discussed in this article. This article reflects the usage forms of modal verds in the sentence as well. Usage means of modal verbs in every sperific language as well as as their different manifestations in the modern Engilish has been indicated combinations expressions reflectinq the modaality have been simply specified as modal words or complex modal words in Azerbaijan laanguage which is different from modern Engilish.

The article deals with the qrammatical cathegory of time in English nd its comparative charactkeristice of cathegory of time in Azerbaijani.

Особенности лексико-семантической структуры категории модальности в языках разной системы

Резюме

Это статья о модальных словах и их характеристиках,А также мнение исследователеи по поводу модальных словах овсуждаетя в этой статье,Эта статья также затрагивает использование форм модальных глаголов в предложение.Использование модальных глаголов в каждом конкретнь языке а также их различные проявление были указаны и сщиременном английском языке. Данная статья посвящена синтагматическому анализу глагола выражающих «желание» в современном английском языке. Автор приводит примеры различных лингвистов, которые детально изучили синтагматические отношения глаголов выражающих «желание» и приводит примеры избранных предложений из английской литературы.

Məqaləni nəşrə filologiya üzrə fəlsəfə doktoru, dosent A.Zeynalova tövsiyə etmişdir.

Aynur Famil qızı Paşayeva [20]

XV ƏSR AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ FRAZEOLOGİZMLƏRİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Giriş. XV əsr Azərbaycan ədəbi dilində frazeologiyanın leksik-semantik, həm də qrammatik istiqamətdə səciyyəvi xüsusiyyətlərini təhlil edərkən həmin dövr yazılı abidələrin dilindəki fərdi dil üslubundan irəli gələn bir sıra əlamətlərlə rastlaşırıq. Məsələ burasındadır ki, həmin yazılı abidələrin dilində "*frazeoloji vahidlər sisteminə ümumxalq dilinin lüğət tərkibi və qrammatik quruluşu məhvərində nitq və təfəkkür vərdişləri, sınaqları nəticəsində formalaşan ən normal; nümunəvi təbəqə kimi*" [3, s. 99-100] baxılmış, ədiblərin frazemlərdən istifadə məqsədi məhz bu qənaət üzərində müəyyənləşmiş, onlardan istifadə imkanları genişləndirmişdir. Fikrimizi daha dəqiq aydınlaşdırmaq üçün XV əsr Azərbaycan ədəbi dilində frazeoloji vahidlərin eyni məqsədə xidmət edən cəhətləri üzərində təhlillər aparaq:

1. Yazılı abidələrin dilində fraqmental olaraq "hazır formada" ədəbi dilə gətirilən frazemlərin şəkil və məzmun sabitliyi qorunaraq, yazılı ədəbi dili canlı xalq danışıq dilinin maddi-mənəvi kaloritinə uyğunlaşdırmaq cəhdi kimi səciyyə daşıyır. Məsələn; Kimin yolunda *belüm bağlasam* bərk [XF, s. 179], Ələündən *canə gəldüm*, dad ələündən! [XF, s. 183], *Tükənməz dərd* imiş bildüm dəvayi-eşq için bana [SİG, s. 332], Təriqi-eşqə girənlər *keçüb başdan, qədəm qoy* der, Nədir *başdan keçən* desün səlayi-eşq içün bana [SİG, s. 332], *Alalı könlümü* verməz bir pəripeykər, nedim? Çün könül nisbət dilər kim, *canimi* daxi *ala* [SİG, s. 328], Nə qəm gər atəşi-dildin *qara bağrım kəbab olsa* [KTD, s. 40], *Qaşın çatub* məndən ötər qılmaz mana pərvanədir [ƏH, s. 303], *Yandı bağrım* xanü vəslindən bu könlüm qisməti [ƏH, s. 328], *Açdı nabati-ləb* dedi kim, *datlu canındır* sənin [ƏH, s. 348], *Başımın üstündə qurban olduğum* [ƏH, s. 337], Göz altında nədən *məskən tutubdur*? [ŞGR, s. 190], Ki, *təmyiz eyləyə qaradan ağı* [ŞGR, 230], *Qapudan taşra uzatma ayağun* [ŞGR, s. 183] və s.

Tədqiqat zamanı bəzən misralarda iki-üç idiomun bir yerdə yanaşı işləndiyini, misranın tamamilə idiomlardan təşkil olunduğunu görürük. Bu da onunla bağlıdır ki, XV əsr Azərbaycan ədəbi dilində bədii-fəlsəfi fikrin formalaşmasında əsas rol oynayan idiomlar sanki şairlərin dilinin zənginliyindən irəli gələrək hər hansı bir məfhumun, bütöv bir fikrin ifadə edilməsində canlı xalq dilinin hikmətdolu söz ehtiyatının "*səfərbər kütləsi*" [3, s. 100] təsirini bağışlayır. Yazılı abidələrin dilində müstəqim məzmunlu söz və söz birləşmələri ilə yanaşı, bu vahidlərin də analitik fəaliyyətinin aktivliyi də müşaƏHə edilir. Məsələn; *Şəm tək yanmış könlün odlar ağzından düşər* [ƏH, s. 317], *Öz sözümdən dönməzəm* tanrı bilür gər *getsə baş* [ƏH, s. 319], *Könül yüzünü can gözüylə gözlə* [ŞGR, s. 169], *Qapudan taşra uzatma ayağun* [ŞGR, s. 183], *Yürəgin qəm odilə dağlamışsın* [ŞGR, s. 183], Söz açalimü sözə başlayalum [ŞGR, s. 265], *Başdan ayağə yandım, qalmadı cayi-dağın* [DÖR, s. 379], *Açdı bizim könlümüzün pasını* [DÖR, s. 270], Kim *səni döndərdi məndin, Tanrıdan dönmüş* rəqib [KTD, s. 68b], *Alıb könlimni qanım tökdi* lələn [ƏH, s. 312], *Düşmə zəmznə fikrinin dərdi-səri xəyalinə* [CH, s. 87], *Dögərəm daş ilə köksümcə könlünü itürüb* [K, s. 131] və s.

2. Bəzən frazemlərin xalq dilindən gələn sabitliyi pozulur, ədiblər tərəfindən onlar bədii təfəkkür məhsulu kimi yenidən yaradılır, təzələnərək təravətləndirilir. Belə ki, yazılı abidələrin dilində frazemlərin donuq, cansız, qəlbləşmiş sxem kimi istifadəsi yanlış hesab edilir və ədəbi-bədii yazı dilində onların tərkib hissələrini hərəkətsiz saxlamağı xalq dilinin enerjisindən sui-istfadə kimi nəzərə alınır. Frazemlərin müstəqim mənalı söz və ifadələrlə həm məntiqi, həm də qrammatik cəhətdən üzvi surətdə əlaqələndirmək lazımdır və bu səbəbdən də abidələrin dilində onların tərkib hissələrinin bir-birindən uzaqlaşaraq yerdəyişməsinə, tez-tez söz əlavəsinə, hətta, şəxsə, mənsubiyyətə görə dəyişmələrinə təsadüf olunur. XV əsr ədəbi dilində leksik-semantik və qrammatik xarakterinə görə belə idiomların əksəriyyəti müasir dilimizdə uyuşma və birləşmə idiomları kimi göstərilir. Məsələn; *Canım yanıb döndi tağə, tən kül olub sovrulmağə*, *Dönə yerim vardan yoğə*, bilsəm nədəndir, bilməzəm!? [SİG, s. 736], *Eşq özüni tutdurur, darə çəküb asdırır, Əlü ayax kəsdürür*, anə degüz neylədüm [SİG, s. 767], *Ağzıma iman qoyub* bir novcəvanımdır həvəs [KTD, s. 74a], *Ölümün*, der, *əlimdə olacaxdır* [ƏH, s. 310], *Çıxan başına sövdadan ələ girməz* xəyal eylər [SİG, s. 384], *Kəlamın sirrinə gir*, kamil olgil [ŞGR, s. 229], Könül qulağını qursan bu səsdə [ŞGR, s. 233] və s.

Göstərdiyimiz nümunələrdəki frazemlər dilin inkişaf dövrünün XV əsrə qədərki leksik-semantik və qrammatik xarakterini təsəvvürdə canlandırır, həm də dil vaƏHi kimi sərbəstliyini tamamilə itirmədiyini göstərir. Belə ki, "*dönə yerim vardan yoğə"* ifadəsi "vardan yox olmaq"; "*canım yanıb döndi tağə"* ifadəsi "canına od qoymaq", "ürəyinə dağ çəkmək"; *"tən kül olub sovrulmağə"* ifadəsi "yanıb kül olmaq", "*ağzıma iman qoyub"* ifadəsi "dinə-imana gəlmək"*; "yüzümə göz qanidən güllər düşüb"* ifadəsi "yanağından qan dammaq", "üzündə güllər açmaq"; *"ölümün əlimdə olacaxdır"* ifadəsi "əlimdən xata çıxacaq", "əli qana batmaq" kimi idiom modelləri əsasında formalaşdığını, törədiyini görürük.

Yeri gəlmişkən qeyd edək ki, XV əsr ədəbi dilində işlədilən bir çox metoforik ifadələr (ibarələr) həm bədii-estetik qidasını, həm də leksik-semantikasını frazeologiyadan almış və bu ifadələrin köməyi ilə misralar arasında nisbətən məntiqi assosiasiya yaranmışdır. Məsələn; *Düşürüb dağlarə* eşqün aşinalərdən bəni, *Dəlü kimi* xəlq ilən *biganə qıldı* aqibət [SİG, s. 352]. Beytdə "eşqin məni... dağlara düşürmüş" poetik ifadəsi obrazlı predikativ ifadəsindən daha çox oxucunu "xalq arasında dəli"yə bənzədilən aşiqin aqibəti düşündürür. Çünki oxucu təşbeh, istiarə olan yerdə dərhal oxşar əlamətlər axtarır. Yaxud, *Dolub* şövqü-rüxündən *günəş*, ey *yüzi çırağ, Yazıya düşdi yenə baş açuban yalın ayaq* [ƏH, s. 321] beytində oxucu "ay

[20] AMEA Nəsimi adına Dilçilik İnstitutu, Azərbaycan dili tarixi şöbəsinin aparıcı elmi işçisi, dosent, aynurfamilgizi@gmail.com

üzlünün" həvəsindən günəş kimi "dol"duğu mənzərəni görsə də, ancaq ona yenə ikinci misradakı "ayaqyalın, başıaçıq çöllərə düşən" aşiqin vəziyyəti təsir edir. Hər iki nümunənin birinci beytindəki məntiqi bütövlüyünün davamı növbəti misralarda xalq dilindən qaynaqlanan bu ifadlərlə öz həqiqi ifadəsini tapır. Bizcə, belə bir poetik obrazın yaradılması xalq dilindəki "dəli-divanə olmaq", "çöllərə düşmək", "ayaqyalın, başıaçıq qaçmaq", "dəli kimi dağlara çıxmaq", "dağlara səs salmaq" və s. silsilə frazemlərin poetik impovizasiyası nəticəsində əmələ gəlmişdir.

3. Frazeoloji vahidlər, xüsusən də idiomlar XV əsr ədəbi dili üçün bədiiliklə verilən obrazlılıq mənbəyi, emosionallıq və ekspesivlik ölçüsü (etalon) olmaqla yanaşı, həm də dildə sabitləşmiş düzgün norma göstəricisidir, nümunəsidir. Bu məsələlər üzərində fikrimizi ümumi və qısa formada izah edək.

a) Bütün dövrlərdə olduğu kimi, XV əsr ədəbi dilinin ağırlığını çiyinlərində daşıyan ədiblər öz fərdi üslublarını, şeir dillərini ruhən, həm də poetik ifadə tərzinə görə xalq dilinin daşlaşmış, köhnəlməyən incilərlə - frazemlərlə zənginləşdirərək, bənzətmənin təsirinin daha da güclənməsinə nail olmuşlar. Belə ki, abidələrin dilində bəzi saylar (az, çox, bir, yüz, min, yüküş//öküş), ədatlar, modal sözlər, əvəzliklər (əsasən qeyri-müəyyənlik və topluluq bildirən), ümumi şəxsli cümlələrlə zənginlik müşahidə edilir. Məsələn, bəzi say sözlərinin üslubi funksiyasına görə "xalq mübaliğəsi"nin elementinə çevrilməsi: *Bir nəfəsdə yüz bəlasin çəkmədən* eşqün, nedim? Çün usanmaz könlüm ondan *çəkübən yüz bin bəla* [SİG, 328], Həmişə düşmənin *ömrü kəm olsun*, *Yüz göz görməsün* hərgiz cəhandə [XF, 244], *Dutulma yügüş*, ğöncə sifət gül kimi açıl [ƏH, 327], Bu yana, o yana *ögüş əkildik* [ŞGR, 262], Kişvəri tək olsa yüz aşiq, nə dərdi bar anın, Şəm üçün *can versə min pərvanə* ni pərvası var [KTD, 23] və s. nümunələrdən göründüyü kimi yazılı abidələrin dilində *az, çox, köp, bir, yüz, min* abidələrin dilində dəfələrlə işlənsə də, çox az hallarda konkret miqdar bildirir. Əsasən, məzmunca qeyri-müəyyən çoxluq və azlığı ifadə edərək beytlərin əksəriyyətində predikativ formalı frazemlər kimi dərkinə gətirib çıxarır.

XV əsr ədəbi-bədii dilimizdə nidaların köməyi ilə müxtəlif məqamlarda hiss-həyəcanı, emosiyanı əks etdirən frazeoloji vahidlərə də geniş təsadüf olunur. Dilçilik ədəbiyyatında "frazeoloji nidalar" [2, s. 17] adı altında arşdırmaya cəlb edilən bu ifadələr dövrün ədəbi dilinə nüfuz edir və xəlqiliyin aparıcılığına təkan verən ifadələrə çevrilirdi. "*Belə ifadələrdə dəyişməyən əlamət ondan ibarətdir ki, bunlar əsrlərin dərinliklərindən gələrək, qrammatik – struktur dəyişməzliyini bu günə qədər mühafizə edə bilmişdir. Yüzilliklər arxasından gələn bu ifadələrin qrammatik quruluşu, yəni onların əsasən felin arzu, əmr formasında, nida cümlələri şəklində sabitləşməsi sübut edir ki, bunlar əsrlərlə xalqın şifahi dilində bu formada işlənmiş, belə yaranmış, belə sabitləşmiş və bu gün artıq şablonlaşmış, standart qəliblərə çevrilmişdir*" [6, s.122]. Canlı xalq dilinin ruhunu özündə ehtiva edən, daşlaşmış bu frazeoloji nidalar, əsasən, bütün dövrlərdə sabitliyini qoruyur, alqış və qarğış semantikasından çıxış edərək XV əsr mənbələrinin dilinə də poetik müdaxilə edir. Məsələn;

Alqışlar: Murad bu *sənin ola birin-bin* [DÖR, s. 200], Gər *Tanrı qoysa*, ölməz isəm, görsədim sana [ƏH, s. 276], Xansı yaydan güc görər , ya Rəb ki, *mən qurban ana* [ƏH, s. 277], Öldür məni-sərgəştəyi, ey *mən sana qurban* [ƏH, s. 356], Həqqi bilən xanda varsa, *Həqdən ayrı olmaya* [ƏH, s. 363], *Səndən irağ* sorma nələr gəldi başıma [ƏH, s. 366], Rəhmətdən irağ istər....Yüz şükür, könül şol kərəmü lütfi-kərimə [ƏH, s. 379], Gözlərün dövrində, yarəb kim, *zəvali bulmasın* [K, s. 5], *İrax yüzündən*, ey ayinərüxsar [K, s. 31] və s.

Qarğışlar: Dağlənüb canun kimi bağrın kəbab olsun, rəqib [g, s. 350] *Düşsün görüm o hala* yaman istəyən sana [ƏH, s. 280], *Çox başımızı ağrıtma* bizə baş gərəkdir [ƏH, s. 291], *Ey məkr iyəsi*, kimsə sənin duymaz alını [ƏH, s. 385], Əgər can verməsəm, cana, *mana can bolmasın yarəb* [K, s. 7], *Gözüm çıqsın* əgər təqsir qılsam [K, s. 52], Çü bu təklifdən *aciz qalasın*, Anadəkin ki, *ölməgə gələsin* [ŞGR, 260], *Vücudin külli kül olsun, çürisin* [ŞGR, s. 262], Yarəb ki, *uçursun tanrı anı minarədən* [K, s. 70], *Ağzı sınsın*, yarəb, anı kim demiş [XYZ, s. 56], Həmişə düşmənin ömrü kəm olsun [XF, s. 244], *Yazıqlar sanə*, ey biçarə aşiq [XF, s. 211], və s. Göründüyü kimi, emosionallıq yaradan poetik qəliblər, andlar, xoşniyyətli arzular, alqışlar, qarğışlar formaca bəzi fərqlilikləri ilə diqqəti cəlb etsələr də, məzmun etibarilə sabitliyini qorumuşlar.

Bədii üslübun poetik gücünü artıran və ədəbi dilin tarixi inKaf dövründə fəallıq göstərən atalar sözü, zərb-məsəllər, hikmətli sözlər xalq dilindən süzülərək ədəbi dilin frazeoloji qatını daha da zənginləşdirmişdir. "*Frazeologiya təkcə idiomlarla məhdudlaşmayıb, həm də atalar sözü və zərb-məsəlləri də öz sistemində birləşdirə bilir. Atalar sözü və zərb-məsəllər frazeologiyanın sistemində xüsusi bir lay təşkil edib bitmiş fikri ifadə edən cümlə şəkilli ifadələrdir*" [4, s.79].

XV əsr ədəbi dilini səciyyələndirən əsas cəhətlərdən biri də ümumxalq danışıq dilində formalaşmış əxlaqi-didaktik motivlərin şərhinə üstünlük verilməsi, atalar sözləri, zərb-məsəllər, hikmətli-nəsihətamiz aforizmlərdəndən geniş istifadə edilməsidir. Bu meyl "*dövrün ədəbi dilinə məzmun əlvanlığı verir, mənsub olduğu xalqın müdrikliyini, onun ümumiləşdirmə qabiliyyətinin zənginliyini nümayiş etdirir*" [7, s. 143]. Bəzən üslubi məqamlardan asılı olaraq şairlər bu vaƏHlərlən məharətlə istifadə edərək dillərini daha təsirli, incə və dərin mənalı etmişlər. Nəticədə, "*onların yaradıcılıqla transformasiyası bu frazeoloji vahidlərin təsir qüvvəsini daha da gücləndirir və onlara bir qədər yenilik verir*" [10, s. 70], eyni zamanda, yazılı ədəbi dildə milli leksik vahidlərin intensivliyinin artmasına, ədəbi dilin zənginləşməsinə, sabitləşməsinə müsbət təsir etmişdir. Həmin dövrdə bu vahidlərdən necə istifadə olunduğunu, onların üzərində hansı poetik əməliyyatlar aparıldığını aydın müşahidə etmək üçün nümunələrə müraciət edək: *Hər enişə bir yoxuşdur, bir yoxuşa bir eniş* [K, s. 32], Bir məsəldür kim, *irür divanəyə dağ üstə dağ* [K, s. 36], *Quru bir adü sandur* [ŞGR, s. 291], Bir eşit, bir görü bir söylə, bir bil [ŞGR, s. 292], *Nə salırsan quru yerə başını* [ŞGR, s. 297], Ki *bal deyəninin ağzı bal olmaz* [ŞGR, s. 297], Tavuğ yumurdasından toğmaz ördək, *Nə diksən, anı bitürür çəgirdəgi* [ŞGR, s. 263], *Tolaşıq yollara düşdü tolaşdı* [ŞGR, s. 302], Hər yetən başına daş ilə dögər anun içün [K, s. 71], *Başun kəsilməsün dersən, dilün kəs* [SİG, s. 551], *Əgri yolə düşübən doğru yol ilə getməz* [SİG, s. 546], *Karvan qorxulu yerdə səs çıxarmaz* söyləşüb [SİG, s. 351], Ki *yaz bir çiçəklə yazlamaz*

heç [DÖR, s.216], *Salub əgri yolu, toğru yola get* [DÖR, s. 216], *Tolu qaba su girməz* necə qoysun [DÖR, s. 213], *Yalanı boynuna daim ilandır* [DÖR, s. 212], *Nə ikən yumşaq ol kim basılasan, Nə ikən yavuz ol kim, asılasan* [DÖR, s. 169], *Aldananım hər Kinin sözünə, SİGdürənim elləri kənduzinə* [DÖR, s. 236], *Bir qapu bağlarsa, açar bir dəxi* [XYZ, s. 71], *Ğəribəm*, ey həbibim, *almə ahum,* Qalur boynundə ölürsəm günahım [XF, s. 245], *Ki görər nə olsa başda yazı* [XF, s. 225], *Yüzünə düşmənün SİGdürdügün* nə? [XF, s. 183], Məsəldir *gözə yoq zindan demişlər* [XF, 179] və s.

Nümunələrin sayını kifayət qədər artırmaq olar, bu heç də hamısı demək deyil, XV əsr yazılı abidələrinin dilində müxtəlif mövzuları əhatə edən, seçilmiş hikmətli deyimlərin müəyyən bir hissəsidir. Müasir dövr səsləşmələrlə yanaşı, fərqli cəhətlərə də az və ya çox dərəcədə təsadüf olunur. Maraq üçün bəzi faktlara müraciət edək. Məsələn, müasir dilimizdə "*bir gül ilə bahar olmaz*" atalar sözü həmin dövrdə "*yaz bir çiçəklə yazlamaz*"; "*bir əldə iki qarpız tutmaq olmaz*" və "*yerin qulağı vardır*" atalar sözləri olduğu kimi "*bir əldə iki qarpuz tutmağ olmaz*", "*yerin qulağı vardır ahəstə söylə sözün*"; "*ağrımayan başa dəsmal bağlamazlar*" atalar sözü "*ağrımaz barmağa əski sarə bilməm*"; "*özü yıxılan ağlamaz*" atalar sözü "*ağlamaz özü düşən*"; "*qurunun yanında yaş da yanar*", yaxud "*qurunun oduna yaş da yanar*" atalar sözünün "*yanar quru, yananda daxi yaş*"; "*Allah bir qapını bağlayanda digərini açar*" atalar sözünün "*bir qapu bağlarsa, açar bir dəxi*"; "*nə əkərsən, onu bişərsən*" atalar sözü "*əkdügini biç deyü*"; "*halva halva deməklə ağız şirin olmaz*" atalar sözü "*bal deyəninin ağzı bal olmaz*"; "*Elə et ki, nə şiş yansın, nə kabab*" atalar sözü "*həm kəbabi göydürür bu atəşü həm şişni*"; "*məzlumun ahını alma, ahəstə-ahəstə çıxar*" xalq deyimi "*Ğəribəm*, ey həbibim, *almə ahum, Qalur boynundə ölürsəm günahım*" və digər nümunələrdə nisbətən forma müxtəlifliyi müşahidə olunsa da, məzmun yaxınlığı və paraleliyi ilə semantik sabitliyini qorumuşdur. Beləliklə, XV əsrdə ədəbi-bədii dilimizdə canlı xalq dili xəzinəsindən olan atalar sözlərinə, nəsihətamiz ifadələrə, zərb-məsəllərə daha çox üstünlük verilir, xalqın qismən anladığı dildə yazmağa cəhd edilir, həm də əsas səbəbi ədəbi dilin ümumxalq dilinə daha çox yaxın olmasında, çulğalaşmasında axtarmaq lazımdır.

b) Ədəbi dilimizin tarixində klassik üslubda yazan şairlər öz ana dilinin norma (leksik-semantik, qrammatik) və üslub sistemindəki daxili qanunauyğunluqla möhkəmlənən cəhətlərə əsaslanaraq xəlqi istiqaməti yaradıcılıqları boyu mühafizə edir, ədəbi-bədii dilin inKafında milli mövqelərini axıra kimi həyata keçirirlər. Hər hansı bir frazeoloji ifadələrdə söz kütləsinin azlığına baxmayaraq, onların düşündürücü və məna dolğunluğunun heyrətləndirici olması, "*bir çoxunda elliptik təfəkkür ruhunun hakim olması*" [3, s. 104] ədiblərin ürəyincə olmuş, bu imkanlardan geniş istifadə etmişlər. Bunu XV əsr Azərbaycan ədəbi dilinin frazeologiyası üzərində araşdırmalar zamanı seçilən nümunələrdəki idiomlarının ruhundakı xalqın davranışı, səmimiyyəti, ruhu, məntiqi bir daha göstərir. Məsələn, Kişvərinin dilində "*Hər xanda kim, dəhanun içün püstə söz demiş, Qatlanmayıb mən ağzına daş ilə çalmışam*" [K, s. 58] beytində hər yerdə şirin söz söyləyən, xoş-əhval ruhiyyə yaradan, könülləri xoş edən bir kəsin inandırıcı təsvirindəki məzmunca məcazilik yüksək dərəcədə hiss olunmur. Lakin bu şirinliyə dözməyən digər şəxsin təsviri ikinci misradakı "*ağzına daş ilə çalmaq*" ifadəsi ilə şair yaradıcılığının bədii-məntiqi səbəbi kimi nəzərə çarpır, həm də bu beytdə, əsasən, səsini kəsmək, danışmağa qoymamaq mənasının dominantı kimi çıxış edir. Yaxud, Gülşəninin dilində "*Ey gözəllər şəhi, gəl kim, görəsim gəldi səni, Dilərəm çün son nəfəsdə yüzünü görüb, verəm canı*" [SİG, II, s. 1010] beytində aşiq üçün sevgilisinin gəlişi, onu görmək istəyi ürəkdən gələn bir gözləntidə mövcud vəziyyətdə reallıqla inandırıcı əks olunur, ikinci misradakı "*son nəfəsdə üzünü görmək*", "*can vermək*" ifadələrində gözəlin və aşiqin obrazı şair yaradıcılığında məcazlaşmaya zəmin yaradır. Beytdə yardım istəmək, imdad etmək, həsrətdə qalmaq, dərd çəkmək mənaları dominat olsa da, bədii-məntiqi nəticəni sonda tək nəzərə çarpan "can vermək" frazemi ifadə edir. Göründüyü kimi, "*frazeoloji vahidlərin semantik bütövlüyü əslində onun qrammatik sərbəstliyini də əlindən alır və bu zaman həmin vahid qrammatik daşlaşmaya məruz qalır*" [8, s. 156], semantik monolitlik, məna bütövlüyü qorunur, leksikləşmə prosesi baş verir.

c) XV əsr ədəbi dilimizin frazemlərinin semantik-üslubi özünəməxsusluğu göstərən əsas cəhətlərdən biri frazeoloji birləşmələrin konkretləşdirilməsi, yəni konkret vəziyyətə və şəraitə uyğun işlədilməsidir. Belə ki, ədəbi dildə frazeoloji vahidlərin qrammatik birləşmələr kimi tam hüquqla dərkinin başlıca səbəbi yazılı abidələrin dilində eyni sözün həqiqi və məcazi mənalarının çox vaxt paraleliyidir. Bu zaman söz konteksə həqiqi mənası ilə daxil olub məcazlaşa bilir, yaxud əksinə, idiomlar məcazilikdən həqiqiyə doğru istiqamətlənir. Bir sözün mənasına uyğun olaraq bir neçə sözün qruplaşması, mənaca neytrallaşması hadisəsi nəticəsində yaranan dil faktları (idiomlar) məcazlaşmaya xidmət etsə də, onların dildə necə və hansı məqsədlə yarandığını, bədii-tarixi, estetik funksiyasını izah edir, təfəkkürdə təkamülü izləyir, mövcud vəziyyətlə əlaqələndirir.

Göründüyü kimi, sərbəst söz birləşmələrinin sabitləşməsi mərhələsində bəzi komponentlər ilkin formadakı məna bağlılığını saxlamaqla yeni əmələ gələn frazeologizmin daxili formasında qorumuş olur, lakin daxili forma sonrakı mərhələlərdə tədricən itərək yeni məna əmələ gətirən semantik bütövə - hazır şəkildə mövcud olan sabit dil vahidinə çevrilir. R.N.Popovun fikrincə, "frazeoloji vahidlərin əmələ gəlməsi əvvəllər sərbəst olmuş söz birləşmələrinin semantik quruluşunun dəyişməsi deməkdir. Bu zaman leksemlərin əvvəlki mənaları ölür və yaranan frazeoloji vahidin yeni mənasında əriyir" [11, s. 73] Sözsüz ki, "frazeoloji vahidin komponentlərinin "semantik boşalmaları", öz mənalarından məhrum olmaları heç də onların məzmunsuz, "quru" ibarət olduğunu deməyə əsas vermir" [8, s. 124]. Yeni qazanılan semantik yük frazeoloji birləşmənin bütövlükdə daşıdığı mənayla ya tam üst-üstə düşür, ya da çox yaxın olur.

Nəticə. Bu dövrün yazılı abidələri əsas verir ki, onların dilinin semantik-üslubi şəkildə araşdırılması ancaq bədii dilin təhlil edilməsi, öyrənilməsi kimi dəyərləndirilməsin, həm də yüksək ədəbi pilləyə ucalmış ümumxalq dilinə aid hisslərin, fikirlərin əks olunmasına xidmət edən, canlı danışıq dilinin dərinliyindən ədəbi dilin zirvəsinə ucalan, canlı təbəqənin bütün imkanlarını açaraq obrazlı sistemin örnəyinə çevrilən vasitələr kimi qəbul edilsin. Dilimizin inkişaf tarixində, xüsusən XV əsr

ədəbi dilimizdə klassik üslubda frazemlərə xüsusi əhəmiyyət verilməsi həmin dövrün canlı xalq dilinin ədəbi dil çərçivəsində bədiiləşməsinə, ədəbi dilinin isə xəlqiləşməsinə güclü təkan vermişdir.

İXTİSARLAR

CH – Cahanşah Həqiqi. Şeirlər. Bakı: Şərq-Qərb, 2006, 152 s.
DÖR – Musayeva A. Dədə Ömər Rövşəni əlyazmaları üzərində araşdırmalar. I c., Bakı: Nurlan, 2003, 476 s.
ƏT – Nağısoylu M. Əhmədi Təbrizi və "Əsrarnamə" tərcüməsi [tekstoloji-filoloji araşdırma, mətnin transfoneliterasiyası]. Bakı: Nurlan, 2012.
ƏH – Paşalı Aidə. Əfsəhəddin Hidayət və "Divan"ı. Bakı: Nurlan, 2011.
K – Kişvəri. Əsərləri, Bakı: Yazıçı, 1984.
KTD - Kişvəri. Türk Divanı (Avtoqraf nüsxə). Bakı: Nurlan, 2010, 50 s.
ŞGR – Nağısoylu M. Şirazinin "Gülşəni-raz" tərcüməsi (filoloji-tektoloji araşdırma, mətnin transfoneliterasiyası). Bakı: Elm və təhsil, 2011, 377 s.
ŞİG- Musabəyli A. Şeyx İbrahim Gülşəni Bərdəi və türk divanı, II cild, Bakı: Elm və təhsil, 2012, 611 s.
XF - Musabəyli A. Türkiyədə yaranan Azərbaycan ədəbiyyatı və Xəlilinin "Firqətnamə"si, Bakı: Nurlan, 2010, 380s.
XTYZ – Xətai Təbrizi "Yusif və Züleyxa" (elmi tənqidi mətni və transfoneliterasiyası). Bakı: Nurlan, 2004, 298 s.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayeva Q.A. XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi. Bakı: Elm və Təhsil, 2019, 384s.
2. Abdullayeva X.A. XIV əsr Azərbaycan ədəbi dilində ərəb mənşəli sözlərin cəmlənməsi (Q.Bürhanəddinin dili əsasında) / Azərbaycanşünaslığın aktual problemləri (Ümummilli lider Heydər Əliyevin 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları (05-07 may, Bakı). Bakı: Mütərcim, 2015, s.18-22.
3. Əlizadə S. Füzuli dilində frazeologiyanın mövqeyi və əhəmiyyəti. Füzulinin dili, Bakı: Elm, 1997, 254 s.
4. Əlizadə Z. Azərbaycan atalar sözlərinin həyatı. Bakı: Yazıçı, 1985, 245 s.
5. Məhərrəmova R. Mirzə Ələkbər Sabirin söz dünyası, Bakı: Nurlan, 2007, 324 s.
6. Mehdiyeva S.H. Füzulinin dilində frazeoloji ifadələr. Füzulinin dili (Məqalələr). Bakı: Elm, 1997, s.122.
7. Mehdiyeva S. H. Bayatıdan dastana. Bakı: Elm, 2010, 279 s. s.143
8. Mirzəliyeva M.Türk dillərinin frazeologiyası. I cild, bakı, Nurlan, 2009, 220 s.
9. Murtuzayev S.N. M.F.Axundov komediyalarının dil və üslub xüsusiyyətləri (frazeoloji material əsasında). Bakı: Azərnəşr, 1962, 114 s.
10. Житенева Л.И. Фразеологизмы – средство газетной выразительности. «Русская речь», 1984, № 5, с.69-72
11. Попов Р.Н. О формировании целостного значения в структуре фразеологических единиц. – Тезиси докладов республиканской научной конференции на тему: «Актуальные проблемы лексикологии и фразеологии». Баку, 1976, с.71-73.

Key words: literary language, XV century, phraseologism, structural-semantic, stylistic possibility
Ключевые слова: литературный язык, XV век, фразеологизм, структурно-семантика, стилистическая возможность

Structural-semantic features of phraseologisms in the Azerbaijani literary language of the 15th century

Summary

The lexical-semantic and grammatical features of phraseology in the Azerbaijan literary language of the 15th century were analyzed and a number of features arising from the individual language style in the language of the written monuments of that period were drawn into consideration in this article.

It was characterized as a risk to coinside the written literary language to the material and moral calorit of the living folk spoken language, preserving the stability of the mood and content of the phrases that are brought to the literary language in a fragmentary form in the language of the written monuments. In the samples of the literary and artistic language of that period, the rebirth of idioms by treating them as an indicator of stability from the vernacular, as well as gaining stylistic possibilities as a product of artistic thinking have been attracted to attention.

Структурно-семантические особенности фразеологизмов Азербайджанского литературного языка XV века

Резюме

В статье проанализированы лексико-семантические и грамматические особенности фразеологии азербайджанского литературного языка XV века и учтен ряд особенностей, возникающих из индивидуального языкового стиля в языке письменных памятников этого периода.

Он характеризовался как риск приравнять письменную литературную речь к материально-нравственному калорию живой народной разговорной речи, сохранив в языке устойчивость настроения и содержания словосочетаний, привнесенных в литературный язык в фрагментарной форме. В образцах литературно-художественного языка этого периода обращается внимание на возрождение фразеологизмов путем трактовки их как показателя устойчивости от просторечия, а также обретение стилистических возможностей как продукта художественного мышления.

Rəyçi: f.e.d., prof. Sevil Mehdiyeva. Nəsimi adına Dilşilik İnstitutunun baş elmi işçisi

Ruqiyyə Karakoç Əbdul [21]

[21] Bakı Dölət Universitetinin doktorantı. Raghayeva@mail.ru

CÜTTƏRKİBLİ CÜMLƏLƏRİN DİALOJİ MƏTNİN YARANMASINDA ROLU

Dialoji nitq ünsiyyətin daha canlı formasıdır. Güman etmək olar ki, dialoq nitqinin ən qədim forması ən sadə xəbəri başqalarına çatdırmağa xidmət edən işarə səciyyəli replikadır. Bununla yanaşı, replika şəklində dialoq nitqi onun sosiallığının funksiya və strukturunu müəyyənləşdirən ən sadə formadır. Dialoq nitqinin inkişaf etmiş və mövzu baxımdan istiqamətləndirilən növü sosiallığın funksiya və strukturunun mahiyyətcə fərqləndiyi söhbətdir. Söhbət qarşısında psixoloji səciyyəli və geniş sosial idraki əhəmiyyətli vəzifələr qoyula bilər. Bütün bunlar söhbət şəklində dialoq nitqinin ictimai funksiya və quruluşunu genişləndirir və mürəkkəbləşdirir.

Sadə cümlənin strukturu onun formal tərəfidir, modelləşməsidir. Sadə cümlə mürəkkəb linqvistik hadisə kimi öyrənilir. Həmin forma və vahid, onun məzmun və mahiyyətinin böyük elmi-nəzəri əhəmiyyətə malik olduğunu göstərir.

Sadə cümlənin qrammatik və semantik strukturu ayrıca funksionallaşır. Bu dialektik prinsip mürəkkəb dil işarəsinin forma və məzmununun bir-biri ilə qarşılıqlı əlaqəsidir.

Dialoqda sadə cümlə kommunikativ vahid kimi də fəaliyyət göstərir. Azərbaycan dilinin faktik materialları əsasında dialoqun sadə cümlələrinin strukturu leksik-semantik, morfoloji və sintaktik-funksional planda öyrənilmişdir. Məsələn, türk dilinin sadə cümlələrinin göstərilən əlamətləri A.N.Baskakov tərəfindən tədqiq edilmişdir. Dialoqa məxsus cümlənin iki struktur tipi- cüttərkibli və təktərkibli cümlələrin türk dilindəki xüsusiyyətləri, modallıq və cümlə, cümlə üzvlərinin ifadə imkanları və s. araşdırılmışdır [1, s. 73].

A.N.Baskakov türk dilinin dialoq cümlələrini struktur-semantik planda, iki səviyyədə - morfoloji və sintaktik səviyyələrdə öyrənmişdir. Mürəkkəb cümlə problemi türk dillərində komponentlərin təsnifi ilə sıx şəkildə bağlıdır, müəyyənləşdirilmiş, dəqiqləşdirilmiş budaq cümlələrin ölçüləri ilə əlaqədardır. Mürəkkəb cümlə bu alimin tədqiqatında maksimal sintaktik vahid kimi araşdırılıb. Mürəkkəb cümlənin semantik-struktur aspektləri, örtülü və açıq tərəfləri, çevik və qeyri-elastik cəhətləri, cümlənin parataksisi və hipotaksis xüsusiyyətləri fərqləndirilmişdir [3, s. 125].

Dialoqda minimal və genişlənmiş strukturlu cümlələrdən istifadə olunur.

1. Minimal struktura makik cümlələr: Sona xanım. Bəs sənin qabağına çıxan olmadı? Heydər bəy. *Niyə olmadı?* Kursivlə verilmiş ikinci sual cümləsi minimal quruluşa malikdir.

2. Genişlənmiş struktura makik cümlələr: Nargilə. Bu həyatın bizim üzümüzə nə vaxt gülməyinə inanmıram [4, s. 61]

Türk dillərindən biri kimi müasir Azərbaycan dilinin dialoq nitqinə məxsus sadə cümlələr aktant və determinantlardan asılı olaraq müxtəlif struktur tiplərə bölünür. Bu tip sadə cümlə strukturunn inkişaf gedişinə nəzər salaq:

1) yarımçıq- model - Səlim, məni ora apararsan?- Hara?-Ora...o qadının yanına

2) Bütöv- model: Usta apardı.

Genişləndirilmiş- model Qarının elə bil çiçəyi çırtladı [5, s. 83]. Sən mənim ilkimsən. Sən onun yadigarısan. Səni təzə mənzildə təbrik edirik [8, s. 112].

3) Çevrilmiş model: Dəmir çəpərlərdən dar pillələrlə çaya tərəf endi [9, s. 85]

Dialoqun istənilən məqamında cümlənin müxtəlif komponentlərinin düşümü mümkündür. Belə ki, nitq fikrin ifadəsi üçün bir o qədər də vacib olmayan üzvlərin ixtisarı kimi güclü nəzəriyyəyə malikdir. Dialoqda danışanın məqsədindən asılı olaraq, funksional-struktur nöqteyi nəzərindən müxtəlif tip sual cümlələri işlədilir. Onların bir qismi sırf yeni informasiya əldə etmək, bir qismi fikri tamamlamaq, dəqiqləşdirmək məqsədi güdürsə, digər bir qismi isə sadəcə olaraq, üslubi məqamda təkrar sual xarakteri daşıyır. Yeni informasiya əldə etməyə xidmət edən sual cümlələri dialoqun əsas özəyini, təməlini təşkil edir**.** Dialoji qısaltma (kəsmə):- Qulaq as, gör nə deyirəm. Mən səndən gizlətmişəm. *Bu uzun illərdə bir neçə sirr*i [10, s. 56].

Sadə cümlənin baş üzvlərin iştirakına görə iki tipi vardır - c ü t t ə r k i b l i və t ə k t ə r k i b l i cümlələr. Cüttərkibli sadə cümlələr baş üzvlərin və ya baş üzvlə yanaşı ona aid tərkiblərin iştirak etdiyi sintaktik vahidlərdir. Təktərkibli sadə cümlələr isə baş üzvlərdən biri və ona aid olan tərkiblərin iştirak etdiyi sintaktik modeldir.

Müasir Azərbaycan dilinin dialoqlarında cüttərkibli sadə cümlənin bir neçə quruluş tipləri fərqləndirilir: müxtəsər cümlələr, geniş cümlələr, bütöv cümlə, yarımçıq cümlə.

Dialoqda müxtəsər və geniş cümlələr baş və ikinci dərəcəli üzvlərin iştirakına və bunlar arasında olan qarşılıqlı əlaqəyə görə təsnif edilirsə, bütöv və yarımçıq cümlələr quruluş tamamlığına görə növlərə bölünür. Əgər müəyyən quruluşa malik olan cümlə tipinin bütün üzvləri yerindədirsə, onda cümlə cüttərkibli hesab edilir.

Bəzi üzvləri buraxılmış, lakin bərpa oluna bilən cüttərkibli cümlə növü isə yarımçıq cümlə adlanır.

Dialoqun xəbərə görə müəyyənləşən cütttərkibli cümləsi: *Köhnə əkinçiyəm- kənd adamıyam* [12, s. 91].

Cüttərkibli cümlələr müxtəsər və geniş olur.

Dialoqun müxtəsər sadə cümlələri

Mübtəda və xəbər əsasında əmələ gələn müxtəsər cümlələrdə genişləndirici – determinant üzvlərin olmaması başlıca sintaktik əlamətdir. Bu cür cümlələrin mübtəda və xəbəri leksik yolla – müstəqil sözlə ifadə olünan mübtəda məntiqi subyektə, xəbər isə predikata uyğun gəlir. Müxtəsər cümlənin mübtəda və xəbəri Azərbaycan dilində həm adlarla, həm də fellərlə ifadə olunur.

a) mübtədası isimlə, xəbəri fellə ifadə olunan müxtəsər cümlə və yaxud Mi+Xf modifikasiyası. Məs.: Kərəməli

diksindi [11, s. 14].

b) Mübtəda və xəbəri isimlə ifadə olunan müxtəsər cümlə və yaxud Mn+Xn modifikasiyası. Məs.: Murad əsəbləşdi [11, s. 26].

c) Mübtədası əvəzliklə xəbəri fellə ifadə olunan müxtəsər cümlə və yaxud Mə+Xf modifikasiyası. Məs.: O gəldi.

ç) Mübtədası əvəzliklə, xəbəri isimlə ifadə olunan müxtəsər cümlə və yaxud Mə+Xi modifikasiyası. Məs.: Mən mühəndisəm.

Belə cümlələrdə sintaktik üsul predikativliyin əsas vasitəsi kimi çıxış edir. Bu cümlələrin xəbəri morfoloji əlamətsiz, yəni sıfır əlaməti ilə ifadə olunur.

e) Mübtədası isimlə, xəbəri sifətlə ifadə olunan müxtəsər cümlə yaxud Mi-Xs modifikasiyası. Məs.: Ulduz gözəldir.

Göründüyü kimi, -dır, -dir, -dur, -dür xəbərlik şəkilçisi təkcə Azərbaycan dilində müxtəsər cümlənin adla ifadə olunmuş xəbərində işlənir.

Müxtəsər cümlələr geniş baş üzvlərdən də ibarət olur. Baş üzvlər təyini söz birləşmələri və tərkiblərlə ifadə edilir. Azərbaycan dilində müxtəsər cümlələrin mübtəda və xəbəri söz birləşmələrindən ibarət olur. Bu cəhətə görə də qohum dillərin sintaktik quruluşu uyğunluq təşkil edir. Məs.: Xidmətçinin dizləri qatlandı.

Cüttərkibli cümlənin bu növü Azərbaycan dilində məsdər və feli sifət tərkibləri ilə də ifadə olunur. Məs.: Pəncərədən baxan bacımdır.

Beləliklə, müxtəsər cüttərkibli sadə cümlələr sintaktik quruluş baxımından oxşarlıq təşkil edir, bu tip monopredikativ vahidlərin birinci tərəfi leksik yolla ifadə olunur.

Dialoq şəraitində cüttərkibli cümlənin mübtədası xəbərin şəxs əlamətinə görə müəyyənləşən tipi də geniş yayılmışdır.

Cüttərkibli cümlələrdə baş üzvlərin iştirakı vacibdir. Lakin dilçilikdə belə bir fikir vardır ki, mübtədası I və II şəxslərin tək və cəmində olan cüttərkibli cümlələrdə mübtəda üslubla bağlı buraxıla da bilər. Bu zaman buraxılmış baş üzv cümlənin məzmununa və xəbərə əsasən müəyyənləşir. Bəzi dilçilər cüttərkibli cümlənin formal xarakterik əlamətlərini (baş üzvlərin hökmən iştirakının vacibliyini nəzərə alır) və cümlədə mübtədanın olmamasına əsaslanaraq bu cür cümlələri təktərkibli növə daxil edirlər.

Lakin dilçilikdə belə bir fikir də vardır ki, mübtədası şəxs şəkilçisi ilə müəyyənləşən cümlələr təktərkibli cümlələrə ancaq formal cəhətdən, yəni mübtədanın iştirak etməsinə görə oxşayır. Məs: Mələyin başına gələnləri indi eşitdim.

Bu cümlələrin mən şəxs əvəzliyi ilə ifadə olunmuş mübtədaları buraxıldığına baxmayaraq cüttərkibli bütöv cümlələrdir.

Çünki buraxılmış mübtəda cümlənin xəbərinə görə müəyyənləşir. Buraxılmış mübtədanı isə asanlıqla əvvəlki yerinə bərpa etmək olar. Dialoqun cüttərkibli sadə cümlələrin üzvlərinin sıralanmasında müəyyən fərqli xüsusiyyətlər nəzərə çarpır. Belə ki, dialoqun cüttərkibli cümlələrdə əvvəl, xəbər sonra gəlir; məs: Zərnigar xanım bunların heç birini görmürdü [6, s. 123].

Nümunələrdən göründüyü kimi, cüttərkibli cümlələrdə mübtəda qrupu əvvəl, xəbər qrupu isə sonra gəlir.

Cüttərkibli cümlələrdə söz sırası fərqli xüsusiyyətlərə malikdir. Dialoqun cüttərkibli geniş cümlələrdə xəbər əvvəl, mübtəda sonra, daha sonra isə xəbərə aid ikinci dərəcəli üzvlər gəlir.

Dialoqun cüttərkibli cümlələrində genişləndirici tamamlıq və zərfliyin inversiyasına daha çox təsadüf olunur. Cüttərkibli cümlələrdə bu cür sıralanma Azərbaycan danışıq dili üçün də səciyyəvidir.

Cüttərkibli cümlələr "mübtəda + xəbər", "mübtəda qrupu + xəbər qrupu" quruluşlu polielementli tipdən ibarətdir. "Cüttərkibli sadə jümlələr öz mənasına görə təfəkkür aktı kimi məlum, konkret təfəkkür və nitq əşyasını həmin təfəkkür və nitq aktı üçün səciyyəvi olan hər hansı ümumiləşdirici dinamik əlamətlə mücərrəd qarşılaşdırma yolu ilə öz strukturunda adekvat olaraq predikasiya ifadə edir.

Məs.: Adamlar sıxlaşdılar. Zabitlə dilmancı bir - birinin üzünə baxdılar. Dilmanc zabitin ürəyindən keçənləri duydu [7, s. 68].

Dialoqun cüttərkibli cümlənin müxtəlif struktur tipləri mövjuddur: m ü x t ə s ə r və g e n i ş; t ə s d i q və i n k a r cümlələr.

Dialoq şəraitində işlənən cüttərkibli cümlələrin tərkibində şəxs əvəzlikləri ilə ifadə olunmuş mübtəda ya işlənir və ya buraxılır. Bu cür cümlələrin buraxılmış mübtədasının hansı şəxs əvəzliyindən ibarət olması xəbərdəki şəxs göstəricisinə görə müəyyənləşir. Bunları təktərkibli və cüttərkibli hesab edən dilçilər var. Ümumiyyətlə, tarixən danışıqda, eləcə də dialoqda ilk olaraq cüttərkibli cümlələr mövcud olmuş, yəni cümlədə hər iki baş üzv iştirak etmiş, təktərkibli quruluş tarixən şəxsli cümlələrdən bu və ya başqa səbəbə görə cümlənin baş üzvlərindən birinin düşməsi nəticəsində mümkün olmuşdur.

Biz belə cümlələri dialoq mətnləri üzrə təhlil edərək cüttərkibli hesab edirik, ona görə ki, mübtədası şəxs şəkilşisi ilə müəyyənləşən cümlələr təktərkibli cümlələrə ancaq formal-struktur baxımından, yəni mübtədanın yoxluğuna görə eyniyyət təşkil edir.

İstifadə edilmiş ədəbiyyat

1. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri lügəti. Bakı: Elm və təhsil, 2020, 656 s.
2. Budaqova Z.İ. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Bakı: Azərb. SSR EA-nın nəşriyyatı, 1963, 114 s.
3. Cavadov Ə. Təktərkibli cümlə. Azərbaycan dilinin sintaksisinə dair tədqiqlər. Bakı, 1963, 283 s.
4. Cavadov Ə.M. Təktərkibli cümlələrdə sözlərin sırası. Müasir Azərbaycan dili. III, sintaksis, Bakı: Elm, 1981, 215 s.

5. Hallidey M.A. Language as code and language as behaviour: A.systemic-functional interpretation of the nature and ontogenesis of dialogue. Vol.:Language as semiotic. L 4 Dover (N.H.), Pinter,. 1984. 236 s.
6. İsmayılova M. Müxtəlifsistemli dillərdə dialoqların struktur-semantik xüsusiyyətləri (Azərbaycan və ingilis dillərinin materialları əsasında). Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 2017, 33 s.
7. Kazımov İsmayıl. Sadə cümlə sintaksisi. Bakı, 2021, 264 s.
8. Kazımov Q. Seçilmiş əsərləri. 10 cilddə, 5 cild, Bakı: Nurlan, 2008, 321 s.
9. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Ünsiyyət, 2000, 496 s.
10. Kazımov Qəzənfər. Azərbaycan dilinin tarixi sintaksisi. Bakı: Elm, 2019, 608 s.
11. Mir Cəlal Seçilmiş əsərləri, Bakı: Şərq- Qərb, 2005, 383 s.
12. Müasir Azərbaycan dili. Sintaksis, 3 cild, Bakı: Şərq-Qərb, 2007, 422 s.

Açar sözlər: Cümlə, cümlə üzvləri, mətn, dialoq, konstruksiya
Key words: Sentence, sentence members, text, dialog, construcsion
Ключевые слова: предложение, члены предложения текст диалог строительство

Karakoç Ruqiyyə

Cüttərkibli cümlələrin dialoji mətnin yaranmasında rolu

Xülasə

Danışıq sintaksisinin elmi-praktik əsaslarını öyrənmək üçün dialoji şəraiti, bu fonda özünə yer etmiş yarımçıq, elliptik və bütöv strukturu nəzərdən keçirmək müsbət nəticələr əldə etməyə imkan yaradır. Dialoq nitqin əsasını təşkil edən sintaktik vahiddir. Ona görə də dialoqun özünəməxsus sintaktik xüsusiyyətləri mövcuddur. Bu nitq parçasında hər bir dilin spesifik struktur-semantik prosesləri baş verir. İnsan düşündüklərini bu nitq vasitəsilə də ifadə edir. Dilin dialoji formasında bir deyil, bir neçə, iki, üç və s. şəxs iştirak edir. Onlar gah dinləyici, gah da natiq olaraq növbələşirlər. Bundan əlavə, danışanların hər birinin nitqi özündən əvvəlkinin nitqi ilə bağlanır.

Dialoji nitq şifahi nitqin müxtəlif çalarlarına və ümumilikdə danışıq nitqinə aiddir. Onda xüsusi, əvvəlcədən hazırlanmış nitq və bir sıra hazır frazaların olmaması monoloji nitqdən fərqləndirilən amillərdən biridir. Bu isə onunla bağlıdır ki, dialoji nitqdə partnorun nitq prosesində nə deyəcəyi əvvəlcədən məlum deyil və sərbəst, lakonik vasitələrlə nitqi zənginləşdirməyə imkan verir. Bununla bərabər, əvvəlki dialoji nitq geniş şəkildə digər əlamətləri ilə fərqlənir, yəni şifahi dilin ekspressivlik və emosionallıq elementləri ilə səciyyələnir.

Dialoqun cüttərkibli cümlələrində əksərən mübtəda məntiqi subyektə, xəbər isə məntiqi predikata uyğun gəlir. Belə cümlələrin modifikasiyalarının strukturunun müxtəlifliyi cümlənin təşkiedici komponentlərinin leksik-qrammatik əlamətləri ilə şərtlənir. Bu cür cümlələrin quruluşundakı müxtəliflik kəmiyyət və keyfiyyət xarakteri daşıyır.

The role of compound sentences in creating dialogic text

Summary

In order to study the scientific-practical foundations of conversational syntax, it is possible to obtain positive results by considering the dialogic conditions, the incomplete, elliptical and complete structure that is embedded in this background. Dialogue is a syntactic unit that forms the basis of speech. Therefore, dialogue has its own syntactic features. Specific structural-semantic processes of each language take place in this part of speech. A person expresses what he thinks through this speech. In the dialogic form of the language, not one, but several, two, three, etc. person is involved. Sometimes they take turns as listeners and sometimes as speakers. In addition, the speech of each of the speakers is connected with the speech of the previous one.

Dialogic speech refers to various shades of oral speech and conversational speech in general. The absence of special, pre-prepared speech and a set of ready-made phrases is one of the factors that distinguish it from monologue speech. This is due to the fact that in dialogical speech it is not known in advance what the partner will say in the speech process, and it allows to enrich the speech with free, laconic means. At the same time, earlier dialogic speech is widely distinguished by other features, that is, it is characterized by elements of expressiveness and emotionality of oral language.

In the two-part sentences of the dialogue, the message usually corresponds to the logical subject, and the message corresponds to the logical predicate. The diversity of the structure of the modifications of such sentences is determined by the lexical-grammatical characteristics of the constituent components of the sentence. The diversity in the structure of such sentences is quantitative and qualitative.

Роль сложных предложений в создании текста

Резюме

Для изучения научно-практических основ разговорного синтаксиса можно получить положительные результаты, рассматривая диалогические условия, незавершенную, эллиптическую и полную структуру, заложенную в этом фоне. Диалог – это синтаксическая единица, составляющая основу речи. Поэтому диалог имеет свои синтаксические особенности. В этой части речи происходят специфические структурно-семантические процессы каждого языка. Через эту речь человек выражает то, что думает. В диалогической форме языка не один, а несколько, два, три и т. д. участвует человек. Иногда они по очереди выступают в роли слушателей, иногда в качестве ораторов. При этом речь каждого из говорящих связана с речью предыдущего.

Диалогическая речь относится к различным оттенкам устной речи и разговорной речи в целом. Отсутствие специальной, заранее подготовленной речи и набора готовых фраз является одним из факторов, отличающих ее от монологической речи. Это связано с тем, что в диалогической речи заранее неизвестно, что

будет говорить партнер в речевом процессе, и это позволяет обогатить речь свободными, лаконичными средствами. В то же время ранняя диалогическая речь широко отличается и другими особенностями, то есть характеризуется элементами выразительности и эмоциональности устной речи.В двусоставных предложениях диалога сообщению обычно соответствует логическое подлежащее, а сообщению — логическое сказуемое. Разнообразие структуры модификаций таких предложений определяется лексико-грамматическими характеристиками составляющих компонентов предложения. Разнообразие структуры таких предложений бывает количественным и качественным.

RƏYÇİ: dos. S.Abbasova

Arifə Tapdıq qızı Yusifova [22]

İTQ MƏDƏNİYYƏTİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ VƏ NATİQLİK SƏNƏTİNƏ TARİXİ ASPEKTDƏN BAXIŞ

Giriş. Bizim hal-hazırda hər bir vətəndaşdan daha artıq ictimai fəallıq tələb olunan bir zamanda şifahi canlı nitqin nə qədər böyük əhəmiyyətə malik olduğunu sübut etmək artıqdır. Siyasi mövzuda məruzə ilə çıxış edən təbliğatçılar, öz istehsalatında iş keyfiyyətini yüksəltmək istəyən təsərrüfat rəhbərləri yaxud gənclərimiz vətəni sevmək ruhunda tərbiyə olunmasına böyük və şərəfli vəzifələri həyata keçirən müəllimlərimiz və təbliğatçılarımız inandırıcı və ilhamlandırıcı nitqə yiyələnməlidirlər.

İctimaiyyətin təbliğatçıları: müəllim, dilçi və ədəbiyyatşünasların nitq mədəniyyətinə, xüsusən şifahi nitqə olan rəğbət və marağı da elə bu tələbə görə ortaya çıxmışdır. Biz gənclərimizin nitqindəki nöqsanlardan, onların dilinin kasıblığından tez-tez şikayətlənirik; şikayətlənirik ki, bizim mühaziraçi və məruzəçilərimiz, bir çox halda solğun və yeknəsəq danışır və onların nitqi səlist, canlı, cəlbedici və obrazlı olmur. Hətta minlərlə dinləyici və tamaşaçı qarşısında radio və televiziya ilə çıxış edən bəzi natiqlərin dilindəki cümlə və üslub xətaları bir yana dursun, müəyyən sözlərin tələffüzündə də təhriflərə yol verilir. Məsələn, onlar: sima əvəzinə Sima, məhsul əvəzinə məsul, mərhum əvəzinə məhrum və s. deyirlər. Şifahi nitq mədəniyyətinin yaxşılaşmasına verilən əhəmiyyətə baxmayaraq, hələlik bu sahədə arzu edilən ciddi bir tərəqqi o qədər də hiss olunmur. Bunun səbəbi nədir.

Şifahi nitq mədəniyyətinin inkişafına mane olan başlıca səbəblərdən biri, orta məktəbdə dil və ədəbiyyat məşğələlərinin düzgün qurulmamasıdır. Dil-ədəbiyyat müəllimləri arasında uzun illərdən bəri qəribə bir ənənə yaradılmışdır. Bu ənənəyə görə, şagirdlərin nitq inkişafına, onların yazılı nitqinin inkişafı kimi, yazılı işdə və inşalardakı çalışmalar kimi baxılır. Bunun nəticəsidir ki, şagirdlər tələb və onların kamal dərəcəsini ölçən ilk meyar öz fikirlərini yazılı şəkildə idarə etməyi bacarmaları hesab olunur. Burada şifahi nitq vərdişləri o qədər də nəzərə alınmır.

Doğrudur, 5-8-ci siniflərdə adətən, oxunmuş əsərlərin şifahi surətdə söylənilməsi, yuxarı siniflərdə isə ədəbi mövzularda məruzə etməkdən istifadə olunur. Lakin bu nağıl etmələr çox yeknəsəq və şablon bir şəkil alır və dinləyicilərdə maraq yaratmadığından az təsirli olur; məruzələrə gəlincə deməliyik ki, bu hamı üçün müyəssər olan bir iş deyil və bunun öhdəsindən çox vaxt istedadlı və bacarıqlı şagirdlər də gələ bilmirlər. Ali məktəblərdə, həmçinin dil müəllimləri çox vaxt qrammatik qayda və orfoqrafik vərdişləri tələbələrə mənimsətməklə öz vəzifələrini yerinə yetirmiş hesab edilirlər; onlar bütün bu işləri üslubiyyat məşğələləri ilə, şifahi nitqin üslubiyyatı ilə əlaqələndirə bilmirlər.

Başqa fənn müəllimlərinə gəlincə, onlar tələbələrin öz sahələrinə dair, yalnız möhkəm və sistematik bilik tələb etməklə kifayətlənir, onların nə haqda danışması ilə maraqlanır, nə cür danışmasına isə qətiyyən fikir vermirlər. Nəticədə tələbələrdə nitqə səliqəsiz və məsuliyyətsiz yanaşmaq vərdişi əmələ gəlməyə başlayır, onlar özlərinə tələbkarlıqla yanaşmırlar.

Əsas hissə. Azərbaycanda qədim dövrlərdən başlayaraq XIX əsrin ikinci yarısına qədər inkişaf edə-edə gəlib çıxmış natiqlik məharəti, əsasən, mollaxana və mədrəsələrdə müəllimlik edən şəxslərin nitqləri ilə bağlı olmuşdur. Bundan başqa həmin dövrdə məscid minbərlərindən dini mövhumatı təbliğ edən ruhanilər də natiqlik məsələsinə müəyyən təsir göstərmişlər.

Lakin XIX əsrin ikinci yarısından Azərbaycanda natiqlik məharətinin yeni və rəngarəng növləri meydana çıxmağa başlamışdır. Bura hər şeydən əvvəl, inqilabı azadlıq hərəkatının inkişafı ilə paralel gedən ciyasi natiqlik daxildir. Bundan sonra ortaya xüsusi bir natiqlik növü də çıxır ki, bu da məhkəmə salonlarında edilən çıxışlara aiddir: buna da məhkəmə natiqliyi adını vermək olar. Bunlardan başqa müxtəlif münasibətlərə bir çox ailələrdə təşkil olunmuş qonaqlıqlarda, toy məclislərində söylənilən və getdikcə inkişaf edib yayılan müxtəlif növ natiqləri də bunlara əlavə etmək olar.

Azərbaycanda tarixən ibtidai məktəblər sayılan mollaxanalarda bəzi mütərəqqi müəllimlər (müdərrislər) uşaqların nitqini zənginləşdirmək, onları bədii söz ustası kimi yetişdirmək üçün müəyyən üsullardan istifadə edirdilər. Şeir demək yarışı aparılır və bu cür məşğələlərdə uşaqlar şairlərin əsərlərindən parçalar əzbərləməyə, bədii söz demək ustalıqlarına yiyələnməyə, kütlə qarşısında çıxış etməyə həvəslənir və onlar gözəl nitqdə verilən ilk tələblərə yiyələnirlər. Adətən, valideynlər öz uşaqlarını belə müəllimlərin (müdərrislərin) yanında oxutmağa çalışırdılar.

Mollaxana tipli məktəblərin bəzisində ədəbiyyatı və üslubiyyatı yaxşı bilən və eyni zamanda dövrünün tanınmış müəllimləri olan şəxslər, öz şagirdlərinin nitqlərini zənginləşdirməyə diqqət edirdilər. Onlar çox zaman həmin məqsədlə böyük söz ustalarından: Məhəmməd Füzuli, Şeyx Sədi, Firdövsi və bunlar kimi görkəmli yazıçıların yüksək sənət əsərlərinin mütailəsinə və bir çox hallarda şeirin əzbərlədilməsinə xüsusi əhhəmiyyət verirdilər. Onlar Leyli və Məcnun, Gülüstan, Bustan, Yusif və Züleyxa, və s. bu kimi bədii əsərlərdən dərs vəsaiti kimi istifadə edirdilər. Natiqlik sənəti dilin zənginliyinin göstəricisi və mədəniyyətin qüvvətli vasitələrindən biridir.

Böyük yazıçı A.P.Çexov vaxtilə bu xüsusda danışarkən demişdir ki, "Natiqlik sənətinə etinasız yanaşan adamlar, özlərini insana müyəssər ola biləcək ən ali və nəcib bir zövqdən məhrum edirlər" (1, s. 126). L.N.Tolstoy natiqliyi "Sözü ürəyin çırpıntısından doğan bir qığılcımdır" demişdir. V.V.Mayakovski isə sözü "İnsan qüdrətinin sərkərdəci" adlandırmışdır. M.Qorki bu xüsusda danışarkən qeyd etmişdir ki, "Dilin təmizliyi, məna dəqiqliyi və onun kəskinliyi uğrunda mübarizə, mədəniyyət silahı uğrunda aparılan mübarizədir. Bu silah nə qədər kəskin olsa və nə qədər düzgün istiqamətdə olsa, bir o qədər qiyməti olar" (2, s. 48-56).

[22] Azərbaycan Tibb Universiteti "Azərbaycan dili" kafedrasının baş müəllimi..h.arifa@gmail.com

Azərbaycanda görkəmli söz ustaları həmişə nitq mədəniyyətini inkişaf etdirməyə, yığcam və təsirli danışmağa, nitqdə işlənilən sözlərin saflığına və yerli- yerində deyilməsinə və s. bu kimi tələblərin gözlənilməsinə, bir sözlə kütləvi nitqin səviyyəsinin yüksəltməyə xüsusi diqqət yetirmişlər. Düzgün, səlist və mənalı sözün (nitqin) dünyada ən qiymətli bir amil olması,həmçinin, qıca, lakin kəsərli və təsirli danışmaq, danışarkən sözləri məharətlə seçib işlətmək barədə dahi şairimiz Nizami Gəncəvinin şeirlərində irəli sürdüyü fikirləri əsas götürmək zəruridir.

Mütəfəkkir şairimiz M.Füzulinin şeirlərində irəli sürdüyü fikirləri şərh etmək istəsək, təxminən belə deməliyik: Söz (yəni nitq) beynın sirrini xalqa izhar edir, bildirir. O elə bir sirdir ki, o, hər an yoxdan var olur. Sözə (nitqə) sidq ilə (ürəklə) əhəmiyyət verir. Nitqin qədr və qiymətini artıran (onu qiymətləndirən) hər adam, eyni zamanda öz qədr və qiymətini də artırmış olar: çünki söz nə qədər dəyərli olsa, bir o qədər əhlinin (yəni, onu öz danışığında işlədənin) qiymətini və hörmətini artırır. Söz, sirlər xəzinəsinin xəzinədarıdır: mirvarini sapa düzülən kimi, o da hər an minlərcə sirli gövhərləri (yəni, dəyərli, məzmunlu, mənalı və hakimanə fikirləri) bir-birinin ardınca zərif tellərə düzür. Göründüyü kimi böyük Füzuli hələ 400 il bundan qabaq sözün (nitqin) məzmununa yüksək qiymət və əhəmiyyət vermiş, ona ən qiymətli və əhəmiyyət vermiş, onu ən qiymətli daş-qaşla, mirvari və inci ilə bir sırada qoymuşdur.

Bizim klassik ədəbiyyatımızı, mədəniyyət tariximizi tədqiq edirkən, nitq mədəniyyətinin əhəmiyyətinə dair vaxtilə bir çox orijinal fikirlər söyləmiş şəxsiyyətlərin mulahizələrinə təsadüf edirik. Məsələn, görkəmli şair Qövsi Təbrizi də söz haqqında öz fikirləririni yüksək səviyyədə izah etmişdir.

İstedadları şair və müəllim Əbdulxaliq Qafarzadə Cənnəti "Söz" adlı şeirində sözü yerli-yerində işlətmək, doğru danışmaq, sözün xəncərdən də kəsərli bir silah olmasını xüsusi bir ustalıqla təsvir etmişdir (3, s. 24).

Azərbaycanda natiqlərin bir hissəsi çıxış etmək üçün özlərinə tribuna, yaxud xitabət kürsüsü tapmaqda müəyyən çətinliklərə rast gəlirlər. Onlar universitet tribunalarında çıxış etmək imkanına malik olmadıqlarından, öz məharətlərini yazdıqları məqalə və kitablarda göstərməyə səy edirdilır. Onların əsərlərində bir tərəfdən kitab və mətbuat dilinin, o biri tərəfdən isə ifşaedici şifahi natiqlik məharətinin ahəngini və qüvvətli təsirini aydın hiss etmək olar.

Beləliklə, nitq mədəniyyəti və natiqlik məharəti o vaxt mümükün olaçardır ki, istər Asiyada, istəsə Avropada insan ağlı əbədi həbsdən o vaxt tamam qurtaracaq ki, fikirlərdə nağıl deyil, düzgün səlist nitq hakimi-mütləq olacaqdır. Natiqlər bir sıra mühüm məsələlərə dair mətbuat səhifələrində çıxış edib, xüsusi bir natiqlik məharəti ilə çox ciddi fikirlər irəli sürəcəklər.

Məlumdur ki, alimlərimizdən biri də Firidun bəy Köçərli olmuşdur. O, 1898-ci ildən başlayaraq Qafqaz qəzeti, sonralar "Tərəqqi", "Kaspi" qəzeti, "Molla Nəsrəsddin" jurnalı və s. mətbuat səhifələrində məktəb, maarif, əlifba, Azərbaycan dilinin saflığı, onun bir sıra zərərli təsirlərdən mühafizə olunması kimi aktual məsələlərə dair məharətlə çıxışlar etmiş və dərin məzmunlu və ifşaedici məqalələr yazıb nəşr etdirmişdir. F.Köçərli Azərbaycan dilinin saflığından danışarkən yazırdı: "Ərəb və fars kəlmə və ibarələrinin şövq və həvəsində olub ehtiyac olmadığı halda onları ana dilinə qatıb qarışdırmaq bizim əqidəmizcə böyük səhvdir". Bir halda kı, ana dilində əşyanın özünün məxsusi adı var və ana dili ilə bu mənanı bəyan etmək və söyləmək mümkün olur, vacib deyil ki, mollalıqla onu izhar etmək iddiasına düşüb kəlamı qəliz ibarələrlə və çətin anlayışlarla onu ərəb və fars sözləri ilə doldurub əsil mənanı daha da dərinə calmaq və qəliz ibarələrlə ifadə edək. Vətəndaşlarımız yazılmış bəzi siyasi, ədəbi və fənni məqalələrini oxuyanlar anlamayıb məyus olurlar və qəzetləri oxumaqdan imtina edirlər (4, s. 31).

Dil nə qədər açıq, sadə olsa bir o qədər gözəl, göyçək və məqbul olar. Əlbəttə, dilimizə qarışıb türkləşmiş (*azəriləşmiş - A.A.*) *fayda, zərər, xeyir, dost, düşmən* və bunlar kimi həddən ziyadə istemal olunan ərəbi və farsı sözlərin barəsində bizim iradımız yoxdur...! F.Köçərli Azərbaycan dilini, onun sadəliyi və təmizliyini korlayanlara qarşı kəskin çıxışlar edərək "Molla Nəsrəddin" jurnalında çox dərin və məzmunlu məqalələr çap etdirmişdir. Xalqını sevən, onun mənəvi dirliyinə çalışan, tərəqqisi yolunda əmək sərf edən yazıçılarımızdan çox-çox təvəqqi edirik ki, dillərini asanlaşdırsınlar, ana dilindən uzaq düşməsinlər, fikirlərini açıq, sadə dildə yazsınlar, ta ki, onların yazdıqlarını oxuyan anlacın, düşünsün və ayılsın..."!

1905-ci il inqilabından sonra qabaqcıl maarifpərvər alimlər, müəllim və metodistlər ərəb, fars ibarələri ilə dilimizi qəlizləşdirənlərə qarşı mətbuat səhifələrində çıxış edib, ciddi gözəl nümunəsini göstərmişlər. Əlibəy Hüseynzadənin 1909-cu ildə "Tərəqqi" qəzetinin 13-23-cü nömrələrindəki çıxışı ilə əlaqədar olaraq, açılan qızğın müzakirə və fikir mübadiləsində görmək olar. Burada Əlibəy Hüzeynzadəyə ilk kəskin cavabı müəllim Faiq Hemanzadə vermişdir. Zaman geçdikcə, Azərbaycan dilində mühazirə oxumaq, elmi mövzularda məruzə etmək və ya nitq söyləmək üçün müəyyən şərait yarandı. Hər şeydən əvvəl, 1920-ci ildə, Azərbaycanda Sövet hakimiyyəti qurulduqdan sonra, Bakıda Universitet təsis edildi və burada professorlar, ali məktəb müəllimləri Azərbaycan dilində mühazirə oxumağa imkan tapdılar. Bundan sonra tədricən, universitetin kafedlarında öz natiqlik məharətləri ilə ictimaiyyətin rəğbətini qazanan alim-müəllimlər yetirməyə başladı.

Belələrinə misal olmaq üçün vxtilə universitetdə pedaqogika və psixologiya fənləri üzrə böyük bir məharətə mühazirə oxuyan professor Həmid bəy Şaxtaxtinskini, dilçilik fənninə dair mühazirələri ilə hamının diqqətini, ədəbiyyatşünaslıq üzrə dərin məzmunu çıxışları ilə tələbələrin rəğbətini qazanmış professor Əli Nazimi, Qərb ədədbiyyatına dair xüsusi bir məharətlə oxuduğu mühazirələri ilə tanınmış professor Əli Sultanlını, Mikayıl Rəfilini və başqa alimlərimizi göstərmək olar.

Yuxarıda adları çəkilən professorlar həqiqətən gözəl müəllim və məharətli natiq idilər. Bu alimlər böyük bir üstad kimi, gələcəkdə müəllim və elmi işçi olacaq tələbələrimizə natiqlik və elmi işçi olacaq tələbələrimizə natiqlik istedadı və məharətinin gözəl xüsusiyyətlərini aşılayırdılar. Tələbələrimiz onlardan ana dilində səlist, aydın və təmiz, eyni zamanda yığcam və təsirli danışmaq bacarıqlarını öyrənirdilər.

İstifadə edilmiş ədəbiyyat
1. Çexov A.P. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 456 s.
2. Максим Горкий. Мой спутник. Саратов: Наука, 1894, стр: 48-56
3. Əbdulxaliq Qafarzadə Cənnəti "Söz" adlı şeiri. Bakı: Maarif, səh: 24
4. Firidun bəy Köçərli. Seçilmiş əsərləri. Bakı, 1898, "Molla Nəsrəddin" jur. 31.

Açar sözlər: nitq mədəniyyəti, natiqlik sənəti, şifahi nitq, inkişaf, termin
Ключевые слова: речевая культура, речевое искусство, устная речь, развитие, термин
Key words: speech culture, speech art, oral speech, development, term

General issues of speech culture and the art of speech from the historical aspect

Summary

Since the second half of the 19th century, proverbs of speech culture in Azerbaijan were used by progressive and thinking people of that time as a weapon of struggle against old customs and traditions, religious superstitions and spirituality. The art of speech is an indicator of the richness of the language and one of the powerful tools of culture. Великий писатель A.P.Chekhov, speaking on this topic, said that people who neglect the art of public speaking deprive themselves of the highest and noblest pleasure possible for a person.

Общие вопросы культуры речи и искусства речи в историческом аспекте

Резюме

Со второй половины XIX века пословицы речевой культуры в Азербайджане использовались прогрессивными и думающими людьми того времени как оружие борьбы со старыми обычаями и традициями, религиозными суевериями и духовностью. Искусство речи – показатель богатства языка и один из мощных инструментов культуры. Великий писатель А.П.Чехов, говоря на эту тему, говорил, что люди, пренебрегающие искусством публичного выступления, лишают себя самого высокого и благородного удовольствия, которое возможно для человека.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Adilə Zeynalova

Məmmədova Aynurə [23]

ACİZ "DİVAN"INDA SİNONİM FEİLLƏR

Dilçilikdə leksik-semantik sistemi təşkil edən sözlər, eləcədə həmin sözlərin ifadə etdiyi mənalar bir-birilə qarşılıqlı əlaqədardır. Sözlər arasındakı qarşılıqlı əlaqə leksik-semantik əlaqənin strukturunu müəyyən edir. Hər bir dilin leksik-semantik strukturu üç anlayışla müəyyən edilir: leksik məna, leksik-semantik qrup, leksik semantik məna (4, s.111).

Danılmaz faktdır ki, sinonim ifadələr bütün dillərdə mövcuddur. Lakin bu dillərdə həmin sinonimlərin quruluşu, sayı və inkişafı eyni olmamışdır. Sinonimlərin öyrənilməsində mütəlif meyarlar əsas götürülmüşdür. Ümu-miyyətlə sinonimlər mətndə məna çalarlarındakı fərqin daha rahat çatdırılmasına xidmət edir. Dilçilikdə qəbul edilmiş fikrə əsasən deyə bilərik ki, sinonimlər semantik cəhətdən bir-birinə yaxın olan və müxtəlif fonetik tərkibə malik olan leksik tərkiblərdir. Dildə sinonimlərin əsas funksiyası ayrı-ayrı anlayışlarınməna incəliklərini göstərmək, sözlərin təsir gücünü artırmasına, fikrin daha dəqiq və rəngarəng çatdırılmasına xidmət edir. Dildə sinonimlərin yaranması və lüğət tərkibində yer alması, onların müxtəlif üslubi funksiyaları təmin edən amilləri araşdırarkən ilk növbədə dilin öz daxili imkanları nəzərə alınır. Bununla bərabər dildə sinonimliyin yaranmasında başqa dillərdən alınan leksik vahidlərin rolunu inkar etmək olmaz.

Tarixi kateqoriya olan sinonimlər ədəbi dilin bütün inkişaf dövrlərində daima dəyişmiş, sinonim cərgələrə daxil olan müəyyən sözlər arxaikləşərək öz sinonimliyini itirmişdir.Ədəbi dilin inkişaf dövrlərində söz yaradıcılığı sinonim cərgələrin tərkibi sayılan ərəb və fars sözləri və sözlərin çoxmənalılığı hesabına daha da zənginləşmişdir.

Dilimizdə işlənən bütün sinonimlər məna və üslubca fərqlənirlər. Hər bir sinonim müəyyən məna çalarlıqlarına malikdir. Bəzi sözlər eyni məfhumu ifadə edir, bəziləri isə eyni məfhumları deyil, bir-birinə yaxın mənanı bildirir. Məsələn: hicran-fəraq, qış-zimistan, yaz-bəhar və.s kimi sinonimlər eyni məfhumu ufadə etdiyi halda bad-meh-yel kimi sinonimlər bir-birinə yaxın mənaları ifadə edir.

Sözlərin sinonimliyini müəyyənləşdirərkən onlar arasındakı edən assosiativ əlaqəyə də fikir vermək lazımdır. "Leksik-semantik söz qruplarını tədqiq V. Koduxovun fikrincə sinonim sözlər elə sözlərdir ki, bunlar öz leksik mənalarında nə isə ümumi cəhətə malik olurlar. Bu ümumi cəhət məhz onun nəticəsidir ki, sinonimlər eyni əşyanı, eyni bir hadisəni, yaxın mənaları ifadə edir"(5, s.6).

Sinonimlərin səciyyəvi xüsusiyyəti ümumi bir mənanı müxtəlif incə çalarlıqlarla ifadə etməsindədir. Sinonimlər danışan və yazana sözləri seçmək, öz subyektiv münasibətlərini ifadə etmək imkanı verir. Hər bir sinonimin arxa-sında spesifik məna çalarlığı olan üslubi rəngarənglik durur. Belə ki, sinonimlər emosional məna çalarlığı ifadə etmək üçün bizim şifahi və yazılı nitqimizdə böyük əhəmiyyətə malikdir. Xüsusilə "bədii əsərlərdə bir-birindən uzaq olan, müxtəlif üslublara aid ifadələr sinonim kimi işlənə bilər, bunları bir-birinə yaxınlaşdıran məqam ədibin fərdi üslubudur. Sənətkar poetik, arxaik, jarqon, sadə danışıq dili, eləcə də başqa dillərdən alınma sözləri bir sinonimik qrupda işlətmək imkanına malikdir. Sinonimlər üçün əsas olan məcazlaşdırma, çoxmənalılıq, söz birləşmələri, dialekt və arxaik sözlərdən ədiblər daha çox istifadə edirlər. Məhz bu cəhətlər sinonim söz vəcərgələrin bədii dildə genişlənməsi və zənginləşməsini təmin edir"(3, s.105).

Sinonimlərin semantik xarakteri onların bədii ədəbiyyatda təhlilini, konkret bir şairin üslubundakı təsnifini də fərqləndirir. "Leksik sinonimlər və semantik cərgədə birləşən sözlər, əsasən, bir ümumi mənanı bildirən eyni mənalı sözlər olur. Lakin bir sinonimik cərgədə elə sinonimlər birləşir ki, bunlar adi halda nəinki sinonim deyil, hətta çox vaxt uzaq mənalı sözlərdir. Kontekstdə isə bu sözlər şairin vermək istədiyi bir məzmunun ifadəsində birləşir və ümumi mənanı müxtəlif şəkildə aydınlaşdırmağa xidmət edir. Buna görə də sinonim cərgələrə daxil olan sözlərin bir hissəsi mütləq, digər hissəsi nisbi olur" (1,s.102).

Bədii əsərlərdə zəngin söz yaradıcılığı potensialına malik və semantik tutumuna malik olan sinonimləri fərqləndirmək, fikrin ifadəsi üçün daha münasib olanı seçmək yazardan böyük üslubi bacarıq, üslubi vərdiş tələb edir. Sinonimlik üslubiyyatın əsasını təşkil edən amillərdən sayılır.

Əsərlərdə bədiilik xüsusiyyəti sözlərin düzgün seçilməsi, məna və üslub tələbinə uyğun dil vahidlərinin istifadə edilməsi ilə səciyyələnir. Bu məsələ sırf sinonimlik bağlı olan bir məsələdir. Belə ki, sinonim cərgəyə daxil olan ifadələrin düzgün seçilərək istifadə olunması vacib məsələlərdəndir.

Acizin poetik dilində sinonimlərin çox maraqlı işlənməsituasiyaları mövcuddur. Tədqiqata cəlb etdiyimiz Aciz divanının leksik-semantik tərkibini araşdırarkən görürük ki, əsərdə işlənən sinonimlər əsasən adlar (isim, sifət), feillər və digər nitq hissələrilə ifadə olunmuşdur. Acizin eyni sinonim cərgəyə daxil olan sözlər arasında incə məna fərqlərini duyması, onların üslubi məqamından asılı olaraq yerli-yerində işlətməsi onun məharətli şair olmasından xəbər verir.

Aciz divanında leksik-semantik söz qruplarını və onların xüsusiyyətlərini aydın təsəvvür etmək üçün əsərdə müxtəlif üslubi boyalarla istifadə olunan dil vahidlərindən olan sinonim feillər haqqında qısa məlumat vermək istərdik.

1. Nəzarə etmək (نظاره ایتمک)-baxmaq-görmək-nəzər qılmaq(نظر قیلماق).

Dəxi, Aciz, əl götür dərgahi-Bari-İzədə,
Bu şəhənşahi-cəhanə *qıl nəzər*, ey kirdigar!
(2, v.139b).

******

Eylərdi həvəs *görməgə* rüxsarini hər kəs,

[23] **A**MEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi aynurmemmedli81@mail.ru

Ol sərvi-güləndamü səmənsinə qoyar bəs(2, v.40a)
****

Türki-məstin hər qıya *baxmaq* ilən Əfrasiyab,
Zöhrəsin çak eyləyüb, İranü Turandan keçər
(2, v.6a).

2. Əşk axıtmaq(آشک آخیتماق)-ağlamaq

Qan qoyar qarnına həm lə`li-Bədəxşan ondan,
Axudub əşkilə əbri-xüruşan fəryad
(2, v.75a).

******

Getsən, o qədər *ağlaram* aləm ola dərya,
Axər olusan qərq o dəryayə, yavaş get!
(2, v.10a).

3.İnanmaq-bavər etmək(باور ایتمک)

Məcnun ilə Fərhadı deyirlər, mən *inanmam,*
Düşmübdür olar kuhü biyabanə mənim tək
(2, v.17a).

******

Boynundan onun silsileyi-zülfi götürsün,
Bavər eləmə bu dili-divanə qayıtsun
(2, v.20b).

4. **Gizlətmək-pünhan etmək (پنهان ایتمک)-nihan etmək** (نهان ایتمک)

Gər tiğ niyamından əgər rəzmdə çəksün,
Gizlər özini əbrdə ol bərqi-şərərriz
(2, v.53a).

******

Gəhi görrəm alub mişkin rəsən çahi-zənəxdanə,
Gəhi abi-bəqanı zülməti-zülfi edər *pünhan*
(2, v.111a).

****

Bihəmdüllah bu gün bu əsrdə niruyi-ədlindən,
Nə pənbə atəşi-suzanı qoynunda *nihan eylər*
(2, v. 52b).

5.Yanmaq-od tutmaq

Ey Şam!Zülfi-Zeynəbə baxdın utanmadın,
Vey şəm`,sən Səkinəyə baxdıqca *yanmadın*?
(2, v.155a)

****

Od tutdu pərlərim bu zəman mahi-gülüzar,
Salmış məni nə növ ilə gör narə tellərin
(2, v. 27b)

6.Nisar etmək(نثار ایتمک)- dağıtmaq-səpmək

Nisar oldı güvhər barani-əbri-növbəhari tək,
Nəmayan rə`dü bərq oldı zəminü asiman içrə
(2, v.127a).

******

Nə *səpərsən* bu qədər xali-siyəhdən danə,
Nə qurarsan bu qədər mürği-dili-zarimə dam
(2, v.18a).

******

Əl endi zülfə vursun sünbüli-tər,
Dağıtdı mah üzinə əqdi-əxtər
(2, v.143a).

7. Ərz etmək(عرض)- demək-dil açmaq

Desəm sünbül mənimlə əgləşürdür *ərz edəm* reyhan,
Böylə rahət dəxi tapmaz dili-biçareyi-məftun
(2, v.117a).

******

Dil açub susəni-azadə gəlüb göftarə:

"Hanı reyhandə şüurü hanı sünbüldə kəmal?"(2, v. 59b).

Aciz bu sinonim feillərdən başqa mətndə yaratmaq-xəlq etmək; öpmək-busə almaq; keçmək-übur etmək; mürüvvət etmək-insaf etmək; bulmaq-tapmaq; yürümək-getmək; etmək-qılmaq və s. kimi feili sinonim cərgələrdən istifadə etmişdir.

Nəticə

Beləliklə,yuxarıda deyilənləri ümumiləşdirərək bu nəticəyə gəlmək olur ki, Cənubi Azərbaycan şairi olan Məhəmməd Xəlifə Aciz öz əsərində feillərin iştirakı ilə yaranan sinonim cərgələrdən istifadə etməklə əsərdə təsirlilik və ekspressiv-emosionallığın artırılmasına çalışmışdır.

Bundan başqa araşdırma zamanı bəlli olmuşdur ki, Aciz"Divan"ında işlənmiş feli sinonimlər əsasən bir feilin danışıq dilindəki variantı və ya arxaikləşmiş forması və ya bir feilin ona yaxın olan frazeoloji ifadə ilə paralel şəkildə işlənməsi yolu ilə düzəlmişdir. Divanda rast gəldiyimiz bir sıra feillər Aciz dövrü üçün xarakterik olsada, hal-hazırda həmin feillər arxaikləşmiş və yalnız dialekt və şivələrdə işlənməkdədir.

ƏDƏBİYYAT

1. Cavadova M. (1977). Şah İsmayıl Xətayinin leksikası. Bakı: Elm, 216 s.
2. Məhəmməd Xəlifə, A. (XIXəsr). Divan. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar fondu, D-286/10263, 161s.
3. Məhərrəmova R. (2012). XV-XVI əsrlər Azərbaycan dili: Leksika. Söz yaradıcılığı, Bakı: Elm və təhsil , 224 s.
4. Nəzərova A. (2017). Azərbaycan dilində fəlsəfə terminlərinin leksik-semantik xüsusiyyətləri. Bakı:Elm və təhsil,176 s.
5. Кодухов В. И. (1955). Лексико-семантические группы слов. Ленинград., 28 стр

Açar sözlər: Aciz, "Divan", sinonim feillər, dilçilik

Ключевые слова: Аджиз, «Диван», синонимичные глаголы, лингвистика,

Keywords: Ajiz, "Divan", synonymous verbs, linguistics

Xülasə:

Azərbaycan ədəbi dili zəngin sinonimlər sisteminə malikdir. Lakin bu zənginləşmə birdən birə olmamışdır. Bir çox sinonimlər Azərbaycan dilinə müxtəlif səbəblərlə, xüsusən üslubi ehtiyaclarla əlaqədar yol tapmışdır. Beləki ərəb və fars sözlərinin dilimizdəki sözlərlə bərabər mübarizəsi həmin sinonim sözlərin dilimizə daxil olmasına rəvac vermişdir.

Əsərlərdə sinonimlərin düzgün seçilməsi və yerli-yerində işlədilməsi şair və ədiblərin canlı xalq dilinə bələd olmasını göstərən başlıca amillərdən biri sayılır. Aciz "Divan"ında işlənən sinonim sözlər XIX əsr azərbaycan ədəbi dilinin lüğət tərkibində yer alan leksik vahidlər haqqında təəssürat yaratmağa imkan verir.

Bu baxımdan Aciz özünün divanında sinonim feillərini məharətlə işlədərək milli leksikanın bütün imkanlarından istifadə etməyə çalışmışdır.

Синонимичные глаголы в «Диван» е Аджиза

Резюме:

Азербайджанский литературный язык имеет богатую систему синонимов. Однако это обогащение произошло не внезапно. Многие синонимы попали в азербайджанский язык по разным причинам, в первую очередь из-за стилистических потребностей. Таким образом, борьба арабских и персидских слов со словами нашего языка позволила этим словам-синонимам войти в наш язык.

Правильный подбор и локальное употребление синонимов в произведениях считается одним из главных факторов, показывающих знакомство поэтов и писателей с живым просторечием. Синонимы, использованные в «Диван»е Аджиза, позволяют создать впечатление о лексических единицах, вошедших в словарь литературного языка XIX века.

В этом плане Аджиз старался использовать все возможности национального лексикона, умело употребляя на своем диване синонимичные глаголы.

Synonymous verbs in Ajiz`s "Divan

Summary:

Azerbaijani literary language has a rich system of synonyms. However, this enrichment did not happen suddenly. Many synonyms found their way into the Azerbaijani language for various reasons, especially due to stylistic needs. Thus, the struggle of Arabic and Persian words with the words in our language allowed those synonymous words to enter our language.

Correct selection and local use of synonyms in the works is considered one of the main factors that show that poets and writers are familiar with the living vernacular. The synonyms used in Ajiz's "Divan" allow us to create an impression of the lexical units included in the vocabulary of the literary language of the 19th century.

In this regard, Ajiz tried to use all the possibilities of the national lexicon by skillfully using synonymous verbs in his divan.

Rəyçi: filologiya üzrə elmlər doktoru Nəsib Göyüşov

Validə Abıyeva, Afət Səfixanova [24]

İNGİLİS DİLİNDƏ HAL VƏ VƏZİYYƏT BİLDİRƏN SÖZLƏR VƏ ONLARIN İŞLƏNMƏ YERİ

İngilis dilində vəziyyət sözlərinin müstəqil bir nitq hissələrinə ayırmaq məsələsi önə çəkilmir. Həm ənənəvi həm də strukturun istiqamətində fəaliyyət göstərən və ingilis dilini tədqiq edən xarici dilçilər bu sözləri ya zərf ya da sifətin tərkibində nəzərdən keçirir. Dilçilərin nöqteyi nəzərinə görə up, down, on, in və s. vəziyyət kateoriyasına aiddir. Digər nöqteyi nəzərən tərəfdarları məsələyəciddi yanaşır və belə hesab edir ki, bu sözlər də digər nitq hissələri kimi üç xüsusiyyətə görə müəyyən edilir. Onların ümumiləşdirmə qrammatik mənası kimi vəziyyət yəni hal kateqoriyası kimi çıxış edir. Morfoloji göstəricisi olan – a prefiksi üçün semantik funksiya kimi predikativ üzv funksiyası səciyyəvidir (alim, asleep, awake, aware). Həm mprfoloji həm də funksional xüsusiyyətlərini nəzərə alaraq vəziyyət sözlərinin tədqiqinə xarici ədəbiyyata da rast gəlinir. Müasir ingilis dilində ismin hal kateqoriyası morfoloji ifadə baxımına görə çox zəif hesab olunur. Struktur dilçilik məktəbinin dilçilərinin nöqteyi-nəzəri də ənənəvi dilçilərin konsepsiyasına uyğun gəlir. Vəziyyət bildirən sözlərdə bəzi dəyişikliyi də qeyd etmək olar. Məs, the boy was asleep cümləsində asllep sözünü sifət kimi qəbul etsə bilmərik. Burada the boy was very asllep kimi işlədə bilmərik. Dilçilər bu sözlərin morfoloji qeyri-dəyişikliyin istifadə edərək onları ayrıca nitq hissələrinə aid etmirlər. Vəziyyət sözlərinin ardıcıl və semantik izahına ingilis dili lüğətlərindərast gəlinmir, burada bu sözlər ya zərf ya da sifət kimi verilir. İngilis dilinin qrammatikasının təsiri ilə bu sözləri tədqiq edən qrammatistlər vəziyyət bildirəm sözləri müstəqil nitq hissəsi kimi götürmüşlər (1, səh.14-15).

Müasir ingilis dilində dilçilərin əksəriyyəti vəziyyət bildirən sözləri semantik, morfoloji və sintaktik xarakteristikaya malik olan müstəqil nitq hissəsi kimi götürülür.

İngilis dilçiliyində vəziyyət kateqoriyasının semantik təsnifatının ilk təcrübəsidir və bu da məsələ öz həllini hələ ki tapmamışdır. Uzlaşma əlaqəsi söz birləşməsinin komponentləri arasında sintaktik əlaqələrin elə növüdür ki, tabe söz tabeedici sözlə eyni morfoloji formada olur. Uzlaşma hər iki komponent arasında cinsə və cəmiyyətə görə olur. Müasir ingilis dilində cins kateqoriyasına görə uzlaşma əlaqəsi ancaq birinci komponenti say və this that işinə əvəzliklərindən biri ikinci komponenti isə isim olan söz birləşmələrində müşahidə dilir. Yəni tabeedici söz təkdədirsə tabe söz təkdə, cəmdədirsə cəmdə uzlaşır. This book bu kitab, these books – bu kitablar. Nümunələrdən də göründüyü kimi birinci birləşmədə tabedici söz mövqeyində olan book-kitab sözü tək formada olduğu üçün tabe olan söz this – bu işarə əvəzliyi də tək formadadır. Tabeedici sözün tabe sözün müəyyən formada işlədilməsini tələb etdiyi əlaqəyə idarə əlaqəsi deyilir. Bu ingilis dilində ən rast gəlinin əlaqədir. İngilis dilində şəxs əvəzliklərinin feldən və sözönülərdən sonra obyekt halında işlədilməsini idarə əlaqəsinə misal göstərmək olar. To visit us – bizə baş çəkmək, with me – mənimlə. Qrammatik – morfoloji kateqoriyaların çox zəif olduğu ingilis dilində həm söz birləşmələri, həm də cümlələr arasındakı qrammatik əlaqələr əsasən söz sırası ilə ifadə edilir. Müasir ingilis dilində söz sırasının sabitlik və sərbəstlik məsələsi ismin qrammatik kateqoriyaları xüsusənismin hal kateqoriyası ilə sıx sürətdə bağlıdır. İsmin hal kateqoriyası zəif olan yaxud heç olmayan dillərdə söz sırası sabitləşmək məcburiyyətində qalır, ismin hal kateqoriyasının funksiyasının daşımalı olur. Sözlər arasındakı qrammatik əlaqələri ifadə edir.

İngilis dilində vəziyyət bildirən sözlər isə onları digər nitq hissələrindən fərqləndirən semantik, sintaktik və morfoloji xüsusiyyətlərinə malik olmalıdırlar. Bu sözlər xüsusi morfoloji göstəriciyə malikdir, onlara –a ünsürünün köməyilə düzəlir, vəziyyət leksik olaraq digər nitq hissələri ilə ifadə oluna bilər, ingilis dilində verilən kateqoriya morfoloji və sintaktik xüsusiyyətlərə malikdir (2, səh.5-7). Vəziyyət bildirən sözlərin mənasına gəlincə bu kateqoriyalarda dildə geniş yayılmış sabit söz qrupu mövcuddur, ablaze, afire, afraid, ahead və s. Sabit söz predikatlar müxtəlif xarakterik vəziyyəti ifadə edir, məs. afraid , agape, ashamed – şəxsin psixi vəziyyətini alive, awake, asleep – şəxsin fiziki vəziyyətini afoot, agead fəaliyyət hərəkət vəziyyətini alight, afire, ablaze isə predmetin fiziki vəziyyətini göstərir. Qeyri- sabit söz predikativlik iki qrupa ayırmaq olar:

1. Sabit söz – predikativlərə sinonimlik sözlər;
2. Sabit söz predikativlərlə ifadə olunmayan sözlər.

Birinci qrupa aid olan sözlər mənaya görə yaxın olur. Sabit söz predikativlərlə ifadə olunan psixi vəziyyəti göstərmək üçün qeyri-sabit söz predikativlərlə ifadə olunur. Morfoloji strukturuna görə vəziyyət bildirən sözləri üç qrupa bölmək olar: 1) morfoloji üzvlərnən (afire, abloat və s.). Bu daha məhsuldar növdür, burada –a prefiksi önə çıxır, isim, fel və sifət əsasında malikdir. Morfoloji saxta üzvlərnən (aslope, alone). Bu sözlər xüsusi inkişafa malikdir, onların müasir forması morfemlərin ekspansiyasının nəticəsidir. Onlar feldən əmələ gələrək və onunla əlaqəsini tam kəsərək spz-predikativlər cəhətlərini əldə edən sözlərdir. Morfoloji üzvlənməyən (aware, agog, a loof). Müasir ingilis dilində söz – predikativlər sintaktik funksiyalarda işlənir. Tərkibi ismi xəbərin predikativ növü tərkibi ismi xəbərin obyekti predikativ üzvü xüsusiləşməmiş təyin xüsusiləşmiş təyin. Tərkibi üsmi xəbərin predikativ üzvü funksiyasında vəziyyət bildirən sözlər köməkçi fellərlə uyğunlaşır. Məs., Rely on me for breakfast but you`ll be asleep then he became aware of a fiqure in a light suit. She dropped asleep feeling rather sorry for herself.

[24] Azərbaycan Tibb Universiteti. asefixanova@gmail.com

Müasir ingilis dilində ismə xas olan əsas qrammatik kateqoriyalardan biri də hal kateqoriyasıdır. Aydındır ki, ismin hal kateqoriyası, başqa sözlə hal formaları cümlədə və ya söz birləşməsində işlənən digər sözlərlə isim arasında mövcud olan qrammatik əlaqələrin təzahürünü və onların ifadə vasitəsidir. Müasir ingilis dili üçün xarakterik olan analitikdən özünü isimdə daha qabarıq şəkildə biruzə verir. Azərbaycan dilindən fərqli olaraq ingilis dilində ismin yalnız iki halı vardır: ümumi və xüsusi hal. Müasir ingilis dilində ismin ümumi halda olduunu bildirən xüsusi çəkilişi yoxdur. Bu halda ismi morfoloji baxımdan səciyyələndirən formal əlamət onun şəkilçisizliyi hesab edilə bilər (3, səh.21-22).

Azərbaycan dilindən fərqli olaraq ingilis dilində köməkçi fellər mövcuddur. They are afraid of him Emily. Was asleep and snoring. Birinci qrup hal bildirən fellər: to get, to grow, to become, to remain və s. Üçüncü qrup köməkçi fellərə modal felləri aid to slem, to appear fellərini göstərmək olar. İngilis dilinin müasir inkişaf dövründə vəziyyət kateqoriyası modal fellərin tərkibində geniş yayılmışdır. Onun sintaktik funksiyalarının genişlənməsi modal fellərin hesabına baş verir. Hərəkət obyektinin vəziyyəti söz-predikativlə verilir. She kept hiç aloof. Angry and aghasit. She never turns away yeni nitq hissəsi alma prosesində müxtəlif sintaktik funksiyalarda işlənən söz-predikativlik cümlənin digər üzvləri ilə sintaktik əlaqələr qurmaq qabiliyyətinə malikdir. Əvvəlcə onların vəziyyətin mənbəyini göstərən sözönlü tamamlıq, sonra vəziyyətin keyfiyyət və halını göstərən zərfliklərlə əlaqəyə girmək qabiliyyəti inkişaf etdi. Müasir ingilis dilində elə söz birləşmələri var ki, nitq prosesində formalaşır, dildə hansı vəziyyətdə olur. İngilis dili analitik dil olduğu üçün söz birləşmələrində olduğu kimi cümlədə də söz sırası çox böyük əhəmiyyətə malikdir.

2. Булгаков М. А. Собачье сердце. Издательство · АСТ, Серия · Эксклюзивная классика, 2019, 352 с. [интернет-ресурс]: https://www.booksite.ru/fulltext/bul/gak/ov/bulgakov_m/sobachie_serdce/4.htm#:~:text=%D0%92%D0%BE%D1%82%2C%20%D0%B4%D0%BE%D0%BA%D1%82%D0%BE%D1%80%2C%20%D1%87%D1%82%D0%BE%20%D0%BF%D0%BE%2D,%2D%20%D0%A0%D1%8F%D0%B2%D0%BA%D0%BD%D1%83%D0%BB%20%D0%A4%D0%B8%D0%BB%D0%B8%D0%BF%D0%BF%20%D0%A4%D0%B8%D0%BB%D0%B8%D0%BF%D0%BF%D0%BE%D0%B2%D0%B8%D1%87.
3. Горбаневский М.В. Ономастика в художественной литературе: Филологические этюды / М.В.Горбаневский. – Москва: Российский университет дружбы народов (РУДН), 1988. – 88 с.
4. Конышева Н.Ю. Ономастика в повестях М.Булгакова «Собачье Сердце» и «Роковые яйца»//Уральский филологический вестник. 2015. №5. с.174-181
5. Менглинова, Л.Б. (1985): Принцип сатирического обобщения в повести М.Булгакова «Дьяволиада». в: Художественное творчество и литературный процесс. Вып. 7. Томск: Издательство Томского университета. Стр. 127-142.
6. На, Ли (2015): Миф о Москве в «Московской трилогии» М.А. Булгакова («Дьяволиада», «Роковые яйца», «Собачье сердце»). Диссертация. https://docplayer.ru/38381128-Moskovskiy-gosudarstvennyy-universitet-imeni-m-v-lomonosova-filologicheskiy-fakultet-li-na-mif-o-moskve-v-moskovskoy-trilogii-m-a.html.
7. Соколов Б.В. Булгаковская энциклопедия/Б.В. Соколов. – М.: Локид; Миф,1997, 593 с.
8. Этимологический словарь (сост. М.Р. Фасмер,1964-1973) // URL: http://rus-yaz.niv.ru/doc/etymological-dictionary/index.htm

Ключевые слова: Антропонимы, Михаил Афанасьевич Булгаков, семантика, советизмы, ономастикон Булгакова, “Дьяволиада”, “Роковые яйца”, “Собачье Сердце”.

Key words: Anthroponyms, Mikhail Afanasyevich Bulgakov, semantics, sovietisms, Bulgakov’s onomasticon, “Diaboliad”, “The Fatal Eggs”, “Heart of a Dog”.

Açar sözlər: Antroponimlər, Mixail Afanasyeviç Bulqakov, semantika, sovetizmlər, Bulqakovun onomastikonu, “Şeytanlıqlar”, “Ölümcül Yumurtalar”, “İt ürəyi”.

Рузюме

Данная статья исследует семантические и структурные особенности антропонимов в произведениях М.А.Булгакова, сосредотачиваясь на романах "Дьяволиада", "Роковые яйца" и "Собачье сердце". Автор анализирует использование имен персонажей в контексте произведений, выявляя их значения, символическую значимость и влияние на структуру текста. Исследование позволяет более глубоко понять методы создания образов и художественную стратегию Булгакова, раскрывая связь между антропонимами и основными темами и мотивами его произведений. В результате работы представляется новый взгляд на творчество выдающегося русского писателя и его приемы художественного выражения. Для более глубокого анализа, в статье рассматриваются конкретные антропонимы, такие как Рокк, Кальсоньер и Шурик, которые являются ключевыми персонажами в произведениях. Исследование позволяет раскрыть не только лексическую значимость этих имен, но и их роль в формировании образов и сюжетных линий. Сосредотачиваясь на семантической глубине антропонимов, авторы выявляют их символическое значение, связанное с идеологическими и философскими концепциями автора. Кроме того, анализируется эволюция данных персонажей через различные произведения, позволяя проследить изменения их ролей и значения в художественной вселенной Булгакова.

Summary

This article explores the semantic and structural features of anthroponyms in the works of M.A.Bulgakov, focusing on the novels "The Master and Margarita," "The Fatal Eggs," and "Heart of a Dog." The author analyzes the use of character names within the context of the works, revealing their meanings, symbolic significance, and influence on the text's structure. The study allows for a deeper understanding of Bulgakov's methods of creating characters and artistic strategy, uncovering the connection between anthroponyms and the main themes and motifs of his works. As a result of the study, a new perspective on the creativity of the outstanding Russian writer and his techniques of artistic expression is presented. For a more in-depth analysis, specific anthroponyms are examined in the article, such as Rokk, Kallsoner, and Shurik, who are key characters in the works. The research not only reveals the lexical significance of these names but also their role in shaping characters and plotlines. By focusing on the semantic depth of anthroponyms, the authors uncover their symbolic significance related to the author's ideological and philosophical concepts. Furthermore, the evolution of these characters across various works is analyzed, allowing for tracking changes in their roles and meanings within Bulgakov's artistic universe.

Xülasə

Bu məqalə M.A.Bulqakovun əsərlərində antroponimlərin semantik və struktur xüsusiyyətlərini "Şeytan" romanları, "Qəddar Təhlükəsizlik" və "İn qarşıdası" mərkəzdə olmaqla araşdırır. Müəllif əsərlərin məzmunu əsasında personaj adlarının istifadəsini təhlil edir, onların mənasını, simvolik əhəmiyyətini və mətnin strukturunu müəyyənləşdirir. Tədqiqat Bulqakovun təsvir yaratma metotlarını və sənətkarlıq strategiyasını daha dərin anlamağa kömək edir, antroponimlər və onun əsərlərinin

əsas mövzuları və motivləri arasındakı əlaqəni açaraq. İşin nəticəsində müasir Rus yazıçısının yaradıcılığı və sənət ifadəsi üsulları ilə bağlı yeni bir nəzəriyyə ortaya qoyulur. Daha dərin təhlil üçün məqalədə Rokk, Kallsoner və Shurik kimi konkret antroponimlər də müzakirə edilir ki, onlar əsərlərdə əsas personajlardır. Tədqiqat bu adların ləksik mənalarını deyil, onların obrazların və plot xətlərinin formalaşmasındakı rolunu açığa çıxarır. Antroponimlərin semantik dərinliyində mərkəzlənərək, müəlliflər onların müəllifin ideoloji və fəlsəfi konsepsiyaları ilə əlaqələndirdiyi simvolik mənasını üzə çıxarır. Bundan əlavə, müxtəlif əsərlər arasında bu personajların evolyusiyası təhlil edilir, onların rollarının və mənasının Bulqakovun sənət universumunda dəyişikliklərini izləmək imkanı verir.

Rəyçi: prof. L.Əhmədova

Fidan Vidadi qızı Namazova [31]

RƏSUL RZANIN ŞEİRLƏRİNDƏ MORFOLOJİ ÜSULLA YARANAN NEOLOGİZMLƏR

Dil ictimai hadisə olduğu üçün ictimai-iqtisadi, siyasi əlaqələrin dəyişməsi, elm, mədəniyyət və texnikanın inkişafını özündə əks etdirir. Bununla əlaqədar olaraq da, daima köhnə ilə yeni arasında rəqabət gedir. Belə ki, köhnəlmiş məfhumlar sıradan çıxır, onların yerini yeni-yeni məfhumlar tutur. Cəmiyyətdə baş verən bu dəyişikliklər də öz əksini dilin leksikasında, lüğət tərkibində tapır. Bu baxımdan dilimizin lüğət tərkibini işlədilmə dərəcəsinə görə iki yerə bölmək olar: a) aktiv söz ehtiyatı, b) passiv söz ehtiyatı [2, s. 249].Azərbaycan ədəbi dilində danışan hər bir şəxsin dilində, nitqində işlədilən sözlər, yəni həm yenilik çalarından, həm də köhnəlik çalarından məhrum olan sözlər lüğət tərkibinin aktiv ehtiyatına daxildir. Həmçinin, bunların əksinə olaraq köhnəlmiş və ümumi xalq dilində istifadə olunmayan yeni sözlər isə passiv leksikaya daxildir. Birinci qrupa daxil olan sözlərə – ümumişlək, danışıq, loru, dialektizmlər, peşə-sənət, termin söz qrupları daxildir. İkinci qrupa köhnəlmiş və neologizmlər daxildir.

"Dildə müəyyən mənalı vahid kimi əmələ gəlmiş, yeni əşya və hadisələri adlandıran, öz yeniliyini və təzəliyini hiss etdirən və hələ dilin aktiv leksikasına daxil olmamış sözlərə neologizmlər deyilir" [2, s. 266]. Neologizmləri istifadə dairəsinə görə ümumi və xüsusi-fərdi neologizmlər olaraq bölürlər. Bədii yaradıcılıq zamanı sənətkarlar, yazıçılar ancaq ümumxalq dilində işlənən sözlərlə kifayətlənmirlər. Eyni zamanda yazıçılar bu və ya digər məzmunu, çatdırmaq istədiyi mətləbi oxuculara daha təsirli çatdırmaq üçün, hadisələri daha ekspressiya ilə təsvir etmək üçün, üslubi məqsədindən asılı olaraq yeni-yeni sözlər, ifadələr yaratmalı olurlar. Üslubi tələbatla bağlı əlaqədar meydana gələn bu cür yeni söz və ifadələr dilçilik ədəbiyyatında üslubi neologizmlər adlanır. Bunlar müxtəlif yazıçılar tərəfindən məqsədəuyğun yaradılan, oxucularda olduqca təsirli situasiyalar, hiss-həyəcanlar əmələ gətirən fərdi neologizmlərdir. Üslubi neologizmlər yazıçıların dilində xüsusi mövqeyə malikdir.

Rəsul Rza bütün yaradıcılığı boyu yeniliyə can atan, çeynənmiş söz və ifadələri təkrar etməyən, poeziyasını zənginləşdirən sənətkarlardan biri olmuşdur. Bu baxımdan Rəsul Rzanın yaradıcılığını yaxından izlədikdə görürük ki, onun yaratdığı üslubi neologizmlər dilimizin öz milli varlığı və qanunauyğunluqları əsasında yaradılmışdır. Rəsul Rzanın dilindəki üslubi neologizmlər onun fərdi üslubunun leksik mənzərəsi kimi səciyyələnir [3, s. 161]. O, fikrini oxuculara orijinal-ekspressiv şəkildə çatdırmaq üçün həmişə yeni vasitələrdən istifadə etmişdir.

Dilçilik ədəbiyyatında qeyd olunur ki, üslubi neologizmlər üç yolla əmələ gəlir: semantik, morfoloji və sintaktik. Semantik yolla əmələ gələn üslubi neologizmlərə sənətkar və yazıçıların dilində nadir hallarda rast gəlinir. Semantik yolla əmələ gəlmə yolunda neologizmlər fonetik tərkibini olduğu kimi saxlayaraq, mənasının dəyişməsi, yeni məna kəsb etməsi yoludur. Ümumiyyətlə, söz yaradıcılığının ən fəal və ən məhsuldar üsulu morfoloji yolla söz yaradıcılığıdır. Rəsul Rza bu üsuldan istifadə edərkən həm dilimizin məhsuldar şəkilçilərindən, həm də qeyri – məhsuldar şəkilçilərindən istifadə etmişdir. Bunlarla R.Rza özünəməxsus leksik neologizmlər yaratmışdır. Məhsuldar və qeyri – məhsuldar şəkilçi anlayışı Rəsul Rza üçün şərti məna daşıyır. Bu baxımdan qeyd etmək olar ki, o, ədəbi dildəki qeyri – məhsuldar olan şəkilçiləri öz yaradıcılığında fəal şəkildə işlətmişdir. Apardığımız tədqiqatlara əsasən Rəsul Rzanın söz yaradıcılığında ən çox aşağıdakı şəkilçilərin işlədilməsinə rast gəlmək mümkündür:

– *Daş* şəkilçisi. Azərbaycan dilində bir formada işlənən, qeyri – məhsuldar olan şəkilçilərdəndir. Bu şəkilçi isimlərə qoşularaq şəriklik bildirən substantiv isimlər əmələ gətirir [1, s. 77]. Rəsul Rzanın diqqətini birgəlik, şəriklik mənaları çəkdiyi üçündür ki, o, yaradıcılığında ona xüsusi yer verirdi. Rəsul Rza bu şəkilçiyə humanist mövqeyinə görə meyl edirdi. Şairin poeziya yaradıcılığında *–daş* şəkilçisi olduqca məhsuldar bir şəkilçidir. Azərbaycan ədəbi dilində olmayan bu şəkilçi vasitəsilə *işdaş, iclasdaş, patrondaş, əsrdaş, dünyadaş, zamandaş* və s. kimi neologizmlər yaratmışdır. Bu neologizmləri hər dəfə bu və ya digər mətnlərdə işlətmiş, onları səciyyələndirmişdir. Şair bu neologizmlər vasitəsilə fikrini oxucuya daha obrazlı, daha təsirli şəkildə çatdırmışdır. R.Rzanın *–daş* şəkilçisindən poeziyasında geniş istifadə etməsinin başlıca səbəblərindən biri də dilə, sözə qənaət meyli ilə sıx bağlıdır. Belə ki, şair *sinif yoldaşı* sözünün əvəzinə *sinifdaş, silah yoldaşı* sözünün əvəzinə *silahdaş, dünya yoldaşı* sözünün əvəzini *dünyadaş* işlətmişdir. Bununla da Rəsul Rza yeni, fərdi sözlər yaratmaqla asan yol tutmamış, fikrini daha konkret, daha yığcam ifadə etmişdir.

Əziz vətəndaşım, *əsrdaşım*,
xoş qayıtdın doğma elə [5, s. 111].
Nə üzə görə sənə dost dedim,
nə yarım ömür
iclasdaş olduğumuza görə [4, s. 357].

Qeyd etdiyimiz nümunələrdə *əsrdaş, iclasdaş* neologizmləri *"yoldaş"* mənasında işlənmişdir. *Əsrdaş* sözü *əsr yoldaşı, iclasdaş* sözü *iclas yoldaşı* mənasındadır. Həmin bu ifadələr şeirin təsirliliyini, ifadəliliyini daha da artırır.

Rəsul Rza novator bir sənətkar olduğu üçün o, daima estetik həqiqəti dərk edib, anlayır və yuxarıda qeyd etdiyimiz kimi həmişə yığcamlığı reallaşdırır:

Bəs deyilmi,
zamandaş, *dünyadaş*?! [5, s. 152].

[31] Bakı Dövlət Universiteti Azərbaycan dilçiliyi kafedrasının magistrantı. E-mail: fidannamazova09@mail.ru

Şairin yaradıcılığından gətirdiyimiz *–daş* şəkilçili sözlər müxtəlif zamanlarda, müxtəlif şeirlərdə dönə-dönə işlənmişdir. Və heç zaman da dili ağırlaşdırmır, təkrar kimi görünmür.

–çı, –çi, –çu, –çü şəkilçisi. Rəsul Rzanın yaradıcılığında bu şəkilçilərlə işlənən neologizmlər olduqca məhsuldardır. Şair –çi… şəkilçisinin mənasından üslubi məqsədəuyğun şəkildə istifadə edir, sözlərə qoşulan bu şəkilçi peşə – sənət və ya yaxud da nominativ ictimai – siyasi mənanın ifadəsinə yönəldilir və yaranan sözə yalnız R.Rzanın dilində rast gəlinir:

Nə böyük səadətdir
nəğməçi olmaq; insanları insanlaşdıran
köklərlə, xallarla könüllərə dolmaq [5, s. 35].

Bundan başqa "*Qonşu paxıl olmasa, bağ çəpəri neyləyir*" şeirində də "*sığalçı*" neologizmin yaratmışdır. Yaxud da həmin şəkilçi vasitəsilə şair kinayə, istehza kimi çalarların ifadəsində də bundan istifadə edir. Bu baxımdan Rəsul Rzanın "*Bəzi-bəzi" azarı"* olduqca məşhurdur:

Adlarını çəkmirəm belə *bəziçilərin*
bir-bir yeri gələndə?
Bu *bəzi-bəziçilər* bir deyil, iki deyil… [5, s. 202]

Bundan əlavə, R. Rza *"Bir infarktın tarixçəsi"* şeirində insanın ölümü ilə bağlı həkimin dediklərilə razılaşmayaraq, onun əxlaqi-mənəvi səbəblərini axtarmışdır. Həmin bu şeirində Rəsul Rza oxucuya fikrini daha aydın şəkildə çatdırmaq üçün "*səbəbkar*" sözünün əvəzinə "*səbəbçi*" sözünü işlətmişdir.

Məsələ burasındadır ki, Rəsul Rzanın sovet dövrüylə əlaqədar yaratdığı bir sıra üslubi neologizmlər də vardır ki, onlar artıq leksik vahid kimi bu günki dövrdə arxaikləşmişdir. Lakin həmin sözlər Rəsul Rzanın dilindəki söz yaradıcılığının məhsuludur. Bu qrupa daxil olan sözlərə nümunə: *yubileyçi, leninçi, əməkçi, sergeyeviçi və s.* neologizmləri daxildir. Bunlardan başqa, *anonimçi, şerçi, şirçi, ilkçi, mənçi* və s. kimi sözlər Rəsul Rzanın dilində işlənmişdir. Bu şəkilçi vasitəsilə demək olar ki, şair yaradıcılığında istədiyinə nail olmuşdur. Gətirdiyimiz nümunələrdə *şerçi və ilkçi* neologizmləri diqqəti çəkir. Dilimizdə "*şair*" sözü olduğu halda, "*şerçi*" sözünə, "*birinci*" sözü olduğu halda "*ilkçi*" sözünə bəlkə də ehtiyac yox idi. Lakin Rəsul Rza bu sözlərdən istifadə edərək sözlərin təbii səslənməsinə nail olmuş, fərdi poetik dilini zənginləşdirmişdir.

Arxana, önünə nəzər sal bir an,
görərsən, nə *ilkçi*, nə sonuncusan [4, s. 309].

"*Birinci*" sözü ilə "*sonuncu*" sözünün mənaları arasındakı ziddiyyət, "*ilkçi*" və "*sonuncu*" sözləri arasındakı ziddiyyətdən daha qabarıq şəkildə nəzərə çarpır. Əlbəttə, nümunələr gətirilən sözlərlə kifayətlənmir, lakin həmin bu şəkilçi ilə üslub manevrləri haqqında bu nümunələr də müəyyən qədər təsəvvür yaratmağa imkan yaradır.

–xana şəkilçisi. Bu şəkilçi haqqında dilçilik ədəbiyyatlarında qeyd olunur ki, fars dilində ev mənasında işlədilir. Bu isə dilimizdə *xana* formasında şəkilçiləşərək məkan, ev, bina mənasında substantiv isimlər əmələ gətirir. Doğrudur, *–xana* şəkilçisi Rəsul Rzanın dilində o qədər də fəal işləkliyə malik olmasa da, bu şəkilçi ilə düzələn bir sıra neologizmlərlə rastlaşmaq mümkündür. Şair belə hallarda daha çox mücərrəd mənalı isimlər əmələ gətirmişdir. Rəsul Rzanın poeziyasında *zülmətxanalar, qafiyəxana, qəzetxana* kimi neologizmlərin işlədilməsinə şahid oluruq.

Neyləyim, əzizim?
Gözlərimi yumub,
qulaqlarımı tıxayımmı,
bu *insanxanada* [5, s. 146]?

"İnsanxana" deyildikdə insana qarşı gözəl hisslər, estetik duyğular oyandırmaq cəhətlərindən bir qədər uzaqlaşır. Belə ki, şairin müqəddəs tutduğu *insan* bir qədər öz müqəddəsliyini itirmiş olur. *"İnsanxana"* deyildikdə "*dünya", "yer kürəsi"* mənalarında işlənmişdir.

Yazıçı hər zaman çalışmalıdır ki, onun fərdi leksikasında işlətdiyi söz, ifadələr oxucuların rəğbətini qazansın, hətta müəyyən məqamlarda xalqın ünsiyyətinə keçsin, dilin lüğət tərkibinin zənginləşməsi üçün başlıca rol oynasın. Rəsul Rzanın poeziyası, yaradıcılığı belədir, daima oxucu leksik zənginliyinə, poetik gücünə görə onun dilini sevir və ondan faydalanır.

İstifadə edilmiş ədəbiyyat

1. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, 1960, 178 s.
2. Həsənov H.Ə Müasir Azərbaycan dilinin leksikası, Bakı: Nurlan, 2005, 452 s.
3. Məmmədova N.H. Rəsul Rza və sərbəst şeirin dili məsələsi. Bakı, 2004, 262 s.
4. Rəsul Rza. Seçilmiş əsərlər, I cild. Bakı: Azərnəşr, 2002, 457 s.
5. Rəsul Rza. Seçilmiş əsərlər, II cild. Bakı: Azərnəşr, 2002, 463 s.

Açar sözlər: Rəsul Rza, poeziya, neologizm, morfoloji üsul, şəkilçi
Key words: Rasul Reza, poetry, stylistic neologism, morphological method, suffix
Ключевые слова: Расул Реза,поэзия,стилистический неологизм, морфологический метод, суффикс

Rəsul Rzanın dilində üslubi neologizmlər

Xülasə

Azərbaycan dilinin lüğət tərkibi rəngarəngdir. Dil ictimai hadisə olduğu üçün ictimai-iqtisadi, siyasi əlaqələrin dəyişməsi, elm, mədəniyyət və texnikanın inkişafını özündə əks etdirir. Bununla əlaqədar olaraq da, daima köhnə ilə yeni arasında rəqabət gedir. Belə ki, köhnəlmiş məfhumlar sıradan çıxır, onların yerini yeni-yeni məfhumlar tutur. Bütün bu dəyişikliklər də öz əksini dilin leksikasında tapır. Bu baxımdan da dilin lüğət tərkibinə daxil olan leksik vahidlər işlənmə dərəcəsinə görə

aktiv və passiv leksika olmaqla iki yerə ayrılırlar. Aktiv leksikaya ümumişlək, termin söz qrupları, danışıq, loru və dialektizm söz qrupları daxildir. Passiv leksikaya isə neologizmlər və köhnəlmiş sözlər daxildir. Neologizmlərin xüsusi işlənmə məqamları vardır ki, bunların üslubi rəngarəngliyi Rəsul Rzanın yaradıcılığında özünü göstərir. Belə ki, Rəsul Rza fikrini oxucuya daha aydın, obrazlı çatdırmaq üçün poeziyasında yeni vasitələrdən, sözlərdən istifadə etmişdir. Rəsul Rza yaradıcılığında morfoloji yolla əmələ gələn neologizmlərdən daha çox istifadə etmişdir. Bu nöqteyi nəzərdən, o, həm məhsuldar, həm də qeyri-məhsuldar şəkilçilərdən geniş şəkildə işlədərək poeziyasına xələl gətirmədən çatdırmaq istədiyi fikri daha obrazlı, poetik şəkildə oxuculara çatdırmışdır. Rəsul Rza həm morfoloji üsuldan, həm də sintaktik üsuldan istifadə edərək poeziyasını zənginləşdirmişdir. Morfoloji üsulla yaranan neologizmlərin hər biri Rəsul Rzanın yaradıcılığının ekspressivliyinə, ifadəliliyinə, yığcamlığına, bir sözlə, dilinin estetikasına xidmət göstərir.

Stylistic neologisms in Rasul Rza's language

Summary

The vocabulary of the Azerbaijani language is colorful. Since language is a social event, it reflects the change of socio-economic, political relations, the development of science, culture and technology. In this regard, there is always a competition between the old and the new. So, outdated concepts are being replaced by new concepts. All these changes are reflected in the lexicon of the language. From this point of view, the lexical units included in the vocabulary of the language are divided into active and passive lexicon according to the degree of development. The active lexicon includes generalization, term word groups, conversational, idiomatic and dialectic word groups. Passive vocabulary includes neologisms and obsolete words. Neologisms have special development points, the stylistic diversity of which is manifested in Rasul Rza's work. Thus, Rasul Reza used new tools and words in his poetry to convey his thoughts to the reader more clearly and figuratively. Rasul Rza used more morphologically formed neologisms in his works. Considering this point of view, he used a wide range of both productive and non-productive suffixes to convey the idea he wanted to convey to the readers in a more figurative and poetic way without harming his poetry. Rasul Reza enriched his poetry by using both the morphological method and the syntactic method. Each of the neologisms created by these two methods serves the expressiveness, expressivity, conciseness of Rasul Rza's creativity, in short, the aesthetics of his language.

Стилистические неологизмы в языке Расула Разана

Резюме

Лексика азербайджанского языка красочна. Поскольку язык является социальным явлением, он отражает изменение социально-экономических, политических отношений, развитие науки, культуры и техники. В связи с этим всегда существует конкуренция между старым и новым. Таким образом, устаревшие концепции заменяются новыми. Все эти изменения отражены в лексике языка. С этой точки зрения лексические единицы, входящие в словарный запас языка, по степени развития делятся на активную и пассивную лексику. Активный словарный запас включает в себя обобщающие, терминологические группы слов, разговорные, идиоматические и диалектические группы слов. Пассивная лексика включает неологизмы и устаревшие слова. Неологизмы имеют особые точки развития, стилистическое разнообразие которых проявляется в творчестве Расула Рзы. Таким образом, Расул Реза использовал в своей поэзии новые средства и слова, чтобы более четко и образно передать свои мысли читателю. Расул Рза использовал в своих произведениях более морфологически оформленные неологизмы. Учитывая эту точку зрения, он использовал широкий спектр как продуктивных, так и непродуктивных суффиксов, чтобы более образно и поэтически передать идею, которую он хотел донести до читателей, не нанося вреда своей поэзии. Расул Реза обогатил свою поэзию, используя как морфологический, так и синтаксический метод. Каждый из неологизмов, созданных этими двумя методами, служит выразительности, экспрессивности, лаконичности творчества Расула Рзы, словом, эстетике его языка.

Rəyçi: Filologiya elmləri namizədi, dosent İsmayıl Məmmədov

Yaşar Alim oğlu Nuriyev [32]

İNGİLİS DİLİNDƏ İNVERSİYA

İngilis dilində inversiya vurğu yaratmaq, dramatikliyi qabartmaq və ya rəsmilik üçün işlədilir. Feilin mübtədadan əvvələ keçməsi, yaxud zərfliyin cümlənin əvvəlinə yerləşdirilməsi *inversiya* kimi qəbul edilir.

R.Nordquist inversiya barədə yazır: "İngilis dilində inversiya normal söz sırasının dəyişdirilməsi hesab edilir. Xüsusilə də feilin mübtədadan əvvələ keçməsi inversiya kimi müəyyən edilir. İnversiya üçün ritorikada adətən hiperbaton terminindən istifadə olunur. İnversiyanın bu növü *üslubi* və ya *lokativ* inversiya adlanır" [1, s. 6].

İstənilən dildə söz sırası mühüm əhəmiyyət kəsb edir. Hər bir dildə sözlərin müəyyən edilmiş ardıcıllıqla düzülməsi, yəni cümlə əmələ gətirəcək tərzdə düzülməsi *söz sırası* adlanır. Müasir ingilis dilində söz sırası supraseqment vahidlərdən biri hesab olunur. Supraseqment vahidlər ayrılıqda mövcud olmur, onlar seqment vahidlərlə reallaşır, onlar üzərində fəaliyyət göstərir və müxtəlif funksiyalar ifadə edir [2, s. 146].

Ünsiyyət prosesində ən çox istifadə olunan vahidlərdən biri cümlədir. Cümlə ünsiyyətin qurulmasına xidmət edir. Ünsiyyət zamanı işlədilən cümlələrdə müxtəlif fikirlər ifadə olunur. Həmin fikirlərdə fərqli cümlələr işlədilir, cümlələr müxtəlif həcmli, müxtəlif tərkibli ola bilir.

Ünsiyyətdə işlədilən cümlələr ünsiyyətin tərkibindən asılı olaraq, həmçinin qrammatik quruluşlarına görə müxtəlif cür ola bilir. Həm ünsiyyətdə icra etdikləri məqsədlərinə görə, həm də cümlələrdə əks olunan qrammatik quruluşlarına görə cümlələr müxtəlif qruplara bölünür.

Ünsiyyətdəki məqsədlərinə görə, cümlələrin bölgüsünü belə verə bilərik:

1) Nəqli cümlə; 2) sual cümlələri; 3) əmr cümləsi; 4) nida cümləsi [3, s. 356].

Bu cümlələrin hər birinin öz quruluşu, söz sırası vardır. Onlardan bəzilərini nəzərdən keçirək.

Nəqli cümlənin tərifini belə verə bilərik: "Hər hansı bir məlumatı vermək üçün işlətdiyimiz cümlə növü nəqli cümlədir" [4, s.156]. Nümunələrə baxaq:

1) *My grandfather seemed to think the items had some importance beyond the gold* [5, s. 132]. *(Babam görünür elə düşündü ki, əşyaların qızıldan daha çox əhəmiyyəti var).*
2) *The only reason it's never been examined any closer was that the original map was missing* [5, s. 132]. *(Onun heç vaxt daha dərindən araşdırılmamasının yeganə səbəbi orijinal xəritənin olmaması idi).*

O.Musayev yazır ki, müasir ingilis dilində cümlənin baş üzvləri mübtəda+xəbər ardıcıllığı ilə düzülür, yəni cümlənin əvvəlində mübtəda, ondan sonra isə xəbər gəlir [6, s. 356]. Məsələn:

Sam and Remi (subject) left (predicate) before dawn the following morning. [5, s. 51] *(Sem və Remi ertəsi gün səhər yola düşdülər).*

Hər hansı bir məlumatı öyrənmək, yaxud nəyisə bilmək üçün işlətdiyimiz cümlələrə *sual cümlələri* deyilir [7, s. 90].

Müasir ingilis dilində sual cümlələrinin aşağıdakı növləri vardır: 1) ümumi suallar; 2) xüsusi suallar; 3) alternative suallar; 4) discanktiv suallar. Nümunələrlə həmin sual növlərini və onlardakı söz sırasını nəzərdən keçirək:

Ümumi sual:

1) *Did the driver take them through the countryside? (Sürücü onları kəndin arası ilə apardı?)* söz sırası: [köməkçi feil+mübtəda+xəbər .....?]
2) *Did he and Remi get out, joining Durin and Zakaria at the edge of the roadway?* [5, s. 33] *(O və Remi yolun kənarında Durin və Zəkəriyyəyə qoşularaq çıxdılar?)* söz sırası: [köməkçi feil+mübtəda+xəbər .....?]

Xüsusi sual:

1) *Who beamed as though he had worn a great victory? (Kim böyük bir qələbə qazanmış kimi işıq saçdı?)* söz sırası: [sual əvəzliyi+xəbər .....]

Alternativ sual:

Did Remi survey the area or the hillside? (Remi ərazini, yoxsa təpənin yamacını tədqiq etdi?) söz sırası: [köməkçi feil+mübtəda…..or ….?]

Did he glance at Zakaria, or at Remi? (0, Zəkəriyyəyə baxdı, yoxsa Remiyə?) söz sırası: [köməkçi feil+mübtəda…..or ….?]

Discanktiv sual:

This is a big kitchen, isn't it? [5, s. 377] *(Bu böyük mətbəxdir, elə deyilmi?)*

söz sırası: [mübtəda+xəbər…., taq?]

One of the things that Roberta soon found was that her intuitive notions in regard to all this were not without speedy substantiation, didn't she? [5, s. 381] *(Robertanın tezliklə öyrəndiyi şeylərdən biri də o idi ki, bütün bunlarla bağlı onun intuitiv anlayışları tez bir şəkildə əsaslandırılmır, elə deyilmi?)*

söz sırası: [mübtəda+xəbər…., taq?]

Hər hansı bir hərəkətin icrası üçün (əmr, xahiş və s.) işlədilən cümləyə *əmr cümləsi* deyilir.

Nümunəyə baxaq:

Try that again later [5, s. 159]. *Bunu bir qədər sonra yenidən yoxlayın).*

[32] Filologiya üzrə fəlsəfə doktoru. Azərbaycan Dillər Universiteti

Məlum olduğu kimi, istənilən dildə söz sırasının sabitlik və sərbəstlik dərəcəsi həmin dilin qrammatik, morfoloji quruluşundan asılı olur. Belə ki, dilin morfoloji quruluşu nə qədər zəngin olarsa, həmin dilin söz sırası da o qədər sərbəst olur.

İngilis dilində söz sırası sabitdir. Bu da onu göstərir ki, biz müxtəlif üzvlərin yerini istədiyimiz kimi dəyişə bilmərik, xüsusilə də mübtəda ilə tamamlığın. Bir nümunəyə baxaq:

Mr. Bark sent a new girl with a message to the doctor. (Cənab Bərk həkimə yeni qızla mesaj göndərdi).

Bü nümunədə *Mr. Bark* mübtədadır və *a new girl* vasitəsiz tamamlıqdır. Bunlar morfoloji cəhətdən bir-birindən fərqlənmir, onları fərqləndirən əsas əlamət cümlədəki mövqeyidir, yəni mübtəda cümlənin əvvəlində, xəbərdən əvvəl, tamamlıq isə xəbərdən sonra işlənir. Bu nümunədə sözlər arasında yerdəyişmə etsək, o zaman cümlənin mənası dəyişəcəkdir. Cümlə daxilində sözlərin yerinin dəyişməsi isə çox zaman məna dəyişikliyinə, səhv anlaşılmaya aparıb çıxara bilər.

D.Yunusov yazır ki, söz sırasının standart qaydadan kənara çıxmasına *inversiya və ya inversiyalı söz sırası* deyilir [9, s. 147].

Emosional nitqdə cümlənin üzvlərinin, xüsusilə cümlənin baş üzvlərinin yerinin dəyişməsi zamanı inversiya müşahidə etmək olar. İnversiya zamanı xəbərin bəzən bir hissəsi əvvələ keçir, bəzənsə xəbər tam şəkildə mübtədadan əvvələ keçə bilər. Bu vəziyyəti nitq hissələri arasında da müşahidə etmək olur. Məsələn, zərf və ya zərf birləşmələri də müəyyən vəziyyətlərdə cümlənin əvvəlində yerləşdirlə bilər.

C.Liç və J.Svartvik ingilis dilində iki növ inversiyanı irəli sürürlər [10, s. 140]:

1) mübtəda-xəbər inversiyası; xəbər-mübtəda inversiyası. Məsələn:

The tears came down her cheeks. (Göz yaşları onun yanaqlarından aşağı axdı).

İnversiya: Came down the tears her cheeks.

2) mübtəda-operator inversiyası. Məsələn:

He has never seen me so angry. (O, məni heç vaxt belə qəzəbli görməmişdi).

İnversiya: Never has he seen me so angry.

I never saw him so angry. (Mən heç onu belə qəzəbli görməmişəm).

İnversiya: Never did I see him so angry.

Hazırda müasir ingilis dilində iki növ inversiya fərqləndirilir:

1) qrammatik inversiya; 2) üslubi (stilistik) inversiya.

Qrammatik inversiya əsasən qrammatik qaydalarla düzələn inversiyanı əhatə edir.

Üslubi inversiyada cümlənin tərzi, ifadə forması dəyişir; bu inversiyada əsas diqqət cümlədə, yaxud mətndə stilistik effekt əldə etməyə yönəlir.

İngilis dilində inversiya müxtəlif səbəblərdən işlədilir. Həmin səbəbləri aşağıdakı kimi müəyyən edə bilərik:

1. Sual cümlələrində mütləq inversiya müşahidə olunur. Məsələn:

Normal cümlə: He is tired. Bu nümunədə ardıcıllıq belədir: Mübtəda+bağlayıcı feil +xəbərin bir hissəsi, yəni predikativ.
Sualda: Is he tired? Bu nümunədə xəbərin bir hissəsi mübtədadan əvvələ keçir və inversiya yaranır.

2. İngilis dilində bir sıra zaman formalarında inversiya zamanı köməkçi feil sadəcə mübtədadan əvvələ keçir [8, s. 90].

Məsələn: He has written the letter. – Has he written the letter?
He has just returned from London. – Has he just returned from London?
They are moving to a new flat. – Are they moving to a new flat?
İndi isə inversiya müşahidə olunan zaman formalarını təqdim edək:
1) The present continuous tense form:
Am I reading the same book?
Are you moving to a new flat?
2) The past continuous tense form:
Was he speaking to the dean when I saw you?
Were they speaking to their parents when we saw them in the yard?
3) The present perfect tense form:
Have they arrived from work yet?
Has he already arrived from the museum?
4) The present perfect continuous tense form:
Has she been living in this flat for some years?
Have they been living in this house since last year?
5) The past perfect tense form:
Had you already gone to the theatre by this time yesterday?
6) The past perfect tense form:
Had they been discussing this problem for some minutes by this time yesterday?
7) Future indefinite tense from:
Will they go to the theatre tomorrow?
8) The future continuous tense form:
Will they be teaching English by this time tomorrow?

9) The future perfect tense form:
Will they have already gone to their home by this time tomorrow?
10) The future perfect continuous tense form:
Will she have been teaching English for 2 years by this time the neaxt year?
Modal feillərin sual formasında da inversiya müşahidə olunur:
Must they go home?
Can you help them? və s.
İnversiya çox sual cümlələrində müşahidə olunur, lakin inversiya digər hallarda da işlədilir.
Müasir ingilis dilində inversiya aşağıdakı vəziyyətlərdə işlədilə bilir [6, s. 79]:

1) Zərf və zərflik birləşməsini cümlənin əvvəlinə keçirdikdə. Bu cümləyə, yaxud şifahi nitqə emfatiklik qatmaq məqsədilə edilir. Birləşmənin cümlənin əvvəlinə keçməsi cümləni daha həyəcanlı, təəccüblü və qeyri-adi edir. Nümunələrə baxaq:

Normal cümlə: I have seldom seen such beautiful women. (Mən belə gözəl qadınları nadir hallarda görürəm).

İnversiya: Seldom have I seen such beautiful women.

Seldom zərfini cümlənin əvvəlinə keçirməklə inversiya yaradıb cümlənin mənasını daha güclü edirik.

Bədii mətndən nümunələrə baxaq:

It took about twenty minutes. Sergei drove while Sam, gun in hand, kept an eye on the side mirror and on every car they passed. They pulled up to an ivy-covered gabled house on a cobbled road finally. A brick walk led to Miron's front door, which he unlocked, allowing them in. He leaned his brass-headed cane against wall after locking the door behind them, he leaned his brass-headed cane against wall, and then took off his glove, scarf, and hat and left the room slowly [5, s. 131]. *(O, təxminən iyirmi dəqiqə çəkdi. Əlində tapança olan Sem yan güzgülərə və onların keçdikləri hər bir avtomobilə göz dikərkən, Sergey avtomobili idarə edirdi. Nəhayət, daş döşənmiş bir yolda sarmaşıqla örtülmüş bir evə çatdılar. Kərpic yolu Mironun qabaq qapısına aparırdı, o, qapını açdı və onları içəri buraxdı. O, qapını arxadan bağladıqdan sonra mis başlı dəyənəyini divara söykədi, mis başlı dəyənəyini divara söykədi, sonra yavaş-yavaş əlcəyini, şərfini və papağını çıxardıb otaqdan çıxdı).*

İndi inversiya yaradaq:

It took about twenty minutes. Sergei drove while Sam, gun in hand, kept an eye on the side mirror and on every car they passed. Finally, they pulled up to an ivy-covered gabled house on a cobbled road. In a brick walk led to Miron's front door, which he unlocked, allowing them. After locking the door behind them, slowly he leaned his brass-headed cane against wall, and then took off his glove, scarf, and hat and left the room [5, s. 131].

Göründüyü kimi, mətndə zərf və zərflik birləşmələrinin yerini dəyişməklə mətnin mənasını daha güclü edir, emfatikliyi artırmaqla mənanı daha ifadəli edə bilirik.

Tədqiq edilən mövzudakı araşdırmalar aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1) Müasir ingilis dilində söz sırası tarixi kateqoriyadır.
2) Dildə sözlərin sırası sabit və sərbəst ola bilir. İngilis dilində söz sırası sabitdir, çünki ingilis dilində mübtəda və xəbərin yeri sabit olur, yəni müəyyən qayda olmasa, biz onların (mübtəda və xəbərin) yerini dəyişə bilmərik.
3) İngilis dilində söz sırasının hər hansı bir qaydadan kənara çıxması inversiya kimi qəbul edilir.
4) Bəzi hallarda inversiya geniş istifadə oluna bilir. Bu o zaman olur ki, emosional nitqdə cümlənin baş üzvlərinin yeri dəyişir.
5) İngilis dilində inversiyanın bir neçə növü müəyyən edilmişdir:
   1) mübtəda-xəbər inversiyası; xəbər-mübtəda inversiyası;

   2) mübtəda-operator inversiyası.

   Növbəti növ isə:

6) qrammatik inversiya; üslubi (stilistik) inversiya.
   Qrammatik inversiya əsasən qrammatik qaydalarla düzələn inversiyanı əhatə edir.

   Üslubi inversiyada cümlənin tərzi, ifadə forması dəyişir; bu inversiyada əsas diqqət cümlədə, yaxud mətndə stilistik effekt əldə etməyə yönəlir.

İstifadə edilmiş ədəbiyyat

1) Nordquist R. Crossing Boundaries: Studies in English Language, Literature, and Culture in a Global Environment New Edition. Oxford: Oxford University Press, 2010, 154 p.
2) Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı: Mütərcim, 2015, 376 s.
3) Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 1997, 608 s.
4) Каушанская, В.Л., Ковнер Р.Л., Кожевникова О.Н. и др. Грамматика английского языка (на англ. языке). Л.: Просвещение, 1973, 319 с.
5) Cussler C. The Romanov Ransom. USA: Penguin books, 2018, 407 p.
6) Musayev, O.İ. İngilis və Azərbaycan dili cümlələrində sözlərin sırası. Bakı: Azərtədrisnəşr, 1960, 81 s.

7) Swan M. Practical English Usage. Oxford: Oxford University Press, 2006, 658 p.
8) Musayev, O.İ. İngilis və Azərbaycan dili cümlələrində sözlərin sırası. Bakı: Azərtədrisnəşr, 1960, 81 s.
9) Yunosov D. Müqayisəli tipologiya. Bakı: Mütərcim, 2012, 180 s.
10) Leech G., and J. Svartvik. A Communicative Grammar of English. Longman: University of Oxford, 2002, 747 p.
11) Ganshina M.A., Vasilevskaya N.M.English Grammar. M.: Higher School Publishing House, 1964, 325 p.
12) Haukins J.A Parsing Theory of Word Order Universals. UK: Oxford University Press, 1990, 379 p.

Açar sözlər: cümlə, söz sırası, inversiya, üslub, feil, mübtəda
Key words: sentence, word order, inversion, style, verb, subject
Ключевые слова: предложение, порядок слов, инверсия, стиль, глагол, подлежащее

İnversion in english

Summary

The article deals with inversion in English. It states that in English, inversion is used for emphasis, drama, or formality. Moving the verb from the subject to the beginning or placing the adverb at the beginning of the sentence is considered to be an inversion. In English, inversion is used for a variety of reasons and the reasons have been analyzed in the article. The conclusion covers the facts that have been touched upon in the article.

Инверсия в английском языке

Резюме

В статье рассматривается инверсия в английском языке. В нем говорится, что в английском языке инверсия используется для акцентирования, драматизма или формальности. Перенос глагола из подлежащего в начало или размещение наречия в начале предложения считается инверсией. В английском языке инверсия используется по разным причинам и причины проанализированы в статье. Заключение охватывает факты, которые были затронуты в статье.

Rəyçi: dos.L.Ələkbərova

Natavan Seyidzadə [33]

XIX ƏSRDƏ AZƏRBAYCANDA YARANMIŞ DİLÇİLİK ƏSƏRLƏRİ

XIX əsrin sonu, Azərbaycan xalqının tarixində mürəkkəb ictimai-siyasi və mədəni hadisələrlə zəngin olmuşdur. Bu dövrdə xalqın savadlanması, mədəni tərəqqinin irəliləməsi uğrunda mübarizə genişlənməyə başlamışdı. Bu dövr "milli özünüdərkin keyfiyyətcə yeni mərhələsidir – kapitalist münasibətlərinin inkişafı, milli burjuaziyanın yetişməsi, onun ideoloqlarının meydana çıxması, nəhayət, etnomədəni mərkəz kimi Bakının mövqeyinin yüksəlməsi milli mənlik şüurunun formalaşdırır".

Əlbəttə, bu "milli özünüdərk", "milli mənlik şüurun formalaşması" son dərəcə əzablı, mürəkkəb proseslərlə müşaiyət olunurdu. O zaman Azərbaycanı özündə müstəmləkə kimi saxlamış çarizm ölkənin ucqarlarında yaşayan xalq kütlələrinin maariflənməsi işinə, həmçinin elmin inkişafına xüsusi ilə ciddi maniə törədirdi. Xəzinənin Azərbaycanda maarifin ehtiyaclarına sərf etdiyi xərclər yenə də cüzi bir məbləği təşkil edirdi. Azərbaycanda maarifin ehtiyaclarına ildə adam başına orta hesabla ən çoxu 64 qəpik pul xərclənirdi. Çar hökümətinin təzyiqi ilə mədəniyyət və elmdə olan mütərəqqi təşəbbüslərin qarşısı hər vasitə ilə alınırdı. Əsasən məscid, yaxud kiçik binalarda yerləşən məktəblərin hər birində ondan yüzə qədər uşaq təhsil alırdı, tədris pullu idi. Xüsusi ruhani məktəbləri – mədrəsələr də var idi. Onlar ancaq məscidlərin nəzdində təşkil olunurdu. "Deyilən tədris müəssisələrini açmaqda Çar hökumətinin əsas məqsədi yerli inzibati idarələrdə müstəmləkə siyasətini yürütməkdə ona kömək edə biləcək tərcüməçilər, mirzələr, bir sözlə, etibarlı milli kadrlar yetiştirmək idi". Bununla yanşı, Azərbaycan dilində yazılmış müəyyən dərsliklər, lüğətlər, elmin müxtəlif sahələrinə aid yazılmış əsərlər kəmiyyət və keyfiyyətcə xalqın istəklərini tam şəkildə ödəyə bilmirdi. Belə bir vəziyyətlə ciddi mübarizə aparan qabaqcıl ziyalılar çox çətinliklə də olsa, dövrün tələbinə uyğun yeni tipli məktəblərin açılmasına və Azərbaycan dilində dərsliklərin, elm əsərlərinin yaradılmasına çalışırdılar. Savadlanma işinin, elmin xalq arasında yayılmasında xüsusilə fəallıq göstərən H.Zərdabi, M.Mahmudbəyov, M.Şaxtaxtinski, S.M.Qənizadə, R.Əfəndiyev, N.Nərimanov kimi işıqlı təfəkkür sahibləri müntəzəm olaraq mətbuatda çıxış edir, elmin müxtılif sahələrinə aid dərsliklər yazır, yeni yaradılan dünyəvi məktəblərdə Azərbaycan dilində bir sıra elmlərin tədrisi ilə məşqul olurdular.XIX əsrin sonunda çap edilən qəzet və jurnallar, yeni dərs kitablarında müxtəlif məlumatlar verilirdi. Qəzet və jurnal səhifələrində dövrün tələbinə uyğun dərsliklər və elmi əsərlərin yazılmasına ehtiyac olduğu da göstərilirdi.

Azərbaycan dilçiliyi tarixində XIX əsrin ortalarında başlayan dövrü haqlı olaraq dilçiliyimizin dirçəliş dövrü kimi qiymətləndirirlər. Əvvəlki dövrlərdə ayrı-ayrı şairlərin, ziyalıların dl haqqında fikirləri bədii, poetik şəkildə deyilmiş söyləmlər bir qədər elmi, sistemli dilçilik mülahizələri ilə əvəz olunmağa başlayır. Şimali Azərbaycanda, ümumiyyətlə, elmin tərkib hissəsi kimi dilçilik də inkişaf edir. Həm də dilçilik başqa elm sahələrinə nisbətən diqqəti xüsusilə cəlb edir.

Azərbaycan dilçilik elminin məhz XIX əsrin ikinci yarısında təşəkkül tapmasını bir sıra obyektiv səbəbləri vardır. Şimali Azərbaycan Çar Rusiyası tərəfindən işğalından sonra yerli əhalinin idarə olunmasında bir sıra çətinliklər meydana çıxmışdı. Müstəmləkəçilik siyasətinin həyata keçirilməsi üçün yerli əhalinin dilini bilən mütərcimlərə kəskin ehtiyac əmələ gəlmişdi.

Bu məqsədlə, ilk növbədə rus məktəbləri təşkil olunmağa başladı. "Tiflis hərbi qubernatoru, general-adyutant Sipyagin 1827-ci ildə Zaqafqaziyanın bir sıra şəhərlərində, o cümlədən, Nuxada, Qazax distansiyasında, Şamaxı, Şuşa, Bakı və Qubada qəza məktəbləri açmaq fikrini irəli sürdü.

Çox keçmədi ki, ilk rus məktəbləri təşkil olunmağa başladı. 1830-cu ildə Şuşada, 1831-ci ildə Nuxada, 1832-ci ildə Bakıda, 1833-cü ildə Gəncədə, 1837-ci ildə Şamaxıda və Naxçıvanda rəsmi dövlət məktəbləri yaradıldı. Lakin bu məktəblərdə Azərbaycan (türk) dilinin tədrisi bir sıra çətinliklərlə qarşılaşdı: bu, ilk növbədə, Azərbaycan dilinin tədrisinə aid münasib dərsliklərin, dərs vəsaitlərinin olmaması ilə bağlı idi. Məktəb şəbəkəsini genişləndirmək, ana dili qaydalarının yaxşı öyrənilməsini proqramlaşdırmaq, əlifba təlminrdəki ciddi nöqsan və çətinlikləri aradan qaldırmaq, münasib dərs vəsaiti hazırlamaq məqsədi ilə maarifpərvər Azərbaycan ziyalıları müvafiq layihələr düzəltdilər, dərs kitabları yazdılar, əməli-təcrübi nümunə göstərdilər.

Tiflisdə, Qoridə və Azərbaycanda açılmış dövlət məktəblərində Azərbaycan dilinin tədris olunması ana dilində müvafiq dərsliklərin, dərs vəsaitlərinin yaradılması zərurətini meydana çıxartdı. Bu məqsədlə həm qabaqcıl ziyalılar A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, həm də bu məktəblərdə dərs deyən xadimlər – Tiflis gimnaziyasının Azərbaycan dili müəllimi H.Y.Şahnəzarov, Şamaxı qəza məktəbinin smotriteli M.İ.Saracov, Bakı və Tiflis qəza məktəblərinin Azərbaycan dili müəllimi İ.Haqverdiyev, tərcüməçi kadrla hazırlamaq üçün qrammatika yazmış T.Makarov və başqaları ilk əlifba və qrammatika kitablarını yaratmışlar.

Bütün bu dərslik və dərs vəsaitləri ilə yanaşı Azərbaycanda dilçilik elmi sahəsində bir-birinin ardınca qiymətli tədqiqat əsərləri meydana çəxmağa başladı. Bu dövrün dilçilik tədqiqatları haqqında professor T.Hacıyevin maraqlı müşahidələri diqqəti çəkir: "Azərbaycan dilçilik əsərlərinin yaranmasında kompanentlərin (müəllif; tədqiq olunan dil; əsərin yazıldığı il) iştirakı baxımından maraqlı təkamül prosesi görünür – birkomponentli millilikdən üçkomponentliyə, tam milliliyə doğru inkişaf gedir; əvvəlcə müəllif azərbaycanlıdır – özgə dil haqqında və özgə dildə yazır (A.Bakıxanovun fars dili haqqında farsca əsəri); sonra müəllif azərbaycanlıdır, Azərbaycan dili öyrənilir, ancaq başqa dildə yazılır (M.Kazımbəyin, M.Vəzirovun ana dili haqqında rusca əsərləri); üçüncü mərhələ də müəllif də azərbaycanlıdır, tədqiq olun da Azərbaycan dilidir, əsər də ana dilində yazılır (M.Əvşarın, N.Nərimanovun ana dilinin qrammatik quruluşu haqqında Azərbaycanda

[33] **BDU f.e.n. dosent "İngilis dili" kafedrası**

əsərləri). Hər üç halda müəllifin azərbaycanlı olması əsərin Azərbaycan ictimai-elmi mühiti ilə milli Azərbaycan təfəkkürü ilə əlaqəsini şərtləndirir".

Azərbaycan dilçiliyinin XIX əsr dövrünün daha bir neçə cəhətlə də xarakterizə etmək olar. Bu dövrdə dilçilik elminin tədqiqat istiqamətləri, rəngarəngliyi, eləcə də yaradılmış əsərləri növləri də müxtəlif olmuşdur. Elə müəlliflərin maraq dairəsi və əsərlərin çeşidi də bunu aydın şəkildə göstərir. Məhz bu rəngarəngliyi nəzərə aldıqda XIX əsrdə yaranmış dilçilik əsərlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. ***Azərbaycanlı müəlliflərin ana dilində yazdıqları əsərlər.***Bu əsərlərin sırasına aşağıdakıları daxil etmək olar: Şaxtaxtinski M.Təkmilləşmiş müsəlman əlifbası. Tiflis, 1879; Nərimanov N. Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənməkdən ötrü olan asan kitabça. Bakı, 1899; Nərimanov N. Müəllimsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabça; Nəriman N.

Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəvhi. Bakı, 1899; Qənizadə S.Rusiya məmləkətində ticarət və dadistati olan şəxslərdən ötəri rus dilinin dilmancıdır. Bakı, 1895; Əfəndiyev R. Uşaq bağçası. İstanbul, 1898.

2. ***Azərbaycanlı müəlliflərin yaddilli müəlliflərlə ana dilinə aid şərikli əsərləri.***

Bu sıraya aşağıdakı əsərləri daxil etmək olar: Çernyayev A. və Vəlibəyov S. Vətən dili. Azərbaycan dilində təlimi-ifaət və inşa və imla məşğuliyyəti üçün kitabçadır. Tiflis, 1888; V.Azeh M.Ş.Qriqoryev İ.İ. Kitabi-türki (Татарская хрестоматия азербайжанского наречия), Tiflis-Təbriz, 1855; Cəlal Əfəndi və Pomortsev N.K. Müəllimi-lisanı-rusi. 3 cilddə. Tiflis, 1889.

3. Azərbaycanlı müəlliflərin başqa dildə yazdıqları əsərlər.

a) azərbaycan müəlliflərin yad dildə Azərbaycan dilinə yazdıqları əsərlər;

Казембек М.А. Грамматика турецко-татарского языка. Казань, 1839; Казамбек М.А. Общая грамматика турецко-татарского языка. 2-ое изд. Казань, 1846; Казамбек М.А. Учебное пособие для временного курса турецкого языка. Санк-Петербург, 1854; Везиров М.А. Учебник татарско-азербайджанского наречия. Санк-Петербург, 1861; Нариманов Н. самоучитель татарского языка для русских. Баку, 1899; Əfşar M.M. Fənni-sərfi-türki; Axundov M.M. Sərfi-türki. Tiflis, 1896;

b) azərbaycanlı müəliflərin yad dildə özgə dilinə aid yazdıqları əsərlər: Bakıxanov A. Qanuni-Qüdsi. Zəbani-farsi baiştiqaq və elali-kəlimati-ərəbiyyə. Tiflis, 1831; Bürhan Məhəmməd Hüseyn Təbrizi. Bürani-qate, lüğəti-farsiyyə və bəxri əz lüğati-türkiyə və bəzi əz-lüğati-pəhləvi və kinaiyti-fars. Bombey, 1887; Həsən ibn Mehdi. Vətən dili. Mübtədi şagirdlərə altı aydın qabaqyazıb oxumaq öyrədən, sövti üzrə təlim olunan əlifbayi-cədidə müştəmil bir kitabçadır. Təbriz, 1894; Vəlibəyov Səfərəli bəy. Üsuli-cdid. Lisani farsi. Tiflis, 1899; Vəlibəyov Sərfəli bəy. Lisani farsi, bərayi-farsiamuzan təlif şüdəəst. Bakı, 1897.

4. Başqa millətdən olan müəlliflərin yazdıqları əsərlər:

a) onların Azərbaycan dilində yazdıqları əsərlər: Çernyayevski A.O. Vətən dili. Müəllimlər üçün təriqi-svt ilə təmir tapmış müsəlman əlifbasının səyaqi-təlimini göstərən risalədir. Tiflis, 1881; Çernyayevski A.O. Vətən dili. Tiflis, 1888; Çernyayevski A.O. Vətən dili. Tiflis, 1899; Demantyev N. Yazi nümunələri (əlifba). Tiflis.

b) bu müəlliflərin başqa dildə (əsasən rusca) Azərbaycan dilinə aid yazlıqları əsərlər: Родионов И. Татарский букварь. Санк-Петербург, 1856; Макаров Т. татарская грамматика кафказского наречия. Тифлис, 1848; Будагов Л. Турецко-татарский букварь. Тифлис, 1844; Будагов Л. Практическое руководство турецко-татарско-азербайджанского наречия. Москва, 1857.

c) başqa millətdən olan müəlliflərin "bilavasitə və yalnız Azərbaycan dili ilə bağlı olmasa da, XIX əsr dünya şərqşünaslığının qiymətli əsərləri kimi, Azərbaycanın da elmi-mütərəqqi inkişafına müəyyən təsir göstərmiş" əsərləri.

Yeri düşmüşkən, bu axırıncı bölgüyə aid əsərlər (söhbət L.Z.Budaqovun " Практическое руководство турецко-татарско-азербайджанского наречия" (M. 1857) yenə onun 1869 və 1871-ci illərdə Sankt-Peterburqda nəşr edilmiş ikicildlik " сравнительный словарь турецко-татарских наречий, со включением употребительнейших слов арабских и персидских, и с переводом на русский язык" adlı irihəcmli – 1225 səhifəlik əsərlərindən və V. Radlovun "Опыт словаря тюркских наречий" (С.Петербург, 1893-1911) adlı lüğətindən gedir) Azərbaycan diliçilik elmininin inkişafına, şübhəsiz, təsir göstərmişdir. Lakin təkcə bu mülahizənin üstündə dayanıb qalmaq, faktı birtərəfli qiymətləndirmək kimi olardı. Bu mülahizənin ikinci tərəfini, yəni əks-təsirini də nəzərə aldıqda elmi ədalət prinsipi öz yerini tapır. Bu mənada professor T.Hacıyevin gəldiyi qənaətlər son dərəcə haqlı və qiymətlidir: "Əslində bu əsərlərin aranmasında vasitəli şəkildə Azərbaycan elmi də iştirak edir.V.V.Bartoldun sözlərini xatırlayaq: "Öz mülahizələri ilə Senkovski və Kazım bəy rus şərqşünaslığını yaratdılar; sonrakı nəsil rus şərqşünaslarının; təxminən hamısı bu iki alimdən birinin ya şagird, ya da onların şagirdlərinin şagirdidir".

Ədəbiyyat

1. История лингвических учений (материалы к курсу лекций) М. 1968. с.3
2. М.А.Кондрашев. Историа лингвистических учений. М.,1979, с .5
3. В.Я.Ярцева. Развитие национального литературного английского языка. М. 1969, с . 87
4. М.Ш.Ширалиев. Вопросы азербайджанского языка. Баку.1989, с. 118.

Açar sözlər: Mədəni hadisələr, xalqın savadlanması,elmdə olan mütərəqqi təşəbbüslər, milli kadrlar,tədris müəssisləri.
Ключевые слова:Культурные события, просвещение народа, национальные кадры, учебные заведения, прогрессивные инициативы в науке.

SUMMARY

In the given article we see the development of the linguistics ideas in Azerbaijan in the XIX century.

In the given article we see the list of authors who wrote books for developing language and linquistics in Azerbaijan. Here by the author we learn about Azeri writers who wrote books in Azeri. We also learn about foreign authors who wrote for Azerbaijan.

By the author is shown the branches of development in the field of Culture, Literature, Science, Linguistics and Publishing in Azerbaijan in the XIX century.

And these ways of development, integration played a great role in the political life of Azerbaijan of the XIX century.

At the beginning of the XIX century an important event happened in the history of Azerbaijan people the admission of Azerbaijan into the Russian Empire, which strengthened western tendencies both in culture and literature.

As many cultural people of the world, the XIX century period of Azerbaijan is characterized as the time of quick progress the insistent.

Movement to humanist ideals, the time of firs serious step towards grounding of power of brain.

RƏYÇİ: dos. L. Ələkbərova

Aynur Baba qızı Niftalıyeva [34]

ALMAN DİLİNDƏ KÖHNƏ VƏ YENİ SÖZLƏRİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Giriş. ***Mövzunun aktuallığı:*** Bir neçə avropa dili kimi müasir dövrdə də alman dili dünya dillərindən biri kimi ən çox öyrənilən xarici dildir. Lakin bugünümüzdə alman dili çoxları tərəfindən "çətin" hətta "kobud" dil kimi dəyərləndirilir. Bunu hər şeydən əvvəl onun tələffüzü ilə əlaqələndirirlər. Belə ki, dildə çoxlu samitlər olduğundan sözlər də çox uzun olur və nəticədə tələffüz çətinləşir. Hər bir dilin ədəbiyyatı onun bədii dilini formalaşdırır və zənginləşməsinə səbəb olur. Bu cür bədii dil isə ədəbi dil adlanır. Ədəbi dil kütləvi xarakter daşayır. Yəni bu dil hamı tərəfindən anlaşılan, hamının dil ünsiyyəti üçün yararlıdır. Əlbəttə ki, ədəbi dilin lüğət tərkibi istər şifahi xalq ədəbiyyatından, istərsə də yazılı ədəbiyyatda ümumxalq dilinin zəngin söz xəzinəsindən seçilir. Ədəbi dil hər şeydən əvvəl dialektlərə qarşı qoyulur. Ədəbi dil də gündəlik danışıq dili kimi səs sistemi fonetik, leksik və qrammatik normalar əsasında tənzimlənir. Fonetik norma onun səs tərkibinə, ahəng qanununa, heca və vurğusuna, leksik normalar sözlərin incəlik, zəriflik cəhətdən daha geniş məna da işlənməsi, daha asan dərk olunması ilə ədəbi dilə gətirilməsinə xidmət edir. Qrammatik məna dilin daha axıcı olmasına xidmət edir, yəni şəkilçilərin ardıcıllığı, sözlərin sıralanması, qrammatik kateqoriyaların işlənməsi ilə bağlı qaydalardır.

Tədqiqatın elmi yeniliyi: Alman dilinin tarixi əsrlərdən bəri bir çox dilçilərin diqqət mərkəzində olmuş və araşdırılmışdır. Tədqiqatın elmi yeniliyi alman dilində istifadə olunan köhnə və yeni sözlərin spesifik xüsusiyyətlərini araşdırmaq, müxtəlif dövrlərdə yazılmış söz, cümlə və mətnləri bir-birilə müqayisə etməklə linqvistik təhlilini verməkdir.

Əsas hissə. Alman dili uzun tarixi yol keçmişdir və bu müddət ərzində bir çox şivələrlə birlikdə inkişaf edib, ortaq yazı formasına nail olmuş, qonşu dillərdən çox şey götürərək müstəqilliyini qoruyub saxlamış və genişləndirmişdir. Əlbəttə bugün alman dili güclü bir dildir. Cəmiyyətin dili daim dəyişir. Helviq belə hesab edir ki, "dil daim dəyişikliyə məruz qalır – yeni sözlər yaranır, köhnələr isə yox olur" [3, s. 1]. Bu cür dəyişmələr dilin lüğət tərkibində özünü göstərir. Lüğətin öyrənilməsi və onun araşdırılması ilə məşğul olan dilçilik sahəsi leksikologiyadır. Leksikologiya yunan sözü "lexikos" -lüğət və "logos" -təlim sözlərindən əmələ gəlmişdir. Digər dillərdə olduğu kimi alman dilində də leksikologiya dil nəzəriyyəsinin ən gənc sahələrindən biri kimi hesab edilir. Bu sahə müstəqil dilçilik sahəsi kimi yalnız müasir dövrdə inkişaf etmiş olsa da, əvvəlki illərdə də müxtəlif dilçilər tərəfindən onun inkişafını müəyyən edən bir çox tədqiqatlar aparılmışdır. Alman dilçiliyində sözlərin lüğət tərkibinin təhlilinə həsr olunmuş xüsusi sahənin meydana gəlməsi 19-20-ci əsrlərə təsadüf edir. Belə ki, bu əsrlərdə artıq bir neçə əsərlər hazırlanmışdır. Bir sıra leksikoloji aspektləri ümumiləşdirən ilk əsərlərdən biri H.Hirt tərəfindən yazılmış əsərdir - Yeni yuxarı alman dilinin etimologiyası" (Etymologie der neuhochdeutschen Sprache) əsəridir. Müəllif bu əsərində alman lüğətinin və onun zənginləşdirilməsinin etimoloji cəhətdən ətraflı təsvirini verir". Hər bir dilin tarixində arxaizm adlanan, artıq istifadə olunmayan sözlər və neologizm adlanan yeni sözlərin meydana çıxmasını şərtləndirən lüğətlər mövcuddur. Arxaizmlər müəyyən müddət ərzində nitqdə istifadə olunan sözlərdir. Müxtəlif dövrlərdə istifadə olunan bir neçə arxaizmə nəzər salaq və müasir alman dilində hansı sözlə əvəzlənməsini araşdıraq:

- ✓ *Minne* (12-15 – ci əsrlər) – die Liebe – sevgi, məhəbbət
- ✓ *Maid* (təxminən 14-16 – ci əsrlər) – junge Frau – gənc xanım
- ✓ *Barbier* (18-20 - ci əsrlər) – der Friseur – bərbər
- ✓ *Backfisch* (18-20 - ci əsrlər) – das Mädchen – qız
- ✓ *Buhle* (15-19 – cı əsrlər) – der Geliebte – sevgili, aşiq
- ✓ *Das Gestade* – die Küste – dəniz kənarı, sahil
- ✓ *Das Gewand* – das Kleid – paltar, geyim
- ✓ *Die Muhme* – die Tante – xala, bibi
- ✓ *Der Born* - die Quelle – bulaq, çeşmə
- ✓ *Das Geziefer* – das Ungeziefer – zərərli həşarat

Bu sadalanan sözlərdən əsas 12 və 15 – ci əsrlər arasında istifadə olunan *Minne* sözü diqqət çəkir. O zamanlar alman "Cəngavər Ədəbiyyatı" çiçəklənmə dövründə idi və "*Minnesang",* yəni *məhəbbət mahnıları/sevgi balladaları* yazılırdı. Minnesang yazanlar və ifa edənlər Minnasänger kimi tanınırdı. *Minnasänger* sözü Türkiyədə, xüsusilə Anadoluda *aşık*, ana dilimizdə isə *ozan* və *aşıq* kəlmələrinin qarşılığıdır. Müasir dövrdə də Minnesang (sevgi balladaları) oxucular tərəfindən həvəslə oxunur. Tək bir mahnı isə *Minnelied* (məhəbbət/sevgi mahnısı) adlanırdı. 12 – ci əsrdə tapılmış, müəllifi naməlum olan *Minnelied* (məhəbbət/sevgi mahnısı) nümunəsini müasir alman və müasir ingilis dili ilə müqayisəli şəkildə türk və azərbaycan dilinə tərcümə etməklə təhlil edək:

Orta yüksək alman dilində	*Müasir alman dilində*
Dû bist mîn, ich bin dîn:	Du bist mein, ich bin dein:
des solt dû gewis sîn.	des(sen) sollst du gewiss sein.
dû bist beslozzen in mînem herzen.	Du bist verschlossen in meinem Herzen.
verlorn ist das slüzzelîn: [1]	Verloren ist das Schlüsselein:

Mahnı 4 misra bir bənddən ibarətdir. Qafiyə isə aaba şəklindədir. Mahnı nümunəsindən də göründüyü kimi orta yüksək alman dili və müasir alman dili arasında müəyyən fərqlər vardır. Müasir alman dilində *mein, dein, sein* (mənim, sənin, onun. kişi cinsində) sözləri orta yüksək alman dilində *mîn, dîn, sîn* şəklindədir. Orta yüksək alman dilində [î] [-ei] diftonqu ilə

[34] Bakı Dövlət Universiteti və Azərbaycan Turizm və Menecment Universitetinin müəllimi, aynurniftaliyeva3103@gmail.com

əvəzlənmişdir. [û] səsi [u], yəni qısa "u" səsi ilə əvəzlənib, [dû] – [du]. *Sollen* modal feili orta yüksək alman dilində II şəxsin təkində *solt, gewiss* (şübhəsiz) orta yüksək alman dilində *gewis, verschlossen* (bağlanmaq) orta yüksək alman dilində *beslozzen, Verloren* (itirmək) orta yüksək alman dilində *verlorn, Schlüsselein* (açar) orta yüksək alman dilində *slüzzelîn* deməkdir.

Müasir ingilis dilində	*Türk dilində*
You are mine, I am yours,	Sen benimsin, ben senin
Thereof you may be certain.	Bundan emin olabilirsiniz.
You're locked away within my heart.	Kilitlendin kalbimde
Lost is the key	Kayıp anahtardır
And you must ever be therein!	Ve sen durmadan orada olmalısın!

Azərbaycan dilində
Sən mənimsən, mən sənin
Bundan əmin ola bilərsiniz
Qapanmısan (bağlanmısan) qəlbimin içinə
İtirilmiş açardır
Və sən həmişə orada olmalısan!

Bütün dillərdə olduğu kimi alman dilində də yeni hadisələri, faktları və obyektləri adlandırmaq üçün yeni vahidlər kimi görünən yeni sözlərə neologizm deyilir. 21-ci əsrdə Alman dili necə inkişaf edib və hansı səviyyədə genişlənib? Bu sualın cavabını əlbəttə neologizmlərlə verə bilərik. Dilin lüğət tərkibinin zənginləşməsi yeni sözlərin əmələ gəlməsi neologizmlərlə bağlıdır. Neologizmlərin əksəriyyəti başqa dillərdən dilə keçən alınma sözlər və ya qarışıq birləşmələrdir. Neologizmlərin əmələgəlməsini internet aləminin inkişafı ilə əlaqələndirmək olar. Neologizmlərin də müxtəlif növləri var:

1. *Neuwörter (yeni sözlər)* - əvvəllər mövcud olmayan bütün sözlər yeni sözlərdir.
2. *Neue Kombination (yeni birləşmə)* - əvvəl mövcud olan iki söz birləşir və yeni söz əmələ gətirir. Bu yolla yaranan sözlər də neologizmlərdir. Nümunə üçün ***Gendersternchen*** (gender ulduzu)sözünü göstərə bilərik. *Gender* (gender) və *sternchen* (ulduz) sözlərinin birləşməsindən əmələ gəlib.
3. *Neubedeutungen (yeni mənalar)* – bəzən elə olur ki, mövcud olan sözlər yeni məna qazanır və bu sözlər də artıq neologizm hesab olunur. Nümunə üçün ***Troll*** sözünə diqqət edək. *Troll* artıq yalnız mifik məxluqa deyil, eyni zamanda davranışı ilə başqalarını bezdirən internet istifadəçisinə deyilir. Müasir dövrdə bir çox müxtəlif sahələrdə - siaysət, iqtisadiyyat, elm, texnologiya, mədəniyyət, idman və digər sahələrdə neologizmlər üstünlük təşkil edir. Bütün bunları nəzərə alsaq, qeyd edə bilərik ki, neologizmlərin təhlili və tədqiqi çox vacib amillərdən biridir, çünki neologizmlərin əmələgəlməsi dilçilərə dildə olan dəyişmələri və lüğətdəki dəyişikliklər haqqında məlumat verir. Aşağıdakı neologizmlərin linqvistik təhlilinə baxaq: 1. Reklamlar da alıcıların diqqətini məhsula cəlb etmək üçün üslub vasitəsi kimi neologizmlərdən istifadə olunur: [1]

- **Frischekick –** *təravət zərbəsi* deməkdir, əsasən saqqız reklamlarında istifadə olunur.
- **Knusperleichter –** incə vaflidən hazırlanmış *yüngül, xırtıldayan yemək* mənasında, şokolad çubuğu reklamlarında istifadə olunur.
- **Tiefenwirksame –** *dərin təmizləmə* mənasındadır, kosmetik reklamlar da istifadə olunur.

2. Cəmiyyət və Siyasət də istifadə olunan neologizmlər:

- **İslamophobie –** müsəlmanlara qarşı düşmən münasibətin ifadəsi.
- **Brexit** – Böyük Britaniyanın Avropa ittifaqından çıxmasının qısa forması.
- **Entschleunigung –** inkişafın, fəaliyyətin məqsədyönlü şəkildə yavaşlaması və s.

3.Texonologiyanın sürətli inkişafı ilə əlaqədar internet sahəsində yeni sözlər yaranır:

- **Datenautobahn** - böyük həcmdə məlumatların ötürülməsi üçün xətt və ya şəbəkə.
- **Cyberkriminalität –** internetdə törədilən bütün cinayətlər.
- **Maus** – həm heyvan , həm də kompüter siçanı üçün təyinat.
- **Surfen** – idmanın bir növü, həmçinin internetdə təsadüfi və ya məqsədyönlü məlumat axtarışı.

4. Gənclər arasında formalaşan yeni sözlər. Müasir dövrdə gənclər arasında çox vaxt ingilis dilinin təsiri ilə yeni sözlər yaranır.

- **Ehrenmann/- frau** – *hörmətli kişi/ hörmətli xanım* deməkdir, sözünə etibar edilə bilən, xüsusilə xeyirxah bir iş görən şəxs.
- **Chillen –** *rahatlamaq* mənasındadır.
- **Tindern –** tanış olmaq üçün proqramı.
- **Tanken –** spirtli içki içmək.

Bəzi sözlər vardır ki, uzun müddət alman dilində istifadə olunub, lakin hal-hazırda danışıqda istifadə olunmur. Belə sözlər müəyyən ərazilərdə istifadə edilərsə və biz bunu eşitmiş olarsaq, o zaman yeni söz kimi dəyərləndirə bilərik, halbuki, bu cür sözlər arxaizmdir. Aşağıdakı sözlər yeni söz kimi görünən arxaizmlərdir:

- **Oheim –** der Onkel (əmi/dayı) sözünün könəlmiş forması.
- **Base** – der Cousin/die Cousine (əmi/dayı/bibi/xala uşaqları) sözünün köhnəlmiş forması.

- **Zögling** – internatda, uşaq evində böyüyən kimsə.
- **Velo** – das Fahrrad (velosiped) sözünün köhnəlmiş forması.

Neologizmlər yalnız lüğətdəki dəyişikliklərdən ibarət deyil, eyni zamanda insanların sosial həyatı, komputer, formal dil, yəni internet aləmi, mədəniyyət, siyasət, elm və s. haqqında dolğun informasiya verir. Bəs o zaman insanlar neologizmləri tanıya bilərmi? Bu suala Teubert neoilogizmi daha yaxşı tanımağa kömək edən yeddi meyarı vurğulayaraq cavab verir. Teubert aşağıdakı meyarları qeyd edir: [3, s. 8]

- ✓ Şəxsi adlar və yer adları neologizm deyil.
- ✓ Neologizmləri müəyyən etmək üçün lüğətlərə etibar etmək olmaz. Bəzi sözlər əvvəllər lüğətlərdə yox idi. Lüğətlərdə neologizmlərin olmaması heç də həmişə yeni sözün neologizm adlandırılması üçün arqument deyil.
- ✓ Biz sözü neologizm adlandırmaq üçün hər bir yeni söz bir müddət (Teubertə görə ən azı bir il) müxtəlif mətnlərdə işlədilməlidir.
- ✓ Yeni söz tez-tez müxtəlif mətn növlərində istifadə edilməlidir.
- ✓ Biz yalnız bu cür törəmələri və birləşmələri mənası müntəzəm olaraq alınmayan neologizmlər arasında sayırıq.
- ✓ Yazı xətası və ya səhv çaplar neologizm ola bilməz.
- ✓ Neologizmlərin axtarışında yalnız sözlərə diqqət yetirilir, müxtəlif söz formaları nəzərə alınmır.

Söz potensial vahid kimi dil, mətn elementi və yenilənmiş simvol kimi nitq vahididir. Sözün fonetik və morfoloji formalaşmasında ümumi xüsusiyyətlərlə yanaşı, müəyyən milli xüsusiyyətlər də vardır. Alman dilçiliyində sözün fonetik formalaşması üçün aşağıdakı xüsusiyyətlər xarakterikdir [2, s. 12]

- ➢ Alman dilindəki sözlərin fonetik forması birləşmə yolu ilə müəyyən edilir və 40-a yaxın fonemin alternativ sıralanması.
- ➢ Alman dilində söz morfoloji cəhətdən bağlı vurğuya malikdir. Sadə sözlərlə desək, birinci heca adətən vurğulanır. 'Erde (yer), 'Acker (sahə).
  Eyni hal be-, er-, ent-, ge-, ver-, zer- prefiks birləşmələri istisna olmaqla törəmə sözlər: 'langsam (yaşaş), lesbar (oxunaqlı), 'möglich (mümkün), 'Mannschaft (komanda), aber: be' sprechen (müzakirə etmək), er 'zählen (demək, nəql etmək), zer 'reißen (parça-parça etmək), Ver 'fall (çürümə, çökmə).
- ➢ Alınma və mürəkkəb sözlərə xarakterik əsas və köməkçi vurğuların olmasıdır: 'Mann'schaft (komanda), Schreibma'schine (yazı makinası), Arbeits'tisch (iş masası).

Dilimiz çox zəngin olsa da, bəzi hissləri və məfhumları təsvir etmək kifayət etmir. Dilimizdə başqa dillərdə olan amma türkcə və azərbaycanca qarşılığı olmayan sözlər vardır. Bu sözlərin çoxunu bilirik, lakin təsvir edə bilmədiyimiz hissləri ifadə edən sözlərdir. Belə sözlərin çoxu alman mənşəli sözlərdir. Bu sözlər aşağıdakılardır:

- Torschlusspanic – Zamanın tez və nəzarətimizdən kənar keçməsi hissi və nəyəsə yetişə bilməyəcəyimiz narahatlığı deməkdir. Tor – qapı, schluss – bağlamaq deməkdir, yəni "qapı bağlanmaq paniyi".
- Verschlimmbesserung – Yaxşı bir şey etmək və ya bir şeyi düzəltməyə çalışarkən onu daha da pisləşdirməyə səbəb olmaq, işləri daha da çıxılmaz vəziyyətə salmaqdır.
- Schnapsidee – Həqiqətdə məntiqsiz hesab edilən bir fikrin, sərxoş olduqda hər hansısa məna kəsb etməsinə və ya sonradan peşmanlığa səbəb olacaq çılğın, irrasional düşəncələrə aiddir.
- Sonntagsleerung – Tətilin, xoş şeylərin sona çatması səbəbindən yaşanan sıxıntı və narahatlıqdır. Bazar depressiyası.
- Weltschmerz – Almanca "dünya" mənasına gələn "Welt" sözü ilə, "Schmerz" – "ağrı" sözlərinin birləşməsindən əmələ gələn depressiv kəlimədir. Başqa dillərə tərcüməsi mümkün olmayan "Gənc Verterin iztirabları" kimi sanki bütün dünyanın ağırlığını çiyinlərində daşımaq.
- Zweisamkeit – "Einsamkeit" – tənhalıq sözündən yaranan bu söz, bir-birinə uyğun gələn iki insanın birlikdə olmasına, iki insanın bütün ola bilməsinə və ya iki nəfərin tənhalıq və səmimi vəziyyətinə deyilir.
- Schadenfreude – "Schade" – pis, kədərli və "freude" – sevinc, xoşbəxtlik sözlərinin birləşməsindən yaranan bu söz başqasının dərdinə sevinmək mənasındadır. [4]

Nəticə. Hər dildə artıq istifadə edilməyən köhnəlmiş sözlər mövcuddur. Belə sözlər köhnəlsə də bəzi yerli əhalinin dilində hələ də isifadə olunmaqdadır. Bu isə dilin zənginliyindən xəbər verir. Çünki artıq istifadə olunmayan sözlərə biz ədəbiyyatın ilkin mərhələsində, yəni şifahi ədəbiyyatda rast gəlirik bu isə bizim dilimizin zənginləşməsinə gətirib çıxarır. Bununla yanaşı xalaqlar, millətlər inkişaf etdikcə dil də inkişaf edir və yeni sözlər yaranır. Bu sözlərin yaranması müasir dövrümüzdə internetin inkişafı ilə əlaqədardır. Belə ki, dünya dillərindən ən çox istifadə edilən ingilis dilinə məxsus olan sözlər internet vasitəsilə digər dillərə təsir edir və nəticədə də həmin dil də neologiz, yəni yeni söz yaradır. Bu neologizmlərin bəziləri müəyyən müddət ərzində dil də başqa mənada istifadə olunan sözlərdir ki, bu cür sözlər sonralar yeni mənalarla dildə formalaşıb və ümumişlək sözə çevrilib. Neologizmlər gənclər arasında daha çox işlənir. Dillərin bu şəkildə yayılması və inkişafı bizim danışıq dilimizə olduqca müsbət təsir edir və bunun nəticəsində biz danışıqda təkrar sözlərə yol vermirik.

İstifadə edilmiş ədəbiyyat

Kitab:

1. Archaismus – Wikipedia https://de.wikipedia.org › wiki
2. Lexikalische Archaismen und ihre Verwendung in Pressetexten des heutigen Deutsch. Göttingen – 2006.
3. Neologismen in der Deutschen Gegenwartssprache by Lesya Nedyba Dennis. Tuscaloosa,Alabama , 2013.

İnternet resursu:

4. Türkçe'de Olmayan Ama Çok Şey Anlatan 15 Almanca Kelime.https://universkop.com › turkc...

Açar sözlər: dil, lüğət tərkibi, arxaizm, neologizm, formal dil
Key words: language, dictionary, archaism, neologism, formal language
Ключевые слова: язык, словарь, архаизм, неологизм, формальный язык

Alman dilində köhnə və yeni sözlərin spesifik xüsusiyyətləri

Xülasə

Məqalə "Alman dilində köhnə və yeni sözlərin spesifik xüsusiyyətləri" mövzusu, "Giriş", "Əsas hissə", " Nəticə" və "İstifadə edilmiş ədəbiyyatdan ibarətdir. "Giriş" dilçilik məsələlərini xarakterizə edən ümumi nəzəri məsələləri, mövzunun aktuallığını və tədqiqatın elmi yeniliyini əhatə edir. Məqalədə alman dilində artıq istifadə olunmayan köhnə sözlərin elmi metodik əsaslarla müasir alman dili ilə müqayisəli şəkildə linqvistik təhlili verilib. Alman dilinə yeni sözlərin necə gəlməsindən və aktuallığından bəhs edilir. Linqvistik təhlil zamanı orfoqrafik qaydalara diqqət edilmişdi. Eyni zamanda alman dilində köhnə sözlərin bəzi ərazilərdə yeni mənalarda işlənməsi qeyd edilmişdi. Formal dil, yəni internetin dilə necə təsir etməsi haqqında sözlərin spesifik xüsusiyyətləri araşdırılmışdı. İnternet vasitəsilə dilə daxil olan yeni sözlər, yəni neologizmlər artıq müstəqil şəkildə aktiv söz ehtiyatında istifadə olunmasına diqqət edilmişdi. Dilimizdə başqa dillərdə olan amma türkcə və azərbaycanca qarşılığı olmayan sözlər vardır. Bu sözlərin çoxunu bilirik, lakin təsvir edə bilmədiyimiz hissləri ifadə edən sözlər də vardır. Belə sözlərin çoxu alman mənşəli sözlərdir. Bu sözlərin dilimizdə hansı hissləri ifadə etdiyi vurğulanmışdı.

Specific features of old and new words in German

Summary

The article "Specific features of old and new words in German" consists of "Introduction", "Main part", "Conclusion" and "References". "Introduction" covers the general theoretical issues characterizing the issues of linguistics, that is, the relevance of the topic, the scientific novelty of the research. In the article, a comparative linguistic analysis of old words that are no longer used in German language with the modern German language was given on scientific methodical basis. How new words come to the German language and their relevance is discussed. During the linguistic analysis, attention was paid to orthographic rules. At the same time, it was noted that old words in German were used in new meanings in some areas. Formal language, that is, the specific characteristics of words about how the Internet affects language, was investigated. New words that entered the language through the Internet, that is, neologisms, were already independently used in the active vocabulary.There are words in our language that are in other languages but have no equivalent in Turkish or Azerbaijani. Most of these words we know, but there are words that express feelings that we cannot describe. Most of such words are of Germanic origin. It was emphasized what feelings these words express in our language.

Особенности старых и новых слов в немецком языке

Резюме

Статья «Особенности старых и новых слов в немецком языке» состоит из «Введения», «Основной части», «Заключения» и «Литературы». «Введение» освещает общетеоретические вопросы, характеризующие проблемы языкознания, то есть актуальность темы, научную новизну исследования.

В статье на научной методической основе дан сопоставительный лингвистический анализ старых слов, которые уже не употребляются в немецком языке, с современным немецким языком. Обсуждается, как новые слова приходят в немецкий язык и их актуальность. В ходе лингвистического анализа внимание было обращено на орфографические правила. При этом было отмечено, что в некоторых сферах старые слова в немецком языке используются в новых значениях. Был исследован формальный язык, то есть конкретные характеристики слов о том, как Интернет влияет на язык. Новые слова, попавшие в язык через Интернет, то есть неологизмы, уже самостоятельно употреблялись в активном словаре. В нашем языке есть слова, которые есть в других языках, но не имеют эквивалента ни в турецком, ни в азербайджанском языке. Большую часть этих слов мы знаем, но есть слова, выражающие чувства, которые мы не можем описать. Большинство таких слов имеют германское происхождение. Было подчеркнуто, какие чувства выражают эти слова в нашем языке.

Rəyçi: dos. L.Ələkbərova

Fidan Rzayeva [35]

"ALLAHIN GÖZƏL ADLARI" HAQQINDA BƏZİ QEYDLƏR

Məlumdur ki, islamdan əvvəlki dövrdə ərəblərin tapındığı bir çox allahları və bütləri olmuşdur. Bunlardan Kəbədəki bütlərin sayı ilin günlərinə bərabərdir – deyə fikir sürənlər var. Havazin və sakif qəbiləsinin Allahı al-lat və ya İlat, al-Uzza və Manat Allahın qızları hesab olunmuş, lakin Quran bunun əleyhinə çıxmış və bunların "yalnız sizin və atalarınızın verdiyi adlar olmuşdur" deyə, iddia edir. Əl-Uzza Məkkənin civarında yerləşən xəvazin qəbiləsinin, Manat Yasrib qəbilələri aus və xəzrəcin səcdə etdikləri Allahlar olmuşdur.

İslamın yaranması ilə bu Allahlara inanc tədricən aradan çıxmış və yeganə tanrı Kureyşi qəbiləsinin tapındığı "Lah" və onun artiklli variantı "Allah" olmuşdur. Digər Allahların adları isə, bu adın epitetlərinə çevrilmişdir. Məsələn, "Rəhman" sözü öncələr başqa bir qəbilənin Allahının adı olmuş, sonra Allah sözü ilə işlənərək, ona aid edilmişdir.

Quranda təsadüf edilən Allahın 99 adı, onun müxtəlif xüsusiyyətlərini ifadə edən, əsasən, sifət mənşəli definisiyalardır. Bunların bir çoxu فَعِيل formasında, bəziləri ismi-fail, bəziləri ismi-məful formasındadır. Bu adlardan ikisi izafət tərkibi şəklindədir: مالك الملك və ذوالجلال, qalanlar müxtəlif feil bablarından düzələn sözlərdir. Məsələn: المتكبر (V bab), المصوّر (II b), المعز (IV b); المجيب (IV b), المقدّر (II b) və s.

Bir neçə ad فَعَّالٌ formasındadır ki, bu da şiddətləndirmə, xüsusiyyətin gücləndirilmiş varinatını bildirir. Məsələn, جَبَّار (qüdrətli); الغفار (bağışlayan), الوهاب (hədiyyə verən), الرزاق (paylayan, ruzi verən) və s. Bir çoxu I babın ismi-fail formasına müvafiqdir. Məsələn, الخَالق (ölçən, yaradan), الخافض (azaldan; alçaldan), الرافع (yüksəldən), الواسع (əhatə edən) və s.

Müsəlman ölkələrində bu adlardan geniş istifadə olunur. Azərbaycanda da, xüsusilə, keçmiş dövrlərdə bu adlar oğlan uşaqlarına verilərdi. Lakin ərəblərdə belə adlar mütləq عبد sözü ilə izafət tərkibi təşkil edərək, istifadə edilir. Məsələn, رَحيم yox, عبد الرحيم, لطيف yox, عبد اللطيف və s. Bu da həmin sözlərin Allaha aid olduğu üçün onlardan əvvəl عبد yəni "qul" sözünün işlənməsini tələb edir, yəni islama görə Allaha aid xüsusiyyətləri bildirən sözlərin birbaşa insana verilməsi yasaqdır. Belə adlar "Allahın qulu" mənasını ifadə etməli olduğundan müstəqil işlənə bilməz.

Aşağıda biz الاسماء الحسنى "gözəl adların", yəni Allahın 99 gözəl adının azərbaycanca qarşılığını veririk.

Əl'-Əsmə`u-l-Husnə

Gözəl adlar

1. 'Ər-Rəhman (الرحمان) – rəhimli
2. 'Ər-Rəhim (الرحيم) – rəhimli...
3. 'Əl-Məlik (المالك) – car
4. 'Əl-Kuddūs (القدُّوس) – müqəddəs
5. 'Əs-Sələm (السلام) – sülhsevər
6. 'Əl-Mu`min (المؤمن) – qoruyan, inam verən
7. 'Əl-Muhəymin (المهيمن) – qoruyucu, hami, xilaskar
8. 'Əl-'Aziz (العزيز) – qüdrətli, qalib
9. 'Əl-Cabbar (الجبار) – qüdrətli, məğlubedilməz
10. 'Əl-Mutəkəbbir (المتكبّر) – üstün
11. 'Əl-Xāliq (الخالق) – ölçən, memar
12. 'Əl-Bāri`(البارئ) – yaradan, tikən
13. 'Əl-Musavvir (المصور) – şəkilverən, heykəltəraş
14. 'Əl-Ğaffār (الغفار) – yazığı gələn, (günahları gizlədən)
15. 'Əl-Kahhār (القهار) – hökmdar
16. 'Əl-Vahhāb (الوهاب) – hədiyyə verən, (sədəqə verən)
17. 'Ər-Rəzzāq (الرزاق) – paylayan
18. 'Əl-Fəttaāḥ (الفتاح) – açan, (şərh edən)
19. 'Əl-Alīm (العليم) – hər şeyi bilən
20. 'Əl-Ḳābiḍ (القابض) – azaldan (məhdudlaşdıran)
21. 'Əl-Bāsıṭ (الباسط) – çoxaldan (bölüşdürən)
22. 'Əl-Xāfiḍ (الخافض) – alçaldan, azaldan
23. 'Ər-Rāfi' (الرافع) – yüksəldən
24. 'Əl-Mu'izz (المعزّ) – gücləndirən (yüksəldən)
25. 'Əl-Muẕıll (المذلّ) – zəiflədən, devirən
26. 'Əs-Səmī' (السميع) – hər şeyi eşidən
27. 'Əl-Baṣīr (البصير) – hər şeyi görən
28. 'Əl-Hakam (الحكم) – Hakim, (hökm verən)
29. 'Əl-'Adl (العدل) - ən ədalətli, (düzgün hökm verən)
30. 'Əl-Laṭīf (اللطيف) – hər şeyi sezən (anlayan)
31. 'Əl-Xəbīr (الخبير) – bilici (hər şeyi bilən)

[35] Bakı Dövlət Universiteti

32. ’Əl-Halīm (الحليم) – sakit
33. ’Əl-‘Azīm (العظيم) – möhtəşəm
34. ’Əl-Qafūr (الغفور) – bağışlayan, (əfv edən)
35. ’Əş-Şəkūr (الشكور) – mükafatlandıran
36. ’Əl-‘Alī (العلى) – uca
37. ’Əl-Kəbīr (الكبير) – böyük
38. ’Əl-Ḥafīẓ (الحفيظ) – qoruyan, saxlayan
39. ’Əl-Mukīt (المقيت) – dəstəkləyən, təmin edən
40. ’Əl-Hasīb (الحسيب) – kafi olan
41. ’Əl-Cəlīl (الجليل) - əzəmətli
42. ’Əl-Kərīm (الكريم) – mərhəmətli
43. ’Ər-Raqīb (الرقيب) – göz qoyan, təqib edən
44. ’Əl-Mucīb (المجيب) – kara gələn, qayğıkeş
45. ’Əl-Vāsi‘ (الواسع) – hər şeyi əhatə edən (hər yerdə olan)
46. ’Əl-Hakīm (الحكيم) – müdrik
47. ’Əl-Vadūd (الودود) – sevən
48. ’Əl-Məcīd (المجيد) – şərəfli
49. ’Əl-Bā‘is (الباعث) – dirildən, ayıldan
50. ’Əş-Şəhīd (الشهيد) – şahidlik edən
51. ’Əl-Ḥaqq (الحق) – həqiqi
52. ’Əl-Vakīl (الوكيل) – vəkil, etibar edilən
53. ’Əl-Ḳavi (القوى) – qüdrətli
54. ’Əl-Mətīn (المتين) – sarsılmaz
55. ’Əl-Valī (الولى) – dost (həmməslək)
56. ’Əl-Həmīd (الحميد) – təriflənən
57. ’Əl-Muhṣī (المحصى) – nəzərə alan
58. ’Əl-Mubdī (المبدى) - əsasını qoyan (yenilikçi)
59. ’Əl-Mu‘īd (المعيد) – qaytaran (bərpa edən)
60. ’Əl-Muhyī (المحْيِيْ) – dirildən, həyat verən
61. ’Əl-Mumīt (المميت) – öldürən (yatırdan)
62. ’Əl-Hayyu (الحَيّ) – yaşayan, diri (ayıq qalan)
63. ’Əl-Ḳayyūm (القيوم) – müstəqil
64. ’Əl-Vācid (الواجد) – zəngin (mövcud)
65. ’Əl-Mācid (الماجد) - ən şərəfli
66. ’Əl-Vāhid (الواحد) – tək (bircə)
67. ’Əl-Əḥəd (الاحد) –bircə, tək
68. ’Əs-Ṣaməd (الصمد) – daimi, dəyişməz
69. ’Əl-Ḳādır (القادر) – qüdrətli
70. ’Əl-Muqtədir (المقتدر) – qüdrətli
71. ’Əl-Muḳaddir (المقدر) – yaxınlaşdıran, (irəli çəkən)
72. ’Əl-Mu’axxir (المؤخر) – uzaqlaşdıran, (kənara çəkən)
73. ’Əl-Avval (الاول) – ilk, əvvəlinci
74. ’Əl-Əxir (الاخر) – sonuncu
75. ’Əz-Ẓāhir (الظاهر) – aydın, (anlaşılan)
76. ’Əl-Bāṭın (الباطن) – gizli, sirli
77. ’Əl-Vāli (الوالى) – hami, hakim
78. ’Əl-Muta‘āli (المتعالى) – dərkedilməz, yüksəldilən
79. ’Əl-Bərru (البرُّ) – mərhəmətli, xeyirxah
80. ’Ət-Təvvāb (التواب) – tövbə etdirən, qəbul edən
81. ’Əl-Muntəqim (المنتقم) – cəzalandıran (intiqam alan)
82. ’Əl-‘Afuvvu (العفُوُّ) - əff edən, günahkardan xilas edən
83. ’Ər-Raūf (الرؤوف) – acıyan, rəhmi gələn
84. ’Māliku-l-mulk (مالك الملك) – çarlığın çarı
85. ’Zu-l-Cəlāl va-l’-ikrām (ذو الجلال و الإكرام) - əzəmət və xeyirxahlıq sahibi
86. ’Əl-Musqıt (المسقط) - ədalətli
87. ’Əl-Ḉāmi‘ (الجامع) – birləşdirən (bir yerə toplayan)
88. ’Əl-Ğənī (الغنى) – imkanlı, zəngin
89. ’Əl-Muğnī (المغنى) – zənginləşdirən
90. ’Əl-Māni‘ (المانع) – məhdudlaşdıran (qabağını alan)

91. ’Əḍ-Ḍārr (الضار) – yıxan
92. ’Ən-Nəfi‘ (النافع) – xeyriyyəçi
93. ’Ən-Nūr (النور) – işıqlandıran, nurlandıran
94. ’Əl-Hədi (الهادی) – aparan (yönləndirən)
95. ’Əl-Bədī‘ (البديع) – Yaradan
96. ’Əl-Bāḳı (الباقی) - əbədi
97. ’Əl-Vāriṣ (الوارث) – varis
98. ’Ər-Raşīd (الرشيد) – düzgün, (ağıllı)
99. ’Əṣ-Ṣabūr (الصبور) – səbrli

Əlavə

Quran surələrinin adlarının tərcüməsi

1. الفاتحة – açan
2. البقرة – inək
3. آل عِمران – imran ailəsi
4. النساء – qadınlar
5. المائدة – masa
6. الانعام – mal-qara
7. الاعراف – maneələr
8. الانفال – qazanclar
9. التوبة – töbə
10. يونس – Yunis
11. هود – Hud
12. يوسف – Yusif
13. الرعد – göy gurultusu
14. ابراهيم – İbrahim
15. الحجر - əl-hicr
16. النحل – arılar
17. الاسراء – gecə seyri
18. الكهف – mağara
19. مريم – Məryəm
20. طه – Taha
21. الانبياء – Peyğəmbərlər
22. الحج - Həcc
23. المؤمنون – möminlər
24. النور – işıq
25. الفرقان – fərqləndirmə
26. الشعراء – şairlər
27. النمل – qarışqalar
28. القصص – hekayə
29. العنكبوت – hörümçək
30. الروم – rumlular
31. لقمان – Loğman (qədim müdrik adam)
32. السجدة – səcdə, sitayiş
33. الاحزاب – dəstələr
34. سبأ – Səba (Yəmənin şərqində qədim dövlət)
35. فاطر – Yaradan
36. يسن – Ya Sin
37. الصفات – cərgədə duranlar
38. ص – Sad
39. الزمر – zümrələr
40. غاض – bağışlayan
41. فصلت – izah olundu
42. الشورى – Şura (məsləhət)
43. الزخرف – bər-bəzəklər
44. الدخان – tüstü
45. الجاسية – diz çökmüşlər
46. الاحقاق – qumlar
47. محمد – Məhəmməd
48. الفتح – Qələbə

49. الحجرات – otaqlar
50. ق – Qaf
51. الزاريات – dağıdanlar
52. الطور – dağ
53. الفحم – ulduz
54. القمر – ay
55. الرحمان – rəhmli
56. الواقعة – düşən
57. الحديد – dəmir
58. المجادله – mücadilə edən (mübahisə edən)
59. الحشر – yığıncaq
60. الممتحنة – imtahan edilən
61. الصف – sıralar
62. الجمعه – Cümə (cümə namazı günü)
63. المنافقون – riyakarlar
64. التغابن – aldanma
65. الطلاق – boşanma
66. التحريم – qadağan
67. الملك – hakimiyyət
68. القلم – qələm (yazı çubuğu)
69. الحاقة – qarşısıalınmaz (qiyamət)
70. المعارج – pillələr
71. نوح – Nuh
72. الجن – Cinlər
73. المزمل – bürünmüş
74. المدحر – bükülmüş
75. القيامة - qiyamət
76. الانسان – insan
77. المرسلات – göndərilənlər
78. النبأ – xəbər
79. النازعات – qoparanlar (can alanlar)
80. عَبَسَ – qaşqabağını tökdü
81. الكوير – burma
82. الانفطار – sındırma, parçalama
83. المطففين – çəkidə aldadanlar
84. الانشقاق – parçalanma
85. البروج – ulduz bürcləri
86. الطارق – gecə yolçusu
87. الاعلى - ən yüksək
88. الغاشية – örtən
89. الفجر – dan yeri
90. البلد – şəhər
91. الشمس – günəş
92. الليل – gecə
93. الضحى – səhər
94. الشرح – açma
95. التين – tut ağacı
96. العلق – laxta
97. القدر – qədər
98. البينه – aydın dəlil
99. الزلزل – zəlzələ
100. العاديات – çapanlar
101. القارعة – böyük fəlakət
102. الكاثر – çoxaltma
103. العصر – vaxt
104. الهمزة – pisləyən, qeybətçi
105. الفيل – fil
106. قريش – qureyş
107. الماعون – sədəqə

108. الكوثر – bol
109. الكافرون – kafirlər
110. النصر – yardım
111. المسد – palma lifləri
112. الاخلاص – paklanma
113. الفلق – sübh
114. الناس – insanlar

İstifadə edilmiş ədəbiyyat

1. Quran القرآن الكريم
2. М.АЗАР «Арабский язык». Изд. АСТ. Москва, 2022 г.
3. Х.К.Баранов. «Арабско-русский словарь». Изд. «Русский язык». Москва, 1989 г.
4. A.Baydavi. "Baydavi kommentari in Coranum". Ed.Fleycher Lipsag, 1846.

Açar sözlər: Allahın adları, Quran surələri
Ключевые слова: Имена Аллаха, суры Корана
Key words: Names of Allah, Koran`s sura

Xülasə

Məqalədə Allahın 99 adı haqqında, onların yaranması, işlənməsi haqqında qısa məlumat və Azərbaycan dilinə tərcüməsi verilmişdir. Əlavə olaraq Quran surələrinin adları və tərcüməsi də daxil edilmişdir.

Аннотация

В статье проводятся 99 прекрасный имен Аллаха, сообщается об их возникновении и употреблении, дается перевод этих имен а также, в качестве приложение, перевод 114 названия сур Корана на Азербайджанский язык.

Summary

The article presents 99 beautiful names of God, discusses their origins and usage, provides translations of these names, and as an appendix, translates 114 surah titles of the Quran into Azerbaijani.

RƏYÇİ: dos. N.Əfəndiyeva

Sürəyya Qəzənfər qızı Hacıyeva [36]

NİTQDƏ OMONİMLƏRİN ROLU

Nitqimizdə omonim sözlər mühüm yer tutaraq linqvistik hadisə kimi dilin öz səs tərkibinə görə müəyyən inkişaf dövrlərində oxşarlıqları olan mənaca müxtəlif sözlərdir. Bu hadisə bir dilə aid deyil, bütün dillərə xas olan xüsusiyyətdir. Hər bir xalqın nitqində işlənən omonimlərin özünəxas xüsusiyyətləri mövcuddur. "Bu, həm müxtəlif və həm də eyni sistemli dillərə şamil olunur. Türk dillərinə gəldikdə isə, hər bir türk dilinin omonimlər sistemi vardır. Lakin onlar tam eynilik təşkil etmir. Türk dillərinin nəşr olunmuş lüğətlərini bir-biri ilə müqayisə etsək, omonimlərdə olan fərqi aydın müşahidə etmək mümkündür" [1].

Omonim sözü yunanca olub, oxşar(homos), ad(onuma)deməkdir. Omonimlərin tədqiqi üçün dilin leksik sistemində olan sözlərin semantik münasibətləri müəyyən olunmalıdır. Çünki çoxmənalı sözlər də, omonimlər kimi eyni səs tərkibinə malik olub, müxtəlif mənalar ifadə edir. Halbuki, çoxmənalı sözlərlə omonimlər formaca bir-birinə yaxın olsa da, onların arasında ciddi fərq vardır. "Anlayışlar ərsəyə gəldikdə, həmin anlayışları adlandırmaq zəruri hala çevrilir və hər bir anlayış üçün yeni söz yaratmaq və bu cür sözləri yadda saxlamaq insanlar üçün mürəkkəb bir məsələyə çevrilmişdi. Bu səbəbdən dolayı, yeni mənalara dair anlayışların köhnə sözlərlə ifadə olunması hadisəsini müşahidə edə bilərik. Ona görə də, əksər sözlərin birdən artıq mənası olur. Məhz, "nitqdə söz hər dəfə mənalarının birində çıxış edir. Mətn sözün mənasını müəyyənləşdirir və dəqiqləşdirir" [7, s. 141].

Çoxmənalı sözlərdə mənaların sayından asılı olmayaraq, bunlardan biri və ya bir neçəsi, onun nominativ mənasını təşkil edir.Yəni, çoxmənalı sözlərdə əsas yeri onun bir və ya bir neçə mənası tutur və bu mənalar sözun həqiqi mənasını ifadə edir. Həqiqi mənaların ətrafında olan ikinci dərəcəli mənalar isə sözün məcazi mənaya keçməsi ilə bağlıdır. Çünki, məcazi mənanın mövcüdluğu nominativ mənasız mümkün deyıı [8].

Sözün mənaları arasında assosativ əlaqəni, aralıq cəhətləri hiss mümkün olduqda, həmin söz çoxmənalı, bu, mümkün olmayanda isə omonim olur. Çoxmənalı sözün leksik-semantik variantı əlaqədar mənanı itirdiyi zaman həmin sözün müvafiq vahidi omonimə çevrilir. Məna əlaqəsi sözün mənaca ayrılması, əlaqənin qurulması, itməsi ilə müəyyən edilir. Bu sözlərin hüdudu dəyişkən olduğundan çoxmənalı sözlərdən törəyən omonim sözlər məna əlaqəsinin izlərini müəyyən müddətdə özündə saxlayır [9].

Çoxmənalılığın əksi olan təkmənalılıq sözlərin bir məna ifadə etməsi imkanına malikdirsə,çoxmənalılığı sözün bir neçə mənada işlənə bilməsi kimi başa düşmək lazımdır.S özün çoxmənalılığı müəyyən mətn daxilində meydana çıxır."Çünki söz təkıikdə işləndikdə onun bütün məna çalarlığının kompleksini ifadə edən mücərrəd bir formadan, səs kompleksindən başqa bir şey deyildir" [2, s. 19].

"Omonimləri çoxmənalı sözlərdən fərqləndirərkən onların söz yaradıcılığında iştirakına fikir vermək lazımdır. Omonim sözlər başqa sözlərin yaranmasında baza rolunu oynayır(4). Digər tərəfdən çoxmənalı sözün mənalarından biri sözün mənalar sistemindən ayrılıb, müstəqil bir söz kimi də çıxış edə bilir. Bu zaman köhnə sözlə çevrilir. Dildə bu prosesə çoxmənalı sözlərin **omonimləşməsi hadisəsi** deyilir.

Çoxmənalı sözdən əmələ gələ omonim soz öz leksik və qrammatik mənalarına görə törəndiyi sözdən fərqlənir, differensiallaşır. Bunun üçün uzun inkişaf prosesi lazım gəlir. "Çoxmənalı sözlərin əsas və törəmə mənaları arasındakı əlaqə o qədər zəifləyir ki, onu hiss etmək olmur, əlaqə pozulur, mənaca motivləşmə gedir. Bu, omonimlərin yaranması ilə nəticələnir. Omonim söz əsas sözlə məna əlaqəsini itirərərk öz növbəsində törəmə mənaların yığllması yolu ilə öz məna həcmini zənginləşdirir" [9].

Bir sıra tədqiqatçılar omonim və çoxmənalı sözlərə morfoloji üsulu tətbiq etməklə, onları bir-birindən ayırmağı təklif edirlər. Eyni sözdüzəldici şəkilçilərin qoşulması ilə yaranan sözlər çoxmənalılıq, müxtəlif sözdüzəldici şəkilçilərin qoşulması ilə düzələn sözlər isə omonimlik bildirir. Məsələn, "al" sözü, qırmızı rəng mənasında və almaq felinin əmr formasında:Gəlin – gəlin olmazmı, **Al**-yaşılı salmazmı, Gəlını evdən qovanın, Evi viran olmazmı. Yaxud, Allahım, Allahım, comərd Allahım, Allah, müxənnətə möhtac eyləmə. Ya ver qismətimi, ya **al** canımı, Allah, müxənnətə möhtac eyləmə. Digər bir nümunədə, Əzizim gözəl ayaz, Göy üzü gözəl ayaz. Əlinə qələmi **al**, Gözəli gözələ yaz.

Nümunələrdən göründüyü kimi, istər sifət, istərsə də fel anlamında işlənən sözdən yeni mənalı törəmə sözlər düzəltmək olur ki, burada da həm çoxmənalılıq, həm də omonimlik yaranır.

Omonim və çoxmənalı sözləri, tədqiqatçılar leksik üsul tətbiq etməklə də, ayırırlar. Belə ki, müəyyən məna bildirən sözü sinonimləri ilə tutuşdururlar. Əgər bu sözlər həmin mənaya sinonim olarsa çoxmənalı, sinonim olmazsa omonim olur. Məsələn, **yel** sözünə mətn daxilində nəzər salaq:

1. Deyirlər, on ildən sonra ulduzların toqquşması nəticəsində "Ayəti-xüsfin" əmələ gələcək, **yel** və su tufanı qopacaq, hamı qırılacaq (M.İsmayılov).

2. Ailəsi bir sahibkarın zirzəmisində yaşadığından uşaqların hamısı **yel** azarına tutulmuşdu.(H.Mehdi)

Başqa nümunələrə nəzər salaq: Əsmə zülüflərim **yellərə** qarşı, Bülbül fəqan edər güllərə qarşı. Gəl məni ağlatma illərə qarşı, Ürəkdə yaralar türlü-türlüdür. Və ya, İnsan var ki, acı dikən, İnsan var ki, gülə bənzər. İnsan var ki, yerli qaya, İnsan var ki, **yelə** bənzər. (Bayatılar Ulduz Mürşüdovanın "Rəşid bəy Əfəndizadə və folklor" və Maarifə Hacıyevanın "Türk aşıqları" əsərlərindən götürülmüşdür.)

[36] Bakı Dövlət Universiteti. e-mail: haciyeva.78s@mail.ru

Birinci misalda **yel** sözü "**bir tərəfə axın edən hava cərəyanı",** ikinci misalda **"revmatizm xəstəliyi"** mənasındadır. Birinci **yel** sözünə **külək,** ikinciyə isə **revmatizm** sözü sinonim olur. Beləliklə, eyni cür ifadə olunan bu sözlər müxtəlif anlayışları bildirdikləri üçün omonim sözlərdir. Hər iki üsul omonimlərin müəyyənləşdirilməsində tamamilə özünü doğruldur. Qeyd edək ki, omomnimlərin əmələ gəlmə prosesi yeni hadisə deyildir. O, tarixi kateqoriyadır və bütün dillərə xas olan bir hadisədir. Hər bir dilin tərkibinin zənginləşməsində omonimlərin xüsusi rolu olmuşdur. Bu proses qədim dövrlərdən mövcud olmuş və bu günə kimi də davam edir. Folklor nümunələrinə nəzər saldıqda aydın olur ki, şeirdə axıcılıq, əlvanlıq, və nəhayət, cinas yaratmaq xatirinə omonim sözərdən istifadə olunmuşdur. Məsələn: Mən aşiqəm bir **ay** var, Bir ülkər var bir **Ay** var. Gündə gördüyüm cananı, Görməmişəm bir **ay** var.

Göstərilən nümunədən aydın olur ki, ikinci misrada **Ay "planet, göy cismi"**, birinci və dördüncü misralarda isə **"ilin bölündüyü on iki hissədən hər biri"** nəzərdə tutulur. Göründüyü kimi, bu şeir parçasından cinas yaratmaq məqsədilə omonimlərdən başqa bir şey kimi izah etmək doğru olmazdı.

Bununla belə bəzi tədqiqatçılar omonimləri cinaslarla eyniləşdirmiş, onları cinas kimi izah etmişlər [2, s. 33]. Omonimləri ayrıca bir leksik vahid kimi müəyyən etmək üçün H.Həsənovun onlara verdiyi tərif daha dolğun və əhatəlidir. O yazır: "Omonimlər formaca, tələffüzcə və qrafik cəhətdən eyni, mənaca bir-birindən fərqlənən, məna ümumiliyi və aralarında assosiativ əlavə hiss olunmayan, eyni və müxtəlif mənşəli, eyni və müxtəlif nitq hissələrinə aid sözlərdir" [7, s. 7].

Qeyd etdik ki, omonimlər tarixi kateqoriya olub, ta qədim dövrlərdən mövcud olmuşdur. Zaman keçdikcə dilin lüğət tərkibilə bərabər, omonimlər də dəymiş, inkişaf etmiş, təkmilləşmiş və xeyli artmışdır. Bir tərəfdən yeni məfhumların əmələ gəlməsi ilə əlaqədar yeni ifadə vasitələrinin yaranması, digər tərəfdən sözlərin mənalarının dəyişilməsi (daralması və ya genişlənməsi) omonimlərin dildə artmasına təsir göstərmişdir. Bundan başqa müxtəlif dillərin bir-biri ilə qarşılıqlı əlaqəsi də omonimlərin artmasında, yaranmasında mühüm rol oynamışdır. Bu baxımdan da omonimləri iki qrupa bölmək olar:

1) Yalnız Türk (Azərbaycan) dili sözlərindən ibarət olan omonimlər. Məsələn:

Üz, isim qrammatik kateqoriyasına aid olub, **sifət, "bəniz"** anlamında: Səməd hasarın dibində şırıldayan krana yaxınlaşdı, ovcunu su ilə doldurub **üzünə** çırpdı (İ.Hüseynov). Öz adım Xəlildir, köyümüz Hama, Öyərim gözəlim söylərim demə. Qaracaoğlandır ləğəbim, amma, Ağ bəyaz qar kimi **üzüm** var mənim.

Üz – üzmək feilin əmr forması şəklində;Yelkən yuxarı tərəfə üzdükcə, Fəxrəddin də oradakılarla söhbət edirdi (M.S.Ordubadi). Mən Qədirəm, çəmənləri gəzərəm, Çiçəklərin ən gözəlin **üzərəm.** Nə qaşadır, nə gözəldir. Meylim gözəl **üzədir.** Daima solmaz, tazədir, Bu bizim gülüstanımız.

Gül - Çiçək anlamında: Çıxdım bu aləmi seyran eylədim, Açılmış baharın **gülü** dağların. Sökülmüş bəndləri cuşu yenilməz, Çağlayıban axar seli dağların. Nə dilərsən haqdan dilə, bələdçi ol doğru yola, Bülbül aşiq olmuş **gülə,** ötər Allah deyə-deyə.

Gülmək feilin əmr formasında: Gül gözəl, bil gözəl, Sən mənimsən, mən sənin. Girit dəftərləri irsal olundu, Haki izzətinə bilə padişahım.Cümlə düşmənlərin bağrı dəlindi, Sən gül kimi açıl, **gül** padişahım (Cabbarzadə)

2) Alınma sözlər hesabına yaranan omnimlər. Dilimizdə işlənən omonimlərin müəyyən hissəsi alınma sözlərin payına düşür. Zəruri ehtiyacdan doğan tələbata görə dilimizə daxil olan belə sözlər, bir tərəfdən dilimizin lüğət tərkibinin zənginləşməsinə səbəb olan amillərdən biri kimi özünü göstərir; digər tərəfdən də omonim sözlər kimi işlədilir. Məsələn: Evimizə su çəkdilər, **qaz** çəkdilər. İsinmədik istisinə. Kor olduq tüstüsünə (Ə.Kərim). Digər nümunəyə diqqət edər: Dövlət dumasını tutmaq istərkən, Uçurdum qolumdan, baz əldən getdi. Cəhd edib ardınca düşmək istədim, Hazır durna ilə **qaz** əldən getdi.

Başqa dillərdən keçən alınma sözləri keçdiyi dildə müəyyən dəyişikliyə məruz qalıb-qalmamasına görə iki yerə bölmək olar: 1. Heç bir dəyişikliyə məruz qalmayan, əslində olduğu kimi işlədilən omonimlər. 2. Fonetik və ya qrammatik dəyişiklik edilməklə işlədilən omonimlər.

Qeyd edək ki, belə sözlər keçdiyi dildə həm dilə daxil olan vaxt, həm də sonralar, tədricən fonetik və ya sözdüzəltmə xüsusiyyətinə məruz qalaraq omonimləşə bilir.

Alınma omonimləri mənşəyi etibarilə əsasən üç yerə ayırmaq olar:

1) Ərəb mənşəli omonimlər; 2) Fars mənşəli omonimlər; 3) Müxtəlif mənşəli, qarışıq tipli omonimlər.Ərəb mənşəli omonimlər: Bəhs (mübahisə) – bəhs (əsərin bir hissəsi).Bina (ev) – bina (özül) – bina (əvvəlcə, əvvəldən).Aləm (kainat) – aləm (çoxlu, xeyli) – aləm (çox maraqlı). Fars mənşəli omonimlər:Bazar (alış-veriş yeri, ticarət mərkəzi) – bazar (istirahət günü).Zər (qızıl anlamında) – zər (nərddə oyun daşı). Bəhrə (keçmişdə kəndlilərdən alınan natural vergi) – bəhrə (məhsul, meyvə). Müxtəlif mənşəli, qarışıq tipli omonimlər:Bal (Azərbaycan (türk), şirin maddə) – bal (farsca, qanad) – bal (fransız dilində rəqs gecəsi) – bal (fransızca dərəcə).Bar (farsca məhsul) – bar (ingiliscə qəlyanaltı). Dad(farsca, fəryad,fəğan)-dad(Azərbaycan(türk) xarici duyğu növlərindən biri-tam).

*Omonimlərin əmələgəlmə yolları***.** Omonimlərin əmələgəlmə yolları, əsasən üç şəkildə qruplaşdırılır. Biz yalnız leksik yolla əmələ gələn omonimləri omonim kimi qəbul edirik. Bu yolla əmələ gələn omonimlərin çağdaş ədəbi dilimizin lüğət tərkibinin zənginləşməsində müəyyən rolu vardır. Şifahi xalq ədəbiyyatı nümunələrinə nəzər saldıqda omonimlərin qədimliyini, lüğət tərkibini zənginləşdirməsi prosesinin şahidi oluruq. Məsələn: Gözlərim **yaş** iləndir, Ömürüm yaş iləndir, Uzaq yollar möhnəti, Yaxşı yoldaş iləndir.

Göründüyü kimi, misalın birinci misrasında işlənən **"yaş"** sözü, **"göz yaşı"** mənasında, ikinci misrasında isə **"vaxt, zaman (il)"** mənasında işlənmişdir. Burada **yaş** (göz yaşı) – **yaş** (il) omonim cərgələrin üzvlərinin faktik tərkibləri eynidir, eyni şəkildə tələffüz olunur. Hər ikisi bir nitq hissəsinə - ismə aiddir və yazılışlarına görədə fərqlənmirlər. Onlar bir-birindən yalnız mətndəki mənalarına görə seçilirlər.

Beləliklə, "fonetik tərkibləri, qrammatik məna və formaları eyni, ismi mənaları müxtəlif olan omonimlər leksik omonimlər adlanır" (5, s. 26). Buları da nitq hissələrinə görə, əsasən dörd yerə ayırmaq olar: isim, sifət və feil xüsusiyyətlərini daşıyıb bu kateqriyalara daxil olanlar, eləcə də qarışıq tipli leksik omonimlər. Məsələn: İsimlərdən ibarət leksik omonimlər: Əzizim yanar **dağlar,** Od düşüb yanar **dağlar,** O gözlərə deyin ki, Baxsın bu yana **dağlar.** Yaxud, Yenə cuşa gəldi bu dərdli ürək. Sinəmi **dağladı** o qanlı fələk. Bəxtin verdiyinə şükr etmək gərək, Könül çx istərkən az əldən getdi. Başqa bir nümunədə, Aşıq Ömər gəldi isə,Haqq inayət qıldı isə ,Fərhad dağı dəldi isə, Mən qoyam **dağı dağ** üstə.

Nümunələrdə **dağ s**özü həm nominativ "yerin dik, yamaclı hissəsi" anlamında, həm də "qəm, kədər, qaynar,qaynamış" mənalarında işlənir. Bu kimi nümunələri istənilən qədər artırmaq mümkün isə də buna ehtiyac görmədik.Sifətlərdən ibarət omonim sözlər: Ömrüm, günüm olub **qara,** Səni axtara-axtara.

Gəlib çıxmışam gör hara, Səni axtara-axtara. Mən insanı **ağ** günlərə səsləyən, Hər könüldə bir təranə bəsləyən, Aydan arı diləklərlə bağlıyam, Elə bağlı, ürəklərlə bağlıyam. (Rəfiq Zəka).

I. Fellərdən ibarət omonim sözlər: Pir sultanım nə **yatarsın,** Qurmuş çarxını dönərsin, Nə qnarsın, nə köçərsi, Qalan dünya deyilmisin. Tellinin əri ölmüşdur və ya bir cinayət yapmış da, həbsxanada **yatır** (C.Hüseyn). Yolun yarısında birdən-birə motor **yatdı.**(H.Mehdi).

II. Qarışıq tipli leksik omonimlər. Belə omonimlərin üzvləri müxtəlif nitq hissələrindən ibarət olur: Libas əndama yaraşır, Əndam uyur libasına.

Ələsgər məcnun olub,
Düşüb Leyli sevdasına.
Sailəm, bir saya **sal,**
Üz döndərmə, barı, gözəl.
Mən aşiqəm Salyana,
Dara zülfün **sal** yana,
Necəsən. Bir ah çəkim,
Çay quruy ub, sal yana.
Yaz gəlib də beş ayları doğunca,
Açılmış bağların gülləri gözəl.
Yaxdı məni Fatimənin nəzəri,
Zülüfdən ayrılmış telləri gözəl.
Allahı sevərsən, katib, belə **yaz,** Gecə-gündüz şaha eylərəm niyaz. (Aşıq Ələsgər)

Nümunələrdən göründüyü kimi, leksik omonimlər həm eyni, həm də müxtəlif nitq hissələrinə aid olan leksik vahidlərdə özünü göstərir. Qeyd edim ki, rus dilində omonimlər eyni nitq hissəsindən düzələ bilir. Bu fərqli xüsusiyyət də Azərbaycan, ümumiyyətlə, türk dillərinin (ləhcələrinin) zənginliyinə dəlalət edir.

Araşdırıcılardan bəziləri sintaktik səviyyədə omonimliyin olmamasını, digər qrup dilçi-alimlər isə hətta ayrı-ayrı cümlələrində belə omonimliyindən söhbət açırlar.

Böyük rus dilçiləri L.A.Bulaxvski və V.V.Vinoqradov belə fikrə gəlmişlər ki,sintaktik səviyyədə omonimlik ola bilməz və bacardıqca bu ifadədən qaçmaq lazımdır [6, s. 4].

Qeyd etmək lazımdır ki, sintaktik yolla yaranan omonimliyin xüsusi tədqiqata ehtiyacı vardır. Bizim fikrimizcə, Azərbaycan dilçiliyində bu məsələ bu günədək həll edilməmişdir. H.Həsənov tədqiqat əsərində bu üsulla yaranan omonimləri əsasən yanaşma əlaqəsilə cərgə əmələ gətirməsini qeyd edərək bir sıra misallarla fikrini izah edir.Tədqiqatçı qeyd edir ki, **aypara** (bir-iki günlük ay), **aypara** (qadın bəzəyi) sintaktik yolla yaranan omonimlərdir (5, s. 22). Bizim fikrimizcə, burada omonimlik yoxdur. Çünki, qadın bəzəyi kimi işlədilən **aypara** fuquru elə **aypara** (bir-iki günlük ay) şəklindədir və bunlar arasında semantik əlaqə qırılmamışdır. Bu baxımdan da yanaşma əlaqəsi əsasında cərgə əmələ gətirən sintaktik omonimlər mübahisə doğurur. Tədqiqatçının mürəkkəb ixtisarlardan ibarət sintaktik yolla yaranan omonimlərdən bəhs etməsinə gəldikdə isə deyə bilərik ki, ümumiyyətlə, ixtisarlar türk dillərinə xas xüsusiyyət deyil və bu barədə söhbət belə gedə bilməz. Təsadüfi deyildir ki, Azərbaycan dilində bəzən qeyri-elmi ixtisarlara da təsadüf olunur. Digər tərəfdən isə bu tipli ixtisarlar mətndə anlaşılmazlıq yaradır. Məsələn, "AXC bildirmişdir ki....." ifadəsində söhbətin Azərbaycan Xalq Cəbhəsindən yoxsa Azərbaycan Xalq Cümhuriyyətindən getməsi məlum olmur. Belə ifadələrin sayını istənilən qədər artırmaq olar.

Söz birləşmələrinin omonimliyinə gəldikdə isə hörmətli professorumuz Həsrət Həsənova görə məcazi mənada işlədilən söz birləşmələri müstəqim mənalı söz birləşmələri ilə sintaktik səviyyədə omonimlik yaradır [5, s. 22-23].

Qeyd edək ki, bunu da sintaktik yolla yaranan omonimlər kimi qeyd etmək mübahisəli görünür. Sintaktik omonimliyin meyarı omonim söz birləşməsinə uyğun gəlmədiyindən, biz söz birləşmələrinin omonimliyini qəbul etmirik. Belə olduğu təqdirdə omonim cümlələrdən söhbət açmaq qeyri-mümkündür.

Başqa dillərdən fərqli olaraq Azərbaycan dilində omonimlərin bir qismi nitq hissələrinin bir-birinə keçməsi hesabına əmələ gəlir. Bu proses qanunauyğun bir hadisədir. İsimlərin atributivləşməsi, adverbiallaşmasi və sifətlərin substantivləşməsi nəticəsində dilimizdə külli miqdarda leksik-qrammatik omonimlər yaranmışdır.

Göründüyü kimi, omonimlər dilin leksik və qrammatik xüsusiyyətlərini özündə birləşdirən, səs tərkiblərinə görə müəyyən oxşarlığı olan, müxtəlif anlamlı sözlər olub, dilçiliyin mürəkkəb problemlərindəndir.

İstifadə edilmiş ədəbiyyat

1. Müasir Azərbaycan dili. I cild. Bakı, 1978.
2. Tağızadə A., Xocayev X.S. Müxtəsər üslubiyyat, orta məktəb üçün. Bakı: Azərnəşr, tədris-pedoqoji şöbəsi, 1933.
3. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. BDU nəşri, Bakı, 2001, s. 58
4. Xəlilov B. Müasit Azərbaycan dilinin leksikologiyasi. Bakı, 2008, s.164
5. Həsənov H. Müasir Azərbaycan ədəbi dilinin omonimlər lüğəti. Bakı, 1981.
6. Vinoqrabov V. Ob omonimax i smejnıx əvleniəx. «Voprosı əikoznaniə». №1 Moskva, 1960.
7. https://aem.az/index.php?newsid=793.
8. http://82.194.16.162:8080/xmlui/bitstream/handle/
9. https://azkurs.org/5-coxmenallgn-yaranma-yollar.html?page

Açar sözlər: Omonimlər, omonimlərin mənşəyi, leksik omonimlər, ixtisarların omonimliyi, sintaktik yolla yaranan omonimlər

Ключевые слова: Омонимы, происхождение омонимов, лексические омонимы, омонимы сокращений, синтаксически образованные омонимы

Key words: Homonyms, origin of homonyms, lexical homonyms, homonyms of abbreviations, syntactically formed homonyms

Nitqdə omonimlərin rolu

Xülasə

Omonim və çoxmənalı sözləri, tədqiqatçılar leksik üsul tətbiq etməklə də, ayırırlar. Belə ki, müəyyən məna bildirən sözü sinonimləri ilə tutuşdururlar. Əgər bu sözlər həmin mənaya sinonim olarsa çoxmənalı, sinonim olmazsa omonim olur.

Omonimlər tarixi kateqoriya olub, ta qədim dövrlərdən mövcud olmuşdur. Zaman keçdikcə dilin lüğət tərkibilə bərabər, omonimlər də dəymiş, inkişaf etmiş, təkmilləşmiş və xeyli artmışdır. Bir tərəfdən yeni məfhumların əmələ gəlməsi ilə əlaqədar yeni ifadə vasitələrinin yaranması, digər tərəfdən sözlərin mənalarının dəyişilməsi omonimlərin dildə artmasına təsir göstərmişdir. Dilimizdə işlənən omonimlərin müəyyən hissəsi alınma sözlərin payına düşür. Zəruri ehtiyacdan doğan tələbata görə dilimizə daxil olan belə sözlər, bir tərəfdən dilimizin lüğət tərkibinin zənginləşməsinə səbəb olan amillərdən biri kimi özünü göstərir; digər tərəfdən də omonim sözlər kimi işlədilir.

Omonimlərin əmələgəlmə yolları, əsasən üç şəkildə qruplaşdırılır. Biz yalnız leksik yolla əmələ gələn omonimləri omonim kimi qəbul edirik.

Роль омонимов в речи

Резюме

Для отличия омонимов от многозначных слов используются разные методы. Ряд исследователей предлагают различать их, применяя морфологический метод к омонимам и многозначным словам. Слова, образованные добавлением одних и тех же суффиксов, указывают на многозначность, а слова, образованные разными суффиксами указывают на омонимию. Омонимы являются исторической категорией и существуют с древнейших времен. С течением времени вместе о словарным запасом языка формировалис развивались, совершенствовались и значительно увеличивались и омонимы. С одной стороны, появление новых средств выражения вследствие образования новых понятий, с другой стороны, изменение значений слов повлияло на увеличение количество омонимов в языке. Определенная часть омонимов, используемых в азербайджанском языке, относится к заимствованным словам. Такие слова, вошедшие в словарь азербайджанского языка из – за необходимости, с одной стороны, выступают одним из факторов, приводящих к обогащению словарного запаса нашего языка; с другой стороны, они используются как омонимы. Способы образования омонимов в основном группируются по трем направлениям. Омонимами мы считаем только лексически образованные слова.

The role of homonyms ın speech

Summary

Homonyms are a historical category and have existed since ancient times. Over time, along with the vocabulary of the language, homonyms were formed, developed, improved and significantly increased. On the one hand, the emergence of new means of expression due to the formation of new concepts, on the other hand, changes in the meanings of words influenced the increase in homonyms in the language. A certain part of homonyms used in our language refers to borrowed words. Such words, which entered our language at the request arising from necessary necessity, on the one hand, act as one of the factors leading to the enrichment of the vocabulary of our language; on the other hand, they are used as homonyms. The methods of forming homonyms are mainly grouped into three ways. We consider only lexically formed homonyms to be homonyms.

Rəyçi: prof. R.Həbibli

ORCID: 0009-0001-2498-8880

Aynur Murad gizi Namazova [37]

PHONETIC AND LEXICOLOGICAL FEATURES OF OGHUZ AND KIPCHAK LANGUAGES

Actuality. It is not a new perspective for the world of science that languages from the same root have common important issues and similarities in terms of phonetics, morphology, lexicology and syntaxis.

Scientific innovation. This feature proves that these languages came from the same root and the same foundation centuries ago. In addition to these similarities, each branch has also developed its own unique qualities. In our paper, we will discuss the important phonetic and lexicological features of the Oghuz and Kipchak groups.

Introduction. N.A.Baskakov, in his work titled "Classification of Turkic Languages" [1], showed that words starting with the fluent consonant #y at the beginning of the word in Oghuz languages are written with the voiced consonant #j in the Kipchak languages, and the voiceless consonant ş# at the end of the word in the Oghuz languages is written with s# in the Kipchak group, and these features are called He emphasized that the language groups mentioned above have phonetic features. If the Kipchak group preserved the q# k# sounds at the end of the word without voice, the Oghuz languages made them voiced and turned them into g# ğ#. These features we have mentioned are considered important features of the language group.

With the increase in research in recent years, the phonetic characteristics of Oghuz and Kipchak languages have become clear and it has been determined that these differences are many.

In answer to the question of what are the important phonetic differences between the language groups of the Oghuz and Kipchak groups, it is possible to show, first of all, with a few examples that the voiceless consonant s# in the Kipchak languages at the end of monosyllabic words is said with the voiceless consonant ş# in the Oghuz group. For example; In the Kipchak group, bas (the moving part on the upper or front part of the human or animal body), bes (the number after four, the name of the number five), tas (the hard type and large or small part of the mountain), tis (the chewing or chewing part of the human or animal). bone member arranged in order in the mouth, which is broken off by biting), tes (drilling, opening a hole, digging a hole), tus (next to an object and a second object), tus (dream), qas (hair growing on the eyelid), qus (beings with various body structures, winged, beaked, two-legged, mostly flying), urus (war, conflict), ıdıs (items used in our daily lives to put various objects, food and drink - qap (sack), qalta (pocket).), Ayakbak (kapkaçak) etc.) [2] In Oghuz languages – ap(çuval), qalta(cep), ayaktabak(kapkaçak) vs) [2] Oghuz languages – baş, beş, taş, tiş, teş, tuş, tüş, kuş, kaç, uruş, ıdış and etc.

In addition, the suffixes that end in the consonant s in the Kipchak group completely end in the consonant ş in the Oghuz group (mıs~mış, ıs ~ış, das~daş, etc.).

Is the s sound in the Kipchak group older or the ş sound in the Oghuz group? In addition, no specific answer has been found in Turkology to the question of how this difference emerged. Professor B. Sagındıkoğlu discussed this issue in his monograph titled "Etymological foundations in the development of Kazakh language lexicology" published in 1994 and opened an important page in the scientific world.

The s consonant in the Kipchak group consists of ts affricate, and the ş consonant in the Oghuz group consists of three (tş) affricate consonants. It is possible to show the solution as follows: ts> (ts)>s; ç>(tş)ç>ç [3, 25-50 p.]. When we consider it phonetically, ц is the affricate consonant.

The consonant tc (ç) consists of the organic combination of t and ş sounds. During historical development, the first consonant t lost its strength, so it gradually melted and was replaced by the sounds s and ş.

In ancient times, the vowel consonants t, s, ş were used only as a single sound in the process of establishing organic connections among themselves. The author explained this feature and named it as a derived affricate consonant. Nowadays, these three different sounds were once heard only as one voice.

The commonality of the t sound in the consonants ts, tş, and the easy transition between the sounds s, ş, have led to this.

The concept of donkey in the Kazakh language; Tsetsek in Tungus – Manchu languages; Flower in Turkic languages. The division of this word into two structures, which is used in only one structure and corresponds to only one lexicological concept, probably dates back to the oldest Altai period. These examples may be evidence that the root of the affricate consonant ts, tş is the same. "şişek" in Kazakh language

It is obvious that its structure emerges from the "flower" structure in Turkish languages: çiçek-şişek. It seems clear that the t sound in these consonants has disappeared. So, s –ts (ts) affricate consonant is the natural continuation and heir of ş-tş (tş) affricate consonant. The formation of the affricate consonants ts, tş from the same root divided the Altai languages into two. As a remnant of these consonants, the consonant s survives in northeastern languages and the consonant ş in southwestern languages. In addition, the famous Turcologist G. Kiyekbayev also defended the same opinion. [4, 15-6.].

One of the important phonetic features of the Oghuz group and the Kipchak group is y~j. For example; In the Kazakh language of the Kipchak group, jaz (season after spring) jas (time, number of years indicating the season of life of people, animals, etc.), jol (road on which people, animals, cars walk repeatedly), jıl (twelve-month time, season), gel

[37] PhD student of ASPU, of the Department of Modern Azerbaijani Language, Azerbaijan. E-Posta: aynamaz@mail.ru

(sometimes hard, sometimes slow blowing air), jır (general name of a work of poetry), jılkı (single-hoofed animal used for transportation), jilan (reptile, vertebrate animal), jaksı (liked, beautiful), jaman (bad, disliked), jalgız (single, plain), jarık (bright, hur), summer, age, road, year, wind, yoke, snake, yaksi, yaman, yalgiz, yaruk etc. in Oghuz languages.

Debates about the origin of the y~j harmony have been discussed in the field of Turcology for hundreds of years. If Turcologists, led by V.V.Radlov and V. A. Bogoroditskiy, argued that the y consonant was the basic root; G.I.Turcologists, led by Ramsted, defended the affricate dj as the base root. But researchers in both directions have their own

They could not get what they advocated approved by the field of Turkology. B. Sagındıkoğlu carried out special research in this direction and solved the problem for which no solution could be found. The wool consonant, which is thought to be the basic origin, is just an epithetized sound. For example; We encountered in the works of the middle century

The words "write", "say", "blackened", "sargardı" in Kazakh language. From these examples, we see that the vowels z and r are replaced by the consonant y, and that they remain intact. The same thing happened in the content of the old affricate consonant. As an example, concepts such as tyakşı (good), tyat (yacht), tyol (road), tyeti (seven), tyer (place), tyıl (year), tyok (nothing) preserved in Altai languages can be evidence. To explain, the consonant ş in the content of the consonant ç (tş) melted and was slowly replaced by the epigraph sound. As a result, ty double voice came to life. It is like this; tş> ty. ts (ts), - ç (tş) consonants, also

The t sound in front of the other consonants formed here has dissolved over time, so the y epinthesis consonant remained plain. Thus, the level of development of the above concepts depends on the dynamic law of the form: cakşı> tyakşı >yakşı, çol >tyol>yol, çeti >tyeti>yeti, çer>tyer>yer, year>tyear>year etc. Thus, in the word-initial #y fluent consonant in the Oghuz group, the ş consonant in the three affricate consonants remained weak and was replaced by the y fluent consonant. We can also clarify that it was formed on the basis of the loss of the t consonant in the affricate content.

The j sound in the Kipchak language group is also derived from three affricates. However, it followed different paths during its development. The consonant Ç (tş) becomes voiced first. ç (tş)> dj. Over time, the d voiced consonant in front of the affricate disappeared. It is as follows: tş > dj > j. Thus, the words #y at the beginning of the word in the Oghuz group and #j in the Kipchak group were said only with the consonant ç (tş) in the old period. It is impossible for changes like this to occur in a short time. Thus, the separation of Oghuz and Kipchak groups from each other dates back to ancient times.

One of the important phonetic differences between the Oghuz and Kipchak groups is that the suffixes ending in q, k sounds in the Kipchak group are generally voiced in the Oghuz group. In Kipchak groups, this sound has always been preserved silently. Among these, the frequently used suffixes are: -luğ/-lüg/-lig. To give examples from the work "Kutadgu Bilig": Telim kalgu ermas tirilig küni Uzun bargu ermas uluğluğ üni for example); Negü ter equalgül yaglıg person Yagı birla uruşu tükamış age н кісі – не деп айтады, тығда); Death without perception
detects тардығ жанын алады). Examples in the work «Atabet-ül Hakayık»: Könilig tonın key mavi put egirlig (’ығырлығты тастап шындықтығ тонын ки); His blood, his blood, his bar, his personality, his uniqueness ба?). It is possible to see that the words tirig+lig, ulug+lug, yagı+lıg, jan+lıg, köni+lig, egir+lig, kşi+lig, which we give examples in the works, become sonorous as soon as a suffix is added.

-uğ/-üg,-ığ/-ig suffix. To give an example from the mentioned works: Karında törümiş thick ögrat+ig yagiz yer kat ketar ay tetig in the following section); Eligka yış+ıg bol-boldı könli büt+ün (КЩңілі толып, елбасыға Талған болды); Cleft duniya hundred esünsa es+üg Men utru barayın н); Tar+ıg was made (тары орылып алынды). All of these words were said in the old Kipchak language as ögrat+ik, yış+ık, Eş+ük, tar+ık, and were not voiced.

This suffix has entered many roots and become stereotypes. For example:, kud+ug (құдық), kap+ug (қақпа, есік), çer+ig (әскер), tar+ıg (астық), yıl+ig (жілік), sak+ıg (сағым), tap+ug (қызмет), öt+üg (өтініш, тілек), yaz+ug (жазық), tus+ug (түсім), öl+üg (өлім), tat+ıg (дәм).

It would also be useful to include the old suffixes -lağ/-lag, ag/-eg, g, ğ in the same group. Thus, the voiced form at the end of the word belongs to the Oghuz groups, and the voiceless form belongs to the Kipchak groups.

An important feature in terms of phonetics is that the consonants ğ, g, q, k are preserved in the middle of words in Oghuz groups and are dropped in Kipchak groups. For example; gır ~ ayır, agrı ~ avruv, agu ~u, bagla ~ bayla, bugday~biday, egin ~yin, igna ~ine, ogrı ~urı, oglan ~ulan, togrı ~tuvra, yıgla ~ jıla, küyagü ~küyev, ogul~ ul, ögren~üyren etc. Apart from these, the words spoken with labial consonants in the second and third syllables in the Oghuz groups appear with completely flat vowels in the Kipchak groups. For example: aguz ~ aviz, agur ~ avır etc. The vowel u in the first syllable in Old Turkic is u (o) in Kipchak groups; There are many differences in Oghuz groups, such as changing to o. (tuu ~tog, ulan ~ oglan)

The fact that the words expressing only one concept are said separately in the Oghuz groups and in the Kipchak groups and are different from each other shows that these languages have undergone changes in the very old period. For example; The concepts of kurtga, Kırınça, Yıldırım, kapug, kurt, dudag, eksük, intestine, kandü, onion, implicit, tomorrow, evdaş, sokal, yoghurt, sakış, çerik, Kamug, kadaş in the Oghuz group are kari, kumırska, nayzagay, esik, It is said as böri, erin, naşar, İş, Öz, Juva, Jasırın, Erten, Ayel, Avruv, Ayran, Oy, Soldier, Barsha, Tuvis. It is possible to determine the number of such words thanks to special research.

Some lexicological concepts in the Oghuz group do not exist in other Turkish dialects. It is possible to see events like this in other language groups as well. There are also concepts that belong only to the Kipchak group. Sagındıkoğlu made special research on this subject and compared the dictionaries of Turkish dialects. Therefore, he explained that some words in

the works are only available in one language and not in other languages, so that concept is expressed differently. According to the researcher, words found in Oghuz groups: alın (маңдай), bağırsak (іш), kendü (өз), kölke (көлеңке), örtüklü (жасырын), sogan (жуа), utan (ұялу), çog (көп), karınça (құмырсқа), kurt (бөрі), yarın (ертең), yıldırım (найзағай) vs. Aksine bu kelimeler ise sadece Kıpçak grubunda bulunmaktadır: basın (басыну), baklan (бағлан), bakır (жез), bayagı (баяғы), bolmaçı (болмашы), entik (ентігу), em (ем), erik (ерігу), en (ену), enra (еңіре), irkil (іркілу), yimen (имену), kün (күң), keri (кері), süngi (сүңгі), çık (шық), sal (салу), tansuk (таңсық), tıy (тыю), tabran (тебірен), talpı (талпыну), tanırka (таңырқау), tun (тұну), ürk (үрку), kavrut (қауырт) [5, 44-45 s.].

Although these concepts do not occur in the Oghuz, Karluk-Uyghur languages, they are present in the Kipchak groups and also in the Kazakh language.

The result. The phonetic and lexicological features we have mentioned above are not changes of three or four thousand years. It may take thousands of years for such change to occur. It is possible that the separation and classification of the Oghuz, Kipchak and Karluk-Uyghur languages coincided with the first period of the Old Altai period. In language research, it is necessary to classify similarities as well as differences very well. One of the important duties of Turcologists is to determine each language by researching its specific features.

References

1. Baskakov N. A. "Bvedenyie v izucenye turkskih iazikov". Moscow, 1962.
2. "Kazakh tilin's words of encouragement. 1-10 tomdar/ Jalpi redaktsiasin baskargan A.Y. Yskakov. – Almati: Gylym, 1974-1986.
3. Sagındıkoğlu. B. "History of the Kazakh til." Kazakh University Baspa, Almaty, 2011
4. Kiyekbaev. DJ G. "Bvedeniye v uralo-altaiskiye iazikoznaniye" Ufa, 1972.
5. Sagındıkoğlu. B. "Altyn Orda jazba eskertkishterinin tili". Kazakh University Baspa, Almaty, 2006.

Key words: Oghuz, Kipchak, dialect, phonetics, lexicon, feature
Açar sözlər: Oğuz, Qıpçaq, dialect, fonetika, leksika, xüsusiyyət
Ключевые слова: огузы, кыпчаки, диалект, фонетика, лексика, особенность

Summary

The fact that languages from the same root have common important problems and similarities in terms of phonetics, morphology, lexicology and syntax is not a new perspective for the world of science. This feature proves that these languages originated from the same root and the same foundation centuries ago. In addition to these similarities, each branch has its own characteristics. In our article, we will talk about the important phonetic and lexicological features of the Oghuz and Kipchak groups. The above-mentioned phonetic and lexicological features are not changes of three or four thousand years. Such a change may take thousands of years to occur. It is possible that the separation and classification of the Oghuz, Kipchak and Karluk-Uyghur languages coincided with the first period of the Old Altai period. In the study of language, it is necessary to classify the differences as well as the similarities very well. One of the important tasks of Turkologists is to identify the unique characteristics of each language.

Oğuz və qıpçaq dillərinin fonetik və leksikoloji xüsusiyyətləri

Xülasə

Eyni kökdən olan dillərin fonetika, morfologiya, leksikologiya və sintaksis baxımından ümumi əhəmiyyətli problemləri və oxşarlıqları olması elm dünyası üçün yeni perspektiv deyil. Bu xüsusiyyət sübut edir ki, bu dillər əsrlər əvvəl eyni kökdən və eyni təməldən yaranmışdır. Bu oxşarlıqlarla yanaşı, hər bir qolun özünəməxsus xüsusiyyətləri də formalaşmışdır. Məqaləmizdə oğuz və qıpçaq qruplarının mühüm fonetik və leksikoloji xüsusiyyətlərindən bəhs edəcəyik. Yuxarıda qeyd etdiyimiz fonetik və leksikoloji xüsusiyyətlər üç-dörd min ilin dəyişməsi deyil. Belə bir dəyişikliyin baş verməsi üçün minlərlə il lazım ola bilər. Oğuz, qıpçaq və karluk-uyğur dillərinin ayrılması və təsnifatının Köhnə Altay dövrünün birinci dövrünə təsadüf etməsi mümkündür. Dil tədqiqində oxşarlıqlarla yanaşı, fərqləri də çox yaxşı təsnif etmək lazımdır. Türkoloqların mühüm vəzifələrindən biri də hər bir dilin özünəməxsus xüsusiyyətlərini tədqiq edərək müəyyən etməkdir.

Фонетико-лексикологическая характеристика огусского и кипчакского языков

Резюме

Тот факт, что языки одного корня имеют общие важные проблемы и сходства с точки зрения фонетики, морфологии, лексикологии и синтаксиса, не является новой перспективой для мира науки. Эта особенность доказывает, что эти языки произошли от одного корня и одной основы много веков назад. Помимо этих сходств, каждая ветвь имеет свои особенности. В нашей статье мы поговорим о важных фонетических и лексикологических особенностях огузской и кипчакской групп. Вышеупомянутые фонетические и лексикологические особенности не являются изменениями трех-четырех тысяч лет. Для того, чтобы такое изменение могло произойти, могут потребоваться тысячи лет. Возможно, разделение и классификация огузского, кыпчакского и карлуко-уйгурского языков совпали с первым периодом древнеалтайского периода. При изучении языка необходимо очень хорошо классифицировать как различия, так и сходства. Одной из важных задач тюркологов является выявление уникальных особенностей каждого языка.

RƏYÇİ: dos. L.Ələkbərova

Məmmədova Əsmətxanım Bəyəhməd qızı [38]

PUŞTU VƏ FARS DİLİNİN SAMİTLƏR SİSTEMİ MÜQAYİSƏ MÜSTƏVİSİNDƏ

Giriş. İki və daha artıq dilin qrammatik quruluş və leksik tərkibində ümumi cəhətlər nəzərə çarpırsa, deməli bu dillər genetik cəhətdən qohum dillərdir və onlar bir ümumi mənbədən şərti olaraq "kök dil" adlanan bir ümumi dildən törəmişdir. Araşdırma obyektimiz Hind-Avropa dilləri ailəsinin İran qrupuna aid fars və puştu dillərinin samit səsləridir.

Samitlər ingilis dilində- /*consonants/;* rus dilində-/*согласные/;* fars dilində -/*həmxanha/;* puştu dilində - /*samet/* adlanır. "Ümumi şəkildə danışıq cihazında mərkəzləşməsi ilə səciyyələnən, saitlə yanaşı gəldikdə heca nüvəsi əmələ gətirməyən səslərə deyilir"[4, s.183]

Danışıq aktının üzvlənməsi zamanı ciyərlərdən səs tellərinə daxil olan hava cərəyanı xaric olarkən öz yolunda müxtəlif maneələrə rast gəlir. Bu maneələr isə danışıq cihazının müxtəlif üzvləri vasitəsilə yaradılır. Bunun nəticəsində ciyərlərdən gələn hava cərəyanı bu orqanlarda maneələrə təsadüf etdikcə və onları dəf etdikcə öz əvvəlki gücünü nəzərə çarpacaq dərəcədə azaldır. Bu zaman hava cərəyanı səs tellərindən başlayaraq, keçdiyi yolda ayrı-ayrı danışıq üzvlərinin bir-birinə yaxınlaşması, dar keçidin yaradılması, sədd yaradılması, yaxud böyük bir maneənin olmaması nəticəsində müxtəlif dillərin müxtəlif samitlərini əmələ gətirir.

Əsas araşdırma: Hind-Avropa dillərinin İran dilləri qrupuna mənsub olan puştu dili puştunların ana dili kimi əsasən bütün cənub və cənub-şərqi Əfqanıstanda, şimal-qərbi və qərbi Pakistanda yayılmışdır. Dari dili ilə birlikdə Əfqanıstanda rəsmi dövlət dilidir. Leksik fonduna hind, fars, ərəb, türk, monqol, Avropa dillərindən külli miqdarda söz və tərkiblər daxil olmuşdur. "Çoxsaylı ləhcə və şivələri əsasən iki dialektdə birləşir: şərqi və ya pişəvər-Cəlalabad və qərbi və ya Qəndəhar dialekti [2 ; 6]. Yazıda ərəb əlifbasından istifadə edilir. Ərəb əlifbasının mövcud hərflərinə dillərinə uyğun müxtəlif hərflər, diakritik işarələr artırmaqla əlifbalarının qrafik nümunələrini xeyli zənginləşdirmişlər. İlk yazılı abidə nümunələri XIII-XIV əsrlərə aiddir.

Puştu və fars dilinin samit səsləri saylarına görə bir-birindən kəskin fərqlənirlər. Fars dilində 23 samit; 6 monoftonq sait və 1 diftonq olduğu halda, puştu dilində 30 samit; 9 sait; 7 monoftonq sait səs mövcuddur. Beləliklə, fars dilinnin hərfləri cəmi 30 qrafik nümunə şəklində təsbit olunursa, puştu dilindəki hərflərin ümumi sayı 46-dır. Bu da əsasən puştunların tələffüzündə monoftonq, diftonqların çox olması, eləcə də sait və samitlərin bir çoxunun burunlaşması *(ing.: nasal vowel; nasal consonant)* və bu dilin xüsusi samitlərinin mövcudluğunun nəticəsidir.

Qeyd edək ki, həm fars, həm də puştu dilinin samitlərinin xüsusiyyətlərini müəyyənləşdirmək məqsədilə mütəxəssislər arasında aşağıda verilən prinsiplər ümumi qayda kimi qəbul edilir:

I prinsip. Səs tellərinin iştirakına görə

II prinsip. Danışıq üzvlərinin iştirakı və fəal üzvə görə

III prinsip. Maneənin növü və dəf edilməsi üsuluna görə

Məqalənin həcmini nəzərə alaraq hər iki dilin samit səslərinin formalaşmasında yalnız səs tellərinin iştirakını araşdırmağı qarşımıza məqsəd qoyaraq davamını gələcək tədqiqatların öhdəsinə buraxdıq.

Səs tellərinin iştirakına görə hər iki dilin samitlərinin tədqiqi

I Samitlərin cingiltili səslənmə (*vakdar; voiced)* xüsusiyyəti

Fars və puştu dili səslərinin çoxu əmələ gəldiyi anda səs tellərindən, qırtlaqdan keçən hava axını onları (hər iki orqanı) titrədir və bu zaman cingiltili səslər yaranır. Başqa bir qrup səslərin yaranmasında isə səs telləri titrəmir. Birinci qrup səsləri cingiltili, ikinci qrup səsləri isə kar səslər adlandırırlar. Fars dilinin cingiltili samitləri : /b/, /m/, /v/, /d/, /z/, /l/, /n/, / ž /, /j/, /y/, /g/ /q/- sadaladığımız 12 fonemdən ibarətdir.

Puştu dilinin cingiltili samitlərinin sayı 18 olmaqla aşağıdakı samit səsləri əhatə edir: /b/, /dz/ , /dj/, /d/, /d./, /z/, /p/, /p./, /j/, /j. /, /q/, /q./, /l/, /m/, /n/, /n./, /v/, /y/.

Avazlılıq hər iki dilin səsləri üçün fərqləndirici və qarşılaşdırıcı (*təmayozdəhənde; oppositive or distinctive)* əhəmiyyət kəsb edir. Səslərin bu xüsusiyyəti əmələgəlmə yeri (*məhəll-e toulid; place of articulation*) və əmələgəlmə üsuluna (*nəhve-ye toulid; manner of articulation*) görə bir-birinə oxşar olan səslər üçün
xarakterikdir. Lakin qeyd edilməlidir ki, fars və puştu dillərinin bütün səslərini cingiltili və kar səslər kimi cüt-cüt qarşılaşdırmaq mümkün deyildir. Fars dilində /m, n, l, r, y/ samit fonemlərinin kar qarşılığı yoxdur. Fars dilinə müvafiq olaraq puştu dilindəki/m/, /n/, /n./, /l/, /r/, /r./ kimi sonor samitlərin də qarşılaşdırıla biləcək kar cütlüyü mövcud deyildir. Bundan əlavə hər iki dilin kar, nəfəsli /h/ samitinin də cingiltili qarşılığı mövcud deyildir. Danışıq aktı zamanı cingiltili samitlər heç də həmişə öz cingiltililik xüsusiyyətlərini sona qədər qoruya bilmirlər. Bəzən cingiltili samitin söz daxilində yerləşdiyi fonetik şərait, pozisiya və qonşuluğundakı səslərin distributiv təsirləri nəticəsində bu səslər öz cingiltililik xarakterinin bir hissəsini, bəzi hallarda isə hamısını itirir və karlaşmış (devoiced) şəklə düşürlər. Məsələn, (səbt) sözündəki /b/ cingiltili samiti hər iki dildə kar /t/ samitinin təsiri ilə cingiltilik xüsusiyyətinin bir hissəsini itirərək özünün kar variantı /p/-ya oxşar bir şəkildə tələffüz edilir.

Lakin sonralar dəqiq tədqiqat nəticəsində görəcəyik ki, cingiltili samitlərin cingiltili olması onların yerindən, fonetik şəraitindən asılı olur. Samitlərin cingiltili və kar terminləri altında iki qrupa bölünməsi bütün fonetistlər tərəfindən qəbul

[38] BDU. Dos.

edilsə də bunların özü də şərtidir. Çünki müxtəlif adamların tələffüzündən söz daxilindəki yerindən hansı səslərlə yanaşı gəlməsindən, distributiv xüsusiyyətindən asılı olaraq samitlərin cingiltililiyi özünü müxtəlif şəkildə nümayiş etdirir.

Cingiltili samitlərdə küy və sonorluq xüsusiyyətləri:

Hər iki dilin (fars və puştu) cingiltili samit səslərinin xarakterindəki küyün və tonun üstünlüyünə görə daha bir bölgü aparmaq mümkündür: Fars dili samitləri:

a) Küylü samitlər: /b/, /p/, /d/, /z/, /ş/, /j/ və s.

b) Sonor samitlər: /m/, /n/, /l/, /r/, /y/.

Puştu dilinin samitləri:

a)Küylü samitlər: /b/, /dz/ , /dj/, /d/, /d./, /z/, /p/, /p./, /j/ və s.

b) Sonor samitlər: /m/, /n/, /n./, /l/, /r/, /r./ , /y/.

Sonor samitlər də hansı rezonatorda əmələ gəlmələrinə görə ağız və burun sonorlarına bölünür. Nitq səslərinin formalaşmasında 2 əsas rezonator, ağız və burun boşluğunun mühüm rolu olduğu məlumdur. Damaq pərdəsi, dilçək aşağı düşərək ağız boşluğunun yolunu kəsdikdə bronxlardan gələn hava ağız boşluğuna deyil, burun boşluğuna gedir və buradan keçib, xaricə çıxır. Fars dilinin burun sonorları /m/, /n/ samitləridir.

Əgər damaq pərdəsi yuxarı qalxıb burun boşluğunun yolunu kəsərsə, nəticədə səs axını ağız rezonatoruna daxil olar. Bu zaman fars dili ağız səsləri olan sonorlardan /l/, /r/, /y/ və küylü samitlərinin hamısı formalaşar.

Fars dili ilə müqayisədə puştu dilinin sonor samitləri /r/ və /n/samitlərinin burunda tələffüz edilməsi nəticəsində bu dilin sonorları sayca daha çoxdur. Fars dilində beş, puştu dilində isə yeddi sonor samit mövcuddur.

II Samitlərin kar səslənmə (*bivak; voiceless*) xüsusiyyəti

İkinci qrupa, başqa sözlə kar samitlər qrupuna fars dilinin 11 samit fonemi : /t/, /p/, /f/, /s/, /č/, / š /, /k/, /q /, /h/, /x/, /'/- aiddir.

Puştu dilinin 12 kar samit fonemi isə aşağıdakılardır: / p/, /t/, /t./, /s/, /ʦ/, / č /, / š /, / š./, /f/, /k/, /x/, /h/ .

Hər iki dilin kar samitlərini nəfəslilik (*придыхательные; aspirate; nəfəsli*) baxımından da özlərinə məxsus xarakter sərgiləyirlər. Qeyd edək ki, ümumiyyətlə, /p/, /t/, /k/ samitləri hər iki dildə adətən vurğulu saitdən əvvəl və mütləq sonluqda nəfəsli tələffüz olunurlar. Bu samitlərin bir hissəsi isə nəfəssiz samitlər adlanır. Əlbəttə, bu bir fonetik istilah olaraq dilçilik ədəbiyyatında qəbul olunmuşdur. Məlumdur ki, nəfəs olmasa heç bir səs tələffüz edilə bilməz. Birinci qrup samitlərinə nisbətən burada sadəcə nəfəsin rolu bir qədər az hiss olunur. Samitlərin bu qrupu bir çox dünya dillərində vardır və dilçilik termini kimi (*rus dilində: непридыхательные; ingilis dilində: unaspirated; azərbaycan dilində: nəfəssiz samit)* adlanır. "Bu samitlərə bəzən imploziv samitlər də deyirlər. Bunarın nəfəssiz tələffüz olunduğunu yəqin etmək üçün bir parça kağız parçasını dodaqlara yaxınlaşdıraraq həmin səsləri tələffüz etmək kifayətdir. Kağız parçası sərt şəkildə dodaqlardan aralanmazsa, deməli onlar nəfəssiz tələffüz olunurlar" [21] .

III Fars və puştu dilinin samitlərini nəfəsli və nəfəssizlik xüsusiyyətləri

Hər iki dilin samit səslərini formalaşmasında nəfəsin nə dərəcədə iştirakı baxımından da iki qrupa bölmək olar:

a) Fars dilinin nəfəsli samitləri: /p/, /f/, /t/, /s/, /č/, /š/, /k/, /x/, /h/.

b) Fars dilinin nəfəssiz samitləri: /b/, /d/, /q/, /ğ/, /'/, /v/ və s.

a) Puştu dilinin nəfəsli samitləri: / p/, /t./, /s/, /ʦ/,/ č /, / š /, / š./, /f/, /x/, /k/, /h/.

b) Puştu dilinin nəfəssiz samitləri: : /b/, /d/, /q/, /j /, /'/, /k/ və s.

Araşdırmalar göstərir ki, müəyyən şərait və fonetik pozisiyaya uyğun olaraq öz cingiltili xüsusiyyətini itirmiş samit bütün əlamətlərinə görə tam şəkildə kar qarşılığı ilə əvəzlənmir. Burada səslərin cingiltili, kar, küylü, tonlu olması üçün onu bu əlamətlərə görə formalaşdıran başqa fiziki, fizioloji xüsusiyyətlər də əsasdır. Kar samitlərin formalaşmasında cingiltili samitlər və saitlərdən fərqli olaraq səsi əmələ gətirən hava cərəyanında küyün şiddətinin, davamlılığın, nəfəsliliyin də əhəmiyyəti böyükdür. Kar samitlərin tələffüzündə hava cərəyanı səs tellərini titrətmədən, başqa sözlə gücünü, qüvvəsini itirmədən ağız boşluğuna daxil olur. Sonra ağızda fəal və qeyri-fəal danışıq üzvləri tərəfindən yaranmış maneəni qüvvətlə dəf edərək müvafiq kar samiti formalaşdırır. Belə ki, novlu, kar /s/ samitinə sərf olunan enerji onun cingiltili qarşılığı /z/- ya sərf olunan enerjidən xeyli dərəcədə güclü olur. Bildiyimiz kimi, cingiltili /z/- nın tələffüzündə hava cərəyanının gücü bir qədər zəifləmiş olur (ona görə ki, bu təzyiqin bir hissəsi səs tellərini titrəyişə gətirməyə sərf olunur). Məhz buna görə də fars dilinin kar samitlərini sərt (*səxt; tense, fortis*), cingiltili samitlərini isə yumşaq (nərm; lax, lenis) adlandırırlar.

Kar samitlər cingiltili samitlərlə müqayisədə özlərini daha davamlı və uzun kəmiyyətdə (*keşeş; lenght*) nümayiş etdirirlər. Ossiloqraf lentlərində bizim təcrübəmizdə /serešk/ və /zereh/ sözlərindəki /s/ və /z/ kar, cingiltili cütlüyünü davamlıqlarına görə qarşılaşdırsaq, kar samitdə t_{zaman} = 120 msan; cingiltili samitdə isə bu rəqəm cəmi 65 msan. təşkil etmişdir. Kar samitlərin formalaşmasının daha bir xüsusiyyəti isə onların cingiltili samitlərə və saitlərə nisbətən nəfəsli (*dəmeşi; aspiration*) olmalarıdır. Bu xüsusiyyət adətən kipləşən-
partlayışlı *(enfecari; plosive)* samitlərə xasdır. Onların tələffüzü zamanı maneənin arxasında toplanmış hava cərəyanın səsə çevrildiyi anda sanki əsas səslə yanaşı tələffüzdə kicik bir /^{h}/səsi də eşidilir. Bu zaman kar samit nəfəsli (dəmide; aspirated) olur. Fonetik transkripsiyada samitlərin bu xüsusiyyəti kar samitlərin sağ tərəfində yuxarıda qoyulmuş kiçik bir "h" səsi ilə işarə edilir: /p^h/,/ k^h/ və s.

Fars və puştu dili samitlərinin tədqiqinə araşdırmaçıların yanaşması.

Qeyd etmək lazımdır ki, puştu dilinə nisbətən, fars dili daha çox tədqiqatçılar tərəfindən araşdırma obyekti olmuşdur Şərqşünaslardan N. H. Hatəmi [6], V. S. Rastorquyeva [17], İ. K. Ovçinnikova [16]

İ. Kramski [8] fars dilində 22 samit fonem - /b/, /p/, /t/, /d/, /k/, /q/, /m/, /n/, / č /, /j/, /f/, /v/, /s/, /z/, /y/, /x/, /ğ/, / ž/, /š/, /l/, /r/ olduğunu; Y.A. Rubinçik [18], eləcə də fars dilçilərindən P.N. Xanləri [8], M. Şəriət [20], Ə.Həqşenas [7], Y. Səməreh [22], M. Müşkədəddini [14] 23 samit fonem, L. Jirkov [9] və bir çox Avropa alimləri fars dilində 24 samit fonem olduğunu qeyd edirlər. Araşdırmalardan aydın olmuşdur ki, fars dilində 22 samit fonem olduğunu qəbul edənlər "ع" və "ء" – nin verdiyi /ʾ/- ni nəzərə almamışlar. Bu dildə 24 samitin olduğunu iddia edənlər isə "غ" və "ق" samitlərinin verdiyi səsi müxtəlif fonem hesab etmişlər.

P. N. Xanləri fars dili samitlərini 3 prinsipə: a) maneənin dərəcəsinə ; b) səs tellərinin iştirakına; b) maneənin dəf edilməsinə görə bölmüşdür [8, s. 31]. Y.Səməreh fars dili samitlərinin ümumi xüsusiyyətlərindən danışaraq, onların bölgüsündə iki prinsipi: 1. maneənin əmələ gəlməsi və dəf edilməsi üsulunu; 2. samitlərin əmələ gəlməsində səs tellərinin iştirakını əsas götürmüşdür [22, s. 27]

Puştu dilinə gəldikcə bu dil bir növ fars dilinin yeni dövrü, Dəri ilə müəyyən yaxınlığı olsa da fonetik, morfoloji, sintaksisdə baş verən inversiya baxımından xeyli dərəcədə fərqli olması ilə hind dilinə yaxınlığı aydın şəkildə hiss edilir.

Puştu dilinin əsas tədqiqatçılarından olan [N. B. Dvoryankov [5], K. A. Lebedev [11], İ. Y. Novqorodova [15], M. Mərhun [12] , bu dilin səsləri haqqında demək olar ki bir-birindən cüzi və əsas məsələyə təsir edə bilməyəcək dərəcədə fikir bildirmişlər. Onların əsas fikir ayrılıqları qrafik nümunələrin transkripsiyası haqqındadır. Fikrimizcə bunu dəqiqləşdirmək üçün geniş eksperiment işləri aparılmalıdır.

Biz tədqiqatımızda puştu dilindəki mövcud səslərinin transkripsiyasını latın qrafikası ilə verdik. Xarici tədqiqatçılar da latın və Beynəlxalq transkrisiyadan istifadə edirlər. Lakin qeyd edilməlidir ki, puştu dili tədqiqatçıları arasında rus araşdırmaçılarına daha çox rast gəlindiyindən paralel olaraq kiril əlifbasına uyğunlaşdırılmış transkrisiyadan da istifadə olunur. Hətta bir çox səslərin rus dilinin səslərinə uyğun olduğuna əmin olan araşdırmaçılar da vardır. Onlardan biri K. A. Lebedevin aşağıdakı qeydi maraq doğurur: « В языке пушту тридцать согласных звуков. Половина из них, а именно: /б/, /п/,/т/, /с/, /з/, /ц/, /ч/, /г/, /л/, /р/, /м/, /н/, /ф/, /й/ по своим артикуляциям почти не отличаются от подобных им в русском языке.» [11, s.14]

Bu sadalanan məsələlərə aydınlıq gətirmək tədqiqatımızın əsas məqsədi olmuşdur. Fars dilinə aid araşdırmalar Sank-Peterburq Dövlət Universitetinin Rus dili kafedrasının Fonetika laboratoriyasında dörd iranlı tələbənin diktorluğu ilə, ən müasir aparatlardan istifadə etməklə yerinə yetirilmişdir. 3600 söz və tərkibdən tərtib olunmuş proqramlar oxunduqdan sonra 102 tipli 8 şleyfli ossilloqraf aparatında, SZÇ tipli spektometrdə, "Görünən titq" nümunələri .... və s.-də analiz və təhlil edilmişdir. Tədqiqatdan aydın olmuşdur ki: - fars dilinin fonetik quruluşunda 23 əsas samit fonem, samitlərin distribusiyasından asılı olaraq, hər birinin bir neçə allafonu da mövcuddur. Tədqiqat işində hər bir fonemin distributuv xüsusiyyəti, variativliyi, allafonları, omofon yaratma xüsusiyyəti, bir sözlə akustik və fonoloji təhlili aparılmışdır

Nəticə:

• Fars dili əsasən İran ərazisində farsların işlətdiyi dildir. Bu dil İran İslam Respublikasının rəsmi dölvlət dilidir.

• Hind-Avropa dillərinin İran dilləri qrupuna mənsub olan puştu dili puştunların ana dili kimi əsasən bütün cənub və cənub-şərqi Əfqanıstanda, şimal-qərbi və qərbi Pakistanda yayılmışdır.

• Səs tellərinin iştirakına görə hər iki dilin samitləri ən ümdə, vaciv xüsusiyyətlərinə görə bölgüyə cəlb edilmişdir.

• Fars dilinin fonetik quruluşunun mühüm bir hissəni təşkil edən konsonantların /samitlərin/ təkcə bölgüsü, növü, keyfiyyəti deyil, hətta sayi haqqında da mütəxəssislər arasında fikir ayrılığı mövcuddur.

• Fars dilində 23 samit, 1 diftonq və 6 monoftonq sait olmaqla cəmi 30 qrafik nümunə və onların qarşılığı səs mövcuddur.

• Puştu dilində 30 samit, 7 diftonq və 9 monoftonq sait olmaqla 46 qrafik nümunə və qarşılığı olan səs vardır.

İstifadə olunmuş ədəbiyyat

1. Асланов М. Г. Афганско-русский словарь, (Пушту), Москва:1966
2. Бертельс Е. Э., Строй языка пушту. Ленинград: 1936
3. David Cristal, A Dictionery of Linguistics and Fhonetics, Fifth edition,USA, Oxsford: 2003
4. Dilçilik Ensiklopediyası, F.Veysəllinin redaktorluğu ilə, II cild, "Mütərcim", Bakı: 2008
5. Дворянков Н. А., Язык пушту, Москва: 1960
6. Hatəmi N. Z. Müasir fars dilinin fonetikası haqqında bəzi qeydlər, ADU "Elmi əsərləri", 11, Bakı: 1955
7. Həqşenas Ə. M. Avaşenasi, moəssese-ye enteşarat-e agah, Tehran: 1386
8. Xanləri P. N. Vezn-e şer-e farsi, əz enteşarat-e daneşqah-e Tehran, Tehran: 1333
9. Жирков Л, Персидский язык, Москва: 1927
10. Kramsry L., A study in the phonology of Modem Persian, Archive Oriental, X1,1, 1939
11. Лебедев К.А., Грамматика языка пушту, Москва: 1970
12. Mahmud Mərhun, بیایید پشتو بیاموزیم /beyayid poştu beyamizim/, Əfqanestan Kabul: 1390
13. Muhammad Kamal Khan, Pashto Phonology an evalition of theRealitionship between Sullable Struchere and Word Order, Cambridge Scholars Publishing: 2020
14. Müşkədəddini Məhdi, Saxt-e avai-ye zəban, enteşarat-e daneşqah-e Ferdousi, Məşhəd: 1375
15. Новгородова И. Ю., Учебник языка пушту (вводный курс), Москва: 2001
16. Овчинникова И. К., Учебник персидского языка, Москва: 1966
17. Расторгуева В. С. Краткий очерк грамматики персидского языка, прил. к словарю Б.В. Миллера «Персидско-русский словарь», Москва: 1960
18. Рубинчик Ю.А. Современный персидский язык, Москва: 1960
19. Стальская И. П., Учебное пособие, «Вводный курс», Москва: 1984
20. Şəriət Məhəmməd Cəvad, Dəstur-e zəban-e farsi, Tehran:1370
21. Veysəlov F., Alman dilinin fonetikası, Bakı:1980
22. Yədollah S. Avaşenasi-ye zəban-e farsi, virayeş-e dovvom, Tehran: 1378
23. Заур Абдурраззак, Хрестоматия, Ташкент:1971

Резюме

В данной статье исследуются некоторые консонанты персидского языка и пушту. Персидском языке 30 звуков, из них 23 согласных, 1 дифтонг, 6 гласных звуков. А в пушту 46 звуков, из них 30 согласных, 7 дифтонг, 9 гласных звуков. Наши исследования были проведены в фонетической лаборатории Кафедры русского языка Санкт-Петербургского Государственного Университета. Дикторами были четыре студента иранцы. В исследовании была использована современнейшая аппаратура. После чтения различных программ, составленных из 3600 слов и словосочетаний, были анализированы в образцах аппарата восьми шлейфного осциллографа типа 102 и спектрографом СЗЧ и «Видимой речью».
Ключевые слова: Индоевропейские языки, персидский язык, язык пушту, согласные

Summary

Research shows that Pashto has 46 letters, including 30 consonants, 7 diphthongs, and 9 monophthong vowels. Persian language has 23 consonants, 1 diphthong, 6 monophtong vowels.

This article deals consonant is of Persian language. The investigations wase carried out at the phonetics lab of the department of Russian language of S. Petersburg University with the participation and pronunciations of four Iranian students using the contemporary apparatus. After reading programmers consisting of 3600 words and structure at oscillograph apparatus with 102 types and 8 chutes, at spectrometry with SZC type “visual speech examples” they were dialyzed and investigated as well.
Key words: The Indo-European language, Persian language, Pashto language, consonants

Rəyçi: f.ü.e.d. Şəfəq Əlibəyli

0000-0001-2345-6789

Tərlan Əliş qızı Əliyeva[39]

"KITABI-DƏDƏ QORQUD" DASTANININ DİLİNDƏ SAİT VƏ SAMİT SƏSLƏRİN YARATMIŞ OLDUĞU FONETİK HADİSƏLƏR

Dilimizin tarixi köklərini özündə əks elətdirən bir çox abidələrimiz vardır ki, həmin abidələrin dilində səs sisteminin yaratmış olduğu bir çox fonetik hadisələr diqqətimizi cəlb edir. Hər bir qədim dilin fonetik imkanlarını müəyyənləşdirmək çətin olduğu kimi Azərbaycan dilinin də ilk təşəkkül dövrünə aid fonetik xüsusiyyətlərini müəyyən etmək heç də asan deyil. Çünki ümumxalq Azərbaycan dilinin yazı vasitəsi ərəb əlifbası olmuş və ilk sənədlər ərəb əlifbası ilə yazılmışdır. Bu əlifba isə Azərbaycan dilinin spesfik xüsusiyyətlərini özündə tam şəkildə əks etdirə bilməmişdir. Dilimizin fonetik keyfiyyətini tamamən əhatə edə bilməyən bu əlifbada səslərin xüsusən də saitlərin ifadə olunması və yaxud saitləri ifadə etmək üçün xüsusi qrafik yazı işarələrindən istifadə olunmaması bir çox abidələrimizi, o cümlədən, Kitabi-Dədə Qorqud dastanınının fonetik tərkibini müəyyən etməkdə çətinliklər törədir. Dastanda bəzi hərəkələrdən istifadə etmişlər, lakin bu hal müntəzəm və davamlı olmadığı kimi, bu hərəkələrin fonetik vəzifəsi də dəqiq və sabit olmamışdır. Buna görə də belə sənədlərə əsaslanıb, bu və ya digər dilin fonetik tərkibini, onun və qaydalarını dürüst surətdə müəyyənləşdirmək, əlbəttə çox çətindir. Bundan başqa dilin fonetik keçmişini təyin etmək üçün mühüm mənbələrdən sayılan şivələrdə tamamən tədqiq edilməmişdir. Lakin buna baxmayaraq bir sıra mənbələrə xüsusən M.Kaşğarinün "Divanında", "Kitabi-Dədə Qorqud"a İbn Mühənna lüğətinə və bu kimi XI-XIV əsrlərdə yaradılmış, yazılmış başqa sənədlərə, müasir şivələrdən öyrəndiklərimizə əsaslanaraq ilk təşəkkületmə dövrünədək ümumxalq Azərbaycan dilinin xüsusən bu dilin ilk abidələrindən olan, "Kitabi-Dədə Qorqud" dilinin əsas fonetik tərkibini, fonetik qaununlarını və bəzi fonetik hadisələrini təqribən müəyyənləşdirmək mümkündür. Belə bir cəhəti xüsusi olaraq qeyd etməliyik ki, səslərin keyfiyyəti və məxrəci haqqında deyə bildiklərimiz daha çox təqribən və təxminidir. Burada hərflərin ümumən hansı səsin əlaməti kimi əsrlərdən bəri qəbul edilib işlədilməsinə və bəzi fonetik hadisənin məxrəc və şəraitində müraciət edilmişdir.

"Kitabi-Dədə Qorqud"un sabit fonetik quruluşu mövcuddur. Burada müxtəlif türk tayfa dillərinin xüsusiyyətləridə bu və ya digər dərəcədə müəyyən qaydaya uyğun əks olunmuşdur.

Ərəb əlifbasında sait səsləri işarə etmək üçün əsasən 3 hərfdən, yəni ا(əlif),ر(vav),ى(ye) hərflərindən istifadə edilmişdir. Bu qrafik yazı işarələrlə yanaşı şərti əlamətlərdən, hərəkələrdən də istifadə etmək nəticəsində dildə olan saitlərin hamısını nisbətən düzgün işarə etmək imkanı yaranmışdır.Ərəb əlifbasından istifadə edən xalqlar kimi Azərbaycanlılarda saitləri ifadə etmək üçün həm bu üç hərfdən həmdə hərflərin ya üstünə ya altına qoyulan hərəkələrdən istifadə etmişlər.

Lakin hər zaman hərəkə qoymaq yazı işini çətinləşdirdiyindən, xüsusən öz ana dilində yazan adam əksər halda hərəkələrdən istifadə etməmiş, sözlər məlum olduğundan hərəkiz də düzgün tələffüz edilə biləcəyini nəzərə alaraq, sözləri daha çox samitlər tərkibinə görə və ərəb imlası əsasında müvafiq olaraq hərəkəsiz yazmışdır (4.73). Beləliklə, (mövcud sənədlərdə) "Kitabi-Dədə Qorqud"da sözlərin yazılışı demək olar ki, sabit və vahid olmamışdır.

"Kitabi-Dədə Qorqud"un dilinin saitlər diferensial fərq xüsusiyyətləri ilə təzahür edir: "Kitabi-Dədə Qorqud"un dilində saitlər müəyyən hərflərlə, hərəkələrlə işarə edilmişdir.

1. **"A"** saiti əksərən əlif hərfi ilə ata, ana, alub və.s bəzən əlif hərfinin üstünə mədd(~) işarəsi qoyularaq آ-ata və s. Bəzən əsasən ortada və sonda, bəzən samitlərdən sonra tələffüz edilməli olan "a" saiti özündən əvvəl işlənən samitin üzərinə qoyulan (ərəbcə fəthə, farsca zəbər) sütun adlanan hərəkə (ˋ) ilə işarə edilmişdir. Məsələn: **sakin** sözü ortasında samitdən sonra və ya samitdən əvvəl olan a saiti bir çox halda heç bir işarə ilə göstərilməmişdir. Məsələn: **qarşu, urdular**.

2. **"Ə"** saiti əsasən sözün (başında), əvvəlində sadəcə əliflə "Ərdəm", "Əcəm" bəzən sütunlu əliflə ər-أر

ərdəm, əlmə bəzən isə əsasəndə söz ortasında və söz sonunda vav hərfi əlamətlərlə dügmə, dərə, dədə, dəvə bəzən samitlərin üzərinə qoyulan sütun ilə dədəm, gəlub, kəsəyimmi işarə edilmişdir. Bəzən isə sözün tərkibində olan samitlər yazılmış və tələffüzü lazım olan Ə saiti heç bir işarə ilə göstərilməmişdir. Məsələn: gərəkməz, sənun, bən, gərək.

3. **"E"** saiti bəzən sadəcə əliflə ev, el, etdu bəzən sütünlü əlifإ, hərfi tərkibi ilə ersun, edidə, bəzən isə sadəcə ا hərfi ilə və yaxud sutunlu və ya astünlü e ilə yazılmışdır. Belumuz, verdu, gercək, yerümuzdən və s.

Bir çox hallarda isə e saiti heç bir əlamətlərlə yazılmamışdır. Yeddi, yemezdi, keşiş və s.

4. **"İ"** saiti bəzən təkcə əliflə, iki-یکا, imdi bəzən əlif tərkibi ilə iç, incə, bəzəndə sətiraltı mədd işarəsi qoyulmuş bəzən isə heç bir əlamətlə yazılmamışdır dilək, bir və s.

5. **"O", "Ö", "U", "Ü"** kimi dodaqlanan saitlərin hamısı üçün demək olar ki, əsasən eyni hərflərdən və eyni hərəkələrdən istifadə edilmişdir.

1) **Əlif və vav birləşmələri**.

ول-ol, وت-ot və s.

2) **Yalnız vav hərfi ilə:**

qoca-قوج

3**) Samitlər üstünə qoyulan ötrə(ərəbcə zəmmə,farsca keş)adlanan hərəkə ilə.**

Bəzən digər saitlər kimi bu saitlərdə heç bir işarə ilə yazılmamışdır. "ı" saiti bəzən و xüsusi işarə ilə bəzən samitin altında sutun hərəkəsi qoyaraq işarə edildiyi halda bəzən yazıda heç bir əlamətlə göstərilməmişdir.

[39] **ADPU-nun Ağcabədi filialı, Azərbaycan .b/m.,tarlanaliyeva65@gmail.com**

Qeyd etmək lazımdır ki,bu saitlərin işlənilmə məqamlarıda əsasən müasir Azərbaycan dilində olduğu kimidir.Yəni a,ə,o,ü saitləri sözün əvvəlində,ortasında sonunda və I, II, III hecalarda işlənmişdir.

Qara əvran qopdu Dəpəgöz,
Ərş yüzündə çevirdim,almadım Basat!
Qara qaplan qopdu Dəpəgöz
Qara-qaru dağlarda çevirdim almadım Basat!

Belə bir fikir qeyd etmək lazımdır ki, müasir Azərbaycan dilində işlənilən **ildırım, ilən, iraq** kimi sözlər işlənilmişdir ki,bunların heca tərkibini nəzərə aldıqda, ahəng qanununa əsasən bu növ sözlərin başında **i** deyil **ı** saitinin işlənilmiş olmasını güman etmək olar və buna bənzər hallar inididə şivələrdə nəzərə çarpır lakin bir çox şivələrdə belə sözlərin əvvəlində i səsinin işlənilməsi ümumiləşmiş və ədəbi dildədə sabitləşmişdir.

"Kitabi-Dədə Qorqud" dastanları dilinin əsası olan ümumxalq Azərbaycan dilində başlanğıcda bu sait səs **24** samit səs olmuşdur.

Belə bir cəhəti qeyd etmək lazımdır ki, "Kitabi-Dədə Qorqud" dastanını dilində **j, f, h** səslərinin müstəqil fonem halında varlığı bir qədər şübhəlidir. Bu səslər ola bilsinki, sövqi, təqlid sözlərində rüşeym hakında olmuş,sonralar alınma sözlərlə dirçələrək tam fonem ola bilmiş səslərdir.

"Kitabi-Dədə Qorqud"dastanındakı sözləri diqqətlə yoxladıqda məlum olmuşdur ki, burada işlənmış sözlərin bir qismi, xüsusən ərəb və fars dillərindən alınma, keçmə sözlərdir. Hətta bəzi samitlər xüsusən **q, v, h, f, x, l, p, z, c** samitləri ancaq alınma sözlərin əvvəlində işlənilmişdir. Bu samitlərlə başlanan sözlərin əvvəlində işlənilmiş belə samitlərlə başlanan Azərbaycan dilinin öz sözləri çox məhdud miqdarda işlənilmişdir ki, bunların əksəriyyəti təqlid əsasında formalaşmiş sözlərdir.

Daha konkret olaraq aşağıdakı faktları nəzərdən keçirək:

Z, p, ı - ilə başlanan sözlərin hamısı fars mənşəlidir.
F - ilə başlanan **17** sözdən ancaq **2** -si,
V - ilə başlanan **18** sözdən **5** -i,
C - ilə başlayan **30** sözdən **5** -i,
H -ilə başlanan **38** sözdən ancaq 4 -ü,
X -ilə başlanan **20** sözdən ancaq **2** -si,
Ğ -ilə başlayan **17** sözdən yalnız **1** -i,

Türk dili xüsusən Azərbaycan mənşəli sözlərdir. Məhz belə faktları nəzərə aldıqda aydın olur ki, Azərbaycan dilində belə samitlərin işlənmə məqamları bir qədər məhdud olmuş hətta ilk dövrlərdə Azərbaycan dilində **h, f, j** fonemləri olmamışdır.

"Kitabi-Dədə Qorqud"dastanının fonetik quruluşundakı normalılığı müəyyən edən əlamətlərdən biri ahəng qanunudur. Abidənin dilində ahəng qanunu prinsip etibarilə gözlənilir.

I. Qalın saitlərin ahəngi.

Dastanın dilində işlənən qalın saitlərin ahəngi aşağıdakı kimi təsnif edilir:

1. Qalın damaq samitlərinin ahəngi,

Salxım-salxım dan yelləri əsdikcə,
Saqqalı boz az torağay ötdükcə,
Saqqalı uzun tat kişi azan çəkəndə,
Bədəvi atlar yiyəsini görüb kişnədikdə.

2.Qalın dodaq saitlərinin ahəngi:

Uruzun üstündə çox **vuruşdular,**
Lakin **çoxluq qorxudur**

3.Ümumiyyətlə qalın saitlərin ahəngi:

Bəri gəl, **ağam Qazan**,
Qalxub yerimdən,
Bədəvi **atımı saxlayırdım** bugün üçün.

II. İncə saitlərin ahəngi:

1) İncə damaq saitlərinin ahəngi:

Səndən yaxşı allah **bizə** oğul **verməz,**
Versə belə sənin yerini tuta **bilməz.**

2) İncə dodaq saitlərin ahəngi:

Bir gün **körpünün** yanında obanın bir **bölük** camaatı çadır qurmuşdu.

3) Həm dodaq,həmdə damaq incə saitlərin ahəngi:

O, gün igid bəy ərənlər **dönə-dönə** savaşdı.

Dastanın dilində sinharmonizmin(saitlərin ahəngi)pozulması hərşeydən əvvəl kök və şəkilçinin fonetikasındaki müəyyən xüsusiyyətlərlə bağlıdır.

Əlbəttə sithormanizmin pozulması dedikdə ancaq, dodaq və damaq ahənginin pozulması nəzərdə tutulmur. Qeyd etməliyik ki,nəinki "Kitabi-Dədə Qorqud"dastanında ümumiyyətlə ərəb əlifbası ilə yazılan sənədlərdə və dildə bəhs edən məxsusi kitablarda Azərbaycan dilindəki fonetik uyuşmalar tam şəkildə əks etdirilməmişdir. Hətta, Mahmud Kaşğari, İbn Mühənna və bir sıra ərəb dilçiliyinə müraciət edən dilçilər fonetik uyuşmaları mühim hadisə hesab etməmişlər (2.61). "Kitabi-Dədə Qorqud"dastanının dilində fonetik uyuşmaların-saitlərin, saitlərlə, samitlərin samitlərlə uyuşması hadisələrinin təzahürü xüsusən konkret şəkilçilərdə daha çox nəzərə çarpır. Dastanın dilindəki fonetik uyuşmalar, aşağıdakı kimi xarakterizə edilir.

1) **Saitlərlə samitlərin uyuşması.** Dastanın dilində həm sözün tərkibindəki saitlər və samitlər, həm də sözə bitişik yazılan şəkilçilərin tərkibindəki samitlər sözün tərkibindəki saitlərlə uyuşmuşdur. Məs: "boyun ", "qarı" sözlərinə şəkilçi artırıldıqda (-cıq -cuq şəkilçisi artırılır) "boyuncuq", "qarıcıq".

Dastanın dilində arxa sıra saitlər **a, ı, o, u,** arxa sıra samitlər ilə **q, d, ğ, x** samitlər uyuşaraq işlənir.Ön sıra saitlərlə, ön sıra samitlər uyuşur.

Oğul, oğul ay **oğul!** Ortacım oğul!
Qarşu yatan qara dağım yüksəyi oğul.

M. Kaşğari fonetik uyuşmanı belə izah edir:

1) *"Ğ"*dolğun, imaləsiz fellərə əlavə edilir, "k" isə bunun əksinə olan fellərə daxil edilir.

2) İmaməli və kaflı kəlmələrdə həmin mənada "k" hərfi "q" hərfini əvəz edir.

3) Xəfif isimlərdə və kaflı fellərdə "ğ" əvəzinə "g" işlənir (2.87) .

"Kitabi-Dədə Qorqud"da işlənən –dıq, -duq, -ğıl, -ğul, -lıq, -luq şəkilçiləri ilə eyni mənada -dik, -dük, -gil, -gül, -lük, -lik, -rək şəkilçilərinin işlənməsi fonetik uyuşma ilə əlaqədardır. Bütün bunlar onu göstərir ki, "Kitabi-Dədə Qorqud"un dilində də müasir Azərbaycan dilində olduğu kimi saitlərlə samitlərin uyuşmasına təsadüf olunur.

Saitlərin uyuşması.

Dastanın dilində saitlərin uyuşması da özünü bir qanun kimi göstərir.

Dastanda bəzi istisnaları nəzərə almasaq, demək olar ki, bir sıra şəkilçilər həmişə yəni həm qalın, həmdə incə hecalı sözlərə birləşdikdə ancaq, bir şəkildə yazılmışdır. Məs: Şühudi və nəqli keçmiş zaman şəkilçiləri, təsirlik, yerlik, çıxışlıq hal şəkilçiləri, cəm şəkilçisi, əmr şəkilçisi, II şəxs tək və cəm şəxs sonluğu, feli bağlama bir cür yazılmışdır.

Salqım-salqım dan yerləri əsdigində,
Saqqallı bozaç turğay sayradıqda,
Bədəvi atlar issin görb orqadıqda,
Saqqalı uzun tat ərki bunladıqda,
Ağlı, qaralı seçilən çağdı.

2) **Samitlərin uyuşması.**

Dastanda samitlərin uyuşmasını əks etdirən nümunələr son dərəcə məhdud miqdardadır. Türk dillərinin ən qədim abidələrində samitlərin uyuşmasının müxtəlif təzahür formalarına rast gəlinir. Samitlərin uyuşması "Kitabi-Dədə Qorqud"da öz əksini tapmışdır. Dastanın dilində bu uyuşma daha çox özünü feldən sifət düzəldən -ğun,-gun şəkilçisində müşahidə edirik. Dastanda "az", "qır" fellərindən sifət düzəltmək üçün sözün sonundakı "q" və "r" səslərinin tələbinə uyğun olaraq şəkilçi "ğ" səsilə formalaşmış və "azğun", "qırğın" sözləri düzəldilmişdir.

Xan babamın qatına öncə bən varayım,
Ağır xəzinə,bol şəşgər alayım,
Azğın dili kafirə bən varayım.

"Kitabi-Dədə Qorqud" dastanının dilində fonetik cəhətdən diqqəti cəlb edən xüsusiyyətlərdən biridə fonetik hadisələrin mövcudluğudur. Dastanın dilində baş verən fonetik hadisələr dastanın aid olduğu dövrün dil xüsusiyyətlərini özündə əks etdirir. Dastanın dilində mövcud olan fonetik hadisələr aşağıdaki kimi xarakterizə olunur:

Azərbaycan dilinin fonetik hadisələrindən olan samit səslərin söz daxilində keyfiyyətini dəyişməsi, yəni cingiltiləşmə hadisəsi "Kitabi-Dədə Qorqud"un dilində öz əksini tapmışdır. Dastanın dilində müasir Azərbaycan dilində olduğu kimi **"q", "t", "k"** samitləri arasına düşdükdə cingiltili qarşılıqlarına çevrilmiş.

"t" --- "d"

Yigi**t** --- yigi**d**in
Ge**t** --- ge**d**üb

Boynuunun bədəvi atlar gedirsə, mənimki gedir,
İçində sənində mindiyin varsa, **igid**, de mənə.
Qızıl tağlı uca evlər **gedirsə,** mənimki gedir,
İçində sənin də otağın varsa, **igid** söylə mənə.

1) "q"--- "ğ"

Ayaq --- aya**ğ**
Qazan aydır: **Ayağına** ət tuşağın ürün!
Yaxud: **Aydılı** görklü suyun sovğulmuşdu çoxladı.

2) "K"---"g"

"Kitabi-Dədə Qorqud"da ancaq "k" ifadə edən yazı işarəsindən istifadə edilmişdir və buna görə də bunun "k" yaxud "g" oxunması şərtidir.

Vardu**g**---varduğum,
Barma**q**---barmağım

Qalquban, Selcan xatun dürdü**g**inda,
Yelisi qara Qazılıq atün bindi**g**ində
Babamin ağ-ban eşiginə düşdi**g**ində.

Yaxud: **Qonuğı** gəlməyən qara evlər yığılsu yeg.
Yaxud: Atam-anam verdi**g**i,
Göz açıban gördi**g**im,
Könül verib sevdi**g**im.

"Kitabi-Dədə Qorqud" dastanının dilində müşahidə olunan fonetik hadisələrdən biridə səs artımı(proteza) hadisəsidir. Müasir Azərbaycan dilində olduğu kimi eyni hecada qoşa səs gəldikdə bir protetik sait deyilən səs əlavə olunur.

Bir **y**igidin qara dağ yumrusunca malı olsa,
Yaxud: Könlin **y**uca tutan ərdə dövlət olmaz.
Yaxud: Boyu uzun Burla xatun bunu eşitdi **yürəgiylə** casnına odlar düşdü.

Dastanın dilində mövcud olan fonetik hadisələrdən biridə **səs düşümü** (ellizya) hadisəsidir. Dastanın dilində mövcud olan bu hadisə bəzən qeyri-təbii görünsədə müəyyən tarixi dövrlərdə baş vermiş sonralar isə şifahi ədəbi dil nümunələrində, o cümlədən "Kitabi-Dədə Qorqud" dastanında öz əksini tapmışdır.

Yüzi dönməz qılıcum ələ aldum,
Məhəmmədin dini eşqinə qılınc urdum.
Yaxud: Həm ağlün gəldi **geyü** Aruza muştladı.
Yaxud: Qulquban yerindən **durı** gəldin,
Yelisi qaru Qazlıq atın bütün bindim.

Dastanda müşahidə etdiyimiz fonetik hadisələrdən birində **səslərin yerdəyişməsi** (metateza) baş verir.
Sözün tərkib hissələri olan səslər bəzi hallarda yerini dəyişir.Əvəz etdiyi səsin yerinə keçir.

Böylə **dügəc** xanım ol namərdlərin igirmisi cıya gəldi.Böylə **etgəc** qaln ağız arxası.

"Kitabi-Dədə Qorqud" fonetik normativliyi ilə yanaşı poetik imkanlarının genişliyi ilə də diqqəti cəlb edir və heç şübhəsiz,abidələrin janr tipologiyası əsas götürülür.

Dastanın poetik normativliyi qədim türk şerinin başlıca əlaməti olan asonans və alliterasiya keyfiyyəti yeni poeziyanın ritm və əlamətlərindən ancaq və ancaq biri idi.

Asonans poetik-stilistik keyfiyyət kimi türk mənşəli dillərin fonetikasındakı ahəng qanunu normativliyinə dayanır, yəni dilin özündə həmin poetik-stilistik keyfiyyəti daimiləşdirən potensiya mövcuddur.

Dastanın assonansı funksionallıq səviyyəsini müəyyənləşdirmək üçün nümunəyə diqqət yetirək.

Əbrisimə bənzər sənin yəlicigin,
İki qoca qardaşu bənzər sənin qulacığın
Əri muradına yetirər sənin arxacığın
At deməzəm sənə,dardaş deyərəm,qardaşımdan yeg.

Gətirdiyimiz nümunədən aydın olur ki, nümunədə incə və qalın saitlər bərabər şəkildə işlənmişdir. Mətində işlənən **58** saitdən cəmi **5**-i dodaq saitidir,qalan **53** sait isə damaq saitidir.

Dastanın dilində qalın saitlərin assonansı daha çox özünü göstərir.

Atlar sabah sapa yerdə dikiləndə ağ-ban evli,
Atlaslı yapılanda, göy sayıranda,
Tavla-tavla çəkiləndə şahboz atlu,
Çağırılan dad verəndə yol cavus (1.45)

"Kitabi-Dədə Qorqud"da alliterasiyanın poetik imkanları daha genişdir.Bir faktı qeyd etməliyik ki,dastanın dilində samit səslər eyni dərəcədə təkrar olunmur.

Məsələn:

Yalançı oğlu yalancığın acığı tutdu aydır.

Y-l-n-c-ğ-l-y-l-n-c-ğ-n-c-ğ-t-t-d-y-d-r

Qarşudakı qarlı dağlar,
Qaruyubdur, otu bitməz
Qan-qadalı irmaqlar,
Quruyubdur-suyu gəlməz.
Qoruyubdur qulun verməz
Qızıl-qızıl dəvələr də,
Qarıyıbdır, köşək verməz. (1.47)

Gətirdiyimiz nümunədə "q" səsinin alliterasiyası müşahidə olunur. Qeyd etmək lazımdır ki,dastanın təkrarlar sistemi səs səviyyəsi ilə qurtarmır, söz səviyyəsini də əhatə edir.

Tövlə-tövlə atların,
Qatar-qatar dəvələrin
Gətirmişdir bizimdir.

Yaxud:

Oğul, oğul, ay oğul
Bilirsənmi nələr oldu

Gətirdiyimiz nümunələrdən bir daha aydın olur ki,"Kitabi-Dədə Qorqud"dastanının fonetik imkanları geniş olmuşdur.

İstifadə olunan ədəbiyyat:

1. "Kitabi-Dədə Qorqud". Bakı, 1988.
2. D.Dəmirçizadə "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı, 1958.
3. D.Dəmirçizadə "Azərbaycan ədəbi dili tarixi". Bakı, 1979.
4. Ş.Cəmçidov "Kitabi-Dədə Qorqud". Bakı, 1998.
5. Ə.Dəmirçizadə "Azərbaycan ədəbi dili" I hissə. Bakı, 1979.
6. E.Əlibəyzadə "Kitabi-Dədə Qorqud". Bakı 1999.
7. B.Abdullayev "Kitabi-Dədə Qorqud"un poetikası. Bakı, 1999.

Açar sözlər: Kitabi-Dədə Qorqud, fonetika, sait, samit, fonetik uyuşma, fonetik hadisə, saitlərin ahəngi

Xülasə:

Ümumtürk mədəniyyətinin məhsulu olan "Kitabi-Dədə Qorqud" dastanı zəngin dil xüsusiyyətlərinə malik olan qədim abidələrimizdən biridir. Dastan zəngin dil xüsusiyyətlərinə malikdir. Dastanın fonetik imkanlarına nəzər saldıkda aydın olur ki, istər səs tərkibinə görə, istərsə də səslərin yaratmış olduğu fonetik hadisələr dilimizin nə qədər zəngin olduğunu bir daha göstərir. Dastanın dilində fonetik uyuşmanın həm saitlər, həm də samitlər arasında baş verməsi türk dillərinə xas olan bir xüsusiyyətdir. Dastanın fonetik xüsusiyyətləri dəfələrlə tədqiq edilib öyrənilmişdir. Aparəlan tədqiqatlar dastanın fonetik imkanlarının nə qədər geniş olduğunu göstərdi.

Summary:

The "Kitabi-Dade Gorgud" saga, which is a product of the All-Turkic culture, is one of our ancient monuments with rich language characteristics. The epic has rich language features. When we look at the phonetic possibilities of the epic, it becomes clear that either due to the sound composition or the phonetic phenomena created by the sounds, it once again shows how rich our language is. In the language of Dastan, the occurrence of phonetic confusion between both vowels and consonants is a characteristic of Turkish languages. The phonetic features of the epic have been repeatedly studied and studied. The conducted studies have shown how wide the phonetic possibilities of the epic are.

RƏYÇİ: dos. E.Vəiyeva

Əsədova Ruqiyyə [40]

İNGİLİS DİLİNDƏ DAVAMEDİCİ VƏ BİTMİŞ TƏRZ FORMALARININ FƏRQLƏNDİRİLMƏSİNƏ DAİR FİKİRLƏR

Müasir ingilis dilində feilin zaman formaları vasitəsilə hərəkətin əsas dörd tərzdə (qeyri-müəyyən, davamedici, bitmiş, bitmiş-davamedici) icra edildiyinə bir çox ədəbiyyatda rast gəlsəkdə, tərz adətən bitmiş və bitməmiş olmaqla ikili formada müzakirə olunur. Amma əslində qeyd etdiyimiz dörd növün üçündə aspektuallıq var. Yalnız qeyri -müəyyən növdür ki, onu sırf zaman kateqoriyası hesab etmək lazımdır. Tərzi müzakirə edərkən başa düşmək vacibdir ki, bitmiş tərz və bitməmiş tərz arasındakı fərqlilik nə situasiyalar arasında, nə də danışanın obyektiv olaraq təqdim etdiyi fərq deyil. Eyni danışan eyni vəziyyətə bir dəfə bitmiş fonla, sonra bitməmiş və ya heç bir şəkildə öz-özünə ziddiyyət yaratmadan müraciət etməsi tamamilə mümkündür. Bəzən iddia edilir ki, bitmiş formalar qısa müddətli vəziyyətləri, bitməmiş formalar isə uzun müddətli vəziyyətləri göstərir. Eyni şəkildə, bitmiş forma konkret müddət ilə bir vəziyyəti təsvir etməklə kifayətlənməyərək, müxtəlif dövrlərdə baş vermiş hərəkətləri təsvir edə bilir. Bu fikri həm də bitməmiş formaya aid edə bilərik.

Bitmiş tərz hərəkəti hər hansı həyata keçirilmə anında, müəyyən hədlə məhdudlaşmış şəkildə, bitməmiş tərz hərəkəti gedişində, onun həddini, hüdudunu çatdırmadan, bildirir. Bu bölgü bütövlükdə bütün dillərə şamil edilə bilər. Bitmiş və bitməmiş formaların hər biri bir-biri ilə əlaqəsi olmayan bir sıra mənalar daşımaqla yanaşı, bəzən hər birinin ziddiyyətli xüsusiyyətlərdən ibarət olduğunu da qeyd edirlər. Bir sıra dilçilər tərzin bu və ya digər növləri haqqında müxtəlif fikirlər irəli sürmüşdür.

Bernard Komri öz əsərində müxtəlif dillər üçün bitmiş və bitməmiş tərzlər üçün təriflər vermişdir. Forsayt (1970) və Veyd (1992) öz əsərlərində rus dili üçün oxşar kateqoriyaları müəyyən etmişdir. Aşağıdakı xüsusiyyətlər həm Komri, həm də Forsayt tərəfindən bitmiş tərzlə əlaqəli olaraq müəyyən edilmişdir:

"***Vəziyyət*** *heç bir nəzəri öhdəliyi olmayan hərəkətə, hadisəyə və ya vəziyyətə ümumi mənada istinad etmək üçün istifadə olunur:*

- *tamamlanmış bir hərəkəti göstərmək üçün*

(son nöqtəyə vurğu ilə)

- *vəziyyətin nəticəsini, yəni bir vəziyyətin uğurla başa çatmasını göstərmək üçün*
- *punktual və ya anlıq vəziyyətləri göstərmək üçün*

(bu fikir intuisiyadan irəli gəlir ki, birbaşa ifadəsi yoxdur")

- *qısa müddətli vəziyyətləri göstərmək üçün (uzun müddətli vəziyyətlərdən daha çox)*
- *situasiyanın başlanğıcını və ya \daxil olmasını göstərmək üçün"(* 1, səh. 16)

Dilçilikdə feil tərzləri haqqında N.Smith bir sıra fikirlər irəli sürmüşdür. Dilçi İngilis dilində bitmiş tərzdən zaman kimi bəhs edir və bu konstruksiyanı öz əsərində geniş müzakirə etmişdir. Bitmiş konstruksiya əhəmiyyətli tərz xüsusiyyətlərini özündə birləşdirir və tez-tez istinad edilən zaman forması kimi nəzərə alınır. Dilçi, bitmiş tərzin müxtəlif xüsusiyyətlərini təsvir edir və Reynbaxa istinadən bildirir ki, bitmiş tərz ifadə edən cümlələr cümlənin vaxtından əvvəlki vəziyyəti müəyyən edir:

"Davamedici tərz keçmiş, indiki, gələcək zamanların hər birində iştirak edə bilir və 3 şəkildə fəaliyyət göstərir:

-keşmiş davamedici tərz

-indiki davamedici tərz

-gələcək davamedici tərz

Keçmiş davamedici tərz keçmişdə davam edən hadisələri çox vaxt digər hadisələrlə əlaqəli şəkildə ifadə edir.

İndiki davamedici tərz hələ də davam edən hadisələri ifadə edir.

Gələcək davamedici tərz müəyyən müddət davam etməsi proqnozlaşdırılan hadisələri bildirir." O.Körmə əsasən isə feil tərzlərinin davam etdiyini bildirən tərz froması *durative aspect* adlanır. (6, s. 137)

Professor Frank Brisardın əsas maraq dairəsinə də müxtəlif dillərdə zaman-tərz-modallıq, qrammatik konstruksiyalar və praqmatika arasındakı interfeys, qrammatikanın idrak və "konstruktiv" nəzəriyyələri daxildir. Bu səbəbdən də dilçinin feil tərzləri haqqında fikilərinə çox rast gəlirik.

Frank Brisard zaman və tərz anlayışı haqqında öz məqaləsində qeyd etmişdir: "Mən İngilis fel paradiqmasına xüsusi diqqət yetirməklə, Koqnitiv Qrammatikada zamanın və tərzin semantik təhlilinin əsasını təşkil edən nəzəri ilkin şərtlərin icmalını təklif edirəm. Həm bitmiş formalar ilə davamedici formalar arasında sistematik təzad baxımından, həm də müvafiq olaraq davamedici və bitmiş konstruksiyanın ingilis dilində istifadələri ilə bağlı Koqnitiv Qrammatikada qrammatik tərzin işlənməsinə xüsusi diqqət yetirilir. Təklif olunur ki, zaman-tərz markerləri əsasən danışan-konseptuallaşdırıcı tərəfdən modal narahatlıqlara istinad edir və onların çatdırdığı temporal (və modal) mənalar ümumi epistemik sxemin nümunələri kimi təhlil edilməlidir. Nəticə etibarı ilə, zamanın və tərəflərin işarələnməsinin hərtərəfli semantik təhlili ideal olaraq, semantik xəritə şəklində istifadə kontekstləri ilə qarşılıqlı əlaqədə yaranan məna növlərinin işlənməsi, hər hansı bir konstruksiya üçün belə əsas sxematik mənanın yaradılması ilə məşğul olmalıdır."(2, s. 210)

A.İ.Smirnitski hesab edir ki, ingilis dilində tərz kateqoriyası iki növ olur: 1) qeyri-müəyyən növ – indiki zamanda sıfır morfemi və –es üçüncü şəxsin təki, keçmiş zamanda - ed morfemi və ya saitlərin dəyişməsi forması ilə, gələcək zamanda

[40] **BDU, Ümumi dilçilik kafedrasının dissertantı**

will +V və hərəkətin özünün baş tutması faktının özünü bildirən və 2) davamedici tərz – müvafiq zaman formasında to be feili və –ing *I am going, I am doing* və s. ilə təmsil olunur. (8, s.105)

İngilis dilində bir sıra dilçilər davamedici (Continuous) qrupunda yalnız tərz mənalarının ifadə edildiyi fikrini irəli sürmüşdür. Onlar bu qrupda aşağıdakı formaları qeyd edirlər:

- "genişləndirilmiş" Expanded,
- davamedici (Durative),
- davamlı (Continuous),
- "proqressiv" (Progressive)

Qeyd etdiyimiz formalar hərəkətin getmə üsulunu çatdırır, onu proses kimi xarakterizə edir. B.A.İlyişin fikrincə keçmiş, indiki və gələcək zamanlar möhkəm qərarlaşmış və heç kimin şübhə etmədiyi zaman kateqoriyasıdır. O, buraya bitmiş formaları daxil etmir. Bitmiş formaları zaman kateqoriyasına daxil etsə indiki bitmiş, keçmiş bitmiş və gələcək bitmiş formaların hər birinin iki müxtəlif zamanın birləşməsindən, indiki bitmiş – indiki və bitmiş, keçmiş bitmiş – keçmiş və bitmiş, gələcək bitmiş – gələcək və bitmiş zamanın birləşməsindən ibarət olacağını qeyd etmişdir. (4, s.91)

Tərz kateqoriyası uzun onilliklər ərzində dilçilikdə müzakirə edilmişdir. Biz burada yalnız bitmiş və davamedici formalar haqqında bir sıra dilçilərin fikirlərini müqayisə etmişik. Dilçilərin əksəriyyəti bir məsələdə yekdildirlər. Onların bir çoxu davamedici formada yalnız tərz xüsusiyyətlərinin olduğunu bildirirlər. Bitmiş formalarda tərz xüsusiyyətlərinin olması isə mübahisəlidir. Tərz dedikdə, iş, hal və hərəkətin davam etməsi, tamamlanması və ya müddəti göstərməsi ilə bağlı zamanına, icra edildiyi vaxtına aiddir. Keçmiş, indiki və gələcək zamanların hər birinin davamedici və bitmiş cəhətləri həm zaman, həm də tərzlə bağlıdır. Tərz hər hansı bir hərəkətin davam etməsi, tamamlanması vaxtına aiddir. Bu səbəbdən tərzi zaman kateqoriyasının tərkib hissəsi kimi qəbul etməliyik. Bir çox dillərdə zamanın işlənməsindən asılı olmayaraq tərz mərkəzi kateqoriyadır və zaman kimi müxtəlif zaman mənalarını ifadə etmək üçün istifadə olunur. Tərz hadisə ilə bağlı zaman quruluşunu ifadə edərkən hadisənin özü zamanla əlaqədardır. Bu o deməkdir ki, iş, hal və vəziyyət zamanın və tərzin işlənmə dərəcəsinə görə dəyişir və hərəkətin başlandığını, tamamlandığını, davam etdiyini göstərir. Davamedici və bitmiş formaların indiki, keçmiş və gələcək zamanları var və onlar məzmun və struktur cəhətdən tamamilə fərqlənirlər. Avropa dilçilərin bir çoxu bitmiş və davamedici formanı zaman forması kimi nəzərdən keçirirlər, amma rus mütəxəssisləri onları ya tərz, ya da tərz-zaman formaları hesab edirlər. Bitmiş və davamedici formaların hər birində aspektuallıq vardırki, bu səbəbdən bu formalar tərz mənası daşıyan formalar hesab etmək olar.

Ədəbiyyat:

1. Bernard C. Aspect. Cambridge University Press, 1998. 142 s.
2. Brisard F. An account of English tense and aspect in cognitive grammar, June 2013, 235 s, Oxford scholarship online article series.
3. Cəfərova B. İngilis və Azərbaycan dillərində felin zamanlar sistemi. Bakı, 2004. 156 s.
4. İlyish B. The Structure of Modern English. Ленинград, Издательство «Просвещение»,1971, 366 s.
5. Kobrina N.A., Komeyeva E.A., Ossovskaya M.I., Quzeyeva K.A. An English Grammar. Syntax. M., Higher school publishing house, 1986. 210 s.
6. Musayev O. İngilis dilinin qrammatikası. Bakı, Qismət, 2007. 608 s.
7. Rəcəbova R. Azərbaycan dilində feilin tərzləri,. Elm və təhsil, Bakı, 2013.
8. Смирницкий, А.И. Синтаксис английского языка / А.И. Смирницкий. – Москва: Либроком, – 2009. 288 s.
9. Yunusov D. Müaqiyəli tipologiya, Bakı-Mütərcim, 2012.

Açar sözlər: tərz kateqoriyası, feillər, davamedici, bitmiş, zaman, zaman kateqoriyası

Key words: the category of aspect, verbs, continuous, perfect, tense, the category of tense

Ключевые слова: категория вида, глаголы, непрерывные, совершенный, время, категория времени

Резюме

Мысли о различии длительных и совершенных видовых форм в английском языке

Категория вида обсуждается в лингвистике уже многие десятилетия. Здесь мы лишь сопоставили мнения ряда лингвистов о совершенной и непрерывной формах. Большинство лингвистов сходятся во мнении по одному вопросу. Многие из них утверждают, что непрерывная форма имеет лишь стилистические особенности. Наличие стилистических особенностей в готовых формах является дискуссионным. Когда мы говорим «стиль», имеется в виду время, когда работа, ситуация и действие продолжаются, завершаются или выполняются. Прошедшее, настоящее и будущее время имеют продолжительные и прошедшие аспекты, связанные как со временем, так и с образом. Аспект относится к продолжительности какого-либо действия, моменту его завершения. По этой причине нам следует рассматривать аспект как часть категории времени. Во многих языках аспект является центральной категорией независимо от трактовки времени и используется для выражения различных временных значений, например времени. Хотя аспект выражает временную структуру события, само событие связано со временем. Это значит, что случай, случай и ситуация изменяются по степени развития времени и способа и обозначают начало, завершение и продолжение действия. Продолжительная и совершенная формы имеют настоящее, прошедшее и будущее время и совершенно различны по содержанию и структуре. Многие европейские лингвисты рассматривают перфектные и длительные формы как времена, но российские специалисты считают их либо видовыми, либо напряженно-видовыми формами. В каждой из законченных и непрерывных форм присутствует аспектуальность, поэтому эти формы можно рассматривать как формы со смыслом аспекта.

Summary

Thoughts on the distinction between continuous and perfect aspect forms in English

The category of aspect has been discussed in linguistics for many decades. Here we have only compared the opinions of a number of linguists about the perfect and continuous forms. Most linguists agree on one issue. Many of them state that the continuous form has only stylistic features. The presence of stylistic features in the finished forms is debatable. When we say style, it refers to the time when the work, situation and action are continued, completed or performed. The past, present, and future tenses each have continuous and past aspects related to both tense and manner. Aspect refers to the duration of any action, the time of its completion. For this reason, we should consider aspect as a part of the category of tense. In many languages, aspect is a central category regardless of the treatment of tense, and is used to express a variety of temporal meanings, such as tense. While aspect expresses the temporal structure of an event, the event itself is related to tense. This means that case, case and situation change according to the degree of development of time and manner and indicate the beginning, completion and continuation of the action. The continuous and perfect forms have present, past and future tenses, and they are completely different in content and structure. Many European linguists consider the perfect and continuous forms as tenses, but Russian specialists consider them either aspect or tense-aspect forms. There is aspectuality in each of the finished and continuous forms, so these forms can be considered as forms with a sense of aspect.

RƏYÇİ: dos. L.Ələkbərova

Türkan Əsgərova [41]

TÜRK MƏNŞƏLİ ŞƏKILÇİLƏR VASİTƏSİ İLƏ DÜZƏLƏN İSMİ VƏ FEİLİ SÖZ YARADICILIĞI

Araşdırma zamanı morfoloji yolla söz yaradıcılığının mənzərəsinə "Şühadənamə"dən verilmiş aşağıdakı mətnə nəzər salaq: Oğlanlar haman ki bu sözləri eşitdilər, əyağdən düşüb h u ş s i z yatdılar. Əyyuhal-qazi bu nə xəbər idi d i l s u z. O sizi Mədinəyə y e t ü r s ü n. Belələrinə *b a ğ l a t d ı*. İraqeyn dərvazəsinün d ı ş x a r ı s ı n d a bir karvan var imiş və Məkkəyə varurlar. Bunları apar və k a r v a n l u l a r d a n bir kişi tap ki, səlah sirəti andan zahir ola. Əsəd həm ol q ə r a n g u l u (qaranlıqlı) gecədə anları götürüb İraqeyn dərvazəsindən d ı ş x a r ı apardı. Qəzadən həm ol səatdə karvan köşmüş idilər və karvanun q a r a l ı ğ ı irağdan g ö z ü k ü r idi (Şühəd. XVI. 358).

Kursivlə verilmiş bu mətndə 9 söz törəmişdir. Amma bu səhifədə olan mürəkkəb sözləri seçmədik.

Qeyd edə bilərik ki, əksər abidələrin dilində *-çi*[4]*,-lıq*[4] şəkilçiləri ilə isim düzəldilmişdir.

-çı[4] şəkilçisi. Həmin şəkilçi ilə *"insan"* məfhumu ifadə edən sözlər (həmin işi görən şəxs, müəyyən siyasi və sosial ideya və məfkurənin davamçısı bir şeyə meyil göstərən, əsasın mənası ilə əlaqədar olan durumda müvəqəti olanı bildirən isim) yaradılır. "Hər hansı bir işdə fəaliyyət göstərənin adı *–çi* (kişi) ilədir" *(Kononov A.N).* O dövrdə *pinəçi, damgaçı, qoyçu* (qoyunçu), *dəmürçi, dəmirçi bəkçi, qapıçi* və s. sözlər, göründüyü kimi, insan peşəsi, fəaliyyətini əks etdirir.

-çı[4]*:* bəkçi- gözətçi mənasında (Nə kim *bəkçi* qulun var idi, qırmış *(DƏH.XIII.* 82), *avçı* (Varıb dağda bulur *avşı* yigitlər *(DƏH. XIII.74)*; Andan soŋra Qeys bin Mənbe *avçı* əslan kimi və dağlu qəplan təki meydanə qədəm basub, bir rəcəz bünyad eylədi kim, mə'nisi budur. (*Şühəd. XVI.249 a);* Əlqissə, çün xəlqüŋ dili Züleyxanuŋ irzində uzandı və hər tərəfdən məlamət qapusı anuŋ yüzinə açıldı, *dəmürciyi* çağırub dedi: *(Şühəd. XVI.38 b)*; Bəs *dəmürçi* zəncir və bəndi düzədüb gətürdi və Yusifüŋ əlinə və əyağinə qoydı. *(Şühəd. XVI.39a)*; *Dəmürçi* Pirə Camal dedi kim, Şeyx Səfiəddin bir qatla Şeyx Zahidün hüzurinə varmağ əzm eylədi kim, dəstbusinə müşərrəfolsun. *(ŞSəfi.XVI.96*)

Bu şəkilçi "əgər" şərt başlayıcısına artırılaraq arxaik forma yaratmışdır: Əgərçi nəqd idi vəchi *(Bürhan. XIV. 32)*; G ə r çi formasında da müşahidə olunur: Gərçi qəza durur anıŋ eşqi bu dəlü köŋülə. *(Bürhan. XIV. 32)*

-lıq şəkilçisi: Tarixən həmin morfoloji göstəriçi ilə mücərrəd semantikaya malik isimlər (predmetin çox miqdarda toplandığı yeri bildirən isimlər, kökün bildirdiyi məna ilə əlaqədar olan əşyaların adlarını bildirən isimlər; məşğuliyyət, peşə və vəziyyət bildirən isimlər; xüsusiyyət, keyfiyyət kimi mücərrəd anlayışlar bildirən isimlər və s.) yaradılmışdır.məs: *ə r l i k , aşlıq*: Hər bir kişi dünyada *ə r l i k d ə n* edər də,va *(Bürhan. XIV. 30);* aşlıq,

-lıq[4] *şəkilçisi.* Bu şəkilçi ilə konkret və mücərrəd məzmunlu isimlər yaradılşışdır. Şəkilçi dövrün abidələrinin dilində *liğ* şəklində *dustliğ* (dostluq), *heyrətlig (heyrətlik), günilik* (paxıllıq, qısqanclıq, həsəd)

Və müqərrərdür ki, məhəbbət qədərincə mihnət yetər və bəla *dustliğ* mərtəbəsində nazil olur. Hər kim *dustliğ* yolında özgələrdən ilərüdür, qamu kimsədən artuğ nəsibi mihnət ilə qəm və qayğudur. *(Şühəd. XVI. 1 a);* Hər yerdə ki, məhəbbət binasını qoyubdurlar, mihnətdən bir qapu aŋa açubdurlar. Və hər meydandə ki, *dustliğ* ələmi durğuzubdurlar, bəlalar qoşunı aŋa mü-lazim eyləyübdürlər. *(Şühəd. XVI. 1 a); heyrətlig* (heyrətlik): Yə'qub öz uşağlarına bədrəqəlik eyləyə, hər kim ol halı görər idi, *heyrətliğ* dəŋizində qalub, təəccüb edər idi və işüŋ həqiqətindən bixəbər idi. *(Şühəd. XVI.25 b);* Müslimə yariliğ qılmadıŋız, ta zarilik ilən şəhid eylədilər. *(Şühəd.XVI.217 a);* Ey İmam Hüseyn, hər ki səndən e'raz eyləyə və sa-ŋa yariliğ etməyə, anuŋ cəhandə hiç nəsibi yoxdur. Ey İmam Hüseyn, hər ki səndən e'raz eyləyə və sa-ŋa yariliğ etməyə, anuŋ cəhandə hiç nəsibi yoxdur. *(Şühəd. XVI.166 a*); *günilik* (paxıllıq, qısqanclıq, həsəd) Yusifi yerə urdılar ki, sənüŋ gəvdəŋ yükini xaçanədək çəkəlim və *günilik* şərbəti xaçanədək içəlim?! (*Şühəd. XVI.27b)*; Qərdaşlarınuŋ həsəd tozı mundan ötrü köŋül güzgülərinə qonmış idi və günilik rəqəmi köküsləri lövhinə nəqş olmış idi, ta ol vəqt ki, Yusif (ə) düşdə gördi ki, Gün ilə Ay on bir yulduz ilən gögdən enüb aŋa səcdə eylədilər. *(Şühəd.XVI.25 a)*; İmdi bir *böyüklig* eylə və *kiçilüğimə* rəhm et *(Şühad. XVI. 28b);* Ey Səhl, Zülcəlaluŋ böyükligi həqqi içün ki, bir qətrə ki, mənüm fərzəndi-dilbəndüm müsibətinə tökdüŋ, zaye olmaz və ol ağlamağ ki, bu gün səndən zahir oldı... *(Şühad. XVI.23b)* eyilik, kindarlıq, bahadırlıq, bəzirganlıq Bahadırlıq yolunda key bəlasır (*DƏH.XIII.* 16); Bəzirganlıq çərinin nə işidir? *(DƏH.XIII.29)*

-lik[4] şəkilçisi ilə sifət də düzəlir, amma qeyri-məhsuldardır. *"Yazlıq, donluq"* sözlərini misal gətirmək olar. Digər nümunə: Ya Fatimə, bu vaqiə *kiçiliğdə* və *yigitlikdə* olmayacaqdur, bəl-kə bir gün olacaqdur ki, nə mən olam və nə sən və nə atası Əli və nə qərdaşı Həsən. *(Şühad. XVI. 301):*

Feil düzəldən şəkilçilər vasitəsilə söz yaradışılığı

Qıpçaq elementli *–ğan* şəkilçisi:

Şol quş ki, t u t ğ a n quşnı azad qılır.

Sanma ki, dünyada ol azad a ad qılır *(Burhan.XIV. 19);*

-ğan bu dövrdə də söz yaradıcılığı vasitəsi olaraq çıxış etmişdir. Orxon abidələrinin dilində-*ğan* Kapağan, (şəxs adı), tabısğan (dovşan), korğan (qala), yarğan (hərbi rütbə) adlarəna əmələ gətirmişdir. *(1. 170-173)*

-ğu,-gü şəkilçisi: urunğu (döyüşçü), *bilği, cağı* (dəryaz), *karangu* (qaranlıq), karağu (qarovul) və s. Həmin şəkilçili sözlərdə vaciblik, mümkünlük xüsusiyyəti vardır.

[41] Azərbaycan Milli Elmlər Akademiyası, Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dili tarixi şöbəsi, filologiya üzrə fəlsəfə doktoru, dosent

V.Məmmdov yazır ki, *"Dastani-Əhməd Hərami"* poemasının tarixilik baxımdan diqqəti çəkən leksik şəkilçilər sistemi bu qədim məsnəvinin derivotoloji fondu əsasnda dövrün söz yaradıcılığı prosesi barədə müəyyən təsəvvür əldə etməyə imkan verir" .*(2-71)*

Lakin qeyd edə bilərik ki, Azərbaycan dilinin qədim morfoloji quruluşunu meydana çıxarmaqdan ötrü abidələrin mətnləri kifayət edir.

-laq[2]*:* çəpələq (şapalaq): Qərdaşlarınuŋ hər birisinə ki varur idi, bir *çəpələq* anuŋ yüzinə urar idi və hər kimüŋ ətəginə yapışur idi, yaqəsini dutub irağə salur idi. *(Şühad.XVI.28 b);* Əmma Yə'qub xanda idi kim, öz əziz fərzəndini görə idi, yeri-məkdən əyağı qabarub, *çəpələqdən* yüzi ufanmış. *(Şühad.XVI.29 a);* Ruil anuŋ sözinə iltifat etməyüb yüzinə bir *çəpələq* urdı ki, bən əfşə yaprağı tək qarardı. *(Şühad.XVI.28 b);*

-ça,-çə şəkilçisi: külçə, yelçə və s.

-çıq[2] şəkilçisi: qolçıq, sançıq və s.

-cıgaz[4] şəkilçisi: qızcığaz, uşaqcığaz və s.

-ciləy şəkilçisi: *sənciləyin* (sənin kimi)

Dəhri-zaman içində heç bulmadı kimsə bir dəxi, *Sənciləyin,* bu lütf ilə dəhri-zamanmısan, nəsən? *(Nəsimi.XIV.I.166);* Aləmdə bu gun *sənciləyin* yar kimin var? Gər var desən, yox deməzəm, var, kimin var? *(Nəsimi.XIV.I. 193);* Dəxi ayıtdı: "Ya əxəl-ərəb, sizüñ çəriñüzdə dəxi *sənciləyin* fəsihül-lisan və cəriyyül-qəlb ki, sənüñ kibi ğərimindən qorqmaz kişilər varmıdur?"-dedi. (*Fütüh. XIV. 250b);* Bunları dəxi *sənciləyin* dinlərindən usandurmayasın", -dedilər. Rumas durub şəhrə girdi. *(Fütüh. XIV. 23 a);*

Sənciləyin müqtədadan yüz heyf və sən kimi imamdan yüz dərig. *(Şühad.XVI.136 b)*

-an,-ən şəkilçisi:

Varıb qız *donanıb* gəldi oturdu. (DƏH.XIII. 42); *Nagahan* düşdə görər ki, on qurt Yusifi atası qucağından qapdılar (*Şühəd.XVI. 75); Donanırdı* ol işə qəz gəlirdi (DƏH:42);

-ma,-mə şəkilçisi:

Dildar ilə xoş ol və zəmanəyə qalmağıl,
Dut*ma* hesaba hər nə ki, piri-xərəf qıla. *(Bürhan. XIV. 42)*
Bəqası yox bu cəhanun fənada dutma məqam,
Tur İmdi, saqi, tolu ver ələmə camı müdam. *(Bürhan. XIV. 135)*
Rəhmanı dəxi unut*ma*yaydun,
Bir gəz nəfəsi-yəmani görsən. *(Bürhan. XIV. 129)*; Ey validə, sən haman xeyir-duadan unutma", -dedi. *(Bürhan. XIV. 318b)*; Ya Rəsulullah, andan bunı umaram ki, Qiyamət güni mənüm ələmi duta və məni unutmaya. *(Şühəd.XVI. 148)*

–ma,-mə şəkilçisi ilə feil vasitəsilə sifət də əmələ gəlmişdir. Məs.: örmə saçlı, burma qoçlar və s.

-qu şəkilçisi: Bu vaqiənüŋ qorxu-sından uy*qu*dən oyandı, sordı kim, Yusif xandadur? .*(Şühəd.XVI. 26 b)*

-dur şəkilçisi: Bu zəifənüŋ bağırı hicran odı ilə yan*dur*məyəsən. *(Şühəd. XVI. 27 a);* Ey Taŋrınuŋ Nəbisi, gögdən bir ildurum çaqub bağınuŋ bi-tün yemişlü ağacları yandurdı. *(Şühəd. XVI. 45 a)*

-sız4 şəkilçisi:

Məgər bu kişilər xır*sız*mı ola,
Anıŋ için düşüb gedər bu yola? *(DƏH.XIII. 29);*
Cəvahir mədəni gəncə sataşdı, Dirək*süz* bir gülü gülzara düşdi. *(DƏH.XIII. 86)*

Bu cəfakar-lar Fərat suyiniŋ qırağında itləri sirab edüb, imamət bişənüŋ aslanza-dələrə su verməyüb, *susizliğdən* cigərləri yandurur idilər. *(Şühəd. XVI. 29a);* Sən sunuŋ susizligisən və biz qanun *suzizligiüz (Şühəd.XVI. 29a);* Və ol məhəldə *susizligdən* Yusifüŋ ağzı və dili və əngəgi lalətək atəşbar olmış idi və gözininŋ hədəqəsi suyə dəgmiş nərgis kimi *taqətsiz* olub ahü naləyə düşdi.*(Şühəd. XVI. 29a)*

-la[2] şəkilçisi: Bu şəkilçi az məhsuldardır. Zərf olaraq *taŋla, daŋla* sözlərinin tərkibində rast gəlirik. Sabah, səhərisi, dan yeri ağararkən, gün doğarkən anlamını verir. Həmin şəkilçi *ol, elə* köməkçi feliləri ilə qohumdur:

Səfər əzminə belüŋ *bağladuŋ,* yol üsnə durmışdur, Gözüm yaşi ki, yoluŋ *bağlaya,* getmə Xuday üçün. *(Şühəd. XVI. 25b);* Ey Yusif, əgər müyəssər ola idi, seni çignüm ilən götürüb aparurdum və gətürürdüm, əmma ataŋ zəif və *qocaləyübdür* və sənüŋ didaruŋa müntəzir. *(Şühəd.XVI. 26 b);* Kim bilür kim, *daŋla* başımıza nə yazubdurlar və halü-miz ağacı təqdir əli ilən hanğı vadidə əkübdürlər? *(Şühəd.XVI.26 a); Daŋlası* həm ol cəmaət həm ol məhəl-də cəm' oldılar və mən anlar ilən bilə idim. *(Şühəd.XVI.55 b); Daŋlası* Şeyx Səfiəddin bu hekayəti şəhərün daruğasına ərz etdi. *(ŞSəfi.XVI.92); Daŋlası* bostançı bağçaya vardı, bağçanı eylə saf-pak gördi kim, sağına idün kim, hərgiz munda nəstə bitməyübdür. *(ŞSəfi.XVI.98);* Ya Bin Rəsulullah, sənüŋ *eşqüŋlə* din mə`rəkəsinə gəldük və həm ol şərt ilən axirət meydaninə vardük. *(Şühəd. XVI.277a);* Sənüŋ *mehrünlə* toprağə girarəm, Sənü*ŋ eşqüŋlə* toprafdan çıxarm *(Şühəd.XVI.26 b);* Qəza öz işini *işlədi* və qədər Yusifüŋ fəraqi ilən könlümizdən tütün çıxardı. *(Şühəd.XVI.27a);* Nagah həzrət Şeyxün (q.s.) qeyrət nəzəri *işlədi* və Hüdyənün gözi görməz olub kor oldı və özgələr anuŋ əlini dutub gəzdürürlərdi. *(ŞSəfi.XVI.290);* Bir qəra əqrəb Taŋrı buyruğindən ol məl´unuŋ ərkəklik alətini *dişlədi.(Şühəd.XVI.222a);* Bəs, İmam Hüseyn (ə) səcdeyi-şükr əda qılub baş götürdi və qatı avaz ilən *əylə* ki iki ləşkər eşitdilər, dedi: *(Şühəd.XVI.221b);* Qaçar ilən aŋa yoluxub bir cidə əŋsəsinə *əylə* yetürdi ki, cidənüŋ cəbri anuŋ köksindən çıqdı. *(Şühəd.XVI.231b);* Bu çağ ki Yezidüŋ köşkində idilər, bir gecə bu qız düşdə gördi ki, atası aŋı qucağlayubdur. *(Şühəd.XVI.328b)* ;Yə'qub hiç hanğısinə iltifat etməyüb, Yusifi *qucağlayub*, yüzini anuŋ yüzinə qoydı. *(Şühəd.XVI.26b)* . Ol dəxi həzrət Şeyxi *qucağlayub*, ol başmağlu əli həzrət Şeyxün arxasına apardı. *(ŞSəfi.XVI.673);*

-lan[2] şəkilçisi:

Zinhar, zinhar ki, gecə yazıda *əglənməyəsən* və atanuŋ kөŋli çehrəsi fəraq dırnağı ilən məcruh eyləməyəsən. *(Şühəd.XVI.*26 a); Ol qədr *əgləndi* ki, əvvəlki səcdə əda qıldı. *(Şühəd.XVI.*134 a); Mən dedim: Ol Siyahkəmərdə *əgləndi. (Şühəd.XVI.*134 b); Şeyxün peyğamı Pəhləvan Məhəmmədə yetürmək içün *əgləndi. (ŞSəfi.XVI.590):*

-laş[2] şəkilçisi:söyləş, xəbərləş, ögləş (məsləhətləşmək): Atası gördi kim, Yusif ilən *söyləşməkdə* idi. *(Şühəd.XVI. 27a);*

-t,-ət şəkilçisi. Məs.: *gözə+t, t o n a+t, a r ı+ t* və s.

İmən olalı yenə gözündən müşəwəşəm,
Qurtar, bəgüm, bu əmnü amandan bəni gözət. (*Bürhan.XIV.107);*
Belün ilə tənüm sanasın saç qılı durur,
Ayağun öpərem ki, miyandan bəni *gözət.* (*Bürhan.XIV.107);*
İraquŋ əhlidən əsla vəfa *gözətmiŋ* siz,
Ki, kufi adəmidə yoxdurur vəfa hərgiz. *(Şühəd.XVI.202 a)*

İmam Hüseyn (ə.) anı çağırdı və ağzından və dodağlarından toprağ *arıtdı* və həzrət Rəsulullahuŋ üzügi anuŋ ağzına qoydı, ta əmdi və susizligi təskin tapdı. *(Şühəd.XVI.282 a);* Şeyx İbrahimə buyurdı ki, bu panbuğ məzrəəsi zəğəl xaşakından *arıt* və yaramaz bitmişləri qopar. *(ŞSəfi. XVI.516);* Amma həman kim üzük anun barmağından aldı və kөlŋi təxti nəfsün həvasından *arıtdı* və təxti öz təsərrüfinə çəkdi və iblisi sürdi, xudaypərəst oldı. *(ŞSəfi. XVI.359)*

-sa,-sə şəkilçisi: su+sa, qərib+sə.

-al,-əl (l) şəkilçisi: *yucal, buŋal*

-da şəkilçisi:

Müştəri oldu Zühəl *sevdasına* zülfeyninün,
Dedüm otur aşağa eşqində bir keyvanısm.*(Bürhan.XVI, 148);* Saçun *sevdasına* düşdüm dəlüyəm, Bana şimdən gerü sən tutmağıl dəq. *(Bürhan.XVI, 199);*

Yə'qubuŋ kөŋlindən gidərələr və Yusifüŋ *sevdası* atasınuŋ başından bərtərəf eyləyələr. *(Şühəd.XVI.25 a)*; Köksimüŋ qəmkədəsinüŋ sakini sənüŋ vüsaluŋ *sevdası* olacəqdür. *(Şühəd.XVI.26 b);* Həman anı görincə sevdası odı kөŋlümdə savdı. *(ŞSəfi.XVI.665);*

-əsi şəkilçisi: Və *geyəsilərdən* bir pəlas ilən qənaət eyləyüb, yeməklərdən bir quru əkməgi bəgənmiş idi. *(Şühəd.XVI.46b);* İmam Hüseynüŋ qanə bulaşmış *geyəsilərin* baxərəm, kөŋlüm xərab olur". *(Şühəd.XVI.49 a);* Həzrət Şeyx Zahidün əlində tövbə qıldı və anlaruŋ kisvətin geyüb, öz *geyəsiləri* bıraxdı. *(ŞSəfi. XVI. 74);* Çün anlar ötdilər, həzrət Şeyx *geyəsini* suya qoyub yudı. *(ŞSəfi. XVI. 63);*

***-gə* şəkilçisi:**

Qatılığ çağında anuŋ *kölgəsində* tapdılar,
Canı tapşurmağda susızlar kimi abi-həyat. *(ŞSəfi.XVI.243)*
Eylə şahun *kölgəsində* eymənüz afatdən,
Hər kim aŋa sığınur, qalur həmişə sağəsən. *(ŞSəfi.XVI.564)*

Bir yerdə cida-muŋ küpi batdurdum və qalxanum aŋa asub, *kölgəsində* oturdum. *(Şühəd.XVI.128 a);* Bir zəmandan soŋra qayıdub, təharət alınmış ol qalxanuŋ kөlgəsində oturdı. *(Şühəd.XVI.128 a);*

Bəni sana sayma əgər səndən *özgə,*
Dəxi bir yasağa dəxi hiç yasandum. *(Bürhan.XIV.214):* Eşigindən özgəyə bən yüzümi sürməyəyüm,
Ay yüzündən *özgə* xubi görəyüm, görməyəyüm. *(Bürhan.XIV.230);* Taŋrınuŋ yolında mө'mini ki, hərgiz vahid mə'buddən *özgə* bir pərəstiş eyləməz. *(Şühəd.XVI.133b);* Ya Rəsulullah, kimsə səndən *özgə* gөg ilən yerüŋ zinəti olası ola? *(Şühəd.XVI.156b);* Dəxi dedim, özgə məclisdə izhar edəyim. *(ŞSəfi.XVI.567)*

Piranəsər başümni itlərüŋə çəkübmən,
Qapüŋdə ağ səqqalum *süpürgə* eyləyübmən. *(Şühəd.XVI.254a);*
Müxəddərati-əfayif kim, anlərüŋ eşiginə

Beheştlər varı saçlarını *süpürgə* qılürlər. *(Şühəd.XVI.304 b);* Hala sən varub öz çarəni bul kim, dünyadan böylə çıxasan kim, *süpürgə* ilən gövdəni yığışduralar. *(ŞSəfi.XVI.186);* Neçə gündən sonra böylə vaqe oldı ki, ə'zaları ayru-ayru bir-birindən töküldi və *süpürgə* ilən süpürüp kürək ilən cəm etdilər və tabut içinə salub yerün altına gömdürdilər. *(ŞSəfi.XVI.186);*

-lı[4] şəkilçisi: Bu şəkilçi əsasən sifət yaratsa da, isim əmələ gətirmə xüsusiyyətinə də malikdir. Həmin göstərişi məkan adlarına (xüsusi və ümumi isimlərə) qoşulub şəxsin haradan olduğunu bildirən isim formalaşdrır.

Məs.: bağdadlı, sofulu:

Can ləbünün qanma dilər ki, qana-qana qan,
Necə sən *qanlu* yürəgümün qanına qanasın. *(Bürhan.XVI. 452)*

-lı[4] şəkilçisi ilə əlamət və keyfiyyətin şəxsə aid keyfiyyətləri ifadə olunur:

Qumaş düzdü Krımda *dürlü*, əlvan, Nə *dürlü* hiylə edər ol nətavan. *(DƏH.XIII.38);*
Həzaran *dürlü* əndişə edirdi, Müdam fikri həramiyə gedərdi. *(DƏH.XIII.49);* Bu dərdə dəva kөŋlüm isdəməz anuŋçün ki, Bulmışdur anuŋ dərdin yüz *dürlü* dəva ilə. *(Büran.XIV.631)*Yürəgi qan edübən gözüni oxır kөŋülüm, Bu nə *türlü* çin olur ki, qana gəlməz, nə deyüm? *(Büran.XIV.601);* Ey Nəsimi, *dürlü-dürlü* dərdlər ol canındadır, Bir eşik yastana gör kim, dərdinə dərman bitər. *(Nəsimi.XIV.II. 22);* Mövc ilə, eşq ilə canım *dürlü-dürlü* dür saçar, Bu giransız eşq ilə dəryayi-ümman

gəlmişəm. *(Nəsimi.XIV.II. 24);* Qana dönsün bü könül, ya Rəb, aparmış səbrimi, Arizu eylər o hər dəm başqa *dürlü* dilrüba. *(Füzuli.XVI. III, 182);* Bəsləməkdən gözü hər *dürlü* ciyər qanı ilə, Təkcə seyri-güli-rüxsari-nigar idi qərəz. *(Füzuli.XVI. III, 231)*; Çün uşağları malı ilən varı həlak olub getdi, neçə *türlü* sayrulığ və bəla aŋa yüz qoydılar. *(Şühəd.XVI.45a);* Yezid çaxır içər və *dürlü-dürlü* yaman əməllər andan zahir olur. *(Şühəd.XVI.160 b);* Və ol qeyrətdən bu zəhmətə uğrayubəm və hal ol kim yüz minə yaxın xəlifələr ilə müridlərüm var idi və hər yandan *dürlü-dürlü* nemətlər gətürüb təqərrüb edərdilər. *(ŞSəfi.XVI.332);* Dedilər gəldi bir kişi *əbalı,* Durur qapuda bilməziz nə halı? *(DƏH.XIII. 76);* Güləndam aydır: ey şöhrəti-afaq, Əgər *suçlu* isəm sən tanrıya bax. *(DƏH.XIII. 62):*

-sız[4] şəkilçisi: Həm bu, həm də yuxarıdakı şəkilçi sözün leksik məzmununa aid əlamət, keyfiyyət və mənsubiyyətin varlığını və ya yoxluğunu ifadə edir. Fonetik variantları danışıq dilinə uyğundur. Bu uygunluq oguz qrupu türk dillərində də indi də müşahidə olunur. Belə ki, "bu şəkilçinin ilk samiti assimilyasiyaya uğrayıb qaqauz dilində *"n",* türkmən dilində *"r"* səsinə çevrildiyindən həmin dillərdə *-nı,-ni,-nu,-nü və -rı,-ri* variantları da vardır. Məs.: qarrı, bişimni, kannı və s. İraq yerə səni verir olursam, Bənə (bir) dərddürür *sənsiz* olursam. *(DƏH.XIII.51);* Nə'im edən cahimi sənün ilə, Cahim edər bana sənsiz nə'imi. *(Bürhan.XIV.35);* Canü cahanı *sənsiz* neylər mühübbi-sadiq, Ey aşiqin həyatı, həm canü həm cahansan. *(Nəsimi.XIV. II, 74);* Düşmüşəm bir şalə *sənsiz* natəvanü zar olub Kim, əcəl yanımdan ayrılmaz mana qəmxar olub. *(Kişvəri.XV.16)*

– Ey ata, hərgiz olmasun ki, *sənsizin* bu dünyada qalam. *(Şühəd.XVI.280 b);*

Vida'üŋ, ey oğul, qılmək çətin işdür maŋa, billah,

Əgər *sənsiz* həyat abı içəm, nişdür maŋa, billah. *(Şühəd.XVI. 27b): Vəfasız* dünyanın mehrin gedir könlüŋdən, aldanma, Ki, dünya əhlinə hərgiz müti' olmaz dedim uş bil. *(Nəsimi.XIV. II, 106);* Gərçi ətasıdır cəfa aşiqə şol *vəfasızın,*

Can ilə istər, ey könül, aşiq anıŋ ətasını. *(Nəsimi.XIV. II, 47);*

Vəh ki, bir namehriban dildarı sevdim aqibət, Munca gəzdüm, bir *vəfasız* yarı sevdim aqibət. *(Kişvəri.XV.18);* Çün sənüŋlən mülaqat eyləyəm, anlaruŋ *vəfasizligi* və düşmənligi ilən cəfaları qulluğüŋdə ərz edəyəm. *(Şühəd.XVI. 161b): (3 -25)*

-ağ şəkilçisi: Hər ağacə ki, yaxınlaşur idilər, ol ağac anlardan *irağ* olur idi. *(Şühəd.XVI. 6b);* Və iza vəqə'ət bəliyyətin fəstəizu billah"– əgər bir bəladə qalasan və afiyət səndən irağ ola. *(Şühəd. XVI .26b);* Könül kəndüyə qullab ilən götürdi saçı, *İrağa* atmağ içün qaşı yaya saldı bəni. *(Bürhan. XIV.28);* Nigara, necə ki, irağ isən bini ana dur, - Ki, sən nərədə olursan yönümüz ol yanadur.*(Bürhan. XIV.136);* Ey həqdən *irağ* olan əzazil, Gər div degilsən, adəmi bil!*(Nəsimi. XIV.252);* Və necə kimsə öz yürəkparəsi içün qayğulu olmasun, çi *uşağ* bir üzvdür ata ilə ananuŋ ə'zalərindən və çün üzv andan kəsilə, külli qəm və məlal baqi ə'zayə yetər. *(Şühəd. XVI .74b);* Aya hiç *uşağ* bəylə aləmdə var ola ki, bizüz? *Şühəd. XVI* .106 a)

-ş,-əş şəkilçisi: Şu rəsmə kim, qılırdı ahü əfğan, Gözündən *yaş* yerinə dökülür qan. *(DƏH.XIII.66);* Yox xəyalı dəmbədəm gözlərimin sarayına, Ab kimi rəvan gəlür, *yaş* kimi rəvan gedər. *(Nəsimi. XIV. II, 131);* Ziyadoğlınuŋ gözindən ixtiyarsız *yaş* axdı və məclis əhli hər kim anı gördi, ağlamağə düşdi. *(Şühəd.XVI. 194b);* Nagah oyanub gözlərindən *yaş* axar idi. *(Şühəd.XVI. 208 a);* Zehi dövlət bu gəz buldı iki şah, *Günəş* qoynuna girdi ol yüzü mah. *(DƏH.XIII.86);* Ta bilələr ki, az imiş aləmə feyzin, ey *günəş*, Yerdəvü gökdə göstərər mehri-rüxün ziyasını. *(Nəsimi.XIV. II, 47);* Bəli, bu surət ilən ol müxəddəratı aparməg anlarə ihanət səbəbi idi, zira kim ol iffət və təharət məsturələri-nüŋ başlarına *gün+əş* hərgiz qonmamış idi. *(Şühəd.XVI. 305a);* Ey yalan düşlərüŋ iyəsi, ol *Günəş* ilən Aydan ki saŋa səcdə eylədilər, mədəd istəgil, ta ğəvrüŋə yetələr. *(Şühəd.XVI. 28a);*

-ar[2] şəkilçisi: Əmma fərzəndləri ata nəzərində Yusifi bir-birindən *qapar* idilər.*(Şühəd.XVI. 28a);* Yusifi can kipi *sevar* idilər, Bir-birindən anı qapar idilər. *(Şühəd.XVI. 28a);* Tərk edübən bilülərin ə m c ə k *əmər* dəgülmişdir. *(Bürhan.XIV. 32);*

-cək,-çək şəkilçisi: Feildən isim düzəlir. Tərk edübən bilülərin *ə m c ə k* əmər dəgülmişdir. *(Bürhan.XIV. 32);* Xatunınuŋ əvvəlki ərindən bir qızı var idi və bu qız bəqayət *gögcək* idi və xatun özi qarıb, qızını istər idi kim, öz ərinə verə. *(Şühəd.XVI. 49 b);*

-k şəkilcisi: Qədim yazılı abidələrin morfoloji quruluşunda *–k, kiçi*, böyü feillərinə artırılaraq düzəltmə sifət əmələ gətirmişdir. Məs.: Gözüm yüzündə mö'ciz nəsnə gördi Ki, qılmış *kiçi* barmax bədr ayı şəq. *(Bürhan.XIV.199)*; Qomadı hicrün yürogümdo rəməq, *Kiçi* barmağun qılalı ayı şəq. *(Bürhan. XIV.593) və.s.*

-gə şəkilçisi qeyri-məhsuldardır: İmam Hüseynüŋ nahəqq qanı içün əylə dərd-lüdür ki, ağlamağdan *özgə* hiç dəvası yoq və dustlaruŋ köküsləri bu fikrdən əylə yarəlüdür ki, nalədən *özgə* hiç şəfası yoq. *(Şühəd.XVI.51b);*

-ik[4] şəkilşisi: İmam Hüseyni şəhid etdi-lər, gög ağladı və hər günbatan çağı bu şəfəq qızıllığı ki, məğrib tərəfində *gözükür*, ol gündən bərlü gözükdi. *(Şühəd.XVI.71a);* Kərbələdə-kilərüŋ geyəsiləri qamu qanlu oldı və neçə gün anlaruŋ gözinə gög bağlamış qan kimi gözükür idi. *(Şühəd.XVI.71a)*

-man, -mən şəkilçisi: *yayman, qocaman, iyermen* (adam), *karaman, quduman* (quduz adam) və s.

Dövrün abidələrinin dilində düzəltmə zərflərin ən qədim formasına rast gəlirik. İndiki dilimiz üçün arxaikləşmiş –ın[4]: yazın, güzin (yazın atlanur- ilxı yazda at olur. *Küz kəligi yayın bəlgülüg-* payızın gəlişi yaydan bəllidir. (MK, "Divan")

Digər daşlaşmış zərf düzəldən *-qa,-ru,-qaru,-aru* şəkilçili sözlər obyekt seçdiyimiz mətnlərin dilində çoxdur. *Məs.: tışxaru, yokarı, taşra, tışra, dışxarı və s.*

Nümunə: Dəm olmadımı dəmündən ki, bir dəm ola aŋa, Neçə-neçə qapudan *taşra* həlqeyi-dər ola. *(Bürhan. XIV.22);* Yürəgümi yanban açə idüm içini, *Taşra* düşə qorxaram andağı əsrarı-cşq. *(Bürhan. XIV.57);* Bəs, çün məni yuyub qüsl və kəfəni edəsiz, həm bilə cənazə üstində bu ev içində qəbrüŋ qırağında qoyuŋız və varıŋız *dışxarı* çıxıŋız. *(Şühəd.XVI.80b)*

Nəticə. Soz yaradıcılığı dilçiliyin müstəqil bölməsidir, özünün xüsusi tədqiqat predmeti ilə fərqlənir. Bu predmet söz yaradıcılığı strukturu və söz yaradıcılığının düzəltmə mənasından ibarətdir. Söz yaradıcılığı strukturu adı altında sözün

düzəltmə vasitələri, üzvlənən, motivləşən və formant hissəsi dərk edilir. Söz yaradıcılığı strukturunun tərkib hissələri arasında determinasiya münasibəti mövcuddur. Bu münasibəti qarşılıqlı konkretləşdirmə şəkilçi ilə düzəltmə əsası konkretləşdirir, kök və əsas, öz növbəsində, morfoloji göstəricilər vasitəsilə konkretləşir.

İstifadə edilmiş ədəbiyyat

1. Əhmədova A. Orxon abidələrinin dilində söz yaradıcılığı. Bakı: Elm və təhsil, 2023, 304 s.
2. Məmmədov V. "Dastani-Əhmd Hərami" poemasının dili və üslubu. Bakı: Sabah, 2001, 132 s.
3. Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası. II hissə, morfologiya, Bakı: Elm, 1986, 132 s.

MƏNBƏLƏR:

1. Dastani-Əhməd Hərami. Bak: Şərq-Qərb, 2004, 118 s.
2. Qazi Bürhanəddin. "Divan". Bakı: Azərnəşr, 1988, 726 s.
3. İmadəddin Nəsimi. Seçilmiş əsərləri: II cild. Bakı: Lider. 2004, 377 s.
4. Kişvəri. Əsərləri. Bakı: Şərq-qərb, 2004, 175 s.
5. Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı: Nurlan, 2006, 932 s.
6. Şühədanamə. Bakı: Elm, 2019, 681+334 s.
7. Fütuhüş-Şam (Şamın fəthi). Mətnin transfoneliterasiyası. Bakı, 2021, 673 s.

Açar sözlər: morfoloji, ismi, feili, etimologiya, inkişaf
Key words: morphological, noun, verb, etymology, development
Ключевые слова: морфология, существительное, глагол, этимология, развитие

Xülasə

Söz yaradıcılığı dilçiliyin müstəqil bölməsidir, xüsusi tədqiqat predmeti kimi özünəməxsusluğu ilə fərqlənir. Bu predmet yeni yaranmış sözün strukturundan və onun semantikasından ibarətdir. Yeni yaranmış sözün strukturu dedikdə - onu düzəldən (meydana gətirən) vasitələrlə bərabər, onun üçlü fəzavi quruluşunu təşkil edən üzvləri, motivləri və formant hissələri də dərk edilir. Söz yaradıcılığı strukturunun tərkib hissələri arasında determinasiya münasibəti mövcuddur. Bu münasibəti qarşılıqlı konkretləşdirmə müəyyən edir - yəni şəkilçi ilə yeni söz düzəltmə əsası konkretləşdirir, kök və əsas isə, öz növbəsində, morfoloji göstəricilər vasitəsilə konkretləşir.

Söz yaradıcılığı sözün strukturunu yaratmaqla bərabər, düzəltmə sözün leksik mənasını da müəyyənləşdirir. Həmin mənanı formant və motivator kimi iki hissə ilə ifadə olunan leksik-struktur məna adlandırmaq olar ki, o da, kateqoriyal məna qismində çıxış edir. Bunu, öz növbəsində, kateqoriyal - söz yaradıcılığı adlandırmaq da olar. Struktur-leksik məna və kateqoriyal söz yaradıcılığı arasında adətən keçid məna sırası olur. Məna kateqorialara yaxınlaşır, bir qədər mücərrəd, bir qədər isə konkret məna formalaşır.

Azerbaijani literary language: word formation and phonetics, structure of the meaning of lexical and morphological word formation (based on materials of the XIII-XVI centuries

Summary

Word creation, while creating the structure of the word, also determines the lexical meaning of the word. The lexical-structural meaning expressed by two components, the formant and the motivator, can be called lexical-structural meaning, which, in turn, falls under the category of categorical meaning. This, in turn, can be called categorical word creation. There is usually a transition in meaning between structural-lexical meaning and categorical word creation. Meaning approaches categories, becoming somewhat abstract and somewhat concrete.

Research shows that word historical development changes both formally and semantically. The semantic structure of the first word becomes terminal, and the binary semantics of the word, created later, is understood as its binary meaning feature. Current studies also suggest that when we talk about word creation, the formation of new words is aimed at the internal and external changes in the structure of words in the language's vocabulary.

Азербайджанский литературный язык: словообразование и фонетика, структура значения лексического и морфологического словообразования (на материалах XIII-XVI веков)

Резюме

Высокая или низкая продуктивность словообразовательных формантов измеряется их способностью в современную эпоху создавать меньше или больше слов, способностью добавлять к различному содержанию слова, способностью создавать различные смысловые оттенки». Обилие «арабо-персидских» слов в языке письменных памятников свидетельствует о том, что многие сложные слова, происходящие из этих языков, не выполняли функцию самостоятельных слов, а выполняли функцию морфологических показателей (формантов). Например, -*заде, -дар, -баз, -кеш, -дан, -кар* и т. д.

Необходимые морфологические показатели при создании новых слов в основном сохранили свои следы, сохранили свое значение и не утратили своего значения в выбранный период. Большинство обнаруженных сегодня формантов современного азербайджанского языка сохраняют свою актуальность и жизнеспособность. Сравнение приведенных нами случаев показывает, что деятельность словообразовательных средств пронизывает исторические эпохи. Другими словами, историческое развитие сделало эти инструменты более динамичными и активными.

RƏYÇİ: dos. S.Abbasova

Lamiə Əliyeva [42]

İNGİLİS DİLİNDƏ "IF" BAĞLAYICILI ŞƏRT BUDAQ CÜMLƏLƏRİNİN QRAMMATİK İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Məlumdur ki, insanlararası ünsiyyətin yaranması prosesi mürəkkəb sintaktik bütövlərin dildə qrammatik və kommunikativ cəhətdən aktual üzvlənməsi ilə baş verir. Burada əsas fikri çatdırmaq istəyən şəxsin praqmatik olaraq intensiyası, hansı məlumatı dominant olaraq resipientə ötürməsi önəm daşıyır. Danışan şəxsin məqsədi seçiləcək cümləni semantik və struktur cəhətdən formalaşdırır. Alt strukturda formalaşmış cümlə üst strukturda morfofonemik olaraq səslənməklə ünsiyyət vasitəsinə çevrilir. Dil işarələrinin məzmunu praqmatik olaraq kontekstdə açılmaqla dinləyicini ünsiyyətə təhrik edir. Hər bir cümlə quruluşundan və ifadə etdiyi məzmundan asılı olmayaraq xəbər yükü daşıyır, predikativlik ifadə edir. K.Abdullayev Benvenistə istinadən yazır: *"Cümlənin predikativliyi ilə müqayisədə onun digər əlamətləri kölgədə qalır"* [1, s. 47]. Məsələn, ingilis dilində şərt budaq cümləli tabeli mürəkkəb cümlələr (the Conditional clauses) həm quruluş, həm işlənmə diapozonuna görə dildə xüsusi olaraq diqqəti cəlb edir. İngilis dilində "if" bağlayıcısı ilə mübtəda, xəbər, tamamlıq budaq cümlələri də təqdim olunur. Lakin onların işlənmə məxrəci dar xarakterli olduğu halda, şərt budaq cümləsində bu özünü geniş şəkildə göstərir. Çünki ingilis dilində şərt budaq cümləsinin bir neçə növü işlədilməkdədir.

Şərt budaq cümləsi mürəkkəb sintaktik bütöv kimi, yaranmış fikri mürəkkəb ortamlarda izah edir. Belə ki, budaq cümlə baş cümlədəki hərəkətin icrasını müəyyən şərtə bağlayır. Qeyd olunan şərtin reallığa münasibəti cəhətdən şərt budaq cümlələrinin müxtəlif növləri təsnif olunmuşdur. M.Svon, R.A.Klouz, R.Quirk, S.Qrinbaum və başqa alimlər ingilis dilində baş cümlədə icra olunacaq hərəkətin hansı şərtlər daxilində yerinə yetirilməsi, o şərtlərin məzmunu, reallığa münasibəti cəhətdən şərt budaq cümləsinin fərqli növlərini təsnif etmişlər.

İngilis dilində "if" bağlayıcısı ilə təqdim olunan şərt budaq cümlələrinin ifadə məzmunu, icra olunacaq hərəkətin nəzərdə tutulmuş şərtin reallığı və ya qeyri-reallığı nə dərəcədə əks etdirməsi cəhətdən aşağıdakı növləri qeyd olunur:

1. Sıfır morfemlə ifadə olunan və ya neytral şərt budaq cümləsi– Zero or Neutral Conditional clause;
2. Real şərt budaq cümləsi– Real Conditional clause;
3. Qeyri-real şərt budaq cümləsi - Unreal Conditional clause;
4. Problemli şərt budaq cümləsi – Problematic Conditional clause;
5. Qarışıq tip şərt budaq cümləsi – Mixed Type of Conditional clause [9, s. 141].

Şərt budaq cümləli tabeli mürəkkəb cümlə iki hissədən – baş cümlədən *(the principal clause)* və baş cümlədə icra olunacaq hərəkətin icrasını müəyyən şərtə bağlayan budaq cümlədən *(the subordinate clause)* ibarətdir. Mürəkkəb cümlənin tarixən inkişafı insan təfəkküründün daha sonrakı dönəmlərinə aid olub insanların çoxşaxəli, mürəkkəb hərəkətləri dil vasitələri ilə ifadə etmə ehtiyaclarından qaynaqlanmışdır. Bununla bağlı Q.Ş.Kazımov belə yazır: *" Mürəkkəb cümlə iki və daha artıq sadə cümlənin məna və qrammatik cəhətdən birləşməsi nəticəsində əmələ gələn sintaktik vahiddir"* [3, s. 280]. İnsan təfəkkürü əvvəlcə obyektiv aləmin sadə hadisələrini qavrayaraq sadə cümlələr vasitəsilə ifadə etmişdir. Daim dəyişən, inkişaf edən insan təfəkkürü təkamülün sonrakı irəliləyən zamanlarında daha mürəkkəb hərəkətləri zamana, səbəbə, tərzə, şərtə görə ifadə etməyə başlamışdır. Beləliklə, budaq cümlənin müxtəlif növləri əmələ gəlmişdir ki, bunlardan biri də şərt budaq cümləsidir.

Qeyd olunduğu kimi, şərt budaq cümləsi baş cümlənin xəbərinin icra edəcəyi hərəkəti müəyyən şərtə bağlayır. Şərt budaq cümləli tabeli mürəkkəb cümlənin tərəfləri arasındakı məna və qrammatik əlaqələr fikrin formalaşması və ifadə məzmunun reallaşması üçün vacib olan sintaktik konstruksiyalardır. Cümlədə hərəkətin icrasında aparıcı mövqe baş cümləyə aid olsa da, icra olunacaq hərəkətin hansı şərtlər daxilində yerinə yetirilməsi budaq cümləyə aiddir. Azərbaycan dilindən fərqli olaraq ingilis dilində baş və budaq cümlənin yeri sabit deyildir. Onlardan hər hansı biri həm əvvəldə, həm də ikinci planda işlənə bilər. *"Cümlənin istənilən üzvü cümlədə birinci və ya ikinci yerdə görünə bilər"* [2, s. 112]. Məsələn, *If I meet him, I'll tell him about our meeting – Onunla görüşsəm, iclas haqqında ona deyəcəyəm. I'll tell him about our meeting if I meet him.*

Cümlənin ikinci variantında baş və budaq cümlələrin yeri ingilis dilində dəyişsə də, bu cümlənin mənasına xələl gətirmir, lakin Azərbaycan dilində cümlənin məzmunu dil normasına uyğun gəlmir – *Ona iclas haqqında deyəcəyəm onu görsəm* modeli üslubi cəhətdən dilimizə yad görünür.

Bəzən şərt budaq cümləsi baş cümlədən vergüllə ayrılır. Vergül işarəsinin işlədilməsində diqqətli olmaq lazımdır. Çünki ingilis və Azərbaycan dillərində şərt budaq cümləli tabeli mürəkkəb cümlələrdə vergüllərin qoyulması qaydaları fərqlidir. Əgər Azərbaycan dilində adət etdiyimiz kimi cümlənin bir hissəsi digərindən həmişə vergüllə ayrılırsa, ingilis dilində aşağıdakı qaydalara rayət olunmalıdır:

- əgər tabeli mürəkkəb cümlə şərt budaq cümləsi ilə başlayırsa, vergül istifadə olunur;
- tabeli mürəkkəb cümlə baş cümlə ilə başlayanda vergüldən istifadə edilmir. Məsələn, *If he accepts our invitation, we shall go to the party together – Əgər o, dəvətimizi qəbul etsə, məclisə birlikdə gedəcəyik. We shall solve the problem if time allows – Zaman imkan verərsə, biz məsələni birlikdə həll edəcəyik.*

Cədvəl 1. İngilis dilində"if" bağlayıcısının işləndiyi şərt budaq cümlələrinin növləri:

№	Cümlə növü	Vəziyyət	Nəticə	Nə vaxt istifadə etməli

[42] Azərbaycan Dillər Universiteti, doktorant Azərbaycan Dövlət Pedaqoji Universiteti, müəllim qocayeva.lamiye@mail.ru

1	Zero Conditional	If + Present Simple	Present Simple	**Daimi faktlar:** If the sun goes down, it gets dark.
2	First Conditional	If + Present Simple	Future Simple	**Gələcəkdə mümkün vəziyyət:** If Tim doesn't hurry up, he will miss the flight.
3	Second Conditional	If + Past Simple	Present Subjunctive Mood – should/would +Infinitive	**Gələcəkdə və ya indiki qeyri-real vəziyyət:** If Nelly were more supportive, we would become best friends.
4	Third Conditional	If + Past Perfect	Should/would + have + V3	**Keçmişdəki qeyri-real vəziyyət:** If you had studied harder, you would have passed the exam.
5	Mixed Conditional	If + Past Simple	Should/would + have + V3	**Keçmişdəki qeyri-real bir vəziyyət, indiki zaman üçün etibarlı bir şərt:** If I were clever enough, I would't have done this.
		If + Past Perfect	Present Subjunctive Mood Should/would + Indefinite Infinitive	**Keçmişə aid şərtlə indiki və ya gələcəyə aid qeyri-real vəziyyət və ya əksinə:** If I had studied harder at college, I would earn more money now. If he were not talented he wouldn't have written such interesting stories.

1) Zero Type of Conditional clause – Neytral tip şərt budaq cümləsi. Bu tip şərt budaq cümlələri bu növdən olan cümlələrin ən sadə modeli hesab olunur. Bu cür cümlələrdə hər zaman baş verən və ya hamıya məlum olan ümumbəşəri hadisələr, adət, vərdiş halını almış hərəkətlər ifadə olunur, məsələn, elmi həqiqətlər, təbiət hadisələri, faktlar, aksiomalar, həmçinin tövsiyələr və ya məsləhətlər bu tip şərt budaq cümləsi ilə ifadə oluna bilir. Onlar real, gerçək faktları ifadə edirlər. Bir qayda olaraq, cümlənin hər iki hissəsində indiki zamanın qeyri-müəyyən formasından istifadə edilir (lakin istisnalar da var). Cümlənin budaq cümlə işlənən hissəsində *if* və *when* (və ya hətta *every time*) bağlayıcılarından istifadə etmək olar ki, bu zaman cümlənin məna məzmunu dəyişmir [5, s. 98]:

- ***If (when) + Present Simple + Present Simple***

When (if / every time) the sun goes down, it gets dark – Hər nə vaxt gün batarsa (batanda), hava qaranlıqlaşır. If (when / every time) I wake up too early, I feel awful – Əgər(hər dəfə) yuxudan erkən oyanaramsa, özümü çox pis hiss edirəm.

Əgər budaq cümlədəki hərəkət davamlı prosesi bildirərsə, o zaman bu cümlədə indiki davamedici zaman forması, nəticə ifadə edən hərəkəti bildirərsə, indiki bitmiş zaman forması işlədilir. Məsələn:

- ***If (when) + Present Continuous + Present Simple***

If you're running a marathon, you need to drink plenty of water – Marafonda qaçırsansa, xeyli su içməyə ehtiyacın olur .

- ***If (when) + Present Perfect + Present Simple***

If I have heard an alarm clock, I know it's time to get up – Zəngli saatın səsini eşitmiş olsam, bilirəm ki, yataqdan qalxmağın vaxtıdır.

Neytral tip şərt budaq cümləsinin baş cümləsində modal feillər işlədilə bilər: should, must, can, may və s. Eyni zamanda, baş cümlə əmr cümləsi modelində ola bilər:

- ***If (when) + Present Simple / Continuous / Perfect + Imperative Mood / Modal Verb***

If you're running a marathon, you should drink plenty of water – Əgər marafonda qaçırsansa, sən gərək çoxlu su içəsən. If you're running a marathon, drink plenty of water – Marafonda qaçırsansa, çoxlu su iç.

Beləliklə, neytral tip şərt budaq cümləsinə xas olan əsas əlamət odur ki, bu tabeli mürəkkəb cümlədə baş və budaq cümlələr real fakta, elmi həqiqətə istinad olunaraq işləndiklərinə görə hər iki cümlədə indiki sadə zaman forması işlədilir [6, s. 274].

2) First Type of Conditional clause – Birinci növ şərt budaq cümləsi. Bu növ şərt budaq cümləsi gələcəkdə icra olunacaq hərəkətin şərtini bildirir. Gələcəyə aid olan hərəkət baş cümlə ilə ifadə olunur və hər zaman gələcək zaman formasında işlədilir. Şərt budaq cümləsində isə indiki qeyri-müəyyən zaman forması işlədilir. Bu növ tabeli mürəkkəb cümlədə real hərəkətlər ifadə olunur, baş və budaq cümlələrin bildirdiyi hərəkət gələcək zamana aid olsa da, dilin daxili qrammatik norması pozulmasın deyə, gələcək zaman forması yalnız baş cümlədə işlədilir [4, s.132]:

- ***If + Present Simple + Future Simple***

If Tom doesn't hurry up, he will miss the flight – Əgər Tom tələsməsə, uçuşa gecikəcək.

İngilis dilində baş və budaq cümlələrin işlənmə yeri sərbəst olduğuna görə verilmiş cümləni bu variantda da ifadə etmək olar: *Tom will miss the flight if he doesn't hurry up.*

Şərt budaq cümləsinin bu növündə *if* bağlayıcısını *when* bağlayıcısı əvəz etdikdə şərt budaq cümləsini zaman budaq cümləsi əvəz etmiş olur. Bu zaman cümlənin quruluşunda heç bir dəyişiklik olmasa da, məzmununda dəyişiklik baş verir.

Belə ki, zaman budaq cümləsi hərəkətin gələcəkdə baş vermə ehtimalını daha da qətiləşdirir. Məsələn, nümunələrə müraciət edək:

- ***When + Present Simple + Future Simple***

If I see Ann, I will show her my new business plan – Annanı görsəm, yeni iş planımı ona göstərəcəyəm. When I see Ann, I will show her my new business plan – Annanı görəndə yeni iş planımı ona göstərəcəyəm.

Neytral şərt budaq cümləsində olduğu kimi, birinci növ şərt budaq cümləsində indiki davamedici zaman forması işlədilə bilər:

- ***If + Present Continuous + Future Simple***

If my father is sleeping, I will not wake him up – Əgər atam yatırsa, mən onu yuxudan ayıltmayacağam.

Birinci növ şərt budaq cümləsinin baş cümləsində modal feillər, əmr cümləsi işlədilə bilər və bütün cümlə modelləri hərəkəti gələcəyə aid edir:

- ***If + Present Simple / Continuous + Modal Verb & Infinitive***
- ***If + Present Simple / Continuous + Imperative Mood***

If you see Ann, you should show her your business plan – Annanı görsən gərək ona iş planını göstərəsən. If you see Ann, show her your business plan – Annanı görsən, iş planını ona göstər. If your father is sleeping, you must not wake him up – Əgər atan yatırsa, sən onu oyatmamalısan. If your father is sleeping, don't wake him up – Əgər atan yatırsa, onu oyatma.

3) Second Type of Conditional Clause – İkinci növ şərt budaq cümləsi. Şərt budaq cümləsinin bu növü danışıq anında real olmayan, lakin danışan şəxs tərəfindən arzu edilən hərəkətləri bildirmək üçün işlədilir. Arzu olunan hərəkət indiki və ya gələcək zamana aid olsa da, feil forması budaq cümlədə keçmiş qeyri-müəyyən zaman formasında, baş cümlədə isə keçmişə nəzərən gələcək qeyri-müəyyən zaman formasında olmaqla *should/would* köməkçi feilləri və əsas məna daşıyan feilin indiki qeyri-müəyyən və ya davamedici zaman formalarında olan məsdəri ilə ifadə olunur [8, s. 273]. Şərt budaq cümləsinin bu növü hərəkətin icrasının yalnız arzulandığını bildirdiyinə və hərəkəti indiyə və gələcəyə aid etdiyinə görə ingilis dilində *the Unreal Conditional Clause – qeyri-real şərt budaq cümləsi* adlanır. Bu tip cümlələr ingilis dilində arzu şəklinə aid olunaraq öyrənilir. İngilis dilində arzu şəkli *the Subjunctive Mood* adlanır. Hərəkət indiki və gələcək zamana aid olduğundan və həyata keçib reallaşma faktı bir arzu olduğundan bu tip cümlələr *Subjunctive I* termini adı altında tədqiq olunur. Məsələn,

- ***If + Past Simple + Subjunctive Mood I***

If I lived in Barcelona, I would have a good time almost all year long – Barselonada yaşasaydım, il boyu vaxtımı yaxşı keçirərdim. If Natalie were more attentive, we would become best friends – Natali daha diqqətli olsaydı, biz yaxşı dost olardıq.

Nümunələr göstərir ki, burada danışan şəxs tərəfindən hərəkətlər arzulanır, onlar real olaraq hazırda yerinə yetirilmir. Bu tip şərt budaq cümləsinin dildə ən çox işlədilən forması *If I were you (in your place)* modelində olan budaq cümlələrdir. Bu növ şərt budaq cümləsi dilimizə *" Sənin yerində olsaydım"* kimi tərcümə olunur. Məsələn,

- ***If I were you + I should/would***

If I were you, I would travel more – Sənin yerində olsaydım, çox səyahət edərdim. If I were in your place I should learn some foreign languages – Sənin yerində olsaydım, bir neçə xarici dil öyrənərdim

Bəzən cümlədə *if* bağlayıcısı atılır və köməkçi feil cümlədə önə keçməklə qrammatik inversiya yaranır. Bu, cümlənin məna gücünü, ifadəliliyini daha da artırır. Məsələn, *Were he alive everything would be quite different now – O, sağ olsaydı hər şey tamam başqa cür olardı.*

Şərt budaq cümləsinin bu növündə baş cümlədə modal feillər işlədilməklə arzulanan qeyri-reai hərəkətlərə münasibəti ifadə edirlər:

- ***If + Past Simple + Modal Verb & Infinitive***

If you were more organized, you could earn more money – Sən məsuliyyətli olsaydın, daha çox pul qazanardın. If she heard these words, she might be satisfied – O, bu sözləri eşitsəydi, yəqin ki, məmnun qalardı.

4) Third type of Conditional Clause – Üçüncü növ şərt budaq cümləsi. Şərt budaq cümləsinin üçüncü növü arzulanan hərəkəti keçmiş zamana aid edir. Baş və budaq cümlələrdə ifadə olunan hərəkət artıq keçmiş zamanla bağlı olduğundan onun gerçəkləşməsi qeyri-mümkündür. Bu cür cümlələrdə əldən verilmiş fürsətə görə danışan şəxs peşmançılıq hissini ifadə edir.

Struktur olaraq üçüncü növ şərt budaq cümləsi bu tip cümlələrin bütün növlərinin ən mürəkkəbidir. Çünki qeyri-real şərt budaq cümləsində feilin keçmiş bitmiş zaman forması, baş cümlədə isə should/would analitik formaları və məsdərin bitmiş və ya bitib davamedən forması işlədilməklə arzu olunan hərəkətin bir daha reallaşmayacağını ifadə edirlər [7, s. 105]. Məsələn,

- ***If + Past Perfect + would + have + V3***

You would have passed the exam if you had studied harder – Sən çox çalışsaydın, imtahandan keçmiş olardın.(Çox çalışmayıb və imtahandan kəsilib). If you had taken the umbrella, the rain wouldn't have spoilt your new dress – Sən çətir götürmüş olsaydın, yağış sənin təzə paltarını korlamazdı.(Çətir götürmədiyindən yağış onun yeni paltarını korlayıb).

Verilmiş cümlə nümunələrində hərəkət keçmiş zamanda arzu olunmayacaq formada icra olunduğundan onların bir daha yenidən arzu olunacaq şəkildə gerçəkləşməsi mümkünsüzdür. Ona görə də, cümlələrdə feillərin keçmiş bitmiş zaman formaları işlədilmişdir.

Şərt budaq cümləsinin bu növündə də *if* bağlayıcısını cümlədə ixtisar edib *had* köməkçi feilini cümlənin əvvəlinə keçirməklə qrammatik inversiya yaratmaq mümkündür ki, bu da, cümlənin təsir gücünü artırır. Məsələn, *Had you studied harder, you would have passed the exam – Gərgin çalışmış olsaydın, imtahandan keçmiş olardın.*

Bəzən cümlənin məzmunundan asılı olaraq baş cümlədə *should/would* köməkçi feilləri əvəzinə *could, should, might, must* modal fellərindən istifadə olunur. Bu modal feillərdən sonra məsdərin keçmiş bitmiş zaman forması işlədilir. Məsələn,

- ***If + Past Perfect + Modal Verb + have + V3***

If you had wanted to pass the exam, you should have studied harder – Əgər istəsəydin ki, imtahandan keçəydin, sən gərək cox çalışaydın. If they had tried in time day and night, they could have won the game – Əgər onlar vaxtında gecə-gündüz çalışmış olsaydılar, oyunu uda bilərdilər.

5) Mixed Conditional Clause – Qarışıq tip şərt budaq cümləsi. Bu növ şərt budaq cümləsində cümlənin məna yükü ilə bağlı heç bir problem yaranmır. Burada diqqəti cəlb edən odur ki, baş cümlə ilə budaq cümlə arasında zaman uyğunsuzluğu vardır. Bu tərs mütənasiblikdən asılı olaraq şərt budaq cümləsinin iki növ qarışıq tipi fərqləndirilir: birinci və ikinci növ qarışıq tip şərt budaq cümlələri.

Birinci növ qarışıq tip şərt budaq cümləsində budaq cümlə hərəkəti keçmişə aid etdiyi halda, baş cümlədə hərəkət indiki zamana aid olur. Bu tip mürəkkəb cümlədə şəkil kateqoriyası belə siralanır:

Budaq cümlədə keçmiş bitmiş zaman (the Past Perfect Subjunctive Mood) + Baş cümlədə indiki zaman şərt şəkli(the Present Conditional). Bu cümlələrdə də hərəkət yalnız arzulanır, reallaşmır.Məsələn,

- ***If + Past Perfect + the Present Conditional Mood***

If I had studied harder at college, I would earn more money now – Kollecdə çox çalışmış olsaydım, indi xeyli pul qazanardım. If you had invited him yesterday, he would be here now – Sən onu dünən dəvət etmiş olsaydın, o, indi burada olardı.

İkinci növ qarışıq tip şərt budaq cümləsi hərəkəti indiki zamana aid edir və budaq cümlədə feilin keçmiş qeyri-müəyyən zaman forması başqa sözlə the Past Subjunctive Mood forması işlədilir. Bu tip cümlədə də zaman uzlaşması pozulduğundan baş cümlədə feilin bitmiş zaman analitik forması işlədilir, başqa sözlə, the Past Conditional forması işlədilir:

- ***If + Past Simple + would + have + V3***

If they were better players, their team would have scored more yesterday – Əgər onlar yaxşı oyunçu olsaydılar, dünən onların komandası daha çox xal qazanmış olardı. If she were absent-minded, she wouldn't have learned such a long poem – Əgər o, huşsuz olsaydı, belə uzun şeiri əzbər öyrənməzdi.

Hərəkətin reallaşmasına mane olan müəyyən problemlərin olması öz əksini problemli hərəkətləri ifadə edən şərt budaq cümləsində tapır. Bu cümlənin özəl xüsusiyyəti odur ki, budaq cümlədə bütün şəxslərdə ya *should* köməkçi feili, ya da feilin ilkin forması heç bir dəyişikliyə uğramadan işlədilir. Problemli hərəkətləri ifadə edən şərt budaq cümləsi *(the Problematic Conditional Clause)* Azərbaycan dilinə *işdir, işdir əgər, hərgah, birdən* və s. bağlayıcıları vasitəsilə tərcümə olunur. Məsələn, *If you see (should see) him, give my best wishes to him – İşdir onu görsən, ona mənim salamlarımı çatdır. If he come (should come), tell him to wait for me – İşdir əgər o, gəlsə, de ki, məni gözləsin.*

Göründüyü kimi, ingilis dilində şərt budaq cümləsinin qrammatik işlənmə xüsusiyyətləri rəngarəngdir. Belə ki, şərt budaq cümləli tabeli mürəkkəb cümlələr hərəkətin icrasını həm real, həm də qeyri-real faktlara bağlamaqla bu budaq cümlə növünün geniş bir sistemini yaradırlar. İngilis dili analitik dil olduğundan onlar dildə analitik söz morfemlər hesabına düzəlir. Lakin Azərbaycan dili fərqli genezisə malik dil olduğundan bu tip şərt budaq cümlələri Azərbaycan dilində şəkilçi morfemlər hesabına düzəlir və çox zaman Azərbaycan dilinə tərcümə zamanı çətinlik yaradır. Bu isə onu qeyd etməyə əsas verir ki, hər bir dildə müxtəlif qrammatik mənalar həmin dilin daxili quruluşuna, tipoloji xüsusiyyətlərinə uyğun olaraq qanunauyğun surətdə formalaşır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev, K.M., Məmmədov, A.Y., Musayev, M.M. və başqaları. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. – Bakı: Mütərcim, - 2012. – 608 s.
2. Hacıyev, E.İ. Müasir ingilis dilində bəzi bağlayıcıların işlənmə xüsusiyyətləri // Xəbərlər, Bakı: ADPU, 2006, №1, s. 111-116.
3. Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Nurlan, 2010, 400 s.
4. Türksevər, Oruc (Musayev). İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007. 608 s.
5. Azar, B.Sch. Understanding and Using English Grammar. Second Edition. Cambridge University Press, 1996. 376 p.
6. Close, R.A. A Reference Grammar for Students of English. Moscow, Prosveshcheniye 1979, 352 p.
7. Greenbaum, S. Oxford English Grammar. Oxford University Press, 1996. 652 p.
8. Quirk, R., Greenbaum, S., Leech, G., Svartvik, J. A Comprehensive Grammar of the English Language. Index by David Crystal. Longman, London and New York 1987. 1779 p.
9. Swan, M. Practical English Usage. Moscow, Vysšaja Škola, 1984. 552 p.

Açar sözlər: baş cümlə, budaq cümlə, tabesizlik bağlayıcıları, tabelilik bağlayıcıları, real şərt budaq cümləsi, qeyri-real şərt budaq cümləsi

Ключевые слова: главное предложение, придаточное предложение, неподчинительные союзы, подчинительные союзы, реальное условное предложение, нереальное условное предложение

Key words: the principal clause, the subordinate clause, coordinating conjunctions, subordinating conjunctions, real conditional clause, unreal conditional clause

Xülasə

Məlumdur ki, bağlayıcılar köməkçi nitq hissəsi kimi cümlədə sözlər və cümlələr arasında əlaqə yaratmağa xidmət edirlər. Onların cümlədəki mövqeyinə və işlənmə xüsusiyyətlərinə görə tabelilik və tabesizlik əlaqəsi yaradan növləri

fərqləndirilir. Tabesiz bağlayıcılar müstəqil, bərabərhüquqlu cümlələr arasında əlaqə yaratdıqları halda, tabelilik bağlayıcıları məna və qrammatik cəhətdən baş cümlədən asılı olan budaq cümləsi baş cümləyə bağlayır. Müasir ingilis dilində budaq cümlənin müxtəlif növləri vardır və hər bir budaq cümlə növü baş cümlənin bir üzvü vəzifəsində işlədilir. Belə budaq cümlələrdən biri də, şərt budaq cümləsidir. Təqdim olunan məqalədə "if" bağlayıcılı şərt budaq cümlələri, onların növləri, işlənmə xüsusiyyətləri və Azərbaycan dilində qarşılığı haqqında məlumat verilmiş, qeyd olunan nəzəri fikirlər cümlə nümunələri üzərində izah olunmuş və onlara müstəqil fikir bildirilmişdir.

О грамматической особенности условных придаточных предложений с союзом «if» в английском языке

Резюме

Известно, что союзы служат для создания связи между словами и предложениями в предложении как вспомогательная часть речи. В зависимости от их положения в предложении и особенностей обработки выделяют типы, создающие отношения подчинения и подчинения. В то время как неподчинительные союзы создают связь между независимыми, равными предложениями, подчинительные союзы соединяют с главным предложением ветвящиеся предложения, которые семантически и грамматически зависят от главного предложения.

В современном английском языке существуют различные типы придаточной предложений, и каждый тип предложения используется в качестве члена главного предложения. Одним из таких предложений является условное предложение. В представленной статье дается информация об условных ветвящихся предложениях с союзом if, их видах, особенностях развития и их эквивалентах на азербайджанском языке, на примерах предложений поясняются упомянутые теоретические идеи, а также выражается независимое мнение.

Grammatical features of processing conditional clauses with conjunction "if" in english

Summary

It is known that conjunctions serve to create connections between words and clauses in a sentence as a structural part of speech. Depending on their position in the sentence and the processing characteristics, types are distinguished that create relationships of coordination and subordination. While non-subordinating conjunctions create connections between independent, equal clauses, subordinating conjunctions connect subordinate clauses to the principal clause that are semantically and grammatically dependent on the main clause.

There are different types of subordinate clauses in Modern English, and each type of sentence is used as a member of a main clause. One such sentence is a conditional subordinate clause. The presented article provides information about the conditional clause with the conjunction "if", their types, development features and their equivalents in the Azerbaijani language, the mentioned theoretical ideas are explained using example sentences, and an independent opinion is expressed to them.

RƏYÇİ: dos. L.Ələkbərova

Gülgün Şükür qızı Əliyeva [43]

Y. BALASAQUNLUNUN "QUTADĞU BİLİG" ƏSƏRİNƏ NƏZƏR

Türk xalqları ədəbiyyatının "Şahnamə"si kimi tanınan Y.Balasaqunlunun "Qutadğu-bilig" əsəri fikir, düşüncə, ədalət tarixinin zənginləşdirən ən qiymətli mənəviyyat abidələrindən biridir. Türk xalqları arasında meydana gələn ən məşhur kitablar Mahmud Kaşğarinin "Divanü-lüğat-ü-Türk", Yusif Xas Hacibin "Qutadğu bilig", Əhməd Yüknəkinin "Atabətül-həqayiq" və Xoca Əhməd Yəsəvinin "Divani - hikmət" əsərləridir.

Böyük türk şairi Yusif Xas Hacibin "Qutadğu bilig" poeması özünəməxsus bir yer tutur. Orta türk dövrünün ilk böyük mənzum əsəri olan "Qutadğu bilig", əhətə etdiyi məsələlər, qarşıya qoyduğu və həll etməyə çalışdığı problemlər baxımından çox aktualdır. Çünki o, yer üzündə həyatın var oluşundan bəri insanları düşündürən əbədi və əzəli bir suala cavab tapmağa çalışır: xoşbəxtlik nədir və onu əldə etməyin yolları hansılardır?

"Qutadğu bilig" insan və xoşbəxtlik haqqında elmdir. Bu mənada poemanın müəllifi Yusif Xas Hacib dünya ədəbiyyatı tarixində humanizmin əsasını qoyan ilk sahiblərindən, əsər isə bu problemə həsr olunmuş ilk bədii əsərlərdən biridir. Bu poema həm öz zamanında, həm də sonrakı dövrlərdə məşhur əsər olmuş, insanları xoşbəxtliyə çatmasının yollarını göstərmişdir. Əsər çox şöhrət qazanmış, sorağı dünyaya səs salmışdır. Çin, Maçin, İran, Turan ellərində məşhur olan bu əsəri müxtəlif adlarla adlandırmışlar: çinlilər "Mülkün ədəbi", maçinlilər "Məmləkətin aynası", şərqlilər "Əmirlərin zinəti", iranlılar "Türkün Şahnaməsi", türklər isə "Xoşbəxtliyə aparan elm" yani "Qutadğu-biliğ" deyirdilər. Şair özü bu barədə yazır:

Maçin alimləri, Çin həkimləri,
Onun heyranıdır haçandan bəri.
Dolaş Türküstanı, Məşriqi çox-çox,
Cahanda bu qədər ülvi kitab yox [2, 16].

Hacib bu əsəri türkcədə yazmış və belə bir əsərin türklərə məxsus olması ilə öyünmüşdür. Poema türk ruhu ilə bəslənmiş, və əsas ideyanın özü də türk ideyasıdır. Qutlu olmaq, yəni bilik vasitə ilə xoşbəxtlik tapmaqdan söhbət açılır. Əsərdə bütün qəhrəmanlar türklərdir. "Qutadğu bilig" eyni zamanda insanı mənəvi kamilliyə, əməyə səsləyən, ona elm və bilik öyrədən, dəyərli məsləhətlər, ağıllı tövsiyyələr, ibrətli öyüdlər, təcrübi nəsihətlər verən çox faydalı bir didaktik əsərdir.

Azərbaycan ədəbiyyatşunaslığında bu əsəri tam və hərtərəfli şəkildə tədqiq edən Ramiz Əskər qeyd edir ki, Yusif Balasaqunlunun həyatı barədə məlumatlar yalnız "Qutadğu bilig" əsərindən əldə etmək olar. Poemaya biri nəsrlə, digəri nəzimlə yazılmış iki müqəddimədə və kitabın axırıncı üç babında müəllif haqqında kiçicik eyhamlar mövcuddur [6, 23].

Qeyd edək ki, Yusif Xas Hacibin, Buğra Xanın, Balasaqun və Kaşqar şəhərlərinin adları da ilk dəfə poemanın mənsur müqəddiməsində göstərilir. Poemanın yazarı Yusif Balasaqunlu öz doğma şəhərindən Qaraxanilər dövlətinin mərkəzi Kaşğara gəlir, və yazısını hökmdar Tabqaç Buğra xana təqdim edir. Hökmdar əsər ilə tanış olandan sonra onu sarayın Xas adamı bilib hacib təyin edir. Yusif Balasaqunlu çox gözəl təhsil almış, o zaman bilinən bütün elmləri dərindən öyrənmiş, həyatın incəliklərini mənimsəmişdir. O, ərəb, fars dillərini sərbəst bilir, Fərabinin, İbn Sinanın, Biruninin, antik yunan, hind və Çin yazarlarının əsərləri ilə tanış olmuşdur. Əsərin orijinalı əldə yoxdur, ancaq köçürülmüş üç əlyazma nüsxəsi elm aləminə mövcuddur: Vyana (Herat), Qahirə və Fərqanə (Nəmənqan) nüsxələridir. Kitabın dili xan dili Kaşqar-Xaqaniyyə şivəsi ilə yazılmışdır. Poemanın adı bir çox fikirlər irəli sürür. Müəllif özü də, bu adı nədən seçdiyini belə söyləyir:

Kitaba "Qutadğu bilig" adını verdim,
Oxuyanı uğurlasın, əlindən tutsun.
Sözümü söylədim, kitabı yazdım,
Bu kitab uzanıb hər iki dünyanı tutan əldir.
İnsan hər iki dünyanı ağılla tutsa,
Xoşbəxt olar, bu sözüm gərçəkdir [6, 47].

Bu misralardan aydın olur ki, müəllifin istəyi insanları qutlu etmək, hər iki dünyada xoşbəxt görmək, uğur tapmağın yollarını anlatmaqdır. Y.Balasaqunlu poemasında xalq hikmətlərindən yerində istifadə etmiş və əxlaqi-didaktik bir əsər yaratmışdır. Əsər siyasi, fəlsəfi, hüquqi, dini, etik və s. düşüncələr ilə zəngindir. Bu əziz kitab dörd ulu və ağır təməl üstündə bina tutmuşdur. Birincidi ədalət, ikincisi dövlət, üçüncüsü ağıl, dördüncüsü isə qənaətdir. Müəllif bunların hərəsinə türkcə birər ad vermişdilər. Ədalətə Gündoğdu Elik adını verərək, onu padşah mərtəbəsinə tutmuşdur. Dövlətə Aydoldu adını verib, vəzir məqamına qoymuşdur. Ağıllı Öyüdülmüş adlandırıb vəzirin oğlu və qənaətə Odqurmuş adını verib, vəzirin qardaşı hesab etmişdir [6, 15]."Qutadğu biliğ" Tanrıya dua ilə başlayır. Sonra peyğəmbərin və ilk dörd xəlifənin mədhi, sonra da yaz fəslinin təsviri və Buğra xanın tərifi gəlir. Ardınca yeddi ulduz, on iki bürc və elm, bilik və dildən danışılır. Ondan sonra ənənəyə uyğun olaraq "şövkətli, zəfərli, mədədli, həqiqət və din dayağı" Tabqaç Ulu Buğra Qara Xanın mədh olunması, onun dövlətin dayağı, millətin tacı olması vurğulanır. Şair dövlətin rəmzi saydığı Gündoğdunu təqdim edərkən onun əməli saleh, dürüst, ağıllı, savadlı, düşmənə amansız, doğru siyasət yeridən el başçısı olduğunu göstərir. Bu keyfiyyətlərə görə Tanrı ona hökmdarlıq və var-dövlət qismət etmişdir. Əgər bu xoşbəxtliyi Tanrı ona qismət edibsə, o da xalqa qarşı mərhəmətli və xoşrəftar olmalıdır:

[43] Filologiya üzrə fəlsəfə doktoru, dosent Bakı Dövlət Universiteti, Türkologiya kafedrası

Kimin ki, başından aşır dövləti,
O gərək yürütsün xalq siyasəti [2, 53].

Əsərdə Gündoğdu ədalətli hökmdar kimi hər yerə səs salır. Sarayda yaşayan Küsəmişin köməyilə Xas Hacibin yanına Aydoldu adında biri gəlir. O, hökmdarın yanında qalıb ona bütün qəlbi, əzmi ilə xidmət etmək niyyətində olduğunu bildirir. Aydoldu ilə söhbətdən razı qalan hökmdar onu özünə vəzir təyin edir. Aydoldu öz biliyi ilə uzun müddət sarayda yaşamış, hökmdara xidmət etmiş və sonra onun razılığı ilə vətənə qayıdır. Əsərdə olan qəhrəmanlar arasında dövlət və cəmiyyət quruculuğunun fərqli problemlərinə aid söhbətlər, fikirlər söylənilir. Gündoğdu ağıllı məsləhətləri dinləyir və düzgün qərarlar alır.

Şairin saray təcrübəsindən aldığı qənaətə görə, dövlət sirlərini yalnız iki adam bilir: vəzir və katib. Katibin gözəl xətti və yazı üslubu olmalıdır, çünki, o başqa dövlətlərlə yazışmalar aparır. Katibin köməkçisi alimlərdir. Hər kimsə olursa olsun, dost və ya düşmənə məktub yazmaq gərəkirsə və yazmaqda çətinlik varsa alimin köməyindən, onun biliyindən istifadə etmək gərəyi duyulur:
Üç mərdə güvənib bizim Elbəyi,
Təzələr aləmi, gülər diləyi.
Elm ilə aparar siyasətini,
Əql ilə göstərər məharətini
Qılınc fəth eyləyər özgə ölkəni,
Qələm kəşf eyləyər qızıl mədəni [2, 178].

Şair məsnəvidə bir çox vəzifələrdən söz açır, hər vəzifənin də öz tələbatını, qayda-qanunlarını göstərir. Vəzifəyə seçilmək əsas şərt deyil, əsas olan vəzifədə qalmaq və yüksəlmək, saraydakı çəkişmələrdən uzaq olmaq, dövlət başçısının gözündən düşməməkdir. Saray çox mürəkkəb və ziddiyyətli yerdir, hər adam orada baş çıxara bilməz. Ağıllı və qabiliyyətli adamların çox zaman saray çəkişmələrinin qurbanı olduğunu, işdən çıxarıldığını, həbs olunduğunu, hətta öldürüldüyünü tarixi qaynaqlardan görə bilirik. Sarayda hamı mehriban, ədalətli olmur, paxıl, qərəzli, xəbərçi, ağla gəlməyən bir səbəb tapıb kiminsə evini yıxan adamlar da sarayda həmişə olub. Hacib saray adamlarını yaxşı tanıdığından bu məsələyə də münasibətini bildirib. Sarayda vəzifə tutan adamın bir qulağı kar, bir gözü kor olmalıdır. Hacib özü nə qədər ehtiyatla davransa da saray bədxahlarının tələsinə düşdüyünü etiraf edir:
Çox bəlaya saldı öz dilim məni,
Başım kəsilməmiş kəsin dilimi [2, 33].

Əsərin baş qəhrəmanı hökmdar Gündoğdudur. Bu qəhrəmanın adı simvolikdir yani "doğan günəş" mənasındadır. Müəllifin fikrincə, günəş yer üzünü necə aydınladır, isidir, bütün canlılara həyat verir, ölkədəki insanlar da hökmdardan nur alırlar. Poemanın hökmdarı ölkədə qanunun, ədalətin keşiyində durur və hər işi uğurla nəticələnir. Qədim türklər günəşi və ayı müqəddəs hesab edirdilər. Bu barədə "Oğuz" dastanında da məlumat vardır. Oğuz xaqanın iki oğlunun adları Gün xan və Ay xan idi. Bu mənada Gündoğdu qədim türk inamlarının davamı kimi də qəbul etmək olar. Gündoğdu ədalətli hökmdardır, onun ölkəsində nizam və qanun hökm sürür, xalqı xoşbəxtdir. Onun hökmü hamıya qarşı eyni dərəcədədir. Günəş sabit olaraq yer üzünə eyni səviyyədə işıq saçır, hökmdarın da qanunu hamıya qarşı eynidir:
İşdə hökmüm qəti, ədalətim çox,
Bəymidir, qulmudur, mənə dəxli yox.
Mən də Günəş kimi yox olmam, varam,
Hamıya eyni cür işıq saçaram [2, 69].

Y.Balasağunlu əsərində ideal vəzir obrazını Oğdülmüşün timsalında davam edir. Vəzir Aydoldu oğlu Öğdülmüşə nəsihət verərək Gündoğdu kimi ədalətli olmağı tövsiyyə edir. Xüsusən, dövlət işlərində ədalətli olmaq birinci şərtdir:
Dünyaya hökmran olmaq istəsən,
Haqqı, ədaləti əldən vermə sən [2, 122].

Sonra Öğdülmüş atasının yerinə keçir və onun işlərini üzərinə alır. Ata ilə oğul arasında bəzi fərqlər var. Öğdülmüş qutu deyil biliyi təmsil edir. Qutla bilik bir-birini tamamlayır və qut bilik sayəsində qutadğu səviyyəsinə yüksəlir. Öğdülmüşün adı da maraqlıdır. "Oğ" qədim türkcə ağıl, zəka, "öğə" isə ağıllı, zəkalı deməkdir [1, 352-355].

Əsərdə əsas mövzulardan biri bilikdir. Müəllif bilik ilə ağlı ayıraraq göstərir ki, biliyə ağıl əlavə olmazsa, o biliyın əhəmiyyəti olmaz. Bilik olsa, ağıl olmazsa, o bilik insana fayda verməz. Y.Balasağunlu biliyə əxlaqi dəyər verir və bunları söyləyir: "Bilği və ağıl insan üçün bir əyləcdir, əyləci olan pis işlərə yönəlməz". Sənətkar biliyin zəhmətlə əldə edildiyini söyləyir. Və hər bir insan uşaqlıqdan biliyə yiyəyənməlidir ki, öz ağlı və zəkası ilə irəli getməyi əldə edə bilsin. Yusif biliyin insanı heyvandan ayıran bir cəhətdir deyərək yazır: "Ya bilgi al, insan ol, özünü yüksəlt, ya da heyvan adını al insanlardan uzaqlaş".

Əsərdə həm də ordudan söz açılır. Ölkənin qüdrəti vəzirin və ordunun əlindədir. Hacib bu fikri əsərində tez-tez vurğulayır:
Ögdülmüş söylədi – Xoşbəxt Elbaşı,
Bu iki sənəti duy yaxşı-yaxşı
Sərkərdə - bir aləm, vəzir - bir aləm,
Biri qılınc tutur, o biri qələm.
Xalqın cilovunu iki əl tutur,

İkisi bir olsa, nur üstünə nur! [2, 161]

Ölkənin rifahı və sabitliyi üçün ordunun qüdrəti əsas şərtdir. Hacib əsərində bunu diqqətə çəkmişdir. Burada ordunun təşkili, ordu başçısının mübarizliyi və qorxmazlığı onun da düzgün siyasətlə idarə olunduğunu göstərir. Ordu başçısı düşmənə qarşı amansız, xalqına qarşı fədakar olmalı, bütün hiylələri bilən, hər cür vəziyyətdən baş çıxaran olmalıdır:

Cəngdə şir biləkli, aslan ürəkli,
Mərd gərək... gözündə düşmənin şəkli...
Donuz tək hücumlu, qurd gibi cəsur,
Öküz tək qisascıl, ayıtək fəndgir.
Qızıl tülkü təki usta, hiyləgər,
Bir qara nər gibi kinli, hünərvər.
Ala qarğa gibi ayıq-sayıq sən,
Qaya quzğunutək uzağı görən.
Cəsarətdə arslan, cəldlikdə qaplan,
Gecələr ana tək uyğusuz qalan... [2, 155]

Poemada ən ziddiyətlı və ən çətin obraz Odqurmuşdur. O, fani dünyadan, həyatın neymətlərindən əl çəkib tək-tənha bir mağarada qalan bir zahiddir. O, Oğdülmüşün yaxın qohumudur, Səid Başərinin fikrincə, böyük qardaşıdır. Bu qəhrəmanın əsas işi ibadət və gecə-gündüz dua etməkdir. Ot kökü yeyir və yağış suyu içərək yaşayır. Bu bir sufi obrazdır. Sufinin qəlbi pak, nəfsi təmiz olmalıdır. Odqurmuşun bir istəyi var, o da tanrıya qovuşmaq:

Məni tanrı dilədi əvvəlcə sevərək,
İndi mən də çırpınaraq onu dilər oldum.

Odqurmuş poemada qənaəti və aqibəti təmsil edir. Və bu da o deməkdir ki, qənaət dünya malında gözü olmamağı, aqibət isə həyatın sonu, axirəti ifadə edir. Odqurmuşun adı da simvolikdir. "Odqurmuş" sözü oyanmış, "odqurmaq" sözü isə düşüncə və fikir sonunda xəyal aləmindən oyanmaq mənasındadır.

Bələliklə, "Qutadğu-biliğ" həm dövlətnamə, həm siyasətnamə, həm əxlaqnamə, Yusif Balasağunlu isə təcrübəli dövlət xadimi, istedadlı şair və dahi filosofdur. XI əsr mütəfəkkiri Yusif Xas Hacibin əsəri türk dövlətçiliyinin idarəçilik strukturunu öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir. Dövlətdə dünyəvi məsələlərlə yanaşı dinə də yer ayrılmalıdır deyə fikirlər söyləmişdir. Bu əsər türk xalqlarının ana kitabıdır, əsər bu gün də aktuallığını saxlayır və xoşbəxtliyin qızıl açarı kimi dəyərini qoruyur.

İstifadə edilmiş ədəbiyyat

1) Arat R.R. Kutadqu Biliğ. I mətin, İstanbul,III. İndks. 1979, s. 352-355
2) Balasaqunlu Y. "Qutadgu-bilik" 2003. Bakı: Gənclik 2003, s. 16, 33, 53, 69, 122, 155, 161, 178
3) Cəlilova A. Yusif Xas Hacibin "Qutadgu-Bilik" əsərində türk dövlət modeli. Bakı, 2020
4) Mirişli E. Türküstan qəzeti №13, 2019, 23-29 aprel, s. 22
5) Nərimanoğlu K.V. "Qutadgu-bilik" Xoşbəxtliyə aparan elm. Bakı, 1994
6) Ramiz Əskər. Qutadgu bilig. Bakı: Elm, 2003, s. 23

Açar sözlər: poema, xoşbəxtlik, bilik, ədalət, ağıl, qənaət
Key words: the poem happiness knowledge justice mind savings
Ключевые слова: поэма, счастье, знание, ум, сбережения

Взгляд на произведение Ю.Баласагуни «Кутадгу Билиг»

Резюме

Поэма Юсуфа Баласагуни «Кутадгу Билиг» — значительное явление в мировой культуре. Она является одним из выдающихся литературных памятников в культурном наследии тюркских народов. Ю. Баласагуни был поэтом, ученым, мыслителем и общественным деятелем. В «Кутадгу билиг» разрабатываются общефилософские, социальные, юридические, политические, этические и эстетические проблемы. Ю.Баласагуни пытается найти ответ на вечный вопрос, волнующий людей с самого начала жизни на земле: что такое счастье и каковы способы его получить?

Особое внимание своих современников Юсуф обращает на то, что познание невозможно без знания: чтобы глубже познать мир, необходимо систематически пополнять свое образование и знания.

По мнению поэта, правитель должен быть справедливым при соблюдении законов, в решении вопросов управления обществом. Главный герой поэмы правитель Кюнтогду является символом справедливости.Только когда глава государства действует справедливо, на основе закона, утверждает Юсуф, возникает идеальное государство. Мыслитель считает, что справедливый властелин должен быть просвещенным, мудрым, он должен обладать разумом, знаниями и рассудком. Он призывал правителей управлять государством, опираясь на успехи науки, просвещения и т.д.

Ю.Баласагуни исследовал общечеловеческие, нравственные принципы, которые не потеряли своего значения и сегодня. Наследие мыслителя оказало большое влияние на дальнейшее развитие культуры тюркских народов.

A look at the work of Y.Balasaguni "Kutadgu biliğ"

Summary

Yusuf Balasaguni's poem "Kutadgu Bilig" is a significant phenomenon in world culture. It is one of the outstanding literary monuments in the cultural heritage of the Turkic peoples. Y. Balasaguni was a poet, scientist, thinker and public figure. In "Kutadgu bilig" general philosophical, social, legal, political, ethical and aesthetic problems are developed. Y. Balasaguni is trying to find an answer to the eternal question that has worried people since the very beginning of life on earth: what is happiness and what are the ways to get it?

Yusuf draws special attention of his contemporaries to the fact that knowledge is impossible without knowledge: in order to understand the world more deeply, it is necessary to systematically replenish one's education and knowledge.

According to the poet, a ruler must be fair in observing laws and in resolving issues of managing society. The main character of the poem, the ruler of Kuntogdu, is a symbol of justice. Only when the head of state acts fairly, on the basis of the law, Yusuf argues, does an ideal state arise. The thinker believes that a just ruler must be enlightened, wise, he must have intelligence, knowledge and reason. He called on rulers to govern the state based on the successes of science, education, etc.

Y.Balasaguni explored universal, moral principles that have not lost their significance today. The legacy of the thinker had a great influence on the further development of the culture of the Turkic peoples.

RƏYÇİ: dos. E.Vəliyeva

Aynaz Rəsulova[1]

GI DE MOPASSAN YARADICILIĞINDA "ORLYA"NIN YERI

"Mən ədəbi həyata meteor kimi girdim
və ildırım kimioradan yox olacağam".
Guy de Mopassan

Gi de Mopassan məşhur fransız yazıçısıdır, onun əsərləri Fransanın əsl ədəbi xəzinəsidir. Əsərində yazıçı hər bir qəhrəmanının həyatına xas olan psixoloji məqamlar prizmasından insanın şəxsiyyətini açmağa çalışıb. Mopassan öz hekayə və povestlərində onu əhatə edən dünyanın bütün gözəlliklərini çatdırır, eyni zamanda ona da xas olan pisliklərə malik olduğunu vurğulayırdı.

13 yaşında semiariyada oxuyan zaman Guy ilk şeirlərini yazıb, özünü sınayır:

"*Həyat qaranlıq qılıncın arxasında köpüklü cığırdır,*
Ya da qayanın yetişdirdiyi kövrək anemon,
Günəşli qumda qaçan quşun kölgəsi,
Uzaqlarda boğulan dənizçinin boş çağırışı.
Həyat yersiz bir şüa ilə işıqlanan bir dumandır,
Dua üçün bizə verilən yeganə andır."

Gi de Mopassan seminariyadan sonra Qay Ruen Liseyinə ritorika sinfinə daxil olur. O, şeir yazmağa davam edir və bir gün onu kurort Etretat şəhərindən gələn və bir qadın kimi onun marağına səbəb olan parisli qadına təqdim edirlər.

Onu qeyd edək ki, bu Mopassanın bütün sonrakı həyatında, daha doğrusu, qadınlara münasibətində iz qoyan bir hadisə kimi baş verdi. Belə ki, Gi de Mopassan axşam həmin qadının yanına gələndə qadının onun şeirlərini oxuduğunu və onlara güldüyünü eşidir. Gənc Gi de Mopassan bu təhqiri heç vaxt unuda bilmir. Başqa qadınlarla da rəftarında həmin əzabları bağışlamadı. Daha sonra Mopassanın həkimlərindən biri, doktor Çarlz Ladam yazıçının qadınlara münasibətini "erkən travma", gəncin ruhunu sarsıdan ciddi məyusluq kimi izah etmişdi.

Yazıçının ən diqqət çəkən əsərlərindən biri də "Orlya"dır. "Orlya" hekayəsi Gi de Mopassanın mistisizm və psixologizmlə hərtərəfli hopdurulmuş hekayəsidir. Hekayədə baş qəhrəman Orlyanın faciəvi həyatında bəhs edilir.

Əsərdəki təsvir belədir: adi bir Fransa vətəndaşının evində izaholunmaz hadisələr baş verməyə başlayır. Sahib müəmmalı hadisələrin səbəbini öyrənmək üçün uğursuz cəhdlər edir.

Gündəlik şəklində yazılan povestin baş qəhrəmanı - aristokrat, subay və burjuadır. Povestin baş qəhrəmanı öz fikirlərini bölüşür, o, əziyyət çəkir.

Bu əziyyət onlar o, "möhtəşəm üç dirəkli" Braziliya gəmisini görəndə və mexaniki olaraq ona əl yelləyərək gəmidə olan fövqəltəbii bir şeyi evinə dəvət edəndə başlayır.

Ətrafında "Orlya" adlandırdığı bir şeyin varlığını hiss edir. "Orlya"nın verdiyi işgəncə tezliklə nəticələr verir: əsərin qəhrəmanı "şiddətli qızdırmadan" əziyyət çəkir və yuxusu pozulur. O, kabuslardan oyanır, tərləyir, kiminsə onu seyr etdiyini, "sinəsinin üstündə oturduğunu" hiss edir.

Əsər boyu "Orlya" onun zehninə sahib çıxdığı bir vaxtda baş qəhrəmanın dəliliyi, daha doğrusu, yadlaşma hissi sorğulanır. Başlanğıcda dastançı özü içmədiyi bir stəkan suyu boş tapdıqdan sonra dəli olub-olmadığını düşünür. Tezliklə anlayır ki, ağlı başındadır və ətrafdakı reallıqdan xəbərdardır. "Orlya"nin varlığı getdikcə daha dözülməz olur: onu "baxır... baxır... idarə edir".

Povestin baş qəhrəman Orlyadır. Povestin baş qəhrəmanı Orlya Sena çayının sahilinə gəzməyə gedərkən həyatının hər gününü şəxsi gündəliyinə yazmaq qərarına gəlir. Bu anda o, əsl xoşbəxtliyi yaşayır: çayın sakit dalğaları, may təbiəti - bütün bunlar onun daxili aləmini dəyişir[1].

Gənc oğlan baxışlarını çay boyunca üzən Braziliya gəmisinə çevirir, onun əzəməti ətrafındakı dünyanı daha da dəyişir.

Lakin bir neçə gündən sonra onun xoş əhval-ruhiyyəsi əhval-ruhiyyəsi əsəbi vəziyyətə keçir. Hekayənin baş qəhrəmanı Orlya bu yaxınlarda ona rahatlıq və istilik verən şeylərdən qıcıqlanır. Bu depressiya bir neçə gün ərzində qızdırma ilə müşayiət olunur.

Xəstəyə çağırılan həkim xəstədə heç bir narahatedici əlamət aşkar etmir. Həkim getdikdən sonra baş qəhrəman qapalı vəziyyətdə olanda onun üçün daha asanlaşdığını başa düşür, digər insanlarla ünsiyyətini məhdudlaşdırır.

O, narahatedici yuxulardan əziyyət çəkməyə başlayır: naməlum şəxs onun yatağına gəlir və onu boğmağa çalışır. Səhər baş qəhrəman gecələr bir damcı su içməsə də, səhərə yaxın su qrafinin boş olduğunu görür.

Bu fakt ona ilkin olaraq vəziyyətinin səbəbini təhlil etməyə imkan verir, gənc adam yuxuda gəzintidən əziyyət çəkdiyini düşünür və bu onun halsızlığının və kabuslarının səbəblərini gizlədir. Hökmünün doğruluğuna əmin olmaq üçün gənc gecə qrafinini bağlayır, lakin səhər görür ki, mantar yerdədir və içində su yoxdur. Baş qəhrəman Paris salonunda hipnoz seansları təşkil edən əmisi oğlundan kömək istəməyə qərar verir.

Seanslarda ona məlum oldu ki, gənc onun yanında bir növ açılmamış sirr hiss edir, lakin duyğuları və dünyanı qavrayışı qeyri-kamil olduğundan onu tanıya bilmir.

Evə qayıdan gənc başa düşür ki, getdikcə pisləşir; depressiyasına halüsinasiyalar əlavə olunur: ona elə gəlir ki, kiminsə görünməz əli gül kolundan çiçəklər qoparır, sonra yox olur [1].

Qəhrəman gecələrin birində yenə yanında başqa bir dünya qüvvəsinin olduğunu hiss edir və uzun müddət ona əzab verən çağırılmamış qonaqla tanış olmaq qərarına gəlir. Məxluqla həvəslə əlaqə qurur və ona Orlya deməyi əmr edir.

Bir neçə gün sonra gənc bir qəzet yazısına rast gəlir ki, Braziliyanın San-Paulu şəhərinin sakinləri qaranlıq, görünməz bir qüvvə tərəfindən təqib olunduqlarını iddia edərək kütləvi şəkildə dəli olurlar. Bu qüvvədə gəncə işgəncə verən Oreli tanıyır.

Baş qəhrəman əmindir ki, Orlya məhz onun yanına may ayının birində gəzintidə gördüyü gəmidən gəlib. Mistik təqiblərdən xilas olmağa çalışan gənc qulluqçuları ilə birlikdə evini yandırır [1].

Bir dəqiqə sakitləşən baş qəhrəman Orlyanın evlə birlikdə öldüyünü başa düşür. Amma bu gücün yer oduna tab gətirə bilməyəcəyi barədə qəfil fikir qəhrəmanı intihara sövq edir.

Göründüyü kimi, Gi de Mopassanın əsərlərində obrazların psixoloji durumunun, psixologiyasının və mənəviyyatının açılmasında daxili fikirlərdən gen-bol istifadə olunub. Onun Orlya" povestinin timsalında daxili monoloqlardan necə yerli-yerində istifadə olunması heyrətamizdir. Qeyd edək ki, yazıçının hədəfi obrazın psixologiyasını anlamaqda, onun mənəvi dünyasına daha yaxından bələd olmaqda oxucularına yardım etmək olub. Mopassan qəhrəmanını təkcə bioloji varlıq kimi görmürdü, onun qəhrəmanı hər şeydən əvvəl psixoloji varlıq idi. Odur ki, psixoloji təhlil Gi de Mopassanın roman və novellalarının əhəmiyyətli bir hissəsini təşkil edib. "Psixologizm, ilk növbədə, bədii-estetik dəyərə malikdir, müəllifin aksiologiyasının, dünyagörüşünün göstəricisidir. insanın daxili aləmi ədəbi nöqteyi-nəzərdən özünəməxsus şəkildə şərh edilir və qiymətini alır"[2]. Psixoloji əsəri "daxildəki insanın" və ya insanın iç dünyasının hekayəti də adlandırmaq olar. Psixologizm bədii texnikasında obrazın mənəviyyatının və psixologiyasının açılmasına nail olmaqda müəllifə yardımçı olan ən münasib üsullardan biri daxili monoloqlardır, yəni obrazın özünün-özünə ünvanladığı və ya özünə xitabən səsləndirdiyi, beynindən keçirdiyi fikirlərdir. Oxucu qəhrəmanın daxili dünyasını bir çox hallarda "xarici" nitq ilə deyil, daxili monoloqun vasitəsilə kəşf də bilir. Obrazın hislərinin və düşüncələrinin ifadəsi olan daxili monoloqu şifahi nitqin səssiz növü kimi də dəyərləndimək olar. Eyni zamanda şüur axını adlanırılan bu nitq formasının personajın ən intim düşüncələrini, duyğularını və hətta ötəri hisslərini oxucuya açır. Elə buna görədir ki, qəhrəmanın xarakterinin açılmasında hiss və təəssüratların, şüurlu və şüursuz olanların bir-biri ilə çulğalaşdığı daxili monoloqun rolu əvəzsizdir. Müəllif personajın psixoloji portretini təfərrüatı ilə göstərmək üçün belə bir üsuldan yararlanır. Qəhrəmanın ruhi aləmindəki yaşantıların, xatirələrin canlandığı daxili monoloq vasitəsi ilə onun psixikası və iç dünyası haqqında aydın təsəvvür yaranır. Daxili monoloq hər hansı bir insanın özünü sakitləşdirmək, təsəlli vermək, davranışını dəyərləndirmək vasitəsi ola bilir. Ağır psixoloji durumlarda insan düşdüyü vəziyyəti dəyərləndirərək ondan çıxış yolu aramaq üçün ürəyində özü ilə danışır. "Daxili monoloqunu", "daxili nitqini" və ya "daxili sözlərini" izlədiyimiz təhkiyyəçi personajı öyrənərkən görürük ki, "hər bir halda söhbət birinci şəxsdən gedir"[4]. Daxili monoloq qəhrəmanın nitqinin üslubi və psixoloji xüsusiyyətlərinin özündə daşıyan bir çıxışdır.

Ədəbiyyat:

- Виктория Лебедева. Короткий век великого ги де мопассана: от рождения в средневековом замке до смерти в сумасшедшем доме. https://dzen.ru/a/ZNDXuJ6kWGjMa3bj
- Ю.И.Данилин. Мопассан-романист (предисловие к романам "жизнь" и "Милый друг").https://ocr.krossw.ru/html/mopassan/
- 2.Польщак А.Л.ПСИХОЛОГІЗМ У ТВОРЧОСТІ Ф. МОРІАКА. http://ebooks. grsu.by/psihologism_lit/5-poetika-psikhologizma-
- https://nado5.ru/e-book/mopassan-orlya
- Du monologue intérieur ala sous-conversation éditions a.-g. Nizet 3bis place de la Sorbonne Paris 1978.
- Gi de Mopassan. Seçilmiş əsərləri, Şərq-Qərb, Bakı, 2010. səh.221

Gi de Mopassan yaradıcılığında "Orlya"nın yeri

Xülasə

Yaradıcılığının əsas mövzu hədəfi 1870-ci illər Fransa-Prussiya müharibəsi hesab edilən Henri Rene Albert Gi de Mopassan "kiçik hekayələr nəhəngi" adı ilə bərabər, "altı kiçik roman böyüyü!" deyiminin də daşıyıcısıdır.

Müasirləri onun "ənənəvi Fransa"da bu dərəcədə seçkinlik və qəribəliklərinin bir ucunu da "anlaşılmazlıqlar və ipə-sapa yatmazlıqlar mücəssəməsi" Qustav de Mopassanın ailəsində dünyaya gəlməsinə bağlayırmışlar. Ailəsindən başqa "hər şeydə-hər sahədə ustad" kimi tanınan Qustav nəhayətdə bu ailəni atıb getmiş və Gi qardaşı Hreve ilə anasının himayəsində ağlasığmaz çətinliklər yaşamalı olmuşdu. Xoşbaxtlıqdan, bu ana Ginin gələcək aləmi üçün özül obrazı olub; klassik ədəbiyyat maraqlısı olan bu qadın Mopassanın bioloji həyatına dayaq, psixoloji-filoloji aləminə mayak rolu oynayır.

Aşar sözlər: Gi de Mopassan, yazıçı, Orlya, hekayə, baş qəhrəman

Place of "Orly" in the genius of Guy de Maupassant

Summary

Henri Rene Albert Guy de Maupassant, whose main subject is the Franco-Prussian War of the 1870s, has been called "a giant of little stories" and "six great little novels!" is also the bearer of the saying.

One of the ends of his elitism and oddities in "traditional France" was explained by his contemporaries that he was born into the family of Gustave de Maupassant, "the embodiment of misunderstandings and sleepless nights." Apart from his family, Gustav, reputed to be "a master in everything, in every field," finally left this family and was forced to endure unimaginable difficulties under the tutelage of his brother Greve and his mother. Fortunately, this mother became the basis of the future world of Gi; This woman, interested in classical literature, plays the role of support for Maupassant's biological life and a beacon for his psychological and philological world.

One of the writer's most remarkable works is "Orlya". This story is a story by Guy de Maupassant, thoroughly imbued with mysticism and psychologism. The story tells about the tragic life of the main character Orly.

Key words: Guy de Maupassant, writer, Orlya, story, main character.

Место «Орли» в творчестве Ги де Мопассана

Резюме

Анри Рене Альберт Ги де Мопассан, главным предметом творчества которого считается франко-прусская война 1870-х годов, называют «гигантом маленьких рассказов» и «шестью большими маленькими романами!» также является носителем поговорки.

Одним из концов его элитарности и странностей в «традиционной Франции» современники объясняли то, что он родился в семье Гюстава де Мопассана, «воплощения недоразумений и бессонных ночей». Помимо своей семьи, Густав, слывший «мастером во всем, в каждой области», окончательно покинул эту семью и вынужден был испытывать невообразимые трудности под опекой брата Греве и матери. К счастью, эта мать стала основой будущего мира Ги; Эта женщина, интересующаяся классической литературой, играет роль опоры биологической жизни Мопассана и маяка для его психологического и филологического мира.

Одно из самых замечательных произведений писателя – «Орля». Эта повесть — рассказ Ги де Мопассана, насквозь пронизанный мистикой и психологизмом. История повествует о трагической жизни главной героини Орли.

Ключевые слова: Ги де Мопассан, писатель, Орля, рассказ, главный герой.

RƏYÇİ: dos. L.Ələkbərova

Севиндж Алимовсум гызы Абушова [44]

ПРОСТРАНСТВЕННО-ВРЕМЕННОЙ АСПЕКТ ПОВЕСТИ А.ПЛАТОНОВА «КОТЛОВАН»

Дата работы над рукописью «Котлована» проставлены самим автором - декабрь 1929 - апрель 1930 года. Такая хронологическая точность далеко не случайна: именно на этот период приходится пик коллективизации. Точные даты недвусмысленно указывают на конкретные исторические события. «Котлован» создается даже не по горячим следам - он пишется практически с натуры: хронологическая дистанция между изображаемыми событиями и повествованием отсутствует.

Замысел «Котлована» относится к осени 1929 г. Платонов всю зиму и весну 1930 г. работает над повестью. В самом тексте, не упоминаются даже названия месяцев - отсчет времени ведется по временам года («в начале осени», «пустынность осени»). Более точно сориентироваться во времени позволяют конкретные детали. Начинается действие в самом конце лета 1929 года («в день тридцатилетия личной жизни» Вощева стояла жара, но уже начали опадать листья с деревьев), а заканчивается в первых числах марта 1930 года (активист получает директиву, написанную «по мотивам» статьи Сталина «Головокружение от успехов» от 2 марта 1930 г.).

Недопустимо «контрреволюционные» антитезы в повести «Котлован» вновь будут пронизывать все повествование: «личная жизнь» и «общий темп труда», «задумавшийся» герой - строители «будущего неподвижного счастья». О публикации такого произведения не могло быть и речи. Впервые повесть была издана только в 1987 году («Новый мир», 1987, No 6). Ясно и внятно изложив свои сомнения в новом мироустройстве, Платонов обратил на себя внимание высших инстанций.

События, происходящие в «Котловане», можно представить как реализацию грандиозного плана социалистического строительства. В городе строительство «будущего неподвижного счастья» связано с возведением единого общепролетарского дома, «куда войдет на поселение весь местный класс пролетариата». В деревне строительство социализма состоит в создании колхозов и кликвидации кулачества как класса». «Котлован», таким образом, захватывает обе важнейшие сферы социальных преобразований конца 1929 - начала 1930-х гг.-индустриализацию и коллективизацию:

Быстро меняющиеся сцены оптимистического труда противоречат самой сути платоновского видения мира - медленного и вдумчивого. Пестрая мозаика фактов и отвлеченные обобщения в равной мере чужды Платонову.

Сюжет повести достаточно «стандартен»: практически любое литературное произведение, в котором затрагивает тема коллективизации, не обходится без сцены раскулачивания и расставания середняков со своим скотом и имуществом, без гибели партийных активистов, без «одного дня победившего колхоза». Однако в платоновском повествовании «обязательная программа» сюжета коллективизации изначально оказывается в совершенно ином контексте. «Котлован» открывается видом на дорогу: «Вощев... вышел наружу, чтобы на воздухе лучше понять свое будущее. Но воздух был пуст, неподвижные деревья бережно держали жару в листьях, и скучно лежала пыль на дороге...». Герой А.Платонова - странник, отправляющийся на поиски истины и смысла всеобщего существования. В «Котловане» дорога становится отправным пунктом сюжета: вышедшии с «небольшого механического завода» Вощев «очутился в пространстве», и безвестная дорога привела его к котловану общепролетарского дома. Этот будущий дом становится пространственным и смысловым центром произведения. Дороги организуют пространство, в котором разворачиваются события повести (4).

Однако внутреннее движение времени в «Котловане» крайне не однородно. Внутренние часы «Котлована» то останавливаются, то лихорадочно ускоряют ход. В повести один день может быть выписан по минутам и заполнен множеством эпизодов, но при этом почти полгода сливаются в один монотонно тянущийся день, лишенный каких-либо событий.

Время в «Котловане», однако может «оборачиваться» пространством. Ось времени может заменять пространственные координаты: «Его пеший путь лежал среди лета» - говорится о дороге, по которой идет Вощев.

Если временные рамки повествования в «Котловане» четко обозначены, то пространство регулярно теряет сколько-нибудь определенные очертания.

Котлован, в котором должен быть заложен фундамент общепроле-тарского дома, начинает расползаться в пространстве, захватывая овраг и все глубже уходя в землю. Котлован постоянно расползается вдаль и уходит в глубь; вначале он захватывает овраг, потом партийная администрация требует его расширения в четыре раза, а Пашкин, «дабы угодить наверняка и забежать вперед главной линии», приказывает увеличить котлован уже в шесть раз. Не случайно в финале повести появится и характерное уточнение - «пропасть котлована», которую можно рыть до бесконечности.

Герои повести обитают в мире, лишенном пространственных ориентиров: землекопы и крестьяне «расходятся в окрестность» или уходят «внутрь города». Город, в котором строится общепролетарский дом, и деревня, в которой идет раскулачивание, вообще не имеют названий. Единственное название имеет колхоз, имени «Генеральной Линии». В классической литературе маршрут героя может пролегать по реальным улицам реальных

[44] **Бакинский славянский университет**

городов. Но если у человека, прочитавшего «Котлован» спросить, как дойти от котлована к бараку землекопов или как дойти до города, в котором строится общепролетарский дом, он вряд ли сможет ответить.

Рассмотрим, например разговор Вощева с шоссейным надзирателем:

«Далеко здесь до другого какого-нибудь города?» - спрашивает Вощев.

Обратим внимание, на принцип ориентации в пространстве - «какого-нибудь», «другого» - это противоречит всем привычным нормам. В пространстве, обычно человек движется «от - к», и у этого движения обязательно есть направление.

У А.Платонова все построено иначе, в его мире направления отсутствуют: герой идет «куда-то» (или ему вообще «некуда идти»), и идти для него - важнее, чем дойти. Мучительное преодоление «трудного пространства» лишает платоновского героя дорожных впечатлений. «Трудное пространство» оказывается трудным не само по себе - таким оно воспринимается платоновским героем. Персонажи «Котлована» беспрерывно куда-то перемещаются, но «Вощев ушел в одну открытую дорогу». Цель этого пути - не достижение заранее определенного пункта, а поиск «душевного смысла» всеобщего существования и истины, без которой «стыдно жить» - вот «маршрут» платоновского героя.

Платоновским синонимом к понятию «пространство» становится «неизвестное место» («из неизвестного места подул ветер»).

В отличие от времени, которое обретает у Платонова пространственные координаты, само пространство дематериализуется. Место у Платонова заменяется понятием - а само понятие «пространство» становится метафорой мира идей (1, 171).

Кроме того, нельзя отрицать, что путешествие во времени в крепкий узел завязывает новые социальные отношения. Здесь находится центр пересечения исторического времени и реальности. Познав ушедшие вглубь веков связи, можно выгодно оставить в стороне отжившие принципы, а общественные отношения строить уже на новом фундаменте. Так, сложное и причудливое сочетание настоящего и прошлого пластов в прозе А.Платонова ориентировало человека его времени на завоевание новых рубежей. Но кроме пространственно-временных отношений, немаловажную роль в прозе Платонова сыграли такие неологизмы, как «сверхвременное», «посттерриториальное» и «надместное» и др. Как приверженец гиперболизации в творчестве, созерцатель необычных образов, он любил порою опуститься в самые будничные и спокойные области человеческого сознания, в рабочую среду. Метаморфозы «переброски» тем и идей, естественно, не замедлили сказаться и на стилевой манере письма.

Завершая данный аспект, приходим к заключению, что характерный принцип конструирования философской системы, в которой определённую роль сыграла пространственно-временная организация, подвел раннего А.П.Платонова к созданию модели мира, воссоединяющей историю и реальность. Первое понятие вообще связано у него с чем-то внеземным, космическим (2, 28). Правда, сегодня мы не имеем права не признать, что эта философская система оказывается иллюзорной, несколько надуманной, не всегда отвечающей реалиям послереволюционных лет. Но следует отметить, что человек, преодолевая свою историческую судьбу, приближается к счастливому мигу вечности. Пространственно-временная организация художественного мира А.П.Платонова в семантико-стилистическом отношении характеризуется более высокой ступенью, а именно, выходом в космос. Причём, это стало вполне приемлемой стилистической формой раннего Платонова. Так, текст одного из очерков (1921 г.), вводит нас в необычную атмосферу социального бытия.

Соответствующим образом он оформлен и в стилистическом отношении. Так, в одной из работ Платонов сосредотачивает главное внимание на ярких природных красках. Зримо представляется, как писатель словно бы сам бродит в ночи, среди «бесконечных пространств», таких далеких, с тёмными деревнями, под ясными звёздами над головой. Вокруг мутная, смертельная мгла. Сердце автора замирает в состоянии полной любви и безмятежности. В то же время оно наполнено жалостливыми чувствами, потому как некого ему любить. Все мёртво и тихо в отдалении. И думает писатель о бесконечности. А от «вздоха в просторе буквально разрывается сердце, от взгляда в этот провал меж звёзд ты словно бы становишься бессмертным» [3, 587].

Пространственно-временная организация «Котлована» антиномична. Рамки повести раздвигаются в глубину времени и в необъятное пространство космоса. Пространственно-временная организация повести подчинена главной художественной задаче писателя – не описанию конкретного исторического события, а философскому обобщению эпохальных преобразований.

Разобрав прозаический стиль А.П.Платонова в пространственно-временном аспекте, мы также приходим к выводу, что некоторые события, выражаемые писателем в форме, скажем, глаголов, чаще всего были соотнесены с историческим действием. Они существуют в реальной действительности вне зависимости от высказывания субъекта или самого высказывания, объектом которого они являются. Иными словами, они независимы от непосредственного акта речи и, естественно, подчиняются закономерностям реального времени и пространства.

Литература

1. Левин Ю.И. От синтаксиса к смыслу и дальше (о «Котловане» А.Платонова). Доклады на всесоюзной научной конференции «Стилистика и поэтика». Звенигород, ноябрь, 1981 // Вопросы языкознания, 1991, № 1, с. 170-173.
2. Павловский А.И. Яма: О художественно-философской концепции А.Платонова «Котлован» // Русская литература, 1991, № 1, с. 21-41.

3. Платонов Андрей. Избранные произведения. М.: Экономика, 1983, 878 с.
4. Платонов Андрей. Котлован. Анализ текста. Основное содержание. Сочинения. М.: Художественная литература , 2001, 214 с.
5. Тарланов З. «Котлован»: история без конца // Север, 1990, № 5, с. 152-160.
Ключевые слова: Платонов, повесть, время, пространство, повествование.
Açar sözlər: Platonov, hekayə, vaxt, məkan, nəqletmə.
Keywords: Platonov, novella, time, space, narrative.

A.Platonovun "Kotlovan" əsərinin zaman-məkan aspekti

Xülasə

"Kotlovan"ın zaman-məkan təşkili antonimikdir. Hekayənin çərçivəsi zamanın dərinliyinə və kosmosun geniş məkanına yayılır. Hekayənin məkan-müvəqqəti təşkili yazıçının əsas bədii vəzifəsinə – müəyyən bir tarixi hadisənin təsvirinə deyil, epoxal dəyişikliklərin fəlsəfi ümumiləşdirilməsinə tabedir. A.Platonovun nəsr üslubunu məkan-zaman baxımından təhlil edərək, yazıçının feil şəklində ifadə etdiyi bəzi hadisələrin ən çox tarixi hərəkətlə əlaqəli olduğu qənaətinə gəlirik. Mövzunun ifadəsindən və ya obyekti olduqları ifadənin özündən asılı olmayaraq reallıqda mövcuddurlar. Başqa sözlə, onlar birbaşa nitq aktından müstəqildirlər və təbii olaraq real vaxt və məkan qanunlarına tabe olurlar.

The time-space aspect of Platonov's "Kotlovan"

Summary

The spatial-temporal organization of the "Kotlovan" is antinomic. The framework of the story is being pushed into the depths of time and into the vast space of space. The spatial-temporal organization of the story is subordinated to the main artistic task of the writer – not the description of a specific historical event, but the philosophical generalization of epochal transformations. Having analyzed the prose style of A.P.Platonov in the space-time aspect, we also come to the conclusion that some events expressed by the writer in the form of, say, verbs, were most often correlated with historical action. They exist in reality, regardless of the utterance of the subject or the utterance itself, the object of which they are. In other words, they are independent of the direct act of speech and, naturally, obey the laws of real time and space.

Rəyçi: prof. R.M.Novruzov

İlahə Rəşad qızı Səfərzadə [45]

ROMAN JANRİ: MÜHARİBƏ VƏ QADIN
(Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" əsəri əsasında)

Giriş. Qadınların tarixən müxtəlif müharibə və münaqişələrdə oynadığı rolun, tarixi kataklizmlər zamanı üzləşdikləri çətinliklərin, yaşadıqları travmaların və mübarizələrin geniş şəkildə qələmə alındığı bədii əsərlərə istər dünya, istərsə də Azərbaycan ədəbiyyatında çox sayda örnək gətirmək mümkündür. Bu mövzu müharibələrin qadınların həyatına necə təsir etməsi, gender dinamikasındakı dəyişikliklər və qadınların çətin həyat şərtlərinə necə reaksiya verməsi kimi bir çox mühüm meyarları ehtiva edir.

Ədəbiyyatda müharibə mövzusunun tarixi qədimdir. Xalqların tarixində baş verən müharibələr ədəbiyyata da təsirsiz qalmamışdır. Hələ tarixin ilkin çağlarında yaradılmış ədəbi nümunələrdə savaş motivi ilə rastlaşırıq. Şifahi xalq ədəbiyyatında isə dastanlar, demək olar ki, müharibə motivi üzərində qurulmuşdur. Azərbaycan epik təfəkküründə qadın qanlı döyüşlərdə belə kişinin yanındadır, kişi döyüşə gedəndə isə qadın onun arxasının dayağıdır. Siyasi təməllərə dayanan qeyri-insani müharibə ilə humanizmin ön planda olduğu ədəbiyyat tarix boyu bir-birini müşayiət etmiş, bu təmas zəminində "müharibə ədəbiyyatı" anlayışı formalaşmışdır. Müharibə ədəbiyyatının təsnifatı [5, s. 101], eləcə də müharibə dövründə yazılan əsərlər ilə müharibədən sonra yazılan əsərlərdə mövzuya yanaşma fərqləri ədəbiyyatşünaslığın gündəliyində olan məsələlərdəndir [3, s. 220].

Müharibə ədəbiyyatında yaradılan qadın obrazları ya onların fədakarlığının tərənnümü, ya da çəkdikləri ağrı və əzabların təsviri ilə səciyyələnir. Dünya ədəbiyyatı təcrübəsində qadın xarakterləri, əsasən, güclü və dözümlü, azad, vətənsevər, fədakar, mübariz insanlar kimi təqdim edilir.

"XX əsrin 70-ci illərində humanitar elmlərdə "qadın mövzusu"na maraq xeyli artmışdı. Bu da onunla izah olunmuşdu ki, XX əsrin ikinci yarısında feminizm hərəkatında bir sıra dəyişikliklər baş verdi, nəticədə cinslərin, münasibətlərin nəzəri təhlil zərurəti meydana gəldi" [7, s. 7].

Azərbaycan romanlarında qadın obrazları müharibənin kölgəsində zamanın gedişatına müqavimət göstərən, öz əzizlərini qorumağa çalışan güclü şəxsiyyətlər kimi təqdim edilmişdir. Qarabağ savaşına həsr olunmuş romanlarda qadınlar təkcə fərdi faciələri ilə deyil, həm də sosial transformasiyalarla öndədirlər. Müharibənin sərt reallıqları ilə üzləşən azərbaycanlı qadınlar romanlarda çox vaxt müharibədən sonrakı cəmiyyətdə öz rollarını yenidən müəyyənləşdirməyə çalışan güclü və dözümlü fərdlər kimi görünürlər. Qadın obrazlarının yaşadığı mənəvi ağrılar və itkilər müharibənin bəşəriyyətə dərin təsirlərini anlamağa kömək edir. Azərbaycan yazıçıları qadın probleminə diqqət yetirməklə müharibənin iç üzünü oxucuya daha təsirli çatdırırlar.

"Arzulardan sonrakı şəhər"də qadın

Müasir Azərbaycan ədəbiyyatının tanınmış simalarından olan Şərif Ağayarın yaradıcılığında dövrün ictimai mənzərəsinin təsviri xüsusi yer tutur və bu təsvirlərdə müəllif uydurması ilə real həyat gerçəklikləri bir-birini tamamlayır. Yazıçının, əsərlərində müharibə və onun nəticələrinə geniş yer verməsinin səbəblərindən biri doğulub boya-başa çatdığı Laçın rayonunun uzun illər düşmən işğalı altında qalması, işğalla üzləşmiş xalqın acı taleyini yazıçının öz ömründə yaşamasıdır. Onun əsərlərinin əksəriyyətinin mövzusunu Qarabağ, müharibənin törətdiyi fəsadlar, qaçqın və köçkünlərin acınacaqlı həyat tərzi və doğma torpaqlara qayıtmaq arzusu təşkil edir [9].

Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanının mərkəzində müharibənin nəticəsi olaraq indiki zamana yadlaşma, özgələşmə problemi dayanır. Yazıçı əsərdə göstərir ki, itirilən sadəcə torpaq deyil, torpaqla birlikdə yaşayan və ölən insanların həyatlarıdır. Romanda yadlaşmanın gətirdiyi konflikt gerçəkliklə xəyal dünyası arasında baş verir. Əsərin baş qəhrəmanı *"hər vəchlə arzularına əks olan, qəddar və amansız gerçəklikdən qurtulmağa çalışaraq xəyallarına sığınır"* [6, s. 85]. Romanda hadisələr iki zamanda təqdim edilir: biri, Həsənin dilindən anladılan hazırkı dövr, ikincisi isə Misirdəki Maanis adlı qulun dilindən nəql olunan min illər əvvəl baş vermiş hadisələrin zamanı. Müəllif iki fərqli zaman yaradaraq azadlıq idealının insan təxəyyülündə dəyişmədiyi fikrini irəli sürür.

Əsər nənəsindən başqa heç kəsi olmayan Həsənin yuxusunda çəhrayı atları görməsi ilə başlayır. Həyatda ona əziz olan insanların, demək olar ki, hamısını itirmiş nənə nəvəsinin ruhi vəziyyətinə görə narahat olub onu psixoloqun yanına gətirir. Nənənin özünün də ruhi vəziyyətini normal məntiqlə izah etmək çətindir: o, nəvəsini özünün bir parçası kimi görür. Həsən də bunun fərqindədir: "*Sizə bir sirr açım: Nənəm mənimlə bədəninin bir parçası kimi rəftar edirdi. Mən qulağımı qaşıyanda da onun iradəsi ilə etməli idim. Bir yerim ağrıyanda məndən artıq ufuldayırdı. Eyni qayda xəyal dünyama da aid idi. O, tarakan kimi qulağımdan beynimə girib nə düşündüyümü bilmək istəyirdi. Dünyada ən zəhləsi gedən şey, şübhəsiz ki, çəhrayı atlar idi. İmkan olsa, onları beynimin içindəcə qılıncla doğrayar, qanını xəyalımdakı yaşıl təpəliklərə tökərdi. Gücü çatmasa, bir qutu boya alıb hamısının rəngini dəyişərdi. Ona görə yox ki, o atlar mənə əzab verirdi. Ona görə ki, o atları nənəmin icazəsi olmadan düşünür, başımdan çıxara bilmirdim"* [1, s. 155].

"Həsənin qeyd etdiyi çəhrayı atlar romanın süjet xəttinin düzümündə əsas yerlərdən birini tutur. Əsərin əvvəlində ağzı bağlanmış atların təsvirini verməklə müəllif torpaqlarımızın işğal altında olmasına eyham vurur. Çəhrayı atların Həsənin anasının ölümündən sonra onun yuxusuna girməsi isə Ana obrazını itirilən torpaq anlamında qavramağa imkan verir" [2].

[45] Bakı Dövlət Universitetinin doktorantı. mail: ilahe.safarzadeh@gmail.com

Nənə nəvənin gözündə xarici görünüşünə görə çirkin olsa da (müəllif nəvəsinin dili ilə onun çirkinliyini detallarına qədər təsvir edir), nənənin xarici görkəmi ilə daxili aləmi təzad halındadır. Kənardan baxana çirkin və qaba görünən nənənin kövrək qəlbi var, kənardan güclü görünməyə çalışır, içi isə özünü yandırır, öz zavallılığının fərqindədir.

Romandakı nənə xətti ilə bağlı paralelliklər aparan ədəbiyyatşünas Məti Osmanoğlu "Mənim nəğməkar bibim", "Saz", "Tütək səsi" kimi nümunələrdə də müharibə illərinin yetim uşağı və onu himayə edən yaşlı insan tandeminin olduğunu vurğulayaraq bütün bu assosiasiyaların fonunda Şərif Ağayarın nəvə-nənə hekayəsinin, bütövlükdə romanın tamamilə orijinal olduğunu qeyd edib [4].

Nənə və nəvə doğma yurddan qovulmuşlar. Hər gün başlarının üstündən, yanlarından mərmilərin uçuşduğu məkanda yaşamaq qorxulu olduğu üçün nisbətən sakit bölgədə uzaq qohumlarının evinə yerləşmişlər. Nənə öz nəvəsini burada məktəbə göndərir, onun qayğısına qalır, təlim-tərbiyəsi ilə məşğul olur. İstəyir ki, nəvəsi dərslərini yaxşı oxusun, ağıllı olsun, onun sözündən çıxmasın. Əsər boyu nəvənin məktəb macəralarının şahidi oluruq. Həsən uşaq olsa da, nənə qadınlıq instiktindən irəli gələn duyğu ilə ona arxalanır. Bazarda satıcı qadınla dalaşıb, yeniləndə nəvəsini görür, ona sığınıb ağlayır. Bu, şəfqətə və qayğıya daha çox ehtiyacı olan qız uşağının öz atasına olan münasibətinə bənzəyir.

"Əsər döyüş səhnələrindən uzaq olsa da, müharibənin yaratdığı fəsadları oxucuya dəqiqliyi ilə təqdim edir" [8]. Ölkədə həmin dövrdə hökm sürən xaos, boşluq qadınların timsalında daha aydın cizgilərlə nəzərə çatdırılır. *"Nənəmin təxmininə görə ayaqlarını rahatca o halqalara keçirən oğru binanın çardağından sallanıb, pəncərədən içəri keçəcək, çəhrayı atlı xalçanı və 300 manatı götürüb aparacaqdı. Biz pulu poçtdan alanda, xalçanı həyətə düşürüb təmizləyəndə görmüşdülər. Üstəlik, yiyəsiz, kimsəsiz olduğumuzu hamı bilirdi. Kim kimədi! Bu saat it yiyəsini tanımır. Nə milisə etibar var, nə əsgərə. Pula-xalçaya görə lap bizi öldürə də bilərdilər"* [1, s. 61]. Bu sətirlərdə müharibənin başsız qoyduğu, ərsiz, oğulsuz qalan, başının üstündə kişi olmayan qadının sosial statusuna, düşdüyü şəraitdəki acizliyinə diqqət çəkilir.

Müharibə dövründə bütün cəmiyyət, eləcə də qadınlar iqtisadi çətinliklərlə üzləşirlər ki, bu da qadınların üzərinə düşən işin ağırlaşmasına, ailə daxilindəki ənənəvi normaların dəyişməsinə səbəb ola bilir. Əsərdəki nənə nəvəsinin maddi ehtiyaclarını qarşılamaq üçün əlindən gələni edir. Bununla belə, onlar bəzən günlərlə evdə yeməyə heç nə tapmırlar və nənə bunun mənəvi ağırlığı altında əzilir.

Müharibə şəraiti qadınları sosial statusunu dəyişməyə məcbur edir, onlar ictimai-siyasi proseslərə müqavimət göstərməli, ictimai dəyişiklik və ədalət uğrunda mübarizədə fəal iştirak etməli olurlar. Nənəni nəvəsi ilə yaşadıqları evdən çıxarmaq istədikləri zaman onun içində yığılmış enerji üzə vurur: *"bizi oradan gavurlar qovalayır, buradan da siz? İmam haqqı od vurub yandıraram buraları!"* [1, s. 98]. Nənənin bu sözləri müharibənin iç üzünü, onun insanların, xüsusən də yurdsuz-yuvasız qalmış qadınların acınacaqlı halını çılpaqlığı ilə göstərir.

Şərif Ağayar romanda nəvəsi ilə yalnız qalmış yaşlı qadının həyat mübarizəsini ikili planda təqdim edir. Birinci planda nənə yaşamaq naminə savaşan, nəvəsini böyütmək əzmində olan qadındır, ikinci planda isə onun davranışları və danışıqları kənardan baxana kobud görünür. Ətrafdakı yad mühit, insanlar arasında müharibənin şiddətləndirdiyi soyuqluq nənəni də yurd-yuvaya laqeydləşdirir:

"- Deyirəm, görən, gavurlar biz tərəfləri də alıblar, yoxsa, yox?

- Nəyinə lazımdı? Heç kim yoxdu oralarda.

- Oraları alsalar, biz də qaçqın sayılarıq, hökümətdən çörəkpulu alarıq.

- İstəyirsən, alınsın, bizə çörəkpulu versinlər?

- İstəmirəm, əgər alınıbsa, haqqımızı alaq deyirəm" [1, s. 217].

Romandakı əsas xarakter – nənə müharibənin qəddarlaşdırdığı mühitdə öz mənəvi gücünü və müqavimətini itirmir. Ayaq üstə dayanmağın zəruriliyini hiss edir: *"Nənəmin növbədəki basırıqda yıxılmasından yaman qorxurdum. Hər dəfə çörək almağa təkidlə özü gedirdi. Deyirdi, sən üzüyumşaqsan, bacarmırsan. Nənəm çörək növbəsində əziləndə elə cikkə çəkirdi ki, adamlar dik atılırdı"* [1, s. 216].

Öz keçmişindən, həyat təcrübəsindən gələn qəliblərlə yaşamağa nənənin haqqı var, bununla belə, o, vəziyyətə uyğunlaşmaq, yaranmış vəziyyətdə yeni dəyərlər sistemini qəbul etmək məcburiyyətindədir. Məsələn, nənə üçün qəhrəmanlıq savaşmaq yox, qardaşı Mirzəmmədin meyiti qoyub qaçmamasıdır. Nənə obrazının təzadlarla dolu mürəkkəb psixoloji dünyasını nəvəsi hamıdan yaxşı açır: *"Nənəmdir, vəssalam. Əyri dişli, donqar belli, çör-çöp saçlı, cır səsli, zəhlətökən nənəm. Mənim sevimli ifritəm! Miss 154-üm!"* [1, s. 43].

Bu həm də sosial-siyasi problemlərin, işğal faktorunun, yurdsuzluğun ağrı və acılarının təsviri baxımından mükəmməl ədəbi priyomdur."Arzulardan sonrakı şəhər" romanının mövzusu müharibə olsa da, burada azadlıq və özgələşmə probleminin bədii həlli müəllifin diqqət mərkəzindədir. Həsən obrazı sonacan "özgələşsə" də, təzadlı şəxsiyyətə malik nənə daxilində özgələşmə psixologiyası ilə mübarizə aparır. Bu mübarizə müharibə dövrünün nənəsinin bir fərd və bədii obraz kimi orijinallığını şərtləndirir.

Nəticə. Müasir Azərbaycan ədəbiyyatında müharibə mövzusunun ayrıca yeri var. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu mövzu ilə bağlı bir çox əsərlər qələmə alınmış, həmin əsərlər əsasında filmlər çəkilmişdir. Birinci Qarabağ müharibəsi Azərbaycan torpaqlarının işğalı ilə nəticələndiyi üçün ədəbiyyatda daha çox bu məğlubiyyətin gətirdiyi ağrı-acıların təsviri ön planda olmuş, intiqam çağırışları əsas motiv kimi üzə çıxmışdır.

Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanında da müharibənin gətirdiyi fəlakət, azadlıq idealı və özgələşmə problemlərinin bədii həlli əsas götürülmüşdür. Romandakı nənə obrazı bir çox xüsusiyyətlərinə görə müharibənin didərgin saldığı qadınların ümumiləşmiş obrazı səciyyəsi daşıyır. Yazıçı diqqəti bu obrazın zahiri ilə daxilindəki təzad əsasında

“kişisizləşmiş” cəmiyyətdə qadının qoruyucu vəzifəsini öz üzərinə götürməsinə yönəltmiş, nəvənin “sevimli ifritə” kimi səciyyələndirdiyi şəxsiyyət fenomeni yaratmışdır. Qeyri-tipik müharibə qadını olan nənə daxilinə nüfuz etməyə can atan “özgə” ilə mübarizə aparır, özgələşməyə müqavimət göstərməyə çalışır. Nənə müharibənin qarşısını almağa acizdir, bu onun iradəsindən kənardadır, lakin gücü çatdığınca müharibənin faciələrinə canını sipər edir.

O da vurğulanmalıdır ki, Azərbaycan ordusunun 44 günlük Vətən Müharibəsində əldə etdiyi zəfər, torpaqlarımızın işğaldan azad olunması ədəbiyyatın qarşısında da yeni üfüqlər açır, ən mühümü isə ədəbiyyatın “məğlubiyyət kompleksindən” təmizlənməsinə şərait yaradır.

İstifadə edilmiş ədəbiyyat

1. Ağayar Ş. Arzulardan sonrakı şəhər. Bakı: Qanun. 2017, 232 s.
2. Akimova E. Yuxu ilə reallığın qovuşduğu məkan: Arzulardan sonrakı şəhər [Elektron Resurs] URL: https://edebiyyatqazeti.az/news/edebi-tenqid/444-yuxu-ile-realligin-qovusdugu-mekan-arzulardan-sonraki-seher
3. Auerbach E. “Edebiyat ve Harp”. İÜ Üniversite Konferansları (1940-1941), İstanbul: İÜ Edebiyat Fakültesi Neşriyatı, 1941.
4. Cəfərli A. Klassik bütləri sındıran roman [Elektron Resurs] URL: https://kulis.az/xeber/edebi-tenqid/xeber_____-17971
5. Duman H. Savaş Edebiyatı. Türk Dili ve Edebiyatı Dergisi, Cilt: 58, Sayı: 1, 2018, s. 99-110.
6. Hasanova, L. (2023). “Güncel Azerbaycan Romanı: Gelişme Eğilimleri ve Perspektifler (2000'li Yılların Romanları Temel Alınarak)” Recep Tayyip Erdoğan Üniversitesi Fen Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Dergisi, 4/2: 82-95.
7. Qafarova S. Gender və Filologiya. Dərs vəsaiti. Bakı: Mütərcim, 2009. 144 s.
8. Rəşid S. Şərif Ağayarın “Arzulardan sonrakı şəhər” romanı haqqında [Elektron Resurs] URL: https://mustaqil.az/s%C9%99rif-agayarin-arzulardan-sonraki-s%C9%99h%C9%99rhaqqinda-s%C9%99fa-r%C9%99sid-yazir/
9. Səlifova H. Şərif Ağayarın Qarabağ mövzusunda yazılmış hekayələri [Elektron Resurs]. https://dibace.net/dunyadan/s%C9%99rif-agayarin-qarabag-movzusunda-yazilmis-hekay%C9%99l%C9%99ri-serif-agayarin-karabag-hakkindaki-hikayeleri/

Açar sözlər: Müharibə, qadın, Şərif Ağayar, Arzulardan sonrakı şəhər, xarakter, nəsr, roman

Key words: War, women, Sharif Aghayar, The City after Dreams, character, prose, novel

Ключевые слова: Война, женщина, Шариф Агаяр, «Город после снов», персонаж, проза, роман

Xülasə

Bədii əsərdə qadın obrazlarına müəllif yanaşması müasir dövr ədəbiyyat araşdırmalarında tədqiqatçıların üzərində xüsusi dayandığı məsələlərdəndir. Bu tendensiyanın geniş vüsət almasında sosial-siyasi səbəblərlə yanaşı, ədəbiyyatşünaslıqda gender amilinə diqqətin artmasının da böyük rolu vardır. Ədəbiyyatda müharibə mövzusuna isə, demək olar, bütün dövrlərdə müraciət edilmişdir. Müharibə böyük siyasi çalxantını, ictimai qarışıqlığı və bəşəri ədalətsizliyi özündə birləşdirən qeyri-insani akt olaraq toplumlarda böyük izlər buraxır. Həmçinin mənəvi böhranları da öz bərabərində gətirir. Ədəbiyyat müharibə zamanı və müharibədən sonra rast gəlinən əxlaqi ziddiyyətləri, vicdanın səsini və etik dəyərləri mühakimə edir. Uzun illər işğal altında qalan Azərbaycan da bu ağrıları yaşamış, müharibə və müharibənin insanların həyatına vurduğu yaralar ədəbiyyatın baş mövzularından birinə çevrilmişdir.

Ədəbiyyatımızda müharibə mövzusunda yazılan əsərlər arasında Şərif Ağayarın “Arzulardan sonrakı şəhər” əsəri diqqət çəkməkdədir. Əsərin qadın qəhrəmanı müharibənin qanlı üzünü daha təsirli boyalarla əks etdirmək baxımından seçilir. Nənə obrazı bütün mənfi və müsbət xüsusiyyətləri ilə ədəbiyyatımızda sevilən obrazlar sırasındadır.

Novel genre: war and women (Based on Sharif Aghayar’s “The City after Dreams”)

Summary

The author’s approach to the female characters depicted in the work of art has become an issue that researchers focus on in modern literature studies. In addition to the socio-political reasons, the increasing attention to the gender factor in literary studies has a great role in the expansion of this tendency. The theme of war has been addressed in literature in almost all periods. War, as an inhumane act that combines great political upheaval, social chaos and human injustice, leaves great traces in societies. It also brings spiritual crises. Literature judges the moral contradictions, the voice of conscience and the ethical values encountered during and after the war. Azerbaijan, which has been under occupation for many years, also experienced these pains, and the war and the wounds inflicted by war on people's lives have become one of the main topics of literature.

Among the works written on the subject of war in our literature, Sharif Aghayar’s “The City After Dreams” draws attention. The female hero of the work stands out in terms of reflecting the bloody face of the war with more effective colors. The character of grandmother is among the favorite characters in our literature with all its positive and negative features.

Романный жанр: война и женщина (по мотивам произведения Шарифа Агаяра «Город после снов»)

Резюме

Авторский подход к изображенным в произведении женским персонажам стал проблемой, на которую обращают внимание исследователи в современном литературоведении. Помимо социально-политических причин, большую роль в расширении этой тенденции играет возрастающее внимание к гендерному фактору в литературоведении. Тема войны поднималась в литературе практически во все периоды. Война, как бесчеловечный акт, сочетающий в себе большие политические потрясения, социальный хаос и человеческую несправедливость, оставляет в обществе огромные следы. Война также приносит духовные кризисы. Литература судит о моральных противоречиях, голосе совести и этических ценностях, с которыми столкнулись во время и

после войны. Азербайджан, находящийся в течение многих лет под оккупацией, также испытал эти боли, а война и раны, нанесенные войной жизни людей, стали одной из главных тем литературы.

Среди произведений, написанных на тему войны в нашей литературе, обращает на себя внимание произведение Шарифа Агаяра «Город после снов». Женщина-герой произведения выделяется тем, что более эффектными красками отражает кровавый лик войны. Образ бабушки со всеми его отрицательными и положительными чертами является одним из любимых образов в нашей литературе.

RƏYÇİ: dos. S.Abbasova

Jalə Xəlil qızı Nağıyeva [46]

"KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA HUMAY QUŞU İLƏ BAĞLI MİFİN İZLƏRİ

Giriş. Qədim türk mifoloji mətnləri içərisində Humay quşu mifoloji obrazına rast gəlirik. Bu quşu fonetik və poetik olaraq Umay Ana mifoloji obrazı ilə əlaqələndirirlər. Humay və ya Umay mifoloji Ulu Ana kompleksində mühüm yer tutan başlıca fiqur olmasına baxmayaraq, təəssüf ki, onunla bağlı inanclar bütöv mifoloji mətnlər kimi tam toplanmamışdır. Bütöv bir mifik süjet, bir mif mətni olmasa da, "Kitabi Dədə Qorqud"da da Umay Ananın izlərinə təsadüf edirik. Dastanın girişində Dədə Qorqudun təsvir etdiyi qadınların soyunun Umay ilə bağlılığını qeyd etmək olar. Məqalədə Umay Ana obrazının izləri araşdırılır.

Əsas hissə. Cənnət quşu olaraq adlandırılan, gözlə görünməyəcək qədər yüksəkliklərdə uçan, davamlı olaraq uçan ayaqsız əfsanəvi quş kimi bilinən Humay türklərin qədim mifoloji mətnlərində, eləcə də folklorunda yer almışdır. Türk inancına görə, quş Göy Tanrının himayəsində olan bir varlıqdır. Buna görə də bəzi quşlar müqəddəs hesab olunmuş, insanlara uğur gətirən, xeyiri təmsil edən varlıq kimi qəbul olunmuşdur. Məlumdur ki, şamanizmdə ölən insanın ruhu quş kimi təsəvvür olunur. Yaxud yeni doğulmuşlara verilən ruh quş cildində olur. "Məlikməmmədin nağılı"ndakı divin canının şüşədəki göyərçin olması da bu düşüncənin izləri ola bilər. Bu keyfiyyət türklərdə quşların onqon hesab olunması ilə əlaqəli görünür. Lakin B. Uslu quş kultunun türklər üçün əhəmiyyətli olmasını onların nəinki bir totem və ya onqon hesab olunmaları ilə izah edir, əksinə bu fikrə zidd bir aspektdən yanaşır. Tədqiqatçı bu cəhəti türk boylarının hər birinin bir quşu öz rəmzi olaraq tanıması ilə əlaqələndirir: "*Türk mifologiyasında quşlar totem olaraq yer almır. 24 Oğuz boyu arasında hər dördü üçün bir quşun onqon hesab olunmasında monqolların təsiri duyulur. Çünki monqollar ailədə ana haqqının hakim olduğu, totemlərə inam bəsləyən xalq idilər. İstər Rəşidəddinin əsərlərində, istərsə də Əbülqazi Bahadır Xanın "Şəcərəyi – Tərakimə" əsərində onqon olaraq göstərilən quşlar, əslində, Oğuz boylarının totem olaraq qəbul etdiyi varlıqlar yox, hər boyun digərlərindən fərqlənməsini və tanınmasını təmin edən rəmzlərdir*" (8, s. 21).

İstər bir totem və ya onqon, istərsə də bir rəmz olmasından asılı olmayaraq quş kultu türklər üçün, həqiqətən də, əhəmiyyətli yerə malik olmuşdur. Müəllif quş kultunu hər nə qədər totem kimi qəbul etməsə də, şaman dualarından, digər türk inanclarından aydın olur ki, tək Tanrıya – Göy Tanrıya inanan türklər yeri gəldikcə quşlardan ya birbaşa kömək istəmiş, ya da quşlar vasitəsilə Tanrıdan yardım istəmişlər. Umay, yaxud digər adları ilə Humay, Kumay, Hüma obrazları da bu quşlar sırasında olduqca mühüm yer tutur. Humayın bu adları ilə bağlı fikirlər də müxtəlifdir. Bəzi tədqiqatçılar Humayı əsas götürərək digər variantların fonetik dəyişiklik nəticəsində yarandığı qənaətindədirlər, bəziləri isə bunları fərqli funksiyaları olan, lakin kökdə bir-birinə bağlı olan quşlar kimi qiymətləndirirlər. Biz bu tədqiqatda Humay morfemini əsas götürərək bu quşla bağlı mif və əfsanələrin mövzu və məzmun dairəsi üstündə duracağıq.

Qeyd etmək lazımdır ki, Humayla bağlı inamlar bu gün də istər Azərbaycanda, istər digər Türk xalqları arasında yaşamaqdadır. Birinci fəsildə qeyd etdiyimiz "*başına dövlət quşu qonmaq*" ifadəsi bunlara nümunə ola bilər. Burada nəzərdə tutulan quş "Dövlət quşu" yaxud Hüma adlandırılmışdır. Baheddin Ögel "Türk mitolojisi" adlı kitabının birinci hissəsində Hüma quşunu Humayla eyniləşdirmiş və bu fikirləri yazmışdır: "*Humay və ya Hüma quşu peyğəmbərin hədislərində və islami ədəbiyyatlarda qeyd olunan bir quş – Cənnət quşudur. İslamiyyətdə və Ön Asiya nağıllarında Simurq quşu ilə qarışdırılan bu quş Qaf və ya Elbrus dağlarında deyil, Cənnətdə otararmış. Bəzən uçaraq göyün yeddi qat üstünə çıxar, fələklər, bürclər arasında dolaşar, hətta Tanrıya qədər gedib çatarmış*" (4, s. 109).

Bütün bu fikirlər Humay və Hüma quşlarını eyniləşdirməyə imkan verir. Bu sitatdan da aydın olur ki, Hüma quşunun da Umay(Humay) kimi Tanrıya çata bildiyinə inanılmışdır. Bu quşun cənnətdə oturması düşüncəsi isə çox güman ki, islam dininin təsiri ilə yaranmışdır. Zamanla quşun adında yaranan variantlaşmalar kimi, funksiyalarında da dəyişikliklərin yaranması qeyri-adi görünmür. M.Təhmasib isə Hüma(Humay) quşu ilə bağlı bunları qeyd edir: "*Bu quşun kölgəsi bəxtiyarlıq və səadət rəmzidir. Onun kölgəsi kimin başı üzərinə düşərsə, o, dünyada mütləq ən bəxtiyar adam olur. Bunun nəticəsi olaraq bu quşun ikinci xüsusiyyəti meydana gəlmişdir. O, kimin başına qonarsa, həmən adam padşah, yəni dövlət, hökumət başçısı olur*" (7, s. 11).

Sağlam keçən doğumdan sonra bu gün də bəzi ailələrin qurban, sədəqə verməsi, yaxud ehtiyacı olanları doyurmaq, müxtəlif niyyətlər etməklə minnətdarlığı ifadə etmək və s. rituallar həyata keçirməsi Umay quşu ilə bağlı inamlardan geriyə qalanlar ola bilər. Belə ki, şamanist türklər də uğurlu keçən doğumdan sonra Umay ene üçün qanlı (at, qoyun kimi heyvanları qurban kəsərlərmiş) və qansız (oda yağ atmaq, şərab səpmək və s. qurbanlar qansız qurban hesab olunur) qurbanlar verərlərmiş.

Humayla bağlı əksər inamlar onun qoruyucu dişi bir ruh olması ilə əlaqədardır. Bu inam bu gün də özünü qoruyub saxlamışdır. "*Teleut qadınları da doğum zamanı onları qoruyan ruhların varlığına inanırlar. Onların adətən ernegender ya da enekelər adlandırdığı bu ruhlar ölmüş nənə və babalarının ruhlarıdır. Qədimdə bu ruhlara qoyun da qurban edilərmiş. Uşağın dünyaya gəlişi Sibir xalqlarında böyük bir şənliklə qeyd olunur*" (8, s. 120).

Humay quşu ilə bağlı başqa bir inam isə Ural ətrafı türklərin mifologiyasında öz yerini almışdır. Baheddin Usludan tərcümə etdiyimiz həmin mifin qısa məzmunu belədir. "*Ural ətrafında yaşayan türklərin inancına görə, Göy Tanrısı olan Samravın iki arvadı varmış. Bunlardan biri Günəş, digəri isə Ay Anadır. Samravın bu həyat yoldaşlarının hərəsindən bir qızı dünyaya gəlir. Günəş Anadan doğulan qızı Humay (Umay), Ay Anadan doğulan qızı isə Ayluulu(Ayluh) adlandırılmışdır*" (8, s. 298-299).

[46] Bakı Dövlət Universitetinin doktorantı jalakhalilova@yahoo.com

Bu mətndə maraqlı cəhət Umayın Tanrı Samravın Günəşdən olan qızı olmasıdır. Türklərin Umayı bəzi mənbələrdə uzun sarı saçlı, ağ geyimli təsvir etmələri ilə bu məzmun əlaqəli görünür. Bəzi mənbələrdə isə Umay buynuzları olan bir inək kimi təsvir olunmuşdur. Yaxud tədqiqatın əvvəlində qeyd etdiyimiz kimi yanında bir yırtıcı, qucağında bir uşaq olan, bəzən öz taxtında əyləşən bir qadın kimi... Bu an bizi maraqlandıran Umayın Günəşlə müqayisəsidir. Bu haqda prof. Mirəli Seyidovun fikirləri də dediklərimizə işıq tutur. Tədqiqatçı "Qam-şaman və onun qaynaqlarına ümumi bir baxış" adlı kitabında "Ağ oğlan" əfsanəsinin variantlarından biri haqda bu fikirləri qeyd edir: "*Ağ oğlan əfsanəsinin bir variantında qadının saçları ətrafa işıq saçır. Görünür ki, bəzi türk xalqları Umayı qızıl, sarı saçlı təsəvvür etməklə onun Günəşlə olan bağlılığını nəzərə çatdırmaq istəmişlər*" (6, s. 106).

Bu sitatdan da göründüyü kimi müəllif əfsanədəki qadın obrazının Umayla bu və ya digər dərəcədə bağlılığı olması qənaətindədir. Müəllif "Üç bacının nağılı"ndan gətirdiyi kiçik süjetlə fikrini ciddi anlamda əsaslandırmışdır. Bu nağılda üç bacıdan böyüyünün səhər tezdən "Sübhi-Sadiq"dən kömək istəməsini nəzərə çatdıraraq, bu obrazın da Günəşlə, dolayı yolla Umayla bağlılığı olması qənaətinə varır.

Humay və ya Umay mifoloji Ulu Ana kompleksində mühüm yer tutan başlıca fiqur olmasına baxmayaraq, təəssüf ki, onunla bağlı inanclar bütöv mifoloji mətnlər kimi tam toplanmamışdır. Bu gün bizə Umayla bağlı məlum olan mif mətnləri və şaman dualarının əksəriyyəti keçən əsrdə rus və Avropa tədqiqatçıları tərəfindən toplanmış, türkcəyə və dilimizə tərcümə olunmuş mətnlərdir. Həmin tədqiqatçılar sırasında Verbitski, V.Radlov, G.Potanin, Ç.Vəlixanov, V.Propp, A.Losev, S.Tokarev və başqalarının adlarını qeyd edə bilərik. Bu gün bizə məlum olan əksər mif mətnləri məhz bu tədqiqatçıların araşdırma və toplamaları sayəsində əlimizdədir. Bununla belə, Humay quşu ilə bağlı orijinal bir mif mətninə Azad Nəbiyevin "Azərbaycan xalq ədəbiyyatı" adlı kitabının birinci hissəsində rast gəlirik. Məlum olur ki, müəllif bu mətni 1983-cü ildə Dərbənddə Əfruz xanım Durdiyeva adlı bir qadından dinləyərək yazıya köçürmüşdür.

Bütöv bir mifik süjet, bir mif mətni olmasa da, "Kitabi Dədə Qorqud"da da Umay Ananın izlərinə təsadüf edirik. Dastanın girişində Dədə Qorqud qadınların dörd cür olduğunu vurğulayır. Birini soy solduran, birini toy dolduran, birini evin dayağı, birini isə bayağı adlandırır (5, s. 22). Bu qadınlardan biri – Dədəm Qorqudun evin dayağı adlandırdığı qadın yenə onun öz deyimi ilə Fatimə, Ayşə soyundan gəlir. Bəzi mənbələrdə görürük ki, Umay anaya aid görüşlər islamiyyətdən sonra Hz. Fatiməyə də aid edilmişdir. Məsələn, bu haqda Elif Ersoy məqaləsində yazır: "*Mifik mənada Fatimə başında tac, bir kraliça kimi təsvir olunur. Necə ki, Məryəm anaya Cənnətin kraliçası deyilmişdir, eynilə Məhəmməd Mustafa da Fatimənin cənnət qadınlarının əfəndisi olduğunu söyləmişdir. Atası Məhəmməd ona həm də "Ümmü Əbiha", yəni "atasının Anası" ləqəbini vermişdir. Məhəmmədin soyu "Kövsər" olaraq bilinən Fatimədən davam edir və gah bərəkət, gah şəfa üçün "Fatimənin əli"ndən kömək istəyərlərmiş*" (2, s. 12).

Bu keyfiyyətlər göstərir ki, həqiqətən də Ulu Ana kultu və ya Umayla Hz. Fatimə arasında bağlılıq vardır. Yəni Dədə Qorqudun Fatimə soyundan hesab etiyi həmin qadınlar bir növ elə Umay ananın davamçıları, onun müsbət keyfiyyətlərinin daşıyıcıları kimi səciyyələndirilə bilər. "Salur Qazanın evinin yağmalandığı boy"da Uruzun dilindən anasına deyilən "Ana haqqı – Tanrı haqqı" ifadəsi də göstərir ki, analıq haqqı və Tanrı haqqı bir-birinə bərabər tutulmuşdur. Bu isə bizə təqdim etdiyimiz mif mətnlərində olduğu kimi, Umay ananın lap başlanğıcdan Tanrı ilə birlikdə olması, Tanrının izni ilə insanlara kömək etməsi və s. süjetləri xatırlatdı. Bəlkə də bu nümunədə Ana haqqının Tanrı haqqına bərabər tutulması məhz həmin inamlardan qalan izlər olaraq dastanda özünə yer etmişdir.

"Kitabi Dədə Qorqud"da "Umay ananın izlərini görürük", – deyə biləcəyimiz başqa bir boy isə "Basatın Təpəgözü öldürdüyü boy"dur. Həmin boyda Basatın özünü Təpəgözə necə tanıtmasına diqqət edək:

Atam adın sorar olsan, – Qaba ağac!
Anam adın deyərsən, – Xaqan aslan!
Mənim adım sorarsan, – Aruz oğlu Basatdır! (3, s. 132).

Nümunədən göründüyü kimi Basat atasının adını "Qaba ağac", – deyə təqdim edir. Bizə elə gəlir ki, Basatın işlətdiyi bu ad elə "Qayın ağacı"na işarədir. Bu fikrimizi belə əsaslandıra bilərik ki, elə bu nümunənin sonuncu misrasında Basat öz adını "Aruz oğlu" deyə təqdim edir. Yəni atasının həm Qaba ağac, həm də Aruz olduğunu söyləmiş olur. Bu, bizə görə, türklərin Qayın ağacı ilə bağlı mifik düşüncələrinin təsiri kimi boyda özünü qoruyub-saxlamışdır. "Çağdaş folklor: problemlər, perspektivlər" adlı kitabda bu haqda yazılmışdır: "*Aruz qocanın oğlu Basatı qoruyub-qollayan və ona analıq edən Xaqan aslan Ulu Ananın heyvani bir fiquru olaraq dəyərləndirilə bilər. Hələ uşaqlıqdan ana bildiyi aslan tərəfindən Təbiət ananın vəhşi meydanında böyüyən basat Təpəgöz kimi bir demonun qarşısına çıxma cəsarətinə sahibdir*" (1, s. 89).

Nəticə. Deməli, burada qeyd olunan Xaqan aslanı Umay, Qaba ağacı isə Həyat ağacının zamanla dəyişilib, təhrif olunmuş və öz əslindən uzaqlaşmış bir fiquru olaraq təsəvvür etsək, həmçinin bu boyda onların adlarının yanaşı xatırlanmasını da nəzərə alsaq, boyda Umay ana ilə bağlı inancların az da olsa, özünə yer etməsi qənaətinə gələ bilərik. Həm adlarının fonetik yaxınlığını, həm də görünüşcə bənzərliklərini nəzərə alaraq onların Umayın transformasiyaya uğrayaraq zaman içində dəyişilmiş variantları olaraq Humay quşu ilə bağlı mifin "Kitabi-Dədə Qorqud" dastanındakı izini görə bilərik.

İstifadə edilmiş ədəbiyyat

1. Çağdaş folklor: problemlər, perspektivlər. Bakı: Elm və təhsil, 2015, 232 s.
2. Ersoy E. Ana Tanrıça Kültü. Anadolu Aydınlanma Vakfı. 2012. 10 s.
3. İslamzadə K. Dastan yaradıcılığında cəngavər qadınlar. Bakı: Elm və təhsil, 2019, 203 s.
4. Kayabaşı O. A. Türk Mitolojisinin Kutsal Dişisi: Umay. İnternational Journal of Eurasia Social Sciences, 2016, Vol: 7, Issue: 22, səh. 220-228.
5. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.
6. Seyidov M. Qam-şaman və onun qaynaqlarına ümumi baxış. Bakı: Gənclik, 1994, 232 s.
7. Təhmasib M. "Əfsanəvi quşlar". "Vətən uğrunda" jurnalı, 1945, N = 5, s. 11).

8. Uslu B. Türk mitolojisi. İstanbul: Kamer yayınları, 2016, 360 s.
Açar sözlər: Humay, Umay ana, mif, folklor, Dədə Qorqud
Ключевые слова: Хумай, Мать Умай, миф, фольклор, Деде Горгуд.
Key words: Humay, Goddess Mother Umay, myth, folklore, Dede Gorgud.

“Kitabi-Dədə Qorqud” dastanında humay quşu ilə bağlı mifin izləri
Xülasə

Qədim türk mifoloji mətnləri içərisində Humay quşu mifoloji obrazına rast gəlirik. Bu quşu fonetik və poetik olaraq Umay Ana mifoloji obrazı ilə əlaqələndirirlər. Humay quşu - türk mifologiyasında tez-tez cənnət quşu olaraq adlandırılır. Gözlə görünməyəcək qədər yüksəkliklərdə, heç vaxt yerə toxunmadan davamlı uçan, bəzi mənbələrdə ayaqlarının olmadığı bildirilən əfsanəvi quş olaraq əks olunur. Mifoloji inanclara görə, başına qonduğu insana xoşbəxtlik gətirəcəyinə inanılan bəxt quşu və ya taleh quşu adı ilə də tanınır. Buna başqa sözlə cənnət quşu, səadət quşu, huma və ya humay deyilir. Bu quş xoşbəxtlik, səadət, müvəffəqiyyətin rəmzidir. Elə ona görə də o, dövlət və səadət quşu adlandırılır.

Humay və ya Umay mifoloji Ulu Ana kompleksində mühüm yer tutan başlıca fiqur olmasına baxmayaraq, təəssüf ki, onunla bağlı inanclar bütöv mifoloji mətnlər kimi tam toplanmamışdır. Bütöv bir mifik süjet, bir mif mətni olmasa da, “Kitabi Dədə Qorqud”da da Umay Ananın izlərinə təsadüf edirik. Dastanın girişində Dədə Qorqudun təsvir etdiyi qadınların soyunun Umay ilə bağlılığını qeyd etmək olar. Məqalədə Umay Ana obrazının izləri araşdırılır. Bu izlər nümunələr şəklində verilir, təhlilə cəlb olunur.

Следы мифа о птице хумай в эпосе «Китаби-Деде Горгуд»
РЕЗЮМЕ

В мифологических текстах древних тюрков упоминается образ мифической птицы Хумай. Фонетически и поэтически эта птица отождествляется с мифическим образом Матери Умай. Птицу Хумай в тюркской мифологии часто называют райской. Ее изображают как легендарную птицу, которая, согласно некоторым источникам, не имеет ног и непрерывно летает на невидимой для человека высоте, не касаясь земли. Согласно другим мифическим представлениям, она также известна как птица удачи или судьбы, которая, как полагают, приносит счастье тем людям, на голову которых она садится. Таким образом, она зовется райской птицей, птицей счастья, хýма или хумай. Эта птица – символ счастья и успеха. Именно поэтому ее часто называют птицей богатства и счастья.

Несмотря на то, что Хумай или Умай является центральной фигурой комплекса мифов о Великой Матери, к сожалению, связанные с ней верования не были собраны в виде полных мифологических текстов. Хотя здесь отсутствует цельный мифический сюжет и следовательно – мифический текст, тем не менее, следы мифа о Матери Умай мы встречаем также в «Китаби-Деде Горгуд». Можно отметить, что родословная женщин, описанная Деде Горгудом во вступительной части эпоса, имеет отношение к Умай. В статье исследуются следы образа Матери Умай. Эти факты приводятся в виде примеров и привлекаются к анализу.

Traces of the myth about the bird humay in the epic “Kitabi-Dede Gorgud”
Summary

The mythological texts of the ancient Turks mention the image of the mythical bird Humay. Phonetically and poetically, this bird is identified with the mythical image of Goddess Mother Umay. The Humay bird in Turkic mythology is often called the bird of Paradise. It is depicted as a legendary bird, which, according to some sources, has no legs and continuously flies at an invisible height for humans, without touching the ground. According to other mythical beliefs, it is also known as the Bird of Luck or Destiny, which is believed to bring happiness to those people on whose heads it lands. Thus, it is called the Bird of Paradise, the Bird of Happiness, Huma or Humay. This bird is a symbol of happiness and success. That is why it is often called the Bird of Wealth and Happiness.

In spite of Humay or Umay is the central figure of the Great Mother myth complex, unfortunately the beliefs associated with her have not been collected into complete mythological texts. Although there is no integral mythical plot and, therefore, a mythical text, nevertheless, we also find traces of the myth about Mother Umay in “Kitabi-Dede Gorgud”. It may be noted that the genealogy of women described by Dede Gorgud in the introductory part of the epic is related to Umay. The article deal with the traces of the image of Mother Umay. These facts are given in the form of examples and are involved in analysis.

RƏYÇİ: dos. E.Vəliyeva

Seyfəddin Altaylı [47]

"KİTABİ-SİRETÜN-NEBİ"DƏ VƏ GÖYLƏ BAĞLI İFADƏLƏRDƏ DİNİ-MİFİK ANLAYIŞ

Giriş. Türklərin yaratdığı "Bozqır Mədəniyyəti"nin dünyada başqa bir oxşarı yoxdur. Bu mədəniyyətdə göylərin yüksəkliyinə inam türkə azadlıq, onun altında müstəqil yaşama arzusu, kainatin təsəvvür edilə bilməz nəhəngliyi ilə onu yaradanın qüdrətinin ülviliyini aşılamışdır (16. s. 223). Oturaq yaşayan insanların dar çərçivəli dünyasına qarşı yerdən yerə, iqlimdən-iqlimə keçib minlərlə heyvanı yaratdığı bir nizam daxilində saxlayıb çoxaltmaq, istehsalçı bozqır iqtisadiyyatına sahib olmaq (16. s. 222), təbiətin hər əzab-əziyyətinə sinə gərib onunla mübarizə apararaq ona qalib gəlmək türk millətinə hər bir çətinliyin öhdəsindən gələn və saat dəqiqliyində işləyən bir sosial nizam yaratmaq duyğusunu bəxş etmişdir. Bunlarla birlikdə göylərin sərhəddini təyin etməyin və yerin dərinliklərini dərk etməyin mümkünsüzlüyü psixologiyasını da diktə edərək onun inanc fəlsəfəsində öz əksini tapmışdır.

İzzəddin Həsənoğlu XIII yüzildə Xorasanın İsfərayin mahalında dünyaya gelmiş və Azərbaycan türkcəsində şeir yazan ilk şairdir. Onun indiyə kimi cəmisi üç Türkcə şeiri məlum idi, ancaq 2009-cu ildə bir dostum vasitəsilə "Kitabı-Sirətün-Nəbi" adlı 367 vərəqlik əlyazma məsnəvisi tapıldı və o ildən başlayaraq əsər üstündə işləyib ərsəyə gətirərək Türkiyədə çap etdirdim. Həmin əsərdə dilə gərirlən müəyyən deyimlər (idiomatik ifadələr) mifologiya ilə bağlıdır. Məqalədə həmin mövzu üstündə dayanılmışdır.

İzzəddin Həsənoğlunu Azərbaycan şairi kimi ilk dəfə qeyd edən Fuad Köprülü olmuşdur (17, s 77). Deyilə bilər ki, bütün araşdırmaçılar Həsənoğlunun üç Türkcə, iki Farsca şeirinin olduğunu yazmışlar (23, s. 140; 4, s. 20). Məşhur təzkirəçi Dövlətşah Səmərqəndi onun İsfərayində dünyaya gəldiyini, Şeyx Camalüddin Əhməd Zakirin müridi olduğunu qeyd etmişdir (10, s. 275). Onun ilk müəyyən edilən şeiri "Apardı könlümü bir xoş qəmərüz canfəza dilbər" misrası ilə başlayan qəzəlini Qıpçaq şairi Seyfi Sarayi Misirdə Fars şairi Sədinin "Gülüstan" adlı əsərini Türkcəyə tərcümə etdiyi zaman tərcümənin axırına əlavə etmiş bu şeir günümüzə kimi gəlib çatmışdır.

Həsənoğlunun "Kitabı-sirətün-nəbi" adlı məsnəvisi hz. Məhəmmədin həyatı, mübarizələri və hz. Əli cənglərinə həsr edilmişdir. Həmin məsnəvidə göylə bağlı ifadələr də yer tutmuşdur. Göy, türk millətinin mifoloji inamında vahid görünməklə yanaşı çoxluğun də rəmzi olmuşdur (22, s. 83). "Əhməd Hərami Dastanı"nda bu inam, "Nə var Tanrı bir isə, iş ikidür" (3, s. 48) şəklində vurğulanmışdır. Səmanın bütöv olması ilə Tanrının tək olması arasında sınmaz bir əlaqə olduğundan türklər göyü müqəddəs saymışdır. Göy türklərin "Göytəngri" dedikləri Yaradıcının məkanıdır (2, s. 35). Türk kosmoqoniyasında "Tanrı" eyni zamanda "göy" anlamına da gəlmişdir (15, s. 36). Orxon abidəsində "Tanrı kimi Tanrıdan olmuş Türk Bilgə xaqan" (24, s. 44) şəklində həmin mənaya işarət edilmişdir. Türklərin mavi rəngə önəm vermələrinin, o rəngdəki bozqurdu özlərinə rəmz seçmələrinin səbəbi də bu düşüncədən bəhrələnmişdir. Gündoğan tərəf həmişə babalarımız tərəfindən digər yönlərdən daha üstün tutulmuş, evlərin, otağ adlanan çadırların qapısı daim gündoğana açılmış, mavi rəng bu yönün rəmzi kimi təyin edilmişdir (14, s. 105). Əfsanəvi Hun hökmdarı Tanrıqut Baqatur (Metə xaqan) xaqan bu inamdan hərəkət edərək ordusunu dörd əsas yönə görə ayırmış və şərqdəki əsgərlərinin atları daim boz rəngdə olmuşdur (18, s. 406).

Quranda "Təriq" surəsinin 1-ci ayəsində Allah "Göyə və təriqə and olsun" (8, s. 590); "Şəms" surəsinin 5-ci ayəsində "Göyə və onu yaradana and olsun" (8, s. 594) şəklində and içmişdir. Göytanrı dininə inanan əcdadlarımızın mifik anlayışındakı göyə yanaşma ilə Quran ayələri üst-üstə düşməkdədir. Bu səbəblə Azərbaycanda "göyə", "onun ucalığına" and içilir (6, s. 1313). Azərbaycan türkcəsində "başı ərşə çatmaq", "başı göyə dəymək", "başı uca olmaq", "başı ucalmaq" şəklindəki deyimlər və "başın uca olsun", "başın ərşə çatsın" (5, s. 94/95) şəklindəki alqışlar da qədim türk inamının Azərbaycanda davam etdirilən nümunələridir.

Bəqərə surəsinin 164-cü ayətində Tanrı belə buyurmuşdur: Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfinə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində, (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır (9, s. 40). Əski Türklər göyü dairəvi bir çadıra oxşatmış (12, s. 292), dünyanın isə dördkünc olduğuna inanmışdır. Həmin inam və anlayış Azərbaycan xalqı arasında "dünyanın dörd bir küncü"
(5, s. 199) şəklində ifadə edilməkdədir.

Köl Tigin abidəsinin şərq üzündə "Üstdə mavi göy, altda qara yer yaradıldığında ikisinin arasında insan oğlu yaradılmışdır" (24, s. 25) şəklindəki ifadə ilə Quranın "Nəhl" surəsinin 52-ci ayəsində "Göylərdə və yerdə nə varsa, hamısı Onundur!" (9, s. 226); "Bəqərə" surəsinin 117-ci ayəsində "Göyləri və yeri icad edən (yoxdan yaradan) Odur." (9, s. 20) buyruqları arasında oxşarlıqvardır. Türkün mifik inamı ilə İslam dininə görə, Tanrının olduğu məkan əlçatmazdır, "Kitabi Dədə Qorqud"da Dəli Domrul bu həqiqəti "Ucalardan ucasan, kimsə bilməz necəsən?!" (13, s. 137), şəklində ifadə etmişdir. İzzəddin Həsənoğlu da göyü və yeri Tanrının yaratdığını aşağıdakı beyitdə vurğulamışdır.

Gögi-yiri ʿādemden bî-gümān
Göglü-gögsüz kim getürmişdir ʿeyān 75 (7, s.119).

Türk millətinin qədim inamına görə xaqanlar Tanrının dünyadakı kölgəsi olmuş onlara hökmranlıq qutu da Göy tərəfindən verilmişdir. Bu səbəblə türklərin dövlətçilik anlayışında hökmranlıq daim ilahi mənşəli olmuşdur (26, s. 48). Bu

[47] Filologiya üzrə fəlsəfə doktoru, dosent

inam Bilgə xaqan abidəsinin quzey üzündə bu səbəblə "Tanrı lütfkar, mənim də taleim olduğundan xaqan oldum" (24, s. 47) şəklində dilə gətirilmişdir. Bundan başa düşülür ki, qədim çağlarda türk millətinin xaqanını Göytanrı təyin edirmiş. Xaqan seçilən şəxs keçənin və ya xalçanın üstündə oturdulub göyə qaldırılaraq onun Tanrının kölgəsi olduğu vurğulanıb bir növ ululanırmış (25, s. 107). Xaqan da ona hökmranlıq qutunu Tanrı verdiyinə, Onun yerdəki kölgəsi olduğuna görə özünü daim adil olmaq məcburiyyətində hiss etmişdir. Belə hərəkət etmədiyi vaxt qurultay yığışıb onu taxtından salmış və hökmdarlığı layiq olana vermişdir. Altay Türkləri bir atalar sözündə "Teñride Kuday, telekeydekaan" (Göydə Tanrı, yerdə xaqan) (11, s. 112) şəklində bu anlayışı dilə gətirmişdir. Azərbaycanda birinə insaflı olması üçün "toyuq-toyuqdur su içir bir də dönüb Allaha (göyə) baxır" (5, s. 508) deyilir. Bu ifadə vurğulanan mifik inamın və anlayışın əsrimizdəki mirasıdır. Azərbaycanda kəndin başçısına kəndxuda, məcazi mənada kəndin tanrısı deyilməsi bu inam və düşüncəni vurgulanmasından özgə heç nə deyildir. Həsənoğlu da həmin inam və anlayışı məsnəvisində dilə gətirmişdir.

Gög qodı quluñ adını ol zaman
Həm qaravaş adı bir oldı haman 83 (7, s. 119)

……

Gög atamuz yer anamuzdur yəqin
Ol ikinüñ oğlıyuz biz üş həmin 89 (7, s.120)

Bəqərə surəsi 107-ci ayədə Tanrı, "Məgər sən bilmirsən ki, göylərin və yerin səltənəti (hökmranlığı) ancaq Allaha məxsusdur və sizin Allahdan başqa bir dostunuz və yardımçınız yoxdur?!" (9, s. 18); yenə həmin surənin 117-ci aytində "Göyləri və yeri icad edən (yoxdan yaradan) Odur. Bir işin yaranmasını istədiyi zaman, ona (o işə) yalnız: "Ol !" -deyər, o da (fövrən) olar" (9, s. 20) deyə buyurmuşdur. İzzəddin Həsənoğlu da məsnəvidə həmin anlayışı,

"Qamu xalqı yaradan Xaliq oldur
Qamuya rizq virən Raziq oldur" 10202 (7 s.731) şəklində dilə gətirmişdir.

Keçmiş vaxtlarda ölüm babalarımızın dilində "uçmaq" kimi dilə gətirilmişdir. Azərbaycanda bu səbəblə ölənlər üçün "ruhu bacadan uçdu" ifadəsi işlədilir. Bu da ölən şəxsin Tanrıya yaxın olduğunu və Tanrının onu öz yanına qanadlandıraraq apardığına işarət edir. Mifik çağlarda insanı vahiməyə salan hadisələr Tanrının qəzəbi kimi yozumlanmışdır. Azərbaycanda da belə hallarda "göy guruldadı, yer titrədi", "göy (göy-yer) titrəyir" (5, s. 251) şəklində dilə gətirilən ifadələr vahimədən xəbər verir. "Göylərə baş qaldırmaq=Şərəfli bir ömür sürmək" (6, s. 1315) ifadəsi də bir kəsin Tanrının istədiyi yolda yeridiyinə işarət edir. Həsənoğlu da bu anlayışı aşağıdaki beytdə dilə gətirmişdir:

"Vücudindən ev ici cənnət oldı
Bu uçmaq şahı ol Rizvanə bənzər" 442 (7, s. 144).

XV yüzildə vəfat etmiş Ələvi ozanı Həsən Dədə "Yerlərin göklərin binasın düzən" (20, s. 148) deyib hər bir şeyi Tanrının nizamladığına işarə etmişdir. Azərbaycan Türkləri "Göyə üz çevirmək=Tanrıya yalvarmaq" (5, s. 251); "Tanrıñ yerə tökülsün=Göy başına uçsun" (5, s. 496); "Tanrısına şıllaq (təpik) atmaq=Yaxşılığa qarşı pislik eləmək; əlindəkinin qiymətini bilməmək" (5, s. 496); "Tanrı törpüsü dəyməmək=Həddən artıq kobud olmaq" (5, s. 495); "Tanrı deyəni demir=El razılaşanla razılaşmır; rüsvayın biridir" (5, s. 495) kimi idiomatik ifadələrlə dilə gətirərək nizamsızlıqla bağlı ifadələri gətirir. İzzəddin Həsənoğlu da Tanrının kainatı yaratmasının əsl məqsədinin özünə səcdə edilməsini arzuladığını aşağıdakı beytlərlə vurğulamışdır.

"İşbu aləm Tañrınuñ bir qövlidir
Qullığında bəndəsi yoqsulidir" 74 (7, s. 119).

Ural-Altay bölgəsində yaşayan türk xalqlarının qamları Tanrı adına qurban kəsildiyində bir çadır quraraq özünə yardımcı olacaq ruhları səsləmək məqsədilə qavalını çalıb ruhları qavalının içinə doldurur. Qaval ağırlaşıb o götürə bilməyəcək həddə çatanda qam durub çadırın ortasına sancılmış qayın ağacının ətrafında fırlanmağa başlayır (21, s. 255). Dikilmiş həmin dirək qamın Tanrının dərgahına yüksələ biləcəyi nərdivandır. Qam onun ətrafında fırlanıb özünü Tanrı qatına yüksəldən dirəyə hörmətini bildirir. Azərbaycanda da bu inam "Başına dolanmaq; Başına dönmək=Özünü ona fəda etmək; çox sevmək, əzizləmək" (5, s. 96) kimi ifadələrlə dilə gətirilir.

Ulu babalarımızın inamına görə də göyün müəyyən qatları vardır. Şərq türklərinə görə göy doqquz mərtəbəlidir, ancaq qərb türklərinin inamına görə isə yeddi qatdan ibarətdir (28, s. 55-56). Azərbaycandaki mifik anlayışa görə də, göy yeddi təbəqədən ibarətdir (1, s. 26). Türkiyədə yaşayan Taxtaçı Türkmənlərinin inamına görə Tanrı göyün yeddinci qatında və bir pərdə arxasında əyləşmişdir. Möminin surəsinin 17-ci ayəsində "And olsun ki, Biz sizin üstünüzdə yeddi yol (göy) yaratdıq. Biz (onların altındakı) məxluqatdan da xəbərsiz deyilik. (Onları qoruyub saxlayır, nə etdiklərini bilirik)." (9, s. 301). 18-ci ayəsində isə "Yeddi göyün Rəbbi və ərşin Rəbbi kimdir? - deyə sor" (8, s. 346); Mülk surəsinin 3-cü ayəsində "Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur. (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq (çatdaq, nöqsan) görə bilərsənmi?!" (9, s. 565) -deyilib. İşarət edilən ayətlər də göstərir ki, müqəddəs kitabımız Quran da göylərin yeddi qatdan ibarət olduğuna
işarət etmişdir.

İzzəddin Həsənoğlunun "Kitabi-sirətin-nəbi" adlı məsnəvisində

"Yedi göglər qamu nur ilə ṭoldı
Təbəssüm itdi çün lütfilə güldi"

445 (7, s. 144) deyərək göylərin yeddi qatı olduğunu vurğulamışdır. Göylə bağlı ifadələr "Sirətin Nəbi"nin birçox yerdə öz əksini tapmışdır:

"Haq düzəldən yerlər ilə göglәri
Düzmədi bir ancilayın sərvəri" 1492 (7, s. 210)
"Yidi göglərdə aduñ Sıddıq ola
Haq saña Rizvanını ruzi qıla" 2249 (7, s. 257)
"Durmadıq andan dəxi olduq rəvan

Cünki dördünci gögə irdik haman" 2961 (7, s. 300)
"Yüridik cün oradan dəxi gitdik

Ol altıncı gögə bir dəmdə yetdük" 3129 (7, s. 310) deyə dilə gətirilən beytlərdə Həsənoğlu həmin anlayışı vurğulamış və Quranda da buyrulduğu kimi göylərin yeddi təbəqədən olduğunu vurğulamışdır. Həsənoğlunun yazdığı bu misralar İslam dini ilə səsləşsə də onlar Türk millətinin mifik çağlardan bəri malik olduğu səmavi xarakterli inamını əks etdirmişdir. Deməli, mifik çağlarda, İslam dininin gəlməsindən minlərlə il qabaq ulu babalarımızın Tanrını göylərdə təsəvvür etmələri və ona tapınmaları, göyü yeddi təbəqə olaraq bilmələri onların tarix boyu səmavi dinə inandıqlarını da sübut etmiş olur -Şərq türklərinə görə göy doqquz təbəqədir. Yunus Əmrə də aşağıdakı beytində, "Ümmi bənəm Yunus bənəm dokuz atam dörtdür anam Eşk odına düşüp yanam sud u ziyan nəmdür bənüm" deyərək göylərin doqquz təbəqə və təbiətdə olan hava, torpaq, su, atəş kimi dörd ünsürü vurğulamışdır. Ancaq bu qatlar deşilə bilər.

Anadoluda şiddətli yağış yağdığında "göy dəliniR" (27, s. 1395) deyilməkdədir. Azərbaycanda isə belə anlarda "göyün qarnı cırılıb" deyirlər. Anadoluda boyu çox uzun olanlara "göyə mərdivən dayamış" (27, s. 1393), əlçatmaz yerlərə çıxanlara "göyə mərdivən kurar", Azərbaycanda da çox ucaboy adama "Tanrıya pay aparır" ifadələrini işlədirlər ki, bunlar da həmin anlayışı əks etdirməkdədir.

Nəticə. Göy, türk millətinin mifik təfəkkür tarixində xüsusi yerə malikdir. Babalarımız Tanrının əlçatmaz göylərdə olduğunu fikirləşmiş, göyü həm Tanrının məkanı kimi qəbul etmiş, həm də göyün onu təmsil etdiyinə inanmışdır. Bu düşüncənin müəyyən türk xalqının anlayışında da eynilə yaşadığı nümunələrlə əks etdirilmişdir. Kaşqarlı Mahmud "Divani-Lüğatit-Türk" adlı əsərinin üçüncü cildidin 377-ci səhifəsində bu əsərini hazırlayarkən Oğuzların yaşadıqları yerlərdə dolanarkən onların əlini göyə açıb "Təñri" deyə səslənməsini yadırğamış və "Yerə batası kafirlər göyə Təñri deyir" deyə tənqid etmişdir. Kaşqarlı müsəlman idi, ancaq Oğuzlar isə hələlik Tanrıçılıq inamında idi, yəni müsəlman deyildi. Uzaq Sibirdən Anadoluya, uyğurların yaşadığı Şərqi Türküstandan Azərbaycana kimi olan coğrafiyalarda yaşayan hər bir türk xalqının dilində göy xüsusi anlama malikdir. Güneyli-qüzeyli Azərbaycan türkləri də göylə bağlı mifik anlayışlarını alqışlarında, qarqışlarında və deyim deyilən idiomatik ifadələrində bugün də davam etdirir.

İstifadə edilmiş ədəbiyyat

1. Acal, Arif – Bəydili Calal. Əsatirlər, Əfsanə və Rəvayətlər. Bakı: Şərq-Qərb, 2005
2. Acalov Arif. Azərbaycan Mifoloji Mətnləri. Bakı: Elm, 1988
3. Akaydın, Hâli, Ahmet Harami Destanı, Tercüman, 1001 Temel Eser, İstanbul, 1972, 185 s.
4. Akpınar, Yavuz, Azeri Edebiyatı Araştırmaları, İstanbul: Dergâh, 1994, 512 s.
5. Altaylı, Seyfettin, Azerbaycan Türkçesi Deyimler Sözlüğü. Ankara: Prestij, 2005
6. Altaylı, Seyfettin, Azerbaycan Türkçesi Sözlüğü, C. I, Ankara: TDK, 2018
7. Altaylı, 2023, Kitâb-ı Siretü'n-Nebi, Ankara: Altınordu Yayınları, 934 s.
8. Ateş, Süleyman, Kur'an-ı Kerim ve Yüce Meali. Ankara: Kılıç, 2007, 604 s.
9. Bünyadov, Ziya - Məmmədəliyev, Vasif, Quran Tərcüməsi, Bakı: 1992, 1113 s.
10. Devletşah-II, 1977, Devletşah Tezkiresi, İstanbul: Tercüman Yayınları, 167 s.
11. Dilek, İbrahim, Altay Türklerinin Ata Sözleri, Türk Dünyası Dil ve Edebiyat Dergisi, TDK
12. Eliade, Mircea, Şamanizm (Çev.: İsmet Birkan), Ankara: İmge, 1999, 560 s.
13. Gökyay, Orhan Şaik, Dede Korkut Hikâyeleri. İstanbul: Kabalcı, 2006, 229 s.
14. Gömeç, Saadettin, Kök Türk Tarihi, Türksoy Yayınları, Ankara, 1997, 188 s.
15. Günay, Ünver - Güngör, Harun, Başlangıçtan Günümüze Türklerin Dini Tarihi, Ankara: Ocak, 1997, 406 s.
16. Kafesoğlu, İ. Türk Milli Kültürü. İstanbul: Ötüken, 17. basım, 1998, 466 s.
17. Mengi, Mine, Eski Türk Edebiyatı Tarihi, 2015, Ankara: Akçağ, 433 s.
18. Ögel, Bahaeddin, Büyük Hun İmparatorluğu Tarihi, C. I, Ankara:Kültür Bakanlığı Yayınları, 1981, 642 s.
19. Ögel, Bahaeddin, Türk Mitolojisi, C. I, Ankara: TTK Yayınları, 1989, 644 s.
20. Ögel, Bahaeddin, Türk Mitolojisi, C. II, Ankara: TTK Yayınları, 2010, 778 s.
21. Radloff, W, Sibiryadan Seçmeler, (çev.: A, Temir). İstanbul: Kültür Bakanlığı Yayınları, 1976, 408 s.
22. Roux, Jean-Paul, Türklerin ve Moğolların Eski Dini, İstanbul: İşaret Yayınları, (çev.: A.Kazancıgil), s. 312
23. Şentürk, Ahmet Atilla - Kartal, Ahmet, Eski Türk Edebiyatı Tarihi, İstanbul: Dergâh Yayınları, 2014, 640 s.
24. Tekin, Talat, Orhon Yazıtları. Ankara: TDK Yayınları, 2006, 200 s.
25. Togan, Zeki Velidi, Umumi Türk Tarihine Giriş. İstanbul: İsmail Akgün Matbaası, 1946, 486 s.
26. Turan, Osman, Türk Cihan Hakimiyeti Mefkuresi Tarihi. İstanbul: Boğaziçi Yayınları, 1995, 347 s.
27. Türkçe Sözlük, Ankara: TDK yayınları, 2011, 2244 s.
28. Yörükan, Yusuf Ziya, Şamanizm, Ankara: Yol Yayınları, 2005, 221 s.

Açar sözlər: Mif, deyimlər, göy, təbiət, Tanrı, Türk
Key words: Myth, idioms, sky, nature, god, Turkish
Ключевые слова: Миф, поговорки, небо, природа, Бог, Тюрк

Xülasə

İnsanlığın ilkin inamı mifik çağlardan başlamışdır. Xüsusilə təbiətdə hər fəsildə müşahidə olunan dəyişiklik, günəşin hər gün bir yerdən çıxıb əks yerdə batması, gecənin düşməsi, göydən xəlbirdən tökülürcəsinə suyun ələnməsi,

dolunun, insanı üşüdən qarın yağması, təbiəti alt-üst edən tufan, zəlzələ, gecələr dünyanı bürüyən qaranlıq, qaranlıqları işığa qərq edən ay və uzaqlardan göz qırpan ulduzlar insanların şüurunda bütün bunların gizli bir qüvvə tərəfindən yaradıldığı inamını meydana gətirmişdir. Əlbəttə, bu inamın kökündə o qüvvəyə duyulan qorxunun yaratdığı hörmət də dayanmışdır. Hər bir xalq özünəməxsus bir inam sistemi və Tanrı anlayışı yaratmışdır. Bu anlayış özünü türklərdə səmavi xarakterdə, bəzi xalqlarda isə büt şəklində göstərmişdir. Bu cür inanclarda Tanrı ilə insan arasında bir əlaqə qaynağının olması və bu inamın yayılması dildən asılı olmuşdur. İnam sisteminin dil içində kök salmış ünsürlərindən ən ömənlisi deyimlər olmuşdur. İdiomatik ifadələr bir anlayışı çatdırmaq, onu üzə çıxarmaq üçün xüsusi şəkildə yaradılmış ifadə qəliblərdir. Ancaq bu qəliblər Türk millətinin inanc fəlsəfəsinin ən dərin qatlarını və mifik anlayışının izlərini də özündə hifz etmişdir. Mifin dünyanı dərk etmə sistemi, mifologiyanın da onu öyrənən elm olduğu məlumdur. Məhz buna görə də mifologiya insanın ruh dünyasını simvollarla dilə gətirən güzgüyə oxşadılmışdır. Türk mifologiyasının əsas ilham qaynağı Tanrı, onu təcəssüm etdirən ünsürlərin başında da göy yer tutur. Türk millətinin göylə bağlı anlayışı mifik çağlardan tutmuş onun dilində və ədəbiyyatında da öz əksini tapmışdır. Bu məqalədə Azərbaycan Türkcəsində və bəzi Türk xalqlarında göylə bağlı ifadələri, qədim əsərlərdə dilə gətirilən göylə bağlı anlayışları, inamları çatdırmağa çalışacağıq.

Summary

The first belief in humanity began in mythological ages. Especially the reason of the seasonal changes in nature, the sunrise and the sunset, formation of night, rain, hail, snow, flood, earthquake, the moon and the stars covering the darkness of the night are created the belief in human mind, all these were created by a hidden force. But on the basis of this belief, there is an admiration for that force created by fear. Every nation has created an unique belief system and a belief in God. This belief has shown itself in some societies (Turks) as divine religion and in some societies as idols. In such beliefs it is largely dependent on language, that establish a bond between god and human and the spread of that belief. The most prominent components of the belief system are phrases, rooted in the language. Phrases are a form of expression specially designed to convey and describe a concept. But these patterns carry the deepest layers of the Turkish religion philosophy and the traces of our mythology. As is known that myth is a system of understanding the world and mythology is a science that learns it. That is why mythology is a mirror that symbolized the human spirit with symbols. The main source of inspiration for Turkish mythology is God and the sky is at the beginning of the elements that embody God. Turkish people understanding of the sky has been found in his language and literature from the mythical ages. We will try to convey the phrases about sky related to the Azerbaijani Turkish language in this notice and beliefs, understandings about sky in old literary works.

Резюме

Первоначальная вера человечества началась с мифических эпох. Особенно изменения, наблюдаемые в природе в каждое время года: солнце, каждый день встающее из одного места и заходящее в другом месте, наступление ночи, льющаяся с неба вода, град, снег, от которого людям становится холодно, бури, сбивающие с толку природу, землетрясения, поздняя Тьма, охватившая весь мир, заходящая луна, освещающая тьму и мерцающие издалека звезды, создали в сознании людей веру в то, что все это создано скрытой силой. Конечно, в основе этой веры лежит уважение, вызванное страхом перед этой силой. Каждая нация создала свою собственную систему верований и концепцию Бога. Это понятие имеет у тюрков небесный характер, а у некоторых народов оно проявлялось в виде идола. Существование источника общения между Богом и человеком, заключающегося в таких верованиях, и распространение этого верования зависели от языка. Идиомы являются наиболее важными элементами системы убеждений, укорененных в языке. Идиоматические выражения – это выражения, созданные особым образом для передачи понятия и раскрытия его. Однако эти образцы сохранили глубочайшие пласты мировоззрения тюркского народа и следы мифологической концепции. Известно, что миф – это система понимания мира, а мифология – наука, его изучающая. Именно по этой причине мифология уподобляется зеркалу, выражающему с помощью символов духовный мир человека. Главным источником вдохновения в тюркской мифологии является Бог, а небо является вершиной олицетворяющих его стихий. Понимание неба тюркской нацией нашло отражение в ее языке и литературе с мифических времен. В этой статье мы попытаемся передать выражения о небе у азербайджанских тюрков и некоторых тюркских народов, представления о небе, выраженные в древних произведениях.

RƏYÇİ: dos. E.Vəliyeva

Suqra Teymur qızı Rəhmanova [48]

MƏHƏMMƏD FÜZULİ TÜRKDİLLİ KLASSİK POEZİYANIN BANİLƏRİNDƏN BİRİ KİMİ

Çoxşaxəli elmi-fəlsəfi biliyə və dərin bədii yaradıcılıq istedadına malik, dünya ədəbiyyatı tarixində türk dilində qələmə alınan qəzəl, qəsidə və s. kimi klassik poetik ədəbi nümunələrinin müəllifi, bu sahədə ən yüksək zirvəni fəth etmiş ustad sənətkar və mütəfəkkir şairlərdən biri hesab edilən Məhəmməd Süleyman oğlu Füzuli 1494-cü ildə Bağdad yaxınlığındakı Kərbəla qəsəbəsində XV əsrin axırlarında İraqa köç etmiş azərbaycanlı ailəsində dünyaya göz açmışdır. O öz yaradıcılığı ilə Xaqani, Nizami, Rumi, Nəsimi, Yunus Əmrə, Nəvai, Xətai kimi ölməz şeir-sənət adamlarının və bədii-fəlsəfi fikir ustadlarının klassik şeir yaradıcılığı rekordunu təzələmiş və bütün müsəlman və Şərq xalqlarının ədəbiyyatı tarixində klassik Azərbaycan-türk poeziyasının tacidarı kimi tanınmışdır.

Professor Samət Əlizadənin sözləri ilə desək, "hələ heç kim Şərqin üç möhtəşəm dilində (türk, fars və ərəb) divanlar bağılayaraq Füzuli kimi mükəmməl əsərlər yarada bilməmişdir; heç kimin qələmi mənsub olduğu dövrün ədəbi aləmindəki bütün əlvan forma və janrların sınağına məruz qalarkən Füzuli qələmi kimi gözəl və cilalı nümunələr yaratmamışdır; "qəlb şairi" kimi tanınan şairimiz qədər heç kim oxucu ürəyinə hakim kəsilməmişdir; ikinci elə bir şair tapmaq çətindir ki, onun yaratdığ ədəbi məktəb qədər sirayətedici olsun və öz davamçılarını çıxılmaz təsir dairəsində saxlamaq iqtidarında olsun; orijinal və təkrarsız üslub sahibi olan Füzuli kimi heç kəs ədəbi yaradıcılıq qarşısında müxtəlif dövrlərin (ictimai quruluşların) və zamanların sınağından uğurla çıxa bilmək keyfiyyətini elmi-tarixi və mənəvi dəyər şərti kimi irəli sürməmiş və öz yaratdığı əsərlərlə bu şərti dolğun şəkildə doğrultmaq mümkün olduğunu sübuta yetirməmişdir: fars və ərəb dillərində də yazmaqla və bu dillərdən bəhrələnməklə yanaşı, ədəbi dilimizi tarixən heç kəs Füzuli kimi həmin dillərin hegemonluğundan xilas edə bilməmişdir; nəhayət, çox az şairə müyəssər olar ki, mənəviyyatı, qəlbi və ruhu hər misrasından görünsün və əzəli məhəbbətdən, səmimilikdən yoğrulmuş ədəbi şəxsiyyəti yaradıcılığında və üslubunda Füzulidəki qədər bütün əzəməti və aydınlığ ilə həkk olunsun!.. Füzulini Azərbaycan ədəbi dili tarixində klassik şeir üslubunda yazan yeganə şair hesab etmək olar ki, ana dilinin leksik-qrammatik və üslubi sistemindəki xəlqi istiqaməti, daxili qanunauyğunluqlarla sabitləşən cəhətləri əsas götürüb, yaradıcılıq boyu mühafizə və inkişaf etdirmiş, ədəbi-bədii dil sahəsindəki məramını axıradək əməli olaraq həyata keçirmişdir. Şairin belə bir yol seçməsi öz şeir dilini ən əsas profillərdə xalq dilinə yaxınlaşdırmaqdan irəli gəlmişdir. Başqa cür ola da bilməzdi, çünki Füzuli üçün "dilin dühası... yazıçılardan daha ağıllıdır" (3, s. 24).

Bir çox tarixi mənbələrdə şairin mükəmməl təhsil alması, zəmanəsinin əksər elmlərini dərindən öyrənməsi və dərin biliyinə görə onun "mövlana" adlandırılması barədə məlumatlar verilməkdədir. Erkən yaşlarından "Füzuli" təxəllüsü ilə əsərlər yazmağa başlayan bu dahi sənətkar şairliklə yanaşı dini ocaqlarda da xidmət etmiş, müasirləri tərəfindən əsasən İmam Hüseyn aşiqi kimi tanınmışdır. Onun Azərbaycan türkcəsində qələmə aldığı "Hədiqətüs-süəda" və fars dilindən tərcümə etdiyi "Hədisi- ərbəin" ("Qırx hədis) əsərləri də məhz şairin geniş dini savadının olmasının bariz nümunələridir. Bundan başqa o, Səfəvi və Osmanlı hökmdarları tərəfindən yüksək hörmətlə qarşılanmış, lakin saray şairi olmaqdan uzaq durmuşdur. O dövrün mühüm mənbələrindən sayılan təzkirələrdə şairin həyatı haqqında müfəssəl məlumatlar verilməsə də, onu şəxsən tanıyan, onunla həmsöhbət olan müasiri Əhdi Bağdadi özünün "Gülşəni-şüəra" adlı təzkirəsində şairi bilik və mərifətdə kamil, dərinmənalı, yeni məzmunlu fikir söyləməkdə misilsiz bir sənətkar kimi təqdim etmişdir. Təzkiraçi, həmçinin onun xoşxasiyyət, şirinsöhbət bir insan, böyük hörmət sahibi və alim kimi tanındığını da qeyd etmişdir.

Məhəmməd Füzuli özündən sonra çox böyük və qiymətli ədəbi-bədii irs qoyub getmişdir. Onun əsərlərindən Azərbaycan türkcəsində qələmə aldığı "Divan"ı, "Leyli və Məcnun", "Bəngü badə", "Söhbətül-əsmar" adlı poemaları, "Hədiqətüs-süəda" və "Şikayətnamə" adlı nəsr əsərləri, fars dilində "Divan"ı, ana dilində, farsca və ərəbcə yazılmış qəsidələrdən ibarət "Divan"ı, fars dilində yazdığı "Həft cam" poeması, "Rindü Zahid", "Səhhət və Mərəz" adlı nəsr əsərləri, ərəb dilində "Mətləül-etiqad" adlı elmi-fəlsəfi əsəri və başqa əsərlərinin adlarını qeyd etmək olar. Ədəbiyyat aləmində daha çox lirik şair kimi tanınan və sevilən Füzuli klassik şeirin qəzəl, qəsidə, mürəbbe, müxəmməs, müsəddəs, təxmis, qitə, rübai və s. janrlarına müraciət etmiş və bu klassik ədəbi-bədii janrların hər birində ümumbəşəri əhəmiyyətə malik dəyərli əsərlər yaratmışdır.

Bütün Şərq ədəbiyyatı tarixində ilk dəfə "Leyli və Məcnun" əsərini ilk qələmə alan dahi Azərbaycan şairi Nizami Gəncəvi olsa da, bütün müsəlman Şərqində bu mövzuda qələmə alınan əsərlərin zirvə nöqtəsini məhz Məhəmməd Füzulinin 1537-ci ildə qələmə aldığı "Leyli və Məcnun" əsəri təşkil etmişdir. Poemada şair bir sıra münasibətlər kompleksi yaratmışdır ki, onlar da psixoloji-mənəvi aləmdə baş verən ziddiyyətlərin təcəssümüdür. Həmin cəhət poemada Məcnun surətində ifadəsini tapmışdır. Füzuli qəhrəmanı hiss adamıdır. O, dünyaya göz açdığı ilk anlardan həyatla qarşı-qarşıya durur, gələcəkdə keçirəcəyi faciəli günləri üçün ağlayır. Elə ilk günlərdən Füzuli qəhrəmanı ictimai mühitlə uyğunlaşa bilmir, onun həssas daxili aləmi belə həyat tərzi ilə təzadda olur. Hakim ictimai normalarla mənəvi mübarizəyə girişən Füzuli qəhrəmanı eşqi və sədaqəti həqiqi amal, kamal və qəhrəmanlıq səviyyəsinə qaldırmışdır. Füzulinin ideal qəhrəmanı bədii bir obraz kimi diqqətəlayiq cəhətlərə malikdir. Məcnun surətində bədii ümumiləşmədən daha çox fərdi cizgilər vardır. Füzuli dövrün mühüm ictimai hadisələrinə Məcnun obrazı ilə əlaqədar epizodlarda geniş şəkildə toxunmuşdur. Füzulinin yaratdığı Məcnun obrazı şairin müasiri kimi qarşımızda canlanır. Müəllif Məcnun surətini dövrünün canlı xarakteri səviyyəsinə qaldırmışdır, çoxcəhətli həyat dramı məhz bu surət vasitəsiylə əks olunmuşdur. Böyük sənətkar müasiri olduğu cəmiyyətin bütüm ziddiyyətlərini bu obraz vasitəsi ilə əks etdirməyə, ictimai mühitin qüsurlarına münasibətini bildirməyə çalışmışdır.

[48] BDU-nun "Türkoloji araşdırmalar" ETL-in elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru

"Leyli və Məcnun" əsərindən başqa şairin digər üç poeması alleqorik səciyyəli olub müxtəlif mövzularda yazılsa da, ideya baxımından bir sıra oxşar cəhətlərə malikdir. Belə ki, bu əsərlərdə mənasız müharibələr və insan qırğınları ("Bəngü Badə"), şöhrətpərəstlik, mənəmlik ("Söhbətül-əsmar"), cəmiyyətdə, ictimai quruluşda müşahidə edilən eyiblər ("Həft cam") kəskin tənqid edilmişdir.

Bundan başqa, Yaxın Şərq ədəbiyyatında klassik nəsrin böyük ustadı hesab edilən Məhəmməd Füzulinin "Şikayətnamə" adlı nəsr əsəri çox böyük ictimai məzmunu və bədii dəyəri ilə seçilir. Ana dilində qələmə alınan "Hədiqətüs-süəda" adlı tərcümə əsərində isə Kərbəla müsibəti, İmam Hüseynin və tərəfdarlarının məşəqqətli həyatı, fəaliyyəti, məhrumiyyətləri əks olunmuşdur. Fars dilində yazılmış "Rindü Zahid" əsərinin ideya-məzmununun əsasında insan, həyat haqqında fərqli baxışların qarşılaşması, mübahisəsi dayanır. "Səhhət və Mərəz" alleqorik əsərində isə müəllifin elmi, dini-fəlsəfi və sufi-panteist görüşləri vəhdət şəklində ifadəsini tapmışdır. Füzulinin fars "Divan"ında qitələr hissəsi xüsusi əhəmiyyətə malikdir. Şairin qəzəllərində üstüörtülü, eyhamla irəli sürdüyü fikirlər qitələrdə açıq şəkildə ifadə olunmuşdur. O, burada əxlaqi-tərbiyəvi əhəmiyyəti olan məsələlərdən açıq danışmış, xüsusən hakim təbəqəyə olan münasibətini aydın ifadə edərək, özünün yoxsullar şairi olduğunu göstərmişdir. Qitələrinin birində şair dövrünün ayrı-ayrı təbəqələrini çox məharətlə səciyyələndirir.

Füzuli ədəbiyyat tarixində mahir tərcüməçi kimi də tanınmışdır. Tərcümələri arasında "Hədisi-ərbəin" ("Qırx hədis") önəmli yer tutur. Fars-tacik şairi Əbdürrəhman Caminin eyniadlı əsərini ana dilinə tərcümə etməklə şair türkdilli oxucuların bu məşhur əsərdən faydalanmaları, zövq almaları məqsədini güdmüşdür.

Fuzuli irsində klassik şərq poeziyasına xas məqlub ilə qədim türk -Azərbaycan xalq şeirinə məxsus alliterasiya bir vəhdətdə cıxış etdiyindən cox zaman bunları fərqləndirmək asan olmur. Ulu sənətkarımızın uslubunu bir də bu cəhət fərqləndirir. İki muxtəlif poetik sistemin imtizacından Fuzuli poetikası doğmuşdur. Turkun boyuk oğlu Şərqin dahisinə cevrilmişdir. Muxtəlif dillərin zəngin leksikasına dərindən bələd olan ustad ucun şeirdə yuksək dərəcədə ahəngdarlıq yaratmaq bir o qədər də cətin olmamışdır. Qədimlərdən bəri turk yazılı şeiri ucun məqlub səciyyəvi olmamışdı və turk sozləri bu movqedə imtahandan kecirilməmişdi. İlk dəfə məhz boyuk Fuzuli əsl turk sozlərinə əsaslanmaqla da məqbul prinsipi əsasında şeirlər yazmaq numunəsi vermişdir. Azərbaycan sozlərinin də əvvəlindən, ortasından, sonundan bir hərfi (səsi) atmaq, əlavə etmək, əvəz etmək və s. yolu ilə bənzər vahidləri eyni sintaşda işlətmək və bununla da ahəngdarlıq əldə etmək mumkun imiş. Nəzərə alınsın ki, ərəb və ya fars sozlərindən şeirdə məqlub duzəldilməsinin tarixi qədimdir və Şərq şairlərində geniş yayılmışdır.

Professor Musa Adilovun bu haqda fikirləri çox mühüm əhəmiyyət kəsb edir: "Ulu Fuzulimizin sərrast gozu ana dilimizin daxili mahiyyətində bərqərar olan şeiriyyəti əla gorurdu. Xalq dilinin kulli miqdarda ifadələrində: atalar sozlərində, idiomatik ifadələrdə, frazeoloji birləşmələrdə məqlubun muxtəlif novlərinə xas bədiilik usulları vardır ki, bunlar elə ozluyundə şairanələyi ilə fərqlənir. Bunları klassik poetik ədəbiyyata gətirməklə vətənpərvər sənətkar eyni zamanda bir necə uğur əldə etmiş olurdu: həm ana dilinə xidmət gostərir, onun poetik vüsətini əməli olaraq aşkarlayıb uzə cıxarır, həm də hazır bədii ifadəlilik vasitələri əldə etmiş olurdu. Komponentləri məqlub səciyyəsi təşkil edən ifadələr Fuzuli irsində buna gorə belə geniş yer tutur (1, s. 44-45).

Məhəmməd Füzuli yaradıcılığı xüsusilə də XX yüzillikdə Türkiyədə, Azərbaycanda, eləcə də başqa ölkələrdə Füzulinin həyat və yaradıcılığı, dili və üslubu haqqında onlarca tədqiqat əsəri yazılmışdır. M.F.Köprülü, Ə.Qaraxan, Ə.Tərlan, H.Araslı, Y.Bertels, Ə.Gölpınarlı, Mir Cəlal, M.Quluzadə, M.C.Cəfərov, Ə.Cəfər, V.M.Qocatürk, H.Mazıoğlu, Ə.Dəmirçizadə, H.Mirzəzadə, Ə.Mirəhmədov, F.Qasımzadə, M.Adilov, T.Hacıyev, A.Vəfalı, Ə.Səfərli, S.Əliyev, A.Rüstəmova, V.Feyzullayeva və başqalarının kitabları, məqalələri bu gün də elmi dəyərini saxlamaqdadır.

Füzuli göstərir ki, əmək, zəhmət xilqətin özündədir. Varlıq özü əmək deməkdir. "Mən varlıqlara idrak və hissiyyat gözü ilə baxaraq, təfəkkür və düşüncə addımları ilə onları seyr edərək gördüm ki, hər hansı cinsə aid olan növ, hər hansı növə aid olan sinif, hər hansı sinfə aid olan fərd və hər hansı fərdə aid olan bir üzv istər iradə ilə, istərsə iradəsiz olaraq, mütləq bir işlə məşğuldur. Buna görə də fəaliyyətsizlik və laqeydlikdən çəkinərək, ömrümü qəflətdə korlamaqdan saqındım və işlərdən birini seçdim ki, onunla qismətim və bacarığım qədər bilik kəsb edəm... Beləliklə, mən sözləri nəzmə çəkmək yoluna düşdüm", – deyir. Bu sözlərdən aydındır ki, Füzuli fəaliyyətsizliyi, laqeydliyi İnsanı korlayan qəflət adlandırır, onu müəyyən bir işdə çalışmağa, həyata fəal münasibət bəsləməyə çağırır.

Füzuli şeirdə bədii tənasübü gözləyərək əski şərqi və nəğmə ənənələrinə sadiq qalır. Ayrı-ayrı beytlərdə həmqafiyə sözlər xüsusi bir poetik harmoniya yaradır. Şair ahəngdar söz düzümünü, həmqafiyə və həmvəzn ifadələri səcli nəsrində də qoruyub saxlayaraq nəsrin poetikasına yeni bir gözəllik gətirir, nəsr ilə şerin vəhdətinə çalışır. Füzuli anadilli ədəbiyyatımızda orta əsrlərin, daha doğrusu, İntibah dövrünün yetişdirdiyi ən böyük sənətkardır. Füzulidən bəhs edən əksər tədqiqatçılar, tarixçi və təzkirəçilər onu bütün türkdilli ədəbiyyatın ən böyük nümayəndəsi kimi tanımış və təqdim etmişlər. Özündən əvvəlki Şərq mədəniyyətinin ən yaxşı ənənələri əsasında tərbiyələnən sənətkar özündən sonrakı ədəbiyyata güclü təsir göstərmişdir. Əsrlər boyunca şairlər Füzulini ötmək yox, ona yaxınlaşmaqla fəxr etmişlər. Qövsi, Məsihi, Saib, Nəbati, Seyyid Əzim Şirvani, Vaqif, Vidadi, Əlağa Vahid Füzulini ustad kimi qəbul etmiş, ondan öyrənmişlər. Füzuli təkcə "nazimi-ustad" yox, həm də şairi-ustaddır (4, s. 22).

Beləliklə, müəyyənləşmiş xalq dili əsasında doqquz əsrlik yazı yolu keçmiş Azərbaycan türkcəsini hazır olan tarixi-siyasi, iqtisadi və mədəni şəraitdə M.Füzuli milli ədəbi dil kimi gerçəkləşdirdi. Dilçilikdəki məlum qəliblə desək: M.Füzuli Azərbaycan milli ədəbi dilinin banisidir. Bu o deməkdir ki, M.Füzuli dilinin qrammatik quruluşu və əsas lüğət fondu Azərbaycan-türk millətinin (bu, eynən Azərbaycan xalqı deməkdir) dilinin əsasıdır və müasir milli Azərbaycan ədəbi dilinə

uyğundur. Bu halda Füzuli dilinin müasir azərbaycanlılara nə dərəcədə aydın olub-olmaması meyar deyil. Əsas odur ki, bu gün dilimizdə mövcud olan elə sözdəyişdirici (qrammatik) şəkilçi yoxdur ki, Füzulidə olmamış olsun; bugünkü söz birləşməsi növləri – təyini söz birləşmələri, feli sifət, feli bağlama, məsdər tərkibləri, sadə və mürəkkəb cümlə tipləri onun dilində var. Füzuli dilindəki frazeoloji birləşmələrin, atalar sözləri və məsəllərin hamısı müasir Azərbaycan dilində yaşayır və işlənir. Eləcə də məhz bu əsasdır ki, Füzuli dövrü Azərbaycan dilinin əsas lüğət fondu bu gün qalır. Fərq lüğət tərkibindədir. Lüğət tərkibi baxımından tarixi, siyasi, mədəni şəraitlə bağlı olaraq hər əsr özündən əvvəlkindən fərqlənir (bu, təbiidir və bütün dünya dillərinə aiddir). Bu gün müasir Azərbaycan türkcəsində ünsiyyətdə qalan, işlənən elə ərəb, fars sözləri yoxdur ki, bunlar Füzuli dilində işlənməmiş olsun.

Akademik Tofiq Hacıyevin sözləri də bu baxımdan çox mühüm əhəmiyyət kəsb edir: "Füzuli üslubi diferensiasiya anlayışını yaratdı və Azərbaycan ədəbi dilini leksik və qrammatik baxımdan bütün üslubi imkanlarla təmin etdi – müvafiq mədəni şərait istənilən funksional üslubu işə sala bilərdi. Yəni Avropa elmində milli ədəbi dil deyilən səviyyəni Azərbaycan türkcəsi üçün Füzuli hazırladı" (2, s. 21-26).

İstifadə edilmiş ədəbiyyat

1. Adilov M.İ. Məhəmməd Fuzulinin uslubu və poetik dili. Azərbaycan dilində. Muəllimlər və tələbələr ucun vəsait. 680 s.
2. Hacıyev T. Azərbaycan milli ədəbi dili məsələsinə bir baxış. Bakı Universiteti xəbərləri, Humanitar elmlər seriyası № 3, 2009.
3. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 400 s.
4. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. VI cild. Bakı: Şərq-Qərb, 2005, 384 s.

Açar sözlər: Məhəmməd Füzuli, türkdilli xalqlar, klassik ədəbiyyat, qəzəl, poeziya.
Key words: Muhammad Fuzuli, Turkic-speaking peoples, classical literature, ghazal, poetry.
Ключевые слова: Мухаммад Физули, тюркоязычные народы, классическая литература, газель, поэзия.

Məhəmməd Füzuli türkdilli klassik poeziyanın banilərindən biri kimi

Xülasə

Məhəmməd Füzuli tanınmış Azərbaycan şairlərindən biridir. O, həm Azərbaycan, həm də ümumtürk xalqlarının ədəbiyyatında qəzəl ustadı kimi tanınır. Onun Azərbaycan ədəbiyyatı tarixində böyük xidmətləri vardır. O, ilk dəfə ana dilində "Leyli və Məcnun" əsərini yazmışdır. Onun ana dilində qələmə aldığı qəzəl, qəsidə və s. kimi klassik ədəbi janrlı əsərləri bütün türkdilli xalqların, xüsusilə osmanlı türklərinin klassik yazılı ədəbiyyatının inkişafına mühüm töhvələr vermişdir. Onun əsərləri bu gün də öz əhəmiyyətini və aktuallığını qoruyub saxlayır.

Muhammad Fuzuli as one of the founder of the classical Turkish- speaking poetry

Summary

Muhammad Fuzuli is one of the famous Azerbaijani poets. He is known as a master of ghazals in the literature of both Azerbaijani and all-Turkic nations. He has great maintenances in the history of Azerbaijani literature. He wrote "Leyli and Majnun" in the native language for the first time. His classic literary works such as ghazals, odes, etc. written in the native language made important contributions to the development of the classical written literature of all Turkic-speaking peoples, especially the Ottoman Turks. His works still retain their significance and relevance.

Мухаммад Физули как один из основоположников классическая тюркоязычная поэзия

Резюме

Мухаммад Физули – один из известных азербайджанских поэтов. Он известен как мастер газелей в литературе как азербайджанских, так и общетюркских народов. Он имеет большой вклад в историю азербайджанской литературы. Он впервые написал "Лейли и Меджнун" на родном языке. Его классические литературные произведения, такие как газели, оды и т. д., написанные на родном языке, внесли важный вклад в развитие классической письменной литературы всех тюркоязычных народов, особенно турок-османов. Его произведения до сих пор сохраняют свою значительность и актуальность.

RƏYÇİ: dos. N.Əfəndiyeva

Nazənin Cavanşir qızı Eldarova [49]

"KƏMALÜDDÖVLƏ MƏKTUBLARI" ƏSƏRİNDƏ TƏNQİDİN MAHİYYƏTİ

Giriş. Azərbaycan ədəbiyyatının ən önəmli simalarından biri Mirzə Fətəli Axunzadədir. "Maarifçi realizm cərəyanının nümayəndəsi olan Mirzə Fətəli Axunzadə öz əsərlərində cəhaləti, din adamlarını, despotizmi və s. tənqid etmişdir. Elə buna görə də, bu fikri söyləmək heç də yalnış olmaz ki, maarifçi realist əsərlərdə tənqid tənqidi realist əsərlərdən daha kəskindir" [1, s. 85]. Müəllif tənqidi realist əsərdə hadisələrin eybini və qüsurunu açaraq nümayiş etdirir, oxucuya hansı dəhşətli vəziyyətin içərisində olduğunu göstərir, lakin yaxşı və ya pis, hərəkətlərin səhv və ya doğru olması haqqında tənqidi fikir, demək olar ki, bildirmir, qərarı oxucuya buraxır. Lakin maarifçi realist müəllif hadisələrə öz tənqidi münasibətini açıq şəkildə göstərir və insanları cəhalat yuxusundan oyanmağa çağırır, insanları, mühiti tənqidlə islah etməyə çalışır.

Bunu Mirzə Fətəli Axunzadənin dramlarında, o cümlədən "Kəmalüddövlə məktubları" əsərində də görmək mümkündür. "1865-ci ildə yazılmış bədii-fəlsəfi traktat Mirzə Fətəli Axunzadənin yazdığı ən mühüm tənqid mahiyyətli əsəri sayılır. Hind şahzadəsi Kəmalüddövlə ilə fars şahzadəsi Cəlaləddövlənin yazışması süjetin əsasını təşkil edir "[2, s. 45-48].

Əsas hissə. Mirzə Fətəli Axunzadə bədii əsərləri (komediyaları, povest və şeirləri) ilə yanaşı "Kəmalüddövlə məktubları" adlı fəlsəfi traktatın da müəllifidir. M.F.Axundzadə öz dünyagörüşünün tərkib hissəsi olan "Kəmalüddövlə məktubları" fəlsəfi əsərinə ömrünün 25 ilini sərf etmiş, bədii əsərlərindəki fikirlərini bu əsərdə daha da genişləndirərək, elmi dəlillərlə əsaslandırmış, mövcud quruluşun ədalətsizliyi, xalqın çəkdiyi əzab, əziyyət, zülm və haqsızlıqları tənqid etmişdir. Mirzə Fətəli Axunzadənin "Kəmalüddövlə məktubları" əsərində despotizmi tənqid edir. Birinci məktubunda yazır ki, despotluq rejimi və ruhanilərin dini fanatizmi İranı zəiflədib. "Dini fanatizmi tənqid edərkən Axundzadə başqa dinləri islamdan üstün tutmur. O, elə bir dünyagörüşünə, inanca üstünlük verir ki, onun vasitəsilə, öz ağlı ilə insan bu dünyada xoşbəxtliyə çatsın, cənnət-cəhənnəm qorxusu ilə yaşamasın" [3, s. 12].

Kəmalüddövlə ilk məktubunda yazır ki, o İngiltərə, Amerika və Avropanı gəzib gəlir İrana. O öz həmməzhəblərinin halına yanır, düşünür ki, İran əvvəllər çox yaxşı vəziyyətdə idi, əhali çox xoşbəxt idi. Və o pis olur ki, o səadət, şövkət gedib, bu işdə ərəbləri günahkar bilir. O deyir: "Əhali nadandır və sivilizasyoni-cahandan bixəbərdir". Hesab edir ki, despotluq rejimi və ruhanilərin dini fanatizmi İranı zəiflədib. Ancaq yazır ki, elə hesab etməsin ki, o hansısa məzhəbi islamdan üstün tutur. O həmin dini üstün tutur ki, onun vasitəsilə insan bu dünyada xoşbəxtliyə çatsın. "İranlıların nə dərəcədə fanatik olduqlarına misallar gətirir, bunlara özü də təəccüblənir" [4, s. 36-39]. O İranda tacirlərin sərmayəsiz, kəndlilərin yoxsul, dövlət xəzinəsinin boş olduğundan və qanunların olmadığından şikayətlənir. Kəmalüddövlə ən çox ona yanır ki, xalq bu bəlaların əzabını dərk etmir. O münəccimlərin şaha yaltaqlıq üçün təqvimlərin başına yazdığı sözləri qəbul edə bilmir, çünki şah o sözlərə layiq deyil, çünki o əzəmət sahibi deyil, o nə ədalət, vətənpərvərlik qaydalarından xəbərdardır, nə də ölkəsini köçərilərdən qoruya bilir. Maarifin necə aşağı səviyyədə olmasından danışır, söz açır ki, "Uşaqlar molla yanında çubuq və fələqqə ilə tərbiyə edilir və belə uşaqdan gələcəkdə əxlaq, mərifət gözləmək olmaz. Vilayətin içində elmsiz və dünyadan xəbərsiz şahzadələrin oturması, onların xalq ilə ən alçaq formada rəftarı, xalqın onların hər sözünə "bəli" deməsi ona toxunur. Onlar nə xalqı düşmənlərdən qoruyur, nə xalqa şəfaxana, mədrəsələr açır, nə də ticarətə rövnəq verirlər. O, Cəmalüddövləyə deyir ki, əgər o da İrandan xali olmasaydı, bu eyibləri onun üzünə deməzdi. O bilir ki, İran nəşeyi-azadiyyət və hüquqi-insaniyyətdən bixəbərdir, ona görə də despot zülmündən nicat tapa bilməz" [5, s. 69]. Düşünür ki, İranın məzhəbi ona liberal olmağa mane olur. Əsas da ona əsəbiləşir ki, İranda heç kəs şarlatan üləma və avamın qorxusundan heç nəyi deyə bilmir. Vəhşi və barbar tayfaların cəza tədbirlərinin İranda müşahidə olunması, ancaq Avropada bunun tamamilə qadağan olunmasını sivilizasyonla əlaqələndirir.

Mirzə Fətəli Axunzadə bu əsərində dünyada yunan millətinin tarixinin Şərq ölkələrinin tarixindən daha üstün qəbul edildiyini yazır və bunu şərqlilərin öz tarixlərinə laqeydliyi, tarixi yaxşı yazıb qorumamaları ilə əlaqələndirir. Bunun səbəbini isə İran şahlarının kitablarının günümüzə qədər gəlib çatmamasında görürdü. O, İrana müraciət ilə öz etirazını bildirirdi ki, "Sənin oğulların nəsihət olsun deyə, sənin keçmiş əzəmətinin yazılı abidələrini belə mühafizə etməmişlər; sənin keçmiş şöhrətini biz başqalarından, sənin əzəmətinin indiyə qədər yeganə şahidi olan qədim yunan tarixlərindən öyrənirik; çünki Yunanıstan sənin möhtərəm, qocaman tarixini qədim dünyanın başqa xalqlarına nisbətən daha yaxşı öyrənmişdir" [6, s. 26]"

Mirzə Fətəli Axunzadə "Kəmalüddövlə məktubları" əsərində əhalinin yalançılığını tənqid edir. O deyir ki, ərəb tayfasının yalan quraşdırmaqda və İranlıların yalana inanmaqda misli-bərabəri yoxdur.

Bundan başqa müəllif, yəni bizim tanıyıb-bildiyimiz, Mirzə Fətəli Axundzadə Kəmalüddövləni çox zaman kənara çəkib mətnə birbaş öz fikirlərini, öz qayğılarını gətirir. "İkinci məktubun əvvəlində Kəmalüddövlə Cəmalüddövlənin heyrətdən tüklərini biz-biz edəcək Molla Sadığın mövizə söhbətinə keçməzdən əvvəl təəssüflə bildirir ki, bu qələmə aldığı mətləblərin heç bir faydası olmayacaq. Bunun səbəbləri çoxdur: ən birincisi, İran xalqı ona ərəblərdən qalan (barbarlardan deyir Axundzadə) əlifbanın qəlizliyi ucbatından oxumağa qadir deyil, bunun da bir çarəsi var ki, o da əlifbanı dəyişməkdir" [7, s. 89-92]. İkincisi, əlifbanı dəyişməyə mane olan iki məzhəb arasında dini təəssüblər aradan qaldırılmalıdır, amma vaxtilə Nadir şah buna cəhd göstərdikdə, yəni şiəliklə sünniliyi birləşdirmək niyyətini bildirən kimi həm səltənətini, həm də həyatını bada verdi. Üçüncüsü, despota xalqın qəflətdə olmağı sərf edir, amma əslində o bu əminliyində yanılır, çünki belə boşluqdan istifadə edərək bir gün Bab kimi bir məzhəb ixtiraçısı meydana çıxıb xalqı öz tərəfinə çəkə bilər. Digər sadalanan səbəblər də birbaşa və dolayısı ilə xalqın savadsızlığı ilə bağlıdır, savadsızlığın səbəbi isə bilavasitə əlifbanın qəlizliyindən irəli gəlir. "Əlifba qəlizliyindən narazı olan Mirzə Fətəli Axundzadə özü əlifba yazır və onu Osmanlı dövlətinə təqdim edir, lakin Osmanlılar onu qəbul etmir, geri çevirir" [8, s. 137].

Mirzə Fətəli Axundzadə düşünür ki, məgər savadsızlıq yalnız əlifbanın qəlizliyi ucbatından baş verirmi? Məgər yazıb-oxumağı bacaran adamlar savadsız ola bilməzmi? Savad sözü yəqin ki, oxumaq bacarığı yox, nəyi oxumaq və oxuduğunu necə anlamaq mənasında işlənə bilər. Onda niyə əlifba məsələsi bu qədər qabardılır. Uşaq əlifbanı öyrənməyə başlayandan dörd həftə yox, bir il, ya iki il sonra qəzet, kitab oxusa, savadlı ola bilməz məgər?

Axundovşünasların qənaətinə görə, "Kəmalüddövlə məktubları"nda Volter ironiyasının və sarkazmının izləri aydın görünür. Dinə, dini sxolastikaya qarşı bu qədər kəskin, barışmaz münasibət XIX əsr müsəlman cəmiyyətində təhlükəli hadisə idi. Hardasa ateizm düşüncəsi ilə barışma fransız maarifçilik mühitindən fərqli olaraq, Şərq (Azərbaycan) mühiti üçün qutsal obrazlara və kitablara qarşı belə açıq müxalifət qorxulu idi. Y.Qarayev bu haqda yazır: "Dini risalələrdə Peyğəmbərin

[49] Bakı Dövlət Universitetinin magistrantı. nazenineldarova@gmail.com

həyatındakı ayrı-ayrı epizodlara verilən şərhlərə Kəmalüd-dövlənin təfsirləri realist parodiyalar təsiri bağışlayır və islam müqəddəslərinin Volter tərəfindən dramaturgiyada yaradılan satirik surətini (Volterin "Məhəmməd" əsəri) M.F.Axundov bədii publisistikada, pamfletdə yaradır".

1854-cü ildə Axundzadə "Əlifbeyi-cədid" adlı məqaləsini yazdı və ərəb qrafikasını latın qrafikası əsasında təkmilləşdirmək məsələsini irəli sürdü. O, 1865-ci ildə "Kəmalüddövlə məktubları"nı yazır və bu əsərdə cəmiyyəti və dini yaxşılaşdırmaq, inkişaf etdirmək baxımından öz baxışlarını, fəlsəfi görüşlərini izah edir. ""Risaleyi-irad" ("Tənqid risaləsi") əsəri müasirləri olan tarixçilərin tarix yazmaq metodlarına qarşı yazıçının harayı, tənqidi görüşləridir" [9, s. 48]. Axundzadənin "Kritika"sı misli görünməmiş, İran ədəbiyyatında əsl tənqidin əsasını qoyan və poeziyanın tənqidinə həsr olunan "Kritika" 1866-cı ildə yazılmışdır. Mirzə Fətəli Axundzadənin cəmiyyət, fəlsəfə və ədəbiyyat barədə düşüncələri, baxışları onun Tiflis arxivində saxlanan bir çox başqa məqalələrində, fars və türkcə yazılmış şeirlərində və məktublarında da öz əksini tapır.

Axundzadənin realist baxışlarına rus ədəbi mühitinin təsiri ilə bərabər, alimlər onun dünyagörüşünə təsir edən başqa bir məxəzdən də söz açırlar. Bu qənaətə görə Axundzadənin realizmi onun fəlsəfi baxışlarının təcəssümüdür (inikasıdır). Ş.Mirzəyeva bu münasibətlə yazır ki, Axundzadənin sənət və gerçəklik anlamı arasındakı qarşılıqlı əlaqə barədə fikirləri onun materialist fəlsəfi görüşlərinin ümumi məzmunu çərçivəsində başa düşülməlidir.

Axundzadəyə görə, gerçəklik maddi varlıq olub öz mövcudiyyəti üçün heç bir xarici qüvvə tələb etmir. O, gerçəkliyi obyektiv varlığın bədii inikası kimi qəbul edir. Onun fikrincə təbiət və ictimai həyat adlanan obyektiv aləm sənətdə öz həqiqi yerini tapmalıdır. Mirzəliyeva sözünə davam edərək qeyd edir ki, mübaliğəsiz demək olar ki, Axundzadənin realizmi tarixi bəsirətdir, gələcəyi görmədir.

O, gerçəkliyin sənətdə inikasını, onun gələcək dəyişmə və inkişafı baxımından tədqiq edir. "Bəyan edəndə ki, "Gülüstan"ın vaxtı keçib, o heç də demək istəmir ki, bu sənət abidəsi öz gözəlliyini və estetik gücünü itirib. Yazıçı sadəcə olaraq göstərir ki, tarixi gerçəklik dəyişib" [10, s. 45].

Mirzə Fətəli Axundzadənin (1812-1878) maarifçi-realist görüşləri Azərbaycan ədəbiyyatının sonrakı inkişafında müstəsna rol oynayaraq, Azərbaycan ədəbiyyatında çağdaş Qərb ədəbiyyatı janrlarının: dram, roman, hekayə, novella, povest, poema və s. oturuşmasına güclü təsir göstərmişdir. Onun 1850-1855-ci illər arasında yaratdığı altı dram əsəri özündən sonra Yaxın və Orta Şərq ədəbiyyatlarında ədəbi maarifçi-realist görüşlər formalaşdırmışdır. Bütövlükdə Azərbaycan ədəbiyyatını xarakterizə edən dərin etik başlanğıc, humanizm, ədalətsevərlik, səmimiyyət və doğruçuluq motivləri Axundzadə yaradıcılığında davam və inkişaf etdirilərək gələcək nəsillərə tövsiyə edilir.

"M.F.Axundzadə maarifçilik və realist baxışlarını 1860-cı ildə yazmış olduğu "Kəmalüddövlə məktubları" fəlsəfi traktatında geniş şəkildə əks etdirmişdir. Əsərdən aydın olur ki, şahzadələr ölkələrində hökm sürən ağır vəziyyətlə barışa bilmir, ölkələrinin mədəni geriliyinə acıyır, düşmüş olduqları fəlakətlərdən xilas olmaq üçün yollar axtarırlar" [11, s. 14]. M.F.Axundzadə öz əsəri üçün iki şahzadə (Kəmalüddövlə və Cəlalüddövlə timsalında) obrazı düşünərkən onların öz ölkələrində hökm sürən ədalətsizlikləri aradan qaldırmaq məqamında təsvir edərək artıq dünya maarifçilərinin ümumbəşəri prinsiplərindən çıxış edirdi. Həmçinin əsərdə dini dünyagörüşün tənqidi məsələsi deməyə əsas verir ki, bu əsər maarifçilik ideyalarına dərindən bələd olan bir müəllifin qələmindən çıxmışdır.

"Kəmalüddövlə məktubları"nı oxuyarkən ilk sətirlərdən insanın üzünü həyacan bürüyür və bu əsəri yazmaqla müəllifin yaşadığı dövr üçün necə cəsarətli olduğu aydınlaşır. M.F.Axundzadə və ondan sonrakı M.Ə.Sabirə qədər milli şüurumuzun oyanmasında "Kəmalüddövlə məktubları" qədər xidmət göstərən ikinci bir əsər yoxdur. Təsadüfi deyildir ki, bu əsəri "Azərbaycan maarifçiliyin manifesti" adlandırırlar.

Nəticə. Nəticədə, müasirlik, elmilik baxımından, Avropadakı mənada tənqid klassik İran ədəbiyyatında tamamilə yoxdur. Tənqidi realizmin sələfi hesab edilə biləcək nə varsa, möhkəm inandırıcı meyardan məhrum olduğuna görə diqqəti cəlb etmir. Estetikadan, vəzn və qafiyədən söz açan qədim İran kitablarında poetikaya müraciət qeyri-müəyyən olduğundan elmi dəyər kəsb etmir.

İranda tənqidin əsasını M.F.Axundzadə qoymuşdur. Nəsr və poeziyaya həsr olunmuş "Kəmalüddövlə məktubları" və başqa məqalələri ilə o, qəti şəkildə ənənəvi mühakimələrin məngənəsindən azad olaraq Avropa mütəfəkkirləri və rus inqilabçı demokratlarının tənqidi fikirlərinin təsiri altında xırdaçılıqlarla, boş iradlarla məşğul olan tənqidi elmi və həqiqi meyara əsaslanan tənqidlə əvəz etdi. O dövr realist mühitin təsiri altında Axundzadə ilk dəfə olaraq əsərin ictimai məzmununa lazımi diqqət yetirmiş, mövzunun ədəbi dəyərini açıqlamışdır.

Axundzadə İranda yazıçı və şairlərin ictimai məsuliyyəti məsələsini də birinci olaraq irəli sürmüşdür. Bu cəhətdən Axundzadə çox irəli gedərək ədəbiyyatı insanların mənəviyyatı və əxlaqının dəyişməsində bir alət hesab etmişdir. Axundzadə öz dövrünün adlı-sanlı müəlliflərinin və eləcə də klassik ədəbiyyat korifeylərinin əsərlərini əsaslı surətdə tənqid süzgəcindən keçirmişdir.

Onun analizi ciddi xətalardan xali olmasa da, cəsarəti sonrakı nəsil tənqidçiləri klassik ədəbi məxəzləri analiz edib qiymətləndirməyə ruhlandırmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, 1998, 732 s.
2. Axundov M.F. Məqalələr məcmuəsi. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 2019, 502 s.
3. Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 2019, 107 s.
4. Cahani Q. Azərbaycan ədəbiyyatında Nizami ənənələri. Bakı, 1979, 203s.
5. Cavad Heyət. Azərbaycan ədəbiyyatına bir baxış. Bakı, 1980, 565 s.
6. Əliqızı A. Güney Azərbaycan ədəbiyyatı. Bakı, 2018, 206 s.

7. Nərimanov Nəriman. Seçilmiş əsərləri. Bakı: Lider, 2019, 251 s.
8. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər (iki min ili tamamlayan iki yüz il). Bakı: Elm, 2020, 740 s.
9. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif, 2018, 488 s.
10. Qənizadə Sultan Məcid. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2022, 199 s.
11. Rəfili M. M.F. Axundov (monoqrafiya) Bakı: Azərnəşr, 1957, 317 s.

Key words: realist, critical thoughts, dramaturgy, enlightened realism, literary meetings, work

Ключевые слова*:* реалист, критическая мысль, драматургия, просвещенный реализм, литературные собрания, творчество

The essence of criticism in "The letters of Kemaluddovla"

Summary

In the article, M.F.Akhundzadeh's views on the function of criticism, its wide distribution in Europe, its role in the literary process, and its beneficial effect on the development of artistic development are analyzed. Mirza Fatali Akhundzade, the founder of Azerbaijani dramaturgy, realistic artistic prose, literary criticism, and materialist aesthetics, also knew Arabic-Persian languages perfectly, wrote poems in Azerbaijani and Persian languages, and wrote articles with deep philosophical content. M.F., who worked as a translator in the Caucasus Viceroyalty for a long time. Akhundzade translated scientific and official works from Russian into Persian, or vice versa from Persian into Russian. It is known that Mirza Fatali considered freedom of opinion to be one of the main conditions for the development of criticism and to have a rational influence on the literary process, and he wrote: "If there is freedom of opinion, the benefit of criticism will be that eventually, due to the clash of different opinions and opinions, truth will take its place and culture will progress will appear in the world".

Azerbaijani enlightened realism is characterized by the prominence of satire in literature and society. As it is known, even though there are satirical moments in Azerbaijani classical poetry, satire could not go beyond being an element in romantic literature. However, with the advent of enlightenment in the 19th century and the emergence of critical views against obsolescence, ignorance, and backwardness, the position of satire in literature expanded and strengthened. In fact, although the 19th century was a period of enlightened realism in the history of Azerbaijani literature, the ideas of enlightenment were also reflected in the non-realist literature of this stage.

Суть критики в «Письмах Кемалуддовлы»

Резюме

В статье анализируются взгляды М.Ф.Ахундзаде на функцию критики, ее широкое распространение в Европе, ее роль в литературном процессе, ее благотворное влияние на развитие художественного развития. Мирза Фатали Ахундзаде, основоположник азербайджанской драматургии, реалистической художественной прозы, литературной критики и материалистической эстетики, также в совершенстве владел арабо-персидскими языками, писал стихи на азербайджанском и персидском языках, писал статьи с глубоким философским содержанием. М.Ф., долгое время работавший переводчиком в Кавказском наместничестве. Ахундзаде переводил научные и официальные произведения с русского на персидский или наоборот с персидского на русский. Известно, что Мирза Фатали считал свободу мнений одним из главных условий развития критики и оказывающим разумное влияние на литературный процесс, и писал: «Если будет свобода мнений, то польза от критики будет быть то, что в конце концов, благодаря столкновению разных мнений и мнений, истина займет свое место и в мире появится культура, прогресс».

Азербайджанский просвещенный реализм характеризуется преобладанием сатиры в литературе и обществе. Как известно, хотя в азербайджанской классической поэзии и присутствуют сатирические моменты, сатира не могла выйти за рамки элемента романтической литературы. Однако с приходом Просвещения в 19 в. и появлением критических взглядов против устаревания, невежества и отсталости позиции сатиры в литературе расширились и укрепились. Фактически, хотя XIX век был периодом просвещенного реализма в истории азербайджанской литературы, идеи просветительства нашли свое отражение и в нереалистической литературе этого этапа.

Rəyçi **Prof. Tahirə Məmməd**

Mobil Aslanlı Huntürk [50]

MÜCADİLƏYƏ VƏ QANLI QOVĞALARA SƏSLƏYƏN ÇAĞIRIŞLAR

Böyük yazarımız professor Mir Cəlal əsərlərində bu gün bizə qənim kəsilən rusları almanların əbədi işğalından azad etmək yolunda canını fəda vermiş Azərbaycanın sarsılmaz mətin, sarsılmaz fiziki qüdrətə, yüksək hərbi bilik, bacarıq və vərdişlərə malik cəsur və fədakar döyüşçülərimizin qəhrəmanlıq rəşadətini önə çəkir. O öz əsərlərində xalqımızın İsrəfil Məmmədov, Həzi Aslanov, Mehdi Hüseynzadə, Qafur Məmmədov, Cəmil Əhmədov kimi neçə-neçə məğrur və əzmkar alp ərənlərimizin əfsanəvi qəhrəmanlıqlarını böyük ilhamla tərənnüm etmişdir. Türkün bu yenilməz igidlərinin əfsanəvi şücaətini ədibin istər "Bəy", "Bostan oğrusu", "Gözün aydın", "Vətən hekayələri", "Həyat hekayələri", "Sadə hekayələr", istərsə də XX əsrin ortalarından sonra qələmə aldığı "Təzə şəhər", "Yolumuz hayanadır", "Dağlar dilə gəldi", "Boy", "Açıq kitab" və sair kimi əsərlərində qismən də olsa, fiziki hazırlıq, fiziki tərbiyə, cismani sağlamlıq və sağlam həyat tərzi kimi məsələlərlə əlaqələndirir. Fədakarlığın, rəşadətin bədii-fəlsəfi obrazını tərənnüm edən istedadlı ədibimiz əsərlərində döyüşçülərin ruhuna, qəlbinə, xarakterinə igidlik, məğrurluq, qəhrəmanlıq və mərdanəlik kimi yüksək iradi-əxlaqi hisslər aşılayırdı.

Beləliklə, tarixi dövrlərin elmi-pedaqoji fikir daşıyıcıları olan bu kimi ədəbi əsərlərin tədqiqat predmetlərində göstərilir ki, Azərbaycanda tarixi kontekstdə hərbi-fiziki tərbiyə fasiləsiz xarakter daşımışdır: insanlarımız uşaqlıq, gənclik, cavanlıq və ahıllıq yaş mərhələlərində idmanın gimnastika, güləş, qılınc oynatmaq, at çapmaq, ox atmaq, nizə atmaq, atıcılıq və s. kimi növləri ilə məşğul olmuşlar.

Yazıçının ədəbi-pedaqoji yaradıcılığından aydın görünür ki, həyatda xoşbəxt yaşamaq istəyi ilə yaşayan insan, həm də sağlam can istəmiş, həm də onu ən böyük sərvət saymışdır. Odur ki, fiziki tərbiyə məqsədyönlü və həyati tələbata çevrilməlidir.

Məlum həqiqətdir ki, hər bir bəşər övladı yüksək mənəviyyata, əməksevər, humanist əməllərə malik vətəndaş olmaqla bərabər, habelə bir sıra fiziki və hərbi təlimlərə də yiyələnməlidir. Torpaq və Vətənin qorunub saxlanması bugünkü uşaq və gənclərimizin fiziki və hərbi təlimə nə dərəcədə bağlılığından çox asılıdır. Qətiyyən unutmaq olmaz ki, sağlamlıq insanın yalnız şəxsi firavanlığı üçün deyil, başqa cəhətləri üçün də əhəmiyyətlidir. Yəni, adam fiziki cəhətdən sağlam, fəal və davamlı olarsa, heç şübhəsiz ki, o, quruculuq işlərində, özünün və Vətəninin müdafiə edilməsində, yaxşı və ağır günlərində bir o qədər yaxından iştirak edər, yararlı bir varlığa çevrilər. Bu gün dünyada artıq "İdman ölkəsi" kimi Azərbaycanın öz övladlarının əqli, mənəvi və fiziki kamillik səviyyəsi ilə öyünməyə haqqı çatır. Danılmaz həqiqətdir ki, bütün tarix boyu bəşəriyyətin qarşısında duran ən mühüm vəzifə, onun əqli, mənəvi və fiziki kamillik problemləridir. Hazırkı dövrdə Azərbaycan gəncliyinin əqli və mənəvi aclığı, fiziki və hərbi təlim məşğələlərinə güclü və arzuolunan meyli, sağlam və fəal həyat tərzi keçirilmələri yabançı millətlərdə qibtə hissləri yaradır.

Məhz belə bir şüurlu davranış, dərin məslək, əqidə sirdaşlığı ölkə gənclərimizin əqli və hərbi-fiziki qüdrətləri sayəsində ermənilərə 44 günlük savaşda tarimar edib, viran qoymasına gətirib çıxardı. Çünki bəşəriyyətə böyük mədəniyyət gətirən bu cocuqların ərən ululəri, dünyanı məqribdən-məşriqə fəth edən söz və qılınc bahadırları olan babaları tarixdə böyük qəhrəmanlıq səhifələri yazmışlar. Əgər ruslar öz Pyotru, almanlar Bismarkı, yunanlar İskəndəri, fransızlar Napoleonu, italyanlar Sezarı ilə öyünmüşdürlərsə, biz türklər isə Mete, Atilla, Sultan Mehmet, Çingiz xan, Batı xan, Alp Arslan, Sultan Süleyman, Cahan şah Həqiqi, Uzun Həsən, Şah İsmayıl, Sultan Yavuz, Əmir Teymur, Toxtamış, İldırım Bəyazid, Nadir şah Əfşar, ikinci minilliyin ən böyük tarixi şəxsiyyəti Mustafa Kamal Atatürk kimi neçə-neçə fövqəlbəşər söz və qılınc bahadırları ilə fəxr edə bilərik. Odur ki, türklər tarix boyu övladlarını fiziki və hərbi hazırlıq baxımdan yetkin, kamil, özünü və vətənini layiqincə qoruya biləcək gümrah və xoş əhval-ruhiyyədə görmək, arzusu ilə yaşamış, bu yolda bütün fiziki, hərbi vasitə və imkanlardan lazımınca bəhrələnməyi çox önəmli saymışlar.

Tarixən aparılan çoxsaylı tibbi-psixoloji təcrübələr, habelə elmi-pedaqoji və fizioloji tədqiqatlar sübut etmişdir ki, qəhrəmanlığı yaradan ən mühüm amillər bilavasitə və bilvasitə insanın fiziki hazırlığı, fiziki mədəniyyəti, iradi-cismani yetkinliyi və cismani qüdrətidir.

70 il SSRİ adlı qurumun tərkibində Almaniya kimi qüdrətli bir dövlətlə savaş zamanı həmin qanlı olayın cəng savaşları, dünyanın çoxsaylı yazarları tərəfindən dönə-dönə qələmə alınmışdır. Belə cəfakeş tədqiqatçılarımızdan biri də istedadlı ədibimiz, görkəmli pedaqoq və alim, uzun illər Bakı Dövlət Universitetinin kafedra müdiri, dekanı olmuş professor Mir Cəlal Paşayevdir. Ədibin qanlı qovğa və çarpışmalar ruhunda qələmə alınmış «Bir gəncin manifesti» adlı məşhur romanında bu əsərin baş qəhrəmanı Mərdan, habelə onun məslək və amal yoldaşları Yaqub, Usta Rəhim, Yəhya, Mövlan kişi qorxmaz, mübariz, fiziki yetkinlik səviyyəsinə qalxmış üsyankar insanlardır. Yazıçının «Dirilən adam» əsərindəki Qiyas, Sultan Əli, Qumru, Məşədi İslam, Məşədi Cahangir və başqaları da həyat uğrundakı mübarizədə yenilməzliyi, qovğa və çarpışmalarda göstərdikləri qətiyyətlilik, inadkarlıq və fədakarlıqlarının mühüm bir atributu onların fiziki kamilliyi və dəyanətləri ilə səciyyələnir. Əsərdə uzaq kənddən gələn yeniyetmə Mərdanın gələcək mübarizə yolunda ağır məşəqqətlərə sinə gərməsində, istiqlalın əzablı və dolanbac yollarından mərdliklə keçməsində, fiziki-iradi keyfiyyətlərinin də mühüm rol oynadığı aydın olur. Dözülməz iztirab və məşəqqətlərə tab gətirmək, ən təhlükəli tapşırıqların icrası zamanı özünü qətiyyətli və mətanətli aparmaqda mətin iradi möhkəmlik və əzmkarlıq kara gəlir.

İstedadlı nasirin Böyük Vətən müharibəsi illərində Azərbaycan ziyalılarının məğrurluluğundan, mərdanəliyindən və rəşadətindən bəhs edən «Yaşıdlarım» romanında həmin dövrə məxsus mürəkkəb hadisələri, gərgin psixoloji situasiyaları yazıçı özünəməxsus bir orjinallıqla oxucusuna çatdırır. Ədibin fiziki kamillik zirvəsinə ucalmış qəhrəmanları, qürur və

[50] BDU

ləyaqətilə fərqlənən məğrur, əzmkar və namuslu insanlardır. Əsərdə Kərimzadə, Nəriman, Səlim kimi türk övladlarının həyat uğrunda apardıqları fədakarlıq, mətinlik, fiziki hünər, iradi-mənəvi keyfiyyətlər, fiziki məziyyətlər onların bədii portretini daha da dolğunlaşdırır.

Yüksək pedaqoji əxlaqı və səriştəsilə nümunə olan cəvakeş maarif xadimi, xalqının övladlarının yalnız əqli inkişafı, saflığı və mənəvi sağlamlığı qayğısına qalmayıb, həm də onların vətənsevərlik ruhunda tərbiyə olunmasını, millətin, torpağın müdafiəsi üçün cəsur igidlərtək yetişməsini mühüm hal sayırdı. Böyük yazıçımız bu şərəfli vəzifənin reallaşmasında yeniyetmə və gənclərin cismani sağlamlığı və fiziki aktivliyinə daha çox önəm verirdi. Ədibin fikrincə, gümrah vücudlu, sağlam bədənli şəxslər iri cüssəyə, mütənasib fiziki görkəmə malik cürətli şəxslər kimi formalaşır ki, onlar da gələcək fəaliyyətlərində daha böyük xarüqələr yaratmaq imkanına sahib olurlar. Millətinin balalarının sağlam nəsil tək təşəkkül tapması işində ailə ilə yanaşı məktəbin, ictimaiyyətin birgə fəaliyyətinin səmərəliliyini xüsusi şəkildə vurğulayan ədib, özünün «Vicdan əzabı» adlı hekayəsində yazır: «Mənim vəzifəm ana qucağından sağlam aldığım balaları üç-dörd ilə böyütdükdən sonra sap-sağlam və onları fiziki cəhətdən yetkin, davamlı övladlartək tərbiyə edib məktəbə təhvil verməkdir. Məktəb də eyni həkimliyi etməlidir. Şagirdləri yalnız fikircə deyil, bədəncə də sağlam yetirib yuxarılara – texnikumlara, institutlara təhvil verməkdir. Eyni borcu ali məktəblər də gözəl ödəsələr, gənclərimiz xəstəlikdən uzaq olarlar. Xəstələnməməyi təmin etmək isə ən yaxşı müalicə üsuludur» (4, 326-327). Akademik Məmməd Arif bu barədə haqlı olaraq yazırdı ki, yazıçı vətən yolunda həlak olan qəhrəmanın daxili aləmini, psixoloji halını oxucuya göstərməli- dir, oxucu canlı insanı bütün tamlığı ilə öz qarşısında görməlidir.

Sovet döyüşçüsünün gözəl bir xüsusiyyəti yüksək mənada insanpərvərlikdir. Onun hər bir qəhrəmanlığında biz yüksək mənəvi cəhəti görməliyik. Yazıçı, döyüşçünün rəşadətini, cismani qüdrətini, fədakarlığını hər şeydən əvvəl onun qəl-bində oxumalıdır (2, 342). Mir Cəlalın xüsusilə yaşadığımız Sovet dönəmindəki, həm də Vətən müharibəsindən əvvəlki hadisələri hekayələrində yüngül bir yumor, təbii və həyati bir romantika kimi təsvir etməsi əsas bir xüsusiyyət kimi nəzərə çarpırdı. Öz novellalarında bu istedadlı nasir o vaxtkı sovet həyatının yeni insanlarını, sosialist cəmiyyətinin romantikasını da verməyə çalışırdı. Mir Cəlalın romantikası özünəməxsus idi, bu romantika bir növ məişət romantikası idi. Ədib sovet ailələrindəki yeni ünsürləri, yeni psixoloji xüsusiyyətləri müşahidə edir və «Nanələrin hünərini», «Badamların ləzzətini» yazıb göstərirdi.

O vaxtlar sülh zamanı idi. Xəyanətlə Sovet ölkəsinin torpağına soxulmuş, xoşbəxt həyatımızı quduzcasına pozmağa, xanimanımızı dağıtmağa, toyumuzu yasa, sevincimizi müsibətə çevirmək istəyən faşizmə qarşı Vətən müharibəsi elan edildikdən sonra, bütün yazıçılarımızla birlikdə fenomen zəka sahibi istedadlı ədibimiz Mir Cəlalın da qələmi öz istiqamət və kəskinliyini dəyişdirdi.

Müharibənin ilk günündən onun hekayələri sovet xalqının azğın düşmənə qarşı dərin kin və qəzəbini ifadə etməyə başlamışdır. Əlbəttə, əvvəlki xüsusiyyətlər yenə də Mir Cəlalın hekayələrində yaşamaqdadır, eyni məişət romantikasını və bəzən hətta yüngül yumoru yenə də bu hekayələrdə hiss edirik, lakin bu hekayə- lərdə yeni bir xüsusiyyət də vardır. Bu xüsusiyyət qəzəb hissinin, əsas xətt olaraq bütün hekayələrdən keçməsidir. Bu coşqun qəzəb və hiddət yazıçının bir sıra hekayələrinin əsas pafosunu, əsas ruhunu təşkil edir (4, 352).

Mir Cəlalın igidlik və qəhrəmanlıq motivləri üzərində köklənmiş «Anaların üsyanı», «Şərbət», «Qardaş qanı» hekayələrini həyəcansız oxumaq mümkün deyildir. Bu həyəcana səbəb, yalnız bu hekayələrdə təsvir edilən hadisələr deyildir. Həyəcanın əsl səbəbi yazıçının bizə göstərdiyi böyük qəlbli insanlar: analar, atalar, bacılar və qardaşlardır. Bu, öz dağılmış və yandırılmış evlərinin, söndürülmüş ocaqlarının, öldürülmüş körpələrinin, öz ismətlərinin, şərəf və namuslarının qisasını almaq üçün üsyan etmiş anaların həyəcanıdır. Bu həyəcanı ədib belə təsvir edir: «Dünyada birinci və axırıncı dəfə olaraq anaların müqəddəs qiyamı başlanırdı... Analar indi müsəlləh və qəzəbli bir ordu kimi əl-ələ, səs-səsə verirdilər. Kəndli qadın əlində alakeş, kürək, toxa kəlirdi. Fəhlə qadın yumruğunu düyümləyərək bayraq kimi qaldırırdı. Müəllimə kitabını silaha dəyişir, yazanlar qələmini süngüyə çevirirdi. Dəniz kimi dalğalanan, vulkan kimi coşan bu hərəkat getdikcə böyüyür, böyüdükcə sürətlə irəliyə doğru yeriyirdi. Əli yalınlar yerdən daş götürür, ağac alır, ümumi düşmənə, insanlığın düşməninə, faşist başkəsənlərə qarşı yüyü-rürdü» (5, 8).

Ədibin bizə bir neçə sözlə tanış etdiyi adamlar, bütün bu qoca arıçı ostepenkolar, körpəsini itirmiş müsibətli mariyalar, cəbhədəki minlərlə oğulları üçün köynək tikən analar, bütün bu Mərcan nənələr, Havva xalalar bizə yaxın və doğmadır. Mir Cəlalın bircə canlı təsviri bizim təsəvvürümüzdə min rəng çalaraq zənginləşir, qənaətlə söylənmiş bir sözü Vətən məhəbbəti ilə çırpınan ürəyimizdən xəbər verir. Biz inanırıq ki, 21 işlı qızını cəbhəyə göndərən və 14 yaşlı oğlunu traktora oturdan Ukrayna kəndlisi Ostepenko faşist quldurlara qarşı məhz belə bir qəzəb və nifrət hiss edə bilər. Əsərdə oxuyuruq: «...Saoldatlar kişini öz otağına gətirdilər. Ərzaq istədilər, bal istədilər. Ostepenko onların dilini bilmirdi, bilmək də istəmirdi... Rəngi qızarmış, gözləri dəhşətlər görür kimi böyümüşdü. Bəbəklərində bu saat qorxulu tufanlar baş verəcəyini bildirən şimşəklər oynayırdı... İndi Ostepenko öz arı pətəklərini adi bir əmlak kimi düşünmürdü. Onlar öz həyatından, ailəsindən, əziz oğluna və qızına olan məhəbbətindən, keçirdiyi uzun, dinc gənclik həyatından qopan qığılcımlar, yaxşı güzərandan qalan şirin xəyallar, xoşbəxt bir xanıman bağında bitən əlvan çiçəklər kimi görünürdü» (5, 86-87).

Biz inanırıq ki, bu qoca arıçı, gözlərini isti qan damlaları ilə dolduran həyəcan və qəzəbi ancaq bal kəsən bıçağı həyasız faşist soldatının ürəyinə sancmaqla sön-dürə bilər.

Ədibin Vətən müharibəsi ilə əlaqədar olan hekayələrində həyatı, şəraiti və insanları müfəssəl təsvir etmir, çünki kiçik hekayələrdə bu, lazım da deyildir. Lakin bu hekayələrdən aldığımız təsir dolğundur, çünki Mir Cəlal bizə canlı həyatın bir parçasını göstərsə də, onu həm də şox yüksək sənətkarlıqla göstərir. O, təsvir etdiyi insan xarakterlərinə uyğun olaraq şəraiti də iki-üç sözlə oxucunun gözləri qarşısında canlandıra bilir. Müharibə cəbhəsini öz gözləri ilə görüb yaxından müşahidə

etməməsinə baxmayaraq, onun dəhşətlərini oxucuya hiss etdirir: «Toplar nərildəyir, pulemyotlar tələsir, təkər səsləri dəmirçi bazarını xatırladır. Göy, yer bir-birinə qarışıb, üfüqləri kəsif və bulanıq bir hava örtmüşdür. Adam çox eşidir, az görür. Güman edirsən ki, sənin sağında, solunda, arxanda, qarşında, başın üstündə və ayağın altında, hətta qəlbində, beynində alovlanan çarpışmaları, bütün bu gurultu və dəhşətləri müəyyən bir pərdə örtmüşdür» (5, 352-353).

Vətən müharibəsi xalq müharibəsidir. Faşizm bəlasına qarşı müharibədə bütün xalq: qoca, cavan, qadın, kişi, uşaq, böyük — hamı iştirak edir. Cəbhə ilə cəbhə arxası arasında möhkəm bir əlaqə, böyük yaxınlıq, bir ümumilik vardır. Daha doğrusu, bunların hər ikisi vahid böyük bir xalq cəbhəsidir (2, 354).

Biz bu həqiqəti yazıçının hər bir hekayəsində hiss edirik, cəbhə arxasındakı ataların, anaların, bacıların bütün hissi, fikri cəbhədəkilərlə məşğuldur; onlara ruh vermək, arxa durmaq, kömək etməklə məşğuldur. Cəbhə arxasındakılarla cəbhədəkilər bir həyat yaşayırlar. Hər ikisinin yalnız bir məqsədi vardır: alçaq düşməni tezliklə darmadağın etmək. Hər kəs bacardığı qədər bu məqsədə kömək edir. Mərcan nənə əlindən heç bir şey gəlmədikdə faşist cəlladlarına nifrin etməklə ürəyini soyudur: «Dinc və gözəl şəhərə, səadətlə gün keçirən ailələrə, mehriban camaata, analara, övladlara baxır; canavar kimi gecə qaranlığında basqın edən faşistləri xatırlayır, ürəyində deyirdi: ay gələn yolların kəsilsin, ay uçan qanadın qırılsın, gözün kor olsun, niyə qoymursan, niyə xalqı dinc qoymursan?..» (5, 110).

Haman Mərcan nənə qarğış və nifrinlə kifayətlənmir, yanğın düşmüş bucaqlardan birini aşkara çıxarıb, yanğının tez söndürülməsində iştirak etdikdə qarı sevinir, xeyirli bir işlə Vətən müdafiəsinə yardım etməsi ilə fəxr edir.

Mir Cəlalın hekayələrində cəbhə arxasının təsviri əsas yeri tutur. Buna görədir ki, onun əsas qəhrəmanları da qadınlardır, analardır. Oğul qəlbi ilə, övlad hissi ilə, qızıl əsgər xəyalı ilə qırılmaz tellərlə bağlı olan bu anaların arzu və istəklərində, sevinc və kədərlərində, təmiz, mehriban xeyir-dualarında faşizmə qarşı qəhrəmancasına mübarizə aparan şanlı qızıl əsgərlərin simasını aydın görmək olur. Bu analar, bir ana olaraq faşizmə nifrətdən başlayır, bir vətənpərvər qadın olaraq, faşizmi darmadağın etmək üçün fəal mübarizəyə qoşulmaq dərəcəsinə qədər yüksəlirlər. Böyük ədibin qələmə aldığı «Ananın köynəyi» adlı hekayədəki ana belə fədakar analardandır. O, cəbhə üçün, qızıl əsgərlər üçün köynək tikir və bu köynəklərdən birisi oğlu Tahirə çatacaq deyə köynəklərin hamısının döşünə xüsusi nişan qoyurdu. Onun oğlu bir deyildi, min idi. Oğlu cəbhədən ona yazmışdı: «Biz hamımız öz anamızın köynəyini geymişik» (5, 216).

Hekayədə təqdim edilən Havva xala kimi cəsur və hünərvər analar daha gözüaçıq olmağa, hətta ən hiyləgər diversantları belə ifşa etməyə çalışırlar.

Ədibin təsvir etdiyi xalq qəhrəmanları azman bədənli, heybətli görkəmləri olan, qədd-qamətli, enlikürəkli, polad sinəli, möhkəm əzalı, əyilməz dizli, burulmaz biləkli, qulac qolları, bükülməz yaraşıqlı ərənlərdir. Bu boy-buxun və fiziki qüdrət sahibləri güclü, davamlı, cəld, mətin iradəyə malik əzmkar və məğrur pəhləvanlardır.

Bu danılmaz bir həqiqətdir ki, türk alp ərənləri tarixən fiziki mədəniyyət elementlərini dərindən mənimsəyən, yəni qılınc döyüşündən, ox atmaqdan, nizə süzdürməkdən, gürz oynatmaqdan, at səyritməkdən, min bir fənd və çeviklik tələb edən gərgin güləş yarışlarından hünərlə çıxan bahadırlardır. Həmin intəhasız fiziki əzəmətə malik bahadırlar cismani sağlamlıq mücəssəməsi olmaqla yanaşı, həm də ağıllı, səbatlı, etibarlı, xeyirxah və sadə qəlbli xalq qəhrəmanlarıdır.

Beləliklə, böyük ədibimizin müharibə mövzusuna həsr etdiyi biri-birindən oxunaqlı olan sanballı əsərlərində Azərbaycan oğullarının həmin qanlı müharibədə göstərdikləri hünər və cəsarətlərini, yenilməz fədakarlıqlarını alovlu bir vətənpərvər yazar kimi çox məharətlə işıqlandırmışdır. İstedadlı ədibimizin həmin dövr üçün xalqımızda ruh yüksəkliyi yaradan, onları igidlik və qəhrəmanlıq göstərməyə sövq edən ibrətamiz fikirləri bu gün dəyərli bir sərvət kimi bizim üçün çox gərəklidir. Biz çox uzun illər düşmən tapdağında qalmış, yağılara əsir düşmüş doğma torpaqlarımızın, əzəli və əbədi gözəl Qarabağımızın işğaldan azad olunmasında nəinki Vətən oğullarının, həm qız və gəlinlərimizin göstərdikləri misilsiz şücaətinin əksini Mir Cəlal kimi böyük qələm sahiblərinin yaradıcılığında görürük.

Ədəbiyyat

1. Aslanlı M.İ. Azərbaycan ədəbi və ictimai-pedaqoji fikrində fiziki tərbiyə məsələləri. Bakı: Azərnəşr, 2008.
2. Dadaşzadə M.A. Ədəbi-tənqidi məqalələr. Bakı: Azərnəşr, 1957.
3. "Kitabi-Dədə Qorqud"da fiziki tərbiyə mədəniyyəti. Bakı: Füyuzat, 2015.
4. Mir Cəlal. Əsərləri, 5 cilddə, I c., Bakı: Aqiloğlu, 2013.
5. Mir Cəlal. Əsərləri, 5 cilddə, II c., Bakı: Aqiloğlu, 2013.
6. Paşayev M.Ə., Hüseynov F.S. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982.
7. Paşayev M.Ə. Seçilmiş əsərləri, 4 cilddə, I c., Bakı: Azərnəşr, 1967.

RƏYÇİ: dos.S.Abbasova

Məmmədova Ruqiyyə Bəhrəm q.[51]

Əli ƏMİRLİ KOMEDİYALARINDA DÖVRÜN BƏDİİ-ESTETİK TƏCƏSSÜMÜ

Azərbaycan Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı sosializmin kapitalizmlə əvəz olunduğu, Azərbaycanın müstəqilli kqazandığı birdövrə təsadüfetdiyi üçün ədəbiyyatda bir ço xyeniliklərlə özünü göstərmişdir. Ədəbiyyatımıza yeni məzmun, yeni mövzu, fərqli üslub-ideya, yeni janrlar, yeni qəhrəmanlar gəlmişdir. Müasir dövrdə də dramaturgiyada ən çox yazılan əsərlər komediya janrında olmuş, dramaturqlar dövrün problemlərini, qüsurlarını, mühüm məsələləri bu janr daxilində təsvir etmişlər. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan Əli Əmirli Azərbaycan dramaturgiyasına, Azərbaycan komediyasına öz adını qızıl hərflərlə yazdırmışdır. Sənətkar dramaturji yaradıcılığa 1990-cı illərdən başlamış, "Bala, bəla sözündəndir?", "Varlı qadın", "Onun iki qabırğası", "Köhnə ev","Kişi və qadın" kimi komediyalarla ədəbiyyatımızı, dramaturgiyamızı daha da zənginləşdirmiş, pyesləri ölkəmizin əksər teatrlarında uğurla tamaşaya qoyulmuş, müstəqillik dövrü səhnəmizin inkişafında mühüm rol oynamışdır. Əli Əmirlinin istedadlı yazıçı, görkəmli dramaturq kimi yetişməsinə, bir-birindən dəyərli pyeslər ərsəyə gətirməsinə yaşadığı dövrün keçid dövrünə təsadüf etməsi, Sovet dövrünün insanların psixologiyasında qoyduğu izlər, müstəqillik dövrünün özüylə bərabər gətirdiyi abhava çox təsir etmişdir. Tanınmış teatrşünas Aydın Talıbzadə Əli Əmirli haqqında yazdığı məqaləsində Əli Əmirlinin istedadlı bir dramaturq kimi tanınmasında dövr faktorunu xüsusi ilə qeyd etmişdir. "Əli Əmirlini dramaturq eləyən Azərbaycanın müstəqilliyi, meydanda səslənən "azadlıq nitqləri", azərbaycanlıların küçələrə dağılmış passionar enerjisi, Qarabağın içində və çölündə gerçəkləşmiş siyasi-diplomatik oyunlar və onların Bakı əks-sədası, bu oyunlar ucbatından qırıla-qırıla, qaça-qaça, köçə-köçə şəhərə çatıb öz xoşbəxtliyi sorağında vurnuxan adi zavallı insanların sərgüzəştləri olub" [4, səh.778].

Əli Əmirli dramaturgiyası mövzu baxımından çox rəngarəng olmuş, müasir dövrdə önəmli olan hər bir məsələyə toxunmuş, oxucunu, tamaşaçını narahat edən mühüm problemləri qələmə almışdır. Onun əsərlərində ictimai-siyasi, ümummilli, ailə-məişət, sosial və s. məsələlər, müstəqillik dövrünün bütün çatışmazlıqları təsvir olunmuşdur.

Yazıçının bəzi komediyalarının mövzusu istər dünən, istər bu gün, istərsə də gələcək üçün aktual olan məsələlərdir. Sənətkarın "Bala, bəla sözündəndir?" pyesində hadisələr müasir zamanda cərəyan etsə də, hər bir dövrdə cəmiyyətimizi narahat edən məsələlər burada öz əksini tapmışdır. Bütün hadisələr bir ailə daxilində göstərilsə də əslində buradakı problem umumilli, olduqca vacib bir məsələdir. Əsərdə hadisələr oğullarını əsgərlikdən yayındırmaq üçün hər yola əl atan ailənin, hətta bu ailənin timsalında bəzi üzdəniraq ailələrin düşdüyü komik vəziyyəti komediya şəklində ərsəyə gətirir. Ata İzzət Nəfisli və ana İzzət Nəfisli əsgərliyə göndərməmək üçün övladlarının birinə dəlilik kağızı alsalar da, digərini vətənə xidmətdən yayındırmaq üçün çarə tapmaqda aciz vəziyyətdə qalırlar. Əslində yazıçının kişi və qadın obrazına eyni ad verməsi əsərdə baş verəcək hadisələrdən xəbər verir. Sənətkar əsərdə ata İzzət Nəfislinin çağırış gəldiyi zaman verdiyi reaksiyanı elə gözəl şəkildə təsvir edir ki, insanın gözünün qarşısında bugünkü gündə də oğullarını əsgərliyə göndərməmək üçün min cür hiyləyə əl atan İzzət Nəfislilər canlanır. "Ata. "Vay dünya, gorun çatlasın sənin... Mənim evimə mənim oğluma, İzzət Nəfislinin qapısına povestka göndərirlər. Guya mən silesaram, şoferəm, injenerəm, nə bilim müəlliməm? Bu nətəər hökümətdi, nətəər prezidentdi, ə? Nə böyük tanıyırlar, nə kiçik sayırlar" [2, səh. 89]. Vəzifəsi, pulu heç bir işə yaramayan İzzət Nəfislilərin oğulu Cəmili əsgərlikdən yayındırmaq üçün fikirləşdikləri yol isə olduqca gülünc, absurd bir yoldur. Onlar Cəmili göndərməmək üçün ağıllı insanın xəyalına gətirmədiyi, axırıncı yola əl ataraq onu qız kimi qələmə verməkdən belə çəkinmirlər. Çünki İzzət Nəfisli kimi vəzifə düşkünü insanlar üçün vətən, millət, namus, qeyrət, təmiz ad heç bir əhəmiyyət kəsb etmir. "Ata. Düşmən gülləsinə tuş gəlməkdənsə, sənin kimi arvad olmaq yaxşıdır. Vremenni şeydi də... müharibə ömürlük deyil ki, bunun qurtaran vaxtı olacaq də. Lap lazım gəlsə, qızgili də başa salarıq. Bir də kim gələcək? İndi bir beş-on gün arvad paltarı geyməklə dönüb qız olacaq? Ana. Adə, səni deyir də. Papan istəyir ki, sən dönüb qız olasan, arvad paltarı geyib oturasan evdə" [2, səh. 93]. Bu əsl azərbaycanlı ailəsi üçün biyabırçılıq, faciə idi. Bu yalnız bir ailənin deyil, bütöv bir cəmiyyətin faciəsi idi. Çox təəssüf ki, cəmiyyətimiz bu faciə ilə nəinki 1993-cü ildə birinci Qarabağ müharibəsi zaman qarşı-qarşıya idi, eləcə də çox yaxın keçmişdə 2020-ci il ikinci Qarabağ müharibəsində də buna oxşar hallara təsadüf olundu.

Azərbaycan Respublikasının müstəqillik qazanması, Sovet hakimiyyətinin devrilməsi, sosializmin kapitalizmlə əvəz olunması insanların istər sosial-iqtisadi vəziyyətinə, istərsə də psixoloji durumuna, fikir və düşüncələrinə təsirsiz ötüşməmişdir. Təbii ki, bu məsələlər vətənini, xalqını, xalqının övladlarını sevən, onun taleyini düşünən heç bir vətəndaşın diqqətindən yayına bilməzdi. Cəmiyyətimizdə baş verən bu dəyişikliklərə, əlbəttə ki, ədəbiyyat sahəsindəki heç bir sənətkar biganə qalmamış, xüsusi ilə də dramaturqlar bu məsələlərə daha həssas yanaşmışlar. Digər dramaturqlar kimi Əli Əmirli komediyalarında da bu məsələlər istər əsərlərin mövzu və ideyasında, istərsə də obrazların mənəviyyatlarında, düşüncələrində, hərəkət və danışıqlarında özünü göstərir. Yazıçının "Köhnə ev" komediyası da bu qəbildən olan əsərlərdəndir.

Əsərin əsas qəhrəmanı əvvəlki mövqeyi zəifləmiş, hörmətdən düşmüş sosialist əməyi qəhrəmanı, neftçi Qüdrət Qurbanoviç sosializm tərəfdarı, yeni dövrlə barışa bilməyən bir obraz kimi təsvir olunur. Yazıçı bu obrazın nitqi ilə sosialist insanının narahatlığını, keçmiş günlərin o dövr insanında yaratdığı xoş xatirələri qələmə alır. Qüdrət Qurbanoviç: " Bəlkə sən deyəsən, nə qonaqlıqdı bu? Sosializmdi? Bəlkə kommunizmdi, xəbərimiz yoxdu? Bilmirsiz ki, millət qırılır acından? Qurtardı ey o günlər, hamı arxayınıydı hökümətə, qurtardı, yeyib qurtardılar. Bəlkə xəzinə tapmısınız? Dillənin də! Yoxsa

[51] Bakı Slavyan Universiteti (doktorant). yye.ehmedova@bk.ru

cavab verməyə sözünüz yoxdu? Axı bilmək olmur bayram hansıdı, matəm hansı? Çox vaxt üst-üstə düşür...” [2, səh. 314]. Qüdrət Qurbanoviçin bu nitqindən onun keçmiş günlər üçün necə darıxdığı, yeni dövrün çətinliklərinin onu necə qorxuya salması, narahat olması açıq-aşkar görünür.

Köhnə dövrlə yeni dövrün digər qütbündə, ziddiyyətin digər tərəfində isə pul üçün hər cür hiyləyə, yalana üz tutan, yüksək vəzifələrə çatmaq üçün dəridən-qabıqdan çıxan biznesmen Sahib durur. Pyesdə Qüdrət Qurbanoviçin qızı yeni dövrlə barışa bilməyən, yeni həyatı, yeni evi ilə barışa bilməyən, SSRİ xalq artisti, dünyanın əlli iki ölkəsini gəzmiş Zara xanım, onun keçmiş sevgilisi Kamran, Kamranın yüngül əxlaqlı arvadı Böcək, Zəhranın qızı, yeni dövrün nəbzini tutmağı bacara bilən Cana kimi obrazlar iştirak edir. Komediyada əsas hadisələr isə əsərin əvvəlindən hazırlıq görülən qonaqlıq vaxtı baş verir. Yazıçı bu qonaqlıqda zidd tərəfləri, mövqeləri qarşılaşdırır.Yazıçı Kamran və onun yüngül əxlaqlı həyat yoldaşı Böcəyin simasında bu qəbildən olan insanların daxil olduğu təbəqənin mədəniyyəti ilə kütləvi mədəniyyəti qarşılaşıdırır. Bu qarşılaşmada keçid dövrü üçün xas olan kütləvi mədəniyyət qalib gəlir, Zəhra Sahibdən evin qarşılığında aldığı pul ilə Böcəyi öz ölkəsinə göndərərək keçmişini, Kamranı geri qaytarır. Əli Əmirli Böcəyin bu aqibəti ilə ölkəsində sanki bu mədəniyyətə yer olmadığını göstərir.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında simvoldan istifadə olunması əsas xarakterik xüsusiyyətlərdəndir. Əli Əmirlinin “Köhnə ev” pyesində də ev əslində simvolik xarakter daşıyır. Əli Əmirli dövrün ziddiyyətli hadisələrini insanlara çatdırmaq, yeni dövrdə mənəvi dəyərlərin pul, maddiyyat qarşısında tənəzzülə uğramasını köhnə evdən istifadə edərək göstərmişdir. Köhnə evin sahibi Qüdrət kişinin evini vermək istəməməsi, evinin satıldığını eşitdikə verdiyi reaksiyalar köhnə nəslin öz mənəvi dəyərlərinə necə sahib çıxdığını, bu dəyərlərin onlar üçün nə qədər müqəddəs olduğunu göstərir. Lakin sonda Qüdrət kişinin evdən rəhmətə getmiş həyat yoldaşının şəklini də götürüb getməsi, köhnə evi tərk edib yeni evə köçməsi insanların istəyib-istəməməyinə baxmayaraq yeni dövrün yetişdiyindən xəbər verirdi. Müasir dövrün nəbzini tutmağı bacaran Əli Əmirli dramaturgiyasında ailə-məişət münasibətləri, ailəiçi məsələlər, ailə daxilindəki real problemlər əsas mövzulardan olmuşdur. Yazıçı belə əsərlərində baş verən hadisələri bir ailə daxilində təsvir etsə də, əslində bu hadisələrin fonunda cəmiyyətdəki bir sıra taleyüklü problemlərə toxunmuşdur. Ümumiyyətlə Əli Əmirli komediyalarının bir neçəsi ailənin özülünü təşkil edən arvad-kişi münasibətlərinə, bu münasibətlərdəki boşluqların mahiyyətindəki əsas problemləri üzə çıxarmağa həsr olunmuşdur. Dramaturq onları qarşı-qarşıya qoyaraq adətən kişiləri zavallı, aciz, yazıq, köməksiz bir obraz kimi göstərmişdir. Onun belə bir yola əl atması da təsadüfi deyildir. O, bununla problemin özülünə, kişiləri bu vəziyyətə salan keçid dövrünə, onları ailələri qarşısında məyus edən maddi sıxıntılara, pulsuzluğa işarə etmişdir. Əli Əmirlinin insanlar tərəfindən çox sevilən, teatrlarda tez-tez yer alan “Varlı qadın” komediyası da bir ailə daxilində baş verən hadisələrdən bəhs edir. Əsərdə pul üçün ata-anasından keçən övlad, ərindən imtina edən arvad, arvadının başqa kişi ilə ailə qurmasına belə razı olan ərin yer aldığı bir ailə təsvir olunur. Bu insanlar üçün namus, qeyrət, sədaqət sevgi yalnız puldan ibarətdir.

Əsərin birinci hissəsində ailə maddi sıxıntılar içində qıvranır, pulsuzluq, parasızlıq qarşısında aciz durumda qalır, hətta vəziyyət o qədər acınacaqlı hal alır ki, ər və arvad intihar həddinə qədər gəlib çatır. Lakin bir anda, bir xəbərlə vəiyyət tamamilə dəyişir, hadisələr başqa istiqamətdə inkişaf edir. Həvva Zərlinskiyə Almaniyadakı qohumu tərəfindən miras qaldığı, milyon dollara sahib olduğu aşkara çıxır. Əsərin əvvəlində kasıblıqdan daim şikayət edən, ərini şikayətləri ilə təhqir edən, dişsiz, döşsüz axsaq Həvva Zərlinski birdən-birə zərli-zibalı, kosmetikalı, xaricən gözəlləşsə də daxili aləmi daha da çirkinləşən Yeva Zərlinskiyə çevrilir. Onun üçün elə də əhəmiyyət kəsb etməyən ailə münasibətləri, sevgi-sayqı, sədaqət kimi hislər tamamilə dəyərini itirir. O, universitetdə işləyən, doktorluq müdafiə edən, ailəsini dolandırmağa gücü çatmayan, buna görə də daim ailəsi tərəfindən alçaldılan əri Sarı Qarayevi evdən qovmağa belə hazırdır. Ailənin bir anda varlanmasının aiədaxili münasibətlərə təsiri ilə yanaşı, cəmiyyətin də ailəyə qarşı münasibətini dəyişdirir. Əvvəl dilənçi tərəfindən belə sayılmayan, bəyənilməyən ailə bir anda ölkənin gündəminə çevrilir. Yazıçı obrazların danışığından elə göstərir ki, hətta Respublika iqtisdiyyatı da Almaniyadan gələn pullardan aslıdır. Dramaturq bununla keçid dövründə ölkədə maddi durumun nə qədər acınacaqlı olduğunu, pulun hər kəs üçün önəmini göstərir. Ədəbiyyatşünas Aydın Talıbzadə bu haqda yazır: “Komediyanın əməl partiturasının mərkəzində isə Cənab Pul dayanır. Cənab Pul pyesin dünyasını və personajlarını başqalaşdırır, əvvəlki xarakterləri pozub əvəzinə yenilərini yazır, münasibətlər modusunu tamam fərqli bir dalğaya kökləyir. Pul üstündə o bundan, bu ondan imtina etməyə hazıdır, insanlığı tapdalamağa hazırdır, keçmişi unutmağa hazırdır, min cür sərgüzəşt və oyunlara qatılmağa hazırdır” [4, səh. 778]. Lakin ailənin bu sevinci sona qədər davam etmir, onlar yenidən çətin sınaq qarşısında qalır, ailə milyonlara sahib olmaq üçün Yeva Zərlinski Zərlinski nəslindən olan cılız, balaca bir kişi ilə evlənməlidir. Lakin bu şərt belə Yeva Zərlinskini öz fikrindən belə döndərmir, çünkü ona ailədən də, sevgidən də önəmli puldur. Beləliklə, biz bu qadının necə mənəviyyatdan kənar, pul düşkünü bir obraz olduğunu bir daha görürük. Dövrün aciz vəziyyətə saldığı Sarı Qarayevə isə lap yazığımız gəlir. Əsərin sonunda onun Zərlinskilər nəslindən olduğunun ortaya çıxması hadisələri şirin finala çatdırsa da sonda Həvva Zərlinskinin gəliş xəbəri vəziyyəti müşkül hala salaraq obrazlarda çaşqınlıq yaradır, tamaşaçıları isə surətlərin taleyi ilə bağlı intizarda saxlayır. Əsərdə Sarı Qarayevin Zərlinskilər nəslindən olması ilə hadisələrin sonlanmsı keçid dövrü olmasına baxmayaraq sosrealizm dramaturgiyasının əlamətlərinin hələ də mövcudluğundan xəbər verir. Çünki qlobal ziddiyyətləri, sosial-siyasi, iqtisadi problemləri həll etmədən hadisələri xoşbəxt sonluqla bitirmək məhz bu dövr dramaturgiyaya məxsus xüsusiyyətlərdən idi. Yazıçı “Bala başa bəla” pyesində olduğu kimi “Varlı qadın” əsərində də jurnalistlərin baş verənlərə hay-küylə yanaşması, insanların şəxsi həyatına hörmətsizcə müdaxilə edərək olanları sensasiyaya çevirməsi kimi hadisələri təsvir etməklə komediyaya bir hərəkətlilik, canlılıq gətirsə də, mənim fikrimcə, bir tərəfdən də hər işə qarışan, insanların şəxsi həyatına hörmətlə yanaşmayan bəzi müxbirlərə bu səhnələrdə

tənqidi yanaşır. Ailədən olmayan, lakin tənqid hədəfinə tuş gələn digər bir obraz isə sırtıq, yalançı, yaltaq dilənçi obrazıdır. Dramaturq bu obraz vasitəsi ilə isə qaçqınlıq statusundan istifadə edən, özünü yazıq, dilənçi kimi göstərən, istədiyini almadıqda isə insanaların başına kül ələyən adi bir tipajdır.

Əli Əmirlinin komediyalarındakı bütün qadınlar Həvva Zərlinski kimi acgöz, pul düşkünü, mənəviyyatsız deyil. "Kişi və Qadın" pyesinin Emması Həvva Zərlinskidən fərqli olaraq əsl sevginin, sayqının nə olduğunu bilən, öz ailəsi üçün, ailəsinin dağılmaması üçün ərinin xəyanətinə belə göz yuman, yoldaşının ona qarşı etdiyi haqsızlıqlara, xəyanətlərə baxmayaraq ona qarşı sadiq, dürüst qalan obrazdır. Sənətkar bu obrazın simasında əsl Azəbaycan qadınının obrazını umumiləşdirmişdir. Onun həyat yoldaşı Əvəz isə xəyanətkar, mənəviyyatdan kənar, arvadını pul , əyləncə, gəzmək üçün öz müdiri ilə tanış edən şərəfsiz bir insandır. Əgər "Varlı qadın"da Sarı Qarayevə oxucunun, tamaşaçının yazığı gəlirdisə artq bu əsərdə Əvəz nifrət obyektinə çevrilir. Komediyada onunla zidd mövqeydə isə öz arvadını, əsl məhəbbətlə sevən, bir an onu unutmayan, ölümünü qəbullana bilməyən Cəmil surəti dayanır. Əli Əmirli özünün sevgi haqqında fikirlərini, düşüncələrini Emma və Cəmilin dialoqlarında əks etdirir. "Cəmil: Nə danışırsınız Emma? Mən o uşaqları, sizə "ana" deyib əl uzadan körpələri görəndə sarsıldım. Biz necə mənasız, əhəmiyyətsizbir ömür yaşayırıq. Pul yığmaqdan, qızılın cingiltisindən ləzzət almışıq, amma mən həqiqi ləzzəti o ianəni verəndə duydum. Demə əsl səadət o körpələrə dayaq durmaqda imiş. Onları sevmək bacarığıdır xoбəxtlik. Emma. Məhəbbətsiz insan boşdur, Cəmil bəy, mənasızdır. Biz bilə-bilə bu böyük sözü bəsitləşdiririk. Elə bilirik ki, məhəbbət kişinin qadına, qadının kişiyə olan sevgisidir. Əsl məhəbbət mərhəmətdədir" [2, səh. 457]. Dramaturq Emma və Cəmilin bu dialoqları ilə öz oxucusuna əsl sevginin kişi qadın məhəbbətindən ibarət bəsit bir şey olmadığını, əsl səadətin, sevginin, xoşbəxtliyin sənin sevginə, qayğına ehtiyacı olan kimsəsiz insanlara, körpələrə mərhəmət etməklə olduğunu göstərir. Yazıçı Emmanı əsərin sonunda bir obraz kimi daha da yüksəklərə qaldırır, oxucunun gözündə daha da sevimli, ideal bir obraza çevirir. Emma aciz bir obraz kimi görünsə də əsərin sonlarına yaxın dramaturq onu öz sözünü deməyi bacaran, ərindən səhvlərinə görə hamiləlik yalanı ilə qisas almağı bacaran, xəyanəti bağışlamayan məğrur, qürurlu bir surət kimi təsvir edir.

Komediyanın finalında yazıçı Emmanı iki seçim qarşısında qoyur: özünü bu həyatdan köçmüş bir qadının yerinə qoyub ömür boyu onun kölgəsi kim yaşamaq, yoxsa on beş il yaşanan xəyanətlərin bir ömür davam etməsinə gözmü yummalı? Təbii ki biz əsərdə bu suala cavab tapmasaq da Emma kimi bir qadının iki seçimin heç biri ilə razılaşmıyacağına güman edirik. Əli Əmirli pyeslərində insanların əsl üzünü açmağı, onları elə öz danışıqları ilə vurmağı , pisi pis, yaxşını yaxşı kimi göstərməyi, bunu oxucuya, tamaşaçıya çatdırmağı bacaran bir sənətkardır

Ədəbiyyat

1. Dadaşov A. "Müasir Azərbaycan dramaturgiyası". Bakı, "Elm və Təhsil", 2012, 304 səh.
2. Əmirli Ə. 15 pyes. Bakı, "Öndər nəşriyyat", 2006, 568 səh.
3. " Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı". 2cilddə. 1cild. Bakı, "Elm və təhsil", 2016, 800 səh.
4. " Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı". 2cilddə. 1cild. Bakı, "Elm və təhsil", 2016, 1088 səh.
5. Səfiyev A. Komediya və həyat. Bakı, Yazıçı, 1983, 200 səh.

Açar sözlər: dramaturgiya, komediya, ədəbiyyat, yazıçı, simvol.

Ключевыеслова: драматургия, комедия, литература, писатель, символ.

Key words: dramaturgy, comedy, literature, writer, symbol.

Художественно-эстетическое воплощение эпохи в комедиях Али Амирли.

Резюме

В статье исследуются художественно-эстетическое воплощение периода Независимости в комедиях Али Амирли и проблемы современной эпохи. Для исследования этих вопросов были рецензированы некоторые комедии Али Амирли по их сюжетным и содержательным характеристикам. Социально-экономические и политические проблемы, возникшие в период независимости, анализируются на основе произведений Али Амирли «Бала-бала от слова», «Богатая женщина», «Старый дом», «Мужчина и женщина».

Независимость Азербайджанской Республики, свержение Советской власти, замена социализма капитализмом не оказали влиянияна социально-экономические и психологические условия, идеи и мысли людей. Конечно, эти вопросы не могли ускользнуть от внимания любого гражданина, который любит свою страну, народ, детей своего народа, думает о его судьбе. Конечно, ни один художник в области литературы не остался равнодушным к этим переменам в нашем обществе, особенно чувствительными к этим вопросам были драматурги. В комедиях Али Амирли, как и других драматургов, эти вопросы проявляются в темах и идеях произведений, а также в нравах, мыслях, действиях и разговорах персонажей.

Таким образом, на основе каждой упомянутой в статье комедии были проведены исследования по указанным вопросам. Проанализированы роль и место азербайджанской комедии в нашей литературе периода независимости

Artistic and aesthetic embodiment of the period in Ali Amirli's comedies

Summary

İn the article, the artistic aesthetic embodiment of the Independence period in Ali Amirli's comedies and the problems of the modern era are explored. Some of Ali Amirli's comedies were reviewed based on their subject and content characteristics in order to explore these issues. The socio-economic and political problems during the period of independence are analyzed on the basis of Ali Amirli's works such as "Rich woman", "Old house", Man and woman".The independence of the Republic of Azerbaijan, the overthrow of the Soviet government, and the replacement of socialism with capitalism left an

impact on people's socio-economic and psychological conditions, ideas and thoughts. Of course, these issues could not escape the attention of any citizen who loves his country, people, children of his people, and thinks about their fate. Of course, no artist in the field of literature remained indifferent to these changes in our society, especially playwrights were more sensitive to these matters. In the comedies of Ali Amirli, like other playwrights, these issues are manifested in the themes and ideas of the works, as well as in the morals, thoughts, actions and conversations of the characters.

Thus, on the basis of each comedy mentioned in the article, researches were conducted on the mentioned in the article, researches were conducted on the mentioned issues. The role and position of Azerbaijani comedy in our literature during the period of independence was analyzed.

RƏYÇİ: dos. E.Vəliyeva

Санани Гюлер Мовсум гызы[52]

ГЕНИАЛЬНЫЙ ПОЭТ И МЫСЛИТЕЛЬ, КОРИФЕЙ МИРОВОЙ ЛИТЕРАТУРЫ – МУХАММЕД ФИЗУЛИ

Мухаммед Физули родился в начале XVIвека в Кербале, недалеко от Багдада. Отец его переселился из Азербайджана в Ирак, был муфтием - религиозным главой – в местечке Хилла. Физули получил отличное образование по тому времени. Он знал кроме азербайджанского, и персидский, и арабский языки. Физули основательно изучил математику, астрономию, медицину, логику. Изучив многие восточные науки, Физули был крупным учёным того времени. Он знал труды древнегреческих философов Геракла, Аристотеля, Пифагора, Платона.

Физули синтезировал культуру мусульманского и христианского мира, он был одним из передовых людей XVI века. Физули никогда не выезжал за пределы Багдада, одного из богатых и культурных городов того времени, но был всегда поэтом своего родного азербайджанского народа. Он посвятил всю свою жизнь поэзии. Физули оставил будущему поколению ряд крупных произведений и научных трудов на азербайджанском, арабском и фарсидском языках.

Физули остаётся гордостью и славой азербайджанского народа, одним из крупнейших представителей мировой поэзии. Творчество Физули оказало большое влияние на дальнейшее развитие азербайджанской и всей восточной литературы. В XVI веке расцветает азербайджанская поэзия, освобождаясь от арабско-иранского влияния. Значение этого языка ещё более повысилось приШах Исмаиле Хатаи. Это всё создавало условия для большого развития азербайджанской поэзии.

Творчество великого азербайджанского поэта Физули богато и многогранно. Великий мастер ещё в молодые годы обратил на себя внимание. Он создал произведения на языках мусульманского Востока, во всех литературных жанрах средневековья.

ТворчествоФизули широко представлено во многочисленных лирических стихах, аллегорических поэмах, научно-популярных сочинениях и прозаических произведениях.

Сам поэт во вступлении к поэме «Лейли и Меджнун» так расценивает своё творчество:

Мой разум овладел
словесным царством,
Я властвую над этим
государством.
Когда начну я пение
касыд,
Мой сокол в выси
горные летит.
Газель иной раз мне
дарит забвенье.
И месневи нередко я пою –
Из моря чистый жемчуг достаю.
На языках людей,
любимых мною,
Я сочиняю с легкою
душою …

В беспросветные годы феодального средневековья, когда средство связи находились в примитивном состоянии, стихи Физули облетели разные страны Востока, переходили из рук в руки и заучивались наизусть. В результате его произведения приобрели широкую популярность далеко за пределами его родины – среди уйгур в Китае, узбеков и таджиков в Средней Азии, в Турции, Болгарии, Иране, Египте и во многих других странах.

Когда Физули обрёл славу мастера поэзии, его произведения стали читаться с любовью не только в той среде, в которой он жил и творил, но и далеко за пределами, на всём Ближнем Востоке, в частности, в тех странах, где азербайджанский язык был понятен.

Пока тобою я пленён, в
тоску закован я,
хочу, чтобы никто другой
не получил тебя.
Любовью к чистому вину
наполнена душа.
О, неужели слёз поток не
умолил тебя.
О, Физули, твой черный рок

[52] BDU Rus dili kafedrası

к тебе благоволит –
неутомимою тоской он
одарил тебя.

Сила поэтических творений Физули, привлекла к себе внимание современных поэтов ценителей изящной словесности.

Начиная с середины XVI века все тескиролисцы сообщают сведения, приводят образцы его стихов и восхваляют их.

Одним из таких тезкирописцев является Лятифи из Кастамону (умер в 1582 году). Он пишет: «Физули Багдади – один из признанных поэтов того времени. Он обладает пленительной манерой изложения, близкой к манере Навои, с изумительным стилем стихотворства. В манере изложения он - зачинатель, а в способе сочинению – изобретатель».

Эти строки имеют историческую и научную ценность. Из этих строк можно сделать вывод, что произведения Физули пользовались большой популярностью в Малой Азии. Вместе с тем османские литературоведы ещё тогда рассматривали Физули как основателя своеобразного направления в искусстве, новой школы в поэзии, которая отличалась своей оригинальностью.

Очень интересен тот факт, что Лятифи отличает Физули, по языку и стилю, от малоазиатских поэтов. Лятифи подчеркивает близость манеры и стиля Физули к Навои, говоря, что он обладает пленительной манерой изложения, близкой к манере Навои.

Эту оценку Лятифи, также повторяет современник и земляк Физули – АхдыБагдади. Он писал: «Мевлана Физули – и – Багдади - совершеннейший муж, достигший зрелости в тончайших познаниях и превосходнейший эрудит, он жизнерадостный и приятный собеседник, бесподобный речист, он душа современника и сливки эпохи … Истина такова, что он в манере изложения – изобретатель, а в способе мышления - зачинатель».

Физули – автор 16 произведений на азербайджанском, персидском и арабском языках. Большое количество поэтических произведений – газели, крупнейшее – поэта «Лейли и Меджнун» на азербайджанском языке, которая считается вершиной творчества поэта.

Собхатуль – асмар « («Спор плодов») и «Бенгвебаде» («Опиум вино») являлись первыми ласточками поэтического творчества поэта.

В произведении «Бенгвебаде» Физули предостерегает здоровых, которые в поисках убежища от зла и неприятностей могли бы обратиться к опиуму. Такой призыв отстаивает право человека на земное счастье.

Аллегорический ряд образов и сравнений представлены и в его произведениях, как «Саххатвемерез» («Здоровье и болезнь») и «РиндуЗахид» («Гуляка и отшельник»). Произведение «РиндуЗахид» подвергает уничтожающей критике религию как таковую.

Вино ты осуждаешь, -я
пью, о проповедник!
Любовь ты проклинаешь
мою, о проповедник!
Мы бросим ради рая и
чашу, и подругу, -
Но что нам предлагаешь в
раю, о проповедник!

Следы влияния Физули заметны в современной азербайджанской музыке. Начиная с XVIIвека некоторые стихи поэта перекладываются на музыкальный лад и исполняются ашугами на сазе. Влияние произведений Физули прослеживается и в творчестве азербайджанских ханенде (певцов), которые используют некоторые части стихов поэта в мугаме.

Вершиной творчества Физули считается его лирико-эпическая поэма «Лейли и Меджнун». Продолжая и обновляя традиции своих предшественников, поэт создал оригинальную поэму, тесно связанную с азербайджанским устно-поэтическим творчеством. В отличии от Низами, Физули вставил в поэму газели, мораббы и монаджаты, которые гармонично вписываются в повествование и в то же время остаются самостоятельными.

Сын властелина племени Амира Кейс (что значит по-арабски «мерило таланта») влюбляется в Лейли, девочку с которой учится. Любовь детей взаимна. Однако классова- религиозные порядки общества враждебны его идеалам, в глазах окружающей среды он – «меджнун» (одержимый). Кейс изнемогает от любви:

Итак тот пленник страсти
очень скоро
В глазах людей стал
знаменьем позора
Меджнуном стали Кейса
звать тогда,
И сделала его иным беда.

Любовь Кейса к прекрасной Лейли не находит понимания её семьи, встречает суровое осуждение общественного круга. Кейс презирает общество, где господствует гнёт и несправедливость, покидает его и ищет утешение наложприроды:

Гонимый людскою злобою
великой,
Избрал себе он образ жизни
дикий …
Непостоянным он наш мир
нашёл
Именье отдал и ничто
нашёл.

Лейли – дочь богатого феодала, так же одинока и несчастна, как Меджнун:

О, небосвод, презрев меня, ты
совершаешь произвол,
Я роз просила у тебя, шипов
насыпал ты в подол …
Ты не позволил, чтобы я
погибла, верная любви
Мою ты верность, часть
мою, как жерновами
размолол.

Несмотря на усилие мистических мотивов, в конце поэмы Физули показал истинно человеческую любовь. В этом раскрывается сила романтической и жизненно правдивой поэзии Физули.

Певец любви и красоты, волшебник слова, гениальный поэт и мыслитель, один из корифеев мировой литературы Мухаммед Физули, воспевал как реально-земную, так и божественно-священную любовь.

Древние мудрецы утверждали, что каждый из нас только в настоящей любви становится Человеком. Искренне любящий человек способен на красивые, благородные поступки, понимать и воспринимать адекватно других людей и самого себя.

Я жизнью жертвовал не
раз, но счастья не нашёл.
Молил пощады, но в тебе
участья не нашёл.

Утратил всё, чем обладал,
стал нищим, - но и тут
бальзама нежности твоей в
напасти не нашёл.

О, если бы я рассказал, как
мучился тогда:
несчастный раб вошёл в
чертог, но власти не нашёл.

Я, как ничтожный муравей,
карабкался и полз,
Но Соломона – мудреца в
несчастье не нашёл.

Я – Физули, простой бедняк.
Красавица, прощай!
Я в бурю гибнущий челнок,
Я снасти не нашёл.

Мухаммед Физули, непревзойденный в азербайджанской литературе мастер лирической поэзии. Его перу принадлежат большая лирико-эпическая поэма «Лейли и Меджнун», аллегорические поэмы. «Опиум и вино», «Спор плодов», «Семь чашек», «Тело и болезнь», «Друг сердечный», сатирическое послание «Книга жалоб», философско-дидактические трактаты. «Восхождение убеждений», «Сад блаженных», «Срок хадисов (притч)» представляют собой совершенные образцы указанных литературных жанров. Поэт создал бессмертные творения во всех поэтических формах лирического жанра того времени: газель, касыде, мустазад, мураббе, мухаммас, рубаи и т.д.

К любой на свете цели что
Нас ведёт? – Любовь!
Кто гения приводит к
мирам высот? – Любовь!
Любовь – желанный
жемчуг сокровишницы
мира.
Сны всяких опьянений что
нам даёт? – Любовь!

Газели Физули – жемчужины его лирики, а стихотворное сказание о любви «Лейли и Меджнун» - венец его поэзии.

Лирика Физули воспринимается как многоцветная художественная панорама, где выражены переживания художника, его поиски идеальной красоты человека, совершенной и божественной гармонии души.

Собрание произведений (куллият) Физули начало составляться ещё при его жизни. Серьёзное изучение поэтического наследия и биографии Физули началось в конце XIXвека.

Австрийский историк – востоковед, исследователь и переводчик восточных литератур Иозеф фон Хаммер – Пургшталь; британский ориенталист ЭлиасГибб; российский востоковед – тюрколог Василий Смирнов; британский писатель – востоковед Эдвард Гранвиль Браун; российский историк – востоковед Агафангел Крымский и другие высоко оценивали творчество Физули, превозносили оригинальность и искренность поэта и выражали своё преклонение перед его гением.

Ещё в XIXвеке Сеид АзимШирвани, испытавший в своём творчестве могучее влияние Физули, поместил в своём тезкире лучшие образцы его произведений. Он с глубокой любовью отзывается о Физули, как о своём наставнике.

Первые обширные сведения о творчестве Физули в XXвеке даны литературоведом Абдуллой Суром. Анализируя газели поэта, он приходит к следующему заключению: «Не только в газельной литературе, не только в ту эпоху, но и в наше время не появился ещё поэт, который сумел бы достойным образом подражать Физули. Он – старец изысканности».

Другой азербайджанский исследователь Фиридун-бек Кочарли, определив самобытность Физули, указывает, что «он был возвышенным и проницательным поэтом и подобного ему не было нидо него, и в его время, и в поэзии никто не был его наставником, и ничьё произведение из великих писателей он не избирал себе за образец». Кочарли указывает на важнейшую особенность произведений Физули, которые заключаются в том, что в них гармонически сочетаются «чистые, неподдельные и естественные чувства».

Азербайджанский поэт и педагог Абдулла Шаиг писал, что Физули был феноменом не только одной своей эпохи, он влияет и на последующие века.

Профессор Азербайджанского Государственного Университета БекирЧобанзадеписал, что в статье, посвященной творчеству Физули утверждая, что любовь поэта жизненна и реальна, выступил против тех, кто связывал его наследие с суфизмом.

Основоположник азербайджанской драматургии Дж.Джаббарлы в своих выступлениях высоко расценивал творчество Физули, в частности его лирику. В других статьях, Дж.Джаббарлы писал: «Физули вывел азербайджанскую литературу из арабско-персидских водоворотов, и в пустоте, окружавшей её со всех четырёх сторон, взвалил на свои могучие плечи вновь рожденную литературу, победоносно подняв её до небывалых высот, предложил своей эпохе. И сегодня произведения Физули, написанные четыре века тому назад, могут шествовать в первых рядах литературы всего мира».

Я верности всегда хотел,
Но всюду ложь и гнёт я видел.
Куда я только не глядел –
Повсюду зла оплот я видел.

Я сетовал, на жизнь свою,
просил бальзама для неё,
Но та, что мне помочь должна,
Сама едва живёт я видел.

Душа моя скорбна – никто
печаль изгладить не сумел.
Мой друг о верности твердит –
Он яд мне в душу льёт – я видел.

Ручей хотел я ухватить –

Он увернулся от меня.
Я верил зеркалу – и что ж?
Оно безбожно лжёт – я видел.

О, Физули, ты мне прости,
Что на людей я не смотрю:
Всё зло на свете от людей,
Ему потерян счёт – я видел.

Литература

1. Хаким Г. – Сто газелей Физули. Вышка, 2005 г.
2. Фейзумаева В. «Я свеча в глухой ночи разлука…», Бакинский рабочий, 1995 г.
3. Кафаров В. – Гений Востока. К500 – летиюМ.Физули. Бакинец – 1994г.
4. Араслы Г.Т. – Великий азербайджанский поэт. М. «Знание». 1958 г.
5. Журнал – «Известие» АН Азерб.Республики. Баку. 1958 г. О Физули.

Резюме

Творчество Физули оказало большее влияние на дальнейшее развитие азербайджанской и всей восточной литературы. В XVI веке расцветает азербайджанская поэзия, освобождаясь от арабско – иранского влияния. Значение этого языка ещё более повысилось приШах Исмаиле Хатаи. Это всё создавало условия для большого развития азербайджанской поэзии.

Когда средства связи находились в примитивном состоянии, стихи Физули облетели разные страны Востока, переходили из рук в руки и заучивались наизусть.

Ключевые слова: передовой, за пределы, поколение, зрелость, собеседник.

Xülasə

Füzuli yaradıcılığının Azərbaycan və bütün Şərq ədəbiyyatının gələcək inkişafına böyük təsiri olmuşdur. XVI əsrdə Azərbaycan poeziyası ərəb-iran təsirindən qurtularaq çiçəkləndi. Şah İsmayıl Xətai dövründə bu dilin əhəmiyyəti daha da artdı. Bütün bunlar Azərbaycan poeziyasının böyük inkişafına şərait yaratdı.

Ünsiyyət vasitələri ibtidai vəziyyətdə olanda Füzulinin şerləri Şərqin müxtəlif ölkələrində dolanır, əzbər öyrənilirdi.

Açar sözlər: qabaqcıl, kənarda, nəsil, yetkinlik, həmsöhbət.

Annotation

Fuzuli’swort had a great influence on the further development of Azerbaijani and all Eastern literature, In the 16 th century, Azerbaijani poetry flourished, freeing itself from Arab-Iranian influence.

The importance of this language increased even moreunder Shah Ismail Khatai. All this created conditions for the great development of Azerbaijani poetry.

When the means of communication were in a primitive state? Firuli’s poems flew around different countries of the East, passed from hand to hand and memorized.

Key words:advanced, beyond, generation, maturity, interlocutor.

RƏYÇİ: dos? L.Ələkbərova

İlahə Şahin qızı Əhmədova [53]

YUSİF SƏMƏDOĞLU YARADICILIĞINDA MAGİK REALİZM ÜNSÜRLƏRİ

Dünyada magik realizm bir bədii prinsip kimi XX əsrin əvvəllərində, ideologiyalara və sosial strukturlara qarşı adi formalist etirazın qeyri-adekvatlığını dərk edən, hakim kodekslər çərçivəsindən kənarda dünya haqqında vahid konsepsiyanı bərpa etməyə çalışan yazıçıların modernist və avanqard qrupların böyük və ziddiyyətli axınından tədricən çıxmağa başlaması ilə yarandı. Bu mifopoetik düşüncə formasının Azərbaycan ədəbiyyatındakı işartıları isə eyni yüzilliyin ikinci yarısına təsadüf edir.

Magik realizm fenomeninin özü və onun Azərbaycan ədəbiyyatında bədii metod kimi hansı cərəyana aid olması ilə bağlı mübahisəli məqamlar mövcuddur. Professor Nizaməddin Şəmsizadə formalist ədəbi cərəyanlar sırasında modernizm və postmodernizm qollarının analizi zamanı magik realizmin ən güclü nümayəndələrindən biri hesab olunan Qabriel Qarsia Markesin də adını "bu və ya başqa tərzdə modernizmin təsiri ilə yazan" [8, s. 401] yazıçılardan biri kimi qeyd edir və bildirir: "Azərbaycanda mükəmməl bir bədii-fəlsəfi cərəyan kimi modernizm olmadığı kimi, postmodernizm də mövcud deyil. Tək-tək nümunələr öz bədii səviyyəsinə görə Avropanı təqliddən uzağa gedə bilmir" [8, s. 403]. Rəhim Əliyev isə yerli ədəbiyyatdakı labüd müvafiq vəziyyətlə bağlı şərh verməsə belə, yazır: "Əslində, mifdən, rəmzdən, alleqorik obrazdan realist əsərlərdə, xüsusilə poeziyada istifadə həmişə olmuşdur, ona görə Cənubi Amerikada Jorj Amadu, Qabriel Markes kimi yazıçıların əsərlərində özünü göstərən magik realizmi simvolizm elementlərindən istifadənin milli bir ədəbiyyatda üzə çıxması kimi qiymətləndirmək olar" [1, s. 51]. Beləliklə, bir daha sübut olunur ki, sözügedən mövzu ətrafında ciddi fikir ayrılıqları var.

Azərbaycan nəsrinin özünəməxsus dəst-xətti olan nümayəndələrindən biri Yusif Səmədoğludur. Onun yaradıcılığını təşkil edən əsərlər say etibarilə çox olmasa belə, Azərbaycan ədəbiyyatında tutduqları yer olduqca vacibdir. Bu vacibiyyət həmin nəsr nümunələrinin yerli ədəbiyyata gətirdikləri yeniliklərdən, qeyri-standart üslubundan qaynaqlanır. Sözsüz ki, nəsr nümunələrindən əlahiddə onun kinematoqrafiya sahəsindəki novator təşəbbüsləri, daim diqqətləri üstünə çəkməyi bacaran və Azərbaycan tamaşaçısını adət edilənlərdən başqa da ekran işlərinin varlığı ilə tanış edən qiymətli əsərləri qətiyyən kölgədə buraxıla bilməz.

Bir xalqın kök-yaddaşında sehrli, mistik inanclarla, mifik atributlarla dolu əfsanələri, əfsunlu obyekt-subyektlərlə, sətiraltı gizlin hadisələrlə dolu nağılları yoxdursa, onun müasir ədəbiyyatında magik realizm çalarları axtarmaq bihudə olar. Sirr deyil ki, yerli folklor bəhs edilən tərzdə sehrli-mistik xalq ədəbiyyatı nümunələri ilə zəngindir. Milli təfəkkür qatlarının yeni tendensiyalara müvafiq şəkildə təzahür etdiyi müasir yerli ədəbiyyatdakı magik realizm meyilləri də məhz bu səbəbdən qaynaqlanmaqdadır. "Yusif Səmədoğlunun yaradıcılıq nümunələri az olsa da, onun Azərbaycan ədəbiyyatında silinməz iz buraxması, Xalq yazıçısı və böyük nəsr ustası adlandırılmasının səbəbi nədir?" sualının cavabı da, hər şeydən əlavə, çox yəqin ki, məhz onun yazı tərzi, əsərlərindəki özünəxas magik üslubla əlaqədardır.

Dünya ədəbiyyatının magik realizm nümayəndələrinin əksəriyyətinin həyat hekayələrində öz qələm işləri ilə müəyyən uyğunluqlar, paralelləşmələr olur. Qəribə bir şəkildə, qələmə aldıqları əsərlərdə realizmlə yanaşı sehrli, ovsunlu ab-hava ehtiva edən müəlliflərin şəxsi həyatlarına da həmin magik toxunuşların sirayət etdiyinə X.L.Borxes, Q.Q.Markes, M.A.Asturias, X.Rulfo, X.Kortasarın timsalında bir çox yazıçıda rast gəlirik. Yusif Səmədoğlunun adı da bu siyahıya əlavə oluna bilər. Belə ki, yazıçının xarakterindəki rəngarənglik, dünyaya baxış bucağının qeyri-adiliyi birbaşa əsərlərinin ideya-məzmununa yansımış, həmin yazılar da öz növbəsində sanki bir növ müəllifin öz ömür yoluna istiqamət vermişdir.

Məsələn, magik realizmi dünya oxucusuna ən çox tanıdan və sevdirənlərdən biri, eyni adlı cərəyanın nəhənglərindən sayılan, Latın Amerika ədəbiyyatının dördüncü Nobel mükafatçısı (Kolumbiya, 1982), şöhrətli yazıçı Qabriel Qarsia Markesdir (*Ondan öncə bu mükafata layiq görülmüş üç latın amerikalı yazıçı: Qabriella Mistral (Çili, 1945), Migel Anxel Asturias (Qvatemala, 1967), Pablo Nebula (Çili, 1971) olmuşdur*). Markes ilə Yusif Səmədoğlunun şəxsi fəaliyyətləri arasındakı oxşarlıqlara nəzər salarkən hər iki yazıçının publisistika ilə illərlə ciddi şəkildə məşğul olmaları, mətbu orqanlarda əhəmiyyətli vəzifələrdə çalışmaları, hər ikisinin də kinematoqrafiya ilə yaxından həşir-nəşirliyi, rejissorluq, ssenari müəllifliyi sahəsində özlərini sübut etmələri, hətta hər ikisinin də diktatura rejiminə ciddi narazılıqları, əks-inqilabi çıxışları ilə məşhur olduqları və s. kimi faktları sadalamaq olar. Hər nə qədər, bəzi ədəbiyyatçıların fikrincə, Yusif Səmədoğlunun "Qətl günü" romanı M.A.Bulqakovun məşhur "Master və Marqarita" romanı ilə uyğunlaşdırılıb müqayisə edilsə də, təqzibedilməzdir ki, Azərbaycanın XX əsr ədəbiyyatında "ədəbi zəlzələ" effekti yaratmış yazıçının dünya ədəbiyyatında eyni ajiotaja səbəb olan ən müvafiq oxşarı və ideya, tərz baxımından ən uyğun ekvivalenti Qabriel Qarsia Markes və onun dəst-xəttidir. Əsərlərində bütöv bir topluluğun problemli, əskik, qüsurlu və ya zəif cəhətlərini bir neçə cümlə ilə, sadə, anlayışlı, lakin mükəmməl və hər təbəqənin nümayəndəsinə özünəməxsus şəkildə təsir edəcək formada çatdıran sözügedən iki yazıçı oxucunun yaddaşına həkk olunmağı asanlıqla bacarır. Görünüşcə belə təəccüblü şəkildə bir-birinə bənzəyən bu iki unikal insanın hətta ölüm səbəbləri də oxşardır. Təəccüb yaradan ən özəl məqam isə demək olar ki, bütün qələm nümunələrində ölüm faktorunu önə çıxaran hər iki yazıçının son əsərlərinin – *Markesin "Avqusta qədər" və Səmədoğlunun "Deyilənlər gəldi başa" romanı* – məhz ölümlərindən sonra oxucuya təqdim edilməsidir. Təəssüf ki, 87 il ömür sürən əvəzolunmaz Qabriel Qarsiya Markesdən fərqli olaraq, Azərbaycanın dəyərli nasiri Yusif Səmədoğlu 63 yaşını belə tamamlaya bilmədən vəfat etmişdir.

[53] Bakı Dövlət Universiteti. Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid ixtisası üzrə doktorant. akhmadovailaha@gmail.com

İlk hekayəsi "Qanlı çörəy"i hələ doqquz-onuncu siniflərdə qələmə almış yazıçı öz yaradıcılığına xeyli müddət məhz elə bu janr ilə davam etmişdir. "220 №-li otaq", "Yaddan çıxmış sözlər" kimi konkret yazıçı mövqeyinin sərgiləndiyi bir neçə nümunə istisna olmaqla, əksər hekayələrin özünəməxsus cəhəti əsərin sonunda məntiqi nöqtənin qoyulmaması, nəticə çıxarmaq məqamının oxucunun öhdəsinə buraxılmasıdır. Sanki bu cür məna yüklü hekayələrin labüd nəticəsi kimi ortaya çıxan iki romanın süjet xəttinin çoxşaxəliyi və mövzu baxımdan zənginliyi, mürəkkəbliyi gözlənilən olur.

Yusif Səmədoğlunun ölümündən dərhal sonra, 1999-cu ildə işıq üzü görən "Deyilənlər gəldi başa. Hekayələr və romanlar" kitabı onun ailə üzvləri, dostları, həmkarları, qələm yoldaşları və sözsüz ki, sadiq oxucuları üçün xüsusi dəyərə malikdir. Qardaşı Vaqif Səmədoğlunun və ən yaxın dostlarından biri Anarın ön sözləri ilə başlayan kitabın əsas əhəmiyyəti burada sərlövhə ilə eyni adı daşıyan və təəssüf ki, mərhum yazıçının tamamlaya bilmədiyi son romanının da yer almasıdır. "220№-li otaq", "Qalaktika", "Astana" kimi içərisində müxtəlif hekayələr toplanmış başlıqlarla yanaşı və məşhur "Qətl günü"dən savayı, yeni roman kimi ilk dəfə oxucunun ixtiyarına verilmiş "Deyilənlər gəldi başa"nın "Sarı hamam" adlanan birinci hissəsi tam olaraq yekunlaşsa da, "Luksor" adlı ikinci hissə isə yarımçıq qalmışdır.

"Deyilənlər gəldi başa" romanı Azərbaycan bədii nəsrində magik realizmin diqqətəlayiq nümunələrindən biridir. Birinci hissə sayılan "Sarı hamam"da əsas qəhrəman hesab edilən, danışmaq və eşitmək qabiliyyətindən məhrum, yaşının neçə olduğu, ümumiyyətlə kim olduğu, haradan, nə vaxt gəldiyi bilinməyən, bütünlükdə bir müəmmadan ibarət olan Səməndər romana magik ab-hava gətirir. Daha da maraqlısı budur ki, o özü belə keçmişi haqqında heç nə bilmir; qapı-bacada fəhləlik edən, kənd camaatının xeyirində-şərində hara buyurulsa, qaçan, insanları eşitməsə belə, hər sözü dodaqdan oxumağı bacaran, fağır bir insan olan Səməndər ancaq son bir neçə ilini xatırlayır. Lakin gecələr, səfil daxmasında özü ilə təkbətək qalanda onun həyatının əsl mistik hissəsi başlayır: gündüzlər adi bir küyü belə eşitməyən Səməndər gecə çökən kimi qulaqbatırıcı səslərdən əziyyət çəkir. Bu, milli folklorda da mövcud olan, "hal anası" adlandırılan mifik bir obrazın səsi, çağırışları, bəzən nəğməsi, bəzənsə nalələridir.

"Hal anası", "hal nənəsi" qədim xalq inanclarında hamilə və ya yenicə körpə dünyaya gətirmiş qadınlar üçün təhlükəli hesab edilən qorxulu personajdır. Azərbaycan bədii ədəbiyyatının daha bir magik realizm nümunəsi hesab edilən Mövlud Süleymanlının "Köç" romanında da eyni adlı mifik obraza rast gəlirik. Lakin "Köç"dəki hal anası məhz yerli folklorda bəhs edilən formadadır; onun funksiyası yalnız ikicanlı qadınların kabusuna çevrilməkdir. "Deyilənlər gəldi başa" romanında isə Sarı hamamı özünə məskən etdiyi deyilən hal anası daha üstün güclərə sahibdir; o, təkcə qadınların yox, ətrafdakı bir çox insanın taleyinə qənim kəsilir, onları özündən asılı vəziyyətə salır və birinci hissənin sonunda hamını sanki məşhərə çəkir.

Romanda Sarı hamamın özü də mistik bir yer kimi göstərilir. Səməndərin yuxularına haram qatan hal anasının təhdid dolu səsi hər gecə məhz oradan gəlir: "Dünyanın nə ağ günündən, nə qara günündən doymadı insan. Özü öz rişəsini kəsdi, özü öz məzarını qazdı… Laylasını da unutdu, yasinini də. Haram süd əmmişlərin sayı həşəratların sayına çatdı, insan nə xeyrinə vəfa qıldı, nə şərinə…" [6, s. 286].

Anarın "Dost sözü" deyə adlandırdığı, kitabın giriş məqaləsində qeyd edildiyinə əsasən məlum olur ki, onun Yusif Səmədoğlu ilə qədim və sehrli şəhər Dərbəndə olan səfərində ziyarət etdikləri "Qırxlar qəbiristanlığı" adlanan yer və oranın mistik rəvayətinin yazıçıda buraxdığı qeyri-adi təsir qüvvəsi "Deyilənlər gəldi başa" romanının ilk hissəsinin sonuna daha bir güclü magik realizm çalarının həkk edilməsi ilə nəticələnib [6, s. 9]. "Atam, biz özümüzü Qırxlar məzarlığında basdırdıq, cəsədimizi torpağa tapşırdıq. Ruhumuz geri qayıdır, hələ döyüşməliyik…" [6, s. 333].

Bütün bu mistik detallar, əfsunlu məzmun ilə yanaşı, xüsusən Cavadov adlı obrazın həyatı və fəaliyyəti ilə bağlı məqamlarda bəzən açıq-aydın, bəzənsə sətiraltı verilmiş realist ismarışlar, psixoloji-siyasi məsələlər romanın süjet xəttində paralelləşib birləşərək gözəl bir magik realizm nümunəsini ortaya çıxarır.

Təyyar Salamoğlunun qeyd etdiyi kimi: "Bilirik ki, ümumiyyətlə, "təmiz", "saf" üslub yoxdur. Sırf epik, sırf lirik və ya şərti-metaforik üslubda yazılmış əsərə nümunə axtarmaq sadəlövhlük olar. Bu və ya digər üslub tipində yazılmış romanlarda başqa üslublardan gəlmə məqamlar həmişə olur" [4, s. 324]. Professorun sözügedən romanlara gətirdiyi nümunələr arasında "Qətl günü"nün də adına rast gəlirik. Bu əsər janr etibarilə tarixi-psixoloji roman kimi qeydə alınır. Burada süjet üç xəttlə paralelləşir və demək olar ki, hər üç istiqamətdə magik realizm çalarları gözə çarpır. Üç fərqli dövrdəki – Məhəmməd şah Qacar hökmranlığı; 1937-ci illərin repressiyası və əlli il sonrası – gərginlik, hərc-mərclik, hər üç dövrdə insanların özünəxas daxili təlatümləri, cavab tapa bilmədikləri həyati suallar qarşısındakı çarəsizlikləri bəzi mistik toxunuşlarla əfsunlu ab-havaya bürünür. T.Salamoğlunun "Müasir Azərbaycan romanının poetikası" kitabında vurğuladığı kimi: "Müxtəlif dövrlərin yaxın səciyyəli hadisələrini bir romanda cəmləşdirmək müəllifə *(yəni Yusif Səmədoğluna – İ.Ə.)* həyat haqqındakı düşüncələrini, fəlsəfi qənaətlərini təkzibedilməz dəlillərlə əsaslandırmaq istəyindən irəli gəlir" [5, s. 34]. "Baba Kaha" deyilən yer və onun qeyri-adi toxunulmazlığı, roman boyunca zaman-zaman üzə çıxan Ölüm, Canavar və Yuxu kimi sehrli-ovsunlu məfhumlar, Kirlikir adlı tayı-bərabəri olmayan məxluq və s. məqamlar bu romana həmçinin sehrli gerçəklik meyilləri qatır. Lakin mübahisəolunmazdır ki, "Qətl günü"nü sırf magik realizm nümunəsi hesab etmək bir o qədər də professional yanaşma olmaz. Çünki "Deyilənlər gəldi başa" ilə müqayisədə bu romanda tarixi aspekt, psixoloji, siyasi yanaşma daha qabarıq, magik detallar isə ikincidərəcəli mövqedədir.

Göründüyü kimi, 2014-cü ildə "XX əsrin ən yaxşı Azərbaycan romanı" nominasiyasına layiq görülən "Qətl günü" romanında özünü az-az, gizli-gizli büruzə verməyə başlayan magik realizm çalarları "Deyilənlər gəldi başa" əsərində oxuculara artıq açıq-aşkar şəkildə təqdim edilmişdir. Sözügedən romanlara analitik yanaşmadan sonra, yazıçının qələmə aldığı hekayələr arasında ən çox magik realizm işartıları olanına nəzər salaq.

"Astana" adlı hekayə magik realizm axtarışlarında xüsusilə diqqəti cəlb edir. Yazıçının əksər əsərlərində mistik, özündə sehrli, müəmmalı sirrləri gizlədən məfhum kimi daim önə çıxan ölüm faktoru bu hekayənin elə epiqrafından etibarən (*"Ölüm var ölümdü, ölüm də var zülümdü"*) oxucunu özünə çəkir [6, s. 89]. Bir növ məşhur argentinalı magik realizm yazarı Xulio Kortasarın az qala fantastik dərəcəyə çatan həddən-ziyadə mistik hekayələri və ya Xuan Rulfonun insan beynini alt-üst edən "Pedro Paramo" romanı kimi "Astana"da da bir çox maraqlı detal vardır. "Həmin anda – gecəydimi, səhərdimi, gündüzdümü, bilmirdi – həmin anda gözlərinin işartısından irəli düşən işıq dairəsində öz növbəsini gözləyən nizə vıyıltı ilə havanı yarıb harasa uzağa süzdü, həmin anda Bakının müsəlman qəbiristanlığında bir qarı elə ufuldadı ki, o biri meyitlər də eşitdi" hekayənin sonuna yaxın qeyd olunan bu əfsunlu cümlə elə bir reallıqla yazılıb ki, sanki həmin ufultu hətta oxucunun öz qulaqlarında əks-səda verir [6, s. 99-100]. "Torpaq insan sidiyindən və qanından yumşalıb xəşil olmuşdu" cümləsindəki mübaliğə qarışıq təhkiyə isə bizə Qabriel Qarsiya Markesin "Yüz ilin tənhalığı" romanında təsvir etdiyi "düz dörd il, on bir ay, iki gün" kəsmək bilməyən yağışdan sonra üzə çıxan vəziyyətin təsvir olunduğu cümləsini xatırladır: "Havada o qədər nəmişlik vardı ki, balıqlar rahatca açıq qapıdan girib, otaqlarda üzərək açıq pəncərədən üzüb gedə bilirdilər" [2, s. 356-357].

Azərbaycan bədii nəsrində hələ XX əsrin ortalarından etibarən magik realizm nümunələrinə rast gəlinməsi, əslində, qeyri-adi, fövqəl bir ədəbi hadisə hesab olunmamalıdır. Xalqın şüuraltı yaddaşında özünəməxsus yer tutmuş mistik obrazlı, xəyali varlıqlar, həmçinin müəyyən inanclara əsasən insan taleyinə müsbət və ya mənfi təsir edə biləcək sehrli yerlər daim olmuş, yerli əhali müxtəlif niyyətlər və məqsədlərlə əlaqədar sözügedən obyekt-subyektlərə bəzən pənah aparmış, bəzənsə onlardan qorxmuş, hətta nifrət etmişlər. Köklərində atəşpərənstliyə inam, yüzlərlə nağıl, dastan, əfsanə olan, folklorunun və aşıq ədəbiyyatının zənginliyi ilə fərqlənən bir xalqın irəliləyən dövrlərdə də cürbəcür insanüstü varlıqlara, gündəlik həyat hadisələrinin gedişatını öncədən müəyyənləşdirib, hətta onları istənilən mənada dəyişdirə biləcək qüvvələrin mövcudluğuna inanması, sözügedən məfhumlara bəzən hətta sitayiş edilməsi labüd sosial-ictimai gedişatdır.

Yusif Səmədoğlu yaradıcılığı Azərbaycan bədii nəsrində xüsusilə milli magik realizm nümunəsi baxımından olduqca dəyərlidir. "...Y.Səmədoğlunun mövzuya münasibətində cəmiyyətin bütün qatlarını görən, onu dərindən bilən adam dayanır. Hiss edirsən ki, bu adam ictimai qatların hamısını yaşayıb, həyatından keçirib" [3, s. 172]. Yazıçının Azərbaycan ədəbiyyat tarixinə bir çox dünya şöhrətli həmkarlarının mistik məzmunlu əsərləri ilə rahatlıqla müqayisə oluna biləcək əsərlər töhfə etdiyi cəsarətlə vurğulana bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 2008, 360 s.
2. Markes Qabriel Qarsia. Yüz ilin tənhalığı. – Bakı: Qanun, 2011, 468 s.
3. Məmmədov A. Sözümüz eşidilənədək. Bakı: Yazıçı, 1988, 248 s.
4. Salamoğlu T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: BQU, 2008, 554 s.
5. Salamoğlu T. Müasir Azərbaycan romanının poetikası (XX əsrin 80-ci illəri). Monoqrafiya. Bakı: Elm, 2005, 280 s.
6. Səmədoğlu Y. gəldi başa. Hekayələr və romanlar. – Bakı: "XXI"-YENİ NƏŞRLƏR EVİ, 1999, 344 s.
7. Səmədoğlu Y. Seçilmiş əsərlər. – Bakı: Şərq-Qərb, 2005, 320 s.
8. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi: (Dərslik). Bakı: Proqres, 2012, 434 s.
9. Гугнин А.А. Магический реализм в контексте литературы и искусства XX века (Феномен и некоторые пути его осмысления). Москва, 1998. 117 с.

Açar sözlər: Azərbaycan nəsri, Yusif Səmədoğlu, magik realizm, bədii nəsr, roman, ədəbi təhlil
Key words: Azerbaijani prose, Yusif Samadoglu, magical realism, fiction prose, novel, literary analysis
Ключевые слова: Азербайджанская проза, Юсиф Самедоглу, магический реализм, художественная проза, роман, литературный анализ

Yusif Səmədoğlu yaradıcılığında magik realizm ünsürləri

Xülasə

Dünya ədəbiyyatında son yüz ildə formalaşıb məşhurlaşan, həm yazıçılar, həm də oxucular tərəfindən tez-tez müraciət olunan mövzulardan biri magik realizmdir. Milli ədəbiyyat tarixində hələ ki tam olaraq bir "cərəyan" şəklində formalaşmasa belə, bu ədəbi metod xüsusilə də yeni və müasir milli bədii nəsrdə bir çox yazıçıların diqqətini cəlb edib. Milli magik realizm nümunələrinin sayı çoxaldıqca, sözsüz ki, həmin əsərlərin ədəbi təhlili və onlara elmi nöqteyi-nəzərdən yanaşma zərurəti də aktuallaşır.

Azərbaycan bədii nəsrində magik realizm istiqamətli əsərləri sadalayarkən Yusif Səmədoğlunun "Qətl günü" və "Deyilənlər gəldi başa" romanları ağla gələn ilk sərlövhələrdən olur. Bu iki roman yazılarkən yazıçının janr etibarilə magik realizm haqqında hansı dərəcədə məlumatlı olması, romanları bu istiqamətdə məqsədli şəkildə yazıb-yazmaması və ümumiyyətlə, sözügedən əsərlərin əsl magik realizm nümunəsi hesab edilib-edilməməsi məqalənin araşdırma obyektidir.

Elements of magical realism in the work of Yusif Samadoglu

Summary

Magical realism is one of the genres that has been formed and popularized in world literature in the last hundred years and is often used by both writers and readers. Even if it has not yet been fully formed as a "trend" in our literary history, this literary method has attracted the attention of many writers, especially in our new and modern fiction. As the number of examples of national magical realism increases, it goes without saying that the need to approach these works from a scientific point of view and their literary analysis is increasing.

When listing the works of magical realism in Azerbaijani literary prose, Yusif Samadoglu's "The Day of Murder" and "Deyilenler Geldi Basha" are among the first titles that come to mind. When writing these two novels, to what extent the

writer was aware of magical realism as a genre, whether he wrote novels purposefully in this direction, and in general, whether the works in question are considered true examples of magical realism, is the object of the article's investigation.

Элементы магического реализма в творчестве Юсифа Самедоглу

Резюме

Магический реализм – одна из тем, сформировавшаяся и популяризировавшаяся в мировой литературе за последние сто лет и часто обращающаяся как к писателям, так и к читателям. Хотя оно еще не вполне оформилось как «направление» в нашей литературной истории, это литературный метод привлекло внимание многих писателей, особенно в нашей новой и современной художественной литературе. По мере увеличения количества примеров национального магического реализма, само собой разумеется, возрастает необходимость подхода к этим произведениям с научной точки зрения, к их литературному анализу.

При перечислении произведений магического реализма в азербайджанской литературной прозе одними из первых на ум приходят произведения Юсифа Самедоглу «День убийства» и «Дейиленлер гельди баша». Объект исследования статьи - в какой степени писатель осознавал магический реализм как жанр при написании этих двух романов, писал ли он романы целенаправленно в этом направлении и считаются ли рассматриваемые произведения подлинными образцами Магический реализм.

RƏYÇİ: dos. E.Vəliyeva

Bağırova Tahirə Əbil qızı [54]

SƏRRAF QASIMIN ÖMÜR YOLU

Aşiq, bura Nuh çıxan,
Qədim adı "Nuhçıxan".
Nuh babama bağlı ad,
Olub indi "Naxçıvan".
Sərraf Qasım.

Çağdaş Naxçıvan Aşıq məktəbinin banisi unudulmaz və istedadlı el sənətkarı,söz sərrafı Sərraf Qasım əlinə qələm,sinəsinə saz aldığı ilk vaxtlardan etibarən həyatının sonunadək xalqa, vətənə məhəbbət duyğusu ilə yazdı,yaratdı.
Xalqımızın qədim tarixi ilə bağlı olan, əsrlər keçdikcə müasirliyə qovuşan aşıq sənəti folklorumuzun təsdiqidir. Dərin məzmunlu, zəngin sənət növü kimi formalaşan aşıq yaradıcılığı Naxçıvanda ta qədimdən inkişaf edib, saz və söz yaradıcılığı sahəsində aşıq sənətinə misilsiz töhfələr verib.Azərbaycan şairi,çağdaş Naxçıvan aşıq məktəbinin banisi Sərraf Qasım Şahbuz aşıq mühitinin uzun illər ərzində saz həvəskarlarına aşıq-saz sənətinin sirlərini öyrədib. Rüstəmli Sərraf Qasım Əyyub oğlu 31 dekabr 1939-cu il tarixdə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Aşağı Qışlaq kəndində anadan olmuşdur .Orta təhsili öz doğma kəndində alan Sərraf Qasım,1962-1967-ci illərdə Gəncədə yerləşən Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda tam ali təhsili alaraq, zootexnika ixtisası üzrə alimlik dərəcəsi əldə etmişdir.
Uşaqlıqdan saza, sözə həvəs göstərən Sərraf Qasım, Gəncədə təhsil aldığı dövrdə orada müxtəlif sənət adamlarından və ustadlardan öz rəsmi ixtisası ilə yanaşı, həm saz-söz sənətini, həm də elmi, ədəbi, dini və ictimai bilikləri dərindən öyrənmişdir.Gəncə mühiti Sərraf Qasımın savadlı bir alim və saz-söz sənətkarı kimi yetişməsinə səbəb olmuşdur.

Sərraf Qasım tələbəlik illərindən aşıq şeirləri və dastanlar yazmağa başlamış, tanınmışAzərbaycan aşıqlarından olan Məzahir Daşqın, Mikayıl Azaflı, Aşıq İmran, Aşıq Əkbər, Aşıq Hüseyn Saraclı, Aşıq Kamandar, Aşıq Ədalət Nəsibov, Aşıq Mayis Gəncəli və s. kimi bir çox aşıqlarla yaradıcılıq əlaqələri quraraq, onların bəziləri ilə yaxından dostluq etmişdir. Sərraf Qasım gənc yaşlarından şeirləri bu kimi aşıqlar tərəfindən bütün ölkədə bir çox el məclislərində səsləndirməyə başlamış və onun bir şair kimi tanınmağına səbəb olmuşdur.İlk şeirlərini "Qışlaqlı" təxəllüsü ilə yazmağa başlayan Sərraf Qasım aşıq və şeir məclislərinin birində görkəmli aşıq və şair Məzahir Daşqının məsləhəti əsasında tətənəli bir mərasimdə öz təxəllüsünü dəyişərək, "Sərraf" (Sərraf Qasım) təxəllüsünü qəbul etmişdir.
Sərraf Qasım eyni zamanda həm peşəkar şair, həm də ustad aşıq və haqq aşığı olmuşdur.
Bir çox aşıqlardan fərqli olaraq, Sərraf Qasımın aşıqlıq etməsi, əsasən aşıq-saz sənətini öyrənib, təmənnasız olaraq bu sənəti başqalarına öyrətməsindən və təbliğ etməsindən ibarət olmuşdur. Sərraf Qasım Sovet dövründə Şahbuz rayonunda müxtəlif iş yerlərində öz ixtisasına uyğun işlərdə rəsmi əmək fəaliyyəti ilə məşğul olmuş, lakin bununla da yanaşı o,ədəbi fəaliyyətini də davam etdirmiş, eyni zamanda Naxçıvan mühitində könüllü şəkildə aşıq-saz sənətini təbliğ etməyə, bu sənəti başqalarına öyrətməyə başlamış və nəticədə bu sahədə çox əhəmiyyətli və genişmiqyaslı səmərəli xidmətlər göstərmişdir.
Sərraf Qasımın doğma kənd evi, Sovet dövründə Naxçıvanda dövlət məktəblərində saz sənətinin tədrisinin qadağan olunduğu bir dövrdə böyük bir aşıq məktəbi kimi tanınmağa başlamışdır.

Ustad aşıq və şairlərdən dərs alan, aşıq sənətinin bütün sirlərinə vaqif olan və öz yaradıcılıq fəaliyyəti ilə Azərbaycan aşıq məktəbinin inkişafına əvəzsiz töhfələr verən Sərraf Qasım, XXəsrin ikinci yarsında Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı və aşıq sənətinin inkişafına ən zəngin töhfələr verən misilsiz bir şəxs olduğuna, o cümlədən Naxşıvan mühitində könüllü olaraq öz sazı və sözü ilə aşıq sənətinin geniş şəkildə təbliği və tədrisi sahəsində mühüm xidmətlər göstərdiyinə, Naxçıvan aşıqlarının böyük bir hissəsini Azərbaycanın digər bölgələrindən alıb gətirdiyi sazlarla təmin etdiyinə, Naxçıvanda ilk dəfə rəsmi saz məktəblərinin yaranmasının səbəbkarı olduğuna və çox sayda aşıq və saz müəllimi yetişdirdiyinə görə tədqiqatçı folklorşünas və ədəbiyyatşünas alimlər tərəfndən Çağdaş Naxçıvan aşıq məktəbinin banisi adlandirilmlşdır.
1960-cı illərdən etibarən saz-söz snətini dərindən öyrnməyə başlamış Sərraf Qasım hər dəfə Naxçıvana öz el-obasına gələndə saz həvəskarlarının, bu sənəti öyrənmək istəyənləri evində başına toplayaraq,öz biliklərini onlara da öyrədərdi və onun bu 'sahədə gördüyü işlər getdikcə daha geniş vüsət alardı.

Sərraf Qasımdan əvvəl və onunla eyni dövrdə də Naxçıvanda bir çox istedadlı qocaman və yaradıcı aşıqlar olub. Onların da bu sahədə bir çox önəmli xidmətləri və bir çox şəyirdləri olub. Lakin aşıq-saz sənətinin təbliğ və tədris oluması sahəsində Sərraf Qasımın gördüyü işlərin həcmi onların gördüyü işlərdən bir neçə dəfə artıq və daha çox olub və Naxçıvan zonasında böyük bir aşıq məktəbinin yaranması ilə nəticələnib. Ən əsası isə Sovet dövründə Naxçıvanda demək olar ki, heç bir yerdə və həmçinin dövlət təhsil müəssisələrində saz fənni keçirilməyib, hətta qəti şəkildə qadağan olunmuşdu. Ancaq buna baxmayaraq Sərraf Qasım aşıqlıq sənətini Naxçıvanda yaymaq və həvəskarlara öyrətmək fikirinə düşmüşdü.Məhz buna görə də Naxçıvanda bu sənəti öyrənmək istəyən şəxslər Sərraf Qasım kimi ustadlara müraciət edərdilər. Saz sənətini öyrənmək istiyənlər və yaşından asılı olmayaraq bu sənəti öyrənmək istəyənlər Naxçıvanın ayrı-ayrı bölgələrindən olsalar da, yolları uzaq olsa da, saz ifaçılığını və bu sənətin sirlərini dərindən öyrənmək üçün Şahbuz rayonunun Aşağı Qışlaq kəndinə Sərraf Qasımın evinə üz tutardılar. Sərraf Qasım isə hər zaman olduğu kimi təmənnasız olaraq onlara bu sənədi öyrədər və heç vaxt ona üz tutanları qapısından naümid qaytarmazdı.

[54] **AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, fil.f.d., dosent**

Sərraf Qasımın qapısı hər zaman pənah gətirən adamınüzünə açıq idi, o, hətta imkan daxilində bu şəxslərə saz alıb verərdi. Zaman keçdikcə bu insanların sayı da artır və bununla da Sərraf Qasımın yaratdığı aşıq-saz məktəbinin təməli Sərraf Qasımın yaşadığı onun doğma kənd evində qoyulmuşdur.

Beləliklə də saz sənətini öyrənməklə yanaşı, Naxçıvan mühitində öz sazı və sözü ilə aşıq sənətinin geniş təbliği ilə məşğul olan Sərraf Qasımın doğma kənd evi çağdaş Naxçıvanın ən böyük aşıq-saz məktəbi kimi tanınır.Sərraf Qasımın xalq arasında tanınmış bir şair olması isə onun belə bir məktəb yaratmasında daha çox hörmət və uğur qazanması ilə nəticələnir.

Sərraf Qasımın dəstəyi və səbəbkarlığı və onun bəzi yetirmələrinin ciddi səyləri nəticəsində 1992-ci ildən etibarən Naxçıvan zonasında dövlət təhsil müəssisələrinin tərkibində ilk rəsmi saz məktəbləri (saz şöbələri) yaradılmışdır.

Sərraf Qasımın çoxsaylı tanınmış, ustad aşıq və müəllim səviyyəsinə çatmış yetirmələri olmuş və onlar, yeni yaranan bu saz məktəblərində müəllim işləmişlər.Hazırda Naxşıvanda fəaliyyət göstərən aşıqların və saz müəllimlərinin böyük əksəriyyəti, təməli Sərraf Qasım tərəfindən bu qeyri-rəsmi aşıq-saz məktəblərinin yetirmələridilər.

Qeyri-rəsmi və könüllü şəkildə saz sənətini öyrətməyə üstünlük verən Sərraf Qasım, Şahbuz rayonunun mədəniyyət rəhbərliyinin israrı ilə 1996-cı ildə rayonun Kolanı Uşaq Musiqi Məktəbinin tərkibində yaranan saz məktəbində (saz şöbəsində) bir saz müəllimi kimi işə götürülmüş və bundan sonra o, öz ənənəsinə uyğun olaraq, Kolanı saz məktəbində qeydiyyatda olan şagirdlərə öz evində yaratdığı məktəbdə rəsmi surətdə saz sənətini tədris etməyə başlamışdır.Bununla da uzun illər ərzində qeyri-rəsmi şəkildə saz sənətinin tədrisi ilə məşğul olan Sərraf Qasım, artıq bir rəsmi saz müəllimi kimi öz evində yaratdığı Saz Məktəbində dərs keçməyə başlamışdır.

Sərraf Qasıma yaratdığı bu məktbdə uğur qazanması üçün ən böyük maddi və mənəvi dəstək verən şəxs, qardaşı Aşıq Müslüm olmuşdur. Yaşca Sərraf Qasımdan böyük olan Aşıq Müslüm Rüstəmov, hələ saz sənətini öyrənməzdən əvvəl gözəl bir tar ifaçısı və tarzən olmuşdur. Sərraf Qasım Saz Məktəbi yaratdıqda isə Aşıq Müslüm tarla vidalaşaraq, saz sənətini öyrənmyə maraq göstərmişdir.O, aşıq-saz sənətinin bütün incəliklərini qardaşı Sərraf Qasımdan öyrənərək, ustad aşıq səviyyəsinə çatmış bir sənətkar kimi saz sənətini öyrənmək üçün qardaşının yaratdığı bu məktəbə üz tutan şəxslərin bir qisminə bu sənəti öyrətmişdir.

Sərraf Qasım bir çox hallarda gündüzlər vaxtı olmadığına görə axşamlar və gecələr vaxtını buna sərf edərdi. Gecələr səhərə kimi saz sədaları Sərraf Qasımın evindən eşidilərdi.

Sərraf Qasım heş bir maddi-maraq güdmədən və yalnız milli dəyərlərimizdən olan aşıq-saz sənətinin yaşadılması məqsədilə öz biliklərini şəyirdlərinə və sənət yoldaşlarına öyrətməyə çalışardı.Sərraf Qasım hər zaman şəyirdlərinə, tələbələrinə deyərdi ki, "sizin mənə verəcəyiniz haqq və bəxşiş o ola bilər ki, sız də gedib öz bölgənizdə, ətrafınızda kimlərəsə bu sənəti öyrədəsiniz və onlara da tapşırasınız ki, onlar da bu sənəti başqalarına öyrətsinlər, yalnız o zaman siz mənə haqqınızı vermiş olarsınız.

Sərraf Qasımın ustad aşıq səviyyəsinə çatan və saz müəllimi kimi fəaliyyət göstərən bir çox yetirməsi olmuş, onların hamısı saz sənətinin sırlərini Sərraf Qasımdan öyrənərək, ustadının istədiyi kimi bu sənəti başqalarına öyrətməklə məşğul olmuşlar. Sərraf Qasımın həmin tanınmış yetirmələrindən mərhum Vahid müəllim Qurbanov – (rəsmiNaxşıvan Muxtar Respublikasının ilk rəsmi sazmüəllimi), mərhum Aşıq Müslüm Rüstəmov – (tanınmış Naxşıvanlı ustad aşıq), mərhum aşıq Abdulla Fətəliyev –(tanınmış Naxşıvanlı ustad aşıq), Aşıq və şair Çərkəz Fətəliyev – (Əməkdar müəllim), Aşıq Zülal Məmmdov – (tanınmış Naxçıvanlı ustad aşıq), Aşıq Aydın Cəfərov – (tanınmış Naxçıvanlı ustad aşıq), Teymur müəllim Hüseynov – (Kolanı Saz Məktəbinin ilk müəllimi), Aşıq İxtiyar Seyidov- (tanınmış Naxçıvanlı sazbənd və saz müəllimi), Aşıq Zahir Hüseynov –(Kolanı Saz Məktəbinin digər bir müəllimi), Aşıq Əli – (Kolanı Saz Məktəbinin daha bir müəllimi) v bunlar kimi bir çox başqa aşıq və müəllimlərin adını xüsusilə çəkmək mümkündür.

Sərraf Qasımın hal-hazırda peşəkar aşıq səviyyəsinə çatan və Naxçıvan mühitində aşıq yaradıcılığının inkişafına böyük əmək sərf edən Aşıq Tural Bağırov (Aşıq Abdullanın yetirməsi), Aşıq Şirin Şirinzadə (Aşıq Zülal və Aşıq İxtiyarın yetirməsi), və bunlar kimi bir çox digər aşıq və saz müəllimlərinin adlarını da xüsusilə vurğulamaq lazımdır.

Uzun illər ərzində Naxçıvan mühitində aşıq-saz sənətinin könüllü şəkildə təbliği və tədrisi ilə məşğul olan Sərraf Qasım, eyni zamanda bu sənətin dövlət tərəfindən dəstəklənməsi və saz fənninin dövlət təhsil müəssisələrində tədris oluması istiqamətində böyük səylər göstərmişdir.

Nəhayət 1992-ci ildə Naxçıvan zonasında dövlət təhsil müəssisələrinin tərkibində (Şahbuz rayonundan başlayaraq) ilk rəsmi saz məktəbləri (saz şöbələri) yaradılmışdır.

Sərraf Qasım Azərbaycanın klassik aşıq-şair məktəblərinin layiqli bir davamçısı kimi öz dövründə yaşamış şairlər içərisində məzmun və forma baxımından klassik poeziya ənənələrindən ən geniş və ən məharətli şəkildə istifadə edən, həcm baxımından isə ən zəngin dastan yaradıcılığına, cığalı şeirlər yaradıcılığına və mərsiyə yaradıcılığına malik şairlərdən biri olmuşdur. Xalq-aşıq şerinin bütün incəliklərinə dərindən bələd olan Sərraf Qasım, aşıq poeziyasının əksər fotmalarında şeirlər qələmə almışdır.Müxtəlif növ bayatı, qoşma,cığalı qoşma, gəraylı, təcnis, cığalı təcnis, müxəmməs, cığalı müxəmməs, müsəddəs, müstəzad, divani, ayaqlı divani və dodaqdəyməzlər, eləcə də dördlük, beşlik, yeddilik, onikilik, ondördlük, onbeşlik, onyeddilik kimi müxtəlif heca növlü şeirlər Sərraf Qasımın zəngin yaradıcılıq yolundan xəbər verir.

Sərraf Qasım çox sadə və təvazökar bir insan, gününü, güzəranını el içində keçirən bir el sənətkarı olmuşdur.Sərraf Qasım öz dövründə Naxçıvan ədəbi mühitinin görkəmli bir nümayəndəsi kimi Azərbaycanın müxəlif bölgə aşıqları ilə ən geniş yaradıcılıq əlaqələrinə malik olan bir şəxs kimi tanınmışdır. Tədqiqatçıların qənaətinə görə

həmin dövrdə Naxçıvanlı aşıq və şairlər arasında Sərraf qasım qədər başqa şairlər və aşıqlarla deyişmələri, şeirləşmələri olan, dastanlar yaradan ikinci bir şəxs olmamışdır.

Sərraf Qasım ömrünü öz yaradıcılığı ilə yanaşı, əsasən xeyirxah işlər görmək və dini ibadət və ayinlərini yerinə yetirmək kimi bəyənilən məşğuliyyətlərə həsr etmişdir. Sərraf Qasım 9 fevral 2018-ci il tarixd 78 yaşında öz doğma kənd evində sübh namazını qılıb, bir surə Quran oxuduqdan sonra ürək infarktı keçirərək, dünyasını dəyişmişdir. Sərraf Qasım elə həmin gün Şahbuz rayonunun Aşağı Qışlaq kənd qəbirstanlığında dəfn olunmuşdur.

Ədəbiyyat

1.Səfərov Y. "Naxçıvan aşıq-ədəbi mühiti".- Bakı,2009, səh.,10-17
2.Səfərov Y. "Əsərləri",-Naxçıvan aşıq mühiti, -11 cild.- Naxçıvan-2017, səh.,58-81.
3.İsmayılov H. Aşıq yaradıcılığı : mənşəyi və inkişaf mərhələləri.-Bakı,Elm,2002, səh.,314
4. Qasımlı M. "Ozan-aşıq sənəti". –Bakı, Uğur, 2011, 304 s.
5. Güntac Şahməmmədli. -"Saz-söz sənətimizin 80 yaşlı Sərrafı.- Nuhçıxan,2019.
6 .Naxçıvan folkloru. – Bakı "Sabah", 1994, səh., 309-326.

Xülasə

Zəngin sənət növü olan aşıq yaradıcılığı Naxçıvanda ta qədimdən formalaşıb inkişaf edib. Naxçıvan aşıq mühiti saz və söz yaradıcılığı sahəsində aşıq sənətinə qiymətli töhfələr verib.

Məqalədə Sərraf Qasımın ömür yolu araşdırılmışdır. Naxçıvan aşıq mühitinin banisi Sərraf Qasım saz həvəskarlarına aşıq-saz sənətinin sirlərini öyrədib. Sərraf Qasım aşıq poeziyasının müxtəlif janrlarında dəyərli əsərlər müəllifi kimi şöhrətlənib.Araşdırmalardan məlum olub ki, Naxçıvan aşıq və şairləri arasında**Sərraf Qasım** şairlər və aşıqlarla deyişmələri və şeirləşmələri olan, dastanlar yaradan ikinci bir şəxs olmamışdır.

Açar sözlər: Aşıq, saz, Sərraf Qasım, ömür yolu

Образ жизни Саррафа Гасима

Богатый вид искусства творчество ашуга формировалось и развивалось в Нахичеване с древних времен.Среда ашуга Нахичевана внесла ценный вклад в искусство ашуга в области саза и его творчества. В статье рассматривается жизнь Саррафа Гасима.Сарраф Гасим, основатель Нахичеванской среды, научил любителей искусства секретам ашуг – саза .

Сарраф Гасим прославился как автор ценных произведений в различных жанрах ашугскойпоезии. Исследовании показало, что среди Нахичиванских ашугов и поетов не было другого человека который вел ашугских диалоги и стихи другимипоетами создавал эпосы чем СаррафГасым.

Ключевые слова: Ашук, саз, СаррафГасым, образ жизни

The life path ofSarrafGasim

Summary

A rich art form,ashiq creativity has been formed and developed in Nakhchivan since ancient times .The environment ofNakhcivanashuq has given valuable gifts to the art of ashuq in the field of sazcreation.The article examines the life of SarrafGasim.SarrafGasim, the founder of the Nakhcivanashug environment, taught the secrets of the art ofashuq-saz to sazlovers.SarrafGasim gained fame as the author of valuable works in various genres of love poetru. According to our research, among Nakhchivan ashiq and poets, there was no other person who had dialogues and poems with other poets and ashiq and created epics than SarrafGasim

Keywords: Ashik, saz, Sarraf Gasim ,exchange, life path.

RƏYÇİ : dos. L.Ələkbərova

Əliyeva Simuzər Əliyulla qızı

XIX ƏSRİN SONU, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MƏTBUAT. FELYETON JANRI

Azərbaycan ədəbiyyatının inkişaf tarixində XIX əsrin sonu, XX əsrin əvvəlləri xüsusi bir mərhələdir. Ümumiyyətlə, ədəbiyyatın keçib gəldiyi yol bütün tarixi dönəmlərdə zənginləşmələrlə, yeni-yeni isterdadların ədəbiyyata gəlişi və ədəbi meyil, axınların spesifik mündəricəsi ilə diqqət önünə gəlir. On doqquzuncu yüzillikdən başlayan yeniləşmə tendensiyası, ictimai-siyasi proseslər müstəvisində özünü göstərən hərəkətlilik bütünlükdə ədəbiyyatın ümumi axarına da köklü şəkildə istiqamət vermişdir. Daha doğrusu, ədəbiyyat bu prosesdə funksional mənzərəsi ilə bütün prosesi içərisindən keçirmişdi. Bütün bunlar timsalında tarixi axarın dinamik mənzərəsində funksional rol oynayan ədəbiyyatın konkret bir dönəmini, XIX əsrin sonu, XX əsrin əvvəllərini mətbuat və felyeton janrı kontekstində təhlilə gətirilmişdir.

Təbliğat, təşviqat, mühitin problemlərini geniş auditoriyaya çatdırmaq imkanları ilə diqqəti cəlb edən bu forma, eyni zamanda zəngin yaradıcı sferanın üslub müəyyənliliyində özünəməxsusluğunu aşkarlamaq üçün müstəsna fakta çevrilir. C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Qəmküsar, Ü.Hacıbəyov, N.Vəzirov və s. kimi böyük simalar bu axarda heç bir zaman və mühitlə müqayisə olunmayacaq tarix yazdılar. Azərbaycan ədəbiyyatının sonrakı dönəmləri bütün olanları ilə bir istiqamətdə həmin dövrə borcludur. Daha doğrusu, üslub, forma, fikrin ifadəliliyinin çeşidli imkanları, mətbuatın funksional rolu və s. baxımından bir yaddaş, tarix kimi diqqət önünə gəlir. Bunların isə tamlıqla universitet auditoriyalarına aşılanması, tədrisə gətirilməsi müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan ədəbiyyatında felyeton janrının qədim və maraqlı inkişaf tarixi vardır. Azərbaycanda dövri mətbuatın intişarı ilə əlaqədar olaraq felyeton janrı ictimai şüurun ən yığcam və parlaq bədii ifadəsini, həm də həyat həqiqətlərinin səciyyəvi sahələrinin öz vaxtında inikası üçün lazımi şərait yaratmışdır.

Ədəbiyyat və mətbuatımızın tarixində H.Zərdabi, N.Vəzirov, C.Məmmədqulu-zadə, N.Nərimanov, Ü.Hacıbəyli, H.İ.Qasımov, Ə.Qəmküsar və bir çox başqalarının fəaliyyətini onların felyeton yaradıcılığından təcrid edilmiş şəkildə öyrənmək, tədqiq etmək qeyri-mümkündür.

Bizdə bədii ədəbiyyat sözün əsl mənasında dövri-mətbuata "Əkinçi" qəzetinin nəşri ilə gəlir. "Əkinçi" qəzeti ədəbiyyat və ümumən sənət aləmində formalizm əleyhinə geniş miqyasda mübarizə aparmışdır. Bunun ən yaxşı nümunəsini qəzetin səhifələrində dini mərsiyə ədəbiyyatının xalqın tərəqqisi üçün qətiyyən yaramadığını, hətta zərərli olduğunu ardıcıl tənqiddə görə bilərik. Digər tərəfdən "Əkinçi" o zamankı şəraitdə satiranın üstünlüyünü özü üçün proqram kimi qəbul etmişdi. Bu xüsusiyyət eyni zamanda felyeton janrının coşğun inkişafı üçün zəmin yaradırdı.

H.Zərdabi yazırdı "Hər bir vilayətin qəzetəsi gərək ol vilayətin aynası olsun"."Əkinçi" qəzetində bədii əsərlərə, o cümlədən felyetona xüsusi yer verməyin ciddi əhəmiyyətini görən Nəcəf bəy Vəzirov əvvəlcədən yazırdı."Əkinçi"də ədəbi şöbə açmaq faydası və vacibdir. Çünki bizim ifrat adətlərə görə pıçıltını eşitmirlər, onların qamçı ilə oyatmaq, "Əkinçi"də felyetona yer vermək pis olmazdı".

"Əkinçi"nin görkəmli mühərriklərindən biri olan Əsgərbəy Adıgözəlov Goranı Nəcəf bəy Vəzirovun bu diqqətəlayiq fikri ilə tamamilə şərik olmuşdur".

Bütün bu səylər və təkliflər eləcə də H.Zərdabinin bədii ədəbiyyata verdiyi fövqəladə əhəmiyyət "Əkinçi" səhifələrində gözəl nəticə verdi. Felyeton janrı ədəbiyyatımıza məhz realist ənənələr əsasında gəldi.

Felyeton janrı Q.Zakir, M.F.Axundzadə, S.Ə.Şirvani və başqa realist sənətkarların XIX əsr ədəbiyyatımızda satiranı qüvvətləndirmək səylərinin qanunauyğun nəticəsi idi.

XIX əsr Azərbaycan ədəbiyyatı satiranı yüksək pilləyə qaldırarkən birinci növbədə həyatımızda baş verən oyanışdan, yeniliklərdən qidalanırdı. Felyeton janrının ciddi bədii-tərbiyəvi əhəmiyyəti, təsiri haqqında hələ inqilabdan əvvəl belə çox maraqlı fikirlər söylənirdi.

N.Nərimanov Azərbaycanda siyasi publisistikanın o cümlədən felyeton janrının görkəmli nümayəndəsidir. O, inqilabdan əvvəl publisistikanın bütün növlərinə, o cümlədən felyeton janrına fövqəladə dərəcədə yüksək qiymət verirdi. Xüsusilə, 1905-ci il inqilabi şəraitdə siyasi felyetonların böyük əhəmiyyətini müşahidə edən N.Nərimanov yazmışdı.

"Felyeton-ömürlərini bu dünyada zövq-səfa ilə keçirənlərə, bu dünya nə olacağını "dürüst"" anlayanlara "məndən sonra Nuhun tufanı olsun" deyənlərə, nəfslərini əqillərinə qul edənlərə, insaniyyəti dövlətdə, xoşbəxtliyi pulda görənlərə, qeyrəti namus yerinə işlədənlərə, öz nadanlığının səbəbinə özgəsini nadan hesab edənlərə, əqli gödək olub kinayəni anlamayanlara, cəfəngiyyat yazıb adını mühərrik qoyanlara və qeyri-qeyri bu qisim hərflərə felyeton lazımdır və bəlkə vacibdir".

Bu fikir XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan xalqının ən görkəmli ədəbiyyat və ümumən ictimai fikir sahəsində fəaliyyət göstərən xadimlərinin yaradıcılığında özününümayiş etdirdi.

"Əkinçi" qəzeti ətrafında tədqiqat aparan müəlliflər haqlı olaraq satirik tənqidi və felyetonçuluğu qəzetin ən səciyyəvi bir xüsusiyyəti sayırdılar. Felyeton janrının satirik üslubunu yadda saxlamaq üçün görkəmli Azərbaycan ədəbiyyatşünasları prof. Mir Cəlal Paşayevn, prof. M.Cəfərovun, akad. Arif Dadaşzadənin, prof. F.Qasımzadənin, filoloji elmlər doktorları K.Məmmədovun, K.Talıbzadə, N.Axundov və başqa mütəxəssislərin XX əsr Azərbaycan ədəbiyyatına dair monoqrafik tədqiqatlarında satirik ədəbiyyatımızın, o cümlədən felyeton janrının bir sıra prinsipial məsələləri araşdırılmışdır.

Diqqətəlayiq bir hadisədir ki, indi də Azərbaycan ədəbiyyatında satira probleminə həsr edilmiş yeni-yeni tədqiqat işləri yazılır. Bu əsərlərdə felyeton janrı tədqiq və təhlil edilmir. Ümumiyyətlə, nəsrdə satira problemi daha çox tədqiq edilən bir sahədir. Bu sahədəki tədqiqatlarda felyeton janrının mənşəyinə, yaranma tarixinə və s. əhəmiyyətli yer verilir. Felyeton janrının mənşəyi haqqında elmi ədəbiyyatda bir çox maraqlı bəzən də bir-birinə zidd olan mülahizələr vardır. Bu mülahizələr

içərisində görkəmli rus alim və felyetonistlərindən B.Tamaşevskinin, D.Zaqlovaskinin fikirləri diqqətimizi xüsusilə cəlb etməkdədir.

B.Tamaşevskinin tədqiqatına görə felyeton sözü ilk dəfə Fransada işlənmişdir və 1800-cü ildə Parisdə çıxan "De dibat" (mübahisə/ qəzetində həmin söz əsl məzmununu ifadə edirdi.Məşhur felyetonçu D.Zaslovaskinin "Felyetonun mənşəyi və yolları" əsəri uzun bir müddət, - müəyyən məhdudiyyətə baxmayaraq, bu janrın tarixi mənbələrini və onun istedadlı xadimlərini təhlil edib qiymətləndirən bir əsər olmuşdur.

O, məsələyə doğru olaraq tarixi yanaşır və felyetonistlərin tarixən xidmətlərini qiymətləndirir. Nümunə üçün D.Zaslovski məşhur fransız yazıçı-felyetonisti Anri Roşoforun xidməti haqqında yazır: "Onun felyetonlarının tənqid hədəfi III Napalyon hakimiyyəti dövründə mövcud ictimai əxlaq normaları idi. O, çox ciddi yazmsa da, yazıları ciddi qəbul edilirdi. Onunla bir əsr, qadir qüvvə kimi hesbalaşırdılar".

Bu fikir özü-özlüyündə felyetonun çox mübariz bir janr olduğunu göstərir. Azərbaycan tədqiqatçıları yalnız satirik ədəbiyyatımızda felyetonun inkişafı yolları ilə deyil, onun janr xüsusiyyətləri ilə də maraqlanırlar. Qeyd etmək lazımdır ki, felyeton/fransız sözü olub əslində - Fenilleton – vərəqə mənasını ifadə edir / ədəbi bir janr kimi XVIII əsr fransız mətbuatında geniş ölçüdə yayılmışdır. Dünya ədəbiyyatında felyeton həm satirik tənqid üçün, həm də yumor üçün lazımi imkan yaratmışdır. Felyetonun bir ədəbi və mətbuat janrı olaraq imkanı olduqca genişdir. Azərbaycanın müstəqillik qazandığı dövrdən əvvəlki zamanlar da, yəni sovet dövründə ədəbiyyatımızda felyetonla maraqlanan, bu janrdan istifadə edən ədəbiyyatşünaslarımız olmuşdur, indi də var. Məs: Yusif Yusifovun "Azərbaycanda felyeton janrının inkişafi" əsərində müəllif 20-30-cu illərin məhsulu olan felyetonları təhlil edib, araşdırmışdır. Sərqdə Azərbaycan felyetonlarının seçdiyi inkişaf yolu, felyetonçuluğun nəzəri məsələlərini və inqilabaqədərki Azərbaycan fuleyetonundan qısa xülasə verilir. Burada felyetonların mövzu dairəsinin həyat uğrunda mübarizə din və xürafat əleyhinə, sinfi düşmən və bürokratizmə qarşı mübarizəni, qadın azadlığı və yeni məişət uğrunda fəal yaradıcılıq əməliyyatları

Məşhur felyetonçu D.Zaslovaskinin "Felyetonun mənşəyi və yolları" əsəri uzun bir müddət, - müəyyən məhdudiyyətə baxmayaraq, bu janrın tarixi mənbələrini və onun istedadlı xadimlərini təhlil edib qiymətləndirən bir əsər olmuşdur.

O, məsələyə doğru olaraq tarixi yanaşır və felyetonistlərin tarixən xidmətlərini qiymətləndirir. Nümunə üçün D.Zaslovski məşhur fransız yazıçı-felyetonisti Anri Roşoforun xidməti haqqında yazır: "Onun felyetonlarının tənqid hədəfi III Napalyon hakimiyyəti dövründə mövcud ictimai əxlaq normaları idi. O, çox ciddi yazmsa da, yazıları ciddi qəbul edilirdi. Onunla bir əsr, qadir qüvvə kimi hesbalaşırdılar".

Bu fikir özü-özlüyündə felyetonun çox mübariz bir janr olduğunu göstərir. Azərbaycan tədqiqatçıları yalnız satirik ədəbiyyatımızda felyetonun inkişafı yolları ilə deyil, onun janr xüsusiyyətləri ilə də maraqlanırlar. Qeyd etmək lazımdır ki, felyeton/fransız sözü olub əslində - Fenilleton – vərəqə mənasını ifadə edir / ədəbi bir janr kimi XVIII əsr fransız mətbuatında geniş ölçüdə yayılmışdır. Dünya ədəbiyyatında felyeton həm satirik tənqid üçün, həm də yumor üçün lazımi imkan yaratmışdır. Felyetonun bir ədəbi və mətbuat janrı olaraq imkanı olduqca genişdir. Azərbaycanın müstəqillik qazandığı dövrdən əvvəlki zamanlar da, yəni sovet dövründə ədəbiyyatımızda felyetonla maraqlanan, bu janrdan istifadə edən ədəbiyyatşünaslarımız olmuşdur, indi də var. Məs: Yusif Yusifovun "Azərbaycanda felyeton janrının inkişafi" əsərində müəllif 20-30-cu illərin məhsulu olan felyetonları təhlil edib, araşdırmışdır. Sərqdə Azərbaycan felyetonlarının seçdiyi inkişaf yolu, felyetonçuluğun nəzəri məsələlərini və inqilabaqədərki Azərbaycan fuleyetonundan qısa xülasə verilir. Burada felyetonların mövzu dairəsinin həyat uğrunda mübarizə din və xürafat əleyhinə, sinfi düşmən və bürokratizmə qarşı mübarizəni, qadın azadlığı və yeni məişət uğrunda fəal yaradıcılıq əməliyyatları təhlil edilmşidir. Müəllif 1930-41-ci illərdə Azərbaycan felyetonunun bədii xüsusiyyətlərini ayrıca bir fəsildə tədqiq etmişdir. Felyeton janrının xüsusiyyətləri, felyetonda satirik obraz, dil və bədii təsvir vasitələri ənənələrə münasibət məsələlərinə ayrıca diqqət verilir. Y.Yusifovun bu monoqrafiyası Azərbaycan felyetonu ilə bağlı ilk tədqiqatlardandır. Bu dövrdə klassik ədəbiyyatın inqilaba qədərki ənənələrinə sadiq qalaraq yazıb-yaradan felyetonçular ilə yanaşı bir çox gənc, istedadlı felyetonistlər də yetişmişdir. Onlar C.Məmmədquluzadə, M.S.Ordubadi, Ə.Nəzmi və s. təcrübəli yazıçalarla bir sırada yazmış və onlardan sonra da janrın nüfuzunu qaldırmışlar. C.Cabbarlı, Əvəz Sadıx, Q.Məmmədli, C.Gözəlov, M.Əlizadə, S.Abbasov və bir çox başqa müəlliflərin müxtəlif illərdə yazdıqları felyetonlar məhz ədəbiyyat və mətbuat tariximizin qanunauyğun inkişafi ilə həmahəng səslənən əsərlərdir.

Məlumdur ki, felyetonların böyük bir qismi nəzmən yazılmışdır. Ona görə də felyeton janrının tədqiqi məsələləri bizi yaxından maraqlandırır. Hər bir felyetonun ideya-bədii qiyməti onun həyat həqiqətinə sədaqətli olması, satirik obrazın doğruluğudur Bədii ədəbiyyatın başqa janrlarında olduğu kimi fuleytonda da satirik obraz tamamilə fərdiləşdirilmiş, özünəməxsus səciyyəvi xüsusiyyətlərə malik olmalıdır. Satirik obrazın həyatiliyi, aktuallığı və təsiri məhz onun doğru və düzgünlüyü ilə sıxı surətdə əlaqədardır.

XIX əsr Azərbaycan dövri mətbuatında dərc edilmiş satirik əsərlərin, o cümlədən felyetonların əsas ideya istiqamətini maarifcilik məsələləri təşkil etmişdir.

XIX əsr Azərbaycan mətbuatında "Kəşkül"ün bədii ədəbiyyat və ədəbiyyatşünaslıq məsələlərinə geniş yer verməsi onun fəal iştirakçıları F.Köçərli, H.Zardabi, S.Ə.Şirvani, S.M.Qənizadə, Rəşidbəy Axundov, A.Şirvanzadə, A.Çernayevski, Gülməhəmməd Kəngərli, C.Ünsizadə kimi yazıçı və mühərriklərinin fəaliyyəti ilə sıx surətdə bağlı olmuşdur. Burada bədii ədəbiyyatın şeir, nəsr və dramaturgiya, ədəbi tənqid kimi müxtəlif janrlarından o cümlədən felyetonlardan da geniş istifadə edilmişdir. Ədəbi irs məsələləinə əhəmiyyətli yer verən "Kəşkül"də Məhəmməd Füzuli, Abbasqulu ağa Bakıxanov,

S.Ə.Şirvani, M.F.Axundzadə Viktor Hüqo, A.S.Puşkin, M.Y.Lermontov, Saltıkoru Şedrin, Turqenev və bir çox başqa yazıçılar haqda yazılar və onlardan bəzi tərcümələr çap edilirdi".

"Kəşkül"də felyetonların bir çoxunu C.Ünsizadə yazmış və qəzetdə "Lətaib", "Sual-cavab" və başqa başlıqlar altında dərc olunmuşdur.

Bu materiallar felyeton janrının tarixi inkişafının Azərbaycandakı vəziyyətini aydınlaşdırmağa kömək edir. Felyeton janrı bizim zəmanəmizdə artıq bütün dünya mətbuatı və ədəbiyyatında ən geniş ölçüdə inkişaf tapmışdır. Dövri mətbuatın arası kəsilmədən genişlənməsi də felyeton janrı üçün əlverişli bir şərait yaratmışdır.

Azərbaycan felyetonundan bəhs edərkən məhz onu 1875-ci ildən nəşrə başlayan ilk Azərbaycan qəzeti "Əkinçi"nin varlığından əsl mənada təşəkkül tapdığını qeyd etmək zəruridir. "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Şərqi-rus" və odan sonrakı Azərbaycan mətbuatının səhifələrini felyetonsuz təsəvvürə gətirmək qeyri-mümkündür.

Qeyd etmək lazımdır ki, uzun bir müddət Avropa, rus, eləcə də Azərbaycan dövrü mətbuatında felyeton səhifəaltı materiallar mənasında başa düşülmüşdür. Bu materiallar məzmun etibarilə müxtəlif idi. Bədii əsərlər, elmi məqalələr, publisist yazılar "Felyeton başlığı" altında dərc edilirdi.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. "Əkinçi" 1875, № 11, 18 dekabr
2. Azərb.SSR. EAPƏ. H.Zərdabinin arxivi, №3, inv. 151 /5666/
3. Zeynalov A.P. "Kəşkül" də bədi ədəbiyyat, Bakı, 1962
4. "Həyat" qəzeti, 1905, № 51.

XÜLASƏ

Son dövrlərdə ədəbi-mədəni prosesdə "yenilik", "elmilik" və s. adlarla yerli-yersiz xarici dillərə məxsus termin və ifadələrin Azərbaycan mühitinə daşınması halları baş alıb gedir. Hətta bəzi qruplar buna bəraət də qazandırır və bu belə də olmalıdır mövqeyindən çıxış edirlər. Azərbaycan elmi ictimaiyyətinin folklorşünaslarının bir çox tədqiqatları və bu məqalə dilin zənginliyi və ifadəlilik baxımından (eləcə də tədqiqatçılıq) deyilənlərə ən tutarlı cavabdır. Belə bir meyil araşdırmanın aparıldığı dövrdə də bir istiqamət olaraq özünü göstərir. H.Zərdabi, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, F.Köçərli, R.Əfəndiyev, S.S.Axundov, N.Nərimanov və s. kimi ziyalıların fikir və mülahizələri, yaradıcılığı buna nümunədir. Bütün bunlar mühitin üzərində tale yüklü məsələ kimi dayanırdı. Mətbuat səhifələrində gedən yazılar bütünlükdə məzmunu, mövzu istiqamətlərinin müxtəlifliyi baxımından qalaqlanmış problemlərin çözümünə hesablanmışdı. H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov, C.Məmmədquluzadə, A.Səhhət, M.Ə.Sabir, Ö.F.Nemanzadə, M.Şahtaxtlı, İ.Qaspralı, N.Nərimanov, Ü.Hacıbəyli, C.Ünsizadə, Ə.Qəmküsar, C.Cabbarlı və s. onlarla, yüzlərlə şəxslər timsalında gedən proses sırf reallığı dərkdən, problemin həlli istəyindən öz qaynağını götürürdü. Bu şəxslərin hər birisi gördüyü böyük işlərlə sonrakı zamanlar üçün gediləcək yolun nəzəri konsepsiyasını işlədilər. Milli mücadilə müstəvisində həm də nümunəyə çevrildilər. Məqalədə çağdaş mərhələ bütün kontekstlərdə tarixi-mədəni, ictimai-siyasi proseslərə yeni müstəvidə baxışı və milli mücadilə tarixinin hansı dönəmlərdən keçməsini gənc nəslə çatdırmağı ən ümdə məsələ kimi qarşıya qoyur. Xalqın yaxın tarixini, ədəbiyyatın ümumi mənzərəsində baş verən proseslərin nələrlə əhatələnməsini aydınlaşdırmaq baxımından bu cür tədqiqatların aparılmasına indi daha çox ehtiyac vardır.

Açarsözlər:ədəbiyyat,satira,müasir,səhnə,mətbuat,nəşr,tədqiqat,ehtiyac,nəsil,dövr.

РЕЗЮМЕ

В последнее время «новаторство», «научное» в литературно-культурном процессе и так далее. термин, принадлежащий к иностранным языкам без локалитета с названиями и имеют место случаи передачи в азербайджанскую среду.Даже некоторые группы оправдывают это и занимают позицию, что так и должно быть. Многие исследуя фольклористами научного сообщества Азербайджана богатство языка этой статьи и по выразительности (как и по исследовательской работе) это наиболее связный ответ на то, что было сказано.Такая наклон проявляется как направление в период исследова-ния.Идеи, мнении и творчество таких интеллектуалов, как Х.Зардаби, У.Гаджи-беков, Ч.Мамедгулузаде, Ф.Кочарли, Р.Эфендиев, С.С.Ахундов, Н.Нариманов и так далее является примером этого. Все эти вещи стояли на окружающем обществе словно волею судьбы.Все содержание статей, опубликованных на страницах прессы, с точки зрения разнообразия предметных областей, он был создан для решения заранее поставленных задач. Х. Зардаби, С.А. Ширвани, Н. Вазиров, Ч. Мамедгулузаде, А.Саххат, М.А.Сабир, О.Ф.Неманзаде, М.Шахтахтли, И.Гаспрали, Н.Нариманов, У.Гаджибейли, Ч.Унсизаде, А.Гамкусар, Ч.Джаббарлы и другие, а также процесс в присутствии десятков или сотен людей, основано на понимании реальности, его источником является желание решения проблемы.Каждый из этих людей разработал теоретическую концепцию того, как собирается в следующий раз совершить великие дела. Они также стали примером на уровне национальной борьбы.Современный этап во всех контекстах: историческом, культурном, новый уровень понимания общественно-политических процессов и периодов истории национальной борьбы, донесение ее до подрастающего поколения, является важнейшей проблемой статьи.Существует большая потребность в таких исследованиях для выяснения процессов, происходящих на этапе истории литературы новейшего времени.

Ключевые слова: литература,сатира, современный, этап, пресса, издание, исследование, потребность, покаление, эпоха.

SUMMARY

Recently, “innovation”, “scientific” in the literary and cultural process and etc. terms belonging to foreign languages, without locality with names and there are cases of transfer to the Azerbaijani environment. Even, some groups justify this and take the position, that it should be so. Many exploring by folklorists of the scientific community of Azerbaijan and the richness of the language of this article and in terms of expressiveness (as well as, in research) this is the most coherent response to what, was said. This incline manifests itself, as a direction during the period of research. Ideas, opinions and creativity of such intellectuals as H. Zardabi, U. Hajibeyov, Ch. Mammadguluzade, F. Kocharli, R. Efendiyev, S. S. Akhundov, N. Narimanov and so on, are examples of this. All these things stood on the surrounding society, as if by fate.All contents of articles published on the pages of the press, from the point of view of the subject areas diversity, it was designed to solve preempted problems. H.Zardabi, S.A. Shirvani, N. Vazirov, Ch. Mammadguluzade, A. Sahhat, M.A.Sabir, O.F.Nemanzade, M.Shakhtakhtli, I.Gasprali, N.Narimanov, U.Hajibeyli, Ch.Unsi-zade, A.Gamkusar, Ch.Jabbarli others, and the process in the presence of tens or hundreds of people, is based on understanding of reality, it took its source from the desire solving of problem. Each of these people developed a theoretical concept of, how going to the next time, through the great deeds, they accomplished. They also became an example at the national struggle level. The modern stage in all contexts: historical, cultural, a new level of insight into social and political processes, and periods in the history of national struggle, which that conveying it to the younger generation, is the most important problem in the article. There is a great need for such exploring to clarify the processes occurring of the stage literary history of recent time.

Key words: literature, satire, modern, stage, press, publication, research, need, generation, era.

RƏYÇİ: dos. E.Vəliyeva

Məcid İsmixanov, Nəzakət İmamverdiyeva [55]

TƏLİM PROSESİNDƏ MÜƏLLİMİN ROLU VƏ PEŞƏ SƏRİŞTƏLƏRİ

Gənc nəslin təlim-tərbiyəsində, şəxsiyyət kimi yetişməsində müəllim çox böyük rol oynayır. Cəmiyyətin, millətin gələcəyi, müəyyən mənada, müəllimin əlindədir. Millət məktəbdən, müəllimdən başlanır. Deyirlər ki, bir milləti məhv etmək üçün onun müəlliminin və həkiminin savadsız olması kifayətdir: biri onu mənəvi cəhətdən, digəri isə fiziki cəhətdən şikəst edəcəkdir. Bu hal müəllim kadrlarının hazırlığına xüsusi diqqət yetirməyi tələb edir.

Müəllim cəmiyyətdə aparıcı qüvvədir. O, yaşlı nəslin təcrübəsini gənc nəslə verir. Görkəmli şəxsiyyətlər müəllimin əməyinə yüksək qiymət vermiş, müəllimi günəşə, bağbana, mühəndisə, heykəltəraşa, sərkərdəyə, həkimə bənzətmişlər. Çünki o, günəş kimi insanlığa mənəvi həyat verir; bağban kimi uşaq və gənclərə daim qayğı göstərir; mühəndis kimi insan qəlbinin layihəsini cızır; heykəltəraş kimi gənc qəlbi və ağlı cilalayır; sərkərdə kimi cahilliyə, vəhşiliyə, şərə qarşı amansız mübarizə aparır; həkim kimi millətin mənəvi sağlamlığı keşiyində durur.

Bütün dövrlərdə insanın mənəvi və zehni inkişafında həlledici rol oynayan müəllim əməyi yüksək qiymətləndirilmişdir. Ümummilli Liderimiz Heydər Əliyev müəllim əməyini, müəllim şəxsiyyətinə, onun cəmiyyətdəki roluna yüksək dəyər verərək demişdir: "Müəllim adı dünyada ən yüksək addır. Şəxsən mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən müəllimdir" [1, s.406]. Ulu öndər müəllimin işini ən şərəfli iş adlandırır və deyirdi: "Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaşlar hazırlayır. Şübhəsiz ki, birinci növbədə müəllim özü bu xüsusiyyətlərə malik olmalıdır, daim özünü təkmilləşdirməlidir". Heydər Əliyev göstərirdi ki, özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. Çünki müəllimlər xalqın biliklənməsinin, təhsilin inkişaf etməsinin və nəhayət xalqın elminin inkişaf etməsinin əsasını qoyanlardır. Şərəfli müəllim adını qazanan gənclərə Ümummilli Lider bu şərəfli adı həmişə, ömürlərinin axırına qədər daşımağı tövsiyə edirdi. O deyirdi: "Öz üzərində işləməyən müəllim yaxşı müəllim ola bilməz" [4, s.24].

Heydər Əliyev gənclərimizin milli-mənəvi dəyərlər ruhunda, azərbaycançılıq, vətənpərvərlik ruhunda tərbiyəsində müəllimin rolunu yüksək qiymətləndirməyi tövsitə edirdi. O deyirdi: "Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir. Milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" [1, s.457].

Ulu öndər Azərbaycan müəllimlərinin VI qurultayındakı nitqində (18 may 1978-ci il) bu məsələdən bəhs edərək demişdir: "Məktəbdə insanın mənəvi keyfiyyətlərinin əsası qoyulur, onun baxışları, arzu və istəkləri formalaşır, onun rəhbər tutduğu mənəvi meyarlar müəyyənləşir. Məktəb bu işdə çox mühüm rol oynayır. Müəllimin mənəvi-əxlaqi siması, ideya inamı, baxışlarının sabitliyi, hərəkətlərinin ardıcıllığı, maraq dairəsinin genişliyi, səmimiliyi və vicdanlılığı qüdrətli tərbiyə amilidir [1, s.104].

Şərqin görkəmli filosof və mütəfəkkirləri - N.Gəncəvi, N.Tusi və b. da müəllim əməyinə yüksək qiymət vermişlər. Dünya şöhrətli N.Gəncəvi poemalarında Aristotel, Munzir və digər ağıllı, bilikli, müdrik müəllim obrazları yaratmış, onların təhsil və tərbiyə sənətini yüksək qiymətləndirmişdir. Görkəmli Azərbaycan filosofu, əxlaq nəzəriyyəçisi N.Tusi müəllim əməyinə ən şərəfli əmək kimi dəyər vermiş, onu valideyn əməyindən də üstün tutmuşdur. "Əxlaqi-Nasiri" əsərində böyük filosof Aristotelin tələbəsi olmuş İsgəndərlə bağlı belə bir müsahibəni xatırladır. İskəndərdən soruşmuşlar: «Atanı çox sevirsən, yoxsa müəllimini?". Dedi: "Müəllimimi. Atam məni fani dünyaya gətirmiş, müəllimim isə mənə ədəbiyyat bəxş etmişdir". N.Tusi yazır: "Bu dünyadakı mövcudatın ən şərəflisi olan insanı kamilliyə çatdırmaq məqsədini güdən sənət dünya sənətlərinin ən şərəflisi olmalıdır".

Müəllim əməyi digər mütəfəkkirlər, maarifçi və pedaqoqlar tərəfindən də öz yüksək qiymətini almışdır (H.B. Zərdabi, N.Nərimanov, Ü.Hacıbəyli, S.Qənizadə və b.). Onların fikrincə, müəllim gənc nəslin təlim-tərbiyəsində, həyata hazırlanmasında əvəzsiz rol oynayır. İnsan öz əməyi ilə təbiəti dəyişdirirsə, müəllim insanın özünü dəyişdirir.

Cəmiyyətdə olduğu kimi, məktəbdə də müəllim böyük qüvvədir. Gənc nəslin bilik və tərbiyə səviyyəsi, ağlının və qəlbinin formalaşması, ilk növbədə, müəllimdən, onun peşə-ixtisas və vətəndaşlıq keyfiyyətlərindən asılıdır.

Müəllimin pedaqoji prosesdə rolu ilə bağlı pedaqogika tarixində müxtəlif baxışlar, yanaşmalar vardır. Tarix boyu cəmiyyətin inkişafı və təhsil sisteminin dəyişməsi ilə bağlı müəllimə olan yanaşmalar da dəyişmişdir. Müxtəlif dövrlərdə meydana çıxan fəlsəfi-pedaqoji cərəyanlar təlimdə müəllim və şagirdin rolu, statusu, onlar arasında münasibətlərlə əlaqədar bir- birindən fərqli, bəzən zidd mövqedə olmuşlar. Herbartın adı ilə bağlı olan təhsil sistemində müəllim fəal, şagird isə passiv rol oynayırdı. Bu sistemin inkarı kimi meydana çıxan praqmatizm cərəyanı (C.Dyui və b.) şagirdi təlim prosesinin mərkəzinə keçirir, müəllimə isə yardımçı yer ayırırdı: müəllimin öyrədici rolu məhdudlaşır; o, təlimdə təşkilatçı, məsləhətçi, köməkçi kimi çıxış edirdi. XIX əsrin sonlarında meydana gələn ekzistensializm və proqressivizm cərəyanları da bu mövqedə olmuşlar: onlar müəllimi aparıcı fiqur kimi yox, köməkçi kimi qəbul edir, onun avtoritar rəhbərlik üslubuna qarşı çıxır, uşaqlara sərbəstlik verməyi tələb edirdilər. Proqressivizm cərəyanı nümayəndələri (K.Kilpatrik və b.) müəllimin avtoritar rəhbərlik üslubunu demokratiya və əməkdaşlıqla əvəz etməyi tələb edirdilər.

[55] **BDU, Pedaqogika kafedrası. m.ismixanov@mail.ru naza52@mail.ru**

Təhsilə, müəllim-şagird münasibətlərinə yeni yanaşma humanizm (latınca «insanlıq») fəlsəfi-pedaqoji cərəyanın yaranması ilə (XX əsrin 40-cı illərində) daha geniş vüsət aldı. Bu cərəvanın nümayəndələri (A.Maslou, K.Rocers) təhsil sisteminin humanistləşdirilməsi ideyasından çıxış edərək müəllim-şagird münasibətlərini humanist, demokratik əsasda qurmağı, çətinlikləri aradan qaldırmaqda uşağa kömək göstərməyi, təlimdə uşaq üçün rahatlıq mühiti yaratmağı, qorxu və təzyiqi sevgi, qayğı və xeyirxahlıqla əvəz etməyi vacib sayırdı.

Rocers yaratdığı yeni təlim modelini «şəxsiyyətyönümlü təlim modeli» adlandırırdı. Bu modeldə müəllim fasilitator kimi şagirdlərə qayğı göstərir, çətinlikləri aradan qaldıqmaqda kömək edir, təlimi gərginləşdirməyə yox, asanlaşdırmağa, hər kəs üçün rahatlıq mühiti, uğur mühiti yaratmağa çalışır.

Müasir dövrdə müəllimin fəaliyyətinə, pedaqoji prosesdəki yeri və roluna dair yeni baxışlar daha geniş miqyas alır. Hazırda bununla bağlı müxtəlif terminlərdən istifadə olunur;

1. müəllim-fasilitator (təlimi asanlaşdıran, bələdçi);
2. müəllim-məsləhətçi (counsellor-çətinlik zamanı məsləhət verən);
3. müəllim-mentor (öyüd-nəsihət, istiqamət verən);
4. müəllim-köməkçi (helper-çətin anlarda kömək edən);
5. müəllim-kouç (repetitor);
6. müəllim-menecer (idarə edən, rəhbərlik edən) və s.

Hazırda fasilitator və mentor terminlərindən daha çox istifadə olunur.

Müəllim-fasilitator təlimdə bələdçi kimi çıxış edir; o, təlim prosesini istiqamətləndirir, çətinlik çəkənlərə yol göstərir, əlverişli mənəvi-psixoloji mühit yaradır. Bu mühitdə şagirdlər bir- birilə ünsiyyətə girir, dialoq və əməkdaşlıq şəraitində işləyirlər.

Müəllim-fasilitator təlim iştirakçıları arasında münasibətləri müəllim-şagird, şagird-şagird prinsipi əsasında qurur, onları fəallaşdırır, təşkilati və idarəetmə işlərinə cəlb edir. Nəticədə təlim prosesinin səmərə və kefiyyətinin yüksəldilməsi üçün əlverişli şərait yaranır. Eyni zamanda şagirdlərin şəxsiyyət kimi inkişafını stimullaşdıran təlim və tərbiyə mühiti formalaşır.

Müəllim-mentor da hazırda geniş tətbiq olunur. "Mentor" sözü yunan mifologiyasından götürülmüş, öyüd-nəsihət vermək, istiqamətləndirmək mənasında işlənir. Pedaqoji ədəbiyyatda mentorluq üçün müəyyən səciyyəvi cəhətlər göstərilmişdir: mentor savadlı və səriştəli olmaqla dərsləri müşahidə edir, müəllimlə müntəzəm əlaqə saxlayır, şagirdin təlim səviyyəsi ilə bağlı lazımi məlumatlar əldə edir, şagirdə təlim çətinliklərini aradan qaldırmaqda kömək göstərir, ona dəstək olur. Mentorlar təlimlə yanaşı şagirdin digər ehtiyaclarının qarşılanmasında (məsələn, təhsilin növbəti pilləsinə hazırlığında) yardımçı, bələdçi rolunu öynaya bilər.

Təlim prosesində müəllimin köməyi, bir qayda olaraq, şagirdin inkişafına yardımçı olmaqda özünü göstərir. Lakin şagird təlimdə irəlilədikcə, inkişaf etdikcə müəllimin ona köməyi də tədricən azalır. Mövcud pedaqoji ədəbiyyatda (D.Vud, C.Bruner və b.) bu hal skaffoldinq, yəni "sönən kömək" («müvəqqəti dirək») kimi xarakterizə olunur. Şagirdin təlimdə bilik səviyyəsi artdıqca müəllimin ona köməyi də azalır; şagirdə müstəqil, fəal qüvvə kimi hərəkət etmək, başqa sözlə, onu təlimdə stimullaşdırmaq imkanı verilir.

Göründüyü kimi, təlim prosesində müəllimə olan baxış və yanaşmalar dəyişmiş, hazırda müəllimin rolu və məsuliyyəti, ona olan tələblər də artmışdır.

Müəllimə verilən müasir tələblər sırasında pedaqoji səriştələrə yiyələnmək mühüm əhəmiyyət kəsb edir. Hər bir peşədə olduğu kimi,pedaqoji peşədə də işin müvəffəqiyyəti insanın həmin peşə sahəsində vacib olan səriştələrə (kompetensiyalara) necə yiyələnməsindən çox asılıdır. Kompetensiya (ing. competense – bacarıq, səriştə mənasını verir) və ya səriştə - əldə olunmuş bilik və bacarıqları praktik fəaliyyətdə səmərəli tətbiq etmək qabiliyyətidir. O, insanın qazandığı bilik və bacarıqların konkret fəaliyyət nəticəsinə çevrilməsini təmin edir. Səriştəli müəllim təlim-tərbiyə işini yüksək səviyyədə yerinə yetirir, öz fəaliyyətini elmi əsasda quraraq səmərəli nəticələr əldə edir [5, s.115]. Bəs, müəllim pedaqoji peşə fəaliyyətində hansı səriştələrə yiyələnməlidir?

Səriştələrin təsnifatı baxımından Avropa Birliyinin 2006-cı ildə qəbul etdiyi "Ömür boyu təhsil üçün baza kompetensiyaları" tövsiyə sənədində müəyyənləşdirilən səriştələr hər bir insan uçün zəruri olan ən mühüm bacarıq və keyfiyyətləri əhatə edir. Onlar aşağıdakılardan ibarətdir:

7. ana dilində ünsiyyətlə bağlı səriştələr;
8. xarici dillərdə ünsiyyətlə bağlı səriştələr;
9. riyazi və texniki səriştələr;
10. İKT ilə bağlı səriştələr;
11. öyrənməyi öyrənməklə bağlı səriştələr;
12. sosial inkişaf və vətəndaşlıqla bağlı səriştələr;
13. mədəni dəyərlərin dərki və çoxmədəniyyətli cəmiyyətdə yaşayışla bağlı səriştələr.

Göstərilən baza səriştələri təhsil-tərbiyə işinə peşəkarlıqla yanaşmanın həyata keçirilməsinin əsasını təşkil edir Baza səriştələri [3, s.334] dedikdə, hər bir fərdin öz şəxsi potensialını və inkişafını reallaşdırması, cəmiyyətə sosial adaptasiyası və fəal vətəndaşlıq mövqeyini həyata keçirməsi üçün zəruri olan biliklərə, bacarıq və münasibətlərə, keyfiyyətlərə yiyələnməsi başa düşülür.

Göstərilən ümumi səriştələrlə yanaşı pedaqoji fəaliyyətdə digər xüsusi səriştələrə də yiyələnmək vacibdir: idarəetmə səriştəsi (məqsəd qoyuluşu, təhlil, planlaşdırma, işin təşkili, korreksiya, diaqnostika, proqnozlaşdırma, qiymətləndirmə mexanizminin tətbiqi, nəzarət, monitorinq); tədrisin (dərslərin və dərsdənkənar işlərin) planlaşdırılması və həyala keçirilməsi; şagirdlərə həyati bacarıqların aşılanması; uşaq kollektivinin təşkili və s.

Müasir dövrdə həm müəllim, həm də şagirdlər üçün vacib olan səriştələr içərisində kompüter savadlılığı, İKT-dən istifadə xüsusi yer tutur. Bu da özlüyündə digər səriştələrin formalaşmasına kömək göstərir. İKT-nin müntəzəm və məqsədyönlü tətbiqi sayəsində şagirdlərdə informasiya və kommunikasiya ilə bağlı bir çox səriştələrin formalaşması üçün əlverişli şərait yaranır. İnformasiya səriştələri sırasında aşağıdakı bacarıq və qabiliyyətlər mühüm yer tutur:

14. informasiya ehtiyacının dərk olunması:
15. informasiyaların aşkara çıxarılmasını layihələşdirmək bacarığı;
16. informasiyaları toplamaq və onlardan məqsədyönlü istifadə elmək bacarığı;
17. müxtəlif mənbələrdən alınmış informasiyaları müqayisə etmək və dəyərləndirmək bacarığı:
18. informasiyaları tətbiq etmək və ötürmək bacarığı;
19. informasiyaları sistemləşdirmək və bu əsasda yeni informasiyalar, biliklər əldə etmək bacarığı və s,

Kommunikasiya səriştələri isə bir sıra bacarıq və keyfiyyətləri əhatə edir:

- məqsədə çatmaq üçün birgə iş bacarığı;
- başqalarını dinləmək və onların fikirlərinə hörmətlə yanaşmaq bacarığı;
- birgə fəaliyyətdə şəxsi məsuliyyəti dərk etmək bacarığı;
- tolerantlıq (dözümlülük) bacarığı;
- başqalarının fikirlərinə plüralistik yanaşma bacarığı;
- tabelik şəraitində səmərəli işləmək bacarığı;
- başqalarına inam, etibar, etimad göstərmək bacarığı və s.

Texnoloji səriştələrin, yaradıcılıq qabilvyətinin inkişafi ilə bağlı səriştələr sırasına aşağıdakılar daxildir:

- problemi dərk etmək bacarığı;
- suallar qoymaq bacarığı;
- fərziyyələrin irəli sürülməsi bacarığı;
- ümumiləşdirmə, müqayisə və sistemləşdirmə bacarıqları;
- təhlil və tərkib (analiz-sintez) bacarığı;
- nəticəçıxarma və yekunlaşdırma bacarıqları;
- öyrənilən materialların strukturlaşdırılması bacarığı;
- öz fikrini və ideyasını izah, isbat və müdafiə etmək bacarığı;
- tənqidi, məntiqi və yaradıcı təfəkkür bacarığı;
- təcrübə və eksperiment qoymaq bacarığı;
- özünənəzarət və özünüqiymətləndirmə bacarıqları və s.

Göründüyü kimi, İKT-nin sistemli tətbiqi ilə şagirdlərdə bir çox informasiya, kommunikasiya və texnoloji səriştələri formalaşdırmaq üçün geniş imkanlar açır. Əsas məsələ - müəllimlərin özlərinin göstərilən səriştələrə yiyələnməsi və onların şagirdlərdə formalaşdırılması üçün təlimdə əlverişli şəraitin yaradılmasını, məktəbdə informasiya-kommunikasiya mühitinin formalaşdırılmasını təmin etməkdən ibarətdir. Bu səriştələrin, eləcə də şagird nailiyyətlərinin diaqnostikası, qiymətləndirilməsi, monitorinq və proqnozlaşdırılmasında İKT-nin imkanlarından yararlanmaq, gənc nəsli informasiya cəmiyyətində yaşamağa və fəaliyyət göstərməyə hazırlamaq istiqamətində sistemli və məqsədyönlü təhsil-tərbiyə və təşkilatçılıq işi aparmaq lazımdır.

Təhsilə səriştəli yanaşma hazırda mühüm bir prinsip kimi qəbul edilir [3] və təlim prosesinin səmərə və keyfiyyətinin yüksəldilməsi baxımından əsas göstərici hesab olunur. Bu prinsip dünya təhsil sisteminin yeniləşdirilməsinin əsas strateji istiqamətlərindən birini təşkil edir.

Ədəbiyyat

1. Heydər Əliyev. Təhsil millərin gələcəyidir. Bakı, Təhsil, 2002
2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür. B., 2008
3. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. I c., B., 2013
4. İlyasov M. Müəllimin pedaqoji ustalığı. B., 2013
5. İsmixanov M., Bayramov H. Pedaqogika. B., 2022
6. Mehrabov A. Müasir təhsilin konseptual problemləri. B., 2010
7. Paşayev Ə., Rüstəmov F. Pedaqogika (yeni kurs). B., 2002

Açar sözlər: təlim, müəllimin təlim prosesində rolu, peşə səriştələri

Ключевые слова: обучение, роль учителя в процессе обучения, профессиональные компетенции

Key words: training, teacher's role in the training process, the professional competencies of teacher

Təlim prosesində müəllimin rolu və peşə səriştələri
Xülasə

Məqalədə müəllimin təlim prosesində rolu və peşə səriştələri öz əksini tapmışdır. Müəlliflər pedaqoji-psixoloji tədqiqatların təhlili və ümumiləşdirilməsi əsasında müəllimin təlim prosesində roluna dair görkəmli şəxsiyyətlərin fikirlərini açıqlamış, peşə səriştələrinin növlərini və tətbiqi mexanizmini nəzərdən keçirmişlər.

Роль и профессиональные компетенции учителя в процессе обучения

Резюме

В статье рассматриваются вопросы роли и профессиональные компетенции учителя в процессе обучения. Авторы на основе анализа и обобщения педагого-психологических исследований излагают роль учителя в процессе обучения, а также выявляют виды и механизмы применения профессиональных компетенций.

The teacher's role and professional competencies in the training process

Summary

This article presents the role and professional competencies of teacher in the training process. The authors reviewed the great personalities who told the thoughts and ideas related to the role of teacher in the training process and also the types of teacher's professional competence and application mechanism based on the analysis of pedagogical and psychological research .

RƏYÇİ: dos. S.Abbasova

Validə Abıyeva, Afət Səfixanova, Qadaşova A.A. [56]

MÜASİR İNGİLİS DİLİNDƏ İNKARLIQ BİLDİRƏN BAĞLAYICILAR VƏ ONLARIN İŞLƏNMƏ QAYDALARI

ngilis dilinin qrammatikasında əsas mövzulardan biri də inkarlıq bildirən bağlayıcırın əvəzlikləridir. Hər bir dilin özünəməxsus inkarlığı ifadə etmək üçün müəyyən ifadə vasitələri vardır. Dilçilikdə məlumdur ki, dildə inkarlıq qrammatik-leksik kateqoriya kimi işlənir. Inkarlıq özü də leksik qrammatik, o cümlədən sintaktik yolla öz ifadəsini tapır. Həm də sintaktik kateqoriya ayrı-ayrı sözlər deyil, cümlələri ifadə etdiyindən onun oppozisiyası olan təsdiq variantı da mövcuddur. Leksik materiallarda inkar dilin müxtəlif səviyyələrində həm qrammatik, həm də fonetik səviyyələrdə qeydə alınır. Məlumdur ki, ingilis dilində inkarlığın leksik və qrammatik ifadə vasitələri arasında kəskin fərq yoxdur. Ingilis dilində inkarlıq ifadə edən prefikslərə "not" inkar hissəciyi arasında o qədər güclü bir fərq yoxdur. My friend doesn`t like aeting vegetables. My friend dislike aeting vegetables. Demək olar ki, bu cümlələrin hər ikisi eyni mənanı verir. Ingilis dili mətnlərində inkarlığın təsdiqi mətndə işlənmiş inkarlıq vasitələrinin kəmiyyət və keyfiyyət təhlili onu göstərir ki, ən geniş şəkildə işlədilən "not" inkar vasitəsidir. Bu vahid həm ümumi, həm də xüsusi inkarlığı ifadə edir. Ingilis dilində onların növü 5 deyil, çünki inkar əvəzliyi və zərfliyi inkarlıq bildirən sözlərdən ibarət olduğunu qeyd etmək olar. He mustinderstood her. He disklikes her behavion. Inkarlıq bilirən bağlayıcılae da fərqli semantik çalarlara malikdirlər. Bəzi dilçilər vurğulayırlar ki, fəlsəfə inkar-inkar qanunu mövcuddur. Bu da onu göstərir ki, inkar burada daha geniş bir tərzdə dərk etmə qabiliyyətinə malikdir (1, səh.7-8). Istər normativ qrammatika çərçivəsində, istərsə də konkret kontekst səviyyəsində ingiis dilində olan "neither" bağlayıcısı "nor" ilə işlədilərkən qrammtik cəhətdən cümlə üzvlərini və yaxud cümlənin özünü inkarlıq kateqoriyasında işlənməsini izah edir. Inkarlıı ifadə edən cümlələr və ya bağlayıcılar özləri də fərqli semantik çalarlıq ifadə edirlər. Ingilis dili tək inkarlı dilin və neither – nor – inkar bağlayıcılar işlədilən cümlələrdə başqa bir inkar sözü işlədilərsə, artıq bu zaman neither – nor bağlayısıcı ilə əvəzlənməlidir. Burada başqa struktur işlənə bilməz. Nobody went to the village either her husband or her children. Burada mürəkkəb strukturlu inkar əvəzəliyi olan "nobody" əvəzliyi ümumi inkarlığı ifadə etdiyinə görə "neither – nor" inkar bağlayıcısının təsdiq formalarından (either – or)-dan istifadı olunur. Azərbaycan dilində isə bir cümlədə üç inkarlıq bildirən sözdən istifadə oluna bilər. Bu da Azərbaycan dilinin qrammatikasına tam uyğun gəlir. Dilçilikdə ingilis dilində substannövləşmə hadisəsi mövcuddur. Məsələn, poor (pis, kasıb), the poot (kasıblar). İngilis dilindəki neither bağlayıcıcı müstəqil işlənə bilir, substantivləşir və burada mübtəda funksiyasında çıxış edir. Neither of the sisters has never been aboad for two hours neither spoke. Neither told us about it. Bu cümlələrdə Azərbaycan dilində neither inkarlıq sözü hər kəs kimi tərcümə edilir. Ümumiyyətlə, inkarlıqda müəyyənlik və qeyri-müəyyənlik arasındakı semantik-intaktik əlaqələri nəzərə almadan inkarlıq semantikasının struktur formalarını aşkara çıxarmaq qeyri-mümkündür. Bu münasibətləri geniş tədqiq edən xüsusi araşdırmaların olmaması hal-hazırda da bir çox sualların cavabsız qalmasına səbəb olmuşdur. Qeyd ermək lazımdır ki, inkarlıq strukturunda ingilis və Azərbaycan dillərində bəzi fərqlər mövcuddur. No one saw him. Heç kəs onu görmədi. Bu kimi nümunələrdə bir inkarlığın reallaşması kimi hallara rast gəlirik.

İnkarlıq və təsdiq və inkar cümlələr arasında something-nothing, somewhere-nowhere, somebody-nobody, both "and-neither, nor" too-either və s. məna çalarları özünü göstərir. Qeyd etmək lazımdır ki, bu cür transformasiyalarda təsdiq-inkar paralelliyi pozulduqda " not", "nothing", "nobody", "never" və s. kimi ümumiləşdirici neqotorlar ilkin leksik-semantik mənalarını itirərək emosional qüvvətləndiriciliyə çevrilirlər. İ did so as Jack had throght, go to the supermarket. I did not as Bill had throught go to the supermarket. Bu nümunələrdə aydın olur ki, "not" inkarlıq konstituati emosional qüvvətləndirici kimi cümlədə semantik struktur formasını pozmuşdur. Cümlələr üzərində müşahidələri davam etdirsək belə qənaətə gəlmək olar ki, qeyri-müəyyən əvəzlik və zərflər olan əvəzlik və bağlayıcılar işlənmədiyi cümlədə "not" qrammatik ədatının cümlədə çıxışı inkarlığın reallaşması ilə nəticələnir. He did not at first answer (2, səh. 33-35). Substantivləşmə nəticəsində inkarlıq əvəzliyi "neither" təsdir cümlələri ayrılıqda işləndiyi zaman inkar edir və ingilis dilində xəbəri təsdiqdə olan cümlələr istisnasız olaraq inkarda verilir və belə hesab edirik ki, "nobody" – "none" inkar əvəzliyin şaquli mikrisahəsinin xüsusiyyətidir. Başqa bir cəhət "neither" "nor" bağlayıcısı işlədilən cümlələrdə xəbər təsdiqdə verilir, əgər cümlə "nobody" "none" və bu kimi sözlərlə başlayırsa o zaman"neither" " nor"un təsdi variantı olan "either" "or"dan istifadə olunsa da belə xəbər inkarda olur. Inkar-təsdiq qarşılarşdırılmasının dilçilikdə həm qrammatik, kateqoriya həm də inkarlıq vasitələri kimi tədbiq edilməsini qeyd etmək lazımdır. Azərbaycan dilində inkarlıq kateqoriyasından bəhs edildikdə onun felin təsdiq və inkar formalarının üz-üzə dayanması fonunda müəyyənləşməsi kateqoriyasının yeganə formal göstərci olması qeyd olunur. İngilis dilində də bu xüsusiyyətləri ifadə edən müxtəlif vasitələr mövcuddur. Onlardan bəziləri haqqında məqalədə qeyd edilmişdir. Həm liksikada, həm qramatikada ifadə vasitələrinə qrammatik-leksik sahə kimi yanaşılması mühüm yer tutur. Onu da qeyd etmək lazımdır ki, bir qayda olaraq ayrı-ayrı dil səviyyələrinə aid ifadə formaları sahənin şaquli strukturunu, semantik əlamətlərə görə fərqlənmələr isə sahənin üfiqi strukturu kimi tədqiq olunur. elmi nəzəri mənbələrdə funksiolan-semantik inkarlıq mikrosahəsi predekativ inkarləq, qeyri-predekativ inkarlıq, ümumi-xüsusi inkarlıq, tematik-tematik kimi qeyd olunur. Bunlar da terminlər altında ümumiləşdirilir. Sadə komponentlərin funksional xüsusiyyətləri və məhz göstərilən çərçivələrdə və səviiyyələrdə tədbiq olunur və həmin bu sistemdə təsdiqlilik-inkarklıq sahəsini təyin edir. Elmi-nəzəri araşdırmalar və dil faktorları nəzərdən keçirərkən belə qənaətə gəlmək olar ki, bütün dil səviyyələrində inkarlıq semantikası həm eksplisit, həm də implisit vasitlər ilə ifadə olunur. O cümlədən inkarlıq bağlayayıcılarının özünəməxsus yeri vardır ki, bu

[56] asefixanova@gmail.com **Azərbaycan Tibb Universiteti**

da onların liksik-qrammatik baxımdan qiymətləndirilir. Bu bağlayıcılar kontekst daxilində məsələnin mahiyyətinin dətin qatlarına nüfuz etmək qabiliyyətində olurlar. Məsələn, what are you going to do " – nothing-answered. No, you can't make it" inkarlığın ardıcıllıqla göstərilməsini qeyd edir. You take some of my money. "oh, no". Biz burada qısa inkar cavabını qeyd edirik. Qeyd etmək lazımdır ki, inkarlıq əvəzliklərinə və inkar zərflərinə müxtəlif nitq hissələrinin tərkibində rast gəlsək də, ümumiləşdirmə əlamətləri bir sırada birləşdirmək imkanını aradan qaldırmır. Inkar sözlər insan şüurunda müəyyən əlaqələrdə işlədilən ayrıca bir kateqoriyanı – bir söz kateqoriyasını təşkil edir. Bu baxımdan inkar əvəzliklərini də, inkar bağlayıcıları da, həmçinin inkar zərflərini də leksik-qrammatik vasitələrini hesab etmək olar daha məqsədəuyğundur. Demək olar ki bunlar sözlərida ümumilləşdirmə nöqteyi-nəzərdən onlar eyni səviyyəvi xüsusiyyətə malikdirlər. İngilis dilində olan inkar bağlayıcıları kimi inkar əvəzlikləri (no, none, no one, nobody, nothing) və inkar zərfləti (never, nowhere, no how) kontekst daxilində işləndikdə başqa inkarlıq elementlərindən fərqli oraq şaquli inkarlıq sahələrini daha qüvvətli edir və hesab edirik ki, bu da bir başa koqnisiya ilə bağlıdır, cünki "not" inkar hissəciyi hansıısa sözlə birləşərək və yaxud hansısa sözdən əvvəl gələrək nəyisə sadəcə inkar edirsə, inkarlıq ifadə edən sözlər dildə daha dərin qata nüfuz edir. Bu zaman onlar sərbəst şəkildə işlədilərək bütöv bir məsələni tam qəti şəkildə inkar edir. Məsələn, no friend here permitted to accompany him beyond the other gate. Bu "no" inkar əvəzliyi cümlənin əvəzliyi cümlənin əvvəlində gəldikdə özündən sonrakı ismi tıyin edir, lakin semantik cəhətən bir qayda olaraq təsdiq cümləni inkara çevirir. Bu da bötöv cümlənin ümumi şəkildə inkar olması deməkdir. Belə hallarda "no" əlbəttə "not" ədatını qeyri müəyyən artiklə işlədilməsidir və "not" formasına bərabərdir. "no" əvəzliyini güclü olmasını mahiyyətini daha aydın üzə çıxarmaq üçün həmin cümləni, konteksti Azərbaycan dilinə çevirsək, onun şaquli inkarlıq sahəsnin də tam mahiyyətini göstərə bilərik. No woman was ever near to her mate than I am. NO mother could have a better son (3, səh 21-23).

İnkarlıq kateqoriyalarına aid nümunələrinin sayını daha da artırmaq olar. Qeyd etmək lazımdır ki, "no" inkar əvəzliyi təyin etdiyi isimdən əvvəl gəldiyi üçün bütün cümləni inkara çevirir. Burada başqa bir cəhəti də vurğulamaq lazımdır ki, Azərbaycan dilində tərcümədə "no" əvəzliyinin qarşılığı olan "heç bir" inkar vasitə işlədilmişdir ki, məhz bu da cümləni bütövlükdə inkara çevrilməsinə yox, sadəcə olaraq mənanımn qüvvətlənməsinə xidmət edir. No pictures, no body, no scene, no person, no space to wolk – just the four bare walls and silence. Which he would be shut into at night by the thick door. Bu cümlədə "no" inkar əvəzliyi həmcins üzvlərlə cümlədə işlədilib təkrarlandıqda sanki onun təsir dairəsi getdikcə zəifləyir və sadəcə Azərbaycan dilində "yox" kimi tərcümə edilir. Dilçilər öz qeydlərində birbaşa variantlardan istifadə etmirlər. Burda həmcins üzvlərdə "no" inkar əvəzliyinin işlənməsinə tam şamil etmək olar, çünki qeyd etdiyiniz göstərilən cümlələrdə bütöv cümləni tam şəkildə inkar edən söz burada sadə "yox" kimi işlədilir, qətilik, dərinlik görünmür və bu halda heç bir vəddə əvvəlki cümlələrdə olan şaquli inkarlıq sahəssini görmək olmur və bütövlükdə cümlənin inkarlığı deyil, yalnız "no" inkar əvəzliyinin təyin etdiyi obyektlərin sadəcə yoxluğu inkarlığı başa düşülür. Təsdiqlik – inkarlıq kateqoriyasını araşdırarkən bir çox tədqiqatçılar tərəfindən inkar cümlələrin ilkin təsdiq cümlələrdə alınması fikrinin irəli sürüldüyünə rast gəlinir. Hər bir inkar cümləni formal olaraq təsdiq cümləyə istinad vermək mümkündür. Bir çox dilçilər inkarı təsdiq cümlə formalarının variantı pozitiv çıxış formanın transformu hesab edirlər. Müxtəlif tipoloji quruluşlu dillərin təsdiqlik-inkarlıq kateqoriyası üzərində aparılan araşdırmalara əsasən demək olar ki, təsdiq cümlələrdən inkar cümlənin alınması prosesi əsasən iki istiqamətdə gedir: 1) inkar cümlə ya fakultativ struktur üsnürlərin (inkarlıq konsistentlərinin) təsdiq cümləyə əlavə edilməsi; 2) təsdiq cümlənin müqabil koordinativ distributiv komponentini cümlədən çıxarmaqla.

1) He has absolutely refused to pay it
2) She plays both the piano and sings. She neither plays the piano nor sings.

İnkar cümlələrə səthi struktur metodu ilə yanaşılması onların ifadə müxtəlifliyini daha aydın müşahidə etməyə imkan vermir. Bir çox inkar qarşılığı olmayan təsdiq cümlə təsdiq qarşılığı olmayan inkar cümlə mövcudluğunu ələ alaraq qeyd etmək lazımdır ki, Avropa dillərinin materialı əsasında tətbiq olunan bu tədqiqat metodu bütün təsdiq inkar münasibətlərini əhatə edə bilmir ki, buna da nida cümlələrini, kommunikativ xarakterli frazeoloji birləşmələri misal göstərmək olar. What sort of a fortress it is. My dear girl, what is your name, by the way? Bütün dillərdə olduğu kimi ingilis dilində səthi strukturda hər bit inkarlıq əlaməti ilə reallaşan cümlənin məzmununu bir çox hallarda it is not true that. İ don`t belive quruluşları ilə ifadə olunur. (4 səh. 5-6). Buradan belə bir nəticəyə gələ bilərik ki, ingilis dilində ismə təhkim olunan "not" inkar hissəciyi cümlə daxilində heç də həmişə isimlərlə birləşə bilmədiyi və belə vəziyyətlərdə daha dominant "not" ədat ilə əvəzlənə bilir. Buna görədə "no" inkar əvəzliyi ingilis dilinin inkarlıq sahəsində "not" inkar ədatından sonra ikinci yeri tutur. Istisnasız olaraq bütün söz növləri ilə əlaqələnən mühərrik "not" ədatından fəqli olaraq "no" yalnız isimlərlə birləşir. Müasir ingilis dilində inkarlıq sahəsində "not" inkar ədatnın "no" inkar əvəzliyindən üstünlüyü onun stukturu sərbəstliyi ilə mütəhərrikliyi ilə izah etmək olar. Burada bir məqalə həmcmində bütün inkar bağlayıcı və əvəzlikləri tam əhatə edilmişdir. İnkarlıq reallaşmasının əsas semantik şərtlətini araşdırarkən belə nəticəyə gəlmək olar ki, inkarlaşmanın mərkəzində daha çox müəyyənlik ifadə edən semantika olunur. Bunun ingilis dilinin inkarlıq sahəsindəki "not" konstituentinin aparıcı mövqeyi bir daha təsdiq edir.

ƏDƏBİYYAT

1. Chomsky N. "Negation in English", London, 1970.
2. Орлова М.Н. О лингвистической сущности отрицания и типах отрицательных предложений. 1973.
3. Abdullayev S. Müasir ingilis və Azərbaycan dillərində inkarlıq kateqoriyası. Bakı, 1998.
4. Abdullayev S.A. Qeyri-səlis dilçilik təcrübəsi. Bakı, 2013.

XÜLASƏ

Dilçilikdən məlumdur ki, inkarlığın işlənməsində hər bir dilin özünəməxsus qaydaları mövcuddur. Bu qaydalar özünü qrammatik və leksik kateqoriyalarda özünü əks etdirir. Başqa bir cəhəti isə onun sintaktik kateqoriyanı ayrı-ayrı sözlər və ifadələr deyil, cümlələri ifadə etdiyindən onun oppozisiyasını göstərir. Bu məqalədə ingilis dilində inkarlıq problemi bu dildə inkarlığı ifadə edən inkar bağlayıcılarının və nikar əvəzliklərin işlənmə yerini göstərir. Müasir ingilis dilində inkarlıq kateqoriyasının öyrənilməsi dilçiliyin vacib sahələrindən biridir. Dilin uneversal kateqoriyası kimi kateqoriyanı inkar dilin müxtəlif səviyyələrində leksik və ya qrammatik və leksik səviyyələrdə qeyd olunur. ingilis dilində inkarlığın baş verməsində leksik vahidlər kimi (mis və dis) "not" işlədilir. Bu inkar hissəcikləri arasında fərq elə də güclü deyildir. Inkarlıqda müəyyənlik və qeyri-müəyyənlik orasındakı semantik-sintaktik əlaqələr inkarlıq semantikasının struktur formasını təyin edir. Bəzi tədqiqatçılar yalnız olaraq dünya dillərinin polineqotiv və mononeqativ quruluşunu inkarlığın reallaşma onların inkarlıq səviyyəsi ilə əlaqələndirirlər. Inkarlıq vasitələrinin reallaşması daha doğrusu, təsdiq cümlələrində işlənməsi strukturun dəyişikliyini göstərir. Müasir ingilis dilinin inkarlıq vasitələri sistemində dominant mövqe tutan "not" inkar ədatı müəyyənlik əlamətinə malikdir. Bu əlamət reallaşma şərtlərinə görə "no" əvəzliyinin işlənməli olduğunu göstərə bilər. Bu məqalədə istər ingilis, istərsə də Azərbaycan dilində inkarlığı ifadə edən inkarlıq vasitələri əlaqəli şəkildə göstərilmişdir.

Açar sözlər: inkarlıq, kateqoriya, inkar bağlayıcıları, leksika.

NEGATİON CONFUNCTİONS İN MODERN ENGLISH AND THEİR USAGE RULES

Summary

KMeaning of negatation in English the process of discussing the agreement. The agreement was wached series of difficult negatations. This article is dedicated to the problem in negation in English and microfield negative confunctions and pronouns and their role. Studying of the of negation in modern English is one the most active topics of modern linguistics. It is also known that in the linguistic literatures each language has its own certain means of expression of negations. It is also known that in the linguistics each language has its own certain means of expression of negation in the realization of negation and negation is grammatical and lexical category in each language. It also ruffects it self in syntactic way. An other aspect is that the syntactic category has its own affirmative variant that it is opposition of it. Because it refers to sentence, a specific word or phrase. Negation category is mentioned at different level of language at lexical level at grammatical and phonetic level. It was mentioned that there is not sharp difference between lexical and grammatical means of negation. But in many cases there is also not strong variety between prefixes (mis, dis) "not" particle and their role in lexics 2 grammatical forms. In this article we can see the differences between English and Azerbaijani negation phrases.

Key words: negative confunction, category.

СОВРЕМЕННЫЕ АНШДИЙСКИЕ СОЮЗЫ ОТРИЦАНИЯ И ИХ ИСПОЛЬЗОВАНИЕ

РЕЗЮМЕ

Основным средством выражения отрицания в английском языке является отрицательная частица "not" . Она ставится после первого вспомогательного глагола или после модального глагола. В отличие от азербайджанского языка, где в предложении может быть несколько отрицаний. В английском языке возможно только одно отрицание. Эта статья посвящена проблеме отрицания в современном английском языке, проблемам частиц и местоимении, выражающих отрицание в этом языке. Их роли выражении отрицательности и анализу их в семантическом контексте. Изучение категории отрицания в современном английском языке является одним из самых актуальных тем раннего языкознания. Их литературы – посвященной языковедении. Известно, что в выражении отрицания в каждом языке имеются свои специфические определенные средства выражения отрицания, а также в каждом языке отрицание является грамматическим и лексическим категориям. Категория отрицания проявляет себя в том числе и синтактическим путем. Другая особенность состоит в том, что ввиду того, что синтактическую категорию характеризуют не отдельные слова и выражения. Категории отрицания как универсальная языка проявляя себя в различных уровнях языкового отрицания лексическим, грамматическим и фонетическим уровнях. В этой статье также отмечается возникновение отрицания английского языка. Между выражающим отрицанием в английском языке префиксы "mis", "dis", "un" и частицами отрицания "not" также не существует особой разницы. Особая доминирующая частица "not" также не существует особо подчеркивается в статье.\

Ключевые слова: отрицание, категория, текст, союз.

Rəyçi : prof. Məmmədova Z.Ş.

Aslanzadə Elvina[57]

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ƏDƏBİ TƏLƏFFÜZ VƏRDİŞLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

Ədəbi tələffüz qaydalarının öyrədilməsi üzrə işin müntəzəm şəkildə həyata keçirilməsi vacibdir. Birinci sinifdən başlayaraq bu qaydalar şagirdlərə mənimsədilir. Ədəbi tələffüzün təkmilləşdirilməsi təlim proqramının sonrakı mərhələlərində daha da genişləndirilir.

Birinci sinif uşaqlarının bir çoxu təhsil almaq üçün yetərli qədər söz ehtiyatına sahib olsalar da, onların nitqlərində qüsurlar olur. Belə ki, danışarkən sözləri sonadək tələffüz etmir, səslərin bəzilərini buraxır, bir səsi başqası ilə əvəz edir (*rəndə-yəndə*), səslərin yerini dəyişir (*yarpaq-yapraq,*), eləcə də yerli şivələrdən (*baba-boba, ver-vər*) istifadə edirlər. Uşaqların bəzilərinin nitqində pəltəklik, kəkələmə kimi hallar da müşahidə edilə bilər. Bu cür nöqsanlar uşaqların biliklərə yiyələnmək və fikirlərini ifadə etmək qabiliyyətinə mane olur. Ona görə də həmin çatışmazlıqları vaxtında müəyyənləşdirmək son dərəcə vacibdir [3, s.221].

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ İNTERAKTİV TƏLİM METODU VƏ İNNİOVATİV XARAKTERLİ ÜSULLARIN TƏTBİQİ

Giriş. Hazırda digər sahələrdə olduğu kimi təhsil sistemində də əsaslı islahatlar aparılır, təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi və inkişaf etmiş dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyası istiqamətində işlər görülür. Bu gün təhsildə başlıca istiqamət onun şəxsiyyətyönümlü olması, subyektin subyektə münasibəti üzərində qurulması ilə bağlıdır.

Ali keyfiyyətlərə malik insanların yetişdirilməsi gənc nəslə nələri, nə üçün və necə öyrətməyi, mexaniki hafizəyə deyil, nəzəri (tənqidi) təfəkkürə istinad etməyi və idraki fəallığın yüksəldilməsini tələb edir. Dərsin təşkili zamanı müəllimin yaxşı bir model olması, tələbələrlə isti münasibət yaratması motivasiyanı artırır. Auditohiyanın nizamlı, rahat olması, İngilis dilindən mövzuya uyğun giriş, dərsin fərdiləşmiş olması tələbələrin dərsə, mövzuya motivasiyasının artmasına səbəb ola bilən amillərdəndir. Burada qeyd etmək lazımdır ki, İngilis dili dərslərində fasilitator vəzifəsini yerinə yetirən müəllim hər bir tələbəyə şəxsiyyət kimi yanaşmalı, onlarla səmimi münasibət yaratmalıdır. Müasir İngilis dili dərslərində interaktiv təlimin müəllimdən tələbi odur ki, onun təqdim etdiyi təlim metodları və vasitələri dövrün tələbləri ilə uyğunlaşsın, daha doğrusu, demokratik olsun. Demokratik yanaşma zamanı dil öyrənənlər öz fikirlərini sərbəst bildirir, oxuduqlarını və ya eşitdiklərini bölüşməyə həvəsli olurlar, söhbətə tez qoşulurlar, qrup dairəsində aparılan müzakirələrdə daha fəal olmağa çalışırlar. Müasir universitet tələbəsi təkcə bu və ya digər sahədə ixtisaslaşmış kadr kimi formalaşmamalı, o həm də, ünsiyyətə hazır olmalı və müxtəlif insanlarla ünsiyyət qurmaq, komanda tərkibində işləyə bilmək, ətrafdakılara motivasiya verə bilmək kimi tamamilə yeni sosial bacarıqlara yiyələnməlidir. Məhz bu baxımdan ədəbi xəzinə əlçatan olmalıdır. Qloballaşma prosesinin labüdlüyünü və bu prosesə inteqrasiyanın qaçılmaz olduğunu nəzərə alaraq, elm və təhsil sahələrinin qloballaşma proseslərinə adaptasiyası dildə onun təmin olunmasını şərtləndirən amillər sırasına daxil olmuşdur. İlk öncə ona görə ki, məhz bu sahələrdə, İngilis dili dərslərində təkcə yeni bilik və texnologiyalar deyil, həm də insanın fikirlərinin ifadəsinin bu və ya digər formaların yeni mexanizmi və üsulları da gündəmdə olmalıdır.

Əsas hissə: Qloballaşma prosesi bir çox sahələrdə olduğu kimi təhsil, elm, elmi tədqiqat sahəsində də özünü biruzə verir. Bu da qeyd olunan sahələr qarşısında müəyyən vəzifələr və tələblər qoyur. Məhz bu baxımdan ölkəmizdə təhsilə, tədrisə və mütəxəssis hazırlığına münasibətlər də dəyişir.

Xüsusilə son illərdə Azərbaycanda milli təhsil sisteminin inkişafı, təkmilləşdirilməsi, humanistləşdirilməsi və müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Təbii ki, bu orta və ali məktəblərdə də zəruri dəyişiklərlə müşahidə olunur. Lakin burada problem və çətinliklər də qaçılmaz olur. Belə ki, məzmun cəhətdən müstəqil iş daha çox müəllim tərəfindən qoyulan tapşırıqların yerinə yetirilməsinə yönəlir. Planlaşdırma və qərar qəbul etmə imkanlarının mərhələli açılışı, müvafiq bilik və bacarıqların mənimsənilməsi şüurlu münasibətlərin yaranmasına səbəb olur.Bu işlər fonunda tədris prosesində fəal iştirak etmək imkanı yaranır. Bu zaman tələbədə tədqiqatçı mövqeyi formalaşır və o özünün müstəqil kəşfinin dərketmə subyekti rolunu oynayır. Metodiki nöqteyi-nəzərdən müstəqil iş planlaşdırmanın fərdi keyfiyyətlərinə yiyələnmənin ilkin mərhələsi kimi çıxış edir. Bu həm də interaktiv metoddan istifadə edərək materialların mənimsənilməsi mərhələsi kimi də dəyərləndirilir.

Materialların mənimsənilməsində mərhələli təlimlər, metod və vasitələrin rəngarəngliyi, uğurlu fəaliyyət, müəyyən müsbət nəticə əldə etdikdən sonra sevinc hissləri və digər amillər uzunmüddətli və şəbəkə formasında əldə olunan biliklərin əsas məğzini təşkil edir. Sosial sferada bu işlər fərdin sosial mühitdəki mövqeyini möhkəmləndirir. Tələbə qoyulan tapşırıqla mümkün qədər daha dərindən tanış olmaq istəyi və problem yarandıqda birbaşa müəllimə deyil, əvvəlcə öz tələbə yoldaşına müraciət etmək arzusu bu işlərin ayrılmaz hissəsidir. təlim şagir və tələbə təfəkkürünün yardımı ilə qazanılmış, qzanılmaqda olan və qazanılacaq yeni biliklərin bütövlüyü deməkdir. İnteraktiv təlim yaradıcı, səciyyəvi əməliyyat təlimidir. Bu təlimdə tələbələr öz daxili duyğu və idrak səviyyələrində çıxış etməklə, bilikləri üzərində apardıqları məntiqi əməliyyat nəticəsində yeni bilik qazanaraq yaradıcı olurlar. İnniotiv yaradıcılıq həm fərdi, həm də koorperativ (yəni birgə fəaliyyət) xarakter daşıyır.

Qeyd etmək lazımdır ki, İnteraktiv təlimində fərd öz şəxsi dərkinin nəticəsini, cəmiyyətin əvvəlcədən əldə etdiyi təcrübələrlə əlaqələndirməyə və əsaslandırmağa çalışaraq yeni bilik qazanır. Bu təlim fəlsəfəsi hissədən tama,yaxud da tamdan hissəyə çıxmağa, tələbələrin əldə olunmuş bilikləri ilə yeni qazanılacaq biliklərin birləşməsinə, qovuşmasına əsaslanır. Bu da öz növbəsində tələbə innoativ biliyinin tamlıq sxemini yaradır. Təfəkkür əməliyyatları üzərində qurulan məntiqi bilik strukturları ilə təmasda olan hər bir tələbə idrakı verilən biliklə qarşılıqlı əlaqəyə girərək, öz strukturlarının məntiqi əsaslarını qurur (1, s. 202).

Məntiqi düşüncəyə sahib olan hər bir tələbə düzgün düşünməyə, əsaslı nəticəyə gəlməyə, bir nəticədən o biri nəticəyə çıxma vərdişinə yiyələnmiş olurlar.

İnteraktiv təlimin mahiyyəti ondan ibarətdir ki, o tələbəni özünü inkişaf yoluna salır, ona təlimdən və sosial mühitdən qazandığı bilikləri öyrəndiyi və öyrənəcəyi biliklərlə birləşdirməyə, əsaslandırmağa və özü üçün yeni, yüksək formalı bilik qazanmağa şərait yaradır.Çağdaş dünyamızda hər bir fərdin innioativ- yaradıcı olması, öz bacarığından çıxış edərək yeni fikir, yeni ideya yaradıb, onu həyata tətbiq etməyi bacarmalı, önəmli və dəyərli olması vacibdir.

İnteraktiv təlimin iki əsas məqsədi vardır:

[63] Azərbaycan Dövlət Dəniz Akademiyası. kvelieva64@gmail.com

1) Tələbənin əxlaqını saflaşdırmaq;
2) Öz-özünü inkişaf etdirərək bilik qazanmaq.

B.Kumaravadiveliyə görə bu biliyin yolu qazanılmış bilikdən, vərdişdən keçərək yeni yaradılan biliyə istiqamətlənir. İnteraktiv təlim fəaliyyəti strukturu – dərs zamanı müəllim tərəfindən tələbələr üçün seçilən fərdi və yaxud koorperativ təlim fəaliyyətidir. Komandalara bölünmüş tələbələr təlim fəaliyyətlərini cütlükdə və komandada "müzakirə", "dəyirmi masa", "əqli hücum", "rollar üzrə oyun", "açın, tapın", "səhvi tapın", "telefon" və s. strukturlarda aparırlar. Hər bir fəaliyyət strukturu tələbələrdə bir neçə sosial bacarıq və vərdişlərin yaradılmasına xidmət edir. İnteraktiv təlim prosesində iştirak edən hər bir tələbə məntiqi üsulla bilik qazanmaqla, həm də tərbiyəvi cəhətdən sosial mühitin əxlaqına uyğun olaraq özünü aparmaq vərdişinə yiyələnir (2, s. 537-560).

Hazırda elmi-texniki tərəqqinin inkişafı təbii olaraq təlimdə texniki vasitələrin tətbiqinə ciddi zərurət və geniş imkan yaratmışdır. Təhsilin informatlaşması-təhsilin keyfiyyətini yüksəltmək məqsədilə İKT-nin intensiv tətbiqinə əsaslanır, təhsildə mövcud vəziyyətin dəyişməsinə, onun yeniləşməsinə, bütövlükdə təhsilin məzmun və forma etibarilə texnoloji baxımdan innovativ xarakter almasına xidmət edir. Müasir informasiya cəmiyyətində tələbə lazımi məlumatı axtarmaq, seçmək, təhlil etmək, yeni informasiya yaratmaq, bu əsasda mövqe formalaşdırmaq, qərar qəbul etmək və qərarı həyata keçirmək kimi səriştələrə yiyələnə bilir.İndi hər bir müəllimin vəzifəsi təhsilalanlara İngilis dilini öyrətmək, onlara yardımçı olmaq, bələdçi (fasilitator) rolunda çıxış etmək, informasiya mənbələri ilə tələbə arasında vasitəçi funksiyasını yerinə yetirməkdir. Unutmaq olmaz ki, təlimin yeni texnoloji proseslə aparılmasında müəllim təşəbbüskarlığı və fərdi nümunəviliyi, problemə yaradıcı yanaşması ən vacib şərtlərdəndir.

B.Kumaravadiveli qeyd edir ki, Müəllim öz təşəbbüs və qənaətlərini aktiv tərəfin-təhsilalanların fikir və fəaliyyətləri ilə birləşdirdikdə, başqa sözlə, düzgün ümumiləşdirilmə apardıqda, tədrisi interaktiv (birgəfəaliyyət, əməkdaşlıq, qarşılıqlı kollektiv iş) səmtə istiqamətləndirdikdə təlimin texnoloji səmərəsi daha üstün olur.Texnoloji prosesə sistem halında yanaşmaqla həm təhsilalanların idrakının formalaşmasına, fəaliyyət çevrəsinin genişlənməsinə, həm də müəllim novatorluğunun məkan və zaman daxilində yeni keyfiyyətlərlə görünməsinə əlverişli şərait yaradılmış olur (3, s. 276).

Pedaqoji təhsilin informatlaşması istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

1. Müəllim hazırlığında İKT-nin, yeni təlim üsulları və texnologiyaların tətbiqi;
2. Pedaqoji ixtisaslar üzrə təhsilalan tələbələrin biliyinin cari və yekun qiymətləndirilməsi üzrə yeni üsulların, texnologiyaların, İKT vasitələrinin tətbiqi;
3. Pedaqoji təhsil müəssisələrində distant təhsil formasının tətbiqi.;
4. Pedaqoji təhsil müəssisələrinin kompüterləşdirilməsi, elektron təhsilin həyata keçirilməsi.

İnnovasiyalardan istifadə müasir təhsil sistemində beynəlxalq standartları səciyyələndirir. E-vasitələrdən istifadə üçün ilk növbədə müəllim İKT-yə dair biliklərə malik olmalı və onlardan istifadə edə bilməlidir. Müasir dərsi şərtləndirən əsas cəhətlərdən ən əsası dilöyrənənlərin fəallığıdır ki, bu zaman interaktiv (fəal) təlim metodlarından istifadə etmək məqsədə çatmaqda əsas vasitəyə çevrilir.Bu metodlar fonunda iş formaları müəyyənləşdirilir:

1. fərdi, 2. cütlərə, 3. böyük və kiçik qruplarla iş.

Nəticə. Beləliklə, müasir İngilis dili dərslərində haqqında bəhs etdiyimiz, interaktiv metoddan istifadə edərək inniotiv-yaradıcı üsulların həyata keçirilməsi, bütün bu məsələlər bir-biri ilə sıx əlaqədə olub, biri digərini tamamlayır. Bunların əsasında isə təlim nəticələri, məzmun standartları, təlim strategiyaları dayanır.

İstifadə edilmiş ədəbiyyat

1. Krashen S.D. Principles and Practicein Second Language Acquisition. Pergamon Press Inc. 1982, 202 p.
2. Kumaravadivelu B.Towards a postmethod pedagogy. Quarterly,2001. p.537-560
3. Kumaravadivelu B.Understanding Language Teaching. From Method to Postmethod. London. Tylor&Francais e-Library, 2008, 276 p.

Ключевые слова: стратегия, устная речь, конкурс, английский язык, семантика.
Açar sözlər: strategiya, şifahi nitq, kontekst, İngilis dili, semantika
Key words: strategi, oral speech, contest, english, semantic

The use of interactive learning methods and innovative methods in English lessons

Summary

The article deals with the effective ways of organizing and conducting modern English lessons and working out effective ways of listening skills. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners` ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. The article is devoted to the audio and video materials in modern methodology. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature.

Использование интерактивных методов обучения и инновационных методов обучения на уроках английского языка

Резюме

В данной статье рассматриваются вопросы эффективные пути организации и проведения современные английские уроки. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранным языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно – функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будеть содействовать повышению эффективности данного процесса. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Məqaləni filologiya üzrə fəlsəfə doktoru, dosent Rəfiq Cəfərov tövsiyə etmişdir.

Saidə Şirzad qızı Mustafayeva [64]

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ MƏSƏLƏLƏRİ 1980-ci İLLƏRİN METODİK ƏSƏRLƏRİNDƏ

Azərbaycan dilinin tədrisi metodikası bir elm kimi formalaşmağa başladığı ilk gündən Azərbaycan dilçiliyinin şöbələrinə daxil olan, fonetika, leksika, morfologiya, sintaksis və digər bölmələrə aid mövzuların tədrisinin təşkili istiqamətində aparılmalı olan metodik işlərin təşkili və tətbiqi məsələsini bir vəzifə kimi qarşıya qoydu.

Bir tərəfdən dilçiliyimizin şöbələrinin tədrisi üzrə tədqiqatlar aparan metodist alimlər hazırlanması istiqamətində iş aparılır, digər tərəfdən də metodika sahəsində sistemli olaraq elmi-metodik əsərlər yazılıb çap edilirdi. Bunlar da tədris sisteminin düzgün qurulmasında özünü xüsusi şəkildə göstərirdi. Bu mənada da, həmin prosesin bugünki aspektdən araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, əsrin ortalarında metodiki görüşlərin genişləndirilməsi, bu sahəyə diqqətin artırılması, eyni zamanda da, Azərbaycan dili təlimini həyata keçirmək üçün hazırlanan dərsliklər, eləcə də, həm təlimin təşkilinə, həm də müəllimlərə kömək məqsədilə yazılan metodik vəsaitlərin, dərsliklərin, dilçiliyin müxtəlif bölmələrinin tədrisinə həsr olunan əsərlərin yaranması Azərbaycan dilinin bir fənn kimi tədrisinin səmərı təşkilinə səbəb oldu (3).

Məktəb dərsliklərinə Azərbaycan dilinin qrammatikası üzrə daxil edilən mövzu-lara baxdıqda, burada da dilçi alim və metodistlərin Azərbaycan dili təlimində yararlı ola biləcək bütün məqamları nəzərə almış və tədris zamanı qarşıya çıxan probləmləri aradan qaldırmağa maksimum dərəcədə kömək edə biləcək dərslik və metodik vəsaitlər hazırlamışlar. Həmin dilçı alimlərdən professorlar Ə.Dəmirçizadə. M.Şirəliyev, M.Hü-seynzadə, S.Cəfərov, dosentlər Ə.Şərif, A.Tağızadə, İ.Həsənov və digərlərinin bu sahə-dəki xidmətləri xüsusi şəkildə qeyd edilməlidir. Bu alimlər illərlə çalışaraq, Azərbay-can dilinin qrammatikası dərsliklərini yazmış, elmi qrammatikadan məktəb qramma-tikası hazırlamış, eyni zamanda da, dilçiliyin şöbələrinin tədrisini sistemləşdirən pro-qramların qaydaya salınmasında da xüsusi olaraq iştirak etmişlər. Müəlliflərin fərqli zamanlarda hazırladıqları dərsliklər məktəblərimizdə illərlə istifadə olunmuş. Həmin dərsliklər və metodik əsərlərdən bəzilərindən hal-hazırda da istifadə olunur (1, s. 325).

Şagirdlərin ana dili təlimini mənimsəməsində həmin dövrdə yazılmış yeni tipli dərslik və metodik vəsaitlər əsaslı rol oynamışdır. Sözsüz ki, təlim prosesinə xidmət edən dərsliklər metodik vəsaitlərlə birlikdə, həm də müəllimin fəaliyyətinə istiqamət verərək böyük əhəmiyyətə malik olur (4).

Metodika sahəsində bu dövrə məxsus inkişaf təlimi ana dilində olan məktəblərdə ana dilinin tədrisi ilə yanaşı, təlimi qeyri-Azərbaycan dilli olan məktəbləri də əhatə edirdi.

Keçən əsrin ortalarından başlanan yumşalma mərhələsi dil siyasətində tam de-mokratlaşmaya gətirib çıxarmasa da, liberallaşmanı yaratmış oldu. Bu özünü Azərbay-can dilinin tədrisi metodikası ilə yanaşı dilçilik tədqiqatlarının genişlənməsində və yeni dilçilərin yetişməsində özünü büruzə verdi. XX əsrin 60-70-ci illərindən dilçiliyimiz təkrarən türkologiyanın birinci sıralarında durmağa başlayır. Bunun səbəbi bir çox sə-nətkarlarımızın, dilçilərimizin dilçiliyin müxtəlif sahələrində apardıqları araşdırmalar idi. Fonetika sahəsində Ə.Dəmirçizadənin, leksika sahəsində S.Cəfərov və Ə.Orucovun, dialektologiya sahəsində M.Şirəliyev, A.Vəliyev və M.İslamovun, qrammatika sahəsində M.Hüseynzadə, Z.Budaqova və Ə.Abdullayevin araşdırmaları təqdirəla-yiqdir. Həmçinin bu dövrlərdə ali məktəblər üçün kitab və dərsliklər də hazırlanmışdır. Ələlxüsus da, XX əsrin altmışıncı illərindən başlayaraq, bədii dilimizdə üslubi rənga-rənglik, xəlqiləşmə, dil yenilikçiliyi geniş şəkildə yayılmışdır. Üslublardan bədii-pub-lisistik üslub inkişaf etmiş, elmi üslubda irəliləyişlər özünü göstərmişdir. Dilçiliyi-mizdə olan bütün bu irəliləyişlərlə bərabər, əsas dövlət idarələrində, yenə də rus dilinin yeri olduğu kimi qalırdı.

80-ci illərdə Azərbaycan xalqının həyatında baş verən dəyişikliklər digər sahə-lərdə olduğu kimi dil quruculuğu sahəsində də özünü göstərməyə başladı. Dilimizin sosial funksiyasının genişlənməsi ədəbi dilimizin daha da inkişaf etməsinə şərait ya-ratdı. "Bu, həm də yazılı ədəbi dilin inkişaf sürətinin artması, xüsusən onun ümumxalq danışıq dili əsasında zənginləşməsi və təkmilləşməsi üçün əlverişlik imkan və şərait yaradır.." (11, s. 128-129).

Görkəmli metodist alim, professor Məhəmməd Həsənov dil təliminin ümumdi-daktik, pedaqoji və psixoloji problemləri üzrə tətqiqatlarları ilə yanaşı, həm də Azərbaycan dilinin tədrisi metodikası üzrə apardığı araşdırmalarını bütün yaradıcılığı boyu davam etdirmişdir.

Alimin apardığı tədqiqatların nəticəsi kimi ərsəyə gələn, "V-VIII siniflərdə Azərbaycan dilinin tədrisi təcrübəsindən", "Azərbaycan dilinin tədrisi" I, II hissələr, "Durğu işarələrinin işlədilməsi qaydaları", "Sintaksisin tədrisində qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları", "Qrammatikanın (morfologiyanın) tədrisi prosesində orfoqrafiya üzrə aparılan işlər" adlı əsərlərində qaldırdığı problemlər və onların həlli yollarının göstərilməsi istiqamətindəki elmi-metodik fikirləri 1980-ci illərdə qələmə aldığı "Azərbaycan dili tədrisinin metodikası" dərsliyi, "Azərbaycan dili sintaksisinin tədrisində qarşıya çıxan çətinliklər" və sonrakı illərdə qələmə aldığı "Azərbaycan dili durğu işarələrinin tədrisinə dair", "Sintaktik əlaqələrin tədrisi", "Fonetikanın tədrisinə dair" (10) və digər metodik əsərlərində də öz əksini tapmışdır.

Xüsusən də, görkəmli alim Ana dili tədrisinin ümumi məsələləsrinə həsr olunan 1985-ci ildə ərsəyə gətirilən "Azərbaycan dili tədrisinin metodikası" əsərini Kənan Mikaylovla birlikdə hazırlamışdır. Əsərin "Azərbaycan dili tədrisinin metodikası bir elm kimi" adlanan I fəsli yeddi bölmədən ibarətdir:

---

[64] Bakı Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru

1. Azərbaycan dili təliminin məqsəd və vəzifələri;
2. Azərbaycan dili tədrisi metodikasının predmeti;
3. Metodika elminin inkişaf xüsusiyyətləri;
4. Metodika elminin tədqiqat üsulları;
5. Azərbaycan dili tədrisi metodikasının başqa elmlərlə əlaqəsi;
6. Azərbaycan dili təliminin qanunları və prinsipləri;
7. Azərbaycan dilinin tədrisi tarixinə dair.

Kitabın bu fəsilində metodikanın pedaqoji elmlər sırasına daxil olan bir elm kimi məqsəd və vəzifələrini izah edən alim, Ana dili təliminin qanunlarının elmi-metodik ədəbiyyatda rus və Azərbaycan metodistlərinin müxtəlif şəkildə olan izahlarını nəzər-dən keçirərək, dil təlimində dörd, "*1. Ana dilini təfəkkürlə dilin vəhdəti və mübarizəsi zəminində mənimsətmək qanunu; 2. Ədəbi dilin qrammatik normalarını şagirdlərin nitq təcrübəsi zəminində mənimsətmək qanunu; 3. Dilin və nitqin bütün komponent-lərinin əlaqəli surətdə öyrədilməsi qanunu; 4. Dil təlimində anlayışların qarışması, uyğunlaşması və qarşılaşmasına əsaslanmaq qanunu*"na əsaslanmağı daha düzgün sayır və onlar haqqında bəzi şərhlər verir (8, s. 65-67). Digər, yəni II fəsli "Azərbaycan dili tədrisi metodikasının ümumi məsələləri" adlandıran müəlliflər, bu hissədə Azərbaycan dili tədrisinin psixoloji-didaktik əsasları, Azərbaycan dili tədrisində istifadə olunan təlim üsul, priyom və vasitələr, Azərbaycan dilinin müxtəlif bölmələ-rinin əlaqəli tədrisi kimi bir sıra metodiki məsələləri nəzərdən keçirir və əlaqəli ədəbiy-yatlara əsaslanaraq həmin fikirləri ardıcıl şəkildə təhlil edirlər (8, s. 82-112).

Professor Məhəmməd Həsənov həm 1980-ci illərdə "Azərbaycan dili tədrisinin metodikası" dərsliyi, "Azərbaycan dili sintaksisinin tədrisində qarşıya çıxan çətinliklər", "Problemli təlim Azərbaycan dili dərslərinin səmərəliliyini artıran vasitələrdən biridir", həm də sonrakı illərdə qələmə aldığı "Azərbaycan dili durğu işarələrinin tədrisinə dair", "Sintaktik əlaqələrin tədrisi", "Fonetikanın tədrisinə dair" (10) və digər metodik əsərlərində dilçiliyin şöbələrinə daxil olan mövzuların tədrisi ilə yanaşı, təlimn təşkili prosesinin ümumi məsələlərinə də toxunmuşdur. Professor 1987-ci ildə yazdığı "Azərbaycan dili sintaksisinin tədrisində qarşıya çıxan çətinliklər" adlı metodik əsəri üç fəslə bölərək aşağıdaki kimi sistemləşdirmişdir: 1. Sintaksis tədrisinin ümumi məsələləri; 2. Söz birləşmələri tədrisinin linqvistik-metodik əsasları; 3. Cümlə tədrisinin linqvistik-metodik əsaslar (7, s. 201, 249, 275**).**

Vəsaitin həmin fəsillərində sintaksis tədrisinin psixoloji-didaktik əsasları, Azərbaycan dilinin digər bölmələri ilə əlaqəli tədrisi, söz birləşmələri, sadə, mürəkkəb cümlə və növlərinin tədrisi kimi mühüm məsələləri nəzərdən keçirilərək, həmin mövzuların tədrisi zamanı qarşıya çıxan çətinliklər təhlil edilir və onların təlimində istifadə ediləcək üsul, priyom və vasitələr göstərilir.

Azərbaycan dilçiliyi şöbələrinin təlimində qrammatikanın bölmələrinin əlaqəli tədrisinin qaçılmaz olduğunu fikrini əsas götürən alim M.Həsənov hər əvvəlki bölmənin təlimində digər bölmələr üçün təməlin qoyulmalı olduğunu, fikrin ifadəsi zamanı düzgün ifadələrin seçilməsinə dair praktik vərdişlərin öyrədilməsinin zəruriliyini və, nitqdə üslubi qüsurların müəyyənlədirilərək başvermə səbəblərinin tapılmasının vacibliyini xüsusi şəkildə vurğulayır.

Alimin gəldiyi qənaət belədir ki, ana dili dərslərini təşkili zamanı təlim və tərbiyə mütləq şəkildə vəhdətdə götürməli, tədris işinin planlaşdırılması dəqiq olmalı, şagird-lərin idrak fəaliyyətinin stimullaşdılması, idrak müstəqilliyinin inkişaf etdirilməsi və didaktik məqsədə riayət olunması vacib xüsusiyyət kimi diqqətdə saxlanılmalıdır.

"Problemli təlim Azərbaycan dili dərslərinin səmərəliliyini artıran vasitələrdən biridir" adlı metodik əsərlərində müəllif təhsil alanların yaradıcılıq və axtarış imkanla-rını təmin edə biləcək problem situasiyanın dərs prosesində yaradılmasının mühüm əhəmiyyətindən bəhs edir (9, s. 203-210). Bu əsər onu deməyə imkan verir ki, müasir metodikada dərsin "motivasiya" mərhələsində mövzunun müəyyənləşdirilməsi məqsə-dilə yaradılan problemli situasiya, hələ 1980-ci illərdə metodist alim tərəfindən izah edilmiş, hətta Azərbaycan dili fənni üzrə tədris edilən mövzulara da tətbiq edilmişdir. Alim Ə.Əfəndizadənin də 1980-ci illərdə də elmi-metodik fəaliyyətini davam etdirərək, dövrün tələblərinə uyğun ana dili təliminin təşkili və aparılmasında böyük faydası olan "Orta məktəbdə imla" 1983-cü ildə, 1984-cü ildə "V-VII siniflərdə orfoqrfik səhvlər və onlara qarşı mübarizə yolları" (6), 1988-ci ildə "Azərbaycan dili təliminin metodları və onların təkmilləşdirilməsi haqqında». 1989-cu ildə isə "Orfoqrafiya-orfoepiya lüğəti" kimi dəyərli metodik əsərlərini yazmışdır.

Ümumiyyətlə, Azərbaycan dili təlimi və bu sahədə olub, həllini gözləyən problemlər metodist alim Əziz Əfəndizadənin maraq dairəsində olmuşdur. Bu səbəbdəndir ki, metodistin Azərbaycan dilinin təlimi istiqamətindəki fikir və mülahizələri bu gün də öz əhəmiyyətini qoruyub saxlamaqdadır. Hal-hazırda ümumtəhsil səviyyəsi üzrə fənlərin tədrisində tətbiq edilən fəndaxili əlaqənin yaradılmasının təlimi əhəmiyyəti haqqındakı fikirlərə alim 80-ci illərdə yazdığı əsərlərində aydınlıq gətirmişdir. Müəllifin məsələyə yanaşması belədir ki, orta təhsil səviyyəsində Azərbaycan dili fənni üzrə sistematik kursun bölmələri biri-digərindən təcrid edilmiş şəkildə tədris olunmur. Təlim prosesində bir mövzunun digər mövzularla əlaqələndirilməsinə mühüm bir tələb, yəni metodik prinsip kimi yanaşılmalıdır. Məsələn, fonetika bölməsinə aid bir mövzu tədris edilirsə, həmin prosesdə orfoepiya, orfoqrafiya, leksika, ehtiyac yaranarsa, hətta, qrammatika, üslubiyyat, durğu işarələri üzrə də müəyyən işlərin aparılması vacib bir məqsəd kimi qarşıya çıxır (5, s. 4).

1980-ci ildə tədris məsələlərini özündə əks etdirən yeni br əsər, professor Həsən Balıyevin "Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası" kitabı çapdan çıxır. Kitabda Azərbaycan dili tədrisi metodikasının tədqiqat obyektinin izahından başlayan müəllif dilçiliyimizin şöbələrinin tədrisində istifadə edilən metod, üsul və vasitələrin tətbiqi məsələlərinə də toxunmuşdur. Dərslikdə fonetika, leksika, morfologiya və sintaksis bölmələrinə daxil olan mövzuların tədrisi yolları göstərilməklə yanaşı, həmin bölmələrin tədrisi zamanı niq inkikşafı üzrə də aparılan işlər haqqındakı elmi-metodiki izahları

da öz əksini tapır. Kitabda həm də mənimsədilən eimi metodiki biliklərin möhkəmləndirilməsi məqsədilə tapşırıq və çalışmalar da təqdim edilir ki, həmin tapşırıqlardan həm müəllimlik ixtisası üzrə təhsil alan tələbələr öyrəndilləri biliklərin bacarıqlara çevrilməsində yararlana bilir, həm də orta təhsil pilləsində Azərbaycan dili fənnini tədris edən müəllimlər bəhrələnə bilirdilər.

Ümumilikdə, metodist alim Həsən Balıyevin Azərbaycan dili tədrisi metodikası elminin inkişafında xidmətləri çox olmuşdur. Alimin morfologiya, sintaksis təliminə, nitq üslublarına aid yazdığı elmi fikirləri ilə yanaşı, Azərbaycan dili təlimini geniş və əhatəli şəkildə özündə əks etdirən Azərbaycan dilinin tədrisi metodikası dərsliyi və həmin sahəyə aid tədris proqramları da təqdirəlayiqdir.

Alimin "Azərbaycan dilindən yoxlayıcı proqramlar", dil tədrisinin ümumi məsə-lələrini əhatə edən, 80-cı illərdə çap olunan "Azərbaycan dili və onun tədrisi metodi-kasından plan; ədəbiyyat və metodik göstərişlər", "Təlim-tərbiyə pedaqoji təcrübənin təşkili və keçirilməsinə dair metodik göstərişlər", "Azərbaycan dilinin tədrisi metodi-kasının təkmilləşdirilməsi problemləri", "Orta məktəblərdə Azərbaycan dilinin tədri-si metodikası" kimi dərslik və metodik vasaitlər təlimin inkişafına təkan vermişdir. Bütün çətinliklərə baxmayaraq, öncə 1960-cı illərdə, ardınca isə 1970-80-ci illərdə bir birinin ardınca Azərbaycan dilçiliyində olduğu kimi, təlimində də elmi əsaslara söykənən, tədrisini düzgün və səmərəli şəkildə təşkil edəcək dəyərli metodik əsərlər, vəsaitlər və göstərişlər yazılaraq, bu sahədəki uğuru təmin etmiş oldu.

Buradan belə bir nəticəyə gəlmək olur ki, 1980-ci illərdə yazılmış metodik əsərlərdə Azərbaycan dilinin tədrisi ilə bağlı müxtəlif problemlərə toxunulur və onların həlli yolları izah edilir, dilin dərk edilməsi, öyrədilməsi, sevdirilməsi üsulları, dilin öyrədilməsində ailə və məktəb mühitlərinin rolu, dilçiliyin şöbələrinə aid kitablarının yazılmasındakı əsas elmi-metodik cəhətlər izah olunur.

Metodist alimlərdən M.Həsənov, Ə.Əfəndizadə, H.Balıyev və digərlərinin əsər-lərində dilçiliyin fonetika, morfologiya, sintaksis bölmələrinə daxil olan mövzuların tədrisindəki çətinliklər, nitq inkişafi üzrə aparılması nəzərdə tutulan işlər və onların həlli yollarının göstərilməsi haqqındakı elmi-metodik fikir və mülahifələr öz əksini tapır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev A.S. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı: Maarif, 1966, 335 s.
2. Balıyev H.B. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Maarif, 1988, 285
3. Balıyev H. B. Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Qismət, 2014, 384 s.
4. Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I h., Dərslik, Bakı: ADPU, 2016, 403 s.
5. Əfəndizadə Ə. Azərbaycan dili təliminin metodları və onların təkmilləşdirilməsi haqqında. "Azərbaycan dili və Ədəbiyyatı tədrisi" jurnalı. Bakı: 1988, № 1.
6. Əfəndizadə Ə. V-VII siniflərdə orfoqrfik səhvlər və onlara qarşı mübarizə yolları. Bakı: Bilik, 1984, 69 s.
7. Həsənov M.S. Azərbaycan dili sintaksisinin tədrisində qarşıya çıxan çətinliklər. Seçilmiş əsərləri, III c.Bakı: ADPU, 2013, s.201-354
8. Həsənov M.S. Azərbaycan dili tədrisinin metodikası. Seçilmiş əsərləri, II c., Bakı: ADPU, 2012, s. 54-163
9. Həsənov M.S. "Problemli təlim Azərbaycan dili dərslərinin səmərəliliyini artıran vasitələrdən biridir". Seçilmiş əsərləri, II c., Bakı: ADPU, 2012, s. 203-210
10. Həsənov M.S. Seçilmiş əsərləri, I c., Bakı: Elm və təhsil, 2010, 430 s.
11. Məmmədova A.G. Azərbaycan dilinin tədrisi tarixi. Bakı: Mürtəcim, 2015, 324 s.

Açar sözlər: Azərbaycan dili, tədris, metodika, əsər, təlim prosesi

Key words: Azerbaijani language, teaching, methodology, work, learning process

Ключевые слова: Азербайджанский язык, преподавание, методика, работа, учебный процесс

Xülasə

Məqalədə, aktual mövzulardan biri olan 80-ci illərdə yazılmış metodik əsərlərdə Azərbaycan dili, dilçiliyin şöbələrinin tədrisi ilə bağlı müxtəlif problemlərə toxunulur və onların həlli yolları izah edilir, Dilin dərk edilməsi, öyrədilməsi, sevdirilməsi üsulları, dilin öyrədilməsində ailə və məktəb mühitlərinin rolu, dilçiliyin şöbələrinə aid mövzuları əhatə edən dərsliklərin yazılmasındakı əsas elmi − metodik cəhətlər kimi məsələlərdən bəhs olunur.

Həm də məqalədə, görkəmli metodist alimlər, professor M.Həsənovun "Prob-lemli təlim Azərbaycan dili dərslərinin səmərəliliyini artıran vasitələrdən biridir", "Azərbaycan dili tədrisinin metodikası", "Azərbaycan dili sintaksisinin tədrisində qarşıya çıxan çətinliklər", Ə.Əfəndizadənin "Orta məktəbdə imla", "V-VII siniflərdə orfoqrfik səhvlər və onlara qarşı mübarizə yolları", "Azərbaycan dili təliminin metodları və onların təkmilləşdirilməsi haqqında", H.Balıyevin "Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası" və digər alimlərin bu kimi metodik əsər-lərindəki Azərbaycan dilinin, dilçiliyin şöbələrinin tədrisi istiqamətindəki metodik fikirlər nəzərdən keçirilir. Bununla da, metodik əsərlərdə Azərbaycan dilinin tədrisi metodikasının elmi əsasları, onun əlaqədə olduğu elm sahələri haqqındakı məlumatlar və orfoqrafiya, qrammatika (morfologiya və sintaksis), nitq inkişafi istiqamətində aparılacaq işlər üzrə yazdıqları metodik fikirlər xüsusi şəkildə vurğulanır.

Вопросы преподавания Азербайджанского языка в методических работах 80-х годов

Резюме

В статье, одной из актуальных тем которой являются методические работы, написанные в 80-х годах, затрагиваются различные проблемы, связанные с преподаванием азербайджанского языка, разделов языкознания, и объясняются пути их решения, рассматриваются такие вопросы, как методы понимания, обучения, симпатии к языку, роль семьи и школьной среды в обучении языку, основные научно − методические аспекты при написании учебников, охватывающих темы, относящиеся к разделам языкознания упоминается.

А также в статье выдающиеся ученые-методисты, профессор М.Гасанова “Пробное обучение является одним из средств повышения эффективности уроков азербайджанского языка”, “Методика преподавания Азербайджанского языка”, “Трудности, возникающие при обучении синтаксису Азербайджанского языка”, А.Эфендизаде “Орфография в средней школе”, “Орфографические ошибки в V-VII классах и способы борьбы с ними”, “О методах обучения Азербайджанскому языку и их совершенствовании”, Х.Балиева “Азербайджанский язык в методических работах методика преподавания Азербайджанского языка в средней школе” и других ученых, рассматриваются методические идеи по направлению обучения кафедра языкознания.

Таким образом, в методических работах особое внимание уделяется научным основам методики преподавания азербайджанского языка, сведениям о смежных с ним областях науки и методическим идеям, изложенным в работах по орфографии, грамматике (морфологии и синтаксису), развитию речи.

Issues of teaching the Azerbaijani language in methodological works of the 80s

Summary

The article, one of the current topics of which is methodological works written in the 80s, touches on various problems related to the teaching of the Azerbaijani language, branches of linguistics, and explains ways to solve them; issues such as methods of understanding, teaching, sympathy for language, the role of the family and school environment in language teaching, the main scientific and methodological aspects when writing textbooks covering topics related to the sections of linguistics are mentioned.

And also in the article, outstanding scientist-methodologists, Professor M. Hasanova “Trial training is one of the means of increasing the effectiveness of Azerbaijani language lessons”, “Methodology of teaching the Azerbaijani language”, “Difficulties arising when teaching the syntax of the Azerbaijani language”, A.Efendizade “Spelling in secondary school”, “Spelling errors in grades V-VII and ways to deal with them”, “On methods of teaching the Azerbaijani language and their improvement”, H.Balieva “Azerbaijani language in methodological Works methods of teaching the Azerbaijani language” in secondary school and others scientists, methodological ideas in the direction of training of the Department of Linguistics are considered.

Thus, in methodological works, special attention is paid to the scientific foundations of the methodology of teaching the Azerbaijani language, information about related fields of science and methodological ideas set out in works on spelling, grammar (morphology and syntax), and speech development.

RƏYÇİ: dos. E.Vəliyeva

Səfayə Sadıqova[65]

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ ORFOQRAFİK VƏRDİŞLƏRİN FORMALAŞDIRILMASI

Orfoqrafik vərdişlərin formalaşdırılması kifayət qədər uzun bir prosesdir və orfoqrafik qaydaların daha dolğun öyrənilməsi üçün daimi metodlar tələb olunur. İbtidai məktəb şagirdlərində orfoqrafik bacarıqların inkişafı məsələləri elmi ədəbiyyatda kifayət qədər araşdırılmamış və çətin vəzifələrdən biri olaraq qalır. Azərbaycan dilinin orfoqrafiyasının ilk növbədə, tətbiqi aspektdə öyrənilməsinə daha çox diqqət yetirildiyi üçün orfoqrafik vərdişlərin formalaşdırılmasının ümumi sistemi xüsusi yer tutur. Öz növbəsində, burada ən mühüm rol ibtidai siniflərə aiddir, çünki düzgün yazı savadının əsasları məhz bu andan qoyulur, burada uşaqlar ilk olaraq "düzgün nitq", "ədəbi dil norması" anlayışları ilə qarşılaşırlar.

Orfoqrafiya sözlərin yazılışını təyin edən və mühüm funksiyanı yerinə yetirən qaydalar və ənənələr toplusudur.

Orfoqrafiya sisteminin məzmunu orfoqrafik prinsiplərdə təcəssüm olunur. Məhz bu prinsip savadlı yazmağı öyrənmək prosesinin əsasını təşkil edir.

Məktəbdə Azərbaycan dilinin tədrisinin ən mühüm vəzifələrindən biri orfoqrafik savadın formalaşdırılmasıdır. Onun əhəmiyyəti iki əsas müddəa ilə bağlıdır:

– orfoqrafik savad insanın ümumi dil mədəniyyətinin tərkib hissəsidir və yazılı ünsiyyətdə fikirlərin və qarşılıqlı anlaşmanın düzgün ifadəsini təmin edir;

– ədəbi dilin yazılı forması ilə danışıq forması arasındakı əsas fərq.

Azərbaycan dilinin nəzəri tədris materialı öyrənilməklə yanaşı, məktəblilər üçün hər gün praktikada istifadə edilməli olan bu biliklər böyük həcminə görə bir çox hallarda bəzi çətinliklər də yaradır. Tədris materialının həcmi aşağıdakı sənədlər sistemi ilə müəyyən edilir:

– rəsmi proqram;

– onun əsasında tərtib edilmiş Azərbaycan dili məktəb dərslikləri.

Tədris materialını mənimsəyərkən şagirdlər orfoqrafiya nümunələrini müəyyənləşdirməyi, onların müəyyənedici xüsusiyyətlərini tapmağı və öyrəndikləri əsasında bu və ya digər orfoqrafik qaydaları tətbiq etməyi bacarmalıdırlar. Bununla belə, bir qaydanın dəqiq tətbiqi ilə mənimsənilməsində tez-tez uyğunsuzluqlar da baş verə bilər. Tədris praktikasından məlumdur ki, sinifdə həmişə qaydanı bilməsinə baxmayaraq, müxtəlif səbəblərdən praktikada tətbiq edə bilməyən şagirdlər də olur. Odur ki, həm alim, həm də pedaqoq-müəllim nümayəndələri ilə təmsil olunan elmi ictimaiyyət çoxlu sayda şagird tərəfindən tam mənimsənilməsinə nail olmaq üçün orfoqrafik vərdişlərin formalaşdırılması və inkişafı üzərində iş prosesinin təşkilində yeni, daha səmərəli yanaşmalar tətbiq etməyə çalışmalıdır.

Tədqiqatçılar A.Paşayev, V.P.Kanakina, L.A.Nikitina, T.G.Ramzaeva, N.Cəfərova və başqaları orfoqrafiyanın öyrədilməsinin nəticələrinin fərdin orfoqrafik qaydaları müəyyən etmək bacarığının nə dərəcədə inkişaf etməsindən asılı olduğunu vurğulayırlar. Onların fikrincə, orfoqrafik səhvlərin əsas səbəbi müvafiq bacarıqların, vərdişlərin olmamasıdır.

Beləliklə, orfoqrafik savad problemi Azərbaycan dilinin tədrisində ən mühüm problemlərdən biridir. Orfoqrafik vərdişlərin inkişafı xüsusi əhəmiyyət kəsb edir ki, bu bacarıqlar qrammatik biliklərdən mənalı istifadəyə, eləcə də şagirdlərin fəal zehni fəaliyyətini əhatə edən orfoqrafik qaydaların tətbiqinə əsaslanmalıdır. Mövzunun aktuallığı onunla bağlıdır ki, aşağı siniflərdə Azərbaycan dilində orfoqrafik bilik, bacarıq və vərdişlərin inkişaf etdirilməsi təhsil sisteminin ən vacib məsələlərindəndir, çünki düzgün, səriştəli yazı insan fikirlərinin ifadəsinin düzgünlüyünü təmin edir, yazılı ünsiyyətdə insanların qarşılıqlı anlaşmasını, fərdin ümumi və dil mədəniyyətini formalaşdırır.

Şagirdlərdə orfoqrafiya ilə bağlı möhkəm vərdişlər yaratmağın vacib məsələlərdən biri olduğunu qeyd edən N.Cəfərova yazır: "Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırır. Nəticədə Azərbaycan dili düşünmə, öyrənmə, danışma vasitəsinə çevrilir" [3, s. 9].

Şagirdlərin savadlı olması məktəbdə Azərbaycan dilinin tədrisinin əsas məqsədi və təəssüf ki, onun ən ciddi problemidir. Orfoqrafik savad həmişə insanın ümumi dil mədəniyyətinin və şagirdlərin dil səriştəsinin mühüm tərkib hissəsidir.

Dilçiliyin inkişafı və xüsusən də fonologiya bölməsinin yaranması Azərbaycan orfoqrafiyasının nəzəriyyəsi və praktikasında yeni mərhələni müəyyənləşdirdi. Fonemik anlayış nöqteyi-nəzərindən orfoqrafik bacarıq sözdə hər bir səsi qiymətləndirmək, yəni onun hansı mövqedə yerləşdiyini ayırd etmək bacarığıdır. Azərbaycan orfoqrafiyasının ümumi qaydaları fonemik prinsipdən irəli gəlir:

– Kökündə eynicinsli qoşa və müxtəlifcinsli sait işlənən alınma sözlər qoşa saitlə yazılır;

– Təkhecalı sözlərin sonunda qoşa samitin hər ikisi yazılır: fənn, haqq, hiss, xətt, küll, rədd, sirr, zənn, zidd və s.;

– Son səsi [x′] kimi tələffüz olunan çoxhecalı Azərbaycan mənşəli sözlər k hərfi ilə yazılır: bilək, birlik, külək, ürək, üzərlik, üzük və s. Bu qəbildən olan sözlərə saitlə başlanan şəkilçi qoşulduqda k~y əvəzlənməsi baş verir: biləyi, birliyimiz, ürəyim, üzüyün və s. [1, s. 13].

Yazının fonetik (yalnız səsə əsaslanan) prinsipi sözlərin hərf tərkibinin səsə tam uyğun gəldiyi və ya mümkün qədər yaxın olduğu bir vəziyyətdə məqbuldur. Məsələn, son səsi [t], bəzən də [d] kimi tələffüz olunan bir və ya ikihecalı milli mənşəli sözlər d hərfi ilə yazılır: *qanad, kənd, qənd* və s. Belə sözlərə samitlə başlanan şəkilçi qoşulduqda tələffüzdə [d-t] baş

[65] BDU-nun Qazax filialının Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının baş müəllimi

verir. İbtidai sinif şagirdlərinə standart tələffüzdə təbii olan səsi dinləmək, yazmaq və tələffüz səsinə uyğun olanı yazılı işarədə göstərməyi öyrətmək kifayətdir. R.Babayeva bu haqda yazır: "Əlifba təlimi dövründən tədricən şagirdlərə başa salmaq lazımdır ki, nitqdə olan bütün səsləri yazıda eynilə vermək mümkün deyil, çünki bəzən dilimizdəki səslər hərflərlə uyğun gəlmir. Bu səbəbdən də sözləri həmişə yazıldığı kimi tələffüz etmək və tələffüz edildiyi kimi yazmaq olmaz" [2, s. 96].

Vərdişlər insanın bu və ya digər məqsədyönlü fəaliyyətinə nail olmaq bacarığıdır. Nitq bacarığının xüsusi növü isə orfoqrafik vərdişlərdir. Orfoqrafik vərdiş yazılı nitqin mürəkkəb vərdişdir. Bu vərdiş uzunmüddətli məşq vasitəsilə yaradılır və daha sadə vərdiş və bacarıqlara əsaslanır, məsələn:

– yazı vərdiş;
– sözü fonetik cəhətdən təhlil etmək bacarığı;
– orfoqramı müvafiq qaydaya uyğunlaşdırmaq bacarığı.

Orfoqrafik vərdişlərin formalaşdırılmasında xüsusi rol ibtidai siniflərə aiddir. Ona görə də müəllim kiçik yaşlı şagirdlərə biliklərini vərdişlərə çevirməyi öyrətməlidir. Şagird başa düşməlidir ki, bilikdən, məşğələlərdən, hər bir orfoqrafik prinsiplərdən xəbərdar olmaqla, qaydalara uyğun hərəkət etməklə orfoqrafik vərdişlərə yiyələnə bilər.

Orfoqrafik vərdişlər yalnız məqsədyönlü fəaliyyət prosesində, xüsusən də məşqlər prosesində formalaşır. İbtidai siniflərdə müxtəlif orfoqrafik bacarıqların formalaşdırılması istiqamətində işlər aparılır. Bacarıq və vərdişlər də bilik kimi inkişaf edir və zənginləşir.

Azərbaycan dili dərsləri zamanı kiçik məktəblilərdə orfoqrafik vərdişlərin formalaşdırılmasını bir neçə mərhələləri əhatə edir.

Birinci mərhələ – məktəblilər nitqin sözlərdən, sözlərin hərflərdən və səslərdən ibarət olduğunu başa düşdükləri və öyrəndikləri mərhələdir. Burada əsas olan məqam odur ki, bu hecalar və səslər seçimidir. İbtidai sinif şagirdi nitqin müxtəlif səslərinin qrafik olaraq təyin olunduğunu başa düşür. Aydındır ki, səslərin özlüyündə heç bir mənası yoxdur. Lakin, bir-birindən fərqlənsə də, şifahi nitqdə sözlər bir-biri ilə əlaqəli olduqda sözdə məna daşıyır. Bu mərhələdə ibtidai sinif şagirdləri tədricən əksər sözlərin yazılışının tələffüzlə eyni olmadığını anlayırlar. Sözün səs tərkibini yazılışı ilə müqayisə etməklə şagird hərfdəki elementlərin, sözdəki hərflərin tərkibinə şübhə etmədən, fonetik yazıdan istifadə edərək hərf yazmaq bacarığına yiyələnir [5].

Savadlı yazının formalaşdırılmasının digər mərhələsi müəyyən dərəcədə yazıb-oxumağı öyrənmə dövrünə təsadüf edir. Müxtəlif orfoqramlar üzərində iş aparılır:

– qoşa samitlər,
– tələffüz olunmayan samitlər,
– vurğusuz saitlər və s.

Orfoqrafik vərdişlərin formalaşdırılmasının növbəti mərhələsində şagirdlər Azərbaycan orfoqrafiyasının müxtəlif normalarını da mənimsəyirlər:

– Azərbaycan dilinin lüğət tərkibindəki Azərbaycan mənşəli sözləri, əsasən, tələffüz edildiyi kimi yazmaq;
– Kökündə eynicinsli qoşa və müxtəlifcinsli sait işlənən alınma sözləri qoşa saitlə yazmaq;
– Tərkibində mənaca bir-birinə yaxın və ya əks anlayışları bildirən sözləri defislə yazmaq;
– Ad, soyad bildirən sözlərin birinci hərfini böyük yazmaq;
– Təkhecalı sözlərin sonunda qoşa samitin hər ikisini yazmaq [1].

Orfoqrafik vərdişlərin formalaşdırılmasında müəyyən məşqlər, tapşırıqlar, metodlar və s. tətbiq edilir. Məsələn, leksik-orfoqrafik məşqlər. Bu tapşırıqlar orfoqrafik olaraq verilmiş sözün semantikası üzərində işi təmin edir. Leksik-orfoqrafik məşqlərə lüğətlərlə işləmə də daxildir, burada məktəblilər nəinki sözün orfoqrafiyasına baxa bilər, həm də onun mənasını aydınlaşdıra bilərlər ki, bu da şagirdin lüğətini zənginləşdirir və aktivləşdirir.

Şagirdlərin orfoqrafik və orfoepik vərdişlərinin inkişaf etdirilməsini təkcə fonetikanın tədrisi ilə məhdudlaşdırmaq olmaz. Bu proses orta məktəbi qurtarıncaya qədər davam etdirilməlidir. Müəllim hər bir mövzunun spesifik xüsusiyyətlərini nəzərə almaqla yazılışı ilə deyilişi arasında fərq olan söz qrupları haqqında şagirdlərə məlumat verməli və bu məlumatlara aid müxtəlif çalışmalar təşkil etməlidir [4, s. 71].

Orfoqrafik vərdişlərin formalaşdırılmasında yaradıcı yazılı işlər də xüsusi yer tutur. Bunlara yazılı ifadələr və esseləri aid etmək olar. Şagirdin nitqinin formalaşdırılması, leksikonun genişləndirilməsi və ardıcıl yazılı nitq bacarıqlarının inkişaf etdirilməsi üçün müəyyən bir vəzifə müəyyənləşdirirlər. Təqdimatlar və esselər, adətən orfoqrafiya mövzusunun öyrənilməsinin son mərhələsində, məktəblilər müxtəlif qaydaları öyrəndikdə və artıq onlardan istifadə etmək imkanı əldə etdikdə aparılır.

Orfoqrafik vərdişlərin inkişafı üzərində işləyərkən müasir təhsil texnologiyalarından, məsələn, tədrisin tədqiqat metodu, kompüter tədris texnologiyaları, keys metodu, oyun texnikalarının texnologiyası və s. istifadə etmək olar.

Beləliklə, şagirdlərdə davamlı savadlı yazı bacarıqlarını inkişaf etdirmək üçün həm də xüsusi metodoloji texnikanın təhsil, tərbiyə və inkişaf təlimi ilə əlaqəsini tanımaq və həyata keçirmək lazımdır. Şagirdin şəxsiyyətinin hərtərəfli inkişafı üçün şərait yaratmaq lazımdır. Orfoqrafik vərdişlərin formalaşdırılması üzrə işin nəticələri, artıq məlum üsullarla yanaşı, bu işdə təsvir etdiyimiz yeni, lakin daha təsirli üsullardan istifadə edilərsə bir o qədər nəzərə çarpacaq olacaq. Başqa sözlə, artıq ibtidai siniflərdə müxtəlif orfoqrafik tapşırıqlar vasitəsilə məktəblilərin savadının inkişafı üçün əsas olan ilkin orfoqrafik vərdişlərinin formalaşdırılması, inkişafı zəruri və tamamilə mümkündür.

İstifadə edilmiş ədəbiyyat
1. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, 2021
2. Babayeva R. İbtidai sinifdə ədəbi tələffüz üzrə işin təşkili. Elmi iş. s. 96-99
3. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə Bakı, 2016
4. Paşayev A. Azərbaycan dili və ədəbiyyatı tədrisinin bəzi problemləri. Metodiki vəsait. Bakı, 2012
5. Моисеев А.И. Русский язык: Фонетика. Морфология. Орфография. Москва: Просвещение, 2005

Açar sözlər: orfoqrafiya, orfoqrafik vərdişlər, ibtidai sinif şagirdləri, savadlı yazı
Ключевые слова: орфография, орфографические навыки, учащиеся младших классов, грамотное письмо
Key words: orthography, orthography skills, primary school students, competent writing

Xülasə

Orfoqrafiya dedikdə, dilimizin ümumi normalarına uyğun yazmaq nəzərdə tutulur. Dildə sözlərin düzgün yazılışı orfoqrafiya qaydalarına əməl olunmasını tələb edir. Məqalədə ibtidai sinif şagirdlərinin orfoqrafik vərdişlərinin inkişafı tədqiq edilir. İbtidai siniflərdə Azərbaycan dilində orfoqrafik bilik, bacarıq və vərdişlərin inkişaf etdirilməsi təhsil sisteminin ən vacib vəzifəsinə çevrilir, çünki səlis, səriştəli yazı fikirlərin ifadəsinin düzgünlüyünü təmin edir, yazılı ünsiyyətdə insanların qarşılıqlı anlaşması, fərdin ümumi və dil mədəniyyətini formalaşdırır.

Развитие орфографических навыков у учащихся начальных классов

Резьюме

Орфография означает письмо по общим нормам нашего языка. Правильное написание слов на языке требует соблюдения правил правописания. В статье рассматривается развитие орфографических навыков у учащихся младших классов. Развитие орфографических знаний, умений и навыков на азербайджанском языке в начальных классах становится важнейшей задачей системы образования, поскольку грамотное письмо обеспечивает правильность выражения мыслей, взаимопонимание людей в письменном общении, формирует общую и языковую культуру личности.

Development of spelling skills in primary school students

Summary

Spelling means writing according to the general norms of our language. Correct spelling of words in a language requires adherence to spelling rules. The article examines the development of spelling skills in primary school students. The development of spelling knowledge, skills and abilities in the Azerbaijani language in primary school becomes the most important task of the education system, since free, competent writing ensures the correct expression of thoughts, mutual understanding of people in written communication, and forms the general and linguistic culture of the individual.

RƏYÇİ: dos. L.Ələkbərova

Nigar Qəzənfər qızı Mirzəliyeva [66]

XARİCİ DİLLƏRİN TƏDRİSİ PROSESİNDƏ İKT VƏ İNTERAKTİV TƏLİM ÜSULLARINDAN İSTİFADƏ EDİLMƏSİ QAYDALARI

Giriş. Müstəqillik yollarında inamla addımlayan Azərbaycan bütün sahələrdə olduğu kimi təhsil sistemində də əsaslı dəyişikliklər aparmışdır: yeni hüquqi-təşkilati baza yaradılmış, yeni tipli təhsil ocaqları formalaşmış, təhsilin təşkili prinsipləri dəyişilmiş, təlim-tərbiyə prosesində milli-mənəvi dəyərlərin, təbiət, cəmiyyət, insan haqqında biliklərin ümumbəşərilik mahiyyətində qavranılmasına yol açılmışdır. Dövlətin strateji məqsədlərinə xidmət vəzifəsini yerinə yetirən təhsil təkcə dövlətin deyil, bütün xalqın, humanitar qurum və təşkilatların, bütün cəmiyyətin işi olmuşdur. Milli təhsil inkişafı onun forma və məzmunca təkmilləşdirilməsinə, bu sahədə yeni ideyaların təcrübədə tətbiqinə geniş imkanlar açmışdır. İqtisadi və ictimai inkişaf dövründə yaşayan Azərbaycanın həyata keçirilməli olduğu mühüm məsələlərin həlli yüksək hazırlıqlı mütəxəssislər, ixtisaslı fəhlələr hərtərəfli inkişaf etmiş gənclər yetişməsini tələb edir. Bu hər bir pedaqoji işçidən, müəllimdən öz fəaliyyətinə məsuliyyətlə yanaşmağı tələb edir. Təhsil islahatı tələbələrə yeni pedaqoji təfəkkürə cavab verən müasir dərslərin keçirilməsini əsas məqsəd kimi qarşıya qoyur.

B.Cəfərova qeyd edir: "Müstəqil Respublikamızın beynəlxalq əlaqələrinin genişləndiyi indiki dövrdə xarici dillərə praktik yiyələnmək ehtiyacı sürətlə artır, onun mədəni tərəqqiyə kömək edən əhəmiyyətli vasitə olması həqiqətə çevrilir. Azərbaycan Texniki Universitetində tələbələrə xarici dildə, əsasən ingilis dilində oxumağı, yazmağı, danışmağı öyrətməklə yanaşı, dili öyrədilən xalqların mədəniyyəti ilə tanış olub faydalanmağa, praktik vəzifələrə yiyələnməsinə zəmin yaratmışdır" (1, s. 114-118).

Məhz buna görə də xarici dillərin tədrisində keyfiyyət dəyişiklikləri ictimai tələbata çevrilmişdir. Xarici dillərin tədrisi bir çox çətinliklərin, problemlərin aradan qaldırılmasını tələb edir. Xarici dili tədris edən müəllim dilin proqram səviyyəsində öyrədilməsi ilə kifayətlənməməli, həm də tələbələrin ümummədəni səviyyəsinin artmasına çalışmalıdır. Onlarda öyrəndiyi dilə maraq oyatmalıdır. Əlbəttə, bütün bunlara nail olmaq üçün müəllim tədris etdiyi fənni, onun tədrisi metodikasını dərindən bilməli, pedaqoji ustalığa yiyələnməli, öz işinə sədaqətlə yanaşmalıdır.

Əsas hissə: Müasir dövrdə ingilis dilinin geniş vüsət alması təsadüfü deyildir. Azərbaycan müstəqillik qazandıqdan sonra beynəlxalq əlaqələrin genişlənməsi, investorların ölkəmizə axını, eyni zamanda ölkə vətəndaşlarının sərbəst olaraq dünya ölkələrinə təhsil almağa getmələri və s. bu marağın artmasına səbəb olmuşdur. Bunlardan da belə qənaətə gəlmək olar ki, ingilis dilinin öyrənilməsi vacibdir.

- Well, I think I don't like vocabulary activities. They are boring and it is very easy to do these exercises. I like when we are asked to write questions addressing to different characters in the book. It is very challenging to be (to act) the characters of the book and answer all these questions. We try to think like the heroes, understand them well to answer our peers' questions. These activities help us to know our peers very closely as well.**Aysel**
- I think there is no need for activities like "Understanding the Main Idea" and "Close Reading". Fortunately, we spend very little time on these activities. I found writing activities very useful. They are challenging. First, I didn't know what to write. I had difficulty expressing my thoughts on paper. Listening to my friends' writing I understood how to do it. These activities helped me to organize my thoughts and put them on the paper. **Ramila**
- I love discussion and debates. We don't only improve our fluency through these activities but also we get to know each other very closely. Most times the debates we began in the English classes continue all day. I mean we continue speaking and arguing about this topic during breaks. The difference is that we do it in our language after the classes. **Behruz**
- Ilike letter writing activities. It is very interesting to listen to my friends' letters and see how they have created their letters. Though the situation is the same but the letters are very different. It is because we all are different. We can learn who thinks the same way by listening to the letters written by different students**. Vusala**

My experiences using short stories in my classes with my students have leaded me to the conclusion that one can teach different language aspects and skills through short stories. I think they are a convenient resource for teaching a foreign

language. I don't want to deny the role of the textbooks in teaching languages. However, there are some advantages to using short stories in English classes.

- Textbooks might be old. In this case they will not reflect new ways of teaching English language. Good teachers always improve their teaching skills and become more qualified in their fields. They learn a lot of new methods and techniques, so they need to apply them to their teaching. From this perspective short stories can be a good teaching tool for them. They can shape their lessons using this tool for different language purposes. They can develop different grammar, vocabulary and phonetic activities through stories. They can also teach reading, writing, speaking and listening using short stories in their classes.
- Textbooks give everything ready made to teachers to use to teach their lessons. Teachers don't use much of their ready made own creativity to shape their lessons. They teach what textbooks impose on them, whereas using short stories gives teachers back their independence in designing their lessons.
- Textbooks don't reflect what teachers know about their students' needs and interests. Teachers can choose stories or books of stories according to the needs, interests and levels of their students.
- Not all the textbooks contain communicative activities to enable students to use the language independently. Using stories teachers can develop a lot of communicative activities for their classes.
- Short stories are wonderful means to integrate different skills in one lesson.
- Using stories can provide a good opportunity for students to get acquainted not only with the works of English and American writers but also with the works of the writers from other countries who use English.
- A good atmosphere in the class will be enhanced by using stories as a teaching means in the English lessons. When discussing different issues from the stories, or giving the character sketches of the heroes and heroines, students speak about their feelings, likes and dislikes. Students can speak from the heart if they trust each other, if there is mutual understanding in the class. Teachers need to create a friendly atmosphere in the class before asking students to speak about their personal feelings.
- Reading these stories student will learn a lot about the values of the culture of the English speaking countries.

Developing these activities I focused mostly on the communicative approach. I think that the main aim of learning a foreign language is to learn to communicate in that language. This is the reason I have included more speaking activities such as acting dialogues, role plays, discussions, debates into this thesis. By means of these activities I can get my students involved to converse spontaneously.Oral forms of language communication are listening comprehension and conversation, which are opposite to academic reading and writing. Some methodologists did not pay much attention to listening and abilities to start conversational intercourse. Exercises for developing listening comprehension can be the following:

1. Listen and fill in.
2. Listen and continue.

Listening of some text can be broken off at the most interesting point. Then students must continue in oral or written form.

3. Listen and check. These exercises reacquire special attention to the details and logic.
4. Listen and find.

Students are given maps. In course of listening, they must mark the places where the action takes place, or where murder happened, etc.

5. A dynasty.

Students are given a scheme of a family tree with empty places for grandparents, mother, father, sister, etc. One student is standing in front of the class and speaking about his family. Other students listen and fill in the family tree.

6. Listen and find differences. Students must find differences between the texts they will hear.
7. Listen and make a summary.The text is read twice. At first time, students only listen while the second time, they make a summary or a plan.

Natural conversation forces adjustment of a listener to a produce but talk and perception are mutually connected. Conversational acoustical contact must be a stimulus for a student's and a teacher's work. In the communicative class, it is necessary to support students' motivation showing their failures, success and progress. For that, the teacher can repeat some exercises, which guarantee success in advance, and then to proceed to more complicated exercises. The teacher must take into account the freedom in the frame of communicative abilities known to the students.

A conversation should teach the students how to use colloquial language at the most normative, optimum level. Students active participating at class conversations is essential if the class is the only place to communicate. Relevant and actual material is used in real life situations which are not fixed but can vary to different directions. Imitation starts from listening. As a rule, students have a lot of listening but they do not speak. The teacher must provoke them with a help of a situation, game or discussion. Primary stages of colloquial language take a course in imitating, retelling the plot.

Very often conversation goes smoothly when students have significant vocabulary, logical and grammar structures, and trust that they will be understood. But conversation must start at the very beginning of the learning process and expand according to the lexico-grammatical abilities.

If the student is afraid of talking there will be any communication. He must join students of similar abilities and create positive conditions to developing conversation. Conversational skills must be developed step by step. A teacher must prepare students for conversations. At first, situation can be discussed in Lithuanian. Making contact with problem is stimulus and

that will determine student's position. Now discussion can take place in groups in English. Structuralists claim that constant practice conversational exercises solve all problems. It does a lot but not all. Amount of conversational hours not always develop communicative abilities. Communicative approach is not interested in producing forms and sentences in their sterile correctness. Communicative method does not reject studies of grammar and sentence structure. Subordinate clauses, pronouns, comparative forms, etc. are studied, but communicative method supposes finding situations of a free contact in the course of studying the forms where rules are used practically. Structuralistic dialogues and other exercises are abstract and directed towards strengthening the material. That leads towards students' disability to react to an immediate change of the situation. In other words, the strategic level colloquial language of structuralists is a primitive from the point of view of the communicative direction, but not from the language knowledge. In a structural lesson, students must correctly react to grammatical forms. At these lessons, as admitted by R. Scott, focus is shifted from the correct usage of forms to the active selection of instantly reacquired expressions of a communicative character. Such students will care about correct usage for communicative purposes.

Communicative method determines purposes of oral conversation spontaneously, without preliminary preparation. A student has to define purposes of conversation at the very beginning or even in the course of it. Defining of conversational purposes is dictated by need to transmit some information or emotional state. The grammatical aspect has a secondary role if it does not confuse understanding and conveying the purpose of the conversation. Grammatical and phonetic correctness is developed not before the speech but in its course.

Structural principle determines strict grammatical laws by which topics are defined. These schemes are applied only id defined conditions. Structural idea persuades strict rules of communication and look after every mistake. In structural class, student first thinks how to say, and only than what to say.

In a communicative class the main idea of pedagogical strategy is playing a definite role, and then producing a speech is defined by situation. This means that forms are used in their grammatical correctness but this correctness is not the main task. If grammatical forms prevail in the class the student is willing to say something but he only emphasizes definite grammatical form which is required by the teacher.

Reading perceives written in its logical forms. It means reading reproduces what is written. Written language differs from colloquial one. That is why a teacher has to choose such extracts for reading that the interaction "writing - reading" would not be difficult or disorientating the student. Reading techniques are both "silent reading" and "loud reading". Reading aloud is not the aim itself but a tool. It helps putting the right stress, improving the correct intonation. A weak student cannot as well as others students but he would not read at all alone. Taking into account arguments against loud reading, the teacher must choose a suitable material for loud reading. That can be newspaper news, short report, etc. Reading aloud, the student prepares himself to speaking because he accustoms to the audience which listens to him. Before students read aloud, the teacher can give some pre-reading exercises.

After students got acquainted to the text, it is time to read aloud. Reading is a cognitive form of perception through printed word. It is an individual form. Taking into account communicative principles, in every case teacher has to explain why he reads the text. Students have to be motivated. Stimulation of reading develops a habit of reading in studying language and gives positive emotions. The teacher must to pay attention to a context or a text and choose such a text which corresponds to the age and interest of students.

Reading must be purposeful when the student looks for the answer to the question which can be logical, which requires thinking about what is read. That can be filling up charts, plans or diagrams. That can be continuing the text. If we need to consolidate some grammatical structure, we can give some extract where the student has to insert the required grammatical forms and understand the plot, as well. Not only understanding is important in reading. Every reading leads to some logical conclusions and emotional impressions. Every reading enriches the vocabulary. The teacher must connect what is read with the students' personal experience and personal emotional impressions. It can be a topic for discussions in the class.

In developing writing skills, as well as in listening, reading and speaking skills, first of all it is necessary to pay attention to communicative purpose and then to the communicative technique. Structuralists and audiolinguists under the influence of the American immigration took into account the needs of immigrants and emphasised oral forms of communication and reading, but left writing at the last stage of learning. Today, writing is necessary no matter whether we use a pen or a computer. At the beginning, Teachers teach only oral language forms. But elementary students are willing to write and show their works to parents. Writing is such a visual category which motivates the learning process, creates the feeling of progress. On the other hand, there is a category of students who does not like writing because it takes a lot of time, requires attention. Teacher must take all into account and look at writing very carefully and define the place of writing in teaching process. Writing develops a special type of logical thinking which focuses thoughts on the main ideas.

In conclusion I'd like to mention that this thesis is based on my years of experience using short stories as a teaching tool in the EFL classes.I hope the readers will benefit from the activities developed for "O.Henry's American Scenes".

Bibliography

1. Alexander, L. *Practice and Progress*. Longman, 1980.
2. Cooper, D. *Philosophy and the Nature of Language*. London, 1973.
3."Teach English" (1981) Doff,A Cambridge University Press
4. English Language Teaching 2001 Jeremy Harmer, Longman
5."Teaching English trough English" 1981 Jane Willis, Longman

Xülasə

Bu məqalə tələbələrə inğilis dilinin hər 4 aspektinin, dinləmə, danışma, oxu və yazma bacarıqlarının kommunikativ metoddan istifadə etməklə öyrədilməsindən bəhs edir. Kommunikativ metod dərslərin daha maraqlı, şən və dinamik keçilməsi üçün çox əlverişli şərait yaratmaqla tələbələrin dilin öyrənilməsi üçün motivasiyasınığücləndirir.

РЕЗЮМЕ

Эта статья посвящена обучению студентов всем четырём аспектам английского языка , а именно навыкам слушания , говорения , чтения и писания посредством коммуникативного метода. Коммуникативный метод создаёт очень благоприятную возможность для того, чтобы уроки проводились интереснее , веселее , динамичнее ,и более содержательно , и тем самым усиливает мотивацию у студентов для изучения языка .

Rəyçi: *Bəylər Hacıyev İslamxan oğlu*
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Lalə Ağa qızı Mikayılzadə [69]

1946-1979-CU İLLƏR İRAN İCTİMAİ - SİYASİ HƏYATINDA GÜNEY AZƏRBAYCAN TƏHSİLİ VƏ MƏDƏNİYYƏTİ SAHƏSİNDƏ OLAN PROBLEMLƏRƏ ƏDƏBİ YANAŞMA

Giriş. Mədəniyyətin elm, ədəbiyyat və incəsənət kimi sahələri İran hakim dairələrinin göstərişi ilə fars şovinizmi ruhunda yeni nəslin tərbiyəsi və hazırlanması işinə xidmət edirdi. Mədəniyyətin bu sahələrində qeyri-fars xalqlara (ən çox azərbaycanlılara) öz ana dillərinə nəinki mütərəqqi və demokratik, hətta mürtəce məzmunlu əsərlər belə yaratmağa imkan verilmirdi.

1945-1946-cı illər milli-azadlıq və demokratik hərəkatlarının yatırılmasından sonra Azərbaycan və kürd xalqlarının İran hakim dairələri tərəfindən daha geniş miqyasda həyata keçirilən assimilyasiya siyasəti farslarla yanaşı iki ən böyük millətlərdən biri olan azərbaycanlılara qarşı yönəldilmişdi. Buna görə də 1945- 1946-cı illər hərəkatından 1978-1979-cu illər İran inqilabına qədərki dövr ərzində hakim dairələrin Azərbaycan təhsili və mədəniyyəti sahəsindəki siyasətini mövcud faktlar əsasında izləmək və bu siyasətin zərərli nəticələrini göstərmək İranda azərbaycanlıların öz milli hüquqları uğrunda mübarizəsinin düyün nöqtələrini açmaq cəhətdən əhəmiyyətlidir.

Onu da qeyd etmək lazımdır ki, ikinci dünya müharibəsindən bu günə qədər bütün İranda elm və mədəniyyət sahəsindəki diqqətəlayiq və yaddaqalan ən demokratik və perspektiv işlər Azərbaycan Milli hökumətinə məxsusdur.

1945-ci ilin dekabırından 1946-cı ilin dekabırınadək Azərbaycanda xalq hakimiyyəti dövründə bu milli ərazidə Azərbaycan Demokratik Partiyasının rəhbərliyi altında mədəniyyət və elm sahəsində bir sıra islahatlar həyata keçirildi: 1946-cı ilin 6 yanvar tarixli qərarına əsasən, Azərbaycan dili bu milli əyalətin rəsmi dili elan edildi və bu dildə 3800-ə qədər savadsızlığı ləğvetmə kursu açıldı, kəndlərdə iki mindən çox, şəhərlərdə isə beş yüzə yaxın ibtidai və orta məktəb açıldı, müxtəlif sahələr üzrə kadrların hazırlanması üçün kurslar təşkil edildi, Təbrizdə universitet yaradıldı, Azərbaycan dilində əlliyə qədər müxtəlif adda qəzet və jurnallar, bədii əsərlər, dərsliklər nəşr edildi.

Milli demokratik hərəkatın süqutunda sonra elm və mədəniyyət sahəsində qəbul edilmiş və uğurla həyata keçirilən bütün qərar və qanunlar ləğv edildi, yenidən və çox sərt qaydalar hökm sürməyə başladı [3, s. 152]. Azərbaycan dilindən istifadə dairəsi məhdudlaşdırıldı, bu dildə çıxmış kitablar yandırıldı, Təbriz Universiteti və teatrı bağlandı, milli dildə olan hər bir şeyə qadağa qoyuldu. Mental dəyərlər dar çərçivəyə salındı.

Əsas hissə. 1949-cu ildə İran elm və maarif nazirliyinin yeritdiyi siyasət nəticəsində azərbaycanlılar yaşayan ərazilərdə elm, təhsi və mədəniyyət sahəsində fars dili mövqeyinin möhkəmləndirilməsi və genişləndirilməsi haqqında xüsusi rəsmi göstərişlər verilmişdi [15]. Bu göstərişlər əsasında Azərbaycannın Təbriz, Ərdəbil, Urmiya kimi şəhərlərində elm, təhsil, mədəniyyət sahələrini əhatə edən bir sıra islahatlar keçiriləcəkdi: uşaq bağçaları tikilməli, həmin uşaq bağçaları üçün tərbiyəçilər hazırlanmalı, Təbriz Universiteti açılmalı, "Tərbiyyət" kitabxanası təmir edilməli, ibtidai məktəb müəllimləri hazırlayan texnikumların təkmilləşdirilməli və maddi cəhətdən təmin edilməli və sair. Bunların həyata keçirilməsi üçün təhsil idarəsinə əlavə olaraq müəyyən məbləğ ayrıldı. Amma qəbul edilən qanunlar kağız üzərində qaldı, ayrılan maddi vəsait maarif işçilərinə yox, tamam başqa məqsədlər üçün istifadə olundu. Yeni məktəb binası tikilmək bəhanəsi ilə Ərdəbil şəhərində Səfəvilər hakimiyyəti dövrünün əvvəllərinə aid olan Azərbaycanın tarixi abidəsi olan "Şəhidgah" uçulub dağıdıldı. Əhalinin etirazına qarşı isə şəhər maarif rəisi İsmayıl Dibac belə cavab vermişdi: "Tehranın əmridir, icra olunub, iş qurtarıb" [5].

Digər tərəfdən isə elm və mədəniyyətin inkişafı haqqında veilən qanun və göstərişlərdən hakim dairələr Azərbaycanda həyata keçirdikləri mürtəce farslaşdırma siyasətini zahiri cəhətdən bir pərdə "örtüyü" kimi istifadə edirdilər.

1948-ci ilin sonunda "Azərbaycan" qəzeti İran mərkəzi hökumətinin Azərbaycan maarif sistemində gördüyü "işlərdən" və farslaşdırma siyasətinin törətdiyi fəsadlardan danışaraq yazırdı: "Tehranın ...fars maarif nazirliyinin göstərişi ilə azərbaycanlı müəllimləri yığışdırıb, onların yerinə ən mürtəce fars müəllimlərini təyin edirlər, nəticədə Azərbaycannın yerli, savadlı müəllimləri məcbur qalaraq küçələrdə ərizə, məktub yazmaqla ...məşğul olurdular. Tehran mürtəceləri... Azərbaycan idarələrində azərbaycanlıları təmizlədikləri kimi məktəblərdən də yerli müəllimləri təmizləyib uzaqlaşdırırdılar... Tehran hökuməti Milli hökumət tərəfindən yaranmış bütün elm ocaqlarını vəhşicəsinə yıxıb dağıtdığı kimi, müəllimlərin də çoxunu öldürdü, həbsə saldı, sürgün etdi. Yerdə qalan yerli müəllimləri isə müəllimlik hüqüqundan məhrum etdi" [6].

60-cı illər islahatlarına qədərki dövrdə mədəniyyətin əsas qollarından olan təhsilin aşağı səviyyədə olmasının, maarif sisteminin çox məhdud sayda əhali kütləsini əhatə etməsinin əsas səbəblərindən biri də dərs vəsaitilərinin, müəllimlərin, məktəblərin azlığı, dərs proqramlarının ağırlığı və s., həmçinin icbari və pulsuz təhsil haqqında olan uzun-uzadı söhbətlərə baxmayaraq təhsilin pullu olması idi. Bu səbəbdən də çoxsaylı zəhmətkeş və kasıb uşaqları istər-istəməz məktəblərdən uzaqda qalırdı. Məktəblərdə hər ay müxtəlif bəhanələrlə - "qeydiyyat pulu", "marka pulu" və s. – adı altında uşaqlardan alınan məbləğlərdən əlavə, orta məktəbin aşağı sinif, texniki peşə məktəbi və 12-ci sinif imtahanlarında da müvafiq olaraq 300, 400, 500 riyal məbləğində pul alınırdı [4]. Buna görə də monarxiya quruluşunun etibarlı dayağı olacaq gələcək nəslin tətbiyəsində yenə də varlı sinfin nümayəndələrinin payı daha böyük idi [2, s. 45].

İran xalqlarının antiimperialist və demokratik hərəkatının yüksəlişi dövründə 1949-1953-cü illərdə ölkədə ilk dəfə olaraq hakimiyyətə gəlmiş milli burjuaziya hökuməti (1951-1953) İran mədəniyyətinin inkişafında, xususən də maarif sahəsində əsaslı bir dəyişiklik etmədi [1, s. 165]. Azərbaycanda milli-demokratik hərəkatın yatırılmasından sonra 1953- cü il

[69] AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, aparıcı elmi işçi, pedaqogika üzrə fəlsəfə doktoru. lala-mak70@mail.ru

avqust ayında dövlət çevrilişinə qədərki dövr ərzində maarif sisteminin genişləndirilməsi haqqında bir neçə qanun və qərarın qəbul edilməsinə baxmayaraq, Azərbaycanda təhsilin səviyyəsi əvvəlkindən də aşağı səviyyəyə düşdü və maarif sistemində həyata keçirilən tədbirlər əhəmiyyətli və nəzərə çarpacaq nəticələr vermədi. Bunu, İran Xalq Partiyasının ("Tudə") orqanı olan "Sobhe-e zendegi" qəzetinin Müsəddiq hökumətinin maarif sahəsində gördüyü işlər və yeritdiyi siyasət haqqındakı şərhi təsdiq edir: "...bu iki ilin (1951-1952-ci illər) ərzində nəinki bir ibtidai və ya orta məktəb binasının bünövrəsi qoyulmadı, minlərlə şagird, tələbə və müəllimin şəraiti yaxşılaşdırılmadı, əksinə məktəblərin sayı son həddə qədər azaldı" [9].

1953-cü ildən 60-cı illərin əvvəllərinə qədər İbtidai və orta məktəblərin mütləq sayının artmasına baxmayaraq, savadsızlığın aradan qalxması məsələsi bir poroblem olaraq qaldı.

1958-1959-cu illərdə ölkə təhsili üçün ayrılmış ümumi məbləğin təqribən on faizi Azərbaycan üçün ayrılmışdı [9, s. 23], eyni zamanda Azərbaycan üçün ayrılan ümumi məbləğin 85 faizi şəhərlərdə, 15-16 faizi isə kənd yerlərində maarif işləri üçün sərf edildi [10, s. 94-95]. Məktəblərin mütləq sayının artmasına baxmayaraq, azərbaycanlılar içərisində savadsızlığın faizi yüksək idi. Belə ki, 1956-cı ilə qədər Güney Azərbaycanda savadlıların sayı cəmi altı faiz artmışdı. Savadsızların sayı həm kişilər, həm də qadınlar içərisində yüksək idi [11, s. 141-149]. Təsadüfü deyildir ki, 1962-ci ildə Azərbaycanda olan maarif naziri sələflərinin gəldiyi eyni nəticəni təkrar etmişdir: "Həmin illər ərzində Azərbaycan mədəniyyəti və maarifi sahəsində əsaslı bir inkişaf baş verməmişdir və fars dili Azərbaycan əhalisi arasında yayılmamışdır" [16, s. 13].

İqtisadiyyatın yenidən təşkili sahəsində dövlət tərəfindən qəbul edilmiş xətt mədəni dəyişikliklərin sürətlə həyata keçirilməsi zərurətini yaratdı və ölkədə savadsızlığın aradan qaldırılması, maarifin, mədəniyyət və elmin inkişafına doğru yönəldilmiş bir sıra tədbirlərin həyata keçirilməsinə başlandı.

1963-cü ildə keçirilmiş referendum əsasında İranda mədəniyyəti inkişaf etdirmək üçün "Maarif ordusu" adlanan dəstələr yaradılması haqqında qanun qəbul edildi və bu "ordu" savadsızlığın aradan qaldırılması üçün mücadiləyə başladı. Bu qanuna görə gənclər ilyarım bu sahədə çalışdıqdan sonra hərbi xidməti başa vurmuş hesab edilirdilər [13]. Aydın idi ki, "Maarif ordusu" savadsızlığın aradan qaldırılması işindən əlavə, şovinist şah hakim dairələri üçün daha mühüm olan bir məqsədlə - fars dilini ölkənin qeyri-farslar yaşayan ucqar yerlərində yaymaq məqsədi ilə təşkil edilmişdi. O dövrdə İranda Amerika səfirliyi tərəfindən nəşr olunan "Mərzha-ye nou" jurnalında çap olunan bir məqalədə bu haqda qeyd edilir: "Maarif ordusu fars dilinin ölkənin başqa xalqları arasında yayılması sahəsində çox böyük və mühüm bir iş görür. Bu işə ölkənin bütün rayonlarında, xüsusən Azərbaycan və Kürdüstanda (hakim dairələr tərəfindən) böyük qiymət verilir" [12, s. 83-84]. Bu haqda şahın özünün xüsusi göstərişləri mövcud idi. Hətta 1958-ci ildə hökumət kabineti üzvlərinin iclaslarının birində şah maarif nazirinə müraciətlə bildirmişdi: "... elə et ki, fars dili uşaq bağçaları, məktəbəblər və mətbua orqanları vasitəsilə yayılaraq bir neçə vaxtdan sonra bütün xalqların vərdiş və adətinə çevrilsin və yerli dillər tədricən öz-özünə unudulsun" [15, s. 8].

Elm, təhsil sahəsində həyata keçirilən tədbirlər bəzi müvəffəqiyyətlərin əldə edilməsinə şərait yaratsa da, 1976-cı il İran əhalisinin siyahıyaalınmasının nəticələrindən aydın olur ki, azərbaycanlı əhalinin 66,4 faizi yenə də savadsızdır [11, s. 25]. Burdan belə nəticə çıxır ki, 1956-cı ildən keçən iyirmi il ərzində savasızlıq artmışdır. 1978-1979-cu illər inqilabından sonra da məlum olur ki, azərbaycanlıların 65 faizi savadsız və 70 faizi fars dilini bilmir [7, s. 33]. 1947-1978-ci illərdə orta və ali təhsil müəssisələri çox zəif inkişaf etmişdir. Bu illərdə Güney Azərbaycanın tək yeganə ali təhsil müəssisəsi və elmi mərkəzi Təbriz Universiteti idi. Şahın fikrincə, bu universitet İran millətçiliyinin "etibarlı dayağına" çevrilməli idi [8, s. 46].

Təbriz Universitetinin açılmasından keçən bir neçə il ərzində (1949-1953) Azərbaycan və eləcə də İran ictimai həyatı üçün kadrlar hazırlanması sahəsində nəzərə çarpacaq dərəcədə müvəffəqiyyətlərə nail olunmadı. Təbriz Universiteti bu illərdə bir çox çətinliklərlə üz-üzə qaldı.

Bu ona gətirib çıxardı ki, 1949-1953cü illər İran xalqlarının demokratik və antiimperialist hərəkatı zamanı Təbriz Universiteti şahın gözlədiyinin əksinə olaraq, İran millətçiliyinin "etibarlı dayağına" deyil, Güney Azərbaycan demokratik və antiimperialist hərəkatın ən fəal mərkəzlərindən birinə çevrildi. Universitetin yuxarı kurs tələbələrinin 1952-1953- cü illərdə tətilləri nəticəsində burada mövcud olan kazarma nizam-intizamı ləvğ edildi, tədris proqramı dəyişdirildi, yuxarı kurs tələbələri təqaüdlə təmin edildi [17, s. 73].

Hökumət çalışırdı ki, Təbriz Universitetində azərbaycanlılar həmişə azlıq təşkil etsinlər. Bu siyasət nəticəsində universitetdə oxuyan tələbələrin əksəriyyətini, təqribən yetmiş beş faizini İranın Tehran, Həmədan, Rəşt, İsfahan, Qəzvin, Şiraz, Ərak, Səbzivar, Kermanşah, Qum, Şahsuvar, Sari, Lahican, Məşhəd və bu kimi müxtəlif şəhərlərindən gələnlər təşkil edirdi [14, s. 46-48].

Onu da qeyd etmək lazımdır ki, şah rejimi qabaqcıl, mütərəqqi Azərbaycan ziyalılarının Təbrizdə və digər Azərbaycan şəhərlərində mərkəzləşməsinin qarşısını almaq üçün müxtəlif vasitələrdən istifadə edirdi. Misal olaraq onu demək olar ki, çox hallarda Təbriz Universitetinə imtahanları müvəffəqiyyətlə verən abituriyentləri imtahan komissiyası oxumaq üçün Tehran, Məşhəd, Şiraz, İsfahan və digər şəhərlərin universitetlərinə göndərirdi. Hökumət bu siyasəti Təbriz Universitetinin müəllim-professor heyətinin yerləşdirilməsi sahəsinə də tətbiq edirdi. Eyni zamanda universitetin müəllim-professor heyətinin əksəriyyətini qeyri - azərbaycanlılar təşkil edirdilər. Rektorları isə Tehran təyin edirdi. Təhsil və tədrisin səviyyəsini artırmaq bəhanəsi ilə universitetə xaricdən yüksək maaşla müəllimlər dəvət edilirdi.

Demokratik əhvali-ruhiyyəli müəllim-professor heyətini başqa təhsil ocaqlarına göndərir və ya işdən azad edir, tələbələri xırda etiraz və çıxışlara görə ya universitetdən qovur, ya da həbs edirdilər [14, s. 46].

Şah rejiminin milli şovinist siyasəti maarif və ali təhsil sistemində olduğu kimi, mədəniyyətin müxtəlif sahələrinə də çox ciddi və ağır zərbələr vurdu.

Əsrin əvvəllərindən etibarən bir çox təlatümlü ictimai-siyasi hadisələrin şahidi olan Cənubi Azərbaycan 1946-cı ilin qanlı hadisələrindən sonra həyatının ağır və faciəli dövrlərindən birini yaşamağa məcbur oldu. Milli hökumətin süqutu ilə ölkədə qara irtica tüğyan etməyə başladı.

Şair və yazıçıların min bir zəhmətlə qələmə aldıqları kitablar şəhərin küçələrində qalanan tonqallarda yandırıldı. Sağlam və obyektiv zəka sahibləri tərəfindən əsrin ən dəhşətli və amansız cinayət aktlarından biri kimi qiymətləndirilən bu vəhşiliyə qarşı etiraz səsini qaldıranlar arasında XX əsrin mütərəqqi söz ustası, xalq şairi Səməd Vurğun da var idi. Onun "Yandırılan kitablar" adlı şeirində öz gücünü xalqa və vətənə məhəbbətdən alan vətənpərvər şairin ürək döyüntüləri eşidilirdi. Şairin vəhşiliyə qarşı etiraz nidaları bütün dünyada güclü əks-səda doğurdu. Bu, həmçinin ikiyə bölünmüş vətən torpağının qüzeyinin güney tayına bəslədiyi doğma münasibətin əyani təzahürü idi:

Cəllad! Yanıb od olsa da. Külə dönməz arzular,
Təbiətin ana qəlbi qul doğmamış insanı!
Hər ürəyin öz dünyası bir səadət arzular,
Qanlar ilə yazılmışdır hər azadlıq dastanı...
Təbiətin ana qəlbi qul doğmamış insanı! [5].

Sonda, yazılanları ümumiləşdirərək belə nəticəyə gəlirik ki, İran hakim dairələri 1947-1978-ci illərdə mövcud burjua millətçi ideologiyasının məzmun və mahiyyətindən çıxış edərək, sayca farslarla yanaşı iki ən böyük millətlərdən biri olan azərbaycanlılara monarxiya quruluşuna xələl gətirə biləcək və "ölkəni parçalaya biləcək" potensial bir qüvvə kimi baxmış və digər milli azlıqlarla yanaşı, azərbaycanlıların farslar tərəfindən assimilyasiya olunması siyasətini həyata keçirməyə çalışmışdır. Ancaq, buna baxmayaraq, bütün Cənubi Azərbaycanda açıq şəkildə yayılan və əsasən də hakim ideologiyanı müdafiə edən, onun təbliğatçısı kimi çıxış edən farsdilli bədii, mədəni, elmi, ədəbiyyat müqabilində, çap olunmaq imkanlarından məhrum olan xalq, onun mütərəqqi ziyalı nümayəndələri tərəfindən inqilabi-demokratik ideyaları tərənnüm və təbliğ edən, həyati reallıqları əks etdirən elmi, bədii və incəsənət əsərləri yaradıldı, şifahi xalq ədəbiyyatı isə xalqın milli-mənəvi varlığını saxlayan ən güclü xəzinə kimi yaşadı. Uzun illər İran hakim dairələri tərəfindən fars şovinizminin həyata keçirilməsi, ölkədə yaşayan heç bir millətin və xalqın, o cümlədən də azərbaycanlıların nə dilini, nə mədəniyyətini məhv edə bilmədi, əksinə inkişaf etdi, yeni vətənpərvər nəslin yetişməsinə təkan verdi. Günün bu gününə qədər belə, həmən o vətənpərvər nəsil öz fədakar mübarizəsini inamla aparır, gələcəyə ümidlə baxır.

Nəticə. Bütün yuxarıda deyilənləri nəzərdən keçirərək deyə bilərik ki, XXəsrin əvvəllərində bütün dünyada gedən qlobal ictimai-siyasi və mədəni dəyişikliklər, yeni imperialist qüvvəllərin meydana çıxması və dünyanın onlar arasında bölüşdürülməsi qalmaqalllarının başlanması nəticəsində minilliklər boyu ictimai həyatında o qədər də dəyişikliklər baş verməyən İranı da silkələdi və xalqın, hər şeydən əvvəl isə, xalqı təşkil edən fərdlərin öz insani hüquqlarını dərk edib bu hüquqlar uğrunda mübarizəyə başlamasına təkan verdi. Ölkədə uzun illər hökm sürən şahlıq rejimi ictimai-siyasi, mədəni, sosial həyatda elə bir vəziyyət yaratmışdı ki, bu hal mədəni sahədə sadəcə istehza deyil, bütün eybəcərliklərin kökünü oda tutmağa qadir olan şimşək kəsərli qəzəb doğururdu, bütün bunlar(bu hadisələr) ədəbi, mədəni və elm xadimlərinin nəzər diqqətini daima cəlb etmiş, bu haqda tədqiqatlar aparılmışdır. Qeyd etmək lazımdır ki, bu hadisələrlə bağlı məsələlər həmişə gündəmdə olmalıdır və yeni-yeni tədqiqatlara ehtiyac duyulur. **İstıfadə edilmiş ədəbıyyat**

1. Amar-e fərhənge - İran. Tehran, 1962, s. 182
2. Amar-e omumi - ye qozareş-e xolase-ye sərşomari-ye keşvər dər sal-e 1335, 2-ci c., Tehran. s. 149
3. Amarname-ye ostan-e Azərbaycan-e qərbi, Tehran, 1978, s. 89
4. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin orqanı (1948-1950- ci illər, Təbriz) "Azərbaycan" qəzeti //, II hissə, Bakı: Elm və təhsil, s. 449
5. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin orqanı (1948-1950- ci illər, Təbriz) "Azərbaycan" qəzeti //, II hissə, Bakı: Elm və təhsil, s. 449
6. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin orqanı (1948-1950- ci illər, Təbriz) // "Azərbaycan" qəzeti , II hissə, Bakı: Elm və təhsil, s. 449
7. "İnqilab yolunda" jurnalı. № 6, 1980. s. 220
8. "Salname-ye daneşqah-e Təbriz", Təbriz, t. I, 1962, s. 95
9. "Sobhe- zendegi" jurnalı. 7. X. 1952
10. Salname-ye fərhəng - e Azərbaycan-e şərqi Təbriz, 1961, s. 94-95
11. "Yoldaş" jurnalı. № 8, 1980, s. 250
12. Əhmədi Ə. Pənc sal dər hozur-e şahənşah, Tehran, 1961, s. 105
13. İqtibas: "Çənlibel", 21.VII. 1979
14. Nəsibzadə H. Təbriz universiteti, s.46-48. **Təbriz Universiteti** Ədəbiyyat fakül təsinin jurnalı əsasında) / Mustafayev V. // "Bakı – **Təbriz**". 2006. №3, 2007 (1418), s. 208.
15. Qanun haqqında bax: "Ettelaat", 28.VIII.1949
16. "Xandəniha", 11. IX. 1962, s. 9 və 29. IX. 1962, s. 13
17. Дорошенко Е. А. Система просвещения в Иране, издательство "Восточной литературы", 1959 г, с. 84

Key words: national democratic movement, culture, monarchy, royal regime, science and culture

Ключевые слова: национально-демократическое движение, культура, монархия, королевский режим, наука и культура

1946-1979: Literary approach to problems in the field of education and culture of South Azerbaijan in the socio-political life of Iran.

Summary

The present work deals with the theoretical analysis of the problems of the synthesis of Iranian and Azerbaijani culture in 1946-1979. The article studies the manifestations of nationalism, monarchism, etc., in Iran during the Pahlavi regime, especially in 1946-1979, which were the main and specific features of the ruling ideology. In 1946-1979 the ruling circles of Iran, based on the content and position of the existing bourgeois

nationalist ideology, considered the Azerbaijanis, who are one of the two largest nationalities in the country, as a potential force capable of undermining the monarchy, the existing structure and “divide the country,” along with other national minorities, and tried to implement the policy of assimilation of Azerbaijanis. The article also researches and analyzes the main factors and characteristics of the cultures of different nations and peoples living in Iran, influencing the development of Iranian culture.

1946-1979: Литературный подход к проблемам в области образования и культуры Южного Азербайджана в общественно-политической жизни Ирана

Резюме

Данная работа посвящена теоретическому анализу проблем синтеза иранской и азербайджанской культуры 1946-1979 гг. В статье проведено исследование проявления национализма, монархизма и др., в Иране в период режима Пехлеви, особенно в 1946-1979 гг., которые являлись основными и специфическими чертами правящей идеологии.

В 1946-1979 гг. правящие круги Ирана, исходя из содержания и положения существующей буржуазной националистической идеологии, рассматривали азербайджанцев, являющихся одной из двух крупнейших национальностей в стране, как потенциальную силу, способную подорвать монархию, существующую структуру и «разделить страну», наряду с другими национальными меньшинствами и пытались реализовать политику ассимиляции азербайджанцев. В статье также рассматриваются и анализируются основные факторы и особенности культур разных наций и народов, проживающих в Иране, влияющие на развитие иранской культуры.

Rəyçi: ped.ü.f.d.dos. S.Ə.Hümbətova

İsmayilova Məsmə Əliyulla qızı[1]

ÇOXMƏNALI SÖZLƏRİN DİALOQLARDA TƏTBİQİ

Dilin tarixi inkişaf prosesində sözlərin yaranması,mənalarının araşdırılması, onların təkmənalılığı,çoxmənalılığı və yaxınmənalılığını araşdırılması dilciliyin leksikologiya bölməsində öyrənilir.Hər bir dil müəyyən və müxtəlif sözlərin yaranması və işlədilməsi ilə zənginləşir.Bu baxımdan müxtəlifsistemli dillərdə lüğət tərkibinə danışıqda rol oynayan bütün sözlər və frazeoloji vahidlər daxildir, onlar təkcə sadəsözlərdən deyil,müxtəlif leksik vahidlərin mürəkkəb bir sistemini təşkil edir.

Müxtəlifsistemli dillərin leksikologiyası müasir və tarixi leksikologiya olmaq üzrə iki qismə ayrılır. Müasir dilinin leksikologiyası o dildə danışan xalqın tarixi ilə əlaqədar olaraq yaranmış lüğət tərkibinin əsas söz qruplarını və onların müasir vəziyyətini öyrədir. Tarixi leksikologiya isə lüğət tərkibinin əmələ gəlməsindən və onun inkişaf yollarından bəhs edilir.

Leksikologiyanın əsas məqsədi dilin lüğət tərkibini bir sistem kimi öyrənmək-dən ibarətdir. Odur ki, leksikologiyaya, eyni zamanda sözlərin məna xüsusiyyətin-dən danışan bəhs də daxil edilir ki, bu bəhs ayrılıqda semasiologiya adlanır.Leksikologiyanın əsas məqsədi müxtəlif dilllərə aid olan sözün mahiyyətini və tərkibini, sözlərin mənasını və çoxmənalılığını aydınlaşdırmaqdan, sözün inkişaf qanunlarını dəqiqləşdirməkdən və sözlərin mənaca qruplarını müəyyənləşdirmək-dən ibarətdir. Burada eyni zamanda , sözlərin əmələgəlmə tarixi və müasir dilin lüğət tərkibi necə yarandığı və inkişaf etdiyi də nəzərdən keçirilir.

Leksikologiya, həmçinin dilin leksik tərkibini onun aktiv və passiv fondu baxımından tədqiq edir, öyrənir. Burada köhnəliklə yenilik arasında, istifadədən çıxmaqda olan sözlərlə yeni yaranmaqda olan sözlər arasında gedən bir mübarizənin nəticəsi kimi arxaizmlər, tarixizmlər nəzərdən keçirilir, neologizmlərin yaranması qanunauyğunluğu müəyyənləşdirilir. Bildiyimiz kimi,söz dilin vahididir. Müxtəlif dillərə daxil olan sözlərin hamısı bütövlükdə dilin lüğət tərkibini - leksikasını təşkil edir. Sözlər əşyaları, hərəkəti, əlaməti, miqdarı və s. ifadə edir. Hər bir sözün ifadə etdiyi mənaya onun leksik mənası deyilir. Sözlərin leksik mənası izahlı lüğətlərdə öz ifadəsini tapır və sözlərin çoxunun həm leksik, həm də qrammatik mənası vardır. Sözün birbaşa ifadə etdiyi mənaya onun leksik mənası deyilir.Yəni, sözün leksik mənası onun məzmununu bildirməsi, hər hansı bir anlayışı ifadə etməsidir.

Sözün qrammatik mənası onun hansı nitq hissəsi olması deməkdir. Dilimizdəki sözlərin bır çoxu həm həqiqi, həm də məcazi mənada işlədılir. Sözün ilkin, əsas mənası onun həqiqi mənasıdır. Məsələn: "saf ürək", "ipək parça", "gözəl həyat" və s. söz birləşmələrindəki birinci tərəflər həqiqi mənada işlənmişdir. Sözün sonradan qazandığı törəmə mənası isə onıın məcazi mənası adlanır.

Müxtəlif sözlərin ilk mənasında əmələ gələn yeni məna ifadə edən sözlər onun məna çalarlığı adlanır. Bir sözün müxtəlif məna çalrlığını ifada edən sözlərə çoxmənalı-polisemantik sözlər deyilir. Bu tip sözlər müxtəlif məna çalarlığına görə çoxmənalı sözlərlə eyni deyildir. Söz onun geniş və ya məhdud mənada işlənməsindən asılı olaraq, çox və ya az məna çalrlığına malik olur. Əgər, sözün bir əsas mənadan başqa ikinci bir mənası olmursa, belə sözlər təkmənalı-monosemantik sözlər adlanır. Məsələn:kitab, sabiq, ensiklopediya və.s sözlər təkmənalıdır, amma elesözlər də vardır ki,yazılışı və tələffüzü eyni olsa da,dilimizdə işlənən müxtəlif cümlələrdə müxtəlif mənalarkəsb etdiyinə görə çoxmənalıdır. Məsələn göz sözü.Bu söz müxtəlif cümlələrdə aid olduğu sözlə birlikdə əsas mənasından fərqli olaraq başqa məna kəsb edir. Məsələn : insanın gözü,siyirmənin gözü,bulağın gözü;və.s ifadələrdə müxtəlif mənalara malikdir. Müasir Azərbaycan və ingilis dillərində çoxmənalı sözlərin olduqca böyük əhəmiyyəti vardır. Bu onu göstərir ki, sözlərin çoxmənalılıq kəsb etmə prosesi hər iki dilin ən qədim dövrlərdən fəal şəkildə mövcud olmuşdur. Bu proses bu gün bu dillərin daxili inkişaf qanunlarından birini təşkil edir.

Sözlərin çoxmənalılığı müxtəlif sistemli dillərdə hələ qədim dövrlərdə də böyük rol oynamışdır. Bu dünya dillərində işlədilən çoxmənalı sözlər bunu isbat edir. Çoxmənalı sözlərdə onun daşıdığı mənalardan biri öz konkret ifadəsini ancaq mətnin daxilində alır. Söz öz ilk müstəqil mənasından ayrılıb çoxmənalılıq ifadə edəndə məcazi məna kəsb edir. Məcazi mənada işlənən leksik vahidlər isə iki növ olur: a) leksik məcazlar; b) üslubi məcazlar

Leksik məcazlar lüğət tərkibində qeydə alınmış, daşlaşmış ifadələrdir. Məsələn; başa düşmək- anlamaq, dərk etmək, ələ salmaq- lağ etmək, əldən düşmək – yorulmaq kimi birləşmələr daxilində işlənərkən eyni mənanı saxlaya bilir. Bəzən daha əlavə mənaların da açılmasına kömək edir. Üslubu məcazlar isə yazıçının fərdi yaradıcılığı ilə bağlı olan ifadələrdir. Bunlar mətn daxilindən ayrılıqda öz məcazlığını saxlaya bilmir. Lüğət tərkibində də qeyd edilmir. Məsələn, ürəyimin yağı əridi. İşlərim yağ kimi gedir. Qələm lap yağ kimi yazır cümlələrinin hər birində yağ sözünün özünəməxsus konkret mənası vardır. Bu cümlələrdə ürəyimin yağı birləşməsi leksik məcaz, ikinci və üçüncü cümlələrdə isə yağ kimi ifadəsi müqayisə məzmunu daşıdığı üçün üslubu məcazdır.

İngilis dilində də eyni lüğəvi tərkibdə eyni məna daşıylb,lakin işlənmə yerinə görə mənasını dəyişən sözlər çoxdur.məsələn: İngilis dilində “ dull “ sözü.Bu söz müxtəlif mənalar daşıyır: darıxdırıcı,küt,sönük, donuq,kasad,boz,cansıxıcı: İngilis dilində də nümunələri nəzərdən küçirək: A dull book, a dull film – uninteresting,

[1]ADPU, Xarici Dillər Mərkəzinin baş müəllimi

monotonous, boring. 2. A dull student – slow in understanding, stupid. 3. Dull weather, a dull day, a dull colour – not clear or bright. 4. A dull sound – not loud or distinct. 5. A dull knife – not sharp. 6. Trade is dull – not active. 7. Dull eyes (arch.) – seeing badly. 8. Dull ears (arch.) – hearing badly.

Çoxmənalı sözlərdə məna çalarlığı nə qədər çox olursa-olsun, bunlardan biri mütləq onun ilk həqiqi müstəqil mənasını təşkil edir. Başqa mənaları isə ilk mənaya az və ya çox yaxın olduğuna baxmayaraq, onun sonradan törəmiş mənaları kimi özünü göstərir. Müstəqil məna sözün əsas mənası olub, başqa mənaları isə ikinci, üçüncü, hətta dördüncü dərəcəli yer tutur. Çoxmənalı sözlərdə sözün məna çalarlıqlarından əsas mənası həqiqi, ikinci və sonrakı mənaları isə məcazi məna adlanır.

Dilimizdə sözlərin çoxmənalılığı söz yaradıcılığı prosesinin aşağıdakı xüsusiyyətlərini meydana çıxarır.

1.Sözün sonradan kəsb etdiyi məna çalarlığından (məcazi mənadan) biri öz inkişafı nəticəsində əmələ gəldiyi həqiqi mənadan uzaqlaşaraq müstəqim məfhum ifadə edən yeni bir mənaya çevrilə bilər. Məsələn, köç(mək), saç(maq), düz(mək) kimi feillərdən törəmiş olan köç, saç, düz isim və sifətləri tamamilə müstəqil məna ifadə edir.

2.Sözlərin çoxmənalılığı dilimizdə mürəkkəb sözlərin əmələ gəlməsində mühüm rol oynayır. Məsələn, ördəkburun sözü bir heyvanın adıdır. Onun ağzı ördəyin burnuna oxşadığı üçün bu ad ona verilmişdir.

3.İncəsənət mürəkkəb sözü dilimizdə insanın yaradıcılığı ilə əlaqədər onun ruhunu oxşayan, onda hiss və həyəcan oyada bilən hər hansı bir sənət kimi başa düşülür. Halbuki sözün tərkibində işlənən incə və sənət sözləri ayrılıqda hərəsi başqa mənaya malikdir.

4.Çoxmənalı sözlərin məcazi mənaları dilimizdə sabit söz birləşmələrinin (idiomlar, ibarələr, hikmətli sözlər, atalar sözü) əmələ gəlməsi üçün əsas baza təşkil edir. Məsələn, qaraqabaq, uzun eləmək, başdan sovmaq, ürəyi qopmaq kimi idiomlarda; polad quş, canlı insan, saf vicdan kimi ibarələrdə; müvəffəqiyyətdən baş gicəllənmə, az olsun yaxşı olsun kimi hikmətli sözlərdə; nə tüfəngə çaxmaqdır, nə sümbəyə toxmaq; nə ətdir, nə balıq atalar sözü və zərbi-məsəllərdə işlənən leksik vahidlər müəyyən situasiya, hadisə ilə bağlı olub həqiqi mənasından uzaqlaşır, fərqli məcazi mənaya malik olur.

5.Çoxmənalı sözlərə dilimizin, demək olar ki, bütün əsas nitq hissələrində təsadüf edilir. Bunların içərisində kəmiyyət etibarilə isimlər və feillər çoxluq təşkil edir. Bu cəhətdən ikinci yeri sifətlər, üçüncü yeri isə başqa nitq hissələri tutur.

Çoxmənalılıq prosesində leksik vahidlərin semantic inkişafi bəzən omo-nimliyə gətirib çıxarır.Dilimizdə sözün məna çalarlıqları bir sıra səbəblər nəticəsində meydana gəlir.

1. Əşyaların müxtəlif cəhətdən oxşarlığına görə:
   - Forma etibarilə: qaş (adamda) – qaş (yəhərdə); göz (adamda) – göz(şkafda); baş (kələmdə) – baş(adamda) və s.
   - Rəng etibarilə: qızıl (saat) – qızıl (xətt); gümüş (qaşıq) – gümüş(saç) və s.
   - Dad etibarilə: acı (fındıq) – acı (söz); şirin (bal) – şirin (söz); turş (alma) – turş (üz) və s.
   - Hərəkətin oxşarlığı etibarilə: döymək (qapını) – döymək (əti); açmaq (kitabı) – açmaq (ürəyi) və s.
2. Əşyaların müxtəlif cəhətdən yaxınlaşmasına görə:

Məkan etibarilə: dan (yeri) – dan (ulduzu); universitet (ali məktəb) – universitet (ali məktəb yerləşən bina);

Zaman etibarilə: gün (24 saat) – gün (keçirmək) – gün (qazanmaq) və s.

Məntiq etibarilə: adam (insanlardan biri) – adam (müsbət xüsusiyyətlərə malik insan); quzu (qoyun balası) – quzu (dinc uşaq) və s.

Proses etibarilə: dönüş (dönmək prosesi) – dönüş (işdə); gəzdirmək (bir şeyi həmişə yanında saxlamaq) – gəzdirmək (uşağı, atı) və s. Bu problemlərlə bağlı araşdırmalar apararaq,müəyyən sözlərin şəraitdən asılı olaraq işlənib məcazi məna yaratmaqla dili daha da sadələşdirib,anlamlı etməsini təsdiqləmişdir.

Müasir dövrdə müxtəlifsistemli dillərin inkişafında bir şox yeni tədqiqatlar aparılır.Bu tədqiqatlar bütün dil hadisələrini əhatə edir və bu proses həmin dilin tarixinə istinad edilərək araşdırılır.

Bildiyimiz kimi dilin varlığı onun söz bazasının tərkibinin artması hadisəsilə inkişaf edir.Bu halda təkmənalı sözlər inkişaf edərək müəyyən çalarlara düşür və nəticədə bir sözün əsas mənasına yaxın olan yeni sözlər əmələ gəlir və sonradan yaranan bu variativlər məcazi mənalar daşıyır.Bu da danışıq dilinə müsbət təsir edir.Bu təsir dialoqlarda da özünü biruzə verir.Bu çoxmənalı sözlərin yaranması nətisəcində müxtəlif mənalı ifadələr,idiomlar yaranır ki,bu da şifahi nitqimizi zənginləşdirir.

Tədqiqat işində Azərbaycan və ingilis dillərinin leksikologiyasının tərkibinin inkişafı məhz cox və yaxın mənalı sözlərin yaranmasını vasitəsilə həyata keçirilməsi haqqında məsələlərə toxunulur.Hər iki dildə müəyyən mənalarda işlədilən sözlərdən,bəddi ədəbiyyat nümunələrindən,dialoqlardan nümunə kimi istifadə etməklə qeyd edilən fikirlər sübuta yetirilir. Tədqiqat işində müxtəlif dilşilərin qələmə aldığı elmi ədəbiyyatdan istifadə edilib.

İstifadə edilmiş ədəbiyyat

1.Ağayeva F. Azərbaycan danışıq dili. Bakı: "Maarif", 1985, 192 s.
2. Cəlilova T.Ə. Azərbaycan dilində ekspressivlik və onun leksik ifadə vasitələri. namzədlik disser. Bakı, 1992, 180 s.
3. Seyidəliyev N. Cümlə tipli frazeoloji vahidlər// Elmi axtarışlar. XV. Bakı, "Səda", 2005, s. 275-277.
4. Hartmann R.R.K., Stork T.C. Dictionary of Language and Linguistics. L.: Applied Science Publishers Ltd, 1972, 302 p.
5. Lyons J. Semantics. Vol.2. – L: Cambridge University Press, 1977, p. 373-893.
6. Lyons J. Language,meaning and context.London,Fontana paperbacks,1984,183p.

Xülasə

Leksikologiyanın əsas məqsədi dilin lüğət tərkibini bir sistem kimi öyrənməkdən ibarətdir. Odur ki, leksikologiyaya, eyni zamanda sözlərin məna xüsusiyyətindən danışan bəhs də daxil edilir ki, bu bəhs ayrılıqda semasiologiya adlanır. Dilin tarixi inkişaf prosesində sözlərin yaranması,mənalarının araşdırılması, onların

təkmənalılığı,çoxmənalılığı və yaxın mənalılığını araşdırılması dilciliyin leksikologiya bölməsində öyrənilir.Hər bir dil müəyyən və müxtəlif sözlərin yaranması və işlədilməsi ilə zənginləşir.Bu baxımdan müxtəlifsistemli dillərdə lüğət tərkibinə danışıqda rol oynayan bütün sözlər və frazeoloji vahidlər daxildir, onlar təkcə sadə sözlərdən deyil,müxtəlif leksik vahidlərin mürəkkəb bir sistemini təşkil edir.

Dünyanın müxtəlif dilçiləri dilin lüğət tərkibinin yaranması və inkişafi haqqında müəyyən tədqiqatlar aparmışdır.Onlar müxtəlifsistemli dillərdə hər dilin öz qaydalarına əsasən sözlərin mənalarının yaxın olması və onların inkişaf edərək çoxmənalı sözlərə çevrilməsinə böyük diqqət vermişlər.Onlar lüğət tərkibində olan müxtəlif növlü sözlərin danışıq dilində işlənməsi haqqında müəyyən tədqiqatlar aparmış və bu sözlərin daha çox dialoqlarda işlənməsini sübüt etmişlər.

Bildiyimiz kimi, dilin varlığı onun söz bazasının tərkibinin artması hadisəsilə inkişaf edir.Bu halda təkmənalı sözlər inkişaf edərək müəyyən çalarlara düşür və nəticədə bir sözün əsas mənasına yaxın olan yeni sözlər əmələ gəlir və sonradan yaranan bu variativlər məcazi mənalar daşıyır.Bu da danışıq dilinə müsbət təsir edir.Bu təsir dialoqlarda da özünü biruzə verir.Bu çoxmənalı sözlərin yaranması nətisəcində müxtəlif mənalı ifadələr,idiomlar yaranır ki,bu da şifahi nitqimizi zənginləşdirir.

Məqalədə azərbaycan və ingilis dillərinin leksikologiyasının tərkibinin inki-şafi məhzbu sözlərin yaranmasını vasitəsilə həyata keçirilməsi haqqında məsələlərə toxunulur.Hər iki dildə müəyyən mənalarda işlədilən sözlərdən,bəddi ədəbiyyat nümunələrindən,dialoqlardan nümunə kimi istifadə etməklə qeyd edilən fikirlər sübuta yetirilir.

Acar sözlər: coxmənalı,araşdırmaq,frazeologiya,situasiya,yaradıcı,məqsəd, səbəb, vəziyyət, dilçilik, hikmətli sözlər.

Резюме

Основная цель лексикологии–систематическое изучение лексики. Поэтому в лексикологию входит и другое содержание, говорящее о значении слов, которое называется семасиологией.

Появление слов в историческом развитии языка, изучение значений, их единый смысл, многозначность и исследование близкого значения, изучается в лексикологическом разделе языкознания. Каждый язык обогащается за счет образования и употребления определенных и различных слов. С этой точки зрения все слова, играющие роль в речи, входят в словарь языков разных систем, а также входят в состав фразеологизмов, они не являются просто простыми словами, а образуют сложную систему различных лексических единиц.

Разные лингвисты мира провели определенные исследования по созданию и развитию словарного запаса языка. В языках с разными системами значения слов близки по правилам каждого языка, и они уделили большое внимание своему развитию и превращению в многозначные слова. Они провели некоторые исследования по обработке различных типов слов, содержащихся в словаре, в разговорной речи, и они доказали, что эти слова используются в диалогах.

34. Allahverdiyev B.V. "Avesta": öyrənilməsi, tərcüməsi və nəşri problemlərinə dair // Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, 2018. -№2 (22). –S.6-
12 Quliyeva, S. Azərbaycan soraq-məlumat ədəbiyyatı: yaranması, müasir vəziyyəti və inkişaf perspektivləri.-Bakı, "Təhsil",-2006.-176 s.

Xülasə

Azərbaycan kitabşünaslığının inkişaf etdirilməsində professor Bayram Allahverdiyevin müstəsna xidmətləri olmuşdur. Professor B. Allahverdiyev kitabşünaslıq elminin dərin köklərini araşdırıraq bir çox əhəmiyyətli nəticələr əldə etmişdir. O öz elmi məqalələrində qeyd edir ki, kitabşünaslıq bu əsrin kitab tarixinə tamam yeni milli müstəqillik təfəkkürü səviyyəsindən yenidən müraciət etməli, onu yeni milli və ümumbəşəri dəyərlər əsasında öyrənməli və beləliklə XX əsrə başlanan XXI əsrin baxışını ifadə etməlidir. Azərbaycan kitabının tarixi varlığı və mövcudluğu məhz bu əsrdə bütün zənginliyi, bütün tarixi və ərazi hüdudları ilə meydana çıxmış, özünü təsdiq edə bilmişdir. Belə bir cəhət də mühümdür ki, bu əsrin kitab tarixi xalqın öz milli özünüdərki və müstəqilliyi uğrunda mübarizəsi dövrünün kitab tarixi olmuşdur. Bütün bu problemlər kitab məhsulunun məzmununu və mövzusunu təşkil etmişdir.

Yuxarıda qeyd olunan ümumi fikirlərə əsaslanaraq məqalədə Professor Bayram Allahverdiyevin yaradıcılığı kompleks şəkildə tədqiq olunmuş, yerli müəlliflərin əsərlərinə istinad olunaraq alimin kitabşünaslıq və kitabçılıq işi sahəsində əvəzis xidmətləri qeyd edilmişdir.

Açar sözlər. Kitabşünas alim, professor, kitabçılıq işi, əvəzis xidmətlər, fundamental əsərlər.

A SCIENTIST WHO DEDICATED HIS LIFE TO BOOKS AND LIBRARIAN WORK
(Dedicated to the 85th anniversary of Professor Bayram Allahverdiyev)

Summary

Professor Bayram Allahverdiyev made exceptional contributions to the development of Azerbaijani bibliography. Professor B. Allahverdiyev has obtained many important results by investigating the deep roots of the science of bibliography. He notes in his scientific articles that bibliography should re-apply to the book history of this century from the level of thinking of national independence, study it on the basis of new national and universal values, and thus express the vision of the 21st century, which began the 20th century. The historical existence and existence of the Azerbaijani book appeared and proved itself in this century with all its richness, all its historical and territorial boundaries. It is also important that the book history of this century was the book history of the people's struggle for their national self-awareness and independence. All these problems formed the content and theme of the book product.

Based on the general ideas mentioned above, the work of Professor Bayram Allahverdiyev was comprehensively studied in the article, and the valuable services of the scientist in the field of bibliography and bibliography were noted by referring to the works of local authors.

Key words. Librarian scientist, professor, bookkeeping work, free services, fundamental works.

УЧЕНЫЙ, ПОСВЯЩАЮЩИЙ СВОЮ ЖИЗНЬ КНИГАМ И БИБЛИОТЕЧНОЙ РАБОТЕ
(Посвящается 85-летию профессора Байрама Аллахвердиев)

Резюме

Профессор Байрам Аллахвердиев внес исключительный вклад в развитие Азербайджанской библиографии. Профессор Б.Аллахвердиев получил много важных результатов, исследуя глубокие корни библиографической науки. В своих научных статьях он отмечает, что библиография должна заново обращаться к книжной истории этого века с уровня мышления национальной независимости, изучать ее на основе новых национальных и общечеловеческих ценностей и таким образом выражать видение XXI века, с которого начался 20 век. Историческое существование и существование азербайджанской книги проявилось и проявилось в этом столетии со всем ее богатством, всеми ее историческими и территориальными границами. Немаловажно и то, что книжная история этого века была книжной историей борьбы народа за свое национальное самосознание и независимость. Все эти проблемы сформировали содержание и тему книжного произведения.

Исходя из общих представлений, упомянутых выше, в статье всесторонне изучено творчество профессора Байрама Аллахвердиева, отмечены ценные заслуги ученого в области библиографии и библиографии путем обращения к трудам отечественных авторов.

Ключевые слова. Библиотекарь, профессор, бесплатные услуги, фундаментальные работы.

Leyla Oqtay qızı Atamova [74]

MƏDƏNİYYƏTLƏRARASI SƏRİŞTƏNİN İNKİŞAFINDA YENİ TEXNOLOGİYALAR DİL ÖYRƏNMƏ VASİTƏSİ KİMİ

Yeni texnologiyalar mədəniyyətlərarası səriştənin inkişafına müsbət təsir edərək yeni dil öyrənilməsini əhəmiyyətli dərəcədə asanlaşdırır. İnteraktiv proqramlar, onlayn dil kursları, virtual dil mübadiləsi platformaları timsalında yeni texnologiyalar, müxtəlif mədəniyyətlərdən olan insanlar arasındakı ünsiyyəti əlçatan edir, ana dilləri müxtəlif olan insanlar arasındakı əməkdaşlığı asanlaşdırır, qarşılıqlı anlaşmaya təkan verir (1, səh. 120).

İndiki zamanda ingilis dilini öyrənmək daha əlçatan olub, çünki yeni texnologiyaların inkişafı bunu daha da asanlaşdırır.

I Talki və ya Preply kimi onlayn dil platformalarından qeydiyyatdan keçərək ana dili ingilis dili olan şəxslərlə təkbətək video zənglər vasitəsilə ilə dərsləri öyrənmək mümkündür. Tandem və ya Conversation Exchange kimi veb saytlar isə ana dilimizi öyrənmək istəyən ingilis dillilərlə ünsiyyət qurmaq üçün şərait yaradır. Ümumiyyətlə, dil mübadiləsi saytları fərqli dil və fərqli mədəniyyətə məxsus insanlar arasındakı qarşılıqlı əlaqəni asanlaşdırır ki, bu da mədəniyyətlərarası səriştənin inkişafına birbaşa təkan verir:

- Onlayn dil mübadiləsi saytları tələbələrlə ana dilində danışanları qarşılıqlı ünsiyyət üçün birləşdirir. Bu birbaşa əlaqə yeni öyrənənləri danışıq dili, mədəni nüanslar və əsl mədəniyyət ifadələri ilə tanış edir.
- Bilirik ki, dil və mədəniyyət ayrılmaz şəkildə bir-biri ilə əlaqədardır. Dil mübadiləsini istifadə edənlər təkcə lüğət və qrammatikanı deyil, həm də mədəni konteksti, ənənələri və sosial normaları öyrənirlər.
- Onlayn söhbətlər zamanı tələbələr müxtəlif mədəniyyətlərdən olan insanların həyatı, təcrübələri və perspektivləri haqqında fikir əldə edirlər. Bu təcrübə birbaşa empatiyanı inkişaf etdirir, öyrənənləri dünyaya müxtəlif perspektivlərdən baxmağa təşviq edir.
- Dil mübadiləsi bəzən fikir ayrılıqlarına səbəb ola bilər, onlayn saytlar münaqişələrin həlli bacarıqlarını inkişaf etdirmək üçün imkanlar yaradır. Mədəni keyfiyyətləri nəzərə alaraq anlaşılmazlıqların həlli ünsiyyət və qarşılıqlı anlaşmanı təşviq edərək mədəniyyətlərarası səriştəni artırır.
- Onlayn platformalardakı birbaşa qarşılıqlı əlaqə tələbələrin başqa mədəniyyətlər haqqındakı stereotipləri və yanlış təsəvvürlərini qırır. Bununla da müxtəlif mədəniyyətlərə malik olan insanlarla tanışlıq qarşılıqlı hörmət və anlayışı inkişaf etdirir.
- Tələbələr ana dilində danışanlarla söhbətlərdə iştirak edərək başqa mədəniyyətlərə həssas olmağı da öyrənirlər.
- Onlayn dil platformaları müxtəlif mədəniyyətlərə məxsus nümayəndələri qlobal əlaqələr ilə təmin edir. Bu qarşılıqlı əlaqə tələbələri geniş mədəni perspektivlərlə tanış edir.

Yeni dil öyrənənlər üçün ən real dil təcrübəsini onlayn platformaları verir, çünki orada ana dilində danışanlarla söhbətlərdə iştirak etmək mədəni istinadlar və idiomatik ifadələr daxil olmaqla dilin nüanslarını dərindən anlamağa yardımçı olur. Bu tətbiqləri istifadə edənlərin müntəzəm qarşılıqlı əlaqəsi adətləri və müxtəlif perspektivləri daha yaxından anlamağa təşviq edir. Beləliklə, dil öyrənənlər onlayn görüşlərdə qarşılıqlı əlaqə zamanı başqalarının adətlərini, dəyərlərini və ənənələrini daha çox mənimsəyirlər. Bu da öz növbəsində mədəni həssaslığa töhfə verməklə mədəni fərqlər haqqında məlumatlılığı artırır. Onu da qeyd etmək lazımdır ki, onlayn söhbətlərdə tələbələr başqa-başqa mədəniyyətlərin üzləşdiyi gündəlik problemlər haqqında fikir əldə edirlər. Bu isə onlara müxtəlif perspektivləri və duyğuları qiymətləndirməyə imkan verərək birbaşa empatiya hissini inkişaf etdirir.

Onlayn dil öyrənmə proqramları tələbələrə mədəniyyətlərarası əlaqədə münaqişələrin həlli bacarıqlarını da aşılayır, çünki müxtəlif mədəni mənşəli insanlarla qarşılıqlı əlaqə bəzən anlaşılmazlıqlara səbəb ola bilər. Dil öyrənmə platformaları inklüziv öyrənmə mühiti yaratmaqla müxtəlif mənşəli insanların rəğbətini qazanır. Bu cür inklüzivlik mədəniyyətlərarası səriştəni artırır və tələbələri müxtəlifliyi qiymətləndirməyə təşviq edir, mədəniyyətlər arasında körpü rolunu oynayır. (5, səh.70) Müxtəlif və qlobal kontekstlərdə effektiv ünsiyyət bacarıqlarını və empatiyanı inkişaf etdirərək immersiv mədəni təcrübə təqdim edir. Duolingo, Babbel və ya Rosetta Stone kimi dil öyrənmə proqramlarından istifadə edərək söz ehtiyatını və qrammatik bilikləri artırmaq olar. Bizə bu işdə interaktiv dərslər, tapşırıqlar və testlər kömək edir, dil bacarıqlarının bütün aspektlərini təkmilləşdirir. Bu proqramlar strukturlaşdırılmış dərslər və interaktiv məşqlər təklif edir və mədəniyyətlərarası səriştəyə aşağıdakı yollarla müsbət təsir göstərir:

- Dil öyrənmə proqramları vasitəsilə ünsiyyət qarşılıqlı anlaşmanı daha da asanlaşdırır. Beləliklə, stereotiplər dağılır və yanlış təsəvvürlər aradan qalxır.
- Müxtəlif millətlərin adət və ənənələrinə hörmət və tolerantlığı artırmaqda dil öyrənmə proqramlarının böyük rolu var. Belə ki, bu proqramlar təkcə lüğət və qrammatika deyil, həm də mədəni qarşılıqlı anlayışları da aşılayır.
- Dil proqramlarının daha bir müsbət cəhəti tələbələrin həm dil öyrənib, həm də müxtəlif mədəniyyətlərdən olan insanlarla rahat ünsiyyət qura bilməsidir. Həmçinin dil biliyini artırıb daha intelektual söhbətlərdə iştirak etmək mümkündür.
- Yeni dil öyrənməklə fərqli perspektivləri başa düşməyə başlayırıq, bu da empatiyanı gücləndirir, çünki öyrənənlər müxtəlif mədəniyyətlərdən olan şəxslərin təcrübələri, düşüncələri və emosiyaları haqqında daha çox məlumat əldə edirlər. - İnsanlar

[74] ADU-nun doktorantı

arasındakı mədəni anlaşılmazlıqdan yaranan münaqişələrin həll olunmasında mədəniyyətlərarası səriştənin rolu danılmazdır. Dil öyrənmə proqramları tələbələrə bu cür anlaşılmazlıqların aradan qaldırılmasına imkan yaradır, qarşılıqlı hörmət və ünsiyyəti artırır.

BBC Learning English və ya ESL-lab kimi dil öyrənmə veb saytları müxtəlif səviyyələrdə dil bilikləri üçün pulsuz dərslər, testlər və səs mənbələri təqdim edir. Həmin veb saytlar mədəniyyətlərarası səriştəyə dərin təsir göstərir: onlayn dil platformaları tələbələri videolar və real həyat dialoqları vasitəsilə orijinal dil ilə tanış edir. Ana dilində danışanlardan müxtəlif kontekstləri necə istifadə etdiyini dinləmək tələbələrə mədəni nüansları və müxtəlif ünsiyyət üslublarını anlamağa kömək edir. Bu saytlar yalnız lüğət və qrammatikanı deyil, həm də mədəni normaları, ənənələri və etiket qaydalarını öyrədir. Elə onlayn dil öyrənmə platformaları var ki, tələbələrə mədəni fərqlər və multikultural mühitdə hörmətli qarşılıqlı əlaqəni öyrətməklə mədəni həssaslıq təlimi təklif edir. Bu tətbiqlərdə yeni dil öyrənənlər ana dilində danışanlar və müxtəlif mədəniyyətlərdən olan başqa tələbələrlə əlaqə saxlaya biləcəyi interaktiv məşqlər, viktorinalar və forumlar olur. Dil öyrənmə saytları qlobal öyrənənlər icması yaradır. Fərqli yerlərdən olan həmyaşıdları ilə əlaqə mədəniyyətlərarası ünsiyyəti, empatiyanı və tolerantlığı təşviq edərək mədəniyyətlərarası səriştənin inkişafına təkan verir. Bu cür onlayn ünsiyyət zamanı dil maneələri ola bilər, platformalar belə problemləri aradan qaldırır. (4, səh.19) Mədəni fərqləri anlamaq tələbələrin mədəniyyətlərarası qarşılıqlı əlaqələrdə hörmətlə ünsiyyət qurma qabiliyyətini artırır. Burada əsas rol dil öyrənmə saytlarına düşür. Belə ki, bu vebsaytlar ünsiyyət üslublarında, nəzakət normalarında və şifahi olmayan işarələrdə mədəni incəlikləri vurğulayır.

İngilis dilinin tədrisinə dair bir çox məlumatların yayımlandığı "YouTube"da bir sıra kanallar və podkastlar var. Onlar müxtəlif səviyyələri və mövzuları əhatə edir, dinləmə və danışıq bacarıqlarını inkişaf etdirirlər.

Mədəniyyətlərarası səriştənin artırılmasında bu kanalların və podkastların aşağıda sadaladığımız rolları var:

- Podkastlarda biz tez-tez real həyat söhbətləri ilə qarşılaşırıq. Empatiya və mədəni müxtəlifliyi daha dərindən anlamağa həyat təcrübələrini bölüşən müxtəlif mədəniyyətlərdən olan insanların hekayələrini dinləmək kömək edir.

- Müxtəlif məzmunlu çıxışlara yutub kanalları və podkastlarında rast gəlirik. Başqa-başqa mədəniyyətlərin izləyiciləri burada fərqli perspektivlərlə tanış olaraq öz bilgilərini genişləndirir, bu da mədəniyyətlərarası səriştəni inkişaf etdirir. Əlavə olaraq qeyd edə bilərik ki, tələbələr müxtəlif ləhcədə danışan şəxsləri dinləyərkən digər mədəniyyətlərə həssaslığı artır (2, səh. 28).

WordBrewery və ya FluentU kimi təhsil oyunları ingilis dili lüğəti və qrammatikasını interaktiv və əyləncəli şəkildə öyrədir.

Bu oyunlar həm də mədəniyyətlərarası səriştəyə aşağıdakı yollarla müsbət təsir göstərir:

- Təhsil oyunlarının əsas üstünlüyü oyunçuları müxtəlif mədəniyyətlərlə xas olan personajlarla və hekayə xətləri ilə tanış etməsidir. Bu cür tanışlıq mədəni məlumatlılığı artırır və öyrənənlərin dünya haqqında təsəvvürlərini genişləndirir.

- Oyunçular təhsil oyunlarında mədəni fərqlər və oxşarlıqlar haqqında dərindən məlumatlar öyrənərək müxtəlif mədəniyyətlərdən olan şəxslərin yerinə düşünərək empatiyanı inkişaf etdirirlər. Beləliklə, dünyanı fərqli bir baxımdan qəbul edirlər.

- Bir çox oyun problemlərin həlli və münaqişələrin həllini əhatə edir. Bununla da tələbələr ortaq dil tapmağı və münaqişələri həll etməyi öyrənirlər.

- Multiplayer öyrənmə oyunları müxtəlif mədəniyyətlərin təsvirlərini təqdim edərək stereotiplərə meydan oxuya bilər.

- Təhsil oyunları əsas da ona görə seçilir ki, müxtəlif mədəniyyətlərə məxsus oyunçular arasında əməkdaşlıq yaradır. Hədəfləri eyni olanda birlikdə çalışmaq əməkdaşlığı, komanda işini və qarşılıqlı hörməti gücləndirir.

- Tarixi və ya mədəni parametrləri əks etdirən oyunlar oyunçulara müxtəlif mədəniyyətləri araşdırmağa və qiymətləndirməyə imkan verir.

- Onlayn öyrənmə oyunları həm də məsuliyyətli onlayn davranışlarını öyrədir. Bu da daha əhatəli bir onlayn mühit yaratmağa kömək edir.

Deməli, təhsil oyunları empatiya, dil öyrənmə, mədəni şüur, münaqişələrin həlli bacarıqları və müxtəlif mədəni kontekstlərdə əməkdaşlığı inkişaf etdirərək mədəniyyətlərarası səriştənin inkişafı üçün önəmlidir (3, səh. 46).

Facebook və ya Reddit kimi sosial media platformalarında ingilis dili öyrənmə qruplarında digər tələbələrlə qarşılıqlı əlaqə qurmaq, resursları bölüşmək və sual verməklə dil öyrənməyi sürətləndirmək olar.

Sosial media platformaları və onlayn dil öyrənmə icmalarında tələbələr fərqli mədəniyyətlərin nümayəndələri ilə qarşılıqlı əlaqə zamanı perspektivləri genişləndirirlər. Yeni dil öyrənən şəxslər dil təcrübəsi ilə yanaşı müxtəlif mədəniyyətlərə məxsus qarşılıqlı anlaşma və hörməti öyrənərək mədəni ənənələri, adətləri və təcrübələrini artırırlar. Deyə bilərik ki, başqa mədəniyyətlərə məxsus insanlarla onlayn qarşılıqlı əlaqə onların təcrübələrini və problemlərini başa düşməyə imkan yaradır. Bu, ilk növbədə empatiyanı inkişaf etdirir. Sosial media istifadə edənlər dünyanın hər yerindən geniş fikir və məlumatlarla tanış olurlar. Ona görə də tənqidi düşüncəni inkişaf edərək müxtəlif mədəni və sosial perspektivləri qiymətləndirməyi bacarırlar.

Mədəniyyətlərarası səriştəni artırılmasında onlayn dil öyrənmə icmalarının rolu danılmazdır. Onlayn müzakirələrə qoşulmaq rəqəmsal ünsiyyət bacarıqlarını artırır, tələbələrə qlobal rəqəmsal mühitdə fikirləri aydın və hörmətlə ifadə etməyi öyrədir. Yeni dil öyrənən tələbələr müxtəlif mədəni təbəqələrdən olan şəxslərin onları necə xoş qarşıladığını və qiymətləndirdiyini hiss edirlər, bununla da inklüziv mühit yaranır (6, səh. 160).

Müxtəlif mədəniyyətlərə məxsus mədəni adətlərin, ənənələrin və sosial normaların öyrənilməsi dil öyrənmə proqramındakı dərslərə daxil edilib. Bu da tələbələrin müxtəlif mədəniyyətlər haqqında bilgilərini artırır, mədəni həssaslığı inkişaf etdirir. Burada qeyd edək ki, interaktiv məşqlər və simulyasiyalar təklif edən bir çox dil öyrənmə proqramları da mövcuddur.

Dil öyrənmə proqramları ünsiyyət üslubları və etiket qaydalarındakı mədəni fərqlər haqqında bilgilər verir. Bəzi dil öyrənmə proqramlarına ana dilində danışanlarla ünsiyyət təcrübəsi və nitqin tanınması kimi funksiyalar daxildir. Bu zaman tələbələr ünsiyyət bacarıqlarını təkmilləşdirməklə real mədəniyyətlərarası qarşılıqlı əlaqələri idarə etməyi öyrənirlər.

Bilirik ki, yeni bir dil öyrənərkən ardıcıllıq və təcrübə vacibdir. Dil öyrənmə chatbotlarından müntəzəm istifadə ingilis dili biliklərini əhəmiyyətli dərəcədə artırır.

Dil öyrənmə chatbotları bir neçə yolla mədəniyyətlərarası səriştəyə müsbət təsir göstərə bilər:

- İlk növbədə bu Chatbotlar interaktiv söhbətləri asanlaşdırır.

- Chatbotlarda ünsiyyət üslubları, etiket qaydaları və sosial normalardakı mədəni fərqlər haqqında dərslərə rast gələ bilərik.

- Dil öyrənmə Chatbotları tələbələrin qarşılıqlı əlaqə qurma qabiliyyətlərini artıraraq ünsiyyət bacarıqlarını inkişaf etdirir.

- Fərqli mədəniyyətlərdən olan insanların təcrübələrini və perspektivlərini anlamaqda belə chatbotlarının rolu böyükdür, bu zaman mədəniyyətlərarası səriştənin əsas komponenti olan empatiya inkişaf edir.

- Chatbotlar tələbələrdə mühakimə qorxusu olmadan dil bacarıqlarını inkişaf etdirməyə imkan verir. Bu cür genişləndirilmiş ünsiyyət müxtəlif mədəniyyətlərin nümayəndələri ilə qarşılıqlı əlaqə qurmağa təşviq edir.

- Münaqişələrin həlli təcrübəsində də dil öyrənmə Chatbotlarının rolu böyükdür. Bu botlar tələbələrin mədəniyyətlərarası qarşılıqlı əlaqələrdəki münaqişələrlə mübarizə qabiliyyətini artırır.

- Chatbotlarda tez-tez müxtəlif kontekstlərdə dil dərsləri keçirilir. Tələbələr yalnız dil bacarıqlarına yiyələnmirlər, həm də mədəniyyətlərarası səriştələrini artıraraq mədəni xüsusiyyətlər, adət və ənənələr haqqında dünyagörüşlərini artırırlar.

- Dil öyrənmə zamanı bilik səviyyəsinin artırılmasında Chatbotların rolu danılmazdır, bu da tələbələrə müxtəlif mədəniyyətlərdən olan ana dilində danışanlarla daha effektiv ünsiyyət qurmağa imkan verir. Dil biliklərinin artırılmasının başqa bir üstünlüyü yeni öyrənənlərin özünə inamını artırır və mədəniyyətlərarası səriştəni inkişaf etdirir.

Ümumiləşdirsək, dil öyrənmə proqramı strukturlaşdırılmış dərslər, interaktiv təcrübələr, mədəniyyət anlayışı və mədəniyyətlərarası ünsiyyət imkanları təklif edir. Bu da mədəniyyətlərarası səriştənin inkişafına mühüm töhfə verir.

İstifadə edilmiş ədəbiyyat

1. Robatjazi, M. A. (2008). Language education: Intercultural communicative competence and curriculum.
2. Sercu, L. (2005). Testing intercultural competence in a foreign language.
3. R. L. Wiseman and J. Koester, Intercultural communication competence.
4. Полат Е.С. Интернет на уроках иностранного языка № 2, 3. – 2001.
5. Wiseman, R. L. (2002). Intercultural communication competence.
6. Moosmüller, A. (1995). Learning objectives in intercultural competence

Key words: communicative competence, technology, interactive, online platforms, effective communication, intercultural communication

Ключевые слова: коммуникативная компетентность, технология, интерактивный, онлайн платформы, эффективное общение, межкультурное общение

New technologies in the development of intercultural competence as a language learning tool

Summary

This study delves into the dynamic relationship between emerging technologies and the cultivation of intercultural competence. Through a comprehensive review of current literature and empirical analysis, it is examined how innovative technologies, such as virtual reality, artificial intelligence, and online platforms, contribute to the enhancement of individuals' intercultural communication skills. The abstract highlights key findings regarding the effectiveness of these technologies in providing immersive cultural experiences, fostering cross-cultural understanding, and facilitating interactive learning environments. The implications of these advancements for educational and professional contexts are discussed, emphasizing the potential for technology-driven interventions to bridge cultural gaps and promote more inclusive global interactions.

Новые технологии в развитии межкультурной компетентности как средство изучения языка

Резюме

Это исследование углубляется в динамические отношения между новыми технологиями и развитием межкультурной компетентности. Посредством всестороннего обзора текущей литературы и эмпирического анализа рассматривается, как инновационные технологии, такие как виртуальная реальность, искусственный интеллект и онлайн-платформы, способствуют улучшению навыков межкультурного общения людей. В аннотации освещаются ключевые выводы относительно эффективности этих технологий в обеспечении захватывающего культурного опыта, содействии межкультурному пониманию и содействии созданию интерактивной среды обучения. Обсуждаются последствия этих достижений для образовательного и профессионального контекста, подчеркивая потенциальные возможности технологических мер по преодолению культурных разрывов и содействию более инклюзивному глобальному взаимодействию.

RƏYÇİ: dos. E.Vəliyeva

Arifə Tapdıq qızı Yusifova, Tamara Şərbət qızı Əlizadə [75]

AVROPA DİLLƏRİNDƏN AZƏRBAYCAN DİLİNƏTƏRCÜMƏDƏ ANTROPONİM VƏ TOPONİM SÖZLƏRİNTRANSLİTERASİYASI

Giriş. Tərcümə tarixi göstərir ki, insan adlarının və familiyaların, coğrafi adların, o cümlədən müxtəlif təşkilat, müəssisə, gəmi, kinoteatr və bir çox digər kateqoriyadan olan xüsusi adların bir dildən digərinə tərcümə edilməsi, daha dəqiq desək, verilməsi zərurəti mütəxəssislərin diqqətini çoxdan cəlb etmişdir. Müasir dünyada informasiya axınının günbəgün artması belə bir işə tələbatı da durmadan artırır. Şəxs adlarının və familiyaların, başqa sözlə, antroponimlərin bir dildən digərinə çevrilməsi bir sıra obyektiv və subyektiv səbəblərə görə çətinliklər törədir. Səbəblərdən biri insan amili ola bilər ki, bu da informasiyanın bir sənəddən digərinə natamam, qeyri-dürüst, yazılması, köçürülməsi və s. ola bilər. Digər səbəblərdən biri olaraq onu göstərmək olar ki, şəxs adlarının və familiyanın müxtəlif yazılış ənənəsi mövcud ola bilər. Bütün bunların nəticəsi olaraq, ilkin mənbədə olan informasiya, tanınmaz dərəcədə dəyişdirilərək və ya dəyişərək digər mənbələrə keçə bilər. Nəticə etibarilə, bir dildəki şəxs adları və familiyalar, yəni antroponimlər digər bir dildə tanınmaz dərəcədə təhrif edilə bilər. Bütün bunlar adların bir dildən digərinə tərcüməsi məsələsinin mühüm dərəcədə əhəmiyyətli olduğunu göstərir.

Əsas hissə. Antroponimlərin Avropa mənşəli dillərdən Azərbaycan dilinə keçirilməsi məsələsində müəyyən cəhətlər nəzərə alınmalıdır. Nəzərə alınmalı cəhətlər, məlum olduğu kimi, qarşılaşdırılan Avropa və Azərbaycan dillərinin strukturu ilə bağlıdır.

Bokmelder öz əsərində qeyd edir ki,Tərcümə prosesində şəxs adlarının başqa dildə verilməsi üçün istifadə edilən metodların heç biri ayrı-ayrılıqda həmin adların dilin daşıyıcılarıtərəfindən onların səslənməsinə maksimal şəkildə yaxın tələffüzünə imkan yaratmır.Buna görə də həmin metodlar ayrı-ayrılıqda xüsusi adların başqa dildə keyfiyyətli şəkildə verilməsində yararlı deyildir(1, s.123-134).

Bir sıra QərbiAvropa ölkələrində transkripsiya və ya transliterasiya sistemi ya tamamilə işlənməmiş, ya da işlənmiş olsa da, mübahisəli məsələləri hələ çoxdur. Belə ki, həmin dillərin istifadə etdiyi transkripsiya sistemlərində yalnız əsas uyğunluqlar göstərilmiş, lakin bir çox hərf və ya hərf birləşmələrinin düzgün verilməsi hələ də aydınlaşdırılmamış qalmışdır.

Bunun əsas səbəbi onunla izah olunur ki, Avropa dillərinin orfoqrafiyasının tarixi inkişafı orfoqrafiya ilə tələffüz arasında əhəmiyyətli dərəcədə fərqin meydana çıxmasına gətirib çıxarmışdır. Buna görə də çox zaman sözün oxunuşunun mümkün variantlarından hansının düzgun olduğunu müəyyənləşdirmək olmur. Məsələn, ingilis dilində **ou, ow** hərf birləşmələri (ou) diftonquna uyğun gəldikdə Azərbaycan dilində **ou** şəklində verilir, amma vurğulu hecada (au) diftonqunu ifadə etdikdə Azərbaycan dilində **au** şəklində verilə bilər. Belə hallarda adın iki mümkün oxu variantı ortaya çıxır.

Bundan əlavə, həm ingilis dilində, həm də Azərbaycan dilində müxtəlif şəkildə tələffüz edilənsait və samit səslər vardır. Transkripsiya zamanı çox vaxt uzunluq, qısalıq, yumşaqlıq, tonun yüksəkliyi və s. bu kimi mühim fonetik informasiya itir, digər dildə isə, əksinə tapmır. Yaxud səslər eyni şəkildə işarələndirilir. Məsələn (t) və (o) səsləri "t" hərfi ilə işarələndirilir. Eləcə də (u) və (w) səsləri Azərbaycan dilində "u" hərfi ilə verilir.

"Qərbi Avropa dillərində biri-birinin qarşılığı olmayan səslər vardır. İngilis dilində tələffüz variativ xarakterlidir. İngilis dili müxtəlif ölkələrin hər birinin özünün tələffüz normaları vardır. Latın qrafikalı əlifba sisteminə malik Azərbaycan dilində xas olan (x), (ğ), (g) və bu kimi səslərin ingilis dilindəverilməsi üçün vasitələrin olmadığı məlumdur. Başqa bir cəhət Azərbaycan dilində mövcud olmayan, amma ingilis dili üçün səciyyəvi və triftonq səslərlə bağlıdır. Bu və bunun kimi bir çox cəhətlər Azərbaycan dilinə edilən tərcümə əsərlərində nəzərə alınmalıdır. Avropa dillərindən Azərbaycan dilinə və əks istiqamətdə edilmiş bədii tərcümə əsərlərində şəxs adalrının, başqa sözlə, antroponimlərin və toponimlərin verilməsi yolları x.üsusi maraq doğurur"(2, s.245-257).

Tərcümədə xüsusi adların düzgün verilməsi istər ədəbi dil normalarına riayət etmək baxımından, istərsə də orijinalınruhunu əks etdirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Lakin bu zərurət çox vaxt tərcümələrdə nəzərə alınmır və nəticədə orijinalın ədəbi dil normasına, eləcə də xüsusi adların daşıdığı informativ məna yükünün çatdırılmasına xələl gətirilir.

Xüsusi adların mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, onlar dillərarası və mədəniyyətlərarası obyekt hesab oluna bilər. Buna görə də xüsusi adların bir dildən digərinə tərcüməsindən danışarkən, daha çox xüsusi adların başqa dildə verilməsindən söhbət gedə bilər. Xüsusi adların başqa dildə verilməsi, yuxarıda qeyd edildiyi kimi, mürəkkəb və çoxtərəfli problem olub, indi də diqqəti özünə cəlb edir. Bilmək lazımdır ki, bu problemin səbəblərinin böyük spektri vardır. Bunu dillərarası əlaqənin baş verməsində vasitəçi olaraq iştirak edən tərcüməçilərin, jurnalistlərin, şərhçilərin və digərlərinin biliklərində mövcud olan boşluqlarla əlaqələndirmək mümkün olduğu kimi, daha dərin səbəblərini dillərarası kommunikasiya hadisəsi kimi alınma prosesinə ümumilikdə xas olan xüsusiyyətlərlə bağlamaq mümkündür.

Müəlliflər qeyd edirlər: "Fransız dilinin ekvivalentsiz dil vahidlərindən sayılan şəxs adlarının Azərbaycan dilinə keçirilməsini bədii tərcümə əsərləri xüsusi maraqdoğurur. Yuxarıda qeyd etdiyimiz kimi, fransız dilində xüsusi adların Azərbaycan dilində verilməsinin iki əsas üsulu vardır ki, onlardan biri transkripsiya, digəri transliterasiyadır. Birinci üsul sözün səs formasından, ikinci üsul – onun hərf strukturunun başqa dildə verilməsidir. Əvvəlki vaxtlarda fransız,ingilis, habelə digər Avropa dillərin xüsusi adlarının Azərbaycan dilində verilməsində əsasən transliterasiyadan istifadə edilmişdir. Bəlkə də

[75] AzərbycanTibbUniversiteti"Azərbaycandili" kafedrasının başmüəllimləri atifatamara@mail.ru

hu səbəbdən xüsusi adların yalnız qrafik forması Azərbaycan dilində verilmiş, həmin adın fonetik məzmunu nəzərə alınmamışdır"(3, s.144).

Həmin dövrlərdə Azərbaycan dilinə tərcümələrin əksəriyyəti rus dilindən edildiyini nəzərə alsaq, rus dilində də həmin mənzərənin mövcud olduğunu təxmin etmək olar. Görünür ki, bunu nəzərə alan dilçi alim D.A.Bokmelder xüsusi adlarının rus dilində verilməsindən bəhs edərkən yazır: "XVI və XVIII əsrlərdə İngiltərənin tarixinə və mədəniyyətinə dair yazılmış oçerklərdə müasir oxucuya gülünc görünə bilən Nevton (Newton), Stevinq (Stewing), Qavkesburi (Hawkesbury) kimi ingilis familiyaları və coğrafi adlar tapmaq mükündür. Müasir dövrdə adın hərf deyil, səs formasının verilməsini nəzərdə tutan transkripsiyaya üstünlük verildiyi müşahidə edilir".

Müəlliflər öz əsərlərində yazırlar: "Xüsusi adların başqa dildə verilməsi zamanı, hər bir dildə olduğu kimi, Azərbaycan dilində də ümumi qaydalardan kənara çıxan müəyyən istisna hallar vardır. Ona görə də Avropa antroponimlərinin Azərbaycan dilində verilməsi məsələsində Azərbaycan dilinin fonetik və fenomatik imkanlarını nəzərə almaq lazımdır. Baxmayaraq ki, Avropa və Azərbaycan dillərində səslərin əksəriyyəti aydın şəkildə müqayisəyə gələndir, o aşkardır ki, qarşılaşdırılan dillərin fonetik sistemlərində xeyli dərəcədə fərqlər də vardır. Omlar saitlər və samit səslərdir ki, onların əsəsında müqayisə amilini nəzərə alırıq.İngilis antroponimlərinin və toponimlərinin tərkibində mövqeyindən asılı olaraq "a" (eı) hərfinin Azərbaycan dilində verilməsində müxtəliflik müşahidə olunur. İngilis dilinin oxu qaydalarına əsasən bu hərf qapalı hecada (ae) oxunur. Bu qaydaya antroponim və toponimlərdə də riayət olunur(4, s.356). Amma tərkibində həmin fonemin olduğuantroponim Azərbaycan dilinə tərcüməsində müxtəliflik özünü göstərir.

1.Tərcümədə **Axel** antroponimində söz önündəki "a" Azərbaycan dilində "a" ilə transliterasiya edilsə də, Sevda Abuzərlinin tərcüməsində bu troponimin digər komponetləri ənənəyə uyğun transliterasiya olunmamış, müasir dövrdə xüsusi adların tərcüməsində daha çox üstünlük verilən praktik transkripsiya qaydalarına görə trankripsiya olunmuşdur. Axel şəxs adı ingilis dilində (aeksəl) şəklində tələffüz olunur və Azərbaycan dilinə tələffüz edildiyi şəkildə çevrilmişdir. Orijinaldakı **Gunderson** familiyasının Azərbaycan dilinə edilmiş "Handerson" formasının haradan meydana çıxması izah oluna bilmir. Fikrimizcə, burada da tərcüməçi fikirləşmiş ola bilər ki, Gundersen rus dili variantı ola bilər, ona görə də sözün əvvəlindəki "g" hərfini "h" hərfi ilə əvəz etmişdir.

2.Bir sıra hallarda ingilis dilində tərkibində (ae) fonemi olan antroponim və troponimlər Azərbaycan dilində tələffüzdə olduğu kimi verilir, yəni "ə" ilə yazılır. Məsələn: The girl, whose name war Patsy Smith, wiped reddened eyes with a large linen handkerchief which Tanya had given her (A.Hayley) – Adı Pətsi Smit olan bu qız ağlamaqdan qızarmış gözlərini Tanyanın verdiyi böyük miləmil dəsmalla silirdi (Tərc.Z.Ağayev).

Avropa antroponimlərində və toponimlərində (ae) foneminin Azərbaycan dilində verilməsində müxtəlifliyin olmasının müəyyən səbəbləri vardır. İngilis dilində (ae) və Azərbaycan dilində (ə) fonemlərinin mövcud olması hələ o demək deyildir ki, onlar bir-biri ilə uyğunluq təşkil edir. Vaxtilə rus dili vasitəsilə edilən tərcümələrdə ingilis dilində tərkibində (ae) fonemi olan antroponimlərin və topinimlərin əksəriyyəti Azərbaycan dilinə "a" və "e" ilə transliterasiya edilmişdir. "Səmt küləkləri sürətlə irəliyə getməyimizə kömək etdiyindən, tezliklə Şərqi Hindistana istiqamət aldıq. Elə bu vaxt dəhşətli bir fırtına başladı. Tufan bizi Vandimen Torpağından şimal-qərbə apardı...".

Bu nümunə məşhur ingilis yazıçısı Conatan Sviftin "Quliverin səyahəti" əsərinin M.Rzaquluzadə tərəfinfən edilmiş tərcüməsidir. Nümunədə bizi maraqlandıran məqam "Vandimen Torpağı" birləşməsidir. Tərcüməçi əsərin sonunda həmin birləşməyə belə izah verir:

"Vandimen Torpağı" .. – Tasmaniya adasının keçmiş adıdır. Avstraliyanın cənub-şərqindədir".

Şübhəsiz ki, belə izah oxucuda Tasmaniya adası barədə müəyyən qədər fikir formalaşdırır, amma bu məlumat da tam deyil, "Vandimen" sözünün mahiyyətini açmır. Məlumdur ki, M.Rzaquluzadə əsəri rus dilindən tərcümə etmişdir. Rus dilindəki mətn belədir:

Burada oxucu daha geniş məlumat əldə edir. Amma mövzumuzla bağlı olaraq bizi maraqlandıran cəhət "Vandimen Torpağı" birləşməsindəki Vandimen sözüdür. İzahatdan görünür ki, Azərbaycan dilinə edilmiş tərcümədəki "Vandimen Torpağı" söz birləşməsinin qarşılığı olan "

Nəticə. Beləliklə, aşkar olur ki, ingilis dilində "Van Diemen's Land" rus dilinə "Вандименова Земля" şəklində verilmiş, oradan da Azərbaycan dilinə "Vandimen Torpağı" kimi tərcümə edilmişdir. İngilis dilindəki "Van Diemen" antroponimi rus dilinə Вандимен şəklində trnasliterasiya edilmişdir. Rus dilində xüsusi adların transliterasiya və praktik transkripsiya qaydalarına uyğun olaraq ingilis dilində tərkibində (ae) fonemi olan sözlər rus dilinə "a", "e" və ya "э" ilə transliterasiya edilmişdir. Энтони Ван-Димен ingilis dilindəki Anthony (aentəni), Van (vaen), Diemen (di:mən) şəxs adının rus dilinə transliterasiya formasıdır. Van Diemen rus dilinə translitersiya edilərkən ayrı deyil, defislə yazılış formasına (Ван-Димен) salınmış, eləcədə Diemen (di:mən) sözündə (ə) neytral səsi "e" hərfi ilə transliterasiya olunmuşdur. Azərbaycan dilinə həmin sözün, yəni Ван-Димен sözünün sifət forması (Вандименова) əsas götürülərək çevrilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Бокмельдер Д.А. О способах передачи английских собственных имён на русском языке.М.,1978.с.123-134.
2. Бугулов И.Н., Шевченко О.Ф. Особенности передачи слов-реалий в переводах англоязычной литературыразвивающихся стран.Теория и практика перевода . Вып. 12. Киев: Вища Школа, 1985. с.245-257
3. Введенская Л., Колесников Н. От собственных имён к нарицательным. М.:Просвещение, 1981, 144 с.
4. Гак В.Г., Львин Ю.И. Курс перевода: Французский язык. М.: Междунар. Отношения, 1980, 356, с.

Açar sözlər: antroponimiya, toponomiya,tərcümə,inkişaf, Azərbaycan dili

Key words: anthroponymy, toponomy, translation, development, Azerbaijani language

Ключевые слова: антропонимия, топономия, перевод, развитие, азербайджанский язык

Резюме

В вопросе перевода антропонимов с английского на азербайджанский следует учитывать некоторые аспекты. Аспекты, которые следует учитывать, как известно, связаны со структурой английского и азербайджанского языков. Ни один из методов, используемых для присвоения личных имен на другом языке в процессе перевода, не позволяет произношения этих имен носителями. языка быть максимально приближенными к их произношению.

Summary

In the question of translation of anthroponyms from English to Azerbaijani, some aspects should be taken into account. Aspects that should be taken into account, as you know, are related to the structure of the English and Azerbaijani languages. None of the methods used for assigning personal names in another language during the translation process allow pronunciation of these names by native speakers. language to be as close as possible to their pronunciation.

Rəyçi: filologiya elmləri doktoru,prof. Yusif Süleymanov

Mehmet Özeren[76], Gülbahar Bulut [77]

KAZAK DESTANLARINDA KUTSAL HAYVANLAR

1. Giriş: Eski Türk inanışlarında kanatlı, kanatsız, hayalî, gerçek birçok hayvanın belli dönemlerde kutsal sayıldığı ve hayatlarının neredeyse her yerinde bu hayvanlara yer verildiği, hatta bazılarının simgeleştirildiği görülmektedir. Bu durum insanoğlunun erişemediği ama özlemini duyduğu şeylerin (güç, ölümsüzlük vb.) kültürel hayattaki yansıması olarak görülmelidir [1; 3139]. İncelenen destanlarda inanışlara kaynaklık eden bazı hayvanlara şu şekilde yer verilmiştir:

2. Kutsal Hayvanlar

2.1. Arıstan "Aslan"

Türk kültüründe aslanın cesareti ve kuvveti temsil ettiğine inanılmaktadır. Bazı efsanelerde Türklerin atasının aslan olduğu ve aslandan türediğine inanılırken, bazı destanlarda ise aslan eti yemenin çocuksuzluktan kurtulup, hamile kalmayı sağlayacağına inanılmaktadır. Aslanlar hakkında destanlarda bu gibi birçok inanış bulunmaktadır. Aslan Türk inancında hem korkulan hem kutsanan bir hayvan olarak yerini almış ve aynı zamanda güçlü kuvvetli savaşçılara aslan benzetmesi yapılmıştır [2; 258-259]. İncelenen destanlardaki 'arıstan' unsurunun genel olarak sevilen bir insana benzetme yapılması adına kullanıldığı gözlemlenmiştir. İncelenen destanlardaki unsur şu şekilde görülmektedir:

K.T

Jılqışı küğnde bir tuv biyeni alıp barıp, tavdıñ basına baylap qoyadı eken. Bir kün baylanğan biyeni arıstan jemey qoyıptı. Atam buñar kelip aytıptı: "Ay arıstan, bu seña halal-dur, ne sebepten asamadıñız?"

T.T

Yılkı çobanı hergün bir kısrak getirir, onu bağlayıp dağın tepesine bırakıp gidermiş. Bir gün bağlı bırakılan kısrağı aslan yememiş. Babam ona gelip demiş: "Ey aslan, bu mal size helaldir; niçin yemediniz?' [3; 196].

K.T

Añşıbayday arıstan,
Söyle endi sen dedi.

T.T

Anşıbay gibi aslan,
Konuş, artık sen, dedi [4; 28-29].

K.T

Añşıbay degen arıstan,
Ol da noğay balası.

T.T

Anşıbay denilen aslan,
O da Nogay çocuğu [4; 38-39].

2.2. At

Göçebe yaşam ile Türklerin hayatında yer eden atlar, insanların hayatını fazlasıyla kolaylaştırmış ve Türk kültüründe kahramanın yoldaşı olarak kabul görmüştür. At her zaman iyiyi, talihi anımsatmış ve muradın gerçekleşeceğine yorulmuştur. Eski Türk inanışlarında at hiçbir zaman kahramandan ayrı tutulmamıştır. Öyle ki ölen insanların atlarıyla birlikte gömülmesinden de bu durum anlaşılmaktadır [6; 163-164]. Atlar herzaman Türk toplumlarında büyük yere sahip olan hayvanlardır. At yoldaş olarak görülmüş ve hayat arkadaşı gibi bir ömür Türk toplumlarında varlığını sürdürmüştür. İncelenen destanlarda motifin 'tulpar, jılkı, kuvlık' gibi farklı at çeşitleri olarak kullanımı dikkat çekmektedir. Ayrıca "Minip bir alsan bul atqa, Mingendeysiñ pıraqqa13" örneğinde Hz. Muhammed'in miraç gecesinde bindiği attan (Burak) bahsedilmesi İslamiyet'in etkilerini gözler önüne sermektedir. İncelenen unsur şu şekildedir:

K.T

Tulparlardı baylañdar
Kök savıttı kiyiñder
At quyrığın tüyiñder.

T.T

Tulparları14 (tutup) bağlayınız,
Gök zırhları giyiniz,
Atların kuyruklarını bağlayınız [4; 40-41].

K.T

Bar jılkısını köreyin,
Tulparın tañdap bereyin.

[76] Doç. Dr., Fırat Üniversitesi, İnsani ve Sosyal Bilimler Fakültesi, Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü, Elazığ, mehmetozeren@firat.edu.tr, orcid.org/0000-0003-4386-8312

[77] Uzman, Orcid ID:0000-0002-9832-3320

T.T
Ne kadar yılkısı var, göreyim,
Küheylanlarını seçip vereyim [4; 40-41].
K.T
Eki suluv jarına,
Tulpardıñ jalın tarattı.
T.T
İki güzel yârine,
Küheylanın yelesini tarattı [4; 42-43].
K.T
Oñğarsa alla sapardı,
Muradıma jetemin.
Astında mingen ķara at bar,
Januvarda ķanat bar.
T.T
Hayırlı ederse Allah seferimi,
Muradıma ereceğim,
Altında bindiği kara at var,
Hayvanda kanat var [4; 42-43].
K.T
Uşķan ķustan kem emes,
Eş tulparga teñ emes,
Minip bir alsan bul atķa
Mingendeysiñ pıraķķa.
T.T
Uçan kuştan aşağı değil,
Hiçbir küheylan ona denk değil,
Bir bindin mi bu küheylana,
Binmiş gibi oluyorsun Burak'a [4; 52-53].
K.T
Ķuvlıķtan tuvġan ķulaşa
At boların bilmedim.
T.T
Kuvlıktan15 doğmuş kulacanın
At olacağını bilmiyordum [4; 156-157].
K.T
Ķula şubar at mindi,
Kuz saġızday sozılġan,
At ķuyrığın şart tüydi.
T.T
Kula şubar atına atladı.
Dağ sakızı gibi uzayıp giden,
Atının kuyruğunu bağladı [4; 88-89].

2.3. Aydahar "Ejderha"

Güçlü, kuvvetli ve ruhsal güçlere sahip olduğuna inanılan, genellikle kötülüğü anımsatan ve sürüngenimsi bir hayvan olduğu bilinen ejderha, dünya genelinde Çin mitolojisine ait olarak kabul edilse de Türk mitolojisinde de gözlemlenmiş bir hayvandır. Türk mitolojisinde ejderhalar hakkında iyi ve kötü birçok görüş vardır. Ejderhaların kötü yaratıklar olduklarına inananlar olduğu gibi bereket, güç huzur kaynağı olduğuna inananlarda olmuştur. Yeraltında yaşarken bahar aylarında yeryüzüne çıkarak, gökyüzüne uçup yağmur yağmasını sağladıklarına inananlar olduğu gibi insan eti yiyen yaratıklar olduklarına inananlarda olmuştur [5; 74]. Görüldüğü üzere ejderhalar hakkında birçok görüş bulunmaktadır. İncelenen Kazak destanlarında ejderha unsuru 'ajdaha ve aydahar' kullanımıyla şu şekilde yer edinmiştir:

K.T
Sorsa emşek tartadı,
Aydaharday lebine.
T.T
Emdiği zaman çeker göğsü,
Ejderhanın nefesi gibi nefes [3; 61].
K.T
Aydahardıñ tilindey,

Tolgan aldı nayzasın.
T.T
Ejderhanın dili gibi,
Sallayıp bir aldı mızrağını [3; 89].
K.T
Şartanabın tartadı,
Aydaharday lepine.
T.T
Dört taraftaki her şey uçuşuyor,
Ejderhanınkine benzeyen nefesiyle [3; 92].
K.T
Aydahardıñ tilindey,
Ķaķ jürekten tiyedi.
T.T
Ejderha dili gibi,
Tam kalbe saplanır [3; 128].
K.T
Ķanjarmenen ķarmastı,
Aydaharday arbastı.
T.T
Hançer vuruştular,
Ejderha gibi dövüştüler [3; 140].
K.T
Aydaharday ısķırıp,
Esimdi tarttı demine.
T.T
Ejderha gibi ıslık çalarak,
Esim'i çekti nefesiyle [3; 177].
K.T
Közin salıp ķaradı,
Aydaharday aķırıp.
T.T
Gözlerini dikip baktı,
Ejderha gibi bağırıp [3; 190].
K.T
Er Şoranıñ aruvağı,
Ajdaha bolıp jutadı.
T.T
Şora'nın ata ruhları,
Ejderha olup yutar [3; 206].
K.T
Baba Tükti pirleri,
Aydahar bolıp körindi.
T.T
(Yiğitlerin) Baba tükti pirleri,
Ejderha kalığında göründü [4; 108-109].
K.T
Javdıñ beti ķaytķan soñ,
Ketti aydahar joķ bolıp.
T.T
Düşmanı geri püskürttükten sonra,
Gitti ejderha aniden kaybolup [4; 110-111].
K.T
Aydaharday boldı mas,
Saķtaġan altın inine,
T.T
Ejderha gibi mest olmuş,
Saklamış altın inine [4; 175].
K.T

Aydaharday ısķırıp,
Netine jaydı zaharın.
T.T
Ejderha gibi ıslık çalıp,
Yüzüne yayıldı zehri [4; 204].

2.4. Böri/ Ķasķır "Kurt"

Türk insanı özellikleri açısından daima kurda benzetilmiştir. Kurdun yeri Türk mitolojisinde her zaman ayrı sayılmaktadır. Kurt her zaman kahramanın yanında yol göstericisi olarak bulunmakla birlikte Türklerin kurttan türediğine inanıldığı da bilinmektedir [6; 173-174]. "Kurt, Türk mitolojisinde genel anlamıyla Tanrı'nın elçisi, toplumun önderi, kurtarıcısı, yol göstericisidir. Somut bir varlık olan kurt, Türk milletinin sembolü haline gelmiş ve Türk insanının özellikleriyle kurdun özellikleri bir tutulmuştur." [6; 175]. İncelenen destanlarda 'ķasķır ve böri' kulanımı ile dikkat çeken kurt unsuru şu şekildedir:

K.T
Aş ķasķırday arķırap,
Añşıbayġa ķaray emindi.
T.T
Aç kurt gibi uluyarak,
Anşıbay'ın üzerine yürüdü [4; 64-65].
K.T
Ķasķırday keyde ulıydı,
Ķaşırmaķ bolıp üreydi.
T.T
Bazen kurt gibi uluyor,
Korkutmak isteyip insanı [4; 68-69].
K.T
Men ölgenmen artımda,
Arlan ķasķır börim bar.
T.T
Ben ölsem de arkamda,
Arlan16 bir kurt olan yavrum var [4; 72-73].
K.T
Bir jartasķa ķamalıp,
Böriler korkıp ulıdı.
T.T
Kayalar arasında kalıp sıkışıp,
Kurtlar korkup uludu [4; 183].
K.T
Azuvlı arlan börime
Jegizemin kuyrığın.
T.T
Azılı erkek kurduma
Kuyruğunu yedireceğim [4; 199].
K.T
Böri körgen laķtay,
Kelmembet korkıp sasadı.
T.T
Kurt görmüş oğlak gibi,
Kermembet korkuya kapıldı [4; 219].

2.5. Bürķit "Kartal"

Türk inanışlarında kutsal varlıklar olarak kabul gören kuşlar, Göktanrı'nın habercileri olan uğurlu varlıklar olarak görülmüşlerdir. Aynı zamanda iyi insanların ruhları kuşa benzetilmiş, öldükleri zaman 'kuş misali cennete uçtu' tabiri kullanılmıştır [2; 258-289]. Kartal Türk mitolojisinde Gök tanrı'nın yüzü olarak kabul edilmekte ve aynı zamanda hayat ağacının üstüne konan kuş olarak bilinmektedir. Türkler için büyük öneme sahip olan kamların atasının da bir kartal yumurtasından çıktığına inanılmaktadır [2; 290-291]. Görüldüğü üzere kartallar Türk kültüründe birçok inanışa konuk olmuşlardır. Kartalın kutsal sayılan birçok unsurla bağdaştırılması bu hayvana verilen önemi gözler önüne sermektedir. İncelenen Kazak destanlarındaki kartal unsuru ise 'bürkit' olarak şu şekilde kullanılmıştır:

K.T
Bürķittey jazıp şeñgelin,
Ķalmaķķa dayar urıstı.

T.T
Kartal gibi çıkarıp pençelerini,
Çıkarmaya hazır savaşı [4; 212].
K.T
Şabıtı ķandı bürkittey,
Şanķıldap davsın şığarıp.
T.T
Kartala has bir edayla
Yüksek sesle bağırıp [4; 219].
K.T
" Sur bürkittey tüyilip
Şıyratasıñ murtıñdı.
T.T
" Gök kartal gibi yüksekten süzülüp,
Bıyıklarını burarsın [4; 225].

3. Sonuç

Kazak Türklerinin yaşamında önemli yeri olan hayvanların, tehlikeli ve yırtıcı hayvanlara yaklaşamamanın getirdiği korku ve bu korkunun beraberinde kutsallığın atfedildiği hayvanların Kazak destanlarında genişçe yer aldığı görülmüştür.

Kaynaklar

1. Anarbekova, V. E., Dyikanova, S. A., Toktorbekova, N. A. vd. (2023). Analysis on historical meaning of lament songs in field materials.Journal of Namibian Studies, 33 (2023).
2. Özdemir, Ö. (2020). Kazak Türklerinin Destanlarında Mitolojik Unsurlar. (Yayımlanmamış Doktora Tezi). Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü, Kayseri.
3. Kallimci, İ. T.(2010). Kazak Destanları 5 "Şora Batır". (haz. Bolat Korgonbekov). Ankara: Türk Dil Kurumu Yayınları.
4. Arıkan, M. ve Türkmen, F. (2011). Kazak Destanları 8 "Alpamış ve Kambar Batır". Ankara: Türk Dil Kurumu Yayınları.
5. Yardımcı, M. (2021). Türk Halk Edebiyatında Nesir ve Nazım Nesir Karışık türler. İzmir: Kanyılmaz
6. Çetindağ Süme, G. (2019). Alıp Manaşın Sembolik Serüveni "Alıp Manaş Destanı'nın Altay Varyantı". İstanbul: Kesit Yayınları.
Yayınları.

Özet

Kazak destanları, Kazak Türklerinin kültürü ile ilgili birçok bilgi veren anlatı türlerindendir. Bu çalışmada da Kazak destanlarındaki kutsallaştırılan hayvanlar ve bunlarla ilgili inanışlara yer verilecektir.

Anahtar Kelimeler: Kazak destanları, Kutsal Hayvanlar, İnanış.

SACRED ANIMALS IN KAZAKH EPICS

Abstract

Kazakh epics are narrative genres that provide a lot of information about the culture of Kazakh Turks. In this study, the animals sanctified in Kazakh epics and the beliefs related to them will be included.

Keywords: Kazakh epics, Sacred Animals, Belief

RƏYÇİ: dos. S.Abbasova

İradə Zahir qızı Vəliyeva, Kəmalə Sabir qızı Hüseynova [78]

İNGİLİS DİLİNİN KANADA VARİANTININ ONOMASTİKASINDA ALINMA SÖZLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Giriş. İngilis dilinin Kanada variantının formalaşması uzun və mürəkkəb bir yol keçmişdir. İlk avropalılar ölkə ərazilərində məskunlaşmazdan əvvəl, burada müxtəlif dillərdə danışan tayfalar yaşayırdılar. Daha sonralar məhz bu **hindu dili** Kanada variantının leksikasının mənbələrindən biri oldu. Kanada ingiliscəsində ən əhəmiyyətli yeri başqa dillərdən alınma sözlər tutur. Biz bu məqalədə ingilis dilinin Kanada variantına başqa dillərdən alınan sözləri nəzərdən keçirəcəyik.

"İngilis dilinin Kanada variantında hindu mənşəli xeyli yer adları vardır. "Kanadizmlər lüğəti"ndəki məlumata görə ölkənin adı olan Kanada da hindu mənşəli addır. Lakin bu ad birbaşa hindulardan deyil, fransız dili vasitəsilə alınmışdır. Lüğətin məlumatına agörə Kanada **irokez** hindularının dilindəki "kənd", "camata" sözündəndir" (1, s. 34-42).

Əsas hissə. Ölkənin bir çox başqa yer adları da hindu mənşəlidir. Avropalılar gəlməmişdən əvvəl mövcud olmuş hindu adlarının bir hissəsi azacıq fonetik dəyişməyə məruz qalsa da, bəziləri isə dəyişməz qalmışdır. Onların bir qismini nəzərdən keçirək:

Saskatchewan – vilayət adı olub eyni adlı çaydan törəmişdir, bu ərazidə yaşayan **Kree** adlı tayfa həmin çayı ***kisiskatch ewani sipi*** – *iti axan çay* adlandırırdı.

Manitoda – Kree tayfasının dilindəki manitobau sözündəndir. Mənası *ruhların körfəzi* deməkdir. Bu, çayın gurultulu səsi ilə bağlı olmuşdur. Kree tayfasının inamına görə, çayın gurultusu, ruhların baraban çalması ilə bağlıdır.

Ontarion – Huron adlı hindu tayfasına məxsusdur. Güman edildiyinə görə həmin tayfanın dilindəki gözəl göl mənalı **ontario**n və yaxud parıldayan və ya gözəl su mənalı **kandario**n sözündəndir.

Quebec – yerli tayfa bu adı Kebek şəklində bu şəhərin yerləşdiyi əraziyə aid etmişlər. Mənası Alqonguin hindularının dilində ensiz keçid və yaxud körfəzdir. Cape Diamond ətrafında oradan keçən çayın ensizləşməsi ilə əlaqədar yaranmışdır.

Yukon – əvvəlcə çay adını bildirmişdir. Loucheux hindularının dilindəki *Lo Yukun – böyük çay* sözündəndir.

Nunavit – əvvəlcə ərazinin adını ifadə etmişdir. İnuktitut hindularının dilində bizim torpaq mənasını bildirir.

M.Barnder öz məqaləsində yazır: "Bir sıra Kanada şəhərlərinin adları yerli tayfaların adından törəmişdir.

Chiliwack (Britich Columbia) – yerli xalqın (chihi-kway uhk) adındandır. Güman edildiyinə görə onun mənası yuxarıya doğru geri qayıdandır. Bu ad Fraser Piver çayının mənsəbinə köçmüş adamların geriyə evlərinə döndüyünü göstərir.

Ottawa – bu ad alqonyuin hindularının dilindəki *adawe – ticarət etmək* sözündəndir. Bu ad çay üzərində ticarətə nəzarət edən xalqa verilmiş addır.

Toronto – güman edildiyinə görə, "görüş yeri" mənasında işlənmiş Huron hindularının sözündən əmələ gəlmişdir. Yerli xalq ticarət aparmaq və ov etmək üçün bu yerə yığışarmışlar" (2, s. 88-96)

Chibougamau – Kree tayfasının dilində çayın daraldığı yer mənasında işlənən sözdəndir.

Chicoutimi – montagnais mənşəli bu ad shkoutimeou sözündəndir. Onun mənası dərin suyun sonudur.

Gaspe – güman olunduğuna görə, Markmaq tayfasının dilindəndir. Son və ya üç mənasında işlənib onların ərazisinin şimal hüdudunu bildirmişdir.

Listiguj – mikmaq dilindəki lustagooch sözündəndir. Onun təxmini mənası beş qollu çaydır.

Rimouski – bu, mikmaq və yaxud maliseet tayfasının dilindən olub moose torpağı deməkdir. Güman edildiyinə görə, bu ərazinin ov yeri olduğu ilə əlaqədardır.

Oromocto – Maliset hindu tayfasının dilindəki welamooktook "yaxşı çay" sözündən əmələ gəlmişdir.

Baddeck – güman edildiyinə görə, Mikmaq tayfasının dilindəki petekook arxadakı torpaq" sözündəndir.

Musyuodobit – Mikmaq tayfasının dilindəki mooskudobooywek sözündən olduğu güman edilir.

Shuöenacadie – Mikmaq mənşəli sequbunakaolik *kartof bitən yer* sözündəndir.

Tiktoyaktuk – İnuit tayfasının dilindəki tuktu *caribou maralı* və yaktuk oxşayır sözlərindəndir. Sözün ümumi mənası *caribou*-ya oxşayan maraldır.

Pangnirtung – inuktitut tayfasının dilindəki *caribou maralının yeri* sözündən yaranmışdır.

"Eskimos dilindəki ingilis dilinin Amerika və Kanada variantına daxil olmuş bu söz heyvan dərisindən hazırlanmış böyük qayığı bildirir. Kanada variantında bu söz comiak şəklində işlənir. İngilis dilinin Kanada variantlarına daxil olmuş *kayak – yüngül qayıq* da eskimos dilindən alınmışdır" (3, s. 123-128).

Region əhalisinin tarixi məşğuliyyətindən bəhs edən mənbələrdə **comiak** və **kayak** haqqında məlumat verilir: *A considerable amount of evidence of transitory historic occupation was found in the area: tent rings, a variety of foxz traps and meat cache markers and kayak rests.The comiaks were made of walrus or bearded sealskins and they also had sealskin kayaks.* Eskimos dilindən alınmış ***attigi*** sözü içərisi dəridən olan köynək mənasında işlənir. Yenə də həmin dildən alınmış *kuletuk* sözü dəridən düzəldilmiş *jaket* mənasında işlənir. Eskimos dilindən alınmış ***parka*** sözü də dəridən hazırlanmış geyim növünü bildirir: *His weatherbeaten face was thu color of old sealskin, but his tagged attigi couldin't disguise his blue eyes.The hood of his yellow parka was rimmed wite blue-white frost.*

[78] Azərbaycan Texniki Universiteti "Xarici dillər" kafedrasının baş müəllimləri

Xizək mənasında işlənən *komatik* və *toboggan* sözləri də eskimos dilindən alınmışdır. Onların fərqi ondadır ki, komatik əl ilə dartılan xizəkdir, *toboggan* isə itlər tərəfindən dartılır: *The dog sled, or komatik, has replaced the bycicle for Northern cubs. They shipped me the mountain in a toboggan.*

"Hindu dilindən alınma sözlərin bəziləri kalka yolu ilə daxil olmuşdur. Məsələn, ABŞ vətəndaşını ifadə edən **Long Knife** şindu mənşəli alqonkinlərin dilindəki eyni mənalı *keechchi* sözündəndir. Onun mənası *böyük, uzun bıçaq*dır. Bu alınmaların bəziləri ingilis dilində semantik inkişafa məruz qalaraq, törəmə mənalarda işlənməkdədir. Misal üçün, eskimos dilindən ingilis dilinin Kanada və Amerika variantlarına daxil olmuş **kayak** yalnız yüngül qayıq mənasında işlənməyib. Kayak yarışı mənasında da işlənir: kayak marathon" (4, s. 36).

Toboggan ismində konvensiya yolu ilə ingilis dilində **to toboggan – xizəkdə sürüşmək** feili əmələ gəlir və onun iştirakı ilə mürəkkəb söz yaranır: *toboggan – slide – tobogganla sürüşmək üçün dağ.*

Toboggan feil funksiyasında frazeoloji ifadə kimi də rastlanır (*qiymətin kəsikin olaraq düşməsi*): *prices tobogganed – qiymətlər kəskin düşmüşdür*.

Aborigen dillərindən ingilis dilinə daxil olmuş bir çox başqa sözlərin də fonetik və semantik assimilyasiyaya məruz qalması halları geniş müşahidə olunur.

Beləliklə, ingilis dilinin Kanada variantındakı hindu mənşəli sözlər ölkənin yerli əhalisi olan hinduların adət və ənənələrini, məişətini, təbiətini, bitki və heyvanat aləmini əks etdirir.Müasir kanadalılar bir çox irq və millətləri özündə birləşdirən bir xalqdır. Onların arasında avropalılar, yerli hindular və eskimoslar vardır. Avropa mənşəli kanadalılar dilinə görə iki əsas qrupa bölünür: ingilisdilli və farnsızdilli kanadalılar. "Kanadada ingilis dilinin tarixi XVIII əsrdən başlayır. İngilis dilinin Kanada varniantı daha çox Amernika variantına yaxındır ki, bu da kanadalıların ABŞ mətbuat, radio və televiziyasından daim istifadə etmələri və əhalinin sıx qarşılıqlı əlaqələri ilə bağlı olmuşdur. Lakin bununla belə ingilis dilinin Kanada variantının bir qrup özünəməxsus xüsusiyyətləri də vardır. Bu xüsusiyyətlər Kanada variantında ölkənin özünəməxsus heyvanat və bitki aləmi ilə bağlı xeyli sözlərin olması, Kanadaya gəlmiş immiqrantların ana dillərinə məxsus sözlərin Kanada ingiliscəsinə daxil olması, yerli hindu və eskimos dillərindən alınmış sözlər ilə bağlıdır" (5, s. 55-62). İngilis dilinin Kanada variantına məxsus fərqli xüsusiyyətləri U.Alvis, G.Allekn, G.Stori, D.Homilton, K.Din və başqa tədqiqatçıların əsərlərində əks olunur. Onların tədqiqatlarında əsil kanadizmlər, yəni yalnız Kanada variantında işlənən sözlər Kanada mənşəli olub, həmçinin ingilis dilinin başqa variantlarına da daxil olmuş sözlər və s. qrup sözlər fərqləndirilir. Həmin tədqiqatlarda həmçinin ingilis dilinin Kanada variantına başqa dillərdən alınmış sözlər də müxtəlif həcmdə təsvir olunmuşdur.

Alınma sözlərin Kanada variantına daxil olmasının iki əsas mənbəyindən biri yerli hindu və eskimosların dilləri, digəri isə neçə yüz illər ərzində Avropadan gəlmə immiqrantların ana dilləri idi. Bundan başqa, alınma sözlər həm Kanada ingiliscəsinin lüğət tərkibinə daxil olmuş, həm də ölkənin onomastikasında öz əksini tapmışdır. Alınma sözlərin böyük bir qrupu fransız mənşəlidir. Bu onunla əlaqədardır ki, Kanada əhalisinin bir hissəsini Kvebek vilayətində məskunlaşmış faransızdilli əhali təşkil edir. Kanada variantında daxil olmuş fransız dillərin çoxu e (ee) şəkilçiləri ilə bitir: *brule – yanmış meşə; saqamite – ət və ya balıqlı bulyon və ya sup* və s.Bəzən fransız sözləri Kanada ingiliscəsində fonetik assimilyasiyaya məruz qalmışdır. Assimilyasiyaya uğramış sözlərin arasında **euse** şəkilçisi ilə bitən sözlər də vardır. Məsələn, fameuse – payızın sonunda yetişən alma iki cür tələffüz olunur [fəmu:z], [fəmə:z]. İngilis dilinin Kanada variantında **ey** şəkilçisi ilə bitən sözlər də assimilyasiyaya məruz qalmışdır. **Eu** hərf birləşməsi Kanada variantında [u:] kimi tələffüz olunur. Məsələn: Kvebek konservative partiyası ilə bağlı olan **bleu** sözü [blu:] tələffüz olunur. Bəzən fransız alınma sözlərinin fonetik assimilyasiyası özünü vurğuda da göstərir. Misal üçün, vurğusu son hecada olan **barbate** sözü Kanada ingiliscəsində belə assimilyasiyaya məruz qalır: vurgu ingilis dilində olduğu kimi birinci hecaya düşür.

Guignolee sözü fransız dilində bu mənalarla işlənir: *petruşka, kukla teatrı* və s.

İngilis dilində vurğu dəyişməsi ilə **guignolee** gənclərin şən görünüşlü paltar geyinib mahnı oxuya-oxuya gəzinmək adətini bildirir. Bundan başqa, Dil Nümunələri Proyekti (The Language Samples Project) Kanada İngiliscəsində, bir qayda olaraq (ae) səsi ilə tələffüz olunan alınma sözlərin siyahısını təşkil etmişdir. Belə sözlərə , Natasha, Tania, pecan, Fiat, Mazda, Lada, bravo, saga, və s. sözləri misal göstərmək olar. Lakin, Bach, Luatemala Kamikaze, karate, garbanzo kimi sözlər [a] səsi ilə tələffüz olunur. Bu sözlərdə [a] əvəzinə ae səsini işlətmək daha əlverişlidir. Onlar yeni alınma sözlərlə qarşılaşdırdıqda onları [ae] səsi ilə tələffüz etməyə davam edirlər. İngilis dili Kanada variantındakı yad mənşəli sözlərin bir qrupu coğrayi adlarda əks olunur. Ölkədə böyük sayda fransız və aborigen mənşəli yer adları da vardır. Kanada İngilis dilinin bu xüsusiyyəti belə bir hipoteza yaradır. Çarles Boberq yuxarıda qeyd olunan mənbəyə nəzərən düşünmür. Bunun səbəbi sadəcə bir şey ola bilər ki, Kanada İngilis dili bu sözlərin tələffüzünün əsası kimi onların əlyazmasından istifadə edir. Kanada və Amerika sait sistemində mövcud fərqli konfiqyrasiyalar bu sualın cavabı ola bilər. Belə ki, Şimal şəhərlərində Sait Dəyişməsi və Kanada Sait dəyişməsi [ae] səsinin tələffüzü fərqli istiqamətdə aparırlar.Nəticədə stock sözünün amerikan tələffüzünü ilə stack sözünün kanada tələffüzü, demək ki, eynidir. Yəni, amerikan [a] saiti ilə kanada [ae] saiti eyni səslərdir. İngilis dili Kanada variantına daxil olmuş fransız və aborigen mənşəli sözlər mənaca rəngarəngdir. Onlar ölkə həyatının müxtəlif sahələrinə aiddir. Bu sözlər aborigenlərin maddi və mənəvi mədəniyyətini əks etdirir. Kanadada İngilis və ya Fransız dilini öyrənmək üçün ən yaxşı məktəb axtarırsınızsa, doğru yerdəsiniz.

Nəticə. Beləliklə, ingilis dili Kanada variantının onomastikasının formalaşmasında bu kimi amilərin rolu böyük olmuşdur. Məqsədlərinizdən asılı olmayaraq hədəflərinizə çatmağınıza kömək edəcəyik. Hədəfiniz ümumi, akademik, iş və ya imtahan məqsədləri üçün İngilis və ya Fransız dilini öyrənmək olsun, oraya getməyinizə kömək edəcəyik. Fərqli rejimlərdə bütün səviyyələr üçün çox sayda

kurslarımız var. Bir başlanğıc və ya müəyyən bir sahədə dil bacarıqlarını mükəmməlləşdirmək istəyən bir tələbə olmağınızdan asılı olmayaraq, müəllimlərimiz bu öyrənmə macərası ilə sizi dəstəkləyəcəklər.

İstifadə edilmiş ədəbiyyat

1. **Baugh A.A. History of the English language**, London, 1959, p. 34-42.
2. Barnder M. The Englishhing of French Words. Oxsford, 1921, p. 88-96.
3. Brook G. History of the English language. New-Jerse, 1957, p. 123-128.
4. Арнольд И.В. Лексикология современногоо английского языка. М., 1955. стр: 36.
5. Смирницкий А.И. Лексикология английского языка. М., 1956, с. 55-62.

Açar sözlər: onamastika, leksik-semantik, İngilis dili, inkişaf, varyant

Key words: onamastics, lexical-semantic, English, development, variant

Ключевые слова: онамастика, лексико-семантический, английский язык, развитие, вариант

İngilis dilinin Kanada variantının onomastikasında alınma sözlərin leksik-semantik xüsusiyyətləri

Summary

The article is about the loan words used in onomastics of Canada. These words are noted and given brief information about each of them in the article. Canadian English has appeared on a number of factors. Canadian English was first determined by a number of immigrants settled from the northern part of the United States. Because of the geographical proximity of the two countries and the influence on each others histories, economic systcms, international policies and television media Canadian English continus to be formulated by American English.

Лексико-семантические особенности слов, полученных в ономастике английского варианта Канады

Резюме

В статье речь идет о заимствованных словах, используемых в ономастике Канады. Эти слова отмечены и даны краткие сведения о каждом из них в статье. Канадский английский появился по ряду причин. Канадский английский был впервые определен рядом иммигрантов, поселившихся из северной части Соединенных Штатов. Из-за географической близости двух стран и влияния друг на друга истории, экономических систем, международной политики и телевизионных СМИ канадский английский продолжает формироваться американским английским языком.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Gülarə Teymurova

Şəfiqə Qurban qızı Heydərova, Sevinc Əli qızı Hacıyeva [79]

MÜASİR İNGİLİS DİLİNDƏ KƏMİYYƏT KATEQORİYASININ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Giriş. *Müqayisəli dilçiliyin əsas məqsədi və vəzifəsi çox yayılmış dillərdə, müxtəlif millətlərin ayrı-ayrı dillərində ümumbəşəri dilin bəzi hissələrinin işlədilməsini müşahidə və müqayisə etməkdən ibarət olmalıdır. Qrammatik formalar müxtəlif dillərdə müxtəlif şəkildə təzahür edir. Belə olan halda bu formalara xas olan xüsusi keyfiyyətləri ayrı-ayrı dillərdə olan fərqli qrammatik formalarla müqayisə etmək olar. Dilçilikdə dilin mkişaf tarixinə və müasir vəziyyətinə dair yazılmış əsərlərə nəzər saldıqda açıq şəkildə görürük ki, kəmiyyət kateqoriyası morfoloji xüsusiyyətlərinə görə digər kateqoriyalardan fərqlənir, yəni bu kateqoriyada təklik və cəmlik, topluluq və qeyri-müəyyənlik çoxluq kimi anlayışlar vardır. Ümumiyyətlə, dildə kəmiyyət kateqoriyası çox mürəkkəb bir kateqoriyadır. Kəmiyyət kateqoriyası yalnız isimlərə aid deyil, eyni zamanda digər nitq hissələrinə də (sifət, say, əvəzlik, feil) aiddir.*

Avropa dillərində, türk dillərində və o cümlədən Azərbaycan dilində də nitq hissələrinə aid iki kəmiyyət mövcuddur: tək və cəm.

Mənasına görə təklik yalnız əşya, şəxs, hərəkət və s.-nin vahid, tək olmasınt bildirir. Cəmlik isə göstərilənlərin cəm halda olduğunu, topluluğunu, çox olmasını (çoxluğunu) bildirir, əksəriyyəti isə *-lar, -lər* şəkilçisi ilə və ya müxtəlif dillərdə bu şəkilçinin ekvivalent forması ilə düzəlir.

Cəmliyin formalarından biri də topluluqdır. Topluluq dünyanın əksər dillərində yayılmışdır və bu dillərdə sözlər adlıq halında heç bir şəkilçi qəbul etmədən cəmlik bildirir. Bəzən toplu isimlərdə cəm şəkilçisi qəbul etmiş isimlər bir-birilə qarışdırılır. Diqqət etmək lazımdır ki, ismin mənaca topluluq bildirməsi ilə onun kəmiyyət göstəricisi qəbul edərək cəmlik bildirməsi eyni deyil.

Birincinin əsasında sözün leksik-semantik mənası durur, yəni formaca təkdə olur, onun tərkibində heç bir kəmiyyət göstəricisi iştirak etmir, ikincidə isə qrammatik proses gedir, yəni şəkilçi vasitəsilə formalaşır.

Topluluq mənasında oian söz bir neçə şəxsin, əşyanm və. s-nin toplu halda olmasını bildirir. Lakin topluluq cəmlik anlayışını bildirsə də onlar bölünmür və bütöv halda olur. Cəmlik isə hissələrə bölünür. Məsələn **forest (*meşə)*** dedikdə orada bitən bütün ağaciar**, army (*ordu)*** dedikdə orada olan bütün heyət nəzərdə tutulur və s. Digər diilərdə olduğu kimi müasir Azərbaycan və ingiiis dillərində də topluluq bildirən sözlər geniş yayıimışdır.

A.Aslanov "Müasir Azərbaycan dilində inkarhq və kəmiyyət kateqoriyalan" adlı əsərində kəmiyyət kateqoriyası haqqında fikrini belə izah edir: "Topluluq anlayışı əşyanın və ya hadisənin qruplaşması əsasında yaranır, lakin bu qruplaşma analiz əsasında deyil, sintez əsasında meydana çıxır" (1, s. 125). Müasir ingilis dilində ümumi isimiərin çoxu tək bir sözdən ibarət olub ayrı- ayrı varlığın adını bildirdiyi halda, bir qismi də cəmlik şəkilçisi qəbul etmədən tək bir sözlə varlığın topluluğunu-çoxluğunu bildirir. Belə isimlərə misal olaraq **famıly, crowd, crew, company, audience, jury, team, herd**, **troop** və s. sözlərini göstərmək olar. Bu qəbildən olan isimlərə **kollektiv isimlər** və ya **toplu isimlər** deyilir.

A.Axundov "İngilis və Azərbaycan dillərində kəmiyyət kateqoriyası" adlı əsərində yazır: "Topluluq bildiran adlar şəkilcə başqa ümumi adlardan fərqlənmədiyi kimi, morfoloji əlamət qəbul etdiyi zaman da onlardan fərqlənmir. Mücərrəd isimlərdən fərqli olaraq kollektiv isimlər həm təkdə, həm də cəmdə işlənə bilir. Onlar da cəmlik şəkilçisi qəbul edib, məsələn: **family - families (ailə-ailələr), company - companies (təşkilat-təşkilatlar), team – teams** və s.şəklində işlənə bilir. Cəmlənmiş toplu bildirən isimlərdə topluluq məzmunu sözün kökündə özünü saxlayır və s. (-es), yəni (~lar -lər) cəmlik şəkilçisi bu məzmunun qeyri-müəyyən miqdannm artmasım bildirir" (2, s. 115). Bu hal ilk baxışdan onlan, yəni kollektiv (toplu) isimləri konkret isimlərlə yaxınlaşdırır, lakin toplu isimlərin təklik və ya cəmlik ifadə etməsi başqa bir cəhətlə də əlaqədardır: danışan, kollektiv bildirən hər hansı bir ismin ifadə etdiyi məfhumu bütövlükdə götürürsə, həmin isim tək mənada işlənir. Danışan bu kollektivə aid olan üzvlərin hər birini ayrılıqda nəzərdə tutursa bu halda isim formaca tək olsa da cəmlik bildirir. Məsələn, əgər hər hansı bir ailənin haqqında ümumiyyətlə danışılırssa, o, bir kollektiv kimi götürülürsə, **family** sözü tək formada hesab olunur. Buna görə də, ondan sonra gələn feil təkdə olur, məsələn:

My friend's family is large.
Dostumun ailəsi böyükdür.

Həmin ailənin hər bir üzvü ayn-aynlıqda götürülürsə, famiiy sözü tək formada işlənməsinə baxmayaraq cəmlik bildirir. Buna görə də ondan sonra fel cəmdə işlənir. məsələn:

My friend's family are early risers.
Dostumun ailəsi erkən qalxır.
My family are diligent.
Mənim ailəm çalışqandır.

Bundan başqa, ifadə etdikləri məfhum bütövlükdə bir vahid kimi götürüldükdə təklik, bu kollektivə aid olan üzvlər ayrı-ayrılıqda nəzərdə tutularsa cəmlik ifadə edən digər toplu isimlərə congress, organization, government, team, jury, group, army, committee, club, class, crowd, public, audience, firm, staff, cast, minority, majority, vacation, association,

79 *Azərbaycan Texniki Universiteti "Xarici dillər" kafedrasının baş müəllimləri.E-mail: shafiqasevinc@mail.ru*

college, community, company, crew, department, eiectorate, enemy, generation, opposition, school, university; müəyyən təşkilat adları, məsələn: The Bank of England, The BBC, IBM, Sony, The United Nations və s. aiddir.

Belə hallarda isimlərin tək və ya cəm bildirməsi onları öz morfoloji forması ilə deyil, özlərindən sonra işlənən feillə müəyyən edilir, məsələn:

The jury is *ready with its verdict.*
Münsiflər heyəti öz hökmü ilə hazırdır.
The jury have *accepted the decision.*
Münsiflər heyəti qərar qəbul edib.

A.Axundov bu haqda öz fikrini belə izah edir: "Müasir ingilis dilində mövcud olan police (polis), cattle (mal-qara, sürü, naxır), poultry (ev quşları), gentry (zadəgan) sözləri topluluq bildirən isimlər adlanır. Bu isimlər heç vaxt cəm şəkilçisi qəbul etmir, lakin həmişə cəmlik bildirir. Cəmlik bu qəbildən olan isimlərin nominativ mənasma daxildir. Buna görə də həmin isimlərdən hər hansı biri cümlədə mübtəda rolunda çıxış etdikdə, ondan sonra feil hökmən cəmdə işlədilir" (3, s. 220-227) məsələn:

The police were *looking for the robber- Polis oğrunu axtarırdı.*
The cattle were *grazing in the meadow.*
Mal-qara çəmənlikdə otlayır.
The poultry are **in theyard.**
Quşlar həyətdədir.

Çoxluq bildirən money (pul), youth linen (kətan), fotiage
machinery (aparat, qurğu) və s. isimləri bir qayda olaraq həmişə tək formada işlədilir və özlərindən sonra feili təkdə tələb edir, məsələn:

Money makes *money. (proverb)*
Pul pulu gətirir. (atalar sözü)
Youth is *everything in the world.*
Gənclik dünyadakı hər şeydir.

hinery is requircd for this plant.
Zavoda müasir qurğular tələb olunur.

Müasir ingilis dilində işlənən people sözü adamlar, camaat mənasmda işlənərkən tək formada həmişə cəmlik, xalq mənasmda işlənərkən isə ifadə etdiyi kəmiyyətdən asılı olaraq həm tək, həm də cəmlik bildirir, məsələn:

The weather was warm and the people were sitting at their doors.
Hava isti olduğuna görə adamlar qapılartnın ağzında oturmuşdular.
The Azerbaijani are a turkic people. Long live the friendship of all the peoples.
Azərbaycan türkdilli xalqdır. Yaşasın xalqlar dostluğu.

Cəmlik ifadə edən toplu isimlərdən sonra cəm feil işlənir və qrup **they** və **who** əvəzlikləri ilə ifadə edilir, məsələn:

Her family are very kind. They do all they can for her.
Onun ailəsi çox mərhəmətlidir. Onlar onun üçün bacardıqları hər şeyi edirlər.
I don 't know any other family who would do so much.
Ailənin malik olduğu gücə heç bir başqa qüvvə malik deyil.

Rus dilçiləri Kaqmoviç V.S. və Roqovskaya V.İ. öz fikirlərini belə izah edirlər: "Təklik ifadə edən toplu isimlər tək feil və əvəzliklə işlənir. Əgər bu sözlərin qarşısmda **a(an), each, every, thls və ya that** işlənərsə adətən onlar cəm feillərlə işlənmirlər, məsələn:

Almost every family in the country owns a television.
Demək olar ki, ölkədə hər ailənin televiziyası var.
A teamwhich isfull of enthusiasm is more likely to win.
Yaxşt ruhlandırılmış komandanın qazanmaq ehtimalı daha çoxdur.

İngilis dilinin amerikan varıantında təklik ifadə edən toplu isimiərdən sonra həm tək, həm də cəm feil işlədilir" (4, c. 66-73). Məsələn:

The jury **has/have** *returned a verdict of guilty.*
Hakim günahkarın hökmünü qaytardı.
The team **is/are** *not playing very well this season.*
Komanda bu mövsümdə çox da yaxşı oynamadı.

k işləndikdə həmişə xəbər təkdə, cəm isimlə işləndikdə xəbər cəmdə işlənir, məsələn:

The **majority believes** *that we are in no danger.*
Əksəriyyət bizim təhlükəsiz olduğumuza inantr.
The **majority** *of the students believe him to be innocent.*
Tələbələrin çoxu onun günahsız olduğuna inanır.

özünün qarşısmda say olduqda cəmdə işlənir, məsələn:

Our summer vacation*lasts 2 months.*
Bizim yay tətilimiz iki ay davam edir.

We have 2 vacations a year.
Ildə bizim iki tətilimiz olur.

Heyvanlar sürü,dəstə, insanlar isə qrup, izdiham və s. mənasım ifadə etdikdə tək isim kimi işlənir, məsələn:

The flock of birds **is circling** *overhead.*
Bir dəstə quş başımızın üzərində dövrə vurur.
The herd of cattle is breaking away.
Mal-qara sürüsü ayrılır.
A small crowd **is lined** *up to see the guests arrive.*
Qonaqların gəldiyini görən kiçik izdiham düzüldü.
A group of people who play, act, or work together is a team.
Birlikdə oynayan,fəaliyyət göstərən və işləyən insan qrupu komandadır.

Toplu isimlər vaxt, pul və məsafə bildirdikdə təkdə işlənir, məsələn: ***Twenty five dollars is*** too much to pay for the shirt.

İyirmi beş dollar bu köynəyə ödəmək üçün çox bahadır.
Fifty minutes isn 't *enough time to finish this test.*
Əlli dəqiqə vaxt bu testi bitirməyə kifayət etmir.
Two miles is too much to run in one day.
Bir günə iki mil qaçmaq həddindən artıq çoxdur.
Threeyears is *a long time to be without a job.*
Uç il işsiz olmaq uzun müddətdir.

İstifadə edilmiş ədəbiyyat

1. Aslanov A. Müasir Azərbaycan dilində ***inkarhq*** və kəmiyyət kateqoriyaları. Bakı, 1963, 125 s.
2. Axundov A.A. İngilis və Azərbaycan dillərində kəmiyyət kateqoriyası. Bakı: Maarif, səh: 115.
3. Axundov A.A. Dil və ədəbiyyat. 2 cilddə. I cild. Bakı: Gənclik, 2003, 220-227 s.
4. B.S.Khaimovich., B.I.Rogovskaya A course in English Grammar. Moskva, 1967, стр: 66-73

Açar sözlər: isim, ismin kəmiyyət kateqoriyası, koilektiv və ya toplu isimlər, inkişf, İngilis dili
Ключевые слова: существительное, количественная категория существительного, собирательные или собирательные существительные, развитие, английский язык
Key words: the noun, the category of numher of the noun, collective nouns, development, English language

Of the category of quantity in modern english lexical-semantic properties

Summary

The category of number exıst İn aU languages. It carries philosophıcal maintenancc and its circle of scope is very broad. There ıs no area of activity of the human life the authors use the category of number. The category of number have lexical and grammatica! expressions in different languages system. The category of number is mainly formed in language the ways of lexical, morphological and syntactic.In general, the category of quantity in language is a very complex category. The quantity category applies not only to nouns, but also to other parts of speech (adjective, number, pronoun, verb). In European languages, Turkic languages, and including Azerbaijani, there are two quantities for parts of speech: singular and plural.

Категории количества в современном английском языкелексико-семантические свойства

Резюме

Категория числа существует во всех языках. Она несет в себефилософское содержание, и круг ее применения очень широк. Не существует сферы деятельности человеческой жизни, авторы используют категорию числа. Категория числа есть лексическая и грамматическая! выражения в системе разных языков. Категория числа в основном формируется в языке способами лексическим, морфологическим и синтаксическим. Вообще категория количества в языке — очень сложная категория. Категория количества относится не только к существительным, но и к другим частям речи (прилагательному, числу, местоимению, глаголу)В европейских языках, тюркских языках, в том числе и в азербайджанском, имеются две величины частей речи: единственное и множественное число.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, b\m. Sevinc Bağırova

Ələskərli Dilarə İlqar qızı[80]

ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ORFOQRAFİYA VƏ ORFOEPİYA TƏLİMİNİN MƏQSƏD, VƏZİFƏ VƏ PRİNSİPLƏRİ

Giriş. Bildiyimiz kimi orfoqrafiya fonetikanın bir sahəsi olub, sözlərin düzgün yazılış qaydalarını öyrənir. Belə ki, orfoqrafiya ilə yazının bilavasitə əlaqəsi danılmazdır və bu səbəbdən yazının əmələ gəlməsi orfoqrafiya prinsiplərinin formalaşmasında əsas amildir.

Orfoqrafiyanın məqsəd, vəzifə və prinsiplərinin formalaşmasında onun keçdiyi uzun tarixi dövrün xüsusi rolu olmuşdur. Azərbaycan dili tarixinə nəzər yetirsək, orfoqrafiyası və onun inkişaf tarixinə məxsus bir sıra dəyişikliklərə məruz qaldığını görərik. Bu dəyişikliklər dilimizdəki bir sıra inkişaf və əlifba ilə əlaqədar olmuşdur. Bu yolda M.F.Axundzadənin yazımızı sadələşdirməkdə, dilimizin orfoqrafiyasında fonetik prinsipə geniş yer verməsindəki xüsusi rolu qeyd olunmalıdır [3, s. 41].

Orfoepiya və orfoqrafiya arasında oxşar və fərqli cəhətlər çoxdur. Qeyd etməliyik ki, müasir Azərbaycan dilinin orfoqrafiyası danışıq dili əsasında formalaşdığından bir çox orfoqrafiya qaydaları eynilə orfoepiya üçün də məqbul sayıla bilər. Nəzərə alınmalıdır ki, dildəki söz və ifadələrin heç də hamısı yazıldığı kimi tələffüz olunmur. Bəzən söz və ya ifadədə bu və ya başqa səs müəyyən fonetik vəziyyətə düşərək yazıdan fərqli formada tələffüz olunur.

Əsas hissə. Orfoqrafiya və orfoepiya təlimi Azərbaycan dilinin tədrisinin mühüm sahələrindən biri olmaqla yanaşı, əsas vəzifəsi düzgün yazmaq və tələffüz etmək vərdişlərini şagirdlərə aşılamaqdır. Savadlı, düzgün yazıya yiyələnmək şagirdlərin bu sahəya aid bilik, bacarıq və vərdişləri şüurlu şəkildə mənimsəməsi ilə sıx bağlıdır. Belə ki, bu sahənin tədrisində pedaqogikanın tərkib hissələrindən biri olan didaktikanın şüurluluq prinsipinə əməl olunması olduqca vacibdir. Fikrimizcə, bilik və bacarıqların möhkəm şəkildə mənimsənilməsi, müvafiqlik, sistematiklik, əyanilik, ardıcıllıq və s. prinsiplərdə məhz şüurluluğun təmin olunmasına xidmət göstərir.

Orfoqrafiya qədər orfoepiya təlimi də olduqca əhəmiyyətlidir. Şübhəsiz ki, Azərbaycan dilinin ədəbi dil qaydalarına uyğun, vahid, hamı üçün zəruri olan bir norma yaradılmalıdır. Eyni sözün müxtəlif dialekt və şivələrdə fərqli leksik mənaya sahib olması insanlara ünsiyyət prosesində bəzi çətinliklər yaradır [5, s.87]. Deyə bilərik ki, eyni sözlərin müxtəlif şəkildə tələffüz edilməsi eyni zamanda onların qəbul olunan normadan fərqli formada tələffüz olunması heç şübhəsiz nitq prosesini ləngidəcək və ünsiyyətin kifayət qədər çətinləşməsinə səbəb olacaqdır.

Məktəblərdə orfoepiya təliminin çox böyük əhəmiyyəti vardır. Başqa sözlə desək, bu sahənin tədrisi nəticəsində şagirdlərdə fonetik qavrama və eşitmə vərdişləri yaranır, tələffüz üzərində nəzarət, xüsusilə də düzgün şifahi nitq qeyri-iradi, avtomatik hala keçir. Sinifdə yaradılan orfoepik rejim yalnız şagirdlərin deyil, müəllimlərin də danışıq zamanı ehtiyyatlı olmağa məcbur edərək daha düzgün tələffüzə vadar edir. Bu zaman müəllimlər öz nitqlərinə xüsusi diqqət yetirməli və nə olursa-olsun, nümunəvi və nöqsansız danışmağa çalışmalıdırlar. Heç şübhəsiz, müəllimin ədəbi dil normalarına əməl etmədiyi bir sinifdə düzgün yazı və danışıq qaydalarını gözləmək də kifayət qədər çətin olacaqdır.

Məktəblərdə tədris edilən orfoqrafiya təlimi insanlar arasında yazılı ünsiyyəti nizama salmaq baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Hər birimizə məlumdur ki, yazılı ünsiyyətdə iki tərəf olur: yazan və oxuyan. Düzgün orfoqrafik qaydalara əməl olunaraq yazılan yazı hər iki tərəfin vahid şəkildə başa düşməsini təmin edir.

Hər bir təlim prosesində olduğu kimi, orfoqrafiya və orfoepiya təliminin də qarşısında qoyulan müəyyən vəzifələr vardır. Qeyd etməliyik ki, orta məktəblərdə orfoqrafiya təliminin qarşısında duran əsas vəzifə şagirdləri imla qaydalarına yiyələndirmək, onlara orfoqrafiyanın praktik əhəmiyyətini dərk etdirməkdir.

Prof. Nadir Abdullayevin "Orfoqrafiya və orofepiya təlimi məsələləri" kitabına istinadən deyə bilərik ki, orta məktəblərdə Azərbaycan dili orfoqrafiyası üç prinsip əsasında təlim olunur:

- Orfoqrafiyanın orfoepiya ilə əlaqəli tədrisi prinsipi;
- Orfoqrafiyanın qrammatika ilə əlaqəli öyrədilməsi prinsipi;
- Orfoqrafiyanın nitq inkişafı ilə əlaqəli öyrədilməsi prinsipi [1, s. 50].

Prof. Həsən Balıyevin fikri ilə razılaşaraq qeyd edə bilərik ki, bu prinsiplərə qanun kimi əməl edilməzsə , əsas məqsədə nail olmaq qeyri-mümkündür.

Fikrimizcə, orfoqrafiya və orfoepiya təlimlərində ən səmərəli üsul öyrədici və yoxlayıcı imlalar, çalışmalar və bu işlər zamanı meydana çıxan səhvlərin islahı olacaqdır. Belə ki, orfoqrafiya və orfoepiyanın qarşılıqlı əlaqəsi bir an belə unudulmamalı, müəllimlər imla zamanı şagirdlərə müvafiq çalışmalar verməlidirlər. Diktələr düzgün tələffüz qaydalarına uyğun şəkildə tələffüz edilməlidir. Bundan əlavə yazılışı-deyilişi çətin olan söz və ifadələrə üstün yer verilməlidir. Bu istiqamətdə prof. Ə.Əfəndizadə haqlı olaraq yazır: "...yazılı və şifahi dil arasında möhkəm əlaqə vardır. Çünki bunlar eyni bir dilin iki ayrı-ayrı ifadə formasıdır. Ona görə də şifahi və yazılı nitqin təliminə bir-birindən təcrid edilmiş ayrı-ayrı proseslər kimi deyil, vahid proses kimi baxmaq lazımdır" [3, s.245].

Orta məktəblərdə orfoqrafiya təlimini qrammatika qaydaları ilə əlaqələndirməyin də böyük əhəmiyyətli rolu vardır. Çünki yazı qaydalarında əsasən qrammatik qanunlara istinad edilir. Orfoqrafiya və orfoepiyanın əsas məqsədinə nail omaq üçün şagirdlərdə düzgün orfoqrafiya qaydalarını mənimsətməklə bərabər, onlarda düzgün şifahi nitq bacarığı da formalaşdırmalıyıq.

[80] APU

Bu mərhələdə nəzərə alınmalıdır ki, bəzi şagirdlər az oxuduqlarına görə az yazırlar. Belə şagirdlərin ədəbi nitqi olduqca zəif inkişaf edir. Bu zaman müəllim şagirdlərdə mütaliəyə, qiraətə maraq yaratmalıdır. Şübhəsiz ki, şagirdlərin bilik səviyyəsinə və yaş xüsusiyyətlərinə uyğun seçilmiş bədii parçalarla daha səmərəli nəticənin əldə olunmasına nail olmaq mümkündür.

Orfoqrafiya vərdişlərinin inkişafında və möhkəmləndirilməsində əsas məsələ yazı üçün lazımlı material seçməkdir. Seçilən mətnlər məzmunca aktual və ifadə tərzinə görə məqsədimizə uyğun olsa, şagirdlərin bilik səviyyəsi bir o qədər tez yüksələr.

Fikrimizi ümumiləşdirsək deyə bilərik ki, müəllim yalnız imla ilə əlaqədar deyil, hər fürsətdə şagirdlərin fəal lüğət fonduna daxil olması gözlənilən bütün sözlərin düzgün yazılış formasından əvvəl onların leksik mənalarını anlatmalıdır. Onu da qeyd etməliyik ki, məktəb təcrübəsi göstərir ki, şagirdlərin imla zamanı yol verdikləri səhvlər əsasən onların leksik mənasını bilmədikləri sözlərdə müşahidə olunur.

Ə.Əfəndizadə haqlı olaraq qeyd edir; şagirdlər orfoqrafiya və orfoepiya haqqında elmi anlayışa ilk dəfə demək olar ki, fonetika bəhsini öyrənərkən yiyələnirlər [4, s.101]. Daha aydın desək, şifahi nitqlə yazılı nitq arasındakı fərqlərlə bu bölmədə tanış olurlar. Deməli, orofqrafiya və orfoepiyanın məqsəd və vəzifələrinin düzgün şəkildə həyata keçirilməsində fonetika bəhsi bir növ baza rolunu oynayır.

Fonetikanın tədrisi zamanı da orfoqrafiya və orfoepiya arasında əlaqə yaratmaq vacib şərt kimi qeyd olunur. Bildiyimiz kimi, orfoqrafiyanın fonetik prinsipinə görə, söz ədəbi tələffüzə müvafiq yazılır. Bu prinsipə əsasən deyə bilərik ki, bu iki anlayış heç də bir-birindən təcrid edilmir, biri digərini tamamlayır. Bütün bu işlərin qarşılıqlı təşkili, orfoqrafiya və orfoepiya təliminin məqsədinə nail olmaq və vəzifələrinin həyata keçirilməsi çalışmalar üzərində işin təşkili zamanı daha səmərəli olur.

Məsələn: Şagirdlərə verilmiş mətndə yazılışı ilə deyilişi arasında fərq olan sözləri seçib yazmağı tapşırmaq həm düzgün yazılış, həm də düzgün tələffüz qaydalarına dair biliklərin möhkəmləndirilməsinə kömək olur. Nümunə: dəftər-[dəfdər], motor[mator], qanad [qanat].

Nəticə. Tədqiqatlarımız da bir daha sübut edir ki, bu yolda orfoqrafiya və orfoepiyanın məqsəd, vəzifə və prinsiplərinin müəyyən edilməsi və təlim prosesinin bu istiqamətlərdə aparılması olduqca vacibdir. Şagirdlərin yazı və tələffüz qaydalarına hər şəraitdə nəzarət olunması, tədris prosesinin bu yöndə aparılması qarşıya qoyulan məqsədə nail olmağa kömək edəcəkdir. Unutmamalıyıq ki, düzgün yazmaq və ədəbi normalara uyğun şəkildə tələffüz etmək yazılı və şifahi nitqin ən vacib şərtidir.

Ədəbiyyat:

1. Abdullayev N. Orfoepiya və orfoqrafiya təlimi məsələləri. Bakı, 1985, 148 s.
2. Abdullayev A. Orta məktəbdə Azərbaycan dili tədrisinin metodikası. Bakı. 1968, 78 s.
3. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı. Maarif, 1988, 285 s.
4. Əfəndizadə Ə.R. Azərbaycan dili orfoqrafiyası tədrisinin elmi əsasları. Bakı: Maarif, 1968, 132 s.
5. Həsənov M. Azərbaycan dili orfoqrafiyasının tədrisi. Bakı. 1992, 214 s.

RƏYÇİ: dos. E.Vəliyeva

Fatimə Qarayeva[1]

AZRBAYCAN DİLİ SİNTAKSİSİNİN İNTEQRATİV ƏSASLI TƏDRİS İMKANLARI

Hər bir dil iki tərkib hissədən: lüğət tərkibi və qrammatik quruluşdan ibarətdir. Sistem xarakteri daşıyan dil fonem, leksem, morfem, söz birləşməsi, cümlə və mətndən ibarətdir. Bu sistemdə kommunikativ funksiyadan kənarda qalan kateqoriya və anlayış yoxdur. Sintaksis nitqin vücudu, kommunikasiyanın strukturu və ünsiyyətin ifadəsinin yekun formasıdır.

Dilin tikinti materialı olan söz söz birləşməsi və cümləni təşkil edir. Digər cəhət- dən sözün hər hansı bir vəzifəni yerinə yetirməsi üçün müəyyən formalara düşməsi də əsas şərtdir. Bu da öz növbəsində sintaksisin morfologiya ilə əlaqəli tədrisinə gəti-rib çıxarır. Şagirdlərin dil duyumlarının, nitq mədəniyyətlərinin inkişafında, məzmunca elmi, publisist, istərsə də bədii fikrin düzgün, dolğun ifadəsində sintaksisin inteqrativ tədrisi imkanlarından istifadənin çox mühüm əhəmiyyəti var.

Hər bir dil iki tərkib hissədən : lüğət tərkibi və qrammatik quruluşdan ibarətdir. Ümumən sistem xarakteri daşıyan dil fonem, morfem, söz birləş- məsi, cümlə və mətndən təşkil olunur. Bu sistemdə kommunikativ funksiyadan kənarda qalan kateqoriya və anlayış yoxdur. Dilin vahidləri sırasında ən dominant səciyyə daşıyanı söz birləşməsi və cümlədir ki, bunlar sintaksisin predmetini təşkil edir. Sintaksis nitqin vücudu, kommunikasiyanın strukturu və ünsiyyətin yekun ifadə formasıdır.Sanki sintaksisə qədərki dilçilik elementləri və anlayışları bu bölmənin formalaşması və tamamlanması vəzifəsini yerinə yetirir. Fonem (səs), leksem (söz) və morfem müəyyən qrammatik əlamətlərlə birlikdə ünsiyyəti təşkil edir. Sintaksisin ikinci predmeti olan cümlə dilin mətndən əvvəlki ən mənalı və bitkin vahididir. Bəzi dilçi alimlər cümləni dilin özü adlandırırlar.” Dildə cümlənin əhəmiyyəti çox böyükdür. Başqa sözlə desək, cümlə dilin özüdür. Cümlənin əmələ gəlməsində dilin demək olar ki, bütün vasitələri, bütün ünsürləri iştirak edir. Çünki cümlə dildə olan və dilçilik elminin müxtəlif sahələrinin tədqiq etdiyi dil faktlarının, müxtəlif dəyişmə-lərin, rəngarəngliyin yekunudur. Elə bil ki, bunların hamısı nəticə etibarilə cümlə qurmaq üçündür”. [1, s.77]

Bir sözlə, sintaksis və onun predmetləri nitqin təşkilində həlledici funksiyaya malikdir. İstər şifahi, istərsə yazılı nitq sintaktik kateqoriyaların və digər nitq vahidlərinin sintaktik kateqoriyalarla birləşməsinin nəticəsidir. Dilçiliyin digər bölmələri, onların hər birinin səciyyəvi vahidləri möv-cuddur ki, bunlarkonkret əlamətləri baxımından bir- birindən fərqlənsə də, həmin vahidləri bir- birindən təcrid edilmiş şəkildə öyrənmək qeyri-mümkündür. Belə halda dil yarımçıq olar, fikrin mübadiləsi baş tutmaz.

Bütün bu dediklərimizi nəzərə alaraq deyəbilərik ki, sintaksisin inteqrativ əsaslarla tədrisi onun şagirdlər tərəfindən mənimsənilməsində mühüm əhəmiyyət daşıyır. Sintaksis fonetika bölməsi ilə əlaqədardır. Hər bir cümlə sözlərdən, sözlər isə öz növbəsində səslər vasitəsilə təşkil edilir. Fonetika ilə sintaksisin qarşılıqlı linqvistik baxımdan bağlılığı sintaksisin orfoepiya və orfoqrafiya ilə inteqrasiyasını və onların inteqrativ əsasda tədrisini zəruri edir. Bu iki bölmə arasındakı bağlılıqdan biri və ən mükəmməli də fonetkanın prosudiya hissəsi,yəni cümlənin intonasiya əlaməti ilə əlaqədardır.

Məlumdur ki, istənilən dilin təşəkkülü ilk olaraq özünün şifahi forması ilə təzahür etmişdir. Şifahi nitq(dil) isə intonasiyasız təsəvvür edilə bilməz. Yazı isə şifahi dildən sonra meydana gəlmişdir. Tarixilik baxımından sonrakı hadisə olaraq qeyd edilsə də, yazının özünü də intonasiyasız dərk etmək yanlış düşüncə ilə nəticələnə bilər. Təbii ki, intonasiyanın ifadə imkanlarının yazılı nitqdəki ekvivalenti durğu işarələridir.

Bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, nitqdə hər bir cümlənin öz kommunikativ təyinatı vardır. Həmin təyinatın kommunikativ funksionallığını reallaşdıran intonasiyadır. Bu isə fonetik intonasiya ilə sintaktik intonasiya anlayışlarının şərhi və inteqrativ əsaslarla tədrisi problemin həlli yolunda ciddi addımlardandır. Ümumiyyətlə, cümlənin akustik cəhətinin tədrisi onun akustik strukturunun müəyyənləşməsi üçün real zəmin hazırlayır.

Dilin tikinti materialı olan söz söz birləşməsi və cümləni təşkil edir. Bu da öz növbəsində leksikanın morfologiya və sintaksislə ardıcıl qarşılıqlı əlaqədə olduğunun göstəricisidir. “Söz ünsiyyət məqsədlərinə xidmət etmək üçün işlədilən, gerçəkliyin, hər hansı bir faktını, onun təbiət materiası kimi, fonetik tərkib vasitəsilə ifadə edilən dil vahididir. Ona görə də söz lüğət tərkibinin əsas vahidi kimi öz təbiətinin dolğunluğunu və həqiqi mənasını əlaqəli nitq daxilində büruzə verir. [2, s.12]

Azərbaycan dili sintaksisinin inteqrativ əsaslı tədrisi işində sintaksisin leksikologiya ilə inteqrasiyası məsələsinin önə çəkilməsi vacib məsələlərdəndir. Çünki fikir cümlə vasitəsilə müsahibin nəzərinə çatdırılır. Kommunikativ funksiyasından asılı olmayaraq hər bir cümlə komponenti cəhətdən söz və sözlərin əlaqəlu formasından ibarət olur. Buna görə də demək mümkündür ki, sözlərsiz cümlə olmadığı kimi, cümlə olmadan da fikir ifadə etmək qeyri – mümkündür.

Sözlərin mexaniki düzülümü cümlə əmələ gətirə bilməz. Sözlərin cümlə şəklini alması (məna və struktur cəhətdən) üçün morfoloji üsullarla əlaqələnməsi mütləqdir. İstənilən sözün cümlədə müəyyən funksiya daşı-ması üçün onun qrammatikanın ixtiyarına keçməsi mühüm şərt sayılır. Deməli, sintaksis morfologiya ilə də əlaqəlidir. Söz birləşməsi və cümləni təşkil edən sözlər bir–bir ilə morfoloji üsullara əsasən əlaqələnir. Hər hansı cümlə üzvü müvafiq nitq hissəsi ilə ifadə olunur və ya müəyyən bir nitq hissəsi konkret sintaktik vəzifə daşıyır. Başqa sözlə, sözün forması morfologiyaya, funksiyası isə sintaksisə aid olur.

“Son qeydlərdən göründüyü kimi, morfologiya və sintaksis, nitq hissələri və cümlə üzvləri haqqında deyilənlər uzaq tarixə aid deyil, elə indinin özünə aiddir.

[1]ADPU-nun magistrantı

Nəzəriyyə üçün iyirmi – otuz, qırx - əlli il müasir deməkdir. Cümlə üzvləri ilə nitq hissələri arasında uyğunluqları və bu uy-ğunluqlara əsaslanıb onların genetik birliyini inkar etmək çətin olar.” [4, s.75]

Sözün forması morfologiyaya, vəzifəsi isə sintaksisə məxsusdur. Ümum-iyyətlə, sintaksisin inteqrativ əsaslarla tədrisini nəzəri cəhətdən bu cür ifadə etmək olar: səs sözləri, söz, birləşməsi və cümləni təşkil edir. Səs olmasa söz, söz olmasa sözlərin birləşməsi və cümlə mövcud olmaz. Həmin inteqrasiyanı praktik cəhətdən əyaniləşdirsək aşağıdakı sxem alınar:



Mənşəcə latın dilindən götürülmüş inteqrasiya termini “bütöv”, “bütövləşmə” mənasını ifadə edir. Ayrı – ayrı hissələrin birləşməsi və bütövləşməsi mənasını bildirən inteqrasiya ətraf aləmdə baş verən hadisələr və proseslərlə sıx surətdə bağlıdır. Bütün elmlər təbiət və cəmiyyət hadisələri ilə əlaqəli olduğu üçün onların təcəssümü olan fənlərin bir –biri ilə əlaqəsi də təbiidir.

Deməli, bütün fənlərin istinad mənbəyi canlı, cansız varlıqların, məkan və zaman anlayışlarının vəhdəti olan dünyadan, həyatdan qaynaqlanır.

İstər struktur, istər məzmunca təbiət hadisələrinin elmi təzahürü olan müxtəlif fənlər diferensial xüsusiyyətləri ilə yanaşı, həm də inteqrativ səciyyəyə malikdir.

“Bütün elm sahələrində, o cümlədən sosiologiyada, eləcə də pedaqogikada inteqrasiyanın ən çox iki nö-vündən istifadə olunur: fənlərarası və fəndaxili inteqrasiya. Bir çox mənbələrdə bu iki ifadəni eyniləşdirən, həm də fərləndirən var. İnteqrativlik yeni kurikulumların əsas prinsiplərindən biridir. [3, s. 52]

Nəticə etibarilə deyə bilərik ki, şagirdlərin dil duyumlarının, onların nitq mədəniyyətlərinin inkişafında və məzmunca elmi, publisistik, istərsə də bədii fikrin düzgün, dolğun ifadəsində sintaksisin interativ tədrisi imkanlarından istifadənin çox mühüm əhəmiyyəti var.

Ədəbiyyat

1. Abdullayev Ə, Seyidov Y, Həsənov A. Müasir Azərbaycan dili. (Sintaksis, IV hissə), Şərq – Qərb, Bakı – 2007, 422s.
2. Cəfərov S, Müasir Azərbaycan dili(Leksika ikinci hissə). Şərq – Qərb, Bakı – 2007, 191s
3. Kazımov A. Ümumtəhsil kurikulumunun əsasları, ADPU-nun mətbəəsi. Bakı – 2015, 117s.
4. Seyidov Y. Azərbaycan dilinin qrammatikası (morfologiya). Bakı universiteti, Bakı – 2002, 268s.
5. Qurbanov V , Əmirli A. Azərbaycan dili tədrisinin aktual problemləri. Müəllim, Bakı – 2009, 161s.

ВОЗМОЖНОСТИ ИНТЕГРАТИВНОГО ОБУЧЕНИЯ СИНТАКСИСУ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Резюме

Любой язык состоит из двух компонентов: словарного запаса и грамматической структуры. Системный язык состоит из фонемы, лексемы, морфемы, словосочетания, предложения и текста. В этой системе нет категорий и понятий, находящихся вне коммуникативной системы. Синтаксис–это тело речи, структура общения и конечная форма выражения общения.

Слово, являющееся строительным материалом языка, образует словосочетание и предложение. С другой стороны, для того, чтобы слово выполняло какую-либо задачу, основным условием является его попадание в опре-деленные формы. Это, в свою очередь, приводит к преподаванию синтаксиса, связанного с морфологией.Очень важно использовать возможности интегративного обучения синтаксису в развитии языковых ощущений учащихся, культуры речи, в правильном и полном выражении научных, публицистических или художественных идей.

Ключевые слова:синтаксис, интегративная основа, языковые элементы, грамматический строй, коммуникативная функция.

INTEGRATIVE BASED TEACHING OPPORTUNITIES OF AZERBAIJAN LANGUAGE SYNTAX

Summary

Every language consists of two components: vocabulary and grammatical structure. Systemic language consists of phoneme, lexeme, morpheme, phrase, sentence and text.In this system, there are no categories and concepts that are outside the communicative system. Syntax is the body of speech, the structure of communication and the final form of expression of communication.

The word, which is the building material of the language, forms a phrase and a sentence. On the other hand, for the word to perform any task, it is a basic condition that it falls into certain forms. This in turn leads to the teaching of syntax related to morphology. It is very important to use the possibilities of integrative teaching of syntax in the development of students' language sensations, speech culture, in the correct and complete expression of scientific, journalistic, or artistic ideas.

Keywords: Syntax, integrative basis,linguistic elements, grammatical structure, communicative function.

RƏYÇİ: dos. S.Abbasova

Gültac Axundova[1]

ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Fənlər üzrə məzmun standartlarının müəyyən olunmasında əsas məqsəd həmin standartların hər bir şagird tərəfindən mənimsənilməsi istiqamətində hədəflərin seçilməsidir. Qəbul edilmiş standartlara uyğun bilik və bacarıqlara nail olmaq üçün hər bir şagirdin fəaliyyəti fasiləsiz stimullaşdırılmalı, onların daha yüksək səviyyəli standartları mənimsəməsi üçün şərait yaradılmalıdır. Optimal vəziyyətdə heç bir şagirdin tədris ili boyunca geri qalmasına imkan verilməməli, əksinə, hər bir şagirdin irəliləməsi diqqət mərkəzində olmalıdır. Bu baxımdan şagird nailiyyətlərinin qiymətləndirilməsi davamlı, dinamik və bir çox hallarda rəsmi olmayan prosesdir. Bu prosesdə müəllimlərin şagirdlər üzərində müşahidəsi, şagirdlərin sinif işləri və ev tapşırıqlarını yerinə yetirmələri, yazılı və şifahi cavabları əhəmiyyətlilik baxımından eyni dərəcədə vacibdir.

Şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

-şagird irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi)
-təlim prosesində qərarların qəbulu
-şagirdin təlim nəticələrinin qiymətləndirilməsi
-kurikulumun qiymətləndirilməsi

Qiymətləndirmə bir prosesdir. Bu prosesdə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdəşlıq öz əksini tapır. Bu proses eyni zamansa zəncirvari bir prosesdir ki, burada əlaqəliliyin izlənilməsi və təmin edilməsi mütləqdir. Ona görə də qiymətləndirmə prosedurları ardıcıl qurulur və vəhdət təşkil edir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsinin mahiyyəti ondan ibarətdir ki, təlimə təsir edən amilllərin, vasitələrin aşkarlanaraq aradan qaldırılması mümkün olsun. Məktəbdə şagird nailiyyətlərinin qiymətləndirilməsi aşağıdkalara xidmət edir:

-şagirdlərin bilik, bacarıq və vərdişləri hansı səviyyədə mənimsədiklərini müəyyənləşdirməyə;
-müəllimlərin hazırlıq səviyyəsi və pedaqoji fəaliyyətinə dair məlumatların əldə olunmasına;
-təlimin məzmunun, metodlarının və səmərəliliyinin müəyyənləşdirilməsinə və təkmilləşdirilməsinə;
-idarəetmə texnologiyalarında yol verilən nöqsanların və ya qabaqcıl təcrübələrin öyrənilərək yayılmasına;
-ictimaiyyətin təhsilə münasibətinin öyrənilməsinə;
-qərarların qəbuluna, təhsil standartlarında müəyyən dəyişikliklərin edilməsinə.

"Şagird nailiyyətlərinin qiymətləndirilməsi" pedaqoji anlayış kimi təhsil leksikonuna yaxın illərdə daxil olmuşdur. Uzun müddət bunun əvəzinə "şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi" anlayışı işlədilmişdir. Bununla yanaşı, qiymətləndirmə dedikdə, şagirdlərin gündəlik qiymətləndirilməsi başa düşülmüşdür. Başa düşüləndir ki, belə qiymətləndirmə sistemi mahiyyət etibari ilə heç bir əhəmiyyət kəsb etmir. Məsələn, azərbaycan-dili üzrə yarımillik və ya illik qiymətlərin çıxarılmasında şagirdlərin aldığı qiymətlərin sayı və nisbiliyi əsas götürülmüşdür. Halbuki, yarım il ərzində azərbaycan dili fənnindən xeyli mövzular keçirilir. Belə çıxır ki, bütövlükdə yarımillik (illik) mövzuların şagird tərəfindən öyrənilib mənimsənilməsi vəziyyəti müəyyən olunmamış qalır [6, s.32].

Qiymətləndirmə və təlim proseslərinə təhsilin qarşılıqlı əlaqədə olan iki tərəfi kimi baxılır. Sistemli proses olan qiymətləndirmə təlim nəticələri ilə maraqlı tərəflər arasında səmərəli əks-əlaqə vasitəsi kimi aşağıdakı komponentləri əhatə etməklə qurulur:

Qiymətləndirmə məlumatları. Bunlara şagirdlərin nailiyyətləri və təlimə münasibətləri, müəllimin hazırlıq səviyyəsi, fənn kurikulumlarının xarakterik cəhətləri, təlim resurslarının bölgüsünü əks etdirən məlumatlar və fəaliyyətlərin icra mexanizmləri daxildir.

Məlumatların toplanması. Bu proses testlərin keçirilməsi, şagird tapşırıqlarının yoxlanılması, sinifdə müsahibələrin aparılması, fənn kurikulumlarının icra keyfiyyətinin, şagird və müəllimlərin fəaliyyətlərinin müşahidəsi, qiymət cədvəlləri və digər məktəb sənədlərinin təhlil edilməsi kimi üsullarla həyata keçirilir.

Qiymətləndirmə nəticələri. Həmin nəticələrdən tədris prosesinin planlaşdırılması və istiqamətləndirilməsi, qiymət ballarının hesablanması, müqayisələrin aparılması, təhsil sənədlərinin və lisenziyaların verilməsi, təhsilin bir pilləsindən digərinə keçilməsi, pedaqoji nəzəriyyələrin formalaşdırılması, təhsil siyasətinin qurulması və onun təsirliliyinin monitorinqinin aparılması, təlim resurslarının bölgüsü, kurikulumun və tədrisin keyfiyyətinin dəyərləndirilməsi zamanı istifadə olunur, eyni zamanda geniş ictimaiyyəti məlumatlandırmaq məqsədi daşıyır.

Qiymətləndirmə standartları. Bu standartlar təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətvermə prosesinin qanuniliyinə zəmanət verir.

Şagird nailiyyətlərini qiymətləndirməyin əsas məqsədi deklarativ, prosedural, kontekstual biliklər səviyyəsi öyrənilməklə müvəffəqiyyət və geriliyi müəyyənləşdirməkdir.

Deklarativ biliklər bilavasitə yaddaşa əsaslanır, zəruri informasiyaların, tərifərin, terminlərin mənimsənilməsini nəzərdə tutur, ona görə də bu proses "bilmə" və "anlama" fəaliyyətləri ilə əlaqədar olur.

Prosedural biliklər əldə etdiyi biliklərin tətbiq etmə bacarığına əsaslanır.

Kontekstual biliklər isə tədqiqatçılıq, yaradıcılıq fəaliyyəti ilə bağlıdır.

[1] ADPU-nun magistrantı

Təhsil sahəsində nailiyyətlərin ölçülməsi ölkəmizdə 3 istiqamətdə aparılır: 1.Beynəlxalq qiymətləndirmə. 2.Milli qiymətləndirmə. 3.Məktəbdaxili qiymətləndirmə

Beynəlxalq qiymətləndirmə, təhsil sahəsində inkişafın qlobal dünyanın təhsil sahəsində uyğunluğu əsasında müəyyənləşdirilir. Ölkəni təmsil edən şagirdlərin təlim göstəriciləri əsasında təhsilin vəziyyəti barədə təsəvvür əldə etmək, müvafiq məlumatları təhlil etməklə problemləri aşkara çıxarmaq, onların həlli yollarını müəyyənləşdirmək, prespektiv inkişaf istiqamətlərini proqnozlaşdırmaq və digər ölkələrlə müqayisə etmək məqsədilə aparılır.

Milli qiymətləndirmə ölkə daxilində təhsilin keyfiyyətini müəyyənləşdirir. Təhsil prosesinin təşkili, planlaşdırılması, aparıldığı şərait haqqında toplanmış məlumatlar vasitəsilə kurikulumun keyfiyyətini və təhsil sistemində baş verən dəyişiklikləri dəyərləndirmək məqsədilə ümumi orta təhsilin bir pilləsindən digərinə keçid mərhələsində, 4-5 ildən bir həyata keçirilir. Milli qiymətləndirmə sistemi və təhsil standartlarının məqsədi məktəb təhsilinin yüksək səviyyədə təşkilinə və cəmiyyətin dinamik inkişafına xidmət göstərməkdir. Təbbi ki, təhsil sistemində aparılan bu dəyişikliklər daha dərin nəzəri və praktik əsaslar üzərində qurularaq, müxtəlif kateqoriyadan olan təhsil işçilərinin elmi, pedaqoji, metodik və mədəni səviyyəsini yüksəldəcək[3, s.15].

Məktəbdaxili qiymətləndirmə dövlət təhsil standartlarının monitorinqini həyata keçirir, bilik, bacarıqları məzmun standartlarına əsasən ölçür və təlim nailiyyətlərini qiymətləndirir. Məktəbdaxili qiymətləndirmə aşağıdakı istiqamətlərdə aparılır:

1.Şagird nailiyyətlərinin qiymətləndirilməsi. Məktəb səviyyəsində müəllimlər və məktəb rəhbərləri tərəfindən həyata keçirilir. Bu mərhələdə şagirdlərin nailiyyətləri formativ (müntəzəm, davamlı), mikrosummativ (bəhs və bölmələr üzrə) və makrosummativ (yarımilliklər üzrə) formalarda yazılı və şifahi qiymətləndirilir.

2.Kurikulum üzrə qiymətləndirmə. Şagirdin təlim nəticələrinin müvafiq məzmun standartlarına uyğunluğunu müəyyənləşdirmək məqsədilə aparılır.

3.Ümumi təhsil pilləsi üzrə yekun qiymətləndirmə. Mərkəzləşdirilmiş qaydada aparılan buraxılış imtahanları formasında həyata keçirilir və müvafiq təhsil sənədi verilməsi ilə başa çatır.

Məktəbdaxili qiymətləndirmə standartlarda göstərilən nəticələrə əsasən şagirdlərin sinifdən sinifə, bir təhsil pilləsindən digər təhsil pilləsinə keçməsinə zəmin yaradır. Məktəbdaxili qiymətləndirmə üç istiqamətdə aparılır: Diaqnostik qiymətləndirmə; Formativ qiymətləndirmə; .Summativ (yekun) qiymətləndirmə[1, s.5].

Diaqnostik qiymətləndirmə tədris ilinin və tədris vahidlərinin əvvəlində müxtəlif üsul və vasitələrin köməyi ilə aparılır. Hətta şagird bir məktəbdən başqa məktəbə, bir sinifdən başqa sinfə keçiriləndə də aparıla bilər. Diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur. Müəllimin qeyd kitabçasında qeyd olunur, şagird üçün nəzərdə tutulan protfolida saxlanılır.

Formativ qiymətləndirmə şagirdlərin inkişaf dinamikasını izləmək məqsəsi ilə davamlı aparılır. Bu qeydlər sinif jurnalında deyil müəllimin xüsusi qeydləri olan jurnalda yazılır. Formativ qiymətləndirmə vasitəsi ilə fənn üzrə verilmiş standartlar əsasında şagirdlərin əldə etdiyi nailiyyətlər izlənilir. Bəhs və bölmələrin mənimsənilməsində geriləyən şagirdlərlə fərdi işlər aparılır. Formativ qiymətləndirmə müxtəlif vasitə və üsullardan istifadə etməklə aparıla bilər. Bu monitorinqlər tədris ili ərzində davamlı aparılır, şagird portfolisində öz əksini tapır.

Summativ qiymətləndirmə üç mərhələdə aparılır. Kiçik summativ qiymətləndirmə (KSQ), böyük summativ qiymətləndirmə (BSQ) və yekun summativ qiymətləndirmə (Y).

Qiymətləndirmə zamanı yalnız informasiyanın mənimsənilməsi deyil, həm də məktəblilərin cəmiyyətin həyatında iştirakı və fəal vətəndaş mövqeyi qazanması üçün zəruri olan qabiliyyətlərin əldə edilməsi, habelə insan hüquqlarının, demokratik cəmiyyətin dəyərlərinin formalaşdırılması məsələləri nəzərə alınmalıdır. Əgər biliklər-dərsin məzmunu, əsas faktlar və terminlərin, səbəb-nəticə əlaqələrinin ümumiləşdirilməsi əsasında, yaxud bacarıqlar-araşdırmalar (tənqidi təhlil), kommunikasiya, qərarların qəbul olunmasında iştirak etmə, eləcə də fərdi və kollektiv fəaliyyətin təşkil xüsusiyyətlərinə görə qiymətləndirilirsə, dəyərlər-ədalət, bərabərlik, azadllq, sülh, ləyaqət və demokratiya kimi anlayışların şagirdlər tərəfindən qəbul edilməsi baxımından qiymətləndirilir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsində məqsədəuyğunluq, qarşılıqlı dəyərləndirmə, müvafiqlik və etibarlılıq, inkişafyönümlülük, şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır:

Məqsədəuyğunluluq prinsipi nəzərdə tutulmuş məqsədlə qiymətləndirmə arasında uzlaşmanı təmin edir.Qarşılıqlı dəyərləndirmə prinsipi nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsidir:sinifdaxili indikatorlar vasitəsilə - müəllimin peşəkarlıq səviyyəsi, təlimin məzmunu, irəliləyişlərin, qiymətləndirmələrin koordinasiya səviyyəsi, təlim üçün ayrılmış vaxt, şagirdin tələblərini ödəyən resurslar və tədris vasitələrinin keyfiyyəti; bilavasitə təhsil sistemi ilə bağlı indikatorlar vasitəsi ilə - dövlət standartları, tədris proqramları, adambaşına düşən təhsil xərcləri; digər indikatorlar vasitəsilə-məişət problemləri ilə bağlı məsələlər[1, s.7].Müvafiqlik və etibarlılıq prinsipləri toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyini və etibarlılığını təmin edir (validlik və relevantlıq)

İnkişafyönümlülük prinsipi təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunu təmin edir. Şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsipi qiymətləndirmə sahəsində maraqlı tərəflər arasında qarşılıqlı əməkdaşılığı və şəffaflığı təmin edir.

Bu prinsiplərdən irəli gələrək şagird nailiyyətlərinin qiymətləndirilməsində aşağıdakı vəzifələr həyata keçirilmişdir:

-ölkədə kurikulum hazırlanmasını və qiymətləndirmə fəaliyyətini bir-biri ilə əlaqələndirən tam milli sistem yaradılmışdır.

-qiymətləndirmədən təlim və tədrisin ehtiyaclarını ödəmək üçün istifadə edilir.

-təhsilin keyfiyyəti haqqında obyektiv məlumatları əldə etmək məqsədi ilə səmərəli idarəetmə üçün məktəbdaxili və milli qiymətləndirmə sistemlərinin yaradılıb, ölkənin beynəlxalq qiymətlənrimə tədiqatlarında iştirakı təmin edilir.

Ədəbiyyat

1.Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu) //Kurikulum, 2008, №1
2. Azərbaycan Respublikası Təhsil SahəsindəİslahatProqramı, Bakı, 1999
3. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006
4.BəylərovƏ. Riyaziyyat təlimi üzrəşagird nailiyyətlərinin qiymətləndirilməsində praktik fəaliyyətə dair//Kurikulum, 2008, №2
5.Bəylərov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmalara dair//Kurikulum, 2011, №2
6.ƏlizadəƏ.Ə. Yeni pedaqoji təfəkkür. Bakı, "Adiloğlu", 2001
7.ƏlizadəƏ.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqoqika, 2004
8. ƏlizadəƏ.Ə. İdrak prosesləri və hisslər. Bakı, ADPU, 2008

Основные особенности оценки достижений учащихся

Резюме

В статье рассматривается оценивание, его содержание, цель, принципы и виды оценивания. Показано, что оценка достижений учащихся рассматривается как процесс сбора информации о способности учащегося приобретать знания, использовать их и делать выводы. Взаимное сотрудничество, прозрачность и справедливость отражаются в процессе оценки.

Ключевые слова: оценка, стандарты, обучение, учебная программа, знания.

The main features of student achievement assessment

Summary

The article discusses assessment, its content, purpose, principles, and types of assessment. It is shown that the assessment of student achievement is considered as a process of collecting information about the student's ability to acquire knowledge, use it, and draw conclusions. Mutual cooperation, transparency and fairness are reflected in the evaluation process.

Key words: assessment, standards, training, curriculum, knowledge.

RƏYÇİ: dos. S.Abbasova

Günay Qəhrəman qızı Məhərrəmova [81]

MÜASİR AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ SİFƏTİN DƏRƏCƏLƏRİNİN MÜQAYİSƏLİ XARAKTERİSTİKASI

Giriş. Azərbaycan dilinin qrammatikası görkəmli dilçi alimlərimiz tərəfindən əhəmiyətli dərəcədə öyrənilmişdir. Lakin bildiyimiz kimi, dildə tədqiqə ehtiyacı olan və yaxud mübahisə doğuran məsələlər həmişə, təbii ki, olur və onlar da aydınlaşdırılmalı və təkmilləşdirilməlidir. Azərbaycan dilində belə mübahisəli məsələlərdən biri də sifətin dərəcələridir. Uzun müddət Azərbaycan dilinin qrammatikasında sifətin müqayisə dərəcələrinin sayı ayrı-ayrı müəlliflər tərəfindən müxəlif sayda verilmiş, bir dərəcə əlaməti digər dərəcə əlaməti kimi qəbul edilmişdir. Müasir dövrdə də bəzi dilçilər qeyd edilər ki, sifətin dərəcələri ilə əlaqədər olan mübahisələri aradan qaldırmaq məqsədilə Azərbaycan dilində sifətin dərəcələrini: adi, çoxaltma, azaltma, adı altında 3 yerə bölmək olar . Aydın olur ki, bu məsələ hələ də mübahisəli olaraq qalır.1948-ci ilə qədər dərsliklərdə sifətin ən azı 5 dərəcəsi verilirdi: 1) adi, 2) kiçiltmə 3) müqaisə, 4) üstünlük, 5) şiddətləndirici. Məsələni konkretləşdirmək üçün Ə.Dəmirçizadə sifət haqqındakı məqaləsində sifətin 3 dərəcəsini göstərir: adi, azaltma və müqayisə.

Adi dərəcə. Adi dərəcədə əşyanın bu və ya digər əlamət və ya keyfiyyətinin başlanğıc (normal) dərəcəsini bildirir. Məs: *ağ, yaşıl, şirin, gözəl, maraqlı və s.* bəzi dilçi alimlər belə hesab edirlər ki, adi dərəcə ayrıca kateqoriya kimi mövcud deyildir. Prof İlyiş qeyd edir ki, müqayisə dərəcələri əlaməti bildirmir və onu sifətin müqayisə dərəcələri sırasına daxil etmək düzgün deyildir.

Müqayisə dərəcəsi. "Sifətin müqaisə dərəcəsi əşyanın bu və ya digər əlamət və ya keyfiyyətinin digər əşyaya nəzərən daha yüksək dərəcəsini ifadə edir. Məlum olduğu kimi, müqayisə iki cür olur: Konkret müqayisə zamanı əlamətləri müqayisə olunan əşyaların hər ikisi göz qabağında olur. Məs: *Qarı bu qapını yavaşca açıb o biri otağa keçdi, qapını yenə də möhkəm bağladı. Bu otaq əvvəlkikndən daha gözəl idi. (S.Rəhman). Sifətin müqayisə dərəcəsinin yaranmasında sintaktik vasitələrin əhatə dairəsinə nisbətən daha genişdir"* (1, s. 14). Abstrakt müqayisə zamanı isə yalnız əlamət ya keyfiyyət çoxaldılan (yaxud azaldılan) əşya göz qabağında olur. Məsələn: *1) Birinci sırada duran qızın qumra saçları daha gözəldir (Azərbaycan jurnalı), 2) Onun pencəyi göyümtüldür.*

Azərbaycan dilində müqayisə dərəcəsi **daha** ünsürü vasitəsilə və yalnız rəng bildirilir. Bu şəkilçi müqayisə dərəcəsinin əlaməti kimi müasir dövürdə artıq tarixi qrammatikanın probleminə çevrilmişdir. Bu şəkilçilər artıq qeyri məhsuldar şəkilçilər sırasına keçmişdir. Yaxud bir neçə sözə qoşula bilər (müasir dilimizdə) **-sov, -şın** və **-imtıraq** şəkilçilərini götürək. Bu şəkilçilər barədə də həmin fikri söyləmək olar.

Üstünlük dərəcəsi. Üstünlük dərəcəsi əşyanın əlamət və ya keyfiyyətinin ən yüksək dərəcəsini ifadə edir. Azərbaycan dilində üstünlük dərəcəsi iki üsulla əmələ gəlir: 1) analitik üsula, 2) morfoloji üsul (sintaktik) üsul

Analtik üsul. Üstünlük dərəcəsi analatik üsulla sifətlərin qarşısında ***ən, lap*** ədatlarının işlədilməsi yolu ilə əmələ gəlir. Məs: *O, qızların içərisində ən böyük idi. Ən böyük mükafat müəllimlərə verildi.Bu alma lap şirindir.*

Morfoloji üsul. H.Quliyev bu haqda yazır: "Azərbaycan dilində morfoloji üsulla ***p, m, r*** samitləri vasitəsilə üstünlük dərəcəsi əmələ gətirir. Sifətin ilk hecasına ***p, m, r*** samitlərində biri artırılır. Məs: *sapsarı, gömgöy, tərtəmiz* və s. Bu cür morjoloji üsulla (*p, m, r*) dərəcə əmələ gətirmək xüsusiyətinə yalnız türk dillərinə (əsasən Azərbaycan dilinə) məxsusdur" (3, s. 12).

Qeyd: İngilis və Azərbaycan dilləri müxtəlif dil ailələrinə (Hind-Avropa və türk) mənsub olsalar da, bu dillərdə müəyyən qanunauyğunluğlar vardır.

Azərbaycan dilində dərəcə əlaməti sayılan ***çox, xeyli,az*** *və.s* sözlər əslində dərəcə əlaməti deylidir. Məsələn, ingilis dilində ***çox, xeyli, az*** sözlərinə uyğun gələn ***a most, very*** sözləri dərəcə əlaməti sayılan bilər. müqayisə edək.

1) It s the most interesting book I have ever read. Bu ən maraqlı kitabdır (oxuduğum kitablar içərisində)

2) it s a most interesting (a very interesting) book. Bu, çox maraqlı kitabdır.

1-ci cümlədə *book* (kitab) sçywnw təyin edən *interesting* sifəti *the most* (ən) ifadəsi ilə birlikdə cümlənin bir üzvü olur, eləcə də Azərbaycan dilində: Bu ən maraqlı kitabdır. 2-ci cümlədə isə ***a most*** ifadəsi zərfdir və cümlə üzvü kimi dərəcə zərfliyi (adverbial modifier of degree) funksiyası da sayilır. İnteresting sözü isə *book* sözünü təyin edir və cümlə üzvü kimi təyin (attribute) olur. *Bu çox maraqlı kitabdır*-cümləsində də **çox** sözü nitq hissəsi kimi zərfdir, bu cümlədə "nə dərəcədə" sualına cavab verir və cümlə üzvü kimi dərəcə zərifliyi olur. İngilis dilində sifətin üç dərəcəsi var: adi dərəcə (The positive degree), müqayisə dərəcəsi (The Comarative degree), üstünlük dərəcəsi (The Superlative Degree).

O.Musayev öz fikrini belə izah edir: "Adi dərəcədə olan sifət müqayisə bildirmir. Müqayisə dərəcəsində olan sifət bir əşyanın başqalarında əlamət və keyfiyyətcə fərqini bildirir. Üstünlük dərəcəsində olan sifət isə bir əşyanın bütün başqa eyni əşyalardan əlamət və keyfiyyətcə üstün olduğun bildirir. Məsələn: *Sumgait is a large city*-Sumqayıt böyük şəhərdir. *Ganja is larger than sumgait.* Gəncə Sumqayıtdan böyükdür. *Baku is the largest city in Azerbaijan.* Bakı Azərbaycanın ən böyük şəhəridir" (2, s. 219).

İngilis dilində sifətlərin müqayisə və üstünlük dərəcələri iki qayda ilə əmələ gəlir. 1)bir qisim sifətlər müqayisə və üstünlük dərəcəsində **- *er,*** üstünlük dərəcəsində *-est* qəbul edir. 2) bir qisim sifətlərin isə müqayisə dərəcəsi, ***more***, üstünlük dərəcəsi most sözü vasitəsilə əmələ gəlir. Birhecalı sifətlərin müqayisə dərəcəsini əmələ gətirmək üçün adi dərəcədə olan sifətin sonuna ***-er*** səkilçisi əlavə edilir; *Long-uzun;mall –kiçik. Longer-daha uzun; maller- daha kiçik*

[81] Azərbaycan Dövlət Dəniz Akademiyası "Xarici dillər" kafedrasının baş müəllimi. gunaymageramova@gmail.com

-er şəkilçisi **(ə)** kimi oxunur. Dilimizə bu şəkilçi "nisbətən" kimi tərcümə edilir. *This pen is longer.B*u qələm daha (nisbətən) uzundur. İki əşyanı bir-birilə müqayisə ederkən, Azərbaycan dilində keyfiyyətcə üstün olmayan əşyanı bildirən isim çıxışlıq halında olur. Həmin halın vəzifəsini ingilis dilində **than** bağlayıcı icra edilir. *Than* bağlayıcısı ingilis dilində müqayisə dərəcəsində olan sifətdən sonra gəlir. Məsələn: *This pen is longer than that pen;* Bu qələm o qələmdən uzundur. *This book is thicker than THAT book;* Bu kitab o kitabdan qalındır.

Qeyd: bəzən ***this, that*** işarə əvəzliyi ilə təyin olunmuş iki isim müqayisə edildikdə təkrar etməmək məqsədilə ilə ikinci isim əvəzinə ***one*** *sözü* işlədilir və ***o biri*** sözü vasitəsi ilə tərcümə edilir. Məsələn: *This is the longest pen;* Bu ən uzun qələmdir.

Sifətin üstünlük dərəcəsi ilə təyin olunan isimdən əvvəl adətən ***the*** müəyyən artikli işlədilir. Məsələn:*Baku is the langest city in Azərbaijan.* Bakı Azərbaycanda ən böyük şəhərdir.

Tərkibində qısa səsli olan birhecalı sifətlərin müqayisə və üstünlük dərəcələrin əmələ gətirərkən belə sifətlərin sonunda olan səssiz qoşalaşır:

Thin – nazik *thinner*- daha nazik *thinnest*- ən nazik

Big- böyük *bigger* - daha böyük *biggest* - ən böyük

Tələffüz edilməyən **-e** hərfi ilə bitən sifətlərin müqayisə və üstünlük dərəcələrini əmələ gətirərkən sözün sonundakı –**e** hərfi düşür.:

Larger – böyük *larger* – daha böyük *largest* - ən böyük

Əgər sifət –***y*** *h*ərfi ilə bitərsə və -y hərfindən əvvəl səssiz olarsa, belə sifətlərin müqayisə və üstünlük dərəcəsini əmələ gətirərkən –y hərfi –**İ** hərfinə çevrilir, sonra isə **-er** və **-est** şəkilçiləri əlavə edilir.

Adi dərəcə	Müqayisə dərəcəsi	Üstünlük dərəcəsi
Early	*earlier*	*earliest*
Easy	*easier*	*easiest*
busy	*busier*	*busiest*

Sifət **y** hərfi ilə bitərsə və y hərfindən əvvəl səsli gəlirsə, belə sifətlərin müqayisə və üstünlük dərəcələrində y hərfi olduğu kimi qalır: Gay – şən, Gayer- daha şən, Gayest- ən şən

Adi dərəcə	**Müqayisə dərəcəsi**	**Üstünlük dərəcəsi**
Long- uzun	*longe*r- daha uzun	*longest*-ən uzun
*Shor*t- qısa	*shorte*r-daha qısa	*shortest*- ən qısa
Cold- soyuq	*colde*r-daha soyuq	*coldest*- ən soyuq

Sonu –***y, -e, -er, -ov*** hərfləri ilə bitən iki hecalı sifətlərin müqayisə və üstünlük dərəcələri də bu yol ilə əmələ gəlir:

Easy-asan	easier-daha asan	easiest-ən asan
Dirty-çirkli	dirtier-daha çirkli	dirtest-ən çirkli
Narrow- dar	narrower-daha dar	narrowest-ən dar
Clever –ağıllı	cleverer-daha ağıllı	cleverest-ən ağıllı
Simple-sadə	simpler-daha sadə	simplest-ən sadə

Vurğusu ikinci hecaya düşən hecaya düşən bəzi ikihecalı sifətlərin də müqayisə və üstünlek dərəcləri bu yol ilə əmələ gəlir:

Polite –nəzakətli	politer- daha nəzakətli
Severe- sərt	severer- daha sərt
Sincere- səmimi	sincerer- daha səmimi

Bütün çoxhecalı və əksər ikihecalı sifətlərin müqayisə dərəcəsi mori (çox, daha), üstünlük dərəcəsi most (**ən, ən çox**) sözləri vasitəsilıə ilə əmələ gəlir:

Difficult-çətin; *More difficult*-daha çətin; *Most* d*ifficult*- ən çətin

İngilis dilində bəzi sifətlərin müqayisə və üstünlük dərəcələri supletivizm, yəni soz kökünün dəyişməsi yolu ilə əmələ gəlir:

Good-yaxşı	*letter*- daha yaxşı	best- ən yaxşı
Bad—pis	*worse*-daha pis	worst-ən pis
Little-kiçik	*less*- daha kiçik	least-ən kiçik
Many –cox	*more*-daha çox	most-ən çox

Bəzi sifətlərin üstünlük və müqayisə dərəcələri eyni şəkildə olur:

Far-uzaq	farther-daha uzaq	farthest
Near-yaxın	further	furtest-ən uzaq
Late-sonra	nearer-daha yaxın	nearest-ən yaxın
last-sonra	later- daha sonrakı	Latest-ən son

Nəticə. *Late* və *later* sifətləri vaxt göstərir. Latest sifəti "son"mənasında işlədilir. Latter və last ardıcılıq gostərərkən işlədilir. *Last* və *latest* sifətləri dilimizə "son" sözü vasitəsi ilə tərcümə edilir. Hər iki sifət dilimizə "son" sözü ilə tərcümə edilsə də bunların arasında məna çalarlığı vardır. Bunların arasında məna çalarlığı vardır. Yaşayan bir şəxsin "son əsəri" haqqında danışarkən latest sifəti işlədilir. Uzeyir Hajıbeyov s last comasition is the opera Firuza. Üzeyir Hacibəyovun son əsəri "Firuzə" operasıdır. İngilis dilində müqayisə bildirən cümlələrdə sifətin və ya zərfin müqayisə dərəcəsi ***the …the*** ilə də

işlədilir. Belə cümlələrdə olan ***the…the*** dilimizə *nə qədər… o* ***qədər*** kimi tərcümə edilir. *The sooner you learn the language the better you evill knov it.* Dili nə qədər tez öyrənsəniz, bir o qədər yaxşı bilərsiniz.

İstifadə edilmiş ədəbiyyat

1. Rəhimov İ., Hidayətzadə T. İngilis dilinin praktik qrammatikası. B., 1966, s. 14.
2. Musayev O. İngilis dilinin qrammatikası. B., 1979, səh. 219
3. Quliyev H. Müxtəlif sistemli dillərdə felin sematik təsnifatı. B., 2001, s. 12.

Açar sözlər: sifətin dərəcələri, ingilis dili, Azərbaycan dili, adi dərəcə, müqayisə dərəcəsi üstünlük dərəcəsi
Ключевые слова: степень прилагательного, английский язык, азербайджанский язык, обыкновенная степень, сравнительная степень, превосходная степень.
Key words: degree of adjective, English language, Azerbaijani language, ordinary degree, degree of comparison, degree of superiority

Резюме

В статье рассматриваются степени сравнения прилагательных в современной азербайджанской и английской литературных языках, их сравнительная характеристика, а также суперлативная форма прилагательных и создание новых прилагательных с помощью изменения корни слова.

Summary

The article investingates the degrees of comparison in Engilish lierary language and in its comparative e characteristics with Azerbaijani, also the superlotiv e degree of some adjectives in Engilish, it means their forming by chamging the roots of the words

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Həbib Mirzəyev

Fəxriyyə Qamboy qızı Abdullayeva [82]

İNGİLİS DİLİNDƏ TƏSİRLİ VƏ TƏSİRSİZ FEİLLƏRİN SADƏ CÜMLƏ TƏRKİBİNDƏ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Giriş. Müasir ingils dilində bir çox feillər həm təsirli, həm də təsirsiz ola bilərlər. Bu cür feillər eyni fonetik qabıq altında yerləşib, müxtəlif mənaları ifadə edən feillərdir. Bunları bir feil kimi başa düşmək səhv olardı. Həmin fonetik qabıq altında neçə məna vardırsa, demək olar ki, bir o qədər də feil vardır.

M.Həsənov "Müasir Azərbaycan dilinin leksikası" adlı əsərində qeyd edir ki, "Ancaq qeyd etmək lazımdır ki, bu dilin əsas xüsusiyyəti feillərin təsirli və təsirsiz deyərək iki kateqoriyaya bölünməsi deyil, bu bölünmənin özünəməxsusluğudur. İngilis dili feillərinin çoxmənalılığını nəzərə almadan bu özünəməxsusluluğu düzgün başa düşmək qeyri-mümkündür. Bundan başqa müasir ingilis dilində bir çox feillər həm təsirli, həm də təsirsiz olduğundan feillərin bu əlamətə görə təsnifi üçün eyni feilin təsirlilik və təsirsizlik mənası arasında olan münasibəti nəzərə almaq vacibdir" (1, s. 260).

Bu münasibət feilləri əsas və törəmə mənalarına görə qruplaşdırmağa imkan verir. Jiqadlo təsirli və təsirsiz feillər kimi işlənən eyni feilləri ifadə etdikləri əsas və törəmə mənalarına görə üç qrupa ayırmışdır: 1) Təsirli feilləri və əsas mənasında təsirli, törəmə mənasında təsirsiz olan feillər; 2) Təsirsiz feillər və əsas mənasında təsirsiz, törəmə mənsında təsirli olan feillər; 3) Malik olduğu iki mənada (təsirlilik və təsirsizlik) heç biri törəmə olmayan feillər.

V.N.Larseva "Müasir ingilis dilinin yaranması və inkişafı" adlı əsərdə təsirli və təsirsiz feillərin əsas və törəmə mənalarından danışarkən V.Jiqadloanya nisbətən daha geniş şəkildə izah etdiyi bir fikirdən yan keçmək qeyri-mümkündür. O, adətən təsirsiz olan bəzi feillərin frazeoloji birləşmələrdən kənarda isə bu feillər yalnız təsirsiz feil rolunu oynayır. Düzdür, bu tip feillərin sayı məhduddur, ancaq buna baxmayaraq biz istərdik ki, feillərin əsas və törəmə mənasına əsasən V.Jiqadlonun verdiyi təsnifata bir əlavə edərək ikinci qrup feilləri tərkibində xüsusi yarımqrup ayıraq.Frazeoloji birləşmə tərkibində təsirli feillərə çevrilən təsirsiz feillər (2, s. 156).

Beləliklə, eyni feilin təsirlilik və təsirsizlik mənası arasındakı münasibətin müxtəlifliyinə əsaslanan təsnifat bizə təsirlilik və təsirsizlik ifadə edən feilləri hərtərəfli izah etməyə imkan verir.

Birinci qrup feillər haqqında danışarkən qeyd etmək lazımdır ki, yalnız təsirli feil kimi işlənən feillərin sayı müasir ingils dilində çox deyildir.

Məsələn:

to glue, uncover, place, understand, seat, mark və s.

They would never understand or tolerate this clandestine relationship with Clyde …

You place it in a lack of appreciation of the value of human life.

Bir çox təsirli feillər mütləq şəkildə işlədilə bilər. Bu onunla əlaqədardır ki, hərəkət vasitəsiz tamamlıqsız ifadə olunur. Bu cür mütləqlik aşağıdakılarla şərtləndirilir:

a) hərəkətin obyekti, yəni tamamlıq konteksdən məlum olduqda: *I wanted to write (a letter) last night, but it was so cold that Phil and I went straight to bed. I'll certainly be glad when my tooth is fixed for I con't eat (anything) now.*

b) tamamlıq ümumi mənaya malik olduqda feil nəyi isə etmək bacarığını ifadə etdikdə (*to have to faculty of*): *He dances very well. She speaks French well.*

"Deyilənləri nəzərdən keçirdikdə belə bir sual meydana çıxır: təsirsiz və mütləq şəkildə işlədilən təsirli feillərin cümlədə vasitəsiz tamamlıq qəbul etmədən işlədilməsini nəzərə alaraq mütləq təsirli feilləri təsirsiz feillər sırasına qoymaq olarmı?" (3, s. 112-123).

Bu suala cavab verən məşhur rus dilçisi M.Qanşina bu halın qeyri-mümkünlüyünü qeyd etmişdir ki, biz də bu fikirlə tamamilə razıyıq. Çünki göstərilən misallardan görünür ki, təsirli feillər vasitəsiz tamamlıqsız işlənərək təcrid edilmiş bir hal alır. Lakin bu təcridlik çox asanlıqla aradan götürülür, yəni hərəkətin obyekti istənilən vaxt bərpa edilir.

Məsələn:

Have you heard, Cesare?

… and tell me how you heard all this?

Lakin təsirsiz feillər heç bir zaman tamamlıq qəbul edə bilməzlər.

Məsələn:

She rose quickly and standing between him and company, threw the window open as if to look out. She was sitting at the table reading out monotonous strings of figures…

Bəzən təsirli feil tərəfindən ifadə olunan hərəkət yenidən hərəkətin icraçısına qayıdır, yəni hərəkət öz əksini icraçı üzərində tapır. Bu cür feillər qaydış feilləri adlanır və qayıdış əvəzlikləri ilə bir işlənir.

Məsələn:

I hardly know myself.

He crossed himself, and, rising, began to dress.

I accuse myself of the sins of jealousy and anger <and of unworthy thoughts against one, who has done me no wrong.

Did he fall from the rampart and hurt himself?

The Gadfly raised himself against the doctor's knee, and with wide open eyes, looked straight upon the crucifix.

… he hoped to hide – to lose himself and escape – if the fates were only kind

[82] Azərbaycan Texniki Universiteti "Xarici dillər" kafedrasının müəllimi. f.abdullaeva@gmail.com

… She very seldom herself allowed to look at them.

Qanşinanın fikrinə görə qayıdış əvəzlikləri təsirli feillərə əlavə olunduqda, yəni qayıdış əvəzlikləri təsirli feillərlə bir işləndikdə təsirli feillər təsirsiz qayıdış feillərinə çevrilir. Lakin biz bu fikirlə razı deyilik. Çünki vasitəsiz tamamlıq rolunda çıxış edən qayıdış əvəzlikləri sözsüz ki, yalnız təsirli feillərlə işlənə bilər. Bildiyimiz kimi isə təsirsiz feillər vasitəsiz tamamlıq qəbul etmir. Təsirli feillər qaydış əvəzliyinin sintezini təsirsiz-qaydışı feilərlə nəticələnmədiyini aşağıdakı misalla izah etmək olar. Məsələn: *She washes her baby.*

1 – əvəzlik (şəxs əvəzliyi)
2 – feil (təsirli)
3 – tamamlıq (vasitəsiz)

Əgər biz tamamlığı şəxs əvəzliyi ilə ifadə etsək, sözsüz ki, feilin təsirliliyi itməyəcək.

She washes him (*him* – obyektin halında işlənən şəxs əvəzliyidir).

Bu nöqteyi-nəzərdən çıxış etsək görərik ki, *I washes myself* cümləsi yuxarıda qeyd olunmuş cümlə ilə eyni struktura malikdir, yəni

I was myself

1 – əvəzlik (şəxs əvəzliyi)
2 – feil (təsirli)
3 – tamamlıq (vasitəsiz)

Bu iki misalda yeganə fərq ondan ibarətdir ki, *I washes myself* cümləsidə təsirli feilin tələb etdiyi vasitəsaiz tamamlıq qayıdış əvəzliyi vasitəsilə ifadə olunur, yəni hərəkət icraçıya yönəlir, hərəkətin obyekti hərəkətin icraçısından törəyir. Lakin bizim fikrimizcə, bu fərq təsirli feilləri təsirsiz-qayıdış feillərinə çevirməyə əsas vermir. Çünki vasitəsiz tamamlıq isim, şəxs əvəzliyi, məsdər və sairə ilə ifadə oluna bildiyi qayıdış əvəzlikləri ilə də ifadə oluna bilər.

V.J.Kodukov "Dilçiliyə giriş" adlı əsərində əvəzliklər haqda yazır: "Müasir inglis dilində qayıldış əvəzliklərinin cümlədə buraxılması artıq təsadüfi hal deyil. Bu isə, hərəkətin subyektiə yönəldilməsinin əvəzliksiz də tam aydın olmasından irəli gəlir, yəni qayıdış feilləri mütləq şəkildə işlədilir. Mənaca qayıdış feillərinə oxşar digər feil qrupu qarşılıqlı feillərdir. Bu növ feilləri xüsusi feil forması ilə deyil, təsirli feillərlə qarşılıqlı əvəzliklərin birləşməsi ilə ifadə olunur. Bu halda qarşılıqlı əvəzlik (*each other, one another*) vasitəsiz tamamlıq rolunda çıxış edir (4, s. 66-73).

Nəticə. Əsas mənası təsirli feillər qrupu daha çoxsaylıdır. Bu növ feillərə hərəkətin birbaşa obyektə yönəldiyini göstərən *to center, to treat, to char, to restore, to trim, to make* və sairə kimi fellər və obyekti feilin hərəkətini dəqiqləşdirən və məhdudlaşdıran *to sing, to pay, to tell, to answer, to ask, to enter, to remember* və sairə kimi feillər aiddir.

It is the customary passive role of women that makes her Gimmick necessary to her.

She began to sing the old Hungarian of the man who loses first his horse, then his home and his sweet-hearts.

He was critical about music and did not often ask her to sinq.

… he had treated his mother as well as the in which his career in Kansas City had been suddenly interrupted.

Əsas mənası təsirli olan bir çox feillər törəmə təsirlik mənasına malikdir. Bu tip feillərə *to soil, act, rub, sell, read, pay* və sairə aiddir.

This chest doesn't lock – Bu sandıq dağlanmır və sairə.

Onların törəmə mənası əsas mənaya əsaslanaraq inkişaf edir, sintaktik və semantik cəhətdən əlaqəli şəkildə çıxış edir. Bəzi xarici qramatistlər, o cümlədən M.Qanşinaya görə bu növ feillər təsirli fel olub törəmə mənasında təsirsiz feil kimi çıxış edir və bu keçid prosesi nəticəsində təsirsizlikdən təsirliyə keçən feil məlum növdən məchul növə çevrilməyəcək məchulluq mənası ifadə edir.

İstifadə edilmiş ədəbiyyat

1. Həsənov M. Müasir Azərbaycan dilinin leksikası. Bakı, 1988, səh. 260.
2. Larseva V.N. Müasir ingilis dilinin yaranması və inkişafi. Moskva: Наука, 1962, səh. 156.
3. Varno A., Kaşina M.A. Müasir ingis dilinni leksikası. Bakı: Elm, səh.112-123.
4. Kodukov V.J. Dilçiliyə giriş, Moskva: Просвкшение, 1979, səh: 66-73.

Key words: active verbs, passive verbs, English language, sentence, development
Açar sözlər: təsirli feillər, təsirsiz feillər, İngilis dili, cümlə, inkişafş
Ключевые слова: активные глаголы, пассивные глаголы, английский язык, предложение, развитие

Простые предложения действительных и неактивных глаголов в английском языке и их лексико-семантическая характеристика

Резюме

В статье рассматриваются некоторые типы связочные глаголы в современном английском языке и их эквиваленты на Азербайджанском языке.

Говоря о главных и производных значениях активных и пассивных глаголов, нельзя обойти вниманием мысль, которую Л. С. Бархударов разъяснил шире, чем В. Жигадло. Некоторые глаголы, которые обычно являются неактивными, вне фразеологических сочетаний эти глаголы играют лишь роль пассивных глаголов.

Simple sentences of active and inactive verbs in english lexical-semantic characteristics in its content

Summary

In the article, some types of linking verbs in contemporary English and their equivalents in Azerbaijani language are considered. Speaking about the main and derived meanings of active and passive verbs, one cannot ignore the idea that L.C.Barkhudarov explained more than V.Жигадло. Some verbs, which are usually inactive, without phraseological combinations, these verbs play only the role of passive verbs.

Rəy verən: filologiya elmləri doktoru, prof. Yusif Süleymanov

Züleyxa Hafiz qızı Zeynalova [83]

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ANTONİMLƏRİN LEKSİK-SEMANTİK VƏ STRUKTUR XÜSUSİYYƏTLƏRİ

Giriş: Leksikologiya dilçiliyin əsas bölmələrindən biri hesab edilir. Dildəki sözlərin hamısı birlikdə dilin leksikasını (lüğət tərkibini) təşkil edir.Leksikanı öyrənən dilçilik bölməsi leksikologiya adlanır. Leksikologiyada sözlərin mahiyyəti, onların formaca və məzmunca əmələ gətirdiyiqruplar, sözlərin mənşəyi və işlənmə dairəsi öyrənilir.

Leksikologiya dilçiliyin daim geniş tətbiq olunan sahələrindən biridir.Biz leksikologiya şöbəsində sözün leksik və qrammatik mənasını, təkmənalı və çoxmənalı sözləri, sinonimləri, omonimləri, antonimləri və digər sahələri öyrənirik.Leksikologiyanın hər bir sahəsi İngilis və Azərbaycan dillərinin tətbiq olunmasında geniş əhəmiyyətə malikdir.

Əsas hissə. M.Hüseynzadə "Müasir Azərbaycan dili" adlı əsərində yazır: "Bütün dillərdə olduğu kimi, əksmənalı sözlər İngilis və Azərbaycan dillərinin leksikologiyasında da əsas bölmələrdən biri hesab edilir. Hər iki dildə istifadə olunan əksmənalı sözlər arasında bir çox ortaq və fərqli cəhətlər var. İngilis və Azərbaycan dillərində istifadə olunan əksmənalı sözlərin ən geniş yayılmış şöbəsi antonim sözlərdir. Antonim yunan dilində "başqa sözə qarşı əks məna daşıyan söz" deməkdir. Ümumilikdə antonimlər leksik mənasına görə bir-birinə əks olan sözlərdir. Antonimlər İngilis və Azərbaycan dillərinin lüğət tərkibinin zənginləşməsində əsas rol oynayır" (1, s. 45). Hər iki dildə, Azərbaycan və İngilis dillərində antonim sözlərin ifadə etdiyi məfhumlar insanın iş fəaliyyəti və onu əhatə edən aləmə qarşı münasibətilə əlaqədardır.Bu cəhətdən antonimlərin müxtəlif məna növləri var:

1) Əlamət, keyfiyyət, xüsusuiyyət anlayışlarını bildirən antonimlər: Məsələn; ağ-qara, soyuq-isti, pis-yaxşı, tənbəl-çalışqan,zalım-ədalətli, sərt-mülayim
2) Vaxt anlayışlarını bildirən antonimlər: Məsələn; səhər-axşam, gecə-gündüz, yay-qış, tez-gec, dünən-sabah
3) Məkan anlayışı bildirən antonimlər: Məsələn; irəli-geri, ora-bura, aşağı-yuxarı, ön-arxa içəri-bayır, xarici-daxili
4) Ölçü və miqdar anlayışlarını bildirən antonimlər: Məsələn; böyük-kiçik, iri-xırda, uzun-qısa, az-çox, yüngül-ağır, alçaq-hündür, bütöv-yarımçıq
5) Hal-hərəkət və vəziyyət anlayışı bildirən antonimlər: Məsələn; açmaq-bağlamaq, gülmək-ağlamaq, tikmək-sökmək, ağarmaq-qaralmaq, yaşamaq-ölmək, gəlmək-getmək, oturmaq-durmaq.
6) Təbiət hadisləri ilə bağlı anlayışları bildirən antonimlər: Məsələn; işıq-qaranlıq, donmaq-istilənmək, üşümək-qızınmaq, quraqlıq-yağmurluq.
7) Qeyri-müəyyən kəmiyyət bildirən antonimlər: Məsələn; az-çox, bir az-lap çox, az-minlərcə, az-az - çox-çox.
8) İstiqamət,tərəf ifadə eden antonimlər: Məsələn; sağ-sol, o tərəf-bu tərəf, ora-bura.
9) Təsdiq və inkar bildirən antonimlər: Məsələn; bəli-xeyr, hə-yox.
10) Qeyri-müəyyən şəxs və ya əşya bildirən antonimlər: Məsələn; bu-o, biri-hamı.

Ortaq cəhətlərlə yanaşı həmçinin, hər iki dildə işlənən əksmənalı sözlər arasında fərqli xüsusiyyətlərdə var.Məsələn: İngilis dilində istifadə olunan əksmənalı sözlər morfoloji quruluşuna görə iki böyük qurupa bölünür:

1) kök antonimlər (root antonyms)
2) düzəltmə antonimlər (derivational antonyms)**.**

"Kök (root) antonimlərin müxtəlif kökləri olur. Məsələn: "to love" (sevmək)- "to hate" (nifrət etmək), "long" (uzun)- "short" (qısa), "day" (gün)- "night" (gecə); və başqalarını kök (root) antonimlərə nümunə göstərə bilərik: " The new town of Whitney Clay had swallowed up the old village" cümləsindəki "new" (təzə)- "old" (köhnə) sözlərini, "It may be near, it may be distant; while the road lasts nothing turns me" cümləsindəki "distant" (uzaq)-"near" (yaxın); "If a man and woman sinned, let them go for into the desert to love or loathe each other there" cümləsindəki "loathe" (nifrət etmək)- "love" (sevmək); "So you think your friend in the city will be hard upon me, if I fail a payment?"-says the trooper, looking down upon him like a giant". My dear friend, I am afraid he will - returns the old man looking up at him like a pigmy" cümləsindəki "giant" (nəhəng)- "pigmy" (cırtdan) sözlərini kök (root) antonimlərə göstərə bilərik" (2, s. 247).

Düzəltmə antonimlərin eyni kökləri olsa da müxtəlif şəkilçilərin köməyi ilə əmələ gəlir. Məsələn: "regular" (qaydalı) - "irregular" (qaydasız), "fruitful" (məhsuldar) - "fruitless" (qeyri-məhsuldar). Düzəltmə antonimlər bu prefikslərin sayəsində əmələ gəlir: "un", "dis", "non", "ful", "less", "in"; (il, im, ir); Məsələn: "successful" (müvəffəqiyyətli) "-unsuccessful" (müvəffəqiyyətsiz), "selfless" (fədakar) - "selfish" (axmaq), "approve (bəyənmək)-disapprove"(bəyənməmək)- "Who am I to approve or disapprove?", "engage (məşğul olmaq)- disengage" (məşğul olmamaq)- "How soon will you be disengaged?" "I didn`t say you i was engaged". "Audible (eşidilən)- inaudible" (eşidilə bilinməyən) - "Little audible links, they are chaining together great inaudible feelings and purposes.

Ancaq Azərbaycan dilində antonimlərin morfoloji quruluşuna görə yalnız bir növü var: kök antonimlər. Məsələn: isti-soyuq, yaxşı-pis, yalan-doğru və başqalarını buna nümunə göstərmək olar. Yəni Azərbaycan dilində şəkilçi vasitəsilə yaranan antonimlər əsl antonimlər hesab edilmir. Məsələn: dadlı-dadsız, duzlu- duzsuz, yağlı-yağsız. J.Lyons və bir neçə İngilis dilçisi İngilis dilində antonimləri xüsusi və müqayisəli adda iki əsas qrupa bölmüşdür. Xüsusi antonimlərə bu sözləri nümunə göstərə bilərik: "love (sevgi)- attachment (sədaqət)- liking (xoşlamaq)- indifference (laqeydlik)- antipathy (antipatiya)- hate" (nifrət). L.Bloonifield qeyd edir: "Həmçinin İngilis və Azərbaycan dillərində antonimlər ziddiyyətin

[83] Azərbaycan Dövlət Dəniz Akademiyası "Xarici dillər" kafedrasının müəllimləri. asmar.huseynova@gmail.com

dərəcisinə görə tam və nisbi olmaqla iki yerə ayrılır. Mənaca bir-birinin tam və mütləq ziddini təşkil edən antonim sözlərə **tam antonimlik** deyilir.Məsələn: ağ-qara , dağ- dərə, yay-qış, alt-üst və s. Ziddiyyətin çox olduğu tam antonimlərə aşağıdakı nümunələrdə rast gələ bilərik: " İf you have obeyed all the rules are no good". M.Wilsonun əsərindəki bu nümunədə "good" (yaxşı) və "bad" (pis) sözlərini, "He was alive, not dead" Shaw-nun əsərindəki bu nümunədə "alive" (diri) və "dead" (ölü) sözlərini, "You will see if you were right or wrong" Cronin əsərindəki bu nümunədə "right" (düz) və "wrong" (səhv), "The whole was big, oneself was little" Galsworthy-nin əsərindəki bu nümunədə "big" (böyük) və "little" (balaca) sözlərini, "There is so much good in the worst of us, and so much bad in the best of us, That it hardly becomes any of us To talk about the rest of us" Hock-un əsərindəki "good" (yaxşı), "bad" (pis), worst (ən pis) və "best" (ən yaxşı) sözlərini tam antonimlərə nümunə göstərə bilərik.Başqa bir nümunə W.Shakesper –in " Sonnet LXXVI" (XXI Soneti)- dən olan nümunəni göstərə bilərik: "For as the sun is daily new and old, So is my love still telling what is told."- nümunədə "new"(yeni) və "old"(köhnə) sözləri bir-birinə qarşı əkslik təşkil edir.Mənaca bir-birinin şərti və nisbi ziddini təşkil edən antonim sözlərə nisbi antonimlər deyilir.Məsələn: ağ-qırmızı, ağ-boz, ağ-yaşıl, qış-payız (3, s. 564). Azərbaycan və İngilis dillərində əksmənalı sözlər iki yolla əmələ gəlir: 1)Dilin öz daxili imkanları hesabına yaranan antonimlər; 2) Başqa dillərdən alınan antonim sözlər.

M.Briab öz məqaləsində yazır: "Antonimlər və ya əksmənalı sözlər İngilis və Azərbaycan dillərinin bütün sahələrində: qrammatikasında, metodikasında, ədəbiyyatında və digər başqa şöbələrində rast gəlinən bir sahədir. Biz öz dilimizin və İngilis dilinin qrammatikasında bütün əsas nitq hissələrində antonim sözlərə rast gələ bilərik.İngilis dilində isimlər antonimlərlə zəngin deyil. Ancaq Azərbaycan dilində kifayət qədər isim olan antonimlərə rast gəlmək olar. Məsələn: İsim olan antonimlər: "good" (xeyir)- "evil" (şər), "love" (sevgi)- "hatred"(nirət), işıq- zülmət, insanlıq-vəhşilik, gecə-gündüz, mərhəmət-qəzəb, nəşə- qüssə, sülh- müharibə, asayiş-sakitlik, baş-ayaq, birlik-ayrılıq, toy-yas, xeyir-zərər, tərəqqi-tənəzzül.Əksər antonimlər sifətlərdən təşkil olunur (4, s. 314).

Sifət olan antonimlərdə "high"(hündür)- "low" (alçaq), "friendly" (dostcasına) - "hostile" (düşməncəsinə), "stong" (güclü)- "weak" (zəif), "wide" (geniş) - "narrow" (dar), beautiful (gözəl) - ugly (çirkin), big (böyük) - small (balaca), bright (parlamaq) – dim (tutqun), old (yaşlı, qoca) – young (gənc, cavan), yaxşı-pis, bərk-boş, doğma-yad, qalın-nazik, şirin-acı, şad-qəmgin, mərd-xəsis, iri-xırda, ağır-yüngül, xəstə-sağlam, qısa-uzun, uca-alçaq, təzə-köhnə, təmiz-çirkin, geniş-müxtəsər, qaranlıq-işıqlı, pinti-təmiz, seyrək-sıx, tənbəl-çalışqan, ağıllı-səfeh, düz-yanlış, isti-soyuq, ağ-qara, ağıllı-dəli, yüngül-ağır, ədalətli-zalım, alçaq-hündür, açıq-örtülü, ac-tox, ucuz-baha, igid-qorxaq, dar-enli, sakit-dəcəl, boş-dolu, düz-əyri, asan-çətin, yüksək-alçaq, kök-arıq, xoşbəxt-bədbəxt. Fellər antonimlərin çoxluğuna görə sifətdən sonra ikinci yerdə durur. Fel olan antonimlər: "to lose" (itirmək) - "to find" (tampaq), "to live" (yaşamaq) - "to die" (ölmək), "to open" (açmaq) - "to close" (bağlamaq), gəlmək-getmək, yazmaq-pozmaq, durmaq-oturmaq, atmaq-tutmaq, enmək-qalxmaq, əkmək-biçmək, gülmək-ağlamaq, yanmaq-sönmək, küsmək-barışmaq, tapmaq-itirmək,susmaq-danışmaq,soyunmaq-geyinmək, açmaq-bağlamaq. Zərf olan antonimlər: irəli (forward) – geri (back), gec (late) - tez (early), dünən (yesterday) – sabah (tomorrow), axşam (evening) - səhər (morning), əvvəl (before) – axır (final). Say olan antonimlər: az (little) – çox (many), xeyli (a lt of) - bir az (a little) və başqaları. İngilis dilində köməkçi nitq hissələrində antonim sözlərə çox az halda rast gəlinir. Məsələn: hə(yes) - yox (no), xeyir (no) - bəli (yes) və s.

İngilis və Azərbaycan dillərində çoxmənalı sözlərin bir və ya bir neçə antonimi ola bilər. Məsələn: "dull" (maraqsız) sifətinin antonimləri bunlardır: "interesting (maraqlı), "amusing" (əyləncəli), "entertaining" (əyləncəli) və "active" (aktiv), başqa mənasına görə "deficient in interest"(maraqsız), və "clever" (ağıllı), "bright" (parlaq), "capable" (bacarıqlı) sözləri bu sözün antonimi ola bilər.

Xüsusilə biz İngilis və Azərbaycan ədəbiyyatında şair və yazıçıların əsərlərində əksmənalı sözlərlə tez-tez qarşılaşırıq. Antonimlər bədii əsərlərdə ziddiyyəti oxucuya daha qabarıq şəkildə çatdırılmasında və emosional gərginliyin artmasına yaxından kömək edir. Məhz bu səbəblərə görə istər əvvəlki dövrlərdə, istərsə də müasir İngilis və Azərbaycan dillərində yazıçı və şairlər antonimlərdən yüksək səviyyədə istifadə etmişdir. Bunun əsas səbəblərindən biri oxucuya əsərdə baş verən hadisələri daha real,olduğu kimi çatdırmaq olmuşdur. Nümunə olaraq William Shakespearin "Romeo and Juliet' əsərində istifadə olunan antonimlərə nəzər salaq: "My only **love** sprang from my only **hate**.; Too **early** seen **unknown,** and **known** too **late!** Bu nümunədə işlənən antonim sözlər bunlardır: love (sevgi)-hate (nifrət), early (erkən) – late (gec), unknowon (naməlum) – konown (məlum).

R.S.Ginzburq qeyd edir: "İngilis ədəbiyyatından K.Marx və F.Engelsin "Manifesto of the Communist Party" əsərində istifadə olunan əksmənalı sözləri nümunə kimi göstərmək olar: "The history of all hitherto existing societies is the history of class struggle. **Freeman** and **slave, patrician** and **bplebeian, lord** and **serf, guild-master** and **journeymen**, in a word, **oppressor** and **oppressed,** stood in constant opposition to one another, carried on an uninterrupted, now hidden now open fight, a fight that each time ended, either in revolutionary re- construction of society at large, or in the common ruin of the contending classes" mətndə "freeman"-azad insan və "slave" - qul, "patrician" - zadəgan və "plebeian" - aşağı təbəqədən olan insan, "lord" - hökmdar və "serf" - qul, "guild-master" - gildiya sahibi və" journeyman" - kiçik usta, "hidden"-gizli və "open fight" - açıq mübarizə oppressor (zülm verən) və oppressed (zülmə məruz qalan) kimi sözlər bir-biri ilə antonimlik təşkil edir (5, s. 116).

Biz həmçinin İngilis və Azərbaycan dillərində işlənən atalar sözləri və məsəllərdə də antonim sözlərə geniş şəkildə rast gələ bilərik. Məsələn:

After a storm comes fair weather, after sorrow comes joy- Hər zülmət gecənin bir nurlu sabahı var.

An hour in the **morning** is worth two in the **evening**-Axşamın xeyrindənsə sabahın şəri yaxşıdır.

Never put off till **tomorrow** what you can do **today** –Bu günün işini sabaha qoyma.

You can`t teach an **old** dog **new** tricks- Qoz beli qəbir düzəldər. **Knowledge** is **light, ignorance** is **darkness** – Bilik aydınlıqdır, cahillik qaranlıq.

İstifadə edilmiş ədəbiyyat

1. Hüseynzadə H. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1974, səh: 45.
2. Azərbaycan dilinin izahlı lüğəti. I cild.Bakı, 1967, səh: 247.
3. Bloonifield L. Language. Chicago: The University of Chicago Press, 1984, 564 p.
4. Briab M. Semantics: Studies og the science of meaning. N.Y.Dover Publications, Inc., 1964, 314 p.
5. Ginsburg R.S. A Course in Modern English Lexicology. M., 1978, p. 116.

Açar sözlər: antonim, morfologiya, antonimlər, lüğət tərkibi, inkişaf

Key words: antonym, morphology, antonyms, vocabulary composition, development

Ключевые слова: антоним, морфология, антонимы, словарный состав, яхяразвитие.

Antonymous words in English and Azerbaijani languages, their features

Summary

Antonyms (Greek "anti" - opposite, "onyma"- name) are words belonging to the same part of speech, identical in style and having opposite denotative meanings. For example: "light" - Antonyms are usually believed to appear in pairs. Yet, this is not true in reality. For instance, the adjective "cold" may be said to have "warm" fro its second antonym, and the noun "sorrow" may be very well contrasted with "gaiety". We can base on the definition antonyms as two or more words belonging to the same pat at some contexts.

Антонимные слова в английском и Азербайджанском языке, их особенности

Резюме

Антонимы-это слова одной части речи, различные по звучанию и написанию, имеющие прямо противоположные лексические значения.

Таким образом, в котекстуальной антонимии антонимические отношения слов с прямым значением возможны, и тогдо эти пары слов несут эмфатическую нагрузку и выполняют особую стилистическую функци в предложениях.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Kəmalə Mehdixanlı

Hikmət Yusifov, Balabəyim Qədimova [84]

AZƏRBAYCAN DİLİNDƏ İNKARLIQ KONSTRUKSİYALARI

İnkarlıq kateqoriyası qədim tarixə malik olub, həmişə alimlərin diqqətini cəlb etmişdir. İnkarlıq elmin müxtəlif sahələrinin: formal məntiq, fəlsəfə, dilçilik və s. tədqiqat obyektidir.

Dilçilikdə inkarlıq mühüm rol oynayır və cümlənin real aləmdə mövcud olmayan elementləri arasında qurulan əlaqəni göstərən və ya əks təsdiqedici müddəanın danışan tərəfindən yalan kimi qəbul oluna biləcəyini göstərən məna komponenti deməkdir.

"İzahlı dilçilik terminləri lüğəti"ndə inkar belə izah olunur: İnkar – cümlə üzvləri arasındakı əlaqənin real şəkildə mövcud olmadığının leksik, frazeoloji, sintaktik və s. vasitələrlə göstərilməsi, ifadə edilməsidir [2, s. 235].

Son illərdə dilçilik ədəbiyyatında inkarlığın mahiyyəti, xüsusiyyəti və funksionallıq məsələsi ilə bağlı xeyli sayda əsər yazılmışdır ki, bu da inkarın dilin fundamental kateqoriyalarından biri olduğunu göstərir. Həqiqətən də, inkarlıq dünyanın tamamilə bütün dillərinə xas olan universal, semantik bir kateqoriyadır. Onun kökləri qədim dövrlərə gedib çıxır: müxtəlif ailələrə mənsub dillərin ən qədim yazılı abidələrində inkarlıq kateqoriyası təsdiq kateqoriyası ilə yanaşı özünəməxsus forma və məzmuna malikdir.

Qrammatik kateqoriyalar arasında xüsusi yer tutan inkarlıq kateqoriyası dil və təfəkkür, dil və obyektiv reallıq arasındakı əlaqəni göstərən müvafiq məntiq kateqoriyasını ən aydın və birbaşa ifadə edir. Tərkibində inkar olan ifadələr dilin bütün funksional üslublarında kifayət qədər geniş yayılmışdır.

Təsdiq və inkar mühakimələrlə yanaşı, təsdiq və inkar anlayışlar da fərqləndirilir. Təsdiq anlayışlar obyektdə müəyyən xüsusiyyətlərin mövcudluğunu ifadə edən, inkar anlayışlar isə təsdiq anlayışın məzmununu təşkil edən xüsusiyyətlərin olmamasıdır. Bir qayda olaraq, inkar anlayışlar təsdiq olandan "*yox, xeyr*" sözlərini əlavə etməklə yaranır.

Təsdiq və inkarın ziddiyyətini həmişə izləmək olar, yəni birinin digəri olmadan mövcud olması mümkünsüzdür. İnkarın təsdiq kateqoriyasının yaranmasından sonra meydana gəldiyini güman etmək olar, lakin onun bir kateqoriya kimi dilin inkişafının başlanğıc mərhələsində meydana gəldiyinə də şübhə etmək üçün heç bir əsas yoxdur.

A.Aslanov inkari mühakimənin iqrari mühakimədən əlaqəsiz, ondan təcrid olunmuş halda düşünülmədiyini qeyd edir. Müəllif yazır: "İnkarlığın aşkar edilməsində onun hər hansı bir iqrari anlayış ilə qarşılaşdırılması mühüm yer tutur. Yalnız bunlar arasında əlaqənin bərpa edilməsi, bunların qarşılaşdırılması, birini təsdiqə, birini inkara çevirir" [3, s. 7].

Bu kateqoriyanın öyrənilməsi prosesində tədqiqatçıların müraciət etdikləri mövzular müxtəlifdir. Bunlara linqvistik və məntiqi inkar anlayışlarının, onların əlaqəsinin müəyyən edilməsi, müxtəlif dillərdə inkarın ifadə vasitələrinin tədqiqi, habelə cümlənin strukturunun yaradılmasında bu kateqoriyanın rolunun öyrənilməsi kimi məsələlər daxildir.

Dilçilikdə bu məsələ çoxlu sayda həm yerli, həm də xarici alimlərin əsərlərində A.Aslanov, M.Hüseynzadə, S.Abdullayev, V.N.Bondarenko, S.A.Vasilyeva, V.V.Vinoqradov, V.N.Espersen, A.T.Krivonosov, G.Cəlilova, N.G.Ozerova, A.M.Peşkovksi, V.A.Paduçkov, D.N.Şmelev, A.A.Şahmatov və b. əksini tapmışdır.

S.Abdullayev "Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası" adlı kitabında hər iki dillərin inkarlıq kateqoriyası və onun ifadə vasitələri haqqında geniş təhlil aparmışdır. A.Aslanov "Müasir Azərbaycan dilində inkarlıq və kəmiyyət kateqoriyaları" əsərində inkarlıq kateqoriyasının ifadə vasitələri, müxtəlif məzmunda ifadəsindən bəhs etmişdir. G.Cəlilova "Azərbaycan və ingilis dillərində inkarlıq və qadağanlıq konstruksiyaları" dissertasiyasında iki fərqli dil sistemlərində inkarlıq və qadağanlıq konstruksiyaları təhlil etmişdir.

İstənilən dildə olduğu kimi Azərbaycan dilində də inkarlıq konstruksiyalar mövcuddur. İnkarlıq konstruksiyalar müxtəlif vasitələrlə ifadə olunur. Dildə inkarlıq konstruksiyalar daha çox *yox, xeyr, deyil* inkar mənalı sözlərin köməyi ilə əmələ gəlir. Bu sözlər isim, eləcə də digər nitq hissələri ilə birləşərək işlənir, yəni *-ma*[2] şəkilçisinin işlənə bilmədiyi bütün hallarda bu sözlərdən istifadə olunur. Məsələn, "*Mən o həriflərdən deyiləm ki, düşmən qarşısında diz çöküb onların əmrinə tabe olam* [8, s. 10]; *Hər şey sən düşündüyün kimi deyil* və s.

Konstruksiyada *deyil* sözünü *yox* inkarı da əvəzləyə bilər (bu sözün cümlənin xəbər rolunda çıxış etməsi halı istisna olmaqla). Hər iki inkar onların cümlədə xəbər rolunda çıxış etməsi halı istisna olmaqla, bütün digər hallarda mürəkkəb konstruksiya təşkil edir və iki obyekt, əlamət, kəmiyyət və s.-dən birinin inkar, digərinin isə təsdiq edildiyini bildirir. *Yox* inkarı semantik baxımdan daha mürəkkəbdir. Məsələn, təkrar işlənərkən bu sözün semantikasından daha çox təxminlik bildirən kəmiyyət mənası keçir: *Nərgizin yox-yox bir kisə qızılı vardır* (Nərgizin ən azı bir kisə qızılı vardır; Nərgizin qızılı bir kisədən az deyildir).

Azərbaycan dilində inkarlıq konstruksiyası yaradan ən məhsuldar şəkilçilərdən biri *-ma*[2] şəkilçisidir. Bu şəkilçi feil sonuna qoşularaq hərəkətin icra olunmamasını bildirir. Məsələn, Və bu biçarə atların hərgiz xətri *olmaz* ki, dünyada çəmənlər, otlaqlar, çayırlıqlar, çiçəkliklər, meşələr, dağlar və dərələr vardır; "Əgər hətta bütün aləm mənə qarşı çıxsa belə, mən öz fikrimdən *dönməyəcəyəm*, işimi onqat artıracağam…" [8, s. 24].

İnkarlıq konstruksiyasını yaradan digər şəkilçi bitişdiyi sözdə əşya və əlamətin yoxluğunu bildirən *-sız*[4] şəkilçisidir. Bu şəkilçi isimlərə qoşulur və qoşulduğu sözü inkara çevirir. Məsələn, Mirzə Cəlal sənin sözünə baxar; ondan ötrü ki, bu qədər zəhməti ki, mən onun yolunda çəkirəm, atası çəkir, görək bu da elə rəftar eləyə ki, bu zəhmətlər *səmərəsiz* qalmayalar

[84] BDU Qazax filialının Dil, Ədəbiyyat və onların tədrisi metodikası kafedrasının baş müəllimləri

[7]; *İstedadsız, qabiliyyətsiz* və paxıl adamlara qulaq asmaq lazım deyil [8, s. 26]; Biz bu kənddə iki nəfər bacı-qardaş yaşayırıq. Yoxsul, *gücsüz, əqrəbasız, kimsəsiz* [5, s. 17].

Azərbaycan dilində konstruksiyada inkar mənası həmçinin inkar əvəzlikləri və inkar bağlayıcıları vasitəsi ilə də ifadə edilir. İnkar vasitəsi kimi *heç vaxt, heç kim, heç nə, heç kəs* sözlərindən geniş istifadə olunur. İnkar konstruksiyalar yaradan bu sözlərin işləndiyi cümlənin feili də inkarda olur. Məsələn, "Mən xalqın elə bir üzvüyəm ki, fikrim, davat və qələmimdən başqa *heç şeyə* əlim çatmır və əlimdən gələn hər işi görmüşəm"[7]; Şeyx Nəsrullah naxoş kimi *heç kəsə* baxmayıb, dayanır yastıqlara [7]. İnkarlığı ifadə etmək üçün çox işlənən vasitələrdən biri də *nə* inkar bağlayıcısı ilə yaranan konstruksiyalardır. İnkarlıq məzmunu yaradan nə konstruksiyalı cümlələrin feili təsdiqdə işlənir. Məsələn, O *nə* şan-şöhrət arzusundadır, *nə* də var-dövlət istəyir; *Nə* dinir, *nə* danışır.

Lakin bəzən *nə* ilə yaranan konstruksiyalarda feilin də *-ma* inkar şəkilçisi qəbul etdiyini müşahidə edirik. Məsələn,

Dağ başın duman almaz,
Yar yarı dərdə salmaz.
Yar mənə bir dərd verib –
Nə ötməz, nə sağalmaz.

Bəzən inkarlığı qüvvətləndirmək üçün cümlədə ikidən artıq vasitələrdən istifadə etməklə konstruksiya qurulur. Məsələn, *Heç vaxt heç kimdən* yaxşılıq *ummadım*; Məgər Mirzə Cəlal *görmür* ki, *elmsiz* insan bir qəpiyə *dəyməz*? [7]; *Heç kəs heç nəyi* dəyişdirə *bilməz* cümlələrində üç ifadə vasitəsindən istifadə olunur. Çoxdəfəli inkar adi haldan daha ifadəli şəkildə danışanın inkarın nəzərə alınacağına tam əmin olmaq istəyini bildirir.

İnkarın mahiyyətini obyektiv deyil, subyektiv amillərlə müəyyən edən fikirlər də mövcuddur. Məsələn, O. Yespersen inkarın yaranması üçün başlanğıc olan ikrah hissi haqqında danışmışdır [9, s. 373-389]. Alimin bu fikri ilə razılaşaraq qeyd edək ki, subyektiv amillərlə bağlı olan inkarda şübhəsiz iradi məqam, natiqin mənfi əhval-ruhiyyəsi əks olunur. Məsələn, *Yox-yox, həqiqətən səndə insanlıqdan əsər-əlamət yoxdur*; *Onun nəinki üzünü görmək, heç adını belə eşitmək istəmirəm* və s. cümlələrdə şəxsin mənfi mülahizələrindən inkarlıq konstruksiyası qurulur.

Nümunə gətirdiyimiz misallarda inkarlıq konstruksiyaları eksplisit vasitələrlə qurulmuşdur. Lakin dildə inkarlıq bildirən göstəricilər olmadan da təsdiq mənalı sözlərlə və yaxud bütöv bir sintaktik konstruksiya daxilində inkarlıq ifadə etmək olar. İnkarlığın bu cür ifadəsi implisit ifadə vasitəsidir.

Y.Qaraşova ifadə edilmə baxımından inkarı standart və qeyri-standart olaraq təsnif edir. Müəllif yazır: "Standart inkar məfhumu altında biz eksplisit inkarı, qeyri-standart inkar dedikdə isə implisit inkarı nəzərdə tuturuq. O, birincidə bilavasitə inkar göstəriciləri ilə, ikincidə isə dolayıcı ilə, semantikasında inkar mənası, inkar çaları olan və bəzən də olmayan müxtəlif leksik və sintaktik vasitələr ilə reallaşır [6, s. 68].

İnkarı ifadə etmək üçün implisit vasitələrdə ritorik sualdan da geniş istifadə olunur. Ritorik sual gizli inkarı və ya açıqlanmış formal inkarı olan gizli təsdiqi ifadə edə bilər. İnkarlığın digər implisit ifadə vasitələrinə inkarlıq mənasını ifadə edən ayrı-ayrı sözlər, söz birləşmələri, cümlə və intonasiya da çıxış edə bilər.

Ritorik sual vasitəsilə qurulan inkarlıq konstruksiyası: *Əgər pulunu kiməsə miras qoyacaq birisi yoxdursa, onu qazanıb yığmağın nə mənası var*? (=Mənası yoxdur); *Özünə hörmət etməyi bacarmayan insandan başqalarına hörmət bəsləməyi gözləmək olarmı*? (=Gözləmək olmaz); *Ailənizə etdiyiniz bütün bu pisliklərdən sonra sizə kim yaxın duracaq*? (= Heç kim) və s. Azərbaycan dilində konstruksiyada inkar mənası yaradan bu sözlərə yaman, ay, elə və s. sözləri aid etmək olar. Məsələn: *Ay çıxış etdi (= Çıxış etmədi*.) Yaman oxudun! (*Yaxşı oxumadın*.) İnkarın implisit ifadəsində əsasən intonasiya iştirak edir. Cümləni intonasiya vasitəsilə elə ifadə etmək olar ki, bu zaman cümlə təsdiqdən inkara çevrilsin. *Hələ də ona inanırsan? – Elə inanıram! (=inanmıram*).

Bəzi dilçilərə görə, inkarlıq bildirmək üçün cümlədə işlədilən inkar mənalı sözlər, söz birləşmələri müvafiq təsdiq formasına malik olmur. Lakin burda da bəzi istisnalar mövcuddur. Azərbaycan dilində təsdiq mənalı olan yaxşı sözü intonasiyadan asılı olaraq təsdiq və inkarda işlənə bilər. Bu söz kinayə ilə deyildikdə inkarlıq yaradır. Məsələn, *Yaxşı yoluna qoydun*! (Aləmi qatdın).

Sual intonasiyası və sual ədatını işlətməklə təsdiq cümləsi şəklində qurulan inkar konstruksiyası formaca təsdiq cümləsi şəklində də əmələ gələ bilər. Məsələn, Tribunada sərbəst şəkildə çıxış etmək lazımdır. – Buna şübhən var? (*Şübhə yoxdur*).

Elə bil (ki), guya, sanki sözlərində ayrılıqda inkar mənası çox da hiss olunmur, ancaq konstruksiya daxilində bu sözlərdə inkar mənasının, inkar çalarının olması şübhə doğurmur: *Sanki xəbəri var* (=xəbərsizdir). Bu fikir onunla da təsdiqlənir ki, həmin sözlərin inkar mənalı digər söz ilə birləşməsi təsdiq bildirir: *Sanki xəbərsizdir* (=xəbərdardır).

Bəzən cümlədə bəzi sözlərin yerini dəyişməklə, lakin intonasiyanı normal saxlamaqla kinayəli inkar yaratmaq daha asan olur. Məsələn, *Çox elə mənim dediklərimi vecinə alır* (Mənim dediklərimi vecinə almır) cümləsində məqsəddən asılı olaraq sözlərin sırası pozulsa da, kinayəli inkarın daha qabarıq ifadəsinə kömək etmişdir.

S.Abdullayev yazır ki, təsdiqlik və inkarlığın ifadəsində təsdiq və inkar hökmlərin xarakteri və məntiqi strukturlarından asılı olduğu kimi, danışanın obyektiv mülahizələrindən də asılı ola bilir. Məhz buna görə də ünsiyyət prosesində bəzən təsdiq cümlə inkar hökmü, inkar əlamətli cümlə təsdiq hökmü ifadə edə bilir [1].

Beləliklə, inkar cümlənin tam bir silsilə qüvvətləndirmə vasitələrinə malik olması onu əlamətsiz üzv olan təsdiqə nisbətən daha güclü üslubi potensiala, ekspressiv perspektivləri malik olduğunu bir daha təsdiq edir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev S. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası. Bakı, 1998

2. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri lüğəti. Bakı, 2020
3. Aslanov A. Müasir Azərbaycan dilində inkarlıq və kəmiyyət kateqoriyaları. Bakı, 1963
4. Cəlilova G. Azərbaycan və ingilis dillərində inkarlıq və qadağanlıq konstruksiyaları. Fil.ü.f.d. avtoreferatı. Bakı, 2000
5. Cəfər Cabbarlı. Seçilmiş əsərləri. IV cild. Bakı, 2005
6. Qaraşova Y. Azərbaycan və ingilis dillərində inkarlıq və qadağanlıq konstruksiyaları. Elmi məcmuə, 2011. №15.
7. Məmmədquluzadə C. Dram əsərləri. II cild. http://www.kkoworld.com/kitablar/celil_memmedquluzade_oluler-aze.pdf
8. Mirzə Fətəli Axundzadə – 200. Bakı, 2012
9. Есперсен О. Философия грамматики. Москва: Изд-во иностр. лит-ры, 1958

Açar sözlər: Azərbaycan dili, inkar, inkarlıq konstruksiyaları, eksplisit, implisit
Ключевые слова: азербайджанский язык, отрицание, конструкции отрицания, эксплицитное, имплицитное
Keywords: Azerbaijani language, negation, constructions of negation, explicit, implicit

Xülasə

Məqalədə Azərbaycan dilində inkarlıq konstruksiyalar haqqında bəhs olunur. Dilin qrammatik kateqoriyası olan inkarlıq kateqoriyası bütün dillərinə xas olan universal, semantik bir kateqoriyadır. Digər dillərdə olduğu kimi, Azərbaycan dilində də inkarlıq konstruksiyalar müxtəlif vasitələrlə yaranır. Məqalədə eksplisit və implisit vasitələrlə qurulan mürəkkəb konstruksiyalar şərh edilmişdir. Eksplisit yolla qurulan inkarlıq konstruksiyalarda müxtəlif ifadə vasitələrindən (inkar əvəzliklər, yox, deyil sözləri, nə bağlayıcı), implisit yolla düzələn (ritorik sual, intonasiya) inkarlıq konstruksiyalar müxtəlif yazıçıların əsərlərindən gətirilən nümunələrlə araşdırılmışdır.

Конструкции отрицания в Азербайджанском языке
Резюме

В статье говорится об отрицательных конструкциях в азербайджанском языке. Категория отрицания, являющаяся грамматической категорией языка, является универсальной, семантической категорией, общей для всех языков. Как и в других языках, в азербайджанском языке конструкции отрицания создаются разными способами. В статье интерпретируются сложные конструкции, построенные явными и неявными средствами. На примерах из произведений различных писателей исследованы эксплицитно построенные конструкции отрицания из различных средств выражения (отрицательные местоимения, нет, не слова, ни союзы), имплицитно построенные конструкции отрицания (риторический вопрос, интонация).

Negation constructions in the Azerbaijan language
Summary

The article talks about negative constructions in the Azerbaijani language. The category of negation, which is a grammatical category of language, is a universal, semantic category common to all languages. As in other languages, negation constructions in Azerbaijani are created in different ways. The article interprets complex structures built by explicit and implicit means. Using examples from the works of various writers, explicitly constructed constructions of negation from various means of expression (negative pronouns, no, not words, or conjunctions), implicitly constructed constructions of negation (rhetorical question, intonation) were studied.

RƏYÇİ: dos. S.Abbasova

Tapdıqov Kənan Tofik oğlu[1]

MÜASİR "AZƏRBAYCAN DİLİ" DƏRSLİKLƏRİNİN DİDAKTİK İMKANLARI

Hər hansı bir dərsliyin didaktik imkanlarını araşdırmazdan qabaq "Didaktika nədir?" sualına aydınlıq gətirməli, onun prinsip və funksiyalarını müəyyənləşdirməliyik. Pedaqoji ədəbiyyatda didaktika təlim nəzəriyyəsinin əsasları ilə məşğul olan, təhsilin mahiyyətini, təlim prosesinə nəzarətin qanun, prinsip və üsullarını, tədris metodlarını, müxtəlif yaş kateqoriyaları üçün müxtəlif fənlərin xüsusiyyətlərini öyrənən elm sahəsidir. O, bilik, bacarıq və vərdişlərin mənimsənilməsi yollarını, təlim materialının məzmununu, həcmini, strukturunu müəyyən edir. Didaktik prinsiplər müəllimlərin təhsil və tərbiyə ilə bağlı məqsədlərinə çatmasına, şagirdlərlə işin formalarını tapmağa kömək edir.

Didaktika, bütövlükdə, təlim prosesi, təlim materialı və müəllim-şagird üçbucağını formalaşdıran qanunauyğunluqları araşdıran tədqiqat sferasıdır. Didaktikanın bir elm kimi tanınması Y.A.Komenski və onun "Böyük didaktika" əsəri ilə bağlıdır. İlk dəfə olaraq o, vurğulamışdır ki, təlim prosesi "təbiətlə" səsləşməli, uşaqlıq, yeniyetməlik və gənclik dövrü ilə müvazi olmalıdır. Sonrakı mərhələlərdə J.J.Russo, İ.H.Pestolotsi, İ.F.Herbart, A. Disterverq, K.D.Uşinski və başqaları da didaktika sahəsində böyük elmi nailiyyətlərə imza atmışlar.

Didaktikanın əsas vəzifəsi təlimin ümumi qanunauyğunluqlarını müəyyənləşdirmək və onun əsasında təlim prosesinin prinsiplərini formalaşdırmaqdır. Didaktik konsepsiyası olmayan, didaktik qayda, prinsip və funksiyaları dərindən bilməyən müəllim uğurlu təlimi nəticə qazana bilməz. Əslində, didaktikada məqsəd təlim prosesinin nəyə can atdığı son nəticənin görüntüsüdür.

Didaktik prinsiplər (elmilik, əlçatanlıq, məqsədyönlülük, varislik və perspektivlik, əyanilik, şüurluluq və fəallıq, tərbiyəedicilik və inkişafetdiricilik, inteqrativlik, innovativlik, nəzəriyyə ilə praktikanın əlaqəsi, kompyuterləşdirmə) nəzərə alınmadan təlim prosesi üçün zəruri olan proqram və dərsliklərin hazırlanması, təlim prosesinin özünün təşkili mümkün deyildir. Bu prinsiplər təhsil prosesinin məzmununu, təşkilati formalarını və metodlarını onun ümumi məqsədlərinə və qanunlarına uyğun müəyyən edən əsas müddəalardır.

Bundan başqa didaktikanın nəzəri və praktik funksiyaları da (informativlik, icraedicilik, sistemləşdirmə və koordinasiya, differensiallaşdırma və fərdiləşdirmə, ünsiyyət və s.) mövcuddur ki, onlarsız təlim nəzəriyyələrinin təlim prosesinə təsirini müəyyənləşdirmək mümkün deyildir. Bu funksiyalar dərsliklərin funksiyaları (biliklərin ötürülməsi, qabiliyyət və səriştənin inkişaf etdirilməsi, biliyin möhkəmləndirilməsi və qiymətləndirilməsi) ilə düz mütənasibdir.

Biz bu didaktik prinsip və funksiyaların bəzilərinin dərsliklərdəki mövqeyini aydınlaşdırmaq, ümumi təlim prosesinə təsirini dəqiqləşdirmək istəmiş, müasir dərsliklərlə ənənəvi dərslikləri müqayisə müstəvisinə gətirməyə çalışmışıq. "İnformasiya mənbələrinin geniş spektrinin mövcud olduğu indiki dövr orta məktəb dərslikləri qarşısında yeni tələblər irəli sürür, pedaqoji baxışların dəyişməsini labüd edir. Müasir dərsliyin vəzifəsi şagirdə sadəcə qaydaları, anlayışları, tərifləri və sairəni əzbərlətdirməkdən ibarət deyil. Dərsliklər şagirdləri düşünməyə sövq etməli, onlarda müstəqil tədqiqatçılıq, yaradıcılıq vərdişləri aşılamalı, tənqidi təfəkkürü inkişaf etdirməlidir" [5,3].

Bu nöqteyi-nəzərdən yanaşdıqda görürük ki, Milli Kurikuluma (proqrama) əsaslanan Azərbaycan dili kursunun dominant ideyası mədəni nitq və intellektual inkişaf məsələsidir. Ənənəvi təlimin bilik, bacarıq və vərdişlər sistemindən imtina da təlim materialının daha çox bilikyönümlü olması, praktik nitq bacarıqlarına kifayət qədər diqqət yetirilməməsi ilə bağlı idi.

Təhsilin əsas məqsədi hər hansı bir fənnə aid xüsusi bilikləri toplamaq və onun vasitəsilə şagirdlərin fərdi bacarıqlarının inkişafına nail olmaq deyildir. Bu gün məqsəd universal təhsil bacarıqlarının formalaşdırılması və onların əsasında zəruri olan biliklərin mənimsənilməsidir. Bu zəruri biliklər isə şagirdlərdə öz biliklərini müstəqil formada yeniləməyə, təkmilləşdirməyə imkan yaratmalıdır. Sürətlə dəyişən sosial-mədəni və informasiya şəraitində şagird özünütəhsil bacarıqlarından yararlanmalı, davamlı təhsil üçün zəmin formalaşmalıdır.

Təhsil standartlarının reallaşdırılmasının nəticəsi olaraq şagird tənzimləyici, idraki və kommunikativ bacarıqlara yiyələnməli, kreativ vərdişlər qazanmalıdır. "Azərbaycan dili" fənn kurikulumunun nəticəsi olaraq o, dilə aid anlayışları müəyyənləşdirmək, ümumiləşdirmək, təsnif etmək, analogiyalar aparmaq, səbəb-nəticə əlaqələrini qurmaq, məntiqi cəhətdən əsaslandırmaq, nəticə çıxarmaq bacarıqlarına yiyələnməlidir.

Müasir şagird işarə, simvol, model, diaqram qurmaq, layihələr hazırlamaq səriştəsinə sahiblənməklə öz idraki problemlərini həll etməyi bacarmalı, lüğətlərdən, internet resurslarından aktiv istifadə etməklə nitqinin mədəni tərəflərini inkişaf etdirməlidir.

Bütün bunlara nail olmaq üçünsə şagirdin əlinin altında müasir tələblərə cavab verən, didaktik imkanlarla zəngin dərsliklər olmalıdır ki, onun vasitəsilə fənnin məzmununu dərindən mənimsəsin, təlimi məqsədləri və fənnin məktəb fənləri içərisindəki yerini müəyyənləşdirməyi bacarsın. Təlimi imkanlar şagirdə dilin nəzəri və praktik elementlərini fərqləndirməyə, mənimsənilən dil sistemi əsasında rabitəli nitq qurmağa imkan yaratsın.

Dərsliklərdəki materiallara diqqət etdikdə görürük ki, V sinifdən başlayaraq mətnlərin hər birinin məzmunu üzrə aparılan işlər şagirdlərin idraki və praktik səriştəsini inkişaf etdirməyə yönəldilmişdir. Təhlil və diferensiasiyalar, müqayisə və ümumiləşdirmələr, analogiyalar, səbəb və nəticə əlaqələrinin qurulması, müstəqil və yaradıcı təfəkkürün inkişafı didaktik prinsip kimi bu məsələlərə xidmət edir.

[1]ADPU-nun magistrantı

Mətnaltı tapşırıq və çalışmalar, suallar sistemi şagirdlərin dinləyib-anlama, danışma, oxu və yazı bacarıqlarının təkmilləşdirilməsinə, bütövlükdə, nitq mədəniyyətinin formalaşmasına imkan yaradır. Bu prosesdə dil qaydaları vacib element kimi müstəsna rol oynayır.

Dərsliklərdə koqnitiv, əməli və davranış vərdişlərini tarazlaşdıran, asanlıq və çətinlik səviyyəsini müəyyən edən, müəyyən tipli (qapalı, yarımaçıq, açıq) çalışmalar sistemi mövcuddur. Bundan əlavə, mürəkkəbliyinə görə hamının yerinə yetirməli olduğu, korreksiyaedici, ancaq qabiliyyətli uşaqların həll edəcəyi çalışmalara da rast gəlmək olur. Müəllimin bu xarakterdə olan çalışmaları fərqləndirməsi biliklərin mənimsənilməsi və sistemləşdirilməsi məsələsini asanlaşdırır. Məhz bu xarakterli praktik çalışmalar zəminində ədəbi dil normalarının mənimsənilməsi, lazımı dil vahidlərinin düzgün seçilməsi reallaşdırılır. Çalışma mətnləri üzrə aparılan yönəldici, tənzimləyici və sertifikasiyaedici təhlillər şagirdlərdə özünə inamı artırır, müstəqilliyi və biliklərin inteqrasiyasını gücləndirir. Dilçiliyin ayrı-ayrı bölmələri üzrə qazanılan minimal biliklər belə şagirddə koqnitiv bacarıqlar formalaşdırır.

Məsələn, sinonimlərin öyrənilməsi prosesində şagirdlər aşağıdakı koqnitiv təlim bacarıqlarına yiyələnməlidirlər:

- sinonimlərin mənasını, ifadə imkanlarını müəyyən etmək üçün lüğətlərdən istifadə;
- nitqdə sinonimlərin leksik mənaya müvafiq işlədilməsi;
- nitqdə sinonimlərdən istifadənin üslubi normalarına əməl edilməsi;
- mətn kontekstində sinonimik ifadələrin semantik və üslubi fərqlərinin müəyyən edilməsi;
- nitqdə sinonimik cərgələri fərqləndirmək və qurmaq bacarığı və s.

Müəllim onu da unutmamalıdır ki, hər bir mövzu problem-situasiya vəziyyətində şərh edilir və buradan da problemli suallar yaranır:

1. Sözün leksik mənasını necə müəyyən etmək olar?
2. Sözün neçə leksik mənası var?
3. Söz nə vaxt məcazi mənada işlənir?
4. Azərbaycan dilinin lüğət ehtiyatı necə zənginləşdirilir?
5. Köhnəlmiş (arxaik) sözlər nəyə deyilir?
6. Omonim sözlər bir-birindən nə ilə fərqlənir? Paronimlər necə yaranır?
7. Peşə və dialekt sözləri hansılardır?
8. Nitq etiketi nədir və nitqimizdə onlardan necə istifadə edirik?

Bu tip sualların cavabları rəngarəng didaktik çalışmalar vasitəsilə dəqiqləşdirilir və möhkəmləndirilir. "*Mətni oxuyun və sözlərin məcazi mənada istifadəsinə dair nümunələr tapın", "Mətndə etiket ifadə və sözləri tapın*" kimi reproduktiv, "*Arxaik sözün mənasını aydınlaşdırın", "Şəkillərdə hansı frazeoloji vahidin təsvir olunduğunu təxmin edin və onlardan istifadə edərək cümlələr qurun*" kimi yaradıcı çalışmalar nəticəsində şagirdlərin müstəqilliyi artır, onlar mətnlərdən məlumat çıxarmağı, tətbiq etməyi öyrənirlər.

Məsələn, V sinifdə "Etimologiya nədir?" sualına 4-cü, 5 və 6-cı çalışmaları həll etməklə daha dəqiq cavab verir, "Arsak", "Qarabağ", "Troya atı", "kenquru" kimi sözlərin etimologiyası ilə bağlı araşdırma aparır, yaradıcı yanaşma sərgiləyir.

Beləliklə, təhlil edilən məsələlər Azərbaycan dili təliminin reproduktiv, izahlı-illüstrativ və problemli axtarış metodlarına əsaslanan müasir şagirdlərin idraki universal təlim hərəkətlərinin formalaşması üçün geniş didaktik imkanlar nümayiş etdirir. Müəllim göstərilən metodlardan səriştəli formada istifadə etdikdə təlimi keyfiyyətdən danışmağa da imkan yaranır. Yaradıcı xarakterli tapşırıq və çalışmalardan, dərslik komplektlərinin verdiyi didaktik imkanlardan düzgün istifadə obyekt (dərslik) və subyekt (müəllim, şagird) arasında münasibətlərin intensivliyinə, səmərəliliyinə şərait yaradır.

Müxtəlif növ yaradıcı tapşırıqlardan, vizual vasitələrdən istifadə prosesi koqnitiv təlim bacarıqlarını inkişaf etdirir. Kreativ çalışmalar üzərində iş şagirdlərin təxəyyülünü və yaradıcı təfəkkürünü inkişaf etdirir. Mətnlər üzrə işlərdə şagird dil hadisələrini müşahidə edir və onun mahiyyətini anlayır. Canlı dil, ədəbi dil nümunəsi olan bədii mətnlər əyani material rolunda çıxış edir.

V-XI sinif "Azərbaycan dili" dərsliklərindəki rəngarəng üslublu materiallar üzərində işin metodiki təşkili, dərsliklərin didaktik imkanlarının düzgün dəyərləndirilməsi şagirdlərə konseptual xarakterli nəticə və ümumiləşdirmələr aparmağa imkan yaradır. Dərsliklərin təhlili göstərir ki, təlim prosesində idraki təlim vasitələrinin inkişafına yönəlik müxtəlif yanaşmalardan istifadə olunur və müasir dərsliklərin didaktik imkanları təhsil standartlarını reallaşdırmağa imkan verir.

Müasir müəllim dərslikdə təklif olunan materialı təqdim edərkən məntiqə uyğun olaraq dərsin əsas mərhələləri və iş üsulları üzərində səriştəli şəkildə düşünməklə yanaşı, tədrisin səmərəli qurulması üçün pedaqoji şərait axtarmalı, "Azərbaycan dili" dərslərində koqnitiv təlim vasitələrinin inkişaf prosesini daha da aktivləşdirməlidir. O, dərsliyin didaktik funksiyalarını düzgün dəyərləndirməli, onlara təlimi məqsədə tam cavab verən vasitə kimi yanaşmalıdır. Unutmamalıdır ki, dərslik şagird üçün əsas informasiya mənbəyidir. O, icraedici, ötürücü, sistemləşdirici, özünütərbiyə və özünənəzarət, əlaqələndirici, koqnitiv, inkişafetdirici, differensiallaşdırıcı, fərdiləşdirici və s. funksiyalara da malikdir.

Ədəbiyyat

1. Abbasov Ə. M. Kurikulum Mərkəzi: qısa tarixi xülasə // "Azərbaycan müəllimi" qəzeti, 2016, 6 may, s. 28-29
2. Azərbaycan Respublikası Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulum) (V-XI siniflər). Bakı, 2013, 135 s.
3. Azərbaycan dili – 5. Dərslik, Bakı. "Altun kitab", 2012, 200 s.
4. Azərbaycan dili – 5. Metodik vəsait, Bakı, "Altun kitab", 2012, 200 s.
5. Azərbaycan dili – 10. Dərslik, Bakı, "Şərq-Qərb", 2017, 208 s.
6. Azərbaycan dili – 10. Metodik vəsait, Bakı, "Şərq-Qərb", 2017, 208 s.

7. Dərslik necə olmalıdır. Bakı, 2003, "Oka ofset", 117 s.
8. Əşrəfov R.Q. Azərbaycan dili tədrisiinin aktual problemləri. Dərs vəsaiti. Sumqayıt, 2017, 364 s.
9. Ümumtəhsil sistemində dərslik siyasəti. NK=nın 23.01.2006-cı il tarixli 33 nömrəli əmri.
10. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı,"Mütərcim", 2012, 402 s.

MÜASİR "AZƏRBAYCAN DİLİ" DƏRSLİKLƏRİNİN DİDAKTİK İMKANLARI

Xülasə

Müasir təlimin əsas məqsədi hər hansı bir fənnə aid bilikləri öyrətməklə şagirdlərin fərdi bacarıqlarını inkişaf etdirmək deyil, universal təlim vasitələri müəyyənləşdirməklə zəruri bilikləri mənimsətmək, sürətlə dəyişən sosial-mədəni vəziyyətdə və informasiya axını şəraitində şagirdlərdə öz təhsilini müstəqil təkmilləşdirmək bacarıqları formalaşdırmaqdır. Bu gün koqnitiv öyrənmə bacarıqlarının inkişafını təmin edən əsas vasitə "Azərbaycan dili" dərslikləridir və bu məqalədə də əsas məqsəd şagirdlərin idraki bacarıqlarının formalaşmasında təlimi bacarıqların rolunu aydınlaşdırmaq, həmin dərsliklərin didaktik imkanlarını müəyyən etməkdir. Araşdırmada müqayisə, təsnifat, sistemləşdirmə və ümumiləşdirmə üsullarından istifadə edilmiş və bu qənaətə gəlinmişdir ki, Azərbaycan dili üzrə müasir dərsliklərin didaktik imkanları təhsil standartlarının tələblərinə cavab verir. Belə halda müəllimin əsas vəzifəsi təqdim olunan materialın məntiqinə uyğun olaraq dərsin mərhələləri və iş üsulları üzərində səriştəli düşünməklə yanaşı, tədrisin təşkili üçün səmərəli pedaqoji şəraitin axtarılması, Azərbaycan dili dərslərində koqnitiv təlim vasitələrinin inkişafi prosesinin aktivləşdirilməsidir.

Açar sözlər:*fənn kurikulumu, müasir dərsliklər, təlim vasitələri, didaktik imkanlar, dərslik komplektləri, koqnitiv təlim vasitələri.*

ДИДАКТИЧЕСКИЕ ВОЗМОЖНОСТИ СОВРЕМЕННЫХ УЧЕБНИКОВ «АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА»

Резюме

Основная цель современного образования – не развитие индивидуальных умений учащихся путем преподавания знаний, связанных с каким-либо предметом, а овладение необходимыми знаниями путем определения универсальных средств обучения, формирование умений учащихся самостоятельно совершенствовать свое образование в быстро меняющихся социокультурная ситуация и условия информационного потока. Сегодня основным инструментом, обеспечивающим развитие познавательных навыков обучения, являются учебники «Азербайджанский язык», а основной целью данной статьи является выяснение роли учебных навыков в формировании познавательных навыков учащихся, а также определение дидактических возможностей. этих учебников. В исследовании использовались методы сравнения, классификации, систематизации и обобщения, и был сделан вывод, что дидактические возможности современных учебников по Азербайджанскому языку соответствуют требованиям образовательных стандартов. В таком случае основная задача учителя – грамотно обдумать этапы и методы работы урока в соответствии с логикой излагаемого материала, найти эффективные педагогические условия организации урока, активизировать процесс разработки средств когнитивного обучения на уроках Азербайджанского языка.

Ключевые слова:*учебная программа по предметам, современные учебники, средства обучения, дидактические возможности, комплекты учебников, средства когнитивного обучения.*

DIDACTIC POSSIBILITIES OF MODERN TEXTBOOKS "AZERBAIZAN LANGUAGE"

Summary

The main goal of modern education is not the development of individual skills of students by teaching knowledge related to any subject, but the acquisition of necessary knowledge by identifying universal means of education, the formation of students' skills to independently improve their education in a rapidly changing socio-cultural situation and conditions of information flow. Today, the main tool that ensures the development of cognitive learning skills is the "Azerbaijani language" textbooks, and the main goal of this article is to clarify the role of study skills in the formation of students' cognitive skills, as well as to determine didactic opportunities. these textbooks. The study used methods of comparison, classification, systematization and generalization, and it was concluded that the didactic capabilities of modern textbooks on the Azerbaijani language meet the requirements of educational standards. In this case, the main task of the teacher is to competently think through the stages and methods of the lesson in accordance with the logic of the material presented, find effective pedagogical conditions for organizing the lesson, and intensify the process of developing cognitive teaching tools in Azerbaijani language lessons.

Keywords:*curriculum for subjects, modern textbooks, teaching aids, didactic opportunities, textbook sets, cognitive teaching aids.*

RƏYÇİ: dos. S.Abbasova

Ağalarova Sevda Mircəlal[1]

ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ FORMATİV QİYMƏTLƏNDİRMƏNİN TƏRKİB ELEMENTİ KİMİ

Hər bir ölkənin təhsil sistemi vətəndaşı formalaşdırır və formalaşdırdığı vətəndaş vasitəsilə ictimai həyatın siyasi sferasına, mənəvi mühitinə ciddi təsir göstərmiş olur. Bu zaman qazanılan bilik, bacarıq və vərdişlər sistemi vətəndaşa cəmiyyətə adaptasiya olunmaq, onun üzvü olmaq imkanı verir. Bu imkanın əldə olunması üçün müasir təlimin məzmununda, strategiyasında edilən dəyişikliklər kifayət etmir. Prosesin müsbət tamamlanması, gözlənilən nəticələrin reallaşması üçün şagird nailiyyətləri obyektiv qiymətləndirilməli və onlara təlimi uğurlar haqqında dəqiq məlumat verilməlidir. Məzmunun çatdırılması və strategiyalarında olduğu kimi şagird nailiyyətlərinin qiymətləndirilməsində də innovativ yanaşmalar diqqətdə saxlanılmalıdır.

Bir sözlə, "milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəsisslər hazırlamaq" [6,131] üçün müasir təlimin əsas sütunlarından birinin – şagird nailiyyətlərini qiymətləndirmənin özülü möhkəm və ədalətli prinsiplərlə qoyulmalıdır. Çünki obyektiv və düzgün qiymətləndirmə təlim keyfiyyəti ilə düz mütənasibdir və "təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur" [1,138].

Təlim prosesinin əsas elementi olan qiymətləndirmə müəllimə öz şagirdinin inkişafını izləməyə, qarşılaşdığı çətinlikləri mühakimə edib aradan qaldırmağa, bütövlükdə şagirdinin təhsil ehtiyaclarını təmin etməyə imkan verir. Müəllim tədris ili boyu şagirdinin öyrənmə fəalliyəti ilə bağlı müşahidələrini təhlil edir, sistemləşdirir və ona düzgün yol tapmaqda yardımçı olur.

Müasir təlimdəki qiymətləndimə şagirdin fəaliyyətini nəzarətçi kimi izləmək, onu inzibati basqı altında saxlamaq üçün deyil, onunla əks əlaqə saxlamaq, təlim prosesini maksimum dərəcədə optimallaşdırmaq, şagirdin işini asanlaşdırmaq üçün lazım olan bir vasitədir.

Ümumilikdə, "şagird nailiyyətlərinin qiymətləndirilməsi davamlı, dinamik və bir çox hallarda rəsmi olmayan prosesdir. Bu prosesdə müəllimlərin şagirdlər üzərində müşahidəsi, şagirdlərin sinif işləri və ev tapşırıqlarını yerinə yetirmələri, şifahi və yazılı cavabları əhəmiyyətlilik baxımından eyni dərəcədə vacibdir" [2,118].

Müasir təhsildə məktəbdaxili qiymətləndirmənin diaqnostik, formativ və summativ növlərindən istifadə olunur. Öncə şagirdin ilkin bilik və bacarıq səviyyəsi (dioqnostik), daha sonra təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında əldə olunan bilik və bacarıqların formalaşma səviyyəsi (formativ) və yekun olaraq qiymətləndirmə standartlarına görə aparılan qiymətləndirmə (summativ) mexanizmlərindən istifadə olunur. Hazırda bizi daha çox formativ qiymətləndirmə, onun tərkib hissəsi olan özünüqiymətləndirmə və onların funksiyaları, aparılmasının təşkili yolları, vasitələri maraqlandırır.

Formativ qiymətləndirmə hər şagird ilə əks əlaqə vasitəsi kimi hazırlanan qiymətləndirmə mexanizmidir. Burada meyarlar şagird irəliləyişinin monitorinqini aparmağa, tədrisi düzgün istiqamətə yönləndirməyə, bütövlükdə tədris prosesini tənzimləməyə imkanlar açır. Şagirdin qazandığı nəticələr müəllim üçün indikator rolunu oynayır.

İnteraktiv formada qurulan dərslərdə şagirdlərin ümumi fəallığı təmin edilir, müəyyən olunan nəticələr təlim prosesini işgüzar məcraya yönəldir, qiymətləndirmə şagirdlərin hissiyatına, motivasiyasına təsir edir. Bu zaman onlarda özünəhörmət hissi yaranır ki, bu da onlara öz işlərini adekvat olaraq qiymətləndirməyə şərait yaradır. Qazanılan nailiyyət müəllimlə şagird, şagirdlə şagird arasında müzakirə mövzusuna çevrilir. Bu isə mövzu haqqında düşüncələrin dərinləşməsinə, fikir və arqumentlərin dərindən təhlilinə şərait yaradır.

Dərs prosesində müəllimin uşağa isti münasibəti, kiçik irəliləyişlərə müsbət reaksiyası zəif uşaqlarda belə özünəinam formalaşdırır. Növbəti dərslərdə həmin şagird daha da aktivləşməyə, fəaliyyətindəki boşluqları doldurmağa çalışır. Unutmaq olmaz ki, öyrənmədə ilk müsbət nəticələrin əldə edilməsi özünəinamı aşağı olan şagirdə belə öz idrak imkanlarını səfərbər etməyə imkan verə bilər. Bütün bu sadalananlar, təlim prosesinin pedaqoji-psixoloji sferası şagirdlərdə özünüqiymətləndirmə bacarıqları formalaşdıra bilər.

Özünüqiymətləndirmə haqqında bəzi nəzəri-metodiki ədəbiyyatda danışılsa da, ümumtəhsil məktəblərinin "Azərbaycan dili" dərsliklərində bu məsələni özündə əks etdirən məlumatlara rast gəlmək olmur. Müəllimlərə aid metodiki vəsaitlərdə isə bu qiymətləndirmənin adı çəkilsə də, onun metodiki təşkili və vasitələri ilə bağlı əsaslı göstərişlər yox dərəcəsindədir. Halbu ki, özünüqiymətləndirmə öyrənmənin və şəxsiyyəti formalaşdırmanın ən güclü mexanizmlərindən biridir. Şagirddə mühakimə yürütmək bacarığı məhz onun sayəsində formalaşır. Məntiqi və yaradıcı təfəkkürün inkişafı məhz özünüqiymətləndirmə bacarıqlarının mütəşəkkilliyindən asılıdır. Demokratik cəmiyyətdə yaşayacaq bir fərd, ilk növbədə, öz səriştəsini dəyərləndirməyi, başqalarının əməyinə qiymət verməyi bacarmalıdır.

Özünüqiymətləndirmə metodu şagirdə müəllimlə razılaşdırılmış müəyyən meyarlar əsasında qazandığı bilik və bacarıqları, həll etdiyi problemin mahiyyətini dəyərləndirmək, onlar haqqında mühakimə yürütmək imkanı tanıyır. Şagirdə təlimi nəticələri yoxlamağa, onun düzgün alınıb-alınmadığını dəqiqləşdirməyə şərait yaradır.

Məsələn, dinləyib-anlama və danışma məzmun xəttinə aid standartları reallaşdıran şagird "Dinlədiyim mətndəki əsas faktları yadımda saxlaya bildimmi?", "Dinlədiyim mətni hissələrə bölüb adlandırmağı bacardımmı", "Danışmazdan

[1]ADPU-nun magistrantı

qabaq mətnlə bağlı sualların hamısına cavab verdimmi?", "Dinlədiyim mətndə yeni və izaha ehtiyacı olan sözləri aydınlaşdırdımmı?", "Mən danışandan sonra verilən suallara cavab verdimmi?", "Danışdığım mövzuya yaxın başqa mətn oxumuşdummu?", "Danışdığım mövzu ilə bağlı hadisə eşitmişdimmi?" və s. tipli suallara müsbət cavab verən şagird özünüqiymətləndirmə bacarığına sahiblənmiş sayıla bilər.

Bu cür özünüqiymətləndirmə refleksiya və özünənəzarəti gücləndirir. Özünə hesabat verməyi bacaran şagird akademik biliyinin dəqiqliyinə əmin ola bilir. Bununlada təhsildə fasiləsizliyin, gələcək özünütəhsilin etibarlı bünövrəsi qoyulur.

Dərs prosesində şagirdin "Özümü yaxşı hiss edirəm", "Əvvəl bunu bacarmırdım, indi bacarıram", " Son dərslərdə yoldaşlarımdan fərqlənirəm", "Daha yaxşı öyrənməyimə kömək edən strategiya tapmalıyam" formatlı pedaqoji-psixoloji düşüncələri belə özünüqiymətləndirmənin mövcudluğunu əsaslandırır.

Əslində bu tip suallar düşüncəni inkişaf etdirmək, öz qabiliyyətini aydınlaşdırmaq üçün qoyulan suallardır. Sinifdə bu tip düşündürücü suallardan, rubriklərdən istifadə etmək şagirdlərdə özünüqiymətləndirmə bacarıqlarını formalaşdırır.

Hətta müəllim də öz dərs planında təlimin məqsədi, çətinlikləri, nailiyyətləri üzərində düşünməyə imkan verən suallara yer ayrımalı, öz əməyini qiymətləndirməyi bacarmalıdır. Məsələn, "Şagirdlərimin adlarını yaxşı bilirəm", "Onların bacarıqlarını başa düşür və fərqləndirirəm", "Mövzumla bağlı yeni məlumatlar, yeni tədris üsulları öyrənirəm", "İnteqrativliyi təmin etmək üçün həmkarlarımla məsləhətləşirəm", "Dərs planıma kiminsə baxmağından çəkinmirəm" və s. tipli düşüncələr də müəllimin özünüqiymətləndirməsidir.

Müəllim "Azərbaycan dili" fənnindən formativ qiymətləndirmədə nələrə fikir verəcəyini, dərsi necə quracağını, şagirdinin dinləmək, danışmaq bacarıqlarını necə yoxlayacağını, şagirdlərin ümumi fəallığını necə tənzimləyəcəyini əvvəlcədən bilməlidir. O, dərk etməlidir ki, sinifdə aparılan qiymətləndirmə prosesi şagird motivasiyasının və nailiyyətlərinin artırılmasında mühüm rol oynayır. Aydın formada müəyyənləşən təlimi məqsəd şagird performansını yüksəltməyə kömək edir və onda öyrənmə məsuliyyətini gücləndirir.

Yaxşı olar ki, müəllim hər mətn üzrə işi tamamladıqdan şagirdlərinin yeni nə öyrəndikləri ilə maraqlansın, hər mövzu üçün özünü qiymətləndirmə şablonları hazırlasın. Özünüqiymətləndirmədə şagirdlərə dürüst, konkret, ədalətli olmağı öyrətsin. Bir sözlə formativ qiymətləndirmə və onun tərkib hissəsi olan özünüqiymətləndirmə şagirdlərə öyrəndiklərinə nəzarət etmə və müsbət irəliləyişləri görmə qabiliyyəti formalaşdırsın.

Müəllim bilməlidir ki, qiymətləndirmə məlumatının əsas və son alıcısı şagirddir. Bu son alıcının işi daha rahat, mübahisəsiz olsun deyə, müəllimin qiymətləndirmə meyarlarından valideynlərin də xəbərdar olması uyğun metodiki yollardan biridir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası, "Kurikulum", 2009, №2.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı, TPİ, 2015, 212 s.
3. Azərbaycan dili – 6. Müəllim üçün metodik vəsait. Bakı, Altun kitab, 2012, 200 s.
4. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, "Elm və təhsil", 2019, 380 s.
5. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, "Kurikulum",2009, №4.
6. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, Mütərcim,2012, 402 s.
7. Veysova Z. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2017, 149 s.

ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ FORMATİV QİYMƏTLƏNDİRMƏNİN TƏRKİB ELEMENTİ KİMİ

Xülasə

Məqalədə şagirdlərin təhsil nailiyyətlərinin qiymətləndirilməsi məsələlərindən danışılır və özünüqiymətləndirmə formativ qiymətləndirmənin tərkib elementi kimi təhlil edilir. Göstərilir ki, normal bilik, bacarıq və vərdişlər əldə edən şagirdlər təlimin müəyyən bir mərhələsində müstəqil düşünməyə, öz fərdi nailiyyətlərini dəyərləndirməyə başlayırlar. Təlimi nəticə olaraq dinləyib-anlama, danışma, oxu, yazı və dil qaydalarından istifadə prosesində gördükləri işin uğurlu, uğursuz tərəflərini qiymətləndirirlər. Onlarda nəticəçıxarma, özünüqiymətləndirmə və özünəinam bacarıqları formalaşır. Təbii ki, bu bacarıqlar şagirdlərə müəllimlə razılaşdırılmış müəyyən meyarlar miqyasında dəyərləndirmələr aparmaq, mühakimələr yürütmək imkanı tanıyır. Onlar Azərbaycan dili təlimi ilə bağlı standartlaşdırılmış ölçülərdən istifadə edərək öz bacarıqlarını sərbəst şəkildə ifadə edir, qazandıqları nailiyyətləri dəyərləndirməyi bacarırlar.

Burada müəllimlərin özünüqiymətləndirmə probleminə də toxunulur, bütövlükdə, özünüqiymətləndirmə təlimi nəticələri yoxlamağın ən optimal yollarından biri kimi təqdim olunur. Özünüqiymətləndirməyə öyrənmənin ən güclü mexanizmlərindən biri kimi yanaşılır və onu təşkil etməyin yollarına, vasitələrinə aydınlıq gətirilir.

Açar sözlər:*qiymətləndirmənin prinsipləri, summativ qiymətləndirmə, formativ qiymətləndirmə, müəllimin özünüqiymətləndirməsi, qiymətləndirmə strategiyaları.*

САМООЦЕНИВАНИЕ КАК СОСТАВЛЯЮЩИЙ ЭЛЕМЕНТ ФОРМАТИВНОГО ОЦЕНИВАНИЯ

Резюме

В статье рассматриваются вопросы оценки учебных достижений учащихся и анализируется самооценка как неотъемлемый элемент формирующего оценивания. Показано, что студенты, приобретающие нормальные

знания, навыки и привычки, на определенном этапе обучения начинают самостоятельно мыслить и оценивать свои индивидуальные достижения. В результате обучения они оценивают успешные и неудачные аспекты своей работы в процессе использования правил аудирования, говорения, чтения, письма и языка. Развивают умения делать выводы, самооценку и уверенность в себе. Разумеется, эти навыки дают ученикам возможность оценивать и выносить суждения по шкале определенных критериев, согласованных с учителем. Они имеют возможность свободно выражать свои навыки и оценивать свои достижения, используя стандартизированные меры, связанные с преподаванием азербайджанского языка.

Здесь также рассматривается проблема самооценки учителей, и в целом тренинг по самооценке представлен как один из наиболее оптимальных способов проверки результатов. Самооценка рассматривается как один из наиболее мощных механизмов обучения, выясняются пути и средства его организации.

Ключевые слова:*принципы оценивания, суммативное оценивание, формирующее оценивание, самооценка учителя, стратегии оценивания.*

SELF-ASSESSMENT AS A COMPONENT ELEMENT OF FORMATIVE ASSESSMENT

Summary

The article discusses issues of assessing students' educational achievements and analyzes self-assessment as an integral element of formative assessment. It is shown that students who acquire normal knowledge, skills and habits, at a certain stage of training begin to think independently and evaluate their individual achievements. As a result of the training, they evaluate successful and unsuccessful aspects of their performance as they use rules of listening, speaking, reading, writing and language. They develop the ability to draw conclusions, self-esteem and self-confidence. Of course, these skills provide students with the ability to evaluate and make judgments on a scale of specific criteria agreed upon by the teacher. They are able to freely express their skills and evaluate their achievements using standardized measures related to teaching the Azerbaijani language.

The problem of teacher self-assessment is also discussed here, and in general, self-assessment training is presented as one of the most optimal ways to check results. Self-assessment is considered as one of the most powerful learning mechanisms, and ways and means of its organization are clarified.

Keywords:*principles of assessment, summative assessment, formative assessment, teacher self-assessment, assessment strategies.*

RƏYÇİ: dos. T.Əliyev

Səidə Vilayət qızı Tağızadə [85]

MİRZƏ İBRAHİMOVUN "PƏRVANƏ" ROMANINDA LEKSİK YOLLA YARANAN ONOMASTİK VAHİDLƏR

Giriş. Onomastika bir elm sahəsi kimi XX əsrin 50-ci illərində yaranmışdır. Dilçiliyin bölmələrindən biri olan onomastika xüsusi adları öyrənir. Xüsusi adların tədqiqi xalqın tarixinin, mədəniyyətinin, coğrafiyasının öyrənilməsi baxımından da maraq doğurur. Ona görə də dilçiliyin bu bölməsi daim digər elmlərlə qarşılıqlı əlaqədədir.

Onomastikanın tədqiqinə son onillikdə kəskin maraq yaranmışdır. Dilçilərimizdən A.Qurbanov, A.Paşayev, M.Adilov, M.Çobanov, Q.Mustafayeva, N.Hacıyeva, K.Əliyev, V.Əliyev və b. sanballı əsərlər yazmışlar. Müstəqillik illərindən sonra, xüsusən toponimlərin əhatəli öyrənilməsi təkcə dilçilik baxımından deyil, həm də xalqımızın çoxəsrlik tarixi aspektindən əhəmiyyətlidir. Çünki toponimlərin əsaslandırılmış şəkildə tədqiqi onun hansı xalqa məxsus olduğunu göstərir. Qarabağ toponimlərinin öyrənilməsi buna bariz nümunədir.

Antroponimlər də daim tədqiqat obyekti olmuşdur. Buna səbəb odur ki, bəşər övladına qoyulan adlar hər zaman insanda maraq yaradıb.

Onomastik vahidlərin yalnız leksik mənası deyil, həm də qrammatik xüsusiyyətləri tədqiqatlara cəlb edilməlidir.

Məqaləmizdə Mirzə İbrahimovun "Pərvanə" romanında leksik üsulla yaranan onomastik vahidləri nəzərdən keçirəcəyik.

Əsas hissə. Bədii əsərləri onomastik vahidlərsiz təsəvvür etmək olmaz. Hələ bu əsər tarixi səciyyə daşıyırsa…. Mirzə İbrahimovun "Pərvanə" romanı tarixilik baxımından maraq doğurduğu qədər dilçilik mövqeyindən baxdıqda da yetərincə düşündürücüdür.

Bu yazımızda əsərdə leksik yolla yaranan onomastik vahidləri nəzərdən keçirəcəyik. Dilçiliyimizə də nəzər saldıqda onomastik vahidlərin müxtəlif üsullarla yaranması ilə bağlı fikirləri görürük. Məlumdur ki, onomastik sistem sabit qalmır, zaman-zaman müəyyən dəyişikliklərə uğrayır. Onomastik sistemə siyasi, iqtisadi, tarixi, mədəni hadisələr təsir edir. Belə təsirlər nəticəsində dildəki ümumi adlardan xüsusi adlar yaranır. Bu adlar bəzən struktur cəhətdən o qədər sabitləşir ki, onları kök və şəkilçiyə ayırmaq olmur. Buna görə də onomastik vahidlərin yaranma yollarını müəyyən etmək mübahisə predmetinə çevrilir.

"Onomastik leksikanın bütövlükdə derivatoloji təhlili göstərir ki, əslində, dilçilikdə başlıca olaraq, iki mühüm söz yaratma üsulu mövcuddur: leksik-semantik, qrammatik" (3, s. 504).

Digər sözyaratma üsullarından fərqli olaraq leksik yolla sözyaratmanın tarixi daha qədim hesab olunur. Bu yolla yaranan sözlərdə qrammatik vasitələr heç bir rol oynamır, sözlər ümumi ad bildirməklə bərabər, həmçinin xüsusi adları ifadə edir. S.Cəfərovun "Müasir Azərbaycan dili" kitabında "Leksik yolla söz yaradıcılığı" adı altında leksik-semantik söz yaradıcılığı prosesi də şərh olunmuşdur (2, s. 215). A.Bağırovun tədqiqatları da A.Qurbanovun fikirləri ilə səsləşir. Lakin onun fikrincə, leksik yolla yaranan onomastik vahidlər sayəsində bir mövcud xüsusi addan yeni xüsusi ad yaranır. Onomastik vahidin biri digərinə çevrilir. Məsələn, "… Naxçıvan şəhər adı - "Naxçıvan" market adı, Qapıcıq dağ adı - "Qapıcıq" restoran adı, … Badamlı kənd adı - "Badamlı" şirkət adı…" (4, s. 366).

Ümumilikdə qeyd edə bilərik ki, onomastik vahidlərin yaranmasında leksik, semantik, morfoloji və sintaktik yollar əsas götürülür.

Leksik yolla yaranan sözlər onomastik vahidlərin müxtəlif növlərində özünü göstərir, əsasən, ktematonimlərdə daha çox müşahidə edilir. "Bu cəhətdən çoxlu küçə, meydan, restoran, kafe, mağaza, musiqi kollektivlərinin adları diqqəti cəlb edir" (3, s. 368). Romandakı ktematonimlərin tədqiqində bu yolla yaranan sözlərə nəzər yetirəcəyik.

"Pərvanə" romanında onomastik vahidlərin əksəriyyəti sintaktik və morfoloji yolla yaranmışdır. Buna baxmayaraq, leksik yolla yaranan onomastik vahidlərə də rast gəlirik: Cahan, Hüri, Kərim, Reyhan, Hacı, Nisə, Sənan (dağ adı), Gövhər, Ramazan, Murad, Camal, Kür, Araz, Cıdır (düzün adı), İsa (bulaq adı), Qış (saray adı) və s.

Əsərdə işlənən Nisə adı "Qurani-Kərim"də Nisə surəsi ilə bağlıdır, yəni bu ümumi sözdən xüsusi ad yaranıb.

"Həlimə xanım başı bir az sonra süfrə başına yığışacaq böyük külfətin şamını hazırlamağa qarışdığından uşaqların nə vaxt həyətdən çıxdığından xəbəri olmadı, ancaq onda ayıldı ki, baqqal Kərimin arvadı molla Nisənin səsi həyəti bürümüşdü:

- Allah nəslinizi kəssin! - o, qarğayırdı, sol əlindən Babacanın qolundan tutub dartırdı" (1, s. 379).

"Hüri" sözünün isə ərəbcədən mənası "qaragözlü" deməkdir. Bəzi ədəbiyyatlarda sevgili, cənnət qızı, şəffaf bədənli qadın və s. mənaları da verilir. "Məmməd Rza bəy Hürini sevirmiş, ona elə əsir olmuşdu ki, aylarla o biri iki arvadına-Cahan xanıma və Afəridə xanıma baxmırdı" (1, s.15).

"Murad" sözü ümumi şəkildə arzu, məqsəd, istək dilək mənalarında işlənir: Görüm səni muradına yetəsən!
Görkəmli şairimiz Səməd Vurğunun qeyd etdiyi kimi:

Ürək dəmir deyil, daş da deyil ki?
Min bir muradı var, min bir arzusu!
Naxırçı Muradı yamsıladı! - deyib uşaqlardan hansısa yerindən səsləndi (1, s. 526).

[85] Bakı Dövlət Universiteti Azərbaycan dilçiliyi kafedrasının magistrantı. E-mail: seide.tagizade.00@mail.ru

"Gövhər" - qiymətli daşlardan birinin adıdır. Bu ümumi isimdən insan anlayışı bildirən xüsusi isim əmələ gəlmişdir. "O ümidsizlik içində, o qaranlıqda günəş birdən doğdu, özü də Gövhər xanımın uğurlu qədəmləri ilə qapılarına gəldi" (1, s. 663).

"Ramazan" – ərəb sözü olub 9-cu qəməri ayının adıdır. Ramazan sözünün mənası və bu mübarək aya Ramazan deyilməsinin hikmətini belə açıqlayırlar:

Günəşin hədsiz istiliyindən daşların çox qızması mənasını verən "ramad" kəlməsindən əmələ gəlmişdir. Belə bir yerdə gəzən adamın ayaqları istidən yanır, əziyyət və məşəqqət çəkir. Eynilə bu misaldakı kimi, çox oruc tutan insan da aclıq və susuzluğun hərarətinə qatlaşır, əziyyət və məşəqqət çəkir, ürəyi yanır. "Azərbaycan şəxs adlarının izahlı lüğəti"ndə adın mənası "isti, bürkü" mənasında verilmişdir (5, s. 200). Romanda da həyatı məşəqqətlə və əziyyətlə dolu olan nökərə bu ad verilmişdir. "Yaxşı məsəldir. De görüm, adın nədir, qardaş? - deyib faytonçunun ədası ilə ona müraciət etdi. - Nökərimizin adı Ramazandır" (1, s. 439).

Göründüyü kimi, dildə ümumi isimlərdən də xüsusi adlar yarana bilir.

Leksik yolla yaranan toponimlər məsələsi maraq doğurur. Çünki bəzi dilçilər toponimlərin yalnız sintaktik üsulla əmələ gəldiyini qeyd edirlər. Toponimlərə diqqət yetirdikdə I, II, III növ təyini söz birləşməsi tiplərinə rast gəlirik. Dildə işlənmə tezliyindən asılı olaraq həmin terminlər əksər hallarda düşür. Məsələn, coğrafi terminlər əksər hallarda ellipsiyaya uğrayır: Bakı şəhəri – Bakı, Minsk vilayəti – Minsk, İsfahan şəhəri – İsfahan.

"Pərvanə" romanında rast gəldiyimiz leksik toponimlər: Cıdır (düz), Senat (meydan), Sənan (dağ) və s.

"Ehh, Nəriman, bizim yerlər yadıma düşdü, burnumun ucu göynədi! Sən Qarabağı görməmisən, onun gözəlliyini deməklə başa gələn deyil, belə havalarda Cıdır düzündə, İsa bulağında, hər qayanın dibində, hər budağın başında bir süfrə açılıb toğlu kababının iyi ərşə qalxır, çalan kim, oxuyan kim!.." (1, s. 485).

"Adətən Nataşa da xoş havadan istifadə edir, mütləq Hürini və Sahibi götürərək, gah Peterburqun səliqəli, təmiz parklarında, gah da Neva çayının sahilində universitet yerləşən geniş, ürəkaçan küçədə, bəzən də Qış sarayının ətrafında və ya Senat meydanında gəzdirirdi" (1, s. 313).

Mülayim, ruh oxşayan yaz günəşinin qızılı telləri Sənan dağının döşündə, gilasaların qızılı güllələrində, məscidlərin mavi minarələrində oynayırdı (1, s. 376).

Sənan dağı və şəhərin adı ərəb tarixçisi Tarik ibn Sənanın adından yaranmışdır. Sözün hərfi mənası isə işlək, çalışqan, zəhmətsevər, tərifləmən, mədh edilən, kəskin deməkdir. Burada ümumi sözdən xüsusi ad – antroponim yaranmışdır. Həmin antroponim isə yuxarıda qeyd etdiyimiz kimi zamanın tarixi, mədəni və s. tələblərindən irəli gələrək toponimə çevrilmişdir.

"Hər ikisi eyvana çıxdı, Kür çayının o biri sahilində açılmaz əbədi bir tilsim kimi ucalan Metex qalasına tərəf baxdılar" (1, s. 392).

Kür çayının adı "dəli, nadinc" mənası ilə bağlıdır. Kürün tez-tez aşıb-daşması da buna bariz nümunədir.

"Vəfadarın sazının simlərindən qopan səslər... Arazın o tayına, Təbrizin göyərçinlər yuva salmış damlarına, Ərdəbilin Savalan dağlarına gedib çatırdı" (1, s. 94). Şumerlərin tikinti tanrısının adı Araz olub. Araz çayının adı həmin tanrının adından götürülüb.

"Kimi deyir, qız boş sözdür, Xuduş bəy istəyib, Kərim bəyin Savuç bulaqdan aşağı nə ki torpaqları var, keçirsin əlinə" (1, s. 441). "Savuç" sözünün hərfi mənası "müdafiə" deməkdir. Burada da ümumi sözdən onomastik vahid yaranmışdır.

İsa bulağı isə Şuşanın ərazisində yerləşir. Azərbaycan təbiətinin nadir incilərindən sayılır. Bu hidronim haqqında yerli əhalinin məlumatına görə, bulaq XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış İsa adlı əkinçinin adını daşıyır.

Qeyd edək ki, yuxarıda göstərilən Senat meydanı, Sənan dağı memorial toponimlər hesab olunur.

Romanda leksik yolla yaranan kosmonimlər:

"Günəş qızır, sular oyanıb daşır, ağaclar pöhrələnir, çəmənlər yaşıllaşır, dağlarda gül-çiçəklər açılmağa başlayırdı" (1, s. 11).

Erqonimlərin leksik yolla yaranması:

"İstəyirəm, məktəbin adını "Çıraq" qoyam!" (1, s. 635).

Mirzə İbrahimovun məktəbi "Çıraq" adlandırması əbəs yerə deyildi. Təhsilin məktəbin uşaqların həyatına işıq saçacağına bir işarə idi...

Nəticə. Beləliklə, onomastik vahidlərin leksik yolla yaranmasını müstəqil şəkildə öyrənmək lazımdır. Nümunələrdən də göründüyü kimi, leksik yolla yaranan onomastik vahidlərdən M.İbrahimov romanda üslubi məqamda istifadə etmişdir. Son olaraq qeyd edək ki, leksik yolla yaranan sözlər dilin lüğət tərkibinin zənginləşməsində müstəsna rol oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. İbrahimov M. Pərvanə. Bakı: Gənclik, 1971, 700 s.
2. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika. Bakı: Maarif, 1982, 215 s.
3. Qurbanov A. Azərbaycan onomologiyasının əsasları (II cild). Bakı, 2019, 432 s.
4. Bağırov A. Onomalogiya problemləri (II cild). Bakı: Elm və təhsil, 2012, 412 s.
5. Paşayev A., Bəşirova A. Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı: Mütərcim, 2011, 340 s.

Açar sözlər: "Pərvanə" romanı, onomastik vahidlər, leksik üsul
Key words: The novel "Parvana" onomastic elements, lexical formations
Ключевые слова: роман "Парвана", ономастические единицы, лексический способ

Mirzə İbrahimovun "Pərvanə" romanında leksik yolla yaranan onomastik vahidlər

Xülasə

Məqalədə M.İbrahimovun "Pərvanə" romanındakı leksik yolla yaranan onomastik vahidlərdən bəhs olunur. Əsərin bədiiliyini şərtləndirən əsas vasitələrdən biri də məhz yazıçının istifadə etdiyi onomastik vahidlərdir. M.İbrahimov romanda onomastik vahidlərdən məharətlə istifadə etmişdir. Əsərin həcmi geniş olduğu üçün onomastik vahidlərdə rəngarəngdir. Tarixi zaman olduğundan real şəxs adları kosmonimlər, erqonimlər, həmçinin bir çox dünya xalqlarına mənsub toponimlər və s işlənmişdir. Həmin onomastik vahidlərin yaranma yolları arasında leksik üsulla yarananları ön plana çəkəcəyik.

Lexical formations and onomastic elements created in Mirze İbrahimov's novel "Parvana"

Summary

One of the main tools determining the artistic nature of the work is the onomastic units used by the writer. M. Ibrahimov skillfully used onomastic units in the novel. Since the volume of the work is wide, it is colorful in onomastic units. Since historical times, real personal names have been used as cosmonyms, ergonims, as well as toponyms belonging to many peoples of the world, etc. Among the ways of formation of those onomastic units, we will highlight those formed by the lexical method.

Ономастические единицы в романе Мирзы Ибрагимова «Парвана», созданные лексическим способом

Резюме

Одним из основных средств, определяющих художественную природу произведения, являются ономастические единицы, используемые писателем. М. Ибрагимов умело использовал в романе ономастические единицы. Поскольку объем работы широк, она красочна в ономастических единицах. Настоящие личные имена с исторических времен использовались как космонимы, эргонимы, а также топонимы, принадлежащие многим народам мира и т. д. Среди способов образования этих ономастических единиц выделим те, которые образованы лексическим методом.

Rəyçi: Filologiya elmlər doktoru, professor Reyhan Həbibli

Safixanova A.H., Abiyeva V.G. [86]

INNIVATIVE CHANGES IN THE STYLISTUC SYSTEM OF ENGLISH LINGUISTICS

In the most of the dictionates as conventient stylistic notation for a word or phrase that cannot be specified more exactly. The obscure etymology of the term itself affects its use as a stylistic notation. When ever the notation appears in a dictionary it may serve as an indication that the unit presented as non-literary, but not pinpointed. That is the reason why the various diction aries disagree in the use this term when applied as a stylistic notation.

Special colloguial vocabulary

1) Slang

Slang stems to mean everything that is Bellow the standard of usage of present day English. The first thing that strikes the scholar is the fact no other European lnguage has singled out a special layer of vocabulary and named it slang, thought all of them distinguish such groups of words as professionalism and others Webster`s "third New International Diction ary" gives the following meanings of the term "Slang". Slnag: language peculiar to a particular group as:

a) The special an often secret vocabulary used by a class and use felt to be vulgar or interior argot;

b) The jargon used by or associated with a particular trade, profession or field or activity.

2) A non-standard vocabulary composed of words and senses characterized primarily by connotation of extreme informality and currency not limitted to a particular region and composed typically of coinages or arbitarily changed words, clipped or shortened forms extravagant or verbial noveties usually experiencing quick popylarity and ulatively rapid decline into disuse. The New Oxford English Dictionary defines slang as follows: a) a special vocabulary used by any set of persons of low or disreputable character: a) Language of a low and vulgar type;b) The cant or jargon of a certain class or period; c) Language of a highly collaquial type considered as bellow the level of standard educated speech and consisting either of new word or of current words employed in some special sluse. "The term" slang which is wridely as term, it should clearly specified of it is to be used as term, it should rever to some definite notation and should be definable in explicit simple terms. Slang should be used for tjose forms of the English vocabulary which are either mispronounced or distored in some way phonetically, morphologically and lexically (1, p.12-13). The term slang may be used to pecify some elements which may be called over cooloquial for the other groups of words githerto classified as slang, they should be specified according to the universally accepted classification of the vocabulary of a language. The Times of the 12th of March, 1957 gives the following illustrations of slong leggo (let go) surge (sergent). But it is obvious that leggo is a phonetic impropriety caused by careless rapid speaking surge is a vulgar equivalent of the full form of the word. This different and heterogonous phenomena united under the vagul term slang cause natural confusion and not encourge scholars to seek more objective criteria in order to distinguish the various stylistic layers of the English collegial vocabulary. Slang is nothing but a deviatation from the established norm at the level of vocabulary of the language. Scientists write that one of the tasks set before the branch of linguistic science that is now called stylistics is a through study of all changes in vocabulary, set phrases, grammatical constructions, their functions an evalutaion of any breaking away from and classification of mistakes and failures in word coinage. Scientists in their "Dictionary of America slang write" Sometimes slang is used to escape the dull familiarity of standart words to suggest an escape from the established routine of everyday life. When slang is used, our life seems a little fusher and a little more personal. Also at all uvels at spuch, slang is sometimes used for the pure joy of making sounds, or even for a need to atract attention by making noise. Here some more examples of words that are considered slang: to make stock in to be interested in attach importance, give credence to:

1. Bread – basket stomach
2. To do a fit – to guite one is faet or lodging at night payging the rent or broad.
3. Not – nounsense
4. The cat`s pyjamas the correct thing

So broad is the term "Slang that to Eric Partige, there are any kinds of slang, such as cocney, public-house commercial, society military, theoretical, parlmentary and others. This leads the author to belive that there is also a standard is their writing and spech also use an informal language which in fact, is no language but merely away of speaking using special words and phrases in some special sense; 2) jargonism. In the non-litevary vocabulary there is a group of words that are called jargonizm; jargon is a recognized term for a group of words that exists in almost every language and whose aim is to preserve secrecy within one or another social group. Jargonizms are generally old words writhr entirely new meanings imposed on them. The traditional meaning of the words is instrumental, only the new improvized meaning is of importance (2, p.18-19). Most of gargons are of any language and of the English language too, are absolutely in comprehensible to tjose outside the cosial group which has invented them. They may be defined as a code within a code, that is special meanings of words that are imposed on the recognized code the dictionary meanings of words. The word "grase" means "money" "load" means "lead" a "tiger hunter" is a "genubler" a "lexer" is a student prepearing for low course. Jargonisms are social in character. They are not regional. In Britain and in the USA almost any social group jas its own jargon. The following jargons are well known in the English language; the jargon thieves and vagabonds, generally known as cant jargon of jazz people the gargon of the army known as military slang; the jargon of sportsmen and many others. Slang contrary to jargon needs no translation.

[86] AMU, the department of foreign language. asefixanova@gmail.com

It is easily understand by the English – speaking community and is only regarded as someting not quite regular. It must also be remembered that both jargon and slang differ from ordinary languge mainly in their vocabularies. The structure of the sentences and the morphology of the language remain practically unchanged. But such is the power of words which are the basic and most conspicuous element in the language. That we begin unwillingly to speak of a separate language. Jargonisms do not always remain the posession of a given social group. Some of them migrate into other social stata and sometimes become recognized in the literary language of the nation. The language of the underworld provided words facetiously adopted by the fashionable world, many of which such as fan and guiet and banter and bluff and sham and humbug, evebtually made their way into dagnified use. There are hundred of words, once jargonisms or slang, which have become legitimate members of the English literaty language. Jargonisms jowever do break away from the accepted norms at semantic variants of words. They are a special group writhin th non-literary layer of words jargonismis are divided into two groups:

1) Common jargon
2) Special jargonisms have gradually last their special quality, which is to promote secrecy and keep outsiders in the dark.

It fact there no outsiders where common jargon is concerned. It belongs to all social groups and is therefore easily understood by everybody. It melongs to all social groups and is therefore easily understood by everybody. That is why it is sp different to draw a hard and fast like between slang and jargon (3, p.31-34). When a jargonism becones common, it has passed on to higner on the ladder of word groups and becomes slang or colloquial. Here are some examples of jargon:

Pion - pion – a french solider, aprivate in the infanty. According to eric Patridge this word has already passed from military jargon to ordinary colloquial speech.

Hummen – a false arrest (American)

Dor – a persevering and assuduals student (university jargon)

Mallo (w) – a sailor (from the french word (matelot) man and wife a knife (rhyning slang)

Manany a sailor who is always putting off a job or work (Nautical jargon) (from spanis word "manano" – to – morrow). We must remark that both slangs and the various jargons of Great Britain differ much more from those of America (the USA & Canada than the literary language in the two countries does). In fact, the most striking difference is to be observed in the non-literary, layer or words and particularly in slang and jargonizms and professionalisms. Linguists remark that American slang on the whole remains a foreign language to the English man. American plays such as "is that so" and American Novels such as "Bubbitt" have had to be provided with glossaries in order to be intelligible in England John Galsworthy in the colloquial idiom. He wxhibits the rich element of native slang in the colloquial spech of England jargonisms, like slang and other groups of non-literary layer do not always remain on the outskirts on the literary language. Many words have overcome the resistance of the language law givers and purtist and entered the standart vocabulary. Thus the words kid, fun, quler, bluffm fib, humbug formally slang, words or jargonsms are now considered common colloquial. They may said to the jargonized (4, p.9-10). Professionalisms, as the term itself signifies are the words used in a definite trade, profession or calling by people connected by common interests both at work and at home. Professionalisms are correlated to terms (terms as has already been indicated are coined to nominate new consepts that appear in the process of and are sult of technical progress and the development of sciences. Here are some professionalisms used in tracks : tin-fish (submarine); black – buster (a bomb especially designed to destroy blocks of big buildings) ; piper (a specialist who decorates pastry with the use of cream – pipe) a nidder cafe (a midwibery cafe), outer (a knockosit blow) some professionalisms, however like certain terms become popular and producally lose their professional flavom. Thus the word crane. Which Byron used in his "Don Juan" was a verb meaning "to stretch" out the nek crame before a dangerous leap (inhunting, in order to look before your leap (4, p.22-24). Professionalisms should not be mixed up with jargonisms, like slang words, professionalism do not aim at secrecy. They fulfill a socially useful function in communications facilating a fuick and adequate grasp of mesage. Professionalism are used in emotive prose to derict the natural speech of character. The skillful are of professional word will show not only the vocation of a character. The skillful use of professional word will show not only the vocation of a character, but also education, beeding,environment and sometimes even his psychology. That is why , perhaps, a literary device know as speech-character prose. The use of professionalism forms the mose conspicous element of this literary device. Professionalisms generally remain in in circulation writhin a define community, as they are linked to a common accupation and common social interest. The semantic structure of the term is usually transparent and is therefore easily understood. Lika terms, professionalisms do not allow any polysemy, they are monosemantic.

ƏDƏBİYYAT

1. Vinoqradov V.V.Problemaavorstva I teoriya stiley. 1981, Moscow.
2. Darbyshire A. A grammar of style. 1971, London.
3. Ct. Chafe W. Making and structure of language. 1970, Chicago.
4. Chatman S. Stylistics Qualitative and Quantritive. 1968, Leningrad.

Açar sözlər: slənq, professionallıq, lüğıt, neoloqizmlər, bildiriş, dilçilik.

Key words: slangs, jargonizm, vocabulary statement, non literary language.

Ключевые слова: словарь, сленг, расширение смысла, неологизмы, жаргон, нелитературный стиль.

İNGİLİS DİLİNİN QLİNQVİSTİKASINDA ÜSLUBİ DƏYİŞİKLİKLƏR

XÜLASƏ

Məqalədə jarqonların arqonların, slınqların fərqli bir anlamda işlənilməsi göstərilmişdir. Bu jarqon lüğəti bir qrup insana aid olduğu göstərilir. Oksford ingilis ədəbiyyatında slınqlərin xüsusi və ümumi olaraq iki yerə bölünməsi verilmişdir. Məqalədə həmçinin jarqonların və slənqlərin məhdud şəkildə işlədilməsi göstərilmişdir. Jarqonlar və slənqlər bütün dillərdə mövcuddur. Hər bir yazıçı jarqonları özünıməxsus bir tərzdə öz məqalələrində əks etdiri. Məqalədə küçə jarqonlarına yol verilməmişdir. İctimai yerlərdə bu kimi yumşaq slənqlərdən istifadə edilir. Jarqon sözlər sadə insanların öz aralarında işlətdikləri kəlmələr kimi qeyd olunur. Dilçilikdə yasaq bir anlam kimi slanqlardan istifadə olunur. Müasir dünyada ingilis dili beynəlxalq dil səviyyəsinə yüksəlmişdir. Hal-hazırda qloballaşma dövründə biz ingilis dili daşıyıcılarının artmasını müşahidə etmişik. Dünyavi ingilis dili termini ilk dəfə olaraq Devid Kristal tərəfindən təşkil olunmuşdur. Standart ingilis dili Böyük Britaniyanın rəsmi dili, məktəblərdə, universitetlərdə danışılan, radio və televiziyada işlənən təhsilli insanların danışıqları ədəbi ingilis dilidi. Onu təşkil edən lüğıt fondu dialekt sözlərdən fərqlənir. Yerli dialektlər - ədəbi formaları olmayan, fərqli məkanlarda işlənən və anlaşılan ingilis dilinin variantlarıdır. Burada slənq dedikdə, danışıq zamanı nitqi fərqləndirmək, müasirləşdirmək üçün əlavə sözlərin istifadəsi nəzərdə tutulur. Slənq üzrə məşhur ingilis tədqiqatçısı E.Patric onu yalnız danışıq dilində istifadə olunan və ədəbi olmayan dialekt növünə aid edir.

SYMMARY

Stylistics is often defined as the linguistic study of style in language. Style aries from motivated choice and choices have consewuences. Stylistic analysis necessitates both linguistic description and an assessment of the interpretative consequences. The term “style” has several interpretation. It can indicate a particular differtial variaty of language. And here style is a language subsystem with a peculiar vocabulary phrasedogical combinatins another interpretation of the style is related to the areas of the use of tests. The system of functional styles of the English leterary language is formed by newspaper`s journalistic official busines, poetic, artistic and colloquial styles. Functional style should be considered as a product of a specific task set by the author of the message. Existence of functional styles is due to the specific conditious of communicatins. In recent years, the English language has under go significant changes in the field of communication. These changes predetermined by global changes in the economic and political life of society. It is knowm that many authors introduce certain constructuions into the text. It is better to understand the information that the author explained us.

СТИЛИСТИЧЕСКИЕ ИЗМЕНЕНИЯ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье описывается функционирование жаргона на фоне. Этот словарь жаргонов, как показывают принадлежит нескольким людям. В этой статье Оксфордская литература была разделена на две отдельные особи и колбо. Таким образом, в этой статье показано использование жаргонов с ограниченным изображением.

В статье описывается функционирование жаргона на фоне. Этот словарь жаргонов, как показывают принадлежит нескольким людям. В XIX веке произошло расслоение литературного английского языка на стили речи. Отношение литературного языка и различных речевых стилей является отношением общего и частного. В современном английском языке в зависимости от цели коммуникации в сферы употребления выделяются следующие пять стилей, стиль официального общения, стиль научной, стиль публицистики и прессы, стиль повседневного. Английский язык, как известно сложился в результате интеграции племенных диалектов англов, саксов и ютов. Английский национальный язык, сложившийся на базе лондонского диалекта в период формирования английской нации в течение XV-XVI веке, стремительно развивается. Стилистический подход к высказыванию не сводится лишь его структурной или смысловой стороне. Как правило, в основном жаргоны широко используются в разговорной речи. Эта статья может быть использована как полезная научная работа в лингвистике.

Rəyçi: **prof. Məmmədova Z.Ş.**

Aysu İlqar qızı Ağayeva [87]

MİRZƏ ƏLƏKBƏR SABİR YARADICILIĞINDA NİDALAR

Giriş. Müasir Azərbaycan dilinin lüğət tərkibinə daxil olan sözlər ifadə etdikləri leksik mənalarına görə bir-birindən fərqlənir. Dilimizdə olan bütün sözlər müstəqil leksik mənaya malik olmasa da, qrammatik mənaya malikdir. Bir qrup sözlər əşyanın adını, bir qrup sözlər əşyanın əlamətini, bir qrup sözlər əşyanın sırasını, sayını, bir qrup sözlər hal, hərəkəti ifadə edir və s. Qrammatik məna baxımından bu yaxınlıq sözləri müəyyən kateqoriyalar daxilində birləşdirməyə imkan verir ki,bununla da dilçiliyin bir bölməsi olan morfologiya məşğul olur.

Morfologiya sahəsində aparılan çoxsaylı araşdırmalar nitq hissələrinin müxtəlif dilçilər tərəfindən fərqli təsnif olunduğunu göstərir. Əldə olan tədqiqatları nəzərə alaraq deyə bilərik ki, nitq hissələri əsas və köməkçi olmaqla iki böyük yarımqrupa ayrılır: əsas nitq hissələri və köməkçi nitq hissələri. Əsas nitq hissələrinə leksik və qrammatik mənaya malik söz qrupları: isim, sifət, say, əvəzlik, zərf və feil aid edilir. Yuxarıda da qeyd etdiyimiz kimi heç bir leksik mənaya malik olmayıb sadəcə cümlədə müəyyən funksiya yerinə yetirən sözlər isə köməkçi nitq hissələri: qoşma, bağlayıcı, ədat və modal söz olaraq qəbul edilir.

Ümumi morfoloji araşdırmalar tarixinə nəzər saldığımız zaman əsas nüanslardan biri kimi qeyd etmək lazım gəlir ki, dilimizdə hissləri və duyğuları ifadə edən sözləri ayrıca qruplaşdıran alimlər olmuşdur. Cümlənin məzmunu ilə birbaşa bağlı olan belə sözlər nidalar adlanır və bu sözlər xüsusi nitq hissəsi olaraq qeyd edilir. Lakin bəzən nidalar təqlidi sözlərlə,bəzən vokativlərlə qarışdırılmış,bundan əlavə bir qrup dilçilər nidaları köməkçi nitq hissələrinin tərkibinə aid etmiş və cümlə üzvləri arasında əlaqə yaradan sözlər kimi qəbul etmişlər. Nidaların özünəməxsus əlaməti onların müstəqil məna bildirmədən hisslər və duyğuların ifadəçisi kimi çıxış etməsidir. Lüğəvi mənaya malik olan sözlərin məfhum ifadə etməsi nidaların söz kimi qəbul edilməsinə maneə yaradan fikirlərdəndir. Hazırda ən görkəmli dilçilər təsdiq edirlər ki, söz həm məfhum ifadə edir, həm də hiss və duyğuları ifadə edir (K.Hacıyev). İnsanı digər canlılardan fərqləndirən bir cəhət kimi ali duyğulara malik olmasını qeyd edə bilərik. Düşdüyümüz müxtəlif situasiyalar əhvalımızın dəyişməsinə, reaksiyalarımızın rəngarəng çalar almasına səbəb olur. Bizə verilən sevincli xəbər xoş təəssüratların yaranmasını, xoşagəlməz xəbər isə təəssüf, qorxu hissinin yaranmasını şərtləndirir. Bu halda biz fikirlərimizi sadəcə müstəqil mənalı sözlərlə ifadə etmirik, konkret qəlibləşmiş formalar anidən yaranan hissləri daha təsirli edir. Məhz bu baxımdan qeyd etmək yerinə düşər ki, nidaların dildəki funksiyası əvəzedilməzdir. Heç bir başqa söz işlətməsək belə, baş verən hadisəyə münasibətimiz nidalarla aydın ifadə olunur.

Nidaları təsnif edən dilçilərin ümumi fikrini nəzərə alaraq belə deyə bilərik ki, a) emosionallıq bildirən, b) çağırış bildirən nidalar daha böyük yarımqruplar təşkil edir. Emosional nidalar şadlıq, sevinc, qorxu, arzu, həzz, tərif, zövq, yalvarış, rəhm, narazılıq, şikayət, təəssüf, heyrət, təəccüb, ağrı, yorğunluq, qəzəb, nifrət, tələş, iztirab, istehza, kədər və s. kimi mənalar ifadə edir (Q.Kazımov). Çağırış bildirən nidalara dilimizdə tez-tez rast gəlinir ki, bunlar da öz növbəsində xitabla işlənənlər və xitabsız işlənənlər olaraq iki yerə ayrılır.

Canlı danışıq dilinin əsas ünsürlərindən olan mimika və jestlərin yaranmasında nidalar mühüm əhəmiyyət kəsb edir. Səslənən fikrə qarşı yaranan duyğular söz şəklinə düşüb ifadə olunduğu kimi danışanın simasında və ya əl-qol hərəkətlərində bir uyğunluğun yaranmasına səbəb olur.

Əsas hissə. Ədəbiyyatımızın görkəmli sənətkarlarından olan Mirzə Ələkbər Sabir yaradıcıllığına nəzər saldığımız zaman istər o dövrdə mövcud vəziyyətlə bağlı yazdığı narazılıq ifadə edən yazılarında, istər tipi öz dili ilə tənqid etdiyi şeir parçalarında, istərsə də kinayənin əvəzsiz nümunələrinə rast gəldiyimiz satiralarında yüksək hiss, həyəcan, emosiya ifadə edən nidalara rast gəlirik.

***Of**, bilməm nələr... Hər halda ümidvarız ki, təzə varid olmuş naçalnikimiz kapitan Fyodorov cənabları bizim dərdlərimizə qalacaqdır* (s. 177).

***Pəh, pəh,** nə böyük vəzifə, nə ali məqsəd! **Ey** millətimizin ziyalı cəvanları, bilsəniz ki, siz dünyalar qədəri olan bir vəzifə altında yaşayırsınız!* (s. 206)

Qeyd etdiyimiz kimi nidaların mühüm bir qismini çağırış nidaları təşkil edir: *a, ay, ya, ey, ehey*. Bilirik ki, Sabirin şeirlərinin böyük əksəriyyəti xalqa müraciət formasında yazılmışdır və beləliklə, şair oxucuların diqqətini çatdırmaq istədiyi fikrə yönləndirir:

***Ey** millətin ümmidi, dilü canı, uşaqlar!*
Validlərinin sevgili cananı, uşaqlar! (s. 75)

Xalqının sevilən, əbədiyaşar sənətkarı olan Sabiri həmvətənlərinin taleyi, gələcəyi daim düşündürmüşdür. Bu istiqamətdə əlindən gələni əsirgəməyərək tükənməz qələmi ilə xalqının sevincini, kədərini, narahatlığını əsərlərinə sığdırmağa çalışmışdır. Bəzən qəflət yuxusunda yatan camaat, xalqın haqqını tapdalayan yüksək zümrə nümayəndələri şairin səbir kasasının daşmasına səbəb olmuşdur. Nəticədə ürək ağrısı ilə mövcud vəziyyəti kəskin tənqid atəşinə tutmuşdur.

Əhdi pozub əgərçi mən üsyanın eylərəm,
***Ey dad, haray**! Nə növ ilə samanın eylərəm?!* (s. 85)

Bu parçada Sabir nəfsinin qulu olan, ona məğlub olan insanları öz dili ilə tənqid edir. Sonda isə camaatın onlardan üz döndərdiyini düşünərək qorxu, narahatlıq hissi keçirir.

[87] Bakı Dövlət Universiteti Azərbaycan dilçiliyi kafedrasının magistrantı. E-mail: agayevaaysu70@gmail.com

Xalqın zəif tərəfinin din olduğunu bilən müftəxor din xadimləri bundan istifadə edərək öz mənfəətləri naminə insanlığı yanlış istiqamətləndirmiş, din pərdəsi altında ədalətsizliyin bariz nümunəsi olmuşlar. Təbbi ki, bu, realist ədəbiyyatın böyük sənətkarı olan Sabirin də diqqətindən yayınmamışdır. Maarif xadimlərinin yoluna maneələr yaradaraq elm öyrənməyin günah olduğunu təkid edirdilər. Onların fikrincə, sadəcə şəriət elmlərinə yiyələnmək kifayətdir, özgə elmlər insanı cəhənnəm oduna basil edəcəkdir. *"Çapma atını, girmə bu meydanə, a molla!"* misrası ilə başlayan satirasında Sabir qəzəbini mollalara olan xitab vasitəsi ilə ifadə etmişdir:

Hər nə eləsə, başda var əmmamə, ***a*** *Molla!*
Dinmə, toxunur aləmi-islamə, ***a*** *Molla!* (s. 131)

Ax, ah, vah cümlədə iztirab, ağrı, istehza ifadə edən nidalar kimi çıxış edir. Situasiyadan asılı olaraq nidalar bir-birini əvəz etmək qabiliyyətinə də malikdir.

Ax*, bu uşaqlar necə bədzatdılar!*
Lap deyəsən cin kimi bir zatdılar!

Şair qələmə aldığı bədii nümunələrdə xalq danışıq dilinin xüsusiyyətlərini nəzərə alaraq bəzən nidaları müxtəlif fonetik tərkibdə təqdim etmişdir.

1) "Ey" nidasının "vey" şəklində işlənməsi;
Vey *sərv, nə xoş can alıcı qəmzələrin var,*
Həm işvələrin var (s. 63).
2) "Uf" nidasının "ha" bitişdiricisi ilə işlənərək təkrarlanması;
Hər kəsə dəysəydi edərdi haman
Bir neçə gün ahü fəğan, ***ufhauf****!* (s. 70)
3) "Bəh-bəh" nidasının "bah-bah" şəklində işlənməsi;
Cadu da əlimdən bacarıb cin də qutarmaz,
Əfsunuma ***bah-bah****!..* (s. 73)
4) "Pah" nidası müstəqil mənalı sözlə birlikdə işlənərək öz təsir gücünü artırması
Pah atonnan*,nə ağır yatdı bu oğlan,ölübə!* (s. 105)

Dinimizlə bağlı ifadələr gündəlik nitqimizdə işləkliyinə görə kifayət qədər geniş işlənmə dairəsinə malikdir. İstər çətin vəziyyətə düşdüyümüz zaman, istər işlərimizin qaydasında getdiyi zaman dua edərək allahdan kömək diləyirik. Dinlə bağlı belə ifadələr alınma olmasına baxmayaraq, müəyyən duyğu, ekspressivlik bildirdiyinə görə nidaların tərkibinə daxil edilir: *inşallah, bərəkallah, əlhəmdülillah,əstəğfürüllah, amin* və s. Sabirin şeirlərində qeyd olunan ifadələrlə bağlı bir çox nümunələrlə rastlaşırıq.

Barəkallah *ki, saf sinələri,*
Əlhəq elmü ədəb xəzinələri (6, s. 46).

Və yaxud

Hesab və kitab da ki, maşallah, müsəlman içində adət deyil (5, s. 367).

Nəticə. Son olaraq deyə bilərik ki, ədəbiyyatımızın dahi sənətkarı olan Mirzə Ələkbər Sabir yaradıcılığı öz poetikliyi, zənginliyi ilə seçildiyi kimi canlı danışıq dilinin əvəzsiz ifadəsi ilə geniş oxucu kütləsinin diqqətini cəlb edir. Məhz bu baxımdan sənətkarın dilində istifadə olunmuş nidalar müxtəlif məna çalarına malikdir. Sadə xalqın gündəlik danışığında istifadə olunan duyğuları, emosiyaları, hissləri bildirən nidalar öz rəngarəngliyi ilə dilimizin ifadə imkanlarının genişliyini sübuta yetirir.

İstifadə edilmiş ədəbiyyat

1. Müasir Azərbaycan dili. 2-ci cild. Bakı: Elm, 1980, 509 s.
2. Hacıyev K. Azərbaycan dilində nida. Bakı: Nurlan, 2005
3. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1973, 357 s.
4. Kazımov Q. Müasir Azərbaycan dili. Bakı: Elm və təhsil, 2014, 446 s.
5. Mirzə Ələkbər Sabir. Hophopnamə. 1-ci cild. Bakı: Şərq-Qərb, 2004, 472 s.
6. Mirzə Ələkbər Sabir. Hophopnamə. 2-ci cild. Bakı: Şərq-Qərb, 2004, 380 s.

Açar sözlər: Sabir, morfologiya, nida, ekspressiv ifadə, nitq hissələri, canlı danışıq dili

Key words: Sabir, morphology, exclamation, expressive expression, parts of speech, live spoken language

Ключевые слова: Сабир, морфология, восклицание, экспрессивное выражение, части речи, живая разговорная речь

Mirzə Ələkbər Sabir yaradıcılığında nidalar

Xülasə

Nidalar dilçilikdə çox tədqiq olunmayan, lakin kifayət qədər işləklik qazanan söz qruplarından biridir. İstər ümumi dilçilikdə, istər türkologiyada və istərsə də, Azərbaycan dilçiliyində nidalarla bağlı fikirlərə morfologiya sahəsində yazılan dərslik və monoqrafiyaların tərkibində rast gəlirik. Hissləri, duyğuları və emosiyaları ifadə edən bu söz qrupu müstəqil mənalı sözlərdən və köməkçi sözlərdən ifadə imkanlarına görə fərqlənir. Nidalar məfhum ifadə etmir, müstəqil leksik mənaya malik deyil, cümlədə sintaktik vəzifə daşımır və hər hansısa suala cavab vermir. İnsanlar arasındakı ünsiyyət, fikir mübadiləsi sadəcə izahını tapmış ifadələrlə deyil, ekspressiv ifadələrlə də mümkündür. Qeyd etdiyimiz kimi canlı danışıq dilini nidalarsız təsəvvür etmək çətindir, necə ki, mimika və jestlər olmadan şifahi nitqi təsəvvür etmək olmur. Bu baxımdan xalq danışıq dilini öz poeziyasında kifayət qədər ustalıqla canlandıran sənətkarlarımızdan biri də Mirzə Ələkbər Sabir

olmuşdur. Şairin nidalardan ibarət şeiriyyatında ifadə etmək istədiyi fikirlər artıqlaması ilə xalqa çatdırılmışdır. Sabir yaradıcılığı XX əsr ədəbi tariximizin əvəzedilməz irsi hesab edilir.

Exclamations in the work of Mirza Alakbar Sabir

Summary

Exclamations are one of the groups of words that have not been studied much in linguistics, but have gained enough functionality. Whether in general linguistics, in Turkology, or in Azerbaijani linguistics, we find ideas about exclamations in textbooks and monographs written in the field of morphology. Expressing feelings, emotions and emotions, this group of words differs from words with independent meaning and auxiliary words in terms of expressive possibilities. Exclamations do not express a concept, do not have an independent lexical meaning, do not have a syntactic function in a sentence, and do not answer any question. Communication between people, exchange of ideas is possible not only with expressions that have found an explanation, but also with expressive expressions. As we mentioned, it is difficult to imagine a living spoken language without exclamations, just as it is impossible to imagine oral speech without facial expressions and gestures. In this regard, Mirza Alakbar Sabir was one of our artists who skillfully revived the spoken language in his poetry. The ideas that the poet wanted to express in his poetry consisting of exclamations were conveyed to the people. Sabir's work is considered an irreplaceable heritage of our 20th century literary history.

Восклицания в творчестве Мирзы Алекпера Сабира

Резюме

Восклицания – одна из групп слов, мало изученных в лингвистике, но обладающих достаточной функциональностью. Будь то общее языкознание, тюркология или азербайджанское языкознание, мы находим представления о восклицаниях в учебниках и монографиях, написанных в области морфологии. Выражая чувства, эмоции и эмоции, эта группа слов отличается по выразительным возможностям от слов с самостоятельным значением и вспомогательных слов. Восклицания не выражают понятия, не имеют самостоятельного лексического значения, не выполняют синтаксической функции в предложении и не отвечают ни на один вопрос. Общение между людьми, обмен идеями возможны не только выражениями, нашедшими объяснение, но и выразительными выражениями. Как мы уже говорили, живую разговорную речь трудно представить без восклицаний, как невозможно представить устную речь без мимики и жестов. В этом отношении Мирза Алекпер Сабир был одним из наших художников, умело возродивших разговорную речь в своей поэзии. Народу доносились те идеи, которые поэт хотел выразить в своих стихах, состоящих из восклицаний. Творчество Сабира считается незаменимым наследием нашей литературной истории XX века.

Rəyçi: Filologiya elmləri doktoru, professor Zemfira Şahbazova

Zeynəb Cəfər qızı Cəfərli [88]

MUSTAFA ZƏRİRİN "YUSİF VƏ ZÜLEYXA" POEMASINDA İŞLƏNƏN OMONİMLƏR

XIV əsrdə ana dilimizdə yazıb-yaradan görkəmli söz ustalarından da biri də çoxcəhətli və zəngin yaradıcılığa malik olmuş "Yusif və Züleyxa" poemasının müəllifi Mustafa Zərirdir. Şərq xalqları ədəbiyyatında ənənəvi mövzulardan sayılan "Yusif və Züleyxa" poeması doğma ana dilimizin və nəsrimizin keçmiş olduğu uzun və mürəkkəb tarixi inkişaf yolunu izləmək üçün ən etibarlı mənbələrdən sayılır. Qədim mənşəyə malik bu süjet zaman-zaman bədii düşüncəni məşğul etmiş, müxtəlif dillərdə və müxtəlif bədii formalarda ədəbi təsərrüfatın məhsulu kimi özünü təzahür etdirmiş, söz sənətinin obyektinə çevrilmişdir. Əsərdə süjetin dinamikası nikbinlikdən bədbinliyə, narahatlığa, sonra yenidən nikbinliyə sxemi üzrə qurulmuşdur. Əsərin dilindəki saflıq və duruluq bədii mətnin özündə hifz edilmişdir. Demək mümkündür ki, bədii mətnin linqvistik baxımdan dilindəki anlaşıqlılığı sonrakı yüzilliklərin orijinal nümunələrinin dilindən daha qabarıqdır.

Poemanın dilindəki zənginliyi və rəngarəngliyə ilə seçilən leksikası, yəni leksik-semantik söz qrupları, arxaik sözlər xüsusi olaraq diqqəti cəlb edir. Ümumiyyətlə, dilçilik böyük bir tarixi inkişaf yolu keçmiş leksikologiya elmin ən qədim sahələrindən biridir. Dilin leksik tərkibi bir çox amillərin təsirinə məruz qalır. İşlənmə dairəsinə görə fərqlənən söz qrupları şüurun, təfəkkürün inikas etdirdiyi, qavradığı obyektiv gerçəkliyin əşya və hadisələrini ifadə edir. Bu söz qruplarının təhlili bir sıra spesifik cəhətləri üzə çıxarır. Bu baxımdan, müxtəlif dillərin leksik vahidlərinin leksik-semantik tədqiqi xüsusi aktuallıq kəsb edir. Leksik vahidlərin məna qruplarının yerlərinin düzgün müəyyənləşdirilməsi, onların milli, həmçinin universal əlamətlərinin açıqlanması, ayrı-ayrı söz qruplarının işlənmə xüsusiyyətlərinin, spesifik üslubi çalarlıqlarının təhlil edilməsi istər nəzəri, istərsə də praktik baxımdan aktualdır.

Dilimizin lüğət tərkibinin araşdırılması keçən əsrin ortalarından geniş vüsət aldı, bu sahədə fundamental elmi əsərlər, monoqrafiyalar meydana gəldi. Bu sahədə sinxronik və diaxronik planda elmi tədqiqat işlərinin kəmiyyət və keyfiyyətcə artımı diqqəti cəlb edir. S.Cəfərov, B.Xəlilov, H.Həsənov, M.Hüseynzadə, Ə.Dəmirçizadə, A.Axundov, H.Mirzəzadə, A.Qurbanov və başqa müəlliflərin elmi yaradıcılığında lekisikologiyanın müxtəlif problemlərinə aydınlıq gətirilmişdir.

Müasir Azərbaycan dilinin lüğət tərkibindəki sözlər məna ifadə etməsinə görə üç qrupa bölünür: omonim sözlər, sinonim sözlər, antonim sözlər [5, s. 163]. Bunlar içərisində omonimlər öz fərqliliyi, orjinallığı ilə seçilir. Formaca eyni, məzmunca müxtəlif olan sözlərə omonimlər deyilir. Başqa sözlə desək, yazılışına və səslənməsinə görə eyni olub, mənaları arasında heç bir əlaqə olmayan sözlər omonimlərdir. Omonimlik hadisəsi mütəmadi olaraq tədqiq olunan və öz aktuallığını bu dövrlərdə də qoruyub saxlayan dil məsələlərindəndir. Buna səbəb ondadır ki, omonimlik hadisəsi bütün mənalı dil vahidlərini əhatə edə bilən semantik hadisədir. Omonimlik hadisəsi uzun zaman dilin leksik səviyyəsinin vahidləri olan sözlər əsasında tədqiq olunmuşdur. Sonralar isə omonimlik hadisəsinin tədqiqat arealı xeyli genişlənmiş, morfoloji və frazeoloji vahidləri də əhatə etmişdir.

Dilçiliyikdə omonimlərin dildə işlənməsi ilə bağlı müxtəlif fikirlər mövcud olmuşdur. Bununla bağlı olaraq, Səlim Cəfərov yazır: "Omonimlərim əmələgəlmə prosesi dilimizdə yeni bir hadisə deyildir. Azərbaycan dilində omonimləşmə hesabına lüğət tərkibinin zənginləşməsi prosesi onun qədim dövrlərindən mövcud olmuşdur" [1, s. 21].

Omonimlər ədəbi-bədii yaradıcılıqda geniş istifadə edilən bədii ifadə vasitələrindən biridir. Sənətkarlat omonimlərin vasitəsilə dilə gözəl ahəngdarlıq, musiqililik gətirir. Və onlar sözləri müxtəlif çalarlarda leksik ifadələr yarada bilirlər. Bədii nitqdə omonim və ona oxşar omonimlik müxtəlif səbələrdən istifadə olunur. Omonimlərin vasitəsilə gözəl qafiyələr də yarana bilir.

Omonimlərin aşkar edilməsində müəyyən zaman kəsiyi, sənətkarların dil və üslub xüsusiyyətləri vacib amillərdən biridir. Aytən Hacıyeva qeyd edir ki, "Poeziyada, bədii ədəbiyyatda, xüsusilə folklorda omonimlər əvəzedilməz dil vahidləridir. Zahirən biri digərinə bənzəyən bu sözlərin bədii üslubda qarışdırılması ahəngdarlıq və səlisliyi artırır, mənanı qüvvətləndirir, insanın bədii zövqünü oxşayır və oxucunun nəzər-diqqətini ifadə edilən fikrə cəlb edir" [2, s. 14].

Omonimləri üç qrupa bölürük: qrammatik, leksik-qrammatik, leksik-semantik. Həmçinin Həsrət Həsənova görə omonimləri dört qrupa bölmək olar: leksik omonimlər, qrammatik omonimlər, leksik-qrammatik omonimlər, qarışıq omonimlər [3, s. 104]. M.Zəririn "Yusif və Züleyxa" poemasında omonimlərə bir sıra nümünə göstərə bilərik. Həmçinin deyə bilərik ki, omonimlərin qrammatik, leksik-qrammatik növlərinə poemada çox az rast gəlirik. Ona görə də, əsasən leksik-semantik omonimlərə müraciət edə bilərik. Bunlara misal olaraq aşağıdakı nümunələri göstərə bilərik:

1) *Al* sözü poemada iki mənada işlənir.

Birinci mənası *yalan* sözüdür.

Bən bunlarə şimdi bir *al* eylərəm,
İlla səni bunlərdən alərəm [6, s. 86]/

İkinci mənası isə *götürmək* sözüdür.

Çözdü qolindən, ayıtdı, ey çəvan
Al bunu, babamə vergil nişan [6, s. 98]/

Al sözü hiylə, yalan mənasında dilimizdə qorunub saxlanmış nümünədir. "Aldatmaq", "aldanmaq" sözlərini də bu mənanın bir qoruyucu vasitəsi kimi düşünə bilərik. Həmçinin *al* sözünə "Kitabi-Dədə Qorqud"un dilində də rast gəlmək mümkündür.

[88] Bakı Dövlət Universiteti Türkologiya kafedrasının magistrantı. E-mail: zeynep.ceferli@mail.ru

Müasir dilimizdə aldanmaq sözünün tərkibində işlənən bu söz həmçinin dialekt və şivələrimizdə işlənmişdir. Əsasən Bakı, Qazax şivələrində "yalan" semantik mənasında işlənir. *Al* sözünün "qırmızı", "hiylə", "yalan", "kələk" kimi mənaları onun sonrakı mənaları kimi qəbul edən alimlər də vardır.

Həmçinin müasir türk dillərində *al* sözünün işləndiyini müşahidə etmişik. Müasir uyğur və türkmən dillərində isə bu söz yalan, hiylə mənasında işlənir.

2) *Yar* sözü poemada üç mənada işlənir.

Birinci mənası *sevgili, məşuqə* sözləridir.

Olmıya əğyar aradə *yar* ilə
Ləli ləbindən müdami sorə [6, s. 107]

İkinci mənası *yoldaş, dost* sözləridir.

Ol aradə bir qəricuq var idi
İləridən anunlə *yar* idi [6, s. 113]

Üçüncü mənası *parçalamaq* sözüdür.

Ta ki *yarılır* Züleyxa kömləki,
Döndü aydır, Yusif, ey din bəgi [6, s. 119]

Buradakı işlətdiyimiz nümunələrin biri milli, ikisi isə alınma mənşəlidir. Bu omonimlərə müxtəlif dövrlərdə rast gəlmək mümkündür. Həmçinin "Kitabi-Dədə Qorqud"un, Kişvərinin dilində işlənir. Kişvəridə bu söz həm "dost", "sevgili" mənasındadır.

Azərbaycan dialekt və şivələrimizdə fərqli məna ifadə edən yar sözlərini görürük. İrəvan və Quba dialektlərində bu hadisəyə rast gəlmək mümkündür.

3) *Qat* sözü poemada müxtəlif mənalarda işlənir: yan, hüzur, qarşı, qabaq.

Quyuyə bıraxalım dedi bunlər,
Durdılar, Yusif *qatinə* gəldilər [6, s. 13]

Qat sözünə digər orta əsrlər yazılı abidələrin dilində də rast gəlinir. "Kitabi-Dədə Qorqud"un dilində "hüzur", "yan", "dəfə" mənalarında işlənməsini görürük. Həmçinin Xətainin dilində də bu sözün "Kitabi-Dədə Qorqud"un dilində olduğu kimi "yan", "hüzur" kimi mənalarına rast gəlirik. *Qat* sözünün klassik ədəbəbiyyatda işlək olan iki mənası ədəbi dilimizdə arxivləşib.

Dialekt və şivələrimizdə *qat* sözünün üç ayrı mənasına rast gəlinir. Ordubad, Salyan dialektlərində bu sözün işləndiyini görürük. Həmçinin qeyd edə bilərik ki, dialektlərdə işlənən *qat* sözünün mənası poemada işlənənlərə qismən daha yaxın olduğuna şahidik.

4) *Təmam* sözü poemada üç mənada işlənir

Birinci mənası *tam, bütöv* sözləridir.

Qalmadilər bundə əshabi-giram
Getdilər bu dünyadən cümlə *təmam* [6, s. 120]

İkinci mənası *hamı* sözüdür.

Sözdür axır ol cəvahir kim, kəlam,
Hər ki, tutdu əmrini, oldu *təmam* [6, s. 108]

Üçüncü mənası *son, axır* sözləridir.

Çün irişdilər muradə, nə kəlam,
Bu hekayə bundə uş oldu *təmam* [6, s. 110]

Bu omonim söz alınma mənşəlidir. Göründüyü kimi, "Həqiqi sənət nümunələrində eyni səs tərkibli leksik vahidlər poetik mənanın arxa plana keçməsinə yol vermir, əksinə fonetik cild etibarilə eyniyyət təşkil edən sözlər öz obrazlı mahiyyətini, gözəl poetik formalarda yeni məzmunun ifadə etmək mütəhərrikliyini büruzə verir" [4, s. 44]

5) *Yol* sözü poemada iki mənada işlənir.

Birinci mənası *dəfə* sözüdür.

Eşit imdi rəvayət dəxi,
Bir *yol* da dəxi dinlə, ey səxi [6, s. 99]

İkinci mənası *cığır* sözüdür.

Bir dəvəyə Yusifi bindirdilər,
Misr elinün *yolinə* yönəldilər [6, s. 21]

Bu poemada işlənən *yol* omonim sözü digərlərindən fərqli olaraq omonimin digər növü olan leksik-qrammatik omonimdir. Birincidə işlənən *yol* sözü numerativ söz, ikincidə isə isim kimi işlənməsini görürük.

Beləliklə, leksik-semantik omonimlərdə eyni söz iki, bəzən daha artıq məna ifadə edə bilir. Ancaq leksik, leksik-qrammatik omonimlər yalnız iki məna ifadə edir.

Poemanın dilində işlənən omonimlərə baxdığımızda deyə bilərik ki, burada omonimlərin yaratdığı rəngarənglik, təmizlik, fərqlilik öz təcəssümü baxımından fərqlənir. Həmçinin burada işlənən omonimlər orta əsərlər yazılı abidələrimizin dilində, xüsusilə "Kitabi-Dədə Qorqud"un dilində öz əksini tapmışdır. Leksik semantik qruplar olan omonim, sinonim və antonimlərin istifadəsi fikrin genişliyinə, məna dərinliklərinə səbəb olan əsas faktorlardan biridir. Və digər müəlliflərin

dilində olduğu kimi Mustafa Zəririn "Yusif və Züleyxa" poemasında işlənən leksika ifadəliliyinə, yığcamlığına, bir sözlə, dilinin estetikasına xidmətinə görə xüsusilə seçilir.

İstifadə edilmiş ədəbiyyat

1. Cəfərov S. Müasir Azərbaycan dili (leksika). Bakı: Şərq-Qərb, 2007, 192 s.
2. Hacıyeva A. Omonimlərin bədii üslubda işlənmə xüsusiyyətləri (İngilis dilinin materialları əsasında), Filologiya Məsələləri, № 12, Bakı, 2017, 14-19 s.
3. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Nurlan, 2005, 452 s.
4. Hüseynov M. Poeziya dilində omonimlərin üslubi ifadə tərzi. Turan-Sam, 6, 42-45 s.
5. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, 2008, 441 s.
6. Zərir M. "Yusif və Züleyxa". Çapa hazırlayan: Xəlilov Şaməddin. Bakı: Şərq-Qərb, 2006, 128 **s.**

Açar sözlər: Mustafa Zərir, "Yusif və Züleyxa", omonim, poema, dil

Key words: Mustafa Zarir, "Yusif and Zuleykha", homonym, poem, language

Ключевые слова: Мустафа Зарир, "Юсиф и Зулейха", омоним, стихотворение, язык

Mustafa Zəririn "Yusif və Züleyxa" poemasında işlənən omonimlər

Xülasə

Dilimizin lüğət tərkibi rəngarəngdir. Ümumiyyətlə, dilçilikdə böyük bir tarixi inkişaf yolu keçmiş elm, leksikologiya isə elmin ən qədim sahələrindən biridir. Dilin leksik tərkibi bir çox amillərin təsirinə məruz qalmışdır. Ayrı-ayrı dilçilərin mövqeyi leksikaya yeni zənginliklər gətirib. Leksik vahidləri forma və məzmununu nəzərə alaraq çoxmənalı sözlərdən, omonimlərdən, sinonimlərdən və antonimlərdən ibarət leksik-semantik söz qruplarına bölmək olar. Bunlar içərisində omonimlər xüsusilə diqqəti cəlb edir. Həmçinin omonimlərin özü də bir sıra qrupa bölünür. Omonimlər dilin zənginliyini və mənasını artırmaq üçün istifadə olunan keyfiyyətli əlavələrdir. Omonimlər dilin ifadə gücünü artırmağa kömək edir və yazıçılar tərəfindən gözəl bir ifadə aləti kimi qiymətləndirilir. Yaradıcı bir dilin yaranmasında və ifadə gücünün artırılmasında omonimlərin rolu böyük idi. Orta əsrlər yazılı ədəbiyyatlarımızın dilində omonimlərin müxtəlif növlərinə rast gəlmək mümkündür. Şərq ədəbiyyatında geniş yayılmış Mustafa Zəririn "Yusif və Züleyxa" peomasında da omonimlərin zənginliyini və rəngarəngliyini görürük. Poemanın dilində işlənən omonimlər daha çox leksik-semantik omonimlərdir. İşlənən omonimlərin hər biri ifadəliliyinə, yığcamlığına, bir sözlə, dilinin estetikasına xidmət göstərir.

Homonyms used ın mustafa zarır's poem "Yusıf and Zuleykha"

Summary

The vocabulary of our language is colorful. In general, linguistics is a science with a long historical development, and lexicology is one of the oldest branches of science. The lexical composition of the language is affected by many factors. The position of individual linguists brought new richness to the lexicon. Lexical units can be divided into lexical-semantic word groups consisting of polysemous words, homonyms, synonyms and antonyms, taking into account their form and content. Among them, homonyms attract special attention. Also, homonyms themselves are divided into several groups. Homonyms are quality additions used to add richness and meaning to language. Homonyms help to increase the expressive power of the language and are appreciated by writers as a wonderful expressive tool. The role of homonyms in creating a creative language and increasing the power of expression was great. It is possible to find different types of homonyms in the language of our medieval written literature. We see the richness and variety of homonyms in the poem "Yusif and Zuleykha" by Mustafa Zarir, which is widespread in Eastern literature. Homonyms used in the language of the poem are mostly lexical-semantic homonyms. Each of the used homonyms serves its expressiveness, brevity, in a word, the aesthetics of the language.

Омонимы в поэме мустафы зарира "Юсиф и Зулейха"

Резюме

Лексика нашего языка красочна. В целом языкознание наука с длительным историческим развитием, а лексикология одна из древнейших отраслей науки. На лексический состав языка влияет множество факторов. Позиция отдельных лингвистов обогатила лексикон. Лексические единицы можно разделить на лексико-семантические группы слов, состоящие из многозначных слов, омонимов, синонимов и антонимов, с учетом их формы и содержания. Среди них особое внимание привлекают омонимы. Также сами омонимы делятся на несколько групп. Омонимы это качественные дополнения, используемые для придания языку богатства и значения. Омонимы способствуют повышению выразительной силы языка и ценятся писателями как прекрасный выразительный инструмент. Велика роль омонимов в создании творческого языка и повышении выразительной силы. В языке нашей средневековой письменной литературы можно встретить разные типы омонимов. Богатство и разнообразие омонимов мы видим в широко распространенном в восточной литературе стихотворении Мустафы Зарира "Юсиф и Зулейха". Омонимы, используемые в языке стихотворения, представляют собой преимущественно лексико-семантические омонимы. Каждый из употребляемых омонимов служит своей выразительности, краткости, словом, эстетике языка.

Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent İslam Vəliyev

Günel Rafiq qızı İsmayılova [89]

İNGİLİS DİLİNİN DİSTANT TƏDRİSİNİN LİNQVODİDAKTİK MƏSƏLƏLƏRİ

Ümumtəhsil orta məktəblərdə ingilis dilinin tədrisinin strateji məqsədi hər bir şagirdin mümkün olan maksimum şəxsi, eləcə də peşəkar yüksəlişinə nail olmaqdır. Nəzərdə tutulan keyfiyyətlərə nail olmaq təhsil mühitində həyatın vahid baxış təcrübəsinin mənimsənilməsini, onda məqsədyönlü və sistemli fəaliyyət göstərmək, əldə edilmiş bilikləri cəlb etməklə, gündəlik problemləri həll etmək üçün zəruri vasitələrin və şəraitin olmasını tələb edir. Xarici dil ümumi mədəni inkişafın vasitəsi və şagirdin bilik keyfiyyətinin yüksəldilməsi üçün şərt rolunu oynayır. Ənənəvi olaraq, xarici dil tədrisi məktəblərdə şagirdlərin xarici dildə peşəkar ünsiyyətə hazırlanmasına, habelə xüsusi ədəbiyyatla işləməsinə yönəlmişdir. Əlavə olaraq, xarici dil biliyi şagirdin bir sıra gələcək seçim üstünlükləri təqdim edir və məqsədyönlülük, ünsiyyət, performans, çalışqanlıq və yüksək intellekt səviyyəsi kimi keyfiyyətlər mövcudluğunu sübut edir [1].

Ümumtəhsil orta təhsil müəssisələrində xarici dilin tədrisinin məqsədi istər peşəyönümlü və istərsə də özünütəhsil fəaliyyətində xarici dilin praktiki istifadəsi üçün şagirdlər tərəfindən kommunikativ bacarıqların kifayət qədər mənimsənilməsidir. Bu məqsədə çatmaqda uğur qazanmaq şagirdlərə ingilis dilinin distant tədrisinin linqvodidaktik əsaslarının tədqiqi baxımından müasir strategiyaların tətbiq edilməsindən çox asılıdır. Bu onunla bağlıdır ki, hazırda şagirdyönümlü tədrisin özəllikləri müəllimin virtual tədris prosesində yalnız abstrakt "orta statistik" şagirdlə deyil, hər biri fərdi və yalnız özünəməxsus keyfiyyətlərə malik olan konkret fərdlə işləməsi ideyasına xidmət etməlidir. Linqvodidaktika, fərdi xüsusiyyətləri, ana dili və bunun əsasında ikinci dil bilik və bacarıqlarını, ana dili danışanlarla ünsiyyət qurmaq, mədəniyyətlərarası bilik və bacarıqları mənimsəmək səviyyəsini nəzərə alaraq, linqvistik fərdiliyin formalaşmasına yönəlib. Xarici dil öyrənərkən biz onun ana dilindən oxşarlığına və fərqlərinə əsaslanırıq. Buradan belə çıxır ki, öyrənilən dil linqvistik quruluşunun xüsusiyyətləri, vasitələri, konkret hadisələri daxil olmaqla, vahid strukturda qəbul olunmalıdır. Linqvodidaktika dil formalarının məzmununa, xüsusən də dilin virtual mənimsənilməsi vasitələrinin tədqinə diqqət yetirir. Nəticədə dilin mənimsənilməsinin metodoloji konsepsiyaları inkişaf edir. Xarici dilin distant tədrisinin əsas aspekti linqvistik material, dil hadisələri və onların əlaqəsi, nitq bacarıqları və onların nəticəsində əldə olunan bacarıqlar, dil materialının təhlili və sintezini əhatə edən təlim məzmunudur. Xarici dilin distant tədrisinin məzmunu tədris vasitələri və üsullarını, təlimin keçdiyi dil mühiti nəzərə alınmaqla dil hadisələrinin öyrənilməsi, tələffüz, dil səviyyəsi üçün leksik və qrammatik minimumların müəyyən edilməsini özündə birləşdirir.

N.D.Galskova dil biliyinin ümumavropa səviyyələr sistemini aşağıdakı kimi təsnifatını verir:

1. Vəziyyəti idarə edə bilmə səviyyəsi (Уровень выживания): şifahi və yazılı mətndə ayrı-ayrı sözlərin və cümlələrin başa düşülməsi. Sadə dialoq aparmaq bacarığı: sadə suallar vermək, oxşarlarına cavab vermək. Şəxsi məlumatlarla ünsiyyət qurmaq bacarığı.

2. Sərhədə qədər (Допороговый уровень) səviyyə: sadə cümlələri və mətnləri başa düşmək, qısa söhbət etmək, mürəkkəb məktublar yazmaq bacarığı.

3. Sərhəd səviyyəsi(Пороговый уровень): tematik mətnləri, televiziya şoularını başa düşmək, əvvəlcədən hazırlıq olmadan əksər hallarda ünsiyyət qurmaq, kitab və ya filmin məzmununu çatdırmaq bacarığı.

4. Sərhəddi keçmə səviyyəsi (Порогово-продвинутый уровень): müasir prob-lemlərə toxunan bəyanatları, məruzələri, mühazirələri, məqalələri və mesajları başa düşmək bacarığı. Dil daşıyıcısı ilə dialoq qurmaq, öz nöqteyi-nəzərini müdafiə etmək, müzakirələrdə iştirak etmək, məlumatı əsaslandırılmış şəkildə yazılı şəkildə çatdırmaq bacarığı.

5. Yüksək səviyyə: TV şoularını, filmləri, aydın məntiqi strukturlu dialoq və monoloqları səlis başa düşmək bacarığı.Mürəkkəb bədii və texniki mətnləri anlamaq. Peşəkar və gündəlik ünsiyyət situasiyalarında müxtəlif dil vasitələrindən istifadə edərək fikirlərini səlis, hazırlıqsız ifadə etmək, öz fikirlərini aydın ifadə etmək, yazılı fikirlər, peşəkar hesabatlar yazmaq bacarığı.

6. Dilin mükkəmməl mənimsənilməsi səviyyəsi: ana dilində danışanın müxtəlif növ və janrlara aid nitqini sürətli templə başa düşmək bacarığı. Bütün peşəkar fəaliyyət sahələrində öz fikirlərini səlis ifadə etmək, dil vasitəsi ilə üslub xüsusiyyətlərini qoruyub saxlayaraq mətnlər aydın struktura malik hesabatlar, bədii əsərlərə annotasiyalar və aidiyyatı olan əsərlər yazmaq bacarığı [2, 81-88]. Müasir linqvodidaktikada və xarici dilin distant tədrisi metodologiyasında öyrənmənin şagirdnin fərdi psixoloji xüsusiyyətləri nəzərə alaraq fərdiləşdirilmə prinsipini uyğun həyata keçirilməsi nəzərdə tutulur.

Tədrisin kredit texnologiyası qaydalarına əsasən distant tədris prosesinin təşkilinin təmin edilməsinin əsas vəzifələrindən biri kredit texnologiyasından istifadə edərək virtual təhsilin maksimum fərdiləşdirilməsi və diferensiallaşdırılması üçün şəraitin yaradılmasıdır. Bu, ilk növbədə, xarici dil nitqinin distant tədrisi zamanı şagirdlərin ona təklif olunan nitq tapşırıqlarını özününkü kimi qəbul etməsi və real aktivlik nümayiş etdirməsi ilə bağlıdır ki, bu aktivlik yalnız təklif olunan tapşırıqların və öyrəniləcək materialın bir şəxs kimi onun ehtiyac və maraqlarına cavab verdiyi halda baş verir. Buradan belə nəticəyə gəlməyə əsas verilir ki, virtual xarici dil dərsləri şagirdlərin öz təcrübələrini və ya hisslərini bölüşmək imkanına malik olduğu, şagirdlərin ətrafdakı faktlara, reallıqlara şəxsi münasibətlərini ifadə edə biləcəyi şəkildə qurulmalıdır. Orta məktəblərdə müxtəlif səviyyəli kontingentə malik şagirdlərə ingilis dilinin distant tədrisinin fərdiləşdirilməsinin linqvodidaktik xüsusiyyətləri, hər bir şagirdin fərdi xüsusiyyətləri nəzərə alınaraq dərsdəki, eləcə də müstəqil iş tapşırıqlarının məqsədəuyğunluğunu seçməkdən ibarətdir. Distant təhsildə ümumi bir tapşırıq üzərində işləmək mümkündür, lakin eyni zamanda fərqli şagird qruplarına fərdi xüsusiyyətlərə malik diferensiallaşdırılmış tapşırıqlar təqdim

[89] **Bakı Slavyan Universiteti Xarici dilin tədrisi metodikası və metodologiyası kafedrasının magistrantı e-mail: rashad06@rambler.ru**

olunmalıdır. Müxtəlif dil bacarıqlarına malik şagirdlər aktiv fəaliyyətə cəlb oluna bilərlər, bununla yanaşı daha güclü şagirdlər daha mürəkkəb, çətin tapşırılqarı yerinə yetirməlidirlər.

Qrammatik və leksik materialı rəqəmsal tapşırıqlara tətbiq edərkən əvvəlcə yaxşı və orta oxuyan şagirdlərə, sonra isə zəif hazırlaşan şagirdlərə müraciət etmək tövsiyə olunur. Beləliklə, kifayət qədər dil hazırlığı olmayan şagirdlər öyrənilən nitq nümunələrinin müstəqil tələffüzünə qədər ən az virtual olaraq 5-6 dəfə dinləyirlər, bu da öz növbəsində sonra nitq materialını istifadə etməyə və yadda saxlamağa kömək edir.Üumutəhsil orta təhsil məktəblərində xarici dilin tədrisi prosesində multimedia proqramlarından istifadə edərkən fərdi yanaşma audiallara, yəni yaxşı inkişaf etmiş eşitmə yaddaşı olan şagirdlərə lazım olan müəyyən bir sözü və ya nitq modelini dəfələrlə dinləməyə vizuallara, daha çox vizual yaddaşa malik şagirdlərə sözün qrafik təsvirinə diqqət yetirməyə imkan yaratmaqdır. Multimedia materiallarının istifadəsi motivasiyalı nitq fəaliyyətinin öyrənilməsinə və inkişafına kifayət qədər töhfə verə bilər. Multimedia və kompüter texnologiyasından istifadə orta məktəblərdə ingilis dilinin tədris prosesinin təşkilini daha təsirli etməyə imkan verir. Şagirdlərin maraqları, bacarıqları və hazırlıq səviyyəsi nəzərə alınmaqla düzgün seçilən sinifdənkənar oxu mətnləri bu prosesdə böyük əhəmiyyət kəsb edir [3, 53-56]. Orta məktəblərdə ingilis dilinin virtual tədrisinin həyata keçirilməsi şagirdlərin ingilis dilinə yiyələnmə dövründə xüsusi tədris mətnlərinin, linqvodidaktik materialın qurulmasını, ondan istifadə qaydalarını, tədris dialoqunun növlərini, şəxsi inkişafa nəzarət formalarını nəzərdə tutur. Yalnız subyektiv təhsil prinsipini həyata keçirən belə linqvodidaktik dəstəyin mövcudluğu şəraitində distant tədrisin effektivliyindən danışmaq olar .

Ümumtəhsil orta təhsil müəssisələrində şagirdlərə ingilis dilinin tədrisinin əsas linqvodidaktik xüsusiyyətləri aşağıdakı kimi təqdim edilə bilər:

- virtual tədris materialı, habelə onun təqdimat xarakteri, şagirdin subyektiv təcrübəsinin məzmununun, o cümlədən onun əvvəlki hazırlıq təcrübəsinin müəyyən edilməsini təmin etməlidir;

-distant tədris zamanı şagirdlərin təcrübəsini mənimsənilən biliyin elmi məzmunu ilə daim əlaqələndirmək lazımdır;

- şagirdlərin təhsil fəaliyyətlərinə fəal stimullaşdırılması biliklərinin mənim-sənilməsi zamanı özünütəhsil, özünü inkişaf etdirmə, özünü ifadə etmə imkanlarını təmin etməlidir;

- rəqəmsal tədris materialı elə şəkildə təşkil edilməlidir ki, şagird tapşırıqları yerinə yetirərkən seçim etmək imkanı, o cümlədən öyrənmə tərzini- vizual, eşitmə, və s.seçmək imkanı olsun;

- distant təhsil prosesinin həyata keçirilməsi üsulları haqqında bilikləri təqdim edərkən, fərdi inkişaf funksiyalarını nəzərə alaraq, ümumi məntiqi və xüsusi üsulları ayırmaq lazımdır;

-təkcə nəticənin deyil, öyrənmə prosesinin də nəzarətini və qiymətləndirilməsini təmin etmək tövsiyyə olunur;

-virtual tədris materialı subyektiv fəaliyyət kimi distant tədrisin qurulmasını, həyata keçirilməsini, əks olunmasını, qiymətləndirilməsini təmin etməlidir. Eyni zamanda müəllim hər bir şagirdin inkişaf etdirməyə yönəlməli, onun fərdiliyini, özünəməxsusluğunu və özünə inamını tanımağa çalışmalıdır.

Virtual tapşırıqların məktəblərdə xarici dilin şagirdyönümlü distant tədrisində şagirdlərin öyrənmə səmərəliliyinin artırılmasına kömək edə bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Theoretical and practical aspects of distance learning. Visegrad Fund, 2009, 312 səh.
2. Выготский В.С. Мышление и речь // Выготский. С. Собр. Соч.: в 6 т. – М.: Педагогика, 1982. – Т. 2. – 312 с.
3. Бухарова Г.П. Проблемы индивидуального подхода к учащимся приобучении иностранному языку в неязыковом вузе // Современныетехнологии обучения иностранным языкам: Международная научно – практическая конференция: сборник научных трудов. – Ульяновск:УлГТУ, 2011. – С. 53-56 с.
4. Polat E.S., Bucharkina M.Y., Moisiejeva M.V. Theory and practice of distance learning: teacher book for university students. Moskva, 2004, 416 s.
5. www.oup.com/elt

Açar sözlər: Distant təhsil, məktəb, forma, ənənəvi,, tədris, virtual, resurs

Ключевые слова: Дистанционное обучение, школа, аворма, традиционный, английский язык, виртуальный,

Key words: Distant learning, school, the English language, virtual, resource, form, traditional

İngilis dilinin distant tədrisinin linqvodidaktik məsələləri

Xülasə

Məqalədə ingilis dilinin orta təhsil müəssisələrində distant təhsil formasında tədrisinin linqvodidaktik aspektləri araşdırılmağa səy göstərilmişdir. Distant təhsil və onun linqvodidaktik məsələləri ilə bağlı elmi və nəzəri ədəbiyyatda olan fikirlər öyrənilərək məqalədə təhlil olunmuşdur.

Linqvodidactic aspects of distant teaching of the English language at secondary schools

Summary

In the article lingvodidactic aspects of distant teaching of the english language at secondary schools is studied. Various views on distance learning and its lingvodidactis aspects are studied through study of theoretical materials.

Линкводидактические аспекты дистанционного обучения английскому языку общеобразовательных школах

Резюме

В статье изучаются лингводидактические аспекты дистанционного обучения английскому языку в общеобразовательных школах. Путем изучения теоретических материалов изучаются различные взгляды на дистанционное обучение и его лингводидактические аспекты.

Rəyçi: dos. S.Abbasova

Fatimə Qarayeva[1]

AZRBAYCAN DİLİ SİNTAKSİSİNİN İNTEQRATİV ƏSASLI TƏDRİS İMKANLARI

Hər bir dil iki tərkib hissədən: lüğət tərkibi və qrammatik quruluşdan ibarətdir. Sistem xarakteri daşıyan dil fonem, leksem, morfem, söz birləşməsi, cümlə və mətndən ibarətdir. Bu sistemdə kommunikativ funksiyadan kənarda qalan kateqoriya və anlayış yoxdur. Sintaksis nitqin vücudu, kommunikasiyanın strukturu və ünsiyyətin ifadəsinin yekun formasıdır. Dilin tikinti materialı olan söz söz birləşməsi və cümləni təşkil edir. Digər cəhətdən sözün hər hansı bir vəzifəni yerinə yetirməsi üçün müəyyən formalara düşməsi də əsas şərtdir. Bu da öz növbəsində sintaksisin morfologiya ilə əlaqəli tədrisinə gəti-rib çıxarır. Şagirdlərin dil duyumlarının, nitq mədəniyyətlərinin inkişafında, məzmunca elmi, publisist, istərsə də bədii fikrin düzgün, dolğun ifadəsində sintaksisin inteqrativ tədrisi imkanlarından istifadənin çox mühüm əhəmiyyəti var.

Hər bir dil iki tərkib hissədən: lüğət tərkibi və qrammatik quruluşdan ibarətdir. Ümumən sistem xarakteri daşıyan dil fonem, morfem, söz birləşməsi, cümlə və mətndən təşkil olunur. Bu sistemdə kommunikativ funksiyadan kənarda qalan kateqoriya və anlayış yoxdur. Dilin vahidləri sırasında ən dominant səciyyə daşıyanı söz birləşməsi və cümlədir ki, bunlar sintaksisin predmetini təşkil edir. Sintaksis nitqin vücudu, kommunikasiyanın strukturu və ünsiyyətin yekun ifadə formasıdır.

Sanki sintaksisə qədərki dilçilik elementləri və anlayışları bu bölmənin formalaşması və tamamlanması vəzifəsini yerinə yetirir. Fonem (səs) , leksem (söz) və morfem müəyyən qrammatik əlamətlərlə birlikdə ünsiyyəti təşkil edir. Sintaksisin ikinci predmeti olan cümlə dilin mətndən əvvəlki ən mənalı və bitkin vahididir. Bəzi dilçi alimlər cümləni dilin özü adlandırır-lar. "Dildə cümlənin əhəmiyyəti çox böyükdür. Başqa sözlə desək, cümlə dilin özüdür. Cümlənin əmələ gəlməsində dilin demək olar ki, bütün vasitələri, bütün ünsürləri iştirak edir. Çünki cümlə dildə olan və dilçilik elminin müxtəlif sahələrinin tədqiq etdiyi dil faktlarının, müxtəlif dəyişmələrin, rəngarəngliyin yekunudur. Elə bil ki, bunların hamısı nəticə etibarilə cümlə qurmaq üçündür". [1, s.77]

Bir sözlə, sintaksis və onun predmetləri nitqin təşkilində həlledici funksiyaya malikdir. İstər şifahi, istərsə yazılı nitq sintaktik kateqoriyaların və digər nitq vahidlərinin sintaktik kateqoriyalarla birləşməsinin nəticəsi-dir. Dilçiliyin digər bölmələri, onların hər birinin səciyyəvi vahidləri möv-cuddur ki, bunlar konkret əlamətləri baxımından bir- birindən fərqlənsə də, həmin vahidləri bir- birindən təcrid edilmiş şəkildə öyrənmək qeyri- müm-kündür. Belə halda dil yarımçıq olar, fikrin mübadiləsi baş tutmaz.

Bütün bu dediklərimizi nəzərə alaraq deyə bilərik ki, sintaksisin inteqrativ əsəslarla tədrisi onun şagirdlər tərəfindən mənimsənilməsində mühüm əhəmiyyət daşıyır. Sintaksis fonetika bölməsi ilə əlaqədardır. Hər bir cümlə sözlərdən, sözlər isə öz növbəsində səslər vasitəsilə təşkil edilir. Fonetika ilə sintaksisin qarşılıqlı linqvistik baxımdan bağlılığı sintaksisin orfoepiya və orfoqrafiya ilə inteqrasiyasını və onların inteqrativ əsasda tədrisini zəruri edir. Bu iki bölmə arasındakı bağlılıqdan biri və ən mükəmməli də fonetkanın prosudiya hissəsi,yəni cümlənin intonasiya əlaməti ilə əlaqədardır.

Məlumdur ki, istənilən dilin təşəkkülü ilk olaraq özünün şifahi forması ilə təzahür etmişdir. Şifahi nitq(dil) isə intonasiyasız təsəvvür edilə bilməz. Yazı isə şifahi dildən sonra meydana gəlmişdir.

Tarixilik baxımından sonrakı hadisə olaraq qeyd edilsə də, yazının özünü də intonasiyasız dərk etmək yanlış düşüncə ilə nəticələnə bilər. Təbii ki, intonasiyanın ifadə imkanlarının yazılı nitqdəki ekvivalenti durğu işarələridir.

Bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, nitqdə hər bir cümlənin öz kommunikativ təyinatı vardır. Həmin təyinatın kommunikativ funksionallığını reallaşdıran intonasiyadır. Bu isə fonetik intonasiya ilə sintaktik intonasiya anlayışlarının şərhi və inteqrativ əsaslarla tədrisi problemin həlli yolunda ciddi addımlardandır. Ümumiyyətlə, cümlənin akustik cəhətinin tədrisi onun akustik strukturunun müəyyənləşməsi üçün real zəmin hazırlayır. Dilin tikinti materialı olan söz söz birləşməsi və cümləni təşkil edir. Bu da öz növbəsində leksikanın morfologiya və sintaksislə ardıcıl qarşılıqlı əlaqədə olduğunun göstəricisidir.

"Söz ünsiyyət məqsədlərinə xidmət etmək üçün işlədilən, gerçəkliyin, hər hansı bir faktını, onun təbiət materiası kimi, fonetik tərkib vasitəsilə ifadə edilən dil vahididir. Ona görə də söz lüğət tərkibinin əsas vahidi kimi öz təbiətinin dolğunluğunu və həqiqi mənasını əlaqəli nitq daxilində büruzə verir. [2, s.12]

Azərbaycan dili sintaksisinin inteqrativ əsaslı tədrisi işində sintaksisin leksikologiya ilə inteqrasiyası məsələsinin önə çəkilməsi vacib məsələlərdəndir. Çünki fikir cümlə vasitəsilə müsahibin nəzərinə çatdırılır. Kommunikativ funksiyasından asılı olmayaraq hər bir cümlə komponenti cəhətdən söz və sözlərin əlaqəlu formasından ibarət olur. Buna görə də demək mümkündür ki, sözlərsiz cümlə olmadığı kimi, cümlə olmadan da fikir ifadə etmək qeyri – mümkündür.

Sözlərin mexaniki düzülümü cümlə əmələ gətirə bilməz. Sözlərin cümlə şəklini alması (məna və struktur cəhətdən) üçün morfoloji üsullarla əlaqələnməsi mütləqdir. İstənilən sözün cümlədə müəyyən funksiya daşı-ması üçün onun qrammatikanın ixtiyarına keçməsi mühüm şərt sayılır. Deməli, sintaksis morfologiya ilə də əlaqəlidir. Söz birləşməsi və cümləni təşkil edən sözlər bir – bir ilə morfoloji üsullara əsasən əlaqələnir. Hər hansı cümlə üzvü müvafiq nitq hissəsi ilə ifadə olunur və ya müəyyən bir nitq hissəsi konkret sintaktik vəzifə daşıyır. Başqa sözlə, sözün forması morfologiyaya, funksiyası isə sintaksisə aid olur.

"Son qeydlərdən göründüyü kimi, morfologiya və sintaksis, nitq hissələri və cümlə üzvləri haqqında deyilənlər uzaq tarixə aid deyil, elə indinin özünə aiddir.

---

[1]ADPU-nun magistrantı

Nəzəriyyə üçün iyirmi – otuz, qırx - əlli il müasir deməkdir. Cümlə üzvləri ilə nitq hissələri arasında uyğunluqları və bu uy-ğunluqlara əsaslanıb onların genetik birliyini inkar etmək çətin olar.” [4, s.75]

Sözün forması morfologiyaya, vəzifəsi isə sintaksisə məxsusdur. Ümum-iyyətlə, sintaksisin inteqrativ əsaslarla tədrisini nəzəri cəhətdən bu cür ifadə etmək olar: səs sözləri, söz, birləşməsi və cümləni təşkil edir. Səs olmasa söz, söz olmasa sözlərin birləşməsi və cümlə mövcud olmaz. Həmin inteqrasiyanı praktik cəhətdən əyaniləşdirsək aşağıdakı sxem alınar:



Mənşəcə latın dilindən götürülmüş inteqrasiya termini “bütöv”, “bütövləşmə” mənasını ifadə edir. Ayrı – ayrı hissələrin birləşməsi və bütövləşməsi mənasını bildirən inteqrasiya ətraf aləmdə baş verən hadisələr və proseslərlə sıx surətdə bağlıdır. Bütün elmlər təbiət və cəmiyyət hadisələri ilə əlaqəli olduğu üçün onların təcəssümü olan fənlərin bir –biri ilə əlaqəsi də təbiidir.

Deməli, bütün fənlərin istinad mənbəyi canlı, cansız varlıqların, məkan və zaman anlayışlarının vəhdəti olan dünyadan, həyatdan qaynaqlanır.

İstər struktur, istər məzmunca təbiət hadisələrinin elmi təzahürü olan müxtəlif fənlər diferensial xüsusiyyətləri ilə yanaşı, həm də inteqrativ səciyyəyə malikdir.

“Bütün elm sahələrində, o cümlədən sosiologiyada, eləcə də pedaqogikada inteqrasiyanın ən çox iki növündən istifadə olunur: fənlərarası və fəndaxili inteqrasiya. Bir çox mənbələrdə bu iki ifadəni eyniləşdirən, həm də fərləndirən var. İnteqrativlik yeni kurikulumların əsas prinsiplərindən biridir. [3, s. 52]

Nəticə etibarilə deyə bilərik ki, şagirdlərin dil duyumlarının, onların nitq mədəniyyətlərinin inkişafında və məzmunca elmi, publisistik , istərsə də bədii fikrin düzgün, dolğun ifadəsində sintaksisin interativ tədrisi imkanlarından istifadənin çox mühüm əhəmiyyəti var.

Ədəbiyyat

1. Abdullayev Ə, Seyidov Y, Həsənov A. Müasir Azərbaycan dili. (Sintaksis, IV hissə), Şərq – Qərb, Bakı – 2007, 422s.
2. Cəfərov S, Müasir Azərbaycan dili(Leksika. II hissə). Şərq – Qərb, Bakı – 2007, 191s
3. Kazımov A. Ümumtəhsil kurikulumunun əsasları, ADPU-nun mətbəəsi. Bakı – 2015, 117s.
4. Seyidov Y. Azərbaycan dilinin qrammatikası (morfologiya). Bakı universiteti, Bakı – 2002, 268s.
5. Qurbanov V., Əmirli A. Azərbaycan dili tədrisinin aktual problemləri. Müəllim, Bakı – 2009, 161s.

Возможности интегративного обучения синтаксису азербайджанского языка

Резюме

Любой язык состоит из двух компонентов: словарного запаса и грамматической структуры. Системный язык состоит из фонемы, лексемы, морфемы, словосочетания, предложения и текста. В этой системе нет категорий и понятий, находящихся вне коммуникативной системы. Синтаксис – это тело речи, структура общения и конечная форма выражения общения.

Слово, являющееся строительным материалом языка, образует словосочетание и предложение. С другой стороны, для того, чтобы слово выполняло какую-либо задачу, основным условием является его попадание в определенные формы. Это, в свою очередь, приводит к преподаванию синтаксиса, связанного с морфологией.

Очень важно использовать возможности интегративного обучения синтаксису в развитии языковых ощущений учащихся, культуры речи, в правильном и полном выражении научных, публицистических или художественных идей.

Ключевые слова: Синтаксис, интегративная основа, языковые элементы, грамматический строй, коммуникативная функция.

Integrative based teaching opportunities of Azerbaijan language syntax

Summary

Every language consists of two components: vocabulary and grammatical structure. Systemic language consists of phoneme, lexeme, morpheme, phrase, sentence and text. In this system, there are no categories and concepts that are outside the communicative system. Syntax is the body of speech, the structure of communication and the final form of expression of communication.

The word, which is the building material of the language, forms a phrase and a sentence. On the other hand, for the word to perform any task, it is a basic condition that it falls into certain forms. This in turn leads to the teaching of syntax related to morphology.

It is very important to use the possibilities of integrative teaching of syntax in the development of students' language sensations, speech culture, in the correct and complete expression of scientific, journalistic, or artistic ideas.

Keywords: Syntax, integrative basis,linguistic elements, grammatical structure, communicative function.

RƏYÇİ: dos. S.Abbasova

Fərzəliyeva Səbinə Müsülət qızı [90]

ORFOQRAFİYA TERMİNİ VƏ ORFOQRAFİK LÜĞƏT ANLAYIŞI

Orfoqrafiya lüğətlərindən bəhs etmədən öncə məhz orfoqrafiya terminin özünə diqqət etmək yerinə düşərdi. Müasir Azərbaycan ədəbi dilinin əsas şöbələrindən biri olan orfoqrafiya düzgün yazı qaydalarından bəhs edir. Yazı dil ilə ifadə olunan fikirləri, duyğuları başqalarına çatdırmaq üçün insanlar arasında vacib sosial vasitədir. Yazı bəşəriyyətin tərəqqisi üçün yeni-yeni perspektivlər açır. Mədəniyyətlərin sürətli inkişafı da məhz yazı vasitəsilə gerçəkləşir. Mədəni irsin qorunub-saxlanılmasında yazının müstəsna əhəmiyyəti vardır. Dil kimi, yazı da xətti-obrazlı tipdən hərfi-fonetik tipə doğru inkişaf etmişdir.

Orfoqrafiya sözünü mənşəyinə diqqət etsək görərik ki, *orfoqrafiya* (ὀρθογραφία) yunan mənşəli sözdür və söz iki yunan kökündən ibarətdir: *orthos*(ὀρθός) + *grafo*(γράφω) - mənaları "düzgün" və "yazıram" deməkdir.

Əslində belə qənaətə gəlmək olar ki, orfoqrafiya terminini beynəlmiləl termin hesab etmək düzgün deyil. Çünki hətta keçmiş sovetlər birliyinə daxil olan türk dilli xalqlarda bu termin müxtəlif cür işlədilmişdir. Belə ki, Azərbaycan, türkmən, qırğız, tatar dilində - *orfografiya* formasıda işlənsə də, özbək dilində - *imlo*, qazax dilində - *ғемлe* formasında qəbul olunub və işlədilir. Türk dilində orfoqrafiya termini – *yazım*, Alman dilində - *Schreibweise*, Fransız dilində - *orthographe*, ərəb dilində - الإملائية (al'iimlayiya) kimi işlənən termini beynəlmiləl hesab etmək düzgün olmaz.

Araşdırmalar başqa bir dil faktını da ortaya qoyur. Belə ki, orfoqrafiya özü düzgün yazı qaydalarından bəhs etsə də sözün özünün düzgün yazılışına ehtiyac var, çünki "orfoqrafiya" sözü dilimizə yanlış formada daxil olub. Bu qənaətə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev gəlib və fikrini aşağıdakı kimi əsaslandırmışdır. Akademikin sözlərinə görə, "orfoqrafiya" sözünün kökü səhvdir. Bu söz "f" səsi ilə deyil "f" ilə yazılmalıdır, yəni "*orfoqrafiya*" deyil, "*ortoqrafiya*" kimi yazılmalıdır. Belə ki "orfoqrafiya" sözünün kökü "orto"dur. Qədim yunan, latın dillərində, eləcə də ingilis dilində bu sözün kökü "orto" kimi qeyd edilib. Ancaq bu termin , hansısa subyektiv səhvin hesabına rus dilinə, rus dilindən də Azərbaycan dilinə "orfoqrafiya" kimi daxil olub. Belə ki, "orto" sözü "düz", "düzgün", "düzbucaqlı" deməkdir. Yeri gəlmişkən, əksər ölkələrdə, o cümlədən Türkiyədə də "*orto*" önlüyü işlədilir. Beynəlxalq səviyyədə orfoqrafiya sözü anlaşılmır. Ona görə Azərbaycanda da bu məsələ nəzərə alınmalıdır [https://ict.az/az/news/3125/].

Qeyd etməliyik ki, 2004-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilən "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə öz əksini tapmış *orto* önlüklü ingilis mənşəli 34 söz məhz "orto" frazası ilə (məsələn, *ortodoks, ortoqonal, ortopediya, ortoxəritə* və s.) başlayır.

Orfoqrafik lüğətə orfoqrafiya ilə bağlı söz və ifadələr daxildir. Bunlar müxtəlif növ orfoqrafik səhvlərə, orfoqrafiya qaydalarına və ya sözlərin yazılışına təsir edən qrammatik strukturlara aid olan terminlər ola bilər. Düzgün orfoqrafiyanı öyrətmək, mətnləri redaktə etmək və keyfiyyətini təmin etmək üçün orfoqrafiya terminlərini başa düşmək və orfoqrafiya lüğətini bilmək lazımdır. Onlar həmçinin dil savadının inkişafına və ünsiyyət bacarıqlarının inkişafına kömək edir. Ümumiyyətlə, orfoqrafiya termini və orfoqrafiya lüğəti dil səriştəsinin mühüm elementləridir və yazılı ünsiyyətin keyfiyyətinin yüksəldilməsinə kömək edir.

Orfoqrafiya termini və orfoqrafiya lüğəti dil savadının və yazılı dildən düzgün istifadənin əsas komponentləridir. Ünsiyyətin getdikcə daha çox əhəmiyyət kəsb etdiyi bir dünyada düzgün orfoqrafiya aydın və başa düşülən mətnlərin yaradılmasında mühüm rol oynayır. Orfoqrafiya dilçiliyin bir sahəsi kimi sözlərin yazılış qaydalarını öyrənən elm sahəsidir və bu sahədə istifadə olunan terminologiya qaydaların standartlaşdırılmasına kömək etməklə yanaşı, yazılı ünsiyyətdə aydınlığı və vahidliyi təmin edir. Əsas rolu orfoqrafiya termininin mahiyyəti və sözlərin orfoqrafiya qaydalarının başa düşülməsi kontekstində mənası oynayır. Orfoqrafiya lüğətinə və onun yazıda fikirlərin ifadəsinin savadlılığının və aydınlığının formalaşmasında roluna da diqqət yetirmək lazımdır. Tədqiqat üçün, ilk növbədə, bu anlayışların başa düşülməsinin yazılı ünsiyyət bacarıqlarının təkmilləşdirilməsinə və dil səriştəsinin formalaşmasına necə kömək etdiyini təhlil etmək lazımdır.

Orfoqrafiya dilin ən mühüm cəhətlərindən biri olub, sözlərin və mətnlərin düzgün yazılış qaydalarını müəyyən edir. Orfoqrafik dil anlayışı sözlərin dilin norma və standartlarına uyğun yazılışını tənzimləyən bu qayda və konvensiyaların məcmusunu əks etdirir.

Azərbaycan dilinin orfoqrafiyası onun düzgün işlədilməsi və başa düşülməsinin əsas cəhətidir. Həmin dildə sözlərin və mətnlərin yazılması qaydalarını müəyyən edir, yazılı ünsiyyətdə aydınlığı və vahidliyi təmin edir. Azərbaycan dilinin orfoqrafiya anlayışı sözlərin yazılışını tənzimləyən, bu dilin bütövlüyünü, mədəni irsini qoruyan qayda və normalar toplusunu əks etdirir.

Orfoqrafiya lüğətinin təhlili onun strukturunu, məzmununu və dilin öyrənilməsi və istifadəsi kontekstində faydalılığını başa düşmək üçün mühüm addımdır. Belə lüğəti təhlil edərkən onun tərkibinin bir neçə əsas cəhətlərinə diqqət yetirilir.

Birincisi, orfoqrafiya lüğətinin tərkibinə sözlərin orfoqrafiya qaydalarının təsviri, terminologiya, istifadə nümunələri və bəlkə də təcrübə üçün tapşırıqlar kimi müxtəlif bölmələr daxildir. Bu bölmələr birlikdə orfoqrafiya qaydalarını və onların praktiki kontekstdə tətbiqini hərtərəfli başa düşməyi təmin edir.

[90] sabinafarzaliyeva90@gmail.com *Bakı Slavyan Universiteti (Bakı şəhəri, S.Rüstəm küç., 33.)*

İkincisi, lüğətin məzmunu, dilin mövcud norma və standartlarına uyğunluğu təhlil edilir. Yaxşı orfoqrafiya lüğəti müasir olmalı və dilin orfoqrafiya qaydalarında baş verən dəyişiklikləri nəzərə almalıdır ki, istifadəçilər təqdim olunan məlumatların düzgün və aktual olduğuna əmin ola bilsinlər.

Təhlilin üçüncü aspekti istifadəyə yararlılıqla bağlıdır. Bura sizə lazım olan məlumatı tez tapmaq üçün rahat indekslərə və ya əlifba sırasına malik olmaq, həmçinin sizə lazım olan qaydalara və terminlərə daxil olmağı asanlaşdıran aydın və asan oxunan lüğət formatı daxildir.

Bundan əlavə, lüğətin orfoqrafiyanın öyrədilməsi və öz-özünə öyrənilməsi üçün imkanları təhlil edilir. Lüğətdəki məşqlər və tapşırıqlar sözlərin düzgün yazılışını məşq etmək və əldə edilmiş bilikləri möhkəmləndirmək üçün faydalı ola bilər.

Bütövlükdə, orfoqrafiya lüğətinin təhlili onun faydalılığını, etibarlılığını və istifadəçilərin ehtiyaclarına uyğunluğunu qiymətləndirməyə imkan verir ki, bu da onu dilin öyrənilməsi və istifadəsində mühüm alətə çevirir [4, s. 33].

Azərbaycan dilinin orfoqrafiya lüğəti sözlərin və terminlərin orfoqrafiya qaydaları haqqında geniş məlumatları özündə cəmləşdirən geniş mənbədir. Orfoqrafiya qaydalarının başa düşülməsinin aydınlığını və tamlığını təmin etmək üçün hazırlanmış müxtəlif bölmələrdən ibarətdir.

Orfoqrafiya lüğətinin əsas komponentləri bunlardır:

Qaydaların və qaydaların təsviri. Lüğətdə hərflərin müxtəlif istifadələri və ümumi qaydalardan istisnalar daxil olmaqla, sözlərin yazılması qaydalarının ətraflı izahatları var. Bu bölmələr istifadəçilərə Azərbaycan dilinin orfoqrafiyasının əsas prinsiplərini anlamağa kömək edir.

Terminologiya. Orfoqrafiya lüğəti orfoqrafiya hadisələrini təsvir etmək üçün istifadə olunan terminlərin geniş siyahısını ehtiva edir. Bu terminlər yazı qaydalarına dair müzakirələri standartlaşdırmağa və dil istifadəçiləri arasında ünsiyyəti asanlaşdırmağa kömək edir.

İstifadə nümunələri. Orfoqrafiya qaydalarını daha tam başa düşmək üçün lüğətə tez-tez sözlərin kontekstdə necə istifadə edildiyinə dair nümunələr daxil edilir. Bu, istifadəçilərə qaydaların praktikada necə tətbiq edildiyini və hansı istisnaların ola biləcəyini görməyə kömək edir.

Məşqlər və tapşırıqlar. Bəzi orfoqrafiya lüğətlərində sözlərin düzgün yazılışını məşq etmək üçün tapşırıqlar və tapşırıqlar ola bilər. Bu, bilikləri möhkəmləndirməyə və orfoqrafiya qaydalarından istifadə bacarıqlarını təkmilləşdirməyə kömək edir [1, s. 16].

Ümumiyyətlə, Azərbaycan Orfoqrafiya lüğəti bu dildə sözlərin düzgün yazılışı ilə maraqlanan hər kəs üçün dəyərli mənbədir. Onun təhlili bizə bu mühüm alətin strukturunu və məzmununu anlamağa və yazılı ünsiyyətin savadlılığını və aydınlığını artırmaq üçün ondan səmərəli istifadə etməyə imkan verir.

Orfoqrafiya sözlərin yazılış qaydalarını müəyyən edən dil mədəniyyətinin ən mühüm komponentlərindən biridir. Orfoqrafik lüğətə sözlərin orfoqrafiya qaydaları ilə bağlı termin və anlayışlar daxildir və istənilən dilin öyrənilməsinin tərkib hissəsidir.

Orfoqrafik termin orfoqrafiya qaydalarını ifadə etmək və ya müəyyən orfoqrafik hadisələri təsvir etmək üçün istifadə olunan xüsusi söz və ya ifadədir. Bu terminlər orfoqrafiya qaydalarını başa düşməyi və müzakirə etməyi asanlaşdırır və orfoqrafiya qaydalarını öyrənməyə və tətbiq etməyə kömək edir.

Orfoqrafik lüğət də müxtəlif kateqoriyalara bölünür, məsələn, orfoqrafiya (sözdə səslərin göstərilmə yolları), vurğu qaydaları, durğu işarələri qaydaları və s. Bu kateqoriyaların hər biri öz xüsusiyyətlərinə malikdir və diqqətlə öyrənilməsini tələb edir.

Qeyd etmək lazımdır ki, orfoqrafik lüğət dillər arasında quruluşundan və tarixi inkişafından asılı olaraq dəyişə bilər. Bununla belə, düzgün orfoqrafiya və durğu işarələri kimi orfoqrafiyanın əsas prinsipləri universaldır və istənilən dildə fikirləri aydın və düzgün ifadə etmək üçün mühüm əhəmiyyət kəsb edir.

Yekun olaraq qeyd edək ki, orfoqrafiya termini və orfoqrafik lüğət anlayışı dilin öyrənilməsi və istifadəsinin tərkib hissəsidir. Orfoqrafiya qaydalarını başa düşmək və onların necə tətbiq olunacağını bilmək dil savadını, yazı və danışıqda ifadənin düzgünlüyünü qorumağa kömək edir.

Ədəbiyyat siyahısı

3) Abdullayev N.Ə. Orfoepiya və Orfoqrafiya təlimi məsələləri. Bakı: APİ, 1985, 89 s.
4) Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ana dili Kurikulumu. (Layihə).“Azərbaycan müəllimi”, 18 avqust, 2006-cı il.
5) Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)..Kurikulum jurnalı, 2008, №1, səh.131-150.
6) Bayramov A., Məhərrəmov Z., İsgəndərzadə M. Azərbaycan dil və nitq mədəniyyəti. Bakı: Ulu, 2015, 236 s.
7) Cəfərova N. Orfoqrafiya və orfoepiya tədrisinin metodik əsasları. İbtiai sinif müəllimliyiixtisası üzrə bakalavr plləsi üçün proqram. Bakı , 2021. 33 s.
8) İsmayılova M.A. Azərbaycan dili və nitq mədəniyyəti: aktual problemlər. Bakı: ADPU,2017, 200 s.
9) İmanov M.K. Orfoqrafiya-orfoepiya lüğəti. Bakı: Şərq-Qərb, 2014, 205 s.
10) Heydərov R. Müasir Azərbaycan dilinin orfoepiyasının prinsiplərinin müəyyənləşdirilməsinə dair. AMEA. Filologiya və sənətşünaslıq. 2019, № 1, S. 176-180.
11) Əmirova C.R., Rzayeva S.H. Azərbaycan dilində bəzi orfoepiya məsələləri. Dil və ədəbiyyat. 2013, № 1(85), S.105-107
12) *İnternet-resurslar*
13) https://ict.az/az/news/3125/

Açar sözlər: orfoqrafiya, orfoqrafik lüğət, orfoqrafiya termini.
Ключевые слова: орфография, орфографический словарь, орфографический термин.

Key words: spelling, spelling dictionary, spelling term.

Xülasə

Orfoqrafiya termini və orfoqrafiya lüğəti sözlərin və mətnlərin düzgün yazılışında əsas rol oynayır. Orfoqrafiya dilçiliyin bir sahəsi kimi sözlərin yazım qaydalarını, eləcə də bu qaydaları ifadə etmək üçün istifadə olunan terminləri öyrənir. Orfoqrafiya termini dilin yazılı formasında səciyyələnən müəyyən orfoqrafiya qaydalarını, orfoqrafiya normalarını və ya hadisələri təyin etmək üçün istifadə olunan xüsusi söz və ya ifadədir. Bu terminlər sözlərin orfoqrafiyasını standartlaşdırmağa kömək edir və yazılı dildə vahidliyi təmin edir.

SPELLING TERM AND SPELLING DICTIONARY DEFINITION

Summary

Spelling term and spelling vocabulary play a key role in the correct spelling of words and texts. Spelling, as a branch of linguistics, studies the rules for writing words, as well as the terms used to describe these rules. An orthographic term is a special word or expression used to designate certain spelling rules, spelling norms, or phenomena characterized in the written form of a language. These terms help standardize the spelling of words and provide uniformity in written language.

ОРФОГРАФИЧЕСКИЙ ТЕРМИН И ОПРЕДЕЛЕНИЕ ОРФОГРАФИЧЕСКОГО СЛОВАРА

Резюме

Орфографический термин и орфографическая лексика играют ключевую роль в правильном написании слов и текстов. Орфография, как раздел языкознания, изучает правила написания слов, а также термины, используемые для описания этих правил. Орфографический термин представляет собой специальное слово или выражение, используемое для обозначения определенных правил написания, правописных норм или явлений, характеризующихся в письменной форме языка. Эти термины помогают стандартизировать правила написания слов и обеспечивают единообразие в письменном языке.

RƏYÇİ: dos. E.Vəliyeva

Aysel Ülvi qızı İbrahimli [91]

ALMAN DİLİNDƏ SİNTAKTİK YOLLA YARANAN MÜRƏKKƏB SÖZLƏR

Mürəkkəb sözlərin növlərinin müxtəlifliyi, onların müxtəlif struktur, qrammatik, semantik və üslub xüsusiyyətləri, sözyaradıcı modellərin mənşəyinin müxtəlifliyi onların təsnifatını çətinləşdirir. Alman qermanistləri müxtəlif meyarlar əsasında müxtəlif növ təsnifatlar hazırlamışlar. Belə ki, A.M. İskoz və A.F.Lenkova "Alman dilinin leksikologiyası" kitabında iki fərqli prinsipə əsaslanan iki növ mürəkkəb sözü nəzərdən keçirirlər: morfoloji prinsip; semantik-sintaktik [5, s. 37].

Morfoloji meyar əsasında qurulan mürəkkəb sözləri təsnif edərkən A.M. İskoz və A.F. Lenkova göstərir ki, kompozitlər istənilən söz sinfinə aid edilə bilər [5,s. 39]. Onların bu və ya digər sinfə aid olması, bir qayda olaraq, bütün kompozitin qrammatik xüsusiyyətlərini əks etdirən ikinci komponentdən asılıdır; hər hansı nitq hissəsi mürəkkəb sözün birinci komponenti kimi çıxış edə bilər.

Qeyd etdiyimiz kimi, mürəkkəb sözlərin müxtəlif tipologiyaları vardır. Məsələn, M.D. Stepanova və F. Fleischer "Alman dilinin söz formalaşmasının nəzəri əsasları" kitabında iki mürəkkəb söz qrupunu ayırd edirlər [7, s. 98; 8, s. 115]:

1) kopulyativ mürəkkəb sözlər;

2) mürəkkəb sözlərin müəyyənləşdirilməsi.

Kopulyativ mürəkkəb sözlər eyni nitq hissəsinə aid edilməli və kompozisiya ilə bağlanmalı olan iki komponentdən ibarətdir. Mürəkkəb sözün hər iki NS-nin özünəməxsus leksik mənası var, lakin onlar eyni dərəcədə sözyaratma konstruksiyasının mənasının formalaşmasında iştirak edirlər: onların semantik əlaqəsini "və" ilə əlaqələndirici əlaqə ilə təsvir etmək olar [7, s. 98; 8, s. 115]:

Məsələn: /Dichterkomponist/, /Freundfeind/.

Müəyyənedici mürəkkəb sözlər tabeçiliklə bir-birinə bağlı olan iki komponentdən ibarətdir, yəni "əsas söz" (ikinci NS-yə bərabər) ilə təyin olunan subyekt "müəyyənedici" (birinci NS-yə bərabər) tərəfindən "müəyyən edilir" [8, s. 118]. Atributiv birləşmənin sonuncu komponenti isimlə ifadə olunur, birincisi istənilən qrammatik söz sinfinə aid edilə bilər. Həm birinci, həm də ikinci komponentlər leksik cəhətdən əhəmiyyətlidir: komponentlərin mənası uyğun sözlərin leksik mənası ilə, yəni müstəqil istifadədəki mənası ilə üst-üstə düşür. Ancaq bəzi hallarda bu və ya digər komponent və ya bütün söz əhəmiyyətli dərəcədə yenidən nəzərdən keçirilir. Məsələn: /Lowenzahn/, /Seelowe/, /Augapfel/.

Kompozitlərin müəyyənləşdirilməsinin xüsusi halları elliptik forma, təmizləyici kompozitlər və "sahibkar kompozitlər"dir [7, s. 121]. Elliptik forma dedikdə, komponentlər arasında semantik əlaqənin yalnız bir vasitəçi əlaqənin tətbiqi ilə aşkar oluna biləcəyi qəti kompozit (əsasən isim + isim) başa düşülür: /Bier (glas) decker/, /Tank (stellen) wart/.

Aydınlaşdırıcı kompozitlər atributiv kompozitlərin səth quruluşuna malikdir, lakin semantik cəhətdən fərqli şəkildə qurulur. Komponentlərdən biri (birinci və ya ikinci) semantik modifikasiya və ya sintaktik transpozisiya olmadıqda yalnız qismən ikincil motivasiyaya malikdir [7, s. 122]. Məsələn: /Turteltaube/ (Turtel əvvəllər eyni mənada işlənirdi), /Eichbaum/.

Sahiblik kompozitləri təyinedici kompozitlərin quruluşuna malikdir. Onların özəlliyi istinad nöqtəsi kimi götürülən obyektlə bağlıdır; atributiv kompozitlərdə olduğu kimi - ikinci komponentin özü: /Langbein/ /der Mensch mit langen Beinen/, /Graukopf/, /Schlafmutze//

İlk əvvəl mürəkkəb sözlərin morfoloji-sintaktik metodla yaranmasına nəzər salaq. Bu metod sözün bir qrammatik sinifdən digərinə keçməsi nəticəsində yeni leksik vahidlərin əmələ gəlməsini nəzərdə tutur. Məhz:

1)əsaslandırma;

2) sifət;

3) adverbializasiya.

Əsaslandırma digər nitq hissələrinin ismə keçməsidir. Müasir alman dilində bu tip söz əmələ gəlməsi olduqca yayğındır. Felin qeyri-müəyyən formasının əsaslandırılması xüsusilə məhsuldardır. Məsələn: /*lesen/ (oxu) - /das Lesen/ (oxumaq), /essen/ (yemək) - /das essen/ (yemək), /schaffen/ (yaratmaq) - /das Schaffen/ (yaratmaq).*

Sifətlər əsaslandırıla bilər: /*alt/ (köhnə) - /der Alt/ (köhnə adam), /neu/ (yeni) - /das Neue/ (yeni); iştirakçılar /reisend/ (səyahət edən) -/ der Reisende/ (səyahət edən), /verwundet - der Verwundete/ (yaralı);/ rəqəmlər: /sieben/ (yeddi) - /die Sieben/ (yeddi),/ fünf/ (beş) - /die Fünf/ (beş); bağlayıcılar: /und/ - /das Und/, /aber - das Aber/ və hətta interjections: /Ach - das Ach/.*

Sifətlər bir sıra zərf və isimlərdən zaman mənası ilə düzəlir, məsələn: /die damalige/, /frühere/, /heutige/, /morgige Judend/, /die ehmalige Sowejtunion/, /im vorigen Jahr/, /das vorige Jahrhundert/, /auf baldiges Wiederhören/.

Bu qəbildən olan sifətlərin olması obyekti zamanla əlaqədə xarakterizə etməyə imkan verir. Hərəkətliliyinə və uyğunluğuna görə leksik göstəricilər sifət və isimlərlə birləşərək xüsusiyyət və obyektlərin zaman xüsusiyyətlərini çatdıra bilir: /*stundenlange Versammlungen/; /einstündigen Verspätung/; /die Einladung von morgen nachmittag/.*

Dilin leksik lüğətində zaman mənalı isimlərin tematik qrupu var: /*die Gegenwart/, /die Vergangenheit/, /die Zukunft/,/ die Zeit/, /das Jah/r, /der Monat/, /der September/, /der August/, /der Sonntag die Nacht/, /die Sekunde/* və başqaları. Bəzi isimlərdən mənaca oxşar zərflər düzəlir: /Nacht – nachts/, /Montag – montaqs/.

---

[91] BDU-nun magistrantı

Alman dilinin lüğət ehtiyatını artırmaq üçün başqa bir yol üzərində dayanmaq lazımdır. Söhbət XX əsrin ikinci yarısından ingilis sözlərinin kütləvi şəkildə alınmasından gedir. Alman dilinin alınmalarla zənginləşməsi alman xalqının tarixi ilə sıx bağlıdır. Son üç onillikdə alman dilində ingilis-amerikan alınmalarında əsl dönüş olmuşdur [6, s. 6].

Təxminən 70-ci illərdən bəri /das Recycling/ "tullantısız istehsal" sözü geniş istifadə olunur, yəni tullantıların istehsal dövrünə qaytarılması: /Recyclingverfahren/, /Recyclingunternehmen/, /Recyclinganlage/. Müvafiq olaraq, belə istehsal məhsullarının adlarına tez-tez /Recycling/ sözü daxildir: /Recyclingpapier/ (təkrar emal edilmiş kağız), /Recyclingtechnologie/. İngilis /recycle/ kökündən Alman törəmələri görünür - /recyclen/ feli. /Die meisten Alt-Geräte lassen sich nicht recyclen/ və sifətlər /recyclegerecht/, /recyclefreundlich/.

Xarici dil ilə alman komponentinin birləşməsi nəticəsində yaranan söz "hibrid" adlanır. Hibrid sözlər xarici sözün alman dili sisteminə daxil olmasını asanlaşdırır [9, s. 110]. Şou-biznes, kino və video bir çox /Anglo-Americanisms/-i alman lüğətinə gətirdi, digərləri arasında /der Showman/, /die Livesendung/ (canlı yayım). Anglo-Amerikanlıqların əhəmiyyətli bir hissəsi alman dilinə müasir idman növləri ilə cəlb edildi, burada yeniliklər daim müşahidə olunur, məsələn: /das Mountainbike/ (dağ velosipedi), /der Beachvolleyball/ (çimərlik voleybolu), /das Wildwassersurfung/ (dağ çaylarında üzgüçülük). Anglo-Amerika mənşəli sözlər xüsusilə aviasiya, elektronika, kompüter elmləri, ticarət və reklam, media kimi sahələrdə fəal şəkildə istifadə olunur.

Almaniyadakı feminist hərəkat təkcə ölkənin siyasi iqlimi üçün deyil, həm də rəsmi nomenklaturanın sərhədləri bir-birindən ayrıldığından alman dili üçün də nəticələr verdi. İndi istehsalatda və iş həyatında çalışan şəxslərin adları qadın variantları ilə tamamlanıb. Beləliklə, /der Lehrer/die Lehrerin/ (-qadın cinsi şəkilçisi ilə) əvvəl idi, lakin o, bütün halları əhatə etmirdi, xüsusən də bir çox fəaliyyət ənənəvi olaraq kişilərə tapşırıldığı üçün belə idi. Qadının iştirakının vurğulanmasının vacib olduğu siyasi proqramlarda, qərarlarda, qəzet xəbərlərində böyük I hərfi ilə yazı yeniliyinə rast gəlmək olar: /LehrerIinnen//, StudentIinnen/. Sözün sonunda frau komponenti olan mürəkkəb söz şəklində bir çox yeni təyinatlar meydana çıxdı: /Der Fachmann/ – /die Fachfrau/ (qadın ekspert), /Der Staatsmann – die Staatsfrau/ (qadın dövlət xadimi) [7, s. 138]. Qadınların "karyera nərdivanında" aktiv irəliləməsi, ər evin sahibəsinin vəzifələrini yerinə yetirdikdə ailədəki ənənəvi rol münasibətlərinin dəyişməsinə səbəb olur: /Hausmann/ (ev təsərrüfatına cavabdeh olan kişi). Alman dili "kişi hökmranlığı" ideologiyasının mövcud olduğu "kişi dili"dir. Bu bərabərsizlik cəmiyyətin təfəkküründə əks etdirən, xüsusən də cinslər arasında münasibətləri (gender münasibətləri) "demokratikləşdirən" gender dilçiliyi ilə düzəldilə bilər. Qeyri-müəyyən şəxs şəxs əvəzliyinin /man frau/ ilə, /manche/ əvəzliklərinin /frauche/, /jedermann jederfrau/ ilə əvəz edilməsi təklif olunur [6, s. 129]. Beləliklə, bir sözü əvəz edib başqa bir söz əlavə etməklə yeni sözlər yarana bilər.

Söz yaratmaq üçün bu üsullar alman dilinin bütün nitq hissələrini əhatə edir, onun lüğətini yeni sözlərlə doldurur, ehtiyacı həyatın özü yaradır.

Beləliklə, söz əmələ gəlməsinin qaydalarını və üsullarını öyrənmək və bilmək, bir sözü onun tərkib hissələrinə bölmək, onların rolunu və mənasını müəyyən etmək bacarığı sözlərin mənasını, istifadəsini başa düşməklə əlaqəli bir çox səhvlərdən qaçınmağa, həm də savadını və nitq mədəniyyətini təkmilləşdirməyə kömək edir.

İnsan biliklərinin dərinləşməsi, mədəni müxtəlifliyin qorunub saxlanması və inkişafı ilə səciyyələnən informasiya cəmiyyəti dövründə mürəkkəb sözləri informasiyanın ən səmərəli və qənaətli ötürmə vasitəsi adlandırmaq olar.

Söz yaradıcılığının tədqiqinin mənşəyi qədim dilçilik ənənəsinə, söz yaradıcılığının formalaşmasına və onun dil elminin müstəqil bölməsi kimi tərtibatı, söz yaradıcılığı üsulları (o cümlədən söz yaradıcılığı) 19-20-ci əsrlər dilçilərinin əsərlərində tədqiq olunur; Söz quruculuğu dövrümüzdə fəal və çoxşaxəli şəkildə öyrənilir, lakin söz əmələ gəlməsi və tərkibinin bəzi məsələlərinə dair alimlərin fikirlərinin birliyi yoxdur ki, bu da mürəkkəb sözlərin təhlilinə müxtəlif yanaşmalarla və konkret bir sözün xüsusiyyətləri ilə izah olunur.

Nikolayev yazır ki, Rusiyada söz yaradıcılığı elmi XIX əsrin ikinci yarısında F.F.Fortunatov, İ.A.Boduen de Kurtene, A.A.Potebnya və digər tədqiqatçıların əsərlərində formalaşmışdır [6, s. 94]. Mürəkkəb söz haqqında çox geniş anlayış, mürəkkəb və törəmə sözlər arasında aydın sərhədlərin olmaması o dövrün söz yaradıcılığı anlayışları üçün xarakterikdir.

A.Boduen de Kurtene, mürəkkəb sözləri 3 dərəcəyə ayırır. Birinci dərəcə törəmə sözlərlə, ikinci və üçüncü - bitmiş formaların faktiki əlavəsi və ya əlavə edilməsi (yan-yana qoyulması) ilə əmələ gələn kompozitlərlə təmsil olunur [2, s. 95].

E.A.Zemskaya və başqa alimlər tərəfindən kompozisiya anlayışı" dəqiqləşdirilmiş, kompozisiya söz əmələ gəlməsinin başqa yollarına qarşı qoyulmuş, mürəkkəb sözlərin təsnifatları tərtib edilmiş, birləşmələrin iki və üç komponentli növləri tədqiq edilmişdir[4, s. 192].

Qurçiani yazır ki, komponentlər arasında sintaktik əlaqələrin təbiətinə görə [3, s. 271], [4, s.284] 1) tabeli mürəkkəb sözlər arasındakı əlaqələri hipotaktik də adlandırırlar [7, s. 15]. Bu təsnifat ən çox yayılmışlardan biridir, lakin kompozitlərin təklif olunan bölgüsü bütün dilçilər tərəfindən dəstəklənmir, məsələn, V.D. Arakin kompozitin komponentləri arasındakı əlaqə növünü predikativ (qar yağışı), atribut (çernozem) və obyekt (tozsoran) kimi müəyyən edir [1, s. 208].

Alman dilində söz əmələ gəlməsi və tərkibinin öyrənilməsinin əsasları XIX əsrin birinci yarısında K.F.Bekker və J.Qrimmin əsərlərində qoyulmuşdur. Mürəkkəb sözləri öyrənən K.F.Bekker "füzyon" (Verschmelzung) və "əlaqə" (Zusammenfügung) arasında fərq qoyur [7, s. 12]. Alimin fikrincə, yeni anlayışları bildirən nominasiya vahidləri kimi lüğəti zənginləşdirən birləşmələrdir. M.D.Stepanova yazır: Bu fikri söz yaradıcılığının tədqiqinə böyük töhfə vermiş C.Qrimmin "Alman dilinin qrammatikası"nda və alman dillərində lüğət də görmək olar. Mürəkkəb sözləri nəzərə alaraq onları "doğru" /eigentliche/ və yalan sözlərə /uneigentliche/ ayırır [5, s. 129].

İstifadə edilmiş ədəbiyyat
1.Аракин В.Д. Сравнительная типология английского и русского языков: уч б. пособ. / В.Д Аракин. – 3-е изд.. – М.: Физматлит, 2005. – 232 с.
2.Бодуэн де Куртенэ. Избранные труды по общему языкознанию. В 2-х томах. Т. 1 / Академия Наук СССР; Отделение языка и литературы; И.А. Бодуэн де Куртенэ. – М.: Издательство Академии Наук СССР, 1963. – 382 [2] с.
3.Гурчиани М.Т. Композиты в русском языке новейшего периода. Автореф. дис…канд. филол. наук. – Казань, 2009. – 23 с. 8.
4.Земская Е.А. Современный русский язык. Словообразование: учеб. пособие / Е.А. Земская. -3-еизд. , испр. и доп. - М. : Флинта :Наука, 2011.
5.Искоз, А. Лексикология немецкого языка / А. Искоз, А. Ленкова. - 3-е изд, испр. и доп. - Л. : Просвещение, 1970. - 269 с.
6.Николаев Г.А. Теоретические проблемы русского словообразования. Казанская научная школа //Диалектное словообразование, морфемика и морфонология: Монография / Под ред. Е.Н. Шабровой. –СПб.: Наука; Вологда: ВГПУ, 2007. – С. 7-29. 14.
7.Степанова М.Д. - Словообразование современного немецкого языка. – М.: Издательство литературы на иностранных языках, 1953.
8.Fleischer, W. Wortbildung der deutschen Gegenwartssprache / W. Fleischer. – Leipzig: VEB Bibliografisches Institut, 1969. – 327 p.
9. Herberg, D. Neologismen / D. Herberg, M. Kinne. – Heidelberg: Julius Groos Verlag, 1998. – 48 p.

Açar sözlər: dilçilik, alman dili, mürəkkəb sözlər, kopulyativ mürəkkəb sözlər, söz yaradıcılığı
Ключевые слова: лингвистика, немецкий язык, сложные слова, копулятивные сложные слова, словотворчество
Key words: linguistics, German language, compound words, copulative compound words, word creation

Alman dilində sintaktik yolla yaranan mürəkkəb sözlər

Xülasə

Bu məqalə alman dilində mürəkkəb sözlərin sintaktik yolla düzəlməsindən bəhs edir. Mürəkkəbləşmə prosesi yeni sözlərin əmələ gəlməsinin ən qədim və məhsuldar üsullarından biridir. Mürəkkəb sözlərin mövcud təsnifatları müasir alman dilində birləşmənin hansı növlərinin/naxışlarının üstünlük təşkil etdiyini göstərir. Alman dilinin lüğət ehtiyatını artırmaq üçün başqa dillərdən alınan sözlərlə milli sözlərin birləşməsindən yaranan mürəkkəb sözlər əmələ gəlir. XX əsrin ikinci yarısından ingilis sözlərinin kütləvi şəkildə alınması nəticəsində alman dilinin alınmalarla zənginləşməsi alman xalqının tarixi ilə sıx bağlıdır. Məqalədə mürəkkəb sözlərin morfoloji-sintaktik, sintaktik yolla düzəlməsi üsulları nəzərdən keçirilir.

Синтаксически образованные сложные слова в немецком языке.

Резюме

Эта статья о синтаксическом исправлении сложных слов в немецком языке. Процесс соединения слов — один из старейших и наиболее продуктивных способов образования новых слов. Текущие классификации сложных слов показывают, какие типы / модели образования слов преобладают в современном немецком языке. Для увеличения словарного запаса немецкого языка сложные слова образуются путем соединения слов других языков с национальными словами. Обогащение немецкого языка заимствованиями в результате массового заимствования английских слов со второй половины 20 в. тесно связано с историей немецкого народа. В статье рассматриваются способы морфолого-синтаксического, синтаксического образования сложных слов.

Syntactically formed compound words in German

Summary

This article deals with the syntactic formation of compound words in German. The process of compounding is one of the oldest and most productive ways of forming new words. Current classifications of compound words indicate which types/patterns of compounding are predominant in modern German. To increase the vocabulary of the German language, compound words are formed by combining words from other languages with national words. The enrichment of the German language with borrowings as a result of the massive acquisition of English words from the second half of the 20th century is closely related to the history of the German people. The article examines the methods of morphological-syntactic, syntactic formation of complex words.

Rəyçi: dos. L.Ələkbərova

Sevinc Rafiq qızı Ağaməmmədova [92]

ŞƏXS ƏVƏZLİKLƏRİNİN LEKSİK SEMANTİK VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

Azərbaycan dilində yazılmış qrammatika kitablarında əvəzliyin məna növləri haqqında fikir müxtəlifliyi özünü göstərir. Orta məktəb dərsliyində isə əvəzliyin 5 növü tədris olunur. Əvəzliyin məna növlərindən biri də şəxs əvəzlikləridir. Bunlar ona görə şəxs əvəzlikləri adlandırılır ki, bu qrupda birləşən sözlər şəxs və kəmiyyət anlayışını özündə ehtiva edir. Şəxs əvəzlikləri qrupuna daxil olan sözlərdən hər hansı birini deyəndə əlavə izah vermədən həmin sözün canlı və ya cansız olduğunu, tək və ya cəm olduğunu aydın şəkildə təsəvvür edə bilirik.

Azərbaycan dilində şəxs əvəzlikləri bunlardır: Mən, sən, o, biz, siz, onlar.

Düşüb ayağına sən o zalımın,
Söylədinmi necəliyin halımın?
Onun həsrətindən rəngi alımın
Döndüyün heyvayə dedin, nə dedi? (Q.Zakir)

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-ləməkan mənəm, kövnü məkana sığmazam (İ.Nəsimi).

O da bizim ilə inad yeritsə, onda gərək bizə papaq haram olsun (C.Cabbarlı).

Yuxarıda qeyd etdiyimiz cümlələrdəki mən – I şəxsin təkinin, sən – II şəxsin təkinin, o – III şəxsin təkinin cəmini bildirən şəxs əvəzlikləridir. Şəxs əvəzliklərindən birinci şəxsin və ikinci şəxsin təki və cəmi insan anlayışı bildirən varlıqları, üçüncü şəxsin təki və cəmi isə həm canlı, həm cansız varlıqları əvəz edir. Şəxs əvəzliklərini əvəzliyin digər məna növlərindən fərqləndirən cəhət əvəzliyin digər növlərindən fərqli olaraq müəyyənliyin özünü göstərməsidir.

Mən şəxs əvəzliyi birinci şəxsin təkini ifadə edir. Nitqin və danışığın müəllifini göstərən əvəzlikdir. Yox, mən elə bir vicdan sahibi deyiləm ki, belə keçmiş günlərdən sonra səni atıb qeyrisini tutum (C.Cabbarlı). Mən əminəm ki, Səriyyə heç vaxt razı olmayacaq və Rüstəmdən ayrılmayacaq (C.Cabbarlı).

Mən, sən əvəzliyinin xarakterik mənası referent xüsusiyyətə malik olmasıdır. Burada mücərrəd məna özünü göstərir.

Dilimizin tarixi inkişaf yoluna nəzər salsaq, mən şəxs əvəzliyinin bən şəklində işlənməsinə rast gələ bilərik. Bu formalardan hər hansı birinin daha çox işlənməsi və paralel şəkildə istifadəsi onların diqqətini cəlb etmişdir. Dilçilər bu variantlar arasında hansının daha ilkin olaraq yaranması haqqında maraqlı və müxtəlif fikirlər səsləndirmişdirlər və bu mövzu dilçilər arasında fikir ayrılıqlarına səbəb olmuşdur.

I. Birinci qrup dilçilər b səsinin daha qədim və b səsinin dilin tarixi inkişafı nəticəsində m səsinə keçidinin daha inandırıcı olduğunu qəbul edirlər. N.K.Dmitriyev, A.N.Kononov, V.V.Radlov və başqaları bu fikrə tərəfdar çıxırlar.

B səsinin tarixi inkişaf nəticəsində m səsinə keçidini dəstəkləyənlər arasında da sabit fikir olmamış, bu qrup dilçilər arasında da fikir ayrılıqları olmuşdur.

a) Bəzi dilçilər b>m keçidinin əsas səbəbini sondakı n səsinin təsiri ilə assimilyasiyaya uğramışdır.

b) Bəzi qrup dilçilər isə b>m keçidi prosesində əsas səbəbin oğuz-qıpçaq dil qrupunun təsiri olduğunu qeyd edirlər. Mahmud Kaşgari də bu fikri təsdiqləmiş, ondan sonra gələn dilçilər də bu fikrə tərəfdar çıxmışlar. "Beləliklə müəyyənləşir ki, oğuz qrupuna aid olan Azərbaycan dilindəki I şəxs təkdə mən əvəzliyi qıpçaq mənşəlidir. Əski oğuz xüsusiyyətlərini qoruyub saxlayan b variantlı bən isə demək olar ki, bütün türk dillərində biz (I şəxs cəm) şəxs əvəzliyində qalmışdır" (1, s. 33).

II. İkinci qrupa daxil olan dilçilər mən şəxs əvəzliyində m səsinin daha qədim və ilkin variant olduğunu qeyd edirlər. Bu qrup dilçilərə Q.İ.Ramstedt, A.P.Poseluevski və başqa dilçiləri göstərə bilərik.

III. "Üçüncü qrup dilçilər b və m səslərinin birinci şəxs əvəzliyinin təkində paralel işlədiyini qeyd edirlər. M.İslamov bu səslərin paralel işlədiyini və "mən" variantının işləklik və ümumxalq dilində özünə daha çox vətəndaşlıq hüququ qazandığını qeyd edir" (1, s. 33). Tədricən ədəbi dil norması xalq danışıq dilinə dayandıqca, standart ənənələrdən uzaqlaşdıqca bir sıra oğuz – qıpçaq elementləri də arxaikləşir. Xalq dilindəki mən variantı bən variantını əvəz edir.

Bizə belə gəlir ki, bu səs dəyişmələri arasında b>m səs keçidi daha inandırıcıdır. H.Mirzəzadənin göstərdiyinə görə türk dillərindən yalnız birində - müasir türk ədəbi dilində b səsi öz mövqeyini saxlaya bilmişdir.

Tədqiqatçıların araşdırmalarına görə sübut olunur ki, qaqauz dilində b səsi o ilkin variantını qoruyub saxlayır, ədəbi dilində işlənir. Şəxs əvəzlikləri həm adi danışıq dilində, həmdə üslubi məqamda bədii əsərlərin dilində işlənir.

Bəzən danışan şəxs "mən" əvəzliyindən deyil, "biz" əvəzliyindən istifadə edir. Bu mənada biz əvəzliyi üslubi səciyyə daşıyıb təvazökarlıq anlayışını ifadə edir. Biz əvəzliyi üslubi məqamda işlənərək, formaca cəmlik , məzmunca isə təklik ifadə edir. Hərçənd biz bir günah iş görmürük, amma hər halda Gülnisə mənim analığımdır.

Məsələn, biz əvəzliyi birinci şəxsin cəminə mənsubdur. Birinci və ikinci şəxsin cəmlənməsi həm əvəzliyin digər növlərindən fərqlənir, həmdə isimlərdən fərqlənir. Yəni buradakı cəmlənmə leksik yolla ifadə olunmuşdur. Biz əvəzliyi təkcə mən əvəzliyinin cəmini əhatə etməklə kifayətlənib öz əhatə dairəsini daraltmır. Yəni biz əvəzliyi birinci və ikinci şəxsin təkini (mən + sən), birinci şəxsin təki və ikinci şəxsin cəmini (mən+ siz), birinci şəxsin təki və üçüncü şəxsin təkini (mən + o), birinci şəxsin təki, ikinci şəxsin təki və üçüncü şəxsin cəmini (mən + sən + onlar) və s. Göründüyü kimi biz əvəzliyinin

[92] Bakı Dövlət Universitetinin magistrantı

əhatə dairəsi daralmır, müxtəlif şəxslərin cəmini əhatə edir. Nümunələrə fikir versək görərik ki, mən şəxs əvəzliyi bütün vəziyyətlərdə iştirak edir. Məhz buna görə də mən əvəzliyi birinci şəxsin cəmi adlanır.

Birinci şəxsin təkinin və cəminin şəxs əvəzlikləri digər şəxs əvəzliklərindən hallanma xüsusiyyətinə görə fərqlənir. Belə ki mən və biz əvəzliyi hallanarkən yiyəlik hal şəkilçisini "-in" deyil, "-im" formasında qəbul edir. İndi də Azərbaycan dilinin bir neçə bölgəsində işlənən dialektlərdə və türk dillərinin bəzilərində yiyəlik hal şəkilçisi "-in" deyil, "-im" şəklində işlənir. Mən də sənin üçün uşaq deyiləm ki, **mənim** üstümə qışqırırsan (C.Cabbarlı). Təbii, zira sabahdan **bizim** həyatımız tamamilə birləşir (C.Cabbarlı).

Sən, siz şəxs əvəzlikləri. Sən şəxs əvəzliyi ikinci şəxsin təkini, müraciət olunan şəxsi bildirir.Mahmud Kaşğarlının məlumatına görə Xl yüzillikdə türklər böyüklərə "siz", kiçik adamlara isə "sən " deyə müraciət etmişlər. Özündən böyüklərə, yaşlılara " sən deyə müraciət etmək təhqir hesab olunurmuş. Bu hal-hazırda da "sən" və "siz" şəxs əvəzliklərində özünü göstərir.

Sən şəxs əvəzliyi yaxın dosta, tanışa , özündən yaşca kiçiyə müraciətlə işlədilir. Bəzən sən şəxs əvəzliyindən danışan şəxs qarşındakına əsəbləşməsi, hörmətsizliyi hiss olunur. Daha sən bizi təngə gətirmişsən. Əl çəkməzsənmi bizdən? (C.Cabbarlı).

Siz şəxs əvəzliyi ikinci şəxsin cəmini bildirir. Siz dedikdə ikinci şəxsin də daxil olduğu digər şəxslər nəzərdə tutulur. İkinci şəxsin təki və üçüncü şəxsin təki(sən + o = siz) ikinci şəxsin təki və üçüncü şəxsin cəmi (sən + onlar = siz). Siz şəxs əvəzliyindən iki məqamdan istifadə etmək mümkündür.

1) Şəxsin çoxluğunu bildirmək məqsədilə siz şəxs əvəzliyindən istifadə olunur. Siz mənim sinəmə çarpaz dağlar çəkmişsiniz, əlbət ki, şadlanaram. Ağa! İzin versəniz bir kəlmə xəlvəti sizə söz deyim?(C. Cabbarlı). Burada işlənən siz şəxs əvəzliyi iştirak edən şəxslərin bir nəfər deyil bir neçə nəfər olduğunu bildirir.

2) Tək bir şəxsə, özündən yaşca böyük olanlara hörmət xatirinə siz şəxs əvəzliyindən istifadə olunur. Nə danışırsınız? Siz məni hara aparırsınız? Ağa! İzin versəniz bir kəlmə xəlvəti sizə söz deyim? (C.Cabbarlı)

"Mən" və "sən" şəxs əvəzlikləri digərlərindən fərqli olaraq cəmlənmir. Türkoloqlar arasında "mən" və "sən" şəxs əvəzliklərindəki -n ünsürü haqqında sabit bir fikir yoxdur. Türkoloq A.N.Kononovun məlumatına əsasən bu məsələ haqqında fikir irəli sürənlər – n ünsürünün mənsubiyyət şəkilçisi olduğunu qeyd edirlər. N.A.Baskakov – n ünsürünün ne-ne əşya sözü ilə bağlı olduğunu qeyd edirlər. S.Ə.Cəfərova isə -n ünsürünün "yan" sözündən əmələ gəlməsi ilə bağlayırlar.

"Mən" və "sən" əvəzliklərindəki -n ünsürünün mənşəyi mübahisəli məsələ olduğundan türkoloqlar bu məsələ haqqında sabit bir qənaətə gələ bilməmişdirlər. Buradakı -n ünsürü nə mənsubiyyət şəkilçisidir , nə əşya bildirən nene sözü ilə , nə də istiqamət bildirən yan sözündən yaranmışdır.

O, onlar şəxs əvəzlikləri. O şəxs əvəzliyi üçüncü şəxsin təkini ifadə edir. Üçüncü şəxsin cəmini bildirmək üçün o şəxs əvəzliyinin üzərinə morfoloji göstərici -lar kəmiyyət şəkilçisi artırılıraq üçüncü şəxsin cəmi olan "onlar" əvəzliyini əmələ gətirir. O elə bildi ki, mən ondan qorxub, qabağa getmirəm (C.Cabbarlı). Onlar sizin qabağınızda dura bilərlərmi?.. (C.Cabbarlı).

Şəxs əvəzlikləri -li, -lı, -lu, -lü və -siz, -sız, -suz, -süz şəkilçilərini də qəbul edərək yeni söz yaradır. Bu şəkilçilər vasitəsilə əvəzlikdən sifət düzəlir.Mən+li mənli dünya, mənsiz həyat, o+ lu onlu həyat, onsuz gələcək. "Bilmirsən ki, yazıq Ulduz sənsiz əzab çəkir" (C.Cabbarlı). "İndi təkcə mənliyimi deyil, hətta könlümü, hətta bütün varlığımı belə çalmışsınız" (C.Cabbarlı).

Onlar üçüncü şəxsin cəminə -li şəkilçisini artırmaq mümkün deyil. Buna səbəb odur ki, Azərbaycan dilində sözə qrammatik şəkilçidən sonra, bəzi istisna halları çıxsaq, leksik şəkilçi artırmaq olmur. Bu sözlər birləşərək mürəkkəb vahidləri əmələ gətirir. Mənli – mənsiz, sizli-bizli və s.

Bəzi hallarda antonim olan – lı[4] və - sız[4] şəkilçiləri əvəzliklərə artırıldıqda ondan yaranan yeni sözlər birləşərək mürəkkəb vahidlər əmələ gətirir. Biz bu sözləri artıq əvəzlik kimi qəbul edə bilmərik. Onlar artıq leksik şəkilçi qəbul etdiyinə görə başqa bir nitq hissəsi hesab olunmalıdırlar. Hal-hazırda bu sözlər düzəltmə sifət hesab olunur.

Şəxs əvəzlikləri zəngin funksional – semantik və üslubi əlamətlərinə görə fərqlənir. Konstekst də şəxs əvəzlikləri şəxsin konkret adı çəkilmədən onu ümumi şəkildə ifadə edir.

Türk dillərində işlənən şəxs əvəzlikləri müxtəlif mərhələlərdən keçmişdir. XIII-XIX yüzilliklərdə şəxs əvəzlikləri türkdilli ədəbiyyatda geniş şəkildə işlənmişdir.

Türk dillərində birinci şəxsin təki : mən, min, ben, gene, ebe formalarında.
İkinci şəxsin təki: sən, sin, hin, en, ese, ege.
Üçüncü şəxsin təki: o, ol, ul, u, al, val
Birinci şəxsin cəmi : bis, bez, pis, bihiri, epir, pir
İkinci şəxsin cəmi : onlar, ular, ılar, esen, kiniler" (1, 49).

Azərbaycan dilində olduğu kimi, oğuz dillərində də şəxs əvəzliklərinə müxtəlif morfoloji göstəricilər artırmaqla yeni sözlər yaratmaq mümkündür.
Bu iş mən+lik deyil. Burada biz+lik elə də böyük bir iş yoxdur.(Azərbaycan dilində) Men+lik boldı, sen+lik boldı.

İstifadə edilmiş ədəbiyyat

1. Cabbarlı, C. Əsərləri: dörd cilddə, II cild, Bakı: Şərq-Qərb, 2005, 360 s.
2. Hüseynzadə, M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı: Şərq-Qərb, 2007, 280 s.
3. Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Elm və Təhsil, 2010, 399 s.
4. Xəlilov, B. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı: Elm, 2007, 354 s.
5. Xəlilov, B. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı, 2016, 352 s.

6. Şahbazova, Z. Azərbaycan dilində əvəzliklər. Bakı: Ulu, 2007, 334 s.

Açar sözlər: Əvəzlik, şəxs əvəzlikləri, mən, sən, o, biz, siz, onlar
Key words: Pronoun, personal pronouns, I, you, he, we, you, they
Ключевые слова: Местоимение, личные местоимения, я, ты, он, мы, ты, они.

Şəxs əvəzliklərinin leksik semantik və morfoloji xüsusiyyətləri

Xülasə

Əvəzliyin məna növlərindən biri də şəxs əvəzlikləridir. Özündə şəxs və kəmiyyət anlayışını ifadə etdiyinə görə şəxs əvəzlikləri adlanır. Əvəzliyin digər məna növlərindən fərqli olaraq şəxs əvəzliklərində müəyyənlik özünü göstərir. Bu cəhətdə onu qeyri -müəyyən əvəzliklərdən fərqləndirir. Dilimizin tarixi inkişaf yoluna nəzər salsaq, şəxs əvəzliklərinin müxtəlif vəziyyətdə işlənməsinə rast gələ bilərik. Bu formalardan hər hansı birinin daha çox işlənməsi və paralel şəkildə istifadəsi onların diqqətini cəlb etmişdir. Dilçilər bu variantlar arasında hansının daha ilkin olaraq yaranması haqqında maraqlı və müxtəlif fikirlər səsləndirmişdirlər və bu mövzu dilçilər arasında fikir ayrılıqlarına səbəb olmuşdur

Lexical semantic and morphological features of personal pronouns

Summary

One of the meaning types of pronouns is personal pronouns. They are called personal pronouns because they express the concept of person and quantity. In contrast to other meaning types of pronouns, personal pronouns show definiteness. In this respect, it differs from indefinite pronouns. If we look at the historical development of our language, we can find that personal pronouns are used in different situations. More processing and parallel use of any of these forms has attracted their attention. Linguists have voiced interesting and diverse opinions about which of these variants was more primitive, and this topic has caused disagreements among linguists.

Лексико-семантические и морфологические особенности личных местоимений

Резюме

Одним из смысловых типов местоимений являются личные местоимения. Их называют личными местоимениями, потому что они выражают понятия лица и количества. В отличие от других значений местоимений личные местоимения обладают определенностью. В этом отношении оно отличается от неопределенных местоимений. Если мы посмотрим на историческое развитие нашего языка, то обнаружим, что личные местоимения используются в разных ситуациях.Большая обработка и параллельное использование любой из этих форм привлекли их внимание. Лингвистами высказывались интересные и разнообразные мнения о том, какой из этих вариантов был более примитивным, и эта тема вызвала разногласия среди лингвистов.

RƏYÇİ: d0s. E.Vəliyeva

Гулиева Лейла М. [93]

ИЗУЧЕНИЕ ТЕМЫ «ВОЗВРАТНЫЕ ГЛАГОЛЫ» В ИНОСТРАННОЙ АУДИТОРИИ НА НАЧАЛЬНОМ ЭТАПЕ ОБУЧЕНИЯ

Тема, которую мы будем рассматривать в данной статье, - это возвратные глаголы. На наш взгляд, эта тема недостаточно полно отражена в учебнике, и можно сказать, включена в программу достаточно поверхностно.

Многолетний опыт работы с иностранными студентами позволяет автору обобщить и систематизировать свои наблюдения и предложить вашему вниманию некоторые рекомендации.

Возвратные глаголы вводятся в активную лексику иностранных студентов практически на первых уроках (знакомиться, учиться, общаться, встречаться). У преподавателей в национальных группах нет возможности (в силу ограниченного количества учебных часов) остановиться на такого типа глаголах, в крайнем случае, они успевают объяснить спряжение этих глаголов. На этом всё и заканчивается. В иностранных группах подготовительного факультета дело обстоит несколько иначе.

Метод РКИ, к которому обращаются наши преподаватели гнездовой, обрастающий всевозможными формами вводимых слов, в данном случае, глаголов: это и видовые пары, и временные формы, их спряжение, отглагольные существительные, там где это возможно, повелительное наклонение, управление таких глаголов и т. д.

ГЛАГОЛЫ С ПОСТФИКСОМ –СЯ. В глаголах и глагольных формах постфикс -ся употребляется после согласных букв (он улыбается; дождь прекратился; внезапно появившийся), а постфикс -сь — после гласных (я улыбаюсь; мы встретились; удивляясь).

Глаголы с постфиксом -ся(-сь) можно разделить на несколько групп. Первую группу составляют

глаголы, у которых возвратная частица является краткой формой местоимения **себя**. В процессе развития языка местоимение и глагол соединились в одно слово.

Сравните:

Он умывается.

(Он умывает **себя**.)

Я причёсываюсь.

(Я причёсываю **себя**.)

Она учит**ся**.

(Она учит себя.)

Мы одеваем**ся**.

(Мы одеваем **себя**.)

Во вторую группу глаголов с возвратной частицей **-ся** входят

глаголы, действие которых относится к двум или нескольким лицам или предметам: знакомиться/познакомиться, здороваться/поздороваться, прощаться/ попрощаться, встречаться/встретиться, расставаться/ расстаться, переписываться, обмениваться/обменяться, ссориться/поссориться, мириться/ помириться и другие.

Например:

Мы **обменялись** адресами, и теперь я смогу **переписываться** с моим новым другом.

! В предложении с глаголами этой группы может употребляться местоимение или существительное в творительном падеже с предлогом с: Мы **обменялись с ним** адресами; Я могу **встретиться с вами** завтра; Он **попрощался с друзьями** и вышел.

С постфиксом -ся также употребляются глаголы в страдательных оборотах речи настоящего времени.

Сравните: Автор публикует роман впервые.

- Роман **публикуется** автором впервые.

! В предложении с глаголами этой группы существительное или местоимение в творительном падеже без предлога, обозначающее производителя действия, может опускаться: Роман **публикуется** впервые.

Предлагаем студентам такого типа глаголы:

начинать - начинаться

кончать - кончаться

заканчивать- заканчиваться

открыть - открыться

закрыть - закрыться

разбить - разбиться

сломать - сломаться

Кроме того, в русском языке есть группа глаголов, которые без **-ся** не употребляются: нравиться/понравиться,стараться/постараться,улыбаться/улыбнуться,смеяться/рассмеяться, надеяться, бояться/испугаться, находиться, становиться, являться/явиться, здороваться/поздороваться, оставаться/остаться

[93] БГУ. Ст.преп.

5. Глаголы, обозначающие постоянный признак.
Собака кусается. Корова бодается.
Крапива жжется. Человек заикается.
6. Глаголы, которые с добавлением возвратной частицы –ся, из личных становятся безличными.
Я дышу – Мне дышится легко.
Я сплю – Мне не спится.
Я работаю – Мне что-то не работается сегодня.
Я думаю – По утрам лучше думается.
Глаголы, также образующие безличные предложения.
Я болею – Мне нездоровиться.
Я хочу – Мне хочется.
Я люблю – Мне нравится.

! После глаголов с постфиксом -ся никогда не употребляется прямой объект: существительное в винительном или родительном падеже без предлога.

С целью закрепления и контроля над усвоением пройденного материала предлагаем студентам выполнить несколько заданий в рамках изучаемой темы.

Задание 1. Вместо точек вставьте один из глаголов, данных в скобках.

1. Я работаю в школе,... детей математике. Я ... в университете на втором курсе, (*учу - учусь*)
2. Он вошёл в подъезд и быстро ... на пятый этаж. Он ... голову и внимательно посмотрел на нас. (*поднял - поднялся*)
3. Он ... всему, как ребёнок. Погода в этом году нас не ..., всё время идут дожди. (*радует радуется*)
4. Мой мама всегда ..., если я прихожу домой поздно. Меня ... его здоровье, последнее время он часто болел. (*волнует- волнуется*)
5. Я думаю, надо ... такси, мы опаздываем. Такси должно ... напротив нашего дома. (*остановить - остановиться*).

Задание 2. С помощью постфикса -ся образуйте от данных глаголов новые глаголы.

Брить/побрить, занимать/занять, приближать/приблизить, возвращать/ возвратить, изменять/изменить, защищать/защитить, удивлять/ удивить, веселить/развеселить, злить/разозлить.

Проспрягайте (измените по лицам и числам) в настоящем времени глаголы с постфиксом **-ся**. *С некоторыми из них составьте предложения.*

Задание 3. Составьте предложения с глаголами, действие которых относится к нескольким лицам или предметам.

Задание 4. Прочитайте предложения. Определите в глаголах значение частицы -ся.

1. С моим другом я познакомился в университете. 2. Когда я сдаю экзамен, я очень волнуюсь. 3. В XIX веке в Петербурге создавались великолепные архитектурные ансамбли. 4. Обычно после лекций мы занимаемся в библиотеке. 5. По вечерам на улице становится холодно. 6. Давай встретимся завтра в два часа. 7. Русский музей открылся для посетителей в тысяча восемьсот девяносто восьмом году. 8. Этот вопрос рассматривался на собрании в прошлую пятницу.

Задание 5. Прочитайте предложения, используя один из глаголов, данных в скобках, в нужном лице и числе в форме настоящего или прошедшего времени. Помните, что от глаголов совершенного вида настоящее время образовать нельзя.

1. Спектакль (закончить, закончиться) в девять часов. 2. Я быстро (одеть, одеться) и вышел на улицу. 3. Когда я (возвращать, возвращаться) домой, пошёл дождь. 4. Если ты (интересовать, интересоваться) историей, обязательно прочитай эту книгу. 5. Необходимо (рассматривать, рассматриваться)) этот вопрос с разных сторон. 6. Мои планы на будущее (изменить, измениться). 7. Я хочу (познакомить, познакомиться) тебя с моим другом. - Очень приятно (познакомить, познакомиться) .8. Мне нужно (возвратить, возвратиться) эту книгу в библиотеку. 9. - Ты видел Олега? - Нет, мы с ним не (встретить, встретиться). 10. Лучше один раз (увидеть, увидеться), чем сто раз услышать (русская пословица). 11. В конце мая занятия в университете (закончить, закончиться), и (начать, начаться) экзамены.

Как мы видим из заданий, образование видовых пар возвратных глаголов (как и у обычных глаголов) происходит как префиксальным, суффиксальным способом, так и совершенно другими словами.

знакомиться –познакомиться
видеться–увидеться
общаться –пообщаться
встречаться - встретиться
улыбаться- улыбнуться
браться - взяться
бояться - испугаться

Первый вопрос, который обычно задают студенты в процессе изучения данной темы, - А как спрягаются глаголы на -ся?

На доске записываем такие глаголы как заниматься - учиться

Предлагаем убрать возвратные частицы и посмотреть что остаётся, на что заканчиваются данные глаголы - занимать (подчеркиваем -ать), учить (подчеркиваем- ить), и тогда студенты сразу вспоминают Iи II спряжение глаголов. Обращаем внимание ребят на добавление - сь.к 1 лицу ед.ч. и 2 л. множ. ч., в остальных случаях - **ся**. Даём несколько примеров на закрепление: общаться, встречаться (1 спр.), закончиться, встретиться (2 спр.).

Тоже самое происходит с образованием прошедшего времени.

учить учил -л

учила - ла

учили - ли

учился +ся в мужском роде

училa (сь) +сь в женском роде

учили (сь) +сь во множественном числе

Предлагаем также для закрепления несколько глаголов на образование прошедшего времени: нравиться, надеяться, находиться, являться.

Как видим, образование временных форм связано с образованием видовых пар данных глаголов. Некоторые формы прошедшего времени обращают на себя внимание отсутствием суффикса -л. Плавно переходим к повторению пройдённой темы прошедшего времени обычных глаголов. К слову сказать, повторение, обращение к пройденному материалу - неотъемлемая часть методики РКИ, благо (ещё раз повторюсь, часы позволяют). Напоминаем студентам, что глаголы в форме инфинитива, оканчивающие на -ть, прошедшее время образуют при помощи суффикса-л.

В таких глаголах как спасти, помочь при отбрасывании -ти, -чь остаётся последняя буква, которая и образует прошедшее время.

спасти - спас, помочь - помог, беречь-берёг (чередование ч/г), принести-принёс.

С добавлением возвратной частицы образуется прошедшее время возвратных глаголов спасать-спасаться-спасался, но спасти-спастись-спасся

Ещё один момент, на который всегда обращается внимание студентов - это, во-первых, само образование возвратных глаголов от обычных, и, во-вторых, как меняется управление вновь образованных форм, а иногда и их значение, как например:

советовать - кому?	положить - что? куда?
советоваться - с кем?	положиться - на кого?
взять -что?	договорить - что?
взяться - за что?	договориться - с кем?
видеть - кого?	переписывать - что? с чего?
видеться - с кем?	переписываться - с кем?
встречать - кого?	извинить - кого? за что?
встречаться - с кем?	извиниться - перед кем?
знакомить - кого? с кем?	простить - кого? за что?
знакомиться - с кем?	проститься - с кем?
учить - кого? чему?	занимать - что? у кого?/кого? чем?
учиться -где?	заниматься - чем? где? с кем?
(меняется управление глагола)	*(меняется значение слова)*

Также каждый год в новых группах подфака возникает вопрос: - А какая разница между глаголами *изучать, учить/ учиться*. Разница в значении понятная носителям языка, вызывает затруднения у иностранных учащихся. Объясняем, что глагол *изучать* подразумевает изучение какой -либо науки, дисциплины в широком смысле этого слова(Мы изучаем русский язык); глагол *учить - заучивание чего-либо конкретного* (учить текст, стихотворение) (Весь вечер я учил трудный текст); *учиться – получать образование* (Я учусь в Бакинском Государственном Университете). Особое место в данной теме занимает глагол *заниматься.* С прибавлением возвратной частицы меняется не только управление (как было сказано выше), но и его лексическое значение:

1. заниматься - увлекать кого - то чем то, развлекать (Он весь вечер занимал детей своими рассказами);
2. занимать - одалживать деньги (Он никогда ни у кого не занимал денег);

Но!

3. заниматься - какая либо деятельность(Что ты делаешь? = Чем ты занимаешься? - Отдыхаю, смотрю телевизор, слушаю музыку).
4. заниматься - учебный процесс

Я пишу домашнее задание.

Я учу новые слова.

Я повторяю текст. → Я занимаюсь

Я перевожу незнакомые слова.

Также интерес иностранных учащихся вызывают задания на наращивание предложений.

Я занимаюсь.
Я занимаюсь спортом.
Утром я занимаюсь спортом.
Каждое воскресенье утром я занимаюсь спортом.
Каждое воскресенье утром я с друзьями занимаюсь спортом.
Каждое воскресенье утром я с друзьями занимаюсь спортом на стадионе.

Предлагаем студентам несколько глаголов для выполнения подобных заданий: учиться, находиться.

Друг учится
Мой школьный друг учится
Мой школьный друг учится в университете
Мой школьный друг учится в Бакинском государственном университете
Мой школьный друг учится в Бакинском государственном университете на подготовительном факультете
Я рад что, мой школьный друг учится в Бакинском государственном университете на подготовительном факультете

Баку находится
Баку находится на берегу Каспийского моря
Город Баку находится на берегу Каспийского моря
Столица Азербайджана - город Баку находится на берегу Каспийского моря
Иностранные студенты знают, что Столица Азербайджана - город Баку находится на берегу Каспийского моря

В завершении статьи хочется сказать: работая с иностранной аудиторией преподавателю всегда надо быть готовым к многочисленным вопросам, как связанных, так и не связанных с темой конкретного урока. И, как совет молодым преподавателям, рекомендуем не уходить ни от одного дополнительного вопроса, не оставлять без внимания или переносить его на следующий урок.

Использованная литература

1. Г.Г.Малышева – Что? Где? Когда? Санкт-Петербург. 2006
2. Ю.Г. Овсиенко. Русский язык для начинающих. М., 1999
3. О.И.Глазунова. Давайте говорить по-русски. М. 2005
4. В.Е.Антонова М.М.Нахабина . Дорога в Россию. М.2004
5. А.М.Пашаева, Л.М.Гулиева Русский язык. Баку. 2022

RƏYÇİ: dos. E.Kərimov

Aynurə Dunay qızı Məmmədova [94]

ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV YARADICILIĞININ BƏZİ XARAKTERİK CƏHƏTLƏRİ

Giriş. Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan ədəbiyyatı tarixində öz dəst-xətti ilə seçilən sənətkarlardan biridir. Onun yaradıcılığı həm ədəbi janr, həm də məzmun baxımdan geniş və əhatəlidir. Belə ki, ədib qələmini həm dramaturgiya, həm nəsr, həm də publisistik sahələrdə sınamış və hər birində də böyük uğurlara, ilklərə imza atmışdır. O, mövzu seçimində də həm forma olaraq müəyyənləşdirdiyi janrın, həm də dövrün, zəmanənin tələblərini nəzərə almağı bacarmışdır. Bu məziyyətlərinə görə də onun qələmə aldığı nümunələrin hər birində novatorluq aramaq mümkündür. Bu mənada demək olar ki, sənətkarın yaradıcılığının mövzu dairəsi müxtəlifdir. Yaşadığı mühitdə şahidi olduğu elə bir problem yoxdur ki, onun əsərlərində bədii priyomlarla təsvir olunmasın.

Əsas hissə. Əbdürrəhim bəy Haqverdiyevin yaşadığı dövr elə bir vaxta təsadüf etmişdir ki, həmin vaxt əli qələmli Azərbaycan ziyalıları, mütəfəkkirləri öz xalqının maariflənməsinə, işıqlı gələcəyə istiqamətlənməsinə can atırdılar. Bunun üçün yollar axtarırdılar. Kimi xalqının maariflənməsini dram əsərlər yazıb teatrlaşdırmaqda – səhnələşdirməkdə, kimi kiçik hekayə və felyetonlar yazmaqda, kimi məktəblərdə dünyəvi dərslərin təşkilində, kimi yeni tipli tədris ocaqlarının aşılmasında və s. görürdülər. "Molla Nəsrəddin" ədəbi məktəbinin əhatəsində cəmləşən ədiblərimiz əsasən kiçik hekayə, felyeton, publisistik əsərlər və dram əsərləri yazaraq xalqının daha sürətli maariflənməsinə ümid bəsləyirdilər. Ona görə də fəaliyyətlərini bu istiqamətə yönəldirdilər. Məhz "Molla Nəsrəddin" ədəbi məktəbinin tanınan bir nümayəndəsi kimi Ə.Haqverdiyevin də yaradıcılığını bu sahəyə aid etmək olar. Buradan çıxış edərək deyə bilərik ki, ədibin yaradıcılığında hekayə janrına xüsusi önəm verməsi heç də təsadüfi deyildir.

Deməli, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında hekayə janrı xüsusi yer tuturdu və ideya, estetik cəhətdən çoxçalarlığa və fəlsəfiliyə sahib idi. Başqa sözlə, "XIX əsrin sonu XX əsrin əvvəllərində qələmə alınan hekayələrdə ideya estetik baxımdan çoxçalarlılıq, daxili fəlsəfi qatın zənginliyi, idealların təqdimində etnoyaddaşa və poetik simvolikaya üstünlük verilmişdir" (3, s. 3). Bu fikirlərdən bir daha həmin dövrdə hekayə janrına üstünlüyün verilmə səbəbri aydınlaşır. Ə.Haqverdiyevin nəsr – hekayə yaradıcılığında bir sıra xarakterik xüsusiyyətlər özünü göstərir. Onlardan biri də onun hekayələrində dövründə mövcud olmuş dini fanatizmi tənqid atəşinə tutmasıdır. Bununla bərabər, onu da deyək ki, ədib ilk yaradıcılıq nümunələrində dinə, əsl dinə o qədər də pis münasibət göstərməyib. Lakin sonradan din xadimlərinin iç üzünü görməsi və həmin dövrdə dini məsələlərə yanaşma onun yaradıcılığına da təsirsiz ötüşməmişdir. Belə ki, onun ilk əsərlərində dinə rəğbət bəsləməsi təsadüfi deyildir, çünki XIX əsrə qədər ədəbiyyatımıza nəzər salsaq, görərik ki, dinə böyük rəğbət, məhəbbət vardır. Ancaq XIX əsrdən başlayaraq din artıq tənqid hədəfinə çevrilməyə başlandı. Bunu M.Abbasova belə izah edir: "XIX əsrdən başlayaraq Azərbaycan nəsrində dini mövzulara maraq artmışdır. Əlbəttə, bütün dövrlərdə ədəbiyyatda dinə maraq güclü olmuş, amma əvvəlki əsrlərdə din müsbət planda ədəbiyyatın təhlil obyektinə çevrilirdisə, XIX əsrdən etibarən bu münasibət fərqli tərzdə özünü göstərmişdir. Çar Rusiyası Azərbaycanı işğal etdikdən, kapitalist münasibətləri formalaşdıqdan sonra ölkə əhalisində milli ruh və şüurun intibah mərhələsi formalaşmışdır. Təəssüflər olsun ki, həmin dövrdə çar Rusiyası məqsədli şəkildə həqiqi, bütün varlıqları ilə imana xidmət edən din xadimlərini aradan çıxarmış, onların yerinə həyat səhnəsinə fərdi maraqlarını dini maraqlardan üstün tutan din xadimlərini gətirmişdir. Tədricən dinlə cəmiyyət və insanlar arasında ziddiyyət uçurum yaranmış, bəzi din xadimlərinin sayəsində din iman məsələsi olmaqdan çıxaraq dolanacaq vasitəsinə çevrilmişdir" (1, s. 32). Göründüyü kimi, həmin dövrdə dinə münasibətin dəyişməsinin əsasında siyasi maraqlar dayanırdı. Ona görə də din xadimlərinin məqsəd və məramları da tamamilə dəyişmişdir. Ə.Haqverdiyev kimi xalqını mövcud bəlalardan qurtarmağa çalışan sənətkarların yaradıcılığında həmin məsələlər ifşa olunurdu. Yəni "... Azərbaycan ədəbiyyatında haqqında danışılan dövrün nəsrində, xüsusən hekayələrində dini mövzu ilk növbədə milli gerçəklik, milli şüur və milli həyat tərzi faktı kimi işıqlandırılmışdır. Nəzərə almaq lazımdır ki, bədii əsərlərdə həllinə cəhd göstərilən problemlər də sırf milli xarakterdədir" (1, s. 33). Bu baxımdan Ə.Haverdiyevin hekayələrində qaldırdığı problemlər dövrün xarakterik xüsusiyyətlərini aydın şəkildə göstərirdi. Həmin problemləri əsərlərində göstərməklə - yaratdığı obrazların simasında ümumiləşmiş tiplər yaratmaqla, onların dili ilə öz mütərəqqi ideyalarını doğma xalqına çatdırmaq istəyirdi. Onları qəflətdən oyatmaq naminə bir sıra əsəbi üsul və vasitələrdən yararlanırdı.

Bu deyilənlərə uyğun olaraq qeyd edək ki, məhz "Ata və oğul" hekayəsində yazıçı Hacı Xəlilin dilindən əslində bütün müsəlmanlara ibrət olacaq sözlər deyirdi: "Əvvəla, bala, bu gündən ömrünün axırınadək sən bunu heç xəyalından çıxartma ki, müsəlmansan. Quranın və peyğəmbərin şəriətinin hökmlərinə həmişə itaət elə və bilgilən ki, bu itaətin axirət ruyi-səfidliyindən səvay, dünya xoşbəxtliyi də səninlə olar və Allahın əli və kölgəsi heç vaxt sənin üstündən kəm olmaz. Oğul, cavansan, cavanlığın səhv və xatası olar, çalış xəta etmə. Əgər, xudanəkərdə, səndən bir səhv baş versə, tövbə elə, həmişə səy elə heç kəsə sənin nə dilindən, nə əlindən və nə əməlindən ziyan dəyməsin. Bacar dünyada hamıya yaxşılıq elə, kömək istəyən və sənin pənahına qaçanı heç naümid qaytarma, çünki acizə, mərizə, yoxsula kömək eləmək yaxşı sifətlərin biridir" (2, s. 12). Göründüyü kimi, ədib atanın dili ilə sanki öz dövrünün adamlarına bir əxlaq, əsl din dərsi keçir. Bu baxımdan M.Məmmədovun da fikri ilə razılaşmaq olar. O yazır ki, ""Ata və oğul" özünün ideya məzmunu və əsas pafosu etibarı ilə əxlaqi-didaktik hekayənin tələblərinə daha çox cavab verir və onu məhz bu istiqamətdə səciyyələndirmək daha doğru olardı" (4, s. 66). Onu da deyək ki, Ə.Haqverdiyev belə bir mövzuya müraciət edərkən onun bu cür ad seçməsi də

[94] BDU-nun magistrantı

təsadüfi ola bilməzdi. Yəni ki "Hekayə üçün belə sərlövhənin seçilməsi səbəbsiz deyildi, realist ədəbiyyatımızın yaradıcılıq problemləri ilə bağlı idi. Məlum olduğu kimi "atalar və oğullar" məsələsi realist yazıçılar tərəfindən qələmə alınan sosial-əxlaqi problemlər arasında həmişə mühüm yer tutmuş, aparıcı ideya motivlərindən biri olmuşdur" (4, s. 63-64).

Bu hekayədən başqa, sənətkar digər əsərlərində də dini mövhumatı tənqid edir. İnsanları din adından istifadə edərək aldadan, onların malını, mülkini əlindən alan "din xadimləri" müəyyən priyomlarla ifşa olunur. Bu zaman ədib satirik və yumoristik üslulları əsas götürür. Belə ki, əsərdə təqdim etdiyi və onların əməllərini işfa edərkən satirik üsul işə düşürdü. Yaratdığı müsbət obrazların isə sanki halına acıyırdı, onların düşdüyü, yaşadığı mühiti təqdim edərkən bəzən yumor üsulunu seçirdi. Ədibin yaradıcılığında yumoristik gülüşün mövcudluğuna diqqət çəkən M.Cəlal belə yazır: "Ə.Haqverdiyevin realist üslubundakı gözəl xüsusiyyətlərdən biri də şirin xalq yumorudur. Müdrik və ağıllı fikirləri zarafat, gülüş vasitəsilə maraqlı formada ifadə etmək xalq danışıq dili üçün səciyyəvi cəhətdir. Azərbaycan xalq ədəbiyyatında tənqidi gülüş çox qüvvətlidir. Xalq idrakının bu cəhətini ədibin hekayələrində də aşkar görürük. Bu gülüş, müəllifin müxtəlif macəralar vasitəsilə doğurmaq istədiyi gülüş deyildir. Bu gülüş əsərlərdə təsvir olunan hadisələrdə, adamlarda, münasibətlərdədir" (5, s. 132). Bu o deməkdir ki, sənətkarın yaradıcılığını yumorsuz təsəvvür etmək mümkün deyildir. Vurğuladığımız fikirlərin daha doğruluğunu sübut etmək üçün yazıçının zəngin yaradıcılığına müraciət etmək lazım gəlir. Belə ki, onun məşhur "Ovçu Qasım" adlı hekayəsindən oxuyuruq: "Qış gecəsi idi. Qasım kənddə isti buxarının kənarında başı açıq əyləşib bizim üçün söhbət edirdi. Buxarının içinə yığılmış palıd kötüyü çırtaçırt yanmaqda idi, samovar da bir tərəfdə segah oxuyurdu. Buxarının bir tərəfində bir böyük pişik dörd ayağını və quyruğunu uzatmış, xorultu ilə yatmışdı. Qasımın istəkli tulası "Gümüş" də qapının ağzında "şonqutma" əyləşib sahibinin söhbətinə qulaq asırdı. Bayırda şiddətli külək qarı səhra qumu tək havaya sovururdu, damın taxtalarının arasından keçdikdə fabrika borusu tək fit verirdi" (2, s. 279).

Ədibin dini fanatizmi və ictimai mühitin eyiblərini tənqid edərkən yumoristik və satirik üsuldan sənətkarlıqla yararlandığı əsərlərindən biri də "Xortdanın cəhənnəm məktubları" əsəridir. Ə.Haqverdiyev bu əsərində həm maraqlı ədəbi priyomlardan, həm də xalq ədəbiyyatında mövcud olan müəyyən motivlərdən istifadə edərək dövrün eybəcərliklərini, din pərdəsi altında xalqı əzən fırıldaqçıların dələduzluğunu tənqid atəşinə tutmuşdur. Həmçinin burda da sənətkar tipi öz dili ilə ifşa etmək kimi bir üsuldan istifadə edir və maraqlı mənzərələr yarada bilir. Həmin üsula bir nümunə olaraq əsərdən bir parçaya nəzər salaq: "Öz-özümə dedim: məgər mən Xristofor Kolumbdan əskik oğlanam; getdi Amerikanı açdı və ya Magellandan əskigəm ki, dünyanı dörd dəfə dolanıb, nə qədər bilinməz yerlər, cəzirələr tapdı. Doğrudur, yolda vəhşilər onu öldürüb bozbaş bişirdilər. Bu da onun öz taktikasıdır. Bir "ismi-əzəm" oxuyub onların gözlərinə üfürsəydi, hamısının gözləri tutulardı, o da yolu ilə düz çıxıb gedərdi. Kafir olduğundan ismi-əzəmi bilməyirdi. O idi ki, bəlaya uğradı" (2, s. 27). Buradan görünən budur ki, ədib Xortdanı öz dili ilə danışdırır və yumor və kinayə ilə onu özünün dedikləri ilə gülünc vəziyyətə salır. Guya ki, cəhənnəmdə qarşılaşdığı hansısa bir problemi nəsə bir dua oxumaqla dəf edə biləcək. Büşqa bir nümunəyə nəzər salaq: "Bilirəm oxucular inanmayacaqlar, deyəcəklər: – Xortdan gedib cəhənnəmə, oradan ağzına gələn hədyanı yazır. Cəhənnəm nədir, tamaşası nə ola? Mən oxucularımı inandırmaq üçün bir neçə möhkəm and içməyə hazıram. Ancaq Qurana and içməyəcəyəm. İnanmazsınız; çünki müsəlman ki, Qurana and içdi, yəqin edin ki, yalan deyir. Mənim andlarım möhkəm andlardır. And olsun Cəfərqulu xanın övladının ağızlarının tüpürcəyinə, and olsun Topal Seyidin barmağının qanına, and olsun deşikli ağaca, qazaq qəbrinə, Xəlifəli ocağına, cındırlı pirə, Cicim ocağına, öskürək pirinə, and olsun Xorasan mütəvəlli başçısının anbarından çıxan şərab küplərinə, İmam Cümənin buğda anbarına, Bala keşişin tasına, Mirzə Qoşunəli Təbrizinin çarıqlarına, dərviş Qırışmalqulunun dişsiz əfilərinə, yazdığım sözlərdə bir hərf qələt yoxdur; hamısı haqq sözlərdir" (2, s. 53). Yazıçının bu dediklərindən aydın olur ki, müsəlmanlar müqəddəs kitaba inanmırlar, Qurana and içmirəm ona görə ki, inanmayacaqlar. Buna görə də, ədib bütün pirlərə, müqəddəs hesab olunan ocaqlara and içir. Hətta öz andlarını Qurandan möhkəm andlar hesab edir. Sənəntkarın bununla əslində göstərmək istədiyi başqa məsələdir, insanları həqiqi dinlə məşğul olmağa, onları dindən öz məqsədləri üçün istifadə edən yalançı ruhanilərə aldanmamağa səsləyirdi. Hətta əsərdə Fərman dili ilə belə deyir: "İndi mən yəqin etmişəm ki, axirət də yalandır! Doğru olsaydı, hamıdan qabaq ruhanilər, dünyaya fani deyənlər, dünya malına cəhənnəm odu deyənlər onu axtarardılar" (2, s. 112).

Nəhayət, qeyd edə ki, Ə.Haqverdiyev hər zaman novatorluğu ilə seçilən sənətkarlardan idi və "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlığa başlayandan sonra davamlı olaraq orada çıxışlar edirdi. O, "Xortdanın cəhənnəm məktubları" adlı əsərini də jurnalda sistemli şəkildə çap etdirirdi ki, bununla da publisistik povest janrının əsası qoyulmuş oldu. Belə ki, 1906-cı ildən ilk nömrəsi nəşr olunmağa başlayan "Molla Nəsrəddin" jurnalının ədəbiyatımızda və publisistikamızda çox böyük xidmətləri oldu və dövrünün ən vətənpərvər simalarını özündə birləşdirdi. Onlar qısa müddətdə publisistikaya aid çoxlu janrlarda yazıb-yaratsalar da, publisistik povestin yaranması G.Babayevanın da qeyd etdiyi kimi (6) Ə.Haqverdiyevin adı ilə bağlıdır. 1907-ci ildən başlayaraq "Cəhənnəm məktubları" daha sonra isə "Mozalanbəyin səyahətnaməsi" əsərləri ilə davamlı olaraq çıxış etməyə başladı. Publisistik üslubun yaranması ideya zənginliyi, forma və məzmun rənagərəngliyi yaratdı, eyni zamanda "Molla Nəsrəddin" jurnalının dilinin də sabitləşməsinə imkan verdi. Məlumdur ki, onlar daha çox lakonik ifadələrə, folklor nümunələrinə üstünlük verir, əsərlərini yazarkən oxucunu uzun-uzadı ifadələrlə yormurdular. Canlı, lakonik, incə xalq yumoru, ana dilinin şirinliyində yazmaq onların ən böyük amalı idi. Məhz Molla Nəsrəddinçilərin ən görkəmli nümayəndələrindən biri olan Ə.Haqverdiyev də jurnalın ənənəsinə sadiq qalmış bütün yaradıcılığını xalqına və onun tərəqqisinə həsr etmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasova M. Klassik Azərbaycan ədəbiyyatında bədii simvol. (1900-1920), Bakı: Elm, 2011, 184 s.
2. Əbdürrəhim bəy Haqverdiyev. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: Lider, 2005, 408 s.
3. Quliyeva M. XX əsrin əvvəlləri Azərbaycan hekayəsinin poetikası. Bakı, 2021, 165 s.

4. Məmmədov, M. Əbdürrəhimbəy Haqverdiyevin həyat və yaradıcılığı. Bakı: Nurlan, 2008, 184 s.
5. Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917) Bakı, 2004, 391 s.
6. https://525.az/news/138924-molla-nesreddin-publisistikasi-janr-ve-uslub-rengarengliyi

Açar sözlər: Ə.Haqverdiyev, nəsr, hekayə, ictimai mühit, dini fanatizm, tənqid
Ключевые слова: А.Хагвердиев, проза, рассказ, общественная среда, религиозный фанатизм, критика
Key words: A.Hagverdiyev, prose, story, social environment, religious fanaticism, criticism

Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığının bəzi xarakterik cəhətləri

Xülasə

Məqalədə ədəbiyyatımızda novator sənətkar kimi tanınan ədiblərimizdən biri olan Əbdürrəhim bəy Haqverdiyev və onun yaradıcılığının bəzi xarakterik cəhətlərindən bəhs edilir. Qeyd olunur ki, Ə.Haqverdiyevin yaradıcılığı həm ədəbi janr, həm də məzmun baxımdan müxtəlifdir. Onun yazdığı əsərlərin əksəriyyətində novatorluq özünü göstərməkdədir. Sənətkarın əsərlərində qaldırılan problemlərdən ictimai mühitin və dini fanatizmin tənqidi daha çox diqqət çəkir. Burada bir neçə əsərdən konkret nümunələr gətirilməklə həmin problemlər şərh olunur, münasibət bildirilir. Xüsusilə də ədibin "Ata və oğul" hekayəsi və "Xortdanın cəhənnəm məktubları" povesti təhlilə cəlb edilərək, dövrün eyiblərinin satirik və yumoristik priyomlarla tənqid olunduğu diqqətə çatdırılır.

Некоторые характерные черты творчества Абдуррагим Бека Хагвердиева

Резюме

В статье говорится об Абдуррахим беке Хагвердиеве, одном из наших писателей, известном как художник-новатор в нашей литературе, и некоторых характерных сторонах его творчества. Отмечается, что творчество А.Хагвердиева разнообразно как по литературному жанру, так и по содержанию. Большинство его работ новаторские. Среди проблем, затронутых в творчестве художника, большее внимание привлекают критика социальной среды и религиозный фанатизм. Здесь эти проблемы объясняются, а отношение выражается путем приведения конкретных примеров из нескольких работ. В частности, анализируются авторские повести «Отец и сын» и «Адские письма Хортдана», указывается, что пороки эпохи критикуются с сатирически-юмористического начала.

Some characteristic features of the work of Abdurragim Beka Hagverdieva

Summary

The article talks about Abdurrahim bek Hagverdiev, one of our writers, known as an innovative artist in our literature, and some characteristic aspects of his work. It is noted that the work of A.Hagverdiyev is diverse both in literary genre and in content. Most of his works are innovative. Among the problems touched upon in the artist's work, criticism of the social environment and religious fanaticism attract more attention. Here these problems are explained, and the relationship is expressed by giving specific examples from several works. In particular, the author's stories "Father and Son" and "Hell's Letters of Hortdan" are analyzed, it is indicated that the vices of the era are criticized with a satirical and humorous principle.

RƏYÇİ: dos. E.Vəliyeva

İntizar Kamil qızı Kərimova [95]

SEÇMƏ VƏ AYRICI SUAL CÜMLƏLƏRİNDƏ NÜVƏ TONLARININ İŞLƏNMƏSİNƏ DAİR

Danışıq söhbətinin diskurs səviyyəsində intonasiya nitqin bitdiyini və ya danışanın hələ də nəsə əlavə etmək istədiyini bildirmək üçün bir vasitədir. Bu siqnalları səhv şərh etsək, hələ ifadə edilmək üçün nəzərdə tutulan bütün fikirlərini

bildirməmiş natiqlərin sözünün kəsilməsi ilə nəticələnə bilər. Trench iddia edir ki, intonasiyanın diskurs funksiyası natiqin ünvançılar üzərində yaratmaq istədiyi təsirə istinad edir. Nəticə etibarı ilə informasiya funksiyası nitqin məzmununa, diskurs və ya kommunikativ funksiya isə nitqin dinləyiciyə malik olduğu və ya etmək niyyətində olduğu təsirə aiddir. Əlbəttə ki, müxtəlif müəlliflər onları fərqli kateqoriyalara ayırdıqları üçün funksiyalardan birinə digərlərindən asılı olmadan ayrılıqda baxmaq həmişə mümkün deyil.

İntonasiyaya gəldikdə, əlbəttə ki, fərdi fərqlərin olduğunu qeyd etməmək olmaz. Hamımız bilirik ki, bir uşağın adətən böyüklərdən fərqli səs diapazonu var və xəbər oxuyucunun intonasiyası radio aparıcısı ilə müqayisədə çox uzaqdır. Yaş ilə səs diapazonu arasında anatomik əlaqə olsa da, xəbər oxuyan və radio aparıcısı öz işlərinə uyğun olan xüsusi intonasiya nümunələrini seçirlər. Çox az ehtimal olunur ki, onlar təklikdə eyni intonasiyadan istifadə etsinlər. Beləliklə, intonasiya həm də natiqin şəxsi və ya sosial kimliyini ifadə edə bilir.

İngilis tonlarını öyrənməyin ən yaxşı yolu fonetik nümunələri dinləmək, intonasiya, tonlar, hiss qrupları, pauzalar və cümlə vurğularını qeyd etmək üçün audio yazıların mətn transkriptlərindən istifadə etmək və natiqdən sonra audio nümunələrini təkrarlamaqdır. Tonların haradan başladığını, hansı istiqamətdə getdiyini, harada bitdiyini və hansı səs diapazonunu əhatə etdiyini bilmək üçün əsas tonların təsvirlərini öyrənmək də faydalıdır.

Tonları iki əsas tonla müqayisə edərək öyrənmək rahatdır: enən ton və qalxan ton. Normal, qeyri-bərabər enən və qalxan tonlar orta səviyyədən başlayır. Enən ton aşağı enir və normal danışma diapazonunun altına yaxın bitir. Qalxan ton isə yüksəlir, lakin çox yüksək olmayıb normal danışma diapazonunun yuxarı sərhədinə çatmır.

Effektiv tonlar (yüksək eniş, yüksək yüksəliş) burada aktiv istifadə üçün deyil, başa düşmək üçün təsvir edilmişdir. Aşağı düşmə, vəziyyətdən asılı olaraq vurğulayıcı və ya qeyri-mümkün ola bilər.

Düşən ton sonluğu tamlığı, inamı ifadə edir. Enən ton cümlənin sonuncu vurğulanmış hecasından başlayır və aşağə düşür (rus dilindən daha dərin), normal danışıq diapazonunun aşağısına yaxın hissədə sona çatır. Həmçinin vurğulamalıyıq ki, enən ton son vurğulanmış heca daxilində baş verir:

`Tom is my \ friend (Tom mənim dostumdur).

Son vurğulanmış hecadan sonra vurğusuz hecalar varsa, onlar enən tonun bitdiyi aşağı səviyyədə tələffüz olunur:

`Tom is a \ jurnalist (Tom jurnaslistdir.)

Enən ton ifadələrin sonunda (`This is \nice. (Bu \ gözəldir.)), xüsusi suallarda (`What \ happened? (Nə \ baş verdi?)), əmrlərdə (\ Call him. (\ Ona zəng edin.)), nida cümlələrində (How \ beautiful! (Necə \ gözəl!)), etiket suallarının birinci hissəsində (It\works, doesn`t it? (O/ işləyir, \ o deyilmi?)) və alternativ sualların sonuncu hissəsində (`Are you / studying or \ working? (Sən / oxuyursan, yoxsa \ işləyirsən?)) istifadə olunur.

Kontekstdən yüksək tonda maraq, nəzakət, təəccüb, şübhə, natamamlıq və s. əks olunur. Qalxan ton cümlənin son vurğulanmış hecasından başlayır və əvvəlcə bir qədər aşağı düşür, sonra isə yüksəlməyə davam edir. İngilislərin qalxan tonu, rusların qalxan tonu qədər yüksəlmir. Cümlə son vurğulanmış hecada bitirsə, yüksəliş sonuncu vurğulanmış hecada baş verir:

Do you have a / pen? (Sizin / qələminiz var?)

Son vurğulanmış hecadan sonra vurğusuz hecalarda yüksəlməyə davam edir:

Do you have a / pencil? (Sizin / karandaşınız var?)

Qalxan ton ümumi sualların sonunda (Is she here?, (O/ buradadır?)) istəklərdə (Could you / help me? (Mənə kömək edə bilərsən?)), alternativ sualların birinci hissəsində (Is it / short or \ long? (/Qısa və ya \ uzun?)), birbaşa ünvanda (/Mike, where \are you? (Mayk, haradasan?)), sadalamalarda (I bought / milk, /cheese and \ fruit) (Mən/ süd/ pendir və \ meyvə aldım.)) və ayrıcı suallarda ikinci hissəsində (Nice \weather, / isn`t it? (Hava yaxşıdır, elə deyilmi?)) istifadə olunur.

-`Wasn’t that a `knock at the `door | or 'am I imagining ˌthings?

5. Let's see whether I can mend it?

-`Do you `need a ˌpenknife | or a ˌscrewdriver?

6. What would you like with your meat?

-`Have you' got any `tinned, peas | or ˈbeans?

7. A letter ˈwouldn’t beˈquick enough.

- `Could you 'get him on theˈphone |or `send him a ˌtelegramme?

8. I don't know what upset her.

- `Was it the eˈxcitement to you ˌsuppose | or the `bad `news about her `brother?

9. You will come with me | won't you?

- `Can you `go by yourˈself for once | or `can't you?

[95] ADPU

Tag questions kimi tanınan ayırıcı sual cümlələrində pozitiv və neqativ münasibət çalarları olmasa da onların tələffüzündə bəzi məqamlar nəzərə çarpır. Ayırıcı sual cümlələri də iki intonasiya qrupunda tələffüz olunur. Birinci intonasiya qrupu nəqli cümlə olduğundan adətən düşən melodiya ilə, ikinci hissə isə sual soruşduğundan qalxan tonla tələffüz olunur. Birinci hissə təsdiqdə olduqda, ikinci hissə inkarda və əksinə I hissə inkarda olduqda, II hissə təsdiqdə işlənir. Ayırıcı sual cümlələrinin intonasiyası danışan şəxsin ifadə etdiyi cümlənin məzmununa olan pozitiv və neqativ münasibətlərin dəqiq və qeyri-dəqiqliyini, onun fikrinin həqiqiliyinin təsdiq və ya inkarını nəzərdə tutduğundan həmin cümlə növlərində müxtəlif aksent-melodik quruluşa rast gəlmək mümkündür.

Danışan şəxsin söylədiyi fikrinə tam əminlik, etiraz ifadə olunmadan qəbul ediləcəyinə inam olduqda ayırıcı sualların hər iki hissəsində təsdiq xarakterli geniş diapazonlu yüksək düşən (Higu Wide Fall) və ya alçaqdan düşən (Low Fall) kimi intonasiya konturları işlədilir.

You' can't do ˊtwo ˊthings at `time |ˊcan you? Tomorrow is, monday |ˌisn't it?

Lakin danışan şəxs öz söylədiyinə tam əmin olmayıb dinləyicidən onlarla razılaşacağını gözləyirsə, ona ümid bəsləyirsə, cümlənin nəqli hissəsində geniş diapazonlu yüksək düşən (High Wide Rise) ton II hissəsində isə dar diapazonlu yüksək qalxan (High Narrow Rise) tondan istifadə olunur.

The `doctor `diden't ˌallow you to` goˌout | `did he?

Danışan şəxs dediyi fikrə inamlı olduqda və həmin fikrin dinləyici tərəfindən heç bir narazılığa səbəb olmayacağına əmindirsə, cümlənin nəqli hissəsində alçaqdan qalxan (Low Rise), sual hissəsində isə yüksəkdən düşən və ya alcaqdan düşən ton (Low Fall) işlədilir. You `won't, mind |ˊwill you?

Lakin danışan şəxs söylədiyi fikrə tam əmin olmayıb onun müsahibi tərəfindən qəbul olunacağına inamı olursa, sualın hər iki hissəsində dar diapazonlu qalxan (High Narrow Rise) ton, və ya alçaq düşən melodik tonlardan istifadə olunur. Məsələn:

You would `like to, speak to him| ˌwouldn't you?

We `needn't ˊwait for him |ˊneed we?

Beləliklə, ayırıcı sual cümlələrində işlədilən intonasiya konturlarını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. High Wide Fall + High Wide Fall

It looks like to rain - It `doesn't | `does it?

2. Low Fall + Low Fall

It'll `never be `ready in ˌtime | - ˌnever | ˌwill it?

3. Low Fall + Low Rise

Who'll help you, d'you think? - Mr. ˌRobert will | ˌwon't he?

4. High Wide Fall + Low Rise

The ˊmeeting is in the Small `Hall- That `won't be `big enough | ˌwill it?

5. High Wide Fall - High Narrow Rise

`Have you `heard about ˌFrances? She's 'quite` ill | `isn't she?

6. Low Rise + High Wide Fall.

I'm `doing the best I ˌcan |ˊaren't I?

7. Low Rise + Low Rise

Oh, ˌall ˌright | `I'll get it. - You `don't ˌmind | ˌdo you?

8. Low Rise + High Narrow Rise.

Hello Jean, you're `early. - But not ˌtoo early |ˊam I?

Nəticə kimi deyə bilərik ki, məqalədə İngilis dilində qeyri-emfatik və emfatik intonasiya konturlarının reallaşmasından bəhs edilir. Burada həmçinin intonasiyanın funksiyaları, komponentləri, tipləri haqqında məlumat verməklə yanaşı, müxtəlif intonasiya modellərində müsbət münasibət ifadə edən mənaların təhlili verilmişdir.

Eyni zamanda İngilis dilində ayrıcı cümlələrdə müsbət münasibət ifadə edən intonasiya modellərindən bəhs edilir. Bununla yanaşı, intonasiyanın cümlənin kommunikativ tiplərində əsas rol oynaması, emosional-modal münasibətlərdən asılı olan tələffüz xüsusiyyətləri, ayrıcı cümlələrdə müsbət münasibət ifadə edən intonasiya modelləri misallarla təhlil edilmişdir.

İSTİFADƏ EDİLMİŞDƏBİYYAT:

1. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı, 1984.
2. Babayev S.M. English phonology. Bakı, 2004.
3. Babayev S.M. English phonetics. Bakı, 2005.
4. Zeynalov F. İngilis və Azərbaycan dillərində vurğunun ritmik-melodik xüsusiyyətləri. Bakı, 1996.
5. Zeynalov F. Practical English phonetics. Bakı, 2018.
6. Васильев В.А. Фонетика английского языка. Москва, 1970.
7. КарнеевскаяЕ.Б. Practical English Phonetics. 2010.
8. Antipova E.A. English intonation. 1974.
9. Dickushina O.İ. English phonetics (theoretical course). 1965.
10. Petur Roach. English phonetics and phonology. Cambridge, 2009.

Seçmə və ayrıcı sual cümlələrində başlanğıc tonlarının işlənməsinə dair
Xülasə

Danışıq söhbətinin diskurs səviyyəsində intonasiya nitqin bitdiyini və ya danışanın hələ də nəsə əlavə etmək istədiyini bildirmək üçün bir vasitədir. Bu siqnalları səhv şərh etsək, hələ ifadə edilmək üçün nəzərdə tutulan bütün fikirlərini bildirməmiş natiqlərin sözünün kəsilməsi ilə nəticələnə bilər. Trench iddia edir ki, intonasiyanın diskurs funksiyası natiqin ünvançılar üzərində yaratmaq istədiyi təsirə istinad edir. Nəticə etibarı ilə informasiya funksiyası nitqin məzmununa, diskurs və ya kommunikativ funksiya isə nitqin dinləyiciyə malik olduğu və ya etmək niyyətində olduğu təsirə aiddir. Əlbəttə ki, müxtəlif müəlliflər onları fərqli kateqoriyalara ayırdıqları üçün funksiyalardan birinə digərlərindən asılı olmadan ayrılıqda baxmaq həmişə mümkün deyil.

Məqalədə İngilis dilində qeyri-emfatik və emfatik intonasiya konturlarının reallaşmasından bəhs edilir. Burada həmçinin intonasiyanın funksiyaları, komponentləri, tipləri haqqında məlumat verməklə yanaşı, müxtəlif intonasiya modellərində müsbət münasibət ifadə edən mənaların təhlili verilmişdir.
Açar sözlər: intonasiya, fonetik nümunələr,tonlar,seçmə cümlə

On the processing of nuclear tones in selective and disjunctive interrogative sentences

Summary

At the discourse level of spoken conversation, intonation is a means of signaling that the speech is finished or that the speaker still wants to add something. Misinterpreting these signals can result in interrupting speakers who have not yet expressed all of their intended ideas. Trench argues that the discourse function of intonation refers to the effect the speaker wants to create on the addressees. Consequently, the informational function refers to the content of the speech, while the discourse or communicative function refers to the effect that the speech has or intends to have on the listener. Of course, it is not always possible to look at one of the functions in isolation, without depending on the others, since different authors divide them into different categories.

The article deals with the realization of non-emphatic and emphatic intonation contours in English. In addition to providing information about the functions, components, and types of intonation, an analysis of the meanings expressing a positive attitude in different intonation models is given here.
Key words: intonation, phonetic patterns, tones, selective sentence

Об обработке начальных тонов в избирательных и разделительно-вопросительных предложениях

Краткое содержание

На дискурсивном уровне устной беседы интонация является средством сигнализации о том, что речь закончена или что говорящий хочет еще что-то добавить. Неправильная интерпретация этих сигналов может привести к тому, что вы перебьете говорящего, который еще не выразил все свои задуманные идеи. Тренч утверждает, что дискурсивная функция интонации относится к эффекту, который говорящий хочет произвести на адресатов. Следовательно, информационная функция относится к содержанию речи, тогда как дискурсивная или коммуникативная функция относится к воздействию, которое речь оказывает или намеревается оказать на слушателя. Конечно, не всегда можно рассматривать одну из функций изолированно, вне зависимости от других, поскольку разные авторы делят их на разные категории.

В статье рассматривается реализация неэмфатических и эмфатических интонационных контуров в английском языке. Помимо предоставления информации о функциях, компонентах и видах интонации, здесь дан анализ значений, выражающих положительное отношение в различных интонационных моделях.
Ключевые слова: интонация, фонетические закономерности, тона, выборочное предложение.

RƏYÇİ: dos. S.Abbasova

Əfsanə Vilayət qızı İbrahimova [96]

KNUT HAMSUNUN "PAN" POVESTİNDƏ "MƏN" PROBLEMİ

Giriş. Avropa modernizminin ilkin nümayəndələrindən biri olan, əsərləri Dostoyevski, Balzak və Tolstoy kimi dahilərin romanları ilə müqayisə olunan Norveç yazıçısı və Nobel mükafatı laureatı Knut Hamsunun yaradıcılığı yalnız Norveç ədəbiyyatında deyil, dünya ədəbiyyatında da xüsusi yer tutur. Onun şüuraxını metodu ilə qələmə aldığı, daxili monoloqlarla zəngin olan əsərləri dərin psixologizmi ilə seçilir. Knut Hamsun öz yaradıcılıq missiyasını belə mənalandırır: "Müasir psixoloq kimi mən insan ruhunu işıqlandırmalı və təsvir etməli, onun ən dərin guşələrinə baş vurmalı, ən gizli sirlərini açmalıyam" [1, s. 76]. Həqiqətən də, ədib ömrü boyu bu yaradıcılıq kredosuna sadiq qalır. Hamsun mövcud dövrün, həyatın tələbini, öz qəhrəmanlarının düşüncələrini istək və arzularını, gündəlik qayğılarını və s. həssaslıqla duyur, bəzən öz daxili ilə, bəzən də cəmiyyətlə mübarizədə olan qəhrəmanların psixologiyalarının dərin qatlarına enərək onların keçirdiyi hiss və həyəcanları təsvir edir. Odur ki, "o, dünya ədəbiyyatında psixoloji realizmin görkəmli nümayəndələrindən sayılır" [2, s. 6].

Əsas hissə. Hamsun dünya ədəbiyyatında daha çox roman ustası kimi tanınsa da, o, qələmini bədii nəsrin digər bir janrlarında- hekayə və povest janrlarında da sınamış, demək olar ki, romanlarına tay tutula biləcək əsərlər ərsəyə gətirmişdir. Onun "povest" janrında qələmə aldığı, Kristian Elsterin "neoromantik İncil" adlandırdığı "Pan" povestini yazıçı Norveçin Kristiansand şəhərində və Parisdə yaşadığı illərdə qələmə almışdır. Knut Hamsun özü 1893- cü il oktyabr tarixli məktubunda bu povest barədə danışarkən qeyd etmişdir ki, "Yeni kitabım gözəl olacaq; Burada Nordlandda sakit və ehtiraslı bir sevgi hekayəsindən bəhs olunur. Orada heç bir polemika olmayacaq: sadəcə fərqli səmaların altındakı insanlar [3] Hamsun müxtəlif səviyyələrdə başa düşülən, az qala "mistik bir nağıl" adlandıra biləcəyimiz çox gözəl bir əsər yaratmağa nail olur. Əsərin nağılvari ab- havası ilk olaraq onun adından bəlli olur. Belə ki, povestə adı verilən Pan antik yunan mifologiyasında meşələrin, çobanların allahı idi. Əsərin baş qəhrəmanı Qlan da bir çox cəhətləri ilə bizə Panı xatırladır.

Povestdə əsas obraz olan gənc leytenant Tomas Qlan Nordlanddakı ticarət postu olan Sirilundda başına gələnləri danışır. Ümumiyyətlə, Knut Hamsun əsərlərində qəhrəmanların özlərini danışdırmağı sevir. Odur ki, "Aclıq" romanında olduğu kimi bu əsərdə də hadisələr əsas obrazın öz dilindən nəql olunur.

Bir neçə gün qabaq poçtla iki quş lələyi alması Qlanın yaddaşında iki il əvvəl – 1855-ci ildə olmuş hadisəni canlandırır və bundan sonra o, həmin hadisələri, düşüncələrini qələmə almaq qərarına gəlir. Beləliklə, qəhrəmanın hadisələrə retrospektiv baxışı verilir.

Qlan meşəçi komasında təbiətlə zahiri harmoniyada sadə, təcrid olunmuş bir həyat yaşayır. Bir növ Turgenevin romanlarındakı sələfləri, həmçinin ədəbiyyatımızdakı Məcnun kimi "artıq adam" olan bu şəxs cəmiyyətdə özünə mənalı bir yer tapa bilmir, buna görə də meşəyə, vəhşi təbiətin qoynunda inzivaya çəkilir. İnsanlardan uzaqlaşan Qlan bir növ öz azadlığına qovuşduğunu düşünür, komadan baxanda dənizin bir parçasını görmək, bir-birinə qarışmış adacıqları və qayaları, göy zirvələri, ucu-bucağı görünməyən meşəni seyr etmək, yağlı şam qatranının qoxusunu, ağac yarpaqlarının və köklərinin ətrini duymaq ona sevinc bəxş edir. Həmin bu əlahiddə hisslər Qlanın dilindən bu cür təsvir olunur: "Yalnız meşədə özümü daxilən rahat, güclü və sağlam hiss edir, ürəkbulandıran heç bir şeyə rast gəlmirdim" [4, s. 7].

Qlanın ruhsuz saydığı cəmiyyətdən uzaqlaşıb öz "mən"in sirlərini öyrənə biləcəyi meşəyə sığınması, yaşamının meşə ilə, təbiətlə sıx harmoniya təşkil etməsi onu Yunan tanrısı Pan ilə eyniləşdirir ki, bu da əsərin təsadüfən "Pan" adlandırılmadığı qənaətinə gəlməyimizə səbəb olur. Povestdə Panın barıtqabının üzərindəki kiçik fiqurunun verilməsi, Qlanın gecələr Panın ağacda oturub onu izləməsini, fikirlərindəki qarma- qarışıqlığı görməsini düşünməsi və s. sanki bu gənc leytenantın onun təsiri altında olmasına bir işarədir. Qlan romanın "əsl Pan"ıdır. O, meşə allahı Pan kimi həyatının təbiətlə bağlı olduğunu düşünür. Qlan yeganə yoldaşı və sadiq iti Ezop ilə dağları dolaşır, ovladığı heyvanları və tutduğu balıqları yeməklə günlərini keçirir, meşənin boğuq xışıltısını dinləməkdən, tetra quşlarının səs-səsə vermələrini eşitməkdən zövq alır, səhərini qağayıların qiyyələri ilə açır, günəşdən saat kimi istifadə edir, dəniz suyunun qabarıb çəkilməsindən, quşların səsinin dəyişməsindən, çiçəklərdən və s. günün hansı hissəsi olduğunu bilir, ağaclarla, otlarla danışır. Qısacası, o, özünü təbiətin qoynunda mənən azad hesab edir, meşənin oğlu olduğunu düşünür.

Qlan assosial və misantropist bir qəhrəmandır. O, cəmiyyətdə insanlarla münasibətdə olmağı sevmir, onları özünə yaxın hesab etmir. Onun öz sevincini, kədərini, fikirlərini bölüşə biləcəyi yaxın bir dostu, tanışı yoxdur. Onun yeganə dostu sadiq iti Ezop və hətta daxmasından azca aralıda yerləşən yekə və boz bir daşdır. Həmin bu boz daş belə ona insanlardan daha mehriban görünür. Qlana görə bu daş ona baxır, onu tanıyır, səhər-axşam onun yolunu gözləyir: "Səhərlər ova gedəndə yolumu onun yanından salırdım, qayıdanda isə sanki evdə əziz dost kimi yolumu gözləyirdi" [4, s. 11].

İnsanı canlı varlıq kimi cəmiyyətdən, toplumdan ayrı hesab etmək qeyri-mümkündür. Belə ki, bir fərd kimi dünyaya gələn insan tədricən ictimai münasibətlər fonunda, cəmiyyətlə ünsiyyətdə, sosiallaşma nəticəsində şəxsiyyətə çevrilir. "İnsan başqa adamlarla qarşılıqlı əlaqə və ünsiyyət prosesində özünü ətraf mühitdən ayırır, özünü fiziki və psixi cəhətdən dərk etməyə başlayır, bir növ öz "mənini" başa düşür, anlayır" [5, s. 185]. Qlan cəmiyyətin bir üzvü, bir şəxsiyyət kimi olduğu mühitdə öz yerini, "mən"ini tapa bilmir, insanların içərisində olmaq, onlarla ünsiyyətə girmək onu narahat edir. Cənab Mak, doktor, hakimin və məhəllə həkiminin qızları, iki mürəbbiyə, keşiş malikanəsindən olan qadınlar və s. ilə balıq qurudulan adaya səfər zamanı Qlan bu qədər insan içərisində özünü itirir, qadınlara necə müraciət edəcəyini bilmir, onlarla bəzən qeyri-rəsmi danışır, həmin an onun yeganə istəyi oradan uzaqlaşmaq, öz tənha yuvasıns getmək olur. Qlan qayıqla getdikləri hər

[96] Bakı Dövlət Üniversitetinin magistrantı. iefsane460@gmail.com

gəzintidə heç cür adaptasiya ola bilmir, ünsiyyətə cəhd göstərsə də, bunu bacarmır. Sosial fobiyaya sahib olan Qlan insanlar içərisində özünü artıq hiss edir, cəmiyyətə, insanlara yadlaşır, öz komfort zonasından – meşədən, olduğu komadan çıxmaq onu narahat edir. Beynindən "Əgər üçüncü bir qayıq olsaydı, çoxdan çıxıb evə gedərdim" [4, s. 59] düşüncəsi keçir, ona insanlardan da doğma olan iti Ezopu düşünür, onun komada bağlı qalması Qlana rahatlıq vermir. Bu qədər insan içində özünü tənha hiss edən Qlan evdə qoyduğu doğmasının, əzizinin yanına qayıtmaq üçün can atır, getmək istəyini dilə gətirir: "- Hə, gedəyin, Allah xatirinə. İtimi evdə qoymuşam, hə, mənim itim var axı, o mənim dostumdur, indi məni fikirləşir, səbirsizliklə məni gözləyir" [4, s. 63].

Qlan tənhalığı sevir, ağaclarla, otlarla, sadiq iti Ezopla danışmaq ona insanlarla ünsiyyətdən daha rahat gəlir. Dəniz sularının şırıltısını, quşların civiltisini dinləməyi insanların səsini duymaqdan üstün tutur, sanki ona baxıb ondakı əskikliyi görən gözlər istəmir: "Şadam ki, təkəm, heç kəs mənim gözlərimi görmür, mən qayalara sığınmışam, onlar mənim dayağımdır, arxayınam ki, heç kəs arxamda gizlənib məni güdmür" [4, s. 114].

Ümumiyyətlə desək, Qlan əsərdə tez-tez dəyişən duyğuları, gah yüksələn, gah da çökən əhval-ruhiyyəsi ilə yadda qalan bir obraz kimi verilir. Özünə güvənən və müstəqil bir fərd olmasına baxmayaraq, o, güclü ehtiras anları və eksiztensial tənhalıq meylləri də daxil olmaqla, duyğuların mürəkkəb qarışığını yaşayır, onun təbiətlə qarşılıqlı əlaqəsi, xüsusən də ovçuluğa və meşəyə olan heyranlığı onun tənha meylləri ilə insan əlaqəsinə dair ictimai gözləntiləri arasında ziddiyyət yaradır. Qlanın daxilindəki bu ziddiyyətlər onun qadınlarla olan münasibətində də özünü göstərir.

Əsərdə Qlanın Henriyeta adlı çoban qızla olan münasibətləri verilir. Qlanın Henriyeta ilə münasibəti dərin emosional əlaqədən çox anlıq şəhvani hisslərlə xarakterizə olunur. Henriyetadan fərqli olaraq, Qlanın Edvardaya qarşı hissləri daha dərin və güclüdür. O, Edvarda tərəfindən sanki ovsunlanır. Qlanın ona olan sevgisi romanın əsas mövzusuna çevrilir. Povestdə bu sevgi bəsit və ideal şəkildə təqdim olunmur, gərgin emosiyalar və psixoloji incəliklərlə seçilir, obrazların münasibətlərindəki çətinliklər və ziddiyyətlər təsvir olunur.

Qlan Edvarda ilə ilk dəfə sahildə - qayıqlar saxlanan sarayda tanış olur. Edvarda Qlanın çörək aldığı dükanın sahibi, tacir cənab Makın qızıdır. "Hündürboylu, ancaq hələ yetişməmiş, on beş-on altı yaşlarında məktəbli qız" [2, s. 10]. Qlanın diqqətini ilk tanışlıqdan cəlb edir. O, ikinci dəfə Edvardaya meşədə Edvardanın doktorla gəzintisi zamanı rast gəlir, hətta onları öz komasına dəvət edir. Edvardanın onun daxmasına ziyarəti Qlanı sevindirir, qızın baxışları onun ürəyini zərif bir mehribanlıqla titrədir. Toru yamamaq üçün sap istəmək bəhanəsi ilə Edvardanı görmək istəyir. Əvvəllər tələsən yeri, gözləyən kimsəsi olmadığı üçün külək kimi arxayın dolaşan Qlan "Düşünürəm ki, evə gedərkən doktorla yomfru (müraciət forması) Edvardanı gördüyüm yerdə birdən yenə kiməsə rast gələ bilərəm. Kim bilir, bəlkə onlar orada olacaqlar" [2, s. 23]. fikirləri ilə addımlarını yeyinlədir, qarşılaşarkən Edvardaya xoş görünmək üçün paltarlarını mamırdan və çör-çöpdən təmizləyir. Onları gördüyü yerə - meşənin kənarına çatanda heç kəsi görmədikdə məyus olur. Edvardanı görmə arzusu onu Sirilunda – Cənab Makın evinə getməyə vadar edir. O, bütün axşamı cənab Makın evində keçirir. Qlan onu bura gətirən qüvvəni dərk etmir. Özü fərqində olmasa da, Qlanı oraya aparan yeganə qüvvə Edvardaya qarşı bəslədiyi hissləri olur.

Əsərdə Edvardanın da Qlana qarşı müəyyən hisslər bəslədiyi bariz şəkildə görünür. O, hisslərinin ifadəsində Qlandan daha cəsur davranır, balıq qurudulan adaya səfər zamanı hər kəsin gözü önündə Qlanı öpür. Qlanın öz "mən"indəki, daxilindəki ziddiyyətlər onun Edvardaya şübhə ilə yanaşmasına səbəb olur. Öz-özünü daxilində dəyərli hesab etmədiyi üçün Edvardanın "Mən səni sevirəm" [4, s. 46], "Mən səndən başqa heç kimi düşünmürəm" [4, s. 49] sözlərinin səmimiliyinə inana bilmir, sanki özünü Edvardaya layiq görmür, qəlbinin dərinliklərində Edvardaya minnətdar olur: "Sən yaxşı qızsan, Edvarda, sağ ol ki, məni qovmursan, buna görə Tanrı səni mükafatlandıracaq. Bilmirəm məndə nə görübsən, axı ətrafda yetərincə layiqli adamlar var" [4, s. 49].

Əsərdə Edvarda xarakteri bir qədər kölgəlidir, onun əksər hərəkətlərinin arxasındakı motivlər izaholunmazdır. Belə ki, əsərdə Edvardanın tam olaraq nə istədiyi bəlli olmur. Onun Qlanı həqiqi hisslərlə sevib-sevmədiyini anlamaq mümkün deyil. Qlana qarşı dərin hisslər bəsləyən, hətta sevgisini etiraf edən ilk o olsa da, zaman keçdikcə Edvardanın hissləri dəyişir, Qlana etinasız yanaşır. Povestdə Edvardanın hisslərinin ani dəyişiminin səbəbi müəmmalı qalır. Bəlkə də, Qlanın şəxsiyyətindəki ziddiyyətlər, onun özünü tapa bilməməsi, hisslərini çatdırmaqdakı acizliyi, tez-tez ona görüşdüyü, tanış olduğu digər qadınlardan söz açması Edvardanın ona qarşı düşüncələrinin dəyişməsinə səbəb olur. Qısaca desək, Edvardadakı bu dəyişimin səbəbini aydınlaşdırmaq oxucunun öz ixtiyarına verilir.

Qlan Edvardanın əvvəlki kimi olmadığını anlayır, Edvardanın ona qarşı etinasızlığı Qlanda qısqanclıq hissləri yaradır, Edvardanı doktora və fin baronuna qısqanır. Edvarda sanki Qlanla "get, gəl" oyunu oynayır, bir hərəkəti ilə ona gah ümid verir, gah da ümidlərini puç edir. Edvardanın ona gah etina etməsi, gah da görməzdən gəlməsi Qlanda sönməkdə olan qısqanclıq hisslərini alovlandırır. Artur Şopenhauer "Eşqin metafizikası" adlı əsərində qısqanclıqdan danışarkən qısqanclığın qəzəb və işgəncə ilə dolu olduğunu, ehtirasla sevən insan üçün hər hansı bir rəqibə görə sevgilisini itirməyin səbəb olduğu acının bütün ağrılardan betər olduğunu bildirərək qeyd edir: " Bu ağrı transsendental ağrıdır və o, sevən şəxsə yalnız bir ağrı kimi təsir göstərmir, eyni zamanda onun xüsusi iradəsinə, bütün həyatına hücum edir" [6, s. 62].

Qlanın qısqanclığı onun iradi davranışlarına əngəl olur. Qısqanclığın yaratdığı qəzəb onun hərəkətləri üzərindəki şüurlu nəzarətini itirməsinə, affekt halı yaşamasına gətirib çıxarır. O, aqressiv cavab verərək Edvardanın başmağını suya atır, "Şikəst olsaydınız da, onun tayı ola bilməzdiniz. Sizin ona çatmağınıza hələ çox var" [4, s. 79] sözləri ilə onu doktordan aşağı görən Edvardaya cavab kimi tüfənglə özünü sol topuğundan vurur, fin baronunun ondan üstün görünməsi onu dəli edir, şüursuz hərəkətə yol verərək barona yaxınlaşır, nəsə pıçıldayırmış kimi ona sarı əyilərək qulağına tüpürür, sırf Edvardaya verməsin deyə öz sevimli və sadiq dostu hesab etdiyi iti Ezopu başından güllələyir.

Göründüyü kimi, Qlanın qısqanclığı əsərdə əhəmiyyətli bir elementdir. Onun qısqanclıq hissləri ilk növbədə mürəkkəb romantik münasibətdə olduğu Edvardanın ətrafında fırlanır. Qlanın qısqanclığı onun dərin emosiyaları və etibarsızlığı ilə qidalanır, gərginlik və qarışıqlıq anlarına səbəb olur. Povestdə Qlanın qısqanclığı timsalında qısqanclığın insanların qarşılıqlı münasibətlərinə necə təsir edə biləcəyi göstərilir.

Ümumiyyətlə, Qlan ziddiyyətli obraz kimi təsvir olunur və onun məhəbbətdəki qətiyyətsizliyi "Pan"dakı xarakterinin əsas cəhəti kimi verilir. Əsər boyu Qlan ziddiyyətli duyğularla boğuşur və Edvarda Mak ilə qəti seçim etməkdə tərəddüd edir. Onun qətiyyətsizliyi sevgi və insan münasibətlərinin mürəkkəbliyini əks etdirir. Bu qərarsızlıq Qlanın xarakterinə realizm qatı əlavə edərək, fərdlərin ürək məsələlərində tez-tez qarşılaşdıqları daxili mübarizələri əks etdirir.

Povestdə Qlanın ərli qadın olan Yeva ilə sevgi münasibətlərinin təsviri də verilir. Yeva Qlanın qayğısına qalan gənc qızdır. Onun leytenanta qarşı məhəbbəti incəlik və məsumluqla təsvir olunur. Qlanın Yeva ilə münasibətləri onun Edvarda ilə yaşadığı mürəkkəb və qarışıq sevgisi ilə ziddiyyət təşkil edir. Qlanın Yevaya olan məhəbbətinin təsviri povestə daha yumşaq və sentimental bir ölçü əlavə edərək insan əlaqəsinin müxtəlif cəhətlərini nümayiş etdirir.

Əsərdə Qlanın Yevaya olan sevgisi əsərin ağrılı tərəfidir. Qlan Yevanın ölümünə səbəb olur, onun məhəbbətdəki qətiyyətsizliyi Yevanın həyatının faciə ilə nəticələnməsinə gətirib çıxarır. Qlan Edvardadan fərqli olaraq səmimi duyğularla onu sevən və onun üçün hər şeyə qatlaşan, ona olan sevgisinin qurbanına çevrilən Yevanın sevgisinin lazımi qiymətləndirə bilmir. Onun Yevaya qarşı hissləri dərin məhəbbətdən yox, sadəcə ehtirasdan qaynaqlanır. O, Yevaya "Yalnız səni düşünürəm, Yeva" [4, s. 148] desə də, tək düşündüyü şəxs Edvardadır. O, yuxuda belə Edvardanı çağırır, onun adını səsləyir.

Ümumiyyətlə, Qlan şəxsiyyət pozuntularına sahib bir obrazdır. Eyni zamanda Qlanda bu şəxsiyyət pozuntularından qaynaqlanan hiperseksuallıq da mövcuddur. Qlanın müxtəlif qadınlarla ehtiraslı münasibəti, hətta yuxuda belə cinsi əlaqədə olması onda hiperseksuallığın, başqa adı ilə desək, kompulsif cinsi davranış pozuntularının olduğunu bir daha göstərir.

Əsərdə "Dundas-İzelina-Qlan" məhəbbət üçbucağı verilir ki, burada İzelina və Dundas xəyali obrazlardır. Məhz Qlanın yuxuda bu xəyali obrazla-İzelina ilə cinsi münasibətdə olmasının təsviri verilir. Qlanın İzelina ilə bu xəyali münasibətini avstriyalı nevroloq və psixoanalizin banisi Ziqmund Freydin nəzəriyyəsi ilə izah etmək məqsədə uyğun hesab edirik.

İlkin olaraq onu qeyd edək ki, Freydə görə şəxsiyyətin formalaşmasında üç instansiya – id (o), eqo (mən) və super eqo (super mən) əsas yer tutur. Freyd şəxsiyyətin inkişafının hərəkətverici mexanizmi kimi cinsi istəyi – libidonu götürür. İnsan psixikasını – "şüur", "şüuraltı", "şüurdan kənar" olaraq üç yerə bölən avstriyalı psixoloq şüurdan kənar ideyaları eyvana bənzədir. İnsan şüurunu isə otaq anlayışı ilə eyniləşdirir. Şüuraltını qaranlıq dəhlizə bənzədən Freyd bəzi ideyaların, arzuların və istəklərin otağa keçməzdən əvvəl qaranlıq dəhlizdən keçməli olduğunu qeyd edir. O, "Yuxu yozumu" adlı əsərində yuxuların şüuraltı arzuların ifadə olunma şəkli olduğunu bildirərək basdırılmış və sıxışdırılmış istəklərin yuxuda sublimasiya etdiyi fikrini irəli sürür. Deməli, Qlanın basdırdığı seksual istəkləri onun şüuraltısının məhsulu kimi yuxuda özünü təzahür etdirir.

Aclıq romanında olduğu kimi, bu povestdə də obrazın keçmişi bizə qaranlıq olduğu üçün Qlanda hiperseksuallığı yaradan əsas səbəblər bəlli olmur. Ancaq əksər psixoloji pozuntuların kökünün uşaqlıqda alınan travmalardan qaynaqlandığını nəzərə alaraq Qlandakı bu problemin də onun uşaqlığında və ya gəncliyində yaşadığı travmadan yarandığını demək mümkündür.

Nəticə. Nəticə olaraq deyə bilərik ki, əsərdə Qlanın xarakterindən göründüyü kimi "mən" problemi əsas yer tutur. Qlan öz şəxsiyyəti, istəkləri və münaqişələri ilə mübarizə aparır. Onun introspektiv təbiəti və ictimai gözləntilərlə mübarizəsi özünü kəşf etməyə kömək edir. Müəllif povestdə özünü kəşf etmənin mürəkkəbliklərini, fərdiyyətçiliyi və insanın əsl mahiyyətini axtararkən yaranan daxili ziddiyyətləri araşdırır.

Knut Hamsun insan həyatının axarını, onun günlük yaşamındakı təfsilatları, öz qəhrəmanlarının beynindəki düşüncələri, onların arzularını, vərdişlərini, maraq dairələrini həssaslıqla duymağı bacardığı kimi, incəliklə təsvir etməyi də bacarır. Odur ki, o, əksər əsərlərində olduğu kimi, bu povestində də istəkləri ilə cəmiyyətin tələbləri arasında uçurum olan, cəmiyyətin bir üzvü kimi özünə yer tapa bilməyən fərdin daxili aləmindəki disharmoniyanı, onun dəyişən duyğularını, sevgi ehtiraslarının köləsinə çevrilməsini, qəribəliklərini, gündəlik həyatında və insanlarla münasibətlərindəki konflikt və ziddiyyətləri dərin psixoloji təsvirlərlə göstərməyə nail olmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Knut Hamsun. XX əsr ədəbiyyatının ən ziddiyyətli klassiki. "Ulduz" jurnalı ilə ayb.az saytının birgə layihəsi. İlham Abbasovun təqdimatında// "Ulduz", Bakı, avqust, 2014. Səh 73-85
2. Knut Hamsun. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2006, 478 səh
3. KnutHamsun:Pan/https://www.worldliteratureforum.com/forum/index.php? threads/ knut-hamsun-pan. 7532/
4. Knut Hamsun. Pan. Bakı: Qanun, 196 s.
5. Psixologiya. Ali məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. Prof. S.İ. Seyidov və prof. M.Ə. Həmzəyevin redaktorluğu ilə. Bakı, 2007, 650 s.
6. Arthur Schopenhauer. Aşkın metafiziği. İstanbul, Bordo- siyah klassik yayınları, 2003, 96 sayfa

Key words: psychological realism, introspective nature, the problem of self, hypersexuality

Ключевые слова: психологический реализм, интроспективний характер, проблема с самим собой, гиперсексуальность

The problem of the self in Knut Hamsu's Pan narrative

Summary

In the article, the Pan narrative of Knut Hamsu, one of the founders of the movement that was formed as a new direction in European literature in the second half of the 20th century and manifested itself as a branch of postmodernist literature in recent times under the name of pschologism, was involved in a wide analysis. As in his other works, the events in this story are described in the hero's own language. Hamsun, who transferred the thoughts of his heroes from their own languages to paper, describes the psychological tensions experienced by Glan in the novel. In the article, the contradictions experienced by that hero within himself and with the society were taken as the main problem and analyzed from the psychological aspect.

Проблема личности в повествовании Кнута Хамсу «Пан»

Резюме

В статье рассматривается пан-нарратив Лнута Хамсу, одного из основателей движения, сформировавшегося как новое направление в европейской литературе во второй половине XX века и проявившего себя как ветвь постмодернистской литературы в последнее время под влиянием название психологизма, подверглось широкому анализу. Как и в других его произведениях, события в этой повести описаны на родном языке героя. Гамсун, перенесший мысли своих героев с их родного языка на бумагу, описывает психологическое напряжение, испытываемое Гланом в романе. В статье противоречия, переживаемые этим героем внутри себя и с обществом, взяты за основную проблему и проанализированы с психологического аспекта.

Rəyçi: Dosent Şəhla Qurbanova

Fərqanə Mahir qızı Qədimova[97]

KONSEPT LİNQİVİSTİK TƏDQİQAT MÜSTƏVİSİNDƏ

Dil insanın müxtəlif informasiya mənbələrindən özünəməxsus şəkildə istifadə edərək digər insanlara fikirlərini çatdırmaq üçün əsas vasitələrdən biridir. XX əsrin ikinci yarısından etibarən, insan faktorunun elmin hər sahəsində daha çox önəmli olması ilə birlikdə, yeni bir mərhələ başlamışdır. Fəlsəfə, məntiq, riyaziyyat kimi elmlərdə olduğu kimi, dildə də koqnitiv baxışın yaranmasına zəmin yaranmışdır. Psixi proseslərin geniş spektrından dünya modelinə, insanın düşünmə mexanizmindən məlumatın emalına qədər, bir sıra təfəkkür prosesləri dildə "koqnitivizm" terminin yaranmasına əsas olmuşdur. Qavrama və idrak sahələrində koqnivistika perspektivində yeni baxış açıları formalaşdırmaq mümkündür. Koqnitiv elmə isə koqnitiv psixologiya, mədəni antropologiya, süni intellektin modelləşdirilməsi, fəlsəfə, dilçilik, neyroelmlər və s. daxildir [1, s. 12].

Koqnitiv dilçiliyin əsas, baza termini konsept sayılır, buna görə də bu sahədə fikir irəli sürən araşdırmaların əksəriyyəti mütləq konsept anlayışına müraciət edir. Koqnitiv dilçilikdə əsas olan konsept anlayışı qərb alimləri və tədqiqatlarını qərb alimlərinin araşdırması əsasında aparan türkiyəli tədqiqatçılar üçün prioritet deyil, lakin rus tədqiqatçıları üçün isə bu hal əksinədir. Konsept termini Avropa, Amerika və dilçilik sahəsində qərb istiqamətli araşdırmalar aparan Türkiyədəki tədqiqatçılar üçün "qavram" termini ilə eyni qəbul edilsə də, rus dilçilər bu iki fenomeni tamamilə fərqli mövqedən izah etməyə çalışırlar [5, s. 1237].

Rus və Azərbaycan dilçiliyində aktual olan "konsept" termini dilçilik termini kimi deyil, ümumi anlayış kimi ilk dəfə XI əsrdə Anselm Kenterberili tərəfindən istifadə edilmişdir. Latın dilindən əlaqə, kod, sistem, anbar, hüquqi aktların imzası, cümlə kimi tərcümə olunan bu anlayış məntiqlə, şüur və təfəkkürlə bağlıdır [3, s. 126].

Konsept, orta əsrlər fəlsəfəsində realistlər və nominalistlər arasında yaranan "konseptualizm" fəlsəfi hərəkatında geniş istifadə olunmuş əsas terminlərdən biridir. Bu hərəkatın ən mühüm filosoflarından biri mötədil konseptualizm mövqeyində olan ilahiyyatçı P.Abelard idi. Onun fikrincə, konsept düşüncə ilə mövcud varlıqlar arasında körpü təşkil edən məntiqi-linqivistik kateqoriyalar kimi ortaya çıxır [7, s. 24].

Zamanla, konsept sözü termin olaraq dilçilik sahəsində istifadə olunmağa başlayanda məzmununda az-çox dəyişiklik olsa da, "məna", "anlam", "qavram" kimi öz ilkin mənasını bərpa edir.

Rus dilçiliyində bu termindən ilk dəfə istifadə edən S.A.Askoldov olmuşdur. 1928-ci ildə yazdığı "Konsept və söz" məqaləsində alim konseptə 3 fərqli yanaşmanın ola biləcəyini, ümumi anlamda isə hər birinin nəhayətində məzmun etibarilə "fikir forması" olduğunu qeyd edir [8, s. 30].

Mənşə etibarilə "conceptus" sözündən əmələ gələn bu termin bir çox sahədə işləndiyi kimi, dilçilik sahəsində də aktiv şəkildə işlənməsi uzun müddət sonra mümkün olmuşdur. Kökü "concipere" feilindən gələn "conceptus" sözünün mənası "təsəvvür etmək" deməkdir. Rus dilçiliyində bu termin öz çiçəklənmə dövrünü S.Stepanov və D.S.Lixaçev vasitəsilə XX əsrin 90-cı illərindən başlayaraq yaşayır. S.Stepanovun araşdırmaları nəticəsində yenidən canlanan bu anlayış elmə yenidən qazandırılmışdır. Stepanova görə konsept, bir fenomeni və onu əhatə edən xüsusiyyətlərin xülasəsidir. Bu mənada konsept, fərqli anlayışları və onu əhatə edən, daha çox məcazi şəkildə izah edilən qavramlardan ibarətdir [6, s. 2].

Şüurda fərqli əşya, hadisə və ya hər hansısa bir fenomenal hadisəni müxtəlif şəkildə kodlayaraq mücərrədləşdirilməsi və onu başqa qavramlarla müqayisə etmək üçün düşüncələri düzgün şəkildə ifadə edə bilmək üçün uyğun sözlərə ehtiyac duyulur. Konseptin dildə mövcud ola bilməsi üçün düşüncə ilə birlikdə bu məzmuna uyğun, onu xatırladacaq sözlərin dildə olması və işlənmə tezliyi əsas faktordur. Konsept və söz arasındakı münasibət koqnitiv dilçilikdə vacib bir problemdir. S.Q.Vorkaçev, A.P.Babuşkin, Q.Q.Slışkin və digər dilçilər konsepti sözlə eyniləşdirir və bildirirlər ki, söz konseptə, konsept də sözə bərabərdir. Konseptin söz olmadan ifadə edilməsi mümkün deyil, onu mütləq sözlə ifadə etmək lazımdır. Tədqiqatçılardan S.V.Kuzlyakin hətta söz və konsepti eyniləşdirir və konseptlərin leksemlərə daxil olduğunu, onların mənasının milli dil şüurunun məzmununu təşkil etdiyini bildirir [1, s. 137].

Konsept və söz arasındakı əlaqə sözdə çoxmənalılığın yaranma xüsusiyyətləri ilə oxşarlıq təşkil etsə də, tamamilə eyni deyildir. Hər hansısa bir konseptin formalaşma mərhələlərini aşağıdakı kimi şərh etmək mümkündür:

1. Yaddaşa əvvəlcədən olmayan yeni bir məlumatın ötürülməsi;
2. Yaddaşda əvvəlcədən mövcud olan bir məlumatı təsdiqləyərək qəbul etməsi;
3. Yaddaşda əvvəlcədən mövcud olan məlumatı mövcud gerçəkliklə uyğunlaşdıra bilməyərək silmək [4, s. 139].

Təkmənalılıqdan fərqli olaraq çoxmənalılıq leksik vahidi, istənilən bir assosiativ gerçəkliyi başqa mövcud olan reallıqla qovuşdurub, dinləyiciyə bir mənaya müxtəlif prizmadan yanaşmanı təqdim edir, əksinə, konsept isə fərqli anlamları ifadə edən sözlərin bir anlayış, qavram (konsept) ətrafında reallaşmasını özündə əks etdirir.

Sözlə konsept arasında müəyyən əlaqə mövcud olsa da, konseptin sözlə ifadəsi prinsip etibarilə zəruri deyil. Konseptlərin verballaşması təkcə leksemlərlə deyil, başqa dil vahidləri ilə də ola bilər. Müasir psixolinqivistik tədqiqatlarda dərketmə və verballaşdırma mexanizmi fərqli mexanizmlərdir [1, s. 137].

Əslində dildə təsnifləşdirmə fəaliyyətinin nəticəsi olan konsept mentallığın əsas vahididir. Konseptuallaşdırmanın nəticəsi kimi çıxış edən konsept ətraf-aləm haqqındakı biliklərin ümumiləşdirilmiş şəkildə mühafizə olunmasından seçilmiş

[97] Bakı Dövlət Universiteti, Türkologiya kafedrası, magistrant. E-mail: ferqane.qedimova@mail.ru

əlamətlərin fikri inikasıdır. Yaddaşın operativ məzmunlu vahidi olan konsept eyni zamanda həm mental leksikonun, həm də konseptual sistemin vahididir.

Beyində hissi obraz kimi yaranan konseptlər insan şüurunda sensor təcrübə, predmet fəaliyyəti, əqli əməliyyatlar, ünsiyyət və dil vahidlərinin mənasını anlama prosesləri ilə formalaşır [1, s. 72].

Koqnitiv dilçiliyin inkişafı rus, qərb, Azərbaycan, və türk dilçiliyində ciddi araşdırmalarla izlənmişdir. Bu sahədə əsas mənbələrdən biri olan konsept termini fərqli dillərdə müxtəliflik göstərə bilir. Rus dilçiliyində konsept termini S.A.Askoldov tərəfindən 1928-ci ildə işlənmiş, Lixaçev tərəfindən isə sistematik şəkildə bu termin araşdırılmışdır.

Avropa və Amerika dilçiliyində konsept və qavram anlayışları bir-birindən kəskin şəkildə fərqlənmir. Türk dilçiliyində terminlər ingilis mənbələrindən tərcümə olunduğu üçün "konsept", "kavram", "imge" terminləri bir-birindən fərqləndirilmir, əksinə, daha çox "kavram" terminindən istifadə olunur. Azərbaycan dilçiliyində isə terminlərin mənimsənilməsi daha çox rus dilindən tərcümə vasitəsilə olduğu üçün "konsept" termini eyni ad və məzmunla istifadə olunur.

Konsept mentallığın əsas vahidi kimi qəbul edilir və dil fəlsəfəsində, kulturologiyada və koqnitiv dilçilikdə əhəmiyyətli rol oynayır. Qavram və konsept terminləri araşdırma sahələrində fərqlilik göstərir. Konsept kulturologiya, linqvokulturologiya və koqnitiv dilçiliyin əsas ünsürü kimi qiymətləndirilir və müxtəlif yanaşmalara məruz qalır.

Z.D.Popova və İ.A.Sterninə görə, konsept sözünün ünsiyyət əsnasında öz mənası ilə çıxış etdiyi kimi, həm də hər hansısa bir məzmunun tərkib hissəsi olaraq, sözü ifadə edən şəxsin ümumi dünyagörüşünü və hər hansısa mövzu ilə əlaqədar ensiklopedik düşüncə səviyyəsini göstərən işarələr sistemini də əks etdirir. Mövzu ilə bağlı səsləşən sözlər tez şəkildə anlaşılmaya, ümumi məzmunla assosiativ bağlılıq qurulmaya bilər, amma bununla yanaşı bu fenomen fərdi ya da kollektiv təcrübənin nəticəsidir. Mədəniyyətin və şüurun təməl elementi olan konsept, insanın dünya haqqındakı bilgisini, təcrübəsini qoruyan, emal edilən, ötürülən dinamik və sərhədsiz çox ölçülü bir struktur kimi qiymətləndirilir.

Müasir rus dilçiliyinə nəzər saldıqda konsept anlayışına, onun termin kimi istifadəsinə, məzmununun izah edilməsinə üç baxış mövcuddur. Birinci baxışın əsas nümayəndəsi S.Stepanovdur. Bu baxışın nümayəndələri konseptə münasibətdə kulturoloji istiqamətə üstünlük verirlər. Konseptə bu cür baxış dilə ikinci dərəcəli, köməkçi vasitə kimi yanaşmadır. Bu baxışda mental sahənin əsas kulturoloji yuvası olan konsept bütün mədəniyyət konseptlərinin məcmusu və onlar arasındakı münasibətləri özündə cəmləşdirir. S.Stepanova görə hər hansısa bir konseptin, qavramın yaranma səbəbi insanların müxtəlif kulturoloji faktlara əlavə məzmun, məna yükləməsi və onun özlüyündə əsas mənadan uzaqlaşaraq fərqli vahid məna ifadə etməsi ilə formalaşır (Stepanov 2019). V.N.Teliya da konsepti insanın ruh və düşüncə dünyasının nüvəsi kimi qeyd edir və bildirir ki, kültür toplum arasında münasibət və konseptlərin vəhdətidir.

S.Stepanova görə konsept anlayış termini ilə oxşar mənalıdır, eyni zamanda anlayış həm də "mənanın həcmi" – konseptsfer termini ilə də yaxınlıq təşkil edir. S.Stepanov konseptin müxtəlif xüsusiyyətlərini belə ayırır: 1."Hərfi məna" ya da "daxili forma"; 2."Passiv" və "tarixi" qat; 3.Yeni, gerçək və aktiv qat; 4.Yenidən bərpaedilmiş prototip tərəfindən genetik olaraq şərtləndirilmiş çoxqatlı, mürəkkəb struktur; 5.Meta-pozisiya – sözlər və əşyalar üzərində "oynama"; 6.Koqnitiv sərhəd – mücərrədlik sahəsi [10, s. 1].

N.D.Arutyunova, A.D.Şmelov, T.V.Bulgina və digər müəlliflərin əsərlərində müşahidə olunan ikinci yanaşma, konseptin məzmununun formalaşmasında dil işarəsinin semantikasının əhəmiyyətini vurğulayır. Bu yanaşmaya görə, konsept koqnitiv semantikanın vahidi olaraq qəbul edilir.

Üçüncü qrup dilçilər isə konsepti sözün mənasından deyil, onun anlamı ilə insanın şəxsi və ümumi təcrübəsinin birləşməsindən yaranan bir struktur kimi görür. Bu yanaşmada olan dilçilər arasında D.S.Lixaçev, Y.S.Kubryakova kimi alimlər var.

Rus dilçilərinin araşdırmalarında bu üç yanaşmanın nəzərə alındığı və dil və mədəniyyət arasındakı sıx əlaqənin vurğulanaraq konseptlərin yaranması və formalaşmasında dilin rolunun müxtəlifliyinin qeyd edildiyi görülür [7, s. 26].

Psixolinqivistik yanaşma isə konsepti insan zehninin özünəməxsus qanunauyğunluğunda kortəbii şəkildə mövcud olan, təməl koqnitiv və emosional şüurun bir parçası kimi görməkdədir. Linqvopsixoloji aspektdən yanaşma isə konseptin yaranmasının gözlənilmədən baş verdiyini vurğulayır. Nəhayət, A.Vejbitskaya konsepti dünyada olan bir obyekt kimi görür. D.S.Lixaçov isə konsepti insanın yazılı nitqində işlətdiyi mənanın riyazi ifadəsi kimi qəbul edir. V.N.Teliya isə konsepti insan zəkasının məhsulu və buna görə də insanaxas fenomen kimi qiymətləndirir [2, s. 131].

S.Stepanov "yığılmış" və ya "ümumiləşdirilmiş" mətn kimi çıxış edən konseptlərin tam təsvir oluna bilməyəcəyini vurğulayır. Ona görə də, bütün mental konseptlərdə təsvirimizin yalnız müəyyən bir həddə qədər gedə biləcəyini vurğulayır. Bu həddən sonra isə təsvir etmək mümkün olmur və o reallıq sadəcə yaşanır [1, s. 85].

İ.Sternin konsepti metaforik meyvə şəklində strukturlaşdıraraq qeyd edir ki, konseptlərin tipləri məzmun və struktura görə fərqli olsalar da, hər bir konseptin baza layınının olduğunu göstərir. Müəyyən hissi obrazı ifadə edən baza layın üzərinə bəzən daha mürəkkəb konseptlər də, əlavə laylar da qalanır [1, s. 150].

S.Vorkaçev konseptin strukturunda anlayışlı tərtibçi, obrazlı tərtibçi və mənalılıq tərtibçi olan konseptin assosiativ xarekteristikasını – hissələrini qeyd edir.

Dünya mənzərəsinin nüvəsi olan konseptlə bağlı müxtəlif yanaşmalardan aydın olur ki, o, bircinsli olmayan, insanın dünyagörüşü sistemi ilə əlaqəli təsəvvürlərdən ibarət özünəməxsus düşüncələr dəstəsidir. Hər bir konsept çərçivəsində formalaşdığı kültür sisteminin izlərini öz üzərində daşıyır.

stifadə edilmiş ədəbiyyat

1. Rəcəbli Ə. Koqnitiv dilçilik. Bakı: Elm və təhsil, 2021, 304 s.
2. Fərzəliyeva A. Konsept koqnitiv dilçiliyin baza anlayışı kimi // Filologiya məsələləri, № 6, Bakı, 2020, s. 131-140

3. Şükürlü S. "Konsept" məfhumu və müxtəlif yanaşmalar // İpək yolu, № 4, Bakı, 2019, s.126-131
4. Doğan G. Anlamda dolaylılık // Dilbilim Araştırmaları, 1995, s. 138-151
5. Dohman Ü. Kuramsal yönleriyle bilişsel dilbilim // Uludağ Üniversitesi Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, 23(43), Uludağ, 2022, s. 1235-1259
6. Ангелова М. "Концепт" в современной лингвокультурологии // Сборник научных трудов, Выпуск 3, Москва, 2004, с. 3-10
7. Ардашева Т. Лингвокогнитивный анализ концепта "свобода" (на материале русского, английского и французского языков). Ижевск: УГУ, 2012, 210 с.
8. Аскольдов С.А. Концепт и слово // Сборники русская речь, Ленинград, 1928, с. 28-44
9. Степанов Ю. Константы: Словарь русской культуры: 3-е изд. Москва: Академический проект, 2004, с. 42-67
10. https://cyberleninka.ru/article/n/termin-kontsept-v-sovremennoy-lingvistike.pdf

Açar sözlər: Koqnitiv dilçilik, linqvopsixologiya, konsept, qavram, şüur
Ключевые слова: Когнитивная лингвистика, лингвистическая психология, концепт, восприятие, сознание
Keywords: Cognitive linguistics, linguistic psychology, concept, perception, consciousness.

Konsept linqivistik tədqiqat müstəvisində

Xülasə

İnsan psixikasında təcəssüm edən dünyanın bütün mənzərələrinin və yaddaşın operativ məzmunlu vahidi olan konsept məzmun etibarilə müxtəlif dilçilik məktəblərində anlam, qavram, anlayış terminləri ilə bəzən uyğunlaşa, bəzən isə uyğunlaşmaya bilir. Rus və onun əsasında formalaşan Azərbaycan dilçiliyində konsept anlayışı Amerika və Avropa və onun əsasında formalaşan Türk dilçiliyində də bir sıra termin fərqliliyi ilə özünü göstərir. Rus dilçiliyində konsept və anlayış, qavram terminləri bir-birindən fərqləndirilir. Mentallığın əsas vahidi kimi qəbul edilən konsept dildə təsnifləşdirmə fəaliyyətinin nəticəsidir. Konseptuallaşdırmanın nəticəsi kimi çıxış edən konsept ətraf-aləm haqqındakı biliklərin cəm halının mühafizə olunmasından seçilmiş əlamətlərin fikri təzahürüdür. Konsept insan şüuru kimi həm obyektiv, həm də subyektiv gerçəkliyi özündə birləşdirir və əks etdirir. Konseptin mahiyyəti, strukturu, təsnifatı ilə bağlı müxtəlif görüşlərin müqayisəsi nəticəsində belə qənaətə gəlmək mümkündür ki, onun ifadəsində müxtəlif termin fərqliliyi özünü göstərməsinə rəğmən məzmun etibarilə eyniyyət təşkil edir. Mürəkkəb koqnitiv vahid olan konsept müəyyən bir struktura malik olmaqla təfəkkür prosesində fəal rol oynayır.

Концепт в плоскости лингвистического исследования

Резюме

Концепт, представляющий собой единицу с оперативным содержанием всех представлений о мире и памяти, воплощенных в психике человека, в разных лингвистических школах может иногда совпадать, а порой и не совпадать с терминами значения, восприятия и понимания. Понятие концепт, сформированный на основе русского в азербайджанском языкознании, проявляется также в ряде терминологических различий в сформированном на основе американского и европейского в турецком языкознании.

В русском языкознании термины понятие и концепт, восприятие отличаются друг от друга. Концепт, принятый как основная единица ментальности, является результатом классификационной деятельности в языке. Концепт, выступающий как результат концептуализации, представляет собой мысленное проявление избранных признаков из совокупности знаний об окружающем мире. Подобно человеческому сознанию, концепт сочетает и отражает как объективную, так и субъективную реальность. В результате сравнения различных взглядов на сущность, структуру и классификацию концепта можно сделать вывод, что, несмотря на то, что разные термины обнаруживают свои различия в его выражении, по содержанию они одинаковы. Концепт, являющееся сложной когнитивной единицей, имеет определенную структуру и играет активную роль в мыслительном процессе.

The concept in the plane of linguistic research

Summary

The concept, which is a unit with the operational content of all representations of the world and memory embodied in the human psyche, in different linguistic schools can sometimes coincide and sometimes not coincide with the terms of meaning, perception and understanding. The notion of concept formed on the basis of Russian in Azerbaijani linguistics is also manifested in a number of terminological differences in formed on the basis of American and European in Turkish linguistics.

In Russian linguistics, the terms concept and concept, perception are different from each other. The concept, accepted as the basic unit of mentality, is the result of classification activity in language. A concept, acting as a result of conceptualisation, is a mental manifestation of selected features from the totality of knowledge about the surrounding world. Like human consciousness, a concept combines and reflects both objective and subjective reality. As a result of comparing different views on the essence, structure and classification of the concept, we can conclude that, despite the fact that different terms reveal their differences in its expression, they are the same in content. The concept, being a complex cognitive unit, has a certain structure and plays an active role in the thinking process.

Rəyçi: Fil.ü.f.d. dos. Sadıqova Sevda Muradxan qızı

Sevinc Rafiq qızı Ağaməmmədova [98]

QEYRİ-MÜƏYYƏN ƏVƏZLİKLƏR: LEKSİK-SEMANTİK VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏR

Qeyri-müəyyən əvəzliklər əvəzliklərin məna növləri içərisində özünəməxsusluğuna, obyektə münasibətinə görə seçilir. Bu əvəzliklər hər hansı əşya və əlaməti konkret şəkildə əvəzləmir, onların yalnız ümumi, qeyri-müəyyən əlamət və cəhətlərini ehtiva edir. Əşya və şəxsin ümumi şəkildə adını bildirir, ismin əvəzində işlənir, bəziləri cəm şəkilçisi qəbul etmir.

Qeyri-müəyyən əvəzliklər predmetlər, əlamətlər, miqdar və şəraitin qeyri-müəyyənliyini bildirir. Nitqdə onlar predmet sinfinə aid dominantlara uyğunlaşaraq, öz dominant xarakteristikalarını ən ümumi şəkildə bildirirlər. Azərbaycan dilində qeyri-müəyyən əvəzliklər bunlardır: kimi, kimisi, kimsə, hər kim, heç kim, hər nə, heç nə, biri, birisi, hər bir, hər biri, kəs, filankəs, hamı, hərə, hərəsi, hər hansı və s.

Əvəzliyin məna növlərinin bölgüsündə rast gəldiyimiz fikir ayrılığına, fikir müxtəlifliyinə qeyri-müəyyən əvəzliklərə münasibətdə təsadüf etmirik. Əvəzlik bir nitq hissəsi kimi dilçilər tərəfindən qəbul edildikdən sonra demək olar ki, yazılan bütün qrammatika kitablarında, türk dillərinin qrammatik quruluşuna həsr edilən əsərlərdə əvəzliyin, bu məna növü əksər dilçilər tərəfindən qəbul edilmişdir.

Qeyri-müəyyən əvəzliklərə münasibətdə bəzən fikir ayrılığına səbəb olan cəhətlər də vardır. Bəzi dilçilər: K.Maytinskaya, M.Yusifov və b. Qeyri-müəyyən əvəzlik adı altında ümumilik bildirən sözləri, təyin və inkar əvəzliklərini də vermişdir. Bu isə qeyri-müəyyən əvəzliyin spesifikasına cavab verməyən sözlərin hesabına bu həmin məna növünün süni surətdə genişləndirilməsinə gətirib çıxarır. Qeyri-müəyyən əvəzliklər,adından da göründüyü kimi, şəxsə və əşyaya münasibətin yalnız müəyyənlik və qeyri-müəyyənliyinə görə bölünür. Qeyri-müəyyən əvəzliklərə olan səhv münasibətlərin biri də bu əvəzliyin sırasına bir çox qeyri-müəyyənlik bildirən sözlər qeyd-şərtsiz daxil edilməsidir. Qeyri-müəyyən əvəzliklərin tutumunun dəqiqləşdirilməsində çətinliyə səbəb olan və dilçilərin fikirlərini yayındıran məsələlərdən biri də bu tipli əvəzliklərin ümumi qeyri-müəyyənlik kateqoriyasını yaratmaqda mühüm rol oynamasıdır. Qeyri-müəyyənlik kateqoriyası, sözün geniş mənasında, başa düşülməlidir. Bu kateqoriyanın sərhədini düzgün dəqiqləşdirmək üçün sözün əsl mənasında müəyyənliklə qarşılaşdırma aparmaq lazımdır. Çünki insan təfəkküründə müəyyənlik olmasa, ona nisbətən qeyri-müəyyənliyi təsəvvür və izah etmək olmaz. Bəzən qeyri-müəyyənliyi məntiqi kateqoriyalarla eyniləşdirirlər. Müəyyənlik və qeyri-müəyyənliyin insan təfəkkürü ilə bağlılığı şübhəsizdir. Lakin insan təfəkküründə olan hansısa xüsusiyyətlər öz ifadəsini qrammatik vasitələrlə təzahür etdirir. Qeyri-müəyyənlik məfhumuna iki cəhətdən yanaşmaq la- zımdır. Geniş ya dari mənada. Sözün geniş mənasında qeya müəyyənlik dedikdə dildə olan ümumi qeyri-müəyyənlik nəzərdə tutulur. Sözün dar mənasında qeyri-müəyyənlik dedikdə isə bu kateqoriyanın dildə ifadə vasitələrindən biri olan əvəzliyin qeyri-müəyyən məna növü dərk edilir.

Qeyri-müəyyənlik kateqoriyası dilimizdə zəngin ifadə vasitələrinə malikdir. Dilimizdə onun xüsusiyyətlərini ifadə etmək üçün bəzən morfoloji, bəzən sintaktik vasitələrdən də istifadə olunur. Bu kateqoriya həm leksik, həm morfoloji və həm də sintaktik vahid kimi bu iki sahənin bir-biri ilə daha qarşılıqlı əlaqəsinə kömək edir. Qeyri-müəyyənlik kateqoriyası ismin halları, say, əvəzlik, felin növləri, kəmiyyət şəkilçiləri, zərflər, sifət, söz birləşmələri, sadə cümlələr vasitəsi ilə ifadə oluna bilər. Bu saydıqlarımızdan da göründüyü kimi, qeyri-müəyyənlik kateqoriya- sının ifadə vasitələrindən yalnız biri əvəzliklərdir. Bunlardan (əvəzliklərdən) isə qeyri-müəyyənliyi ən çox ifadə edəni qeyri- müəyyən əvəzliklərdir. Belə dolaşıqlıq, yəni kateqoriya və onun ayrı-ayrı ifadə vasitələrin sərhədinin düzgün dəqiqləşdirilməməsi bəzi müəlliflərin qeyri-müəyyən əvəzlik olmayan sözlərin də bu sıraya daxil etməsi ilə nəticələnmişdir.

Əvəzlik haqqında yazılan maraqlı əsərlərdən biri də S.Hüseynovaya məxsusdur. Müəllif "hər" sözünü həm təyin, həm də işlənmə xüsusiyyətindən asılı olaraq qeyri-müəyyən əvəzlik adlandırır. Bizcə, bu söz üslubi məqamda qeyri-müəyyənlik bildirsə də, yenə də təyini əvəzliyidir. Bu o deməkdir ki, üslubi imkan sintaktik vəzifənin yeni şəraitdə başqa funksiyaya keçməsi sözün morfoloji bazisinin dəyişməsinə səbəb ola bilmir. Bizə elə gəlir ki, bir söz yalnız bir məna növünə, bir nitq hissəsinə aid ola bilər. Müəyyən şəraitdə qazandığı xüsusiyyət, onun funksiyasıdır. Buna görə də hər sözünün həm təyin, həm də qeyri-müəyyən əvəzlik adlandırılmasına əsas yoxdur.

"Bəzi" sözünə də münasibət müxtəlifdir. Bir çox əsərlərdə bu əvəzliyi təyin, digərlərində qeyri-müəyyən, üçüncülərdə isə həm qeyri-müəyyən, həm də təyin əvəzliyi, kimi göstərirlər. Bəzi sözündən əmələ gələn bəzisi, bəziləri substantivləşərək qeyri-müəyyən əvəzlik kimi çıxış edə bilir. Məs: Bəzisi yararsız hala düşmüşdü.Bəziləri müsabiqənin qalibi ola bilmədi. Bu həm də təyin əvəzliyinin substantivləşməsidir. İsmin morfoloji əlamətini qəbul etmişdir.

Qeyri-müəyyən əvəzliklər sırasına bəzən "bir adam, bir kişi, bir şəxs, hər kişi, hər yetən, hər kəs, hər insan" sözlərini də daxil edirlər. Biz bu tipli sözlərin I növ təyini söz birləşməsi şəklində formalaşdığını qəbul etməyin tərəfdarıyıq. Qeyri-müəyyənlik bildirmək cəhətdən isə I növ təyini söz birləşməsi şəklində olan bu tipli ifadələr ümumi qeyri-müəyyənlik kateqoriyasını ifadəçisi kimi çıxış edə bilir. M.İslamov mən-sən; məndən-səndən, onu-bunu, o-bu" sözlərinin qoşa işlənərək qeyri-müəyyən əvəzlik əmələ gətirdiyini qeyd edir. Lakin bu sözlər qeyri-müəyyənlik mənası bildirsələr də, qeyri-müəyyən əvəzlik deyildir. Bunlar qoşa işlənən şəxs əvəzlikləridir.

Nə sual əvəzliyi müxtəlif hal şəkilçiləri qəbul edərək qeyri- müəyyən əvəzlik kimi çıxış edir. Məs.: Dərədə gizlənən polkovnik nəyi isə xatırlayıb durduğu yerdə tir-tir əsir, dişləri bir-birinə dəyirdi (S.Vəliyev).

---

[98] BDU-nun magistrantı

Y.Seyidov kimsə, nəsə qeyri-müəyyən əvəzliklərini kim isə, nə isə əvəzliklərindən fərqləndirmiş və yazmışdır: "…kimsə, nəsə formaları ilə kim isə, nə isə formaları arasında həm zahiri, həm da mana baxımından ciddi fərq var. Kim isə, nə isə formaları iki sözdən ibarət olduğu halda, kimsə və nəsə sözləri bütövlükdə yeni forma, yeni məzmun olmuşdur və sadələşmişdir". Müəllif belə sözlərin mənaca bir-birini əvəz etmədiyini vurğulayır. Nə isə bu divarlar arasına düşmən içinə sizi tək buraxmağa qorxuram.

Hərə sözü istər Azərbaycan ədəbi dilində, istərsə də şifahi danışıq dilimizdə bol-bol işlənir. Onun klassik ədəbi dilimizdə də çox işləndiyini qeyd edən S.Əlizadə bu sözü təklik, yaxud hissə bildirən qeyri-müəyyən əvəzliyə daxil etmişdir. Qeyd etdiyimiz kimi, "hərə" qeyri-müəyyən əvəzliyi dildə çox işləkliyə malikdir.

Qalmalıyıqsa, hərə bir yana qaçıb başını qurtarsın.

Bu sözün mənsubiyyət şəkilçisi qəbul edərək qeyri-müəyyən əvəzlik kimi çıxış etməsi maraqlıdır. Hərə sözü mənsubiyyət şəkilçisini aşağıdakı vəziyyətdə qəbul edir.

I şəxs tək – I şəxs cəm hərəmiz

II şəxs tək – II şəxs cəm hərəniz

III şəxs tək hərəsi – III şəxs cəm

Yuxarıdakı dəyişmədən görürük ki, "hərə" qeyri-müəyyən əvəzliyi I, II şəxsin təki, III şəxsin cəminin mənsubiyyət şəkilçisini qəbul edə bilmir.

"Hərə" qeyri-müəyyən əvəzliyi ismin bütün hal şəkilçilərini qəbul edə bilir: hərənin, hərəyə, hərəsini, hərədə, hərədən.

Mənsubiyyət şəkilçisi qəbul etdikdən sonra da "hərə" qeyri- müəyyən əvəzliyi hallana bilir: hərəsinin, hərəmizə, hərənizidə, hərəsindən, hərəmizdə

Hamı əvəzliyi özünün ilkin leksik-semantik mənasına görə ümumilik bildirir. Tarixən təyin əvəzliyi kimi çıxış etsə də, dilin indiki inkişaf mərhələsində ümumiləşdirici söz kimi çıxış edir. Artıq ümumiləşdiricilik bildirmək xüsusiyyəti təyinediciliyi üstələmişdir. Əvvəlki mənasından uzaqlaşaraq toplu və ümumilik mənasına xidmət edir. Bizə belə gəlir ki, bu əvəzliyi qeyri-müəyyən əvəzliklərin sırasında vermək daha məqsədəuyğundur.

Çoxu, çoxusu qeyri-müəyyən əvəzliyi də çoxluq, həm də qey- ri-müəyyənlik ifadə edən sözdən əmələ gəlir; həm əşya, həm də şəxs bildirir. Bu əvəzlik də biri, birisi qeyri-müəyyən əvəzliyi kimi hallanır, lakin mənsubiyyət və cəm şəkilçisi qəbul edə bilmir. Çoxu əvəzliyi mənsubiyyət şəkilçisindən əvvəl kəmiyyət şəkilçisi qəbul edə bilər: çoxları.

Kim isə. Bu qeyri-müəyyən əvəzlik "kim" sual əvəzliyi və isə sözünün yanaşı işlənməsi nəticəsində əmələ gəlir. Kim isə qeyri-müəyyən əvəzliyində birinci hissə hallanır, isə sərbəst işlənir, o hallanmır, kim sözünə qoşularaq qeyri-müəyyən əvəzliklər yara da bilir.

A. Kim isə

Y. kimin isə

Yön. Kimə isə

T. kimi isə

Yer. Kimdə isə

Ç. Kimdən isə

… filosof kimi hərəkətinə baxaraq, fikrə dalırkən, həyətdən kim isə çox həzin bir səslə oxuyur. (C.Cabbarlı)

Kimsə. Kim sual əvəzliyi isə sözünün qısaldılmış forması ilə işlənərək "kimsə" qeyri-müəyyən əvəzliyini əmələ gətirir. "Kimsə" qeyri-müəyyən əvəzliyi "kim isə" formasından daha çox işləkdir. Müasir dildə çox işləndiyi kimi tarixən də ədəbi dildə çox işlək olmuşdur. Heç kəs əlini işə vurmayacaqdır, kimsəni də buraya buraxmayacağıq, vəssalam (C.Cabbarlı)

Hamı, **hamısı** qeyri-müəyyən əvəzliyini bəzən ümumiləşdirici, bəzən təyin, bəzən isə həm təyin, həm də qeyri-müəyyən əvəzliyə aid edirlər. Bizə belə gəlir ki, hamı sözü qeyri-müəyyənlik bildirir və bu qeyri-müəyyənlikdə bir ümumiləşdirmə qabiliyyəti də vardır. Hamı sözü təyin əvəzliyi kimi işlənərək konkretləşdirmə, təyinetmə bacarığına malik deyil. Bu söz bəzən həmcins üzvlərdə işlənir. Bu zaman qeyri-müəyyən əvəzliklərdə olduğu kimi özündən sonra izahedici, konkretləşdirici sözlər qə bul edə bilir. Bu qeyri-müəyyən əvəzlik hallanır, mənsubiyyət və kəmiyyət şəkilçilərini məhdud şəkildə qəbul edə bilir, ancaq cəm şəkilçilərini qəbul edə bilmir. Dialektlərdə bəzən bütün sözünün sinonimi kimi işlənir, bu zaman o qeyri-müəyyənlikdən çox təyin əvəzliyinə yaxınlaşır. Ədəbi dildə isə bu şəkildə işlədilmir.

İstifadə edilmiş ədəbiyyat

1. Cabbarlı, C. Əsərləri 4 dörd cilddə, II cild, Bakı: Şərq-Qərb, 2005, 360 s.
2. Hüseynzadə, M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı: Şərq-Qərb, 2007, 280 s.
3. Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Elm və Təhsil, 2010, 399 s.
4. Xəlilov, B. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı: Elm, 2007, 354 s.
5. Xəlilov, B. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı, 2016, 352 s.
6. Şahbazova, Z. Azərbaycan dilində əvəzliklər. Bakı: Ulu, 2007, 334 s.

Açar sözlər: Əvəzlik, qeyri-müəyyən əvəzliklər, hamı, hərə, kimsə, nəsə, çoxu

Key words: Pronouns, indefinite pronouns, everyone, every, someone, something, most

Ключевые слова: Местоимение, неопределённые местоимения, каждый, каждый, кто-то, что-то, большинство

Qeyri-müəyyən əvəzliklər: leksik-semantik və morfoloji xüsusiyyətlər

Xülasə

Məqalədə Azərbaycan dilçiliyin də əvəzliyin məna növlərindən biri olan qeyri -müəyyən əvəzliklərin leksik semantik xüsusiyyətləri nəzərdən keçirilir. Qeyri-müəyyən əvəzliklər cümlə daxilində ümumi məna kəsb edərək əşyanı

ümumi, qeyri -müəyyən şəkildə özündə ehtiva edir. Qeyri-müəyyən əvəzliklər predmetlər, əlamətlər, miqdar və şəraitin qeyri-müəyyənliyini bildirir.Belə əvəzliklərə hamı, hərə, bəzi, çoxu, hər kəs, hər nə, bütün və s.

Qeyri-müəyyən əvəzliklərə münasibətdə bəzən fikir ayrılığına səbəb olan cəhətlər də vardır. Qeyri -müəyyən əvəzliklərin ifadə vasitələrin sərhədinin düzgün dəqiqləşdirilməməsi bəzi müəlliflərin qeyri-müəyyən əvəzlik olmayan sözlərin də bu sıraya daxil etməsi ilə nəticələnmişdir.

Indefinite pronouns: lexical-semantic and morphological features

Summary

In the article, the lexical semantic features of indefinite pronouns, which are one of the meaning types of pronouns in Azerbaijani linguistics, are considered. Indefinite pronouns have a general meaning within the sentence and contain the object in a general, indefinite way. Indefinite pronouns indicate the uncertainty of objects, signs, quantity and conditions.

Indefinite pronouns are sometimes controversial. The fact that the boundary of the means of expression of indefinite pronouns is not correctly defined has resulted in some authors including words that are not indefinite pronouns in this order.

Неопределенные местоимения: лексико-семантические и морфологические особенности

Резюме

В статье рассматриваются лексико-семантические особенности неопределенных местоимений, которые являются одним из смысловых типов местоимений в азербайджанском языкознании. Неопределенные местоимения имеют общее значение внутри предложения и содержат объект в общем, неопределенном виде. Неопределенные местоимения указывают на неопределенность предметов, признаков, количества и условий.

Неопределенные местоимения иногда вызывают спор. Тот факт, что границы средств выражения неопределенных местоимений не определены правильно, привел к тому, что некоторые авторы включают в этот порядок слова, не являющиеся неопределенными местоимениями.

RƏYÇİ: dos. S.ASbbasova

Кулиева И.Л., Садыхова М.М.

МЕТОДИЧЕСКИЕ ПОЛОЖЕНИЯ, РАСКРЫВАЮЩИЕ КАТЕГОРИЮ КОММУНИКАТИВНОСТИ

В современной педагогической литературе вопрос о выделении ведущей категории рассматривается в качестве особо важного и перспективного.

Теория - это система научного знания, описывающая и объясняющая некоторую совокупность знаний и сводящая открытые в данной области закономерные связи к единому объединяющему началу.

Таким объединяющим началом выступает коммуникативность. Коммуникативность предполагает, что содержание обучения ориентировано на общение и потому определяется не грамматикой, а природой самого общения. Общение же включает аспекты культуры, личности и общества, речевого поведения носителей языка, процессов, имеющих место припередаче и восприятии высказываний.

Коммуникация - это все то, что говорящие и пишущие могут означить, а слушащие и читающие понять и соответствующим образом отреагировать. К ней относится передача и получение информации, установление контактов, воздействие на собеседника и т.д., Главным средствам коммуникации выступает язык; другие средства (жесты, мимика, телодвижения и др.) играют дополнительную роль.

Тот факт, что коммуникативная направленность учебного процесса есть главная ведущая тенденция методики наших дней вряд ли сейчас является спорным. Эта тенденция родилась не сегодня и не вчера, попытки приблизить процесс обучения по его характеру к процессу коммуникации предпринимались давно и были чрезвычайно полезны, ибо развили у преподавателей и обучающихся вкус к коммуникативному обучению.

Важнейшими методическими положениями являются следующие:

– практический характер целей и учет их типологии в обучении;

речевая направленность учебного процесса;

– функциональный подход к отбору и организации языкового материала;
– ситуативно-тематическое представление учебного материала;
– изучение лексикологии на синтаксической основе;
– концентрическое расположение учебного материала и этапность в обучении.

Факторами, определяющими сущность этих положений являются: цели обучения иностранному языку, речевая деятельность, взаимодействие изучаемого языка с родным языком учащихся.

Содержание и сущность этих положений подтверждается критическим научным анализом многовекового опыта обучения языкам.

В наших условиях, т.е. в условиях языковой среды основные цели и задачи - дать учащимся возможность владеть русским языком настолько, чтобы они могли с первых шагов начать изучение своей специальности, чтобы свободно общались на русском языке, могли понимать лекции, могли читать специальную литературу и в дальнейшем писать курсовые дипломные работы. Естественно, что такого рода широкие цели определяют содержание и саму организацию работы в обучении русскому языку, уточняютпромежуточные цели на каждом из этапов обучения.

Практика показала, что при изучении материала, нужного для расширения представления о системе изучаемого языка, учащиеся не ощущают роста умений и навыков, если преподаватель увлекается такими приемами как исторические экскурсы, теоретизированными объяснениями студенты теряют интерес к языку, начинают воспринимать его не как средство общения, а как собрание правил и изолированных слов.

Конкретные цели обучения, связанные с определёнными видами речевой деятельности, подчиняют себе разные стороны учебного процесса, включая используемый учебный материал. Если работа на уроке согласована с целью, ради который учащийся сел за парту, она плодотворна и интересна. Успех выпадает на долю тех учителей, которым удается наиболее глубоко осознать цели обучения и найти эффективные пути к их достижению.

Речевая направленность учебного процессапредполагает активное использование языка в целях общения, письменного и устного обмена знаниями, мыслями, информацией и т.д. Она же обеспечивает развитие практических навыков владения русским языком в различных целях и повышение интереса учащихся к предмету «русский язык как иностранный». Речевая направленностью - это такой путь обучения, при котором лексические, грамматические и фонетические навыки формируются параллельно с речевыми навыками и коммуникативными умениями, ориентируют учащихся на включение в непосредственный акт общения между собой (или с преподавателем). Именно поэтому, реализуя принцип речевой направленности, педагоги, авторы учебников стремятся освободить учебные материалы от избыточной, ненужной теории. Например, изучение глаголов движения и форм падежей существительных в значении направления проводится по вопросам (куда? откуда?) в теме «Транспорт» («поход», «поездка» и т.д.).

Коммуникативная направленность выдвигает на первый план функциональность описания языка. **Функциональный подход к отбору и организации языкового материала** предполагает использование в практике обучения неродному языку такой организации обучения языковым средствам, при которой в центре внимания оказываются особенности их функционирования во взаимодействии с элементами разных уровней, участвующими в передаче смысла высказывания.

Функциональный подход учитывает реальность при изучении второго языка: у учащихся есть намерение мысли, чувства, переживания, которые он хотел бы выразить, и которые уже привык выражать на родном языке, но пока не знает, как это можно сделать, как сказать по-русски. И принцип «от содержания - к форме выражения» поможет осуществить выбор необходимых речевых средств.

Например, с помощью каких средств можно ответить на вопрос «где?» - определить местонахождение предмета или пребывание лица (в институте, на улице, в магазине; на уроке, на семинаре). Как мы ответим на вопрос «какой?» Какой словарь? - Русско-английский; Какая улица? - Проспект Н.Нариманова; Какая книга? - «Герой нашего времени».

В грамматике, построенной таким образом не дается парадигматических рядов определённых частей речи (Им.п.стол, Род.п. стола…, Им.п. я, дат.п. мне и т.д.) а строятся ряды различных форм объединенных одним значением. (Например, значение времени (в час, в субботу, зимой, вечером, на прошлой неделе) и т.д. Таким образом осуществляется функциональное представление грамматических явлений (от функции грамматического явления к форме его выражения).

Способ и подача грамматического материала диктуется, с одной стороны, грамматической сочетаемостью различных частей речи, с другой стороны, требованием обслужить определенную тему (ситуацию).. Например, переходные глаголы сочетаются с винительным падежом имени существительного и местоимение в значении прямого объекта действия (вижу брата, тебя, почту; покупаю ручку, карандаш, молоко;пишу письмо, статью, рассказ) Или семантическая группа глаголов мысли; речи сочетается с предложным падежом с предлогом «о» и изъяснительным придаточным предложением (рассказываю о брате, что брат учится в школе, как я учусь и т.д.), глаголы движения в сочетании с винительным падежом естественнее всего обслуживают тему «Транспорт», «Путешествие». Это обстоятельство дает возможность таким образом упорядочить темы, чтобы одно грамматическое явление довольно долго оставалось в поле зрения учащегося, не перемежались с другими формами имени, не смешивались с ними. Это помогает лучшему усвоению данной грамматической темы.

Таким образом, функциональный подход к отбору материала сводится к выделению важнейших сфер коммуникации, которые определяют установление коммуникативных потребностей, типов речи, отражающихся в определенных речевых интенциях, (намерениях, замыслах); действиях, текстах. Именно поэтому в практических курсах русского языка для иностранцев **не соблюдается** линейное расположение уровней языка (фонетика - морфология- синтаксис), классов слов (существительное - прилагательное…) и грамматических значений (Им.п., Род.п., Дат.п. и т.) инфинитив глагола - прошедшее время - настоящее - будущее) и т.д.

В одном уроке могут объединяться разно - аспектные грамматические явления. Так, для констатации факта. «Он хорошо говорит по-русски», - необходимо вовлечь в одновременное изучение категории местоимения, глагола и наречия.

Следовательно, очередность изучения языковых фактов, их выбор, группировка и объяснение подчиняются требованиям практического общения.

Неизбежная разрозненность вроде бы мешает увидеть упорядоченную и обобщенную систему языка. Это противоречие преодолевается выделением в учебном процессе специальных этапов обобщения, формами которых выступают повторительные уроки, уроки-обобщения, сопроводительные и систематизирующие курсы грамматики.

Ситуативно-тематическая организация учебного речевого материала - одно из существенных применений категории коммуникативности.Автоматизация речевых навыков и коммуникативных умений происходит быстрее, легче и увереннее, если процесс овладения языком максимально приближен к реальной коммуникации. Естественная речь осуществляется в конкретной обстановке - ситуации общения, типы высказываний вызываются определенным ситуациями. Характер ситуации (место, время, отношения собеседников и пр.) определяет цель высказывания, выбор языковых средств, эмоциональную окраску, «провоцирует» форму и тип речи, содействует развитию содержательного общения на чужом языке.

Ситуативность необходима также и как способ речевой стимуляции, и как условие развития речевых умений с присущими им целенаправленностью, продуктивностью.

Из-за исключительной роли ситуативности перед преподавателем постоянно стоит задача создания на уроках атмосферы непринуждённого общения, собеседования, обмена мнениями. Действительность в учебных ситуациях должна быть воссоздана таким образом, чтобы стимулировать личностные высказывания учащихся, выражать их собственное «я», поэтому в состав грамматического материала уже начального этапа обучения включаются единицы, не составляющие основное, типовое в системе русского языка. Это прежде всего предложения типа: «Сколько стоит билет?», «Мне двадцать лет»», «У меня болит зуб», «У меня есть словарь» и т.д. И многочисленные слова, широко употребляемые в речевом общении:: «Спасибо», «Пожалуйста», «Ничего», «Спокойной ночи» и т.д.

На начальном этапе такой материал рассматривается как единичное явление, подлежащее запоминанию целиком или с вариациями одного члена («Мне 20 лет», «Ему 20 лет», «У меня нет словаря (книги)», подобно тому, как запоминаются отдельные лексические единицы. И только на продвинутом этапе обучения они войдут в определенную грамматическую систему. Так как же, каким образом установить (и преподать) связи между типом

ситуации и предметом коммуникации, с одной стороны, и работой над средствами их языкового оформления, - с другой.

Этому способствует изучение лексики и морфологии на синтаксической основе. Коммуникативность проявляется в таком членении и представлении языкового материала, которое адекватно применению языка в жизни.

Законченная мысль воплощается в предложении; в нем и через него оживают, обретают силу слова и формы, становясь коммуникативными. То, что слова несут конкретную, коммуникативную информацию, лишь, будучи включенными в предложение, можно показать на следующем примере: « преподаватель, урок, вести». В таком порядке и представлении они не передают никакого сообщения. Если же мы их перестроим: «Преподаватель ведёт урок», то получим коммуникативно ценное предложение. Сперва рассматривается общая коммуникативная установка высказывания, затем особенности его структуры, сперва синтаксические роли (функции), в частности «синтаксис падежей» а затем их морфологическое выражение с помощью тех или иных окончаний. В этой градации последовательностей нашло свое отражение и понимание предложения как минимальной единицы обучения.

Такое методическое решение базируется на реальности того, что из всех уровней языка (фонетика, морфология, лексика, синтаксис), синтаксис непосредственно связан с процессом коммуникации, а другие уровни принимают участие в процессе коммуникации только с его помощью, т.е. лексика и морфология становятся значимыми лишь при условии «выписывания» их в семантико-синтаксические структуры.

Встречаясь с грамматикой, лексикой в действии с высказываниями, учащийся приобретает способность автоматически воспроизводить нужную форму в нужном контексте.

Таким образом, пользование языком возможно именно тогда, когдадостоянием учащегося становятся отдельные формы слова, словосочетания, типы предложений, непосредственно и органично связанные с фрагментом действительности, ими обсуждаемым и важным для коммуникативных нужд учащихся.

Преподавать такой сложный предмет как язык суммарно невозможно. Овладение им может быть успешным лишь в том случае, если учебный материал предварительно подвергнется распределению на последовательные стадии и разделы в рамках полного курса обучения. **Это распределение** конечных и промежуточных **целей и** разнородного по характеру **учебного материала осуществляется** применительно к учебному предмету «Русский язык как иностранный» **в концентрах и этапах обучения**. Число выделяемых концентров и этапов зависит от целеустановок. Так, в вузовском курсе обучения русскому языку иностранцев выделяют начальный, основной и продвинутый этап обучения.

Принципиально важен в обучении начальный этап. Он закладывает основы языкового знания, меньше всего подвергается влиянию конечной цели изучения языка, он не зависит от специализации студентов. Этот этап требует особо строгого отбора учебного материала, тематики, речевых образцов, лексики и их расположения, последовательности, повышенного внимания к упражнениям, обеспечивающим активные навыки устной и письменной речи, чтения и письма при минимальном количестве необходимых слов.

Методически неправомерно выделять начальный этап через временные рамки. В какие сроки будет достигнута цель зависит от качества учебника, условий обучения, индивидуальных способностей учащихся, мастерства преподавателя и пр. Концентризм предполагает повторение знакомой лексики в новых тематических текстах. Иное дело, когда в связи с совершенно новой темой вводится определенное количество новой лексики, без которой по данной теме коммуникация невозможна.

Концентрическое введение учебного материала - от элементарного к более сложному, от легкого к трудному, от уже усвоенного к новому, неизвестному-позволяет учащемуся с первых же шагов обучения строить живые русские фразы, начиная с элементарных и действуя по принципу их развёртывания. В рассмотренном методическом положении реализуется и сочетание тренировки с речевой практикой. Малый объем учебного материала компенсируется увеличением количества комбинаций.

На сегодняшний день в преподавании русского языка как иностранного существует ряд требований:

– изучать язык значит овладевать техникой языковой коммуникации, а не приобретать знания о языке;

– в обучении обязательно достигается единство аспектного и комплексного подходов, вовлекаются пояснения, обобщения и комментарии лингвистического и социокультурного, страноведческого характера;

– путь к овладению техникой языковой коммуникации лежит через упражнения в разных видах речевой деятельности, а не через зазубривание слов, парадигм и грамматических правил;

– обучать надо тому языку, на котором говорят его носители, а не некоему «учебному жаргону»;

–устной речи надо обучать с помощью звуков, а не через посредство письма, практиковаться прежде всего в говорении и слушании;

– вся программа обучения строится с возможно более полным учетом соотношения изучаемого и родного языка учащихся.

Выполнение этих требований ставит целью:

1) понимание живой иностранной речи;

2) умение вести на иностранном языке несложную беседу;

3) умение самостоятельно читать современную иностранную книгу средней трудности литературного или научно-популярного содержания и общее ознакомление с духовной жизнью и культурой народа, язык которого изучается.

Литература:

1. Колшанский Г.В. Проблемы коммуникативной лингвистики// Вопросы языкознания. М., 1979, №2
2. Рейнмакова Л. Коммуникативные упражнения по синтаксису русского языка. Практикум, 1981
3. Вятютнев М.Н. «О методах обучения языком». Русский язык в национальной школе», 1970, №6
4. Багрецов В.Н. «Некоторые принципы отбора учебного материала для обучения на иностранном языке с позиций структурно-коммуникативного подхода». «Вопросы лингвистики и методики преподавания иностранных языков», Свердловск, 1970
5. Реферовская Е.А. «Коммуникативная структура текста в лексико-грамматическом аспекте». Л., 1989
6. Пассов Е.И. «Основы коммуникативной методики обучения иноязычному общению». М., 1989

RƏYÇİ:dos.L.Ələkbərova

Ruhəngiz Abıyeva [99]

AZƏRBAYCAN ƏDƏBİYYATINDA ALLEQORİYA VƏ JANR XÜSUSİYYƏTLƏRİ (Q.Zakirin yaradıcılığı əsasında)

Alleqoriya və təmsillərin ilk nümunələri eramızda yeddi əsr əvvəl Assuriya-Babildə yaranmış həkim Axikar haqqında olan Assuri dastanındakı təmsillər, sonra qədim Yunanıstana sirayət etmiş və məşhur Ezop alleqoriya və təmsillərində daha çox şöhrət qazanmışdır. Eramızdan 5-6 əsr əvvəl qədim yunan təmsilçisi ləqəbini alan Ezop bir çox alleqoriya və təmsillərin müəllifi hesab edilir. Onun təmsilləri kəskin satirik məzmun daşıyaraq eyni zamanda nəsihətamiz - didaktik məzmuna malik olmuşdur. O, fikirlərini məcazi, üstüörtülü eyhamla ifadə etsə də, əslində, insanlar arasında mövcud olan münasibətləri, cəmiyyətin hakim və məhkum təbəqələri arasında olan ziddiyyətləri açıb göstərmişdir.

Sonralar, eramızın I əsrində yaşayıb-yaradan Latın şairi Fedr özünün yazdığı təmsillər haqqında belə deyir: "Ezop təmsil üçün ən adi şeylərdən istifadə etmiş və ağıllı məsləhətlərlə yaxşı yaşamağı təbliğ etmişdir. Mən isə heyvanları və ağacları da nitqləndirib onların vasitəsilə həm güldürdüm, həm də düşündürdüm. Təmsilləri yazanım kim olduğunu axtarmaqdansa, onların əsl mənasını dərk etmək lazımdır" [1, s. 4].

Qoca Şərq də dərin məzmunlu alleqoriya və təmsil yaratmaqda Avropadan geri qalmadığı aydın görünürdü. Eramızın əvvəllərində Qədim Hindistanda yaranan məşhur "Pançatantra"nın (Beşlik) bütün Yaxın və Orta Şərqdə səs salması buna sübut ola bilər. Əsərdə maraqlı rəvayətlər, heyvanların dilindən söylənən hikmətli sözlər öz əksini tapmışdır. Həmin rəvayət və sözlər Sasani imperiyasında "Kəlilə və Dimnə" əsəri vasitəsilə yayılmışdır. Onu qeyd edək ki, əsər ərəb, latın, alman, rus, ingilis və başqa dillərə tərcümə edilmiş, eyni zamanda İranda "Ənvari-Süheyli", Türkiyədə "Himayunnamə" adı ilə şöhrət qazanaraq məzmunu hər xalqın öz ənənə və zövqünə uyğun olaraq yeni rəvayət, təmsil və hadisələrlə zənginləşdirdi. Daha sonralar "Kəlilə və Dimnə" əsərinin bir çox hekayət, rəvayət və təmsilləri məşhur "1001 gecə" və "Tutinamə" abidələrinə köçürüldü.

Alleqoriya və təmsil janrının ən azı 2500 illik tarixə malik olduğunu nəzərə alaraq onu da vurğulamaq lazımdır ki, təsiri Yaxın və Orta şərq klassiklərinin əsərlərindən də yan keçməmişdir. Bu təmsillər Sənan Qəznəvi (XI əsr), Əttar Nişaburi (XIII əsr), Cəlaləddin Rumi (XIII əsr) kimi bir çox fars dilli şairlərə qida vermişdir. Həmçinin Xaqani Şirvani, Nizami Gəncəvi, Füzuli, Qasımbəy Zakir, Abbasquluağa Bakıxanov, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Abdulla Şaiq kimi bir sıra Azərbaycan mütəfəkkirlərinin bu janrdan istifadə etdiklərinin şahidi oluruq. Məhz buna görədir ki, əksər xalqların təmsil janrları çox zaman eyni sujetə müraciət edərək bir-birinə bənzəyən səyyar təmsillər yaratmışlar. Tədqiqatlara əsasən, belə hesab edə bilərik ki, alleqoriya və təmsil ədəbi janrlar içərisində ən çox səyyar mövzulardır. Bütün xalqların yaratdığı təmsillərdə tülkü-hiyləgər, canavar-qaniçən, zalım, ayı -axmaq, dovşan - qorxaq, qarğa - ziyankar kimi qələmə verilməsi bunun bariz nümunəsidir. Müasir cizgi filmlərində də bu motivlər müəyyən dəyişiklərlə öz əksini tapmışdır.

Bir sıra mənbələrdə alleqoriya - məcazi ifadə növlərindən biri kimi dəyərləndirilir. Eyni zamanda alleqoriyanın simvola oxşadığını, aralarında yaxınlıq olduğunu da qeyd edənlər var. Alleqoriya müstəqil bir əhəmiyyət daşımayan və məcazi ifadə üçün işlədilən bir sürətdir. Ta qədimdən alleqoriya konkret bir ədəbi növə məxsus olmamışdır. Bir qayda olaraq bədii ədəbiyyatın ən müxtəlif növ və janrlarında özünü gerçəkləşdirmişdir. Bu baxımdan onun hələ antik dövrdən poeziya və nəsrlə yanaşı, həm də dramatik əsərlərdə bədiiləşməsi xarakterikdir [2, s. 12-14].

Qeyd etməliyik ki, təmsil janr olmaqla yanaşı klassik ədəbiyyata bədiiyyat və məna gözəlliklərinə xidmət edən poetik forma və gözəlliklərinə xidmət edən poetik forma kimi də daxil olmuş ən önəmli bədii vasitələrdəndir. O, nəsr və nəzmdə işlənən elə poetik vasitədir ki, burada müəyyən bir cümlə və ya ifadə, zərbi-məsəl və yaxud hikmətamiz söz şəklində verilir və fikrin estetik gözəllik və məzmununun gücləndirilməsinə xidmət edir.

Buradan aydın görünür ki, təmsilin özündə alleqoriya bir ədəbi vasitədir. Alleqoriya fikrin gerçəkləşdirilməsində, mücərrəd düşüncənin konkretləşdirilməsində, yaxud real həyat hadisələrinin obrazlı dillə şərti-metaforik fiqurların timsalında təsviri üçün əlverişli vasitə, bədii tərzdir. [2, s. 28]. Təkcə təmsillərdə deyil, poemalarda, nağıllarda, dramlarda da alleqoriya işlədilir.

Biz məqaləmizdə Qasım bəy Zakir yaradıcılığında təmsillər və onların tərkibində alleqoriyadan bəhs edəcəyik.

Q.Zakir yaradıcılığında satiralar xüsusi yerə malikdir və bu satiralarda əks olunan ictimai-siyasi mövzular şairin təmsil yaradıcılığında da müşahidə olunur. Bu iki janrı eyni mövzuda qələmə alan şair üslubi baxımdan iki fərqli istiqamətdə tənqid hədəflərini oxucunun qarşısına çıxarmışdır.

Belə ki, əsas ideyasına görə şairin satiraları ilə bağlı olan təmsillərində dövründəki ictimai və siyasi hadisələrə üstüörtülü işarələr, eyhamlar vurulur. Bildiyimiz kimi alleqoriya təmsildə özül rolu oynayır. Zakirin təmsillərini satiralarından fərqləndirən başlıca şərt məhz alleqoriyadır. Şair açıq söyləyə bilmədiyi bir çox cəsarətli fikirlərini təmsillərində dolayı yolla oxuculara çatdırır. Odur ki, sənətkar dövrünün ictimai eyiblərini, qüsurlarını, insanların naqis cəhətlərini məharət və ustalıqla heyvanlar aləminə köçürə bilir, şərti və simvolik üsullarla öz fikirlərini ifadə etməyə nail olur, bəzən isə onları Şərq və Qərb folklorundan gələn motivlərlə zənginləşdirərək orijinal bədii sənət nümunələri yaradır. Məhz bu səbəbdəndir ki, təmsillər şairin ədəbi irsinin mühüm bir hissəsini təşkil edir [4, s. 168].

[99] Bakı Dövlət Universitetinin magistrantı. reo.abiyeva1305@gmail.com

Şairin təmsilləri içərisində ictimai-siyasi məzmuna malik olan, dövrünün hakim təbəqələrinə qarşı tənqidi-satirik münasibət ifadə olunan təmsilləri aşağıdakılardır:. "Tülkü və şir", "Aslan, qurd və çaqqal", "Tülkü və qurd" və s.

"Tülkü və şir" təmsili "Aslan və dovşan" xalq təmsili əsasında yazılmışdır. Q.Zakir xalq təmsilinin ideya məzmun xüsusiyyətlərindən böyük ustalıqla istifadə etmiş, yeni mövzu və ideya ilə təmsilə yeni nəfəs vermişdir:

Şah istəsə olsun rəiyyət abad,
Gərək aralıqda bir qərardad.
Sən ağa, biz sənə bəndeyi-fərman,
Zilli-himayətdə qoy gəzək hər yan.
Dəhkeyi-divanə nədir sözümüz,
Bu yolları yaxşı billik özümüz.
İtaət etməsə malikə məmluk,
Olmaz aralıqda təriqi-süluk [3, s. 110].

Təmsildə şair kəndlilərin vəziyyətini, yuxarı zümrələrin özbaşınalıqlarını tənqid atəşinə tutur. Bu zaman o, alleqoriyadan istifadə edərək mövzunun daha da qüvvətlənməsinə şərait yaradır.

Q.Zakirin "Tülkü və qurd" təmsili isə təkcə siyasi məzmuna malik deyil, eyni zamanda burada insanın müsbət və mənfi xüsusiyyətləri qarşılaşdırılır, yalan, riyakarlıq, tamahkarlıq kimi mənfi xüsusiyyətlər tənqid edilir. Təmsildə dostluqda sadiq olmaq, dürüstlük, sədaqətlilik kimi yüksək insani xüsusiyyətlər tələqin olunur. Bu təmsilin də mövzusu Azərbaycan alleqorik nağıllarından biri olan "Tülkü və canavar"-dan götürülmüşdür. Burada şair insanları bir növ xəbərdar edir ki, hər işdə ehtiyatlı və diqqətli olsunlar, axmaq insanlardan uzaq olub, daim ağılla iş görsünlər:

Hiyləsinə o pürfənin inandı,
– Bəs mənim bayramım, – dedi, – haçandı?
– Sənin də bayramın sahibi – tələ
Gələndədir, – dedi, – tələsmə hələ [3, s. 108]

"Aslan, qurd və çaqqal" təmsilində isə Qasım bəy Zakir şirin və çaqqal obrazları vasitəsilə o dövrün yaltaqlıq edərək rəzil həyat yaşayan, zalımlıqları ilə insanların həyatını məhv edən insanların daxili keyfiyyətləri tənqid hədəfidir. Müəllif alleqoriyadan istifadə edərək zalımların hədəfi olan rəiyyətin halına ürəyi yanır:

O ki, qoyun padşahın naharı,
Quzunu saxlarıq axşam iftarı.
Toyuq da sabahın qəlyanaltına,
Əlbəttə ki, xaliq yetirir yenə.
... Çubuğa saldıra fəqir rəyəti,
Özü yeyib-içib sürə vəhdəti [3, s. 99].

Nümunələrdən də aydın olur ki, Q.Zakir təmsillərində alleqoriyadan xüsusi məqsədlər üçün istifadə etmişdir. O, alleqoriya vasitəsilə tənqid hədəflərini rahatlıqla və böyük ustalıqla ifşa edir, eyni zamanda rəiyyətin halına acıyır. Bununla belə, şair insan xislətinin mənfi və müsbət cəhətlərini göstərməklə riyakar, yalançı, xəbis insanları da tənqid etməklə doğruluğu, dürüstlüyü, sədaqəti və s. bu kimi müsbət keyfiyyətləri tərənnüm edir. Təsadüfi deyildir ki, tarixən də aleqoriya fikrin obrazlı təqdimi ilə mübarizliyə, həyatsevərliyə, dünyəviliyə, əxlaqi təmizliyə səsləyən bir poetik vasitə olmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Alleqoriya və təmsillər. Bakı: Gənclik, 1988, 138 s.
2. Əliyev L.İ. Azərbaycan ədəbiyyatında alleqoriya. Məcazdan həqiqətə. Bakı: Elm və təhsil, 2020, 380 s.
3. Qasım bəy Zakir. Seçilmiş əsərləri. Bakı: Avrasiya, 2005, 400 s.
4. Rüstəmova T. Qasım bəy Zakirin təmsilləri şərq və qərb təmsilçiliyi kontekstində. // Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Müqayisəli ədəbiyyatşünaslıq, 2019, № 1, s. 168-177.

Açar sözlər: təmsil, simvol, məcaz, Azərbaycan ədəbiyyatı, Qasım bəy Zakir
Key words: allegory, symbol, metaphor, Azerbaijani literature, Kasim bey Zakir
Ключевые слова: басня, символ, метафора, азербайджанская литература, Касым бек Закир

Allegory and genre characteristics in Azerbaijan literature (based on G.Zakir's creativity)

Summary

Allegory is the big idea of the plot, and the symbol is the literary device used to create that idea. In literature, the author uses allegory to present his big, complex ideas in a neutral form. Allegory, which means "I say in another way" in ancient Greek, is one of the active types of metaphor. It's a figurative means used to divert the intended thought through concrete images. Allegory has the ability to express abstract content in a concrete way.

Historically, allegory originated in the West, but very valuable examples of allegory can be found in the East, as well as in Azerbaijani literature. The article provides information on the brief history of allegory in Azerbaijani literature, general information on examples of allegory in both prose and poetry, as well as in dramatic works. Moreover, the role of allegory as an artistic-aesthetic tool was discussed in the allegorical stories. At this time, the works of G. Zakir were taken as the main material for the study of allegory. The place of development and artistic features of allegory in Zakir's allegorical stories were

studied and analyzed. At the same time, the similar and different characteristics of allegory and symbols are also defined by showing the symbolic characteristics of allegorical images.

Особенности аллегории и жанра в Азербайджанской литературе (на основе творчества К.Закира)

Резюме

Аллегория представляет собой великую идею сюжета, а символ - литературный прием, используемый для выражения этой идеи. В литературе авторы часто прибегают к аллегории, чтобы представить сложные идеи в нейтральной форме. Аллегория, что в переводе с древнегреческого означает «я говорю иначе», является одним из активных видов метафоры. Этот вид метафоры позволяет абстрактному содержанию найти конкретное выражение через образы. Хотя аллегория имеет свое происхождение на Западе, она также встречается на Востоке и в азербайджанской литературе. Статья представляет краткую историю аллегории в азербайджанской литературе, примеры аллегории в прозе, поэзии и драматических произведениях. В баснях поднимается вопрос о художественной роли аллегории, а также анализируются произведения К. Закира. В баснях Закира исследованы и проанализированы место и художественные особенности аллегории. Эти произведения раскрывают место и художественные особенности аллегории, а также подчеркивают сходства и различия между аллегорией и символом.

RƏYÇİ: dos. S.Abbasova

Nəzrin Vəzir qızı Baxşalıyeva [100]

MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN DRAM ƏSƏRLƏRİNDƏ TABESİZ MÜRƏKKƏB CÜMLƏNİN TƏRKİB HİSSƏLƏRİ ARASINDAKI MƏNA ƏLAQƏLƏRİ

Yalnız Azərbaycanda deyil, Yaxın Şərq ölkələrində dramaturgiyanın banisi sayılan M.F.Axundzadənin canlı xalq dili əsasında yazdığı komediyalar XIX əsr Azərbaycan ədəbiyyatında yeni bir mərhələnin başlanğıcı sayılmaqla yanaşı, bu dövr Azərbaycan ədəbi dilinin şifahi və yazılı qolunun vəhdət halında inkişafı baxımından böyük əhəmiyyət kəsb edir.Komediyalar vasitəsilə xalq dilinin quruluş xüsusiyyətləri, zəngin lüğət materialı ədəbi dilə gətirilir, müxtəlif istiqamətlərdə milli ədəbi dilin imkanları üzə çıxarılır.

M.F.Axundzadənin dram əsərlərinin dilində müşahidə olunan mürəkkəb cümlələrin semantik-sintaktik xüsusiyyətlərinin öyrənilməsi mürəkkəb cümlənin tədqiqi üçün lazım gələn bəzi məsələlərə açıqlama gətirir. Belə ki, fikrin ifadəsinə xidmət edən mürəkkəb cümlə həm qrammatik, həm də semantik vahiddir. Mürəkkəb cümlənin anlaşılması üçün ona mətni sintaktik bütövlər prizmasından yanaşılmalıdır. Dialoji və monoloji nitq, zəncirvari cümlələr də mətni sintaktik bütöv hesab oluna bilər. Semantik-sintaktik paralellik tabesiz mürəkkəb cümlələr arasındakı məna əlaqələrinin, həmçinin tabeli mürəkkəb cümlənin budaq növlərinin inteqrasiya və ya diferensiasiyasının əsasıdır.

İki və daha artıq sadə cümlənin semantik və qrammatik cəhətdən birləşməsi nəticəsində mükəmməl dil vahidi olan mürəkkəb cümlə formalaşır. Mürəkkəb cümlə sadə cümləyə nisbətən daha mürəkkəb fikir ifadə edə bilir, çünki bu sintaktik bütövləri təşkil edən sadə cümlələr həm ayrılıqda, həm də birgə daşıdığı mənanı bir arada anlamağa imkan yaradır. Mürəkkəb cümlə ayrı-ayrı komponentlər arasındakı məntiqi əlaqələri, modallığı və ekspressiv münasibətləri ifadə edir. Mürəkkəb cümlənin çoxcəhətli semantik təzahüründən məharətlə istifadə edən M.F.Axundzadə XIX yüzilliyin yazılı və şifahi ədəbi dilini bütün gerçəkliyi ilə realistcəsinə ifadə edə bilmişdir.Mürəkkəb cümlələrin də komponentləri arasında asılılığın forması, komponentləri bir-birinə bağlayan vasitələrin daşıdığı funksiya nəzərdən keçirildiyinə görə mürəkkəb cümlənin iki növü ortaya çıxır: tabesiz və tabeli mürəkkəb cümlələr. Bərabərhüquqlu asılılıq əsasında formalaşan tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında müəyyən məna əlaqələri vardır.Bu məna əlaqələri sadalama, səbəb-nəticə, qarşılaşdırma-ziddiyyət, bölüşdürmə, aydınlaşdırma, qoşulma anlayışları əsasında müəyyən edilir. Bu mənaların ifadə olunduğu proses müəyyən zaman daxilindədir. Tabesiz mürəkkəb cümlənin müasir Azərbaycan ədəbi dilində semantik-sintaktik cəhətdən fərqlənməyən bütün məna əlaqələri M.F.Axundzadənin əsərlərinin dilində müşahidə olunur. Bu cümlələri məna əlaqələrinə görə daha geniş şəkildə nəzərdən keçirək. Müasir ədəbi dilimizdə tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasındakı məna əlaqələri M.F.Axundzadənin komediyalarının dilində də eyni qrammatik semantikaya malik olmuşdur. Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrin eynizamanlı va ardıcılzamanlı birləşdirmə adı altında iki növü M.F.Axundzadənin komediyalarının dilində də özünü göstərir. Bu mürəkkəb cümlələrin komponentlərində müxtəlif iş və hadisələr qeyd edilir, həmin iş və hadisələrin ya eyni zamanda, yaxud da müəyyən ardıcıllıqla icra edildiyi (va ya edilmədiyi) ifadə olunur. Eynizamanlı birləşdirmə əlaqəsinin bu növünə M.F.Axundzadənin komediyalarının dilində daha çox rast gəlmək olur. Tərkib hissələrində sadalanan hadisələr vahid zaman ərzində baş verir. Məs: Bir misqal ondan bir batman misə vurur, xalis gümüş olur; Şərəfnisə xanım ikinci damda ahəstə ağlaya-ağlaya yun darayır. kiçik bacısı Gülçöhrə yanında oynuyur.; Allah götürərmi Şahbaz getsin Parijdə kef etsin, on beş yaşında gül üzlü uşağım ah çəksin, qan tüpürsün, saralıb sapa dönsün, incəlib ipə dönsün?!;

Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələr açıq sıralı cümlələrdir, sadalama yolu ilə qurulur, ona görə də iki tərkib hissədən ibarət olduğu kimi, üç-dörd və daha çox tərkib hissədən də ibarət ola bilir. Belə cümlələr vasitəsilə daha çox hadisə, fikir bir- biri ilə bağlanır. Buradakı hadisələr eyni zamanda, yaxud bir-birinin ardınca baş verdiyindən belə cümlələr axıcı və dinamik olur, bir-biri ilə zəncirvari bağlanır. Məs: Əgər desələr ki, pul gətirmişik, gümüş alacayıq, de ki, ustadım keçmiş kürələrin gümüşünü tamam Əylis ermənilərinə veribdir və bu əldəki kürənin gümüşü dəxi onlara satılıbdır va ikinci kürənin iksirinin təkmil və tamam olmağına bir ay qalıbdır;

Ardıcılzamanlı birləşdirmə bu əlaqə tərkib hissələrində ifadə olunan hərəkətlərin bir-birinin ardınca, sistematik surətdə icra olunduğunu bildirir. Ardıcıllıq əlaqəsi öz xüsusiyyətlərinə görə zaman əlaqəsinə oxşayır. Lakin zaman əlaqəsində tərkib hissələrini ifadə etdikləri hal və hərəkətlər eyni zamanda baş verdiyi halda, bu əlaqədə onlar ardıcıl surətdə, biri digərini izləyərək icra olunur. Komediyalarının dilində birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlənin bu növü də işlənmişdir. Məs: Əvvəldən bir az uf-tuf elər, sonra çarəsi kəsilər; Kərim də xançal çəkir, bir-birinin üstünə hücum edirlər; İndi ağlım başımda yoxdur, bibin gəlsin getsin, sonra mən vəkil taparam;

Müasir Azərbaycan dilində bölüşdürmə əlaqəsi ,əsasən, bağlayıcıların iştirakı ilə yaranır. M.F.Axundzadənin komediyalarının dilində işlənmiş bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələrdə əsasən bir məna xüsusiyyəti özünü göstərir: komponentlərdə müxtəlif iş və hadisələr qeyd olunur, lakin həmin iş və hadisələrdən yalnız birini mümkünlüyü öz ifadəsini tapır Bölüşdürmə əlaqəsinin bu növü ya, ya da bağlayıcıların iştirakı ilə yaranır. Məs: Hələ buyurun görək zəhmət çəkməyinizdən qərəz məhz o cənabın ziyarətidir, ya başqa bir məramınız dəxi var!; Ya bağlayıcısı komponentlərin yalnız birində işləndiyi hallar daha çoxdur. Məs: Hələ de görüm, sən özbaşınasan, ya sənin atan yerində bir böyüyün var?; Yuxudur, görəsən, ya zahirəndir ki, mən sənlə qabaq-qabağa oturmuşam.; Ədibin komediyalarının dilində

[100] Bakı Dövlət Universitetinin magistrantı. **E-mail:** baxsaliyevanzrin98@gmail.com

bölüşdürmə əlaqəli mürəkkəb cümlələrin əksəriyyəti yoxsa bağlayıcısının iştirakı ilə də yaranmışdır. Məs: Di bəs tez qaç, yoxsa bu saatda sam öldürrəm!; Genə gərək bir zad özlərinə qoyaq qalsın, yoxsa bəd dua yiyəsi olluq;

Qarşılaşdırma əlaqəsi cümlələrin bir-birilə qarşılaşdırılması nəticəsində yaranır. Komediyaların dilində işənmiş tabesiz mürəkkəb cümlənin bu növü də semantik strukturuna göra müasir modellərindən fərqlənmir: ya tərkib hissələrdəki iş və hadisələr mahiyyətcə bir-biri ilə ziddiyyət təşkil edir, yaxud da sadəcə olaraq qarşılaşdırılır, müqayisə edilir, fərqləndirilir. Məs: Xub, min-min tümənə dəyən şəhəri xarab etdirirsiniz, yüz bacaqlı versəniz çoxdur?; Manim sənə yazığım gəlir, amma çarə yoxdur; Mən bir böyük vilayətə vəzarət edib dolandırıram, sən gövdən bir mənim evimi, manim nökərlərimi dolandıra bilmirsən!; M.F.Axundzadənin komediyalarının dilində qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələri intonasiya, qarşılaşdırma bağlayıcıları və antonim sözlərin köməyi ilə əlaqələnmişdir. Hər hansı cümlənin formalaşmasında və eyni zamanda tabesiz mürəkkəb cümlənin komponentlərinin əlaqələnməsində intonasiyanın çox mühüm rolu vardır. M.F.Axundzadənin komediyalarının dilində də bu xüsusiyyət özünü göstərir. Məs: Ağlım kəsmir, Bayrama əlli qızıl mənim yanımda sanadılar, kürd atını satmadı; Mərhum zəhmət çəkib sənə pakizə dəlləklik öyrətmişdi, sən ona razı olmayıb,Tiflis dəllәkləri kimi istədin ki, həkimlikdə dəxi şöhrət edəsən;

Ədibin komediyalarının dilində də tabesiz mürəkkəb cümlələrin bu növünün tərkib hissələrinin əlaqələnməsində əsas vasitə qarşılaşdırma bağlayıcılarıdır. M.F.Axundzadənin dilində işlənmiş qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin əksəriyyəti amma bağlayıcısının köməyilə yaranmışdır. Məs: Molla, mənim özümun pulum var, amma tamam nisyədir; Bəli, belə səfalı yerlər çox tapılar, amma Molla İbrahimxəlil kimi büzürgüvar ələ düşməz; Belə cümlələrin bir qismində komponentlər ziddiyyətə görə əlaqələnmişdir. Məs: Mən getməyə müzayiqə eləmirəm, amma üstümdə heç bir yaraq yoxdur; Gərəkdir tez işi isti ikən həqiqət eləmək: amma hələ gərək bir dəftərxanaya getmək;

Ümumiyyətlə, tabesiz mürəkkəb cümlənin bu növündə komponentlərin qarşılaşdırılması, müqayisə edilməsi və fərqləndirilməsi yolu ilə əlaqəsi daha çox müşahidə olunur, bu zaman komponentlərdə müxtəlif üzvlər qarşılaşdırılmış olur, Mübtədalar qarşılaşdırılır: Dövlətin çoxdur, amma qoçaqlığın yoxdur. Gərəkdir tez işi isti ikən həqiqət eləmək, amma hələ gərək bir dəftərxanaya getmək;

Xəbərlər qarşılaşdırılır: Ağlım kəsmir, Bayrama əlli qızıl mənim yanımda sanadılar, kürd atını satmadı; Zərfliklər qarşılaşdırılır: Bu da Qurbanəli həmadanlıdır ki, gecə hər iş əlindən gələr, amma gündüzlər bazarda corab satar;

Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr qapalı sıralı olub, iki komponentdən iki tərkib hissədən ibarət olar. Tərkib hissələrdən biri ümumilik bildirir, digəri onu izah edib aydınlaşdırır. A.Axundova göra, tabesiz mürəkkəb cümlələrin bu növündə birinci tərkib hissədə ifadə olunan fikir sonraki tərkib hissədə və ya tərkib hissələrində müəyyənləşir. M.P.Axundzadənin komediyalarının dilində tabesiz mürəkkəb cümlələrin bu növünün müşahidə olunan tipi yalnız sintez-analiz üsulu ilə qurulmuşdur, ümumilik bildirən komponent əvvəl, aydınlaşdıran komponent sonra işlənmişdir. Məs: Uşağı yerə girsin. Dinc oturur məgər! Səhərdən bəri qoymuyub ki, iki çəngə yun darayım, elə şitəngilik edir: gah yunu qapıb, gah çarqatımı dartıb...Hamı bilir ki, sənin əlindən heç bir iş gəlməz, bir oğurluqda, bir quldurluqda, bir qoçaqlıqda da adın çəkilməyibdir; Mən səlah görmürəm, sənin işin deyil!; A kişi, ov da ələ düşmür, nə bir ceyran var, nə bir turac var; Şəmsəddinin meşələrində ayı çox hər kəs birini tuta bilər ; Sənin arvadın tutuquşu cinsidir, dil-dil ötmək, yalan danışmaq peşəsidir; Bizim də hər birimizin ik atı var biri yük üçün, biri minik üçün;

Ədibin dilində iki və daha çox komponentdan ibarət aydınlaşdırma əlaqəli tabeli mürəkkəb cümlələrə rast gəlinir. Məs: iki komponentdan ibarət olanlar: Bizim də axır qızlıq zamanımız var idi, həyadan baş qaldırıb böyüyümüzün üzünə baxa bilməzdik; Parzaddan ötrü o indi canından keçər, at, mal nə şeydir?: və s. daha çox komponentdən ibarət olanlar: Söz açıq gərək sən məndən ötrü bibimin yanına elçi göndəribsən, o da əbəs yerə razı olub, söz veribdir; Tamahkar adamdır, ondan ötrü bizə də pul verər özü də bizim ilə gedər;

Səbəb nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrin birinci tərkib hissəsi səbəb, ikincisi nəticə bildirməklə iki komponentdən ibarət olur. Nəticə bildirən ikinci komponent əvvəlkinə məna və intonasiya ilə bağlanır, birinci komponentdən doğan obyektiv nəticəni bildirir. İşin, hərəkətin ardıcıl şəkildə baş verməsi və birinci cümlədəki işin ikinci cümlədəki işə səbəb olması bu əlaqəni yaradan yeganə vasitədir. Bu xüsusiyyət eyni dərəcədə M.F.Axundzadənin komediyalarının dilinin sintaksisinə də aiddir. Komponentlər intonasiya ilə əlaqələnmişdir. Məs: O, Tarverdini sevmir, güclə onu heç vaxt ona verə bilməzsiniz ;Gələn kimi qardaşımdan qan aldı, Qanı kəsilən kimi qardaşım canın tapırdı.; Xan, qurbanın olaq, cavandır, bu səfər bağışlayın bunun təqsirini!; Doğrusu, mənim vədəm yaxınlaşıbdır, çıxıb özgəyə nökər duracağam; Sən qız uşağısan, ağlın başında yoxdur xeyrini anlamırsan; A canım, o qoşulub qaçanların ata-anası vermir, qızın da çarəsi kəsilir, qoşulub qaçır.;

Tabesiz mürəkkəb cümlədə qoşulma əlaqəsi əsas fikir söyləndikdən sonra əlavə bir fikrin yada düşməsi və bir tərkib kimi birinci komponentə əlavə edilməsilə yaranır. Birinci komponentin sonunda intonasiya alçalır, müasir dildə olduğu kimi, ikinci tərkib hissə azacıq fasilə ilə birinciyə qoşulur. Məs: Əgər mümkün olur isə, mənim üçün Hacı Rəhimdən min manat al, iki dükanım var, yanında girov olsun.; Min manat da mənim üçün al, övrətimin bağını girov verdim.; Min manat da mənim üçün al, kəndim girov olsun; Həmaqətini az bildir, o duz başqa duzdur; Parij dağılsın, bizə nə?; Ancaq o qızın bir cavan namizədi var, o da mürafiə işində mənə hərif ola bilməz.;

Beləliklə, M.F.Axundzadənin komediyalarının dilində tabesiz mürəkkəb cümlə və onun komponentləri arasındakı semantik əlaqələri nəzərdən keçirərkən məlum olur ki, ədibin komediyalarında işlənmiş tabesiz mürəkkəb cümlələrin müasir strukturu tam formalaşmış şəkildədir. Bir çox hallarda tabesiz mürəkkəb cümlə tam diferensiallaşmamış olsa da, komponentlər arasındakı məna əlaqələri aydın seçilməkdədir.

İstifadə edilmiş ədəbiyyat
1. Axundov A.A. M.F.Axundov komediyalarının dil və üslub xüsusiyyətləri. Seçilmiş əsərləri. Bakı: Elm və təhsil, II c., 2012, 464 s.
2. Axundzadə M.F. Əsərləri (3 cilddə). Bakı: Şərq-Qərb, I c., 2005, 296 s.
3. Axundzadə M.F. Əsərləri (3 cilddə). Bakı: Şərq-Qərb, II c., 2005, 376 s.
4. Axundzadə M.F. Əsərləri (3 cilddə). Bakı: Şərq-Qərb, III c., 2005, 296 s.
5. Dəmirçizadə Ə.M. M.F.Axundov dil haqqında və M.F.Axundovun dili. Bakı: Azərbaycan XMK nəşri, 1941, 43 s.

Açar sözlər: Mirzə Fətəli Axundzadə, komediyalar, tabesiz mürəkkəb cümlə, sintaktik əlaqələr
Key words: Mirza Fatali Akhundzade, comedies, subordinate complex sentence, syntactic relations
Ключевые слова: Мирза Фатали Ахундзаде, комедии, подчинительное сложное предложение, синтаксические отношения

The meaning relationships between the constituent parts of the subordinate complex sentence in the drama works of Mirza Fatali Akhundzadeh

Summary

Meaning relationships in subordinate compound sentences have been studied in detail in the works of Mirza Fatali Akhundzadeh. The author engaged in the study of the complex sentence took the right direction, first of all, he gave information about the concept of a complex sentence, the main structural-semantic features of a complex sentence, then moving on to the main issue, he conducted a study of the historically original natural examples of a complex sentence and the meaning relationships between parts - complex sentences without subordinates. The author paid attention to the meaning and structural features of subordinate complex sentences, about the important grammatical and general relations of subordinate complex sentences such as temporal identity, sequence, clarification, cause-and-effect, distribution, connection, reviewed M.F.Akhundzade's style in the structure of those meaning relations, this complex sentence He studied and investigated in detail the role of intonation, conjunctions, parallelism, ellipsis, affiliation suffixes, common words and combinations in the composition of his type. Since M.F.Akhundzade was more based on the vernacular, the living spoken language, as the facts show, his works provided rich material on the subject, and the author was able to skillfully interpret and interpret the material.

Смысловые отношения между составными частями придаточного сложного предложения в драматургических произведениях Мирзы Фатали Ахундзаде

Резюме

Смысловые отношения в подчинённых сложных предложениях подробно изучены в работах Мирзы Фатали Ахундзаде. Автор, занимающийся исследованием сложного предложения, взял правильное направление, прежде всего дал информацию о понятии сложного предложения, основных структурно-семантических особенностях сложного предложения, затем, перейдя к основному вопросу, он провел исследование исторически оригинальных природных примеров сложного предложения и смысловых отношений между частями-сложными предложениями без подчинённых. Автор уделил внимание значению и структурным особенностям придаточных сложных предложений, важным грамматическим и общим связям придаточных сложных предложений, таким как временное тождество, последовательность, уточнение, причинно-следственная связь, распределение, связь, рассмотрел стиль М.Ф.Ахундзаде в структуру этих смысловых отношений, этого сложного предложения. Он изучил и подробно исследовал роль интонации, союзов, параллелизмов, многоточий, суффиксов принадлежности, общих слов и сочетаний в составе его типа. Поскольку М.Ф.Ахундзаде опирался в большей степени на народный, живой разговорный язык, как показывают факты, его произведения давали богатый материал по теме, а автор умело интерпретировал и интерпретировал материал.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Sevda Sadıqova

Aysun Elvin qızı Bayramova [101]

BƏXTİYAR VAHABZADƏNİN HƏYAT VƏ YARADICILIĞININ ÖYRƏDİLMƏSİ İMKANLARI

Bəxtiyar Vahabzadənin yaradıcılığı şairin sağlığında ümumbəşəri rəğbət qazanıb. Müstəqilliyin sadəcə olaraq xatırlanmasının qadağan edildiyi sovet dövründə şairin azadlıq mübarizəsinin önündə getməsi ona bütün Azərbaycan xalqının hörmətini qazandırıb. B.Vahabzadə öz əsərlərində ədəbi Azərbaycan dilinin imkanlarını da dolğun şəkildə açmağa çalışmışdır. Ona görə də yetişməkdə olan gənc nəsillərə ədibin həyatı və yaradıcılığı dolğun şəkildə tədris edilməlidir. Bu məqsədlə də, günümüzün tələblərinə müvafiq olaraq, dərs prosesində interaktik təlim metodların üstünlük verilməlidir.
Bu gün müəllimləri təlim-tərbiyə prosesinin keyfiyyətini yüksəldən, şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsinə, onların əqli qabiliyyətlərinin inkişafına töhfə verən daha təkmil təlim metodlarının işlənib hazırlanması və tədris təcrübəsinə daxil edilməsinin vacibliyinə inandırmağa ehtiyac yoxdur. Tədrisin interaktiv formalarının tətbiqi şagirdlərin ədəbiyyat dərslərinə hazırlığının təkmilləşdirilməsinin mühüm istiqamətlərindən biridir. Hazırda interaktiv tədris metodları kommunikativ fokusla yeni məzmunla doldurulur.
İnteraktiv (*"inter"* qarşılıqlıdır, *"act"* hərəkət etməkdir) - kiminləsə qarşılıqlı əlaqədə olmaq, söhbət, dialoq rejimində olmaq deməkdir [4, s. 19]. İnteraktiv metodlar şagirdlərin təkcə müəllimlə deyil, həm də bir-biri ilə geniş qarşılıqlı əlaqəsinə və təlim prosesində şagird fəaliyyətinin üstünlük təşkil etməsinə yönəldilmişdir. İnteraktiv dərslərdə müəllimin yeri dərsin məqsədlərinə çatmaq üçün şagirdlərin fəaliyyətini istiqamətləndirməkdən keçir. Müəllim həmçinin, interaktiv tapşırıqlar və tapşırıqlardan ibarət dərs planı hazırlayır, onun vasitəsilə şagird materialı öyrənir.
Bəxtiyar Vahabzadənin adına V-XI sinif dərsliklərində rast gəlinir. Aşağıda siniflərdə şairin həyat və yaradıcılığına az rast gəlinsə də, yuxarı siniflərdə kifayət qədər ətraflı məlumat verilir. Dərsliklərdə B.Vahabzadənin həyat və yaradıcılıq yolu üzrə işin standartları və onun nəticələri aşağıdakı şəkildədir:

12.4. - Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir.	Əsərin mövzusuna, başlıca probleminə, ideyası kontekstindən çıxış edərək, münasibət bildirir, ümumiləşdirmə aparır və nəticə çıxarır.
2.1.1. - Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir.	Mənbələrdən topladığı materialları müqayisə etməklə, eləcə də onlara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional, obrazlı ifadələrdən istifadə edir.

Standart: 1.2.4, 2.1.1.
Mövzu: Bəxtiyar Vahabzadənin "Müəllim" şeirinin təhlili.
Məqsəd:
- "Müəllim" şeirinin ideyasını izah edir;
- Şeir barədə sərbəst fikir söyləyir.
- Müəllim mövzusu ilə bağlı fikirlərini məntiqi ardıcıllıqla şərh edir.
İnteqrasiya: Az-d. 3.1.2. Mətni faktlarla, sitatlarla zənginləşdirir.
İş forması: kollektiv və qruplarla iş
İş üsulu: diskussiya
Resurs: Bəxtiyar Vahabzadənin portreti, iş vərəqləri.
Motivasiya: Dərsə motivasiya problemin qoyulması ilə başlayır. Bildiyiniz kimi, hər hansı bir araşdırma problemlə başlamalıdır. Həqiqi problem həmişə bir çox fərziyyə və imkanlar doğurur, onları yoxlamaq üçün əvvəlcə tədqiqat sualını tərtib etməliyik. Motivasiya vasitəsi kimi Bəxtiyar Vahabzadə haqqında çəkilmiş videomateriallardan istifadə edə bilərik. Yaxud , "Bu gün, sabahımı yaradanımsan!" - şair burda nə demək istəyir? "Endirdi yerlərə atamız bizi" - şair burda hansı fikri çatdırmaq istəmişdi? "Əmir Teymur" - bu ad sizə tanışdırmı? kimi suallarla da şagirdlərdə motivasiya yaradıla bilər.
Tədqiqat sualı: Müəllimimiz olmasa, bizim aqibətimiz necə olar?
Tədqiqatın aparılması: Şagirdlər 4 qrupa bölünür. Hər qrup bir tapşırıq üzərində işləyir.

I qrup

"Müəllim! Gözəldən gözəldir bu söz-
Körpə könüllərdə məşəl yandıran!
Hələ yazılmamış, hələ qırışsız,
Hamar beyinləri cilalandıran.
Müəllim! Tez durub gec yatanımsan,
Bu gün, sabahımı yaradanımsan!"
misralarında müəllif nə demək istəyir?

II qrup

"Mən bir toxum idim, sabahım-sirdi.
Mənə şəkil verən, rəng verənimsən.

[101] Azərbaycan Dövlət Pedaqoji Universiteti. bayramovaysun55@gmail.com

Məni bu dünyaya anam gətirdi
Sənsə bitirənim, yetirənimsən.

Müəllim! Düşüncə güllərimizi
Əqlilə suvaran bir bağban oldu.
Endirdi yerlərə atamız bizi
Müəllim-göylərə qaldıran oldu".
misralarında müəllif nə demək istəyir?
III qrup
"Xəyala qol-qanad, gözə nur verdi
Müəllim! Biz sənə borcluyuq ancaq.
Əmir Teymura da şərəf gətirdi,
Ayağın altında əbədi yatmaq.

Şagirdin sayıdır dövlətin, varın
Bilməz bu qazancı, bilməz hər naşı.
Sinifdən sinifə adlayanların
Yaşında yaşayır müəllim yaşı".
misralarında müəllif nə demək istəyir?
IV qrup
"Elmə güvəndinsə, bil ki, cənnətin
Qapısı üzünə açılacaqdır.
Məktəbi hər şeydən üstün millətin
Hər yerdə, hər işdə zəfəri-haqdır.

Gəl, ey heykəltəraş! Bu mərmər, bu gil.
Düşün müəllimi, sonra alış, yan.
Onun heykəlini mərmərdən deyil,
Yarat özü kimi nurdan, işıqdan" [3, s. 20-22].
misralarında müəllif nə demək istəyir?

Məlumat mübadiləsi: Qruplarda iş başa çatdıqdan sonra liderlər nəticələri təqdim edirlər.
Məlumat müzakirəsi: Şagirdlərə belə bir sualla müraciət edilir:
Sizcə, şairin "Müəllim" şeirində oxucuya çatdırmaq istədiyi əsas fikir nədir?
Nəticə və ümumiləşdirmə: Nəticədə aydınlaşır ki, müəllimsiz insan vətəndaş kimi yetişə bilməz.
Qiymətləndirmə və refleksiya: Qrupların dərsdəki fəaliyyəti aşağıdakı meyarlara uyğun olaraq qiymətləndirilir [1, s. 66].

Meyarlar	**Qruplar**			
	I qrup	**II qrup**	**III qrup**	**IV qrup**
Şeirin ideyasını müəyyənləşdirir				
Fikirlərini aydın, ardıcıl şərh edir				
Müzakirələrdə fəallıq göstərir				
Vaxtdan səmərəli istifadə edir				

Ev tapşırığı: İlk müəllimləri barədə təqdimat hazırlamaq.
Qeyd etmək lazımdır ki, bütün formalar şagirdlərdən sadəcə məlumatı çoxaltmağı deyil, yaradıcılıq yaratmağı tələb edir, çünki onlar daha çox və ya daha az qeyri-müəyyənlik elementini ehtiva edir. Bir qayda olaraq, bir neçə yanaşmaya malikdir, həmçinin özlərini tapmaq imkanına malikdirlər. Onların şəxsi təcrübəsinə və həmkarının, dostunun təcrübəsinə əsaslanan düzgün həlli müəllim də daxil olmaqla, təhsil prosesinin bütün iştirakçılarının əməkdaşlığı, birgə təlimi və ünsiyyəti üçün zəmin yaratmağa imkan verir [2, s. 26]. Belə ki, şagirdlərə öz güclü və qabiliyyətlərini hiss etməyə imkan verən interaktiv üsullardır.
İnteraktiv təlim şagirdlərin idrak fəaliyyətinin təşkilinin xüsusi formasıdır. Bu, çox konkret və proqnozlaşdırıla bilən məqsədləri nəzərdə tutur:
- şagirdlərin intellektual qabiliyyətlərinin inkişafı, müstəqil düşüncə, zehnin tənqidi;

- tədris materialının mənimsənilməsində sürət və gücə nail olmaq, tədqiq olunan hadisələrin mahiyyətinə dərindən nüfuz etmək;
- yaradıcı potensialın inkişafi - problemi "görmək" bacarığı, orijinallıq, çeviklik, dialektizm, yaradıcı təxəyyül, fikir yaratmaq asanlığı, müstəqil axtarış fəaliyyəti aparmaq bacarığı;
- peşəkar bilik, bacarıq və vərdişlərin real istehsalat təcrübəsində tətbiqinin səmərəliliyi [5, s. 57].

Beləliklə, ölkədə təhsil sisteminin yenidən təşkili başlanğıc əsas kimi, biliklərin gələcəkdə istifadə üçün verildiyi zaman ənənəvi xətti yanaşma əvəzinə konstruktivist, operativ yanaşmaya əsaslanan tədris metodlarına, yəni interaktiv təlim metodlarına keçidi nəzərdə tutur.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı, 2013, 93 s.
2. Hüseynoğlu S. Yeni təlim texnologiyaları və ədəbiyyat dərslikləri //Azərbaycan dili və ədəbiyyatı tədrisi:elmi-metodik jurnal, №2, 2015, səh. 25-31.
3. Süleymanova A., Bağırova T., Muradova İ. Ümumtəhsil məktəblərinin ədəbiyyat fənni üzrə 5-ci sinif üçün dərslik. Bakı, 2020, 208 s.
4. Veysova Z. Fəal (interaktiv) təlim, müəllim üçün vəsait. Bakı, 2007, 149 s.
5. Селевко Г.К. Современные образовательные технологии. М. Просвещение. 2012, 150 стр.

Açar sözlər: Bəxtiyar Vahabzadə, həyat və yaradıcılığı, interaktik, təlim metodları, şagird, müəllim

Key words: Bakhtiyar Vahabzade, life and creativity, interactive, teaching methods, student, teacher

Ключевые слова: Бахтияр Вагабзаде, жизнь и творчество, интерактив, методы обучения, ученик, учитель.

Xülasə

Məqalədə Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığının öyrədilməsində istifadə olunan interaktiv təlim metodlarının əhəmiyyəti araşdırılmışdır. "İnteraktiv" termini təhsil tədqiqatı diskursunun iki fərqli zolağında görünür: biri pedaqogikaya, digəri isə təhsildə yeni texnologiyalara aiddir. Şagirdlərə yalnız bir ünsiyyət yolu olan ənənəvi üsulla öyrətmək artıq effektiv deyil. İnteraktiv sözü müəllimin şagirdlərin diqqətini cəlb edə biləcəyi və onların ənənəvi metodla müqayisədə daha çox öyrənə biləcəyi effektiv və səmərəli tədris və təlim prosesinin açarıdır.

Ümumilikdə yeni öyrənmə və tədris keyfiyyəti təhsil üçün mütləq prioritetdir. Müəllimlər təkcə məlumat mənbəyi deyil, həm də şagirdlər arasında qarşılıqlı əlaqəni inkişaf etdirmək və əsas sosial şəxsiyyət xüsusiyyətlərini öyrətmək və ya inkişaf etmək üçün tədrisə rəhbərlik etmək məqsədi daşıyır. Dinamik və kommunikativ tədris metodları, həmçinin interaktiv tədris metodları şagirdlərin tədris olunan mövzu ilə bağlı tənqidi mövqe inkişaf etdirmələri üçün öyrənməyə həvəsləndirmək üçün hazırlanmış prosesin əsas elementlərini təşkil edir. İnteraktiv texnika və strategiyalardan istifadə etməklə şagirdlər öyrənməyə daha çox cəlb olunurlar.

Opportunities to teach the life and creativity of Bakhtiyar Vahabzade

Summary

The article examines the importance of interactive learning methods used in teaching the life and creativity of Bakhtiyar Vahabzade. The term "interactive" appears in two different strands of educational research discourse: one related to pedagogy and the other to new technologies in education. It is no longer effective to teach students in the traditional way with only one way of communication. The word interactive is the key to an effective and efficient teaching and learning process where the teacher can attract the attention of the students and they can learn more than the traditional method.

New learning and teaching quality in general is an absolute priority for education. Teachers are not only a source of information, but also aim to guide instruction to foster interaction among students and to teach or develop key social personality traits. Dynamic and communicative teaching methods, as well as interactive teaching methods, are the main elements of the process designed to encourage students to develop a critical attitude towards the taught subject. By using interactive techniques and strategies, students are more engaged in learning.

Возможности преподавания жизни и творчества Бахтияра Вагабзаде

Резюме

В статье рассматривается значение интерактивных методов обучения, используемых при преподавании жизни и творчества Бахтияра Вагабзаде. Термин «интерактивный» встречается в двух разных направлениях педагогических исследований: одно связано с педагогикой, а другое - с новыми технологиями в образовании. Больше неэффективно обучать студентов традиционным способом, используя только один способ общения. Слово «интерактивный» является ключом к эффективному и действенному процессу преподавания и обучения, где учитель может привлечь внимание учащихся, и они смогут узнать больше, чем традиционный метод.

Новое качество обучения и преподавания в целом является абсолютным приоритетом образования. Учителя являются не только источником информации, но и стремятся направлять обучение, чтобы способствовать взаимодействию между учениками, а также обучать или развивать ключевые социальные черты личности. Динамические и коммуникативные методы обучения, а также интерактивные методы обучения являются основными элементами процесса, призванными мотивировать учащихся на выработку критического отношения к преподаваемому предмету. Используя интерактивные методы и стратегии, учащиеся более активно участвуют в обучении.

Rəyçi: Pedaqoji elimlər doktoru, dos. Bilal Həsənli tərəfindən çapa tövsiyə olunmuşdur

Nahidə Umud qızı Məmmədova [102]

YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ HEKAYƏLƏRİNDƏ QADIN AZADLIĞI PROBLEMİNİN PSİXOLOJİ MƏQAMLARI ("Divanə" və "Dərdli Züleyxa" əsasında)

Giriş. Əsas qəhrəmanı insan olan, həyatı bədii təfəkkür süzgəcindən keçirməklə əks etdirən ədəbiyyat özündə bir-birindən müxtəlif mövzuları birləşdirir. Bədii ədəbiyyatın mərkəzində dayanan, aktuallığını itirməyən məsələlər içərisində qadın azadlığı mövzusu xüsusi yer tutur. Qadın azadlığı probleminin bəşər tarixi ilə həmyaşıd olması bəlli həqiqətdir. Qədim dövrlərə nəzər salanda qadına tarix boyu ikili münasibətin olduğunu görürük. Bir tərəfdən qadın ülvi bir varlıq kimi ən uca zirvələrə layiq görülmüş, digər tərəfdən onun cinsi, əqli cəhətdən fitrətən qüsurlu yarandığı düşüncəsinə inanılmış, hüquqları tapdalanmış, cansız varlıq kimi münasibət göstərilmişdir.

Hələ XII əsrdə yaşamış dahi şair N.Gəncəvi öz əsərlərində bu gün də aktual olan qadın hüquqlarını təbliğ etmiş və demək olar ki, şairə qədər qadına bu qədər yüksək dəyər verən şəxs olmamışdır. Onun yaratdığı Şirin, Fitnə, Nüşabə kimi qadın qəhrəmanları fəal həyat mövqeyi seçən, kişilərlə bərabər səviyyədə dayanan, hətta öz əməlləri ilə onlardan qat-qat yüksəkdə dayanmağı bacaran uzaqgörən və tədbirli insanlardır.

Ədəbiyyat tariximiz boyunca hər dövrdə müqtədir qələm sahiblərinin bu məsələyə xüsusi önəm verdiklərini görmək mümkündür. Xüsusən, XIX əsrin sonu, XX əsrin əvvəllərində ədəbiyyatımızın baş mövzularından biri qadın azadlığı problemi olmuşdur. İslam aləmində hökm sürən şəriət qaydalarının qadına hüquqsuz varlıq kim baxmağı tələqin etməsi azad fikirli mütəfəkkirlərimizin etirazlarına səbəb olmuşdur. Realist sənətkarlar istibdad şəraitində qadınlarla kişilərin qeyri-bərabər vəziyyətini sosial ədalətsizlik hesab edərək qadın ləyaqətinə hörmət, onların ictimai həyatda fəaliyyətə cəlb edilməsi, hüquq bərabərliyinin təmin edilməsi haqqında fikirlər aşılayırdılar. Məhz bu dövrdə başda C.Məmmədquluzadə olmaqla bir çox qələm sahibləri öz əsərlərində bəhs olunan aktual problemi işıqlandırmışdır. Azərbaycan qadınının keçdiyi həyat yoluna, faciəli tərcümeyi-halına diqqət yönəldən yazıçılardan biri də Y.V.Çəmənzəminli olmuşdur.

Əsas hissə. Y.V.Çəmənzəminli ədəbiyyat tariximizdə ən çox yumorlu və lirik hekayələr, çeşidli silsilə məqalələr və tarixi romanlar müəllifi kimi tanınır. Onun dünyagörüşü və sənətkarlığı XX əsrin mürəkkəb siyasi-ictimai, ədəbi-mədəni hadisələri, klassik Azərbaycan və dünya ədəbiyyatı ənənələri işığında formalaşmışdır. Ədəbi fəaliyyətinin mühüm bir qismini təşkil edən satirik və yumoristik hekayələri ideya, mövzu, süjet, obrazlar aləmi ilə realist ədəbiyyatımızın orijinal örnəkləri hesab olunur. O zamankı Azərbaycan həyatının, məişətinin canlı güzgüsü olan lirik-dramatik hekayələrində psixoloji sarsıntılar və mənəvi iztirablar daha üstün yer tutur.

Məhkum Azərbaycan qadınlarının faciəsi, o zamankı məişətdə adi hal olan ailə qovğaları ədibin kiçik hekayələrinin mərkəzində durur. Bunun bir səbəbi, ümumən, qadına feodal münasibəti, dini-mənəvi ehkamlara əsasən ona kölə kimi yanaşmaqdan irəli gəlirdisə, ikinci səbəb yazıçının öz valideynləri arasında tez-tez baş verən ailə narazılığı idi. Bütün uşaqlıq illərini belə bir ailədə keçirən ədib doğma anasının bədbəxt taleyi, küsgün həyatı timsalında müsəlman qadınlarının ələmini ümumiləşdirməyə səy göstərirdi.

Müasirlərindən fərqli olaraq, Y.Vəzir qadın azadlığı problemini daha sivil şəkildə qaldırır, milli intibahın, inkişafın əsas şərtlərindən sayırdı. Bu mövzudakı hekayələrində onların daxili aləminə enir, yaddaqalan qadın obrazları yaradırdı. Yazıçının təsvir etdiyi Azərbaycan qadını sadəliyi, isməti, qeyrət və milli ləyaqəti ilə seçilir. Ədibin qələminin məhsulu olan "Qumarbazın arvadı", "Dərdli Züleyxa", "Divanə", Müsəlman arvadının sərgüzəşti", "Toy" və s. hekayələr bu mövzuda yazılmış tipik örnəklərdir.

Bu hekayələrdə diqqəti cəlb edən məqamlardan biri də müəllifin qadın psixologiyasına dərindən bələd olması, daxili aləmlərinin gizli qatlarına enməyi bacarmasıdır.

Məlumdur ki, hər bir əsərin bədii siqləti ondakı psixologizmin dərinliyindədir. Psixologizm bədii əsərin nüvəsini, poetik enerji mənbəyini təşkil edir. Yazıçının demək olar ki, bütün əsərlərində süjet psixoloji kontrastlar üzərində qurulmuşdur. P.Hüseynova haqlı olaraq qeyd edir ki, "Y.V.Çəmənzəminli hekayələrində psixoloji ovqatı müxtəlif üsullarla, qəhrəmanın ovqatını tamamlayan peyzaj, təbiət lövhəsinin təsviri, iki və daha artıq şəxs arasında dialoq, yaxud daxili monoloq, daxili nitq vasitəsilə yaradır" [2, s. 35-36]. Bütün bunlarla bədii dramatizmi gücləndirərək qəhrəmanın düşdüyü vəziyyət, daxili aləmi ilə oxucunu tanış edir.

Sənətkarın qadınların acınacaqlı taleyini, dərdini, ələmini həssaslıqla qələmə aldığı hekayələr arasında psixoloji məqamların qabarıq olduğu "Divanə" hekayəsi xüsusilə seçilir.

Hekayənin qəhrəmanı gözəl Sitarənin dəli kimi çöllərə düşməsi görüb tanımadan, məhəbbətsiz zorla ərə verilmək nəticəsində olur. Burada insan mənəviyyatını puç edən mühit, onun dəhşətli qayda-qanunlarıdır. İnsan ruhunun təbii xüsusiyyətlərini bütün incəlikləri ilə bilən sənətkar "Divanə" də "sini-təbabətə" yetişmiş Sitarənin əfsunlaşmış ilk gənclik aləmini, zəngin xəyalatını, təbiətdən aldığı intibahını aydın boyalarla təsvir edir: "...hər çiçəkdən birini dərib, hər güldən bir yarpaq üzüb, hərəsindən də bir həzz aparıb, bir lətafət anlayırdı" [1, s. 124]. Təbiət-bahar, gül, çiçək, quşların oxuması ona nağıl təsiri bağışlayırdı.

Burada psixoloji məqam saf bir qızın real aləmdən tədric olunub şirin xəyallara dalması, burada arzu- istəklərinə çata bilməsində təzahür edir. Xəyalında yaratdığı oğlan obrazı xasiyyət və zahiri gözəllikcə qızın istəyinə uyğundur. Xoşbəxt olmaq üçün sanki təbiət ondan heç nəyi əsirgəməmişdir. Lakin xəyalın şirinliyi mühitin acı reallığı ilə üz-üzə dayanır,

[102] BDU-nun magistrantı. mnahide093@gmail.com

psixoloji kontrast pik həddə çatır. Bir tərəfdə amansız qanunlar, əks qütbdə isə saf arzular dayanır. Mühitə tabe olmaq mənəvi süqutdur; qarşı durmaq isə iradə xaricindədir. Qarşıda ya ölüm, ya da ondan daha dəhşətli olan divanəlik görünür. Kiçik hekayədə müdhiş faciəni vermək üçün mənəvi aləmlə reallığın toqquşmasını təqdim edən ədib göstərir ki, bu situasiya məsum bir qızın ruhi şikəstliyinə gətirib çıxarır.

Bu psixoloji tar-marı əyani görmək üçün iki təsvirə diqqət yetirmək zəruridir. Qız ərə verildiyini eşidəndə nəinki tələş keçirir, əksinə xoş duyğular onu çulğalayır: "O gündən cavan qız toyu aramsız gözləyirdi.Şirin xəyalata meydan verib, Sitarə yenə məşuqu ilə ömür bağçasında gəzib dolanırdılar.. Dünya bir cənnətə dönmüşdü, hər şey mənbəyi-həzz idi" [1, s. 124-125]. Bu əslində real düşüncə istiqamətində qurulan xəyaldır. Sənətkarın fəlsəfəsincə, insanın bu cür duyğuları yaşamağa tam haqqı vardır. Bütün bunlar təkcə Sitarənin deyil, onun timsalında neçə-neçə pak qızların bakir ruhunun, düşüncəsinin məhsuludur. Sağlam cəmiyyətdə bu arzular asanlıqla real təcəssümünü tapa bilər. Bəs o dövrün real aləmi buna imkan verirmi? Bu sualın cavabını aşağıdakı cümlələr aydın şəkildə üzə çıxarır: "...Otağın qapıları açıldı, içəri bir kişi saldılar... Sitarə ilk dəfə dünyaya həqiqət nəzəri ilə baxdı; cavan qızın qarşısında xəyali məşuqu əvəzinə doğruçu əri durmuşdu və bu "ər" deyilən o qədər çirkin, munis və zəriflikdən uzaq idi ki, Sitarə üzünü ondan döndərib, gözlərinin yaşını saxlaya bilmədi.." [1, s. 125]. Müəllif bu məqamı elə incə psixologizmlə təsvir edir ki, həqiqətin şilləsini gözlənilməz anda dadan qəhrəmanın iztirablarından təsirlənməmək mümkün olmur.

Müəllifin sərrast qələmi Sitarənin ruhunun mürəkkəb, təsvir olunması çətin məqamlarını rəsm etməyi elə bacarmışdır ki, oxucu bu situasiyada zavallı qızcığazın ağlını itirməsinin yeganə çıxış yolu olduğunu anlamaqda çətinlik çəkmir. Büllur xəyalları qara daşlara dəyib çiliklənən Sitarə "əri" yuxuya gedən kimi baş götürüb qaçır. İki gündən sonra onu zəifləmiş halda xarabalıqdan tapırlar. Burada da belə bir sual ortaya çıxır. Niyə məhz ata evi deyil də, xarabalığa üz tutur? Çünki yaşadığı cəmiyyətdə ər evindən qaçanlara namussuz kimi baxırdılar. Buna görə də heç kim onu qəbul etməyəcəkdi. Sitarə xarabalığa üz tutmaqla mövcud qayda-qanunlara qarşı etiraz səsini ucaldır. Hekayənin bu yeri olduqca dəhşətlidir. Müəllif sağlam düşüncəli insanın divanəyə çevrilmə prosesini məntiqəuyğun təsvir etməyə nail olur.

Psixoloji dramatizmlə cərəyan edən hadisələrin yekunu da özünəməxsus tamamlanır. A.Məmmədov sonluğa diqqət yetirərək qeyd edir ki, "Eyni zamanda ata-ana ilə gedən söhbət cəfəng təzad xarakteri daşıyır və bu dialoqlarda kimin dəli, kimin ağıllı olduğunu kəsdirmək çox çətindir. Tərəflərin danışığı arasında heç bir rabitə və əlaqə yoxdur" [3, s. 135]. Bunun əyaniliyini görmək üçün yenə də əsərin özünə müraciət etmək lazımdır: "Ata-anası onun sözünü kəsib, acıqlı deyirdilər: -Kəs səsini, bihəya! Namusumuzu yerə soxdun" [1, s. 125]! Sitarə isə bunun müqabilində "Siz Allah, o çiçəkləri dərməyin! Qoyun qalsın nişanlıma" [1, s. 125]! – deyə cavab verirdi. Nəhayət, övladlarının dəli olduğunu anlayan ata-ana özləri də hönkürür, dəli olmaq dərəcəsinə çatırlar. Onların göz yaşları qadına rahatlıq, sərbəst mühakimə yürütmək, sevmək imkanı verməyən zəmanəyə lənətnamədir. Ümumilikdə demək olar ki, əsər boyu psixoloji situasiyalara geniş yer verilməsi hiss-həyəcan və iztirabların təsirli alınmasına səbəb olmuşdur.

Yusif Vəzir yaşadığı mühitdə gördüklərinə kortəbii yanaşmamış, onu öyrənmiş araşdırmış və bütün dərinliyi ilə dərk etmişdir. Bu cəhətdəndir ki, məişətdə izlədiklərini böyük ürək ağrısı, qəlb iniltisi, acı göz yaşları ilə qələmə almışdır. Bu iniltiləri hətta ilk cümlələrindən duyduğumuz, ürək parçalayan əsərlərdən biri də "Dərdli Züleyxa" hekayəsidir.

Müəllif burada Züleyxanın həyatının yalnız bir gecəsini, özü də hər gün təkrar olunan zülmət gecəsini təsvir etmişdir: "Yarımişıq bir otaqda çarpayıdan on altı-on yeddi yaşlarında bir arvad qalxdı" [1, s. 126]. Bu ilk cümlədən belə əsərdəki faciəvi notları duymaq mümkündür. Buradakı dərdli Züleyxa da divanə Sitarənin bacısıdır. Bu xəyalpərvər qız arzuları reallığın amansızlığı ilə üzləşdiyi ilk anda ər evindən qaçmışsa, Züleyxa "abır-həyalı" olub ər evində oturmuş, bir il keçməmiş lap gənc ikən "qocalmışdır".

Bu iki obraz bənzər talelərə malik olmaqla yanaşı, onları birləşdirən bir məqam da hər ikisinin səadəti xəyal aləmində tapa bilməsindədir. Sitarə xoşbəxtliyi öz yaratdığı dünyasında tapırsa, Züleyxa isə acılar içində qıvrandığı zaman keçmiş "xoş" günlərini xatırlayaraq az da olsa gerçəklikdən uzaqlaşa bilir. Y.Vəzir burada düşündürücü, fəlsəfi anlamı olduqca böyük olan bir cümlə yazır: "İnsan həyatında güclük çəkirsə, onda həmişə keçmişi xatırlar, unudulmuş vəqələri, hafizədən silinmiş nöqtələri zehnində canlandırmağa çalışıb, ondan bir xoşluq duyar, təsəlli tapar" [1, s. 127]. Cəmi on altı yaşı olmasına baxmayaraq, uşaqlıq illərini əziz xatirə kimi yad edən Züleyxa üçün hamama getdiyi günlər, Novruz bayramı ərəfəsində cəhrə və yun daraqlarının yığıldığı, bir dəfə çərşənbə axşamı eşitdiyi ilk sözlərdən sevindiyi gün və s. anlar ən gözəl zamanlardır. Ər qayğısı görməyən, işgəncələrə, xəstəliyə məruz qalıb acılar çəkən Züleyxa qibtə etdiyi günlərə baxanda indi arzulayır ki, heç olmasa əri onu döyüb-söyməsin, bu vəziyyətdə qoyub getməsin.

Müəllif keçmiş yaşantıları xatırlama yolu əks etdirərkən adət-ənənə, bayram günlərinə xas məqamları canlandırmaqla təsirli, psixoloji ovqat yaratmağa nail ola bilir. Məsələn, xalqımızda ay müqəddəslik, təmizlik rəmzi kimi qiymətləndirilir, təzə ay çıxanda salavat verilir və s. Hekayədə oxuyuruq: "Zatən anası Züleyxanı "sayəli" hesab edirdi. Odur ki, təzə ay çıxanda.. əvvəl onun üzünə, sonra aya baxıb salavat çevirərdi..." [1, s. 128]. Və ya vəsfi-hal oyununda Züleyxanın açarının badyadakı suda hamıdan tez ələ gəlməsi səadət rəmzi kimi hədsiz sevinc doğururdu. Bütün bu sınanmalar gələcək səadət üçün ümid qığılcımları təsiri bağışlayırdı. Züleyxanın çərşənbə axşamı eşditdiyi "yaman günün ömrü az olar" ifadəsi bütün ailə üzvlərini sevindirmişdi: "Necə də sevinməsinlər ki, gözlərini dünyaya açdıqları anda "yaman gün" görmüş, həmin "yaman günün" ömrü isə çox olmuşdur" [4, s. 132]. Lakin bu ümidlər, xoş söz eşitmələr, açarın əvvəlcə çıxması və s. həyatın acımasız reallığı qarşısında heç nədir. Züleyxa da Sitarə kimi gözəl günlər arzusunda ikən həyatın dibinə enir, dəhşətlərlə üzləşir.

Ədibin bu mövzuda yazdığı hekayələrin finalında olduğu kimi, burada da sonluq qanlı göz yaşları ilə tamamlanır: "...Züleyxa otağın bir küncünə qısılıb, zar-zar-zar ağlayırdı, əri də uzanıb, qeydsiz birhalda xoruldayırdı" [1, s. 129]. Y.Vəzirin əsl sənətkarlıq məharəti ondadır ki, həmin göz yaşlarının səbəbini güclü realizm qüdrəti ilə açıb göstərməyi bacarır. Bu qanlı göz yaşlarını axıdan həyatı, mühiti bütün ziddiyyətləri ilə dolğun şəkildə əks etdirə bilir.

Nəticə etibarı ilə deyə bilərik ki, qadın azadlığı yolunda ardıcıl qələm işlədən sənətkarın bu mövzuda yazılmış əsərlərində psixoloji-dramatik situasiya və kontrasların bolluğu diqqəti cəlb edir. Gerçəkliyi ədəbi-bədii əks etdirməyin üsullarından biri kimi psixologizmə xüsusi önəm verən nasir personajların daxili aləmini, hiss-həyəcan və duyğularını müxtəlif formalarda əks etdirməyə müvəffəqiyyətlə nail olmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Çəmənzəminli Y.V. Əsərləri. 3 cilddə. I cild. Bakı: AVRASİYA PRESS, 2005, 360 s.
2. Hüseynova P.S. Y.V.Çəmənzəminlinin hekayələrində mühit və şəxsiyyət (1907-1920-ci illər). Bakı: Çaşıoğlu, 2005, 128 s.
3. Məmmədov A. Azərbaycan hekayəsi, Bakı: Yazıçı, 1984, 224 s.
4. Məmmədov K. Yusif Vəzir Çəmənzəminli (həyat və yaradıcılıq yolu). Bakı: Elm, 1981, 263 s.

Açar sözlər Y.V.Çəmənzəminli, qadın azadlığı, psixologizm, dramatizm, aktual məsələ

Key words: Y.V.Chamanzaminli, women's freedom, psychologism, dramatism, actual issue

Ключевые слова: Ю.В. Чаманзаминли, женская свобода, психологизм, драматизм, текущая проблема

Xülasə

Məqalədə qüdrətli nasir Y.V.Çəmənzəminli nəsrində, o cümlədən hekayələrində mərkəzi yer tutan qadın azadlığı məsələsindən bəhs olunmuşdur. Demək olar, bəşər tarixi ilə həmyaşıd olan bu problem bütün dövrlərdə açıq fikirli insanları daima düşündürmüşdür. XX əsr gerçəkliyində isə aktual problemi işıqlandıran qələm sahibləri içində Y.Vəzir özünəxas yanaşması ilə seçilir. Xüsusilə, qadın psixologiyasına dərindən bələd olan ədib onların daxili aləmlərinə nüfuz etməyi, ruhi-psixoloji vəziyyətlərini əks etdirməyi bacarmışdır. Müəllif güclü psixologizm duyulan bu tip hekayələrdə müxtəlif formalarda, peyzaj, təbiət təsvirləri, bədii təzadlar, monoloq və dialoqdan istifadə etməklə kəskin psixoloji məqamlar yaratmışdır. Bununla da personajların daxili yaşantıları, düşüncələri, hiss-həyəcanları bədii şəkildə aşkara çıxarılmışdır.

Psychological aspects of the issue of women's freedom in the stories of Yusif Vazir Chamanzaminli (based on "Divana" and "Dardli Zuleykha")

Summary

In the article, the issue of women's freedom, which occupies a central place in the prose and stories of the powerful prose writer Y.V. Chamanzaminli, is discussed. It can be said that this problem, which is almost the same age as human history, has always puzzled open-minded people in all times. In the reality of the 20th century, Y.Vazir stands out among the writers who shed light on the actual problem with his unique approach. In particular, the writer, who is deeply familiar with women's psychology, was able to penetrate their inner worlds and reflect their mental and psychological conditions. The author created sharp psychological moments in this type of stories with strong psychologism in different forms, using landscape, nature images, artistic contrasts, monologue and dialogue. In this way, the characters' inner lives, thoughts, and emotions were revealed artistically.

Психологические аспекты женской свободы в рассказах Юсифа Вазира Чаманзаминли (по мотивам "Диваны" и "Дардли Зулейхи")

Резюме

В статье обсуждается вопрос женской свободы, занимающий центральное место в прозе и рассказах мощного прозаика Ю.В.Чаманзамили. Можно сказать, что эта проблема, почти ровесница человеческой истории, всегда и во все эпохи озадачивала непредвзятых людей. В реалиях XX века Ю. Вазир выделяется среди писателей, проливающих свет на актуальную проблему своим уникальным подходом. В частности, писательница, глубоко знакомая, с женской психологией, смогла проникнуть в их внутренний мир и отразить их душевное и психологическое состояние. В рассказах этого типа с сильным психологизмом автор создал сильные психологические моменты в разных формах, используя пейзаж, образы природы, художественные контрасты, монологи и диалоги. При этом в художественной форме раскрывались внутренняя жизнь героев, мысли, чувства и эмоции.

Rəyçi: F.ü.f.d. Sevinc Abdullayeva

Ягибекова Фаина Вагифовна [103]

ЕДИНСТВО В ВОСПИТАНИИ: РОЛЬ СЕМЬИ,ШКОЛЫ И ОБЩЕСТВА В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ

Введение: Тема единства семьи,школы и общественности в контексте воспитания совершенного человека является ключевой в обсуждении современных педагогических и социологических теорий. Воспитание совершенного человека является сложным и многогранным процессом,требующим взаимодействия различных институтов,таких как семья,школа и общественность. Эти три сферы играют ключевую роль в формировании ценностей, навыков и качеств личности, обеспечивая ему гармоничное развитие и успешную адаптацию в обществе. Формирование и воспитание личности несомненно зависят от взаимодействия всех этих социальных институтов. Эти три института обеспечивают комплексное развитие личности, обладающей не только знаниями и навыками, но и ценностным компасом, социальной ответственностью и способностью к критическому мышлению. Этот тройной союз обеспечивает гармоничное развитие личности, оснащая её багажом знаний,умений,навыков,которые необходимы для успешной жизни в современном мире.

"Школа и семья: взаимодействие и партнерство" под редакцией Ю.П.Зинина и Т.Н.Ахапкиной. Авторы отмечают: “Семья есть первичный институт воспитания, где личность получает первоначальные уроки о любви, заботе, моральных ценностях и социальных навыках. Степень внимания родителей к развитию детей,качество семейных отношений оказывают огромное влияние на их будущее. Родители являются первыми образцами для своих детей. Их поведение,ценности и отношения создают основу для формирования мировозрения и социальных навыков у индивида” (1, с. 156-162).

Родители, выступая в роли преподавателя, передают знания, навыки и ценности своим детям через разговоры, уроки и жизненные ситуации. Качество отношений в семье оказывает сильное влияние на эмоциональное благополучие и самооценку детей. В семье дети получают коммуникативные навыки, учатся эмоциональной поддержке и уважению к другим. Родители же, в свою очередь, являются образцом для своих воспитанников, их поведение и отношение в семье оказывают огромное влияние на формирование и становление личности. Качество взаимоотношений в семье оказывает значительное влияние на психологическое благополучие и развитие личности.

Основной курс: Школа – место, где дети проводят значительное время своей жизни, и это среда, где они учатся, общаются и формируют свою личность. Школьная программа и культура также играют важную роль в формировании ценностей, навыков и знаний, необходимых для успешной адаптации в обществе. Школа играет важную роль в образовании и социализации детей. Она способствует развитию социальных навыков, уважения к разнообразию и способности к сотрудничеству. Совместная воспитательная работа между школой и семьей помогает ребенку адаптироваться к различным ситуациям и обстоятельствам.

"Семья, школа, общество: педагогическое взаимодействие" под редакцией Т.И.Соболевой. Автор Т.И.Соболева пишет: “Школа является не только местом, где дети учатся различным предметам, но и место,где они учатся взаимодействовать с другими,развивать социальные навыки, а также осваивать основы самодисциплины и самоидентификации. Воспитательная работа школы играет ключевую роль в формировании общественной идентичности и гражданского сознания. В школе дети встречают разнообразие культур и мировоззрений, учатся работать в команде и принимать решения. Сотрудничество между школой и семьей играет важную роль в обеспечении успеха учеников. Родители могут поддерживать образовательные инициативы школы, а учителя могут обеспечить обратную связь с семьей, чтобы совместно развивать потенциал каждого воспитанника” (2, с. 16-43).

Роль общества в воспитании личности является ключевым движущим механизмом в ее полноценном формировании. Общество представляет собой широкий контекст, в котором происходит социализация и развитие индивида. Влияние общественных норм, ценностей, институтов и структур оказывает существенное воздействие на формирование личности. Общество устанавливает определенные нормы поведения, ожидания и ценности, которые влияют на формирование мировоззрения и моральных убеждений личности. Культурные особенности и социальные нормы определяют, что считается приемлемым и неприемлемым в общественных отношениях, и направляют поведение индивида. Различные социальные институты, такие как семья, школа, религия, экономика, политика, играют важную роль в воспитании личности. Они предоставляют индивиду различные роли, ожидания и цели, которые помогают ему определить свое место в обществе и развить соответствующие навыки.

"Совместное воспитание: школа и семья в сотрудничестве" авторства Г.Д.Левина. Автор Г.Д.Левина отмечает: “Современные средства массовой информации, такие как телевидение, интернет, кино, музыка и социальные сети, оказывают значительное влияние на формирование ценностей и представлений личности. Они формируют общественные стереотипы, модели поведения и представления о жизни, которые могут оказывать как положительное, так и отрицательное воздействие на молодежь. Образовательные учреждения и общественные

[103] Бакинский Славянский Университет Магистр кафедры «Педагогика и психология».e-mail:yagibekovafaina@gmail.com

программы играют важную роль в социализации и развитии личности. Они предоставляют доступ к знаниям, навыкам необходимым для успешной адаптации в обществе" (3, с. 33-69).

Образование также способствует развитию критического мышления, самоанализа и самореализации. Общество также предоставляет социальную поддержку и интеграцию, которые необходимы для полноценного развития личности. Это включает в себя доступ к здравоохранению, социальным услугам, культурным и спортивным мероприятиям, которые способствуют развитию самооценки, уверенности и социальной компетентности. Таким образом, общество играет решающую роль в воспитании личности через установление культурных и социальных норм, функционирование социальных институтов, формирование массовой культуры и образовательных программ, а также обеспечение социальной поддержки и интеграции. Взаимодействие с обществом позволяет индивиду развивать свой потенциал, находить свое место в обществе и становиться активным участником социальной жизни. Связь между школой, семьей и обществом в воспитании представляет собой важный и взаимосвязанный процесс, который оказывает существенное влияние на формирование личности ребенка. Каждый из этих институтов вносит свой вклад в развитие и социализацию ребенка, и их взаимодействие играет ключевую роль в этом процессе.

"Педагогическое партнерство семьи и школы" под редакцией В.Г.Болотова и И.В.Чудиновой. Авторы статьи В.Г.Болотова и И.В.Чудиновой отмечают: "Школа и семья должны сотрудничать для обеспечения успешного образования и развития ребенка. Это включает в себя регулярное общение между учителями и родителями, обмен информацией о прогрессе и поведении ребенка, а также совместное участие в различных образовательных мероприятиях. Родители могут поддерживать учебный процесс дома, помогать с выполнением домашних заданий, создавать условия для обучения и развития ребенка вне школы. Учителя, в свою очередь, могут обеспечить родителей информацией о методиках обучения и стратегиях воспитания. Школа может предоставлять родителям обратную связь о прогрессе и достижениях ребенка в учебе и поведении. Это помогает родителям понимать, как они могут поддержать ребенка в его учебных усилиях и развитии" (4, с. 123).

Школа отражает общественные ожидания относительно знаний и навыков, которые должен приобрести ребенок для успешной интеграции в общество. Образовательные стандарты и программы разрабатываются с учетом потребностей и требований современного общества. Школа также является местом, где передаются культурные ценности и традиции общества. Учебные материалы, уроки и мероприятия могут способствовать сохранению и развитию культурного наследия. В целом, связь между школой, семьей и обществом в воспитании является ключевым фактором в формировании личности ребенка. Взаимодействие и сотрудничество этих институтов создают условия для полноценного развития ребенка, его успешной адаптации в обществе и формирования стабильных ценностных ориентиров.

Формы и содержание работы по развитию речи различны на разных этапах обучения, так как разные периоды обучения русскому языку имеют свои задачи. На начальном этапе обучения важно добиться от школьников привычки строго ограничивать себя на первых порах употреблением только хорошо понимаемых и известных грамматических конструкций. Одновременно школьник должен находить в чужой речи знакомые слова и конструкции. На первых порах материалом для этого должна служить речь учителя. Поэтому учитель должен в начальный период обучения ограничивать свою собственную речь в соответствии с уровнем знаний школьников лексики и грамматических конструкций. Учитель, зная активный и пассивный словарный запас школьников, должен вводить новые для школьников слова в определенных дозах и последовательности. Вся эта работа должна базироваться на определенном грамматическом фундаменте. Можно, конечно, вводить в ограниченном объеме в материал урока некоторые незнакомые школьнику грамматические конструкции как модели.

На этих занятиях можно использовать все те приёмы и методы, которыми мы пользуемся на занятиях по практике устной речи. Работа выстраивается таким образом, чтобы школьники, с одной стороны, запоминали лексический и грамматический материал, прорабатываемый на занятиях по чтению, а с другой стороны, практически владели проработанным материалом, а именно, умели вести беседу на разные темы, составлять ситуации, диалоги и т.д.

Приучаясь понимать строго регламентированную и в отношении лексики и в отношении ее грамматического употребления речь учителя, школьник будет одновременно учиться улавливать знакомые элементы в окружающей его русской речи. Постепенно учитель должен переходить от замедленного к нормальному темпу речи, т. о. усложняя ее. В первый период обучения большое внимание следует уделять бытовой лексике.

Одним из условий правильной работы по развитию речи учащихся является последовательность в подаче языкового материала. Умение задать вопрос, умение ответить на него – это уже шаг к свободному диалогу. На занятиях в начале урока практикуется обычно ряд однотипных, повторяющихся из урока в урок вопросов к членам группы (например, какое сегодня число? какой день? который сейчас час? где Сибир? и т.п.) Постепенно в этот ряд знакомых и уже привычных вопросов вставляются новые незнакомые вопросы. В общий объем понятия «развития речи» включается, конечно, как развитие устной речи, так и одновременно развитие письменной речи (5, с. 46-67).

Следующий этап занятия по чтению предполагает *обучение письму*. На еженедельных аудиторных занятиях по чтению обучение данному виду речевой деятельности является скорее вспомогательным и выступает как средство формирования других навыков и умений, в основном, говорения.

Заключение: И, наконец, седьмой, заключительный, этап работы с текстом на занятии по чтению предполагает *обогащение страноведческих и социокультурных знаний школьников* на основе прочитанного текста. Важен круг событий, образующих жизненную основу прочитанного материала. Сюда относятся также бытовые, культурно-бытовые и другие темы, которые могут найти отражение в учебно-речевой коммуникации на основе и в связи с текстом и влиять на формирование ценностной ориентации школьников.

Такая работа с русскоязычным текстом достаточно эффективна, поскольку она позволяет сконцентрироваться на наиболее существенных аспектах работы с текстом и при этом охватить все виды речевой деятельности и аспекты обучения языку, используя многообразие приёмов и форм работы. Все эти институты взаимосвязаны и влияют друг на друга. К примеру, семьи могут поддерживать учебные и социальные успехи детей, а школа может укреплять семейные ценности через образовательные программы. Общество, в свою очередь, может создавать условия, которые либо поддерживают, либо затрудняют работу семей и школ.

ЛИТЕРАТУРА:

1. "Школа и семья: взаимодействие и партнерство" под редакцией Ю.П.Зинина и Т.Н.Ахапкиной. стр: 156-162
2. "Семья, школа, общество: педагогическое взаимодействие" под редакцией Т.И.Соболевой. стр: 16-43
3. "Совместное воспитание: школа и семья в сотрудничестве" авторства Г.Д.Левина. стр: 33-69.
4. "Педагогическое партнерство семьи и школы" под редакцией В.Г.Болотова и И.В.Чудиновой. стр: 123.
5. "Школа, семья, общество: формирование ценностного отношения к обучению" под редакцией Л.Н. Мазуркевича и В.В.Рубцова. стр: 46-67.

Ключевые слова: семья, школа, общественность, воспитание, единство, совместная работа, сотрудничество
Açar sözlər: ailə, məktəb, ictimaiyyət, tərbiyyə, birlik, iş birliyi, əməkdaşlıq
Key words: family, school, society, upbringing, unity, collaboration, cooperation

Təhsildə birlik: ailənin, məktəbin və cəmiyyətin şəxsiyyətin formalaşmasındakı rolu

Xülasə

Məktəbin, ailənin və cəmiyyətin birgə tərbiyə-təhsil işi, bir cəmiyyətdə sağlam, fərdin inkişafına nail bir təhsil sistemini inkişaf etdirmək üçün əhəmiyyətli bir mövzudur. Bu tərbiyə-təhsil modeli, bir-birini tamamlayan və dəstəkləyən üç əsas komponentdən ibarətdir: məktəb, ailə və cəmiyyət. Hər bir komponent, fərdin müvəffəqiyyətli təhsil almasında və sosial olaraq inkişaf etməsində fəal rol oynayır. Məktəb, təhsil və öyrənmənin əsas meydançasıdır. Burada tələbələr müəyyən müfredat və proqramlar əsasında fənlər, mövzular və mədəni qəbullar öyrənirlər. Bu, onların intellektual və müdrik şəkildə inkişaf etmələrinə kömək edir. Məktəb, tələbələrə sosial mühitdə öyrənmə və əməliyyatlı bir şəkildə ictimaiyyətə daxil olmaq üçün lazımi sosial və əməkdaşlıq bacarıqlarını təmin edir.

Education in unity: the role of family, school, and society in personality formation

Summary

The joint upbringing and education work of the school, family, and society is an important topic for developing a robust education system that fosters individual development within a society. This education model consists of three main components - school, family, and society - which complement and support each other. Each component plays an active role in ensuring the successful education of individuals and their social development.

The school is the main arena for education and learning. Here, students learn subjects, topics, and cultural norms based on certain curricula and programs, which helps them develop intellectually and wisely. The school provides students with the necessary social environment for learning and effective integration into society.

Научный руководитель доц. Мехралиева У.В.

Ceyhunə Ceyhun qızı Aslanova [104]

ANARIN NƏSRİNDƏ "ALTINCI MƏRTƏBƏ"NİN ƏLÇATMAZ KAMİLLİYİ PROBLEMİ

Giriş. Hər bir canlının öz xisləti olmasına öyrəşsək də, insanın rəngarəng xarakteri bizi hər an təəccübləndirir. Dünyaya gəldiyimiz ilk andan etibarən insanı kəşf etmək səyahətinə çıxırıq. Bu insan zamanla anamız, atamız və ya hər hansı bir doğmamız olsa da, sonda bütün oxlar bizim özümüzə- içimizdəki "mən"ə istiqamətlənir. Sanki illərlə dünyadakı insanları seyr eləyib onun qüsurlarını və ya müsbət cəhətlərini öz beynimizdə hazırladığımız imtahan suallarıyla qiymətləndirən biz sonda tək bir insanı imtahan edirik. Özümüzü.. O özümüzü ki illərlə çəkdiyi acılarda da, pis günlərində də, həmçinin, xoş günlərində də üzləşməkdən qorxub tək-tənha qoyduğumuz özümüzü. Ölümün ən qorxuducu yanlarından biri də məhz budur: Özünlə hesablaşmağa macal tapmadan sağollaşmaq məcburiyyətində qalmaq. Bu üzləşməyə isə insanı bəzən bir hadisənin dəhşəti, bəzən bir sözün ağırlığı, bəzən bir musiqinin notları, bəzən isə bir əsərin hansısa sətri vadar edə bilər. İnsan içində özü olduğu dünyadan qaçmaq üçün oxuduğu hər hansı əsərdə özüylə qarşılaşıb qaçmağa heç bir səhifə tapa bilməyə bilər. Hər səhifəni çevirdikcə başına gələcəkləri görüb o kitabı ordaca bağlamaq, bir daha heç bir zaman açıb oxumamaq üçün rəfinin ən əlçatmayan hissəsinə də qoya bilər. Amma qaçdığı özünü ən üst rəfdə saxladığını unutmağı üzləşməyindən daha da çətinləşər. Ədəbiyyatın bu sarsıdıcı funksiyası bir çox əsərlərdə rastımıza çıxır. Anar yazdıqdan sonra real həyatda beşmərtəbəli evinin altıncı mərtəbəsindən nə çox Təhminələr, Zaurlar çıxmışdı. Nə qədər insan Zaur kimi sevgisində göstərdiyi cəsarətsizliyin əzabını çəkdiyini özünə, hətta yazıçıya etiraf etmişdi. Anar əsərlərinin bu qədər sevilməyindəki ən önəmli faktorlardan biri də məhz insan psixologiyasını bütün doğmalığı ilə, olduğu kimi təsvir etməsidir. Cəmiyyətin qınağından çəkinmədən "Təhminə kimi qadınlar da var" - deyə biləcək cəsarəti qələminə verməsi belə Təhminələrə son anda bir təsəlli xarakteri daşıyır.

Əsas hissə. "Altmışıncılar" nəslinin görkəmli simalarından biri olan Anar ədəbiyyata yeni obraz və ideyaların gəlməsinə yol açan istedadlı yazıçılardan biridir. Nisbi demokratikləşmə dövründə adi insanların içindən çıxarıb baş qəhrəmana çevirdiyi obrazlar günümüzədək bir çox problemin işıqlandırılmasında xüsusi rol oynamışdır. Bu da əlbəttə ki, yazıçı istedadının böyüklüyündən irəli gəlir. Müxtəlif janrlarda, fərqli problemləri cəmiyyətə ən yaxın dildə ifadə edən müəllif insan psixikasının incəliklərini yaratdığı obrazları fərdiləşdirmək məqsədilə qəhrəmanlar üzərində əks etdirmişdir. Anarın işıq tutduğu problemlərdən biri cəmiyyətdə çoxluq təşkil etsə də, özünü tənha hiss edən insanların daxili "mən"inə çatmaq arzusudur. Təhminə, Kərim Əsgəroğlu, Fuad və bu kimi surətlər həyatın dayanmayan axınına qarışaraq tənhalaşmağa doğru gedən fərdlərdir. Əlbəttə, tamamilə fərqli mövzulu əsərlərdən misal olaraq göstərdiyimiz bu obrazlar müxtəlif həyatlarda eyni problemi daşıyan insanların ümumiləşmiş simalarıdır.

Təhminə obrazı Anarın belə demək mümkündürsə, rəğbət bəslədiyi və digər yaratdığı qəhrəmanlara nisbətən daha qayğılı yanaşdığı bir surətdir. Bunu biz əsərin yazılmasından illər keçməsinə baxmayaraq, Anarın yenidən bu mövzuya qayıdaraq "Təhminənin son sirri" hekayəsini yazıb Təhminəyə bəraət qazandırmasından aydın duyuruq. Təhminə obrazı cəmiyyətin stereotiplərini qıran, mentalitet çərçivəsini dağıdaraq həyatını öz qanunlarıyla yaşayan bir qadın obrazıdır. Bu surətin sayəsində biz cəmiyyətdə özgələşdirilən, qəbul edilməyən qadınların taleyinin hansı mərhələlərlə irəliləyə biləcəyini təxmin edə bilirik. Anar Təhminə obrazıyla nisbi demokratikləşmənin verdiyi azadlıq şansını sanki daha çox bu obrazın simasında əks etdirməyə çalışmışdır. İllərlə bir çox yazıçılarımız cəmiyyət tərəfindən yadlaşdırılmış və qəbul olunmamışdır. Buna səbəb isə Təhminə kimi insanları qəbul etməyən mühitin dəyişikliyə, başqalaşmağa cəsarətinin olmaması idi. Yeni nəsrin gətirdiyi ideyalar tamamilə insanın daxili dünyasını və bu dünyanın ətrafa hansı formalarda əks olunmasını ifadə edirdi. Adi insanlar böyük əsərlərin sujetinin əvvəlindən sonuna əsas xəttin məğzinə yerləşirdilər.

"6-cı mərtəbə XX əsr Azərbaycan ədəbiyyatında reallıq kabusudur. Reallıq olmasa da, reallıqla ortaqdır, həm də onun elementləriylə təşəkkül tapıb zənginləşmişdir" [2].

Təhminə beşmərtəbəli evin altıncı mərtəbəsində yaşayırdı. Hansı ki o mərtəbəyə Zaur heç bir zaman qalxa bilməmişdi. Lakin Anar yaradıcılığına ümumi nəzər salsaq, belə bir sual bizi düşündürə bilər: Altıncı mərtəbəyə Anarın başqa hansı qəhrəmanları çıxa bilərdi və ya bilməzdi? Və bu cavabın səbəbləri nədən ibarətdir?

İlk öncə, Zaur obrazı haqqında danışmağımız daha doğrudur. Eyni əsərlərdə, eyni cəmiyyətlərdə mövcud olan Təhminə və Zaur mənəvi cəhətdən bir-birindən kəskin fərqlənən obrazlardır. Zaur maddi həyatın insan üzərində təsirlərini təcəssüm etdirən bir surətdir. Onun maddi ehtiyacları naminə həyatının eşqindən imtina etməsi və bu imtinanın cəmiyyətin mənəvi cəhətdən əsla alçalda bilmədiyi bir qadının məhvinə gətirib çıxarması Zaurun kamillikdən uzaq, nəinki altıncı mərtəbəyə, hətta o binaya yaxınlaşmağa belə haqqı olmayan bir obraz olduğunu deməyimizə əsas verə bilər. Bu baxımdan istər Zaurun cəsarətsizliyi, istər həyata qarşı mövcud olan istəklərinin həddindən artıq maddi səciyyə daşıması onun qarşısında uzun bir yolun olduğunu göstərir. "-Əgər adamlar başa düşsəydilər ki, beşmərtəbəli binanın altıncı mərtəbəsi də ola bilər, onda nə vardı ki..." [1]. Məmməd Nəsirin dilindən deyilən bu cümləylə müəllif Zaurun bir daha aydınlanma yaşaması üçün ona şans tanıyır. İlk dəfə "Ağ liman" povestində Məmməd Nəsirin təkbaşına nərd oynamasını təsvir edərkən Anar Zaura ilk dərsini vermişdisə, indi ikinci dəfə başqa əsərində bu metoddan istifadə edir.

Anarın digər sevilən əsərlərindən biri olan "Macal" povestində də mənəvi problem mövcuddur. Necə ki digər əsərdə cəmiyyət Təhminəni qəbul edə bilmirdi, burada isə Fuad cəmiyyəti qəbullanmaqda çətinlik çəkən bir obrazdır. Uşaqlıq illərindən başlayaraq özüylə, həyat tərziylə zehni arasında böyük uçurumlar olan Fuad sonrakı dövrlərdə də bu uçurumu

[104] BDU-nun magistrantı. jeyhunaslanova@mail.ru

keçməyi bacarmır. Bu isə obrazın öz daxili aləmindən bixəbər olmasından irəli gəlir. Oqtayın məsləhəti ilə dəfələrlə özü ilə görüşü dəftərinə qeyd edən Fuad uzun müddət bu missiyanı yerinə yetirə bilmir. Onun fikrincə, başqa faktorlar ona mane olur, lakin əsas maneə onun daxilində yatan özündən qaçmaq meylidir. Fuad Anarın Təhminəsi kimi özündən xəbərdar və nə istədiyini duya bilən insan deyil. Maddi uğurlarla xoşbəxt olduğunu düşünən bu surət nə məktəbdə, nə böyüdüyü ailədə, nə də öz qurduğu ailədə istəkləri yetərincə qarşılanmamış bir insandır. Yaşadıqlarımızın yox, bu yaşanılanlardan çıxarılan dərslərin önəmli olduğu bir dünyada Anar Fuadın həyatıyla oxucuya mənəvi kamilliyə gedən yolun insanın öz içində başladığını izah etməyə çalışır. Fuadın müəllimi Fuad Salahlıya qarşı etdiyi "nankorluq" isə xarakterində mövcud olan digər zəiflikdir. Biz Fuadın kamillik mərtəbəsinə yaxınlaşmaq istədiyini, lakin buna macal tapa bilmədiyini görürük. Əsərin sonunda həyatı boyu etmədiyi bir şeyi edərək başqa bir işini özüylə görüş üçün təxirə salır və müəllif bir çox əsərinin sonunda istifadə etdiyi bu priyomu bu əsərə də tətbiq edərək sonluğu natamam təsvir edir. Povestin sonu və sonrakı hadisələr oxucunun ixtiyarına buraxılır. Lakin Anar illər sonra yenidən bu əsərə də bir daha qayıtmaq zərurəti hiss etmişdir. Fikrimizcə, öz təxəyyülümüzün ixtiyarında olarkən düşündüyümüz sonluqlar zehnimizdə mövcud olarkən müəllifin illər sonra bu sonluqları dəyişməməsi daha yaxşı olardı, lakin burdan belə bir nəticə də çıxarmaq olar ki, Anar Fuadın simasında verdiyi problemin cəmiyyətdə hələ də öz həllini tapmamasından təsirlənərək yenidən bu mövzuya qayıtmaq zərurəti hiss etmiş ola bilər. "Balaca Fuadın son xahişi" hekayəsi obrazların illər sonrakı taleyinin təsvirindən ibarətdir. Bu hekayədən bizə aydın olur ki, Fuad o gün təxirə saldığı çıxışından sonrakı qərarlarında da bir o qədər uğurlu ola bilməmiş, altıncı mərtəbəyə qalxmaqda aciz olan obrazlar sırasına daxil olmuşdur.

Son olaraq, "Otel otağı"nın Kərimini xatırlayaq. Kərim Əsgəroğlu universitetdə müəllim, orta büdcəli bir ailədə həyat yoldaşı və valideyn, torpaqlarının bir hissəsini yenicə itirmiş ölkədə isə vətəndaşdır. Hər bir insan kimi onun da qarşısında müəyyən öhdəlikləri var, lakin Kərimin bu öhdəliklər qarşısında yaşadığı daxili sıxıntılar onu getdikcə ölümə doğru sürükləyir. Vətənin dar günündə müharibəyə gedib döyüşmədiyi üçün yaşadığı vicdan əcabı, valideyn olaraq qızına ürəyi istədiyi cehizi almağa büdcəsi yetmədiyi üçün yaşadığı utanc, digər tərəfdən isə universitetdə müəllim adını daşıyan yoldaşlarının qanunsuz yollarla gəncləri savadsızlığa sürükləməsi, rüşvətxorluğu Kərimin ürəyini incidən ağrının şiddətini daha da artırır. Ancaq biz qarşımızda mənəvi cəhətdən kamilləşməkdə olan bir insan görürük. Bunu Çopur Cabbarın ikiüzlü çıxışlarını xatırlayarkən bu iki fərqli xarakterdəki insanın eyni mühitdə yaşamaqlarından duyduğu narahatlıqların fonunda da görürük. Cabbar türkçülük ideyalarını müdafiə etdiyi üçün Kərimin yollarına daş qoymağa çalışır. Kərim isə Cabbar kimi rüşvətxor müəllimlərə görə müəllim adına ləkə gəlməsindən çəkinir. Əsərin sonlarına doğru maddi çətinlikləri səbəbindən Kərim də Cabbar və digərləri kimi həyatında bir dəfə də olsun tələbələrindən "kibrit" almağı düşünürsə, bu fikri reallaşdıracaq mənəviyyata sahib olmayan bir insandır. Bu səbəbdəndir ki, müəllif saf, təmiz, cəmiyyətin çirkabına batmamış bu qəhrəmanı tələtümlü hisslərin əllərindən alaraq əbədiyyətə qovuşdurur. Kərimlə birlikdə həyatı da, qəlbini sarsıdan problemləri də yoxa çıxır. Fikrimizcə, Kərim Əsgəroğlu beşmərtəbəli evin altıncı mərtəbəsinə çıxmağı bacaran bir obrazdır.

Nəticə. Anarın yaradıcılığının obrazlar aləminin genişliyi və xarakter əlvanlığı bir çox mənəvi problemin həlli yolunda ciddi addımlar atılmağına səbəb olmuşdur. Müəllifin əsərlərinin həcmi nəzərə alınaraq yalnız bir neçə qəhrəmanın simasında problemi analiz edərək belə bir nəticəyə gəlirik ki, "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı ilə ədəbiyyatımıza daxil olan "altıncı mərtəbə" fenomenini yazıçının digər əsərlərinə tətbiq etdikdə bir çox obrazın daxili aləminin yetərsizliyi gün üzünə çıxır. Şübhəsiz ki, hər bir insan mükəmməl olmadığı kimi ədəbiyyatın qarşısına da belə bir tələb qoymaq qeyri-mümkündür. Lakin problemin həllinə yol açması baxımından surətləri bu aspektən analiz edərək Anarın "altıncı mərtəbə"yə sadəcə bir neçə obrazı layiq gördüyünü deyə bilərik. Fikrimizcə, bu o deməkdir ki, ədəbiyyatın qədim zamanlardan bəri mövcud olan kamil insan problemi Anarın əsərlərində də həllini tam şəkildə tapa bilməmiş, lakin problemin həlli istiqaməti düzgün verilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Anar. Beşmərtəbəli evin altıncı mərtəbəsi. Bakı: Qanun, 2019, 316 s.
2. Abdulla M. Sürrealizm – sülh realizmi deyil // Kaspi, Bakı, 2012, 22-24 sentyabr, s. 16-17.

Açar sözlər: Anar, altıncı mərtəbə, psixologizm, qadın azadlığı, kamillik, cəmiyyət
Key words: Anar, sixth floor, psychologism, women's freedom, perfection, society
Ключевые слова: Анар, шестой этаж, психологизм, женская свобода, совершенство, общество

Anarın nəsrində "Altıncı mərtəbə"nin əlçatmaz kamilliyi problemi

Xülasə

Məqalədə Anarın nəsrində işıqlandırılan bir neçə əsas problemlərdən biri olan kamil insan problemi yazıçının yaradıcılığı üçün doğma olan "altıncı mərtəbə" fenomeni aspektindən tədqiq edilmişdir. Demək olar ki, əzəldən bəri mövcud olan və ədəbiyyatın əsas mövzu istiqamətlərindən biri kimi qiymətləndirilən bu problem istedadlı yazıçımız Anarın da qələminin əsərlərində qaldırılmışdır. Klassik ədəbiyyatdan bu günədək Nizami, H.Cavid kimi ədiblərin yaradıcılıqlarından süzülüb gələn bu mövzu Anarın da yaradıcılıq süzgəcindən keçmişdir. Müəllif müxtəlif əsərlərin hər birində fərqli formada əks etdirdiyi bu problemin ümumi həllinə yetərincə gəlib çıxa bilməmişdir. Buna səbəb isə cəmiyyətin çox az hissəsinin kamilləşməyə meyil etməsi, "altıncı mərtəbə"də məskunlaşmağı bacarmasıdır. Müəllifin insan psixikası ilə yaxından tanış olması və bunu əsərlərində hərtərəfli əks etdirməsi bizi tam şəkildə problemin həllinə gətirib çıxarmasa da, bu istiqamətdə xeyli yol qət edilməsinə şərait yaratmışdır. Psixologizmin müxtəlif ünsürlərindən istifadə edərək xarakterlərin daxili aləminə enilməsinə şərait yaradan müəllif obrazların əsərlər arasında müqayisə olunacaq dərəcədə eyni məqsədə xidmət etməsi üçün

müəyyən oxşarlıqlara yer vermişdir. Lakin oxşarlıqlar mövcud olmasına baxmayaraq eyni problemin ətrafına toplaşa biləcək bu qəhrəmanların yalnızca bir neçəsi məsələni həll etmiş formada buradan uzaqlaşa bilirlər.

The problem of unattaınable perfectıon of the "Sıxth floor" ın Anar's prose

Summary

In the article, the problem of the perfect person, which is one of several main problems highlighted in Anar's prose, is studied from the perspective of the "sixth floor" phenomenon, native to the writer's creativity. It can be said that this problem, which has existed since time immemorial and is regarded as one of the main topics of literature, was raised in the works of our talented writer Anar. This topic, filtered through the works of writers such as Nizami, H. Javid, from classical literature until today, has also passed through the creative filter of Anar. The author has not been able to come up with a general solution to this problem, which he reflects in a different form in each of his works. The reason for this is that only a small part of the society tends to improve and is able to settle on the "sixth floor". Although the author's close familiarity with the human psyche and its comprehensive reflection in his works did not lead us to a complete solution to the problem, it made it possible to go a long way in this direction. Using various elements of psychologism, the author created conditions for descending into the inner world of the characters, and made room for certain similarities so that the images serve the same purpose to the extent that they can be compared between the works. However, despite the presence of similarities, only a few of these heroes who can gather around the same problem can walk away from here having solved the problem.

Проблема «Шестого этажа» недостижимого совершенства в прозе Анара

Резюме

В статье проблема идеального человека, являющаяся одной из нескольких основных проблем, освещенных в прозе Анара, исследуется с точки зрения феномена «шестого этажа», свойственного творчеству писателя. Можно сказать, что эта проблема, существующая с незапамятных времен и считающаяся одной из главных тем литературы, была поднята в произведениях нашего талантливого писателя Анара. Эта тема, профильтрованная через произведения таких писателей, как Низами, Х.Джавид, от классической литературы до сегодняшнего дня, также прошла через творческий фильтр Анара. Автору не удалось найти общего решения этой проблемы, которую он отражает в разной форме в каждом своем произведении. Причина этого в том, что лишь небольшая часть общества стремится к улучшению и способна обосноваться на «шестом этаже». Хотя близкое знакомство автора с психикой человека и всестороннее ее отражение в его произведениях не привели нас к полному решению проблемы, они позволили далеко продвинуться в этом направлении. Используя различные элементы психологизма, автор создал условия для погружения во внутренний мир персонажей, освободил место некоторым сходствам, чтобы образы служили одной и той же цели в той мере, в какой их можно сравнивать между произведениями. Однако, несмотря на наличие сходства, лишь немногие из этих героев, способных собраться вокруг одной и той же проблемы, смогут уйти отсюда, решив задачу.

Rəyçi: fil.ü.f.d. dos. Həqiqət Abdıyeva

Nərmin Ədil qızı Qədirli [105]

MƏHƏMMƏD İQBAL YARADICILIĞINDA ŞƏRQ VƏ QƏRBİN GÜNDƏMƏ GƏTİRİLƏN ƏSAS PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI

Giriş. Pakistanın mütəfəkkir şairi, milli quruculuq ideyalarının müəllifi hesab olunan Məhəmməd İqbal Şərq dünyasında öz sözünü deməyi bacarmışdır. 1877-ci ildə indiki Pakistanın Siyalkot qəsəbəsində dünyaya gəlmiş, ilk təhsil pillələrini Şərqdə başa vurmuş, sonra Avropada təhsilini uğurla davam etdirmişdir. Şərq və Qərbdə yaşaması, eyni zamanda, hər iki mədəniyyətin daşıyıcılarının yaradıcılığından bəhrələnməsi Məhəmməd İqbala geniş dünyagörüşü və düzgün rakurs qazandırmışdır.

M.İqbalın əsərlərində Şərq problemləri

Məhəmməd İqbalın yaradıcılğında Şərqin problemlərinin gündəmə gətirilməsi əsas məsələlərdən biri olmuşdur. Müəllif bəzən bədii boyalar vasitəsilə, bəzən də birbaşa problemi ifadə etməklə cəmiyyətdəki mövcud vəziyyəti əks etdirmişdir. Müxtəlif aspektlərdən tədqiq olunan problemlərin bəzi məqamlarına diqqət edək.

Müstəmləkəçilik. Məhəmməd İqbalın yaşadığı dövrün mövcud ziddiyyətlərini tədqiq edərkən aydın müşahidə edə bilirik ki, sözügedən dövr siyasi və sosial cəhətdən kifayət qədər mürəkkəb xarakter daşıyırdı. Filosof şair Qərbin Şərqdə yeritdiyi müstəmləkə siyasətini hər zaman tənqid atəşinə tutmuşdur. Müstəmləkə vəziyyətində olan Şərqin talan edilməsi, maddi və mənəvi sərvətlərinin mənimsənilməsi müəllifi narahat edən problemlərdən biri idi. Bunu mütəfəkkir ədib bir çox əsərlərində diqqət mərkəzinə gətirmişdir. Müstəmləkə vəziyyətində olan Şərq tədricən yox olmağa, tamamilə Qərbin əsarətinə tabe edilməyə sürüklənirdi.

İmperializm. Qərbin Şərqə qarşı yeritdiyi imperializm siyasətini Məhəmməd İqbal heç bir zaman qəbul etməmişdir. İmperializmin Şərqin inkişafını ləngitdiyini, onu istismar edən başlıca amil olduğunu müəllif daim öz ümmətinə anlatmağa çalışmışdır. İmprializmlə yanaşı, kommunizm də müəllifin tənqid hədəfindən yayına bilməmişdir [6, s. 73].

Qərbin təqlidi. Mütəfəkkir ədibin əsərlərində qabardılan əsas problemlər arasında Qərbi təqlid önəmli yer tuturdu. Şərq aləminin qərblilərin düşüncə, yaşam, əxlaq və bir çox dəyərlərini təqlid etməsi müəllifi narahat edən əsas məsələlərdən biridir. Şərq aləminin öz milli dəyərlərini tərk edərək kor-koranə Qərbi təqlid etməsi müəllifi bu yolda həyəcanlı olmağa təşviq edir [5, s. 139]. Qərb səviyyəsində inkişafın yalnız təqlid vasitəsilə olmayacağına müəllif əmin idi. Bunun Şərq aləmini yalnız acınacaqlı vəziyyətə sürükləyəcəyini dəqiq planlaşdırmaq olardı. Öz milli dəyərlərinə sahib çıxa bilməyən Şərq təqlidlə məhvini planlamış kimi görünürdü. Müəllif bu yolda daim çağırışlar etmiş, həm bədii yaradıcılığı, həm də ictimai-siyasi fəaliyyətində sözügedən məsələləri ön plana çəkmişdir.

Qərb yönümlü siyasət. M.İqabalı narahat edən əsas mövzulardan biri Qərb yönümlü siyasət idi. Filosof ədibin düşündüyü, milli və bəşəri dəyərlərə əsaslanan cəmiyyət konsepsiyası üçün əsas maneələrdən biri də Şərq ölkələrinin Qərbə yönümlü siyasəti idi. Ərəbistan, İraq və bir çox Şərq ölkələrinin Qərb meyilli siyasəti Məhəmməd İqbalı bu baxımdan çox narahat edirdi. Həmin cəhəti, xüsusilə müəllifinn "Cavidnamə" əsərində müşahidə edə bilirik. Avropalı qız olaraq bəhs edilən şəxs hesab edirik ki, Qərbin Şərqə göndərdiyi Gertrude Belldir. Gertrude Bell XX əsrin əvvəllərində Şərqə gələrək onun siyasət, coğrafiya cəhətdən dəyişməsində əsaslı rolu olmuş bir şəxsiyyətdir. G.Bellin Şərqin coğrafi planını hazırlamaq, buradakı vəziyyəti öz dövləti İngiltərəyə çatdırmaq, ərəb dünyasını Osmanlıdan ayırmaq, eyni zamanda, İraqa Feysəlin hökmdar seçilməsi yolunda göstərdiyi xidmətləri, təbii ki, inkar edilə bilməz [7].

Məhəmməd İqbal da onun barəsində bu şəkildə söz açır:

"Getdi Hicaz çölünə çatdı,
Şərqdə və Qərbdə nə gördüsə, yazdı,
Cənnət bağçasından rəngli idi yazdıqları" [2, s. 131].

Millətçilik. Filosof şairə görə, millət insanları bir-birindən ayırmaq üçün ortaya atılmış bir qavramdır. Millət anlayışı Məhəmməd İqbalın təfəkküründə insanların birliyini pozmaq üçün yaradılmış bir qavramdır. İnsanlar bir-birilə dost və qardaşdır. Millət ifadəsi sadəcə insanların düşüncəsində ayrı seçkiliyi yaradır. Qeyd etmək lazımdır ki, mütəfəkkirin yaradıcılığında və fəaliyyətində milli məsələlər də önəmli yer tutur, sadəcə Məhəmməd İqbal ifrat milliyətçiliyin tərəfdarı deyildi, o bunu həm mənəvi, həm də siyasi inkişafa zidd sayırdı.

Məzhəbçilik. Məzhəbçilik sözügedən dövrdə Şərq dünyası üçün əsas problemlərdən biri hesab olunurdu. Müsəlmanların dini məzhəb cəhətdən bir-birlərini xor görməsi təbii olaraq onların parçalanmasını, eyni zamanda, düşmənçiliyini təmin edirdi. Müsəmanların məzhəb cəhətdən ayrı olması, Qərbin bundan istifadə edərək onlar arasında nifaq və ziddiyyətlər yaratması müəllifi bu problemi diqqət mərkəzində saxlamağa sövq etmişdir. Məhəmməd İqbala görə, məzhəb anlayışı siaysi oyunlardan biridir [2, s. 273].

Düşüncə tərzi. Müəllifin yaradıcılğı boyu gündəmdə tutduğu əsas problemlərdən biri insanların düşüncə tərzi idi. Məhəmməd İqbal hər iki yarımkürənin düşünürlərinin fikirləri ilə tanış bir şəxsiyyət idi. İqbal bilirdi ki, Şərqin tarixi inkişafında böyük mütəfəkkirləri olmuşdur. Şərq Məhəmməd peyğəmbər, Firdovsi, Nizami, Tusi, Rumi və bir çox dahi şəxsiyyətlər yetişdirməyi bacarmışdır. Bütün bunlara baxmayaraq, mövcud cəmiyyətdə düşünmək və mühakimə yürüdə bilmək sahəsində ciddi problemlər müşühidə olunurdu, insanlar daim başlarına gələn hər şeyi qədər hesab edir, baş verən

[105] Bakı Dövlət Universitetinin magistrantı nerminqedirli2001@gmail.com

bütün ədalətsizlikləri normal qəbul edirdilər. Bu da, öz növbəsində, insanları sıradan biri olmağa, hər şeyə boyun əyməyə vadar edirdi.

Köləlik. Bir çox Şərq mütəfəkkirləri kimi Məhəmməd İqbalı da narahat edən əsas problemlərdən biri köləlik idi. Məhəmməd İqbal köləlik barədə bir çox məqamları qeyd etməkdən çəkinməmişdir [5, s. 109-119]. Hindistanda eləcə də bir çox Şərq ölkələrində olan köləlik insanların hüquq və azadlıqlarının istismarı kimi dəyərləndirilirdi. İnsanların kölə vəziyyətinə salınması Qərbin siyasəti, eyni zamanda, daxili hərc-mərclik sayəsində baş verirdi. Kölə olan bir fərd artıq öz həyatını və yaşamının səbəbini unudurdu [2, s. 215]. Onun tək dərdi deyilənlərə itaət və öz ağasını məmnun etməkdir. Kölə real həyatın anlamını dərk etməkdə acizlik göstərər, ömrünü sükunətdə keçirə bilərdi [3, s. 95].

Satqınlıq. Satqınlıq tarix boyu bir çox nəhəng imperiyaların süqutuna səbəb olmuş əsas problemlərdən biridir. Müəllif vətəninə xainlik edən şəxslərə qarşı hər zaman sərt mövqedə olmuş, insanlara da bunu təlqin və təbliğ etmişdir. "Cavidnamə" əsərində öz vətəninə xəyanət etmiş real şəxsiyyətlər olan Benqallı Cəfər və Dehqanlı Sadiqin bədii obrazları vasitəsilə bütün xainləri ifşa etmiş, mövcud vəziyyətin onların əməllərinin nəticəsi olduğunu göstərmişdir [2, s. 196]. Müəllif Cəfər və Sadiqlərin insanlara pis nümunə olduğunu, onlardan örnək alanları da eynilə tənqid etmişdir. Müəlif Cəfər və Sadiqin aqibətini göstərməklə zamanəsinin insanlarını bundan ibrət almağa dəvət emişdir.

Qadın hüquqsuzluğu. Şərq aləminin əsas problemləri arasında qadın məsələsi əhəmiyyətli yer tutur. Məhəmməd İqbal qadın hüquqsuzluğuna öz münasibətini bildirmiş, problemi və həlli yollarını göstərməyə çalışmışdır. İqbala görə, qadınların boşanan zaman kişilərlə bərabər hüquqa sahib olmaları lazımdır [4, s. 207]. Bunun təmin edilə bilməməsinin əsas səbəbini müəllif köhnə qanunlar, hakimlərin istinad edəcək başqa bir mənbələrinin olmamsında görürdü [4, s. 207]. Filosof ədib qadın hüquq və azadlıqlarının təmin edilməsi tərəfdarı olmuşdur. İqbal bütün bunları Qərb modernizmi deyil, İslam dəyərləri çərçivəsində həyata keçirməyin tərəfdarı idi. Məhəmməd İqbal qadın və kişinin mütləq bərabərliyini qəbul etməmiş, onların hər birinin öz dəyəri olduğu qənaətində olmuşdur. Ali Nihat Tarlanın qənaətinə görə, Məhəmməd İqbal qadının birinci vəzifəsini ana olmaq, cəmiyyətə ağıllı övladlar bəxş etmək olduğunu hesab edirdi [5, s. 126].

Qərb dünyasının əsas problemləri

Məhəmməd İqbalın hər iki yarımkürədə yaşaması, eyni zamanda, mütaliəli bir şəxsiyyət olması həm Şərq, həm də Qərb barədə öz rakursunu sərbəst şəkildə yürüdə bilməsinə səbəb olmuşdur. Mütəfəkkir ədib Qərb siyasi xadim, iqtisadçı, filosof, şair və yazıçılarının əsərlərilə tanış olmuş, onlar barədə öz fikirlərini bildirmişdir. Müəllif əsərlərində Karl Marks, Nitşe, Kiçenner, Makedoniyalı İsgəndər, Dante, Höte, Hegel, Ziqmund Freyd, Enşteyn, Nyuton və digərlərinin adlarını çəkmiş onların müxtəlif düşüncə sistemlərini şərh etmişdir. Xüsusilə də, "Cavidnamə" və "İslamda dini düşüncənin yenidən inşası" adlı əsərləri bu baxımdan diqqətəlayiqdir. Sözügedən əsərlərdə adlarını çəkdiyimiz şəxsiyyətlərin bəzi məqamlarda Şərq düşünürləri ilə təzadlı görüşləri müşahidə olunur. Bunun üçün "Cavidnamə" və "İslamda dini düşüncənin yenidən inşası" əsərlərini mütaliə etmək kifayətdir. Müəllif hər zaman üstünlüyü Şərqə vermiş, Qərbdə kəşf olunan bir çox yeniliklərin Şərq aləmində əvvəllərdən məlum olmasını diqqətdə saxlanılmışdır. Qeyd etmək lazımdır ki, Məhəmməd İqbal Qərb sivilizasiyasının bir çox önəmli məsələlərindən bəhrələnməyin də Şərq üçün əhəmiyyətli olacağını dəfələrlə vurğulamışdır.

Qərb düşüncə tərzi və siyasəti. Məhəmməd İqbalın dünyagörüşünün Şərq və Qərb mədəniyyətinin sintezi əsasında formalaşmasına baxmayaraq, bir çox Qərb fikirləri müəllifə zidd idi. Qərblilərin bəzi məqamlarda rasionalizmə meyilli olması, ruh və mənəvi dəyərlərdən uzaqlığı müəllifin onları "qəlbləri ölüdür" fikrini səsləndirməyə vadar etmişdir [2, s. 84]. Müəllif Qərb aləminin raionzalim və materilizm barədə həddən artıq mühafizəkar mövqedə olmalarına tənqidi münasibət bildirmişdir. Qərblilərin hər şeyə skeptik münasibəti onların siyasətinə də yansıyırdı. Qərb dünyası siyasi meydanda özündən başqasına güvənməyərək, yalnız öz ağalğını təmin etməyə çalışır. Bu cəhət də Məhəmməd İqbalın qəti şəkildə sərt mövqeyinə səbəb olmuşdur. Qərblilərin parçalama, nifaq salma adətləri Məhəmməd İqbal üçün barışılmaz hal idi.

Hegemoniya. Demək olar ki, sözügedən dövr dünya üçün aktual problemlərdən biri hegemoniya idi. XX əsrin əvvəllərində baş verən dünya müharibəsi bunun aydın sübutudur. Qərb ölkələri, xüsusən Avropa bu müstəvidə öz iqtidar və gücünü bərpa etmək üçün əlindən gələni əsirgəmir. Bütün bunlar İqbalın yaradıcılığında öz əksini tapmışdır. Mussolini barədə İqbal yazırdı: "Cahanı almaq dərdi yoxdursa, bu bədbəxtlik mümkün deyil" [2, s. 59].

Şərq aləminə bəslənilən mənfi münasibət və qərəzli mövqe. Sərqə ikili standartlardan yanaşma Məhəmməd İqbalın dövrü üçün də aktual olmuşdur. Qərb mütəfəkkirlərinin əsərlərini mütaliə edərkən də onların Şərq şəxsiyyətlərinə, yaratdıqları şərqli obrazlarına münasibətdə bunu aydın müşahidə edə bilirik. Məhəmməd İqbal bu cəhəti aydın dərk edən ədiblərdən biri olmuş, problemi daim diqqət mərkəzində saxlamışdır. Əsərlərində obrazların bədii dili, yaxud birbaşa müəllif təhkiyəsi ilə qərblilərin Şərq düşüncələrini şərh etmişdir. Xüsusilə də, Məhəmməd peyğəmbəri psixopat adlandıran Qərb alimi George Foxa öz mövqeydini ifadə etmiş, əsaslı sübutlarla onun yanlış olduğunu bəyan etmişdir [4. s. 229].

Şərq və Qərb problemlərinin İqbal yaradıcılığında həlli yolları

Mənlik. Əminliklə söyləmək olar ki, İqbalın yaradıcığında mənlik məsələsi əsas qayəni təşkil edir. Məhəmməd İqbal hesab edir ki, dəyişim üçün, ilk növbədə, insanın daxili günəşi hesab etdiyi mənliyinə, yəni daxili kimliyinə bələd olması vacibdir [1, s. 38-56]. Öz mənini kəşf edən insan artıq düşüncə tərzini dəyişər, başına gələnlərə fərqli münasibət bəsləyər. Həyatını qədər adlı oyundan qurtarar [2, s. 242].

Təhsil. Təhsil, elm və maariflənmə tərəqqinin əsas təkanverici qüvvəsi hesab olunur. Məhəmməd İqbal cəhalətin azalması, insanların düşüncə tərzlərini formalaşdıra bilmələri üçün təhsili önəmli faktor hesab edir. Bu baxımdan filosof-şair Qərb aləminin də gücünün elmdən aldığını etiraf etmişdir [2, s. 236-237].

Mübarizə. İnkişafın əsas faktoru mübarizədir. İnsan iradə göstərməli, lazımi şəkildə öz cəsarət və hünərini ortaya qoymağı bacarmalıdır. Dəyərləri uğrunda savaşmaqdan çəkinməməlidir.

Qərbin tənqidi. Məhəmməd İqbala görə, Şərq aləmi üçün Qərbin tənqidi də çox önəmlidir. Şərq aləmi kor-koranə Qərbi təqlid etmək əvəzinə, onu düzgün dəyərləndirib tənqid etməlidirlər. Şair yazır:

"Qərbin təqlidi Şərqi özündən uzaqlaşmağa gətirdi,
Əslində, bu ümmətə Qərbin tənqidi lazımdır" [2, s. 236].

Müsəlmanların birliyi. Müsəlman birliyi, ümumiyyətlə müsəlmanlıq düşüncəsi Məhəmməd İqbalın ədəbi-fəlsəfi dünyagörüşünün əsasını təşkil edən nüanslardan biridir. Müsəlman dünyasında baş verən siyasi və sosial hərc-mərclik, təriqət, məzhəb ayrılıqları onların qüdrətini itirməyinə, bir-birlərinə düşmən olmalarına səbəb olmuşdur. Müəllif hesab edir ki, bütün bu ayrı seçkilik əsassız və lazımsızdır. Müsəlmanlar vahid islamın təməl dəyərləri əsasında birləşməlidirlər. Məhəmməd İqbal bu baxımdan "ideal cəmiyyət" konsepsiyasını irəli sürmüşdür. Həmin cəmiyyət coğrafiaydan asılı olmamalı, onun ərazisi bütün müsəlmanların yaşadığı məkanı əhatə etməlidir. İdeal cəmiyyətdə millət anlayışı əvəzinə, qardaşlıq anlayışı irəli sürülür. Burada könül birliyi dil birliyindən üstündür [1, s. 164]. İqbala görə, ideal cəmiyyətin qanunları Quran dəyərləri əsasında müəyyən edilməlidir [4, s. 203]. İdeal cəmiyyətin paytaxtı Məkkə şəhəri olmalı, müsəmanların birliyini, qardaşlığını təmsil etməlidir. Bütün bunlar geniş şəkildə Məhəməmməd İqbalın "İslamda Dini düşüncənin yenidən inşası" əsərində öz əksini tapmışdır.

Nəticə. Məhəmməd İqbalın yaradıcılığı, Şərq və Qərbin sintezini özündə ehtiva edən ədəbi fəaliyyəti onu bir neçə aspektdən təhlil üçün əsas verir. Mütəfəkkir şairin fəlsəfə, siyasət, hüquq elmlərini dərindən bilməsi tədiqatların müxtəlif aspektlərdə aparıla bilməsini müəyyənləşdirmişdir. Ədibin yaradıcılığı Şərq, eyni zamanda, Qərb dünyası üçün böyük rezonans doğurmuşdur. Məhəmməd İqbal mədəniyyətlərarası körpü rolunu oynamış, öz yaradıcılığı boyu Şərq və Qərb arasında müqayisə və ümumiləşdirmələri kifayət qədər düzgün və əsaslı şəkildə apara bilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. İkbal, Doğudan Esintiler, Çeviren Ahmet Asrar, Düşünce yayınları İstanbul 1981.
2. İkbal Muhammed. Cavidname. Tercüme eden: Halil Toker. İstanbul, Kaknus yayınları, 2014.
3. İkbal Muhammed. Esrar ve Rumuz, Esrar-ı Hodi, Rumuz-ı Bihodi. Çeviri: Ali Nihat Tarlan. İstanbul, Timaş yayınları 2017.
4. İkbal Muhammed. İslamda Dini Düşüncenin Yeniden İnşası. Çeviri Rahim Acar. İstanbul, Timaş yayınları 2017
5. İkbal Muhammed. Kulluk Kitabı, Hicaz Armağanı, Yeni Gülşen-i Raz, Musa Vuruşu. Çeviri: Ali Nihat Tarlan. İstanbul, Timaş yayınları 2017.
6. Məhəmməd İqbal. Seçilmiş əsərləri. Bakı: Elm və təhsil. 2021.
7. https://www.britannica.com/biography/Gertrude-Bell

Açar sözlər: Məhəmməd İqbal, Şərq və Qərb konteksti, ədəbi tənqid, mədəni dialoq
Key words: Muhammad Iqbal, Eastern and Western context, literary criticism, cultural dialogue
Ключевые слова: Мухаммад Икбал, восточный и западный контекст, литературная критика, культурный диалог

Xülasə

Məqalə Şərq ədəbiyyatının görkəmli mütəfəkkirlərindən olan Məhəmməd İqbalın ədəbi fəaliyyətində Şərq və Qərbin gündəmə gətirilən əsəs problemləri və həlli yollarını araşdırır. Şərq yarımkürəsinin əsas problemləri və onların mənbəyi diqqət mərkəzinə gətirilərək tədqiq edilir. Onların Məhəmməd İqbal yaradıcılığında əks olunma məqamları göstərilir. Qərbin əsas problemləri barədə məlumat verilir. Məhəmməd İqbalın yaradıcılığında bu problemlərə münasibət haqqında fikirlər bildirilir. Qeyd olunan problemlərin həlli yolları Məhəmməd İqbalın rakursundan şərh edilir.

The main problems of the East and the West in the work of Muhammad Iqbal and their solutions
Summary

The article examines the main problems and solutions brought to the agenda of the East and the West in the literary activity of Muhammad Iqbal, one of the prominent thinkers of Eastern literature. The main problems of the Eastern Hemisphere and their sources are brought to the center and studied. There are moments of their reflection in Muhammad Iqbal's work. The main problems of the West are reported. In the works of Muhammad Iqbal, ideas about the attitude to this development are determined. The solutions to the mentioned problems are interpreted from the point of view of Muhammad Iqbal.

Основные проблемы Востока и Запада в творчестве Мухаммада Икбала и их решения
Резюме

В статье рассматриваются основные проблемы Востока и Запада и их решения в творчестве Мухаммада Икбала, одного из выдающихся мыслителей восточной литературы. В центр внимания и изучения вынесены основные проблемы Восточного полушария и их источник. Показаны моменты их отражения в творчестве Мухаммада Икбала. Освещены основные проблемы Запада. В произведениях Мухаммада Икбала выражены представления об отношении к этим проблемам. Пути решения указанных проблем интерпретируются с точки зрения Мухаммада Икбала.

Rəyçi: Bəsirə Höccət qızı Əzizəliyeva, filologiya üzrə elmlər doktoru

Kəmalə Rəhimli [106]

CÜMLƏ ÜZVLƏRİNİN SİNTAKTİK TƏHLİLİNİN TƏDRİSİ

Cümlə üzvləri baş və ikinci dərəcəli üzvlər olmaqla ona görə iki yerə ayrılır ki, beləliklə bunlar cümlə üçün eyni dərəcəyə malik deyildir. Üzvlərin bəzisi cümlənin qrammatik əsasını, bel sütununu təşkil edir. Digər bir qismi həmin üzvləri dəqiqləşdirməyə dolgunlaşdırmağa xidmət edir. Bildiyimiz kimi cümlə üzvlərindən mübtəda və xəbər cümlənin baş üzvləri kimi onun qrammatik əsasını təşkil edir.

Lüğəvi mənaya və qrammatik şəklə malik hər bir söz və ya söz birləşməsi cümlə üzvü ola bilər. Cümlə üzvlərindən bəziləri cümləni quruluş cəhətdən yaratmaqda və bitmiş bir fikri ifadə etməkdə ən zəruri və həlledici əhəmiyyətə malikdirsə, digərləri bunları izah etməyə, aydınlaşdırmağa, mənalarını tamamlamağa xidmət edir. Bunlardan birincilər baş üzvlər, ikincilər isə ikinci dərəcəli üzvlər adlanır [1, s. 104].

Orta ümumtəhsil məktəblərində sintaktik bölmənin tədrisinin başlıca məqsədi bir tərəfdən şagirdlərdə mücərrəd təfəkkürü inkişaf etdirmək, digər tərəfdən isə onlarda kommunikativ bacarıqlar formalaşdırmaq və təhlil olunacaq hər hansı bir cümlənin növü, quruluşu və ən incə məna xüsusiyyətləri haqqında ətraflı təsəvvür yaratmaqdır. Bu bacarıqları inkişaf etdirərək formalaşdırmaq üçün bir neçə tələb irəli sürülür:

– Cümlədə sözlərin və mətndə cümlələrin bir-biri ilə birləşməsinin əsas qaydalarını şagirdlərə dərk etdirmək; Bunun üçün dərslik və müəllimin izahı əsas götürülür.

– Sadə mürəkkəb cümlələrdə sözlərin məna əlaqələrini qrammatik qanunlara əsasən izah etmək; Bu zaman qrammatik təhlillərdən istifadə etmək lazımdır.

– Şagirdləri müxtəlif növlü çalışmalar üzərində işlətməklə sözlərin semantik əlaqələrini düzgün dərk etmək və durğu işarələrindən doğru şəkildə istifadə vərdişləri formalaşdırmaq; Dərsdə bu xüsusiyyətlərə xüsusi diqqət yetirilməlidir.

Sintaktik təhlil morfoloji təhlillə birləşdikdə onun praktik dəyəri daha da artır, fəndaxili əlaqə yaranır, şagirdlərin fəallığı yüksəlir. Sintaktik təhlil zamanı bu və ya digər cümlə üzvünün ifadə olunduğu nitq hissəsi ilə əlaqədar müntəzəm sorğunun aparılması iki cəhətdən faydalıdır:

1) cümlə üzvləri ilə nitq hissələri arasındakı fərq aydınlaşdırılır;

2) morfologiya üzrə keçilmiş materiallar müntəzəm olaraq təkrarlanır.

Sintaksisə aid olan məşğələlərdə şagirdlərə sintaktik formaların əhəmiyyəti, onun üslubi imkanları və nitqdə işlənmə yerləri izah edilməlidir. Məktəbdə sintaksis üzrə məşğələ apararkən, həmişə ayrı-ayrı cümlələr üzərində işləmək lazım gəlir. Dərs prosesində bu cür təhlillər aparmaq üçün şagirdlər əvvəlcə cümlə söyləməli, sonra isə sintaktik təhlil aparmalıdırlar. Müəllim onların söylədikləri cümlə üzərində redaktə işi aparmalı və nöqsanları elə oradaca şagirdlərə göstərməlidir. Sintaktik təhlil zamanı uşaqlara cümləni intonasiyaya görə müəyyənləşdirməyi, cümlədə sözlər arasında əlaqələri düzgün təyin etməyi, baş üzvlər və ikinci dərəcəli üzvləri, söz birləşmələrini, mürəkkəb cümləni təşkil edən sadə cümlələri tapmağı öyrətmək lazımdır.

Sintaktik təhlilə başlamazdan əvvəl müəllim şagirdlərə izah etməlidir ki, bu cür təhlil zamanı sözləri ayrılıqda deyil, cümlə içərisində nəzərdən keçirmək lazımdır.

Sintaktik təhlilin iki növü var:

1. Cümlə üzvlərinə görə təhlil;
2. Cümlənin quruluşuna görə təhlil [2, s. 99].

Hər iki təhlildə aşağıdakı ümumi olan cəhətləri görmək mümkündür:

– hər iki halda lazım gəldikdə cümlənin alındığı mətnə görə mənası və əhəmiyyəti müəyyən edilir;

– cümlənin növü müəyyən edilərək ona tam xarakteristika verilir.

Sintaktik təhlilin hər iki növündə cümlənin mənası və əhəmiyyəti müəyyən edilir. Cümlənin növü müəyyən edilərək ona tam xarakteristika verilir. Sintaktik təhlillər apararkən şagirdləri onlara tanış olan mətnlərdən götürülmüş ayrı-ayrı cümlələr üzərində işlətmək lazımdır.

Sintaktik təhlil təkrar üçün ayrılan dərs saatlarında da öyrədilir. Sintaktik təhlil zamanı da şagirdlər hər hansı bir cümləni yazıb həm şifahi, həm də yazılı izahat aparırlar. Müəllim cümlə üzvlərinə görə təhlilə başlamazdan əvvəl sadə cümlənin ümumi xarakteristikası-seçilmiş cümlənin intonasiyaya görə növləri, müxtəsər və geniş, şəxsli və şəxssiz, bütöv və ya yarımçıq cümlə olduğu haqqında şagirdləri məlumatlandırmalıdır.

Cümləni sintaktik cəhətdən təhlil edərkən, orada morfoloji və bəzən fonetik təhlil aparmaq da lazım gəlir ki, bu da fəndaxili inteqrasiya vasitəsilə əvvəlki mövzulardan da yada salınmasına şərait yaradır. Lakin məlumdur ki, bunu hər dəfə və həmişə aparmaq olmaz. Deməli, təhlilin növü keçilən dərsin məqsədindən asılıdır. Əgər məqsəd şagirdlərin diqqətini sintaksis ətrafında mərkəzləşdirməkdirsə, burada sintaktik təhlillə kifayətlənmək olar. Lakin cümlə üzvlərinin hansı nitq hissələri ilə ifadə olunmasını müəyyənləşdirmək və onu yaxşı dərk etmək lazım gəldikdə, morfoloji təhlilə də müraciət edilməlidir.

Azərbaycan dilinin qrammatik quruluşunun mənimsədilməsi prosesində istifadə olunan yollardan biri də fəal təlim metodlarıdır. Sadə və mürəkkəb cümlənin tədrisi zamanı istifadə olunan qrammatik təhlillərdən sonra BİBÖ, Venn diaqramı, Klaster (şaxələndirmə) metodlarının tətbiqi əldə olunan biliyin uzun müddət yadda qalmasına kömək edir [3, s. 51-55].

[106] Bakı Dövlət Universitetinin magistrantı. kemalerehimli347@gmail.com

"Cümlə üzvlərinin sintaktik təhlili qaydası" mövzusunda dərsin təşkilinə dair nümunəyə nəzər salaq.

Əvvəlki mövzu: Cümlə üzvləri. Cümlənin baş və ikinci dərəcəli üzvləri.

Yeni mövzu: Cümlə üzvlərinin sintaktik təhlili qaydası.

Məqsəd: Şagirdlərin müstəqil düşünmə qabiliyyətlərini inkişaf etdirmək yolu ilə cümlə üzvləri və onların ifadə vasitələri haqqında öyrəndiklərini daha da genişləndirmək və möhkəmləndirmək.

Metod: İnteraktiv metod: qruplar, əqlə hücum, işgüzar səs-küy, müsahibə və s.

Dərsin təchizi: "Azərbaycan dili" dərsliyi, əyani vəsaitlər, biletlər, krosvord və testlər.

Dərsin planı:

1. Sinfin təşkili.
2. Ev tapşırıqlarının yoxlanılması.
3. Keçmiş mövzu ilə bağlı müsahibə yaxud biletlər vasitəsi ilə sual-cavab aparılması.
4. Keçmiş və yeni mövzunu əlaqələndirmək. Yeni mövzu barədə izahın verilməsi.
5. Yeni mövzunun şagird tərəfindən dərindən öyrənib möhkəmləndirməsi məqsədi ilə müsahibə, biletlər ilə iş, test tapşırıqlarının yazılması.
6. Yeni mövzuya dair biliklərin şagirdlər tərəfindən qazanılmasının qiymətləndirilməsinin aparılması.
7. Ev tapşırığının verilməsi.

Dərsin gedişi:

Şagirdlər 5 qrupa bölünür: Mübtəda, Xəbər, Tamamlıq, Təyin, Zərflik. Qrup liderləri təyin olunur və onlar qruplarındakı şagirdlərin davamiyyəti ilə bağlı məlumat verirlər. Müəllim şagirdlərin ev tapşırıqlarını yoxlayır.

Daha sonra keçmiş dərslə bağlı sual-cavab edilir. Bu zaman əqlə hücum metodundan istifadə edilir:

M: Söz birləşmələrinin quruluşca növləri hansılardır?

Ş: Söz birləşmələri quruluşca sadə və mürəkkəb olur. Sadə söz birləşmələri iki müstəqil sözdən ibarət olursa, mürəkkəb söz birləşmələri üç və daha artıq mürəkkəb sözün birləşməsindən ibarət olur.

M: Cümlə üzvlərinin quruluşca növləri hansılardır?

Ş: Sadə və mürəkkəb cümlə üzvləri. Sadə cümlə üzvləri bir sözdən ibarət olur. Mürəkkəb cümlə üzvləri iki və daha artıq sözdən ibarət olur.

Müsahibə mərhələsindən sonra müəllim hər qrupa xüsusi vərəq təqdim edir və bu vərəqlərdə keçmiş mövzu ilə bağlı suallara yer verilir. Cavablar müəllimə təqdim olunduqdan sonra hər qrupun cavabları liderlər tərəfindən təqdim olunur.

Müəllim keçmiş mövzu ilə yeni mövzu arasında əlaqə yaratmaq üçün şagirdlərə məlumat verir ki, onlar artıq sadə cümlənin sintaktik təhlili ilə bağlı müəyyən biliklərə sahibdirlər və bu dərsin məqsədi mövcud bilikərinin genişləndirilməsidir. Bundan sonra müəllim proyektor vasitəsilə sadə cümlənin sintaktik təhlil qaydası və cümlə üzvlərinin şərti işarələrini elektron lövhədə şagirdlərə göstərir. Bu zaman cümlələr üzərində sintaktik təhlillər aparılır.

Şagirdlərin müstəqil işi üçün müəllim hər qrupa sintaktik cəhətdən təhlil edilməsi üçün cümlələr təqdim edir. Bundan sonra onların cavabları yoxlanılır və qiymətləndirilir. Yekun olaraq cümlə üzvləri və onların sintaktik təhlilinə dair test tapşırıqları şagirdlərə təqdim olunur. Bunda sonra isə müəllim tərəfindən şagirdlərin ümumi qiymətləndirməsi aparılır və onlara ev tapşırığı müəyyənləşdirilir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis, Bakı: Şərq-Qərb, 2008, 423 s.
2. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, 1998.
3. Azərbaycan dili dərslik. VIII sinif. Bakı: Şərq-Qərb, 160 s.
4. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili (cümlə üzvləri), Bakı, 1947.
5. Maqsudov E.Cümlə və cümlə üzvlərinin tədrisində poetik-praktik çalışmalarla işin təşkili. //Azərbaycan dili və ədəbiyyatı tədrisi: jurnal. 2016, №1, s. 36-44.

Açar sözlər: sadə cümlə, cümlə üzvləri, baş üzvlər, mübtəda, xəbər, sintaktik təhlil

Key words: simple sentence, sentence members, Prime members, subject, news, syntactic analysis

Ключевые слова: с простым предложением, члены предложения, главные члены, предисловие, новости, синтаксический анализ

Xülasə

Cümlə üzvü dedikdə bir-biri ilə məna və qrammatik cəhətdən bağlı olan, müstəqil sintaktik vəzifə daşıyan sözlər və birləşmələr nəzərdə tutulur. Cümlə üzvləri baş (mübtəda və xəbər) və ikinci dərəcəli (təyin, tamamlıq, zərflik) formasında təsnif edilir. Bu məqalədə cümlə üzvlərinin sintaktik təhlili problemi və onun tədrisindən bəhs edilir. Cümlə üzvlərinin sintaktik təhlilinin tədrisinin tədqiqi orta məktəb proqramı əsasında aparılmışdır. Bu zaman sintaktik təhlil morfoloji təhlil arasındakı qarşılıqlı əlaqədən bəhs edilmişdir. Bununla belə, məqalədə "Cümlə üzvlərinin sintaktik təhlili qaydası" mövzusunda dərsin təşkilinə dair nümunə verilmişdir. Dərs nümunəsi kiçik qruplarla iş formasında təqdim olunmuşdur.

Summary

By a member of a sentence we mean words and combinations that are connected with each other in meaning and grammatically, carrying an independent syntactic task. Members of the sentence are classified in the form of the main (subject and news) and secondary (designation, completeness, adverbial). This article deals with the problem of syntactic analysis of sentence members and its teaching. The study of teaching syntactic analysis of sentence members was carried out

on the basis of the secondary school program. In this case, syntactic analysis has been talked about the interaction between morphological analysis. However, the article provides an example of organizing a lesson on the topic "the procedure for syntactic analysis of sentence members." The lesson sample is presented in the form of work with small groups.

Резюме

Под членом предложения понимаются слова и сочетания, которые связаны между собой смыслом и грамматически, несут самостоятельную синтаксическую задачу. Члены предложения подразделяются на главные (Благовещение и весть) и второстепенные (обозначение, завершенность, наречие). В данной статье рассматривается проблема синтаксического анализа членов предложения и его преподавание. Исследование обучения синтаксическому анализу членов предложения проводилось на основе программы средней школы. В это время синтаксический анализ упоминалось о взаимодействии между морфологическим анализом. Однако в статье приведен пример организации урока по теме" Порядок синтаксического анализа членов предложения". Пример урока представлен в форме работы с малыми группами.

RƏYÇİ: dos. E.Vəliyeva

Arzu Məmmədzadə [107]

BƏDİİ ƏSƏRİN İDEYA-MÖVZU XÜSUSİYYƏTLƏRİ VƏ BU XÜSUSİYYƏTLƏRİN ORTA MƏKTƏB DƏRSLİKLƏRİNDƏ TƏQDİMİ

Cəmiyyətdə baş verən proseslər və həyat həqiqətləri bədii əsərlərdə obrazlı şəkildə inikas olunur. Gerçəkliklər, real və ya xəyali hadisələr bədii əsərlərdə obrazlar vasitəsilə təcəssüm etdirilir, obrazlı şəkildə öz ifadəsini və bədii həllini tapır. Bədii əsərlərdə təsvir edilən hadisə və əhvlatlar həyatda və reallıqda olduğu kimi əks edilməyə bilər. Bədii əsər yazıçının bədii təfəkkürünün və qanadlı təxəyyülünün məhsulu kimi ərsəyə gəlir. Hadisə və problem ilk növbədə onun diqqətini cəlb edir, yaradıcılığına rövnəq qatır və şaxələndirir. Sənətkar hər hansı bir əsəri ədəbiyyatşünaslığın tələbləri əsasında, söz sənətinin səciyyəvi cəhətlərini nəzərə almaqla qələmə alır. Bədii əsər yaranana qədər söz sənətinin müxtəlif mərhələlərini qət edir. Bədii əsərinyaranmasında yazıçının müşahidələri, ümumi dünyagörüşü və həyata baxışları, siyasi əqidəsi, ətraf aləmdə baş verən proses və hadisələri dərk etməsi, analiz və təhlilləri, əldə etdiyi qənaətlər və s. məsələlər əhəmiyyətli rol oynayır. Başqa tərzdə desək, obrazlı mətnlərin cövhəri və mayası müşahidələrdən qaynaqlanır. Məhz müşahidələr həyat hadisələrinin bədii şəklə düşməsində başlıca rol oynayır. Çünki əsərin mövzusu müşahidələr əsasında formalaşır, mövzunun özü isə obrazlı mətni hasilə gətirir. Mövzu seçimi bədii əsərin əmələ gətirilməsi üçün ilk mərhələ sayılır. Ədəbiyyatşünaslıqda mövzuya verilən tərifl ər, demək olar ki, eynidir. Mövzu yazıçının müəyyən ideya-siyasi cəhətdən seçib, əsərində işıqlandırdığı həyat hadisəsi [3, s. 115] kimi xarakterizə edilir. Mövzu - yazıçının ictimai şüurunda həyatın inikası deməkdir [4, s. 86]. Ədəbi əsərlərin məzmunu aktuallıq, tarixilik, ictimailik və s. cəhətlərdən təsnifatlandırılır.

Müəyyən bir cəmiyyətdə yaşayan və fəaliyyət göstərən yazıçı nəinki həyat hadisələrinin müşahidəçisi, həm də onun aktiv və ya passiv formada iştirakçısına çevrilir. Bu və ya digər mühitdə ədəbi fəaliyyyətlə məşğul olan yazıçı müxtəlif hadisələrin şahidi olur, müxtəlif insanlarla qarşılaşır, onlarla qarşılıqlı əlaqə və münasibətlərdə olur. Bütün bu faktlar yazıçını təsirləndirir. Hadisələrin hamısı ona eyni dərəcədə təsir bağışlamaya bilər. Yazıçı hadisələrdən müxtəlif şəkildə təsirlənir, nəticə və qənaətlər çıxarır. Müşahidələri əsnasında o, diqqətini daha çox çəkən fakt və hadisələri bədii əsər üçün obyekt olaraq seçir, hadisələrin təfərrüatları və elementləri onun materialına çevrilir. Məsələn, görkəmli dramaturq C.Cabbarlının əksər dram əsərlərinin (“Bakı müharibəsi”, “1905-ci ildə” və s.) və şeirlərinin mövzusu yaşadığı dövrlə birbaşa əlaqəli olmuş, həmin zamanın güzgüsünə dönüşmüş və baş verən hadisələr əsərlərinin məzmununu formalaşdırmışdır. Böyük sənətkar tarixi əsərlərində ötən yüzilliyin əvvəllərində Bakının mənfur bolşevik-daşnak işğalından azadlığı uğrunda misilsiz şücaət və fədakarlıq göstərmiş Nuru paşanın bədii obrazını yaratmış və ədəbiyyat tariximizdə ilklərdən birinə və birincisinə imza atmışdır. Qələmə aldığı hadisələrin birbaşa şahidi olmuş C.Cabbarlının bir sıra əsərləri bədii məziyyətdən əlavə, həm də tarixi sənəd əhəmiyyəti daşıyır.

Yaxud da M.İbrahimovun 1940-cı illərdə qələmə aldığı hekayə (“Cənub hekayələri”, “Qorxulu səs”, “Zəhra”, “Mələk”, “Qaçaq” və s.), roman və povestləri (“Gələcək gün”, “Güləbətin”, “Xosrov Ruzbeh” və s.) Cənubi Azərbaycan mövzusuna həsr olunmuşdur.“Gələcək gün” romanında yazıçı baş qəhrəman Firudinin və digər obrazların timsalında ötən əsrin 40-cı illərində İranda baş verən ictimai-siyasi proseslərə, əhalinin güzəranına, məişət qayğılarına və s. aktual məsələlərə münasibət bildirir. Əsərdə hadisələr inandırıcı və real, maraqlı və təsirli təsvir olunur. Çünki M.İbrahimovun özü baş verənlərin canlı şahidi olmuş, bu səbəbdən gerçək tarixi proseslər və təsvir olunan şərait bədii əsərdə onun obrazlı təfəkkürü ilə çulğalaşmış, düyünlər açılmış, mürəkkəb proseslər incəldilmiş, sadə və anlaşıqlı dillə izah olunmuşdur.

Ümumiyyətlə, müəlliflərin cərəyan etmiş hadisə və proseslərə şahidlik etməsi problemin bədii əsərdə canlı və təbii, inandırıcı və yüksək səviyyədə əksini, həm də həllini tapmasına yardım edir. Necə ki, biz bunu müstəqillik dövrü Azərbaycan ədəbiyyatında müşahidə edirik. SSRİ-nin dağılması ilə ölkəmizdə baş verən ictimai-siyasi, sosial-iqtisadi proseslər şair və yazıçıların əsərlərinin ideya xəttinə və baş mövzusuna çevrildi. Tarixi poseslər bədii əsərlərin mövzu dairəsinin genişlənməsinə və çeşidlənməsinə şərait yaratdı.

Bədii əsər obrazlı təfəkkürün məhsuludur [3, s. 60]. Obrazlı təfəkkür bədii əsərin yaranmasında, onun qəlibinin formalaşmasında əhəmiyyətli rol oynayır. Obrazlı təfəkkür bədii əsərin mayasını təşkil edir. Obrazlı təfəkkür bədii əsəri şaxələndirir, ona rəng verir, yeni həyat qazandırır. Bədii əsərin kamil sənət nümunəsi olmasında obrazlı təfəkkürün payı və rolu ölçüyəgəlməzdir. Bu konteksdə müəllifin obrazlı təfəkkürünün çəkisi və keyfiyyəti məsələsi müzakirə predmeti olur. Obrazlı təfəkkürlə bağlı olan bədii əsərdə yazıçının fikir və düşüncələri, hiss və həyəcanları, emosiyaları bədii biçimdə öz əksini tapır. Sadalanan xüsusiyyətlər obrazlı təfəkkür vasitəsilə biruzə verilir. Bədii əsərin məzmunu müəllif tərəfindən ya real həyatdan götürülür, ya da onun obrazlı təfəkkürünün, qanadlı təxəyyülünün məhsulu olur. Real həyat materialları bədii əsərin məzmununun formalaşmasında aparıcı rol oynayır və müəllifə düşünmək, təsir və təhkiyə etmək üçün geniş imkanlar açır.

Əsərin məzmunu müəllif tərəfindən gerçək olmayan, lakin ondan qaynaqlanan yazıçının təxəyyülünə uyğun başqa şəkildə də verilir. Əsasən, bədii əsərlərin məzmunu gerçək həyat əhvalatları ilə yüklənir. Müəllif keçmişdə baş vermiş tarixi hadisələri, dövrün tanınmış simalarını və şəxsiyyətlərini tarixi həqiqətlərə uyğun qələmə alsa da, çox zaman keçmişi bədii əsərdə öz baxış tərzinə uyğun təsvir edir. Tarixi keçmişi oxucuya birbaşa və ya dolayı yolla, dərk etdiyi tərzdə təqdim edir. Hər müəllifin eyni tarixi gerçəkliklərə münasibəti və baxışı biri digərindən fərqlənir. Buna səbəb onlarınreal həyata, cəmiyyətdə və tarixi keçmişdə olanlara özünəməxsus baxışlarının mövcudluğudur. Müəllifin tarixi həqiqətləri əks etdirən

[107] Bakı Slavyan Universitetinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası ixtisaslaşmasının magistrantı

əsərlərihəmin baxış tərzinə görə bir-birindən fərqlənir. Bu fərq özünü müxtəlif dövrlərdə yazılmış oxşar məzmunlu əsərlərdəaçıq-aşkar biruzə verir. Misal üçün, Ə.Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" və S.Vurğunun "Vaqif" əsərlərini bu cəhətdən müqayisə etmək olar. İlk növbədə nəzərə alaq ki, hər iki əsərdə eyni dövr, qismən eyni qəhrəmanlar və hadisələr təsvir edilir. Hər ikisində Ağa Məhəmməd şah Qacarın Zaqafqaziyaya hücumu mərkəzi yerdə durur. Qacar şahı Ə.Haqverdiyevin, Vaqif isə S.Vurğunun baş qəhrəmanı olaraq seçilmişdir. Əsərlərin adı onun süjet xəttinə və məzmununa, əsas qəhrəmanların kimliyinə işarə xarakteri daşıyır. Birinci əsərdə Ağa Məhəmməd şah böyük bir hökmdar timsalında daha çox müsbət şəxsiyyət kimi xarakterizə olunur. Onun mənfi xüsusiyyətləri geniş işıqlandırılmır. Bu cəhət isə müəllifin baş qəhrəmanını ideallaşdırmaq, nöqsansız və ya az nöqsanlı kimi səciyyələndirməsindən irəli gəlir. Həmin əsərdə şair Vaqif xatırlanmır. Lakin S.Vurğun yaradıcılığının zirvəsi və şah əsəri hesab olunan "Vaqif" dramında baş obraz ucaldılır, onun simasında yurdsevərlik, millilik, xalqa bağlılıq kimi gözəl və nəcib əxlaqi sifətlər təlqin olunur. Qacar şahı isə əksinə müstəbid, xudbin və amansız surət kimi xarakterizə edilir. S.Vurğunun "Vaqif"ini Y.V.Çəmənzəminlinin "Qan içində" adı ilə tanınmış "İki od arasında" romanının baş qəhrəmanı ilə müqayisə edə bilərik. Qarabağ xanlığının tarixindən bəhs edən əsərdə Y.Vəzir Vaqifi eşikağası vəzifəsində mahir və uzaqgörən diplomat, vətənpərvər şəxsiyyət kimi təsvir etmişdir. O, S.Vurğundan fərqli olaraq, Vaqifin simasında Vətəninin, el-obasının gələcəyini, xalqın xoş güzəranını düşünən təəssübkeş və sadiq siyasətçi obrazını yaratmışdır. Y.V.Çəmənzəminli Vaqifi bir dövlət xadimi, S.Vurğun isə istedadlı şair kimi böyük rəğbətlə xarakterizə etmişlər. "İki od arasında" romanının sonunda baş qəhrəman edama məhkum edilir, digər əsərdə isə öz misraları ilə əsrlərin fövqündə zamansızlaşır.

Ədəbiyyatşünaslıqda əsərin ideya və mövzusu bir-biri ilə sıx əlaqədə götürülür. Onları bir-birindən ayrı təsəvvür etmək çətindir. İdeya və mövzu əsərin nüvəsini təşkil edir və onu istiqamətləndirir. Əsərdə baş verən proses və hadisələr ondan qaynaqlanır və müəyyən meyillər üzrə qollara ayrılır. Mövzu həm də yazıçının təcrübəsindən yaranır, həyat tərəfindən təlqin olunur. Həyat həqiqətləri müxtəlif dünyagörüşlü və xarakterli personajların timsalında mövzu ətrafında birləşdirilir. Müxtəlif məzmunlu mövzular yazıçının maraq dairəsində ola bilər, lakin insanlar üçün ən gərəkli və ən aktual məsələ əsərin mövzusu üçün seçilməlidir. Həmin mövzu tipik və səciyyəvi həyat faktlarını özündə toplamalı və inikas etdirməlidir. Bununla məzmun tipikləşir, ümumiləşir və səciyyəvilik qazanır. M.Rəfilinin təbirincə desək, yazıçı hər şeydən əvvəl özünün və mənsub olduğu ictimai təbəqənin maraqlandığı həyat hadisələrini əks etdirir. Bir əsərə başlamadan əvvəl o, nə təsvir etmək, nə üçün bunu təsvir etmək istədiyini aydınlaşdırır, yəni mövzu təyin edir. Beləliklə, mövzu - ədəbi əsərdə verilən tipik hadisə, tipik şəxsiyyət və tipik duyğulardır [4, s. 83]. Məsələn, M.F.Axundovun "Hacı Qara" komediyasının məzmunu xəsisliyin, C.Məmmədquluzadənin "Ölülər" əsərinin mövzusu cəhalətin, xurafatın, din pərdəsi altında mövhumatın və bəd əməllərin tənqidi, S.Rəhimovun "Mehman" povestində hüququn aliliyinin, qanunçuluğun, qanun qarşısında bərabərliyin, şərəfli və ləyaqətli yaşamağın aşılanması, lirik şair M.Müşfiqin "Yenə o bağ olaydı" şeirinin mövzusu saf və ülvi məhəbbətin tərənnümü, qürbətdə qəlbi daim Azərbaycanla çağlamış A.İldırımın şeirlərinin mövzusu Vətən sevgisi və yurd nisgili idi.

Hər bir ədəbi əsərdə yazıçı həyat həqiqətlərini dərk edir, onları dəyərləndirir və ümumiləşdirir, fakt və hadisələri qavrama və baxış bucağından müxtəlif təsviri yollarla əks etdirir. Nəticədə bədii əsərlərdə bir tərəfdən konkret məkan, zaman, dövr və cəmiyyət barədə, digər tərəfdən isə müəyyən insanlar, onların yaşam və davranış tərzləri, fəaliyyətləri, hiss və duyğuları, fikir və düşüncələri haqqında təsəvvürlər formalaşır. Bədii əsərlərdə bütün bunlar dialektik vəhdət yaradır, biri digərini tamamlayır. Məsələn, C.Cabbarlının "Sevil" pyesində qadın azadlığı, qadınların mənəvi təkamülü, maariflənməsi, elmə və biliyə yiyələnməsi, istehsalatda və cəmiyyət həyatında fəallığı, gözüaçıqlığı və bəsirətliliyi inikas olunmuşdur. Əsərdə həm də köhnə ilə yeninin mübarizəsi təsvir edilir. Bunu dramın qəhrəmanlarının (Sevil, Balaş, Gülüş, Atakişi, Babakişi və s.) fəaliyyətində də aydın izləmək olur. Bu cəhətdən onlar təmsil etdikləri cəbhələrə görə iki qrupa ayrılırlar. Pyesdə real həyat faktlarına istinad edən sənətkar baş qəhrəmanı Sevilin və məsləkdaşlarının simasında öz mütərəqqi fikir və düşüncələrini təlqin edir. Əsərin mövzusu reallıqla yaxından səsləşir, təbiilik və dolğunluq qazanır. Obrazlar konkret və cəmiyyətdə mövcud olan oxşar tipli insanların ümumiləşmiş siması kimi cilvələndirilir.

Bədii əsərlərin dərk olunmasında şagirdlərin yaş və bilik səviyyələrinin rolu böyük əhəmiyyət daşıyır. Belə ki, kiçik yaşlı şagirdlərin diqqətini daha çox əsərin məzmunu, sujet xəttinin inkişafı, hadisələrin xüsusiyyətləri, oxuduğunu yaxşı anlamaq çəkdiyi halda, orta yaşlı şagirdləri əsərdəki surətlərin xarakteri, yuxarı sinif şagirdlərini isə əsərdə qaldırılan problemlərin bədii həlli, nəticəsi və s. maraqlandırır.

İstifadə edilmiş ədəbiyyat

1. Əhmədov C. Ədəbiyyat tədrisi metodikası. Bakı: Bakı Universiteti, 2007.
2. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 2008.
3. Mir Cəlal, Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Çaşıoğlu, 2005.
4. Rəfili M.Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı: APİ, 1958.
5. Vurğun S. Seçilmiş əsərləri: IV cild. Bakı: Şərq-Qərb, 2005.

Açar sözlər: bədii əsər, bədii təfəkkür, mövzu, ideya, problem, təhlil
Key words: artistic work, artistic thinking, topic, idea, problem, analysis
Ключевые слова: художественное произведение, творческое мышление, тема, идея, проблема, анализ

Features of the idea-theme of the work of artand presentation of these characteristics in high school textbooks

Summary

The processes occurring in the society and the truths of life are visualized in artistic works.A work of art is created as a product of the writer's artistic thinking and winged imagination. Incidents and problems first of all attract his attention,

stimulate and diversify his creativity. In the creation of a work of art, the writer's observations, general outlook and outlook on life, political beliefs, understanding of the processes and events occurring in the surrounding world, analysis and analysis, conclusions reached, etc. issues play an important role.It is the observations that play the main role in the artistic formation of life events.

Особенности идеи-темы художественного произведенияи представление этих характеристик в учебниках средней школы

Резюме

Процессы, происходящие в обществе, и реальные события жизни находят отражение в художественных произведениях. Произведения искусства создаются как продукт художественного мышления и крылатого воображения писателя.Имеющие в реальной действительности прежде всего привлекают его внимание, стимулируют как его воображение, так и разнообразят его творчество. В создании художественного произведения учитываются наблюдения писателя, общее мировоззрение и взгляды на жизнь, политические убеждения, понимание процессов и событий, происходящих в окружающем мире, анализы и выводы в конечном итоге в содержании его произведений. Эти наблюдения играют главную роль в художественном оформлении жизненных событий, привлеченных к изображению.

Rəyçi: prof. N.Məmmədov Tağısoy

Həbibə Lətif qızı Muradova [108]

MƏHƏMMƏD FÜZULİ ŞEİRİNDƏ YUSİF PEYĞƏMBƏRLƏ BAĞLI MOTİVLƏR (HƏDİQƏTÜS-SÜƏDA ƏSƏRİ ƏSASINDA)

Şərq ədəbiyyatının fəth edilməz zirvəsi olan Məhəmməd Füzuli (محمد بن سلیمان) XVI əsr Azərbaycan şairi kimi dünya səviyyəsində böyük və danılmaz şöhrətə malik sənətkardır. Füzuli (فضولی) təxəllüsü ilə tanınan bu ədib 1494-cü ildə ərəb mədəniyyətinin beşiyi sayılan Bağdad yaxınlığında, dini mərkəz hesab edilən Kərbəla şəhərində, mömin bir ailədə dünyaya gəlib. Füzuli türkdilli ədəbiyyatın ən böyük şairlərindən biri, həm Azərbaycan, həm də Osmanlı ədəbiyyatının görkəmli simalarından biri kimi qəbul edilir [6]. Həyatı boyu Kərbəla şəhərində yaşamış, bu dini mərkəzdə yazıb-yaratmışdır. Əsərlərində daim bu torpağı yüksək qiymətləndirmiş, "Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır" - deyərək bu müqəddəs şəhəri müsəlman dünyasının ziyarətgahı hesab etmişdir. Ədibin yaradıcılığı olduqca zəngindir. Dahi şairin çoxcəhətli zəngin yaradıcılığında lirika mühüm yer tutur [4, s. 5]. Füzuli lirikasının sadəcə məntiqi dil ilə şərhi çox çətindir. Bu lirika sarsıdıcı təsiri ilə insanı valeh edən, onu hər şeydən ayıran musiqiyə bənzəyir. Belə bir musiqidən təsirlənən adam öz həyəcanını, hissiyyatını başqasına verə bilməz [5, s. 56].

Azərbaycan, fars və ərəb dillərində Şərq şerinin müxtəlif şəkillərində əlçatmaz bədii xüsusiyyətlərə malik əsərlər yaradan Füzuli, Azərbaycan türkcəsində yaratdığı əsərləri əsrlər boyu heç kəsin çatmadığı bir ucalıq qazanır. Ədibin bu dilləri mükəmməl bilməsi ona əsrarəngiz əsərlər yaratmağa böyük imkan yaratdı. Qeyd edək ki, hələ xəlifə Məmun (813-833) dövründən yunan fəlsəfi əsərlərinin, eləcə də vaxtilə pəhləvi dilinə çevrilmiş qədim hind abidələrinin və fars tarixinə dair əsərlərin ərəb dilinə tərcüməsi bu dil vasitəsilə dünya elm və mədəniyyətinin nailiyyətlərinə yiyələnmək üçün imkan yaradırdı. Ərəb dilini mükəmməl bilən şair bu imkandan bol-bol bəhrələnir və ensiklopedik bir zəka kimi yetişir. Onun əsərlərində poeziya fəlsəfə ilə, dini rəvayətlər qədim əsatiri görüşlərlə, dərin müşahidəçilik qabiliyyəti geniş elmi biliklərlə vəhdət təşkil edir. Füzuli poeziyası ilə tanışlıq onun yalnız müxtəlif dini-fəlsəfi təlimlərə deyil, həm də təbiət elmlərinə də yaxından bələd olmasından xəbər verir [1, s. 44]. Tanrı vergisinin cəmləşdiyi bu fenomenin dühası nəsillər bir-birini əvəz etsə də öz dəyərini itirməmişdir. Dərin dünya görüşünə və biliyə malik olduğu üçün Füzuli Molla və ya Mövlanə adı almışdır. Ədibə məxsus bir qitədən aydın görünür ki, o bir müddət Nəcəfdə, Kərbəlada "Ətabi-aliyat" adlı imamların ziyarətgah yerlərində xidmət etmişdir :

Ruzi yeyənik ali-rəsulun qapısında,
Bir ömrdür olmuş bu ruzi müqərrər.
Bu ruzi yolu bizlərə bağlanmamış əsla,
Layiq bizik aləmdə belə ruziyə yeksər [4, s. 5].

Ədibin yaradıcılığı ilə tanış olduqda onun əsərlərində dini motivin üstünlük təşkil etdiyini açıq-aydın görmək olar. Bu təsadüfi hal deyil. Ədibin yaradıcılığına Qurani Kərimlə bərabər yaşadığı mühitin də böyük rolu olub. Füzulinin Kərbəla kimi dini mərkəzdə, mömin ailədə dünyaya gəlməsi İslam dinindən, şiə təriqətindən və həmçinin sufizmin təsiri altında olan Şərq poeziyasından, təsəvvüf idealarından kənarda qalması mümkünsüz idi. Ancaq söyləmək lazımdır ki, Füzuli hansısa sufi təriqətinə mənsub olmayıb. Əgər Nəsimi hürufilikdə qaldısa, Füzuli sufizmin fövqündə dayandı. Bəzi tədqiqatçılar ədibin bektaşi təriqətinə yaxın olduğunu vurğulayırlar. XV əsrdə hürufiliyə divan tutulduqdan sonra bir çox hürufilər bektaşilik təriqətinə pənah gətirmişlər. Bu təriqətdə hz. Əlinin və onun ailəsi, on iki imam müqəddəsləşdirilir ki, bu xüsusiyyətlər Füzuli yaradıcılığında özünü açıq şəkildə göstərir. Buna əlavə olaraq Füzuliyə qədər Nizami, Xaqani, Qazi Bürhanəddin Nəsimi və Xətai kimi dahilərin tövhələri də ədibin yaradıclığına təsirsiz ötüşməyib. Ədib özünəqədərki dəyərli mənbələrdən bəhrələnərək bir çox dini simvolik obrazlara öz daxili aləminə, dünyagörüşünə müvafiq yeni ruh yeni nəfəs vermişdir. Buna misal olaraq ədibin qönçə gülün açılmasını hz. Yusif peyğəmbərin (a.s) Züleyxanın otağında köynəyi cırılmış halda çıxması ilə müqayisə etməsi ədibin dərin dünya görüşünün, poetik təxəyyülünün, istedadının təzahürüdür. hz. Yusifin Tövratda və Qurani – Kərimdə əks olunan hekayəsini uzun illər boyu istər fars, istər türk, istərsə də azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri öz əsərlərində əks etdiriblər. Buna misal olaraq Füzuliyədək türk ədəbiyyatından "Qisseyi Yusif" əsəri ilə məşhur olan Qul Əlinin, "Yusif və Züleyxa" əsəri ilə tanınan Mustafa Zərir, Suli Fəqih, Əhmədi, fars ədəbiyyatından isə Firdovsinin və Molla Caminin və s adlarını çəkmək olar.

Şərq ədəbiyyatının qeyd olunan görkəmli nümayəndələri kimi Füzuli də yaradıcılığında əsası Tövratdan və Qurani Kərimdən götürülən hz.Yusif peyğəmbərin hekayəsinə özünün həcmcə ən böyük əsəri olan "Hədiqətüs-süəda" ("Xoşbəxtlər bağçası") əsərində yer vermişdir. "Hədiqətüs-süəda" həcmcə Füzulinin ən böyük əsəri olmaqla bərabər, Kərbəla vaqiəsinə həsr olunmuş ən möhtəşəm sənət örnəyidir [2, s. 28].

Söyləmək yerinə düşərdi ki, məhz Füzuli yaradıcılğı ilə ədəbiyyatımızda Quran qissələri ilə bağlı təlmih və iqtibasların işlənməsində özünəməxsus bir mərhələ yaranır. Füzuli şeirində hz. Yusif peyğəmbərin qissəsi ilə bağlı təlmihlər çoxluq təşkil edir. Bu təlmihlərdə hz. Yusifin gözəlliyinin tərifinə, qardaşlarının ona paxıllıq etməsinə, hz. Yusifin satılmasına, Züleyxanın ona olan məhəbbətinə, həmçinin hz. Yusif peyğəmbərin yüksək məqama çatmasına işarələr edilmişdir. Qeyd edək ki, yazılma tarixi bəlli deyil. Hətta əsərin özündə belə bu barədə məlumat əsk olunmayıb. Ancaq əsərin məzmunu ilə tanış olduqda belə qənaətə gəlmək olar ki, Füzuli bu əsəri özünün ahıl çağlarında yazıb bitirmişdir. Əsərin sonundakı münacatda "Hədiqətüssüəda"nı Sultan Süleyman Qanuninin (1494-1566) paşalarından olan Məhəmməd paşanın sifarişi ilə

[108] BDU-nun Ərəb filologiyası kafedrasının magistrantı, muradli.hebibe.1995@mail.ru

yazıldığı məlum olur: "Bu nüxseyidilpəzir onun hüsni-işarəti-şərif ilə səmti-təhrir bulmuş və onun lütfü ehtimam ilə müstəidi-səadət təstir olmuş". Qeyd edək ki, bu əsər ilk dəfə 1845-ci ildə Qahirədə çap edilmişdir (7).

"Hədiqətüssüəda" əsərinin yazılmasını sifariş edən Məhəmməd paşanın şəxsiyyəti ilə bağlı bağlı fərqli fikirlər mövcuddur. İngilis alimi Ç.Rio Füzulinin adını çəkdiyi Məhəmməd paşanın 1549-1554-cü illər arasında Bağdadda vəzifə başında olan Sivas miri-miranı Baltaçı Məhəmməd paşa olduğunu göstərmişdir. Ancaq doktor Güngör "Hədiqətüs-süəda" nın ən əski əlyazmasının 1547-ci ildə yazıldığını əsas tutaraq onun yazılma tarixinin Baltaçı Məhəmməd paşanın dövrünə aid olmasını inkar edir. Araşdırıcının fikrincə, Füzuli öz əsərini daha öncə yaza bilərdi. Burada adı çəkilən Məhəmməd paşa da Baltaçı Məhəmməd paşa deyildir. Çox ehtimal ki, o, 1545-1547-ci illərdə Bağdadda yaşamış Əlhac Sufi Məhəmməd paşadır [4, s. 8].

Füzulinin "Hədiqətüs-süəda" əsəri ənənəvi mövzuda, miladi təqvimlə 680-ci ildə məhərrəm ayının 10-da Kərbəlada baş vermiş faciəvi hadisə ilə əlaqədar olaraq qələmə alınmışdır. Azərbaycan bədii nəsrinin ən klassik örnəyi sayılan əsər müəllifin dini düşüncə, iman və əqidə duyğularının bədii əksi baxımından çox səciyyəvidir. Dərd əlindən ürəyi çatlayan insanı ovundurараq ona mənəvi qida verən Kərbəla hadisəsini qələmə almağı şərəf işi sayan, buna milli-dini borc kimi baxan mütəfəkkir Füzuliyə "Hədiqətüs-süəda"nı yaratmaqda yaşadığı mühitin də böyük təsiri olmuşdu. Əsəri oxuyan hər bir oxucu sanki öz dərdini unudaraq təskinlik tapır. Kərbəla hadisəsi dərd əlindən qəlbi yanan insanı ovundurur və ona mənəvi dayaq olur. Əsərin faciə ilə bağlı olmasına baxmayaraq "Xoşbəxtlər bağçası" adlandırılması diqqəti cəlb edir. Bunu ədibin dini mənsubiyyəti ilə əlaqələndirmək olar. Füzuli göstərmək istəyir ki, Haqq yolunda şəhid olanlar cənnət bağlarında əbədi səadətə qovuşacaqlar. Bunu biz Qurani- Kərimdə Ali İmran surəsi 169-cu ayəsində də görə bilərik : "Allah yolunda qətlə yetirilənləri heç də ölü zənn etmə. Onlar öz rəbbinin yanında ruzi tapırlar". Bir hədisdə isə deyilir : (الشهيد في الجنة) "Şəhid cənnət əhlidir"

"Hədiqətüs-süəda" əsəri dibaçədən, on bab və xatimədən ibarətdir. Dibaçədə Füzuli əsərin yazılması səbəbindən, istifadə etdiyi qaynaqlardan, şəhid imamları ağlamağın savabından bəhs edir və bu çətin əsəri yazıb başa vurmaqda Allah-Təaladan kömək diləyir. Əsərin on babının altısında ümumiyyətlə, dünya tarixi və islam tarixinin ayrı-ayrı hadisələrindən danışılır. Kərbəla hadisələri yeddinci babdan sonrakı bölmələrdə öz əksini tapmışdır. Əsərin birinci, ikinci və onuncu babları ayrı-ayrı fəsillərə bölünmüşdür. Birinci fəsil "Fəsli-ibtilayi-Adəm əleyhissəlam" ("Adəm əleyhissəlamın bəlalara tutulması fəsli") adlanır. Bu fəsildə hz. Adəm peyğəmbərin (a.s) kədərli taleyindən danışılır. Bunun ardınca hz. Nuh (a.s), hz. İbrahim (a.s), hz. Yaqub (a.s), hz. Əyyub (a.s), hz. Zəkəriyyə (a.s), və oğlu hz. Yahyadan (a.s) söz açır. Hz. Yaqub peyğəmbərlə əlaqəli fəsil "Fəsli ibtilayi Yəqub əleyhissəlam" (Yəqub əleyhissəlamın sınağa çəkilməsi" fəsli) adlanır. Bu fəsildə göstərilir ki, "Zümreyi-ərbabi-bəla və firqeyi-əshabi-ənanın biri Yəqub, nəbi biri həzrəti Yusufu-siddiqdir." Bunun ardınca ədib Yusif surəsinin nazil olma səbəbindən danışır. Füzuli "Hədiqətüs-süəda" əsərində hz. Yusif surəsini başlıca olaraq Kərbəla faciəsi ilə bağlayır. Göstərir ki, bir gün peyğəmbər (ə) nəvələri Həsən və Hüseynlə oturmuşkən Cəbrail (ə) gəlib onları çoxmu sevdiyini soruşur. Peyğəmbər (Bəli, övladlarımız bizim ciyərparələrimizdir) söyləyir. Bu zaman Cəbrail Həsənlə Hüseynin gələcək taleyini peyğəmbərə bildirir, "Ya rəsulullah, bu şahzadələrin birini zəhri-cəfayla həlak qılıb, birinin tiği bidiriğ ilə bağrın çak edərlər" deyir. Peyğəmbər "bu cəfadan mütəəllim olduqda" onun təsəllisi üçün Yusif surəsi nazil olur. Füzuli bu rəvayəti gözəl bir şer parçası ilə bəzəyir: [1, s. 276].

Müsibəti-Həsəni möhnəti-Hüseyni-şəhid
Dəmi ki, oldu qəməfzayi-təbi - paki-rəsul
Təsəlliyi-paki-rəsulçün haqdan
Bəyani-qisseyi-Yəqubu Yusif etdi nüzul [4, s. 52].

Kərbəla hadisəsindən dərin təsir hissi keçirən ədib tez- tez bu hadisəni əsərində xatırladır və hətta hz. Yusif peyğəmbərin əhvalatını hz. Hüseynlə eyniləşdirir. Hz. Hüseynin də susuz qalması bizə Kərbəla hadisəsindən məlumdur. Hz. Yusifin susuz buraxılması belə rəvayət edilir: Hz. Yusif qardaşları tərəfindən quyuya atılmazdan əvvəl onlardan su istəmiş və öz növbəsində qardaşlar ona suyu çox görmüş və suyu torpağa rəva bilmişlər. Bu hadisə əsərdə kədər dolu sözlələr təsvir edilmişdir. Andan iltifat bulmayub Şəm'unə ayıtdı: "Ey bəradər, tiği-tüğyani-ətəş rişteyi-həyatım qət'indədür, nola bir qətrə su ilə naireyi-iztirabimə təskin verəsən və validi-büzürgvarım həmrah edən məşrəbədən cani-suzanimə rahət yetürərsən". Şəm'unibimürrüvvət ol məşrəbəyi toprağə töküb ana verмədi və ol şirü şəkkəri tirə toprağə rəva gördü, ana layiq görmədi. Netə ki, dəşti Kərbəlada bə'zi bədbəxtlər zülali-Fəratı ki, cəmi'i-məxluqə mübah ikən Ali-Mustəfadən qət' etdilər və təriqi-hidayət zahir ikən rahizəlalət dutdular. Şe'r: [4, s. 57].

Ruzi-rəzmi-Kərbəla rahi-xəta dutmuş Fərat,
Qılmamış Ali-Məhəmməd dərdinin dərmanini.
O səbəbdəndir bu kim, üzr ilə dutmuş müttəsil,
Eyləyib fəryad xaki-Kərbəla damanini [4, s. 57].

Hz. Yusifə qarşı olan bu qədər kin və paxıllığın səbəbi kimi onun hədsiz gözəllik sahibi olması ilə bərabər atası hz. Yaqub peyğəmbər tərəfindən sevilməsi idi. Qardaşların hiyləsinə baxmayaraq Allah Təalanın rəhmi və mərhəməti daim hz. Yusifin üzərində oldu. Hətta Yusif quyunun dibində olarkən belə hz. Cəbrayıl (a.s) onun yanına gəlir və ona Allahın salamını çatdırır və səbrli olmasını söyləyir:

Səbr qıl, səbr ilə məqsuduna səbr əhli yetər
Səbr edən səbr ilə sərrişteyi-məqsud dutar.

Əsərdə diqqəti cəlb edən məqamlardan biri hz. Yusifin köynəyinin qardaşları tərəfindən cırılmasıdır. Bu vaxt hz. Yusif qardaşlarına deyir: "Ey bimürüvvətlər, zindəyə sətri-avrət və mürdəyə kəfən ləvazimdadır. Nola, gər pirahənimə mütəərriz olmayasız". Qardaşlar onun sözünə məhəl qoymayıb köynəyi hz. Yusifin əynindən çıxarırlar. Qeyd edək ki, Qurani Kərimdə köynəklə bağlı fərqli məqamlar vardır. Onlardan biri hz. Yusifin qardaşları onu quyuya atdıqdan sora köynəyini yalançı qana bulayıb ataları hz. Yaquba təqdim edirlər. İkinci məqam Züleyxanın hz. Yusifə yaxınlıq etməklə bağlı istəyindən sonra ondan canını qurtarıb qaçmaq istəyərkən köynəyin arxadan cırılmasıdırsa üçüncü məqam isə hz. Yusif öz köynəyini şifa verməsi məqsədi ilə gözləri tutulan atasına göndərməsidir. Yuxarıda qeyd edildiyi kimi Füzulinin adıçəkilən əsərində bu üç məqamdan cəmi birinə rast gəlmək olar. Ən maraqlısı isə odur ki, Füzuli əsərdə Züleyxanın hz. Yusifi zindana atması, onu zəncirləyib Misirin küçələrində gəzdirməsini əks etdirsə də Züleyxanın hz. Yusifə olan şəhvani məhəbbətindən ötəri şəkildə söz açır və təfərrüata girmir. Görünür saf və pak məhəbbəti tərənnüm edən bu sənətkarın qəlbinə Züleyxanın şəhvani məhəbbəti yad olduğu üçün bu əhvalata çox yer verməyib. Bununla da demək olar ki, ədib öz ruhuna yaxın olan hadisə və əhvalatları təfərrüatı ilə versə də Züleyxanın məhəbbəti kimi məsələlərə az yer vermişdir.

Nəticə. Bütün bu deyilənləri ümümləşdirərək söyləmək istərdik ki, Füzuli yaradıcılığında Yusif peyğəmbərə dair məqamları biz onun ən iri həcmli əsəri olan "Hədiqətüs-süəda" əsərində rast gəlirik. Bu əsərdə ədib hz. Yusif peyğəmbərin hekayətini özünəməxsus tərzdə təsvir edib. Hz. Yusifin yaşadığı hadisələr, xüsusi ilə qardaşları tərəfindən quyuya atılmasından başlayaraq Misirdə sultan olduğu vaxta qədərki yaşantıları bir çox Şərq ədəbiyyatının mütəfəkkirləri kimi ədibin öz dünyagörüşü və daxili aləminə uyğun bir şəkildə əks olunub. Füzuli "Hədiqətüs-süəda" əsərində hz. Yusif peyğəmbərin hekayətini dərin hikmətamiz məzmunu ilə ən gözəl üslubda əsk etdirmiş və əsərə özünün silinməz möhrünü vurmuşdur. Bununla belə ədibin istər "Hədiqətüs-süəda"əsəri istərsə də digər əsərləri öz orijinallığı və təkrarolunmazlığı ilə daim diqqət mərkəzindədir.

İstifadə edilmiş ədəbiyyat

1. Qasımova A. Quran qissələri XIV-XVI əsrlər Azərbaycan ədəbiyyatının idea-bədii qaynaqlarından biri kimi. Bakı: Nurlan, 2005
2. Mirzəyev A. Füzulinin "Hədiqətüs-süəda" əsəri orat əsrlər tərcümə abidəsi kimi. Bakı: Nurlan, 2001
3. Məhəmməd Füzuli. Əsərləri. I cild. Bakı: Şərq-Qərb, 2005
4. Məhəmməd Füzuli. Əsərləri. VI cild. Bakı: Şərq-Qərb, 2005
5. Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı: Çaşıoğlu, 2018
6. https://az.wikipedia.org/wiki/M%C9%99h%C9%99mm%C9%99d_F%C3%BCzuli
7. https://az.wikipedia.org/wiki/H%C9%99diq%C9%99t%C3%BCs-s%C3%BC%C9%99da

Açar sözlər: Füzuli, Kərbəla Hədiqətüs-Süəda, hz. Yusif, Züleyxa
Ключевые слова: Физули, Кербела Хадикатус-Суеда, Хз. Юсиф, Зулейха
Key words: Fuzuli, Karbala Hadiqatus-Sueda, Hz. Yusif, Zuleikha

Xülasə

Bağdadın ən böyük dini mərkəzi olan Kərbəla şəhərində anadan olan dahi Azərbaycan şairi Məhəmməd Füzuli lirik poeziya ustası kimi tanınır. Onun uzun zaman kəsiyindən keçmiş və günümüzə qədər gəlib çatmış zəngin ədəbi irsi ən gözəl bədii-poetik nümunə kimi gözlərimiz önündə daim canlanır. Azərbaycan, fars, ərəb dillərində yazıb-yaradan sənətkar Füzuli Şərq ədəbiyyatına bu ədəbiyyatın ən gözəl nümunələrini verib. Ömrü boyu Kərbəla şəhərini özünə məskən seçmiş Füzuli əsərlərində bu dini mərkəzdə baş verən dəhşətli hadisəni təsvir etmişdir. Şair tez-tez əsərlərinin qəhrəmanlarının həyatını İmam Hüseynin həyatı ilə müqayisə edir, onun hiss və duyğularını poetik dillə təsvir edir. Bu, "Hədiqətüs-süəda" adlı irihəcmli əsərdə xüsusilə qeyd olunur. "Hədiqətüs-süəda" əsərində bir neçə peyğəmbərin, o cümlədən h.z Yusifin əhvalatları yer alır. Yusif peyğəmbərin əhvalatını təsvir edən Füzuli onun zahiri gözəlliyini, ata və anasına mərhəmətli münasibətini yüksək qiymətləndirmişdir. Füzuli hz.Yusifin quyuya düşdüyü andan Misirdə yüksək məqama çatana qədərki həyatını poetik şəkildə təsvir edərək əhvalata yeni ruh, yeni nəfəs vermişdir. Əsərin qəhrəmanlarının bənzərsiz təsviri Füzulinin dünyagörüşünün zənginliyindən xəbər verir.

Мотивы, связанные с Пророком Юсуфом в поэме Мухаммада Физули

Резюме

Гениальный азербайджанский поэт Мухаммад Физули, родившийся в городе Кербела, крупнейшем религиозном центре Багдада, известен как мастер лирических стихов. Его богатое литературное наследие, прошедшее длительный период времени и дошедшее до наших дней, постоянно живо перед нашими глазами как прекраснейший художественный и поэтический образец. Физули художник, писавший и творивший на азербайджанском, персидском и арабском языках, подарил восточной литературе лучшие образцы этой литературы. Физули, на протяжении всей своей жизни выбравший город Кербелу своим местопребыванием, описал в своих произведениях страшное событие, произошедшее в этом религиозном центре. Поэт часто сравнивает жизнь героев своих произведений с жизнью имама Хусейна, поэтическим языком описывает его чувства и волнения. Особенно об этом говорится в масштабном произведении «Хадикатус-суада». В произведении «Хадикатус-суада» включены истории нескольких пророков, в том числе Юсуфа. Описывая историю пророка Юсуфа, Физули восхвалял его внешнюю красоту, сострадательное отношение к отцу и матери. Физули поэтическим языком описал жизнь Хазрата Юсифа с момента его падения в колодец до достижения им высокого положения в Египте, придав истории новый дух и новое дыхание. Уникальное описание героев произведения свидетельствует о богатстве мировоззрения Физули.

Motives related to The Prophet Yusuf in Muhammad Fuzuli's poem

Summary

Summar The brilliant Azerbaijani poet Muhammad Fuzuli, born in the city of Karbala, the largest religious center of Baghdad, is known as a master of lyrical poetry. His rich literary heritage, which has passed over a long period of time and has survived to this day, is constantly alive before our eyes as a most beautiful artistic and poetic example. Fuzuli, an artist who wrote and created in Azerbaijani, Persian and Arabic, gave Eastern literature the best examples of this literature. Fuzuli, who throughout his life chose the city of Karbala as his residence, described in his works the terrible event that occurred in this religious center. The poet often compares the life of the heroes of his works with the life of Imam Hussein, describing his feelings and emotions in poetic language. This is especially mentioned in the large-scale work "Hadikatus-suada". The work "Hadikatus-suada" includes the stories of several prophets, including Yusuf. Describing the story of the prophet Yusuf, Fizuli praised his beauty and compassionate attitude towards his father and mother. Fuzuli described in poetic language the life of Hazrat Yusif from the moment of his fall into the well until he achieved a high position in Egypt, giving a new spirit and new breath to the story. The unique description of the heroes of the work testifies to the richness of Fizuli's worldview.

RƏYÇİ: dos. E.Vəliyeva

Şəbnəm Yaşar qızı Əsədli [109]

DRAM ƏSƏRLƏRİNİN TƏDRİSİ VƏ ONLARIN BƏDİİ-ESTETİK TƏRBİYƏDƏ ROLU

Şagirdlər hadisələr, qəhrəmanlar haqqında geniş məlumat verən epik əsərlərə nisbətən dramatik əsərin qavranılmasında müəyyən çətinliklərlə qarşılaşırlar. Bu, dramatik əsərlərin qavranılmasında təxəyyülün, fantaziyanın, həyat təcrübəsinində böyük rolunu şərtləndirir.

Təlim prosesində aşağıdakı cəhətlər də nəzərə alınmalıdır:

1. Dramın mətninin epik və lirik əsərlərdən fərqlənməsi;
2. Müəllifin qəhrəman, hadisə ilə bağlı məlumat imkanlarının məhdudluğu;
3. Dramın mətninin əsas etibarilə personajların nitqindən, yığcam məlumatlardan (remarkalardan) ibarət tolması [3, s. 22].

Əsərin oxusu zamanı şagird personajların psixoloji ovqatını, daxili vəziyyətini öz təxəyyülündə canlandırmalı, bu zaman monoloq və dialoqların məzmununa əsaslanmalıdır. Lakin şagirdin belə bir psixoloji təhlil aparmaq üçün lazımi həyat təcrübəsi və bacarıqları yoxdur. Odur ki, dramatik əsərin mətnindəki bir sıra məsələlər çox vaxt şagird üçün anlaşılmaz qalır və əsər yalnız hadisələr, obrazlar səviyyəsində qavranılır.

Məktəb təcrübəsi göstərir ki, dramatik əsərin təlim prosesində qavranılması və təhlilinə bu ədəbi növün epik və lirik əsərlərlə ümumi və janr baxımından fərqli, özünə məxsus xüsusiyyətlərinin öyrənilməsindən başlanılması daha məqsədə uyğundur.

Problemə belə yanaşma təlim prosesində əsərin şagird qavramasındakı çətinlikləri aradan qaldırmağa imkan verir. Lirikadan fərqli olaraq, dram əsərində qəhrəmanın daxili aləminə dərindən nüfuz etmək çətindir. Dramda eposdakı gerçəkliyin geniş, əhatəli təsviridə mümkün deyil. Bu, şübhəsiz ki, şagirdlərin dramatik əsərlərə marağını azaldır. Mütaliə zamanı şagird üçün bir çətinlikdə müəllif nitqinin olmamasıdır. Dramda portret, geniş təsvir, epik və lirik əsərlərdəki kimi geniş bədii detallar olmur. Odur ki, şagird araşdırma apararkən replikaları, qəhrəmanın nitqini, hərəkətini, hadisəni, vəziyyətin inkişafını təhlil etməli olur.

Bütün bunlar bir daha sübut edir ki, şagirdlərin dramatik əsərin mətnini qavramasının bütün çətinlikləri təlim prosesində nəzərə alınmalıdır. Bu, həm də müəyyən dərəcədə dramatik əsərin qəhrəmanlarının davranış və əməllərinin, hərəkətlərinin, başqaları ilə qarşılıqlı münasibətlərinin dərindən dərkedilməsinə aiddir.

Orta məktəb şagirdlərinin həyat təcrübəsinin azlığı, bədii təfəkkürünün inkişaf səviyyəsi müəyyən manea yaratsa da, səhnə əsərlərinin tamaşalarından, filmlərdən seçilmiş parçaların, aktyorların ifasının müzakirəsi dərsdə öyrənilən dramatik mətnin məzmununun dərindən mənimsənilməsinə, şərhinə, şagirdlərin təhlil bacarıqlarının inkişafına kömək edir. Şagirdlər rollar üzrə oxu, proqnozlaşdırılmış oxu, fasiləli oxu ilə yanaşı, dramatik əsərdən bəzi parçaları özləri də səhnələşdirə bilər.

Ədəbiyyatın tədrisi metodikasında tətbiq olunan ənənəvi və müasir metodlar dramatik növün özünə məxsusluğunu nəzərə almağa imkan verir. Beləliklə, bütün bu məqamların nəzərə alınması şagirdlərin oxuduğu dramatik mətnin məzmununu dərindən mənimsəməsinə, müstəqil təhlil bacarıqlarının formalaşmasına kömək edəcəkdir.

Şagird bu prosesdə idraki və yaradıcı fəaliyyət göstərərək müəllif mövqeyini, obrazların hər birinin nitqinin və hərəkətlərinin mətnaltı mənasını aydınlaşdırmalı, öz mülahizələrini əsaslandırmaq üçün əsərin mətnindən istifadə etmək bacarığına yiyələnməlidir.

Dramın bədii mətninin bütövlükdə təhlilinin adətən dərslər sistemi vasitəsilə həyata keçirilməsi müstəqil təhlilbacarıqlarının inkişafını təmin edir, nəzəri və ədəbi biliklərin möhkəmlənməsinə imkan verir. Məktəbdə dramatik əsərlərin öyrənilməsi elmi və bədii ədəbiyyatı daha dərindən anlamağa kömək edən müəyyən nəzəri biliklər tələb edir. Müəllim dramaturgiyanın ədəbi növ kimi xüsusiyyətlərini dərindən bilməli, filoloji təhlildəki təlim prosesi üçün vacib olan məqamları diqqətdə saxlamalıdır.

Orta məktəbdə hər üç ədəbi növə məxsus əsərlərin tədrisinə geniş yer verilir. Lirik, epik əsərlərin tədrisi aşağı siniflərdən həyata keçirilsə də, dramatik əsərlərin öyrədilməsinə 8-ci sinifdən başlanılır. Elmi-metodik tədqiqatlarda təhlil prosesində, ümumiyyətlə, bədii əsərlərin öyrədilməsində növ və janr xüsusiyyətlərinin nəzərə alınmasının vacib olmasından az danışılmamışdır. Bu və ya digər janra məxsus əsərlərin təhlilində tətbiq olunan metod, priyom, iş növlərinin arasında fərqin olması təbiidir. Bunların müəyyənləşdirilməsi əsasında metodik tövsiyələrin hazırlanması, şübhəsiz, məktəb təcrübəsində ciddi praktik kömək olardı.

Etiraf edilməlidir ki, dramatik əsərlərin tədrisi epik, lirik əsərlərin öyrədilməsi yollarından mürəkkəbliyi ilə fərqlənir. Dram əsərlərinin tədrisi çətindir. Bu çətinlik ədəbi növün mahiyyətindən, özünəməxsusluğundan irəli gəlilir. Muasir tədris proqramında dramatik əsərlərin öyrədilməsi də üç mərhələdə reallaşır: oxu, məzmun üzrə iş, təhlil. Təhlil sonuncu və həlledici mərhələdir. O, müəllimdən və şagirddən gərgin iş, böyük zəhmət tələb edir.

Bədii əsərlərin, o cümlədən dramatik əsərlərin təhlilində əhatə olunan komponentlər həm çox, həm də mürəkkəbdir. Dramatik əsərlərin təhlilində əhatə olunan komponentlər aşağıdakılardır:

1. Əsərin mövzu və ideyası;
2. Obrazların təhlili;
3. Əsərin konflikti və problematikası;

[109] Bakı Dövlət Universitetinin magistrantı. sbnmsdli5@gmail.com

4. Əsərin bədii xüsusiyyətləri (dil, üslub, obrazlılıq yaradan vasitələr, kompozisiya və s.) [2, s. 25].

Əsərin təhlilinə başlayarkən ilk növbədə əsərin yazıldığı tarix müəyyənləşdirilməlidir. Əsərin yazıldığı dövrdə sosial-siyasi həyat, dövrün ədəbi tələblərinin yazıçının qarşısında qoyduğu şərtlər təhlil prosesində aydınlaşdırılmalı olan məsələlərdəndir. Həmçinin əsəri təhlil edərkən yazıçının yaradıcılığında, eləcə də ədəbiyyat tarixində tutduğu yer də şərh edilməlidir.

Ədəbiyyat dərslərində dramatik əsərlərin öyrənilməsi üzrə işlər bir neçə mərhələdə həyata keçirilir:

1. Dram əsərinin öyrənilməsi ilə bağlı giriş məşğələləri.
2. Əsərin oxusu.
3. Lüğət üzrə iş.
4. Plan tərtibi.
5. Mətnin məzmunu üzrə sorğu (nağıletmə, əzbərləmə).
6. Əsərin təhlili.
7. Yazı işləri.
8. Sinifdənxaric işlər [2, s. 48].

Şagirdlərin əsəri necə qavradığını yoxlamaq və istiqamətləndirmək üçün aşağıdakı sual və tapşırıqlardan istifadə olunur:

- Əsərdə xoşladığınız yaddaqalan epizodları göstərin.
- Əsər sizə necə təsir etdi?
- Sinifdə hansı məsələləri müzakirə etmək istərdiniz?

İlk 2 tapşırıq şagirdlərin emosionallığını artırır, təsvir olunanları bir daha göz önündə canlandırır, ən maraqlı epizodları seçməyə, nağıl etməyə sövq edir. Əsər barədə danışmaq tapşırığı şagirdləri oxucu təəssüratını bölüşməyə sövq edir.

Sonuncu sual şagirləri əsərdəki çətin məsələləri müəyyənləşdirməyə, düşünməyə, təhlil etməyə, analitik təfəkkür fəaliyyətinə istiqamətləndirir. Beləliklə, müəllim əsərin necə qavranıldığını müəyyənləşdirir ki, bu da sonrakı mərhələdə təhlilin aparılması üçün zəmin yaradır.

Dram əsərləri, ümumilikdə, ədəbiyyat oxucunu düşündürür, həssaslığını artırır, nəcib hisslər aşılayır və onda yeni mənəvi keyfiyyətlərin yaranmasına səbəb olur. Təsadüfi deyildir ki, bir çox mütəfəkkirlər ədəbiyyatı, xüsusilə mütaliəni insanı mənən zənginləşdirən, onda gözəllik hissini inkişaf etdirən vasitə kimi qiymətləndirmişlər. Bədii əsərləri, eləcə də ram əsərləri müntəzəm oxuyan, mütaliəni sevən, dram əsərlərini səhnədə izləyən insanın həyata baxışının dərin, mənəvi dünyasının zəngin olması da buna bariz nümunədir. Deməli, bu fənn şagirdlərə bədii zövq aşılamaqla onların estetik hisslərini duymaq və gözəlliyi dəyərləndirmək qabiliyyətini formalaşdırmaqda əsas vasitələrdən biridir.

Görkəmli pedaqoq alim V.A.Suxomlinski isə yazırdı: "Əxlaqi, intellektual, estetik hisslərin tərbiyəsi həmin hisslərin sıx qarşılıqlı əlaqəsində praktik məqsədə yönlənməyə malikdir: Öz arzularını idarə etməyi, onları şüurlu surətdə məhdudlaşdırmağı, arzularının hakimi olmağı, özündə nəcib insani tələbatı gəncə öyrətmək lazımdır" [4, s. 260].

Şagirdlərin estetik zövq dünyasının zənginləşməsində müəllim bilavasitə böyük rol oynayır. Bu mənada, "Dərs müəllimin yaradıcılığıdır, pedoqoji əsəridir" fikri ilə razılaşmaq lazım gəlir. Bu o deməkdir ki, dramatik əsərlərin bədii gözəlliyinin duyulmasında, müəllif niyyətinin, sənətkarlıq xüsusiyyətlərinin dərkində müəllim aparıcı mövqe tutur. Sinifdə qavrama səviyyəsi zəif olan şagirdlər üçün əsərin müəllim tərəfindən daha sadə və aydın təhlili əsərin bədii ovqatının, gözəlliyinin aşkara çıxmasına, şagirdlərin mənəvi dünyasına təsir etməsinə səbəb olur. Eyni zamanda dram əsərlərinin şagirdlər tərəfindən qavranılmasının asanlaşdırılması üçün müəllimin rollu oyun, səhnəciklər tərtib etməsi də bu baxımdan çox vacibdir.

İstifadə edilmiş ədəbiyyat

1. Cəlilova X. Dram əsərlərinin strukturunda təsvir remarkasının təsnifatı // Filologiya məsələləri / AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, 2012, №10. s. 50-56.
2. Əliyeva Ş.U. Azərbaycan dramaturgiyasında semiotik kodlardan istifadə prinsipləri. filologiya üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis. Bakı, 2022, 147 s.
3. Orucəliyev İ.Ə. Dramatik əsərlər. Bakı: Gənclik, 2022, 497 s.
4. Suxomlinski V.A. Vətəndaşın doğulması. Bakı: Maarif, 1975, 354 s.

Açar sözlər: dramatik növ, ədəbiyyat, təlim, tədris, bədii-estetik tərbiyə

Key words: the dramatic kind, literature, training, teaching, artistic-aesthetic education

Ключевые слова: драматический тип, литература, образование, преподавание, художественно-эстетическое обраэование

Xülasə

Dramatik əsərlər xüsusi süjetə malik olub, müəyyən zaman və məkan çərçivəsində cərəyan edən hadisələrin bədii ədəbiyyatda təsvirini özündə birləşdirən əsərlərdir. Dramatik əsərlərin spesifik xüsusiyyəti ondan ibarətdir ki, bu əsərlər obrazların nitqləri ilə müəyyənləşdirilir. Dramatik əsərlər portret və peyzaj xarakteristikaları, ətraf mühitin təsviri, əsərdəki hadisələr iştirakçıların sözlərində öz ifadələrini tapır. Dramatik əsərlərin bədii-estetik tərbiyədə xüsusi rola malikdir. Bu baxımdan onların tədrisi də vacibdir. Biz bu məqalədə dram əsərlərinin tədrisi xüsusiyyətləri tədqiq olunmuşdur. Məqalədə göstərilir ki, orta məktəb proqramlarında yalnız 8-ci sinifdən etibarən ədəbiyyat dərslərində dram əsərləri tədqiq olunur.

Summary

Dramatic works have a special plot, and are works that include the description of the events taking place within a certain time and place in fiction. The specific feature of dramatic works is that these works are determined by the speech of

characters. Portrait and landscape characteristics of dramatic works,description of the environment events in the work are expressed in the words of the participants.

Dramatic works have a special role in artistic and aesthetic education. In this regard their education is also important. In this article we have studied the teaching charasteristics of drama works. The article shows that drama works are studied in secondary school programs only from the 8th grade in literature classes.

Резюме

Драматические произведения имеют особый сюжет и представляют собой произведения, сочетающие в художественном произведении описание событий во времени и пространстве. Специфика драматурга состоит в том, что эти произведения определяются его речью. Драматические произведения находят свое выражение в словах портретов и пейзажей, описании окружающей среды, событий в произведении. Особую роль в художественно-эстетическом воспитании играют драматические произведения. В этом отношении их образование также важно. В данной статье мы изучили педагогические особенности драматических произведений. В статье драматические произведения изучаются по программам средней школы только на уроках литературы, начиная с 8 класса

RƏYÇİ: dos. E.Vəliyeva

Aysel Sarı qızı Atlıxanlı [110]

MƏSUD SƏƏD SALMANIN HƏYAT VƏ YARADICILIĞI

Giriş. Qəznəvilər dövlətinin güclü nümayəndəsi olan Sultan Mahmudun vəfatından sonra bu dövlət zəifləməyə başladı. Ondan sonra taxt-taca sahib olan Sultan Məsudun (1030-1041) hakimiyyətinin birinci ilində qardaşı Məcdud qiyam qaldırdı. Sultan Məsud onu zəhərləməklə aradan götürür, ancaq Qəznəvilər dövlətinə aid olan bir çox torpaqları Hindistan hökmdarları ələ keçirməyə başladılar. Sultan Məsud ona tabe olan hind hakimlərinin köməyinə gedə bilmədi. Dövlətin qərb tərəfindən Səlcuqların hücumları başlamışdı. Səlcuqlar 1042-ci ildə Bəlx şəhərini ələ keçirdilər. 1045-ci ildə isə Qəznəvi dövlətinin ilk dəfə elan olunduğu Bost şəhərini ələ keçirdilər. Bost ələ keçiriləndən sonra onlar Qəznə şəhərinə yaxınlaşdılar. Onların qələbələri Quridləri də ruhlandırdı. Beləliklə, Qəznəvi dövlətinə qarşı müxtəlif qüvvələr eyni vaxtda hücuma keçdilər. Qəznəvilər dövlətində böhran başladı. Sultan Məsudun ölümündən sonra sərkərdələr Qəznəvi nəslindən olan hər hansı bir uşağı şah elan edir və öz işlərini görürdülər. Yaranmış hökumət böhranından düşmənlər məharətlə istifadə edirdi. Qəznəvi sultanları arasında Məsudun oğlu İbrahim (1059-1099) çevik hərəkət edib Səlcuqlarla razılığa gələ bildi. Həmin razılığa görə, Qəznəvi dövlətinə aid olan Xorasan və Toxarıstan Səlcuqlara verildi və İbrahim oğluna Səlcuq sultanı Məlikşahın qızını almaqla, onlarla qohumluq əlaqələri yaratdı. Səlcuqlarla razılığa gələndən sonra İbrahim Hindistana yürüşlər edib orada hakimiyyətini bərkidə bildi. 1099-cu ildə İbrahimin ölümündən sonra hakimiyyət onun oğlu Məsud III (1099-1115) keçdi. Hindistanın şimalında güclü dayaq yaradan Məsud III qoşun toplayıb həmin ölkənin dərinliklərinə getdi. O, Səlcuqlardan çəkinmirdi, çünki arvadı Sultan Səncərin bacısı idi. Ancaq həmin vaxt Məsud III üçün başqa təhlükə yarandı. Bu təhlükə Qurlar idi. Məsud III hakimiyyətdə çox qala bilmir və 1115-ci ildə vəfat edir. Onun yerinə oğlu Şirzad (1115-1116) keçir. Ancaq hakimiyyətdə bərkiməmiş qardaşı Arslan (1116-1117) tərəfindən öldürülür. Taxta çıxan Bəhramşah (1117-1153) dayısı Səncərin himayəsinə sığınır. Elə bu vaxt qiyam yolu ilə yenidən taxta çıxan Arslan ögey qardaşı Bəhramşahın anasını - Sultan Səncərin bacısını təhqir edir. Bundan qəzəblənən Sultan Səncər hücum edib Qəznəni ələ keçirir. Arslan Hindistana qaçır. Bəhram şahı Qəznədə taxta oturdan Sultan Səncər geri qayıdır. Bu vaxt Arslan yenidən qayıdıb Bəhram şahı aradan götürmək istəyir. Sultan Səncər bundan xəbər tutub yenidən Qəznəyə qəfildən hücum edir və Arslanı ələ keçirib edam edir. Arslan öləndən sonra Qəznəvilər öz müstəqilliyini itirir və Bəhramşah açıqca elan edir ki, onun dövləti Səlcuqların hakimiyyəti altındadır və yalnız Hindistanda olan əyalətləri ona aiddir. Ancaq Hindistan əyalətlərində də vəziyyət yaxşı olmur. Bəhramşahın ora təyin etdiyi hakim - Məhəmməd Bəhlam qiyam qaldırır və onun qiyamını ancaq 1128-ci ildə yatırmaq mümkün olur. Bəhramşahın Hindistanda Məhəmməd Bəhlamla müharibə edib zəifləməsindən istifadə edən Quridlər hərəkətə gəlir. Quridlərin başçısı Suri Bəhramşahı Qəznədən vurub çıxarır. Bəhramşah ordunu əfqanlarla və həlc türkləri ilə qüvvətləndirib Surinin qoşunun darmadağın edir və Surini də edam etdirir. Bundan qəzəblənən Surinin qardaşı Ələddin Cahansuz güc toplayıb Qəznəyə hücum edir. Onu ələ keçirib darmadağın edir. Vaxtilə ən möhtəşəm şəhərlərdən olan Qəznə şəhəri bu hadisədən sonra birdəfəlik tarix səhnəsində öz mövqeyini itirir. Bəhramşahdan sonra hakimiyyətə gələn onun oğlu Xosrov şahın (1153-1160) vəziyyəti daha da pisləşir. Belə ki, 1153-cü ildə onların himayədarı olan Sultan Səncər oğuzlara əsir düşür. Beləliklə, Hindistan ərazilərində olan mülklər tamamilə onun əlindən çıxır və yalnız Pəncab vilayəti qalır. Sonra hakimiyyətdə olan Xosrov Malikin (1160-1187) vəziyyəti daha da ağırlaşır. Xosrov Malikşah əlində qalan son Pəncab vilayətində də dinclik tapmır və Qurid Muizzəddin onu 1187-ci ildə əsir götürür və 1191-ci ildə Gərcistanda edam edir. Bununla da Qəznəvilər sülaləsi tarix səhnəsindən silinir. Söylədiyimiz bu dramatik hadisələr fonunda həm də ədəbiyyat öz işini görürdü. Həmişə olduğu kimi, yenə də ədəbiyyat cəmiyyətin güzgüsü kimi baş verən hadisələri əks etdirirdi. Ədəbiyyat həmin hadisələrin iştirakçıları, həmin siyasi hadisələr prosesində insanların hisslərini, duyğularını təsvir edirdi [2, s.193-194].

Əsas hissə. Məsud Səəd Salman 1046-cı ildə Lahorda anadan olub. Şairin ailəsi Həmədandan olsa da sonra Qəzvinə köçmüşlər. Onun atası 60 il Qəznəvilər dövlətinin əyanlarından biri olmuş və müxtəlif dövlət işlərini görmüşdür. Şair hələ gənc yaşlarından yaxşı təhsil almış və dövlət işlərini, maliyyə hesablarını yaxşı bilmişdir. Eləcə də özündən əvvəlki poeziyanı dərindən öyrənmişdir. Onun Qəznəvilər sarayında dəqiq hansı vaxtdan etibarən qulluğa başlaması məlum deyil, ancaq İbrahim şah oğlu Seyfəldövlə Mahmudu 1076-cı ildə Hindistan əyalətlərinə hakim təyin edəndə Səəd Salman ona qəsidə yazmışdır. Avropa şərqşünasları bu şairin adı ilə çoxdan tanış idilər, çünki iran ədəbiyyatına aid bütün təzkirə və mənbələrdə Məsud Səədin adına rast gəlmək olur. İranşünas alimlərdən Mirzə Məhəmməd Qəzvini Məsud haqqında nisbətən geniş monoqrafiya yazmışdır. Tehran universitetinin professoru, məşhur şair Rəşid Yasiminin redaktorluğu və ön sözü ilə 1318-ci (1939) ildə Tehranda nəşr olunan Məsudun divanı böyük maraq doğurur. Naşir ön sözdə yazır ki, Məsudun misraları ilə hələ məktəbdə oxuyarkən tanış olub və heyrətə gəlib ki, qəsidələr nəinki nifrətdən başqa heç nəyə layiq olmayan insanların boş tərifi ola bilər, həm də həqiqi, insani hissləri ifadə edə bilər. Buna görə də, artıq 1920-ci ildən Məsudun şerlərini toplamağa başladı. Paralel olaraq şairin həyatı haqqında da məlumat axtarır, lakin tez bir zamanda əmin olur ki, yalnız təzkirənin məlumatlarına əsaslanaraq tərcümeyi-halı qurmaq olmaz. Nəhayət, R.Yasiminin əlinə M.Qəzvinin yuxarıda qeyd olunan işi keçdi. Tədqiqatçı onun bütün məziyyətlərini dərk edərək, tam olmadığına əmin oldu, ona görə də divanın sübut olunmuş və xeyli təkmilləşdirilmiş mətni əsasında Məsudun yeni tərcümeyi-halını yazmağa qərar verdi.

R.Yasiminin divanının mətninin redaktəsinə şair P.Bəxtiyari köməklik etmiş, korrektəni isə naşirin özündən başqa, məşhur şair M.Bahar və ədəbiyyatşünas S.Nəfisi aparmışdır. Bu nəşri sözün tam mənasında tənqidi adlandırmaq mümkün

[110] Bakı Dövlət Universitetinin magistrantı. atlixanli92@mail.ru

deyil, çünki mətnin tarixi yoxdur, lakin şübhəsiz ki, orijinal haqqında kifayət qədər dəqiq təsvir verən çox yaxşı bir mətn var. Məsud Səəd Salmanın şerlərinin tərcüməsindən bizə ancaq "Tacik poeziyasının ontologiyası" kitabındakı iki qəsidənin rus dilində tərcüməsi məlumdur [3, s. 378-379].

Məsud Səəd Salmanın şahzadə Mahmudu tərifləyiri qəsidələrin hamısını şairin yaradıcılığının başlanğıcına aid etmək olar. Bu şerlərin mahiyyəti bu fərziyyəni tamamilə təsdiqləyir: onların hamısı mədhiyyədən başqa bir şey deyil və kifayət qədər monotondur. Eyni zamanda, uğurlu gənc şairin misralarında olduğu kimi, onların tonu kifayət qədər təkəbbürlüdür. Məsud özünü ən böyük ərəb və fars –tacik şairləri ilə eyniləşdirmək qərarına gəlir:

Qarşımda səcdəyə gəlsinlər,
Sadədil Rudəki və İbn Hani.
سجود آرد به پیش خاطر من
روان رودکی و ابن هانی

Məsudun yazdığı şerlərdə keçmişin böyük şairlərinin təsiri güclü hiss olunur. Böyük qəsidələrindən birində dediyi kimi, bir dəfə öz hökmdarı Mahmudu qəzəbləndirdi və müvəqqəti olaraq Lahoru tərk etmək məcburiyyətində qaldı. Lakin görünür, mübahisə çox çəkmədi, çünki şair Mahmuda həsr etdiyi başqa bir şerində hökmdarından Məkkəyə getmək üçün icazə istəyir. Nəticə etibarı ilə həmin vaxt o, yenidən sultanın yanında idi. Bu, şairin həyatında uğurlu zamanlar idi. O, Lahorda özünə əsl saray tikmək üçün böyük vəsaitə malik idi. Şairlər Məsudu öz başçıları kimi qəbul edirdilər və ona qəsidələr təqdim edirdilər [5, s. 33-34].

Sonrakı Qəznəvilər dövründə yaşayan və varlı ailədən olan Məsud Səəd Salmanın çox hadisə dolu həyatı olub. Qəznə şahzadəsi və Hindistan valisi Seyfəddövlə Mahmudun sarayına bağlı olan Məsud, mülki və hərbi istedadları sayəsində sərvət və şərəfə yüksəldi. Onu fəlakətlər bürüyəndə, Qəznədəki mülkünü ələ keçirməkdən xilas etmək istəyərkən və Sultan İbrahim Səlcuqlularla xain ittifaqda ikən, Məsudun qırx yaşı var idi. Düşmənlərinin böhtanı və Sultanın qəzəbi hər hansı müdaxilədən və Məsudun qəsidələrindəki bütün yalvarış və şikayətlərdən daha güclü idi.

Şair yeddi il Dəhək və Su qalalarında əzab çəkdikdən sonra, Ney qalasında daha çox əziyyət çəkdi. O, 490/1096-7-ci ildə Lahora qayıdana və Kalındər valisi təyin olunana qədər sərbəst buraxılmadı. Lakin bu təyinat qısa müddət davam etdi, çünki o, öz himayədarının süqutunda iştirak etmiş və Qəznə yaxınlığındakı, dəhşətli Mərənc qalasında məhv edilmişdir. Onun yenidən azadlığa buraxılmasından səkkiz il keçdi. Ömrünün son illəri ictimai həyatında baş verən bütün dəyişikliklərə baxmayaraq, təqaüddə və yüksək rəğbətlə, lütf içində keçmişdir.

Onun mövzularına mədhiyyə, mərsiyə, istehza və polemika, məhkəmə və döyüş, daha az dərəcədə təbiət, sevgi və şərab daxildir. Həmişə optimist olan Məsud, hətta ən kəskin böhranda belə ədalətin son nəticədə qalib gəlməli olduğuna inanırdı. Qəznəli Muizzi və Osman Muxtari onu qiymətləndirən yeganə şəxslər deyildi. Nəvai onu "qəsidə cıdırında çevik atlı və misilsiz söz yaradıcısı" adlandırır və çox diqqətsiz olduğundan, onun divanını Sənai özü səliqəyə salırdı. Məsudun ərəb divanından danışmaq, bir neçə ərəb ayəsinin əhəmiyyətini şişirtməkdir. Hind dilində olan bir divanı nağıllar səltənətinə aiddir, baxmayaraq ki, əslən hindli olan şair bu dili mütləq bilməlidir. Eyni sarayda Məsud Səədlə birgə onunla həmyaşıd olan dostu Əbül-Fərəc Runi də yaşayıb işləyirdi [4, s. 196].

Şəhraşub janrının meydana çıxması üçün, hər şeydən əvvəl, şəhər həyatının, şəhər mədəniyyətinin formalaşması, coşqunlaşması lazımdır. Bu sosial zəmin Məsud Səəd Səlman dövründə artıq yaranmışdı və məhz janrın ilk mükəmməl nümunəsinin də o vaxtlar meydana çıxması təsadüfi deyil.

Məsudun iki şəhraşubu bəllidir. Bunlardan birincisi qitələr silsiləsindən ibarətdir, ikincisi məsnəvi şəklindədir. Birinci şəhraşub 92 qitədən, ikincisi 22 poetik parçadan təşkil edilib. Şerləri birləşdirən ümumi cəhət onların ayrı-ayrı peşə və sənət sahiblərinə həsr edilməsidir. Bu silsilədə ənbərsatan, boyaqçı, rəqqas, qanalan, çörəkçi, güləşçi, quyuqazan, müğənni, dilçi, şair, saqi, hərbçi, bərzgər, firuzəsatan, zərgər, fəqih, ovçu, vaiz, şəhər hakimi, neyçalan, müəbbər (yuxuyozan), biçinçi, çövkan oyunçusu, filosof, təbilçalan, bağban, bəzirgan, katib, toxucu, oxatan, dəmirçi, qazi, qəssab, əttar, münəccim, bərbətçalan, falabaxan, tacir, təbib və s. təsvir edilir.

Məsudun hər qitəsinin ünvanı da var. Məsələn: "Ənbərsatanyar haqqında deyir", "Çörəkçi dilbər haqda dedi", "Zərgər dilbərin sifəti" və s. Ancaq həmin ünvanların sonradan katiblər tərəfindən əlavə olunduğunu, ya elə müəllif tərəfindən yazıldığını söyləmək çətindir. Məsudun şəhraşubunda sonralar bu janrın əsas xüsusiyyətinə çevriləcək bir cəhət aydın görünür: şəhərin orta təbəqəsinin elçiləri, əsnaf nümayəndələri öz sənət və peşələrinə uyğun sözlərlə təsvir edilirlər. Digər tərəfdən, sonralar tədqiqatçıları dolaşığa salacaq bir cəhət - qitələrdəki məhəbbət ruhu nəzəri cəlb edir. XVI əsrin əvvəllərinə qədər bu növ şerin yeganə ünvanı şəhraşub olub. XVI yüzilin başlanğıcında ilk türk şəhrəngizləri yaranır. "Şəhrəngiz" də "şəhraşub"la eyni mənalıdır. Sonralar şəhraşubun tematikası, əhatə dairəsi genişləndikcə təzə ünvanları da yaranır: aləmaşub, dəhraşub, cahanaşub, fələkaşub [1, s. 110].

Nəticə. Məsud həm insan, həm də şair kimi parlaq keyfiyyətlər və bacarıqlar nümayiş etdirmişdir. Məhz buna görə də o, pis vaxtlarda inadkar düşmənçilikdən, yaxşı vaxtlarda riyakarlıqdan xilas olmamışdır. Onun biliklərinə astrologiya (həbsxanada öyrənilmiş), hippologiya, hərbi işlər və hətta xəttatlıq daxildir. O, Ünsuri üslubunda böyük qəsidə ustası idi, lakin Xaqaninin tənqidindən də göründüyü kimi, sonuncunu və ya başqasını təqlid edə bilməyəcək qədər böyük istedada malik idi. Sənai, Məsudun səhl-i mumtaniyəsinə yüksək qiymət verir. Onun həbsxanada yazdığı "Tristia" fars poeziyasının ən füsunkar nailiyyətlərindəndir. Deyilənə görə, heç kim onun şeirlərinə hikmətli bir tərifi (kəlam-i cami) daxil etmək sənətini onun kimi başa düşmür.

İstifadə edilmiş ədəbiyyat

1. Hüseynov R. Məhsəti Gəncəvi – özü, sözü, izi. Bakı: Nurlan, 2005, 560 s.

2. İbrahimov S. Qədim və orta əsrlər İran, Əfqanıstan, Tacikistan ədəbiyyatı. Bakı, 2015, 641 s.
3. Бертельс Е.Э. История персидско таджикской литературы. Москва, 1960, 559 s.
4. Jan Rypka. History of İranian Literature. Dordrecht-Holland, 1968, 928 s.
5. دیوان مسعود سعد سلمان, بتصحیح آقای رشید یاسمی, تهران, ۱۳۱۸
Ключевые слова: Мас`уд Са`д Салман, шахрашуб, таджикская литература, стих, Лахор, касида.
Key words: Mas`ud Sa`d Salman, shahrashub, tajik literature, poetry, Lahore, qasida.

ЖИЗНЬ И ТВОРЧЕСТВО МАСУДА САД САЛМАНА

Резюме

Стихи Месуд-и Саада, считающегося одним из крупнейших поэтов персидской литературы, известны своим замечательным стилем, красноречивыми и впечатляющими выражениями. Воображение, которое дала ему тюремная жизнь, иногда позволяло ему объяснить тему несколькими комбинациями, а его стихи также содержат мудрость и советы. Кроме того, он обогатил персидскую литературу, введя новые выражения, сочинения, сравнения и тевшихат. Он восхвалял Газневидского султана Ширзада, Арсланшаха и Бехрам Шаха, во время правления которых он жил, и получил от них гостеприимство и уважение. Месуд-и Саад также восхвалял газневидских поэтов своего времени в своих стихах. Однако, поскольку значительную часть своей жизни он провел в тюрьме, в его стихах приобретают значение такие темы, как его страдания и боль, а также его тоска по семье. Этими написанными им стихами он стал причиной зарождения жанра «хабсийе». Персидские стихи в единственном сохранившемся до нашего времени диване собрал Сенай. Хотя Сенаи приписал ему некоторые стихи, не принадлежавшие Месуду, позже он извинился перед ним, написав стихотворение, посвященное Месуди Сааду. Диван, содержащий около 16 000 куплетов, включает месневи, мукатаат, терциат, мусаммат, газели и рубаи, в основном оды. Помимо сборников «Шахнаме» Месуд-и Саада (İẖtiyârât-ı Şâhname), у него есть три дивана на хинди, арабском и персидском языках. Однако до наших дней не сохранилось ни одной поэзии с дивана хинди. Некоторые стихотворения из арабского дивана цитировались как образцы различных искусств, особенно в «Хадаиху'с-сихр» Решидуддина Ватвата.

LIFE AND CREATIVITY OF MASOUD SAAD SALMAN

Summary

The poems of Mes'ûd-i Sa'd, who is considered one of the important poets of Persian literature, are famous for their remarkable style, eloquent and impressive expressions. The imagination that his prison life gave him sometimes enabled him to explain a topic with several combinations and his poems also contain wisdom and advice. In addition, he enriched Persian literature by introducing new expressions, compositions, similes and tevşîhat. He praised the Ghaznavid Sultan Şîrzâd, Arslanşah and Behram Şah, during whose reign he lived, and received hospitality and respect from them. Mes'ûd-i Sa'd also praised the Ghaznavid poets of his time in his poems. However, since he spent a significant part of his life in prison, subjects such as his suffering and pain and his longing for his family gain importance in his poems. With these poems he wrote, he caused the birth of the "habsiyye" genre. Persian poems in the only divan that has survived to our time were collected by Senai. Although Senâî attributed some poems that did not belong to Mes'ûd to him, he later apologized to him with a poem he wrote dedicated to Mes'ûd-i Sa'd. The divan, which contains approximately 16,000 couplets, includes mesnevi, mukātaât, tercîât, musammat, ghazals and rubâîs, mostly odes. Apart from Mes'ûd-i Sa'd's Şâhnâme selections (İẖtiyârât-ı Şâhnâme), he has three divans in Hindi, Arabic and Persian. However, no poetry from the Hindi divan has survived to the present day. Some poems from the Arabic divan were quoted as examples of various arts, especially in Reşîdüddin Vatvât's Ḥadâʾiḳu's-siḥr.

Rəyçi: Akademik Rafael Hüseynov

Şəbnəm Yaşar qızı Əsədli [111]

N.VƏZİROVUN "MÜSİBƏTİ-FƏXRƏDDİN" ƏSƏRİNDƏ MAARİFÇİLİK GÖRÜŞLƏRİ

Milli teatrın tərəqqisi uğrunda əlli ildən artıq çalışmış, M.F.Axundovun dramaturgiya sahəsində ənənələrini davam etdirərək daha da zənginləşdirmiş, yazdığı dram əsərləri ilə dövrün ictimai məsələlərini işıqlandırmış Nəcəf bəy Vəzirov Azərbaycan ədəbiyyatının parlaq simalarından biridir. Bədii yaradıcılıq aləminə, sənət dünyasına böyük ideallarla gəlmiş ədib yaradıcılığa başladığı XIX əsrin 70-ci illərindən bir-birinin ardınca yazdığı dram əsərlərində onu dərindən düşündürən müşahidə etdiyi həyati hadisələri seçib yazmaqla köhnə qayda-qanunların əleyhinə çıxmış, yeni ideyaları təbliğ etməklə cəhalət, nadanlıq girdabında yox olan cəmiyyətə tərəqqi yolunu göstərməyə çalışmış, xalqının dərdlərinə çarə axtarıb tapmaq arzusunda olmuşdur. Nəcəf bəy Vəzirovun tək böyük amalı var idi, o da xalqının maariflənməsi və xoşbəxt şəkildə yaşaması idi. Ona görə də yazdığı dram əsərləri də maarifçi realizmin estetik prinsipləri əsasında yazılmış, əxlaqi-didaktik mövzular qoyulmuşdur. Məhz maarifçilik ideyası ilə zəngin olan belə əsərlərindən biri də "Müsibəti-Fəxrəddin" faciəsidir.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixində xüsusi yeniliklərdən biri də faciə janrının yaranması və inkişafı idi ki, bunun da başlanğıcı "Müsibəti-Fəxrəddin" əsəri ilə qoyulmuşdur. Bu əsər obrazları ilə, bitkinliyi, çatdırmaq istədiyi ideyası ilə bir çox dram əsərlərindən fərqlənir. "Müsibəti-Fəxrəddin" Azərbaycanda maarifçilik hərəkatının ilk mərhələsini təsvir edir. Bu əsərin fabulasını iki mülkədar ailəsi arasında olan qan intiqamı və bu hadisənin ürəkyandıran nəticələri təşkil edir. Faciədə Nəcəf bəy Vəzirovun mənəvi azadlıq və humanizmlə bağlı ideyaları, cəhalətin, elmsizliyin və nadanlığın ifşasıyla bağlı düşüncələri əksini tapmışdır. Əsərdə qan tökmək və intiqam hissi ilə yanan iki ailənin timsalında Avropada oxuyub gələn və burada belə insanların əməllərinin qurbanı olan Fəxrəddin kimi maarifçi ziyalıların faciəsi göz önünə qoyulmuşdur. Əsərdə iki ailə Rüstəm bəy və Heydər bəyin ailəsi arasında gedən intiqam verilir. Əsas surətlər isə bir-birinə zidd olan Rüstəm bəyin özü və Fəxrəddindir. Rüstəm bəy köhnə nəslin nümayəndəsi olub, geriliyin və nadanlığın nəticəsi olan cəmiyyəti, günahsız insanların qətlə yetirilməsinin qəhrəmanlıq sayıldığı bir mühitin yetirməsidir. O, eynən Fəxrəddinin atası Heydər bəyə etdiyi kimi özündən böyük bəy tanımır, bəzilərini sürgünə göndərir, bəzilərini isə öldürtdürür, ailəsini dağıdır. Fəxrəddin bəyin qayıdıb gəlməsi xəbərini eşitdikdə isə onu da öldürərək Heydər bəyin nəslinə son vermək istəyir. Rüstəm bəylə tamamilə zidd mövqedə duran Fəxrəddin isə yeni nəslin gənc və maarifçi ziyalılarındandır. O, əsərdə Rüstəm bəy, Cahangir bəy, Vəli, həmçinin öz ailəsindən olan anası Mələk xanımın, Şahmar bəyin düşüncələrini və hərəkətlərini gördüyü zaman düşdüyü bu mühitdə faciə ilə qarşılaşır. Nəcəf bəy Vəzirovun əsərdə tənqid hədəfi kimi götürdüyü bu insanlar qan intiqamına susamış, hüquq və namusun yox olduğu bu aləmdə batmışdılar. "Fəxrəddin onların əksinə olaraq qan davasını aradan qaldırmağa çalışan sülhpərvər bir insandır" [2, 523].

Klassik Azərbaycan dramaturgiyasında Hacı Nurudan ("Hekayəti Molla İbrahim-Xəlil Kimyagər") İsgəndərə qədər ("Ölülər") olan böyük dövrün müəyyən mərhələsini təşkil edən bu obrazın ən böyük arzusu xalqının maariflənməsi idi. Ümumiyyətlə, Fəxrəddin obrazı bütövlükdə götürdükdə Azərbaycan dramaturgiyasının yeni nailiyyəti idi. Azərbaycan gəncləri içərisində oxumuş gənc ziyalılar var idi ki, bu gənclər köhnə həyatın qayda-qanunlarına qarşı olub yeni ideyalarla yaşayıb, yeni həyata can atırdılar, lakin güclü şəkildə mübarizə apara bilmirdilər. 90-cı illərdə isə bu gənc ziyalılar əsrin ilk yarısına nisbətən cəhalətə qarşı inadla və çəkinmədən mübarizə aparırdılar. Sonda bu mübarizə onların faciəsi ilə bitsə də, məhz onların bu mübarizəsi onların qələbəsi sayılırdı. Fəxrəddin də daha əvvəlki maarifçi ziyalı obrazlardan səsinin daha çox çıxması və mübarizəsi ilə fərqlənirdi. Fəxrəddin belə gənclərin ümumiləşdirilmiş obrazı idi.

Nəcəf bəy Fəxrəddin obrazını yaratmaqla onun simasında həmin gənclərin həm qüvvətli mübarizəsini, həm də zəif cəhətlərini əks etdirmişdir. Fəxrəddin maarifçilik fəaliyyətinə məhz köhnə feodal qaydalarının hökm sürdüyü bir zamanda başlayır. Avropada təhsil alıb vətəninə qayıdan maarifpərvər gənc öz azadlıq və yenilik meyillərinə sona qədər sadiqdir. Fəxrəddinin tək bir düşməni vardısa, o da nadanlıq, cəhalət idi: "Dünyanın hər bir işi cəngi-məğlubədir; amma vəhşi nadanlıqla cəng etmək mümkün deyil" [8, 137]. Dövrün zəmanənin qaranlıq qüvvələri Fəxrəddinin yolunu hər yerdən kəsir, onun maarifçiliklə bağlı ideyalarının həyata keçirilməsinə manea yaradır. Fəxrəddin "zülmət səltənətində bir işıq şüası" kimi parlayır və sonra da nadan insanların qurbanı olur.

Lakin Fəxrəddin bu nadan cəmiyyətlə başa çıxa bilməyəcəyini anlasa da, arzularını həyata keçirmək üçün əməli fəaliyyətə başlayır. O, öz xərci ilə xəstəxana açır və yeni üsulda məktəb tikdirir, daha sonra öz təsərrüfatını daha da genişləndirir, bağ salır, kəndə yeni müəllimlər, həkimlər gətirir və onlar üçün yaxşı şərait yaradır. Yenilik və tərəqqi arzusu onu bir an belə tərk etmir, inamını itirmir. Fəxrəddin Almaniyada təhsil alıb qayıtdıqdan sonra vətəni ona həbsxana kimi gəlir. Amma Fəxrəddin heç zaman ruhdan düşmür. Gənc maarifçi nəinki ətrafındakı insanları, ailəsini, hətta öz xalqını mədəni xalqlar sırasına daxil etmək istəyir. "Fəxrəddin xarabaya bənzəyən Azərbaycan kəndini abadlaşdırmağa, mülkədar təsərrüfatını yeni qaydada qurmağa, kəndi mədəniləşdirməyə, "heyvan" sayılan zəhmətkeş kəndlini insan sifətində görməyə çalışır" [5, 101].

Şahbaz bəyi götürsək, onu da sıxan, istəklərini həyata keçirməyə qarşı çıxan məhz Fəxrəddinin də mübarizə apardığı cəhalətin, köhnə qayda-qanunların hökm sürdüyü mühitin sakinləri olan avam insanlardır. Şahbaz bəydən daha zəif olan Teymur ağa və Əziz bəy obrazları müsbət surətlər kimi verilmişsə də, onlar öz düşüncələrini Şahbaz bəy kimi sərbəst ifadə edə bilmirlər. Lakin Vəzirovun yaratdığı Fəxrəddin bəy obrazı yeni bir obraz idi ki, o, Hacı Nurunun, Əşrəf bəyin, Şahbaz

[111] Bakı Dövlət Universitetinin magistrantı. sbnmsdli5@gmail.com

bəyin inkişaf etmiş bir şəkli, daha irəliyə gedərək müəyyən addımlar atmış bir nümayəndəsidir. Fəxrəddin obrazı özündən əvvəlki gənc maarifçi ziyalıların həyata keçirmək istədiklərini reallaşdıra bilir: öz gücünə məktəb, xəstəxana və s. açır. O, öz düşüncələrini çəkinmədən dilə gətirir və yolun sonunda faciə ilə rastlaşsa da, mübarizə meydanına atılmaqdan əsla çəkinmir. Avamlığın, cəhalətin hökm sürdüyü cəmiyyətdə, qara qüvvələrin at oynatdığı mühitdə baş verənlərdən məyus olan və tək olduğunu anlayan bu maarifpərvər gənc sonda "bir gül ilə bahar olmaz" nəticəsinə gəlir: "Xudaya, gör mən nə dərdi çəkirəm, bunların fikri nədir! Bədbəxt müsəlman, şəriətdən bixəbər, avam müsəlman. Fəqir-füqəralar yaddan çıxıb, yetimlərə rəhm kəsilib, elm yox, sənət yox" [6, 122]. Fəxrəddin əzab-iztirab içində boğulan bir gəncdir. Onun dərdi, kədəri isə şəxsi deyil. Çünki faciə qəhrəmanının dərdi nə atasının öldürülməsi, nə anasının dedikləri, nə bacısının qaçırılmasıdır, bir sözlə Fəxrəddinin dərdi ailəsinin dağılması deyildi, onun kədəri daha böyük idi, onun dərdi mühiti və dövrü daha dərindən dərk etməsindən doğan bir iztirab idi. Onu qəm dəryasına qərq edən müsəlman qardaşlarının elmsizliyi və nadanlığı idi.

Ümumiyyətlə, Vəzirovun Fəxrəddin obrazını yaratmaqla onun timsalında maarifçiliyi verməsi, onun maarifpərvər olması, onun cəmiyyətə baxışları ilə əlaqədar idi. Nəcəf bəy inanırdı ki, əhalini maarifləndirmək yolu ilə onları keçmişin qaranlığından xilas edərək yeni cəhətlər yarada bilər. Fəxrəddin bəy cəmiyyətin eybəcər hallarının səbəbini xalqın, insanların "mərifətdən bixəbər" olmalarında da görürdü. Maarifçi ziyalı gənc haqlı olaraq düşünürdü ki, yenilik ideyalarına nail olmaq, cəmiyyəti cahillik adlanan bəladan xilas etmək üçün insanlar təhsilə malik olmalı, şəriət və mərifət qaydalarına düzgün əməl etməlidilər. Fəxrəddin maarifçi bir insandır. O, cəmiyyətin heç bir təbəqəsini ayrıca siniflərə ayırmır, hər kəsə eyni diqqətlə yanaşır. Digər maarifpərvər insanlar kimi, Fəxrəddin də kiçik bir ərazidəki insanları, yəni nə öz ailəsini, nə kəndini deyil, bütöv müsəlman aləmini elmə, maarifləmməyə, oyanmağa çağırır. Əsərdə maarifçi fikirləri ilə fərqlənən tək Fəxrəddin obrazı deyil.

Fəxrəddin bəydən sonra faciədə Səadət xanım da öz maarifçi fikirləri ilə seçilir. Səadət xanım realist ədəbiyyatımızda öz qabaqcıl fikirləri ilə seçilən, gənc ziyalı qadın obrazlarındandır. Vəzirov Səadət xanımı təhsil almış, öz əxlaqı ilə seçilən, öz düşüncələri və ağlı ilə fərqlənən, sədaqətli, tədbirli bir obraz kimi qarşımıza çıxarır. Rüstəm bəyin qızı olmasına baxmayaraq, Səadət xanım öz əxlaqi görüşləri və maarifçi düşüncələri ilə Fəxrəddinlə birləşir. Qaranlıq mühitdə Fəxrəddini anlayan tək insandır. O, Fəxrəddindən sonra sadəcə onun arzularını yaşatmaq, maarifçilik yolunda etdiyi işləri davam etdirmək üçün yaşayacağını deyir. "Nə qədər canım sağdır sənə təziyədar qalacağam, məktəbxanda mücavirlik edəcəyəm....Heyf sənə Fəxrəddin, bu vəhşi nadanlar sənin qədrivi-qiymətivi bilmədilər!..." [8, 161]. Beləliklə, əsər Fəxrəddinin faciəsi ilə bitir. Amma Vəzirov inanır ki, gələcək Fəxrəddinlərin, Səadət xanım kimilərinindir və onların sayəsində cəmiyyətdə ədalət bərqərar olacaq, insanlar elmin, təhsilin ardınca gedərək işıqlı yola çıxacaqlar.

İstifadə edilmiş ədəbiyyat

1. Əhmədov T., Əhmədova Salatın. XIX-XX əsr Azərbaycan ədəbiyyatı (dramaturgiya). Üç cilddə, III cild. Bakı: Nurlar, 2014, 752 s.
2. QasımzadəF. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2018, 552 s.
3. QasımzadəF. N.B.Vəzirov. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1954, 160 s.
4. Məmmədov X. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 2006, 213 s.
5. Məmmədov K. N.B.Vəzirov. Bakı: Azərbaycan SSRİ Elmlər Akademiyası nəşriyyatı, 1963, 327 s.
6. Nəcəf bəy Vəzirov. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, 304 s.
7. Nəcəf bəy Vəzirov. Müsibəti-Fəxrəddin. Bakı: Azərnəşr, 1929, 70 s.
8. Nəcəf bəy Vəzirov. Seçilmiş əsərləri. Bakı: Maarif, 2002, 292 s.

Açar sözlər: maarif, dramaturgiya, faciə, maarifçi ziyalı obrazlar.

Key words: enlightenment, dramaturgy, tragedy, enlightened images

Ключевые слова: Просвещение, драма, трагедия,просветительские образы

Xülasə

Azərbaycan klassik ədəbiyyatının inkişafında böyük rolu olan Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərində maarifçilik ideyaları və maarifçi obraz olan Fəxrəddin tədqiqata cəlb edilmişdir. Bildiyiniz kimi, N.Vəzirovun ədəbiyyatımızda əsasən pyesləri əsas tədqiqat obyektinə çevrilmişdir. Həmçinin bu pyeslərdəki maarifçi ziyalı obrazlar da hər zaman diqqəti cəlb etmişdir. Məqalədə də "Müsibəti-Fəxrəddin" faciəsində maarifçilik ideyası araşdırılmış, həmçinin gənc maarifçi ziyalı obraz Fəxrəddinin ədəbiyyatımızda sələflərindən fərqli olaraq yeni obraz olmağı haqqında yazılmışdır. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatının böyük bir sahəsini əhatə edən maarifçilik, maarifçi obrazlar N.Vəzirov əsərlərində də hər zaman yer almışdır.

Summary

The article explores the ideas of enlightenment and the enlightening image of Fakhraddin in Najaf bey Vazirov's "TragedyFakhraddin", which played a great role in the development of Azerbaijani classical literature. As you know, N.Vazirov's plays have become the main object of research in our literature. Also, the enlightening intellectual images in these plays have always attracted attention. The article also examines the idea of enlightenment in the tragedy "Tragedy-Fakhraddin", as well as the fact that the young enlightened intellectual Fakhraddin was a new image in our literature, unlike his predecessors. In general, enlightenment, enlightening images covering a large area of Azerbaijani literature have always been included in the works of N.Vazirov.

Резюме

В статье исследуются просветительские идеи и просветительский образ Фахраддина в произведении Наджаф бека Вазирова «Трагедия-Фахраддин», сыгравшего большую роль в развитии азербайджанской классической литературы. Как известно, пьесы Н. Вазирова стали основным объектом исследования в нашей литературе. К тому же просветляющие интеллектуальные образы в этих пьесах всегда привлекали внимание. В статье также исследуется идея просвещения в трагедии «Трагедия-Фахраддин», а также то, что молодой просвещенный интеллектуал Фахраддин был новым образом в нашей литературе, в отличие от своих предшественников. Вообще, просветление, просветительские образы, охватывающие большую часть азербайджанской литературы, всегда были в творчестве Н.Вазирова.

RƏYÇİ: dos. S.Abbasova

Şəms Hafiz qızı Məmişova [112]

FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN TƏDRİSİNDƏ FƏNLƏRARASI VƏ FƏNDAXİLİ İNTEQRASİYADAN İSTİFADƏ

İbtidai təlim dövrü uşaq həyatının çox əhəmiyyətli mərhələlərindən biridir. Burada onun təbii imkanlarının üzə çıxması üçün hər cür şərait yaratmaq mümkündür [2, s. 124]. Şagirdlərdə qabiliyyətlərin vaxtında üzə çıxarılması, möhkəmləndirilməsi, materialın şüurlu surətdə mənimsədilməsi üçün təlimdə inteqrasiya vacibdir.

"Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)" sənədində təhsilin inteqrativliyi əsas prinsip kimi nəzərdə tutulmuşdur. Milli Kurikulum təhsildə fəndaxili və fənlərarası inteqrasiyaya xüsusi önəm verir. Müxtəlif sahələr üzrə biliklərin inteqrasiyası şagird təfəkküründə ətraf aləm haqqında vahid, sistemli dünyagörüşün formalaşmasına kömək edir [1]. İnteqrasiyadan orta ümumi təhsil məktəblərində dərsin keyfiyyətlə olması üçün müəllim gündəlik planlaşdırma aparmalıdır. Gündəlik dərsin planlaşdırılmasının (icmalın) bir neçə mərhələsi var. Həmin mərhələlərdən ən vacib və müəllimləri çaşdıran hissələrdən biri də məhz inteqrasiyadır**.**

İnteqrasiya termini XX əsrin sonundan daha fəal istifadə olunmağa başlasa da onun ifadə etdiyi mahiyyət və məzmun həyat yarandığı gündən mövcud olmuş, onun varlığını təşkil etmişdir. Zaman-zaman diferensial yanaşmalar hissələrə bölünməni, ayrılmaları tənzimlədiyi kimi, inteqrasiya prosesləri də bütövləşmələrin, tamamlanmaların nəticəsi kimi meydana çıxmışdır [8, s. 358]. Bəşəriyyətin tarixi boyu proqressiv xarakter daşıyan yeniliklər diferensial və həmçinin inteqrativ yanaşmaların fonunda yaranmışdır. Bütün elm sahələrində, o cümlədən sosiologiyada, eləcə də pedaqogikada inteqrasiya önəmli yer tutmuşdur. Ona görə də pedaqogikada "inteqrasiya", "inteqrativlik", eləcə də "təhsildə inteqrasiya" və s. anlayışlardan daha çox istifadə olunmağa başlamışdır. İnteqrasiya təhsilin bütün struktur elementlərinə aid olduğundan son dövrlərdə "inteqrativ təlim", "inteqrativ dərs", "inteqrativ fənn" və s. anlayışlar da işlənir.

Müasir dünyada sürətlə gedən sosial, mədəni və texnoloji dəyişikliklər qlobal düşünmə tərzinin əhəmiyyətini xeyli artırır. Belə olan halda şagirdlər təlim prosesinin passiv iştirakçısı olmur. İnteqrativlik şagirdlərə ətraf aləmin dərk edilməsinə yaradıcı idraki münasibət bəsləyən subyektlər kimi yanaşılmasına imkan yaradır. Bu o zaman mümkün olur ki, təhsil pillələrində öyrənilən fənlər və onların əhatə etdiyi mövzular ayrı-ayrı deyil, əlaqəli, inteqrativ şəkildə tədris olunur. Digər bir tərəfdən inteqrativ kurikulum şagirdlərin dərsliklərdə verilən materiallara yaradıcı yanaşmasına kömək edir.

Təcrübə göstərir ki, tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi, dərslərin maraqlı və məzmunlu qurulması, uşaqlarda tədqiqatçılıq meyillərinin yaranması üçün vacib şərtdir. Fəndaxili inteqrasiya müəyyən bir fənnin aşıladığı anlayış, bilik və bacarıqların əlaqələndirilməsi, fənn daxilində səpələnmiş faktların sistemləşdirilməsidir. Belə səviyyədə inteqrasiyanı verilmiş materialın ayrı-ayrı tədris vahidlərində cəmləşdirilməsi də hesab etmək olar. Bu isə son nəticədə fənnin məzmununun strukturunun dəyişdirilməsinə gətirib çıxarır. Bu mənada inteqrasiya olunmuş məzmun informativ cəhətdən daha tutumlu olur, şagirdlərin daha əhatəli kateqoriyalarla düşünmə bacarıqları formalaşdırmalarına kömək edir. İbtidai təhsil pilləsi fənlərinin tədrisində geniş şəkildə istifadə olunan fəndaxili inteqrasiya üçün konsentrik prinsipə əsaslanan spiralvari quruluş daha xarakterikdir [2, s. 254]. Bu cür inteqrasiya prosesində dəyərlərin dərk olunması xüsusidən ümumiyə və yaxud ümumidən xüsusiyə doğru ola bilər. Beləliklə, məzmun get-gedə yeni məlumatlarla, bağlılıqlarla və asılılıqlarla zənginləşərək daha maraqlı hala gəlir. Bu formanın üstün xüsusiyyəti ondan ibarətdir ki, şagirdlər başlanğıc problemi diqqətdən qaçırmadan onunla bağlı olan bilgilərini daha da genişləndirir və dərinləşdirirlər.

Fənlərarası inteqrasiya bir neçə fənnin əhatə etdiyi ortaq bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Bu inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına xidmət edir. Bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etməklə təlim prosesinin səmərəliliyinin artırılmasına şərait yaradır.

Fənlərarası və fəndaxili münasibətlərin sadəcə əlaqə deyil, inteqrasiya xarakteri daşıması bu münasibətlərin daha sıx və möhkəm olmasına, onun bütöv bir prosesə çevrilməsinə şərait yaradır. Müəllimlər pedaqoji prosesdə ondan daha səmərəli qaydada istifadə etmək imkanı qazanırlar. Bundan əlavə, fənlərarası və fəndaxili inteqrasiya interaktiv öyrənməyə geniş yol açır. Şagirdlərin təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır.

İnteqrasiya nəticəsində tədris materialının yığcamlığı təmin edilir, təkrara yer verilmir, şagirdlər artıq yüklənmir və tədris vaxtına qənaət edilir. Onlar az vaxt içərisində çox, həm də bir-biri ilə üzvi əlaqədə formalaşmış biliklər əldə edirlər. Bu məqsədlə uşaqları inteqrativ biliklər əldə etməyə hazırlayan fənlərarası əlaqəyə geniş yer verilməlidir. Bunun təmin edilməsi üçün müəllim bütün fənlər üzrə proqram materiallarına yaxşı bələd olmalı, fənlərarası əlaqədən istifadə etməyin yollarını, onun metodikasını dərindən bilməlidir.

Fənlərarası əlaqə prosesində tədris fənni şagirdlər tərəfindən yaxşı mənimsənilir, bir neçə fənn üzrə bilik, bacarıq və vərdişlər təkrarlanır. Biliyin şagirdlər tərəfindən sistemli mənimsənilməsi təmin edilir.

Fənlərarası əlaqədən ardıcıl şəkildə istifadə tədrisin səviyyəsini yüksəldir, şagirdlərin təfəkküründü inkişaf etdirir, dünyagörüşünü genişləndirir. Buna görə də təhsilə ayrı-ayrı fənlərin öyrədilməsi kimi deyil, XXI əsrin tələb etdiyi həyati bacarıqların inkişaf etdirilməsi prosesi kimi baxılmalı, şagirdlər həyat boyu öyrənməyə hazırlanmalıdır.

[112] Bakı Dövlət Universiteti, II kurs magistr, smsmova8@gmail.com

Yuxarıda da qeyd etdiyimiz kimi, inteqrasiyanın 3 növü var:

1. Fəndaxili inteqrasiya
2. Fənlərarası inteqrasiya
3. Fənnüstü inteqrasiya [9, s. 18].

Fəndaxili inteqrasiya müəyyən bir fənnin aşıladığı anlayış, bilik və bacarıqların əlaqələndirilməsi, fənn daxilindəki nizamsız faktların sistemləşdirilməsidir. Bu inteqrasiya tipindən ibtidai təhsil pilləsi fənlərinin tədrisində daha çox istifadə olunur.

Fəndaxili inteqrasiya da 2 cür olur: Üfüqi və Şaquli inteqrasiya. Üfüqi inteqrasiya - fənn üzrə məzmun xətlərini əlaqələndirməklə, müvafiq məzmun standartlarının müəyyən tədris vahidlərində ifadə olunmasını təmin edir. Şaquli inteqrasiya - sinifdən-sinfə tədricən dərinləşən və genişlənən məzmun xətləri arasında varisliyi təmin edir.

Fənüstü inteqrasiya - inteqrasiyanın ən yüksək səviyyəsi hesab olunur, transfənn inteqrasiya da adlanır. Məktəbdə tədris edilən mövzuların məzmunu ilə məktəbdən kənarda aldıqları məzmun sintez edilir. Ümumtəhsil sistemində təlim nəticələrinin standartlar əsasında müəyyənləşdirilməsi tədris edilən fənlər üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasına imkan yaradır. Təlim prosesində motivasiyanın artırılması, fəallığın artırılması, məzmunun hərtərəfli aşılanması baxımından Həyat bilgisi fənninin rolu əvəzedilməzdir. Digər fənlərdə olduğu kimi, bu fənnin tədrisində də uğurlu nəticələr əldə etmək üçün fəndaxili, fənlərarası və fənlərüstü inteqrasiyanın böyük əhəmiyyəti vardır. Mütəxəssislərin fikrincə, bu inteqrasiya növündən təkcə humanitaryönümlü deyil, elə texnikiyönümlü fənlərdə də geniş istifadə olunmalıdır.

Bölmələrarası əlaqə bölmələr arasındakı əlaqəni müəyyənləşdirir. Mövzulararası əlaqə eyni bölmənin müxtəlif mövzularını əlaqələndirir. Anlayışlararası əlaqə isə müxtəlif fənlərdən olan anlayışlar arasında mövcuddur. Fənlərarası inteqrasiya iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, bacarıq, vərdiş və prinsiplərin sintezidir. Bu inteqrasiya bir fənnin qanun, nəzəriyyə və metodlarının başqa fənnin öyrədilməsində istifadə olunmasını nəzərdə tutur. Fənlərarası əlaqələr məşhur pedaqoq-alimlərin (İ.D.Zverev, V.M.Korotod, E.İ.Monoszon, M.N.Skatkin, V.N.Maksimov, Z.Veysova, Y.Ş.Kərimov və b.) tədqiqatlarında həm "üfüqi" həm də "şaquli" istiqamətdə inteqrasiya təlim və tərbiyənin vəhdəti şərti, fənni sisteminə kompleks yanaşma kimi çıxış edir. Tədris prosesində fənlərarası əlaqənin rolu əhəmiyyətlidir. O, bilavasitə tədrisin öyrətmək, tərbiyələndirmək və inkişaf etdirmək məqsədlərinə nail olmağa təsir göstərir. Bununla yanaşı, fənlərarası əlaqələr şagirdlərin təfəkküründü formalaşdırır, dünyanı hərəkətdə və inkişafda görməyə, müxtəlif fənnlərin mövzuları arasında məntiqi əlaqələrin qurulmasına imkan yaradır. Onların biliklərindəki formalizmin ləğv edilməsi, qarşısının alınması metodları kimi çıxış edir. Məktəblilərin həddən artıq yüklənmələrinin qarşısını almağa, tədris müddətinin qısaldılmasına, dinamik, keyfiyyətcə dəyişkən biliklər sisteminin formalaşdırılmasına imkan yaradır. Bu əlaqələrin mənimsənilməsində müəllim şagirdlərə kömək göstərir. K.D.Uşinski yazırdı: "Şagirdin başında sxolastik elmlər deyil, həyata, ətraf aləmə imkan daxilində geniş və işıqlı nöqteyi-nəzəri üzvi surətdə quran, hər hansı bir elmi məlumat verən bilik və ideyalar yerləşdirilməlidir" [7, s. 455]. Müşahidələr göstərir ki, tədris materialının fənlərarası inteqrasiya yaratmaqla öyrədilməsi əqlin sürətli inkişafına imkan verir. Fənlərarası inteqrasiya faktik materialın məzmununa, əqli əməyin xarakterinə görə şagirdin fərdi, yaradıcı potensialının inkişafında, gerçəkliyin əsas problemlərini görmə qabiliyyətinə malik olmasında vacib əhəmiyyət kəsb edən idrak fəaliyyətinin elmi cəhətdən qurulmasına imkan verir ki, bu da daim yeniləşən və mürəkkəbləşən məsələlərin həllini bacaran mütəxəssislər hazırlamağa kömək göstərir. Beləliklə, hərtərəfli fənlərarası əlaqələrin köməyi ilə şagirdlər fənlərin aparıcı ideyalarını öyrənir, nəticədə biliklərin sistemi yaradılır. Elm, incəsənət və təfəkkürün sintezi kimi dünyagörüşü formalaşır. İnteqrasiya təhsil islahatının əsas prinsiplərindən biri olub, təbii əlaqələr prosesində ümumiləşdirilmiş biliklərin verilməsi üçün əlverişli şərait yaradır. Ümumtəhsil məktəblərində fənlərin məzmun və strategiyalarının hazırlanmasında ona istinad olunur. İbtidai təlimdə heç bir fənni bir-birindən təcrid olunmuş şəkildə tədris etmək mümkün deyil. Azərbaycan dili öz məzmunu etibarilə inteqrativ kurs olduğundan onun imkanları daha genişdir. Azərbaycan dili, təlim dili kimi, şagirdlərin müasir dünyada baş verən texnoloji və mədəni dəyişikliklər haqqında araşdırma aparmaq, nəticə çıxarmaq, problemləri həll etmək kimi bacarıqlara yiyələnmələrini zəruri edir. Dil üzrə yeni anlayışların mənimsənilməsi prosesi intensivləşir, digər fənlərə istinad olunan biliklər möhkəmlənir, təlim vaxtına qənaət edilir. Digər fənlərlə inteqrasiya məzmun və fəaliyyət baxımından uyğun standartlar üzrə aparılır. Müəyyən olunmuş standartların kodları Azərbaycan dili üzrə müvafiq standartların qarşısında qeyd edilir. Azərbaycan dili fənninin inteqrativ şəkildə tədrisi dərsin daha maraqlı, məzmunlu və düşündürücü olmasına zəmin yaradır. Bu bacarıqlar vərdiş halına keçir və sona qədər davam edir. Oxu ilə yazının inteqrasiyası zamanı şagirdin şifahi və yazılı nitqi inkişaf edir. Məktəbə qədəm qoyan şagirdin aldığı biliklər müşahidə, dinləmə, eşitmə yolu ilə əldə olunur. O, fikirlərini yalnız şifahi şəkildə nümayiş etdirir. Şagirdin söz ehtiyatının zənginləşməsində, nitq bacarıqlarının formalaşmasında gözəl, səlis, rəvan danışıq mühüm rol oynayır.

Orta məktəblərdə Azərbaycan dili dərslərində frazeologiyanın təliminə V sinifdə başlanılır. Müasir tələblərə cavab verən dərslər keçən müəllim frazeologiyanın təlimində interaktiv təlim metodları ilə yanaşı, inteqrasiyadan da istifadə etməlidir. Azərbaycan dili müəllimləri frazeologiyanın təlimində fəndaxili və fənlərarası inteqrasiyadan istifadə edə bilər.

Frazeologiyanın təlimində müəllim frazeoloji birləşmələri Azərbaycan dilinin digər şöbələri ilə əlaqələndirərək fəndaxili inteqrasiya yaratmış olacaqdır. Frazeoloji birləşmələri şagirdlərə mənimsətdikdən sonra müəllim orfoepiya qaydaları ilə, sözün məcazi mənası ilə, feillə, xəbərlə, fərqli üslublarla və s. frazeologiyanı əlaqələndirə bilər. Bu mövzular arasında yaradıla biləcək əlaqələr haqqında daha geniş danışaraq nümunələr göstərək.

Müəllim ilk növbədə frazeologiyanı orfoepiya qaydaları ilə əlaqələndirə bilər. Orta məktəb proqramlarının V sinif Azərbaycan dili dərsliklərində söz birləşmələrinin, asılı tərəfi be, de, ce, ge, ke və qe hərfləri ilə bitən birləşmələrin tələffüz

qaydalarına yer verilir [3, s. 45]. Bu bölmədən bir neçə dərs sonra frazeoloji birləşmələr bəhsi gəlir. Müəllim bu dərsi keçdikdə əvvəlki dərslə inteqrasiya yaradaraq bəzi frazeoloji birləşmələrin tələffüz qaydalarını şagirdlərdən soruşa bilər. Eyni zamanda müəllim bu inteqrasiyanı maraqlı tapşırıqlar şəklində də şagirdlərə təqdim edə bilər [5, s. 59].

Frazeologiyanı əlaqələndirə biləcəyimiz digər bir mövzu sözün həqiqi və məcazi mənasıdır. Məlumdur ki, frazeoloji birləşmələrin içərisində elə birləşmələr vardır ki, onları həm həqiqi, həm də məcazi mənada işlətmək mümkündür. Məsələn, yola düşmək, əl tutmaq, başa vurmaq və s. Bu mövzular arasında inteqrasiya yaradan müəllim şagirdlərə əlaqədar tapşırıq verərək onları fərqləndirməyi tələb edə bilər.

Frazeoloji birləşmələrlə inteqrasiya yarada biləcəyimiz bir digər mövzu əsas nitq hissələrindən biri olan feildir. Feil orta məktəblərin VI sinif dərsliyində yer alıb [4, s. 165]. Məlumdur ki, frazeoloji birləşmələrin əksəriyyəti bir sözlə ifadə oluna bilər. Onların ifadə olunduğu bir söz məhz, feildir. Ona görə də müəllim feil bəhsini keçərkən fərqli frazeoloji birləşmələr verərək onları bir feiilə əvəz etməyi tapşıra bilər. Bu cür tapşırıqları müəllim qruplarla iş zamanı da istifadə edə bilər. Belə ki, müəllim hər qrupa kartiçkalarda fərqli frazeoloji birləşmələr təqdim edə bilər. Tapşırığı ilk və düzgün tamamlayan komanda qalib komanda sayılır.

Şagirdlər bəzən tərkibi feillərlə frazeoloji birləşmələri qarışdıra bilərlər. Müəllim ona görə də tərkibi feilləri tədris edərkən frazeoloji birləşmələri də şagirdlərin yadına salmalıdır. Müəllim vurğulamalıdır ki, tərkibində "etmək", "olmaq", "bilmək" sözləri olan birləşmələr frazeoloji birləşmələr deyil, tərkibi feillər sayılır [6, s. 122].

Sabit söz birləşmələri və sərbəst söz birləşmələri arasında inteqrasiya yarada biləcək mövzulardır. Şagirdlər bu söz birləşmələrini fərqləndirmək üçün onların həqiqi və ya məcazi mənada işləndiklərini fərqləndirməyi bacarmalıdırlar. Bu zaman şagirdlər biləcəklər ki, həqiqi mənalı birləşmələr sərbəst söz birləşmələri, məcazi mənalı birləşmələr isə sabit söz birləşmələridir.

Azərbaycan dili fənni digər fənlər arasında ən çox ədəbiyyatla əlaqəli tədris olunur. Bu zaman fənlərarası inteqrasiya yaranır. Frazeoloji birləşmələri də tədris edərkən müəllim ədəbiyyatla əlaqələndirə bilər.

Məlumdur ki, frazeoloji birləşmələrin bir növü atalar sözləri və məsəllər hesab edilir. Atalar sözü və məsəllər eyni zamanda ədəbiyyatın bir qolu sayılan şifahi xalq ədəbiyyatının obyektidir. Ona görə də frazeoloji birləşmələrin bu bölgüsündən bəhs edərkən atalar sözlərinin tərbiyəvi əhəmiyyətinə toxunaraq ədəbiyyatla inteqrasiya yaratmaq mümkündür.

Bəzi atalar sözləri var ki, onlar bədii sual kimi istifadə oluna bilir. Bədii sual isə ədəbiyyat nəzəriyyəsində bədii ifadə vasitələrinin bir növüdür. Məsələn, "Varlığa nə darlıq?", "Kim öz ayranına turş deyər?" kimi atalar sözlərindən danışan müəllim bədii sual anlayışına toxunaraq inteqrasiya yarada bilər.

Beləliklə, fikirlərimizi ümumiləşdirsək, belə qərara gələ bilərik ki, Azərbaycan dili fənnini tədris edən müəllim dərslərdə fəndaxili və fənlərarsı inteqrasiyadan istifadə edərək dərsləri daha maraqlı edə bilər. Frazeologiya da Azərbaycan dilində bu cür inteqrasiya yarada biləcək mövzulardandır.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyeva S. Müasir təhsilimiz və dərslərimiz. Təhsil /elmi-nəzəri, pedaqoji, metodik jurnal. http://tehsiljurnali.az/manset/215-masr-thslmz-vdrslrmz.
2. Cəfərova, N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. (Dərslik). Bakı, ADPU nəş, 2016. 403 səh
3. İsmayılov R., Cəfərova D, Xudiyeva G, Qasımova X. Azərbaycan dili- V sinif, Bakı: Altun, 2018, 176 s.
4. İsmayılov R., Cəfərova D, Məmmədova R, Azərbaycan dili. VI sinif üçün dərslik, Bakı: Altun kitab, 2020, 195 s.
5. İsmayılov R., Cəfərova D, Rüstəmova A, Azərbaycan dili fənni üzrə MMV, V sinif, Bakı: Altun kitab, 2020, 203 s.
6. İsmayılov R., Cəfərova D, Rüstəmova A, Azərbaycan dili fənni üzrə MMV, VI sinif, Bakı: Altun kitab, 2020, 175 s.
7. Kərimov, Y.Ş. Ana dilinin tədrisi metodikası (Dərslik). Bakı, "Kövsər" nəşriyyatı, 2011, 564 s.
8. Süleymanova A. Təhsilin əsasları. Bakı: Təhsil, 2014, 400 s.
9. Zeynalov, S.S. Orta məktəbin "Azərbaycan dili" dərsliklərində dilçilik məsələləri. Bakı, Çaşıoğlu, 1999, 120 səh

Açar sözlər: Azərbaycan dili, frazeoloji birləşmələr, inteqrasiya, fəndaxili inteqrasiya, fənlərarası inteqrasiya

Key words: Azerbaijani language, phraseological combinations, integration, intra-disciplinary integration, interdisciplinary integration

Ключевые слова: Азербайджанский язык, фразеологические сочетания, интеграция, внутрипредметная интеграция, междисциплинарная интеграция**.**

Xülasə

"Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)" sənədində təhsilin inteqrativliyi əsas prinsip kimi nəzərdə tutulmuşdur. Milli Kurikulum təhsildə fəndaxili və fənlərarası inteqrasiyaya xüsusi önəm verir. Müxtəlif sahələr üzrə biliklərin inteqrasiyası şagird təfəkküründə ətraf aləm haqqında vahid, sistemli dünyagörüşün formalaşmasına kömək edir.

Təcrübə göstərir ki, tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi, dərslərin maraqlı və məzmunlu qurulması, uşaqlarda tədqiqatçılıq meyillərinin yaranması üçün vacib şərtdir. Fəndaxili inteqrasiya müəyyən bir fənnin aşıladığı anlayış, bilik və bacarıqların əlaqələndirilməsi, fənn daxilində səpələnmiş faktların sistemləşdirilməsidir. Fənlərarası əlaqə prosesində tədris fənni şagirdlər tərəfindən yaxşı mənimsənilir, bir neçə fənn üzrə bilik, bacarıq və vərdişlər təkrarlanır. Biliyin şagirdlər tərəfindən sistemli mənimsənilməsi təmin edilir.

Orta məktəblərdə Azərbaycan dili dərslərində frazeologiyanın təliminə V sinifdə başlanılır. Müasir tələblərə cavab verən dərslər keçən müəllim frazeologiyanın təlimində interaktiv təlim metodları ilə yanaşı, inteqrasiyadan da istifadə etməlidir. Azərbaycan dili müəllimləri frazeologiyanın təlimində fəndaxili və fənlərarası inteqrasiyadan istifadə edə bilər.

Frazeologiyanın təlimində müəllim frazeoloji birləşmələri Azərbaycan dilinin digər şöbələri ilə əlaqələndirərək fəndaxili inteqrasiya yaratmış olacaqdır. Frazeoloji birləşmələri şagirdlərə mənimsətdikdən sonra müəllim orfoepiya

qaydaları ilə, sözün məcazi mənası ilə, feillə, xəbərlə, fərqli üslublarla və s. frazeologiyanı əlaqələndirərsə, fəndaxili inteqrasiya, ədəbiyyat fənni ilə əlaqə yaradarsa, fəmlərarası inteqrasiya yaratmış olacaqdır.

Summary

İn the document "Concept of General Education in the Republic of Azerbaijan (National Curriculum)" the integration of education is considered as the main principle. The National Curriculum gives special importance to intra-subject and interdisciplinary integration in education. The integration of knowledge in various fields helps to form a unified, systematic worldview of the surrounding world in the student's thinking. Experience shows that ensuring intra-subject and interdisciplinary integration in the teaching process is an important condition for the easier assimilation of knowledge and skills by students, the creation of interesting and meaningful lessons, and the emergence of research tendencies in children. Intra-disciplinary integration is the integration of understanding, knowledge and skills inculcated in a specific discipline, and the systematization of scattered facts within the discipline. In the process of interdisciplinary communication, the teaching subject is well mastered by students, knowledge, skills and habits of several subjects are repeated. Systematic assimilation of knowledge by students is ensured. Phraseology training in Azerbaijani language classes in secondary schools begins in the 5th grade. A teacher who teaches lessons that meet modern requirements should use integration as well as interactive teaching methods in the teaching of phraseology. Azerbaijani language teachers can use interdisciplinary and interdisciplinary integration in teaching phraseology. In the teaching of phraseology, the teacher will connect phraseological units with other branches of the Azerbaijani language and create intra-disciplinary integration. After mastering the phraseological combinations to the students, the teacher uses the rules of orthography, the figurative meaning of the word, the verb, news, different styles, etc. if it connects phraseology, it will create intra-disciplinary integration, and if it connects with the subject of literature, it will create inter-cognitive integration.

Резюме

В документе «Концепция общего образования в Азербайджанской Республике (Национальная учебная программа)» основным принципом считается интеграция образования. Национальная учебная программа придает особое значение внутрипредметной и междисциплинарной интеграции в образовании. Интеграция знаний в различных областях помогает сформировать в мышлении студента единое, системное мировоззрение окружающего мира. Опыт показывает, что обеспечение внутрипредметной и межпредметной интеграции в учебном процессе является важным условием более легкого усвоения знаний и умений учащимися, создания интересных и содержательных уроков, возникновения у детей исследовательских тенденций. Внутридисциплинарная интеграция – это интеграция понимания, знаний и навыков, прививаемых конкретной дисциплиной, и систематизация разрозненных фактов внутри дисциплины. В процессе межпредметного общения обучающиеся хорошо усваивают предмет преподавания, повторяются знания, умения и навыки по нескольким предметам. Обеспечивается систематическое усвоение знаний студентами. Обучение фразеологии на уроках азербайджанского языка в общеобразовательных школах начинается с 5-го класса. Учитель, ведущий уроки, отвечающие современным требованиям, должен использовать в преподавании фразеологии интеграционные, а также интерактивные методы обучения. Преподаватели азербайджанского языка могут использовать междисциплинарную и междисциплинарную интеграцию при обучении фразеологии. При преподавании фразеологии преподаватель соединит фразеологизмы с другими ветвями азербайджанского языка и создаст внутрипредметную интеграцию. После усвоения учащимися фразеологических сочетаний учитель использует правила орфографии, переносное значение слова, глагола, новости, разные стили и т. д. Если оно соединит фразеологию, то создаст внутридисциплинарную интеграцию, а если оно соединится с предметом литературы, то создаст межпознавательную интеграцию.

RƏYÇİ: dos. N.Əfəndiyeva

Mehri Cavid qızı Babazadə [113]

BAŞ ÜZVLƏRİN TƏDRİSİNƏ DAİR

Giriş. Sintaksis qrammatikanın tərkib hissələrindən biridir və söz birləşmələri, cümlə üzvləri, cümlə haqqında təlimi özündə birləşdirir. Cümlə üzvləri nədir? Cümlə üzvləri leksik mənası olan sözlərin cümlədə başqa sözlərlə məna və qrammatik cəhətdən əlaqəyə girməsi nəticəsində yaranan söz və söz birləşməsinə deyilir. Deməli, cümlə üzvləri leksik mənalı olur, yəni əsas nitq hissələri ilə ifadə olunur. Köməkçi nitq hissələrinin leksik mənası olmadığı üçün cümlə üzvü ola bilmir, sadəcə qoşmalar qoşulduğu sözlərlə birlikdə qeyri-müstəqil şəkildə cümlə üzvü ola bilir. Cümlə üzvləri 2 qrupa ayrılır: baş və II dərəcəli üzvlər. Cümlə üzvləri ilə əlaqədar biliklər mənimsədildikdə şagirdlərdə cümlə haqqında tam təsəvvür yaranır. Cümlə üzvlərini mükəmməl öyrənən şagirdlər sintaksisin bütün bəhslərini asanlıqla və şüurlu şəkildə mənimsəyirlər.

III sinifdə şagirdlər öyrənirlər ki, cümləni təşkil edən sözlər onun üzvləridir. Cümlə üzvlərinin bir qismi birinci dərəcəli, yəni aparıcı, digər qismi ikinci dərəcəli olur. Birinci dərəcəli üzvlər cümlənin baş üzvləri hesab olunur. Baş üzvlər ikidir: mübtəda və xəbər. Cümlədə kimin və nəyin haqqında danışıldığını bildirən söz mübtədadır. Xəbər isə mübtəda haqqında nə deyildiyini bildirir. Cümlədə mübtəda və xəbəri müəyyənləşdirmək üçün şagirdlər onlara sual verir. Kim? nə? hara? suallarının köməyi ilə mübtədanı, nə etdi? nə edir? nə edəcək? nə olur? nə olacaq? suallarının köməyi ilə xəbəri tapırlar. Mübtədanı xəbərdən təcrid olunmus şəkildə öyrətmək mümkün deyil. Mübtədanı xəbərə görə, xəbərə sual verməklə tapmaq olur. Belə qarşılıqlı əlaqəli tədris baş üzvlərin müqayisəli mənimsənilməsini təmin edir.

Əsas hissə. Cümlə üzvlərinin qarşılıqlı-müqayisəli, əlaqəli şəkildə tədrisi sintaksisin əsas məsələlərindən biridir. Cümlə üzvləri ibtadi siniflərdən tədris olunmağa başlayır. Amma ibtidai sinif dərsliklərində cümlə üzvləri ilə bağlı səthi məlumat öz əksini tapmışdır. İbtidai siniflərdə cümlə üzvlərinin hansı nitq hissələri ilə ifadə olunması öyrədilmir. Bunu nəzərə alaraq müəllim əvvəlcədən hər bir cümlə üzvünün bir neçə nitq hissəsi ilə ifadə oluna bildiyini şagirdlərə başa salmalıdır. Şagirdlər *o, bu* əvəzliklərinin cümlənin mübtədası (O, tətildə Gəncəyə getdi) ismin, sifətin, əvəzliyin cümlənin xəbəri (Bu, bizim kəndimizdir) vəzifəsini icra edə bildiyini öyrənirlər. Qeyd etdiyimiz kimi, baş üzvlər deyəndə mübtəda və xəbər, II dərəcəli üzvlər deyəndə isə təyin, tamamlıq və zərflik nəzərdə tutulur.

Baş üzvlər cümlənin yaranmasında, əsas fikrin formalaşmasında mühüm rol oynayır. Elə məhz buna görə də baş üzvlərə cümlənin qrammatik əsası deyilir. Baş üzvlərdən biri olan mübtəda heç bir üzvdən asılı olmaması ilə fərqlənir, yəni ən müstəqil üzvdür. Cümlənin digər baş üzvü olan xəbər isə mübtədada olan hərəkət və ya əlaməti izah edir. Cümlədə xəbərin formalaşması mübtədadan asılıdır. Cümlə üzvlərinin digər xüsusiyyətlərindən biri də odur ki, quruluşuna görə sadə və mürəkkəb olur. Sadə cümlə üzvləri sadəcə nitq hissələri ilə ifadə olunan cümlə üzvləridir, mürəkkəb cümlə üzvləri isə mürəkkəb adlar, söz birləşmələri və tərkiblərlə ifadə olunan cümlə üzvləridir.

Cümlənin digər baş üzvü olan xəbər mübtədaya aid olan hal, iş, hərəkəti bildirir. Cümlələrin formalaşmasında mübtəda kimi xəbər də əsaslı rola malikdir. Çünki xəbər vasitəsilə fikrimizi tamamlayırıq, xəbər vasitəsilə, bir növ, cümləyə nöqtə qoyuruq. Xəbər cümlənin zəruri üzvüdür, çünki xəbər vasitəsilə biz fikirlərimizi, demək istədiklərimizi təsdiq və ya inkar edirik. Nəyə görə deyirlər xəbər hökmü bildirir? Məsələn, O, dünən sizə. Cümlə natamamdır, xəbər yoxdur, ona görə də mübtədanın, yəni onun nə etdiyini bilmirik. Xəbər olmasa, biz mübtədanın nə iş gördüyünü bilmərik. Cümləni *O, dünən sizə zəng etmişdi* şəklində tamamlasaq, fikrin təsdiq olduğunu, mübtədanın nə iş gördüyünü bilərik.

Cümlə üzvləri mövzusunu şagirdlərin biliklərinə əsaslanaraq tədris etmək lazımdır. Şagirdlərə artıq məlumdur ki, cümlə bitmiş fikir ifadə edən nitq vahidlərindən biridir. Bu nitq vahidində olan fikir cümləni əmələ gətirən sözlər, yəni cümlə üzvləri vasitəsilə ifadə olunur. Cümlə daxilində bütün sözləri cümlə üzvü adlandırmaq olmaz. Bu sözlər bir-biri ilə qrammatik əlaqəyə girib müəyyən fikir bildirdikdən sonra cümlə üzvü ola bilir. Buna görə də cümlədə bir-biri ilə əlaqəyə girə bilməyən sözləri cümlə üzvü hesab etmək yanlışdır. Cümlə üzvlərini yalnız cümlə daxilində, yəni bitmiş fikir ifadə edən nitq vahidində axtarmaq lazımdır. Çünki cümləni əmələ gətirən onun tərkib hissələridir, yəni üzvləridir. Onları bir-birindən təcrid edən zaman cümlə üzvü ola bilmir. Məsələn: *dəftər, çanta* sözləri, *məktəb direktoru* birləşməsi cümlənin baş üzvlərindən mübtədanın suallarına cavab versə belə, bu sözləri ayrı-ayrılıqda cümlə üzvü hesab etmək doğru deyil. Onlar cümlənin digər baş üzvü olan xəbərlə əlaqəyə girib, *Dəftər masanın üzərindədir, Çanta anamındır, Məktəb direktoru gec gəlmişdi* şəklində bitmiş fikri bildirdikdə cümlənin mübtədası ola bilər. Hələ III sinifdən şagirdlərə məlumdur ki, cümlənin baş, aparıcı üzvləri mübtəda və xəbər, II dərəcəli üzvləri isə təyin, tamamlıq və zərflikdir. Bunu əyani şəkildə göstərmək üçün şagirdlərin yaş və bilik səviyyələrinə uyğun cümlələri təhlil edərək onların sxemini aşağıdakı kimi göstərmək olar: *Dadlı meyvələr yerə tökülmüşdü.*



Müəllim şagirdlərin diqqətini ona cəlb edir ki, mübtəda və xəbər cümlənin qrammatik əsasını təşkil etdiyinə görə ikinci dərəcəli üzvlərin iştirakı olmadan da bir-biri ilə birləşərək bitmiş fikri ifadə edə bilir.

---

[113] Bakı Dövlət Universitetinin magistrantı

O, bu əvəzlikləri ibtidai siniflərdə ətraflı şəkildə tədris edilmir. Lakin 4-cü sinif dərsliyində həmin əvəzliklərlə ifadə olunan mübtədalardan sonra vergülün qoyulmasına aid müəyyən nəzəri məlumat verilmişdir. Bu məlumatı şagirdlərə şüurlu sürətdə mənimsətmək üçün intonasiya üzərində müşahidə aparılması faydalı hesab edilə bilər. Müəllim o, bu əvəlikləri ilə ifadə olunmuş mübtədalardan sonra vergülün işlədilməsini fasilə ilə əlaqələndirərək göstərməlidir ki, o, bu əvəzlikləri mübtəda yerində işləndikdə cümlənin digər üzvlərindən fasilə ilə ayrılır. Bu fasilələr isə əvəzliklərin işlənmə yerindən asılı olaraq müxtəlif şəkildə özünü göstərir. Belə ki, həmin əvəzliklərlə ifadə olunmuş mübtədalar isim, sifət və saydan əvvəl gəldikdə onlardan sonra mütləq fasilə edilməsi və bu fasilələr yazıda vergüllə göstərilməlidir. Amma onlar (əvəzliklə ifadə olunmuş mübtədalar) başqa nitq hissələrindən əvvəl gəldikdə onlardan sonra fasilə edilsə də, edilməsə də, vergül işarəsinin işlədilməsinə ehtiyac qalmır. Məsələn, *O məni tanıdı*. *Sabah o, təyyarə ilə yola düşür* cümlələrini müqayisə etsək, görərik ki, birinci cümlədə mübtədadan sonra fasilə edilə də bilər, edilməyə də bilər. Bu cümlədə məntiqi vurğu mübtədanın üzərinə düşdükdə ondan sonra fasilə edilməsinə ehtiyac qalmır, amma vurğu tamamığın (məni) üzərinə düşdükdə mübtədadan sonra fasilə edilməsi zəruridir. Buna baxmayaraq, hər iki halda mübtədadan sonra vergül işlədilmir. Çünki burada vergülün işlədilməməsi cümlənin ümumi məzmununa xələl gətirmir. İkinci cümlədə isə mübtədadan sonra fasilə edilməsi və yazıda vergül işarəsinin işlədilməsi vacibdir. Çünki bu cümlədə o əvəzliyi ilə ifadə olunmuş mübtədadan sonra fasilə edilmədikdə həmin əvəzlik özündən sonra gələn *təyyarə* sözünə qoşularaq onun təyini vəzifəsini daşıyır və cümlə əvvəlki məzmununu dəyişmiş olur. Beləliklə, şagirdlər *o, bu* əvəzlikləri ilə ifadə olunmuş mübtədalardan sonra vergül işarəsinin işlədilməsi və bu qaydanın fasilələrə uyğun gəlib-gəlməməsi haqqında müəyyən bilik əldə etmiş olurlar.

Məktəblərdə aparılan müşahidələr göstərir ki, şagirdlər nitq zamanı bütün fasilələri yazıda durğu işarəsi ilə (vergüllə) verməyə səy göstərirlər. Bu, əsasən, ondan irəli gəlir ki, müəllimlər yazıdakı vergül işarəsini fasilə ilə ifadə edildiyi haqqında şagirdlərdə lazımi vərdiş yaradır, lakin heç də fasilələrin hamısının yazıda göstərilməsinə ehtiyac olmadığını öyrətmirlər. Şagirdlərdə əmələ gəlmiş bu yanlış vərdişi aradan qaldırmaq üçün fasilələrin durğu işarəsi ilə verilməsi hallarına aid müxtəlif çalışmalar aparmaq olar. Bu qaydanın şagirdlərə öyrədilməsi üçün mübtədanın tədrisi müəllimlə əlverişli imkanlar verir. Mübtədaya aid tapşırıq və çalışmaların icrası zamanı şagirdlər mübtədanın əksər hallarda cümlənin digər üzvlərindən fasilə ilə ayrıldığı faktının şahidi olurlar. Bu zaman müəllim onlara belə bir fikri aşılamağa çalışmalıdır ki, mübtədanı cümlənin digər üzvlərindən ayıran fasilələrin heç də hamısı yazıda vergül işarəsinin işlədilməsini tələb etmir. Mübtədadan sonra vergül aşağıdakı hallarda işlədilmir:

"1) *O, bu* əvəzlikləri ilə ifadə olunan mübtədalar isim, sifət və say ilə ifadə olunan cümlə üzvündən əvvəl gəldikdə; məsələn, *O, əlini yuxarı qaldırdı*. *Bu, Rəşidin xoşuna gəlmədi*.

2) *O* şəxs əvəzliyi ilə ifadə olunan mübtəda *bu* işarə əvəzliyi ilə ifadə olunan cümlə üzvündən əvvəl gəldikdə; məsələn, *O, bu sözləri deməkdən çəkinmədi*.

3) Mübtədadan sonra işlənən cümlə üzvü mübtədanın ikinci tərəfi kimi anlaşılıb məntiqi vurğu qəbul etdikdə; məsələn, *Rəşid, müəllimə yanaşdı*" [1, s. 125].

Digər hallarda mübtədadan sonra fasilə zəruri olsa belə, vergül işlədilmir; məsələn, *Şair şeirlərindən bir neçəsini oxudu*".

Aparılmış tədqiqatlar göstərir ki, cümlənin qrammatik əsasını təşkil edən mübtəda və xəbərin tədrisi prosesində şagirdlərin üslubi vərdişlərini, əsasən, üç istiqamətdə inkişaf etdirmək mümkündür:

"1) Üslubi baxımdan mübtəda və xəbərin cümlədəki yerinin düzgün müəyyənləşdirilməsi

2) Mübtəda və xəbərin cümlədə şəxsə və kəmiyyətə görə düzgün uzlaşdırılması

3) Mübtəda ilə xəbərin sinonimlərindən nitqdə düzgün və məqsədəuyğun şəkildə istifadə olunmasına dair müvafiq əməli vərdişlərin aşılanması" [1, s. 247]. Bunları ayrı-ayrılıqda nəzərdən keçirək. Məlumdur ki, dilimizin qrammatik tələblərinə görə mübtəda cümlədə həmişə xəbərdən əvvəl işlənməlidir. Yazılı və şifahi nitqdı bu qaydanın pozulması cümlənin qrammatik mənasına xələl gətirir, onu anlaşılmaz edir. Lakin bununla belə, üslubun tələbinə görə bəzən cümlədə xəbəri mübtədadan əvvəl işlətmək vacib olur. Çünki bu halda cümlədəki fikrin emosional təsir gücü, ekspressivliyi xeyli artır və daha aydın dərk edilir. Fikrimizi konkret nümunə üzərində aydınlaşdıraq: *Yaşasın Azərbaycanın qalib ordusu!* Əgər bu cümlədəki xəbərlə mübtədanın yerini dəyişsək, yəni əvvəl mübtədanı, sonra isə xəbəri işlətsək, onda nitq öz emosional təsir gücünü və gözəlliyini itirər, təsirsiz olar.

Cümlədə mübtəda ilə xəbərin qarşılıqlı söz sırasında baş verən bu inversiya hadisəsinə bədii əsərlərdəki obrazların dilində daha çox rast gəlirik. Cümlədə xəbərin mübtədadan əvvəl işlədilməsinə şeir dilində daha çox rast oluruq. Bu, iki səbəblə bağlıdır: birincisi odur ki, obrazlılıq, ifadəlilik, şeir dilinin vəzn və qafiyəsi çox zaman müəllifi xəbəri mübtədadan əvvəl işlətməyə vadar edir.

Şagirdlər qrammatikadan öyrənirlər ki, şəxsə görə mübtəda və xəbər həmişə uzlaşmalıdır. Kəmiyyətə görə isə mübtəda və xəbər bəzən uzlaşır, bəzən uzlaşmır. Bu məsələnin mənimsədilməsi üzərində iş aparılarkən onu da şagirdlərin diqqətinə çatdırmaq lazımdır ki, cümlədə mübtəda və xəbərin uzlaşması eyni zamanda üslubla bağlıdır. Belə ki, üslubun tələbinə görə cümlənin mübtədası həmcins olduqda xəbər mütləq cəmdə işlənməlidir; məsələn, *İstirahət günlərində məktəbli, qulluqçu və evdar qadınlar pambıq toplamağa kömək edirdilər*. Mübtəda sayla adların birləşməsindən ibarət olduqda xəbər həm təkdə , həm də cəmdə işlənə bilir; məsələn, *Beş şagird birlikdə dərs hazırlayırdı* (xəbər təkdədir). *Üç dost yanaşı oturmuşdurlar xəbər* (xəbər cəmdədir).

Məlumdur ki, şagirdlər əvvəlki siniflərdə nitqdə sinonim feillərdən məqsədəuyğun şəkildə istifadəyə aid müəyyən üslubi vərdişlər qazanmışlar. Buna istinad edərək mürəkkəb xəbərlərin tədrisi zamanı şagirdlərin diqqətini sinonim feillərlə

ifadə olunmuş mürəkkəb xəbərlərin məna xüsusiyyətlərinə cəlb etmək mümkündür. Məsələn, Sən tapşırığa əməl etməlisən. Sən tapşırığa əməl etməyə bilməzsən cümlələrini şagirdlərə təqdim edib, izah etmək olar ki, həmin cümlələrin xəbəri, təxminən, eyni mənanı bildirsə də, bunlar incə məna çalarlıqları ilə bir-birindən xeyli fərqlənir. Belə ki, birinci cümlədəki *əməl etməlisən* xəbərində söz söyləyənin dinləyənə tapşırılmış işi yerinə yetirməyi məsələhət bilməsi mənası ifadə edilmişsə, ikinci cümlədəki *əməl etməyə bilməzsən* xəbərində danışan dinləyənə tapşırılmış işi icra etməklə əlaqədar hansı ixtiyara malik olduğunu bilmək, bir növ, ona hüquqi məsləhət vermək mənası ifadə edilmişdir. Digər tərəfdən də həmin xəbərdə işin icrasına dair müəyyən tələbkarlıq irəli sürülür. Buradan belə bir nəticə çıxır ki, sinonim feillərlə ifadə edilmiş xəbərləri həmişə eyni məqamda işlətmək deyil. Onların cümlədə dəqiq və məqsədəuyğun şəkildə işlədilməsi ifadə edilən fikrin məqsəd və vasitələri ilə yaxından bağlıdır.

Təcrübə onu göstərir ki, mübtəda və xəbərin qarşılıqlı söz sırası, uzlaşması və sinonim variantlarından nitqdə məqsədəuyğun şəkildə istifadə edilməsi ilə əlaqədar olan bu cür üslub məsələlərinin şagirdlərə çatdırılması onların həm nəzəri biliklərini, həm də praktik nitq vərdişlərinin inkişafına kömək edir.

Xəbərlər mübtəda ilə şəxsə görə uzlaşır. Mübtəda hansı şəxsdə olsa, xəbər də həmin şəsxdə olur**.** Məsələn: *Mən* bədii kitabları çox *oxuyuram. Sən* bu günlərdə şəhərə *gedəcəksən.* Xəbər mübtəda ilə kəmiyyətcə də uzlaşır – mübtəda tək olduqda xəbər də tək, cəm olduqda xəbərdə cəm olur. Məsələn:

Tək	Cəm
Mən oxuyuram.	Biz oxuyuruq.
Sən oxuyursan.	Siz oxuyursunuz.
O oxuyur.	Onlar oxuyurlar.

III şəxsin cəmində xəbər mübtəda ilə kəmiyyətcə uzlaşa da bilir, uzlaşmayada bilir. Bu aşağıdakı qayda üzrədir:

1. III şəxsdə insan anlayışı bildirən mübtəda cəm olduqda xəbər də əksər hallarda cəm olur. Məsələn: *Şagirdlər gözəl binalara tamaşa edirlər*. Bəzi hallarda kəmiyyətcə uzlaşmayada bilir. Məsələn: *Onlar qonağı qarşılamağa getmişdi* – bu cümləni belə uzlaşdırmaq olar: *Onlar qonağı qarşılamağa getmişdilər*.

2. Heyvan anlayışı bildirən mübtəda cəm olduqda xəbər də cəm olur, tək də olur. Məsələn: *İtlər hürüşürdü – İtlər hürüşürdülər*.

3. Mübtəda ilə cansız varlıqlar ifadə olunduqda xəbər əksər hallarda onunla uzlaşmır. Məsələn: *Yarpaqlar tökültü. Evlər tikildi*.

Nəticə. IV sinifdə şagirdlərin mövcud biliklərinə əsaslanaraq, mübtəda və xəbər haqqında bir sıra yeni məlumatlar vermək nəzərdə tutulur. Mübtədanı öyrədərkən onun ayrı-ayrı nitq hissələri, söz birləşmələri, müxtəlif tərkiblərlə ifadə olunması, cümlədə xəbərə sual verməklə mübtədanın tapılması, *o, bu* əvəlikləri ilə ifadə olunan mübtədalardan sonra vergülün işlədilməsi, mübtədanın onun sinonimi ilə əvəz olunması məsələlərinə xüsusi diqqət yetirilməlidir. Xəbərin tədrisi zamanı isə onun həm feil, həm də digər nitq hissələri ilə ifadə edilməsi, mübtədanın tələbindən doğan suala cavab verməsi, mübtəda ilə şəxsə və əmiyyətə görə uzlaşması, yerinə görə müvafiq sinonimlərlə əvəz edilməsi üzərində müəyyən iş aparmaq lazım gəlir. Müşahidələr göstərir ki, şagirdlər oxu zamanı intonasiyaya düzgün riayət edə bilmir, fasilələri yerli-yerində işlətmir, danışıqda eyni sözləri (xüsusilə mübtəda və xəbəri) təkrar edərək nitqi ağırlaşdırmaqla bərabər, onun ifadəliliyini pozur, danışıq zamanı rabitəli nitqin tələblərinə cavab verə bilmirlər. Ona görə də baş üzvlərin tədrisi zamanı intonasiya və üslubiyyat üzrə işlərə də müəyyən yer verilməlidir

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev A. Orta məktəblərdə Azərbaycan dili tədrisinin metodikası. Baki, 1968, 262 s.
2. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014, 384 s.
3. Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. Bakı, 2016, 403 s.
4. Həsənov Q.M. Müasir Azərbaycan dilinin sintaksisi. Bakı: ADU, 1981, 83 s.
5. Kazımov.Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Təhsil, 2007, 496 s.
6. Kərimov, Y.Ş. Ana dilinin tədrisi metodikası (Dərslik). Bakı: Kövsər, 2011, 564 s.

Açar sözlər: qrammatika, cümlənin baş üzvləri, mübtəda, xəbər, uzlaşma

Ключевые слова: грамматика, главные члены предложения, подлежащее, сказуемое, соглашение

Key words: grammer, main parts of the sentence, subject, news, reconciliation

Xülasə

Qrammatikanın tərkib hissələrindən biri olan sintaksis bir sıra mövzuları əhatə edir. Cümlə üzvləri də həmin mövzulardan biridir. Cümlənin tərkibinə daxil olan bütün elementlər onun üzvü ola bilməz. Cümlə tərkibində çıxış edən dil elementlərindən yalnız elələri cümlə üzvü olur ki, onlar bu tərkibin hər hansı bir üzvü ilə qrammatik və məntiqi əlaqəyə girmiş olsun. Başqa sözlə, cümlə üzvlərindən heç olmasa biri ilə sintaktik əlaqəyə girməyən bir vahid həmin cümlənin üzvü hesab edilmir. Həm orta məktəblərdə, həm də ali məktəblərdə bu mövzuların tədrisinə ciddi yanaşılmalıdır. Tədris zamanı qeyd olunmalıdır ki, mübtədanı xəbərdən təcrid olunmuş şəkildə öyrətmək olmaz. Çünki mübtədanı xəbərə görə, xəbərə sual verməklə tapmaq olur. Baş üzvlərin tədrisinin səmərəli öyrədilməsi vacibdir. Baş üzvlər cümlənin struktur əsasını təşkil edir. Mübtəda-xəbər əlaqəsi nəticəsində cümlədə predikativlik və fikir bitkinliyi yaranır. Sözün, söz birləşməsinin cümlə üzvü olması üçün onun cümlənin digər üzvləri ilə əlaqələnməsi vacibdir. Cümlə üzvləri bir - biriləri ilə qrammatik (sintaktik)

əlaqədə olur. Həmcins üzvlər tabesizlik əlaqəsi ilə, mübtəda və xəbər uzlaşma əlaqəsi ilə, təyin təyin olunanla yanaşma əlaqəsi ilə, tamamlıq xəbərlə idarə əlaqəsi ilə, zərflik xəbərlə idarə və ya ya naşma əlaqəsi ilə əlaqələnir.Tədris zamanı mübtədanı xəbərdən, xəbəri mübtədan ayrı, təcrid olunmuş şəkildə tədris etmək cümlənin qrammatik əsasının, yəni mübtəda və xəbərin zəif şəkildə qavranılmasına səbəb ola bilər.

Резюме

Синтаксис, являющийся одним из компонентов грамматики, охватывает ряд тем. Члены предложения — одна из таких тем. Все элементы, входящие в состав предложения, не могут быть его членами. Среди языковых элементов, входящих в состав предложения, членом предложения становятся только те, которые имеют грамматическую и логическую связь с каким-либо членом этого состава. Другими словами, единица, которая не вступает в синтаксическую связь хотя бы с одним из членов предложения, не считается членом этого предложения. К преподаванию этих предметов следует серьезно отнестись как в средней школе, так и в высшей школе. Во время обучения следует отметить, что проповедника нельзя обучать в отрыве от вести. Потому что найти мессенджера можно по новостям, задавая вопросы о новостях. Важно эффективно обучать преподаванию старших членов. Главные члены составляют структурную основу предложения. В результате связи вестника и вести в предложении возникают предикативность и мыслительная истощенность. Чтобы слово или словосочетание было частью предложения, важно, чтобы оно было связано с другими частями предложения. Члены предложения находятся в грамматической (синтаксической) связи друг с другом. Члены одного рода связаны отношением подчинения, предлог и сказуемое - отношением согласия, сказуемое - предложным отношением, полнота - предложным отношением, наречие - предикатом или отношением приближения. В процессе обучения преподавание предмета в отрыве от предмета, а предмета от предмета может привести к плохому пониманию грамматической основы предложения, то есть подлежащего и подлежащего.

Summary

Syntax, which is one of the components of grammar, covers a number of topics. Sentence members are one of those topics. All elements included in the composition of the sentence cannot be members of it. Among the linguistic elements appearing in the composition of the sentence, only those that have a grammatical and logical connection with any member of this composition become a sentence member. In other words, a unit that does not enter into a syntactic relationship with at least one of the sentence members is not considered a member of that sentence. The teaching of these subjects should be taken seriously both in secondary schools and in higher schools. During teaching, it should be noted that the preacher cannot be taught in isolation from the message. Because you can find the messenger according to the news, by asking questions about the news. It is important to effectively teach the teaching of senior members. The main members form the structural basis of the sentence. As a result of the messenger-news connection, predicativeness and thought exhaustion arise in the sentence. In order for a word or phrase to be a part of a sentence, it is important that it is related to other parts of the sentence. Sentence members are in grammatical (syntactic) relationship with each other. The members of the same gender are related by the relation of subordination, the preposition and the predicate by the relation of agreement, the predicate with the prepositional relation, the completeness with the prepositional relation, the adverbial predicate with the predicate or approach relation. During teaching, teaching the subject in isolation from the subject, and the subject from the subject, may lead to a poor understanding of the grammatical basis of the sentence, that is, the subject and the subject.

RƏYÇİ: dos. S.Abbasova

Mehri Cavid qızı Babazadə [114]

ZƏRFLİKLƏRİN MÜQAYİSƏLİ ŞƏKİLDƏ TƏDRİSİ YOLLARI

Qrammatikanın tərkib hissələrindən sintaksisin tədrisi həm orta məktəblərdə, həm də ali məktəblərdə əhəmiyyətli məsələlərdəndir. Sintasis bir sıra mövzuları əhatə edir. Cümlə üzvləri də onlardan biridir. İbtidai siniflərdə cümlə ilə praktik tanışlıq I sinifdən başlasa da, *cümlə üzvləri* anlayışı şagirdlərə III sinifdə öyrədilir. Bu mövzu üzrə sistemli anlayışlar IV sinifdə tədris olunur. Cümlənin baş üzvləri ilə tanışlıqdan sonra ikinci dərəcəli üzvlər haqqında praktik məlumat III sinifdə verilir. Sadə geniş cümlədə baş üzvlərin tapılması üzrə aparılan işlər əsasında şagirdlərə başa salınır ki, cümlədəki suala cavab verən digər sözlər II dərəcəli üzvlər olub, baş üzvləri aydınlaşdırır. Onlar əsas fikri bildirmir, ayrılıqda cümlə əmələ gətirmir. Məsələn, *Balaca Rəşid nağıl söylədi*. Bu cümlədə II dərəcəli üzvlərin altından dalğalı xətt çəkilir, həmin sözlərin ayrılıqda əsas fikir bildirməyi aydınlaşdırmalıdır. IV sinifdə şagirdlərə öyrədilir ki, II dərəcəli üzv olan təyin aid olduğu sözdən əvvəl, zərflik isə xəbərin əvvəlində gəlir. Tədricən sintaktik təhlil üzrə müəyyən vərdişlər yaradılmalı, şagirdlər sxemlər üzərində işlədilməlidir. Cümlənin ikinci dərəcəli üzvlərindən biri də olan zərflik hərəkətin icrasını müxtəlif cəhətdən izah edən ikinci dərəcəli üzvdür.

Zərfliklər, əsasən, cümlənin feli xəbərlərinə aid olur və yanaşma əlaqəsi ilə onlara bağlanır. Məsələn: *Şagirdlər imtahanlara ciddi hazırlaşırlar*. *Uşaqlar həyətdə oynayırlar. Axşam bizə gələrsən. Əsgərlər irəli cumdular. Xəstə olduğu üçün uşağın rəngi sapsarı idi* və s. Bu cümlələrdəki *ciddi* zərfliyi işin icra tərzini, *həyətdə* və *irəli* zərflikləri iş və hərəkətin icra olunduğu yeri, *axşam* zərfliyi iş və hərəkətin icra zamanını bildirir. Bu zərfliklərin hamısı feli xəbərə aiddir. Sonuncu cümlədəki *xəstə olduğu üçün* zərfliyi isə əlamətin yaranma səbəbini bildirir və ismi xəbərə aiddir.

Zərflik daha çox zərflərlə ifadə olunur. Məsələn: *Uşaq bərk yatmışdı. Mən onu çoxdan tanıyıram. Qoca ehtiyatla yeriyirdi. Dünən yağış yağdı. Məruzəçi az danışdı* və s. İsim, feli bağlama və qoşmalarla işlənən məsdər də cümlədə zərflik ola bilir. Məsələn: *Dağlara qar yağır. Biz İçərişəhərdə yaşayırıq. Baba gülə-gülə dedi. Qoca yıxılmamaq üçün ağaca söykəndi*. Digər cümlə üzvləri kimi zərfliklər də quruluşca sadə və mürəkkəb olur. Nitq hissələri ilə ifadə olunan zərfliklər sadə, ismi birləşmələr və feli bağlama tərkibləri ilə ifadə olunan zərfliklər isə mürəkkəb olur.Yuxarıdakı zərfliklərin hamısı quruluşca sadədir. Aşağıdakı cümlələrdə isə mürəkkəb zərfliklər işlənmişdir: *Xəzər dənizinin dərinliyindən neft çıxır. Kür çayı daşanda el - obanın vəziyyəti çətinləşir. Eşitdiklərimi öz gözlərimlə görmək üçün hadisə yerinə getdim. Kişi geriyə baxmadan gedirdi* və s. Zərfliyin aşağıdakı məna növləri var:

Tərzi-hərəkət zərfliyi. İş və hərəkətin icra tərzini bildirir və necə? nə cür? suallarından birinə cavab verir. Tərzi-hərəkət zərfləri, feli bağlama, feli bağlama tərkibləri, qoşmalı söz və söz birləşmələri tərzi-hərəkət zərfliyinin əsas ifadə vasitələridir. Məs: *Əsgərlərimiz qəhrəmancasına vuruşur. Qapı taybatay açıldı. Düşünmədən danışma. Uşaq böyüklər kimi danışırdı. Ana qayğılı halda dedi. Kişinin qara bığları qoç buynuzu kimi əyilmişdi* və s. Tədris zamanı bəzən şagirdlər təyin ilə tərzi-hərəkət zərfliyini bir-birindən fərqləndirməkdə çətinlik çəkirlər. Təyin həmişə isimlə ifadə olunan üzvləri izah edir. Məs: *Açıq qapı bizimdir. Anar yaxşı oğlandır*. Tərzi-hərəkət zərfliyi isə feli xəbərlə bağlı olur. Məs: *Anar yaxşı oxuyur. Mənimlə açıq danış* və s.

Zaman zərfliyi. İş və hərəkətin, hadisənin zamanını bildirir, nə vaxt? nə zaman? haçan? suallarından birinə cavab verir. Zaman zərfləri, zaman mənalı isimlər, feli bağlama, feli bağlama tərkibləri və ismi birləşmələrlə ifadə olunur. Məsələn: *İndi hər kəs öz bacarığını göstərməlidir. Dünən səhərdən yağış yağır. Tənəffüsdə müdirin yanına get. Onu görəndə ürəkdən sevinirəm. Qış qurtarana kimi buradayıq. Mən onu uşaqlıq illərindən tanıyıram. Biz səhər açılar-açılmaz evdən çıxdıq* və s.

Yer zərfliyi. İş və hərəkətin icra olunduğu yeri, istiqamətini, başlanğıc və bitmə nöqtəsini bildirir, hara? haraya? harada? haradan? suallarından birinə cavab verir. Yer zərfləri, yer mənalı isimlər və ismi birləşmələrlə ifadə olunur. Məsələn: *Yuxarıdan evimiz görünür. Evə tələsirəm. Oradan aşağı düs. Dəniz sahilində dincəlirik. Dağın başında tonqallar yanırdı* və s.

Kəmiyyət zərfliyi. İş və hərəkətin nə qədər icra olunduğunu bildirir, nə qədər? bəzən də nə dərəcədə? sualına cavab verir. Miqdar zərfləri və ismi birləşmələrlə ifadə olunur. Məsələn: *Dünən mən sizi çox gözlədim. Bu gün az işlədik. O, həddindən çox kökəlibdir. Bu sözü mən sizə dəfələrlə demişəm. Biz onunla bir neçə dəfə görüşmüsdük. Məhsulumuz ikiqat artmışdır* və s.

Səbəb zərfliyi. İş, hərəkət və ya əlamətin səbəbini bildirir, niyə? nə üçün? nə səbəbə? suallarına cavab verir. Üçün, ötrü, görə qoşmaları ilə işlənən sözlər və birləşmələrlə, feli bağlama və feli bağlama tərkibləri ismi birləşmələr, sual əvəzlikləri və s. ilə ifadə olunur. Məs: *Utandığından usağın sifəti qızarmısdı. Nəqliyyat işləmədiyi üçün evdə oturmalı olduq. Oğlum universitetə qəbul olunduğu üçün çox sevinirəm. Bu gün niyə evdəsən? Düşmən qorxaraq geri çəkildi. Yer belləməkdən əllərinin içi qabarmışdı* və s. Səbəb zərfliyinin ifadə etdiyi iş xəbərdəki işdən əvvələ aid olur.

Məqsəd zərfliyi. İş və hərəkətin məqsədini bildirir, niyə? nədən ötrü? nəyə görə? nə məqsədlə? suallarına cavab verir. *Üçün, ötrü* qoşmaları ilə işlənən isim, məsdər və məsdər tərkibləri, sual əvəzlikləri, ismi birləşmələr və s. ilə ifadə olunur. Məsələn: *O, Qarabağa bu yerlərin təbiətini öyrənmək üçün gəlmişdi. Vətəni qorumaq üçün vətənpərvər övladlar yetişdirməliyik. öskürməmək üçün əlimi ağzıma tutmuşdum. Uşaq dincəlmək üçün bağa getdi. O, torpaqlarımızı düşməndən təmizləmək üçün könüllü olaraq cəbhəyə getdi* və s. Məqsəd zərfliyi səbəb zərfliyinə oxşasa da, məna çalarına görə ondan fərqlənir. Səbəb zərfliyinin ifadə etdiyi iş, qeyd olunduğu kimi, xəbərdəki işdən əvvələ aid olur. Məqsəd zərfliyində isə

[114] Bakı Dövlət Universitetinin magistrantı

əksinədir: Onun ifadə etdiyi iş xəbərdəki işdən sonraya aid olur. Bundan əlavə, məqsəd zərfliyinə nə məqsədlə? sualını vermək mümkün olduğu halda, səbəb zərfliyinə bu sualı vermək düzgün olmur. Bu fərqi aşağıdakı ikinci nümunədə aydın görmək olar: 1. O, şəhərdə darıxdığı üçün kəndə getdi. 2. O, anasını görmək üçün kəndə getdi.

Birinci cümlədə səbəb zərfliyi, ikinci cümlədə isə məqsəd zərfliyi işlənmişdir. Səbəb zərfliyindəki iş (darıxmaq) xəbərdəki işdən (getmək) əvvəl baş verir. Bundan əlavə, birinci cümlədəki zərfliyə nə məqsədlə? sualını vermək düzgün olmaz, ikinci cümlədəki zərfliyə isə bu sualı vermək olar.

Cümlə üzvlərinin tədrisi zamanı bir sıra təlim metodlarından istifadə etmək təlimin keyfiyyətini artırır. Səbəb və məqsəd zərfliklərinin, ilə qoşmalı tamamlıqla tərzi-hərəkət zərfliyinin, yer zərfliklərı ilə bəzi vasitəli tamamlıqların qarşılıqlı müqayisəli şəkildə tədrisi zamanı Eyler-Venn diaqramından istifadə daha faydalı ola bilər. İki nümunəyə diqqət yetirək: 1. Universitetə daxil olduğu üçün Bakıya getdi. 2. Universitetə daxil olmaq üçün Bakıya getdi.

Diaqramın kəsişən hissəsinə isə cümlədə işlənən səbəb və məqsəd zərfliklərinin oxşar xüsusiyyətləri qeyd olunur. Dairələrin kəsişməsindən əmələ gələn hissəyə bu məlumatları qeyd etmək olar: zərfliyin məna növləridir, hər ikisi qoşma ilə işlənib, hər iki cümlə üzvü quruluşca mürəkkəbdir, hər ikisi xəbərə aiddir və s.

Zərfliyin tədrisi amanı istifadə olunan metodlardan ən mühüm olanları klaster və anlayışın çıxarılması üsullarıdır. Bu üsullar bir-birinə əks olan üsullardır. Nümunəyə əsasən aşağıdakı şəkildə tədris etmək olar. *Qohumlarımız saat üçdə Qubaya yolandılar*. Müəllim əvvəlcə şagirdlərə cümləni sintaktik təhlil etməyi tapşırır, daha sonra isə yer zərfliyini şagirdlərdən soruşur və klaster üsulunda mərkəzi hissəyə *Qubaya* sözü müəllim tərəfindən qeyd olunur.

Zərfliyi

n bu şəkildə, yəni əvvəlki mövzulara inteqrasiya edilərək tədrisi həm yeni mövzunun, həm də əvvəlki mövzuların dərində qavranılmasına şərait yaradır.

Qeyd etdiyimiz kimi anlayışın çıxarılması üsulu klasterin əksidir. Bu zaman şagirdlər mövcud biliklərini əlaqələndirərək diaqramın mərkəzi hissəsinə yazılacaq sözü, anlayışı tapırlar. Bu üsulu müxtəlif cümlələr üzərində tətbiq etmək mümkündür:1. Gəncə Azərbaycanın ən böyük şəhərlərindən biridir. 2. Yolumuz Bakıyadır. 3. Şamaxıya yol çəkirdilər. 4. Şəkiyə getmək indi təhlükəlidir.



Birinci cümlədə işlənən *Gəncə* sözü mübtəda, *Azərbaycan ən böyük şəhərlərindən biridir* birləşməsi isə mürəkkəb ismi xəbərdir. Ona görə də bu xüsusi isimləri? işarəsinin yerinə yazmaq olmaz. İkinci cümlədə işlənən *Bakıyadır* sözü də ismi xəbərdir, 4-cü cümlədə işlənən *Şəkiyə* sözü ilk baxışda yer zərfliyinə bənzəsə də, *getmək* sözü ilə birlikdə cümlənin mürəkkəb mübtədasıdır. Üçüncü cümlədə işlənən *Şamaxıya* sözü isə diaqramın kənar hissələrində yazılan bütün şərtlərə uyğundur.

Müşahidələr göstərir ki, şagirdlər bəzi tamamlıqlarla zərflikləri düzgün şəkildə fərqləndirməkdə çətinlik çəkirlər. Bu, qrammatik təhlil zamanı özünü daha aydın göstərir. Həmin çətinlik, hər şeydən əvvəl, hər iki cümlə üzvünün bildirdiyi məna ilə əlaqədardır. Bəzi tamamlıqlar və zərfliklər, ifadə olunduqları nitq hissələrinin leksik mənasından asılı olaraq, əşya və zaman, yer, səbəb və məqsəd mənaları bildirir və hər iki cümlə üzvünün suallarına cavab ola bilir. Məhz buna görə də şagirdlər qrammatik təhlil zamanı belə sözlərin tamamlıq, yaxud zərflik rolunda işləndiyini dəqiq müəyyənləşdirməkdə çətinlik çəkirlər.

Tamamlıqla zərfliyin müəyyənləşdirilməsində meydana çıxan çətinliyin səbəblərindən biri dəmin iki cümlə üzvünün elmi cəhətdən tədqiq edilməməsi ilə əlaqədardır. Bunu Azərbaycan dilçilik ədəbiyyatında bu haqda söylənilən fikirlərdən aydın şəkildə görmək olar. Məsələn, prof. M. Hüseynzadə yazır ki, təsirsiz və qeyri-mütəhərrik hərəkət bildirən feillərin tələbinə görə yönlük halda işlənən sözlər cümlənin həm qeyri- müstəqim tamamlığı, həm də zərfliyi rolunu oynayır. Müəllifin qeydlərindən aydın olur ki, o belə hallarda mənanı əsas götürür, yəni əşyavilik bildirən sözləri tamamlıq, yer, məkan, səbəb və məqsəd bildirən sözləri zərflik hesab edir. Vasitəli tamamlıqdan bəhs edərkən prof. Z.Tağızadə yazır ki, lakin bu cür hal şəkilçili sözlər zərflik də ola bilər. Bunları bir-birindən fərqləndirmək üçün müxtəlif meyarlar göstərilir. Cümlə təhlilində ən əlverişli üsul budur ki, tamamlıqda əşya, obyekt, zərflikdə isə fəza, yer, səbəb-məqsəd mənaları əsas meyar götürülsün. Belə hallarda tamamlıq və ya zərflik yerində işlədilmiş söz və ya söz birləşmələrinin leksik-semantik mənaları mühüm rol oynayır. "Müasir Azərbaycan dili" kitabında ismin çıxışlıq halında işlənən vasitəli tamamlıqlardan bəhs edilərkən belə bir çıxış verilir ki, formaca bu növ tamamlıqlara oxşayan yer zərflikləri cümlədə obyekt olmur, yəni əşyalıq bildirmir.

Tamamlıq - zərflik kimi anlaşılan bəzi sözlərin düzgün müəyyənləşdirilməsinə aid şagirdlərdə möhkəm vərdiş yaratmaq üçün təkcə zərfliyin tədrisi prosesində aparılan işlərlə kifayətlənmək olmaz. Bu vərdişi sintaksisdən keçilən sonrakı məşğələlərdə, xüsusən qrammatik təhlil zamanı yeri gəldikcə təkrar edib möhkəmləndirmək zəruri və faydalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev A. Orta məktəblərdə Azərbaycan dili tədrisinin metodikası. Bakı, 1968, 262 s.
2. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014, 384 s.
3. Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. Bakı, 2016, 403 s.
4. Həsənov M. Seçilmiş əsərləri. III cild. Bakı, 2013, 493 s.

6. Kərimov, Y.Ş. Ana dilinin tədrisi metodikası (Dərslik). Bakı: Kövsər, 2011, 564 s.
Açar sözlər: II dərəcəli üzvlər, tamamlıq, zərflik, yer zərfliyi, zaman zərfliyi, tərzi-hərəkət zərfliyi, səbəb və məqsəd zərfləri
Ключевые слова: второстепенные члены, дополнение, остоятельство, остоятельство места, остоятельство времени, остоятельство образа действия, остоятельство остоятельство цели и причины
Key words: secondary parts, object, adverbial modifier, adverbial modifier of place, adverbial modifial of time, tailor-action adverbs, cause and purpose adverbs

Xülasə

Cümlə üzvlərinin tədrisi sintaksisin ən önəmli və mühüm məsələlərindən biridir. Bu mövzu qeyd edildiyi kimi, şagirdlərə üçüncü sinifdən tədris olunur. Hələ üçüncü sinifdə şagirdlər cümlənin ikinci dərəcəli üzvləri, onların sualları haqqında səthi məlumat alırlar. IV sinifdə isə öyrəndikləri məlumatlar daha da genişlənir. Cümlə üzvləri tədris edilərkən ilk növbədə onların məzmununa diqqət yetirmək lazımdır. Cümlə üzvlərinin tədrisi zamanı bir sıra problemlərlə üzləşirik. Bu problemlər daha çox bəzi vasitəli tamamlıqlarla yer zərfliklərinin tədrisi zamanı meydana gəlir. Bunları fərqləndirmək üçün qeyd etdiyimiz kimi ilk növbədə onların məzmununa diqqət yetirmək lazımdır. Vasitəli tamamlıqlarda əşya, obyekt məzmunu, yer zərfliklərində isə yer, məkan məzmunu daha üstün olur. Səbəb və məqsəd zərfliklərini izah edərkən də ilk növbədə onların məzmununa, ifadə vasitələrinə, daha sonra isə sualına diqqət etmək lazımdır. Bildiyimiz kimi ilə qoşmalı isimlər həm tərzi-hərəkət zərfliyinin, həm də vasitəli tamamlığın ifadə vasitəsidir. Əgər isim konkretdirsə, vasitəli tamamlıq, mücərrəddirsə, tərzi-hərəkət zərfliyidir. Cümlə üzvlərini bir-birindən fərqləndirmək üçün belə önəmli nüansları şagirdlərə çatdırmaq lazımdır.

Резюме

Обучение членов предложений – один из важнейших и важных вопросов синтаксиса. Как уже говорилось, этот предмет преподается ученикам с третьего класса. Уже в третьем классе учащиеся получают поверхностные сведения о второстепенных членах предложения, их вопросы. В IV классе информация, которую они изучают, расширяется еще больше. При обучении членов предложений необходимо в первую очередь обращать внимание на их содержание. При обучении членов предложений мы сталкиваемся с рядом проблем. Эти проблемы возникают в основном при обучении наречиям места с некоторыми опосредованными дополнениями. Чтобы их отличить, как мы уже упоминали, прежде всего необходимо обратить внимание на их содержание. В косвенных дополнениях важнее предмет, предметное содержание, а в месте-наречиях важнее место, пространственное содержание. При объяснении наречий причины и цели прежде всего необходимо обращать внимание на их содержание, средства выражения, а затем на вопрос. Как известно, существительные, сочетающиеся с, являются средством выражения как стилево-движительной наречия, так и опосредованной полноты. Если существительное конкретное, то оно является опосредованной завершенностью, если абстрактное, то оно является наречием образа действия. Необходимо донести до учащихся такие важные нюансы, чтобы отличать члены предложения друг от друга.

Summary

Teaching sentence members is one of the most important and important issues of syntax. As mentioned, this subject is taught to students from the third grade. Already in the third grade, students receive superficial information about the secondary members of the sentence, their questions. In the IV class, the information they learn expands even more. When teaching sentence members, it is necessary to pay attention to their content first. We face a number of problems while teaching sentence members. These problems occur mostly when teaching adverbs of place with some mediated complements. In order to distinguish them, as we mentioned, first of all, it is necessary to pay attention to their content. In indirect complements, the object, object content is more important, and in place adverbs, the place, spatial content is more important. When explaining the adverbs of reason and purpose, first of all, it is necessary to pay attention to their content, means of expression, and then to the question. As we know, nouns to be combined with are a means of expression of both style-movement adverbial and mediated completeness. If the noun is concrete, it is a mediated completeness, if it is abstract, it is an adverb of manner-action. It is necessary to convey such important nuances to the students in order to distinguish the members of the sentence from each other.

RƏYÇİ: dos. S.Abbasova

Lalə Rüstəm qızı Xəlilzadə [115]

ƏRƏB DİLİNDƏ SİYASİ İSTİARƏLƏRİN İFADƏ FORMALARI

Giriş. Diplomatiyanın dili müəyyən bir dövlətin beynəlxalq müstəvidə digər dövlətlərlə danışdığı dildir. Dövlətin siması diplomatik sənədlərin dili ilə mühakimə olunur. Digər fəaliyyət sahələri kimi diplomatiyanın da öz dili, öz terminalogiyası vardır. Diplomatik mətnlərin materialı göstərir ki, onlar müxtəlif sahələrin terminologiyasından istifadə ilə xarakterizə olunur; mülahizə və dəqiqlik üçün səciyyəvi olan müxtəlif vasitələrlə ötürülən müxtəlif məlumatların mövcudluğu, atributiv konstruksiyalar və ifadələrin sıxılmasının digər üsulları (iştirak konstruksiyaları, məsdər konstruksiyalar); nominal ifadə; sadə və müşahidə olunan mürəkkəb cümlələr üstünlük təşkil edir [1].

Dünyanın ən qədim və ən çox danışılan dillərindən biri olan ərəb dili ərəb dünyasının mədəniyyətində, tarixində və siyasətində mühüm rol oynayır. Bu dil, ərəb İslam ənənəsinin əsas elementini təmsil etmək, eyni zamanda bir çox ölkədə rəsmi dil olmaqla yanaşı, həm də Birləşmiş Millətlər Təşkilatının (BMT) altı rəsmi dilindən biridir. Ərəb dili ingilis, fransız, ispan, çin və rus dilləri ilə birlikdə BMT-nin bütün rəsmi sənədlərində və kommunikasiyalarında rəsmi dil kimi istifadə olunur. Ərəb dili bir tərəfdən zəngin tarixə və zəngin mədəni ənənəyə malikdir, digər tərəfdən dinamik inkişaf edir və müasir reallıqlara uyğunlaşır. Dəyişən siyasi, sosial, iqtisadi və texnoloji tələblərə uyğun olaraq daim dəyişikliklərə və yenilənmələrə məruz qalan bu prosesdə ərəb dilinin terminologiyası mühüm rol oynayır [2].

Ərəb dilinin siyasi terminologiyasının əsas cəhətləri onun zəngin mədəni irsini, eləcə də ərəb dünyasındakı müasir siyasi reallıqları əks etdirir. Onlardan bəzilərini aşağıdakı kimi sıralamaq olar:

Tarixi kontekst: Ərəb dilində bir çox siyasi terminlərin kökləri ərəb dünyasının tarixi hadisələri və ənənələrinə malikdir. Məsələn, hökumət formaları ilə bağlı terminlərin İslam və ərəb tarixində tarixi analogiyaları ola bilər.

Dini aspektlər: İslam ərəb ölkələrinin siyasi həyatında mühüm rol oynayır, ona görə də bir çox siyasi terminlər dini və ya islami məzmun daşıya bilər. Məsələn, şəriət (İslam hüququ) termini siyasi diskursda tez-tez istifadə olunur.

Müasir siyasi reallıqlar: Ərəb dilinin siyasi terminologiyası həm də müasir siyasi institut və prosesləri əks etdirir. Məsələn, demokratiya, seçkilər, hökumət və parlament terminləri müasir siyasi sistemləri və prosedurları təsvir etmək üçün istifadə olunur.

Çoxdilli Təsir: Ərəb dili müxtəlif tarixi dövrlərdə fars, türk, fransız və ingilis kimi digər dillərin təsirinə məruz qalmışdır. Bu, siyasi terminologiyada öz əksini tapır, burada bəzi terminlər başqa dillərdən götürülə bilər.

Mədəni xüsusiyyətlər: Ərəb siyasi terminologiyası ərəb cəmiyyətinin mədəni xüsusiyyətlərini və dəyərlərini də əks etdirə bilər. Məsələn, şərəf, qonaqpərvərlik və ailə ilə bağlı terminlər siyasi diskursda mühüm rol oynaya bilər [3].

Əsas hissə. Siyasi terminlər siyasi sistemlərin, ideologiyaların və ictimai hərəkatların təkamülünü əks etdirən geniş tarixə malikdir. Siyasi terminlərin tarixi zəngin və maraqlıdır. Müxtəlif xalqların ictimai-siyasi sistemlərinin, ideologiyalarının və mədəniyyətlərinin təkamülünü əks etdirən bir çox terminlərin kökləri qədim yunan və latın məşəlidir. Məsələn, "demokratiya" (ديمقراطية) yunan dilindən "δημοκρατία", "xalqın hökmranlığı" və ya "respublika" (جمهورية) latınca "res publica"-dan tərcümədə "respublika", "ictimai işlər" mənalarını verir.

Siyasi terminlər çox vaxt ideoloji fərqləri və hakimiyyət mübarizələrini əks etdirir. Məsələn, "mühafizəkarlıq" (التحفظ) termini ənənəvi dəyərləri və institutları qorumaq istəyini, "proqressivizm" (التقدمية) isə dəyişiklik və sosial tərəqqi arzusunu əks etdirir. Bu gün bir çox siyasi terminlər şərhə və müzakirələrə məruz qalır və onların mənaları müxtəlif mədəni və siyasi kontekstlərdə dəyişə bilir [4].

Siyasi terminlər ümumiyyətlə siyasət kontekstində siyasi sistemləri, prosesləri və insan davranışını öyrənən siyasət elmində istifadə olunan anlayışlara aiddir. Bu terminlər cəmiyyətdəki siyasi həyatın müxtəlif aspektlərini təhlil etmək və anlamaq, alimlərə, politoloqlara və ictimai xadimlərə nəzəriyyələri inkişaf etdirməyə, proqnozlar verməyə və siyasi qərarlar qəbul etməyə kömək etmək üçün istifadə olunur. Siyasi terminlər aşağıdakı kateqoriyalara bölünür [1]:

Siyasi sistem: Dövlətin təşkili və fəaliyyəti, o cümlədən onun təsisatları, qanunları, siyasi partiyaları və prosesləri daxildir. Ərəb dilində bu kateqoriyaya aid terminləri aşağıdakı kimi sıralamaq olar:

الديمقراطية (əl-dimuqratiyyə) – demokratiya
التوازن السلطات (əl-təvazun əl-sultat) – səlahiyyət bölgüsü
التعددية الحزبية (əl-taʿaddudiyyə əl-ḥizbiyyə) - çoxpartiyalılıq
الحريات السياسية (əl-ḥurriyyat əl-siyasiyyə) – siyasi azadlıq
المجتمع المدني (əl-muctəmaʿ əl-mədəni) – vətəndaş cəmiyyəti
الثورة (əl-saura) - inqilab
الاستقلالية القضائية (əl-istiqlaliyyə əl-qəḍaʾiyyə) - məhkəmə azadlığı
الإصلاح السياسي (əl-islaḥ əl-siyasi) - siyasi islahatlar
النظام الفدرالي (əl-nizam əl-fidirali) – federal sistem
التسامح السياسي (əl-təsamuh) – siyasi tolerantlıq
الشورى (əl-şura) - məsləhət şurası
الانتماء الحزبي (əl-intimaʾ əl-ḥizbi) - partiya mənsubiyyəti
العملية الانتخابية (əl-ʿəməliyyə əl-intixabiyyə) - seçki prosesi

[115] Bakı Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi, magistrant. E-mail ünvanı - xalilzadelala@gmail.com

Siyasi mədəniyyət: Cəmiyyətin siyasi həyatını səciyyələndirən ortaq inanclar, dəyərlər, normalar və davranış praktikalarının məcmusudur. Ərəb dilində siyasi mədəniyyətə dair terminlərin bəzi nümunələri aşağıda göstərilənlərdir [6]:
الثقافة السياسية (əl-səqafə əl-siyasiyyə) – siyasi mədəniyyət
التشاركية (əl-təşarikiyyə) - iştirak
الوعي السياسي (əl-vaʿi əl-siyasi) - siyasi maarifləndirmə
الحوار العام (əl-hivar əl-ʿamm) - ictimai dialoq
حقوق المواطنة (huquq əl-muvatinə) – vətəndaş hüququ
المشاركة السياسية (əl-muşarəkə əl-siyasiyyə) – siyasi iştirak
الشفافية السياسية (əl-şəfafiyə əl-siyasiyyə) - siyasi şəffaflıq
التسامح السياسي (əl-təsamuh əl-siyasi) – siyasi tolerantlıq
الاحترام المتبادل (əl-ihtiram əl-mutəbadil) - qarşılıqlı hörmət
التنوع السياسي (əl-tənəvvuʿ əl-siyasi) - siyasi müxtəliflik

Siyasi ideologiya: Siyasi fəaliyyətin əsaslandığı məqsədləri, idealları və prinsipləri, o cümlədən sol, sağ və mərkəz ideologiyalarını müəyyən edən inanc sistemi nəzərdə tutulur. Siyasi ideologiyaya dair istiarələrin ərəb dilində təzahürü aşağıdakılardır:
الأيديولوجية السياسية (əl-idiyuluciyə əl-siyasiyyə) – siyasi ideologiya
الشيوعية (əl-şuyuʿiyyə) - kommunizm
الرأسمالية (əl-ra'smaliyyə) - kapitalizm
الاشتراكية (əl-iştirakiyyə) - sosializm
الليبرالية (əl-libiraliyyə) - liberalizm
القومية (əl-qaumiyyə) – milliyyətçilik
الفاشية (əl-faşiyyə) - faşizm
الماركسية (əl-marksiyyə) - marksizim
الإسلامية (əl-islamiyyə) - İslamçılıq
العلمانية (əl-ʿulmaniyə) - dünyəvilik

Dövlətçilik: Dövlətin siyasi hakimiyyətinin və suverenliyinin vəziyyəti, özünüidarə və ərazi məkanına nəzarət etmək qabiliyyətini əhatə edir. Ərəb dilində dövlətçiliyə aid terminlər aşağıdakılardır [7]:
السيادة (əl-siyadə) - suverenlik
المؤسسات الدولية (əl-muʾəssəsat əl-dauliyyə) – hökumət qurumları
الحكومة المركزية (əl-hukumə əl-mərkəziyyə) - mərkəzi hökumət
التقسيم الإداري (əl-təqsim əl-idari) - inzibati bölgü
الحكم الذاتي (əl-hukm əl-zəti) - muxtariyyət
القانون الدستوري (əl-qanun əl-dusturi) - konstitusiya qanunu
التشريعات المحلية (əl-tashriʿət əl-məhəlliyyə) - yerli qanunvericilik
المواطنة (əl-muvatinə) – vətəndaşlıq
السلامة الوطنية (əl-sələmə əl-vataniyyə) – milli təhlükəsizlik

Siyasi elita: Əksər hallarda status, resurs və ya ləyaqətlərinə əsaslanan siyasi sistemdə əhəmiyyətli təsir və gücə malik olan insan qrupudur. Ərəb dilində siyasi elitaya aid terminlər aşağıda kimi sıralanıb:
النخبة السياسية (əl-nüxbə əl-siyasiyyə) – siyasi elita
الطبقة الحاكمة (əl-tabaqa əl-hakimə) - hakim sinif
الأرستقراطية السياسية (əl-aristiqratiyyə əl-siyasiyyə) - siyasi aristokratiya
الطبقة السياسية الحاكمة (əl-tabaqa əl-siyasiyyə əl-hakimə) - hakim siyasi sinif
الطبقة السياسية الهيمنة (əl-tabaqa əl-siyasiyyə əl-himnə) - siyasi sinfin dominantlığı
القادة السياسيون (əl-qadət əl-siyasiyyun) – siyasi liderlər
الحاكمون (əl-hakimun) – idarəçilər
الشخصيات السياسية (əl-şaxsiyyət əl-siyasiyyə) – siyasi şəxsiyyətlər
العلماء السياسيون (əl-ʿuləməʾ əl-siyasiyyūn) – siyasi alimlər
القيادة السياسية (əl-qiyədə əl-siyasiyyə) – siyasi rəhbərlik
النخبة الحاكمة (əl-nuxbə əl-hakimə) - hakim elita

Bu sözlər siyasi sferanın əsas anlayışlarını ifadə edir və ərəb siyasi diskursunda işlənən müxtəlif termin və ifadələrin formalaşması üçün əsasdır. Bir çox terminlər yeni məna yaratmaq üçün bir neçə kök və ya sözləri birləşdirərək yaranan mürəkkəb sözlər ola bilər. Məsələn, "الديمقراطية" (əd-dimuqratiyya) "xalq" və ya "millət" mənasını verən "د-م-ق" (d-m-q) kökündən və ismə işarə edən "ـيّة" (-iyyə) şəkilçisindən ibarətdir. Bu halda isim mücərrəd anlayış formalaşdırır [5].

Əsrlər boyu siyasi terminlər yeni mənalar qazanmış, bəzən kontekstdən və zamandan asılı olaraq dəyişmişdir. Məsələn, "liberalizm" termini əvvəlcə vətəndaş azadlıqlarının qorunması və dövlətin gücünün məhdudlaşdırılması ilə bağlı idisə, lakin zaman keçdikcə mənaları və şərhləri genişlənərək iqtisadi liberalizm və sosial liberalizmi əhatə etmişdir [4].

Nəticə. XIX-XX əsrlərdə əksər hökumətlərdə digər dövlətlərlə rəsmi münasibətlərdə öz ana dilindən istifadə etmək tendensiyası meydana gəlmişdir. Diplomatik terminologiyanın inkişafına öncə latın dili, sonra isə fransız dili böyük təsir göstərmişdir. XX əsrdə beynəlxalq dil olaraq ingilis dili bu sahənin terminologiyasının inkişafına müəyyən təsir göstərməyə

başlamışdır. Hazırda dünyada diplomatiya sahəsində istifadə olunan terminlərin əksəriyyəti bu dillərdən lüğətə daxil olan sözlərdir. Məsələn diplomat, persona grata/non grata, modus və s. [5].

Siyasi istiarələr, adətən siyasətlə birbaşa əlaqəsi olmayan digər hadisələri və ya situasiyaları təsvir etmək və ya izah etmək üçün siyasi sferaya aid təsvirlərin, simvolların və ya konsepsiyaların istifadəsidir. Məsələn, "siyasi oyunlar oynamaq" ifadəsi bəzi məqsədlərə çatmaq üçün manipulyasiya, taktika və ya intriqa ilə məşğul olmaq deməkdir, lakin siyasi kontekstdə olması şərt deyil. Siyasi metafora insanlara siyasətlə bağlı mürəkkəb və ya mücərrəd anlayışları siyasi fəaliyyətdən daha tanış və ya konkret obrazlarla əlaqələndirərək daha yaxşı başa düşməyə imkan verir [8].

İstifadə edilmiş ədəbiyyat

[1] جامعة البترا، إدراك قّراء اليومّي الصحف السياسّية لمعاني المصطلحات السياسّية المستخدمة في المقال الصحفي، 2015
[2] معهد البحرين للتنمية السياسية، د. ياسر العلوي المدير التنفيذي معهد البحرين للتنمية السياسّية
معجم المصطلحات السياسية، بحرين،2014
[3] Translating Metaphorical Expressions in Political Discourse: A Comparative Conceptual Study (English – Arabic). Əl-Rifai, İraq, 2018, 151 s.
[4] Sentiment analysis in Arabic: A review of the literature, Egypt, 2018.
[5] А.Ю.Крылов, Метонимические средства выражения эмоций в речи арабов, Москва
[6] Alwan Hussain, Political Arabic Articles Orientation Using Rough Set Theory with Sentiment Lexicon, 2021
[7] https://arabic.rt.com/society/903333-مصطلحات-سياسية-متداولة-لا-نعرف-معناها/
[8] https://www.aljazeera.net/culture/2018/3/20/المصطلح-السياسي-وظلال-المعاني

Açar sözlər: Ərəb dili, siyasi, istiarə, terminologiya, diplomatiya,
Ключевые слова: Арабский язык, политика, метафора, терминология, дипломатия
بالعربية: العربية، سياسية، إستعارة، مصطلحات، دبلوماسية

Ərəb dilində siyasi istiarələrin ifadə formaları

Xülasə

Məqalədə ərəb dilinin terminologiyasının əsas cəhətləri, onun xüsusiyyətləri, habelə ərəb cəmiyyətində siyasi terminlərin təkamülü və istifadəsinə siyasi və mədəni amillərin təsiri araşdırılıb. Giriş hissədə diplomatiyanın dili, zəngin tarix və mədəni ənənəyə malik olan ərəb dilinin dinamik inkişafı və müasir reallıqlara uyğunlaşşmasının mühüm sahələrdə təzahürü, əsas hissədə ərəb dilində siyasi istiarələr və onların ərəb dilində ifadə formaları, onun quruluşu və xüsusiyyətləri, həmçinin terminologiyanın formalaşmasının ümumi prinsipləri araşdırılıb.

Bu işin məqsədi ərəb dilinin terminologiyasını siyasi sfera kontekstində öyrənmək və təhlil etməkdir. Müasir ərəb nitqində siyasi terminlərə, onların semantikasına, istifadəsinə və təkamülünə xüsusi diqqət yetirilir. Bu tədqiqat təkcə akademik deyil, həm də praktik əhəmiyyətə malikdir, çünki ərəb dilində siyasi terminologiyanı anlamaq ərəb dünyasında effektiv ünsiyyət, siyasi təhlil, beynəlxalq əlaqələr və təhsil üçün zəruridir.

Формы выражения политических метафор в арабском языке

Резюме

В статье рассматриваются основные аспекты терминологии арабского языка, ее особенности, а также влияние политических и культурных факторов на эволюцию и использование политических терминов в арабском обществе. Во вводной части рассматривается язык дипломатии, динамичное развитие арабского языка, имеющего богатую историю и культурную традицию, и проявление его адаптации к современным реалиям на важных направлениях, в основной части - рассматриваются политические метафоры и их формы выражения в арабском языке, его структура и особенности, а также общие принципы формирования терминологии.

Целью данной работы является изучение и анализ терминологии арабского языка в контексте политической сферы. Особое внимание уделено политическим терминам, их семантике, использованию и эволюции в современной арабской речи. Это исследование имеет не только академическое, но и практическое значение, поскольку понимание политической терминологии на арабском языке необходимо для эффективного общения, политического анализа, международных отношений и образования в арабском мире.

صيغ التعبير عن الاستعارات السياسية في اللغة العربية

ملخص

يناقش المقال الجوانب الرئيسية لمصطلحات اللغة العربية، وسماتها، وكذلك تأثير العوامل السياسية والثقافية في تطور واستخدام المصطلحات السياسية في المجتمع العربي. يتناول الجزء التمهيدي لغة الدبلوماسية، والتطور الديناميكي للغة العربية ذات التاريخ الغني والتقاليد الثقافية، ومظهر تكيفها مع الواقع الحديث في مجالات مهمة، ويبحث الجزء الرئيسي أشكال التعبير في اللغة العربية في الاستعارات السياسية في اللغة العربية ويبحث في تأثيرها،بنيتها وخصائصها، بالإضافة إلى المبادئ الغرض من هذا العمل هو دراسة وتحليل مصطلحات اللغة العربية في سياق المجال السياسي. ويولى اهتمام خاص للمصطلحات السياسية العامة لتكوين المصطلحات. ودلالاتها واستخدامها وتطورها في الخطاب العربي الحديث. ليست لهذه الدراسة أهمية أكاديمية فحسب، بل لها أهمية عملية أيضًا، حيث إن فهم المصطلحات السياسية باللغة العربية أمر ضروري للتواصل الفعال والتحليل السياسي والعلاقات الدولية والتعليم في العالم العربي.

Məqaləyə rəy verən: Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının müdiri, Vüqar Aydın oğlu Qaradağlı.

Aytac Niyaməddin qızı Əliyeva [116]

ƏRƏB DİLİNDƏ ƏSL ZƏRFLƏR HAQQINDA

Uzun əsrlər boyu ayrı-ayrı qəbilələr halında Ərəbistan yarımadasının müxtəlif ərazilərində məskunlaşmış ərəblər tarixin islamaqədərki dövründə "cahiliyyət" adlanan bir zaman çərçivəsində özlərinin adət ənənələrini qorumuş və söz sənətinə verdikləri dəyər baxımından "bəlağət sahibləri" kimi tanınmışlar. Əsl peşələri səhra həyatının imkan verdiyi qədər dəvə, qoyun və keçi saxlamaq olan ərəblər eyni zamanda bir-biriləri ilə qəbilələrarası müharibələr aparmaqla həyatlarına davam edirdilər.

Təbiət baxımından zəngin olmayan ərazilərdə məskunlaşmış ərəblər söz sənətinə verdikləri dəyər, az sözlə geniş mənalar ifadə etmək qabiliyyətinə malik olduqları üçün geniş lövhələr yaratmaqla qonşu xalqların qibtə edəcəkləri bədii sənət nümunələri yaratmağa nail olmuşlar.

Lakin ərəblərin dünyanın mədəni xalqları sırasına qatılmağa səbəb olmuş ən mühüm cəhət Qurani-Kərimin ərəb dilində nazil olması ilə əlaqədar olmuşdur. Məhz Allah kəlamının məna çalarlarını anlamaq, onun mətninin xətalardan qorunması məqsədilə yaranmış ərəb dilçilik elmi ərəb kəlmələrini üç mühüm qrupa – isim, fel və ədatlara bölərək bu dilin digər kateqoriyalarını müəyyənləşdirmişlər. Məqalədə bəhs etməyə çalışdığımız "zərf" mövzusu da həmin bölgünün sonuncu qismi olan ədatlar bəhsinə aid edilmişdir.

Ümumi dilçilikdə zərf iş və hərəkətin əlamətini, keyfiyyətini, zaman, məkan və miqdarını bildirən nitq hissəsi olaraq tədqiq olunur (1, 104). Bundan əlavə, zərflər adlara bənzədilsə də, hala, şəklə və kəmiyyətə görə dəyişmədikləri üçün onlardan fərqləndirilərək köməkçi nitq hissələrinə aid edilir. Türk dillərində, o cümlədən Azərbaycan dilində də zərf kateqoriyası sözün cümlə daxilində daşıdığı sintaktik vəzifəsinə, semantikasına və ya semantik morfoloji xüsusiyyətlərinə əsaslanmaqla tədqiq olunur.

Qeyd etmək lazımdır ki, sintaktik prinsipinə görə feldən əvvəl gələn bütün sifətlər cümlədə işlənmə yerindən asılı olaraq həm də zərflərdir (2, 75).

Zərf cümlədə zərflik kimi çıxış edir. Bütün zərflər cümlədə zərflik kimi sıxış etdikləri halda, zərfliklər ən çox zərflə ifadə edilməklə yanaşı, həm də əvəzlik, say, sifət, isim və s. sözlərlə ifadə olunur.

Qeyd etmək lazımdır ki, formalar ərəb dilində çox geniş şəkildə yayılmışdır. ərəb dilində zərflərə gəlincə, onlar sabit modelləri olmayan və leksik mənaları çox zaman yalnız nitq şəraitində dəqiqləşdirilən köməkçi nitq hissələri hesab olunur (5, 103). Alimlər ərəb dilində zərfləri "مفعول فيه" (məfulun fihi) adı altında vermiş və onların ikiyə - zaman və məkan zərflərinə bölündüyünü təsbit etmişlər (8, 217). Zərflər zaman və yaxud məkan ifadə edən isimlərdən düzəlir ki, bunlar da "mənsub hal", yəni təsirlik hal əlamətlərini qəbul edir. Lakin elə zərflər də vardır ki, bunların hal əlaməti dəyişməz qalır ki, bu cür zərflər "məbni zərflər", yəni sonu "hərəkə" və ya "sukun" baxımından dəyişməyən zərflər hesab olunur. Həm zaman, həm də məkan zərfləri qeyri-müəyyən və məhdud olmaqla iki yerə bölünür. Bundan əlavə, zərflər quruluş baxımından da əsil və düzəltmə olmaq etibarilə iki qrupa ayrılır.

Qeyd etmək lazımdır ki, yaranmasında heç bir "cərr hərfinin" (ön qoşmanın) iştirak etmədiyi zərflər, haqlı olaraq "əsl zərflər" adlanır (9, 48). Əsl zərflər aşağıdakılardan ibarətdir:

a). Yer zərfləri

1. "هُنا" yer zərfinin mənaları:

"هُنا" yer zərfi yerinə görə "bura, buraya, burada" mənalarından birini bildirir:

"دَعَوْتُهُ هُنا" – Onu buraya çağırdım.

2. "هُناكَ" yer zərfinin mənaları:

"هُناكَ" yer zərfi yerinə görə "ora, oraya, orada" mənalarından birini bildirir:

"أَتَيْتُ معَهُ هُناكَ" – Onunla oraya getdim.

3. "ثَمَّ" və ya "ثَمّةَ" yer zərflərinin mənaları:

"ثَمَّ" və ya "ثَمّةَ" yer zərfləri yerinə görə "ora, orada, hara, haraya, hansı istiqamətə" mənalarından birini bildirir:

"وَأَزْلَفْنَا ثَمَّ الْآخَرِينَ"

"*O biriləri (Firon əhlini) də ora yaxınlaşdırdıq.*" (Əş-Şüəra: 64)

"وَإِذَا رَأَيْتَ ثَمَّ رَأَيْتَ نَعِيمًا وَمُلْكًا كَبِيرًا"

"*(Orada) hara baxsan, nemət və böyük bir mülk görərsən.*" (Əl-İnsan: 20)

4. "أَيْنَ" yer zərfinin mənaları:

"أَيْنَ" yer zərfi yerinə görə "hara, harada, haraya" mənalarından birini bildirir:

"إلى أَيْنَ أَنْتَ؟" – Sən hara gedirsən?

5. "لَدُنْ" yer zərfinin mənaları:

Yerinə görə "yanından, tərəfindən, dərgahından" mənalarından birini ifadə edən "لدن" zərfi adətən, "مِنْ" ön qoşması ilə işlədilir:

"الر كِتَابٌ أُحْكِمَتْ آيَاتُهُ ثُمَّ فُصِّلَتْ مِنْ لَدُنْ حَكِيمٍ خَبِيرٍ"

"*Əlif, Lam, Ra! Bu, ayələri hikmət sahibi, (hər şeydən) agah olan (Allah) tərəfindən təsbit olunmuş, sonra da müfəssəl izah edilmiş bir Kitabdır ki,*" (Hud: 1)

[116] BDU-nun Ərəb filologiyası kafedrasının magistrantı eliyevaaytac37@gmail.com

6. "حَيْثُ" yer zərfinin mənaları:

Yerinə görə "harada, haradan, haraya, nə zaman" mənalarından birini ifadə edən "حَيْثُ" zərfi haqqında bir çox dilçilər özlərinin ciddi mülahizələrini irəli sürmüşlər. Məşhur ərəb filoloqu Əl-Əxfəş isə bunun zaman zərfi olduğu iddiasını irəli sürmüşdür (6, 71). O, iddiasını klassik ərəb şeirindən nümunələrlə sübuta yetirməyə çalışsa da, Əl-Farisi bunun yer zərfi olduğunu təkidlə vurğulamış və bu məqsədlə Qurani-Kərimin aşağıdakı ayəsini dəlil olaraq gətirmişdir:

"وَإِذَا جَاءَتْهُمْ آيَةٌ قَالُوا لَنْ نُؤْمِنَ حَتَّىٰ نُؤْتَىٰ مِثْلَ مَا أُوتِيَ رُسُلُ اللَّهِ اللَّهُ أَعْلَمُ حَيْثُ يَجْعَلُ رِسَالَتَهُ سَيُصِيبُ الَّذِينَ أَجْرَمُوا صَغَارٌ عِنْدَ اللَّهِ وَعَذَابٌ شَدِيدٌ بِمَا كَانُوا يَمْكُرُونَ"

"*Onlara bir ayə gəldiyi zaman: "Allahın peyğəmbərlərinə verildiyinin (nübüvvətin, möcüzələrin) misli bizə verilməyincə biz iman gətirməyəcəyik!" – deyərlər. Allah peyğəmbərliyi hara (kimə) göndərəcəyini Özü daha yaxşı bilir. Günahkarlar Allahın hüzurunda etdikləri məkrlərə görə zillətə və şiddətli əzaba düçar olacaqlar!*" (Əl-Ənam: 124).

7. İnkarı gücləndirən "قَطُّ" zərfinin mənaları:

"Heç, heç cür, heç bir vəchlə, əsla" mənalarını ifadə edən bu zərf keçmiş zamanın qəti inkarını ifadə edir. Daha dəqiq ifadə edərək deyə bilərik ki, bu zərf keçmiş zamanın inkarını gücləndirməyə xidmət edir. Dilçilər zərfin kökünü "قَطَعَ" felindən alındığı iddiası ilə çıxış edərək "ما فَعَلْتُهُ قَطُّ" cümləsinin şərhini bu cür verirlər:

"ما فعلْتُهُ فيما انْقَطَعَ مِنْ عُمْرِي" - Onu heç zaman etməmişəm.

"لَمْ أَفُهْ بهذه الكَلِمَةِ قَطُّ" - Mən bu sözü ağzıma belə gətirməmişəm.

Burada onu da qeyd etmək lazımdır ki, ifadənin "لا أفعله قطُّ" şəklində işlədilməsi qrammatik qaydalara uyğun deyildir (7, 223). Belə ki, feilin özü indiki-gələcək zamanı ifadə etdiyi halda onunla birgə işlənmiş "قطُّ" zərfi keçmiş zamanın inkarını bildirir.

8. "فَقَطْ" zərfinin mənaları:

Bu zərf "yalnız, təkcə" mənalarından birini ifadə edir.

"كنت في مصرَ مرة واحدة فَقَطْ" – Misirdə yalnız bircə dəfə olmuşam.

9. "رُبَّ، لَعَلَّ، إنَّ" zərflərinin mənaları:

Hərəkətə münasibət ifadə edən "إنَّ" – "doğrudan da, həqiqətən", "لعلَّ/ عَلَّ" – "ola bilsin ki, bəlkə", "رُبَّ" – "ola bilsin, bəlkə" və s. bu qəbildən olan modal zərflər:

"لعلَّ الضُيُوفَ الأعِزّاءَ في الطريق حَتَّى الآنَ" – Bəlkə də əziz qonaqlar hələ də yoldadırlar.

10. "قَدْ" ədatı: Qeyd etmək lazımdır ki, "قَدْ"ədatı keçmiş və indiki-gələcək zaman feilləri ilə işlənərək müəyyən mənalar bildirir. Bu dil hissəciyi ədat kimi keçmiş zaman feilləri ilə işlədilərkən hərəkətin həqiqətən baş verdiyini və artıq bitdiyini bildirir (4, 93). O, indiki-gələcək zaman feilləri ilə işlədildiyi hallarda isə, hərəkətin nadir hallarda baş verdiyini bildirir və bu hadisəyə az-az hallarda rast gəlindiyinə və yaxud da hərəkətin daim və bəzən də adət halını aldığına dəlalət edir:

"إنه قد غادر باكو إلى موسكو" – O artıq Bakıdan Moskvaya yola düşmüşdür.

"قد يسافر الطلاب إلى القاهرة في الأسبوع القادم" – Ola bilsin ki, tələbələr gələn həftə Qahirəyə səfər etsinlər.

b) Sual bildirən zaman zərfəri

1. "أينَ" – harada?

"وَيَوْمَ نَحْشُرُهُمْ جَمِيعًا ثُمَّ نَقُولُ لِلَّذِينَ أَشْرَكُوا أَيْنَ شُرَكَاؤُكُمُ الَّذِينَ كُنْتُمْ تَزْعُمُونَ"

"*O gün (qiyamət günü) onların hamısını (bir yerə) toplayacaq, sonra (Allaha) şərik qoşanlara deyəcəyik: "(Tanrı olduqlarını) iddia etdiyiniz şəriklərniz (bütləriniz) haradadır?!*" (Əl-Ənam: 22)

2. "مَتَى" – nə vaxt, nə zaman?

"متى يَعُود طلابنا إلى الوطن؟" – Tələbələrimiz vətənə nə vaxt qayıdır?

3. "كَمْ" – neçə?

"كم كتابا قُرِئَ من قبل الطالب في الصيف؟" – Tələbə tərəfindən yayda neçə kitab oxunub?

4. "كَيْفَ" – necə?

"كيف نقترب من الناس الجالسين أمام تلك العمارة؟" – O binanın qarşısında oturan insanlara necə yaxınlaşa bilərik?

Qeyd etmək lazımdır ki, bu zərflərin bəziləri müxtəlif ön qoşmalarla da işlənə bilir. Məsələn: "إلى هنا؟" – buraya, " من أين" – haradan? "إلى متى" – nə vaxtadək?

İstifadə edilmiş ədəbiyyat

1. Axundov A.M. Dilçiliyə giriş. Bakı, 1993, 315 səh.
2. Məmmədəliyev V.M. Ərəb dilçiliyi. Bakı, 1998, 285 səh.
3. Mustafa Meral Çörçü. Sarf-Nahif-Edatlar. İstanbul, 2008, səh.
4. Mustafa Kurt. Arap Dilində Cer Herfleri. İstanbul, 1995, 510 səh.
5. Гранде В.М.. Введение в сравнительное изучение семитских языков. Москва, 1972, 680 стр.
6. Оруджова Л. Арабская грамматическая терминология. Баку, 1993, 290 стр.
7. إبن هشام، مغني اللبيب، بيروت، 1996، 610 ه
8. عباس حسن، النحو الوافي، تهران، 1999، في 4 مجلدات
9. مصطفى الغلاييني، جامع الدروس العربية، القاهرة، 2004، في مجلدين

Açar sözlər: zərf, zaman və məkan zərfləri, əsl və düzəltmə zərflər, inkarı gücləndirən zərflər, ərəb dilçilik elmi

Ключевые слова: наречие, наречия времени и пространства, действительные и пассивные наречия, наречия, усиливающие отрицание, арабское языкознание

Key words: adverb, adverbs of time and space, active and passive adverbs, adverbs that enhance negation, Arabic linguistics

Xülasə

Nitq hissələri dedikdə müəyyən qrammatik xüsusiyyətlərə görə qruplaşan bir qrup sözlər başa düşülür. Azərbaycan və ərəb dillərində nitq hissələrinin təsnifatı fərqlidir. Belə ki, Azərbaycan dilində nitq hissələri əsas və köməkçi olmaqla 2 qrupa ayrıldığı halda, ərəb dilində isim feil və ədatlara bölünür. Və ədatlar bölməsinə daxil olan ayrı ayrılıqda bir neçə nitq hissəsi vardır. Məqalədə də bunlardan biri olan zərflər haqqında danışılmışdır. Burada zərflərin işlənmə şəraiti, növlərindən söz açılmış, hər bir kateqoriya üzrə nümunələr göstərilərək qeyd edilən fikirləri aydınlaşdırmağa çalışılmışdır. Ərəb dilində zərflər məkana və ya zamana dəlalət edən isimlərdir. Zərflər hallanan və hallanmayan olur. Hallanan zərflər adətən məkan və zaman bildirən isimlərdən düzəlir və həmişə mənsub (təsirlikdə) olur. Zaman və məkan bildirən isimlərin "zərf" adlanmasında əsas səbəb odur ki, zərfə qoyulan məktub zərfdən kənara çıxmadığı kimi hadisə qeyd olunan zaman və ya məkan çərçivəsində baş verir. Əsas nitq hissələrindən biri olan zərf istər leksik-qrammatik mənalarına, morfoloji əlamətlərinə, istərsə də sintaktik vəzifəsinə görə fərqli xüsusiyyətlərə malikdir. Lakin zərflərin leksik məna baxımından digər nitq hissələri ilə olan yaxınlığı onun sərhədlərinin dəqiqləşdirilməsində müəyyən təzadlar yaratmışdır. Bu hal zərflərin çoxşaxəli olmasından və leksik mənasına görə digər nitq hissələri ilə ortaqlıq təşkil etməsindən irəli gəlir. Sintaktik mövqeyindən asılı olaraq bir sıra nitq hissələri cümlədə eyni zamanda zərflik vəzifəsini də icra edə bilir. Bütün bu qeyd etdiyimiz faktlar zərflərin dilçilikdə geniş sahə tutmasına səbəb olmuşdur.

Истинные наречия на арабском языке
Резюме

Части речи означают группу слов, сгруппированных по определенным грамматическим признакам. Классификация частей речи в азербайджанском и арабском языках различна. Так, в азербайджанском языке части речи делятся на 2 группы – основную и вспомогательную, а в арабском языке существительные делятся на глаголы и наречия. А в раздел таможня входит несколько отдельных частей речи. Также в статье говорится об одном из них – наречиях. Здесь обсуждаются условия обработки и виды конвертов, показаны примеры каждой категории и делается попытка прояснить упомянутые идеи. Наречия в арабском языке – это существительные, обозначающие место или время. Наречия бывают с падежом и без падежа. Решающие наречия обычно образуются от существительных, обозначающих место и время, и всегда имеют подлежащее (изменение). Основная причина, по которой существительные, обозначающие время и пространство, называются «наречиями», заключается в том, что событие происходит в пределах указанного времени или пространства, так же как буква, стоящая в наречии, не выходит за пределы наречия. Наречие, являющееся одной из основных частей речи, имеет различные характеристики по своему лексико-грамматическому значению, морфологическим особенностям и синтаксической функции. Однако близость наречий к другим частям речи по лексическому значению создала определенные противоречия в определении ее границ. Такая ситуация обусловлена тем, что наречия многогранны и разделяют свое лексическое значение с другими частями речи. В зависимости от своего синтаксического положения несколько частей речи могут выполнять в предложении функцию наречия одновременно. Все эти упомянутые факты привели к тому, что наречия заняли широкую область в лингвистике.

True Adverbs in Arabic
Summary

Parts of speech mean a group of words grouped according to certain grammatical features. The classification of parts of speech in Azerbaijani and Arabic languages is different. Thus, in the Azerbaijani language, parts of speech are divided into 2 groups, main and auxiliary, while in Arabic, nouns are divided into verbs and adverbs. And there are several separate parts of speech included in the customs section. The article also talks about one of them, adverbs. Here, the working conditions and types of envelopes are discussed, examples of each category are shown, and an attempt is made to clarify the mentioned ideas. Adverbs in Arabic are nouns that refer to place or time. Adverbs are cased and uncased. Decisive adverbs are usually formed from nouns denoting place and time and are always subject (inflected). The main reason why nouns denoting time and space are called "adverbs" is that the event takes place within the specified time or space, just as the letter placed in the adverb does not go beyond the adverb. Adverb, which is one of the main parts of speech, has different characteristics according to its lexical-grammatical meaning, morphological features, and syntactic function. However, the proximity of adverbs to other parts of speech in terms of lexical meaning has created certain contradictions in defining its boundaries. This situation is due to the fact that adverbs are multifaceted and share their lexical meaning with other parts of speech. Depending on their syntactic position, a number of speech parts can perform the function of adverb in the sentence at the same time. All these mentioned facts have caused adverbs to occupy a wide area in linguistics.

RƏYÇİ: dos. N.Əfəndiyeva

0000-0001-5752-3761 Zəka Mayıl oğlu Mayılov[117]

LİNQVOPOETİKANIN DİLÇİLİK SİSTEMİNDƏ YERİ VƏ MAHİYYƏTİ

Giriş. Məqalənin aktuallığı onunla müəyyən edilir ki, bədii əsərlərin üslub xüsusiyyətləri ilə onun məzmununun əlaqəli tədqiqi hər zaman filologiya elminin mərkəzi vəzifələrindən biri olub və qalmaqdadır. Bədii mətnin linqvopoetik təhlili ədəbi əsərlərin belə mövqelərdən öyrənilməsi üsullarından biridir. Linqvopoetik təhlilin bu üsulu təhlil edilən bədii mətnlərin ümumi xassələrindən asılı olaraq daha da inkişaf etdirilməsini və aydınlaşdırılmasını tələb edir. Bu baxımdan linqvopoetik təhlil metodlarını tədqiq edən alimlərin fikirləri də çox aktualdır.

Elmi yeniliyi. Linqvopoetika elminin tədqiqat tarixinə qlobal səbiyyədə indiyə kimi baxılmamışdır. "Linqvopoetika" termini 1960-cı illərdə bədii ədəbiyyatda dil vahidlərinin öyrənilməsinə maraq fonunda yaranmışdır. Lakin müxtəlif elm adamları bu termini özünəməxsus şəkildə şərh edirlər. Məsələn, V.V.Vinoqradov onu bədii ədəbiyyatda dil elminin ekvivalenti kimi müəyyən etmişdirsə, V.P.Qriqoryev bədii ədəbiyyatın stilistikasını və struktur poetikasını linqvopoetika adlandırmışdır. Deməli, linqvopoetika bədii kontekstdə dil vahidlərinin əldə etdiyi estetik xassələri öyrənən filologiyanın sahələrindən biridir. Linqvopoetikanın vəzifəsi ədəbi əsərlərin qurulması üsullarını öyrənməkdir.

Əsas hissə. Bədii əsərlər müxtəlif mövqelərdən öyrənilə bilər: sırf məzmun baxımından, nəzəriyyə baxımından və ya əsərin formal və məzmun tərəflərinin vəhdəti nəzərə alınmaqla. B.V.Tomaşevskinin fikrincə, formal mətnlərin öyrənilməsinə iki əsas yanaşma vardır: tarixi və nəzəri yanaşma. "Tarixçi ədəbiyyatı öyrənərkən əsərin meydana çıxmasına hansı hadisələrin səbəb olduğunu, eyni illərdə meydana çıxan digər əsərlərlə necə əlaqəli olduğunu, başqalarına necə təsir etdiyini öyrənir, yəni hər bir əsəri öz mühitində araşdırır" [10, s. 8]. Onun fikirlərinə əsaslanaraq qeyd edə bilərik ki, hər bir əsər, onu yaradan sosial mühitlə ayrılmaz şəkildə bağlı olan xüsusi tədqiqat obyektidir. Başqa bir yanaşma - nəzəri yanaşma da diqqətdən yayınmır. Bu yanaşma bizi "yalnız bədii əsər yaratmağın ümumi qanunauyğunluqlarının tətbiqi nəticəsində cəlb edir. Nəzəriyyəçi ədəbiyyata öz dövrünün müxtəlif ideyalarını yerinə yetirməyə qadir olan bir məharət növü, müəllifin öz ideyalarına nail olmaq yolları kimi baxır" [10, s. 9]. B.V.Tomaşevskinin bəhs etdiyi üsullara bədii və ya ədəbi cihazlar deyilir. Bədii texnikaları və onların oxucuya estetik təsirini (onların əhəmiyyətini və funksiyalarını) öyrənən elmə isə poetika deyilir.

Linqvopoetika ədəbi-bədii yaradıcılıq əsəri kimi bədii mətnin forma və məzmun vəhdətini öyrənir. Hər bir dilçilik sahəsində olduğu kimi, burda da müəyyən axsamalar özünü göstərirdi: "Sözün meydana çıxmasının poetik yaradıcılıq aktı kimi qavranılması və onun "daxili formasına" nüfuz etmək istəyi, onun ilkin poetik xüsusiyyətlərinin mürəkkəb aktuallaşması hallarını təsvir etmək, bir qədər silinmiş və sanki geri çəkilmişdir" [5, s. 11]. Linqvopoetika ədəbi mətn tədqiqinin üçüncü səviyyəsi kimi qəbul edilir. Birinci səviyyədə tədqiq ümumi sistemli fənlərin əhatə dairəsinə daxil olan semantik səviyyədə təhlil, ikincisi, metasemiotik səviyyədə təhlil yolu ilə birbaşa əlaqəlidir. Ədəbi-bədii yaradıcılığın tədqiqində linqvistik stilistika mahiyyətcə onun funksional və üslubi mahiyyətini araşdıran və onun tərkibindəki təsir funksiyasının elementlərini müəyyən edən ilk elm sahəsidir. Linqvopoetika sahəsinin meydana çıxmasının əsas səbəbi dil vahidlərinin müəyyən ideya-bədii məzmunun üzə çıxarılmasında rolunu qiymətləndirmək linqvostilistikanın səlahiyyətinə aid olmaması idi.

Bədii əsəri linqvopoetik təhlilə məruz qoyaraq tədqiqatçı əvvəlki iki mərhələdə müəyyən edilmiş dil faktları ilə fəaliyyət göstərir. Linqvopoetika ilə linqvostilistika arasındakı əsas fərq linqvopoetikanin şifahi-üslubi mənsubiyyət sferası ilə məhdudlaşmır (formal nöqteyi-nəzərdən təsir funksiyasının elementlərinin rolunu açıqlayan hər hansı təhlil). "Linqvopoetika həm də linqvistik stilistikanın təsvir etdiyi dil vahidlərini məzmun yükü ilə bağlı dəyərləndirir, yəni onların qarşılıqlı təsirini müəyyən etmək, mətnin ideya-bədii xüsusiyyətlərini açmaq üçün məzmundan formaya keçir" [6, s. 45].

Ayrı-ayrı mətnlərin linqvistik və poetik tədqiqinin mövcud ənənəsi əsasən akademik V.V. Vinoqradovanın elmi əsərləri ilə bağlıdır. Şerbanın bu məsələ ilə bağlı fikirləri isə müəyyən qədər anti-tarixçiliklə səciyyələnirdi. O, linqvistik tədqiqatın bu üsulu ilə "bədii əsər sanki ədəbi qalereyanın tarixi çərçivəsindən çıxarılır, ədəbiyyat "muzeyindən" götürülür" deyirdi [1, s. 62]; B.V.Tomaşevski ilkin nəzəri mövqelərinin bütün dəqiqliyi ilə konkret mətnləri təhlil edərkən tarixi-mədəni şərhlərə meyl edirdi [9]; L. Spitzer mətni təhlil edərkən "filoloji çevrə" boyu irəliləyir və bu hərəkətdə çox vaxt müəyyən nəticələr əldə edildiyini söyləyirdi. Lakin əsərin fərdi üslub xüsusiyyətini, ideyasını kəşf etmək, bütün mətnin linqvistik quruluşunun hüdudlarından kənara çıxana qədər şərhini çıxarmaq bir qayda olaraq linqvopoetik tədqiqatın əsas tələbinə - mətnin məzmununu bütün linqvistik və poetik xassələri ilə bağlı nəzərdən keçirmək tələbinə cavab vermir.

Müəyyən bir dil elementinin linqvopoetik əhəmiyyəti ilə bağlı mülahizələr alimlər tərəfindən ətraflı üslubi təhlil aparıldıqdan və müxtəlif tarixi-mədəni amillər nəzərə alındıqdan sonra ifadə edilmiş və çıxarılan nəticələrin çəkisi tədqiq olunan materialın xarakteri ilə təqdim edilmişdir. Akademik V.V.Vinoqradov linqvopoetika ilə bağlı əsas anlayışları dəqiq müəyyənləşdirmədiyinə və "bəzi mühüm anlayış və müddəaların əlavə aydınlaşdırılmasına əhəmiyyət vermədiyinə" görə dəfələrlə məzəmmət edilmişdir [8, s. 10] Onun haqqında deyirdilər ki, "çox sayda yazıya baxmayaraq, fikirlərini yetərincə dolğun və aydın şəkildə ifadə edə bilməyən mütəfəkkirlərdən biri idi. Onun elmi meditasiyasının özəllikləri, öz üslubu əsərlərin qavrayışını nəinki çətinləşdirir, hətta bəzən də düşüncələrinin dərinliyini dərk etməsinə mane olur, oxucunu onların səthində qoyur" [13, s. 331]. V.V.Vinoqradovun fikrincə, klassik bədii əsərlərin unikallığını şərtləndirdirmək üçün

[117] BDU-nun Azərbaycan dilçiliyi kafedrasının doktorantı, zekamayılov6@gmail.com

impressionizm və subyektivizm ittihamlarına yol vermədən estetik əhəmiyyətli linqvistik elementləri müəyyən etmək mümkün deyildir [4, s. 16].

Linqvopoetik təhlilin metodologiyası və bədii əsərlərin öyrənilməsinin bu növünün onların linqvostilisistik təsvirindən fərqi məsələlərini V.Y.Zadornova özünün doktorluq dissertasiyasında nəzərdən keçirir. Eyni zamanda, V.Y.Zadornova qeyd edir ki, "Mətnin mövcud linqvopoetik təhlilinin qanunauyğunluqlarını açmağa çalışan tədqiqatçı bir sıra çətinlikləri dəf etməlidir. Birincisi, təhlil metodlarının özündə böyük müxtəliflik diqqəti cəlb edir" (müəllif aşağıdakı müəlliflərin tədqiqatlarında tədqiq metodlarının heterogenliyinə istinad edir. L.V.Şerba əsərin dilinə və hecasına, ayrı-ayrı söz və birləşmələrə müraciət edirdisə, B.V.Tomaşevski üçün ən vacib olan tarixi-filoloji mühit idi). Tədqiqatçının yolunda ikinci əngəl kimi o "bədii əsərlərin sayı və müxtəlifliyi"ni görürdü [3, s. 70]. Beləliklə, V.Y.Zadornova görə, linqvistik və poetik tədqiqatın xüsusiyyətlərini dərk etməklə bağlı yaranan obyektiv çətinliklər bir çox nəzəri mövqelərin hələ də inkişaf və aydınlaşdırma tələb etdiyini etiraf edir.

A.A.Lipqart sübut etməyə çalışırdı ki, "bədii ədəbiyyatın linqvistik xüsusiyyətləri baxımından differensiallaşmamış yanaşmanı aradan qaldırmaq və linqvopoetik təhlildə bədii mətnlərin daxili xassələrindən asılı olaraq onu materiala tətbiq etmək lazımdır" [9, s. 502]. Bununla əlaqədar olaraq, o, bədii mətndə istifadə olunan üslubi dil vahidlərini, onların funksiyalarını və müəyyən bir mənanın ötürülməsi üçün müqayisəli əhəmiyyəti məsələsini nəzərdən keçirmişdir" [8, s. 20].

Yuxarıda adları çəkilən tədqiqatlara baxmayaraq, "linqvopoetika" termininin istifadəsi hələ də "çoxmənalı" olaraq qalır və iki növ tədqiqatı təyin etməkdə istifadə edildiyi üçün xüsusi çətinliklərlə əlaqələndirilir. Onlardan birinin məqsədi konkret bədii qurğunun istifadəsinin tematik və üslub xüsusiyyətlərinin nədən ibarət olduğu barədə mümkün qədər dolğun mənzərəni yenidən yaratmaqdır. İkinci istiqamət müəyyən ideya-bədii məzmunun ötürülməsində və müəyyən estetik effektin yaradılmasında formal linqvistik elementlərin rolunu müəyyən etməyə yönəlmiş ayrıca bədii mətnin tədqiqindən bəhs edir. Bununla belə, hər iki yanaşma eyni prinsipə - mətnin həm formal, həm də substantiv tərəfinin nəzərə alınmasına əsaslandığından, onlar "linqvopoetika" termini ilə birləşir. Müvafiq olaraq bunlardan birincisi "bədii texnikanın linqvopoetikası", ikincisi isə "bədii mətnin linqvopoetik tədqiqi (təhlili) adlanır" [7].

Linqvopetik təhlilin yenidən nəzərdən keçirilməsi bizi linqvopetikanın fənlərarası bir istiqamət kimi digər filoloji fənlərlə, xüsusən də dilçilik stilistikası və ədəbiyyatşünaslıq ilə əlaqəsinə fərqli nəzər salmağa məcbur edir. Linqvistik stilistika tədqiqatçıya materialın ilkin qiymətləndirilməsini təmin edir və linqvopoetik tədqiqata yararlı olan və ya olmayan bədii mətnləri ayırd etməyə imkan verir. Linqvopoetikanın tərifinə mətnin məzmun tərəfi də daxildir. Belə ki, onun öyrənilməsi müxtəlif filoloji mövqelərdən aparıla bilər. İstənilən tipoloji tədqiqatda nisbətən qlobal, fraqmentar olmayan material təhlil edilməlidir. Çünki təhlil edilən mətnlərin korpusu kifayət qədər təsir edici deyilsə, faktların taksonomik ümumiləşdirilməsinin doğruluğuna şübhələr yarana bilər. Müəyyən tipoloji tədqiqatları linqvopoetik baxımdan əhəmiyyətli hesab etmək üçün riayət olunması zəruri olan ikinci şərt, tədqiq olunan hadisənin müvafiq funksional-üslub statusunun əsaslandırılmasıdır. Yəni bədii mətnin linqvopoetikası haqqında yalnız o zaman danışa bilərik ki, onun təsir funksiyasına aid olması sübuta yetirilsin və kifayət qədər çoxlu mətnlərdə onun istifadəsində müəyyən qanunauyğunluq olsun. A.A.Lipqart bu nəzəri prinsiplərin konkret materialın təhlilinə necə tətbiq oluna biləcəyini göstərdi: daha dəqiq desək, Şekspirin 18 pyesindən nümunə kimi götürülmüş "sifət + isim" kimi atributiv ifadələri tədqiq etdi. Bu tipli söz birləşmələrində sifətlər əksər hallarda müəyyən edilmiş ismə sırf informativ şəkildə aydınlıq gətirir, özü ilə incə fərqlər, nüanslar və məna çalarları, həm də əlavə ifadə müstəvisi yaradır. Bu ifadələrin substantiv komponenti də çox vaxt konnotativ olur və bunun sayəsində bir çox atributiv ifadələrin istifadəsi təsir funksiyasının həyata keçirilməsi ilə əlaqələndirilir və linqvopoetik yüklü hesab edilə bilər. Beləliklə, nəzərdən keçirilən vahidlərin belə funksional-üslubi statusu tədqiq olunan materialın qeyri-fraqmentarlığı ilə birləşərək atributiv frazaların linqvopoetikasını tipoloji mövqedən öyrənməyə imkan verir.

Maraqlıdır ki, əsər üzərində işləyən zaman A.A.Lipqart sadə təsnifatdan kənara çıxmağa və təsnifatın əsas parametrləri məsələsini daha yüksək səviyyədə həll etməyə nail olmuşdur. Bu parametrləri "forma / məzmun / funksiya" triadasından müəyyən edərkən o, həm formal komponenti (bu səviyyədə təsvir olunan vahidlər arasında bəzi kiçik fərqlərlə, əsas oxşarlıqlar müşahidə olunurdu), həm də sözlərin spesifik semantik xüsusiyyətlərini istisna etdi.

Nəticədə təsnifat iki meyara görə - linqvopetik əhəmiyyətindən (yəni özünü göstərən məzmun xassələrinin həcmindən) və atributiv ifadələrin linqvopoetik funksiyasından asılı olaraq aparılmışdır. Belə ki, atributiv söz birləşmələrinin yerinə yetirdiyi linqvopoetik funksiyadan asılı olaraq fərqləndirilməsi onların işlənməsinin ümumi konteksti ilə və bu konnotativ dil vahidlərinin linqvopoetik əhəmiyyətindəki fərqlərlə əlaqədar aparılır.

Linqvopoetik təhlildən əvvəl linqvostilisistik təhlil aparılır və bu təhlil zamanı "təsir funksiyasını həyata keçirən və... estetik effektin yaradılmasına töhfə verə bilən dil elementləri aşkar edilir" [7, s. 53]. Lakin elementin üslubi işarələnməsi onun linqvistik və poetik funksiyasının xarakteri haqqında heç nə demir: bunun üçün elementin mətnin ümumi məzmunu ilə əlaqəsini müəyyən etmək lazımdır [8, s. 62]. Beləliklə, söhbət əslində ondan gedir ki, əgər linqvostilistik təhlil üslubi cəhətdən işarələnmiş elementlərin sadə "siyahısını" təqdim edirsə, linqvopoetik təhlil onları bu konkret mətndə nisbi əhəmiyyətinə uyğun olaraq müəyyən bir iyerarxiyaya düzmək, onun ideoloji mahiyyətini aşkara çıxarmaq məqsədi daşıyır. Linqvopoetik təhlilin üsulları linqvopoetik müqayisə (yəni, onların hər birində müəyyən formal elementin rolunu müəyyən etmək üçün tematik, funksional və üslub baxımından oxşar mətnlərin müqayisəsi) və linqvopoetik təbəqələşmədir (yəni, "məsələ ilə bağlı olanların müəyyən edilməsi"). dizayn, leksik-qrammatik quruluş və layların, üslub xüsusiyyətləri ilə birləşmiş, sanki bir açarda, vahid üslub dominant ətrafında yazılmışdır" [10, s. 76]. (Qeyd etmək lazımdır ki, elementlərin nisbi əhəmiyyətinin onların müəyyən bir sistemdəki mövqeyindən asılı olması fikri digər tədqiqatçılar arasında da

yaranmışdır. Məsələn, İsveç üslubu üzrə tədqiqatçı Peter Hallberq özünün "Ədəbiyyat nəzəriyyəsi və stilistika" kitabında qeyd edir. Rene Velek və Ostin Uorren məşhur "Ədəbiyyat nəzəriyyəsi" əsərində yeni bir ikilik təklif etdilər: materiallar / quruluş.

Linqvopoetika sahəsində maraqlı tədqiqatlar Y.V.Flyagina tərəfindən də aparılmışdır. Linqvopoetikadan "orijinal mətnin üslub xüsusiyyətlərinin yeni konseptual materiala bir növ fokuslanmış proyeksiyası" kimi danışarkən, o, öz tədqiqatına əsaslanaraq belə nəticəyə gəlir ki, fərdi üslubun linqvistik xüsusiyyətlərinin minimum toplusu mövcuddur.

Bütün yuxarıda sadaladığımız tədqiqatlardan da məlum oldu ki, linqvopoetika filologiyanın elə bir sahəsidir ki, onun daxilində bədii mətndə işlənən üslubi işarələnmiş dil vahidləri müəyyən ideya-bədii məzmunun ötürülməsi və estetik effekt yaratmaq üçün onların funksiyaları və müqayisəli əhəmiyyəti məsələsi ilə bağlı nəzərdən keçirilir.

Mətnin linqvopaetik tədqiqi sadəcə olaraq müəyyən üslub vasitələri və linqvistik vasitələri müəyyən etməyə deyil, bədii əsərin göstərdiyi estetik təsirin izahına yönəlir. Linqvopoetik tədqiqatlar zamanı müəyyən linqvistik elementlərin hansı rol oynadığı aydın olur.

Linqvopoetik tədqiqat üsulları arasında bədii mətnin təbəqələşməsi mühüm yer tutur. Stratifikasiya dedikdə, "tərkibinə, bədii-obrazına, leksik-qrammatik quruluşuna və üslub xüsusiyyətlərinə görə vahid olan təbəqələrin eyni açarda, "vahid stilistik dominant ətrafında" yazılmış kimi müəyyən edilməsi başa düşülür.

Aydındır ki, bütün mətnlər tematik və stilistik heterogenliyə görə fərqlənməyəcək. İstər-istəməz bir neçə mövzu ehtiva edən bir çox əsərlər, ümumiyyətlə, vahid üslubda yazıla bilər, ona görə də belə mətnlərə münasibətdə həm formal, həm də məzmun xüsusiyyətləri nəzərə alınmaqla hər hansı linqvopoetik təbəqələşmədən söhbət gedə bilməz. Bu cür tematik və stilistik heterogenliyin olmaması mətnin mənfi xüsusiyyəti deyil: bir çox əsərlər az-çox vahid üslubda yazılır və oxuculara böyük estetik təsir göstərir. Bu heterogenliyin müşahidə olunmadığı mətnlərin əhəmiyyətini qiymətləndirməmək olmaz. Linqvopoetik təbəqələşmə metodu özlüyündə dəyərə malikdir, çünki o bu və ya digər ədəbi-bədii yaradıcılıq əsərini daha yaxşı başa düşməyə, onda hər hansı bir əsərin mövcudluğunu görməyə imkan verir. Bununla yanaşı, metoddan müəllifin əsərinin bütövlükdə necə olduğu haqqında daha dolğun bir fikir yaratmaq üçün istifadə edilə bilər. Əgər onun yaradıcılığının bütün dövrü ərzində mətndə tematik və stilistik heterogenlik daim mövcuddursa və eyni zamanda mətnin təbəqələrə bölünməsi yollarında bəzi dəyişikliklər mümkündürsə, o zaman təbəqələrin bir təbəqə kimi istifadə edilməsindən danışmaq olar.

Nəticə. Linqvopoetika elminin tədqiqi tarixini araşdırarkən ayrı-ayrı alimlərin bu sahənin müxtəlif elmlərlə bağlı olduğu qənaətinə gəldiyini şahidi oluruq. Belə ki, tədqiqatçılar linqvopoetika elminə müxtəlif rakursdan yanaşsalar da bu sahənin dilçiliyin bir şöbəsi olduğunu və bədii əsəri müxtəlif parametrlərdən təhlil edilərkən daha dərin dərk edildiyini irəli sürdülər. Onların fikrincə linqvopoetika mahiyyətcə ədəbi-bədii yaradıcılıq əsərlərini təhlil edən, filoloji fənlərin anlayış və kateqoriyaları özünəməxsus konseptual müstəvidə istifadə edən fənlərarası tədqiqat sahəsidir. Çünki bədii mətnin linqvopoetik tədqiqi mətnin ideya-bədii məzmununun çatdırılmasında və estetik effektin yaradılmasında üslubi işarələnmiş dil vahidlərinin müqayisəli əhəmiyyətini və funksiyalarını müəyyən etməyə yönəlmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Виноградов В.В. Избранные труды. О языке художественной прозы. -М., 1980. -360 с.
2. Задорнова В.Я. Словесно-художествееного произведение на разных языках как предмет лингвопоэтического исследования. Дисс. . .докт. филол. наук. -М., 1992. – 479 с.
3. Липгарт А.А. Лингвопоэтическое исследование художественного текста: теория и практика. Дисс. .докт. филол. наук. - М., 1996. -656 с.
4. Липгарт А.А. Метаязык лингвистических исследований. // Терминоведение. 1994. - № 1. - С. 137-140
5. Липгарт А.А. Методы лингвопоэтического исследования. М., 1997. -220 с.
6. Липгарт А.А. О лингвопоэтическом анализе художественного текста // Студенческие научные доклады. Ч. III/ Лингвистика. М., 1992. - с. 3-8
7. Монтень М.Э. Опыты. -М., 1989. 429 с.
8. О принципах и методах лингвостилистического исследования / Под ред. О.С.Ахмановой. -М., 1966. 184 с.
9. Томашевский Б.В. Теория литературы (Поэтика). — М., 1925. 232 с.
10. Транквилл Гай Светоний. Жизнь двенадцати цезарей. М., 1987. -329 с.
11. Чаковская М.С. Взаимодействие стилей научной и художественной литературы. -М., 1985. 159 с.
12. Щерба Л.В. Избранные работы по языкознанию и фонетике. Т. 1. Л., 1958. -182 с.
13. Щерба Л.В. Современный русский литературный язык. М., 1974. -347 с.
14. Alexandrova O., Ter-Minasova S. English Syntax (Colligation, Collocation and Discourse). M. 1987. – 187 p.
15. Riffaterre M. Stylistic Context // Word. 1960. - № 16. - p. 207-218.
16. Riffaterre M. Describing Poetic Structures: Two Approaches to Baudelaire's "Les Chats" // Yale French Studies. 1966. - № 36/37. - P. 200242.
17. Roget P.M. The Thesaurus of English Words and Phrases. Lnd., -1993. –567 p.

Açar sözlər: linqvopoetika, tədqiqat tarixi, mahiyyət, təhlil, tədqiqat, metod, dilçilik, estetik təsir, dərin qatlar

Ключевые слова: лингвопоэтика, история исследования, сущность, анализ, исследование, метод, лингвистика, эстетический эффект, глубокие слои

Key words: linguopoetics, research history, essence, analysis, research, method, linguistics, aesthetic effect, deep layers

Xülasə

Məqalədə müxtəlif alimlərin linqvopoetika ilə əlaqədər elmi görüşləri, tədqiqatları nəzərdən keçirilmişdir. Belə ki, alimlərin ortaq qənaətinə görə linqvopoetikanı bədii kontekstdə dil vahidlərinin xassələrini öyrənən filologiyanın bir sahəsi kimi müəyyən etmək olar. Başqa sözlə desək, linqvopoetikanın predmeti bədii əsərdə istifadə olunan dil vasitələrinin məcmusudur ki, onun köməyi ilə yazıçı öz ideya-bədii konsepsiyasını reallaşdırmaq üçün zəruri olan estetik təsirləri verir. Bildiyimiz kimi, estetik təsir təkcə əsərdə deyilənlərdən deyil, həm də onun necə deyilməsindən asılıdır. Linqvopoetik təhlilin

məqsədi bu və ya digər dil vahidinin müəllif tərəfindən ədəbi-bədii yaradıcılıq prosesinə necə cəlb olunduğunu, bu və ya digər sözlərin birləşməsinin necə formalaşmasına səbəb olduğunu dəqiq müəyyən etməkdir.

Место и сущность лингвопоэтики в языковой системе

Резюме

В статье рассмотрены научные встречи и исследования различных ученых, связанные с лингвопоэтикой. Итак, по общепринятому мнению ученых, лингвопоэтику можно определить как область филологии, изучающую свойства языковых единиц в художественном контексте. Иными словами, предметом лингвопоэтики является совокупность языковых средств, используемых в художественном произведении, с помощью которых писатель придает эстетические эффекты, необходимые для реализации своего идейно-художественного замысла. Как мы знаем, эстетический эффект зависит не только от того, что сказано в произведении, но и от того, как это сказано. Цель лингвопоэтического анализа – определить, как именно та или иная языковая единица участвует в процессе литературно-художественного творчества автора, как приводит к образованию то или иное сочетание слов.

The place and essence of linguopoetics in the linguistic system

Summary

In the article, the scientific meetings and researches of various scientists related to linguopoetics were reviewed. So, according to the common opinion of scientists, linguopoetics can be defined as a field of philology that studies the properties of language units in an artistic context. In other words, the subject of linguopoetics is a set of language tools used in an artistic work, with the help of which the writer gives the aesthetic effects necessary to realize his idea-artistic concept. As we know, the aesthetic effect depends not only on what is said in the work, but also on how it is said. The goal of lingupoetic analysis is to determine exactly how this or that language unit is involved in the process of literary and artistic creativity by the author, how this or that combination of words leads to formation.

RƏYÇİ: dos. S.Abbasova

Əsmər Cabir qızı Zeynalova [118]

ƏRƏB YAZISI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

Yazının yaranması insan şüurunun inkişafının ən bariz nümunələrindən hesab edilir. Yazı səsli dilin norma ilə qavrayışını təmin edən işarələr qrupudur. O həmçinin insanlar üçün ən böyük kəşflərdən biridir. Yaranmasının çox qədim tarixi var. Bəşəriyyətin ilk dövründə ünsiyyət yalnız şifahi formada olub, yazı nümunələrinin isə 7000 ilə yaxın tarixi var [5]. Ərəb yazısı geniş istifadə olunan yazılardandır. Buna görə də dilçilərin, tarixçilərin, xəttatların böyük marağına səbəb olmuşdur. Bunun nəticəsi olaraq onun izahlı qaydaları ilə bağlı kitablar və tədqiqat əsərləri meydana çıxmışdır. Bu əsərlərin çoxluğuna, ölçü və material cəhətdən, eyni zamanda müasirlik və qədimlik baxımından fərqlərinə baxmayaraq, hələ də ərəb kitabxanalarında yazı qaydalarından bəhs edən yeni kitablara ehtiyac vardır. Yazılı qaydalarla yanaşı ərəb yazısının mənşəyindən bəhs edən və inkişaf yollarını göstərən, şriftlərin növlərini və formalarını aydınlaşdıran kitablara ehtiyac vardır. Həmin kitablar ki, bu kitabları tədqiqatçı oxuyarkən yazı məsələlərinə dair hər bir suala orada cavab tapa bilsin.

Ərəb yazı qaydaları ilə məşqul olan şəxs bir sıra hallarda çətinliklərlə üzləşir. Bu çətinliklər, qaydaların müxtəlifliyi ilə əlaqədardır. Bu qaydalarla əlaqədar alimlərin mövqeyi fərqlidir. Sözsüz ki, bu fərqlilik həm də onların yaşadığı dövrün zaman dəyişkənliyi ilə əlaqədardır. Məsələn, əvvəlki dövrün bir sıra ərəb dilçiliyinin nümayəndələri, əsasən qaydaları, sözləri bildikləri klassik formalar əsasında yazıb tətbiq etməyə yönəlik insanlar idilər. Xüsusi ilə də Qurani-kərimin qeydə alınması zamanı bir sıra sabit qaydalar mövcud idi ki, onlar dəyişilməz idi hər bir dövr üçün. Bir sıra qrammatiklər məhz Quran əsasında yazı qaydalarının davam etdirilməsi fikrini irəli sürürdülər. Başqa bir qrup alimlər isə ərəb morfologiyası və sintaksisinin qiyas qaydaları əsasında yazının qeydə alınmasının tərəfdarı idilər.

Son dövr alimləri isə məhz tələffüzə əsaslanaraq yazı qaydalarının tərtibatı prinsipindən çıxış edirdilər. Ərəb yazısının asanlaşdırılması istiqamətində şərtlərin müəyyənləşdirilməsində yuxarıda qeyd olunan fərqliliklər müşahidə olunmuşdur. Lakin bütün bunlara baxmayaraq tədqiqatçı aydın bir xətt [yazı] prinsipini əsas tutmalıdır. Yəni, istər klassik qaydalar əsasında, istərsə də müasir yazı qaydalarını üstün tutaraq yazılmasına baxmayaraq, xəttin [yazının] aydın olması və konkret bir prinsipə əsaslanması başlıca şərtdir. Bu, mövzuları oxucuya təqdim etmə bacarığının əsas sütunudur. Bu prinsiplərə əməl olunaraq qeydə alınan yazı oxucunun zehnini qarışdırmamağa yönəlikdir. Yazı qaydalarının inkişaf etdirilməsi bir şəxsin iqtidarında olan məsələ deyil. Çünki ərəb orfoqrafiya qaydaları, nəsildən-nəsilə ötürülmüş qaydaları özündə ehtiva edir ki, hansı ki yüzillikləri öz arxasında qoymuşdur. Dilin inkişafı yolunda eyni zamanda dil institutlarının, nitqin, mədəniyyətin, təfəkkürün bu istiqamətdə inkişafı ilə məşqul olan orqanlarının xidmətləri böyükdür. Bu analtik mərkəzlərin gəldiyi nəticələr, qeyd olunan mövzuların müəyyənləşdirilməsində və təşəbbüslərin irəli sürülməsində çox böyük əhəmiyyətə malikdir.

Ərəb yazısının tarixindən söhbət açan tədqiqat və kitablarda çox vaxt Müshəf (Qədim Quran yazısı) yazı üsulunun nəzərdən qaçırılması faktı müşahidə olunur. Əsasən qədim dövrdən sonrakı yazı üsulu əsas götürülür [4, s. 5-8].

Qurani-kərimin yazıya alınması və onun müshəf şəklinə salınması elə bir dövrə təsadüf etmişdir ki, həmin vaxtda ərəb yazısı hərəkəsiz və nöqtəsiz idi. Lakin biz o yazı üsulundan danışırıq ki, sonrakı dövrdə artıq həm səsə, həm də hərəkəyə malikdir. Çünki ərəb xəttinin hərəkəsiz və nöqtəsiz olduğu bir dövrü keçdiyini tədqiqatlar artıq sübut etmişdir. Bu haqda çoxlu dəlillər gətirilmiş, bu məsələni tamami ilə dəqiqləşdirmiş və sözügedən faktı təsdiqləmək üçün bu gün əlimizdə Qurani-kərimin həmin dövrdə yazıya alınmış nüsxələri mövcuddur [3, s. 49].

Quran yazısının metodu dedikdə, əslində Qurani-kərimdə işlənən kəlimələrin yazılma tərzi nəzərdə tutulur. Qurani-kərim islam dininin nazil olunması ilə birlikdə çox böyük dəyişikliklər yaratmışdır və nəticədə yazı dar çərçivədən çıxaraq daha böyük istifadə səviyyəsinə ucalmışdır. Quran yazısının əlamətlərinin ərəb yazısına daxil edilməsi məsələsinə nəzər salsaq, qeyd edilməlidir ki, həmin əlamətlərin bir qismi "nuqtatul irab", digər qismi isə, bir şəkildə olub bir neçə səsi bildirən hərfləri bir-birindən fərqləndirən "nuqtatul icəm" adlandırılmışdır.

Nuqtatul-irab"haqqında əksər alimlərin fikri budur ki, onlar islamın zühurundan sonra ixtira edilmişdir. "Nuqtatul-icəm"ə gəldikdə, islamdan əvvəlki yazı nümunələrində onlara təsadüf edilməməsinə baxmayaraq, bəzi əvvəlki alimlər onların çox qədim olduğunu, hətta ərəb yazısının özü ilə birlikdə yarandığını iddia edirlər. Digər əksər dilçilər isə həmin nöqtələmə işini sonradan yaranmış hesab edir, onun hicrətin ilk əsrlərində kəşf edildiyini qeyd edir və bildirirlər ki, nöqtələr islamın zühurundan sonra ixtira edilərək hərflərə əlavə edilmişdir. Həmin alimlərin fikri bundan ibarətdir ki, islamdan əvvəlki yazı nümunələrinin heç birində bu nöqtələrə rast gəlinmədiyindən nöqtələr və digər əlavə işarələri cahiliyyət dövrünə və islamdan əvvəlki dövrlərə aid etmək olmaz.

Beləliklə, Qurandan sonra yaranmış elm intibahının inkişafında daha çox və intensiv şəkildə istifadə olunan Quran yazısı əsas mənbə rolunu oynamışdır.

Ərəb yazısının formalaşmasının əsasını ortaya qoyan Qurani-kərimlə yazını əlaqələndirmədən, yazı ilə tələffüz arasındakı sintezin mahiyyətini dərk etmək mümkünsüzdür. Buna misal olaraq, ərəb yazısında bu gün istifadə etdiyimiz hərəkələrin yaranma tarixini və yaxud bir sıra sözlərin tələffüz qaydasının müəyyənləşdirilməsini qeyd edə bilərik. Çünki, Qurani – kərimin inkişaf tarixini təhlil etmədən bu kimi məsələləri tam mənası ilə dərk etmək mümkün olmur və bir qədər naqis görünür bu məsələ. Bu o demək deyil ki, bu tədqiqat işi Qurani-kərim yazısının tədqiqi ilə bütünlüklə bağlıdır. Sadəcə təqdim edilən bu müasir metodun, yəni danışıqla yazı arasındakı sintezin müəyyən məqamlarının dərk olunmasında Qurani-

[118] BDU-nun Ərəb filologiyası kafedrasının magistrantı, Zeynalova.es96@gmail.com

kərimə müraciət olunmuşdur. Eyni zamanda, Qurani-kərimə müraciət olunmasındakı əsas məqsəd, əslində, ərəb yazısında formalaşmış müasir reallığın tarixi köklərini araşdırmaq olmuşdur [4, s. 12].

Ən qədim dövrlərdən günümüzə qədər bir çox əsaslı tədqiqatları ortaya qoya bilmək üçün Quran mənbə olaraq öz aktuallığını hər zaman qoruyub saxlamışdır. Belə ki, günümüzdə qiraət sisteminin tədqiqi, fərqləri, təhlili və şərhi üçün Quran yazısının fonetik – qrammatik xüsusiyyətləri tədqiq olunmuşdur. Xüsusən də, AH və NV qiraət sistemləri arasındakı fərqləri təhlil edib ortaya qoymaq üçün Quran yazısı leksik – qrammatik yöndən tədqiq və şərh olunmuşdur [1, s. 11].

Yazı elmi və onun əhəmiyyəti. Yazı elmini araşdıran tədqiqatçıları bu sual düşündürə bilər: "Elm sözünün yazı ilə bağlı olan mövzula aid edilməsi nə dərəcədə doğrudur?". Əgər elm sözü bir varlığın bir araya gətirdiyi hərtərəfli məsələ və prinsiplər qrupuna aiddirsə, o zaman terminin ifadəsi düzgündür. Çünki yazı elminin özünəməxsus xüsusiyyətlərinin olması şübhəsizdir. Belə ki, yazı ilə bağlı tədqiqatlar 2 yerə bölünür: 1) Hərflərin formalarının şəkilləndirilməsi və onları ahəngdar şəkildə, zövqü oxşayan tərzdə ifadə etməklə məşqul olan estetik [gözəllik] tədqiqat. Bu hissəyə ərəb yazı xətləri olan – Kufi, Nəsx, Nəstəliq, şikəstə, süls, divani, tuğra, reyhani və s kimi növləri aid etmək olar. 2) Yazı işarəsi ilə şifahi səs arasındakı əlaqənin öyrənilməsi ilə məşqul olan linqvistik tədqiqat. Bu tədqiqat növü danışığın yazı ilə nə dərəcədə uyğunluğunun olması, eyni zamanda onlar arasındakı fərqləri müəyyən etməklə məşqul olur. Bu uyğunluq dərəcəsinin nə qədər olması, yazının sərhədlərini də müəyyənləşdirir.

"Yazı elmi " adlanan məfhumun dərk edilməsi üçün bir neçə istilahlar müəyyənləşdirilmişdir. Yazı, heca, xətt, rəsm, imla buna misal ola bilər.

Bu istilahların yaranmasının qədimliyinə görə bölgü aparsaq, bunlardan ən qədim olanı - "كتاب" istilahıdır. Beləliklə o, "كتاب" (yazmaq) feilinin məsdəridir və bilavasitə yazı ilə bağlıdır [4, s. 11-12]. Professor Nəsrulla Məmmədov da" Qurani-kərimin orfoqrafik xüsusiyyətləri" kitabını yazarkən daha çox "رسم قران" istilahı ilə bağlı olan mənbələrə istinad etmişdir. Çünki sokral mətnlərə bağlı daha çox "رسم"istilahı işlənir. Nəsrulla müəllim yazdığı kitabı şərh edərkən, heç yerdə (كتابة مصحف) və yaxud (خط مصحف) adı altında bu haqda məlumata rast gəlmədiyini qeyd etmişdir. Onun tədqiqatına əsasən , ərəb dilinin yazısına aid olan mətnlərdə daha çox "رسم"istilahı işlədilir. "رسم"dedikdə burada yazının kağıza köçürülməsi nəzərdə tutulur. Buna bəzən "رسم الخط"da deyildiyini Nəsrulla müəllim fikirlərinə əlavə etmişdir. Ehtimal olunur ki, "كتبة"məfhumu hicrətin 1-ci əsrində, artıq ərəb dilinin təsbiti intişar tapdığı zamanda, xüsusi şəkildə istifadə olunub.

"Heca" və" xətt" istilahlarına gəlincə isə, ola bilər ki, onlar da yazı qaydalarının qeyd olunduğu ilkin əsərlərdə meydana çıxmışdır. "Rəsm" istilahına gəldikdə, o nisbətən sonrakı dövrlərdə meydana gəlmişdir. Belə ki, dil lüğətlərinin heç biri "rəsm " istilahının "xətt" ilə əlaqəli olmasını qeyd etmirlər. "Rəsm"in əsas mənası "iz"dir. Hər bir şeyin rəsmi – onun izidir. Ərəb dili alimləri tərəfindən "rəsm" istilahı yazı ilə əlaqədar olaraq daha geniş istifadə olunur.

"İmla" istilahının yazı ilə əlaqəsinə gəldikdə, o yazıdan əlavə bir şey deyildir. Onun ("imla" istilahının) yazı qaydaları ilə işlənməsinə gəldikdə, o, nisbətən sonrakı dövrlərə aiddir [4.s12-13].

Ərəb yazısının mənşəyi. Günümüzdə istifadə etdiyimiz ərəb yazısının mənşəyi haqqında danışmaq,bəzi alimlərə görə, "Müsnəd "kimi tanınan cənub ərəb qrafikası haqqında danışmaqla üst-üstə düşür. Buna görə də, oxucuya təqdim etməzdən əvvəl "Müsnəd "kəliməsi haqqında aydınlaşdırıcı izahlar vermək daha faydalıdır. "Müsnəd "kəliməsinin mənası qədim tarixçilər və dilçilər üçün aydın idi. İbn Mənzur demişdir: "Müsnəd, Himyarın bizimkilərdən fərqli bir növüdür. Onlar onu öz dövrlərində yazırdılar". İbn Xəldun deyir ki: "Əl-Müsnəd, Himyarın və qədim Yəmən xalqının yazısıdır. Sonrakı Mudar ərəblərin yazılarına aiddir". Bəzi tarixçilər Müsnədin İslamdan əvvəl istifadədən çıxdığını qeyd etmişlər. Bu, müasir alimlər tərəfindən təsdiqlənmişdir. Bu yazı növü ilə bağlı bir çox deyimlər mövcuddur. Həmçinin onun nə üçün məhz "Müsnəd " adlandırılması ilə bağlı da müxtəlif deyimlər mövcuddur.

"Müsnəd "qədim qələmlərdən biridir. İndiyə qədər Ərəbistan yarımadasında məlum olan ən qədim nümunədir. Görünür o, islamdan əvvəl bütün Ərəbistan yarımadasında tanınıb və bəlkə də əvvəllər ərəblərin ümumi qələmi olub. Bəzi hədis alimləri onu "ilk ərəb qələmi" adlandırırlar [4, s. 31-32].

Musnəd yazısı və digər Cənubi Ərəbistan yazıları Sinay xətt qrupuna daxil idi. Görünüş etibarilə müsnəd yazısı ərəb yazısından daha çox yəhudi yazısını xatırladır. Himyərlərin dili və musnəd yazısı təxminən X əsrə qədər mövcud olmuş, sonra Şimal ərəblərinin dili və yazısı onu üstələyib aradan çıxarmışdır [2].

Müsnəd aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

1. Müsnəd əlifbası ərəb əlifbası kimi ilkin olaraq 29 hərfdən ibarətdir. "Sin" və "şin" arasında əlavə bir hərflə oxunur.
2. Müsnəd sait və onun əlamətlərindən məhrumdur.
3. Müsnəd hərfləri ayrıca yazılır və bir söz digərindən şaquli xətlə ayrılır. Şimal müsnəd yazılarında ayırıcıya nadir hallarda rast gəlinir.
4. Müsnəd yazısı sağdan başlayıb solda bitir.
5. Vurğulanan hərf adətən iki dəfə yazılır [4, s. 30-33].

Qədim ərəb mənbələrində ümumilikdə yazının, xüsusən də ərəb qrafikasının üstünlüyü ilə bağlı kəlam və rəvayətlər yer alır. Lakin bu məsələ ilə bağlı rəvayətlər çox və İbn Farisin də dediyi kimi müxtəlifdir.

Ərəbşünas alim, Ğanim Qəduri bir çox müasir alimlərdən fərqli olaraq hesab edir ki, yazı bəzi indikativ əlamətlərdən xali deyil. Bir sıra müasir alimlər və tədqiqatçılar Müsnədin ərəb yazısının mənşəyi olduğu fikrini qəbul etmişlər.

Qədim yazıların tədqiqi genişləndikdən sonra, tədqiqatçıların əksəriyyəti onun nəbati yazısına əsaslanan ərəb yazısından və mənşəcə aramey dilindən gəldiyi nəzəriyyəsini qəbul etdilər. Semit əlifbaları sahəsini araşdıran tədqiqatçılar belə bir mülahizə irəli sürürlər ki, bizim indi istifadə etdiyimiz ərəb əlifbası qədim ərəblər tərəfindən Nəbatilər tərəfindən

uyğunlaşdırılmış aramey əlifbasıdır və onun orijinal ərəb əlifbası ilə heç bir əlaqəsi yoxdur, müsnəddir. Professor Əhməd Hüseyn Şərafəddinə görə, bu hökm son dərəcə ədalətsiz və özbaşınadır. Nəbati yazısı ilə bizim yazımız arasında əlaqə olduğu üçün, o, müsnədi inkişaf etdirmiş və ona hərfləri birləşdirmək xüsusiyyətini gətirmişdir [4, s. 35].

İstifadə edilmiş ədəbiyyat

1. Qaradağlı V. Quran qiraətlərinin fonetik-qrammatik xüsusiyyətləri (Həfs ilə Vərs qiraətləri əsasında). Bakı – 2023, 62 s.
2. Qasımova A. Ərəb yazısı və xəttatlıq sənəti // 525- ci qəzet, -2018. -8 dekabr. – s. 18-19
3. Məmmədov N. Qurani-kərimin orfoqrafik xüsusiyyətləri, Bakı: Elm, 2004, 200 səh.
4. علم كتابة العربية،غانم قدورى الحمد، تكريب ٣٠/محرم الحرام/١٣١٢ ه، ١٠/٧/١٩٩١ م.
5. https://nuhcixan.az/news/cemiyyet/8636-xettatliq-zovqlerin-incesi-yazilarin-incisi

Açar sözlər: yazı elmi, ərəb orfoqrafiyası, istilahlar, Qurani-kərim, Müsnəd yazısı

Ключевые слова: наука о письме, арабская орфография, термины, Священный Коран, письменность Муснад.

Key words: science of writing, Arabic orthography, terms, Holy Quran, Musnad writing

Xülasə

Yazı insanların həyatında böyük əhəmiyyətə malikdir. Çünki o, sivilizasiyanın adı və elmə aparan yoldur. Yazı dilin səslərini təmsil etmək üçün istifadə olunan simvollar sistemidir. Əsrlər boyu davam edən inkişaf yolu keçmişdir və hələ də inkişaf etməkdədir. Həmçinin yazı nitqin dəqiq təmsil edilməsini təmin edir. Yazıda olan hər hansı orfoqrafik səhv sözün yanlış anlaşılmasına gətirib çıxara bilər. Bu məqalədə ərəb yazı tarixindən bəhs edən tədqiqatlar arasındakı fərqllik prinsipləri, eyni zamanda ərəb yazısının tarixindən, mənşəyindən söhbət açan kitablarla bağlı çatışmazlıqlar və oxucu bu tədqiqatları oxuyarkən üzləşdiyi çətinliklərdən bəhs olunur. "Müshəf" adlanan qədim Quran yazı üslubunun xüsusiyyətləri təhlil olunmuş və qədim dövrdən sonrakı yazı üslubunun istifadə dairəsi haqqında qeyd olunmuşdur. "Elm" sözünün yazı ilə bağlılığının nə dərəcədə doğru olması və yazı elminin əhəmiyyətindən danışılır. Daha sonra ərəb yazısının mənşəyi haqqında alimlər arasındakı fikir ayrılıqları təhlil olunmuşdur. Məqalədə göstərilir ki, ərəb yazısının mənşəyi haqqında danışmaq,bəzi alimlərə görə, "Müsnəd "kimi tanınan cənub ərəb qrafikası haqqında danışmaqla üst-üstə düşdüyü üçün, oxucuya təqdim etməzdən əvvəl "Müsnəd "kəliməsi haqqında aydınlaşdırıcı izahlar vermək daha faydalıdır.

Резюме

Арабская письменность является одной из широко используемых письменностей. Поэтому оно вызвало большой интерес лингвистов, историков и каллиграфов. В результате появились книги и исследования, посвященные его пояснительным правилам. Несмотря на большое количество этих произведений, их различия по размеру и материалу, а также по современности и древности, все еще существует потребность в новых книгах, посвященных правилам письма в арабских библиотеках. Помимо письменных правил, необходимы книги, рассказывающие о зарождении арабской письменности и показывающие пути ее развития, уточняющие виды и формы шрифтов. Те книги, в которых исследователь может найти ответы на все вопросы по вопросам письма, читая эти книги.

В статье показано, что, поскольку разговор о происхождении арабской письменности, по мнению некоторых ученых, совпадает с разговором о южно-арабской письменности, известной как «Муснад», полезнее уточнить слово «Муснад», прежде чем знакомить его с читателем.

Summary

Arabic script is one of the widely used scripts. Therefore, it has caused the great interest of linguists, historians, and calligraphers. As a result, books and research works related to its explanatory rules have appeared. Despite the large number of these works, their differences in terms of size and material, as well as in terms of modernity and antiquity, there is still a need for new books dealing with writing rules in Arabic libraries. In addition to written rules, there is a need for books that talk about the origin of Arabic writing and show the ways of its development, and clarify the types and forms of fonts. Those books that the researcher can find answers to every question about writing issues while reading these books. The article shows that since talking about the origin of the Arabic script, according to some scholars, coincides with talking about the Southern Arabic script known as "Musnad", it is more useful to clarify the word "Musnad" before introducing it to the reader.

Rəyçi: dos. N.Əfəndiyeva

Sübhə Qismət qızı Aslanova [119]

KÖHNƏLMİŞ SÖZLƏRİN TƏDRİSİ YOLLARI

Dilin lüğət tərkibindəki bəzi sözlər zaman keçdikcə unudulur və ümumişlək xüsusiyyətini itirir. Belə sözlərə köhnəlmiş sözlər (arxaizmlər) deyilir. Keçmiş həyat və məişət tərzi ilə bağlı olan köhnəlmiş sözlər tarixizm adlanır. Məsələn: dəbilqə (dəmir papaq), çarıq (gön ayaqqabı), daqqa (dəri papaq), darğa (şəhər, vilayət hakimi), toppuz (başı girdə çomaq, qədim silah növü), güyüm (iri mis qab), təknə (ağac kötüyündən hazırlanmış iri qab), yasavul (keçmişdə polis nəfəri), girvənkə (çəki vahidi), xurcun (ikigözlü heybə - torba), kəndxuda (kəndin başçısı), baqqal (ərzaq malları satan dükançı) və s.

Klassik ədəbi əsərlərdə işlənən və hazırda unudulan köhnəlmiş sözlərə isə arxaizmlər deyilir. Məsələn: "Kitabi-Dədə Qorqud" dastanında, Q.Bürhanəddin və İ.Nəsimi şerlərində işlənən ayıtmaq (demək, söyləmək), tanıq (şahid), sayru (xəstə), güz (payız), us (ağıl), əsən (sağ, salamat), əsrük (sərxoş), altun (qızıl), damu və ya tamu (cəhənnəm), uçmaq (cənnət), ün (səs), nəsnə (şey), arı (təmiz), suç (günah), danla (sabah), duş (yuxu), ayaq (qədəh) və s. kimi sözlər arxaizmlərdir.

Dildə bu və ya başqa bir sözün köhnəlməsi olduqca mürəkkəb bir prosesin nəticəsidir. Buna görə də bu və ya digər sözün köhnəlməsi üçün süni olaraq sərhəd qoymaq mümkün deyildir. Söz dildə ya uzun illər fəal vahid kimi ömür sürür, ya da bəzi səbəblərlə əlaqədar olaraq müəyyən dövrdən sonra köhnələ bilir. Hər bir sözün taleyi onun ifadə etdiyi məna ilə, xidmət etdiyi xalqın düşüncəsi ilə bağlı olur. Bütün bunlara əsasən də sözün köhnəlməsi obyektiv qanunauyğunluq əsasında meydana çıxır.

Bəs köhnəlmiş sözlər necə müəyyən edilir? Bu qrup sözlərin müəyyənləşdirilməsi üçün əsas meyar dilin müasir vəziyyətidir. Köhnəlmiş hər bir söz dilin bugünkü vəziyyəti ilə yoxlanılır, onun nə dərəcədə işlənib-işlənmədiyi aydınlaşdırılır. Köhnəlmiş söz müəyyənləşdirilərkən tarixilik prinsipi əsas götürülür. Yəni hər bir fakta tarixilik cəhətdən yanaşılır. Məsələn, XIX əsrdə M.F.Axundovun əsərlərində yüz- başı, murov, yasavul və s. kimi sözlər işlənilmişdir. Bu sözlər hazırkı dövr üçün köhnəlmişdir. Lakin XIX əsrdə bunlar fəal istifadə olunan adi sözlər idi. Deməli, bu və ya başqa söz bir dövr üçün adi, digər dövr üçün arxaik ola bilər.

Orta məktəblərin dərsliklərində leksika bəhsi,eləcə də köhnəlmiş sözlər barəsində V sinif Azərbaycan dili dərsliyində "Niyə belə deyirik?" başlığı altında ilkin qısa məlumat və mətn üzrə çalışmalar verilmişdir. Verilən tapşırıqlar və nəzəri biliklər şagirdlərin yaş səviyyəsinə uyğun olsa da,yuxarı siniflərdə köhnəlmiş sözlər bəhsinə o qədər də toxunulmamış,bu bəhsin incəlikləri aşılanmamışdır. Dərs prosesi zamanı şəkillərdən, slaydlardan istifadə etmək dərsin daha fəal təşkilinə gətirib çıxaracaqdır. Tədqiqatın aparılması mərhələsində qruplarla iş üsulundan istifadə edərək şagirdləri 2 qrupa ayırmaq olar.

V sinif Azərbaycan dili dərslərində köhnəlmiş sözlərin tədrisi üçün 3 saat ayrilir. Bu dərslərdə ümumişləkliyini itirən, amma xalq yaradıcılığı nümunələrində həmişə yaçayan köhnəlmiş sözlər barəsində nəzəri informasiyalar verdikdən sonra mövzunun tamamən başa düşülməsi üçün ədəbiyyat dərslərinə inteqrasiya edərək aşıq yaradıcılığında özünü göstərən nümunələrə üz tuta bilərik.

Aşağıda eyler-venn diaqramına əsasən köhnəlmiş sözlərin ümumişlək sözlərlə ortaq və fərqli cəhətlərini mənimsəməyə xidmət edən tapşırıq nümunəsinə nəzər salaq.



Sözlər : *ayna,dəbilqə,əppək, kəpənək,ayaq,uçmaq,güz,əsr,abbası,masa, yarpaq,əsən,arı,ər*

Tapşırıq 1: Sözləri eyler-venn dairəsinə əsasən düzgün yerləşdirin

Yuxarıda göstərdiyimiz bu tapşırıq V sinif şagirdlərinin yaş səviyyəsinə uyğundur. Şagirdlərin müəllim tərəfindən verilən yeni məlumatları daha yaxşı mənimsəməsi üçün biliklərini tətbiq etməli olduğu tapşırığa nümunə ola bilər. Bu tapşırığın dərsin yaradıcı tətbiqetmə mərhələsində icrası məqsədəuyğundur. Köhnəlmiş sözlərin bəziləri hazırda dialektlərimizdə istifadə olunur. Bu sözlər bir zamanlar ədəbi dilimizdə istifadə olunmuş,daha sonra dildən çıxdığı üçün köhnəlmiş sözlər,ədəbi dildən çıxaraq müxtəlif dialektlərdə qaldığı üçün həm də dialekt sözlər hesab olunur. Nümunələrə diqqət edək düş-yuxu, anarı - o tərəf, becid-tez, əsrük-sərxoş, hancarı - necə və s. Bugün becid sözü Bakı, Naxçıvan dialekti də digər sözlər isə Qazax, Borçalı dialektlərində aktiv istifadə olunur.

Köhnəlmiş sözlərin tədrisi zamanı söz assosasiyası metodundan istifadə etmək olar. Bu üsuldan istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz (və ya söz birləşməsi) lövhəyə yazılır. Şagirdlər həmin söz ilə bağlı ilk xatırladıqları

[119] BakıDövlətUniversitetininmagistrantı. Email:subheaslan@gmail.com

fikirləri söyləyir və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər.

Dərsin motivasiya mərhələsində müəllim lövhəyə dinar ,dirhəm,abbası,axça kimi sözlər yazır və bu sözlərin oxşar cəhətlərini tapmaq şagirdlərə tapşırılır. Şagirdlər müxtəlif versiyalar irəli sürürlər. Bu versiyalar müzakirə olunur və nəticədə bu sözlərin hazırda heç birinin indiki dövrdə işləmədiyi qərarına gəlinir. Çünki bu sözlər tarixi,siyasi səbəblərdən dilimizdə bir müddət pul vahidi adları olmuş,sonra isə tarixin yaddaşına həkk olunmuşdur.

Tədqiqatın aparılması mərhələsində ANLAYIŞIN ÇIXARILMASI üsulundan da istifadə etmək dərsin mənimsənilməsini daha da asanlaşdırar. Bu üsul oyun- tapmaca formasında keçirilir və şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədə dairəvi kart asır, onun arxasında şagirdlərdən tələb olunan anlayışı yazır. Kartın yazı olmayan tərəfini şagirdlərə göstərir və gizlədilmiş anlayışların xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalayır və ya yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar. Əgər şagirdlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim əlavə olaraq yeni xüsusiyyətlər sadalayır.

Şagirdlər öz fərziyyələrini dedikdən sonra müəllim bu tapmacananın tapilib-tapilmamsını hamıya çatdırır və kartoçkalarda yazılan sözləri açıqlayır.

Müəllim lövhəyə və ya iş vərəqlərinə müxtəlif tarixizmlərin adlarını yazır və şagirdlər bu tarixizmlərin ortaq xüsusiyyətlərini tapırlar. Məs.

Əba, çuxa, çarıq, dəbilqə - geyim

Dinar, dirhəm, axça - pul vahidi

Onbaşı, minbaşı, xan, şah,vəzir - vəzifə

Belə ki, bu üsuldan həm qruplarla,həm də kollektivlə işləyərkən istifadə etmək olar. Söylədiklərimizə nümunələr əsasında aydınlıq gətirək: Arxaizm deyəndə bu gün dildə işlənməyən, lakin əvəzində onların mənasını verən sözlər nəzərdə tutulur. Yəni məna qalır, onu ifadə edən söz dəyişir. Məsələn: ayıtmaq (demək), əsən (sağ, salamat), uçmaq (cənnət), ayaq (qədəh), nəsnə (əşya), us (ağıl) və s.

Dövlət quruluşunun dəyişməsi, əmək prosesinin təkmilləşməsi ilə əlaqədar yaranan sözlər isə tarixizmlər adlanır. Tarixizmlərdə anlayışla yanaşı, onu ifadə edən söz də köhnəlir. Məsələn: xan, töycü, sovet, mülkədar, qlava, hampa, bolşevik, katta, menşevik, darğa, dinar və s.

Köhnəlmiş sözlərin bəziləri bu gün dialektlərdə də işlənir. Belə sözlər vaxtilə ədəbi dildə işlənib, sonra dildən çıxdığına görə həm köhnəlmiş sözlər, indi ədəbi dildə yox, ayrı-ayrı dialektlərdə yaşadığına görə həm də dialekt sözlər adlanır. Məsələn: hancarı (necə), duş (yuxu), əsrük (sərxoş), anarı (o tərəf), becid (tez- tələsik) və s. "Becid" sözü bu gün Bakı dialektində, qalan sözlər isə Qazax- Borçalı bölgəsində fəal işlənir

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev A. Orta məktəblərdə Azərbaycan dili tədrisinin metodikası. Baki, 1968, 262 s.
2. Balıyev H., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014, 384 s.
3. Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. Bakı, 2016, 403 s.
4. Həsənov M. Seçilmiş əsərləri. III cild. Bakı, 2013, 493 s.
6. Kərimov, Y.Ş. Ana dilinin tədrisi metodikası (Dərslik). Bakı: Kövsər, 2011, 564 s.

Açar sözlər: köhnəlmiş sözlər, tarixizm, arxaizm, təlim üsulları, venn diaqramı, anlayışın çıxarılması və s.

Ключевые слова: устаревшие слова, историзм, архаизм, методы обучения, диаграмма Венна, вывод понятия и т. Д.

Key words: obsolete words, historicism, archaism, training methods, Venn diagram, derivation of understanding, etc.

Xülasə

Dil ictimai hadisə olduğu üçün bütün tarixi hadisələr, cəmiyyətdəki dəyişikliklər onda əks olunur. Zamanla bəzi məfhumlar dəyişib yox olur, onları bildirən sözlər isə köhnələrək öz ümumişlək xüsusiyyətini itirir. Bu cür sözlər köhnəlmiş sözlər adlanır. Arxaizmlər yunan dilindən tərcümədə (archalos) "qədim" mənasını verən "archaşcos" sözündən əmələ gəlmişdir. "Arxaik" sözü mənşəcə yunan dilində "arxaios" (ilk, ən qədim) və "ikos" şəkilçisindən törəmişdir. Əslində, dilçilikdə arxaizmlər neologizmlərin antonimi olaraq qəbul edilə bilər. Dilin lüğət tərkibi daim dinamik və inkişafdadır. Sözlərin ümumişləklik xüsusiyyətinin itirilməsinin də bir sıra səbəbləri mövcuddur. Dövlət quruluşları, ictimai-siyasi funksiyalar dəyişib bir-birini əvəz etdikcə, onlarla bağlı sözlər də köhnəlir və sıradan çıxır. Məsələn: darğa, töycü, dinar, koxa, kətxuda, dirhərn, katta, şahı və s. İnsanların həyat və yaşayışı dəyişdikcə, Məsələn: arxalıq, təhnə, daqqal batman, çuxa, börk, əba, çarıq, xurcun və s. Elm və texnikanın inkişafı ilə əlaqədar olaraq; Məsələn: xış, mirab, mac, vəl, cu var, hodaq, qazalaq və s. Dilin özünün inkişaf etməsi və zənginləşməsi ilə əlaqədar sözlərin köhnəlməsi də arxaizmlərin yaranmasının növbəti səbəbidir. Məsələn: sayru (xəstə), güz (payız), gəz (dəfə), ün (sas), pitik (yazı), əsrük (sərxoş), uçmaq (cənnət), ayıtmaq (demək, söyləmək), alp(cəsur), suç (günah), tanıq (şahid), yağmalamaq (talamaq), yazı (çöl, düz) görkli (gözəl), us (ağıl), damu (cəhənnəm) və s.

Резюме

Поскольку язык является общественным явлением, в нем отражаются все исторические события, изменения в обществе. Со временем некоторые понятия меняются и исчезают, в то время как слова, обозначающие их, устаревают и теряют свой общий характер. Такие слова называются устаревшими словами. Архаизмы

образованы от слова “archaşcos”, что в переводе с греческого языка (archalos) означает “древний”. Слово “архаичный” происходит от греческого “archaios” (первый, самый старый) и суффикса “Ikos”. Фактически, в лингвистике архаизмы можно рассматривать как антонимы неологизмов. Словарный состав языка постоянно динамичен и развивается. Существует также ряд причин, по которым слова теряют свой характер общности. По мере того, как государственные структуры, общественно-политические функции меняются и сменяют друг друга, слова, связанные с ними, также устаревают и выходят из строя. Например: Дарга, тюджу, Динар, Коха, катхуда, дирхерн, катта, шахи и т. Д. По мере изменения быта и образа жизни людей, например: ардалык, тахна, даккал, Чуха, Берк, Аба, чарык, хурджун и др. В связи с развитием науки и техники; например: xish, mirab, Mac, val, cu var, hodaq, gazalaq и т. Д. Устаревание слов в связи с развитием и обогащением самого языка также является следующей причиной возникновения архаизмов. Например: сайру (больной), осень (осень), прогулка (раз), Ун (САС), питик (письмо), век (пьяный), летать (рай), просыпаться(сказать, сказать), Алып (храбрый), преступление (грех), таныг (свидетель), брызги (грабеж), письмо (степь, прямо) выдающийся (красивый), нас (разум), даму (ад) и т. Д.

Summary

Since language is a social phenomenon, all historical events, changes in society are reflected in it. Over time, some concepts change and disappear, and the words denoting them become old and lose their general character. Such words are called obsolete words. Archaisms are formed from the word “archashcos”, which in translation from Greek (archalos) means “ancient”. The word” archaic “originated from the Greek suffix” archaios “(the first, oldest) and” ikos”. In fact, in linguistics, archaisms can be considered as antonyms of neologisms. The vocabulary of the language is constantly dynamic and in development. There are also a number of reasons for the loss of the generality of words. As state structures and socio-political functions change and replace each other, so do the words associated with them. For example: Darga, töycü, dinar, kokha, katkhuda, dirharn, katta, Shahi, etc. As people’s lives and lives change, for example: archalig, tahnah, Dakal batman, Chukha, börk, ABA, chariq, khurjun, etc. In connection with the development of Science and technology; for example: khysh, mirab, mac, Val, cu var, hodaq, gazalaq, etc. The obsolescence of words in connection with the development and enrichment of the language itself is also another reason for the emergence of archaisms. For example: sayru (sick), fall (autumn), walk (times), reputation (sas), pitik (writing), asruk (drunk), fly (heaven), sober up (say, say), Alpine(brave), crime (sin), taniq (witness), looting (plunder), writing (steppe, flat) majestic (beautiful), us (mind), damu (hell), etc.

RƏYÇİ: dos. S.Abbasova

Rəna Namiq qızı Abbaslı [120]

İMADƏDDİN NƏSİMİNİN DİVANINDA /AB/ FARS SÖZÜ İLƏ İŞLƏNƏN TƏRKİBLƏR

Giriş. Azərbaycanın dahi şairlərindən biri [Şeyx Əli ibn Seyid Məhəmməd] İmamdədin Nəsimi XIV əsrdə yaşamış və öz əsərləri ilə həmin dövrə iz salmışdır. Bildiyimiz kimi İmadəddin Nəsimini mütəfəkkir şair kimi fərqləndirən əsas cəhətlərdən biri də XIV əsr üçün yeni ideologiya hesab edilən sufizm ideologiyasından çıxış etməsidir. Sufilik ideyası maddi aləmdən azad olub mənəvi aləmə yüksəlməyi əsas amil hesab edir. Alimlərin fikrinə görə sufilik müsəlmanın mənəvi axtarışının nəticəsidir. XIV əsrdə Azərbaycanda bu ideologiyanın geniş yayılması və bu günə qədər gəlib çatması İmadəddin Nəsiminin adı ilə bağlıdır. Biz bu gün sufizim cərəyanını araşdırdıqda mütləq İmadəddin Nəsiminin əsərlərinə müraciət edirik.

İmadəddin Nəsimi 3 dildə - fars, ərəb və türk dillərində misilsiz əsərlər yaratmışdır. Onun əsas üstün cəhətilərindən biri də yaşadığı coğrafiyada fars dilinin geniş yayılmasına baxmayaraq, öz ana dilimiz olan Azərbaycan dilində də əsərlər yazmasıdır. Onun 3 cildlik divanının ana dilində yazılması şairin həmin dövrdə Azərbaycan dilinə nə qədər önəm verməsinin bariz nümunəsidir. Bu divana nəzər salsaq görərik ki, əsərdə türk mənşəli sözlərdən başqa fars və ərəb mənşəli sözlərdən də geniş istifadə olunmuşdur. Bunun da əsas səbəbi ondan ibarətdi ki, həmin dövrdə ədəbi və rəsmi dil kimi fars dili aktual idi. Əsəri tədqiq etdikdə görərik ki, fars mənşəli sözlərlə yanaşı, söz birləşmələri və tərkiblər də işlənmişdir. Həmin tərkiblərdən biri də fars mənşəli /ab/- su, sözü ilə işlənən tərkiblərdir.

• آب حیات/abi-həyat/ – dirilik suyu

Bu söz birləşməsində I tərəf olan /ab/ sözü nitq hissəsi kimi isimdir və fars mənşəli sözdür, /həyat/ sözü isə nitq hissəsi kimi isimdir və ərəb mənşəli sözdür. /abi-həyat/ söz birləşməsinin mənası "dirilik suyu" deməkdir. Bu söz birləşməsi ilə əlaqədar bəzi əfsanələr mövcuddur. Əfsanəyə görə bu suyu içən həmişəlik diri qalar, əfsanəvi şəxsiyyət olan Xızır (bir çox mənbələrdə peyğəmbər adlanır) bu sudan içmiş, həmişəlik ölümsüzlüyə qovuşmuş və diri qalmışdır. Bundan əlavə - dini əfsanələrə görə cənnətdə olan Kövsər çayının suyu; həyat suyu, dirilik suyu. [3, s.18].

ای نسیمی سوزنکدر **آب حیات**
ایچمیان آنی قالدی فی الظلمات[6, s.11]
(Ey Nəsimi, sözündür **abi-həyat,**
İçməyən anı qaldı fizzülmat) [5. s. 250]

نون نهان اولدی لبنکدن چشمهٔ **آب حیات**
هر کم ایچدی واجب اولدی جنّت المأوی انکا[6, s.34]
(Nun – Nihan oldu ləbindən çeşmeyi-**abi-həyat,**
Hər kim içdi, vacib oldu cənnətül-mə'va ona) [5,s. 217]

عرض قیلسم قامتکدنک حشر اولوریوم القیام
سویلسنک کوثر لبنکدن محو اولور **آب حیات**[6, s.74]
(Ərz qılsam qamətindən, həşr olur yövmül-qiyam,
Söyləsəm kövsər ləbindən, məhv olur **abi-həyat**) [4, s. 293]

کوثرنک عینندن آخر چشمهٔ **آب حیات**
ظلمتونک دور انی کچدی آره دن کتدی ممات[6, s.78]
(Kövsərin eynindən axır çeşmeyi-**abi-həyat**,
Zülmətin dövranı keçdi, aradan getdi məmat) [5, s. 187]

چشمهٔ حیوان منم منده در **آب حیات**
دور نیجه بر یاته سن فی الظلمات الممات[6, s.81]
(Çeşmeyi-heyvan mənəm, məndədir **abi-həyat**,
Dur necə bir yatəsən fiz-zülmətil-məmat) [5, s. 181]

شریعت امرنی مرشد ایدن طریقته کیر
کم اول طریقتله سن ایچه سن **آب حیات**[6, s.87]
(Şəriət əmrini mürşid edən təriqətə gir,
Kim, ol təriqət ilə sən içəsən **abi-həyat**) [5, s. 183]

آب حیاته ایرشن بولدی حیات جاودان
ظلمت ایچنده قالننک عظم رمیم ایچنده در[6, s.142]
(**Abi-həyata**irişənbulduhəyati-cavidan,
Zülmətiçindəqalanıəzmi-rəmimiçindədir) [4, s. 273]

وصلنکده زنده اولدی نسیمی الی الابد
آب حیاتهواصل اولان جاودان اولور[6, s.186]
(Vəslində zində oldu Nəsimi ilə-əbəd,
Abi-həyatavasilolancavidanolur) [4, s. 224]

لبنک قتنده کم آندن اوتندی **آب حیات**
شکر سوزن نه دیم کم مکرر اولمشدر[6, s.187]
(Ləbinqatındaki, andanutandı**abi-həyat**,

[120] İ.Nəsimi adına Dilçilik institutunun əməkdaşı, BDU-nun magistrantı. renaabbasli@yandex.ru

Şəkərsözünnə deyim, çünmükərrərolmuşdur) [4, s. 227]

•آب حیوان/abi-heyvan/ – dirilik suyu

Bu söz birləşməsində I tərəf olan /ab/ sözü nitq hissəsi kimi isimdir və fars mənşəli sözdür, /heyvan/ sözü isə nitq hissəsi kimi isimdir və ərəb mənşəli sözdür.

Bu söz də /abi-həyat/ sözünün sinonimidir və "dirilik suyu" mənasını verir[1, s. 7].

آب حیواندر دوداغنک روح قدسیدرد منک
صورت حقّدر یوزنک و الله اعلم با لصّواب[6, s.60]
(**Abi-heyvandır** dodağın, ruhi-qüdsidir dəmin,
Surətin həqdir, üzün – vəllahu ə'ləm bis-səvab) [4, s. 22]

بویونک طوبی دوداغنک **آب حیوان**
رخنکدر جنّت و جنّتده کی حور[6, s.113]
(Boyun tuba, dodağın**abi-heyvan**,
Rüxündürcənnəti-ədnüxətinhur) [5, s. 196]

لعل لبنک تفسیرینی سویلر نسمی جانلره
شول رسمله کم صانه سن خضر **آب حیوان**آخیدر[6, s.159]
(Lə'li-ləbin təfsirini söylər Nəsimi canlara,
Şol rəsm ilən kim, sanasan Xızr **abi-heyvan** axıdar) [4, s. 195]

کر سنی آرزولرم ایجان و جانانم نولا
تشنهٔ وصلنک نکار**آب حیوان** آرزولر[6, s.160]
(Gərsəniarzularam, ey canücananım, nola,
Təşneyi-vəslin, nigara, **abi-heyvan**arzular) [4, s. 200]

*آب حیوان*در دوداغی کندوحی جاودان
نفخهٔ عیسی باغشلر اول لب احیایی کور[6, s.172]
(**Abi-heyvandır** dodağı kəndi həyyi-cümlədən
Nəfxeyi-İsa bağışlar ol ləbi-əhyayı gör) [5, s. 141]

•آب روان/abi-rəvan/ – axar su

Bu söz birləşməsində /ab/ sözü nitq hissəsi kimi isimdir və fars mənşəli sözdür, /rəvan/ sözü isə nitq hissəsi kimi feili sifətdir və fars mənşəli sözdür[1, s. 7].

می و معشوق (ونی له) **آب روان**
بندغمدن بودردویردی نجات[6, s.70]
(Meyü mə'şuq, səbzə, **abi-rəvan**
Bəndi-qəmdən bu dördü verdi nəcat) [5, s. 258]

عینیم ایچنده قامتنک سدره سی مسکن ایلدی
سدره هم آنده یارشور که **آب روان**ایچنده در[6, s.137]
(Eynim içində qamətin sidrəsi məskən eylədi,
Sidrə həm anda yaraşır k'**abi-rəvan** içindədir) [4, s. 271]

•آب کوثر (abi-kövsər) - cənnət çeşməsi, cənnət suyu; içki

Bu söz birləşməsində I tərəf olan /ab/ sözü nitq hissəsi kimi isimdir və fars mənşəli sözdür, /kövsər/ sözü isə nitq hissəsi kimi isimdir və ərəb mənşəli sözdür [2, s. 50].

الم نشرح صاچنک و الّشمس آلننک
بویونک طوبی لبونکدی **آب کوثر**[6, s.122]
(Ələm nəşrəh saçın, vəş-şəms alnın,
Boyun Tuba, ləbindir**abi-kövsər**) [4, s. 243]

ای نسیمی **آب کوثر**در مکر نطقنکده کیم
هر کیم ایچر اول شرابی مست جاویدان اولور[6, s.184]
(Ey Nəsimi, **abi-kövsərdir** məgər nitqində kim,
Hər kim içər ol şərabı, məsti-cavidan olur) [5, s. 134]

•آب زلال /abi-zülal/– sərin; duru su; şəffaf, təmiz su

Bu söz birləşməsində I tərəf olan /ab/ sözü nitq hissəsi kimi isimdir və fars mənşəli sözdür, /zülal/ sözü isə nitq hissəsi kimi isimdir və ərəb mənşəli sözdür[3, s.18].

یاندردی شوقنک بغرمی کور اوش دوتشدی کم نجه
جانم صوصامشدر لبنک **آب زلالن** آرزولر[6, s.162]
(Yandırdı şövqün bağrımı, gör tabişindən kim, necə
Canım susamışdır, ləbin **abi-zülalın** arzular) [4, s. 201]

Nəticə.Nəsiminin əsərlərinə nəzər saldıqda ərəb, fars sözləri ilə kifayət qədər zəngin olduğunu görürük. Bunun əsas səbəbi kimi klassik dövrün rəsmi dilinin ərəb dili daha sonra isə fars dili olması ilə əlaqədardır. Fars dili rəsmi dil olduqdan sonra janr olaraq fars janrı, üslub olaraq fars üslubu, vəzn olaraq fars vəzni ədəbiyyata daxil olmuşdur. Axıcı olan fars dili eyni zamanda poeziya dili də adlandırılır. Əsərdə fars mənşəli /ab/ sözünə rast gəldik. /ab/ sözünün leksik mənası "su" deməkdir və nitq hissəsi kimi əsas nitq hissəsi olan isimin xüsusiyyətlərini özündə daşıyır. Biz bu araşdırmada fars mənşəli

/ab/ - su sözünün 5 tərkibini araşdırdıq. Şairin üslubunda bu tərkiblərdən hansının daha çox işləndiyini, başqa sözlə işlənmə tezliyini yoxlasaq bu rəqəmlərin aşağıdakı kimi olduğunu görərik:

1.حیات آب/abi-həyat/ – dirilik suyu - 9
2.آب حیوان /abi-heyvan/ – dirilik suyu - 5
3.آب روان /abi-rəvan/ – axar su -2
4.آب کوثر /abi-kövsər/ - cənnət çeşməsi, cənnət suyu - 2
5. آب زلال (abi-zülal) – sərin; duru su; şəffaf, təmiz su -1

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev B., ƏsgərliM., ZərinəzadəH. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. I cild. Bakı: Şərq-Qərb, 2005, 416 s.
2. QəhrəmanovC. Nəsimi"Divan"ının leksikası.Bakı: Elm və təhsil, 2019, 650 s.
3. MəzəmliF. Azərbaycan dilində fars sözləri lüğəti. Bakı: Çıraq, 2004,199 s.
4. AraslıH. Nəsimi. Seçilmiş əsərləri: iki cilddə, I cild, Bakı: Lider, 2004, 336 s.
5. AraslıH. Nəsimi. Seçilmiş əsərləri: iki cilddə, II cild, Bakı: Lider, 2004, 377s.
6. İmadəddin Nəsimi. "Divan". I cild. Bakı: Elm, 1973, 572 s.

Açar sözlər: İmaməddin Nəsimi, ab tərkibli sözlər, abi həyat, abi rəvan

Ключевые слова: Имамеддин Насими, слова содеращие аб, живительная вода, живатверная сила

Key words: ImameddinNasimi, words containing ab, life-giving water, life-giving power.

Xülasə

İmadəddin Nəsimi XIV əsrdə yazıb yaradan mütəfəkkir şair olmuşdur. Onun əsərləri öz düşüncə tərzinə və ideologiyasına görə digər şairlərdən xeyli fərqlənir. Bildiyimiz kimi İmadəddin Nəsimi ilk sufi şairi olmuşdur. İmadəddin Nəsiminin zəngin dil üslubu vardır. Onun əsərlərində söz birləşmələri, frajeoloji birləşmələr və tərkiblərdən geniş istifadə olunmuşdur. İmadəddin Nəsiminin ana dilində yazdığı 3 cildlik divanını tədqiq edən zaman fars mənşəli /ab/ - "su" sözünün tərkiblərlə işlədilməsinə nəzər saldıq. Biz bu araşdırmada 5 tərkib hissəsini tədqiq etdik. Əlbəttə İmadəddin Nəsiminin 3 cildlik ana dilli divanı söz birləşmələri, tərkiblərlə zəngindir, lakin məqalənin həcmini nəzərə alaraq hələlik /ab/ ismini işlədildiyi 5 tərkiblə divandakı beytlər daxilindən seçib tədqiq etdik.

Словосочетания с персидским словом /ab/ в диване ИмадеддинаНасими

Резюме

Имададдин Насими был поэтом-мыслителем, писавшим и творившим в XIV веке. Его произведения сильно отличаются от других поэтов своим образом мышления и мировоззрением. Как мы знаем, Имадедин Насими был первым суфийским поэтом. Имададдин Насими обладает богатым языковым стилем. В его произведениях широко используются словосочетания, фразеологические сочетания и композиции. Изучая 3-томный диван, написанный Имадеддином Насими на его родном языке, мы обратили внимание на употребление персидского слова /ab/ – «вода» с соединениями. В этом исследовании мы рассмотрели 5 ингредиентов. Конечно, 3-х томный диван Имадеддина Насими на его родном языке богат словосочетаниями и составными частями, но учитывая размер статьи, мы пока отобрали и изучили стихи в диване с 5-ю словосочетаниями, в которых существительное / ab/ используется.

Used with the persion word /ab/ combination in ImadaddinNasimi's Diwan

Summary

İmadaddinNasimi was a poet-thinker who wrote and created in the 14th century. His works are very different from other poets in their way of thinking and worldview. As we know, ImadedinNasimi was the first Sufi poet. ImadaddinNasimi has a rich linguistic style. His works widely use phrases, phraseological combinations and compositions. While studying the 3-volume divan written by ImadeddinNasimi in his native language, we noticed the use of the Persian word /ab/ - "water" with compounds. In this study we looked at 5 ingredients. Of course, the 3-volume diwan of ImadeddinNasimi in his native language is rich in phrases and compounds, but given the size of the article, we have so far selected and studied the poems in the diwan with 5 phrases in which the noun /ab/ is used.

RƏYÇİ: dos. E.Vəliyeva

Sübhə Qismət qızı Aslanova [121]

NİTQİN İNKİŞAFINDA OMONİM, SİNONİM VƏ ANTONİMLƏRİN TƏDRİSİNİN ROLU

Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi nitq vərdişlərinin inkişaf etdirilməsi üçün semantik məna növlərinin şagirdlərə mənimsənilməsinin müstəsna rolu vardır. Məlumdur, ki, insanlar nitqin köməyi ilə öz təəssüratlarını mübadilə etmək, bir- birini başa düşməklə yanaşı, həm də öz arzu və istəklərini ifadə edirlər. Nitq insanların bir-birinə qarşılıqlı təsir göstərmələri üçün güclü vasitədir. Söz adamlarda inam yaradır, onları əməyə, qəhrəmanlığa çağırır, pis əməllərdən çəkindirir, sevindirir, ağladır, güldürür və s. Təfəkkürlə bilavasitə bağlı olan nitq iki funksiyanı yerinə yetirir o, bir tərəfdən başqaları ilə ünsiyyət vasitəsidir, digər tərəfdən, təfəkkür formasıdır.Belə ki, insan daxili nitqin köməyi ilə sözlərlə fikirləşir. Ana dili məktəbəqədər yaşlı uşaqların əqli və əxlaqi tərbiyəsinin mənbəyi və vasitəsidir. Uşaq adətən iki yaşından danışmağa başlayır və 6-7 yaşında artıq ətrafındakılarla tam ünsiyyət saxlaya bilir. Uşağın nitqinin inkişafı onun ana dilinə yiyələnməsi deməkdir. Nitqin fornalaşması bu dövrdə ana dilini heç bir şey əvəz edə bilməz. Ana dili uşağı onu əhatə edən adamların xarakteri ilə içərisində yaşadığı cəmiyyətlə onun tarixi ilə onun istəkləri ilə heç bir tarixçinin tanış edə bilmədiyi şəkildə tanış edir. Buna görə də uşaqların düzgün rabitəli və ifadəli nitqə yiyələnmələri məktəbəqədər tərbiyənin başlıca vəzifələrindən biridir.

Nitq bacarıqlarının inkişaf etdirilməsi məsələsinə ümumtəhsil məktəblərində də böyük önəm verilir. Ümumtəhsil məktəblərinin tədris olunan bütün fənlərin əsas məqsədlərindən biri şagirdin nitq bacarıqlarını inkişaf etdirmək, şagirdlərin fikirlərini sərbəst şəkildə, dolğun və aydın nitqlə ifadə etmək bacarıqları formalaşdırmaqdır. Bu istiqamətdə bütün fənn müəllimləri fəaliyyət göstərməlidir. Lakin bu istiqamətdə əsas yük Azərbaycan dili və ədəbiyyatı fənni müəllimlərinin üzərinə düşür.

Şagirdlərinin söz ehtiyatının zənginləşdirilməsi,nitq bacarıqlarının inkişaf etdirilməsi üçün dilçiliyin ən maraqlı bölmələrindən biri olan leksikologiyanın əvəzsiz rolu var. Nitq bacarıqları yanandan bəri fikirlərimizi sözlərlə ifadə edirik. Leksikologiya bölməsində sözlərin məna rəngarəngliyi - həqiqi və məcazi mənası, yaxın və əks mənası, leksik və qrammatik mənası, ilkin və törəmə mənası və s tədris olunur . Ümumtəhsil məktəblərində şagirdlərin nitq bacarıqlarının inkişafına xidmət edən,leksikologiyanın bir bölməsi olan omonimlər sinonimlər və antonimlərlə eyni dərəcədə tədris olunmalıdır. Lakin məktəblərdə, eləcə də qəbul imtahanlarında omonimlərdən geniş bəhs olunur. Bir çox dünya dilçiləri kimi Azərbaycan dilçilərinin də diqqətini omonimlər daha çox cəlb edir. Bu sahədə geniş tədqiqatlar aparılır. Bu tədqiqatçılararasında Həsrət Həsənov daha çox seçilir. Onun hazırladığı omonimlər lüğitində bir çox problemlər həll olunmuşdur. Şagirdlərin omonim mövzusunun mənimsədilməsi zamanı qarşılaşdığı çətinliklərdən biri omonim sözlərlə çöxmənalı sözlərin qarışdırılmasıdır. Çünki hər iki məna qrupuna daxil olan sözlərin deyilişi və yazılışı eynidir. Bəzən isə bir sözün həm omonim, həm də çoxmənalı olması bu bəhsin mənimsədilməsində çətinliklər yaradır. Yaranan çətinliyi aradan qaldırmaq üçün müəllim bu məna qruplarını daha rahat şəkildə fərqləndirə biləcək üsullar tapmalıdır. Belə ki, çoxmənalı sözlərlə omonimləei fərqləndirən əsas xüsusiyyətlər aşağıdakılardır.

1. Çoxmənalı sözlərdən fərqlinolaraq omonimlər yalnız həqiqi mənada olur
2. Omonimlər həm fərqli, həm də eyni nitq hissəsinə aid ola bildiyi halda,çoxmənalı sözlər yalnız eyni nitq hissəsinə aid olmalıdır. Məs.: kök (tərəvəz) - kök(ağac kökü) – kök (əlamət bildirən sifət); ayaq (insan ayağı) - ayaq(kəndin ayağı). Göründüyü kimi birinci nümunədəki omonimlər müxtəlif nitq hissələrinə, ikinci nümunədəki çoxmənalı sözlər isə eyni nitq hissəsinə aiddir.
3. Omonimlər tamamilə fərqli mənaları bildirir, lakin çoxmənalı sözlərdə törəmə məna ilə ilkin məna arasında semantik baölılıq özünü göstərir.
4. Çoxmənalı sözlər lüğətlərdə bir sözlə özünü göstərsə də, omonimlərin hər mənası ayrılıqda göstərilir.
5. Çoxmənalı isimlər, əsasən, bədən üzvləri ilə bağlıolan sözlərdir.
6. Omonimləri ayrı leksik vahid hesab edirik,çoxmənalı sözlər isə bir leksik vahid kimi qəbul olunur.

Bu siyahını daha da uzatmaq olar. Bu fərqləri yadda saxlayan şagird omonimlələ çoxmənalı sözləri asanlıqla fərqləndilə biləcək.

Omonimləri tədris edən zaman slaydlardan,iş vərəqlərindən,şəkillərdən,dərslik və metodik vəsaitlərdən istisafadə etmək dərsi daha səmərəli hala gətirir.

Gəlin həm omonim,həm də çoxmənalı sözləri mənimsətməyə xidmət edən tapşırıq nümunəsinə baxaq.

Dərsin qiymətləndirmə mərhələsini təyin edən meyarlar aşağıdakı kimi ola bilər. Omonim sözləri müəyyənləşdirir, fərqləndirir Omonimləri çoxmənalı sözlərdən ərqləndirməyi bacarır. Əməkdaşlıq. Tapşırığın vaxtında təqdim olunması.



[121] BDU-nun magistrantı, subheaslan@gmail.com

Sinonim sözü yunan mənşəli sözdür, tərcümədə eyni ad mənasını verir. Sinonimlər fərqli formada yazılan, tələffüz edilən, lakin məna cəhətdən eyni və ya yaxın olan sözlərə deyilir. Sinonimlər də digər semantik növlər kimi orta məktəbin V sinfində tədris olunur. Sinonimlərin tədrisinin nitqin zənginləşməsində böyük rolu vardır. Sinonimlərin arasında bənzərlik olsada,hər sinonim fərqli fikri ifadə zənginliyinə,istifadə olunma səviyyəsinə görə fərqlənirlər. Biz hər yaxın və ya oxşar mənalı sözü sinonim götürməməliyik. Sinonimlərin də özünəməxsus qanunauyğunluqları vardır. Sinonim sözlər yalnız eyni nitq hissəsinə aid olmalıdır. Yəni biz qorxmaz sifəti ilə qorxmayan feili sifətini mənaları eyni olsa da sinonim kimi hesab edə bilmərik. Sinonim sözlərin kökləri eyni ola bilməz. Yəni biz bamәzə və məzəli spzlərini eyni mənada olmasına baxmayaraq, eyniköklü olduğu üçün sinonim hesab edə bilmərik.

Sinonim sözlərdən bədii ədəbiyyatda sözlərin, ifadələrin təsir gücünü artırmaq məqsədilə istifadə edilir. Sinonimlər lüğət tərkibinin zəngin olduğunu göstərən əsas ünsürlərdəndir. Sinonimlər eyni anlayışı ifadə etsə də,müəyyən qədər məna çalarlarında fərqlilik müşahidə olunur. Bu səbəbdən də sinonimlər eyni və yaxın mənada olmasına görə 2 yerə bölünür: nisbi



və mütləq sinonimlər Mütləq sinonimlərə dubletlər də deyilir.

Nisbi sinonimlər hər zaman bir-birini əvəz edə bilməyən,mətndə yerinə görə bir-birini əvəz edən sinonimlərdir. Məs.: ürək, könül, qəlb sözləri bir-biri ilə nisbi sinonim hesab olunur. Çünki bu sözlər bir-birinin ekvivalenti deyil. Onun ürəyi ağrıyır cümləsində ürək sözünü könül,yaxud da qəlb sözü ilə əvəz etmək olmaz. Lakin Arazın ürəyi yaralıdır cümləsində biz ürək sözünü sinonimləri ilə əvəz edə bilərik. Mütləq sinonimlər isə hər zaman bir-birini əvəz edə bilən sinonimlərdir. Bu sözlərə nümunə kimi eynək, çeşmək, gözlük sözlərini göstərmək olar.

Orta məktəblərdə sinonimlərin tədrisi şagirdlərin nitqinin zənginləşdirilməsinə xidmət göstərir. Sözün leksik mənasını izah etmə yollarından biri kimi həmin sözün sinonimini qeyd etmək lazımdır. Bəzən elə hallar baş verir ki, bir anlayışı ifadə edən söz dilimizdə olduğu halda yad dildən bu ifadəyə sinonim söz yaranır və nəticədə dildə yersiz təkrarlar əmələ gəlir. Tədris zamanı şagird bilməlidir ki, sinonimlər bəhsi ona nə üçün tədris olunur, sinonimləri bilmək nə üçün vacibdir? Müəllim şagirdlərə izah etməlidir ki,sinonimlər nitqin zənginləşməsinə,söz ehtiyatının artmasına zəmin yaradır. Biz sinonim sözlərdən yerində istifadə etməklə nitqimizi fikirlərimizi daha dolğun və zəngin şəkildə ifadə edə bilərik. Dərsin motivasiya mərhələsində aşağıdakı kimi tapşırıq nümunələrindən istifadə etmək olar. Bu tipli tapşırıqlar məntiqi təfəkkürü inkişaf etdirir,şagirdlərdən daha çox diqqət tələb edir. Eyni zamanda tapşırığın həlli əyləncəli tipdə olduğu üçün sözlərin sinoniminin daha tez qavranılmasına şərait yaradır. Sinonimlərin tədrisi zamanı komandalar şəklində işləmək, fikir mübadiləsi aparmaq dərsin daha fəal keçməsinə gətirib çıxarır.

Bütün nitq hissələrində sinonimlərə rast gəlmək mümkündür. Lakin əsasən, isim, sifət və feillərdə sinonimlərin daha çox olduğunu müşahidə edirik. Sinonimlər yalnız quruluşca sadə olmur, düzəltmə və mürəkkəb sinonimlər də dilimizdə az deyil. Belə olan halda sözdüzəldici şəkilçilər vasitəsilə sinonim sözləri yaratmaq olar. Bununla bağlı aşağıdakı tapşırığa diqqət edək. Boşluğa elə şəkilçilər yazın ki, sinonim cütlüyü yaransın.

İri-böyü...(k) şor-duz...(suz)
əlvan-rəng... (li) möhkəm-güc...(lü)
geniş-en...(li) qoca-yaş....(lı)
savad-bil...(ik) dar-en...(li)

Antonimlər əks mənalı sözlərdir. Qeyd edək ki, sözün leksik mənasının izah olunmayollarından biri də onun antonimini müəyyən etməkdir.

Antonimlərin də özünəməxsus xüsusiyyətləri vardır. Sinonimlər kimi antonimlər də yalnız eyni nitq hissəsinə aid olmalıdır. Məs., Çalışan və tənbəl sözləri bir-birinə zidd mənalar bildirsə də, fərqli nitq hissəsinə aid olduqları üçün antonim sözlər hesab olunur.Biz eyniköklü sözləri antonim hesab edə bilmərik. Məs.: ağıllı-ağılsız sözləri antonim hesab olunmaz. Feilin inkarlıq kateqoriyası yaradan –ma, -mə şəkilçisi antonim yaratmaz. yazmaq-yazmamaq sözləri antonim deyil, bu sözün doğru antonimi pozmaqdır. Antonimlərə bütün nitq hissələrində rast gəlinir. Bədii ədəbiyyatda antonimlərdən təzad yaratmaq üçün istifadə edilir. Frazeoloji birləşmələr arasında da antonimlik özünü göstərir. Bu mövzu orta məktəblərin V sinif dərsliklərində Leksikologiya bölməsində tədris olunur. Antonimləri şagirdlərə izah edərkən təbiətdə hər hadisənin əksinin olduğunu, insanın hisslərinin ziddiyyətli olduğunu, fəsillərdə özünü göstərən ziddiyyətli xüsusiyyətləri,günün hissələrini (gecə, gündüz, sıhır, axşam)dünyanın şimal və cənub qütbünü,şərq və qərb yarımkürələrini və s nümunələr göstərməklə bu anlayışları ifadə edən sözlər-antonimlər barəsində ilkin məlumat vermək olar. Sinonim, antonim, çoxmənalı və omonim sözlərin tədrisi zamanı sual-cavab,söz asossasiyası, müzakirə kimi tədris üsullarından istifasə etmək olar. Söz

asossasiyası üsulunun tətbiqi ilə verilən tapşırıq nümunəsinə nəzər salaq. *Gördüyünüz işarələri bir sözlə ifadə edin. İfadə etdiyiniz sözlər bir-birilə yaxın mənalıdır,yoxsa əksmənalıdır?*

Antonim sözlərə bədii ədəbiyyatda da tez-tez rast gəlirik. Bu səbəbdən də mövzunun dərindən mənimsədilməsi üçün ədəbiyyat dərslərinə inteqrasiya etmək daha məqsədəuyğun olar.Bundan əlavə şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirmək üçün aşağıdakı tapşırıq nümunəsi uğurlu hesab oluna bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasova Ş., Mərdanova S., Manaflı X. Azərbaycan dili və nitq mədəniyyəti (dərslik). Bakı, 2016
2. Abdinova R., Hüseynova N. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Elm və Təhsil, 2021, 448 s.
3. Axundov A. Dil və mədəniyyət. Bakı: Yazıçı, 1992, 192 s.
4. Axundov A. Ümumi dilçilik, Bakı: Şərq-Qərb, 2016, 280 s.
5. Azərbaycan dili 5-ci sinif dərsliyi. Bakı ,2018
6. Balıyev H. Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2003
7. Balıyev H. Azərbaycan dilinin tədrisi metodikasından bəzi mühazirələr. Bakı, 2007, 419 s.
8. Balıyev H. Ana dilinin tədrisi metodikası. Bakı: Maarif, 1997, 476 s.

Açar sözlər: Sinonim, omonim, antonim, çoxmənalı sözlər, təlim

Key words: synonym, homonym, antonym, polysemantic words, training

Ключевые слова: синонимы, омонимы, антонимы, многозначные слова, обучение

Xülasə

Orta məktəblərdə tədris olunan bütün fənlərin qarşısında dayanan əsas məqsədlərdən biri şagirdlərdə nitq bacarıqlarının inkişaf etdirilməsidir. Bütün fənn müəllimləri bu məsələdə məsuliyyət daşıyır. Lakin bu istiqamətdə əsas yük Azərbaycan dili və ədəbiyyatı fənni müəllimlərinin üzərinə düşür. Şagirdlərin nitqinin inkişaf etdirilməsi, lüğət ehtiyatının zənginləşdirilməsi üçün dilçiliyin ən maraqlı şöbələrindən biri olan leksikologiyanın tədris olunmasının əvəzsiz rolu vardır. Leksikologiya bölməsində sözlərin məna rəngarəngliyi - həqiqi və məcazi mənası, yaxın və əks mənası, leksik və qrammatik mənası, ilkin və törəmə mənası və s. tədris olunur.

Резюме

Одной из основных целей, стоящих перед всеми предметами, преподаваемыми в средних школах, является развитие речевых навыков у учащихся. Все учителя-предметники несут ответственность в этом вопросе. Однако основная нагрузка в этом направлении ложится на учителей Азербайджанского языка и литературы. Неоценимую роль для развития речи учащихся, обогащения словарного запаса играет преподавание лексикологии-одного из самых интересных разделов языкознания. Многообразие значений слов в разделе лексикологии - их истинное и переносное значение, близкое и противоположное значение, лексико-грамматическое значение,первичное и производное значение, омонимы и т.д. это преподается.

Summary

One of the main goals facing all subjects taught in secondary schools is the development of speech skills in students. All subject teachers are responsible in this matter. But the main burden in this direction falls on the teachers of the Azerbaijani language and literature. Teaching lexicology, one of the most interesting departments of linguistics, has an invaluable role in developing students speech and enriching vocabulary. The lexicology section includes the variety of meanings of words - real and figurative meaning, close and opposite meaning, lexical and grammatical meaning,initial and derivative meaning, homonyms, etc. it is taught.

RƏYÇİ: dos. N.Əfəndiyeva

Şahin Kamal oğlu Yusifli [122]

FARSDİLLİ QAYNAQLARDA "ŞAHMAT" OYUNU VƏ ONUN LEKSİK FƏZASI İLƏ BAĞLI QEYDLƏR

Giriş. Farsdilli ədəbiyyatın qədim qatları o qədər dərin məzun daşımışdır ki, onları üzə çıxarmaq üçün ədəbiyyat, dilçilik, etnoqrafiya, kulturologiya kimi elmləri əlaqələndirməklə qəti nəticələr çıxarmaq və qənaətə gəlmək mümkündür. Bu aspektdə maraqlı hal klassiklərin fars dilindən istifadəsi, onların poeziyaya daxil etdikləri leksemlərin xüsusiyyətləri, söz yaradıcılığı qabiliyyəti ən bariz və diqqəti cəlb edən hadisələrdən hesab oluna bilər. Şairlərin xüsusi leksik fəzalarda işləməsi zamanın tələbi idi. Bu onların əlçatmazlığına və ustalığına dəlalət edirdi. Bu cür qatların bir tərəfi klassik oyun adları üzərində köklənmiş, oyunların ad və atributları əsasında yaradılan leksik modellər və poetoloji fəndlər klassik fikir sahiblərini qüdrətləndirməklə, gələcəkdəki tədqiqatçıları bu sahəni istifadə edən şairlərə təəccüb və tərəddüdlə baxmağa vadar edəcəkdi.Oyun ad və atributları ilə bağlı leksemlərdən istifadə poetika ilə yanaşı, oyunların təbiəti ilə yaxından tanışlığı şərtləndirmiş, oyundakı hadisələr ilə reallıq arasında güclü əlaqələndirmə bacarığı tələb etmişdir. Yalnız bununla bitməmiş, şairlərin müvafiq tarixi hadisələrə, işğallara, zülmə olan etirazları və ya qələbə mesajları da bir çox vaxtlarda məhz qeyd olunan leksik fəza hesabına ifadə olunmuş, gələcəyə çatdırılmışdır.

Əsas hissə. Farsdilli klassik ədəbiyyatda istifadə olunan ən məşhur oyunlardan birincisi "şahmat"dır. Şahmat bir növ insan həyatını bütün sahələrdə əks etdirmək baxımındanoyunlar arasında ən başlıcadır. Şairlər məhz buradakı gedişlər hesabına təhdid, sevinc, qəzəb, qorxu, sevinc, arzu və s. kimi hisləri yaşatmağı bacarmış, gedişlərin məntiqi nəticəsi həyatdakı müvafiq vəziyyətlə tam əlaqələndirilmişdir. Şahmat barədə danışmadan əvvəl sözün etimologiyası barəsində qısa izahın verilməsi təqdirəlayiq hesab olunur. Sözün kökü barəsində ən əsaslı dəlil onun sanksrit dilindən pəhləvi dilinə daxil olmasıdır. Oyunun Hindistan ərazisindən İran coğrafiyasına daxil olduğuna etimad göstərsək, şahmat sözünün sonradan fars və ərəb dillərinə yol tapdığının şahidi oluruq. Qədim pəhləvi dilində olan "چترنگ" (çətrəng) sanskrit dilindəki[chaturunga] sözündən törəmə hesab olunur.Leksikoqraf Lalətik Çəndbəhar "Bəhar-e Əcəm" adlı lüğətində də bu faktı təsdiqləməklə yanaşı, "şətrəng" sözünün ərəbləşmiş "sətrəng"dən gəldiyinivurğulayır[1, s.742].

Şahmatın farsdilli ədəbiyyata daxil olması və dildə şahmatla bağlı sözlərin hansı istiqamətdən daxil olması barədə danışmazdan əvvəl oyunun kim tərəfindən ixtira olunması barədə olan müəammalar barəsində qəti hökm çıxarmaq gərəkir. Şahnamədə qeyd olunan "Qov və Təlxənd" dastanına etimad göstərsək, oyunun iki ögey qardaş arasında Hindistanda hökmüranlıq uğrunda mübarizə nəticəsində birinin at üzərində həlak olması və bu xəbərin analarına çatdırmaları ilə bağlı məqamları əhatə edir. Bu xəbərin çatdırılması, oğulun şahmat üzərində gedişlər vasitəsilə döyüş səhnəsini başa salması nəticəsində açıqlanır. Ancaq Firdovsinin poetik formada təqdim etdikləri reallığı axtarmağa sövq edir. Ravəndi " راحة الصدور و آية السرور" (Qəlbin rahatlığı və sevinc əlamətiəsərində şahmatın hind alimləri tərəfindən fikirləşilərək, Xosrov Ənüşirəvana göndərilməsi və bu qeyri-müəyyən oyunun sirrinin cavan vəzir Bozorqmehr tərəfindən açılmasını qeyd edir[5, s.406].

Təbii ki, Ravəndi ilə yanaşı bir çox leksikoqraflar öz əsərlərində bir çox mənbələrə yön çevirməklə oyunun etimoloji əsaslarını tapmağa səy göstəriblər. Digər fikirlər arasında oyunun şahmatda mahir ustad Ləclac-e Leylac tərəfindən yaradıldığı və ilk qalib gələn şəxsin o olduğuqeyd olunur. Hətta İbn Nədim "Əl-Fehrest" əsərində Ləclacdan rəvayət etmiş, onun "Mənsubat-e Şətrənc" adlı əsərinin olduğunu və Şirazda vəfat etdiyini qeyd etmişdir[1, s.743].

Mənbələrdə şahmat oyundakı bəzi adət və ənənələrin olması ilə bağlı məlumatlar verilir. Məhz bu qaydalara görə böyük mövla və dindar şəxslər müəyyən şərtlər daxilində bu oyunla məşğul olmağa icazə verirdilər:

Nasir Xosrov divanından beytə müraciət edək:

می جوشیده حلال است سوی صاحب رای
شافعی گوید شطرنج مباح است بیاز [7, s.50]

(Fikir sahibi tərəfindən qaynanmış şərab halaldır,
Şafeyi buyurur ki, şahmat rəva bilinir oyna)

Məhz buna görə Ravəndi qəti şəkildə şahlara oyunu mərclə və qumar şəklində oynamamağı tapşırır.Ünsürməali "Qabusnamə"də oğlu Gilanşaha nəsihət olaraq şahmatla məşğul olmağa adət etməməsini tapşırır, əgər yaxşı oyunçu olarsa, oyunda ədəb qaydalarına əməl etməyi buyurur, oyun sırasını ilkin olaraq rəqibinə verməyi ədəb və mərifətdən hesab edir [8, s.54].

Ravəndi şahmatda böyük faydanın olduğunu, oyunun bütöv bir hərb sistemi olduğunu qeyd edir və bildirir ki, şahmat zehni qüvvətləndirir, şahmat oyunu iti dərrakəyə malik olan şahların oyunudur.

Sədi beytlərində şahmatı müəyyən problemlərin həllində effektiv hesab edir:

زمانی، درسِ عِلم و بحثِ تَنزیل
که باشد نَفْسِ انسان را کمالی
زمانی، شعر و شطرنج و حکایت
که خاطر را بُوَد دَفعِ مَلالی [6, s.390]

(Bir vaxt dərs, elm və quran oxuma, / İnsanın nəfsini kamilləşdirir)
Müəyyən vaxt şeir, şahmat və hekayə, / Ağılı iztirab və qəmdən qurtarar)

[122] Bakı Dövlət Universiteti, Şərqşünaslıq fakültəsinin dekan müavini. shyusifli@bsu.edu.az

Şahmatın digər maraqlı cəhəti şərq ədəbi fikrində şahların sonunu göstərməsi, ibrət aynası olmasıdır. Şahmat qədər-qismət oyunu olmaqdan daha yüksəkdə dayanır və zehnin, düzgün fəaliyyət və ağılın növbəti həyati gedişlərə verəcəyi töhfəni əks etdirir. Düzgün olmayan qərarlar isə ən sarsıdıcı zərbələrə mail olur və qəhrəmanlıq göstərməyincə bəladan və həlakdan xilasın mümkünsüzlüyü əyani şəkildə əks olunur. Məhz farsdilli klassiklərdən bu məsələni poetikada lazımı şahmat fiqurlarından istifadə etməklə oxuculara çatdıra bilmişdilər.

Bu aspektdə Xaqani qeyd edir:

ای بس شهِ پیل‌افکن کافکنْد به شه‌پیل
شطرنجیِ تقدیرش در ماتگهِ حِرمان [2, s.38]

(O qədər qüdrətli şahmat şaha hücum zamanı devrildilər,
Şahmatdakı ümidsiz mat qismətləri ilə)

Bəzi klassik nümunələr fəhmsiz şahın şahmatdakı kimi öz ordusu olmadanbir oyuncaqdan başqa bir şey olmadığını qabardır, məğlubiyyəti dərrakəsiz şahın fəaliyyəti ilə əlaqələndirirlər.

Maraqlı məqam ondan ibarətdir ki, farsdilli klassiklər şahmatı sıradan bir oyun kimi qəbul etməmişdilər. Burada olan fiqurlara isə hər hansı bir oyunun oyuncaqları hesab etmirdilər. Bu baxımdan fiqurlar klassiklər üçün hər biri unikal bir rəmz və simvol hesab olunurdular. Şairlər bu simvolları müxtəlif irfani və əxlaqi fikirlərin sərgilənməsi, eşq, mübarizə və s. kimi prosesləri ifadə etmək üçün poetik fənd vasitələri hesab edirdilər. Bu fəndlər isə heç də bütün şairlər üçün ümumişlək deyildi. Bu linqvopoetik fəzada ən məşhurlar farsdilli klassik ədəbiyyatın Azərbaycanlı nümayəndələri Xaqani, Nizami, Əvhədi və digərləri hesab olunurdular.

Klassiklər üçün şahmat fiqurları hər hansı bir xarakter və şəxsiyyəti simvolizə etmək üçün böyük resurs təqdim edirdi. Ariflər şahmatı bacarıq və hökmü göstərmək üçün, nərdi isə hesab və nəticəliliyi vurğulamaq üçün vasitə bilirdilər.

Mövlanə qeyd edir:

بر رقعه شطرنج وفا راست برو
و آنگاه چو رخ به گوشه ای راضی باش [9, s.244]

(Vəfa şahmatının taxtasında(sahəsində) düz get,
O zaman bir qala tək öz küncünlə razılaş)

Şahmatdakı şah fiquru şairlər tərəfindən müxtəlif sifətlərdə təqdim olunub. Burada həqiqi şah, hökmüdar obrazı ilə yanaşı, dünyanın hakimi, yaradan siması da istisna deyil.

Mövlana vurğulayır:

به خانه خانه می‌آرد چو بیذق شاه جان ما را
عجب بردست یا ماتست زیر امتحان ما را [9, s.246]

(Şahın piyadası kimi bizim canımızı xana-xana alır,
Bizim üzərimizdə qəribə qələbə və ya matdır)

Klassiklər piyada və vəzirin simvollaşdırılmasında maraqlı cəhətlər sərgiləyiblər. Piyada bəzən əzmkar, mübariz, səbrlə ucalan qismində, bəzənsə qətiyyətsiz və az hərəkətliliyi nümayiş etdirən xarakteri göstərmişdir. Vəzirin hərəkətləri isə onu inadcıl insanların xarakteri ilə eyniləşdirmişdir.

Nümunələr göstərir ki, təkcə oyundakı fiqurlar deyil, oyun prosesi ilə bağlı olan bütün söz və ifadələr klassik ədəbiyyata yol tapa bilmişdi. Bir çox ariflər müxtəlif məsələlərin mahiyyətinin çatdırılmasında şahmat leksik fəzasına müraciət etmişdilər. Bu idiomatik ifadələrin toplanmasında Əli Əkbər Dehxodanın adı xüsusi qeyd olunmalıdır. O, "Əmsal və həkəm" monoqrafiyasında müəyyən sistem yaratmağa çalışmışdır. Qeyd olunan nümunələrdən birinə diqqət edək:

پیل شطرنج از کجا ماند به پیل منگلوس
شیر شادروان کجا ماند به شیر مرغزار [1, s.748]

(Şahmat fili hara, Məngəlus fili hara,
Ruhu şad şir hara, səhra şiri hara)

Şairlərin şahmat fəzası ilə bağlı işlədikləri bu sahə bədii ifadə vasitələri baxımdan çox zəngin idi. Klassiklər öz xəyal dünyalarında nəzərdə tutduqları mətləbləri şahmat və atributları əsasında yaratdıqları müxtəlif bənzətmələr, təşbeh və istiarələr əsasında istifadə edirdilər.

Qətran Təbrizidən olan beytə diqqət yetirək:

کاین عاشقی چو بازی شطرنج هندوی است
گاهی بود به لعب پیاده ز شاه به [1, s.749]

(Bu məhəbbət hindlilərin şahmatı kimidir,
Bəzən oyunda piyada şahdan yaxşı olur)

Nəticə. Farsdilli klassik ədəbiyyatda şahmat oyunu istər ad, istərsə də atributlarından istifadə edlməklə poetizmlər, idiomatik əsaslı ifadələr, frazeoloji birləşmələr yaratmaq baxımdan birinci sırada dayanır. Oyunun leksik səması farsdilli klassik ədəbiyyatın Azərbaycan və İraq üslubunun nümayəndələri tərəfindən geniş şəkildə istifadə edilmişdir. Şairlərin belə poetoji fəndlərə müraciət etməsi böyük bir linqvopoetik sahənin yaranması ilə nəticələnmiş və bu qədim sahə tədqiqat üçün səmərəli hesab olunur. Şahmatın mübarizə meydanı olması, burada olan fiqurların bir hökuməti xatırlatması şairlər üçün eyniləşdirmələr aparmaq üçün misilsiz material təqdim etmiş, məhz buradakı atributlardan istifadə edilməkə yaradılan birləşmələr fars dilinin leksik fondunun zənginləşməsinə, sonrakı şairlər üçün əsrarəngiz poetik fəndlərin formaşmasına təkan vermişdir.

İstifadə edilmiş ədəbiyyat

1. بیات،س.ر. شطرنج در گستره ی ادب فارسی// چیستا، شماره ی ۷۶-۷۷، تهران: ۱۳۷۰، ص. ۷۵۰-۷۴۲
2. خاقانی،از. دیوان - به تصحیح علی عبدالرسولی. تهران: سعادت، ۱۳۱۶، ۹۷۱ ص.
3. دهخدا،ع.ا.لغتنامه - زیر نظر محمد معین و سید جعفر شهیدی (۱۵ جلدی) . تهران: دانشگاه تهران ،۱۳۷۲، ۱۱۱۴ ص.
4. رامپوری،غ.م.غیاث اللغات - به کوشش محمد دبیر سیاقی. تهران: معرفت،۱۳۶۳، ۱۲۰۹ ص.
5. راوندی،م.س .راحة الصدور و آیة السرور در تاریخ السلجوق. تهران: اساطیر، ۱۳۸۶، ۵۷۵ ص.
6. شیرازی،س. کلیات - به تصحیح محمدعلی فروغی. تهران: بهزاد ،۱۳۸۷، ۹۸۰ ص.
7. قبادیانی،ن.خ. دیوان اشعار - تصحیح مجتبی مینوی. تهران: انتشارات دانشگاه مک گیل، ۱۳۵۷، ۷۷۱ ص.
8. عنصرالمعالی،ک. قابوسنامه - به اهتمام و تصحیح سعید نفیسی. تهران: فردوس، ۱۳۸۷، ۴۰۰ ص.
9. مولانا ،ج. گزینه غزلیات شمس تبریزی- به کوشش محمد رضا شفیعی کدکنی. تهران:شرکت انتشارات علمی و فرهنگی، ۱۳۷۹، ۶۸۸ص.

Key words: linguopoetics, persian language literature, game, chess, attribute, poeticism
Ключевые слова: лингвопоэтика, персоязычный литература, игра, шахматы, атрибутика, поэтизм

Some points about the game of chess and its lexical space in persian sources

Summary

In classical Persian literature, chess is in the first row in terms of creating poetic units and idiomatic interpretation and phrases using names or its components. The lexical space of the game was widely used by representatives of the Azerbaijani and Iraqi styles of classical Persian literature. Poets' recourse to such poetic techniques led to the creation of a large linguistic space, and this ancient field offers a wide range of materials for research. That chess is a battlefield, the figures here are reminiscent of a government, they have provided unique materials to identify poets. Precisely the combinations created using the elements here have provided the motivation to enrich the vocabulary of the Persian language and the formation of mysterious tricks of poetry for later poets.

Примечания об игре в «шахматы» и ее лексическом пространстве в персидских источниках

Резюме

В классической персидской литературе шахматы занимают первое место по созданию поэтизмов, идиоматических выражений и фразеологических сочетаний с использованием своего названия или атрибутов. Лексическое пространство игры широко использовалось представителями азербайджанского и иракского стилей персоязычной классической литературы. Обращение поэтов к подобным поэтическим приемам привело к созданию обширного лингвопоэтического поля, и это древнее поле предлагает широкий спектр материала для исследования. Тот факт, что шахматы являются полем битвы, фигуры здесь напоминают правительство, дали уникальные материалы для идентификации и идентификации поэтов, именно комбинации, созданные с использованием здесь элементов, мотивацию к обогащению словарного запаса персидского языка и формирование у позднейших поэтов загадочных поэтических приёмов.

Rəyçi: f.ü.e.d.,prof. Ş.Ə.Əlibəyli

Gülnar Fəryaz qızı Taroyeva [123]

"MİN BİR GECƏ" NAĞILLARININ TƏŞƏKKÜLÜ

Giriş: Ərəb ədəbiyyatı yalnız Şərq aləmində deyil, dünya ədəbiyyatında öz sözünü demiş ən zəngin tərkib hissələrindən biridir. İlk nümunələri İslamdan öncəyə V-Vl əsrlərə aid olmuş, İslamdan sonra isə daha geniş ərazilərə yayılaraq təşəkkül və təkamül etmişdir. Beş dövrü əhatə edən ərəb ədəbiyyatı çoxsaylı lirik və epik əsərləri ilə ümummüsəlman ədəbiyyatını təcəssüm etdirmişdir.

Ərəb ədəbiyyatı özünü elə abidələrdə göstərmişdir ki, bu abidələr tək aid olduğu xalqın deyil bəşəriyyətin qızıldan dəyərli sərvəti hesab olunur. Buna "Min bir gecə", "Əyyəmu-l-arab", "Əntərə", "Həmzə əl-Pəhləvan", "Əli Zibək", "Seyf ibn Zi-Yəzən" və s. ədəbi nümunə kimi göstərə bilərik.

Bu əsərlərin içərisində ərəb ədəbiyyatının tarixi inkişaf dövrlərinin hamısının əks olunduğu salnamə "Min bir gecə" nağıllarıdır. Xalq yaradıcılığının ən mükəmməl nümunələrindən olan bu abidə ərəb ədəbiyyatı və tarixində çox önəmli mövqeyə malikdir. Özündən sonra nəinki Şərq və dünya ədəbiyyatına, eləcə də bir çox yaradıcı sahələrə ilham qaynağı olmuşdur. Başlanğıcını Cahiliyyə dövründən götürən "Min bir gecə"nin təşəkkülü, təkamülü uzun dövrləri əhatə etdiyindən onun tədqiqatı da böyük zəhmət tələb etmişdir. Bu sahədə bir çox Şərq və Avropa şərqşünasları əsaslı işlər görmüşdür.

Əsas hissə: "Min bir gecə" nağılları Şərq təfəkküründən nadir incilərindən olan bənzərsiz abidədir. Dünyanın bir çox yerlərində tanınaraq müxtəlif sahələrdə müəlliflərə ilham olmuşdur. Rəngarəng, məzəli, mənalı məzmunu ilə min illərdir xalqların ürəyinə yol tapmış, əməksevərliyi, humanizmi, sadə xalqın arzu, istəklərini təbliğ etmişdir.

Yaxın və Orta Şərq şifahi xalq ədəbiyyatının nəhəng abidəsi olan "Min bir gecə" nağılları tədqiqatçılar tərəfindən araşdırılmış harada, nə zaman meydana gəlməsi və yayılması ilə bağlı mülahizələr söylənilmişdir.

Nağılların formalaşmasını, təşəkkülünü izləmək üçün ilk öncə hansı məqsədlə yaranmasına nəzər yetirmək lazımdır. "Min bir gecə" nağıllarının girişindən məlum olduğu kimi abidə gələcək nəsillərə ibrət dərsi verməyə, insanları həyatın müşküllərindən, yaxşılıq və pisliklərdən, nadanlıq və dürüstlükdən, əxlaq və əxlaqsızlıqdan agah etməyə xidmət etmişdir. "Bundan sonra isə: doğrudan da, ilk nəsillər barəsindəki nağıllar sonrakı nəsillər üçün ibrət dərsi olmuşdur ki, insan başqalarının başına gələn işlərdən agah olsun, onlardan ibrət götürsün, həm də keçmiş xalqlar barəsində, onların başına gələn əhvalatlar haqqında rəvayətləri başa düşsün, özünü günah iş görməkdən saxlasın. Qədim adamlar haqqındakı rəvayətləri sonrakı xalqlar üçün ibrət dərsi kimi nağıla çevirənə əhsən!" [1, s. 21].

Bundan başqa X əsrdə yaşayan ərəb tarixçiləri Əl-Məsudi və İbn ən-Nədimin "Min bir gecə" nağıllarının formalaşması kimi bu amillərlə yanaşı dövrün padşahlarının rəğbətini qazanmaq, onları əyləndirmək məqsədi ilə yaranıb formalaşmasını qeyd etmişlər. Bu fikir "Seyf əl-Mülükün nağılı"nda da təsdiqini tapır [2. s. 16]. Belə ki, padşahlar müxtəlif mövzularda əfsanə, rəvayətlərə qulaq asmağı sevər, səfərdən gələnlər maraqlı əhvalatlar danışaraq padşahın diqqətini çəkməyi bacarardısa, çoxlu bəxşiş, pul, atla mükafatlandırılardı [3, s. 8].

"Min bir gecə"nin mənşəyi ilə bağlı bir çox pərakəndə fikirlər mövcuddur. Bu nağıllar toplusunun əsasən hind, İran, ərəb mənşəli olduğu tədqiqatların çoxunda öz əksini tapır.

Abidənin prototipi kimi daha çox Sasanilər dövründə meydana gələn "Hezar əfsanə" ("Min Əfsanə") adlı hekayələr toplusnun adı çəkilir. "Min bir gecə"də adı keçən obrazlar sırasında fars mənşəli adların (Şəhrizad, Şəhriyar, Şahzaman, Dünyazad) olması bu abidənin fars mənbələrindən gəlməsini təsdiq edir ki, məşhur ərəb alimləri və şərqşünaslar bu fikri təsdiq etmişlər. Əl-Məsudi öz dünya şöhrətli "Müruc-üz-zəhəb" kitabında "Hezar əfsanə" kitabının adını çəkərək, ərəblər arasında "Min bir gecə", "Min gecə" adı ilə tanındığını bildirmiş, İran, hind, yunan, dillərindən ərəb dilinə tərcümə olunan digər əsərlər sırasında vermişdir [4, s. 4].

İbn ən-Nədim "əl-Fihirst" əsərində daha dolğun və geniş məlumatlar verərək Məsudinin mülahizələrini təsdiq etmiş sayılır. Həmçinin İbn ən-Nədim bəzi nağılların İrana Hindistandan keçməsi ilə bağlı qənaətlərə gəlmişdir ki, çərçivə hekayələrə qədim hind ədəbiyyatında da rast gəlinmiş mexanizmdir [4, s. 4]. Tədqiqatçı əsərində hind-İran mənşəli "Hezar əfsanə" toplusunun (1000 nağıl) İran ənənələrinin VIII əsrdə ərəb-müsəlman mədəniyyətinə təsir etdiyi bir dövrdə tərcümə olunduğunu qeyd etmişdir. [Könül. s. 24]. Ərəb ədəbiyyatı tarixindən məlum olduğu kimi Abbasilərin hakimiyyət illəri çiçəklənmə dövrü hesab olunmuşdur. Bu dövrlər ədəbiyyatın inkişafında önəmli əhəmiyyət daşımışdır. Eləcədə ərəb-müsəlman sinkretik mədəniyyəti formalaşmış, tərcüməçilik fəaliyyəti geniş vüsət almışdır. Təkcə "Min bir gecə" yox bir çox bir çox İran ədəbi nümunələri ərəbcəyə tərcümə olunmuşdur. O cümlədən bu toplunun tərcüməsi qeyri-adi hal hesab olunmurdu [5, s. 21].

"Min bir gecə"nin tədqiqatında avropalı alimlərin xüsusi rolu olmuşdur. Abidənin mənşəyi kimi müxtəlif fikirlər irəli sürülmüşdür. Alman alimi Fridrix Şleqel mənbə kimi hind nağıllarını göstərmişdir. Fransız şərqünası Silvestr de Sasi nağılların İran və hind mənşəli olmasını təkzib edərək abidənin ərəb-islam dünyagörüşünə xas olduğunu bildirmişdir.

Avstriyalı şərqünas Y.Hammer-Purqştal "Min bir gecə"nin "Hezar əfsanə ilə əlaqəli olduğu qənaətinə gəlmişdir. Onun nağılçılar haqqında verdiyi məlumatlar abidənin formalaşması, təkamülü prosesi baxımından maraq doğurur. Həmçinin nağılçılıq fəaliyyəti haqqında XlX əsrdə Misirdə yaşayan A.B.Klot-bəydə ətraflı məlumatlar vermişdir. Burada həmin dövrdə nağılların necə və hansı şəraitdə yaranması öz əksini tapır.

[123] Bakı Dövlət Universitetinin magistrantı. gulnarserifl@gmail.com

Belə ki, şəhərlər inkişaf etdikcə əhali arasında tanınan nağıllar müxtəlif məkanlarda ifa olunurmuş. Burada nağılçıların peşəkarlığı xüsusi rol oynayırdı. Natiqlik, aktyorluq qabiliyyəti olan bəlağətli nağılçılar, sanki xalq arasında yayılan, ağızdan-ağıza keçən əhvalat, hekayələrə yeni həyat bəxş edirdilər. Müxtəlif ölkələrə səfər edən səyyahlar, nağılçılar bayram günlərində, bazar, qəhvəxanaların qapısı ağzında hekayələr nəql edir, şeirləri ahənglə oxuyurdular. Öz dinləyicilərini həsrətdə saxlamaq üçün nağıllar yarıda dayandırılır, növbəti gündə söylənilirdi [2, s. 24]. Bu, "Min bir gecə"nin məzmunundan tanış olduğumuz məqamlardandır. Nağılçılarla yanaşı burada katiblərin, toplayıcıların rolu vurğulanır. Onlar nağılların sanki taleyini həll edir, qısaldır, genişləndirir, hissələrə ayırır, müdaxilələr edə bilirdilər. Beləliklə xalq nağıllarının dəyişikliklərə uğrayaraq müxtəlif istiqamətlərdə inkişafı qaçılmaz olmuşdur. Şifahi xalq ədəbiyyatı nümunələri bildiyimiz kimi xalqın ümumi təfəkküründə xitab edir və yaranma, formalaşma mərhələsi uzun yol qət edir. "Min bir gecə" kimi nəhəng abidədən danışdığımız zaman isə bu abidənin köklərini yalnız bir xalqa və ya bir mənbəyə aid etmək mənasızdır. Bu baxımdan XIX əsr alman şərqşünası A.Müllerin abidə haqqında yekun qənaətlərini əsaslı hesab edirik. "A.Müller bir müəllif və ya bir tərtibçi ideasından imtina edərək, İran prototipi əsasında abidənin ərəb mühitində tədirici təşəkkülü fikrini irəli sürdü" [2, s. 36]. Həmçinin alim abidəni Bağdad və Misir mühitinə aid edərək, iki mərhələdə yaranaraq inkoşaf etdiyini bildirmişdir. Bu bölgünü sonrakı şərqşünaslar inkişaf etdirərək, bir mərhələ də əlavə etmişlər. Danimarkalı şərqşünas İ.Estrup "Hezar Əfsanə"ni ayrıca bir lay kimi təqdim etmiş, A.Y.Krimski, E.Littman Hind-İran, Bağdad, Misir layları haqqında fikirləri daha geniş əsaslandırmışlar.

Doğrudur, bu laylar arasında kəskin sərhədlər qoymaq mümkün deyildir. Lakin tədqiqatçılar bir sıra tarixi, coğrafi, məzmun, kompazisiya və s. ünsürlərinə əsasən bu bölgünü fərqləndirə bilmişlər. Məsələn, birnci layda çərçivə nağıl strukturu, hind, İran mənşəli adların olması, təmsillər, mistik obrazlar (div, pəri), eyni zamanda romantik məhəbbət və duyğular, şəhər həyatı, açıq-saçıq səhnələr hind, İran nağıl xüsusiyyətlərinə aid edilir. İkinci qrup Bağdad nağıllarının mərkəzində Xəlifə Harun-ər Rəşid durur. Qeyd etdiyimiz kimi, Abbasilər dövrü, sülh dövrü hesab olunmuş, xalqın güzəranının yaxşı olmasından dolayı ədəbiyyat inkişaf etmişdir. Nağılların bu mərhələsində əsasən şəhər həyatı, xəlifənin ədalətli, yardımsevər əməllərindən söhbət gedir. Dəniz səyahətləri Abbasilərin dövründə geniş vüsət almış "Dəniz səyyahı Sindibadın nağılı" əhvalatları da bu cəhətdən "Min bir gecə"də diqqət çəkən süjetlərdən olmuşdur. Bu layda şair (Əbu Nüvas, Müslüm ibn əl-Vəlid), musiqiçilərin (İbrahim Mosuli, oğlu İshaq Mosuli) adları çəkilir [2, s. 41].

Üçüncü lay olan Misir nağılları Bağdad layından daha genişdir. Özündə tarixi reallıqları, sosial-mədəni həyatı, əhalinin məşğuliyyəti olan sənətkarlıq və ticarəti məzmununda əks etdirmişdir. Bağdad nağıllarından fərqli olaraq bu nağıllarda qadın daha aşağı mövqedə dayanması və təhqir obyektinə çevrilməsindən də danışmaq olar.

Nəticə: Bildiyimiz kimi, əsərin mövzusu qədər dili, üslubu, təqdim olunma şəkli də ona əbədi həyat verən vacib amillərdən biridir. Ərəblərin sahib olduğu bəlağət, ədəbiyyat ruhu bütün dünyaya bəyandır. "Min bir gecə" nağıllarıda məhz bu mühitdə ölməzlik qazanmışdır. Prototipi hesab edilən müxtəlif mənbələr olmasına baxmayaraq, bu abidənin ərəb mühitində formalaşması, öz təşəkkül və təkamülünü tapması danılmazdır.

Beləliklə, uzun məsafə qət edən ərəb şifahi xalq ədəbiyyatı nümunəsi olan "Min bir gecə" şərq dünyasının ədəbi-mədəni mühitini hərtərəfli şəkildə bizlərə çatdıran, ərəb dünyasını bizlərə bu qədər sevdirən dünya şöhrətli monumental abidədir.

İstifadə edilmiş ədəbiyyat

1. Min bir gecə (I cild. 1-38-ci gecələr). Bakı: Qanun, 2020, 480 s.
2. Bayramova L. "Min bir gecə" ümumşərq ədəbiyyatının mədəni-tarixi abidəsi kimi. Bakı: "MBM", 2009, 200 s.
3. Min bir gecə: səkkiz cilddə. VII cild. Bakı: Şərq-Qərb, 2007, 384 s.
4. https://isamveri.org/pdfdrg/D00018/2004_22/2004_22_TULUCUS.pdf
5. Bayramova L. "Əyyəmu-l-arab" Cahiliyyə dövrü ərəb ədəbiyyatının abidəsi kimi. Bakı: Elm, 2021, 360 s.
6. Qasımova A.Ş. Ərəb ədəbiyyatı. V-XIII əsrlər: dərslik. Bakı: Elm, 2019, 676 s.

Ключевые слова: Арабская литература, «Тысяча и одна ночь», «Тысяча и одна ночь», фольклор Сказка,
Key words: Arabic literature, The Thousand and One Nights, the Arabian Nights, Folklore Tale, Frame Tale

Резюме

Арабская литература – одна из богатейших литератур мира. Есть произведения этого народа, которые любят и читают не только на Востоке, но и во всем мире и отвечают эстетическому вкусу людей.

В статье говорится о сказках «Тысячи и одной ночи», которые являются ценнейшими образцами арабской устной народной литературы. Эти сказки, состоящие из 8 томов, формировались и развивались на протяжении тысячелетий и дошли до наших дней. О происхождении произведения велись многочисленные дискуссии, исследователи высказывали разные мнения. Кто является источником?Упоминаются арабские, иранские, индийские источники. Исследователи пришли к выводам о формировании «Тысячи и одной ночи» в трех слоях. Эти слои отличались друг от друга по своей теме, истории и составу.

Summary

Arabic literature is one of the richest literatures in the world. There are works of this people that are loved and read not only in the East, but all over the world, and appeal to people's aesthetic taste.

The article talks about the "One Thousand and One Nights" tales, which are the most valuable examples of Arabic oral folk literature. These tales, which consist of 8 volumes, have been formed and evolved over thousands of years and have come to this day. There have been numerous discussions about the origin of the work, researchers have expressed different opinions. Who is the source? Arab, Iranian, Indian sources are mentioned. Researchers have come to conclusions about the

formation of "One Thousand and One Nights" in three layers. These layers differed from each other in terms of their theme, history and composition.

Rəyçi: dos. E.Vəliyeva

Sənubər Ağalar qızı Seyidova [124]

MİRZƏ ŞƏFİNİN "KİTABİ-TÜRKİ" DƏSRLİYİNDƏ METODİKİ GÖRÜŞLƏRİ

Mirzə Şəfi Vazeh yaratdığı əsərləri ilə klassik Azərbaycan poeziyasının incilərindən sayılmış, dövrünün ən çox tanınmış dünya şöhrətli şairlərindən olmuşdur. Şairin doğum tarixi ilə bağlı tədqiqatçılar müxtəlif illəri (1792,1794,1805) göstərsələr də, fikrimizcə onun doğum tarixini 1794-cü il hesab etmək daha məqsədə uyğun olar. Maarifçi realist ədəbiyyatın ilkin görkəmli nümayəndələrindən olan mütəfəkkir şairin nikbin əhvali-ruhiyəli şeirləri Qərbi Avropa ölkələrində və Rusiyada geniş yayılmışdır. Araşdırmalardan aydın olur ki, Gəncədə Cavad xanın hakimiyyətdə olduğu zamanda memar olmuş Kərbəlayı Sadığın ailəsində doğulmuş Şəfi ilk təhsilini mədrəsədə almışdır. Burada o, ərəb, fars dillərini, eləcə də şəriət elmlərini mənimsəmişdir. Bununla yanaşı, şair Şərq poeziyasına maraq göstərmiş, onun bir çox nümayəndələrinin əsərləri ilə tanış olmuşdur. Yazdığı qəzəl, müxəmməs, məsnəvi, rübailərində ifadə etdiyi həyat sevgisi, nikbinlik, cəmiyyətdə insanın azadlığı uğrunda mübarizə Mirzə Şəfi Vazehin yaradıcılığının əsas istiqamətini təşkil edirdi. Şeirlərində də bunu əks etdirən şair gül, bülbül haqqında yazarkən onları tərənnüm, məhəbbətin əzab və iztirablarından bəhs edən zaman təsvir, şərabı vəsf edən şeirlərində isə həyat sevgisini ifadə edirdi. Yaratdığı nümunələrində də əsas qayəsini etiraf edən şair beıə deyirdi: "Mən alçaq şeirləri deyil, təkcə gözəlliyi tərənnüm edirəm. Qoy başqaları müharibəni, şah əsasını və məscidi mədh etsin, mən isə şərabı, qızılgülü və sevgini tərənnüm etməyi qərara aldım" [5, s. 78]. Dini-fanatizm mühitinə, riyakar, fırıldaqçı mollalara qarşı mədrəsədə oxuduğu vaxtlardan qarşı çıxsa da, onun gözünün açılmasında Gəncənin mədəni insanlarından olan Hacı Abdullanın təsirinin böyük rolu vardır. O, ruhanilərə, möhvumata, istibdada qarşı kəskin çıxışlar edir, qadınların azad edilməsinə çağırırdı. Çadra geyinməyin qızğın düşməni olan Mirzə Şəfi şeirlərində yazırdı:

"Tulla gəl çadranı…bilsin ki, dünya
Yoxdur yer üzündə sənintək afət.
Qoy sənin nəzərin hər yana baxsın,
Baxışın qəlbləri yandırıb yaxsın.
Pəmbə dodaqların təbəssümləri
Ətrafa nur yaysın, açsın səhəri" [4, s. 114]

Mollaların şairi həzm edə bilməməsi, ona düşmən münasibət bəsləməsinin səbəbi də elə bu idi.

"İstərdim bütün yer üzünü
Həbsdən azad edim…" [4, s. 115]

deyən Mirzə Şəfi azadfikirli insan idi və o, bütün yer üzünə azadlıq arzulayırdı. Gənc Şəfinin bu kimi fikirlər səsləndirməsi, belə düşüncədə olması nəticəsində bir müddət sonra mədrəsə mollaları gələcəkdə onunla məşğul olmağa imtina etdilər. Bununla əlaqədar Şəfi mədrəsəni tərk etmək məcburiyyətində qaldı. Ona görə də şairin dolanışıq məqsədilə fəaliyyət göstərməsi çətinləşir və bir az sonra o, Cavad xanın qızı Püstə xanımın binagüzarlıq və yazı-pozu işlərini idarə edir, amma 1826-cı ildə İranla Rusiya arasında başlayan müharibə, İranın Gəncəni işğal etməsi işlərini yarımçıq qoyur. Bundan sonra o, Hacı Abdullanın köməkliyi ilə məsciddə hücrələrin birində müxtəlif kitabların üzünü köçürməklə özünü dolandırır. Az keçmir İranda artıq litoqrafiyadan istifadə olunduğundan kitabın əl ilə köçürülməsinə ehtiyac qalmır, beləliklə, şair ərəb və fars dillərində fərdi qaydada dərs deməklə məşğul olur. Mirzə Şəfinin gənc Mirzə Fətəli Axundovla tanışlığı otuzuncu illərə təsadüf etmiş, qəflətdə olan Mirzə Fətəlinin gözünün açılmasına, dünygörüşünün dəyişməsinə böyük təsir göstərmişdir. Şairin əmək fəaliyyəti Gəncədə başlasa da, o öz məmləkətində rahatlıq tapmadığından 40-cı illərdə Tiflisə getmişdir. O zaman Mirzə Fətəli Axundzadə Tiflis məktəblərinin birində Azərbaycan dili müəllimi idi. Səhhətinin pisləşməsi ilə əlaqədar o, Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi vəzifəsindən azad olunması haqqında müraciət edir və Mirzə Fətəli Axundzadənin tövsiyəsilə Mirzə Şəfi qəza məktəbinə dəvət olunur. Bu hadisə ilə də sanki "Divani-hikmət" məclisi Gəncədən Tiflisə köçür. Bir sıra görkəmli şair və filosofların iştirak etdiyi bu məclisdə ədəbi söhbətlər gedirdi. Tiflis mühiti Mirzə Şəfinin ürəyincə idi. Burada olduğu müddətdə bir çox elm adamları ilə tanış olan Mirzə Şəfi burada hərtərəfli fəaliyyət göstərir və Bakıxanov, Axundzadə, Budaqov kimi ziyalı və ədiblərlə ünsiyyət, fikir mübadiləsi edirdi. Şair artıq illərlə əldə etdiyi bilik və bacarığı heç bir manea olmadan bölüşə bilirdi. Onun alman səyyahı, rus, Şərq poeziyasının tərcüməçisi, şərqşünas Fridrix Bodenştedtlə yaradıcılıq münasibətləri də məhz Tiflisdə baş tutmuşdur. Fridrix Bodenştedt şərq dillərini mükəmməl öyrənmək üçün Mirzə Şəfidən dərs almışdır. Dərs zamanı Mirzə Şəfi Vazeh Fridrix Bodenştedtə Firdovsi, Xəyyam, Sədi, Nizami, Hafizin şeirlərini öyrətmiş və yazdırmışdı. O, həmçinin "Divani-hikmət" ədəbi məclisinin üzvlərindən idi. Mirzə Şəfi Vazeh bədii irsinə müraciət etdiyimiz zaman mənbələrdə onun yalnız şairliklə kifayətlənmədiyini, həm də müəllimlik fəaliyyəti ilə məşğul olduğunun qeyd olduğunu görürük. Bunu onun ilk olaraq qəza məktəbində, daha sonra Tiflis gimnaziyasında müəllim kimi işləməsi bir daha sübut edir. 1846-cı ilə qədər Tiflisdə yaşayan Şəfi həmin ildə doğma vətəni Nizami yurdu Gəncəyə qayıdır. Burada dövlət tərəfindən yeni açılan qəza məktəbində həm pedaqoji fəaliyyətini davam etdirir, həm də bədii yaradıcılığı ilə məşğul olur. Şeyx İbrahim Naseh, Mirzə Mehdi Naci və

[124] Bakı Dövlət Universitetinin magistrantı

digər şairlərlə görüşərək poeziya haqqında ciddi söhbətlər aparır, maraqlı şeirlər yazır. Çox keçmir ki, Mirzə Şəfinin vəziyyəti yenidən çətinləşir və o, burada ruhanilərıə qarşılaşmalı olur. Gəncə qəza məktəbində maarifpərvər, şair-müəllim kimi tanınan, dərin şöhrət qazanan şair burada təqiblərə məruz qalır və sıxışdırılır. Mənəvi əziyyət çəkən Mirzə Şəfi yenidən vətənini tərk etməyə məcbur qalır. Tiflisə dönən "Gəncəli müdrik" 1850-ci ildə Tiflis zadəganlar gimnaziyasına Azərbaycan dili müəllimi təyin olunur. Zadəganlar gimnaziyasında səmərəli fəaliyyət göstərərək hər kəsin hörmətini qazanır. Ədəbi fəaliyyətində gözəlliyi, həqiqəti, ədaləti, hikməti, mənəvi zənginliyi, etikanı, yüksək qiymətləndirən Mirzə Şəfi fitri istedada malik olan söz ustadı, mahir pedaqoqdur. Hər bir pedaqoqu tanıdan məqamlardan birincisi onun yaratdığı dərs vəsaitidirsə, digəri isə istifadə etdiyi özünəməxsus metodikasıdır. Şairin pedaqoji irsinə müraciət etdiyimiz zaman onun metodika tariximizə qiymətli bir xəzinə bəxş etdiyini görürük. Həmin bu xəzinə onun "Kitabi-türki" dərsliyidir. Belə ki, Mirzə Şəfi Vazeh kimi qabaqcıl ziyalılar bu illərdə Azərbaycan dilində heç bir vəsaitin olmamasını ağır, dözülməz hal hesab edirdilər. Bu məsələ ilə bağlı kitabşünas-alim B.Allahverdiyev "Kitablar haqqında kitab" əsərində bu məsələyə ciddi önəm verərək belə yazır: "Azərbaycan şəhərlərində yeni tipli məktəblərin açılması ana dilində dərs vəsaitlərinin və dərsliklərinin yaradılması zərurətini irəli sürdü. Azərbaycanın A.A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh kimi görkəmli oğullarını bu məsələ ciddi düşündürməyə başladı. Nəticədə bir sıra əhəmiyyətli dərsliklər: A.A.Bakıxanovun "Qanuni-Qüdsi"(1831), M.Ş.Vazehin "Müntəxəbat"(1855) və s. əsərlər yarandı" [1, s. 83]. Gimnaziyada fars dili müəllimi olan İvan Qriqoriyev ilə Mirzə Şəfi yaxından dostluq edirdi və uzun müddət hər iki dostu dərslik tərtibatı məsələsi düşündürmüşdür. "Azərbaycan dilində tatar müntəxəbatı" adlandırılan bu vəsait 1852-ci ildən artıq hazır idi və iki hissədən təşkil olunmuşdu. Əsərin ikinci hissəsi "Kitabi-türki" adlanırdı və 1855-ci ildə İvan Qriqoriyev onu Təbrizdə nəşr etdirmişdir. Azərbaycan xalqının mədəniyyəti tarixində ədəbiyyat dərsliklərində söhbət gedəndə araşdırmaçılar Mirzə Şəfi Vazehlə İvan Qriqoriyevin birlikdə tərtib etdikləri və bir hissəsinin ölümündən sonra, 1855-ci ildə Təbrizdə çap olunan "Kitabi-türki" dərsliyinin öz dövrü üçün əhəmiyyətli metodik vəsait olduğunu qeyd edirlər. Öz orijinallığı ilə seçilən bu əsər dərslik kimi geniş istifadə edilmişdir. Dərsliyin digər hissəsi isə 1856-cı ildə Tiflisdə nəşr olunmuşdur. İ.K.Yenikopolovun məlumatına görə 1856-cı ildə "Müntəxəbat"ın əsas hissəsi çapdan çıxdıqdan sonra Peterburqa göndərilib dərslik kimi istifadəsinə icazə istənilmişdi. Ancaq həmin kitabın dərslik kimi istifadə olunmasına razılıq əldə edilməmişdi. Həmin məsələ ilə bağlı görkəmli tədqiqatçı alim Akif Bayramovun fikirləri belədir: "Zənnimizcə həmin əsərin dərslik kimi bəyənilməməsi çarizmin mərkəzi dairələrindəki şovinzimlə əlaqədar idi. Çünki həmin dərsliklərdə yerli materiallardan, şifahi xalq ədəbiyyatından və klassiklərdən istifadə olunmuşdur" [1, s. 84]. Mirzə Şəfi Vazehin hazırladığı "Müntəxəbat"ı yüksək bədii və elmi prinsiplər əsasında hazırlanmışdır. Əsərdə yer alan nəsihətlərdə, hekayətlərdə, təmsillərdə əgər bədiilik gözlənilmişsə, tarixə dair verilən materiallarda elmilik nəzərə alınmışdır. Afrorizmlər işlətməkdə mahir sənətkar olan Mirzə Şəfi bu xüsusiyyətə hazırladığı "Kitabi-türki" əsərində də yer vermişdir. Onun hikmətli sözləri, dərin məna daşıyan şeirləri demək olar ki, bütün nəşrlərdə öz əksini tapmışdır. Mirzə Şəfi Vazehin əsərləri şərq aforizmləri ilə dolu idi. Onun aforizmləri insanları xeyirxah əməllərə, faydakı əməyə, ədalətə, cəsarətə, biliyə, özünü idraka, arifliyə, namusluluğa, açıqürəkliliyə səsləyir. Həmin fikirlər və tövsiyələr dahi şairin qabaqcıl dünyagörüşünü anlamağımıza kömək edir. Mirzə Şəfini oxuculara sevdirən başlıca cəhət onda dərin məna daşıyan hikmətli sözləri ifadə etmək məharətidir: "Üç keyfiyyət ancaq üç vəziyyətdə məlum olur: qəhrəmanlıq-döyüşdə, ariflik-qəzəb vaxtı, dost-ehtiyacda" [1, s. 85].

Atalar sözləri, lətifələr, nağıllar və müxtəlif şəkildə ifadə olunan hikmətli sözlər Mirzə Şəfi Vazehin yaradıcılığında bir növ yeni məna alırdı. Bildiyimiz kimi, XIX əsrin bir sıra görkəmli ziyalıları miniatür hekayələr yazmışlar. Azərbaycan ədəbiyyatında miniatür hekayənin inkişaf yolunu öyrənmək cəhətdən bu miniatürləri nəzərdə keçirmək olduqca maraqlı və əhəmiyyətlidir. "Üç görkəmli şairin-M.Ş.Vazehin, Seyid Əzim Şirvaninin, Mirzə Mehdi Şükuhinin nəsrlə miniatür hekayə yazmasının, əlbəttə, müəyyən ictimai səbəbləri var idi"[1, s. 85].

Miniatür hekayələrin yaranması bir növ pedaqoji tələblərin ehtiyacından, didaktik prinsiplərin tələbindən, yeni tədris üsulundan yaranmışdır. Yeni məktəb yeni tədris vəsaiti tələb edirdi; yeni dərsliyə bədii ədəbiyyatın əlavə olunması vacib şərtlərdən biri idi. Görkəmli şairləri- Mirzə Şəfi Vazehi, Seyid Əzim Şirvanini mənsur hekayəyə sövq edən, bu janrda müəyyən islahat aparmağa çalışan həmin bu məqamlar, pedaqoji tələblər olmuşdur. Həmin ziyalılar yeni tipli məktəbin yeni tipli müəllimləri olduğundan onların qarşısında məktəb üçün uyğun tələblərə cavab verən Azərbaycan dili və ədəbiyyat dərslikləri tərtib etmək vəzifəsi qoyulmuşdu. Mirzə Şəfi Vazehin hazırladığı "Kitabi-türki" əsərində "Məzhəkələr" adlandırdığı bölümdə yer alan miniatürlərin bir çoxunun iştirakçısı qazılar, dərvişlər, xəsislər, oğrular və axmaqlardır. Onların obrazı ilə şair həyatda baş verən xəyanəti, mənfi halları, pis sifətləri tənqid etmiş, cəmiyyəti nadanlıqdan qurtmaq üçün əlindən gələni etmişdir. Mirzə Şəfi Vazehin pedaqoji görüşlərində əsas yer tutan məqam xalqı elm, bilik, maarifə səsləmək, onları nadanlıq əsarətindən qurtarmaq olmuşdur. Bu xüsusiyyət şairin həm şeirlərində həm də yaratdığı dərslikdə öz əksini tapmışdır. Aşağıdakı göstərilən şairə məxsus misralar bu fikri bir daha təsdiq edir:

"Təəccüb etməyin ki, nəğməkarın
Qəlbi hikmətlə doludur.
Hikmətlərimlə şıltaq gəncliyim,
Ancaq şeirlərimdə qovuşur" [2, s. 37]

Dərslikdə hikmətli sözlər, müdrik kəlamlar, lətifələr, tərbiyələndirici hekəyələr, əxlaqi mətnlər yer almışdır. Diqqətə çatdırılması bilinən vacib məqam isə hər hikmətli söz dərslikdə əks olunduqdan sonra onun rus dilində tərcüməsinin verilməsi idi. Bu yolla şagirdlər həm Azərbaycan dilinə, həm də rus dilinin lüğətinə yiyələnmiş olunurdular. Pedaqoji fəaliyyəti boyunca onun dərs keçdiyi müddət ərzində istifadə etdiyi metodiki üsullardan başlıcası nəsihət yolu ilə insanları

doğru yola çəkmək olmuşdur. Şairin pedaqoji fəaliyyətinə diqqqətlə baxsaq, onun metodiki fikirlərinin qənaəti olan "Kitabi-türki" dərsliyində yer alan mətnlərin hər birinin sonunda hekayənin məzmununa uyğun bir neçə hikmətli söz verilmişdir. Dərslikdə yer alan lətifələr həcminin yəğcamlığı diqqət cəlb edir. Fikrimizcə, onların həcminin yığcamlığı şagirdlərin yaş xüsusiyyətlərini nəzərə alaraq hazırlanmağından irəli gəlmişdir. Bildiyimiz kimi, Mirzə Şəfi Vazeh iki şəhərdə, yəni həm Tiflis, həm də doğma vətəni, Nizami yurdu Gəncə şəhərində şəhərində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. İlk olaraq fəaliyyətinə Gəncə şəhərində başlayan şair əvvəllər yüksək mənsəbə sahib olan ailələrin övladlarına xəttatlıq sirlərinin sənətindən dərs keçərək güzəranını keçirmiş, sonradan isə böyük ustada olmazın təzyiqlər səbəbindən o, öz yurdunu tərk edərək Tiflisə köçmüşdür. Tiflisdə olduğu zaman Mirzə Şəfi pedaqoji fəaliyyətini inkişaf etdirmişdir. Əvvəl başladığı zaman Tiflis qəza məktəbində, daha sonra isə gimnaziyasında fəaliyyət göstərmişdir. Onun burada dərs dediyi şagirdlərdən biri məşhur şəxsiyyət, Almaniyadan gələn şərqşünas Fridrix Bodenştedt olmuşdur. Mirzə Şəfinin pedaqoji fəaliyyəti ilə bağlı bir çox məlumatı elə həm şagirdi, həm də dostu olmuş Fridrix Martin fon Bodenştedtin sayəsində alırıq. Onun xatirələrini oxuyan zaman müəllimi Mirzə Şəfinin pedaqoji fəaliyyəti ilə həm tanış oluruq, həm də metodiki görüşlərinə yiyələnirik. Fridrix Bodenştedt xatirələrində yazır ki, Mirzə Şəfinin mənə dərs dediyi müddətdə mən onun dərslərə kitab gətirdiyini görməmişdim. Ustad hər zaman hansı mövzudan bəhs edirdisə, onu bədahətən danışırdı. Qeydlərdən göründüyü kimi, Mirzə Şəfinin kitaba və ya hansısa digər vəsaitə ehtiyacı yox idi. Şagirdləri müstəqil düşüncəyə, fikrə istiqamətləndirən Mirzə Şəfi üçün hər hərf, söz özündə bir mistik məqamı əks etdirirdi. Ona görə də şair söylədiyi şeirlərin mənasının izahını şagirdlərin öz öhdələrinə buraxırdı. Bunu Fridrix Bodenştedtin qeydlərindən də aydınca görürük: "Mirzə Şəfinin şeirlərində həmişə ərəb sözləri işlənərdi. Biz buna tez-tez rast gələrdik. Çalışırdıq ki, bu sözlərin mənasını özümüz tapaq. Mirzə Şəfi "gözəl sözlərdir" deyib mənasını aydınlaşdırmağa ehtiyac duymazdı" [2, s. 38]. Şagirdinin xatirələrindən də aydın olduğu kimi, Mirzə Şəfi dərs zamanı mənası aydın olmayan kəlamların izahını şagirdlərin özlərinin izah etməsinə şərait yaradardı. Bu kimi qeydlər və şairin metodiki görüşlərini əks etdirən dərsliyi, "Kitabi-türki" Mirzə Şəfinin pedaqoji fəaliyyətinə daha dərindən bələd olmağımıza əsas verir. Onun hazırladığı tədris vəsaiti dövrünün təhsil ocaqlarında geniş şəkildə istifadə olunmuş və bu dərslik özündən sonra bir çox tədris vəsaitlərinin hazırlanmasında əsas, özül rol oynamışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Bayramov A. Nəğmələr şairi Mirzə Şəfi Vazehin ədəbi irsi, Bakı: Nurlan, 2008, 158 s.
2. Bodenştedt F. Mirzə Şəfi haqqında xatirələr. 2-ci nəşr. Bakı: XAN, 2015, 136 s.
3. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ABU, 2001, 320 s.
4. Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Şərq-Qərb, 2007, 400 s.
5. Məmmədov X. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: CBS, 2006, 212 s.

Açar sözlər: Mirzə Şəfi Vazeh, "Kitabi-türki", Fridrix Bodenştedt, nəsihətlər, hikmətli kəlamlar, pedaqoji fikirlər.
Key words: Mirza Shafi Vazeh, "Kitabi-turki", Friedrich Bodenstedt, advices, wise sayings, pedagogical ideas.
Ключевые слова: Мирза Шафи Вазе, «Китаби-тюрки», Фридрих Боденштедт, советы, мудрые изречения, педагогические идеи.

Xülasə

Mirzə Şəfi Vazeh Azərbaycanın dahi şairlərindən biridir. Onun irsi istər öz doğma yurdu Azərbaycanda, istərsə də Qərb ölkələrində uzun müddətdir ki, araşdırılır və diqqət cəlb edir. Mirzə Şəfi Vazeh böyük şair olmaqla yanaşı, həm də istedadlı pedaqoq idi. Hazırladığı "Kitabi-türki" dərsliyi də buna əyani sübutdur. Dərslik şairin pedaqoji görüşlərini əks etdirən qiymətli mənbədir və uzun müddət həmin dövr təhsil olcaqlarında tədris vəsaiti kimi istifadə olunmuşdur.

Summary

Mirza Shafi Vazeh is one of the genius poets of Azerbaijan. His legacy has been studied and attracted attention for a long time both in his native Azerbaijan and in Western countries. Besides being a great poet, Mirza Shafi Vazeh was also a talented teacher. The textbook "Kitabi-turki" prepared by him is a clear proof of this. The textbook is a valuable resource that reflects the poet's pedagogical ideas and was used as a teaching tool in educational institutions of that period for a long time.

Резюме

Мирза Шафи Вазе – один из гениальных поэтов Азербайджана. Его наследие долгое время изучалось и привлекало внимание как в родном Азербайджане, так и в странах Запада. Мирза Шафи Вазе был не только великим поэтом, но и талантливым учителем. Подготовленный им учебник «Китаби-турки» является ярким тому подтверждением. Учебник представляет собой ценный ресурс, отражающий педагогические идеи поэта и долгое время использовался как учебное пособие в учебных заведениях того периода.

RƏYÇİ: dos. S.Abbasova

Aişə Elşən qızı Məmmədova [125]

XƏTİB TƏBRİZİNİN TƏQDİMATINDA ŞEİRİN QÜSURLARI

Giriş. Azərbaycan xalqının görkəmli nümayəndələrindən biri, ərəb dilçiliyinə və ədəbiyyatına böyük töfhlər verən, 11-ci əsrin ən böyük ədəbiyyatşünası və dilçisi olan Yəhya Əli oğlu Xətib Təbrizi Azərbaycan xalqının Şərq regionunda ən əhəmiyyətli şəxsiyyətlərindən biridir [6, s. 28].

Alimin elm aləminə məlum olan 20-yə yaxın traktatı var. Onlardan ən məşhuru "Kitab əl-kafi fi-l-əruz va-l-qavafi", "Əruza və qafiyə elminə dair kifayət edən kitab" əsəridir. Kitabın yazı tərzindən, dilindən və məzmunundan bəlli olur ki, kitabın yazıldığı dövrə qədər bu mövzuda heç bir kitab qələmə alınmamışdır. Onu da qeyd etmək yerinə düşərdi ki, bu əsər Azərbaycan ədəbiyyatşünaslığının bizə gəlib çatmış ilk əsəridir. Xətib Təbrizi Azərbaycan ədəbiyyatşünaslığının formalaşmasında və tərəqqisində əvəzsiz rol oynayır. Belə ki, alimin əsərləri dünya miqyasında şöhrət qazanmış və dəyərli qaynaqlar kimi tanınmaqdadır [7].

Ərəbdilli mədəniyyətimizin mühüm abidələrindən olan "Kitab əl-kafi fi-l-'əruz və-l-qavafi" əsəri dövrünün ensiklopedik kitablarından biri olub əruz və qafiyə elmlərindən, şeirin nöqsanları və bədii ifadə vasitələrindən bəhs edir. Əsər müəyyən dərəcədə məani və bəyan elmlərinin bəzi məsələlərini də özündə ehtiva edir. Kitab elm aləmində daha çox "əl-Kafi..." adı ilə tanınmış və məşhurlaşmışdır. Xətib Təbrinizinin ömrünün son illərində başa çatdırdığı bu traktat dövrünün geniş yayılan və istifadə edilən dərsliklərindən olmuşdur. Əsər əsrlər boyu poetikaya dair əsas dərslik hesab edilərək əsrimizin əvvəllərində belə öz dəyərini itirməmiş, Misirdəki "əl-Əzhar" Universitetində son vaxtlara qədər dərslik vəsaiti kimi istifadə edilmişdir. Traktatın geniş yayılmış olduğunu bizə gəlib çatmış əlyazmalar və orta əsr alimlərinin fikirləri də sübut edir. Məsələn, türk alimi Əhməd Əfəndi Taşköprüzadə əsərin yayılmış və tanınmış olduğunu qeyd edərək göstərir ki, o "əl-Kafi..."ni poetika nəzəriyyəsinə dair qiymətli işlərdən biri hesab edərək əruza aid məsələləri aydınlaşdırarkən Xətib Təbrizinin kitabından bəhrələnmişdir. Şair Əhməd ibn Abdullah Fulcinin "əl-Kafi..."ni şeirə çevirməsi buna canlı sübutdur. Belə ki, orta əsrlərdə yazı ləvazimatlarının az tapılması ucbatından və onlar çox baha olduğuna görə tədris edilən qiymətli elmi əsərləri şeirə çevirirdilər ki, onu əzbərləmək asan olsun.

Şeirin qüsurları. Xətib Təbrizi öz əsərində şeirin qüsurlarına da toxunur və biz bu haqda daha geniş məlumat vermək istərdik. O, bu qüsurları 8 müxtəlif formalara bölür belə ki, onlar iqva, ikfə, iyta, sinad, tadmin, icazə (icarə), rəməl və təhriddən ibarətdir. Bununla yanşı qüsur kimi görünüb amma qüsur olmayan məsələlərə də toxunur.

İQVA - buraxma, tam olmayan qafiyə. Qısaca bu hadisəyə tərif versək belə olar: Bir qəsidədə rəvi hərfinin hərəkələrin birinin digərindən fərqlənməsi hadisəsidir. İqva, beytin birinin adlıq halda, digər beytin isə yiyəlik halda verilməsindən irəli gəlir [2, s. 166].

Bəs rəvi hərflər nədir: Rəvi hərflər qəsidənin əsaslandığı və üzərində qurulduğu hərfə deyilir. Başqa sözlə desək beytdə sonuncu samit hərfdir. Rəvi hərfi qafiyənin ən mühüm hərflərindən biri hesab olunur. Şair qəsidəsində onu əsas tutaraq onu təkrarlayır. Ona görə rəvi adlanır ki, رأي (düşüncə) kökündən götürülüb. Qafiyə ilə rəvi hərfini səhv və ya eyniləşdirmək olmaz. Çünki qafiyə hərflərin məcmusundan rəvi isə yalnız əsas samit hərfdən ibarətdir.

صُنتُ نَفسي عَمّا يُدَنِّسُ نَفسي — وَتَرَفُّعتُ عَن جَدا كُلِّ جِبسِ
وَتَماسَكتُ حينَ زَعزَعَني الدَه — رُ إِلتِماساً مِنهُ لِتَعسي وَنَكسي
بُلِّغُ مِن صُبابَةِ العَيشِ عِندي — طَفَقَتها الأَيّامُ تَطفيفَ بَخسِ
وَبَعيدٌ مابَينَ وارِدِ رِفَهٍ — عَلَلٍ شُربُهُ وَوارِدِ خِمسِ

[1, s. 18]

Nümunədən görüldüyü kimi (sin) ravi hərfi (cibsi), (nəksi:), (bəhsi), (ximsi) isə qafiyədir. Xəlil və onun tərəfdarları deyirlər ki, bu qətiyyən ola bilməz. Kufəli Mufaddal Dabi isə bunu mümkün saymışdır. İqvanın mənası budur: Əgər kəndirin düyünlərindən biri boşalsa, onda onu buraraq bərkidirlər elə buna görə də qafiyələrdən birinin qəsidənin başqa qafiyələrindən məcrinin hərəkələrinə görə fərqlənməsi hadisəsinə əqva, yəni qafiyələr arasında ixtilafin olması deyildir. Azərbaycan ədəbiyyatında dahi Mirzə Ələkbər Sabirdə Əruzun bu qüsurundan yan keçməmiş və Əkrəm Cəfər öz əsərində belə qeyd edir: "Burada Sabir "yanğın" ilə "məftun" sözlərini qafiyələndirir. Nöqsandır, çünki birində dayaq eşi qalın damaq saiti "ı", ikincisində qalın dodaq saiti "u"dur. Buna ərəb və fars qafiyəşünaslığında "iqva" şəı tövcihin /dayaq sait eşinin/ ixtilafi deyilir. Qafiyənin qüsurlarından sayılır, maşın /II, 8/ eyn/göz. /I, 194/ beyn/beyin sözü təsirlik halında /I, 194/ huri-eyn /III, 132/ Burada da Sabir "eyn" ilə "bərin" sözlərini qafiyələndirib, dayaq eşlərində ixtilafa /ol verib, "i" və "y" biri sait, biri samit. Qüsurdur, amma bunu qulaq qafiyəsi baxımından qüsur saymamalıdır" [3, s. 84].

İKFƏ - arxası üstə firlanma, çevirmə mənalarını verir. Qısaca belə desək bir qəsidədə ravi hərflərinin bir-birindən fərqlənməsidir. Bu hadisə əksər vaxt tələffüzləri bir-birinə yaxın olan hərflər arasında baş verir [2, s. 168]. Bəzən "İkfa"nı "iqva"ya bənzədənlər də olur. Buna görə də rəvi hərfləri ya da ki, onların hərəkələri bir-birindən, fərqlənərkən şeirdə olan eyib belə adlanır. Fahrat/Fərhad. dialektdə. 1,190/ Qafiyə elmində "d" səsini "t" səsilə əvəz etməyə "ikfa" deyilir. İcazəlidir [3, s. 106].

IYTA - Bir qəsidədə bir qafiyənin eyni mənada təkrarlanmasidir. Məsələn البنت və بنت (məlum qız və qız). Əgər bu sözlər müxtəlif mənalar daşısaydı, onda iyta olmazdı. Məsələn بنت مجهولة və بنت مشهورة (tanınmış qız və tanınmamış qız). Sözlərin biri fel mənasında, digəri isə ad qruplu mənada işlədilsəydi onda yenə də iyta olmazdı [2, s. 169].

[125] Bakı Dövlət Universitetinin magistrantı, mamedovaaisha60@gmail.com

Bütün əruzçular qafiyənin necə təkrar olunması barəsində müxtəlif fikirlərə sahibdirlər. Xəlil bu barədə demişdi ki, qafiyə vəzifəsini daşıyan hər bir söz eyni tələffüzlə başqa bir beytin sonunda təkrar olunarsa və qafiyəyə aid amillər bu sözlərin üzərinə düşürsə bu sözlərdə özünü büruzə verirsə, onda onların məna birliyindən və ya fərqindən asılı olmayaraq, bu iytadır.

Əxfaş Səid bin Məsadə iyta haqqında deyir ki, الرجل (məlum kişi) və الرجل (kişilik) mənasında və ya ذهب (getmək) və ذهب (qızıl) mənasında işlənərsə bu zaman bu iyta adlanacaq. Mənim fikrimə gəlincə mən də ƏlƏxfaş ilə eyni fikirdəyəm. Lakin Xəlildən başqalarını- Müərrix, Əxfaş, Nadr bir Şumeyl, Cormi və s. gəlincə onlar deyirlər: Əgər sözlərdə məna fərqi vardırsa, tələffüz fərqi isə yoxdursa, bunu iyta hesab etmirlər. Əgər qafiyəni təyin edən amillər özünü göstərirsə onda iytadır. Bununla yanaşı Azərbaycan xalqının qüruru və əruz vəznin şahı adlandırılan Məhəmməd Füzuli də iytadan çox gözəl şəkildə istifadə etmişdir. O, öz həcəz bəhridə yazmış olduğu "*Məni candan usandırdı"* qəzəlində iytadan istifadə etmişdir burada "usanmazmı" sözündən bir ilk beytində bir də son beytində istifadə edib ilk beytdə istifadə etdiyi "usanmaq" kəliməsinin mənası "yorulmaq, bezmək" mənalarını versə də son beytdə istifadə etdiyi "usanmaq" sözü qədim türk dilində ki "us" sözündəndir və "sağalmaq, şəfa tapmaq" mənasını verəcək. Şair şeirin ilk beytində onu canından bezdirən sevgilisinin əziyyət verməkdən bezmədiyini soruşur. Sonuncu beytdə isə sevdanın bir xəstəlik olduğunu və bu xəstəlikdən necə şəfa tapmaq olar və xəstəliyin dərmanını soruşur.

Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?
Füzuli rindü şeydadır, həmişə xəlqə rüsvadır,
Sorun kim, bu nə sevdadır, bu sevdadan usanmazmı?

SİNAD - bel, arxa tərəf, dayaq, sübut, mənbə və s. kimi müxtəlif mənaları bildirir. Sinadın beş növü var.

1. Təsisli sinad - Yəni beytin biri təsisli, o birisi isə təsissiz gəlir.
2. Həzvli sinad – rədifdən qabaq gələn hərəkə həzvli sinad adlanır. Əgər damma kəsrə ilə gəlirsə eyib hesab olunmur.
3. Təvcihli sinad- müqəyyədli ravi hərfindən qabaq fəthənin damma ilə və ya kəsrə ilə gəlməsidir. Əgər damma kəsrə ilə gəlirsə sinad hesab olunmur. Xəlilə görə əgər fəthə kəsrə və damma ilə gələrsə, bu sinaddır. Səid bir Müsadə isə bunu sinad hesab etmir. Çünki belə hallar ərəb şerində çoxdur. Bu, İmrul-Qeysin söylədiyi kimidir [4, s. 154].
4. İşbəli sinad - dəxilin hərəkəsinin dəyişilməsidir. Əgər damma kəsrə ilə gələrsə bu eyib hesab olunmur. Əgər fəthə bu hərəkələrdən biri ilə işlənərsə onda eyib hesab edilir.
5. Ridfli sinad- beytin birinin ridfli, o birisinin isə ridfsiz gəlməsidir

Sinad sözünün əsli bu ibarədən götürülmüşdür. Əgər bir şeyi yükləmisənsə və ya ona nəsə əlavə eləmisənsə, onda ona dayaq qoymalısan. Ya da deyirlər: Filan qəbilə arxalı, dayaqlı halda döyüşə çıxdı. Yəni onlar müxtəlif bayraqlar altında birləşmiş şəkildə vuruşa çıxdılar. Ancaq onlar ayrı-ayrı qala bilələrdir və bir-birinə bənzəmirlər. Qəsidə də belədir. O heç də adət etdiyimiz qafiyə nizamına və ardıcıllığına görə yaradılmamışdır və bu elə əvvəldən də açıq-aydın nəzərə çarpırdı.

TADMIN - qoyma, vermə, daxil etmə, öz fikrini işarə ilə demə ve s. kimi mənaları bildirir. Birinci beytin qafiyəsinin ikinci beytin qafiyəsindən asılı olmasıdır. İlqar Fəhminin qəzəlini nümunə göstərə bilərik [2, s. 168].

Mən ki öz şeirimə bükdüm
qəmi misra-misra,
Qəm də şeirimlə gəzir
aləmi misra-misra.

Dərdimi bildi təbibim, mənə
bir şeir oxudu,
Sanki çəkdi yarama
məlhəmi misra-misra.

Birinci beytin məna dolğunluğu ikinci beyt olmadan tam olmadığı üçün ona tadmin, yəni, birləşdirmək, daxil etmək adı verilmişdir. Qısaca desək, üç şair ilk beytdə dərdi olduğunu ikinci beytdə isə təbibin onun yarasına mərhəm çəkdiyini bildirir. Tadmının başqa bir növü vardır ki, burada da birinci beyt tam mənaya malikdir və təfsirsiz yəni izahsız, izaha ehtiyacı olan cümlələrdən ibarətdir. İkinci beyt bu cümlələri izah edir, yəni birinci beyt ikinci beytin olmasını tələb edir.

İCAZƏ - icazə, razılıq, attestat, diplom, kimi müxtəlif mənaları var. İkfənin yuxarıda adını çəkdiyimiz növlərindən birinə oxşayır. İkfə bir qəsidədə ravi hərfi ilə tələffüzü ona yaxın olan başqa bir hərfin gəlməsidir. İcazədə isə bu hərflər öz tələffüzlərinə görə bir-birindən uzaq olurlar. Məhz buna görə də onu ikfədən ayıraraq başqa bir ad icazə adı vermişlər ki, ikfə və icazə arasında fərq olsun. Bəxtiyar Vahabzadənin qəzəllərindən birini nümunə kimi göstərə bilərik.

Yatmayıb sübhə qədər yar yolunu gözləsin o,
Ona can – can deyərək canını qurban eləsin.

Düşünüb söyləsin o, incə məqam sözlərini,
Dilini lal eləyib, gər özünə ram eləsin.

RƏMƏL - qum, müəllif tərəfindən yazılmamış hər bir hər hansısa bir zarafatyana söz, və s. kimi adlar vermişlər amma əruzçular bu barədə müəyyən bir şey deməmişlər.

TƏHRİD - qurşaq yaratma, qübbə yaratma qısaca desək şerin zərblərinin fərqlənməsidir. Bu əruz elmində özünü göstərir. Məsələn: Mədid bəhrinin zərbində fə'lündən sonra fə'ilün gəlir. Bu bəsit bəhrində də belədir. Təhrid sözü bə'ir əhrad (axsaq dəvə) sozündən götürülmüşdür. Yol gedən vaxt ayağının birini yerə basmayan dəvə belə adlanır. Şerdə də qaydadan

kənara çıxmaq hallanı nöqsan sayılır və bu nöqsan təhrid adlanır. Alimlər şe'rin eyibləri içərisində "nasb" ve "bəv"in də adını çəkmişlər.

NASB - qurma, qoyma, təyin etmə, yalan, heykəl, bitki, şitil kimi mənaları var. Onlara görə nasb cüz, şatr və nəhkə uğramayan bütöv şerdə sinadın olmadığı hər bir hissədir. Bu eyib deyildir. Çünki şerdə eybin olmaması nöqsan sayılmır. Əbul-Fəth ibn Cinni demişdir: Bütöv şerdə bütün qafiyələr heç bir dəyişikliyə uğramadıqda bu nasb adlanır. Elə bil ki, onun kimisi tam, doğru və dolğun şerdə yox idi. Buna görə də onu ayıraraq ayrıca ad vermişlər ki, bu da bu barədə mövcud olan fikrə əksdir.

BOV - O da nasb kimidir. Bu, alimlər tərəfindən müstaqbihsiz sinaddan müstəhsini ayırmaq üçün işlədilən addır.

MÜSTƏQHİB – qəbahətli, kobud, xoşa gəlməyən və s. kimi mənaları verir. Fəthənin damma və kəsrə ilə birlikdə işlənməsidir.

MÜSTƏHSİN - gözəl, xoşa gələn, layiqli, istənilən və s. kimi mənaları var. Damma və kəsrənin işlədildiyi qafiyədir. Bu da həmçinin eyib hesab olunmur.

MUQADDİR - Göstərilməsi qaçılmaz olan şerin eyiblərindən biri də muqaddir (adi qaydada hərəkət etməkdən məhrum olan, iflic olmuş, şikəst, əlil) mənalarını verir. O kamil bahrinə aiddir. O, şairin kamil bəhrində yazdığı şeirdə birinci əruzdan çıxaraq ikinci əruza, ikinci əruzdan isə birinci əruza keçməsidir.

Nəticə. Bu kitab orta əsrlər şəraitində dərslik tərtib etməyin nümunəsi sayıla bilər. O, özünə qədər həmin mövzuda yazılmış əsərlərdən bir çox üstünlükləri ilə fərqlənir. Bu sahədə Xətib Təbrizidən sonra yazılmış hər bir əsər praktik şəkildə müəyyən dərəcədə alimin fikirlərini "nəzərə alır", onun müddəaları, forma və məzmunu ilə hesablaşırdı. Bunu təkcə ərəb dilində yazılmış traktatlarda deyil, həm də fars və türk-Azərbaycan dillərində yazılmış əsərlərdə də açıq-aydın görmək olar. Əruzşünaslar və şeir nəzəriyyəçiləri heç də hər dəfə əsərlərini yazarkən Xətib Təbrizinin bu traktatına əsaslandıqlarını göstərməsələr də, forma və məzmun uyğunluğu, misal gətirilmiş şeir nümunələrinin çoxunun eyniliyi, ifadə tərzinin oxşarlığı və başqa cəhətlər belə bir fikri irəli sürməyə imkan verir. "Kafi..."nin geniş yayılmasına baxmayaraq, orta əsr mənbələrində onun məzmun və forması barəsində demək olar ki, heç bir məlumat verilmir. Əl-Ənbəri, Yaqut əl-Həməvi, al-Yafii və başqaları öz əsərlərində kitabın Xətib Təbrizinin qələminə məxsus olduğunu qeyd etməklə kifayətlənmişlər [5, s. 68]. Çox güman ki, onlar əsərin geniş yayıldığını və elm aləmində məşhur olduğunu, əsərin öz adının elə onun məzmunundan xəbər verdiyini nəzərə alaraq bu barədə artıq məlumatı lüzumsuz biliblər. "Kitab əl-kafi fi-l-'əruz və-l-qavafi" əsəri aşağıdakı dörd sahəni əhatə edir: 1. Əruz elmi. 2. Qafiyə elmi. 3. Şeirin qüsurları. 4. Şeir yazarkən yaradarkən/ bilməyi vacib olan məsələlər Bədii ifadə vasitələri. Biz bu dəfə Azərbaycan şeir nümunələrindən sitat gətirərək qüsurları haqqında ətraflı danışmaq istədik.

İstifadə edilmiş ədəbiyyat

Ərəb dilli mənbələr:

1. الديوان "العصر العباسي البحتري" صنت نفسي عما يدنس نفسي
2. كتاب الكافى فى العروض والقوافى للخطيب التبريزي

Azərbaycan dilli mənbələr:

3. Əkrəm Cəfər. Mirzə Ələkbər Sabir şeirinin qafiyə lüğəti. Bakı, 2005.
4. İmrul-Qeysin; divanı.
5. Quliyev T. Anadilli əruz vəznli şeirimizin poetik inkişaf yolu. Bakı, 2011
6. Babayeva Z. Xətib Təbrizi Azərbaycan Mətnşünaslığının ön sözü. Bakı, 2022

İnternet resursları:

7. https://az.wikipedia.org/wiki/X%C9%99tib_T%C9%99brizi

Açar söz: qafiyə, qüsur, ədəbiyyat, dilçilik, şeir

Key words: rhyme, flaw, literature, linguistics, poetry

Ключевые слова: рифма, дефект, литература, языкознание, поэзия

Xülasə

Yəhya Əli oğlu Xətib Təbrizi 11-ci əsrin ən böyük ədəbiyyatşünası və dilçilərindən biridir. Onun "əl-Kafi" əsəri və əsərində toxunduğu məqamlar dövrünə qədər ən kamili hesab olunur. "əl-Kafi" əsəri Azərbaycan ədəbiyyatında da əhəmiyyətli yerə sahibdir. "əl-Kafi" əsərində Xətib Təbrizi şeirin qüsurlar və qüsur kimi görünüb amma qüsur olmayan məqamlar haqqında danışmışdır. O, bu qüsurları 8 müxtəlif formalara bölür belə ki, onlar iqva, ikfə, iyta, sinad, tadmin, icazə (icarə), rəməl və təhriddən ibarətdir. Hər biri haqqında danışır və ərəb ədəbiyyatından nümunələr ilə izahını verir. Bu nümunalər həm cahiliyyə dövründə yazılmış ədəbiyyat nümunələrindən həm də islamdan sonra yazılmış ədəiyyat nümunələrindən ibarətdir. Ötən əsrlərə qədər "əl-Kafi" əsəri "əl-Əzhar" Universitetində dərslik vəsaiti kimi istifadə olunub. Həmçinin bu əsər nəsrdən nəzmə keçirilmişdir ki, tələbələr tərəfindən daha rahatlıqla öyrənilsin. Burada əruz vəznin bəhrləri olduqca geniş şəkildə müqaisəli izahı ilə fərqlənir. Burada Xətib Təbrizi digər əruzşünasların fikri ilə öz fikrilərini müqaisə edir. Elə buna görə də bu kitab "Əruza və qafiyə elminə dair kifayət edən kitab" adlandırılmışdır.

Summary

The son of Yahya Ali, Khatib Tabrizi is considered the greatest literary critic and linguist of the 11th century. His work "al-Kafi" and the points he touched on in his work are considered the most complete up to his time. The work "al-Kafi" has an important place in Azerbaijani literature. In his work "Al-Kafi", Khatib Tabrizi talked about the flaws and moments of the poem that appeared to be flaws but were not flaws. He divides these defects into 8 different forms such as iqwa, ikfa, iyta, sinad, tadmin, permission (ijara), ramal and tahrid. He talks about each one and explains it with examples from Arabic

literature. These examples consist of examples of literature written during Jahiliyyah and examples of narration written after Islam. Until the last centuries, the work "al-Kafi" was used as a textbook in "al-Azhar" University. Also, this work has been translated from prose to verse so that it can be studied more easily by students. Here, the fruits of Aruz Vaz are quite widely distinguished by their comparative explanation. Here, Khatib Tabrizi compares his opinion with the opinion of other scholars. That is why this book is called "the sufficient book on the science of rhyme and rhyme".

Резюме

Хатиб Тебризи, сын Яхьи Али, считается величайшим литературным критиком и лингвистом 11 века. Его труд «Аль-Кафи» и те моменты, которые он затронул в своем труде, считаются наиболее полными для своего времени. Произведение «Аль-Кафи» занимает важное место в азербайджанской литературе. В своей работе «Аль-Кафи» Хатиб Тебризи рассказал о недостатках и моментах стихотворения, которые казались недостатками, но не были недостатками. Он делит эти недостатки на 8 различных форм, таких как иква, икфа, ийта, синад, тадмин, разрешение (иджара), рамал и тахрид. Он рассказывает о каждом из них и объясняет это примерами из арабской литературы. Эти примеры состоят из примеров литературы, написанной во времена джахилии, и примеров повествований, написанных после ислама. До последних столетий труд «Аль-Кафи» использовался в качестве учебника в университете «Аль-Азхар». Кроме того, это произведение было переведено с прозы на стихи, чтобы студентам было легче его изучать. Здесь плоды Аруз Ваз довольно широко выделяются по сравнительному объяснению. Здесь Хатиб Тебризи сравнивает свое мнение с мнением других ученых. Вот почему эту книгу называют «достаточной книгой по науке о рифме и рифме».

RƏYÇİ: dos. S.Abbasova

Şöhrət Nüsrət qızı Məmmədova [126]

XANIMANA ƏLİBƏYLİNİN POEMALARINDA FOLKLOR MOTİVLƏRİ

Giriş. Azərbaycan uşaq ədəbiyyatının keçdiyi tarixi inkişafın təbii və məntiqi nəticəsi kimi həmin ədəbiyyatı tədqiq edən uşaq ədəbiyyatı haqqında elm yaranmışdır. Uşaq ədəbiyyatı haqqında elm əsrlər boyu bilavasitə uşaqlar üçün yaradılmış, eləcə də yaşlılar üçün yazılmış, lakin uşaq mütaliəsinə daxil olan əsərlərin seçilməsi və qiymətləndirilməsi meyarlarını müəyyənləşdirir, həmin əsərlərin ədəbiyyat tarixində rolunu aydınlaşdırır, müasirlik baxımından əhəmiyyətini tədqiq edir.

Uşaq ədəbiyyatının kökləri də ədəbiyyatın digər qolları kimi xalq yaradıcılığına söykənir. Uşaq ədəbiyyatı özündə güclü ideya və mənəvi yük daşıyır. Ədəbiyyatın bu sahəsi özündə dərin humanizm hissini tərənnüm edir, xalqın istək və arzuları, düşmənə nifrət duyğusunu əks etdirir. Uşaqlar tarix boyunca bu ədəbiyyatla tərbiyə olunmuş, xalqın sevinci, adət və ənənələri nəğmələrə, bayatılara hopdurulmuşdur.

Uşaq ədəbiyyatının ustad sənətkarı Xanımana Əlibəyli öz yaradıcılığında folklordan mötəbər mənbə kimi istifadə etmişdir. Onun yaradıcılığına nəzər yetirdikdə folklora bağlılıq bütün əsərlərində: şeirlərində, poema və pyeslərində geniş şəkildə özünü biruzə verir. Xanımana Əlibəylinin yaradıcılığının folklora bağlılığı onun bu ədəbiyyat vasitəsilə uşaqları tərbiyə etmək, onlarda mənəvi-estetik tərbiyəni formalaşdırmaq istəyi ilə əlaqədardır.

Əsas. Xalq ədəbiyyatının ən başlıca xüsusiyyəti optimizm və lakoniklikdir. Uşaq folkloru kimi uşaq ədəbiyyatı da yüksək fantaziyalara əsaslanır. Uşaq ədəbiyyatında hadisələr həyat reallığı ilə yanaşı, al-əlvan fantaziyalar, parlaq rənglərlə əks olunur. Bu baxımdan X.Əlibəyli də folklorun bu spesifik keyfiyyətlərindən şeirlərində, poema və dramlarında əsas amil kimi yararlanmışdır.

Xanımana Əlibəylinin 1985-ci ildə çapa hazırladığı "Nağıllar" adlı kitabına folklor ənənələri əsasında yazdığı poema və pyeslərini daxil edilmişdir. Kitabda "Üç yoldaş", "Mən sevirəm doğma yurdu", "Ay əfsanəsi", "Mərcanqulu əfsanəsi", "İsa və Musa", "Dınqılda, sazım, dınqılda" , "Aman ovçu", "Mənim toyuğum çillidi", "Ulduzların qucağında", "Xoruz və hökmdar" və b. poemaları, "Cunquş", "Şəfalı quş", "Dovşanın ad günü", "Günəşin zərrələri", "Aycan" pyeslərini daxil etmişdir. Təəssüflər olsun ki, müəllif ə bu kitabı çap etdirmək nəsib olmamışdır.

"Mərcanqulu əfsanəsi" poeması müəllifin orijinal mövzuda yazdığı nağıl-poemadır. Poema klassik nağıllar kimi "Biri var idi, biri yox idi" sözləri ilə başlayır. Poema müəllifin dilindən verilir. Sahilə dincəlməyə, mərcanqulu yığmağa gələn uşaqlara "Mərcanqulu"nun necə yaranması haqqında nağıl danışmağa başlayır.

Müəllif "Mərcanqulu" poemasına türk və Azərbaycan dastanlarına məxsus olan övladın nəzir-niyazla doğulması süjetini daxil etmişdir. Poemada məhəbbət dastanlarına məxsus olan toy səhnəsinin təsviri (Quluya dənizlərin ən gözəl qızı Mərcanı alırlar. Toya bütün dəniz canlıları dəvət olunur. Qonaqlara hər cür nemət verilir) xüsusilə diqqəti cəlb edir. Poemada qoşa nağara, balaban kimi milli alətlərimizin adları çəkilir, hamı onların sədası altında rəqs edir. Bu milli çalğı alətlərimizin təsviri uşaqlarımıza milli-mədəni irsimizin təbliği üçün xüsusilə əhəmiyyətlidir. Qulunun düşməni Yaran Mərcanı toydan qaçırır, Qulu düşmənlə döyüşüb yaralanır. Düşməni məhv edir və Mərcanla əl-ələ verib sevgidən bir qala qururlar. Qalanın iki qülləsi olur biri Mərcan, biri də Qulu. Təsvir edilən bu hadisələr, sevgililərin vüsalı özündə məhəbbət və qəhrəmanlıq dastanlarının abu- havasını daşıyır.

Poemanın sonundakı şeir parçası maraqlı məznunu ilə seçilir:

Bir neçə dəymiş hulu
Göründü sulu-sulu
"Sağ ol"- deyib dənizə
Payladım onu sizə.
Hərənizə bir dənə,
Biri də qaldı mənə [3, s.15].

Gördüyümüz kimi burada nağılların sonunda deyilən "göydən üç alma düsdü" ifadəsini xatırladır. Poema nağıl sujeti əsasında yazıldığı kimi, nağıllar kimi də sona çatır. Bu poemada da müəllifin folklora yaradıcı münasibətini görürük. Sənətkar uşaqlara alma əvəzinə şaftalı paylayır. Şaftalının rəmzi-simvolik mənası xeyir, müvəffəqiyyət deməkdir. Uşaqların sevimli şairi də onlara sevinc, xoşbəxtlik paylayır.

Xanımana Əlibəylinin "Dınqılda, sazım, dınqılda", "İnadlı xoruz" poemalarının mövzu və sujeti bilavasitə Azərbaycan xalq nağıllarından götürülmüşdür.

"Dınqılda, sazım, dınqılda" poeması "Cik-cik xanım" xalq nağılının motivləri əsasında qələmə alınmışdır. Poemanın mövzusu eyni qalsa da, sənətkar əsas qəhrəmanı tez-tez dəyişir. Eləcə də hadisələrdə dəyişiklik etmişdir. Belə ki, folklorda nağılın əsas qəhramanı balaca sərçədir. Nağıl sərçənin başına gələn hadisələrdən bəhs edir. "Dınqılda, sazım, dınqılda" poemasının qəhrəmanı isə el arasında Dəyişdüyüş adlandırılan balaca bir oğlandır. Bu oğlanın qəribə xasiyyəti var idi, hər şeydən tez bezərdi. Bir gün nənəsi ona keçi verir, lakin bir müddətdən sonra Dəyişdüyüş keçidən sıxılır. Aparır dəyişməyə, insanlar ondan niyə belə etdiyini soruşanda, keçinin onu bezdirdiyini, bir yerdə dayanmadığını, artıq onu istəmədiyini deyir. O, bir çobana rast gəlir, çobanın quzusu ilə keçini dəyişir. Sazı alıb əlinə oxuyur:

Çəpiş verdim,
Aldım quzunu.

[126] **Filologiya üzrə fəlsəfə doktoru, dosent .ADPU. sohret.nesirova@mail.ru**

Dınqılda, sazım, dınqılda.
Sürünün gözəl bir ulduzunu
Dınqılda, sazım, dınqılda [2, s. 199].

Çox keçmir quzudan da bezir. O deyir: "Bu nədir səhər-axşam mələyirsən". Dəyişdüyüş quzunu qazla dəyişir. Qaz göy otları yeyib, dostlarını dimdikləyir. Dəyişdüyüş hirslənib qazı da dəyişməyə aparır. O, ağac dibində bir adam görür adamın əlində qələm var. Dəyişdüyüş adama dedi: - Qazımı qələminlə dəyişə bilərsən? Adam tez gülüb razı oldu. Dəyişdüyüş qələmi alıb , oxumağa başladı:

Qaz tökmüşdü zəhləmi,
Verib aldım qələmi,
Dınqılda, sazım, dınqılda [2, s. 201]*!*

O, qələmdən də bezdi. Qələm tamam zəhləsini tökmüşdü. Fikirləşdi ki, neynəyir qələmi, yazmağa hövsələsi yoxdur. Qələmi cibinə qoyub rəngli çəmənliyə getdi, orada bir kəsi tapmadı. Birdən bir qarı əlində ağ lələklə ona tərəf gəldi. O, qarıdan lələyi qələmlə dəyişməsini xahiş etdi. Qarı özünü bir az naza çəkib, lələyi qələmlə dəyişdi. Bundan sevinən Dəyişdüyüş oxumağa başladı:

Tökdü zəhləmi,
Verdim qələmi...
Dınqılda, sazım, dınqılda!
Aldım bir lələk,
Açmasın kələk,
Dınqılda, sazım, dınqılda [2, s. 202]*!*

Lələyi saçına taxıb sevinə-sevinə dağa qaçır, hoppanıb-düşür. Bu anda güclü külək əsir, lələyi onun saçından aparır. Dəyişdüyüş nə qədər qaçırsa, lələyi tuta bilmir. Oturub ağlayır və sazı sinəsinə alıb oxuyur. Dayanıb deyinməyə başlayır: "Heçnəsiz qaldım indi". Heç çalmaq istəmədi. Dərin xəyala getdi. Nənəsi ona baxıb dedi: "Keçən il qış çıxanda ala çəpişi sənə mən vermişdim. Sən onu dəyişdin, hədər getdi. İnsanlar bir-birinə bəxşiş verəndə, gərək onun qədrini bilələr, onu yadigar saxlayalar". Nənəsinin nəsihətlərindən sonra Dəyişdüyüş artıq dəyişməyi tərgidir.

"İnadlı Xoruz" poeması həcmcə kiçikdir. Bu poema "Padşah və xoruz" nağılının motivləri əsasında nəzm şəklində yazılıb. Poema nağıllar kimi ənənəvi başlıqla başlayır.

Biri vardı, biri yoxdu,
Bu dünyada xoruz çoxdu.
Banlayardı səhər cağı,
Qırmızısı, bozu, ağı.
Ancaq bircə xoruz vardı,
İnsan kimi danışardı [3, s. 81].

Zalım bir padşahın ölkəsində yaşayan xoruz bir gün qapısının ağzında eşələnərkən sədəf düymə tapır. Bütün aləmə səs salır.

Qukkulu quu, qukkulu quu,
Qukkulu quu, qukkulu qu...
O yana çapdım
Bu yana qaçdım.
Hakimin həyətindən,
Bir sədəf düymə tapdım [3, s. 82].

Xoruzun səsini eşidən hökmdar tez sədəf düyməni onun əlindən almalarını istəyir. Nökərlər xoruzun dalınca qaçır, lakin onu tuta bilmirlər. Bir gün xoruz yenə hindən çıxıb eşələnəndə mərcan tapır. O, yenə banlayıb bütün şəhərə hay salır ki, sahibkarın həyətindən mərcan tapıb. Hökmdar nökərlərinə əmr edir ki, mərcanı onun əlindən alsınlar. Xoruz yenə qaçıb gizlənə bilir.

Növbəti dəfə xoruz bir qəpik pul tapır. Bu dəfə hökmdar vəzirlərinə əmr edir ki, qəpiyi xoruzun əlindən alın, özündən isə mənə bir plov bişirin. Xoruzu tutub plov bişirirlər. Hökmdar plovu yeyib partlamaya düşür. Həkim tez padşahın qarnını kəsib, xoruzu çıxarır. Xoruz oxumağa başlayır:

O yana qaçdım,
Bu yana qaçdım.
Hökmdarın başına,
Belə fəlakət açdım [3, s. 84].

Poema nağıldan fərqli süjetə malikdir, belə ki, nağılda xoruz zibillikdə eşələnib qəpik tapır. Padşah qəpiyi onun əlindən alır. Xoruz bütün ölkəyə car çəkir ki, padşah mənə möhtacdır. Padşah onun qəpiyini qaytarır, bu vaxt xoruz oxuyur ki, padşah məndən qorxurmuş. Padşah acıqlanıb, xoruzu kəsdirib, plov bişirtdirir.

Bu poemada da nağıldan fərqli olaraq hadisələr müsbət sonluqla yekunlaşır. Nağılda zalım padşah zəif xoruzu məhv edə bilirsə, poemada isə zalım hökmdar sonda cəzasını alır. Xoruz xilas olur.

Xanımana Əlibəyli bəzi poemalarında xalq yaradıcılığının oyun havaları, mahnı kimi növlərindən istifadə etmişdir. Məsələn, "Dovşanın ad günü" poemasına diqqət yetirsək bunu aydın şəkildə görə bilərik. "Dovşanın ad günü" poemasında "Keçməməsi" adlı oyun havası çalınır ki, bu hava xalq arasında məhşurdur.

Nəticə. Milli-mənəvi irsimizin qorunması, folklor nümunələrinizin gələcək nəsillərə ötürülməsində Xanımana Əlibəylinin bu səpkidəki əsərləri də bir körpü rolunu oynayır.

Uşaq ədəbiyyatı bir sıra inkişaf mərhələlərindən keçmişdir. Bu ədəbiyyat ümumi mədəniyyətin, incəsənətin tərkib hissəsi kimi yeni yollar axtararaq, mübahisələr, müzakirələr şəraitində yaranır, inkişaf edir. Bu baxımdan uşaq ədəbiyyatı sahəsində fəaliyyət göstərmiş hər bir sənətkarın yaradıcılıq irsini dəyərləndirmək, ədəbiyyatımızda tutduğu mövqeyi dəqiqləşdirmək böyük əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

- Əhmədov, T. XX əsr Azərbaycan yazıçıları. Ensiklopedik məlumat kitabı / T.Əhmədov. – Bakı: Nurlar, – 2004. – 984 s.

1. Əlibəyli, X. Əsərləri: [2 cilddə] / X.Əlibəyli. – Bakı: Avrasiyapress, – c.1. – 2008. – 240 s.
2. Əlibəyli, X. Əsərləri: [2 cilddə] / X.Əlibəyli. – Bakı: Avrasiyapress, – c.2. – 2008. – 240 s.
3. Əlimirzəyev, X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları / X. Əlimirzəyev. – Bakı: Elm və təhsil, – 2011. – 413 s.
4. Əliyev, R. Ədəbiyyat nəzəriyyəsi / R. Əliyev. – Bakı: Mütərcim, –2008.–360
5. Əliyev, K. 1970-80-ci illərdə Azərbaycan uşaq ədəbiyyatının ideya-bədii istiqamətləri: / filologiya üzrə elmlər namizədi dis. / – Bakı, 1996. – 138 s.

Açar sözlər: Uşaq, ədəbiyyat, folklor, poema, pyes, əsər, milli, mənəvi, süjet, janr.

Ключевые слова: Ребенок, литература, фольклор, поэма, пьеса произведение, национальное, духовное,

Keywords: Child, literature, f olkore, plsy, work, national, moral, subject, genre**.**

XÜLASƏ

Uşaq ədəbiyyatının ustad sənətkarı Xanımana Əlibəyli öz yaradıcılığında folklordan mötəbər mənbə kimi istifadə etmişdir. Onun yaradıcılığına nəzər yetirdikdə folklora bağlılıq bütün əsərlərində: şeirlərində, poema və pyeslərində geniş şəkildə özünü biruzə verir. Xanımana Əlibəylinin yaradıcılığının folklora bağlılığı onun bu ədəbiyyat vasitəsi ilə uşaqları tərbiyə etmək, onlarda mənəvi-estetik tərbiyəni formalaşdırmaq istəyi ilə əlaqədardır.

Xalq ədəbiyyatının ən başlıca xüsusiyyəti optimizm və lakoniklikdir. Uşaq folkloru kimi uşaq ədəbiyyatı da yüksək fantaziyalara əsaslanır. Uşaq ədəbiyyatında hadisələr həyat reallığı ilə yanaşı, al-əlvan fantaziyalar, parlaq rənglərlə əks olunur. Bu baxımdan X.Əlibəyli də folklorun bu spesifik keyfiyyətlərindən şeirlərində, poema və dramlarında əsas amil kimi yararlanmışdır.

X.Əlibəyli xalq ədəbiyyatından bir çox mövzu, süjet və epizodlar götürmüş, folklorun dil və üslub xüsusiyyətlərindən, obrazlar aləmindən, təhkiyə sistemindən, bədii fantaziyasından, romantik ruhundan faydalanmış, şifahi xalq ədəbiyyatının rəngarəng janrlarının təsiri ilə bir- birindən maraqlı şeirlər, poema və pyeslər yazmışdır.

Xanımana xanımın yaradıcılığına nəzər saldıqda onun xalq yaradıcılığından bir neçə istiqamətdə faydalandığını görürük

Orijinal mövzulu şeirlərinə, poemalarına, pyeslərinə xalq nağıllarından müəyyən əhvalatlar, obrazlar daxil etmək və s.

- Folklor nümunəsi olan nağılları, əfsanələri dəyişiklik edərək özünəməxsus tərzdə, daha əlvan bədii boyalarla işləmək;
- Müasir həyatı və real hadisələri, nağılvari tərzdə təsvir etmək;
- Folklora istinadən yeni tipli tapmacalar yaratmaq.

Xanımana Əlibəylinin şeirlərinin bir qismi müasir mövzuda yazılsa da, həmin şeirlərə xalq nağıl və əfsanələrindən müəyyən süjet, personaj və məqamlar daxil edilmişdir. Burada məqsəd uşaqların duyğu və düşüncələrinə daha dərindən təsir etmək, onları əyləndirmək, xəyallar aləminə aparmaqdır.

Xanımana Əlibəyli bəzi poemalarında xalq yaradıcılığının oyun havaları, mahnı kimi növlərindən istifadə etmişdir. Məsələn, "Dovşanın ad günü" poemasına diqqət yetirsək bunu aydın şəkildə görə bilərik. "Dovşanın ad günü" poemasında "Keçməməsi" adlı oyun havası çalınır ki, bu hava xalq arasında məhşurdur.

Belə nümunələrə Xanımana Əlibəylinin digər poema və pyeslərində də rast gəlirik.

Klassik söz oyunu nümunəsi olan tapmacaların uşaq təfəkküründün və dilinin inkişafında xüsusi əhəmiyyəti vardır. Bir sıra uşaq yazıçıları kimi Xanımana Əlibəyli də öz yaradıcılığında bu janra geniş yer vermiş, bir-birindən maraqlı tapmacalar yazmışdır.

Şifahi xalq ədəbiyyatının ən maraqlı, əyləncəli janrı olan tapmacalar uşaqların hərtərəfli inkişafına və yaradıcılıq qabiliyyətinin formalaşmasına böyük təsir göstərir.

Tapmacalar şifahi xalq ədəbiyyatının ən əyləncəli janrı hesab olunur. Tapmacalarda müəyyən əşyanın xarakterik xüsusiyyətləri dolayı yolla verilir, onun hansısa bir əlaməti, ölçüsü, bənzərliyi və s. uşaqlara təqdim olunur. Bu tapmacaların cavabı haqqında düşünərkən uşaqlar ciddi fikirləşir, məntiqi, elmi, yaradıcı təfəkküründü işə salmalı olur. Bu da uşaqlar üçün ən vacib beyin gimnastikası hesab olunur.

Tapmacaların ən xarakterik xüsusiyyəti onun yumoristik xarakter daşımasıdır. O, uşaqları öyrədərkən yormur, əksinə onların daha şən vaxt keçirmələrinə səbəb olur.

Milli-mənəvi irsimizin qorunması, folklor nümunələrinizin gələcək nəsillərə ötürülməsində Xanımana Əlibəylinin bu səpkidəki əsərləri də bir körpü rolunu oynayır.

ФОЛЬКЛОРНЫЕ МАТИВЫ В СТИХАХ ХАНИМАНА АЛИБЕЙЛИ

Резюме

Мастер детской литературы Ханимана Алибейли в своем творчестве использовала фольклор как авторитетный источник. Если посмотреть на его творчество, то привязанность к фольклору широко проявляется во всех его произведениях: стихах, поэмах и пьесах. Творчество Ханиманы Алибейли связано с фольклором из-за ее стремления через эту литературу воспитывать детей, формировать у них духовно-эстетическое воспитание.

Важнейшая черта народной литературы — оптимизм и краткость. Как и детский фольклор, детская литература основана на высокой фантазии.

События в детской литературе отражены в ярких красках наряду с действительностью жизни. С этой точки зрения Х.Алибейли также использовала эти специфические качества фольклора как главный фактор в своих стихах, поэмах и драмах

Многие темы, сюжеты и эпизоды Х.Алибейли взяла из народной литературы, воспользовалась лингвистическими и стилистическим особенностями фольклора, миром образов, системой возбуждения, художественной фантазией, романтическим духом, написал интересные стихи, поэмы и пьесы под влияние красочных жанров устной народной литературы. Когда мы смотрим на творчество г-жи Ханиманы, мы видим, что она получила пользу от народного творчества по нескольким причинам.

- Включать в свои стихи, поэмы, пьесы оригинальные сюжеты, образы из народных сказок и т.п.
- Работать уникально, более светлыми художественными красками, изменяя сказки и легенды, являющиеся образцами фольклора;
- Описывать современную жизнь и реальные события в сказочном стиле;
- Создавать новые виды головоломок со ссылкой на фольклор.

Хотя некоторые стихотворения Ханиманы Алибейли написаны на современные темы, в эти стихотворения включены отдельные сюжеты, персонажи и моменты из народных сказок и легенд. Цель здесь — глубже повлиять на эмоции и мысли детей, развлечь их и увести в мир грез.

В некоторых своих стихах Ханимана Алибейли использовала такие виды народного творчества, как арии и песн. Например, мы можем увидеть это наглядно, если обратим внимание на стихотворение «День рождения кролика». В стихотворении «День рождения кролика» есть песня «Не проходи», популярная в народе.

Подобные примеры мы находим и в других стихах и пьесах Ханиманы Алибейли.

Особое значение в развитии мышления и речи детей имеют загадки, являющиеся образцами классических словесных игр. Как и ряд детских писателей, Ханимана Алибейли в своем творчестве отводила широкое место этому жанру, писала интересные загадки.

Загадки, самый интересный и занимательный жанр устной народной литературы, оказывают большое влияние на всестороннее развитие детей и формирование творческих способностей.

Загадки считаются самым занимательным жанром устной народной литературы.

В загадках косвенно даются характерные признаки определенного предмета, некоторые его признаки, размеры, сходство и т. д. представлен детям. Размышляя над ответом на эти загадки, дети серьезно задумываются, им приходится активизировать свое логическое, научное и творческое мышление. Это считается самым важным упражнением для мозга для детей.

Наиболее характерной чертой загадок является их юмористический характер. Он не утомляет детей во время обучения, а заставляет их веселее проводить время.

Произведения Ханиманы Алибейли в этом стиле также играют роль моста в сохранении нашего национально-духовного наследия и передаче образцов фольклора будущим поколениям.

Summary

Folklore in Hanimana Alibylis poems

Khanimina Elibeyli ,a master craftsman of child literature,used folklore as a source of inspiration for her work.When we look at his creativity,the dependence on folklore shows itself in wide way in all his works;poems,and plays.The dependence of Khanimana Elibeyli's creativity on folklore is related to her desire to educate childeren with this literary medium, to form sipiritual and aesthetis education in them.The main feature of folk literature is optimisim and brevity.

Children's literature,like childeren's folklore,is based on high fantasies.In childen's literature,events are compared to the reality of life,bright fantasies are depicted with bright colors.In this regard,X.Elibeyli also used these specific qualities of folklore as the main factor in his poems and dramas,X.Elibeyli has told many topics,subjects and episodes in folk literature, he has benfited from the linguistic and stylistic features of folklore,the world of images ,the threat system,artistic fantasies,romantic spirit,and the influence of the colorful genres of oral folk literature.

When we take a look at Khanimana Khan's creativity,we see that she beneied from the peopple's creativity in several ways

1.To add moods and images from folk tales to poems and poems with original themes

2.To make folklore patterned wires and legends in a spcial style with mor elegant colors

3.To describe contemporary life and real events in graphic style

4.To create new types of puzzles based on folklore

Although some of Khanimana Eibeyli's poems are written on a contemporary theme,certain subject,characters and memes from folk tales and legends are included in those poems.The goal is to deeply influence the fellings and entertain them Khanimana Elibeyli used genre of folk creativity such as songs and games in her poems.For example if we pay attenion to the 'Rabbit's Birthday' we can clearly see that in the poem there is a game tune called Kecmemesi,becouse this tune is popular among the peopple.

We can see this king of examples in other poems of Khanimana Elibeyli's.

Riddels which are an exampl of classic word game,have a special importance in the development of children's thinking and language.Like other children poem writer Khanimana Elibeyli also included it in her work.

Riddels,which are the most interesting genre oral folk literature,help the all-rounf development of children and the development of creativity.

Riddles are consired the most entertainin genre of verbal folk literature.In riddles,the characteristic features of a certain object are given indirectly,some of this characteristics are presented to children.While thinking about the answer to these riddles,children think seriously,and they have to think logiclly and scientifically.This is considerd like best brain gymnastic for kids.

The most characteristic feture of riddles is that they are humorous.It doesn't make children to get boren but it helps them to spend a good time and have fun Khanimana Elibeyli plays role of the bridge in protecting our national spiritual heritage and passing on our folkore samples to future generations.

Rəyçi: dos. S.Abbasova

Cahan Sahib qızı İsmayılzadə[127]

NİZAMİ GƏNCƏVİ VƏ MƏHƏMMƏD FÜZULİ YARADICILIĞINDA "LEYLİ VƏ MƏCNUN" MÖVZUSU

Giriş. "Leyli və Məcnun" dastanının nə zaman yazıldığı, tarixi barəsində iki fikir mövcud olmuşdur. Birinci fikrə görə bu dastan haqqındakı rəvayətlər 7-ci əsrdə Ərəbistanda yaranmışdır. Bu barədə sovet alimləri İ.J.Kraçkovski və J.E.Bertels ətraflı məlumat vermişdir. İkinci fikir də isə "Leyli və Məcnun" dastanının ərəblərdən də əvvəl asurilərə aid olduğu haqqındadır.

Leyla və Məcnun hekayəsi XX əsrdə də bir çox əsər və araşdırmaların mövzusu olmuşdur. Hellmut Ritter 1946-cı ildə Leninqradda İqnati J.Kraçkovski tərəfindən nəşr edilmiş "Leyla və Məcnun ərəb ədəbiyyatında" adlı rusca məqaləni alman dilinə tərcümə edərək çap etdirmişdir. André Miquel ve Percy Kemp'in Majnûn et Laylâ: l'amour fou (Paris 1984), André Miquel'in Layla, ma raison (roman) (Paris 1984) adlı əsərləri ilə Abdurrahman Camenin farsca "Leyli və Məcnun" hekayəsinin ərəb dilinə tərcüməsi M. Güneymi Hilalın Leyla və'l- Məcnun fi'l-ədəbeyni'l-ʿArabi və'l-Farsi (Beyrut 1400/1980), Salah Abdüssaburun Leyla və'l-Məcnunu (Bamberq) bu dövrdə yazılmış əsərlər arasındadır. Digər tərəfdən hekayə bəzi teatr və dramların da mövzusu olmuşdur. Əhməd Şövqinin əl-Əğaninin əsəri əsasında yazdığı "Məcnun və Leylə" (Qahirə 1931) beytini ingilis dilinə Arberry (Qahirə, 1933) və V.S.Jeanette Atiya (Qahirə, 1990) çevirmişdir. İbrahim əl-Əhdeb, Səlim əl-Bustani, Ebi Hilal əl-Kəbbani və Muhammməd Münci Hayrullah (Rivâyetü Mecnun ve Leyla, 1898, 1904) bu sahədə əsərlər yazanlardandır.

"Leyli və Məcnun" dastanının xalq variantına nəzər yetirdikdə belə bir fikir yaranır ki, dastan qədim şumerlərin "Gilqamış" dastanının keçdiyi inkişaf yolunu keçmişdir . Bu dastanın yaradıcılarının Şumerlər olmasına baxmayaraq əsrlər keçdikcə akkadlar və babillər arasında da geniş yayılmışdır. Şumer-Akkad müharibələri zamanı akkadlar Şumer ölkəsini tutduqdan sonra "Gilqamış" dastanının da varisi oldurlar. Bu zaman dastanda bəzi dəyişikliklər də aparıldı. Hadisələr tarixə uyğun dəyişdirildi, allahların adları dəyişdirildi. Ehtimal olunur ki, ərəblər "Leyli və Məcnun" dastanının süjetini Şərq xalqlarından götürmüşdülər. 7-ci əsrdə ərəb şairlərinin dilində dolanan dastana yeni süjetlər, əhvalatlar əlavə olunmuş və ərəb folkloruna uyğunlaşdırılmışdır.

Ərəb, türk, fars və urdu ədəbiyyatında xüsusilə bəhs edilən bu eşq dastanının iki qəhrəmanından biri olan Məcnun təxminən 70 (689) illərində vəfat etmiş və adını Qeys ibn Müləvvəh əl-Əmiri sayılan şairin ləqəbidir. Leylinin sevgisindən ağlını itirdiyi üçün ona verilən bu ləqəb sonradan onun adını əvəz edib. Leyli isə eyni qəbilədən olan və rəvayətlərə görə Məcnunun əmisinin qızı olan Leyli binti Mehdi əl-Əmiriyyədir. Leyli ilə Məcnunun başına gəlmiş kimi danışılan əhvalatların demək olar ki, hamısı Məcnun əl-Əmiriyə məxsus və ya ona aid edilən şeirlərdə qeyd olunan, bəzi şərh və əlavələrlə müəyyən dərəcədə bağlı olan kiçik hadisələr nəticəsində meydana çıxdığı təəssüratını yaradır və böyük bir hekayəyə çevrilir. Ancaq dövr alimləri İbnü'l-Kəlbi və Əbü'l-Fərəc əl-İsfahaninin fikrincə, bu hekayə əmisi qızını sevən ancaq bunu açıqlamaq istəməyən Əməvi ailəsindən olan bir gəncin Məcnun adı ilə uydurduğu hekayə və şerlərin ortaya atılması ilə yaradılmışdır.

"Leyli və Məcnun" hekayəsi bu əsas elementləri ehtiva edir. Nəcddəki Bəni Əmir qəbiləsindən Qeys və Leyli öz qəbilələrinin heyvanlarını otararkən bir-birlərinə aşiq olurlar. Onlar böyüdükcə və sevgiləri üzə çıxanda Leyli çadırda saxlanılır, Qeysə göstərilmir. Üstəlik sevginin ilk ağrıları Qeysdə başlayır. Atasına deyir ki, Leylini istəsin. Lakin qızın adı hallananda sevgisinə görə namusu ləkələndiyindən bu təklif rədd edilir və Leyli başqası ilə ailə qurur. Qeys işgəncələrə görə ağlını tamamilə itirir. Mərvanın vergi məmuru Ömər ibn Əbdürrəhman və onun müavini Nofəl Qeysə kömək etməyə çalışsalar da cəhdləri nəticəsiz qalır. Atası Məcnunu şəfa ümidi ilə Məkkəyə və Mədinəyə aparsa da Məcnun məhəbbətini artırması üçün Allaha dua edib vəhşi heyvanlarla yaşamaq üçün səhraya qaçır. Leyla isə Məcnunun sevgisinin acısı ilə ölür. Məcnun səhralarda dolaşmağa davam edir, onun üçün ağılar oxuyur, eşq dərdini oxuyur. Nəhayət bir gün onun cəsədi tapılır.

Charles Pellet bu hekayənin Bəni Amirin təmsil etdiyi Quzey Ərəblərinin Güney Ərəblərə reaksiyası olduğunu, platonik eşq hekayələrinin Cənubi Ərəblərdən biri olan Bəni Üzriyə xas olmadığını və Cəmil əl- Üzriyə oxşar məhəbbət hekayəsinin onlarda da olduğunu bildirir.

Əsas hissə. Nizamiyə qədər "Leyli və Məcnun" haqqında xəbər verən çoxlu qaynaqlar var. Nizami Gəncəvi məsnəvilərini yazarkən bir çox yazılı qaynaqlara və xalq ədəbiyyatı nümunələrinə müraciət etmişdir. Bu yazılı qaynaqların içərisində ərəb dilli qaynaqlar da var. Nizami Gəncəvi elə "Leyli və Məcnun" məsnəvisini Əbul-Fərəc əl-İsfahaninin "Kitab əl-Əğani" Nəğmələr kitabı və Əbu Bəkr əl-Vahibinin "Əxbar əl-Məcnun va aş'aruhu" Məcnunun əhvalatlarıı və şeirləri əsərləri əsasında yazmışdır. Ümumiyyətlə "Leyli və Məcnun" əsəri haqqında fikir söyləyənlər daha çox "Kitab əl-Əğani"yə üstünlük veriblər. İsfahani bu kitabda ərəb şairlərinin həyatı, ərəb şeirləri, Şərq ədəbiyyatları arasındakı əlaqələr haqqında yazmışdır. "Qüsəyyir haqqında rəvayətlər və onun nəsli", "Qeys ibn Zərih və onun nəsli haqqında hekayətlər", "Cəmilin nəsli və onun haqqında hekayətlər", "Leyla, onun nəsli və Təubə ibn əl-Hümayyir haqqında hekayətlər". "Məcnun bənu Amir haqqında hekayətlər və onun nəsli", "Məcnun haqqında hekayətlərin davamı" bu bir neçə fəsil ərəb üzri şeirlərinə həsr edilib və eyni zamanda iki fəsil Bənu Amir qəbiləsinə mənsub Qeys ibn Müləvvəh haqqındadır. Nizami də poemanı yazarkən bu mənbədən istifadə etsə də yazdığı Məcnun obrazı ilə Əbu Bəkr Valibinin Məcnun haqqındakı rəvayətlərini tutuşdursaq eynilik təşkil edəcək.

[127] Bakı Dövlət Universitetinin magistrantı. Jahanismayilzada@gmail.com

Nizami hər obrazın mifoloji xüsusiyyətlərini qeyd etmişdir. O, Qeysi təsvir edərkən şam, atəş, od kimi təşbehlərdən istifadə etmişdir. Eyni zamanda Leylini də təsvir edərkən nur, sübh, ulduz adlandırır.

Məcnunam bir nura olmuşam əsir
Gəlmişəm yanına boynumda zəncir
Göstər camalını mahu-münənəvvir

Leyli obrazından bəhs edərkən onun nəfəsinin və əlinin toxunduğu yerdən ağac, gül bitdiyini qeyd edir. Həmçinin onu gecənin simvolu kimi təqdim edir.

Leyli zülmət içində bir aydır
Məcnun ləqəb oldu; o ki; şahdır

Bəzi qədim xalqların mifologiyasında Ay obrazı əkinçilik və yaşıllıq ilahəsi kimi qeyd olunmuşdur. Qədim Misirdə Ay məhsul ilahisi hesab olunurdu və öküz formasında təsvir olunurdu. Qədim Azərbaycanda da belə inam mövcud olmuşdur.

Gecə gəzər Leyli xan
Gündüz gəzər Leyli xan
Göy otların başında
Düymə düzər Leyli xan

Bu tapmaca nümunəsinin cavabı qoyun verilmişdir. Bu da o deməkdir ki, qədim azərbaycanlılar Ay ilahəsini qoyun şəklində təsvir ediblər. Ay ilahisi Leyli xan ilk ovçuluq daha sonra maldarlıq hamisi olmuşdur.

Ay türk dilli xalqlarda ilahə olub və ona sitayiş olunub. Nizaminin təsvirində bu nüansa istinad olunub. Poemada Leyli yaz gələndə təbiətə gəlir, payız gələndə isə ölür. Leylinin təbiət kultu ilə bağlılığını Nizami iki fəsildə qeyd etmişdir. Leyli təbiəti təcəlli etməklə yerdə həyat, dirilik və səadət meydana gətirir. Məcnun isə məhz Leylinin təcəlli etdiyi təbitdə ona qovuşmaq istəyir. Bununla da Nizami yalnız yazılı mənbələrdən deyil xalq ədəbiyyatı nümunələrindin də istifadə etdiyini sübut edir. Nizami Leylinin gözəlliyini romantik şəkildə ifadə etsə də onun bədbəxtliyini real şəkildə ifadə edir. Leyli qəbiləsinin simasında canlandırılan cəmiyyətin köhnə adət-ənənənin əsiri olub. Leyli evdə dustaq edilir və nəcib hisslərini cilovlamaq tələb olunur. Lakin Leyli azad həyat sürmək istəyir. Onun bu istəyi reallaşmır, əksinə tamamilə yad biri ilə evləndirilir.

Leyla və Məcnun hekayəsini türkcə izah edən ən gözəl əsərin Füzulinin Leyli və Məcnun əsəri olduğu qəbul edilir. 1535-ci ildə əruz "məfU'lü, məfA'ilün, fA'illün" təfiləsi ilə yazılmış məsnəvi nəsr müqəddiməsi (dibaçə) ilə başlayır. Tövhid, minacat, meraciyyə, nət, sakinamə, Qanuni Süleymana vəsilə, səbəb-i təlif kimi bölmələrdən sonra Leyli ilə Məcnunun sevgi hekayəsi lirik üslubda yazılır. Qəzəl və mürəbbedə bir-birinin ardınca yazan Füzuli əsərinin yazılma səbəbini açıqlayır və deyir ki, İstanbuldan bəzi şairlər ondan Leyli və Məcnun hekayəsini yazmağı xahiş etdikdə onu sınaq kimi qəbul edib və qısa müddətdə yazıb bitirib. Füzulinin bəhs etdiyi şairlər Qanuni Süleymanın Bağdad yürüşündə iştirak etmiş Taşlıcalı Yəhya bəy, Xəyali bəy, Cəlalzadə Mustafa Çələbi və Üsküdarlı Aşkidir.

Füzuli Bağdad valisi Üveys Paşaya təqdim etdiyi əsərini yazmazdan əvvəl farsca yazılmış hekayənin nümunələrini araşdırmış, bunlar arasında Nizami Gəncəvinin məsnəvisindən nümunə götürmüş, bir qədər qənaət etmiş, bəzi motivləri dəyişdirmiş, bir qədər də rəvayət etmişdir. xüsusilə mövzunun işlənmə tərzində bəzi dəyişikliklər etdi. Məsələn, Nizami əsərində Leyli Qeysin əmisinin qızıdır. Füzuli isə onları qohum kimi göstərmir. Nizami Leylinin toy gecəsində İbn Salamı sillələməsindən danışır, Füzuli isə Leyliyə yalan danışır ki, onu uşaqlığından bir cin qoruyur. İbn Səlam ona toxunarsa cin hər ikisini öldürəcək. Nizami səhrada Leyli ilə Məcnunu müqayisə etmədiyi halda, Füzuli əsərinin ən lirik səhnəsini səhradakı görüşlə təsvir edir. Nizami hadisələri Məcnunun ölümü ilə sona çatarkən, Füzuli iki sevgilinin cənnətdə görüşdüyünü və məzarlarının məqbərəyə çevrildiyini söyləyir.

Füzuli yaşadığı dövrün feodal münasibətlərini, çirkin ənənələrini tənqid etmək üçün yazmışdır. O, Məcnunun timsalında azad məhəbbət haqqında danışır. Leylinin vasitəsilə qadın hüquqsuzluğunu tənqid edir. Füzulinin "Leyli və Məcnun" əsərində tamamlanmış obraz Leylidir. Öz kölə həyatını dərk edib, ona qarşı çıxan, lakin öz məhəbbətinə sadiq olan Leyli Füzulinin arzuladığı qadın obrazıdır. Füzulinin yaşadığı dövrdə Azərbaycanda qadınlar kölə həyatı yaşayırdı. Füzuli hər bir azərbaycanlı qadının çəkdiyi müsibətləri Leylinin timsalında təcəssüm etdirir. Füzulinin Leylisi Nizamininkindən daha məzlumdur. Nizaminin əsərində Leyli Məcnuna olan eşqini İbn Salamdan gizlətmir , hətta ona sillə belə vurur. Füzulinin əsərindəki Leyli isə belə deyil. O, İbn Salama sillə vura biləcək vəziyyətdə deyil. O, Məcnunu sevdiyini heç kimə demir. Hamı elə düşünür ki, Məcnun onu sevir, o isə buna görə kədərlənir. Ona gəlin bəzəyi gətirilən zaman o ağlayır. Hamı onun ata-anasından ayrıldığı üçün kədərləndiyini düşünərək ona təsəlli verir. Leylini aqibəti faciəli olur. O, məcnunu İbn Salamın ölümündən sonra görür; lakin Məcnun bütün həyat qüvvələrini itirmişdi. O, artıq Leylinin eşqi ilə deyil, onun xəyalı ilə təsəlli tapır. Leyli isə vüsal ümidi ilə yaşamağa davam edir. Hətta Məcnun onu rədd etdikdən sonra belə vüsal ümidi ilə yaşamağa davam etsə də ona təsir edir. Özünü bu dünya üçün artıq hesab edir.

Nəticə. "Leyli və Məcnun" hekayəsi bir çox ədibin ilham qaynağı olmuş, onların yaradıcılığına təsir etmişdir. Eyni zamanda Azərbaycan ədibləri olan Nizami və Füzuli də bu dastandan faydalanmışlar. Hər ikisi "Leyli və Məcnun"u öz yaradıcılıqlarına uyğun təsvir etmişlər. Hər iki klassiklərin əsərlərində oxşar və fərqli cəhətlər mövcuddur. Leyli obrazı Füzulidə tam azad olmasa da Nizamidə qismən azad qadın obrazıdır. Füzuli Leylinin timaslında öz dövrünü tənqid edir. Ümumiyyətlə "Leyli və Məcnun" nəinki Şərq ədəbiyyatına təsir etmiş eyni zamanda Qərb ədəbiyyatına da öz izini qoymuşdur.

İstifadə edilmiş ədəbiyyat
1. Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı, 1958
2. Sasanian Ç. Nizaminin "Leyli və Məcnun" poeması. Bakı: Elm, 1984
3. Cahani Q. Azərbaycan ədəbiyyatında Nizami ənənələri. Bakı: Elm, 1979
4. Həmidov İ. Azərbaycan-ərəb ədəbi əlaqələrindən səhifələr. Bakı: Elm, 2002
5. Baxşəliyeva G. Məqalələr, Məruzələr, Müsahibələr. 1-ci cild. Bakı, 2011
6. Türkiyə Dəyanət Vəqfi İslam ensiklopediyası 42-ci cild.

Key words: Leyli, Majnun, Abulfaraj Isfahani, epic, Nizami, Fuzuli
Ключевые слова: Лейли, Меджнун, Абульфарадж Исфахани, эпос, Низами, Физули

Summary

The story "Leyli and Majnun" was a source of inspiration for many writers and influenced their creativity. At the same time, Azerbaijani writers Nizami and Fuzuli also benefited from this epic. Both of them described "Leyli and Majnun" according to their creativity. There are similarities and differences in the creation of both classics. Although the image of Leyli in Fuzuli is not completely free, she is a partially free woman in Nizami. Fuzuli reflects his era in imitation of Leyli. In general, "Leyli and Majnun" had an impact on Eastern literature, and at the same time left a mark on Western literature.

Резюме

Рассказ «Лейли и Меджнун» послужил источника вдохновения для многих писателей и повлиял на их творчество. В то же время азербайджанские писатели Низами и Физули. Оба писателя написали поэму по своему и одну и ту же тему разные художники могут трактовать по-разному .В поэме Физули образ Лейли не совсем свободна,а в Низами она более свободная женщина. Физули критикует свою эпоху в образе Лейли. В целом «Лейли и Меджнун» не только повлияли на восточную литературу, но и оставили свой след в западной литературе.

Rəyçi: f.ü.f.d., dosent Cümşüdlü Ruhəngiz

Aygün Cavid qızı Alcanova, Zülfiyyə Səlim qızı Hüseynova [128]

İNGİLİS DİLİNDƏ ELMİ-TEXNİKİ TƏRCÜMƏNİN LEKSİK VƏ QRAMMATİK PROBLEMLƏRİ

Giriş. Bu məqalədə elmi-texniki tərcümənin bir sıra çətinliklərindən danışılır. Texnikanın sürətlə inkişafi və elmi-texniki informasiyanın genişlənməsi ilə əlaqədar olaraq, elmi-texniki tərcümənin praktik əhəmiyyəti xeyli artmışdır. Tərcümə zamanı meydana gələn çətinlikləri aradan qaldırmağın yollarını göstərən bu məqalədə əsas məqsəd elmi-texniki mövzuda mətnin müxtəlif elementlərini analiz edə bilmək, düzgün tərcümə etmək bacarığı və vərdişlərini inkişaf etdirməkdir. Giriş və üç hissədən ibarət olan bu məqalədə əsasən ingilis və Azərbaycan dillərinin leksik, qrammatik və stilistik xüsusiyyətləri aydınlaşdırılır.

Birinci hissədə, yəni "Elmi-texniki tərcümənin leksik problemləri"ndə elmi texniki tərcümənin bəzi xüsusiyyətlərindən, neologizmlərin yaranması üsullarından, onların qurulmasından və tərcümə vasitəsi ilə çatdırılmasından bəhs edilir.

İkinci hissədə – "Tərcümənin qrammatik problemləri"ndə praktik tərcümə zamanı rast gələn olduqca mürəkkəb qrammatik quruluşlar araşdırılır. Felin şəxsiz formaları və onların tərkiblərinin izahına xüsusi yer ayrılır. Bu hissədə xüsusilə ingilis və Azərbaycan dilləinin müxtəlif struktur quruluşundan irəli gələn tərcümə problemlərinə fikir verilir, məchul növlü tərkiblər, sözün çoxmənalılığı və çox funksiyalılığı izah edilir.

Üçüncü hissədə – "Elmi-texniki mətnlərin praktik tərcüməsi"ndə isə texniki məqalələrin başlıqlarının struktur və tərcüməsi açıqlanır.

Əsas hissə. Elmi-texniki məqalələri tərcümə edərkən nəzərə almaq lazımdır ki, onların dili ümummilli dilin bir hissəsi olsun. Elmi-texniki ədəbiyyatın dilini bədii ədəbiyyatın dilindən fəqləndirərkən əsas cəhət mətnlərdə müəyyən edilən termin bolluğudur. Nizami Xudiyev yazır: **"**Mətnin tərcüməsi üçün vacib olan tələblər aşağıdakaılardır:

1. Orijinalda olan mətnin dəqiq dolğun verilməsi;
2. Fikrin tam aydınlığı ilə lakonik formada çatdırılması. Bunun üçün ingilis dilinin spesifik xüsusiyyətlərini Azərbaycan dilində əks etdirmək vacib deyil. Burada milli kalorit gözlənilməlidir;
3. Tərcümə tam şəkildə Azərbaycan ədəbi dilinin normalarını özündə qoruyub saxlamalıdır. Tərcümə zamanı Azərbaycan dilində yox dərəcəsində olan, lakin ingilis dili üçün xarakterik hesab edilən sintaktik tərkiblərin nəzərə alınması da vacibdir" (1, s. 116).

4. Elmi-texniki terminologiyada bir neçə komponentdən ibarət çoxlu terminlər vardır. Çoxkomponentli terminlər elə sözbirləşmələridir ki, onların komponentləri arasında məntiqi əlaqə uzlaşma əlaqəsi ilə ifadə olunur. Məsələn: *load governer – gücün tənzimlənməyicisi*. Onlar həm də elə söz birləşmələridir ki, bunların komponentləri qrammatik yolla, yəni sözönü vasitəsilə, ya da saysız-hesabsız şəkilçilərin köməyilə düzəlir. Məsələn: *rate of ejchange – valyuta kursu.*

Terminli söz birləşmələri sözün həqiqi mənasında tam leksik vahidlərdir.

Birinci qrupa elə terminli sözbirləşmələri aiddir ki, onların hər iki komponenti xüsusi lüğətə aid olan sözlərdir. Onları sərbəstdirlər və verilmiş birləşmələrdən kənarda işlənə bilər. Məsələn: *brake – tormoz*. A.Qarayev öz əsərində qeyd edir: "Belə ki, bu komponentlərdən ibarət olan terminli birləşmələr sərbəst şəkildə yeni məna kəsb edir. Məsələn: *brake gear – tormozlaşdırma avadanlığı*.

İkinci qrupa elə terminlər aiddir ki, bu terminlərin birinci komponenti olan sifət bu və ya digər elm sahəsi ilə bağlı xüsusi, spesifik məna kəsb edir. Məsələn: *vitreous electricty – yarımkeçirici cərəyan*.

İkinci qrupa həm də elə termin birləşmələr aiddir ki, onların 2-ci komponenti həqiqi mənalarda işlənmiş olsun, lakin 1-ci komponentlə birləşmədə isə müəyyən elmi sahəsinə uyğun xüsusi, spesifik məna kəsb etsin. Məsələn, *electric eye – foto element*.

Üçüncü qrupa aid terminlər terminoloji cəhətdən bölünməzdirlər və onların komponentləri arasındakı əlaqə bir qədər sıx olur. Məsələn, *wire – gərginlik altında olan naqil; live steam – ilkin buxar*" (2, s. 9-14).

Terminin xarakter xüsusiyyəti onun müəyyən anlayışla çıx əlaqədə olması, dəqiqliyi və təkmənalılığa meyl etməsidir. Terminli birləşmələrin komponentləri təyini əlaqədə olur. Bir qayda olaraq terminli birləşmələrin əsas komponenti axırda işlənir. Elmi-texniki terminli birləşmələrin tərcüməsinin əsas üsulları bunlardır.

5. Təyin kimi işlənən birləşmədə komponentlərin ardıcıllığında dəyişiklik etməklə tərcümə. Məsələn: *avtomobile repair plant construction project – avtomaşın təmiri zavodunun tikinti proyekti*.

Elmin inkişafı, xüsusən də texnikanın, radiotexnikanın inkişafı dildə bir sıra neologizmlərin yaranmsına təkan vermişdir. Yeni sözlər digər bir tərəfdən atom texnikasının başa düşmə tələbatından yaranmışdır. Məsələn, *atom* sözündən bir çox terminlər əmələ gəlmişdir – *atomize, atomizatron, atom energy* və s.

Elmi-texniki terminologiyada neologizmlərin yaranma yolları aşağıdakılardır:
şəkilçilərlə; konvensiya yolu ilə;mürəkkəb elmi-texniki sözlərlə;ixtisar etmə ilə Şəkilçilərlə düzələn neologizmlər özləri də iki yerə bölünür: suffikslər və prefikslər. Elmi-texniki terminologiya sahəsində ən geniş istifadə olunun prefikslər isə bunlardır: *-re, -over, -under*. Məsələn: *undervoltage – azaldılmış gərginlik, instellar - ulduzlar* və s. E.Haugen öz məqaləsində qeyd edir: "İngilis dilində yeni sözlər əks hallarda dildə mövcud olan sözlərin dəyişmədən bir nitq hissəsindən,

[128] Aərbaycan Tibb Universiteti "Xarici dillər" kafedrasının müəllimləri. aygunzulfiya24@gmail.com

başqa bir nitq hissəsinə keçməsi ilə əmələ gəlir. Bu proses **konvensiya** adlanır. Konvensiyanın ən geniş yayılmış növü isimlərin feilləşməsi prosesidir. Məs: *power, to power, motor, to motor* və s. (3, s. 123).

Литературный дискурс исследовался структуралистами, но не носил системный характер. Исходная установка на определение данного понятия заключается в том, что любая речь принадлежит индивиду, она не только что-то высказывает, но и объясняет то, что высказывает, так она проясняет собственные основания и причины. В широком смысле, такая индивидуализация высказывания создаётся не только лингвистическими нормами, сколько социальными средствами внутри социокультурного пространства. Подобный подход к пониманию высказывания делает его предметом научного интереса литературной теории, в которой литературный дискурс часто ассоциируется с понятием «текст». Наиболее конструктивно литературный или художественный дискурс изучает структурно-семиотическая школа. В русском литературоведении она рассматривает литературный дискурс и текст художественного произведения во взаимосвязи, определяет их различия, главным объектом научного анализа является многофункциональная природа дискурса в структуре текста. Теоретиков литературы интересует литературный дискурс, как система языкового кода, которую использует автор, создавая тем самым код литературный. С таких позиций литературный дискурс рассматривают русские семиологи, считая его вторичной после языка моделирующей системой. Текст художественной литературы является словесным текстом, он мыслится широко, при его анализе происходит опора не только на лингвистические, но и на философские, идеологические, теологические, мифологические, научные, политические, психологические разновидности дискурса, которые в нём присутствуют. Перечислить и систематизировать все виды дискурса даже в небольшом по объёму тексте художественного произведения – сложная задача. Их взаимосвязи, переходы из одного смыслового ряда в другие являются частью природы литературного дискурса. Новейшие теории текста, которые вошли в научный обиход литературной терии с конца XX века, показывают, насколько сложным стал анализ текста. Если дискурс – это язык, то у литературного текста как вида искусства, кроме вербальных дикурсов в тексте могут присутствовать и невербальные. К ним относятся: жест, мимика, цвет, запах, взаимосвязи с дискурсами других видов искусства, которые могут входить в текст (музыка, живопись). Это также дискурсы, имеющие свою систему, поэтому они могут быть описаны и систематизированы. Семиолог М.Я. Дымарский считает, что «…дикурс одновременно и семиотизация культурно-исторического события, и речевая деятельность, её продукт, то есть текст, и поэтому он шире и глубже текста. Кроме этих сторон в понятие дискурсивной практики входят и такие

категории текста, как чтение, слушание. Дискурсивная практика показывает, что чтение может вызывать разночтение, так как понимание текста зависит от многих сторон: компетенции читателя, фоновых знаний, эстетического вкуса. Проблема взаимоотношения между автором и читателем на уровне дискурсивной стратегии текста остаётся одной из самых сложных в литературной теории. В литературной теории нет единой методологии дискурсивного анализа, возможно литературный текст настолько многомерен, что учёные и не задавались подобным вопросом. Разные теории дискурса и подходы, как в западноевропейских теориях, так и в русской дискурсивной практике объединяет одно общее обстоятельство: речь –системна, всё, что не имеет системы, не может быть речью, то есть дискурсом. На этом принципе было основано открытие дискурса безумия Мишеля Фуко, французского теоретика культуры, создавшего первую во Франции школу психоанализа. Дискурсивный анализ М. Фуко позволяет решать невыполнимую до этого открытия задачу: дать возможность говорить безумию собственным языком. Дискурсивная практика Фуко формирует эту речевую систему, отношение к безумию и безумному через классический идеал разума, который объединяет пространство «недоразумения» в единое целое. Литературный дискурс преимущественно представлен в практическом аспекте, чем в теоретическом. Художественный текст называют «телом», «корпусом», «артифактом», «законченным художественным производством». Эти понятия имеют одно общее значение: они представляют графически оформленный текст произведения, который имеет начало и конец, число знаков которого постоянно. Графический текст художественного произведения называют также партитурой, уподобляя литературный дискурс музыкальному произведению. В таком значении партитура (текст) расширяет дискурсивное пространство за счёт исполнения (прочтения), характеризуется временем прочтения, средой ,индивидуальными способностями восприятия слушателя, целым рядом около текстовых нюансов, которые сопровождают жизнь текста независимого от автора. Следовательно, литературный дискурс не равен лингвистическому, он предполагает его прочтение (исполнение), интерпретацию, при которой границы текста расширяются. Дискурсивный литературный анализ предполагает, что мы имеем дело с письменным текстом. Теории текста достаточно изучены. Известный нидерландский лингвист (4, с. 130) Т. ван Дейк, является одним из основоположников теории текста. Он доказывает, что текст не равен дискурсу, текст является только грамматической структурой произнесённого дискурса. На определение литературного дискурса Т. ван Дейка опирается в своей работе «Художественный дискурс: специфика составляющих и особенности организации текста» Т. Самарская . Они подкрепляют выводы ван Дейка о том, что упрощённо было бы рассматривать художественное произведение только как совокупность определённых дискурсов. Исследователи обращаются к проблеме создания автором виртуальной картины мира, которая призвана влиять на «духовное пространство» читателя. Литературный текст может включать в себя все виды дискурса, он полиморфен, например, политический, бытовой, но при соблюдении полного соответствия этих дискурсов характектерным языковым признакам своего вида, он всё равно остаётся художественным. Автор политического дискурса в прессе несёт ответственность за свои утверждения, автор же литературного дискурса такой ответственности не несёт, искажение политической и исторической информации даже в исторических романах допустимо, так как служит цели литературного дискурса, допускающего вымысел. Художественный текст – целая вселенная, в его корпус могут входить многочисленные дискурсы: философские, политические, психологические, культурологические, страноведческие, мифологические. Литературный дискурс художественного произведения подчиняется жанровой специфике только отчасти. Сцепление разного типа дискурсов может обрести другое качество, и этот скачок переносит получателя информации в другое художественное пространство. Под литературным дискурсом часто подразумевают художественную речь. Проблема художественной речи изучена в теории литературы. Однако литературный дискурс показал, что текст является многоуровневой универсальной системой. В. Макрович задавался этим вопросом в 80-х годах XX века: «Какие пути ведут к образованию универсальных значений изображаемого? Какие условия делают скачок к универсальному смыслу уместным и возможным? Какова степень подчиненности или, напротив, не подвластности этому универсальному смыслу различных элементов структуры?» Литературный дискурс художественного текста формируется согласно законам искусства. Пожалуй, наиболее важной условностью, доминирующей в современной литературоведении, является жанр. Хотя интерпретация имеет тенденцию растворять самобытность текста связывая его с основными структурами власти и желания, жанр снова привлекает внимание о конкретных качествах и структурах дискурса. Определены особенности текста по его особой жанровой форме. Таким образом, жанр, который раньше считался описательным теперь считается объяснительным: жанр олицетворяет определенные социальные роли, которые управляют отношения между текстом и читателем. Как сказал Баварши, «жанры создают своего рода литературную культуру или поэтику, в которой текстовая деятельность становится осмысленной »; они «составляют социальную реальность, в которую вовлечена деятельность всех социальных участников. Жанр создан, чтобы обеспечить необходимую основу для чтения. Как настаивал Деррида, «текст не может принадлежать ни к какому жанру, не может быть без жанра или в меньшей степени. Каждый текст участвует в одном или нескольких жанрах, без жанрового текста не бывает ». В этом отношении жанр может рассматриваться как определяющий контекст для всего текстового поведения, литературного и нелитературного, составляющие текстовые отношения в таких сферах, как учебная аудитория (лекции, производство поручений), суд (выступления в защиту, поручения в жюри), а также участие читателей в пьесах, романах или сонетах. Более того, жанр

управляет тем, что Халлидей (8, с. 54) назвал регистром, очевидным в любом данном тексте, - что есть семантические и синтаксические особенности, которые создают коммуникативную ситуацию, в том числе позицию участников Viehoff, Хотя Bawarshi утверждал, что главный теоретический вопрос заключается в том, является ли жанр регулирующим или конститутивным, он мало учитывал возможность отклонения или представления в рамках определенного жанра. Например, наш ответ на сонет - это продукт обоих наших отношений к его обязательным формальным признакам, а также отличительным семантическим или формальным качествам, которые писатель воплотил в рамках ограничений формы. Правила жанр позволяет нам определить как обычное, так и неожиданное (точки зрения, которая предполагают, что законы жанра регулирующие). Таким образом, в качестве структур дискурса жанры отчасти характеризуются типами грамматик или схем рассказов, которые они требуют; Они указывают ситуационные модели, которые характеризуют данный художественный текст и позволяют нам сделать предсказания о том, как текст будет разворачиваться. В этом отношении теория жанра дает потенциально богатый ресурс для более точных эмпирических исследований литературного чтения, позволяющий нам опираться на исследование (которое пока не относится к литературному чтению) о том, как читатели создают ситуативные модели (9, с. 167). Хотя различия между типами дискурса привлекли некоторое внимание , законы жанра мало учитывались в эмпирических исследованиях. Если они существуют с приписываемой им силой, мы могли бы найти следы их присутствие повсюду в данных, полученных от читателей. Например, когда читатели, изученные Brewer и Lichtenstein его коллегами (2, с. 477) сообщал о напряжении только в случае историй с должным образом упорядоченными компонентами, это кажется, отражает жанровые ожидания: история, вызывающая тревогу, должна также удовлетворять ее в противном случае это считается плохо сформированным. Аналогичные аргументы были выдвинуты известными учеными в области эмпирии. Например, Ван Дейк предположил, что когнитивные процессы, лежащие в основе текста понимание применяется ко всему дискурсу, включая литературу: «Наши когнитивные механизмы просто не позволит нам понять дискурс или информацию в фундаментальном аспекте иначе» «Поэтому мы категорически отрицаем полностью «специфический» характер так называемой «литературной интерпретации». Говорят, что такие различия заключаются прежде всего в прагматических и социальных функциях литературы. Аналогичным образом конструктивистский подход Schmidta привел его к предположению, что определение местоположения атрибутов литературность поверхностных черт текстов - «онтологическая ошибка»; это «человек процессы, выполняемые с такими функциями, которые определяют рассматриваемые атрибуты ». Это противоречие было оформлено как контраст между подходами конвенционалистами и традиционалистами (9, с. 184). Аргумент проблематичный,однако, потому что эти две позиции сосредоточены на разных аспектах процесса чтения.В то время как традиционалист исследует чтение на предмет влияния предшествующих когнитивных способностей, кадры, будь то прототипы, жанры или схемы, традиционалисты сосредотачиваются на конкретных функциях текста, таких как счетчик или персонификация и приписывает изменения в чувствах читателей или оценочных ответах на этот источник. Это может означать, что две разные системы под вопросом - один основан на когнитивных процессах, другой - на аффективных процессах - и что последний может быть более подходящим для воплощения того, что является уникальным для литературной обработки. Однако вопрос не так прост, как это можно было бы сделать. Чувства также могут быть обусловлены условностями, а оценки читателей явно связаны с нормами, налагаемыми конкретной местной культурой. Таким образом, условность может действовать и здесь, хотя и в менее очевидной и измеримой форме. Тем не менее, некоторые черты, которые считались отличительными от литературных текстов, могли быть слишком легко упущены. Ограниченный всеведущий повествовательный режим, примером которого является анализируемый литературный дискурс, обеспечивает доступ к мысли персонажа таким образом, который характерен для художественной литературы (один из характерных маркеров – свободный косвенный дискурс).

ЛИТЕРАТУРА

1. Бахтин М. (1986) Эстетика словесного творчества Москва: Культура
2. Brewer, W.F. & Lichtenstein, E.H. (1982) Stories are to entertain: A structural-affect theory of stories. Journal of Pragmatics 6, 473-486
3. Гальперин Илья 1981 Текст как объект лингвистического исследования. Москва: Наука
4. Dijk, Teun A. van 1985 Semantic Discourse Analysis // Handbook of Discourse Analysis, London: Academic Press, p. 103-136
5. Eco, Umberto 2011 Confessions of the young novelist Cambridge: Cambridge University Press
6. Fowler, George 1987 The grammatical relevance of theme rheme partition. / Papers from 23rd Annual Regional Meeting of the Chicago Linguistic Society. Part I: The General Session Chicago Linguistic Society, p. 93- 104.
7. Fairclough, Norman 1995 Critical discourse analysis: the Critical Study of Language. London: Longman
8. Halliday, Michael and Rugaya Hasan 1976 Cohesion in English, London: Longman
9. Zwaan, R. A., & Radvansky, G. A. (1998). Situation models in language comprehension and memory. Psychological Bulletin, 123(2), 162–185

Ключевые слова: дискурс, жанр, литература, текст, ситуативные модели
Açar sözlər: diskurs, janr, ədəbiyyat, mətn situativ modellər
Key words: discourse, genre, literature, text, situational models

Diskursiv təcrübələrin hibridləşməsi kontekstində ədəbi diskurs

Xülasə

Məqalədə diskursiv təcrübələrin hibridləşməsi kontekstində ədəbi diskurs tədqiq edilir. Ədəbi diskurs real zamanda baş vermir və bu diskursda mətnlər bir çox hallarda yazılı olur. Diskursun real zamanla əlaqəsi ilə yanaşı, digər mühüm

məsələ onun real və yaxud xəyali dünyada baş verməsidir. Real və xəyali dünyada cərəyan edən mətnlər arasında fundamental fərqlər kontekstlə məzmunla bağlı xüsusiyyətlərlə şərtlənir. Bədii diskursda xəyali dünyaya aid mətn qəbul edənə birbaşa deyil, yalnız mətni göndərən vasitəsilə yönəlir.Bədii diskursda koqnitiv və faktual informasiya ilə müqayisədə daha çox estetik funksiya yerinə yetirilir. Müəllif bədii diskursda müxtəlif praqmatik və üslub maraqlarını təmin etmək üçün bədiilik, emosionallıq, yarada bilər. Ədəbi diskursda dil strukturları, mülahizələr, iddialar, əmrlər, üzrxahlıqlar informasiyanı qəbul edənə birbaşa deyil dolayısı ilə təsir edir. Beləliklə, bütün bu diskurs strategiyaları müəllifin şüuru, mətnin özünün strukturu və mətni qəbul edənin dərk etmə qabiliyyəti süzgəcindən keçir.

Literary discourse in the context of hybridization of discursive practices Summary

Summary

The article investigates literary discourse in the context of hybridization of discursive practices. Literary discourse does not exist in real time, and in this discourse the texts are written in many cases. In addition to the relationship of discourse with real time, another important issue is whether it occurs in the real or imaginary world. Fundamental differences between texts that take place in the real and imaginary world are conditioned by features related to context and content. In literary discourse, the text belonging to the imaginary world is not addressed directly to the receiver, but only through the sender of the text. In literary discourse, more aesthetic functions are performed rather than cognitive and factual information. The author can also create ambiguity to satisfy various pragmatic and stylistic interests in literary discourse. In literary discourse, linguistic structures, judgments, claims, orders, apologies affect the recipient of information not directly, but indirectly. Thus, all these discourse strategies pass through the filter of the author's consciousness, the structure of the text itself and the ability of the perceiver of the text to perceive it.

Rəyçi: fil.e.d., prof. A.Y.Məmmədov

Aysel Rasim qızı Abdullayeva [132]

ÜMUMİ REAL MƏKAN BİLDİRƏN SÖZLƏRİN LİNQVOKULTUROLOGİYASI ("KƏND" VƏ "ŞƏHƏR" KONSEPTLƏRİ)

Giriş. Ümumi real məkan (ÜRM) bildirən sözlərin hər hansı dildə müəyyən hissəsi "kənd" və "şəhər" konseptləri ətrafında cəmlənir. Müasir Azərbaycan dilində geniş yayılmış fars mənşəli kənd sözünün yerində vaxtilə türk mənşəli köy sözü, ərəbcə şəhər yerində isə qala işlənmişdir ki, bir sıra türk dillərində sonuncular bu gün də intensiv istifadə olunmaqdadır. Məlumdur ki, şəhər həyat tərzinə, ümumən mədəniyyətinə keçid (bunu da xüsusilə qeyd etmək lazımdır ki, "mədəniyyət" sözü ərəbcə məhz "şəhər həyat tərzinə məxsusluq" deməkdir) sinifli cəmiyyətin, ardınca isə dövlətin yaranması ilə bağlıdır. İlk şəhərlər Şumerdə, Misirdə, Hindistanda, Yunanıstanda meydana çıxmış, elə ilk dövrlərdən də şəhərin kənddən sosial, iqtisadi, siyasi, mədəni və s. baxımdan müqayisəyəgəlməz üstünlüyü özünü göstərərək, get-gedə daha da dərinləşmişdir. Odur ki, dünyanın ən müxtəlif mədəniyyətlərində olduğu kimi dillərində də kəndlə şəhər bir- birinə qarşı dayanan sosial məkanlardır.

Görkəmli qazax şair-mütəfəkiri Oljas Süleymenov türklərin tarixi üçün strateji əhəmiyyət daşıyan "köçəri, yaxud oturaq (şəhərli)?" mübahisəsi ilə əlaqədar "akademikləşdirilmiş" cavaba qarşı yazdığı bir şeirində deyir:

Beşrəng gil yığını,
soysan kolları,
sapsarı barxanlar
həsəd sayağı
axıb şütüyürlər Sırdərya sarı,
Şardar şəhərini basıb əziblər,
əski xan yurdları bölüşdürülüb,
bu qəmli yerlərdə sənin payına
Sırdərya tərəfə boylanmaq düşüb (5, s. 12).

Yeni dövrə gəldikcə ya tarixən şəhərləri olmayan, ya da tarixən şəhər mədəniyyətləri danılmış xalqların narahatlığı tamamilə təbiidir. Çünki müasir mədəni xalqların hamısı şəhər mədəniyyətinə sahib olmaq istəyir. Türk xalqlarının qədim şəhər mədəniyyətlərinin olmasına (və bunun zaman- zaman danılmasına) əmin olan şair qədim bir türk şəhərini yalnız təbii yox, həm də mənəvi dağıntılar altında "kəşf edir":

Şardarın gilində okeanlar var,
laylar altındakı tarix boş durur.
Ötən olayların dərki dərində...
Ən susuz yerlərdən qalxır bir dəniz,
qumların içində batan vətəni
yeni yurd naminə unutmuşuq biz.
Bir gün qayıdarıq, yaddaş oyansa,
türklüyə - çinarla, daha nə ilə...
Mirzəçöl dənizinin ağ yelkənləri
Küləktək gəzəcək belədən- belə... (5, s. 12-13).

Bu "kəşf"in məqsədi sadəcə tarixi həqiqəti təsdiq etmək deyil, məqsəd daha çox ondan ibarətdir ki, türkləri yalnız köçəri ("kəndçi"!) bir etnos kimi təsəvvür (və təsvir) eləmək ənənəsindən əl çəkilsin.

Linqvokulturologiyada, heç şübhəsiz, mənbə və ya qaynaqlarını daha əvvəlki dövrlərin (məsələn, XIX əsrin 20- ci, 30- cu illərində V.fon Humboldtun) müvafiq ideyalarından alan müxtəlif metodoloji təmayüllər mövcuddur ki, onların əsas hissəsi dillə mədəniyyət arasındakı münasibətlərə baxışın xarakterindən irəli gəlir. Ümumiyyətlə. həmin münasibətlərdə bəzən dilə, bəzən də mədəniyyətə üstünlük verilməsi müşahidə olunmaqdadır. Son zamanlar o yanaşma daha uğurlu hesab edilir ki, "burada dil və mədəniyyət bir- birindən asılıdır, eyni zamanda bir- biri ilə həmişə təmasdadır, bununla belə, onlar müstəqil işarə sistemləri olaraq qalır. Bir tərəfdən, dil mədəniyyətin ayrılmaz hissəsi, onun qavranılması vasitəsidir və milli dünyagörüşün səciyyəvi xüsusiyyətlərini ifadə edir. digər tərəfdən mədəniyyət dilin nadirliyini qoruyur, onu dünyanın bir çox başqa dillərindən fərqləndirir" (1, s. 219).

Bu isə dili həm mədəniyyətin məhsulu, həm də mədəniyyətyaradıcı bir amil kimi qiymətləndirməyə əsas verir. Bir sıra dillərdə kənd – elat, bir sıra dillərdə isə şəhər mədəniyyətini əks etdirən sözlər, ifadələr üstünlük təşkil etsə də, elə bir inkişaf etmiş dil təsəvvür etmək mümkün deyil ki, orada həm kənd – elat, həm də şəhər mədəniyyəti elementləri mövcud olmasın. Məsələn, Azərbaycan dilində hər iki mədəniyyətin qarşılaşdırılmasını əks etdirən ifadələr var ki, onlardan biri belədir: kənddən gəlib şəhəri bəyənmir. Hətta kənddən olan adam iki düzəltmə sözlə bildirilir: kəndli və kəndçi (bir qədər də yumorla: kəndistan). Kəndli yalnız "kənddən olan" mənasını yox, həm də sosial- siyasi anlam ifadə edir: fəhlə- kəndli hökuməti.

"Şəhər" və "kənd" anlayışları hər bir inkişaf etmiş dildə çox zəngin konsept strukturuna, eləcə də konseptosferə malikdir.

[132] Bakı Dövlət Universiteti, doktorant. aysel.nemetli1995@gmail.com

Linqvokulturologiyada belə bir fikir geniş yayılmışdır ki, "məntiqi semiotikaya aid olan dar mənada konsept anlayışın məzmunudur, yəni anlayışda əks olunan obyektlərin xüsusiyyətlərinin məcmusudur. Geniş mənada konsept dilin simvolik və semantik funksiyasında bütün mümkün mənaları ehtiva edir" (2, s. 177). Y.S.Stepanov göstərir ki, "konsept mürəkkəb quruluşa malikdir; bir tərəfdən, konseptin strukturuna aid olan hər şey ona məxsusdur; digər tərəfdən, konseptin strukturu onu mədəniyyət faktına çevirən hər şeyi – ilkin formanı (etimologiyanı) ehtiva edir; o, tarixin müasir assosiasiyalar, qiymətləndirmə və s.- nin məzmununun əsas xüsusiyyətlərinin sıxılmış olanıdır" (3, s. 40).

"Şəhər" konseptini aşağıdakı xüsusiyyətlər müəyyən edir: siyasi mərkəz, iqtisadi mərkəz, mədəni mərkəz, texnoloji inkişaf və onun yaratdığı problemlər, insanın (şəxsiyyətin) ictimai münasibətlər içində itməsi. nitqin ədəbiləşməsi, hərəkətlərin standartlılığı, sosial təbəqələşmənin dərinləşməsi və s.

"Kənd" konseptinə isə aşağıdakılar daxildir: müasir texnologiyalardan uzaqlıq, özünəməxsus sakit həyat, insanın (şəxsiyyətin) qabarıq görünməsi, etnoqrafik adət-ənənələrə hörmət, nitqdə əyalət (dialekt-şivə) xüsusiyyətlərinin qorunub saxlanması, təbiətə yaxınlıq və s.

Şəhərlə kəndin qarşılaşdırılmasında çox prinsiplər iştirak edir ki, onlardan biri də dil-danışıq tərzidir. Belə ki, şəhər mühiti üçün səciyyəvi olan müəyyən ədəbi normativlik, adətən, kənddə müşahidə olunmur. Ancaq bu, o demək deyil ki, dialekt- şivə nitqi hər hansı normadan uzaqdır, söhbət ondan gedir ki, kənd əhalisinin danışığı, bir qayda olaraq, ölkənin mərkəzi şəhərlərindəki ədəbi dildən fərqlənir və bu fərqlilik ayrı-ayrı kəndlər arasında da özünü göstərir. Eyni zamanda kənd mühiti elədir ki, hər bir şəxsin danışığındakı fərdi xüsusiyyətlər çox zaman aydın cizgilərilə seçilməklə necə varsa o cür qəbul edilir. Halbuki şəhərdə belə "fərdi üslub" texnikasını qoruyub saxlamaq mümkün deyil.

Danimarka strukturalizminin (qlossematikanın) banilərindən olan H.İ.Uldall həmin dilçilik məktəbinin ümumi mövqeyini ifadə edərək mətni biri digəri ilə bağlı olan dörd hissəyə bölürdü: 1) məzmun substansiyası, 2) məzmun forması, 3) ifadə substansiyası, 4) ifadə forması. O göstərirdi ki, dilin "fikir iqlimi"ndən, etnoqrafik təfəkkür kanonlarından, sosial mühitdən asılılığı məhz məzmun substansiyasından irəli gəlir. Bu mətnin elə bir hissəsi, yaxud planıdır ki, həyatın canlı prosesləri ilə bilavasitə əlaqədardır (4, s. 424- 425).

Məsələyə həmin baxımdan yanaşsaq "şəhər dili" ilə "kənd dili" arasında kəskin fərqlərin olduğunu deyə bilərik. Ancaq məsələ burasındadır ki, həmin fərqlər həm məzmun, həm də ifadə substansiyasına aiddir. Heç də təsadüfi deyil ki, keçən əsrin 60-cı, 70-ci illərində ümumən SSRİ xalqları ədəbiyyatlarında, o cümlədən də Azərbaycan ədəbiyyatında "şəhər nəsri" və "kənd nəsri" anlayışları qarşılaşdırılırdı. "Kənd nəsri" adlandırılan yaradıcılıq aktı "nəinki ancaq ədəbi hərəkatda çox mühüm yer tutur, ümumiyyətlə bütün ictimai varlığımızın, sosial- siyasi həyatımızın bir sıra məsələləri ilə əlaqədə olub ictimai hərəkata və fəaliyyətə xeyli dərəcədə təsir göstərə bilirdi... Bunun səbəbi nə idi? Hər şeydən əvvəl "ilk mənbə"dən, "kök"dən, "böyük əcdad"dan ayrı düşmək, uzaqlaşmaq, milli- mənəvi dəyərləri qoruyub saxlaya və gələcək nəsillərə ötürə bilmək təhlükəsi idi" (7, s. 526- 527). Bu mülahizələrin yer aldığı "Müasir Azərbaycan ədəbiyyatı" dərsliyində o da əlavə olunur ki, "müasir kənddən yazan V.Şukşin, V.Rasputin, V.Astafyev, bizdə isə İ.Hüseynov (Muşanna), S.Əhmədli, Ə.Əylisli ədəbi prosesin ön xəttinə çıxmışdılar" (7, s. 527).

Sabir Əhmədli "Dünyanın arşını" (1969) romanında, təsadüfi deyil ki, xatırladır: "Bütün böyük şəhərlər kiçik- kiçik kəndlərdən törəmişlər" (7, s. 527). Ümumiyyətlə doğru olan bu mülahizə ancaq o demək deyil ki, şəhərlər kəndlərin mexaniki yığımıdır, öz- özlüyündə aydındır ki. şəhər kəndlə müqayisədə ən müxtəlif baxımlardan keyfiyyətcə tamamilə fərqli hadisədir.

Mənəvi-psixoloji nəzər nöqtəsindən kəndin şəhərə qarşı qoyulmasında birincinin təbiətlə iç-içə olması, ikincinin isə sənayeləşmə nəticəsində təbiətdən ayrılması əsas amillərdən biri olub müxtəlif xalqların ədəbiyyatlarında geniş əksini tapmışdır. Məsələn, kənddən şəhərə gəlmiş gənc bir azərbaycanlı şair 70-ci illərdə "Anama məktub" şeirində yazırdı:

Kəndimizi bük kağıza, göndər mənə,
Kəndimizin havasını istəyirəm.

Yaxud həmin illərdə istedadlı şair İsa İsmayılzadənin aşağıdakı misraları məşhur idi:

Panel- panel evlərilə
Şəhər çökür gözlərimə.

Kəndi ideallaşdırmaq, kənd idilliyası dünya ədəbiyyatında özünə əhəmiyyətli yer tutmuş mövzulardandır. Bununla belə zaman-zaman geniş miqyas alan urbanizasiya (şəhərləşmə) prosesi kənd ukladının dağılmasına gətirib çıxarır ki, bu da müəyyən ictimai həyəcan, gərginlik və etirazlar doğurmaya bilməz. Şair Musa Ələkbərli şeirlərindən birində tədricən kəndə aid səciyyəvi xüsusiyyətlərdən məhrum olan yaşayış məntəqəsi barədə "istəyirəm daşa basam bu kəndi" deməklə həmin ictimai emosiyanı dilə gətirmişdir.

Müasir dövrdə dünyanın, demək olar ki, bütün şəhərlərində kənd obrazını, həyat tərzini, etnoqrafik əlamətlərini nümayiş etdirən dükan- bazar, qida məhsulları müəssisələrinə və onların reklamlarına təsadüf edilir ki, nəticədə dilə xeyli sayda yeni ifadələr, deyimlər daxil olur; məsələn, Bakı şəhərinin küçələrində bu cür reklam – ifadələrlə tez- tez rastlaşmaq mümkündür: "Nənəmin təndiri". "Tarladan stola", "Çoban pendiri", "Kənd yumurtası", "Bostan məhsulları", "Kənd nemətləri", "Bulaq suyu", "Yaban" və s.

Qədim dövrlərdən başlayaraq dünyanın bir sıra məşhur şəhərləri nağıllarda, dastanlarda, lətifələrdə. atalar sözləri və məsəllərdə obrazlaşmışdır ki, bu obrazlar, adətən, böyük mədəniyyəti, sosial- siyasi, dini möhtəşəmliyi, milli qüdrəti nümayiş etdirmişdir. Məsələn, Qərbi Avropa xalqlarının, xüsusilə ingilislərin atalar sözlərində "Roma"nın obrazı xüsusi yer tutur: Do at (və ya: in) Rome do as the Romans do, 'Romadasansa işini romalılar kimi gör'; İt is folly to live in Rome, and strive with

the Pope ʻRomada yaşayıb Papaya qarşı çıxmaq axmaqlıqdırʼ; Rome was not built in a day ʻRoma bir günə tikilməyibʼ; All roads lead to Rome ʻBütün yollar Romaya aparırʼ (nümunələr bu mənbədən alınır: 6).

Nəticə. Beləliklə, "kənd" və "şəhər" konseptlərinin bu və ya digər etnosun, cəmiyyətin təfəkküründə tutduğu kifayət qədər əsaslı mövqeyin nəticəsidir ki, həmin konseptlər dildə çoxsaylı, zəngin leksik- metaforik imkanlar nümayiş etdirir.

İstifadə edilmiş ədəbiyyat

1. Mahmudova G. Dil və mədəniyyətin qarşılıqlı əlaqəsi. – "Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri" mövzusunda Respublika elmi konfransının materialları, Bakı: Elm və təhsil, 2023, səh. 217-221.
2. Əhmədova S. Linqvokulturoloji paradiqma çərçivəsində konseptosfer. – "Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri" mövzusunda Respublika elmi konfransının materialları. Bakı: Elm və təhsil, 2023, səh. 177-181.
3. Степанов Ю. С. Константы. Словарь русской культуры. Опыт исследования. М. 1997, 824 стр.
4. Ульдалль Х.И. Основы глоссематики. – Новое в лингвистике, Москва, изд. Иностранной Литературы, выпуск I, 1960, стр. 390- 436.
5. Süleymenov O. Gil kitab, Bakı, "Nurlan", 2005, 222 səh.
6. Abbasov A. English proverbs and sayings, Baku, 2003, 435 p.
7. Müasir Azərbaycan ədəbiyyatı, Bakı, II c., Bakı Universiteti nəş., 2007, 564 səh.

Ключевое слово: деревня, город, языковая культура, концепция
Key word: village, city, linguistic culture, concept

Резюме

Определенная часть слов, обозначающих общее реальное пространство (ОСР) в любом языке, сосредоточена вокруг понятий «село» и «город». В современном азербайджанском языке слово «село» персидского происхождения, получившее широкое распространение, когда-то было заменено словом «кей» турецкого происхождения, а слово «город» использовалось в арабском языке, причем последние интенсивно употребляются до сих пор. в ряде тюркских языков сегодня. Известно, что переход к городскому образу жизни и культуре в целом (следует отметить, что слово «культура» в переводе с арабского означает «принадлежность к городскому образу жизни») связан с возникновением классового общества, а затем и государства.

Summary

A certain part of the words denoting general real space (GSR) in any language is centered around the concepts of "village" and "city". In the modern Azerbaijani language, the word "village" of Persian origin, which is widespread, was once replaced by the word "köy" of Turkish origin, and the word "city" was used in Arabic, and the latter are still intensively used in a number of Turkic languages today. It is known that the transition to the urban lifestyle and culture in general (it should be noted that the word "culture" in Arabic means "belonging to the urban lifestyle") is connected with the emergence of a class society, followed by the state.

RƏYÇİ: dos. S.Abbasova

Leyla Cumayeva[133]

OXUYUB ANLAMADA KONSEPTUAL İNTEQRASİYANIN ROLU

Məlumdur ki, oxuyub anlama, yazıb anlama, eşidib anlama tədris prosesində də mühüm rol oynayır. Bu proseslərin hamısı elə əqli proseslərdir ki, bu zaman hərəkəti icra edənlə (oxuyan, yazan, dinləyən) mətnlər arasında interaktiv fəaliyyət yaranır. Mətni o zaman tam başa düşürük ki, bizdə müxtəlif bacarıqlar- vərdişlər – mətndə gəzişmək, informasiyanı lokallaşdırmaq, mətnin ruhunu hiss etmək, hadisələri uzlaşdırmaq, olmalıdır. Bu cür keyfiyyətləri olmayan oxucu, dinləyici mətnin ancaq səthi başa düşülməsini əldə edə bilər [1, s. 109].

Konseptual inteqrasiya məsələsi araşdırılarkən diqqəti nəzərə almaq vacib sayılır. Belə olduqda təhsilalanların daha çox nəyə diqqət edəcəkləri məsələsi önə keçir, çünki burada müəyyən sərhədlər də mövcuddur. Məsələn, təhsilalanlar forma ilə bərabər həm də quruluşa tuşlana bilərlər. Əks halda onların diqqəti ünsiyyət və məzmuna yönəldilə bilər. Bununla bağlı C.Fokonyenin apardığı araşdırmanı təqdim etməyi məqsədəuyğun hesab edirik [2, s. 179]:

İnputa (informasiya daxiletmə sahəsinə) təsiretmə. Burada müəyyən nəzərə çarpmayan qrammatik formaları xüsusi vurğulamaqla təhsilalanların diqqətini cəlb etmək mümkündür.

İnput axını. Xüsusi konstruksiyalar və kontrastların tezliyi yüksək mətnlərdə diqqəti cəlb etməni təmin edir. "İnput flooding" (input axını) adlanan hissədə bir mümkün funksiya da daxiletmədə müəyyən əlamətlərin daha çox tezliyinə əlavə etsək, xüsusi strukturun istehsalıdır. "*Syntactic priming"* – (sintaktik hazırlıq) danışanın deyiləni və ya eşidiləni ilk dəfə istehsal və emal etmək meylidir.

Təhsilalanların müəyyən dil materiallarına diqqətini cəlb etmək üçün vacib texnikalardan biri də "input processing" (informasiya daxiletmə prosesi) adlanır. Burada qaydaların öyrənilməsindən daha çox dilöyrənənlər input prosesindəki fəaliyyətlərə cəlb olunurlar. Belə ki, buradakı struktur daha mənalı istifadə olunur [2, s. 181].

Bundan başqa, öyrənmə istiqaməti formadırsa, o qədər də mənalı məzmun tələb olunur. Müəllim semantik dimensiya (çatışmazlıq) olduğu barədə qərara gəlsə, onda müxtəlif növlü təcrübi fəaliyyətlər planlaşdırıla bilər. Bunun oxu bacarıqlarının formalaşdırılması prosesində də həyata keçirilməsi mümkündür.

Oxu zamanı da tələbələr konseptual inteqrasiya ilə bağlı məsələlərdə diqqətli olmalıdırlar. Səlislik, əslində, mətni dəqiq oxuma qabiliyyətidir. Bu, eyni zamanda, cəld və ifadəli oxu hesab edilir. Səlis oxu çox vacib hesab edilir, çünki o, sözün tanınması və başa düşülməsində körpü rolunu oynayır. Sürətli oxumağı bacaran oxucular sakit oxuyarkən belə, sözləri avtomatik olaraq tanıya və mənanı anlamaq üçün sözləri qruplaşdırmağı bacarırlar. Sürətli və rəvan oxu qabiliyyətinə malik təhsilalanlar heç bir cəhd göstərmədən ifadəli şəkildə oxuya bilirlər. Onların oxuması elə təbii səslənir ki, sanki onlar danışırlar. Kimdə bu qabiliyyət formalaşmayıbsa, onlar sözbəsöz oxumağa üstünlük verirlər, çünki səlis oxuyanlar sözlərin dekodlaşmasına diqqəti yönəltmirlər. Axı onlar mətnin məna qatına köklənmirlər. Səlis oxuyanlar yalnız mətndə ideyalar arasında əlaqə yaradır, əvvəliki bilikləri əsas götürürlər. Başqa sözlə, oxucular həm sözləri tanıyır, həm də başa düşürlər. Yetərincə səlis oxumaq qabiliyyəti olmayan oxucular bütün hallarda sözlərin fiqurasiyasına tuşlanmalı, mətnin mənasının qavranılmasına az diqqət ayırmalıdırlar. Təhsilalanlar sözləri avtomatik tanısalar belə, onları ifadəli şəkildə oxumasalar səlis hesab edilmir. İfadəli oxu zamanı dilöyrənənlər sözləri sütunlara ayırmalı, xüsusi ifadələrdən istifadə etməlidirlər. Lakin durğu işarələrinə fikir verməmək geniş mənada ciddi problemlərə yol açır. Müsbət haldır ki, səlis oxu vərdişi öyrədilə bilir. Bacarıqlı oxucuların etdiklərini modelləşdirməklə böyüklər kiçiklərə ucadan oxumağı öyrətməlidirlər. Bu zaman məktəblilərə punktuasiya zamanı fasilə etmək, səsi modulyasiyaları kimi məsələlər izah olunmalıdır. Bu isə mətni semantik baxımdan daha təsirli və mənalı edir. Kiçik yaşlılara mətnlər müəllimləri, valideynləri, yaxınları tərəfindən oxuna bilər. Bundan əlavə, təkrar oxuya onları cəlb etməklə, təcrübədən keçirmək vacib sayılır. Mətnlər oxu üçün asan, nisbi şəkildə qısa olmalıdır. Məsələn:

- uşaq/böyük oxusu. Burada böyüklər modelləşdirir, təhsilalanlar təcrübədən keçirir;
- xorla oxu – birlikdə oxumaq;
- köməkçi (assisted) oxu. Maqnitofona yazılmış mətnləri oxumaq;
- tərəf müqabili ilə oxu. Digər təhsilalanla oxumaq;
- oxucu ifası. Xarakterləri olduğu kimi ifa etmək.

Burada inkişafa doğru addım atmaq asandır. Bunu təhsilalanlar əyləncə hesab edirlər. Bu zaman onlar oxuya vaxt ayrılmasını çox dəstəkləyir, bu onlarda motivasiya formalaşdırır. Oxucuların teatrı adlanan strategiya təsilalanların ifa etmək həvəslərini şifahi oxu təcrübəsi üçün ehtiyacları ilə birləşdirir. M.Minskiyə görə, *"oxucuların teatrı əyləncəli və maraqlı vasitələr təklif edir ki, bu zaman səlislik və anlama həyata keçirilir"* [3, s. 115]. Lakin hələ də səsli oxunu bacarmayanlar üçün sakit oxu sinif saatlarında əla istifadə vasitəsi deyildir. Sakit oxu və ya buna "*Round Robin" (*dairəvi robin) oxu da deyirlər, səlisliyi artırmaq üçün əla üsul hesab edilir. Amma faktiki olaraq, səlisliyi inkişaf etdirmək daha çox təcrübə, bələdçilik tələb edir. "*Guided Oral Reading"*- (rəhbərləşdirilmiş şifahi oxu) adlanan instruksiyalı strategiya rəngarəng oxu bacarıqlarını inkişaf etdirməkdə kömək edir. Buraya həmçinin səlislik də daxildir. Müəllim, valideyn, istənilən şəxs səlis oxunu modelləşdirməklə mətni oxuyur, daha sonra təhsilalanlar özləri sözügedən mətni yenidən oxumağa başlayırlar.

Xorla oxu bütöv siniflə və ya bir qrup dilöyrənənlərlə birlikdə oxuna bilir. Bu dilöyrənənlərdə özünə inam, rəvan nitq, motivasiya formalaşdırır. Müəyyən zaman çərçivəsində təkrarlanan oxu təhsilalanların oxu sürətini çoxaldır, təhsilverənlərə onlardaki inkişafı, uğuru görməyə kömək edir. Səlislik bir çox oxu imkanlarının nəticəsi kimi uğuru

[133] Azərbaycan Memarlıq və İnşaat Universiteti

şərtləndirir. Məhz bu baxımdan təhsilalanlar onlar üçün asan olan mətnləri ucadan təkrar oxumalıdırlar. Bu mətnlər çoxlu sözlərdən ibarət olmalıdır ki, təhsilalanlar onu asanlıqla bilməli və dekodlaşdırmalıdırlar. Başqa sözlə, dilöyrənənlər müstəqil oxu səviyyəsinə malik olmalıdırlar. Tələbələr 95 faiz düzgün oxuya bilirlərsə, bu, onların müstəqil oxu səviyyəsi hesab edilir.

Bir çox fəaliyyətlər səlisliyin inkişafına yardım edir, çünki mətni şifahi şəkildə oxumanın bir neçə yolları vardır. Buraya tələbə-müəllim, xor, maqnitofonla, tərəf müqabili ilə, oxucu ifası daxildir [3, s. 118].

Təhsilalanlar-böyüklər adlanan oxu növündə təhsilalanlar tək-tək müəllim ilə oxuyur. Böyüklər içərisində oxucu müəllim, valideyn, sinif bələdçisi və ya tyutor da ola bilər. Yaşca böyük olan oxucular səlis oxucu nümunəsi olaraq birinci oxuyurlar.

Daha sonrakı mərhələdə yaşca böyük olanlarla təhsilalanlar oxumağa başlayır. Bu zaman təhsilverənlər bələdçi və ya həvəsləndirici rolunu həyata keçirirlər. Dilöyrənənlər rəvan oxunu kiçik mətn vasitəsilə tam formalaşana qədər oxumağa başlayır. Bu proses təxminən 3-4 dəfə təkrarlana bilir. Digər bir oxu isə xorla oxudur. Xorla oxuda dilöyrənənlər qrupla oxuyur. Lakin burada dilöyrənənlər təhsilverənlərin oxuduğu mətni adekvat görməlidirlər. Onlar müəllimi izləməlidirlər. Xorla oxu üçün çox da uzun olmayan mətnlər seçilməlidir. Nümunələrlə zəngin kitablar xüsusi ilə faydalı hesab edilir, çünki onların təkrarlanan üslubu təhsilalanları prosesə qoşulmağa çağırır. Səlis oxucu modeli kimi ucadan oxumağa çalışmaq lazımdır. Daha sonra kitabı yenidən oxumaq və təhsilalanları cəlb etmək lazımdır. Yalnız oxunduqca onlar sözləri tanımağa başlayır. Təkrar oxunu onlar bu işi bacarana qədər davam etdirməkdə fayda var. Təhsilalanlar kitabı 4-5 dəfə oxumalıdırlar. Belə olduqda onlar mətni müstəqil şəkildə oxumağa nail olurlar.

Maqnitofonla, yəni audio oxu zamanı səlis oxucunun oxuduğu eşidilir, təhsilalanlar öz kitablarında eyni zamanda oxumağa, izləməyə başlayırlar. Audio oxu zamanı elə kitab və ya audiomətn seçilməlidir ki, səlis oxucu hər dəqiqə 80-100 söz oxusun və bu dilöyrənənlər tərəfindən eşidilsin. Bu zaman musiqi və ya əlavə səs effektləri olmamalıdır. Əvvəlcə dilöyrənənlər səslənəni sözbəsöz öz kitablarında izləməlidirlər. Növbəti mərhələdə maqnitofonda səsləndirilənlə birgə oxumalıdırlar. Bu isə artıq təhsilalanlar bunu maqnitofonun köməyi olmadan etmək imkanına nail olmalarına qədər davam etməlidir.

Tərəf müqabili ilə oxu da maraq doğurur. Bu zaman dilöyrənənlər tərəfdaşları ilə cüt-cüt bir-birinə ucadan oxuyurlar. Tərəf müqabili ilə oxuda daha çox cütlər nəzərdə tutulur. Daha yaxşı səlis oxumaq qabiliyyətinə malik oxucu nümunə kimi seçilir və birinci səhifəni və ya paraqrafı oxumağa başlayır. Daha sonra bir qədər zəif olan ucadan eyni mətni oxuyur. Güclü təhsilalanlar sözlərin tanınmasında köməklik göstərir və fidbəki həyata keçirirlər, bir qədər zəif olanları həvəsləndirirlər. Zəif olan dilöyrənənlər müstəqil və rəvan oxuyana qədər bu proses davam edir. Tərəfdaşla olan oxunun güclü və ya zəif tərəflə həyata keçirilməsi vacib və əsas deyil. Tərəf müqabili ilə oxunun digər bir formasında eyni səviyyədə olan təhsilalanlar müəllimin nəzarəti altında cütlərə oxuyur və tapşırıqlar alırlar. Bərabər qabiliyyətə malik iki oxucu təkrar oxumanı təcrübədən keçirə bilirlər. Bunu onlar müəllim oxuduqdan sonra etməyə başlayırlar.

Digər biri *Oxucuların teatrı* adlanır. Burada təhsilalanlar özlərinəməxsus ifalar edirlər. Dialoqlarla zəngin parçalar seçirlər. Onlar müəyyən obrazları ifa edirlər. Əsas və vacib, lazımi məlumatları paylaşırlar. Oxucu teatrı onları legitim səbəb kimi oxumağa təhrik edir, rəvanlığı təcrübədən keçirməyə sövq edir. Oxucu teatrı eyni zamanda kooperativ interaksiya yaradır. Oxu tapşırıqlarını həyata keçirir.

Çalışmaların tərtibi də bu işi faydalı edir. Aşağıda çalışma nümunələri təqdim edirik.

Exercises.

Taxonomy of integration:

1. State what kind of integration network is involved, say the reasons, support your idea.

a) John is Kelly's cousin;
b) Jacques Chirac was President of France;
c) he is digging his own grave.

2. Explain the characteristic features of networks.

Metaphorical blends:

3. List a criteria that make a blend metaphorical.
4. Analyse the following context according to the compression, taking into account a taxanomy of vital relations and their compressions. Say what kind of compression was used?

/I spent my green years very hardworking. In 1992 I become a student. In 1999 I got a master degree. In 2005 I got married// (Yaşıl illərimi çox çalışqanlıqla keçirmişəm. 1992-ci ildə tələbə oldum. 1999-cu ildə magistr dərəcəsi aldım. 2005-ci ildə ailə qurdum).

a. Say about the difference between context and text.

5. List the components of conceptual integration networks.
6. What is backward projection? Give examples and support your idea.
7. Choose an example taking into account a taxanomy of vital relations and one of their compressions "change".

- *"An ugly girl has become a wonderful lady" (Çirkin qız gözəl xanım olub);.*
- *"You're singing your own song" (Öz mahnınızı oxuyursunuz);*
- *"They are coming here soon" (Tezliklə bura gələcəklər);*
- *"You are talking emotionally" (Emosional danışıqsınız);*
- *"She is very good mother" (O, çox yaxşı anadır).*

8. Give some examples about uniquennes.
9. Which kind of network relate the sentence " *You're digging your own grave* too?
10. Explain the difference.
- *"The teacher is waiting for you"*
- *"You are waiting for the teacher"*
11. At what levels students could or should be introduced to conceptual integration? Give your reasons and support your choices.
12. What is input flooding ?
13. What is the differences between input flooding and input processing?
14. What is enhancing the input?
15. What is analogy?
16. Give examples and define the analogues.

Konseptual inteqrasiya məsələsinin mətnin başa düşülməsində, anlanılmasında oynadığı rol əvəzedilməzdir. Məhz bu əhəmiyyətinə görə qeyd olunan məsələyə zaman-zaman müraciət olunması onun aktuallığını şərtləndirir.

İstifadə edilmiş ədəbiyyat

1. Fauconnier, G. The way we think. Conceptual blending and the mind hidden complexities. / G.Fauconnier, M.Turner. – NY.: Basic Books, – 2002. – 347 p.
2. Fauconnier, G., Turner, M. Conceptual Integration Networks / G. Fauconnier, M. Turner // Cognitive Science. –1998. – Vol. 22(2). – P. 133-187.
3. Minsky, M. A Frame work for representing knowledge. / In Patrick Henry Winston (ed). The psychology of computer Wision. Megrov – Hill. / M.Minsky. – New York (USA), – 1975. – p.110-212.

Açar sözlər: konseptual inteqrasiya,dil, mətn, input
Key words: conceptual integration, language, text, input
Ключевые слова: концептуальная интеграция, язык, текст, ввод

The role of conceptual integration in reading comprehension in the educational process

Summary

The article deals with the problem of understanding English-language texts difficulties and conceptual integration in overcoming these difficulties is to clarify the role it plays. While analyzing great attention was given to the facts taken from the literature and some practice exercises were used. By studying the results of the article, language teachers will be aware of the problems that students are more likely to encounter and the strategies used to overcome those problems.

Роль концептуальной интеграции в понимании прочитанного в образовательном процессе

Резюме

В статье рассматривается проблема понимания трудностей англоязычных текстов и концептуальной интеграции в преодолении этих трудностей с целью выяснения роли, которую они играют. При анализе большое внимание было уделено фактам, взятым из литературы и были использованы некоторые практические упражнения. Изучая результаты статьи, преподаватели языка будут знать о проблемах, с которыми чаще всего сталкиваются учащиеся, и о стратегиях, используемых для преодоления этих проблем.

Rəyçi: dos. S.Abbasova

==========

Yığılmağa verilmişdir: 12.02.24 Çapa imzalanmışdır: 28.03.24 Şəadətnamə № 27
Lisenziya: Seriya AB № 022471. Tiraji 1000. Qiyməti pulsuz.